*MAQSUD HACIYEV*

# DİPLOMATİK PROTOKOL VƏ XARİCİ ƏLAQƏLƏR

***Diplomatın stolüstü kitabı***

Bakı – MÜTƏRCİM – 2007

Rəyçilər;

***H,N. RZAYEV***

***tarix el/nhri namizədi, Bakı Avrasiya Universiteti beynəlxalq münasibətlər kafedrasının professoru***

***M,M. ƏSGƏROV***

***filologiya elmləri namizədi, professor***

Son sözün müəllifi:

***LO.QUÜYEV***

***Milli Aviasiya Akademiyası hüquqşünaslıq kafedrasının müdiri hüquq elmləri doktoru, professor***

Kompüter tərtibatçısı:

Nərgiz Hacıyeva

Hacıyev Maqsud İbrahim oğlu. Diplomatik protokol və xarici əlaqələr Diplomatın stolüstü kitabı. - Bakı: Mütərcim, 2007. - 632 səh.

**Diplomalik protokolun müxtəlif məsələlərinə, xarici əlaqələrə, beynəlxalq müna* sibətlər, diplomatik yazışma, diplomalik etiket, beynəlxalq münasibətlər tarixi və no- /.əriyyə.si, beynəlxalq müqavilələr forması, beynəlxalq təşkilatlar, Azərbaycanın xarici siyasəti və s. həsr olunmuş bu stolüstü kitab əsasən hamin mövzulara dair mühazirələrə əlavə dərs vəsaiti kimi nəzərdə tutulmuşdur. Kitab şübhəsiz həm də gələcək diplomatlar, işgüzar şəxslər, xarici əlaqələrlə maraqlananlar, ümumiyyətlə geniş oxucu kütləsi üçün də maraqlı ola bilər. Kitab həmin fənlərə dair mühazirələr dinləyən bir sıra ali məktəb tələbələri və bu fənlərdən dərs deyən müəllimlər üçün də əlavə məlumat mənbəyi kimi faydalıdır. Müxtəlif qaynaqlar əsasında yazılmış bu stolüstü kitab Azərbaycanın on yeni xarici əlaqələrinə dair materiallar və faktlarla da zəngindir.**

**0801000000 _**
**H--------63-07**

**© Mütərcim, 2007**

*Azərbaycanlı olması ih daim fəxr etmiş iki əsrin şöhrptli diplomatif dövlətçiliyimizin banisi^ əbədi və ulu öndərimiz Heydər Əliyevin unudulmaz xatirəsinə ithaf edirəm.*

**Müəllif**

# MÜƏLLIFDƏN

Müasir beynəlxalq münasibətlər beynəlxalq əlaqələrin müxtəlif formaları ilə yerinə yetirilir. Bu əlaqələri yerinə yetirməkdə diplomatik protokol mühüm rol oynayır. Diplomatik xidmətə kömək edən diplomatik protokol beynəlxalq hüququn mühüm tərkib hissəsidir və ona görə də hər bir ölkənin diplomatik fəaliyyəti beynəlxalq hüquqi normalarla, sazişlər və konvensiyalarla tənzimlənir. Diplomatik əlaqələr diplomatlar vasitəsilə yerinə yetirilir. Diplomat sənəti şərəfli və cəlbedicidir. Özünəməxsus peşə incəlikləri ilə seçilən diplomat fəaliyyəti səfərlər, təmtəraqlı qəbullar, yadda qalan görüşlərlə başqa fəaliyyət növlərindən fərqlənir. Dövlətin xüsusi fəaliyyət növü olan diplomatik fəaliyyətin əsas funksiyası hər bir ölkənin başqa ölkələrlə siyasi, iqtisadi, mədəni və s. əlaqələrini yaratmağa, onu qoruyub saxlamaqa və bu əlaqələri öz dövlətinin, son nəticədə isə öz xalqının mənafelərinə uyğun olaraq daha da inkişaf etdirməyə xidmət edir. Xalqlar və dövlətlərarası bu məqsəd və vəzifələrə çatmağ və ölkənin xarici əlaqələrində normal şərait yaratmaq işində isə diplomatik protokolun rolu əvəzsizdir. Dövlət fəaliyyətinin mühüm bir növünü təmsil edən diplomatiyanın və diplomatik xidmətin rolu artdığı müasir dövrümüzdə diplomatik protokol öz aktuallığı ilə fərqlənir.

İnsan cəmiyyətinin inkişaf tarixində dövlətin xarici münasibət məsələləri, onun mühüm vasitəsi-diplomatiya hər zaman görkəmli yer tutmuşdur. Elə buna görə də diplomatiyanın yaranması və

inkişaf tarixi, ən gədim dövrlərdə dövlətlər arasındakı xarici əlaqələrin ilkin formaları haqqında məlumatlar da bugünkü diplomatik münasibətlər elmi üçün də maraqlıdır. Çünki, elə bu ilkin tayfalar və ibtidai ölkələr arasındakı münasibətlərin tarixi yolu əsasında müasir beynəlxalq münasibətlər və onları yaradan şərtlər formalaşmışdır. Blə o dövrdən bu ilkin münasibətlərin ibtidai protokol qaydaları da yaranmış və inkişaf etmişdir.

Azərbaycan dövlətinin, onun hökmdarlarının başqa dövlətlər və onların başçıları ilə diplomatik əlaqələrinin nümunələrinə ən qədimlərdən rast gəlmək olur. Bradan əvvəl midiyalı Tomrislə İran hökmdarı 1 Dara, Bərdə hökmdarı Nüşabə ilə Makedoniyalı İskəndərin yeni eradan əvvəl Nizamidə təsvir olunan rəsmi qəbulu- görüşü, "t)ədə Qorqud" boylarında müdrik Dədə Qorqudun iyidləri yanında oturdması, Qazan xanın başqa xanları və iyidləri qəbul etməsi, onlarla rabitəsi ilk diplomatik halların yaxşı nümunəsidir.

Qədim Romada "diploma" iki qatlanan taxta parçasına (onun arasında mühüm sənədlər saxlanardı) deyilərdi: əyalətə və ya xarici ölkəyə göndərilən rəsmi şəxs senatın ona verdiyi dövlət sənədini-zəmanət və ya etimadnaməni onun içində saxlayırdı.

***i*** Bizim dilimizdə diplomat sözü yaxşı mənada - məharət, bacarıq, pis mənada isə - hiyləgərlik, kələkbazlıq mənalarını ifadə edir. İngilis diplomatı Q. Nikolsona görə isə "diplomatiya danışıqlar vasitəsilə beynəlxalq münasibətlərin aparıİmasıdir. ...Bu münasibətlərin tənzimlənməsinə kömək edən metodlar səfirlər və diplomatik nümayəndələr tərəfindən yerinə yetirilir..." Hələ XIX əsrdə fransız diplomatı Q. Qarden "Diplomatiyanın tam kursu" kitabında yazırdı: "Diplomatiya - bu terminin geniş mənasında xarici münasibətlər və ya xarici işlər haqqında elmdir, daha dəqiq mənada - bu, danışıqlar elmi və ya danışıqlar aparmaq məharətidir".

jfbıla əsrlər Azərbaycan hökmdarları və xüsusilə Səfəvi padşahları göstərdilər ki, onlar diplomatiyada çox mahirdirlər.

XV əsrin ortalarından Azərbaycanın Avropa ölkələri ilə qarşılıqlı surətdə yaxınlaşmasında xarici siyasətin rolu getdikcə artır. Ağqoyunlular xristian dünyası ilə-yunan dövləti Traneziyadla

ilk siyasi əlaqələr yaradırlar. Azərbaycan rrapezıınd sarayı vasitəsilə Papalıq, Kipr krallığı, Rodos dövləti, Macarıstan, Albaniya, o cümlədən qüdrətli dəniz dövləti olan Venesiya ilə siyasi əlaqələrə nail olur. Azərbaycanlı ağqoyunlular özünün məşhur diplomatı Həsən Azanla Venesiyada səfir kimi təmsil olunmuşduv' XV əsrin 60-70-ci illərində Ağqoyunlu hökmdarı Uzun Həsən Azərbaycanın təhlükəsizliyini Avropa dövlətləri ilə yaxınlıqda görürdü. Ona görə də o, uzaqgörənliklə Venesiya, Böyük Moskva knyazlığı. Qızıl Orda, Polşa, Avstriya, Macarıstan, Çexiya, Almaniya, Papalıq, Burqundiya, Neapol krallığı, Kipr, Qaraman bəyliyi, Misir, Hindistan və bir çox dövlətlərlə diplomatik əlaqələr yaradır.

ı) Uzun Həsənin anası Sara Xatun və arvadı Dəspinə xatunun diplomatik məharəti məşhurdur.-'

Sonralar Səfəvilərlə də ilk siyasi əlaqəni də Venesiya yaratdı. Səfəvilər dövlətinin Avropa üçün əhəmiyyətini aşağıdakı fakt çox yaxşı əks etdirir: Roma papası, 1503-cü ildə hakimiyyətə gələn II Yuli Almaniya, Fransa, İspaniya, Portuqaliya, Skandinaviya dövlətləri başçılarına məktubda xüsusi qeyd edirdi ki, "Səfəvilər dövlətinin yaranması və Şah İsmayılın hərbi nailiyyətləri Allah tərəfindən Xristiyan dünyası üçün yaradılan əlverişli andır". Azərbaycan diplomatları o dövrdə böyük şöhrətə malik idilər. 1603- cü ildə mart ayında Səfəvi dövlətinin 11 nəfərdən ibarət diplomatik nümayəndəsi - Fəthi bəyin başçılıq etdiyi yeni səfirlik Venesiyada böyük təntənə ilə rəsmi protokolla qəbul olunur. Venesiya hökmdarlarının əmri ilə o dövrün məşhur rəssamı Qabrilla Kaliri bu Azərbaycan səfirliyi diplomatlarının rəsmi qarşılanma mərasimini böyük bir tabloda əks etdirir.

^XVIII əsrin sonlarına qədər Qərbi Avropada Azərbaycan diplomatiyası mühüm rol oynayırdı.

(fj^zərbaycan diplomatiyası sonralar - Azərbaycan Demokratik Respublikası dövründə bir daha parlayp^. 1918-ci ilin mayında Milli Şuranın təsdiq etdiyi ilk hökümətdə ilk xarici işlər naziri M. H.

**' l ikrol Sadixov. Diplomatiya və diplomatik xidmət. Bakı. 199.3. səh. 15**

Hacınski oldu. 1918-ci ii iyunun 4-də Azərbaycan - 'I'ürkiyə dostluq müqaviləsini o da imzalamışdı. ADR dövründəki ilk diplomatlarımız olan H. Yusivbəyli, A. Ağayev, M. Rəfiyev 1918-ci ilin noyabrında ingilis generalı Tomsonla müzakirələrdə böyük məharət göstərirlər. Daha sonralar ADR-in xarici işlər naziri F. X. Xoyski, görkəmli diplomatlar Ə. M. Topçubaşev, C. Hacıbəyli, M.Y. Cəfərov, X. Xasməmmədov və başqaları Azərbaycan diplomatiya tarixində şərəfli ad qoymuşlar. '

Ölkənin xarici siyasətini həyata keçirən xarici əlaqələr orqanlarıdır. Xarici əlaqə orqanları fəaliyyət növünə görə iki qrupa bölünür: xarici əlaqələrin mərkəzi orqanları və xarici orqanları. Ölkədə bu əlaqələri yerinə yetirən mərkəz Xarici İşlər Nazirliyidir, onun öz strukturu var. O, xarici iqtisadi əlaqələr komitəsinin iqtisadiyyat nazirliyi beynəlxalq iqtisadi və ticarət əlaqələrinə, beynəlxalq turizm idarəsinə, beynəlxalq Hava Yolları Konserninə və s. istiqamət verir. Xaricdə bu siyasəti bizim səfirlərimiz, xarici əlaqələrlə məşqul olan başqa orqanlarımız (onlar həmin ölkədə olmuş səfirə tabedirlər)yerinə yetirirlər.

- Müasir Azərbaycan diplomatiyasında uzun illər ABŞ-da səfir olmuş Hafiz Paşayev, Böyük Britaniya və Şimali İrlandiya krallığında, Norveç, İsveç krallıqlarında və s. səfir işləmiş Mahmud Məmmədquliyev, ərəb ölkələrində Azərbaycam təmsil edən səfir Elman Araslı və başqaları öz bacarıqları ilə Azərbaycan diplomatiyasına uğur gətirmişlər/

Azərbaycan prezidenti H. Əliyevin uğurlu xarici siyasəti nəticəsində respublikamız bir sıra beynəlxalq təşkilatlara tam hüquqlu üzv kimi daxil olmuş^ qıssa müddətdə BMT-yə, Avropada Təhlükəsizlik və Əmədaşlıq Təşkilatına, İslam Konfransı Təşkilatına, İqtisadi Əməkdaşlıq Təşkilatına, Beynəlxalq İnkişaf və Yenidənqurma Bankına, İslam İnkişaf Bankına və s. kimi nüfuzlu beynəlxalq və regional təşkilatlara üzv seçilmişdir;/ Azərbaycan “Diplomatik əlaqələr haqqında” 1961-ci il 18 apreldə Vyanada BMT-ın

**l'ikrət Sadixov. Diplomatiya vn diplomatik xidmət. Bak». 1993. .s,əh.23-24**

Konfransında qəbul edilmiş Vyana Konvensiyasına qoşulmuş, bir sıra ölkələrdə səfirliklərini, konsulluqlarım açmışdır. Bu siyasi orqanlarda milli diplomatlarımız uğurla işləyirlər. >

^ jBeynəlxalq münasibətlərdə son illərdə baş verən keyfiyyət dəyfşiklikləri Azərbaycan Respublikasının xarici siyasətindən də yan keçməmişdir. Bu da tamamilə qanunauyğundur. Çünki doğma Azərbaycanımız dünyanın fəal diplomatik fəaliyyətinin ön cərgələrində yerləşir və dünya siyasətinin diqqət mərkəzindədir: Öz uğurlu siyasi, sürətli iqtisadi və mədəni inkişaf tempi ilə ölkəmiz dünya siyasi meydanının mərkəzində yerləşməyə bilməzdi./Son illər Azərbaycan paytaxtında xarici səfirliklərin və nüfuzlu beynəlxalq təşkilatların nümayəndəliklərinin artması buna əyani sübutdup. Ulu öndərimiz Heydəe Əliyevin yenilməz xarici siyasətini şərəflə davam etdirən prezident İlham Əliyevin təşbbüsü ilə bir sıra dünya əhəmiyyətli mötəbər tədbirlər Bakıda keçirilmişdir.' "Əsrin müqaviləsi" həyata keçmiş, enerji və təhlükəsizlik, terrorizmə qarşı mübarizə, beynəlxalq ticarət yolları və s. məsələlərdə Azərbaycan dünya siyasətinin diqqət mərkəzinə çevrilmişdir.

Azərbaycanın beynəlxalq münasibətlərdə əlaqələrinin və müvəffəqiyyətlərinin getdikcə artması, diplomatik və işgüzar kadrlara ehtiyacın daha da yüksəlməsi uzun illər xarici ölkələrdə tərcüməçi, sonra 1979-1888-ci illərdə bəzi fasilələrlə Əfqanıstanda Sovet səfirliyində ikinci katib vəzifəsində çalışmağım məni gələcək diplomatlarımız üçün bir stolüstü kitab hazırlamağa şövq etdi. On illərlə bir sıra ali məktəblərimizdə tədris etdiyim "Diplomatik protokol", "Diplomatik yazışma", "Diplomatik etiket və nitq", "Diplomatik portret", "Beynəlxalq münasibətlər tarixi", "Beynəlxalq münasibətlər nəzəriyyəsi", "Beynəlxalq müqavilələrin bağlanması prosesi", "Azərbaycanın xarici siyasəti" və sair fənnlərin mühazirə və məşqələlərində tələbələrimizin bir sıra suallara daha ətraflı cavab tapmaları üçün toplu halında "Diplomatik protokol və xarici əlaqələr" stolüstü məlumat kitabını ənsəyə gətirməyi zəruri he.sab elədim.

**' Maqsud Hacıyev. Yetmiş ilin yarpaqları. Bakı, 2005. səh 294**

Kitaba mühazirələrimdəki bir sıra vacib mətləbləri, həm- müəllifi olduğum “Diplomatiya: ensiklopedik lüğət” (Bakı, DipU (hazırki IMAU), “Diplomaf’nəşriyyatı, 2005) kitabında çap olunmuş məqalələrimi, həmkarlarımın həmin kitabdakı bəzi maraqlı yazılarından parçaları, prof. Fikrət Sadixovun “Diplomatik fəaliyyət və protokol” (Bakı, 1993), Çingiz Məmmədəlizadənin “Diplomatik xidmət və diplomatik protokolun əsasları” (Bakı, 2001, rus dilində), yenə prof. Fikrət Sadixovun olquqca faydalı və son kitabı olan “Azərbaycan diplomatik xidməti; Siyasi prioritetlər, formalaşma mərhələləri” (Bakı, 2004, rus dilində), həmçinin Azərbaycan diplomatiyası, ölkəmizin xarici siyasətinin ən son dövrlərinə dair (2000-2006 illər) bir neçə məqaləmdən ibarət mətnləri, diplomatik protokol və diplomatik xidmətə dair bir sıra beynəlxalq konvensiyaları, Azərbaycan Respublikasının bu məsələlərə dair bir sıra qanunlarını və s. bir yerə toplayaraq diplomatik xidmət və diplomatik protokol, beynəlxalq münasibətlər, xarici beynəlxalq münasibətlər nəzəriyyəsi, beynəlxalq müqavilələrin bağlanması forması və s. məsələlərlə maraqlanan oxucularımıza təqdim etməyi lazım bildim. İstifadəni asanlaşdırmaq üçün diplomatik protokola aid bu stolüstü kitabdakı əsas terminləri əsasən əlifba sırası ilə verməyi vacib sandım. Kitabdakı əlavələr hissəsinin də gələcək diplomatlar və xarici fəaliyyətlə əlaqədar olan işgüzar insanlar üçün maraqlı olacağını güman edirəm. Bu hissədə müəllifin diplomatik protokol və xarici əlaqələr və onun aktual problemlərinə dair bir neçə məqaləsi, dövlətin xarici əlaqələr orqanlarında işləməyə hazırlaşanlar üçün test sualları və s. verilmişdir. Xeyrxah məqsədli köməyə görə əvvəlcədən təşəkkür edirəm.

***Maqsud Hacıyev***

***Bakı, fevral 2007***

# I BOLMƏ

# DİPLOMATİK PROTOKOL VƏ AZƏRBAYCANIN MÜASİR XARİCİ SİYASƏTİ

Müstəqil Azərbaycanın xarici siyasətini həyata keçirən müasir diplomat bu siyasətin əsas vəzifələri haqqında geniş məlumata malik olmalıdır və yerləşdiyi ölkədə bunları təbliq etməlidir.

30. VIII.1991 ildə Azərbaycan Respublikası Ali Sovetinin növbədənkanar sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə, 18.X.1991-də isə Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul etdi. 30.XII.1991 ildə "Azərbaycan Respublikasının müstəqilliyi haqqında" Konstitusiya aktı referendum yolu ilə Azərbaycan xalqı tərəfindən təsdiq edildi.

Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdə mövqeyini aşağıdakı prinsiplər müəyyən edir:

1. Beynəlxalq hüququn subyekti olan dövlətlərin suveren bərabərlik prinsipinə riayət etmək;
2. Beynəlxalq münasibətlərdə zor iştətməkdən imtina etmək;
3. Başqa ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşmaq;
4. Dünya birliyi tərəfindən tanınmış dövlət sərhədlərinin toxunulmazlığına riayət etmək;
5. Beynəlxalq münaqişələrin və mübahisəli məsələlərin dinc yolla, diplomatik vasitələrlə həllinə çalışmaq;
6. Beynəlxalq sənədlərlə qəbul edilmiş təəhhüdlərə sadiq qalmaq;
7. Vahid dünya bazarında ədalətli qiymət sisteminin fonualaşmasına kömək etmək;
8. Başqa ölkələrin daxili işlərinə qarışmamaq;

9. İnsan hüquqlarına hörmət etmək;

10. Ümumbəşəri dəyərlərin qorunmasında iştirak etmək;

11. Beynəlxalq münasibətlərin əsas problemlərinin həllində yaxından iştirak etmək;

12. Qarşılıqlı faydalanma prinsipi əsasında səmərəli beynəlxalq texniki iqtisadi əməkdaşlıq etmək.

Azərbaycan Respublikasının xarici siyasətinin strategiyası və taktiki istiqamətləri məhz bu prinsiplər əsasında qurulur və inkişaf edir.

Azərbaycan Respublikası xalqımızın müstəqillik uğrunda mübarizəsində, istiqlalımızn qorunmasında və əbədi olmasında ’ ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri vardır. Azərbaycanda müstəqil dövlət quruculuğunun Heydər Əliyev mərhələsi elmi və nəzəri cəhətdən dərin araşdırmalar tələb edir. Bunu bir neçə mərhələyə bölmək olar:

**Birinci mərhələ: Müstəqilliyə gedən yol.** Müstəqil dövlətin vətəndaşı olmaq hər bir insanın arzusudur. Lakin bu arzu heç də həmişə, həmin tarixi anda insanlara nəsib olmayıb. Tarix sübut elmişdir ki, insanların müstəqil dövlətdə yaşamaq arzusu yalnız bütöv xalqın suveren hüququ kimi reallaşdıqda mümkündür. Digər xalqlar kimi, Azərbaycan xalqı da daimi öz qəlbində müstəqil yaşamaq, müstəqil dövlət vətəndaşı olmaq ümidini yaşatmışdır.

Azərbaycan öz tarixinin bütün mərhələlərində müstəqil dövlət quruculuğu uğrunda mübarizə aparmışdır. Müəyyən vaxtlarda bu mübarizə nəticəsində müstəqil dövlət kimi milli- mənəvi sərvətinə sahib çıxa bilmişdir.

Müasir dünyanın siyasi xəritəsində mövcud olan dövlətlərin müstəqillik tarixi müxtəlifdir. Dövlətçilik ənənəsi qədim olan elə xalqlar da vardır ki, bütün mövcud olduğu tarix boyu müstəqillik uğrunda mübarizə aparmışdır. Azərbaycanda da müstəqil dövlət quruculuğu prosesinin kökləri qədimdir. Müstəqilliyə gedən yol isə çox çətin və keşməkəşlidir.

XIX əsrin əvvəllərində şox çətin şəraitdə, 1918-ci il may

**İOliyev 11.0, Müslnqilliyimiz əbədidir. I kitab. Bakı, 1997.**

ayının 28-do Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Lakin Şərqdə ilk müstəqil, demokratik Azərbaycan dövlətinin ömrü cəmi 23 ay sürdü.

1991-ci il oktyabrın 18-də "Azərbaycanın Dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının qəbul edilməsi ilə ölkəmiz dövlət müstəqilliyini bərpa etdi. Lakin dövlət müstəqilliyimizin bərpasına qədərki dövrdə, müstəqillik haqqında düşünmək belə yasaq olduğu zamanlarda, Vətənə güclü tellərlə bağlı olan, onu Özündən çox istəyən şəxsiyyətlər bu müqəddəs ideyanı yaşada bilmişdilər. Hələ keçmiş Sovet İttifaqı dövründə, 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev qəlbində yaşatdığı müstəqillik ideyalarını zaman-zaman reallaşdırmağa başlamışdı. Bəzi çox mühüm məqamları yada salaq.

1977-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasında ilk dəfə olaraq Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, o dövr üçün həddən artıq cəsarətli, eyni zamanda çətin addım idi. Ümummilli liderimiz bu addımı atdı və məqsədinə nail oldu.

Respublikaların büdcəsi İttifaq büdcəsindən asılı idi. Sovet siyasəti müttəfiq respublikaların iqtisadiyyatını mərkəzdən asılı vəziyyətdə saxlamaq məqsədilə İttifaq əhəmiyyətli layihələri periferiyada-yəni Rusiyaya birləşdirilmiş respublikalarda yerləşdirmişdi və mümkün qədər belə layihələrin reallaşdın iması na yol vermirdi. Lakin Heydər Əliyev şəxsi nüfuzu sahəsində belə layihələrdən bir neçəsinin Azərbaycana və o cümlədən Gəncəyə gətirilməsinə, həyata keçirilməsinə nail ola bildi. Məsələn, Bakıda Məişət Kondisionerləri zavodunun, Gəncədə Büllur, çini qablar. Maşınqayırma, Avtomobil və başqa zavodların tikilməsi Azərbaycanda reallaşan layihələrdəndir.

Digər tərəfdən Azərbaycanda milli hərbi kadrların hazırlanması işinə başlamaq, çağırış yaşlı gənclərimizdə orduya məhəbbət keyfiyyətlərini formalaşdırmaq məqsədilə mərkəzin təkidli etirazına baxmayaraq Naxçıvanski adına hərbi məktəbin Bakıda açılması mühüm hadisə idi və gələcəyə hesablanmışdı.

Ölkə İqtisadiyyatının hərtərəfli inkişafı üçün yüksək ixtisaslı

milii kadrların hazırlanması məqsədilə ali məktəblərdə yeni ixtisasların açılması və yeni ali məktəblərin yaradılması yalnız Heydər Əliyev uzaqgörənliyi sayəsində mümkün oldu. Elə bu siyasətin davamı kimi, nadir ixtisaslar üzrə mütəxəssislərin hazırlanması məqsədilə keçmiş ittifaqın və dünyanın ən nüfuzlu ali məktəblərinə azərbaycanlı gənclərin göndərilməsi, təhsil xərclərinin dövlət qayğısına götürülməsi kimi məsələlər də ümummilli liderimizin təcrübəsi artıq ənənəyə çevirilmişdi və bu gön də davam etdirilir.

Gəncədə Texnologiya İnstitutunun yaradılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi-pedaqoji kadrlarla təmin edilməsi məsələləri də məhz ulu öndərimizin xidmətlərindəndir.

Ümummilli liderimizin qəlbində daim yaşayan müstəqillik arzusu hətta rəhbərlərindən biri olduğu SSRİ kimi super dövlətin ən qüvvətli vaxtlarında belə tədricən, mərhələ-mərhələ həyata keçirildi. Azərbaycan müstəqillik əldə etdikdən sonra isə dahi rəhbərin müstəqillik haqqında istəyi, planları daha geniş miqyasda reallaşdı.

1993- cü il iyun hadisələri zamanı müstəqilliyimizi itirmək təhlükəsi ilə üzləşən xalq üzünü özünün böyük oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyevə tutdu. Zəngin dövlətçilik təcrübəsi. Vətəninə, xalqına, millətinə məhəbbətinin gücü ümummilli liderə Azərbaycanın dövlət müstəqilliyini qorumaq kimi tarixin onun üzərinə qoyduğu missiyanı uğurla həyata keçirmək imkanı verdi. Ulu öndər son dərəcə ağır və məsuliyyətli yükün altına girdi və bu yolda ilk uğurlu addımını Gəncədə atdı. Heç bir silah işlətmədən xalqına inanan və özünün gücünü bilən Heydər Əliyev Azərbaycam dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas edə bildi. Və təkcə bu tarixi gedişi ilə sübut etdi ki, həqiqətən Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir.

İkinci mərhələ: Siyasi partiya quruculuğu. Ümummilli lider Heydər Əliyev demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğunda siyasi partiyanın rolunu qiymətləndirdiyi üçün uzaqgörənliklə hakimiyyətdə olmadığı dövrdə 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasını yaratdı.

Demokratiyanın konkret ölkədə səviyyəsi məsələsinə ümummilli lider münasibətini belə bildirmişdir: “Demokratiya daimi inkişafda, daimi hərəkətdə olan prosesdir. Bu bir mərhələdən o birisinə qədər təkmilləşmə yolu ilə getməlidir. Bu təkmilləşmə təkamül yolu ilə olmalıdır”.

Demokratiyanın inkişaf yolu isə azad və ədalətli seçkilərdən keçir. Bu, cəmiyyətin demokratikləşmə səviyyəsini göstərir. Seçkilərin demokratik və şəffav keçməsi isə cəmiyyətdə iqtidarın seçkiyə münasibətindən və xalq arasında siyasi partiyaların nüfuzundan asılıdır. Bu nöqtəyi-nəzərdən yaradıcısı ümummilli lider Heydər Əliyev olan YAP-ın müstəqil Azərbaycan Respublikasında demokratik cəmiyyət quruculuğunda xidmətləri şübhəsizdir.

Respublikada böyük nüfuza malik, ümumxalq partiyasına çevrilmiş YAP möhtərəm Prezidentimiz İlham Əliyevin etibar etdiyi, arxalandığı siyasi qüvvədir və dövlət başçısının həyata keçirdiyi siyasətin təbliğində, dəstəklənməsində əsas qüvvəyə çevrilmişdir. Məqsədimiz ümummilli liderimiz Heydər Əliyev kursunu dönmədən, yüksək templə davam etdirməkdir. Biz hamımız Azərbaycan xalqı olaraq bu ali ideya ilə ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşərək, qüdrətli, güclü, müstəqil Azərbaycan uğrunda səfərbər olmalıyıq.

Üçüncü mərhələ: Müstəqilliyin qorunması. Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlət müstəqilliy ciddi təhlükələrlə üzləşdi. Respublika daxilində hakimiyyət uğrunda mübarizə aparan qüvvələrlə Azərbaycanda sabitliyi və inkişafı istəməyən xarici qüvvələr birləşərək dövlət çevrilişi cəhdləri etdilər. 1993-cü il iyun böhranı və sonrakı dövlət çevrilişləri cəhdləri ümummilli liderin zəngin dövlətçilik, idarəçilik təcrübəsi, müdrikliyi sayəsində aradan qaldırıldı. Müstəqilliyin əldə edilməsi və qorunması haqda ümummilli liderimizin “Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanması, daimi, əbədi olması bundan da çətindir” fikri zaman keçdikdə öz dəyərini saxlayır.

Azərbaycanın dövlət müstəqilliyinin ciddi təhlükədə olduğunu

aşkar görən ümummilli liderimiz ardıcıl və cəsarətli, qəti addımlar atdı. İlk növbədə ölkə daxilində böhranlı vəziyyəti aradan qaldırmağa nail oldu və sabitliyi bərqərar etdi. Bütün qüvvələr müstəqilliyimizin və ərazi bütövlüyümüzün qorunmasına yönəldi. Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi istiqamətində regional və beynəlxalq təşkilatlar səviyyəsində mühüm qərar və qətnamələrin qəbul edilməsinə nail oldu.

Dördüncü mərhələ: Dövlətin xarici siyasəti. Ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi sülhsevər xarici siyasət sistemli, çoxsahəli olmaqla beynəlxalq miqyasda yeni tərəfdaş ölkələrin axtarılmasına, güclü iqtisadi və siyasi strukturlar sisteminin yaradılmasına, ümumilikdə respublikanın maraqlarına xidmət edirdi.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən biri xarici səfərləridir. Heydər Əliyev siyasətinin incəliyi ondadır ki, ölkənin xarici aləmində mövqeyini möhkəmlətmək üçün ilk xarici səfərlər dünyanın səkkiz güclü dövlətinə edilmiş və hər biri ilə ikitərəfli dostluq, əməkdaşlıq çərçivəsində mühüm əhəmiyyət kəsb edən müqavilələr imzalanmış və reallaşdırılmışdır.

1993- 2003-cü illər ərzində Azərbaycan Respublikasının Prezidenti kimi o, dünyanın 33 ölkəsinə 79 dəfə səfər edərək üst- üstə 2326 tədbirdə iştirak etmiş, 431 sənəd imzalanmışdır. Diplomatiyanın söykəndiyi mühüm konseptual məqam olan - "hər bir iqtisadi müqavilə eyni zamanda siyasi nəticələr verir" mülahizəsi Heydər Əliyev xarici siyasətində daha bariz təzahür edir.

Bu illər Azərbaycanın xarici siyasəti sahəsində əldə etdiyi nailiyyətlər ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu istiqamətdə aparılan gərgin işlərin nəticəsini aşağıdakı kimi ümumiləşdirmək olar:

a) ortaq sərhədimiz olan, ən yaxın qonşu dövlətlərlə siyasi, iqtisadi və ikitərəfli əməkdaşlıqlar bərpa edildi və yaradıldı.

b) dünya siyasətinə təsir etmək nüfuzunda olan super dövlətlərlə, o cümlədən ABŞ, Çin, Rusiya, Fransa, İngiltərə və s.

dövlətlərlə ikitərəfli, bərabərhüquqlu əməkdaşlıq münasibətləri yaradıldı.

c) dünyanın hesablaşdığı beynəlxalq və regional təşkilatlara və birliklərə respublikamızın üzvlük məsələsi müsbət həllini tapdı.

d) dünya dövlətləri arasında və beynəlxalq aləmdə Azərbaycan Respublikasının müsbət imici formalaşdırıldı.

e) beynəlxalq terrorçuluğa qarşı mübarizəyə qoşiılmaqla, ölkəmiz regionda daimi sülhün yaradılması təşəbbüsü ilə çıxış etdi.

Beşinci mərhələ: Dövlət quruculuğu və ölkədə qanunvericilik yakimiyyətinin yaradılması. Müstəqil Azərbay- can Respublikasının dövlət quruculuğu uzunmüddətli, həm də çətin bir prosesdir. Bu prosesin dövlətçilik, azərbaycançılıq mövqeyindən idarə edilməsi, ümumbəşəri dəyərlərlə inteqrasiyada davam etdirilməsi dahi Heydər Əliyev kimi şəxsiyyətin sayəsində qısa dövrdə reallaşdırıla bildi.

Ümummilli liderimizin müəllifliyi və rəhbərliyi ilə 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası referendum yolu ilə qəbul edildi. 1995-ci ildə yeni Konstitusiyanın tələbləri çərçivəsində müstəqil Azərbaycan Respublikasının ilk Milli Məclisinə seçkilər keçirildi və Respublikanın qanunvericilik bazası yaradıldı. 1998-ci ilin prezident, 1999-cu ilin bələdiyyə, 2000-ci ilin parlament seçkiləri demokratik və şəffaf keçirildi. 2003-cü ildə Azərbaycan Respublikasının mütərəqqi Seçki Məcəlləsi qəbul edildi və tariximizdə demokratiyanın təntənəsi günü kimi daxil olmuş 15 oktyabr 2003-cü ildə prezident seçkiləri keçirildi.

2005- ci ildə Azərbaycan Respublikasnın üçüncü çağırış Milli Məclisi demokratik dəyərlərə söykənən Seçki Məcəlləsi əsasında formalaşdırıldı. Artıq həm respublika daxilində, həm də kənarda hamı yaxşı bilir ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi və unitar dövlətdir və bu yoldan ölkəmizi döndərə biləcək heç bir qüvvə yoxdur.

Altıncı mərhələ: Qlkədə Milli Ordu quruculuğu. Müstəqilliyinin ilk illərində Azərbaycan Respublikası daxilindəki hərc- mərclik, qeyri-siyasi sabitlik şəraitində ölkədə ordu quruculuğu

kimi dövlət əhəmiyyətli bir iş nəzarətdən kanarda idi. Elə bunun nəticəsi idi ki, o vaxt sərhədlərimizin Ermənistan hərbi birləşmələri tərəfindən pozulmasının və ərazisinin bir hissəsinin zəbt edilməsinin qarşısını ala biləcək nizamlı ordu yaradıla bilmədi.

Lakin zəngin dövlətçilik təcrübəsinə malik Heydər Əliyevin ardıcıl, sistemli tədbirləri nəticəsində pərakəndə, ayrı-ayrı şəxsərin maraqlarına xidmət edən dəstələr ləğv və müstəqil Azərbaycan dövlətinin güclü, qüdrətli Milli Ordusu yaradıldı. Dünyanın inkişaf etmiş ölkələrinin maraq dairəsində olan Azərbaycanın sərhədlərini suda, quruda və havada qoruyan, xalqımızın rahat və təhlükəsiz yaşamasını təmin edən, işğal altında olan torpaqlarımızın hərb yolu ilə qaytarılmasına qadir olan Azərbaycan Milli Ordusu ilə fəxr etməyə dəyər.

**Yeddinci mərhələ: Ölkədə iqtisadi islahatların aparılması.** Müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikasının keçmiş SSRİ məkanında qurduğu iqtisadi münasibətlər pozulmuş, iqtisadiyyatın infrastukturu və maddi-texniki baza dağılmışdı. Azərbaycan iqtisadiyyatı tənəzzülə doğru gedirdi. İqtisadiyyatda tənəzzülün dayandırılması, yeni inkişaf mərhələsinə çıxarılması ağır və uzun müddətli keçid dövrü tələb edir. Ümummilli liderimizin "düşünülmüş siyasət dayanıqlı iqtisadiyyata xidmət edir" hikmətinə söykənən iqtisadi islahatları Azərbaycanın iqtisadiyyatında əsaslı dönüş və dayanıqlı inkişaf üçün zəmin yaratdı. İqtisadiyyatın hər sahəsində azad bazar münasibətlərinin tətbiq edilməsi, mütərəqqi idarəçilik üsullarından istifadə olunması sahibkarlığın inkişafına təkan verdi. İqtisadi islahatların özəyində aqrar və sənaye sahəsindəki islahatlar dururdu.

Torpaq onu becərənlərə verildi və aqrar İslahatlar aparıldı. Sahibkarlıq və özəlləşmə siyasəti həyata keçirildi. Respublikada stabil özəl sektor yaradıldı. Elə bunun nəticəsidir ki, 2005-ci ildə ümumi daxili məhsulun 75 % özəl sektorun payına düşüb.

Milli neft strategiyası uğurla həyata keçirildi. "Əsrin müqaviləsi" və Bakı-Tbilisi-Ceyhan neft kəməri reallaşdı. Ölkəyə xarici investisiyanın axını başladı. Qeyri neft sektorunun dinamik inkişafı

təmin edildi.

Xarici neft şirkətləri ilə səmərəli əməkdaşlıq qurmaq, ölkənin daxili maraqlarını maksimum təmin etmək, xarici siyasətdə mötəbər dayaq qazanmaq Heydər Əliyevin və onun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin gərgin əməyi və hünəri ilə mümkün olmuşdur.

Heydər Əliyev qüdrəti və müstəsna iradəsi ilə tarixi "İpək Yolu"nun yenidən bərpa edilməsi və reallaşdırılması, Şərq-Qərb enerji dəhlizinin şah damarı sayılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin əfsanədən reallığa çevrilməsi dünyanı heyran qoydu. Dövlət, Vətən, millət və bəşəriyyət qarşısında müstəsna xidmətləri Heydər Əliyevi ölməzlik zirvəsinə yüksəltdi.

**Səkkizinci mərhələ: Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursu ilə Müstəqil Azərbaycan Respublikasının inkişaf etdirilməsi.** Bu missiya Heydər Əliyev siyasi kursunu dönmədən həyata keçirən, yüksək liderlik keyfiyyətlərinə malik Azərbaycan Prezidenti İlham Əliyevin üzərinə düşüb. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətlənməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli Prezident fərmanının və "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2004-2008-ci illər) qəbul edilməsi ümummilli liderimiz' Heydər Əliyevin daimyaşar ideyalarının uğurla reallaşmasına bariz nümunədir. **Cənab İlham Əliyevin prezidentiliyi dövründə üç ildə (2003-2006) ölkədə 500 minə** yaxın yeni iş yerinin açılması, beynəlxalq aləmdə dövlətimizin nüfuzunun artması, insanlarımızın sosial həyat şəraitinin günbəgün yaxşılaşması müstəqil Azərbaycanın parlaq gələcəyə doğru inamlı yolda olduğunu bəyan edir.

Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətin, həyata keçirdiyi qlobal quruculuq, iqtisadi layihələrin nəticələri onun düzgün və səmərəli siyasi kursundan xəbər verir.

Ulu milli öndərimiz Heydər Əliyev siyasətinin davamı olaraq

**' Quliyev İ. O. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin banisidir. IvIAA- ıım Elmi Məcmuələri. Cild 6, №2, 2004.**

Azərbaycan Respublikasının müasir mərhələdə iqtisadi, sosyal, mədəni və s. sahələrdə sürətli inkişafı ölkənin siyasi cəbhədə, o cümlədən beynəlxalq münasibətlər sahəsində də fərəhləndirici uğurlara səbəb olmuşdur. Bu uğurların mərkəzində ölkənin daxili ictimai - siyasi sabitliyi durur. Hər bir ölkənin xarici siyasəti də onun möhkəm və sabit daxili durumunun inamlı davamıdır.

Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin 14 avqust 2006- cı il Müşavirəsindəki geniş və məzmunlu nitqində xarici siyasətimizin müxtəlif konseptual məsələlərindən, o cümlədən bu məsələdən bəhs edərkən göstərir ki, xarici siyasətin uğurlu olması onun daxili siyasətlə uzlaşmasından, və ya uyğunlaşdın İmasından çox asılıdır. Belə uyğunluq isə ölkəmizi hərtərəfli inkişaf etdirəcək, çox güclü regional dövlətə çevirəcəkdir.

Ölkənin sabit daxili vəziyyəti və yüksələn xətlə iqtisadi inkişafı nəinki təkcə xarici kapitalın və böyük invesisiyaların ölkə iqtisadiyyatına cəlb olunmasına səbəb olur, həm də bu vəziyyət ən nüfuzlu beynəlxalq təşkilatların və aparıcı dünya dövlətlərinin siyasi nümayəndəliklərlə Azərbaycanda təmsil olunmasına şərait yaradır. Respublikamızın yüksək sürətli inkişafı ölkəmizi dünyada gedən proseslərin uğurlu və fəal iştirakçısına çevirmişdir. Bu da düzgün və məqsədli xarici siyasətimizin səmərəli bəhrəsidir. Ulu öndər H. Əliyevin siyasətinin davamı olaraq ölkənin bütün taleyüklü məsələlərində olduğu kimi xarici siyasət məsələlərində də prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış uğurlar yüksək səviyyədə Azərbaycanın beynəlxalq aləmə sürətli inteqrasiyasını təmin etmişdir. Hələ prezidentliyinin ilk dövründə bu sahədə diplomatiyamız qarşısında ciddi tələblər qoyan Azərbaycan prezidenti İlham Əliyev 27 iyul 2004-cü ildə xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərin başçıları ilə keçirilən görüşdə xaricdəki səfirliklərimizin fəaliyyətinə böyük əhəmiyyət vermiş, beynəlxalq təşkilatlarda işləyən diplomatlarımızdan öz fəaliyyətlərini Azərbaycanın milli maraqlarına uyğun qurmağı tələb etmişdi. Azərbaycanın müstəqilliyinin davamlı olaraq qorunub

saxlanması üçün məsələnin əhəmiyyətini nəzərə alan cənab prezident İ. Əliyev öz sərəncamları ilə xaricdəki diplomatik nümayəndəliklərimizin sayını getdikcə artırılmasına çalışır və xarici ölkələrdə yeni - yeni səfirliklərimizin açılması üçün bütün imkanlardan istifadə edir.

Cənab prezident diplomatik xidmət orqanlarının rəhbərləri ilə iki il bundan əvvəl - 2004-də keçirilmiş yuxanda göstərdiyimiz müşavirədə də Azərbaycan xarici siyasətinin əsas prereqativlərini və konseptual məsələlərini geniş şərh etmiş, Azərbaycanın xarici siyasətini həyata keçirmək vəzifəsini yerinə yetirən diplomatlara konkret tapşırıqlar vermişdi.'

Bu məsələləri inkişaf etdirmək üçün daha geniş imkanlar yarandığını cənab prezident İ. Əliyev Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsində (14 avqust 2006 il) də təkidlə qeyd etmişdir.^ Elə bunun nəticəsidir ki, göstərdiyimiz iki müşavirə arasındakı qıssa - cəmi iki illik zaman kəsiyinə baxmayaraq xaricdəki diplomatik nümayəndəliklərimizin sayı arasında hiss olunacaq fərqlər yaranmışdır.

Əyər iyul 2004-cü ilə qədər Azərbaycanın xaricdə 21 səfirliyi və 5 daimi nümayəndəliyi, 2 baş konsulluğu fəaliyyət göstərirdisə, ikinci müşavirənin keçirildiyi 14 avqust 2006-cı il tarixində bu rəqəmlər müvafiq olaraq 37 səfirlik, 20 diplomatik nümayəndəlik və 5 baş konsulluğa çatdırılmışdır. Respublikamızın hələlik çətin maddi imkanlarına baxmayaraq 2006-cı il avqust ayı məlumatına görə ölkəmizin təkcə xarici diplomatik orqanlarında diplomatik nümayəndəlikləri və konsulluqlarında 278 diplomatı fəaliyyət göstərərək Azərbaycanın müstəqil xarici siyasətini həyata keçirirlər. (Bundan sonra da bir neçə səfirlik və konsulluq açılmışdır.) Müxtəlif beynəlxalq və regional təşkilatlarda işləyən diplomatlarımızı da bura əlavə etsək bu rəqəm xeyli böyüyür ki, bu da ölkə

**' Hacıyev M.İ. Yeni mərhələdə Azərbaycan diplomatiyasının səciyyəvi xüsusiyyətləri və vəzifələri. MAA~nın Elmİ Məcmuələri. Cild 6, №4, 2004.**

**^ Əliyev İ.H. Azərbaycan ölkəmizin milli maraqlarını qoruyan tam müstəqil xarici siyasət aparır. "Respublika" qəz., 15.08.06.**

rəhbərliyinin xarici siyasətimizin hüdudlarının genişlənməsinə verdiyi mühüm əhəmiyyətin nəticəsidir. Hələ 2004-cü ildəki birinci müşavirə zamanı qeyd olunduğu kimi 156 (indi 2006-cı ildə 160) ölkə ilə diplomatik əlaqələr yaratmış Respublikamız bu ölkələrdə diplomatik nümayəndəliklər açmalıdır.

Azərbaycanın daxili sabitliyi və beynəlxalq nüfuzunun artmaşının nəticəsidir ki, 2006-cı il avqust ayı məlumatına əsasən Bakıda iqamətgahı olan 30 səfirlik, 2 baş konsulluq, beynəlxalq təşkilatların 12 nümayəndəliyi, 7 fəxri konsulluq fəaliyyət göstərir. İqamətgahları başqa şəhərlərdə olan 43 diplomatik nümayəndəliyin rəhbərləri də Azərbaycanda akkreditə olunmuşdur.

Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsinə qədərki iki ilin nəticələri təhlil olunarkən aşağıdakılar bir daha xarici siyasətimizin konseptual məsələləri kimi diqqəti cəlb etdi və onların dönmədən həyata keçirilməsi zərurəti qeyd olundu:

1. Diplomatik xidmət orqanları cənab prezident L Əliyevin 2004-cü il iyul ayında keçirilmiş birinci müşavirədə qarşıya qoyduğu məsələlərə xüsusi əhəmiyyət vermiş, öz fəaliyyətlərini bu tələblər əsasında qurmağa çalışmış, Azərbaycanın xarici siyasətini onun ***milli maraqlan*** istiqamətində qurmağa müvəffəq olmuşlar.

2. ***Ermənistan - Azerbaycan, Dağlıq Qarabağ münaqişəsi*** beynəlxalq təşkilatların diqqətinə daha fəal çatdırılmış, Avropa Şurasının Parlament Assambleyası 2005-ci ildə qəbul etdiyi qətnamədə Azərbaycan ərazisinin işqal edildiyi və orada etnik təmizləmə faktı təsdiqlənmiş, İslam Konfransı Təşkilatının 3-cü zirvə görüşü və xarici işlər nazirlərinin son 32-ci və Bakıda keçirilmiş 33-cü Konfranslarında Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü pislənmiş, üzv ölkələrin Azərbaycanla həmrəyliyi bir daha təsdiq olunmuşdur.

Diplomatik xidmət orqanlarımızın birinci müşavirəsi (iyul 2004) ilə ikinci müşavirəsi (avqust 2006) arasındakı dövrdə ölkəmizin ən böyük problemi olan Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli sahəsində

müəyyən uğurlu danışıqlara cəhdlər edilsə də məsələnin tam həlli hələ Azərbaycan diplomatiyasının əsas diqqət mərkəzində olmasını və xalqımızın bir milyondan artıq qaçqın - köçgün vəziyyətinin ölkəmizin xeyrinə həlli sahəsində xarici siyasətimizin ən aktual problemi kimi diqqətdən bir an da yayınmamasını tələb edir. Azərbaycan prezidenti diplomatik xidmət orqanlarımıza bu münaqişə ilə əlaqədar xüsusi göstərişlər verərək qeyd etdi ki, Ermənistan - Azərbaycan münaqişəsinin həlli məsələsinə dair danışıqlar Praqa prosesi çərçivəsində aparılmalıdır. Bu isə o deməkdir ki, Ermənistanla danışıqlar mərhələli yolla aparıla bilər.

Bu mərhələlər hansılardır?

a) Azərbaycan torpaqlarının işqalçı qüvvələrdən azad olunması tələbi ilə ilkin mərhələli danışıqların aparılması və buna nail olunması;

b) Qaçqın və köçgünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qaytarılması haqqında müzakirələr və bu məsələnin əməli həllinə nail olmaq;

c) Yuxarıdakı iki mərhələli məsələlərin həllindən sonra Dağlıq Qarabağın statusu məsələsinə, əlbətdə, beynəlxalq hüquq normaları əsasında və dünya təcrübəsinə uyğun olaraq, baxmaq.

3. Azərbaycan xarici siyasət orqanlarının ***beynəlxalq təşkilatlarla əlaqələri*** daha intensivləşmişdir. O cümlədən Azərbaycan 2006- cı ildə BMT-nin insan hüquqları Şurasının ilk seçkilərində bu mühüm qurumun üzvü seçilmişdir. Xarici ölkələrin dövlət və qeyri-hökümət təşkilatları ilə sıx əlaqələr də diplomatiyamızın ciddi diqqətində olmalıdır. Nəzərə almaq lazımdır ki, indi qeyri-hökümət təşkilatlan da xeyli siyasiləşmişlər.

Bu təşkilatlardan da Azərbaycan xeyrinə səmərəli istifadə etmək olar.

4. ***Azərbaycan terrorizmə^ mütəşəkkil cinayətkarlığa, narkotiklərin qanunsuz dövriyyəsinə*** və s. təhlükəli cinayətlərə qarşı BMT və Avroatlantik tərəfdaşlığı çərçivəsində beynəlxalq mübarizədə iştirakını daha da fəallaşdırmışdır. Şübhəsiz ki, Azərbaycan diplomatiyası günün bu təhlükəli reallıqları, o cümlədən

transmilli cinayətkarlığa qarşı mübarizədə Azərbaycannın fəal iştirakı dünya ictimayyətinin nəzərinə daha geniş çatdırılmalıdır.

5. Azərbaycan ***NATO ilə "Fərdi tərəfdaşlığın Fəaliyyət planı"*** əsasında inteqrasiyası sürətlənməkdədir və bu prosesə bundan sonra da önəm veriləcəkdir.

6. ***Avropa qonşuluq siyasəti*** çərçivəsində Fəaliyyət planının işlənib hazırlanması Avropa İttifaqı ilə Azərbaycanın tərəfdaşlığının inkişafı davam etdirilmiş, Fəaliyyət planının razılaşdırılması artıq son mərhələyə çatdırılmışdır. Azərbaycan bu istiqamətdə öz fəaliyyətini davam etdirəcəkdir.

Prezident İlham Əliyev Azərbaycanın Avropa üçün əhəmiyyətindən bəhs edərkən demişdir: "Azərbaycan bütövlükdə Avropa üçün çox önəmli ölkəyə çevrilir. Çünki, həm coğrafi vəziyyətimiz, eyni zamanda, təbii sərvətlərlə zəngin olmağımız, son müddət ərzində dünyada enerji təhlükəsizliyi məsələlərinin kəskinləşməsi və ön plana çıxması, şübhəsiz ki, Azərbaycanın nə qədər önəmli ölkə olduğunu bir daha sübut edir". Digər beynəlxalq təşkilatlarla, o cümlədən MDB, GUAM, Avropa Şurası və s. ilə səmərəli əməkdaşlığın inkişafı məsələləri də diplomatiyamızın gündəlik fəaliyyət tələbatı olmalıdır.

7. Son iki il ərzində Azərbaycanın ***ABŞ-la münasibətləri*** daha da yaxşılaşmışdır, xüsusilə Azərbaycan prezidentinin 2006-cı ildə ABŞ-a səfərindən sonra əlaqələrimizdə yeni səhifə açılmış və münasibətlərimizin inkişafına təkan vermişdir. Azərbaycanın strateji partnyoru olan ABŞ-la münasibətlərimiz daha fəallaşmalı və Azərbaycanın milli maraqlarına daha səmərəli cavab verməlidir.

8. Azərbaycanın qonşu ***Rusiya, iran***^ qardaş ***Türkiyə, Ərəb ölkələri, İndoneziya, Pakistan, Mərkəzi Asiya*** dövlətləri və s. ilə əlaqələri daha da möhkəmlənmişdir. Bu ölkələrin bəzilərinə, məs. Türkiyə, İran, Qazaxıstan, Özbəkistan, Rusiya və s. kimi dost ölkələrə Azərbaycan prezidentinin səfərləri nəticəsində əlaqələrimiz daha faydalı məcraya yönəlmişdir. Azərbaycanın bu və başqa ölkələrlə hərtərəfli əlaqələri xarici siyasətimizin mərkəzində durmalıdır. Bizim diplomatiyamız bu və başqa ölkələrdə uğurlarımızı

müvəffəqiyyətlə təbliq etməli, onların beynəlxalq nüfuzundan ölkəmizin xeyrinə istifadə etməlidir.

9. Bu gün Azərbaycanın ***iqtisadi nailiyyəthrini*** geniş təbliq etməklə Azərbaycana marağı daha da artırmaq olduqca zəruridir. Azərbaycan iqtisadiyyatı gündən - günə möhkəmlənir və prezidentin sözləri ilə desək "ölkə iqtisadiyyatı dünyada analoqu olmayan surətlə artır. Azərbaycan bu göstəriciyə görə bu gün dünyada lider dövlətdir".

Cənab prezident Respublikamızın qıssa müddətdə iqtisadi uğurlarından bəhs edərkən demişdir: "Bizim nadir şansımız var, bundan maksimum dərəcədə istifadə etməliyik. Bakı - Tbilisi - Ceyhan neft kəmərinin işə düşməsi, onun ardınca Bakı - Tbilisi - Ərzurum qaz kəmərinin tikintisi, ondan sonra digər önəmli layihələrin həyata keçirilməsi, o cümlədən Qars - Tblisi - Bakı dəmir yolunun çəkilişi, əlbəttə ki, Azərbaycanın uzunmüddətli inkişaf strateqiyasını müəyyən edir və bundən sonra uzun illər ərzində, on illiklər ərzində Azərbaycanın iqtisadi potensialını göstərən amillərdir. Biz bu gözəl imkanlardan çox səmərəli istifadə etməliyik".

Xaricdəki diplomatik nümayəndəliklərimizin səyi nəticəsində son iki il ərzində Azərbaycana ***xarici kapitalın investisiyası*** daha yaxşı cəlb olunmuş, azad biznesə daha əlverişli şərait yaratmaq üçün bir neçə mühüm beynəlxalq iqtisadi forumun Respublikamızda keçirilməsi təmin edilmişdir.

Azərbaycan prezidenti İlham Əliyev diplomatlarımız qarşısındakı son nitqində tələb edir ki, onlar Azərbaycana xarici sərmayələrin cəlb olunmasında daha fəal olsunlar. Bu sahədə Azərbaycanın bu gün belə nailiyyətləri çox böyükdür. Cənab prezidentin qeyd etdiyi kimi adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan bölgədə birinci dövlətdir. Bu, onu göstərir ki, Azərbaycanda çox gözəl sərmayə mühiti var. Qanunvericilik imkan verir ki, investorlar Azərbaycana inamla işləməyə gəlsinlər.

Azərbaycanın bu günkü sürətli iqtisadi inkişafı müstəqil

liyimizin ilk illərində olduğu kimi xarici kapital qoyuluşuna o qədər ehtiyac duymasa da xarici siyasət orqanlarımız bu mühüm işi diqqətdən kənarda qoymamalıdırlar. Cünki bu məsələ hələ də aktuallığını saxlayır. Bizim ölkəmizin özünün başqa ölkələrin, məs. Gürcüstanın sənayesinə sərmayə qoymasına baxmayaraq, xarici kapitalın ölkəmizə cəlbi bu gün də vacibdir və Azərbaycanın iqtisadiyyatını inkişaf etdirən amillərdən biridir.

Diplomatlarımız akkreditə olunduqları ölkələrdə və Azərbaycanı təmsil etdikləri beynəlxalq və regional təşkilatlarda ölkəmizdə son iki-üç ildə özəl sektorun və sahibkarlığın inkişafına dövlət və hökümət tərəfindən göstərilən qayğını, regionlarımızın hərtərəfli inkişaf proqramlarının uğurla keçirildiyini qətiyyətlə təbliq etməli, bu nailiyyətlərimizi dövlət və iş adamlarının nəzərinə daha effektli çatdırmalıdırlar. Dönə - dönə qeyd olunmalıdır ki, Azərbaycan prezidentinin ciddi səyləri və ardıcıl, məqsədyönlü tələbi ilə ölkə iqtisadiyyatının müxtəlif sahələrinin sürətli inkişafı ölkədə işsizliyi də sürətlə ləqv etməyə xidmət edir. Son üç illik qıssa bir müddətdə ölkədə 500 minə yaxın yeni iş yerləri açılmış, qarşıdakı iki ildə isə bu rəqəmin 600 minə çatdırılması nəzərdə tutulur. Diplomatlarımız vasitəsilə bu uğurlar dünyaya daha operativ və səmərəli çatdırılmalıdır.

10. Birinci müşavirə ilə ikinci müşavirə arasındakı iki il müddətində ***insan hüquqları*** və ***demokratikləşnw*** sahələrində XİM- in fəaliyyəti daha ciddi və tələbkar forma almışdır. Məsələn, Azərbaycanın xarici əlaqələr orqanları və beynəlxalq təşkilatlardakı nümayəndəlikləri 2005-ci ildə ölkəmizdə keçirilmiş parlament seçkiləri ilə əlaqədar beynəlxalq ictimayyət üçün apardıqları düzgün obyektiv izahat işi öz səmərəli nəticəsini vermiş, bu seçgilərin insan hüquqlarının qorunması və demokratik tələblərə cavab verməsi fikri dünya ictimayyəti tərəfindən qəbul olunmuşdur.

Ölkə başçımızın qeyd etdiyi kimi bizim demokratiyaya sadiqliyimiz təkcə sözdə deyil, əməllərim izdədir. Azərbaycanda demokratik və iqtisadi islahatlar paralel şəkildə aparılır ki, bu da ölkəmizin hərtərəfli inkişafı üçün çox önəmli amildir. Xarici

siyasətimiz bu həqiqətləri geniş təbliq etməlidir.

11. Azərbaycanın xarici siyasət orqanları ***mətbuat, informasiya*** və Azərbaycanın haqq işinin təbliğatı, ölkəmiz haqqında ***həqiqətləri*** dünyaya çatdırmaq sahəsində bir sıra mühüm nailiyyətlərə nail olmuşlar. Son iki ildə biz özümüzü xaricdə daha yaxşı tanıtmış, təbliğ etmişik. Lakin bu hələ kifayət deyildir. Bir sıra xarici kütləvi informasiya vasitələri, nüfuzlu dünya qəzet və jurnalları əvvəlki iki ildən qabaqkı dövrə nisbətən Azərbaycanın tarixi, dünəni və bugünü haqqında samballı məlumatları daha çox və daha aktiv surətdə yaymağa səy etmiş, öz oxucu və dinləyicilərini ölkəmiz ilə daha obyektiv tanış etməyə çalışmışlar. Hələ də bu məsələlərdə diplomatik işi gücləndirməyə ehtiyac vardır. Güclü erməni lobbisinə qarşı ciddi mübarizə hələ qarşıdadır. Cənab prezidentin dediyi kimi, diplomatlarımız dünya ictimayyətinə başa salmalıdırlar ki, Azərbaycan heç vaxt öz ərazisində ***ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəkdir.*** Özlərini "yazıq, miskin, bədbəxt" xalq kimi qələmə verməyi xoşlayan ermənilər "Böyük Ermənistan", "Dənizdən dənizə Ermənistan" kimi puç xülyaları ilə "ermənilərin öz müqəddəratını təyin etmək" prinsipinə əsaslandıqlarını car çəkirlər. Cənab prezidentimizin sual etdiyi kimi diplomatiyamız dünya ictimayyətinə təkidlə bəyan etməlidir ki, xəbis və xain ermənilər öz "müqəddəratlarını" təkcə Azərbaycan ərazisinə deyil, başqa ölkələrdə də öz "müqəddəratlarını" təyin etməyə çalışmayacaqlarmı? Onların Amerikada, Los - Ancelesdə, Fransada, Marseldə, Krasnodar vilayətində, yaxud Gürcüstanda yeni erməni dövləti yaratmaq cəhdləri çox uzaqdadırmı? Emıəni separatçılarının belə cəhdləri Rusiyanın Krasnodar vilayətində, Gürcüstanın Axalkalaki rayonunda və ermənilərin kompakt yaşadıqları başqa ərazilərdə artıq özünü göstərməkdədir. Azərbaycan haqqında daim yalan, böhtan, iftira yayan güclü təşkilatlanmış dünya erməni diasporuna qarşı, cənab prezidentimizin tələb etdiyi kimi, hücum taktikası diplomatiyamızın daimi iş üsulunun əsas

tərkib hissəsi olmalıdır.'

12. Mərhum ulu öndərimiz Heydər Əliyevdən sonra prezident İlham Əliyev diplomatların birinci müşavirəsində Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi ***diaspora ilə işi*** müəyyən etmişdi. Ötən dövr ərzində diplomatlarımız xüsusilə akkreditə olunduqları ölkələrdə bu vacib məsələyə daha çox diqqət yetirmiş, müxtəlif ölkələrdəki güclü erməni lobbisinə qarşı Azərbaycan diasporunu daha da mütəşəkkiləşdirməyə səy göstərmişlər. Xaricdəki hüquqi və fiziki şəxs olan azərbaycanlılarımızın öz vətəninə gəlib - getməsi üçün pasport verilməsi, viza alınması və s. kimi konsulluq məsələlərinə diqqət artırılmışdır. Bununla belə 2006-cı ilin martında Bakıda keçirilmiş Dünya Azərbaycanlırarının U qurultayının qarşıya qoyduqu vəzifələr daha əzmlə həyata keçirilməlidir.

13. Cənab prezident birinci müşavirədə olduğu kimi son müşavirədə də Azərbaycanın diplomatiya sahəsindəki uğurlarını ***kadr siyasətinin düzgün aparılmasında*** görür. Son iki il dövründə XFN-də bir sıra kadr dəyişikliyi edilmiş, 10-15 il eyni ölkədə işləyən diplomatlarımız dəyişdirilmiş, yeniləri ilə əvəz olunmuşlar. Diplomatik xidmət orqanları rəhbərlərinin işinə nəzarət daha da güclənmiş, onların işinin uzunmüddətli planlaşdırılması və müvafiq hesabatların təqdim olunması daha səmərəli təmin edilmişdir. Diplomatik xidmətə ən layiqli kadrları cəlb etmək məqsədi ilə son iki il ərzində diplomatik işə qəbul, Azərbaycanın Xarici İşlər Naziri Elmar Məmmədyarovun son müşavirədə canab prezidentə verdiyi məlumata əsasən, artıq iki dəfə müsabiqə əsasında mərhələli test üsulu ilə təşkil olunmuşdur. İndiki kadrların peşəkarlığının artırılması məqsədi ilə Azərbaycan XİN-də təlim və ixtisasartırma kursları təşkil edilmişdir. Azərbaycanın əsas xarici əlaqələr orqanı olan XİN-də struktur təkmilləşdirilməsi istiqamətində də işlər davam etdirilir. Diplomatların iki müşavirəsi arasındakı dövrdə Nazirliyin Kollegiyası və bir sıra yeni struktur bölmələri

**Hacıyev M.İ. Prezident İ. Əliyev və Azərbaycanın xarici siyasətinin konseptual məsələləri. MAA-nın Elmi Məcmuələri, cild 8, № 3, 2006.**

yaradılmışdır; belə ki, indi Azərbaycanın XİN-də 21 struktur bölmə - 17 idarə, 4 bölmə fəaliyyət göstərir.

Milli diplomatik kadrlarımızın hazırlanmasının səmərəliliyini artırmaq üçün Azərbaycan prezidentinin sərəncamı ilə Azərbaycan XİN-yi nəzdində Diplomatik Akademiyaya təsis edilmiş, Azərbaycan diplomatiyasının gələcəyi üçün çox vacib olan bu akademiyaya ABŞ-da uzun illər uğurla Azərbaycan səfiri işləmiş professor Hafiz Paşayev rektor təyin olunmuşdur. Azərbaycan diplomatiyasını daha səriştəli və dünya hadisələrindən daha bacarıqla baş çıxara bilən kadrlarla təmin etmək yaxın illərdə qarşıda duran ən mühüm məsələlərdəndir.

14. Azərbaycan prezidentinin birinci müşavirədə diplomatlar qarşısında qoyduğu məsələlər sırasında diplomatiyada ***qüvvələr tarazlaşması*** adlanan optimal vəziyyətə nail olmaq, Azərbaycan diplomatiyasının bugünkü dünyanın ***qlobaqllaşma prosesində*** müsbət müstəviyə düşə bilməsi üçün demokratik dəyişikliklərin misilsiz əhəmiyyətindən səmərəli və vaxtında istifadə etmək tələbi də öz kəsginliyi ilə dururdu. Keçən iki illik müddət ərzində Azərbaycan diplomatiyası bu günün aktual beynəlxalq və qlobal problemləri sahəsində də Azərbaycanın milli maraqlarının qorunub saxlanmasında, Azərbaycanın dövlət maraqlarına üstünlük verilməsində də sevindirici uğurlar qazanmışlar. Bunun da nəticəsində Azərbaycan dünya siyasət aləminə daha cəsarətlə inteqrasiya olunur. Bu da xarici siyasətinin müstəqil və heç bir dövlətdən asılı olmayaraq aparılmasını sübut edən göstəricidir və elə buna görə də cənab prezidentimiz İlham Əliyev bu məsələyə xüsusi əhəmiyyət verməyi diplomatik xidmət orqanlarımızdan tələb edir.

***Azərbaycanın xarici siyasətinin əsas konseptual məsələləri*** kimi yuxarıdakılar diqqəti cəlb etməklə xarici siyasət orqanlarımız qarşısında yeni vəzifələr və tələblər qoyur.

Tam qətiyyətlə demək olar ki, Azərbaycanın xarici siyasətinin iki illik uğurlu yoluna, bu sahədə görülmüş işlərin təhlilinə həsr olunmuş 14 avqust 2006 il müşavirəsi müstəqil Azərbaycanın müstəqil xarici siyasətinin daha geniş üfüqlərini təyin etməklə ölkə

mizin tarixində özünə layiq yerini tutacaqdır. Canab prezident İlham Əliyev demişkən, bu müşavirə bir daha təsdiq etdi ki, “Azərbaycanın xarici siyasəti həm ikitərəfli fonnatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində çox uğurludur, düşünülmüş siyasətdir. Son illər ərzində aparılan işlər onu göstərir ki, Azərbaycanın dünyadakı mövqeləri daha da möhkəmlənir”.

Müşavirədə belə bir həqiqət tam aydınlığı ilə bəyan edildi ki, bütün başqa sahələrdə olduğu kimi xarici siyasət cəbhəsində də ölkəmiz inkişaf edir və bu inkişaf Azərbaycanı güclü dövlətə çevirməkdə mühüm rol oynayır. Bu reallıqla dünya birliyi ölkələri də razılaşmalı olurlar. Təsadüfi deyil ki, dünyanın ən böyük aparıcı dövlətləri olan BMT-nin 'Fəhlükəsizlik Şurasının beş daimi üzvü ölkələrinə son iki - 2004-2006-cı illərdə Azərbaycan prezidenti rəsmi səfərlər etmiş, bu ölkələrin rəhbərləri ilə bərabərhüquqlu müzakirələr aparmışdır.

Bu səfərlər əhəmiyyətinə görə Azərbaycanın bugünkü xarici siyasətinin əsl qələbəsidir. Canab İlham Əliyev bu məsələnin beynəlxalq əhəmiyyətindən bəhs edərkən bununla əlaqədar demişdir: “Dünyanın aparıcı ölkələri ilə bizim çox səmərəli münasibətlərimiz, bir tərəfdən, əlbəttə ki, Azərbaycanın önəmindən xəbər verir, digər tərəfdən, şübhəsiz ki, Azərbaycanın düşünülmüş xarici siyasət prinsiplərindən irəli gəlir”.

Ölkə prezidenti xarici siyasətimizə dair yuxarıda sadalanan bütün problemlərə - Respublikamızın diplomatik xidmət orqanları qarşısında qoyduğu diplomatik fəaliyyətin konseptual məsələlərinə aid verdiyi tapşırıqların əhəmiyyətinə dönə - dönə diqqəti cəlb edərək göstərir ki, bütün bu məsələlərdə ilkin olaraq ***Azərbaycan maraqlarını*** gözləmək lazımdır. Prezidentimizin tələbinə görə elə etməliyik ki, Azərbaycanın xarici siyasəti əsas bir məqsədə - Azərbaycanı qorumağa xidmət etsin, xarici siyasətin bu konseptual məsələlərinin uğurlu həlli Azərbaycanın qarşısında qalxan kimi dayansın və ölkəmizin inkişafına səbəb olsun, bununla da ölkə öz istəyinə nail olsun, insanlarımız daha da yaxşı yaşasınlar. Müşavirədək! dolqun və dərin məzmunlu nitqinin sonunda

prezident İlham Əliyev yuxarıdakı qarşıda duran vəzifslərdən danışarkən diplomatlarımıza müraciətlə demişdir: "Budur siyasətimizin əsas istiqamətləri. Mən ümid edirəm ki, siz öz gündəlik fəaliyyətinizdə bu işləri əməli şəkildə icra edəcəksiniz".

Şübhə yoxdur ki, Azərbaycan diplomatları və ölkəmizin xarici əlaqələri ilə məşqul olan hər bir şəxs möhtərəm prezidentimiz İlham Əliyevin xarici siyasət xidməti orqanlarımızın qarşısında qoyduğu şərəfli vəzifələri ləyaqətlə yerinə yetirəcəkdir.

Bütün xarici əlaqələrə dair məsələlərdə olduğu kimi bu mühüm sahədə diplomatik protokol vacib rol oynayır.

" Diplomotik protokol hökümətlərin xarici işlər nazirliklərinin, diplomatik nümayəndəliklərin, diplomatik işçilərin və digər rəsmi şəxslərin beynəlxalq əlaqərin əməli olaraq gərçəkləşməsi zamanı riayət etdikləri qayda, ənənə və şərtlərin məcmusudur. Diplomatik yazışmalar, rəsmi görüşlər, diplomatik qəbullar, xarici ölkənin dövlət və hökümət başçısının qarşılanması, beynəlxalq təşkilatlar xəttilə təşkil olunan toplantılar diplomatik protokol tələbləri çərçivəsində əməli xarakter alır.

Diplomatik protokolun qəbul olunmuş ümumi müddəaları Diplomatik əlaqələrə dair 1961 Vyana konvensiyasında təsbit edilib. Bununla bərabər hər ölkənin öz diplomatik protokol xüsusiyyətləri də vardır; bu xüsusiyyətlər həmin dövlətin milli adət və ənənələrindən irəli gəlir.

Xarici əlaqələrdə diplomatik protokola əməl etmək zəruridir; ondan yayınmaq, yaxud qaydaları pozmaq müqabil dövlətin, yaxud onun rəsmi nümayəndəsinin şərəf və ləyaqətinə toxuna və bununla da iki dövlət arasında münasibətlərin mürəkkəbləşməsinə və arzuolunmaz siyasi nəticələrrə gətirib çıxara bilər. Müvafiq ölkə ilə diplomatik münasibətlərin durumundan asılı olaraq diplomatik protokola müxtəlif incəliklər (daha çox və ya daha az təntənəlilik, ayrı - ayrı tədbirlərin keçirilməsində yüksək və ya aşağı səviyyəlilik) əlavə oluna bilər.

Diplomatik protokol-diplomatiyanın mühüm siyasi vəsiləsidir; Onun tətbiqindən doğan nəticələr dövlətlərarası münasibətlərə

bu və ya digər dərəcədə təsir göstərir.

Diplomatik protokola riayət etmək ölkənin xaricdəki diplomatik nümayəndəliyinin əsas vəzifəsidir.

Bir dövlətin digər dövlətlə diplomatik münasibətlər qurması məqsədi ilə yaradılan, diplomatik nümayəndə tərəfindən rəhbərlik edilən səfirlik və ya diplomatik missiyadır. Diplomatik nümayəndəliyin bu iki növünə Roma Papası nümayəndəlikləri: nunsiaturalar və internunsiaturalar da uyğun gəlir. Diplomatik nümayəndəlik maraqlı dövlətlər tərəfindən onlar arasında razılığa əsasən diplomatik münasibətlərin yaradılması nəticəsində təsis edilir. Elə bu şəkildə də dövlətlərin təsis etdikləri diplomatik nümayəndəliklərin səviyyəsi müəyyən olunur: de-fakto və ya de-yure.

İşlər müvəkkilinin təyin olunması o gədər də normal olmayan diplomatik münasibətlərdən xəbər verir. Qarşılıqlı məhdud siyasi, iqtisadi və digər maraqlara malik dövlətlər işlər müvəkkili səviyyəsində mübadilə edirlər. Yəni bəzən siyasi motivlər üzündən müvafiq ölkə ilə daha yüksək səviyyədə diplomatik münasibətlər qurmaq istəməyən bəzi dövlətlər işlər müvəkkili səviyyəsində diplomatik nümayəndəlik təyin edirlər.

Səfirlik, dərəcəsinə görə ən yüksək diplomatik nümayəndəlik hesab olunur. Səfir tərəfindən rəhbərlik edilən diplomatik nümayəndəlik ***səfirlik*** adlanır, diplomatik nümayəndə və daimi işlər müvəkkili tərəfindən başçılıq edilən diplomatik nümayəndəlik ***missiya*** adlanır. Birinci dünya müharibəsinədək ancaq böyük dövlətlər səfirlik səviyyəsində diplomatik nümayəndəliklərlə mübadilə edə bilərdilər. Hazırda suveren (Dövlət suverenliyi) bərabərlik prinsipinə müvafiq olaraq bütün dövlətlər səfirlik səviyyəsində mübadilə edə bilərlər. Bununla belə, müxtəlif səbəblərə görə daha aşağı dərəcəli missiya adlanan nümayəndəliklər də saxlanılır. Diplomatik nümayəndəliklər arasındakı fərqlər hüquqi deyil, protokol xarakteri daşıyır. Daimi diplomatik nümayəndəlik institutu XVI-XVlll əsrlərdə mərkəzləşdirilmiş dövlətlərin yaranması və inkişafı ilə bağlı olaraq Avropada meydana gəlmişdir və o vaxtdan beynəlxalq təcrübədə mühüm yer tutur. Diplomatik əlaqələrə dair 1961-ci il

Vyana Konvensiyasına əsasən diplomatik nümayəndəliyin başlıca vəzifələri aşağıdakılardan ibarətdir:

a) öz dövlətini akkreditə olunduğu dövlətdə təmsil etmək;

b) akkreditə edən dövlətin və onun vətəndaşlarının beynəlxalq hüquq çərçivəsində maraqlarını müdafiə etmək;

c) diplomatik nümayəndəliyi qəbul edən dövlətin hököməti ilə danışıqlar aparmaq;

d) bütün qanuni vasitələrlə akkreditə olunduğu dövlətin fəaliyyəti və mühüm hadisələri haqda informasiya toplamaq və onlar haqqında akkreditə edən dövlətə məlumat vermək;

e) akkreditə edən dövlətlə qəbul edən dövlət arasında iqtisadi, mədəni və elmi əlaqələri, dostluq münasibətlərini inkişaf etdirmək.

Başqa sözlə deyilsə, diplomatik nümayəndəliyin başlıca vəzifəsi akkreditə edən dövləti akkreditə olunduğu dövlətdə bütün məsələlərdə təmsil etməkdir və bu dövlətlər arasında diplomatik münasibətlərin başlıca kanalıdır. Bu vəzifələr diplomatik nümayəndəlik başçısının rəhbərliyi altında nümayəndəliyin diplomatik heyəti tərəfindən həyata keçirilir. Diplomatik nümayəndəliyin zəruri inzibati-texniki (dəftərxana müdiri, mühasib və s.) və xidməti heyəti (sürücülər və b.) vardır. Diplomatik nümayəndəliyin yerləşdiyi ölkənin rəsmi idarələri və təsisatları ilə əlaqələri bir qayda olaraq bu ölkənin Xarici İşlər Nazirliyi (Xarici İşlər İdarəsi) vasitəsilə müəyyən olunur və həyata keçirilir. Diplomatik nümayəndəliyin bütün fəaliyyətinə ona başçılıq edən səfir, diplomatik nümayəndə və ya işlər müvəkkili rəhbərlik edir. Bu şəxslərin heç biri olmadıqda diplomatik heyətin vəzifəcə yüksək əməkdaşı müvəqqəti işlər müvəkkili kimi müvəqqəti olaraq səfirliyə rəhbərlik edə bilər. Onun adı gəldiyi ölkənin Xarici İşlər Nazirliyinə rəsmi şəkildə bildirilir. Diplomatik nümayəndəlik diplomatik imtiyazlar və toxunulmazlıq hüququndan (nümayəndəlik binalarının toxunulmazlıqı, ümum- dövlət və yerli vergilərdən azad olmaq, gömrük güzəştləri və s.), eləcə də onu qəbul edən dövlət tərəfindən xüsusi müdafiə (qorunma) hüququndan istifadə edir.

Beynəlxalq münasibətlər təcrübəsində diplomatik nümayən

dəliyin bir səviyyəsindən digərinə, daha geniş münasibətlərin yaradılması və qarşılıqlı münasibətlərin pisləşməsi nəticəsində əksinə səfirlikdən missiyaya keçməsi halları mümkündür. Missiyanın səfirliyə çevrilməsi hər iki dövlətin hökümətləri arasında ikitərəfli danışıqlar nəticəsində baş verir. Əldə olunmuş razılaşma, müvafiq missiya və bu missiyanın yerləşdiyi dövlətin XİN arasında notalar mübadiləsi yolu ilə rəsmiləşdirilir. Eyni zamanda diplomatik nümayəndələrin dərəcələri artırılır, yeni diplomatik nümayəndələr səfir dərəcəsinə yüksəlirlər.

Diplomatik nümayəndəlik bağlandıqda, diplomatik nümayəndəliyi akkreditə edən dövlət onu geri çağırdıqda, diplomatik münasibətlər kəsildikdə və ya akkreditə edən dövlətlə nümayəndəliyi qəbul edən dövlət arasında müharibə vəziyyəti yarandıqda öz fəaliyyətini dayandırır. Diplomatik münasibətlərin kəsildiyi halda diplomatik nümayəndəlik bağlandıqda və ya diplomatik nümayəndə geri çağırıldıqda (Diplomatik nümayəndənin geri çağırılması) diplomatik nümayəndəliyi qəbul edən dövlət, hətta silahlı münaqişə baş verdikdə belə diplomatik nümayəndəlik binasına onun əmlakı və arxivi (Diplomatik arxiv) ilə birlikdə hörmətlə yanaşmalı və qorumalıdır. Akkreditə edən dövlət diplomatik nümayəndəliyin binasını, onun əmlakını və arxivlərini nümayəndəliyin yerləşdiyi dövlət üçün məqbul olan hər hansı digər dövlətin diplomatik nümayəndəliyinə həvalə edə bilər. Bütün bu hallarda diplomatik nümayəndəliyin heyət üzvlərinin onların ailələri və əmlakları ilə birlikdə maneəsiz çıxıb getməsi üçün zəruri imkanlar yaratmalıdır, o cümlədən onları vacib olan nəqliyyat vasitələri ilə təmin etməlidir.

Beynəlxalq təcrübədə diplomatik nümayəndəliyin digər növlərinə də rast gəlinir. Məs., Liviya Sosialist Xalq Ərəb Camahiri ənənəvi diplomatik institutlardan imtina etmişdir. XİN ləğv olunmuş, əvəzində xarici əlaqələr üzrə Xalq Bürosu yaradılmış, səfirliklərin əvəzinə katiblər başda olmaqla “Xalq komitələri” təşkil olunmuşdur. Etimadnamələr, diplomatik dərəcələr, diplomatik pasport ləğv olunmuşdur.

Bəzi ölkələrdə "Maraq şöbələri" (Maraq büroları) təsis olunmuşdur. Mahiyyətinə görə onlar dövlətlər arasında rəsmi diplomatik münasibətlər olmadıqda diplomatik nümayəndəlik forması kimi çıxış edirlər. 1970 illərdə Kuba-Amerika münasibətləri kəsildikdən sonra Havanada İsveçrə səfirliyi yanında ABŞ-ın "Maraq şöbəsi" açması haqda razılaşma əldə olundu. Eyni zamanda Kubanın maraqlarını təmsil edən anoloji şöbə də ABŞ-da Çexoslovakiya (indiki Çexiya) səfirliyi yanında açıldı. 1999 il Yuqoslaviya böhranı dövründə Belqradm ABŞ-da və digər Avropa dövlətlərində maraqlarını Rusiya təmsil edirdi.

Şöbələr (bürolar) əvvəllər səfirlik yerləşmiş binalarda, eləcə də üzərinə diplomatik nümayəndəlik funksiyalarını götürən ölkələrin diplomatik nümayəndəlikdə yerləşə bilər. Onları səfirlikdən zahiri əlamətlər ayırır: binalarda lövhələr və dövlət bayraqları, eləcə də şöbələrə rəhbərlik edən şəxslərin vəzifə adları olmur. Yerdə qalan hallarda, o cümlədən gəldiyi ölkənin rəsmi orqanları və şəxsləri ilə birbaşa əlaqələr hüququna münasibətdə onların vəzifələri adi diplomatik nümayəndəliklərin vəzifələrindən fərqlənmir.

Diplomatik nümayəndəliklərin statusu, vəzifələri və funksiyaları məsələlərini bilmək gündəlik diplomatik fəaliyyətdə mühüm olduğu üçün bu barədə geniş şərhə ehtiyac vardır.

Diplomatiya hüququ dövlətin xarici əlaqələr orqanlarının status və funksiyalarını tənzimləyən normaların məcmusundan ibarət olan beynəlxalq hüquq sahəsidir.

Dövlətlər arasında diplomatik münasibətlərin yaranması, adətən, diplomatik nümayəndəliklərin mübadiləsinə səbəb olur. Lakin bu cür mübadilə üçün xüsusi razılaşmanın olması zəruridir.

Ta qədimdən bəri dövlətlər xarici əlaqələrini həyata keçirmək üçün digər ölkələrə özlərinin xüsusi nümayəndələrini və ya səfirlərini təyin edirdilər, indi də ölkələr biri-birində müvəqqəti və daimi nümayəndəliklərini və ya missiyalarını təsis edir, öz nümayəndələrini ikitərəfli danışıqlarda və ya hər hansı çoxtərəfli konfranslarda, konqreslərdə və ya təntənəli mərasimlərdə iştirak etmək üçün göndərirlər.

Hazırda dövlətlərin xarici əlaqələri geniş, çoxcəhtli və eyni zamanda daimi xarakter almışdır. Ona görə də xarici münasibət orqanlarının müxtəlif formaları mövcuddur.

Bütün bu orqanlar daimi və ya müvəqqəti olaraq, onları təsis edən və göndəron dövlətin müəyyən etdiyi, həmin dövlətin xarici siyasət mənafeyinə uyğun gələn funksiya və vəzifələri yerinə yetirirlər. Ümumi beynəlxalq hüquq normalarına, göndərən və qəbul edən dövlətlər arasındakı ikitərəfli razılaşmalara müvafiq olaraq gəldikləri ölkədə onlar müəyyən hüquq, imtiyaz və immunitetdən istifadə edirlər.

Xarici əlaqə orqanları içərisində xarici dövlət başçıları yanında akkreditə olunmuş diplomatik nümayəndəliklər - səfirliklər və missiyalar mühüm rol oynayırlar, çünki onlar dövlətin, onun hökümətinin bilavasitə nümayəndəsi olub gəldikləri ölkələrdə dövlət və hökümət başçıları ilə birbaşa əlaqə yaradırlar.

Səfirliklər və ya missiyalar digər dövlətin razılığı ilə, həmin digər dövlətin başçısı yanında dövlətin daimi nümayəndəliyi kimi dövlət tərəfindən təsis edilir. Bu nümayəndəliklərin başında səfirlər, diplomatik nümayəndələr, işlər müvəkkilləri dururlar. 1961-ci il Vyana Konvensiyasının 14-cü maddəsinə uyğun olaraq səfirlər dövlət başçıları yanında (etimadnamə təqdim etməklə), diplomatik nümayəndələr hökümət başçıları yanında və işlər müvəkkili isə xarici işlər naziri yanında akkreditə olunurlar və özlərinin xarici işlər nazirinin müvafiq məktubunu onlara təqdim edirlər. İşlər müvəkkilinin təyin edilməsi, bir qayda olaraq, müvəqqəti xarakter daşıyır və hər halda, diplomatik əlaqələrin tam normal- laşdırılmağına dəlalət edir. Öz dərəcəsinə görə səfirliklər diplomatik nümayəndəlik hesab olunurlar. Bir vaxtlar 1815-ci il Vyana konqresinin qərarlarına əsasən səfirliklər ancaq böyük dövlətlərdə yaradılırdı. Hazırla səfirliklər diplomatik nümayəndəliklərin ən yüksək növü hesab edilir və yerləşdiyi ölkə ilə diplomatik münasibətlərin yüksək səviyyədə olmasına dəlalər edir.

Dövlətin xarici işlər idarəsi ilə, həmçinin digər dövlətlərin bu dövlətdə akkreditə edilmiş xarici nümayəndələri ilə gündəlik əlaqə

vo danışıqlar da bu dövlətdoki diplomatik nümayəndəlik vasitəsilə həyata keçirilir. Səfirlik və ya missiya yerləşdiyi ölkənin xarici işlər nazirliyi ilə, bundan əlavə diplomatik korpusla, yəni bu ölkədə akkreditə edilmiş digər ölkə nümayəndəlikləri ilə gündəlik əlaqə saxlayır.

Yerləşdiyi ölkənin iqtisadi və siyasi vəziyyəti haqqında öz hökümətinə məlumat verməkk, öz dövlətinin xarici siyasəti xeyrinə yerləşdiyi ölkə ilə münasibətlərin yaxşılaşdırılması naminə fəaliyyət göstərmək nümayəndəliyin mühüm vəzifəsidir. Hər bir səfirlik yerləşdiyi ölkədə baş verən hadisələri müşahidə edir. Bununla bərabər, hər bir nümayəndəlik öz dövləti üçün, onun siyasətinin vəzifələrini həyata keçirmək üçün nəyin xeyirli olması nöqteyi- nəzərdən hər addımını ciddi düşünməlidir. Bu, xüsusilə dövlətlər arasında iqtisadi və mədəni münasibətlərin inkişafına, siyasi əlaqələrin genişlənməsi və möhkəmlənməsinə aiddir.

Öz dövlətinin vətəndaşları və hüquqi şəxslərinin hüquq və mənafelərinin müdafiəsi nümayəndəliyin dövlət orqanları, məhkəmə və digər təsisatlar, zəruri hallarda isə bu ölkənin höküməti qarşısında çıxış etməyini tələb edir. Bu zaman xarici nümayəndəliyin, onun diplomatik və digər əməkdaşlarının bütün fəaliyyəti yerləşdiyi ölkənin qanun və adətlərini, dövlət və ictimai quruluşunu tanımağa və beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsipinə - nümayəndəliyin akkreditə edildiyi dövlətin daxili işlərinə qarışmamaq prinsipinə əsaslanır.

Diplomatik nümayəndəliyin xaricdə normal fəaliyyəti üçün hamı tərəfindən qəbul edilmiş birinci şərt - bu nümayəndəliyin ərazisi və binasının toxunulmazlığı, nümayəndəliyin şəxsi diplomatik heyətinin diplomatik immunitetidir. Diplomatik nümayəndəliyin bu hüquqi halı beynəlxalq hüquqda hamı tərəfindən qəbul edilmişdir. Nümayəndəliyin toxunulmazlığının və diplomatik immunitetinin pozulması beynəlxalq hüququn və dövlətin suveren hüquqlarının çox ciddi pozulması deməkdir. Buna görə də adətən, dövlətlər belə pozuntulara çox kəskin münasibət göstərirlər. Ərazilərində belə pozuntular baş verən dövlətlərin hökümətləri bu cür

faktların yolverilməzliyini başa düşür və dərhal ziyan çəkmiş dövlətin hökümətinə öz təəssüflərini, istintaq aparılacağını və təqsirkarların cəzalandırılacağını bildirirlər. Çünki, bütün bunlar edilməsə, həmin nümayəndəliyin ölkədən getməsi və diplomatik münasibətlərin kəsilməsi məsələsi ortaya çıxar. Ərazilərinin toxunulmazlığı qorunmadan və diplomatik immunitet təmin edilmədən heç bir ölkədə heç bir nümayəndəlik normal fəaliyyət göstərə bilməz. Bu məsələlərdən yeri gəldikcə növbəti bölmələrdə geniş bəhs olunacaqdır.

# II BOLMƏ

# XARİCDƏKİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİN VƏZİFƏLƏRİ, FƏALİYYƏTİ VƏ FUNKSİYALARI

Dövlətin digər dövlətlərlə və beynəlxalq təşkilatlarla xarici əlaqələrini həyata keçirən orqanlar dövlətdaxili və xarici orqanlara ayrılır.

Dövlətdaxili orqanlar daim həmin dövlətin ərazisində fəaliyyət göstərən xarici orqanlarıdır. Bu orqanlar öz növbəsində iki növə ayrılır:

1) dövləti bütün məsələlər üzrə təmsil edən orqanlar;
2) dövləti hər hansı bir sahə üzrə təmsil edən orqanlar.

Birinci qrupa dövlət başçısı, hökümət və Xarici İşlər Nazirliyi daxildir. Dövlət başçısı, hökümət başçısı və xarici işlər naziri həmin dövləti onun xarici əlaqələrində bütün məsələlər üzrə ***ex qfficio*** (yeni vəzifəsinə görə) təmsil edirlər.

Azərbaycan Respublikası Konstitusiyasına görə, Azərbaycan Respublikasının Prezidenti "ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir" (8-ci maddənin I-ci hissəsi). 109-cu maddəyə əsasən Prezident Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrini təyin edir və geri çağırır (15-ci bənd); xarici ölkələrin diplomatik nümayəndələrinin etimadnamə və övdətnamələrini qəbul edir (16-cı bənd); dövlətlərarası və hökümətlərarası beynəlxalq müqavilələr bağlayır, dövlətlərarası beynəlxalq müqavilələri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə

təqdim edir; təsdiqnamələri imzalayır (17-ci bənd); Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır (30-cu bənd).

Azərbaycan Respublikasının Hökuməti xarici siyasətin həyata keçirilməsinin təmin edilməsi üzrə tədbirlər həyata keçirir. Hökumətlərarası və idarələrarası müqavilələr müvafiq olaraq nazir və nazirlik və ya idarə başçısı tərəfindən imzalanır və Hökumət tərəfindən təsdiq olunur.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bilavasitə xarici əlaqələri həyata keçirən əsas orqandır və 2001-ci il iyunun 8- də qəbul olunmuş "diplomatik xidmət haqqında" Qanunun 2.2-ci maddəsinə əsasən Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının vahid sisteminə xidmət edir. Azərbaycan Respublikasının Prezidentinin 1992-ci il 9 aprel tarixli 660 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında" Əsasnamədə göstərilir ki, "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının başqa dövlətlərlə və beynəlxalq təşkilatlatla əlaqələrinə rəhbərlik edən dövlət idarəetmə orqanıdır. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsi, Azərbaycan Respublikasının xarici əlaqələr sahəsində işinin təşkili və vəziyyəti üçün məsuliyyət daşıyır".

Parlamentə gəldikdəisə, qeyd etmək lazımdır ki, xarici siyasət məsələlərində bu orqan əslində mühüm rol oynayır. Parlamentlər bu və ya digər aktual beynəlxalq məsələlərə öz münasibətini bildirir, digər ölkənin parlamentlərinə müraciətlər qəbul edir, beynəlxalq parlament təşkilatlarının (məsələn, Avropa Parlamenin, Avropa Şurasının Parlament Assambleyasının və s.) işində iştirak edir. Buna baxmayaraq Parlament beynəlxalq münasibətlərdə dövlətin təmsilçisi kimi çıxış etmir. O, dövlət adından müqavilələr bağimaq səlahiyyətinə malik deyildir. Parlament nümayəndələrinin verdikləri bəyanatlar müvafiq dövlət üçün beynəlxalq öhdəliklər döğurmur.

Xarici əlaqələr həyata keçirən dövlətdaxili orqanların ikinci qrupuna, əsas etibarilə Azərbaycan Respublikasının nümunəsində,

iqtisadi İnkişaf Nazirliyi (xarici investisiyalar və beynəlxalq iqtisadi əməkdaşlıq departamenti), Dövlət Gömrük Komitəsi və b. aiddir. Digər nazirlik və idarələr də dövlətdaxili qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində dövləti onun xarici əlaqələrində təmsil edirlər.

Xarici nümayəndəliyin yerləşdiyi ölkənin müxtəlif idarələri ilə əlaqələrinin bütün ölkələrdə mövcud olan ümumi qaydaları əsasən bunlardır; xarici dövlətin hər bir nümayəndəliyi müvafiq idarələrlə və rəsmi təşkilatlarla məişət məsələlərindən başqa bütün məsələlər üzrə əlaqələrini Xarici İşlər Nazirliyi vasitəsilə həyata keçirir. Məişətə aid məsələlərdə yəni xəstəxanadan, ticarət müəssisələrindən, poçtadan, teleqrafdan istifadəni bir qayda olaraq, xarici nümayəndəliklər özləri yaradırlar. Rəsmi idarə və təşkilatlarla diplomatik nümayəndəlik yerləşdiyi ölkənin Xarici İşlər Nazirliyi vasitəsilə əlaqə saxlayır. Bu qayda beynəlxalq təcrübə və beynəlxalq hüquqla müəyyən edilmiş, hamı tərəfindən qəbul edilmiş dövlətin daxili işlərinə qarışmamaq prinsipindən irəli gəlir.

Səfirin (diplomatik nümayəndənin) və səfirliyin diplomatik heyətinin rəsmi və İctimai dairələrlə əlaqəsi səfir dövlət başçısına etimadnamə təqdim etdikdən sonra başlayır. Buna qədər isə səfir və səfirlik dövlət və ictimai təşkilatlarla əlaqəyə girmir. Səfir etimadnaməni təqdim etdikdən sonra səfirlik işə başlamış hesab edilir... Etimadnamə təqdim edildikdən sonra səfirin adından bu dövlətin diplomatik münasibətlərdə olduğu ölkələrin səfirlik və missiya başçılarına səfirin adından şəxsi nota göndərilir. Belə bir nota, əgər bu siyasi cəhətdən məqsədə uyğundursa, diplomatik münasibətlərin olmadığı ölkə səfirliklərinə də göndərilə bilər. Notada məlumat verilir ki, filan tarixdə səfir ölkə başçısına öz etimadnamə sini təqdim etmişdir və onlarla rəsmi əlaqə saxlamağa şad olardı. Bu cür notanın mətni yerləşdiyi ölkə ilə diplomatik münasibətlərin vəziyyəti nəzərə alınmaqla tərtib edilir. Əgər siyasi cəhətdən ziddiyyət doğurmazsa, belə bir nota diplomatik korpusun diayeninə də göndərilə bilər.

Bundan sonra ölkədəki protokol qaydalarına müvafiq olaraq

rəsmi şəxslərin - xarici işlər nazirinin, nazirin müavinlərinin, şöbə müdirlərinin görüşlərinə getmək olar.

Yerləşdiyi ölkənin müxtəlif dairələri ilə daha geniş əlaqələr yaratmaqda maraqlı olan səfirlik imkan düşdükcə, təkcə XİN çərçivəsində yox, bütün nazirlərlə, ölkənin daha çox nüfuzlu şəxsləri - parlament sədri, parlament fraksiyalarının rəhbərləri ilə tanış olmaq və gələcəkdə onlarla şəxsi əlaqələri davam etdirmək, qəbullara, kinofılmlərə baxışlara dəvət etmək üçün görüşlər keçirir.

Səfirin getdiyi görüşlər heç də həmişə protokol səciyyəsi daşımır. Bu səfirin özündən asılıdır. Ümumi qayda belədir ki, protokol görüşünə nəzakət xatirinə gedilir və bu görüşdə, adətən mühüm məsələlərə toxunulmur. Bununla belə imkan yaranarsa və münasib olarsa, məsələn, səfirliyi maraqlandıran məsələlərlə məşğul olan hər hansı nazirlə görüşdə, bəzən səfir təbiidir ki, təkid etmədən bu məsələlərə toxunur., nazir isə lütfkarlıqla səfiri maraqlandıran suallara cavab verir.

Nazirləri parlament sədri, əsas parlament fraksiyalarının liderləri və nəhayət,səfirin təmsil etdiyi ölkə ilə münasibəti olan Ölkələrin səfirləri ilə söhbətlərdən bacarıqla istifadə edilərsə, bu münasibətləri yaxşılaşdırır. Məhz bu baxımdan həmin söhbətlər mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda bu söhbətlər yerləşdiyi ölkənin daxili vəziyyəti və xarici siyasəti haqqında zəngin informasiya verə bilər ki, bu da adətən, səfirliyin diplomatik fəaliyyəti üçün ciddi bazanı təşkil edir. Bundan əlavə bu söhbəti aparılan adamlar haqqında təsəvvür yaranır ki, səfirliyin gələcək işi üçün bunun mühüm əhəmiyyəti vardır. Səfirlər dövlət və ictimai xadimlər ilə görüşlər nəticəsində səfirliyin məşğul olacağı bir çox məsələlər haqqında təsəvvür yaranır.

Bir çox səfirliklərin təcrübəsi göstərir ki, iki-üç ay ərzində bu ölkədəki hadisələrin inkişafını əsasən başa düşmək və sonralar bu görüşləri daha da dərinləşdirməklə müşahidə etmək olar. Bütün diplomatik heyətin bu söhbət və görüşləri nəzərə alması xeyirli olar. Buna görə də müşavirlərin və ya bütün diplomatik heyətin icrasında

hər hansı səfir və ya nazirlə söhbətdə nəyin maraqlı olması haqqında qısa məlumatı çatdırmağı, bu söhbətlərin protokollarını səfirliyin diplomatik heyətinə oxumaq üçün verilməsini bəzi səfirlər məqsədəuyğun hesab edirlər.

Səfirin vizitlərindən sonra, adətən, səfirliyin digər işçiləri başqa səfirliklərin müvafiq işçiləri ilə tanış olurlar. Müşavirlər müşavirləri, birinci katiblər birinci katibləri və s. ziyarət edirlər. Səfirliyin müvafiq işçilərinin vizitindən sonra digər səfirliyin işçiləri cavab viziti edirlər. Bu, artıq digər ölkənin həmin nümayəndəsi ilə ikinci görüşdür və bu görüşdə birinci görüşdəki söhbəti davam etdirmək olar. Lakin bunu da nəzərə almaq lazımdır ki, bu görüşlər zamanı hər iki tərəf informasiya mübadiləsi edir. Digər ölkələrin təcmbəli səfir və diplomatik işçilərini təbii ki, həmkarlarının təmsil etdiyi ölkə haqqında bir sıra məsələlər, bu ölkənin siyasəti maraqlandırır, nə isə aydınlaşdırmaq istəyirlər. Bu söhbətlərdə qarşılıqlı surətdə fikir və informasiya mübadiləsi edilir, mübadilının xeyirli olub-olmaması həmsöhbətlərin təcrübə və diplomatik bacarığından asılıdır.

Beləliklə, diplomatik korpusa belə ünsiyyətdən diplomatlar çox böyük mənfəət əldə edir və sistematik kontaktlar yolu ilə bu əlaqələri gələcəkdə davam etdirirlər. Adətən, diplomatik təcrübə göstərdiyi kimi bütün danışıqlar yazılır, bu yazılardan təkcə səfirlik daxilində istifadə olunmur, həm də mərkəzə göndərilir.

Yerləşdiyi ölkədə nümayəndəliyin xarici ünsiyyət formalarına hökümətin, XİN-in, səfirliklərin təşkil etdiyi rəsmi qəbullarda iştirakı da aid etmək olar. Ölkələr arasında münasibətlərin yaxşılaşdırılması və qiymətli informasiyaların alınması üçün şəxsi kontaktların yaranmasında bu qəbullar əhəmiyyətlidir. Bu hər bir öhdəlikdən azad ünsiyyət formasıdır. Bundan bütün diplomatlar istifadə edirlər. Elə buna görə də çox halda böyük məsələlər qəbullarda həll edilir, çətinlik ortaya çıxdıqda isə bu çətinliyi aradan qaldırmaq üçün xüsusi qəbul təşkil edilir. BMT Baş Məclisinin sessiyaları, müxtəlif beynəlxalq müşavirələr zamanı, adətən ayrı-ayrı kateqoriyalı səfirlər, dövlət nümayəndələri üçün qəbullar, səhər

yeməkləri və naharlar təşkil edilir. Belə qeyri-rəsmi görüşlər zamanı mövqelər dəqiqləşdirilir, bu və ya digər dövlətə təsir göstərilir, bir sıra məsələlərdə - rəsmi şəraitdə bunlar üzrə razılığa gəlmək olmamışsa, mövqelərin yaxınlaşması baş verir. İkitərəfli görüşləri, bu və ya digər ölkəyə rəsmi səfərləri də buraya aid etmək olar.

Nəhayət, səfirlikdə, səfirin, müşavirin evində qəbulların təşkili də ünsiyyətin və informasiya toplamağın mühüm vasitəsidir. Səfirliyin bütün işi və ya ölkədə konkret şəraitdə onun qarşısında duran vəzifələrdən asılı olaraq belə qəbullar, adətən, əvvəlcədən planlaşdırılır.

Belə qəbulların təşkilinin bütün ölkələr tərəfindən qəbul edilmiş protokol qaydaları mövcuddur. Bu qəbulların hər biri, adətən, müəyyən vaxtlarda təşkil edilir. Belə ki, əvvəldə qeyd elədiyimiz kimi: səhər yeməyi saat 12:00 - 15:00 arasında, çox vaxt saat 13:00-da, nahar saat 20:00- 21:00 arasında, çay saatı 16:00- 18:00 arasında, kokteyl və "a ***lya furşet***** ( stol üzərində yüngül qəlyanaltı və başqa şeylər olmaqla) saat 17:00-20:00 arasında, bəzən lap gec (xüsusilə dövlət və ya hökümət başçılarının gəlməsi ilə əlaqədar böyük qəbullar) təşkil edilir.

Bəzi ölkələrdə (məsələn, Fransada) yüksək qonaqların təntənəli qəbulu zamanı nümayəndəliklərin başçıları üçün nahar təşkil edilir, nahardan sonra “kokteyl” tipli qəbul keçirilir ki, buraya daha çox qonaq dəvət edilir. Onlar isə əsas qonaqlar stol arxasından qalxanda (adətən, saat 22:00-da) gəlirlər. Hər qəbuldan əvvəl dəvət edənlə, dəvət olunan tərəflər təxminən eyni sayda olmaqla dəvət olunanların siyahısı tutulur (bu, kiçik qəbullar, səhər yeməyi və nahar təşkil edilərkən xüsusi əhəmiyyət kəsb edir, çünki bütün dəvət olunanların arxasında müvafiq şəkildə oturmağı tələb olunur). Bütün dəvət olunanlara əvvəlcədən adətən bir həftədən gec olmayaraq, müəyyən formada dəvətnamə göndərilir, bu dəvətnamələrdə qəbulun yeri və vaxtı, həmçinin geyim forması (adi səhər kostyumu, smokinq, frak, forma) göstərilir. Bu dəvətnamələrdə, adətən dəvətin qəbul edilməsi haqqında məlumat vermək xahiş olunur. Hər qəbul üçün müvafiq yer hazırlanır, menyu tərtib edilir.

yemək dəstləri müəyyən qaydada düzülür, dəvət olunanların rütbəsinə və qəbul zamanı aparılacaq söhbətlərin maraq dairəsinə uyğun olaraq kimin harada oturacağı müəyyən edilir. Ümumi qayda var ki, səhər yeməyi və naharda ancaq kişilər iştirak edirsə, ev sahibindən sağ tərəfdə əsas qonaq əyləşir. Əgər qonaqlar həyat yoldaşları ilə birgə dəvət olunurlarsa, ev sahibəsinin sağ tərəfində əsas qonaq, ev sahibinin sol tərəfində isə əsas qonağın xanımı əyləşir. Qonaqlar stol ətrafında yerləşdirilərkən bu qaydaya əməl edilir - ev sahibinə və onun xanımına yaxın yerlər ən hörmətli yerlər hesab olunur; ev sahibi və onun xanımdan uzaqlaşdıqca yerlər daha az hörmətli sayılır. Qadınla yanaşı (imkan dairəsində) qadın əyləşmir, ər ilə arvad yanaşı əyləşir. Qonaqlar yerləşdirilərkən yanaşı oturan qonaqların hansı dili bilmələri nəzərə alınmalıdır. Hər dəvət olunanın yeri stol üzərindəki onun soyadı yazılmış kartoçka ilə göstərilir, girişdə isə kiçik stol olur ki, dəvət olunan qonaqların stol arxasında yerləşdirilməsinin sxemi bu stolun üzərinə qoyulur. Qəbulda göstərilən xidmətin beynəlxalq protokol praktikasında hamı tərəfindən qəbul olunan və bütün ölkələrdə əməl edilən çoxsaylı detalları və nəzakət qaydaları mövcuddur.

Diplomatik nümayəndəliklərin hüquq və vəzifələrinin aydınlaşdırılması da zəruridir. Müəyyən bir ölkədə dövləti təmsil edən ali şəxs diplomatik nümayəndəliyin başçısı - səfirdir. Ümumi bir qayda vardır ki, özünün bu ölkədə daimi və ya müvəqqəti nümayəndəsi olan bütün təşkilatlar öz fəaliyyətlərini səfirlə razılaşdırmalıdırlar. Ölkəyə gələn bütün nümayəndə heyətləri və ayrı-ayrı şəxslər öz fəaliyyətlərini səfir ilə razılaşdırırlar, çünki bu dövlətin ərazisində onların bütün fəaliyyətləri üçün öz dövlətinin başçısı, hökuməti qarşısında səfir tam məsuliyyət daşıyır.

Səfir xaricdə dövləti təmsil etdiyi üçün ona geniş hüquqlar verilir. Səfirlikdə, həmçinin təmsil etdiyi ölkənin bu dövlətin ərazisindəki vətəndaşları arasında baş verən bütün hadisələr səfirin səlahiyyətinə daxildir. Tam səlahiyyətə malik və daha təcrübəli işçi kimi səfir bu ölkəyə ezam edilmiş həmvətənlərini təlimatlandırmalı, öz dövlətinə dəyə biləcək ziyanın qarşısını almaq məqsədilə bütün

işçilərin hərəkətlərinin müşahidə olunmasını təmin etməlidir. Səfirin hər bir göstərişi dövlətin bu ölkədəki bütün vətəndaşları üçün məcburidir.

Səfirliyin müşavirləri idarələrində olan iş sahələrinə (siyasi, iqtisadi, mədəni münasibətlər və s.) səfirin nəzarəti ilə müstəqil surətdə rəhbərlik etmək hüququna malikdirlər. Müşavirlərdən biri, adətən işlər müvəkkili olaraq qalır, səfir səfərdə olarkən və ya səfirlikdə olmadıqda səfirin müvafiq hüquqlarından İstifadə edərək səfirliyin işi üçün tam məsuliyyət daşıyır.

Səfirliyin digər diplomatik işçiləri (katiblər, attaşe) adətən səfirliyin işinin müəyyən sahəsi üçün cavabdeh olur və müvafiq hüquqlardan istifadə edirlər.

Diplomatik işçilərdən başqa səfirlik və missiyalarda texniki-inzibati işçilər və nümayəndəliyə xidmət edən personal olur. Bu personalın bir hissəsi səfirliyin yerləşdiyi ölkədə akkreditə edilmiş dövlətin vətəndaşlarıolan bütün diplomatik əməkdaşlar, texniki- inzabati işçilər, onlarla bir yerdə yaşayan ailə üzvləri, bir qayda olaraq, vəzifə borclarını yerinə yetirərkən göstərdikləri fəaliyyət dairəsində əsas imtiyaz və immunitetlərdən istifadə edirlər. Vəzifə borclarından kənar fəaliyyətlərində onlar yerləşdikləri dövlətin və inzibati yurisdiksiyasında olurlar.

Nümayəndəliyin yerləşdiyi dövlət istənilən vaxt akkreditə edən dövlətə məlumat verə bilər ki, nümayəndəliyin başçısı və ya hər hansı əməkdaşı ***persona non qratadır*** (arzuolunmaz). Həm də bu zaman o öz qərarım əsaslandırmaya da bilər. Həmin diplomatik işçi arzuolunmaz şəxs elan olunduqdan sonra akkreditə edən dövlət onu geri çağırmalı və ya nümayəndəlikdə onun diplomatik fəaliyyətini dayandırmalıdır.

Bununla belə, nümayəndəliyin yerləşdiyi dövlət nümayəndəliyin və onun əməkdaşlarının öz vəzifələrini yerinə yetirməsinə yardım etməli, onların yerləşdiyi ölkədə və öz dövlətlərilə rəsmi əlaqələrini qorumalıdır. Hətta müharibə zamanı belə, nümayəndəliyin yerləşdiyi dövlət nümayəndəlik əməkdaşlarının (ailələri ilə birlikdə) tezliklə vətənə qayıtmalarına kömək etməlidir.

iki dövlət arasında diplomatik münasibətlər kəsildiyi və nümayəndəlik əməkdaşlarının getdiyi halda nümayəndəlik yerləşdiyi dövlət nümayəndəliyin əmlakına hörmət etməli və qorumalıdır. Adətən, akkreditə edən dövlət öz mənafeyinin və öz vətəndaşlarının mənafeyinin müdafiəsini, həmçinin əmlakının müha- vizəsinİ nümayəndəliyin yerləşdiyi dövlət üçün münasib olan, bu ölkədə nümayəndəliyi olan üçüncü bir dövlətə etibar edir.

Səfirlik və missiyaların əsas funksiyalarından biri də yerləşdiyi dövlətin xarici işlər idarəsi, hökuməti, parlamenti və ictimai dairələri ilə, həmçinin bu ölkədəki xarici nümayəndəliklərlə gündəlik əlaqə saxlamalıdır. Bu əlaqə müəyyən istiqamətə malikdir. Bu, yerləşdiyi ölkənin siyasi və iqtisadi vəziyyətini öyrənməkdən, həmin ölkənin iqtisadi və siyasi vəziyyəti haqqında öz dövlətinə məlumat verməkdən, bu ölkə ilə əməkdaşlığı genişləndirmək məqsədilə onun xarici siyasətini öyrənməkdən, həmçinin öz dövlətinin vətəndaş və hüquqi şəxslərinin hüquq və mənafelərini müdafiə etməkdən ibarətdir. Diplomatik nümayəndəliyin əməkdaşlarını iki əsas kateqoriyaya bölmək olar - diplomatik heyət və texniki heyət.

***Səfirlik və missiyanın diplomatik və texniki heyəti.*** Səfirlik və missiyanın diplomatik heyətinə səfir, müşavir - diplomatik nümayəndə və digər diplomatik işçilər daxildir. Müşavir - diplomatik nümayəndə - səfirdən sonra ikinci şəxsdir, diplomatik nümayəndə dərəcəsinə malikdir və səfirin birinci müavinidir. Sonra ayrı-ayrı məsələlər üzrə müşavirlər gəlir, bunlar bilavasitə iş aparan diplomatik müşavirlərdir.

Daha sonra səfirliyin və missiyanın birinci, ikinci, üçüncü katibləri və attaşelər gəlir. Attaşelər müxtəlif funksiyaları yerinə yetirirlər. Məsələn, mətbuat attaşesinin məlumat məsələləri ilə məşğul olur və müvafiq XİN-in mətbuat şöbələri ilə və yerli, xarici qəzet müxbirləri ilə əlaqə saxlayır. Bəzən mətbuat attaşesinin vəzifələrini daha böyük diplomatik işçi - birinci və ya ikinci katib rütbəli işçi yerinə yetirir. Ticarət attaşesi - əgər ticarət nümayəndəliyi və ya ticarət müşaviri yoxdursa, ticarət işlərində kiçik

vəzifədir. Nəhayət, hərbi attaşe, hərbi-dəniz, hərbi-hava və ya iki köməkçisi: hərbi-dəniz və hərbi-hava işləri üzrə köməkçisi olan hərbi attaşe səfirliklərdə olur.

Diplomatik heyət daxilində məlum vəzifə bölgüsü aparılır və demək olar ki, bütün səfirliklərdə müvafiq şöbələr vardır. Bütün səfirliklərdə iki şöbəyə - ***konsul şöbəsinə və mətbuat şöbəsinə*** rast gəlmək olar. Konsulluq olmadıqda konsul şöbəsi səfirlik daxilində bir qədər az hüquqla onun vəzifələrini yerinə yetirir. Baş konsullar, konsullar və vitse-konsullarla müqayisədə konsul şöbəsinin müdiri bu ölkədə daha məhdud hüquqa malikdir və onlardan fərqli olaraq nə öz dövlətindən konsul patenti, nə də təyin olunduğu ölkənin xarici işlər idarəsindən ekzekvatura alır. Bundan əlavə konsul şöbəsinin müdiri öz höküməti, daha dəqiq desək, XİN adından deyil, yalnız səfirlik adından hərəkət edir və səfirliyin fəaliyyət dairəsində bu və ya digər konsul funksiyalarını yerinə yetirir.

Səfirliyin mətbuat və ya informasiya şöbəsi yerləşdiyi ölkənin gündəlik mətbuatını izləyir, müxtəlif məlumatlar toplayır, müxbirlərlə, iri qəzetlərin redaktorları ilə əlaqə saxlayır, mətbuatdan, ölkənin kifayət qədər məlumatlı adamları olan mətbuat işçilərindən zəruri informasiyanı alır, həmçinin öz ölkəsi haqqında informasiya ilə və onun siyasəti ilə yerli mətbuatı tanış edir.

Həmin dövlətin daxili və xarici siyasətini öyrənmək, gündəlik daxili siyasətini izləmək üçün səfirlikdə səfirlik müşavirinin rəhbərliyi ilə xarici və daxili siyasət məsələləri ilə məşğul olan ***diplomatik işçilər qrupu*** təşkil edilir.

Nəhayət, ***tədbirlərinin*** təşkili üçün bir və ya iki nəfər ayrılır. Bu sahədə yerli və milli protokol qaydalarını və onlara riayəti tələb edən məlum sistem eyniliyini gözləmək lazımdır ki, qəbul və vizitlət müəyyən qaydada təşkil edilsin və arzuolunmaz ixtilaflara səbəb olmasın. Adətən, bu ölkədəki protokol qaydalarını bilən katiblərdən biri həmin qaydaların yerinə yetirilməsinə nəzarət edir və hər cür protokol tədbirinin hazırlanmasında təşkilati işləri həyata keçirir.

Nəhayət, səfirlikdə təsərrüfat müdirinin rəhbərlik etdiyi

***inzibati-təs^rrüfat şöbəsi*** vardır. Adətən katiblərdən biri, hətta müəyyən bir müşavir bütün inzibati-təsərrüfat işlərinə nəzarət edir. Çünki bu sahədə bir çox məsələlər üzrə çıxır. Məsələn, təmir üzrə müqavilələrin bağlanması, alınmış əşyaların çatdırılması kimi məsələlər diplomatik işçinin nəzarətini tələb edir. Ona görə ki, həmin dövlətin rəsmi idarələri ilə əlaqə saxlamaq və XİN-nə müraciət etmək lazım gəlir.

***Səfirliyin strukturu***

Misal kimi səfirliklərdən birinin aşağıdakı strukturunu göstərmək olar:

Xarici siyasət məsələləri üzrə qrup (böyük səfirliklərdə şöbə);

Daxili siyasət məsələləri üzrə qrup (ya şöbə);

İqtisadi məsələlər üzrə qrup (ya şöbə)

Mətbuat qrupu (şöbəsi);

Konsulluq şöbəsi;

Təsərrüfat qrupu (mühafizə, nəqliyyat, təmizlik və s. məsələləri idarə edir).

Səfirin katibliyi (protokol məsələlərini idarə edir).

***Səfirliyin daxili quruluşu, işinin forma və metodlan***

Səfirliyin strukturu və daxilində qüvvələrin bölüşdürülməsi təxminən bu cürdür.

Diplomatik nümayəndəliyin hərtərəfli fəaliyyətini təmin etmək üçün onun işinin müvafiq daxili təşkili, səfirlik daxilində qüvvələrin müvafiq surətdə yerləşdirilməsi və səfirlikdən kənarda müəyyən tədbirlərin keçirilməsi tələb olunur.

Yerləşdiyi ölkəni öyrənmək, siyasi və iqtisadi vəziyyət, ölkədəki aktual hadisələr haqqında zəruri informasiya toplamaq və onları düzgün qiymətləndirmək hər bir səfirliyin birinci dərəcəli vəzifəsidir. Çünki vaxtında alınmış və təhlil edilmiş informasiya olmadan diplomatik nümayəndəliyin ciddi və düşünülmüş işi mümkün deyildir. Müasir beynəlxalq şəraitdə bu vəzifə xüsusi əhəmiyyət kəsb edir. Son dövrdə dünyada çox sürətli və bəzən

radikal dəyişikliklər baş verir ki, bu da marağı olan hökümətlərdən düzgün münasibət göstərmək və müvafiq addımlar atmaq üçün dəyişikliklərin vaxtında nəzərə alınmasını tələb edir.

Ölkəni öyrənərkən qarşıya çıxan birinci sual budur: nəyi öyrənmək, ölkə haqqında hansı informasiyaları toplamaq lazımdır?

Əgər tədqiqatın əsas sahələrindən danışsaq, onları üç iri sahəyə bölmək olar.

Birincisi - iqtisadiyyat və iqtisadi inkişafın meyllərini ciddi surətdə öyrənmək zəruridir. Müasir şəraitdə, təbii ki, böhran hadisələri, onların təhlili və perspektivi xüsusilə diqqət cəlb edir.

İkincisi - daxili siyasəti, hökümətin sosial-iqtisadi tədbirlərini, qüvvələrin yerləşməsini, siyasi partiyaların mübarizəsini, parlamentdaxili vəziyyəti, kütləvi təşkilatların - həmkarlar ittifaqlarının, kəndli təşkilatlarının, ali məktəb tələbələrinin, ziyalıların mövqelərini, ordudakı vəziyyət, hökümət idarələrinin sabitliyini və əlbəttə, daxili siyasətin xarici siyasətə təsirini diqqətlə öyrənmək tələb olunur.

Üçüncü - xarici siyasət, onun istiqamətləri, bu ölkənin qonşuları ilə, böyük dövlətlərlə, əsas dövlət qrupları ilə qarşılıqlı əlaqəsi.

***Səfirliyin informasiya mənbələri hansılardır?***

Təcrübə göstərir ki, yerləşdiyi ölkənin siyasi və iqtisadi vəziyyəti haqqında informasiya toplanmasının müvəffəqiyyətini təmin etmək üçün bu işi elə qurmaq lazımdır ki, nümayəndəliyin hər bir işçisinin informasiya bazası olsun. Belə bir baza hər şeydən əvvəl bu ölkənin mətbuatı ola bilər. Mətbuat-informasiyasnın ilk mənbəyi və informasiya toplamaq üçün daimi bazadır. Digər tərəfdən əhalinin müxtəlif təbəqələrindən olan ayrı-ayrı şəxslərə söhbət yolu ilə şəxsi ünsiyyət bu ölkə əhalisini maraqlandıran siyasi və iqtisadi məsələlər haqqında, həmçinin ölkə həyatının ayrı-ayrı tərəfləri haqqında daha konkret təsəvvür yaradır.

Səfirlik daxilində informasiya toplanması üzrə iş necə təşkil ola bilər?

Birincisi, praktiki olaraq müəyyən adamlar ayrılır ki, onlar mətbuatı izləməli və yerli qəzetlərin müxbirləri, qəzet redaktorları ilə və görkəmli jurnalistlərlə əlaqə yaratmalıdırlar. Bu əlaqələr ölkənin ictimayyətini maraqlandıran məsələlər haqqında əlavə canlı təsəvvür yaratmağa imkan verir.

Məlumdur ki, mətbuat bu ölkənin ictimayyətini maraqlandıran məsələlərlə, müxtəlif siyasi qrupların, əhalinin müxtəlif təbəqələrinin nöqteyi-nəzərilə tanış edir, lakin ancaq bir mətbuat vasitəsilə düzgün informasiya toplamaq olmaz. Buna görə də mətbuatla tanışlıqdan başqa şəxsi müşahidələr, insanlarla şəxsi ünsiyyət lazımdır. Bunlarsız informasiya tam olmaz, həqiqəti düzgün əks etdirməz. Bu iki informasiya mənbəyinə müvafiq olaraq səfirlikdə informasiya məsələləri ilə məşğul olan iki qrup işçi ayrılır. Bir qayda olaraq, diplomatik heyətin tərkibində mətbuat şöbəsinin faktiki rəhbəri olan mətbuat attaşesi olur. Bu attaşe dilləri yaxşı bilən və dövri mətbuatı diqqətlə izləyən işçilər qrupundan ibarətdir; digər tərəfdən, diplomatik işçilər qrupu ayrılır ki, onlar da ölkənin daxili siyasətini öyrənərək siyasi partiyalarla (iqtidarda və müxalifətdə olan), baxışları və fəaliyyətləri ölkənin siyasi inkişafında əsas təmayülləri başa düşmək üçün əhəmiyyət kəsb edən şəxslərlə əlaqə saxlayır. Adətən, sİyasi məsələlər üzrə qrupa səfirliyin müşavirlərindən biri və ya birinci katib başçılıq edir. Bu qrup içərisində ölkənin iqtisadiyyat məsələləri ilə məşğul olan işçilər də olur.

Bəzi səfirliklərdə mətbuatla iş sistemi bu cür təşkil edilir: hər gün səhər mətbuat şöbəsinin işçiləri ölkənin inkişafındakı siyasi istiqamətləri əks etdirən əsas qəzetləri gözdən keçirir, ölkə daxilindəki vəziyyəti qiymətləndirmək baxımından diqqəti cəlb edən məqalələri seçib ayırırlar. Şöbənin işçilərindən biri və ya qrupun rəhbəri cari gün üçün kiçik xülasə hazırlayır. Bəziölkələrin əksəriyyətində həddindən çox qəzet çıxır ki, bunların hamısını gözdən keçirmək mümkün deyildir. Buna görə də bir qayda olaraq, ölkənin siyasi simasını, ictimai fikrini müəyyən edən 5-10 qəzet götürülür (həm İqtidar, həm də müxalifət orqanlarından).

Sonra səfir və ya müşavir səfirliyin bütün diplomatik heyətini toplayır və qısa müşavirədə 20-30 dəqiqə ərzində mətbuat şöbəsinin işçisi həmin gün üçün (bəzən 2-3 gün və ya bir həftə üçün) diqqətə layiq materialların: baş məqalələrin, bəzən bütün siyasi əhəmiyyətli qısa (2-3 sətir) xarici məlumatların xülasəsini oxuyur. Daha sonra, səfirliyin bu vaxta qədər qəzetləri nəzərdən keçirmiş digər işçiləri, hər kəs özünün məşğul olduğu məsələlər üzrə mətbuat şöbəsi işçisinin məlumatını toplayır. Səfirliyin diplomatik işçiləri əldə edilmiş məlumatların daha mühümləri barədə öz fikirlərini söyləyirlər, səfir və ya müşavir səfirlik heyətinin hansı məsələlərə daha çox diqqət yetirməli və bu məsələlərin sonrakı inkişafına nəzarət etmək lazım olduğu haqqında fikrini söyləyir, hansı məsələlərin mətbuatda kifayət qədər işıqlandırılmadığını, bu məsələlərin əlavə olaraq necə öyrənilməsini və s. göstərir. O, həmin məsələ ilə məşğul olan müvafiq işçiyə təkcə gündəlik mətbuatdan deyil, xüsusi jurnallardan, kitablardan, radio və televiziyadan və s. daha geniş material toplamağı həvalə edir. Mətbuatın xülasəsinə həsr edilmiş bu cür müşavirələr həftədə iki-üç dəfə, hətta həftədə bir dəfə, ayda iki dəfə keçirilə bilər.

Səfirlikdə mətbuatda işıqlandırılmış müəyyən məsələlərə, məsələn, xarici siyasət üzrə parlament müzakirələrinə həsr edilmiş müşavirələr keçirilə bilər. Səfirliyin bütün diplomatik heyətinin ölkənin nə ilə yaşadığından və ölkədəki vəziyyəti Öyrənərkən nəyə diqqət yetirməyin vacibliyindən xəbərdar olması mühümdür. Diplomatik heyətin belə müşavirələri keçirərkən səfirliyin rəhbərliyi müvafiq işçiyə operativ olaraq göstərir ki, onlar ilkin hansı məsələ ilə məşğul olsunlar, bu və ya digər xadimlə yaxın görüşlərdə həmin məsələləri daha ətraflı aydınlaşdırsınlar.

Mətbuatın təhlilindən başqa səfirlikdə diplomatik heyətin digər müşavirələri də keçirilir, bu müşavirələrdə çox vaxt praktik səciyyəli məsələlər ortaya çıxır. Məsələn, qəzetdə gedən müxtəlif məlumatla əlaqədar səfirliyə telefonla zəng vurub bu və ya digər məsələyə münasibətlərini soruşurlar. Bəzən qəzetlərdə bilavasitə səfirliyə aid qeydlər və məqalələr olur. Çox vaxt bu qeyd və

məqalələr xüsusi məqsədlə- sədrliyin bu qeydə münasibətini bilmək üçün dərc edilir. Belə müşavirələrdə bu qəbildən olan sorğu, qeyd və məqaləyə necə cavab verməyi, sonralar bu hallarda hansı tədbirləri görmək lazım olduğunu müzakirə etməkolar.

İkinci informasiya mənbəyi-adamların qəbuludur. Adamların qəbuluna səfirlikdə ciddi fikir verilir. Gələnləri, adətən, bu ölkənin dilini bilən növbətçi referent qarşılayır və onları hansı məsələlər maraqlandırdığını aydınlaşdırır. Adətən, bütün növbətçilər bu cür söhbətlər aparmaq haqqında təlimat alırlar.

Əgər səfirliyə siyasi xadim, məsələn, parlament deputatı və ya görkəmli jurnalist gəlibsə, növbətçi onu maraqlandıran məsələni aydınlaşdırdıqdan sonra bu, məqsədə uyğundursa həmin xadimi səfirliyin məsul işçilərindən birinə- müşavirə və ya səfirə təqdim edir.

Belə xadimlərlə söhbət çox faydalıdır, çünki söhbət zamanı bir sıra məsələlər haqqında fikir mübadiləsi etməyə, müsahibi maraqlandıran məsələləri aydınlaşdırmağa və lazimi informasiyam almağa imkan yaranır. Gələnlərin səfirlik qarşısında qaldırdıqları məsələləri nəzərə almaq və səfirliyin operativ işi üçün nəticələr çıxarmaqdan ötrü, adətən, məsul növbətçi xüsusi gündəlikdə gələnlərlə söhbətlərinin qeydini aparır.

Səfirliyin daxili işinin bir hissəsini yerləşdiyi ölkə XİN-i ilə, xarici səfirliklərlə, həmçinin digər ölkələrlə və ayrı-ayrı şəxslərlə yazışma təşkil edir. Yazışma şifahi söhbətdən də əhəmiyyətlidir. Səfirliyin yazışması, hətta ayrı-ayrı şəxslərlə yazılı əlaqələri yaxşı təşkil edilməlidir, çünki səfirlikdən gedən hər bir sənəd rəsmi xarakter daşıyır.

Yerləşdiyi ölkə XİN-i ilə yazışmaya, konsul məsələlərinə nəzarət edən konsul şöbəsi müdirinin və ya müşavirin icazəsi ilə göndərilən adi konsul notaları (viza, sənədlərin leqallaşdırılması) istisna olmaqla, səfir rəhbərlik edir. XİN ilə digər yazışmalar üçün səfir və ya ayrı-ayrı hallarda müşavir sanksiya verir.

Məktubların çoxunu universitetlər, kitabxanalar, müxtəlif mədəniyyət idarələri, parlamentin ayrı-ayrı deputatları, müxtəlif

firma və təşkilatlar göndərirlər. Adətən, məktublar dəftərxanaya daxil olur və dəftərxana müdiri məktubları təyinatı üzrə bölür. Müvafiq şöbələrin müdirləri onlara göndərilən məktubları nəzərdən keçirirlər. Bütün səfirliyi maraqlandıracaq məktub olduqda onlar haqda səfirə məlumat verilir.

İqtisadi və mədəni əlaqələrin inkişaf səfirliklər qarşısında yerləşdikləri ölkənin iqtisadi və ya mədəni inkişafının ayrı-ayrı məsələlərini öyrənmək vəzifəsini qoyur. Ədəbiyyatla tanışlıqdan başqa, söz yox ki, bu və ya digər xadimlərlə şəxsi ünsiyyət, onlarla söhbət mühüm əhəmiyyətə malikdir.

Son vaxtlar səfirlikdə və ya ondan kənarda kinofilmlərin nümayişi kimi ünsiyyət formasından səfirliklər geniş istifadə edirlər. Bu zaman qəbullar təşkil edilir, qəbul zamanı həm kinofilm haqqında, həm də aktual siyasi məsələlər haqqında fikir mübadiləsi edilir.

Mədəni sərvətlərin mübadiləsi, mədəniyyət və incəsənət nailiyyətləri ilə qarşılıqlı tanışlıq, xalqlar arasında qarşılıqlı anlayış əlaqələri genişləndirməyin mühüm vasitələrindən biridir. Buna görə də səfirlik yerləşdiyi ölkənin iri şəhərlərində musiqiçilərin, artistlərin konsertlərinin təşkili kimi mədəni ünsiyyət formalarından istifadə edir.

Diplomatik nümayəndəliyin yerləşdiyi ölkənin ictimayyəti ilə ünsiyyətin mühüm forması mətbuat konfransları, müsahibə, səfirim, müşavirin, mətbuat attaşesinin, ticarət müşavirinin və s. açıq çıxışlarıdır. Müvafiq qəzet işçiləri üçün səfirlikdə təşkil edilmiş mətbuat konfransları, adətən, nümayəndəliyin yerləşdiyi ölkədə geniş əks- səda doğurur.

Nəhayət, səfirliyin bülleteninin, yurnal və kitabların nəşri kimi vasitələrdən də istifadə olunur.

Bütün bunlarla yanaşı, diplomatik nümayəndəliyin və onun üzvlərinin məskun olunan dövlət barəsində də bəzi vəzifələri mövcuddur. 1961-ci il Vyana Konvensiyasında diplomatik nümayəndəliyin onun yerləşdiyi dövlət barəsində iki əsas vəzifəsi göstərilir:

1. Nümayəndəlik öz binalarını yalnız rəsmi məqsədlər üçün istifadə etməlidir;

2. Nümayəndəlik qaldığı dövlətdə rəsmi münasibətlərini Xarici İşlər Nazirliyi və ya barələrində müvafiq razılaşma əldə edilmiş digər idarələr vasitəsilə qurmalıdır.

Diplomatik nümayəndəliyin əməkdaşları qaldıqları dövlətin qanun və qərarlarına hönnət bəsləməli və onun daxili işlərinə qarışmamalıdır. Diplomata qaldığı dövlətdə öz şəxsi mənfəəti məqsədilə peşə və kommersiya fəaliyyəti ilə məşğul olmaq qadağandır.

Bütün bunlar - yəni diplomatik nümayəndəliyin fəaliyyəti beynəlxalq hüquq normalarına əsaslanır və beynəlxalq hüquqla tənzimlənir.

Diplomatik nümayəndəlik dövlətin başqa bir dövlətin ərazisində yerləşən, həmin dövlətlə diplomatik münasibətləri həyata keçirən orqanıdır. Diplomatik nümayəndəliklər müvafiq iki dövlət arasında razılaşmaya əsasən təsis olunur. Çox hallarda belə bir razılaşmanın əldə olunması həmin dövlətlər arasında diplomatik münasibətlərin qurulması ilə eyni vaxta düşür.

Beynəlxalq praktikada diplomatik nümayəndəliklərin iki növü mövcuddur?

1. Səfirlik ən yüksək səviyyəli diplomatik nümayəndəliklərdir; onların başında fövqəladə və səlahiyyətli səfir dayanır.

2. Missyalar daha aşağı səviyyəli diplomatik nümayəndəlik hesab olunur; onlara fövqəladə və səlahiyyətli elçi və ya müvvəqəti işlər müvəkkili rəhbərlik edir.

Diplomatik nümayəndəlik öz dövlətinin qəbul edən dövlətdə bütün məsələlər üzrə rəsmi təmsilçisidir. Diplomatik münasibətlər haqqinda 1961-ci il Vyana Konvensiyasına görə (3-cü maddə), diplomatik nümayəndəliyik aşağıdakı funksiyaları həyata keçirir:

1) akkreditə edən dövlətin qəbul edən dövlətdə təmsil olunması;

2) akkreditə edən dövlətin özünün və onun vətəndaşlarının mənafelərinin müdafiəsi;

3) qəbul edən dövlətin hökuməti ilə danışıqlar aparılması;

4) bütün qanuni vasitələrlə, qəbul edən dövlətdə olan şəraitin və hadisələrin öyrənilməsi və onlar barəsində öz hökumətinə məlumat verilməsi (informasiya funksiyası);

5) akkreditə edən dövlətlə qəbul edən dövlət arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi.

Bunlardan əlavə, diplomatik nümayəndəliklər bəzi hallarda konsulluq funksiyaları da həyata keçirirlər; bu məqsədlə səfirliklərin və ya missiyaların tərkibində konsulluq şöbələri təsis olunur.

Səfirliklər Konsulluq idarələri (və ya daimi missiyalar) kimi konsulluqlar da dövləti onun sərhədlərindən kənarda təmsil edən daimi nümayəndəliklərdir. Lakin konsulluqlar aşağıdakı funksiyalarına görə diplomatik nümayəndəliklərdən fərqləniş. Bundan əlavə, onlar qəbul edən dövlətin bütün ərazisində deyil, onun yalnız bir hissəsini əhatə edən və qarşılıqlı razılıq əsasında müəyyən olunan ***konsulluq dairəsində*** fəaliyyət göstərir. Beləliklə, bir dövlətin ərazisində başqa bir dövlətin bir neçə konsulluq idarəsi ola bilər. Konsulluq münasibətləri müvafiq dövlətlər arasında diplomatik münasibətlər olmadığı halda da qurula bilər, digər tərəfdən, diplomatik münasibətlərin kəsilməsi hələ konsulluq münasibətlərinin xitam olunması demək deyildir. Diplomatik nümayəndədən fərqli olaraq, konsul öz dövlətinin qəbul edən dövlətdə ***səlahiyyətli nümayəndəsi sayılmır.*** O, öz dövlətini yalnız müəyyən məsələlər üzrə və yalnız öz konsulluq dairəsində təmsil edir.

Konsulluq funksiyalar! xüsusi konsulluq idarələri tərəfindən və ya tərkibində konsulluq şöbələri olan diplomatik nümayəndəliklər tərəfindən həyata keçirilir. Konsulluq idarələrinin dörd növü vardır: 1) baş konsulluqlar; 2) konsulluqlar; 3) vitse- konsulluqlar və 4) konsul agentlikləri. Buna uyğun olaraq, dörd konsul dərəcəsi mövcuddur: 1) baş konsul; 2) konsul; 3) vitse- konsul və 4) konsul agenti.

Bəzi dövlətlər öz praktikasında fəxri və ştatdankənar konsullardan istifadə edirlər. Adətən, fəxri konsullar konsulluğun yerləşdiyi dövlətdə daimi yaşayan şəxslərin sırasından təyin olunur. Onlar təyin edən dövlətin dövlət qulluqçuları ştatında hesab

olunurlar və bu işə məvacib almırlar.

Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin XIII fəsli ştatdankənar konsullara həsr olunmuşdur. Burada deyilir: "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi konsulluğun yerləşdiyi dövlətin razılığına əsasən ayrı-ayrı konsul funksiyalarının yerinə yetirilməsini ştatdankənar konsullara tapşıra bilər" (95-ci maddə); "Ştatdankənar konsulların funksiyalarını Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi müəyyənləşdirir" (96-cı maddə); "Ştatdankənar konsullar Azərbaycan Respublikasının dövlət qulluğunda olmurlar" (97-ci maddə). Az.ərbaycan Respublikası yalnız əsasən şlatlı konsullardan istifadə edir.

Konsulluq münasibətləri haqqında 1963-cü il Vyana Konvensiyasına görə, konsulluqlar aşağıdakı funksiyaları həyata keçirirlər:

1. öz dövlətinin, onun hüquqi şəxslərinin və vətəndaşlarının mənafelərini qorumaq;

2. öz dövləti ilə qəbul edən dövlət arasında ticarət, iqtisadi, mədəni, elmi və digər əlaqələrin inkişafına yardım göstərmək;

3. konsulluq dairəsinin iqtisadi və siyasi həyatına dair məlumat toplamaq və öz dövlətinin Xarici İşlər Nazirliyinə çatdırmaq;

4. öz dövlətinin vətəndaşları üçün inzibati və notariat funksiyaları həyata keçirmək (mülki-hüquqi vəzifələri yerinə yetirmək - kəbin, ölüm, doğum qeydiyyatı aparmaq, gediş-gəlişini təmin etmək və. s);

5. öz dövlətinin dəniz və hava gəmilərinə, digər nəqliyyat növləri və onların heyəti ilə bağlı müəyyən vəzifələr yerinə yetirmək;

6. öz dövlətinə səfər edən əcnəbilərə vizalar vermək və s.

1963-cü il Konvensiyasına görə, konsulluq idarəsinin heyəti üç kateqoriyaya bölünür:

1. konsulluq xidmətində olan və konsulluq funksiyalarını yerinə yetirən vəzifəli şəxslər;

2. inzibati-texniki işləri yerinə yetirən konsul qulluqçulqrı;

3. xidmətçi heyət.

Konsulun funksiyaları aşağıdakı hallarda sona yetir:

- onu təyin etmiş dövlət tərəfindən konsulun geri çağırılması;
- konsulun persona non qrata elan olunması;
- konsul patentinin müddətinin başa çatması;
- konsulluq dairəsinin yerləşdiyi ərazinin qəbul edən dövlətin suverenliyindən çıxması;

> konsulluq idarəsinin bağlanması;

- konsulluq münasibətlərinin xitam olunması;
- təmsil olunan dövlət ilə qəbul edən dövlət arasında müharibə başlaması.

Azərbaycan Respublikası konsulluqlarının heyəti, funksiyaları, funksiyaların həyata keçirilməsi qaydası və digər rnəsələlər Azərbaycan Respublikasının 8 fevral 1994-cü il tarixli Qimunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Konsul Nizamnaməsində öz əksini tapmışdır.

***Diplomatik nümayəndəliklərin fəaliyyətinin tənzimlənməsində beynəlxalq hüquq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi.***

Diplomatik nümayəndəliklərin və onların personalının beynəlxalq hüquqi statusu "diplomatiya hüququ" adı altında birləşən beynəlxalq hüquq normaları ilə tənzimlənir.

Baxmayaraq ki, diplomatiya hüququ beynəlxalq hüququn ənənəvi bir sahəsidir, onun doktrinasında bu vaxta qədər bu sahənin normalar sistemi bir vahid şəkildə işlənməmişdir. Hüquq ədəbiyyatında "diplomatiya hüququ" anlayışına iki müxtəlif yanaşma mövcuddur: geniş və dar mənada. Geniş mənada diplomatiya hüququ adı altında dövlətin xarici əlaqələr orqanının status və funksiyalarını tənzimləyən beynəlxalq hüquq normalarının sistemi, xüsusilə də diplomatik nümayəndəlik və konsul idarələrinə, xüsusi missiyalara, beynəlxalq təşkilatlarda dövlətlərin nümayəndəliklərinə, beynəlxalq təşkilatların və onların əməkdaşlarının imtiyaz və immunitetlərinə aid olan normalar başa düşülür. Dar mənada diplomatiya hüququ yalnız diplomatik nümayəndəliklərin funk

siyaları və statusunu tənzimləyən beynəlxalq hüquq normalarının birliyi kimi anlaşılır. Keçmişdə bu normalar sistemini səfirlik hüququna aid edirdilər. Bəzi hüquqşünaslar dar mənada diplomatiya hüququnun normalarını və konsul hüququnun normalarını "diplomatiya və konsul hüququ" adı altında birləşdirirlər.

Qeyd etmək lazımdır ki, "diplomatiya hüququ" anlayışının geniş mənada işlədilməsi bütün xarici əlaqə orqanlarına aid ümumiləşmiş normalar sisteminin terminoloji uyğunluğuna gətirib çıxarır ki, bu da özünü doğrultmır. Bu zaman ümumi anlayış keyfiyyətində "xarici əlaqələr hüququ" anlayışının istifadə edimləsini təklif edən K. K. Sandrovski ilə razılaşmaq olar.

Bu halda xarici əlaqələri həyata keçirən bütün dövlət orqanlarının funksiyaları və statusunu tənzimləyən normalar sistemi başa düşülür.

Xarici əlaqələr hüququ diplomatik hüququ, konsul hüququ, xüsusi missiyaların diplomatik hüququ, beynəlxalq təşkilatların diplomatik hüququ (xüsusilə də beynəlxalq təşkilatlarda dövlətlərin nümayəndəlikləri ilə əlaqədar) kimi alt sistemlərə bölünür.

Hər birinin öz spesifik xüsusiyyəti ilə xarakterizə olunan belə alt sistemlərə bölünməsinin özünü doğrultması onunla təsdiq olunur ki, bu alt sistemlərin normaları müstəqil çoxtərəfli razılaşmalarla müəyyən edilir:

1. Diplomatik münasibətlər haqqında 1961-ci il Vyana Konvensiyası;
2. Konsulluq münasibətləri haqqında 1963-cü il Vyana Konvensiyası;
3. Xüsusi missiyalar haqqında 1969-cu il Konvensiyası;
4. Beynəlxalq səviyyədə müdafiə olunan şəxslər, o cümlədən diplomatik agentlər əleyhinə cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında 1973-cü il Konvensiyası;
5. Dövlətlərin universal xarakterli beynəlxalq təşkilatlarla münasibətlərdə nümayəndəlikləri haqqında 1975-ci il Vyana Konvensiyası və s.

Beləliklə, "diplomatiya hüququ" termininin yalnız dar mənada

işlədilməsi - yəni yalnız diplomatik nümayəndəliklərə şamil edilməsi məqsədəuyğun hesab edilir. “Diplomatik hüquq” termini burada bu səpgidə istifadə olunacaqdır.

Müasir diplomatiya hüququnun əsas mənbələri kimi beynəlxalq müqavilə və beynəlxalq hüquqi adət çıxış edir. Diplomatiya hüququna aid ilk çoxtərəfli müqavilə 8 Avropa dövlətinin iştirak etdiyi diplomatik nümayəndəliklərin kateqoriyaları haqqında 18I5-Cİ ii 7 mart tarixli Vyana Protokoludur. Bu Vyana Protokolu 1818-ci il Aahen Protokolu ilə tamamlanmışdır.

Diplomatiya hüququ uzun müddət ərzində adətlərə əsaslanmışdır. Diplomatiya hüququnun qismən, rəsmi məcəllələş- dirilməsinə ilk dəfə Latın Amerikasında təşəbbüs edilmişdir. 20 fevral 1928-ci ildə diplomatik məmurlar haqqında Havana Konvensiyası qəbul edilmişdir. Bu Havana Konvensiyası diplomatiya hüququnun inkişafında böyük rol oynadı. Regional səviyyədə olmasına baxmayaraq, diplomatiya hüququnun bir sıra məsələləri bu konsensiyada məcəlləşdirilmişdir. Hal-hazırda Havana Konvensiyası Latın Amerikası ölkələrinə münasibətdə qüvvədə qalmaqda davam edir.

Diplomatiya hüququna dair ən əsas çoxtərəfli müqavilə aktı təxminən 150 dövlətin iştirak etdiyi diplomatik əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyasıdır. Konvensiyada diplomatik hüququn əsasını təşkil edən normalar və diplomatik təcrübə nəticəsində yaranan qaydalar öz əksini tapmışdır.

Belə olduqda beynəlxalq səviyyədə müdafiə olunan şəxslər, o cümlədən diplomatik agentlər əleyhinə cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında 1973-cü il Konvensiyasının əhəmiyyətini xüsusi olaraq qeyd etmək lazımdır. Bütün dünyada terrorizmin artması nəticəsində əcnəbi diplomatlara qarşı sui- qəsdlərin, onların oğurlanması faktlarının çoxalması, eyni zamanda əcnəbi diplomatik nümayəndəliklərə hücumların sayının kəskin şəkildə çoxalması belə bir konvensiyasının qəbuluna ehtiyac yaratmışdı.

Diplomatik nümayəndəliklərin və onların personalının hüquqi

vəziyyətinin ayrı-ayrı aspektləri çoxtərəfli razılaşmalarla yanaşı, ikitərəfli müqavilələrlə də tənzimlənir. İkitərəfli müqavilələrin bağlanılmasının mümkünlüyü diplomatik münasibətlər haqqında 1961-ci il Vyana Konvensiyasında nəzərdə tutulmuşdur.

Diplomatiya hüququnun mənbələri keyfiyyətində beynəlxalq adətlər də hamı tərəfindən qəbul edilmişdir. Göstərilən çoxtərəfli müqavilələr qəbul edilənə kimi diplomatiya hüququ istisnasız adi adət normalarından ibarət idi.

Diplomatik münasibətlər haqqında 1961-ci il Vyana Konvensiyasının Preambulasında təsdiq olunur ki, "beynəlxalq adət hüququnun normaları bu konvensiyasının müddəaları ilə birbaşa nəzərdə tutulmayan məsələləri tənzimləməyə davam edəcək".

Diplomatik nümayəndəliklərin və onların personalının statusunun inkişaf etmiş müqaviləyi əsasının mövcudluğu diplomatik təcrübənin ehtiyaclarını tamamilə təmin etdiyini bildirmək doğru olmazdı.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, dövlətlərin bir- birindən asılılığının güclənməsi, onlar arasında əlaqələrin genişlənməsi kimi dünyada baş verən hadisələr diplomatik nümayəndəlik institutunun inkişafına təsir edir.

1961-ci il Vyana Konvensiyasının bağlandığı vaxtdan keçən müddət ərzində diplomatik nümayəndəliklərin statusu, fəaliyyəti və formalaşdırılması ilə bağlı diplomatik təcrübədə də bir çox dəyişikliklər əmələ gəlmişdir.

Məsələn, bütün dünyada diplomatik nümayəndəliklərin, onların personalının sayı kifayət qədər artmış və kvota sisteminin yayılması geniş vüsət almışdır. Adətən, səfirliklərdə işləyənlərin sayı dövlətlər arasında razılaşdırılır. Bu xüsusi sənəd "kvota sənədi" adlanır. Adətən, səfirliklər maddi imkanları olsa da, qarşı tərəfə hörmət əlaməti olaraq öz diplomatik personalının sayını həddindən artıq çoxaltmır. Lakin, bəzən buna riayət olunmur. Məsələn, 2001-ci ilin sonunda Rusiya Federasiyasının ABŞ-dakı səfirliyində 190 nəfər, ABŞ-nın Rusiya Federasiyasındakı səfirliyində 1090 nəfər şəxs çalışırdı. Kvota sənədi pozulduğu üçün bu hal bəzi çətinliklər

yaratmışdır.

Bundan əlavə personalın tərkibində diplomat hesab edilməyən mütəxəssislər meydana gəlmişdir. Diplomatik nümayəndəliklər yanında diplomatik fəaliyyətə birbaşa aidiyyəti olmayan, xüsusilə də daxili mühafizə xidməti kimi müxtəlif köməkçi orqanlar yaradılır. Diplomatik nümayəndəliklərin funksiyaları daha rəngarəng olmuş, fəaliyyət metodları mürəkkəbləşmiş, diplomatların hərəkət marşrutları barədə qabaqcadan xəbər vermə qaydası geniş yayılmış, diplomatik poçtun göndərilməsinin Vyana Konvensiyasında nəzərdə tutulmayan vasitələri (tekekslə, kompyuterlə) və s. yaranmışdır. Bütün bu dəyişikliklər diplomatik nümayəndəliklərin və onların personalının statusuna əsaslı surətdə təsir etmişdir.

Son vaxtlar diplomatik heyət məskun olduğu dövlətin ərazisində sərbəst yerdəyişmək hüququna malikdir (bağlı zonalar olduğu təqbirdə bunlar haqqında qaydaları nəzərə almaqla). Diplomatların bir sıra ölkələrdə mövcud olan xəbərdarlıq qaydasında yerdəyişməsi yuxarıda göstərilmiş qaydaya zidd deyildir.

Diplomatik nümayəndəliklərin və onların personalının statutuna aid olan və diplomatik münasibətlər haqqında 1961-ci il Vyana Konvensiyasında lazımi razılığı almayan (məsələn, diplomatik kuryerin statusu) və ya ümumiyyətlə, bu məsələyə toxunulmayan (məsələn, diplomatın müvəqqəti rezidensiyasının immuniteti) məsələlər vardır.

Dövlətlərin diplomatik təcrübəsində diplomatik nümayəndəliklərin və onların personalının statusunu tənzimləyən hüquq normalarının təfsirində dəyişikliklər meydana gəlmişdir. Bu dəyişiklər 1961-ci il Vyana Konvensiyasına yenidən baxmağa, diplomatiya hüququnun normalarının gələcəkdə yenidən məcəllələş- dirilməsinə ehtiyac yaratmışdır.

Diplomatik kuryer vasitəsilə göndərilməyən diplomatik poçtun və diplomatik kuryerin statusu haqqında maddələrin layihəsinin hazırlanması üzrə BMT-nin Beynəlxalq Hüquq Komissiyası tərəfindən yerinə yetirilən iş xüsusilə böyük maraq doğurur. Lakin diplomatiya hüququnun fəaliyyət göstərən normalarının effek

tivliyinin zəifləməsi təhlükəsi ilə bağlı Vyana Konvensiyasının yenidən baxılması prosesinə digər bir baxış da mövcuddur. Bu baxış ABŞ və Böyük Britaniya kimi dövlətlərin hökümətlərinin mövqeyində öz əsasını tapmışdır. Bu dövlətlərin hökümətləri Vyana Konvensiyasına yenidən baxmağa rəsmən öz etirazlarını bildirmişlər.

Beləliklə, diplomatik nümayəndəliklərin və onların personallarının statusunun beynəlxalq-hüquqi tənzimlənməsində mövcud meyllərin analizi öz aktuallığı ilə seçilir.

Diplomatiya hüququnun yaranması və inkişaf tarixi onu göstərir ki, diplomatik nümayəndəliklərin statusunun beynəlxalq - hüquqi tənzimlənməsi üçün iki qarşı-qarşıya qoyulmuş meyllərin mövcudluğu xarakterik idi: biri imtiyaz və immunitetlərin məh- dudlaşdırılmasına yönəlmiş, degəri isə imtiyaz və immunitetlərin genişləndirilməsinə yönəlmişdir. Onlar yerləşdiyi ölkədə akkreditə edən dövlət arasında maraqların toqquşması ilə əsaslanır və onların balanslaşdırılması əsasında diplomatik nümayəndəliklərin statusu formalaşır. Maliyyə maraqlarını, dövlətin təhlükəsizliyinin təmin edilməsi maraqlarını rəhbər tutaraq, yerləşdiyi dövlət öz ərazisində imtiyazlı əcnəbilərin sayının ixtisar edilməsinə və əcnəbi diplomatik nümayəndəliklər tərəfindən müxtəlif növ sui-istifadə hallarının qarşısının alınmasına yönəldilmiş hüquqi qarantiyaların əldə edilməsinə cəhd edir. Akkreditə edən dövlət isə xaricdə yerləşən nümayəndəliklərin və öz vətəndaşları üçün təhlükəsizliyi maksimal dərəcədə təmin edilməsində, onların işi üçün əlverişli şərait yaradılmasında maraqlıdır. İlk baxışda belə fikir ayrılığı olmamalıdır, belə ki, hər bir dövlət prinsip etibarilə həm akkreditə edən, həm də qəbul edən, dövlətdir. Lakin dövlətlər arasında onların siyasi sistemində, əhalinin sayında, coğrafi mövqeyində, maliyyə və digər imkanlarının xarakterində, beynəlxalq aləmdə bu dövlətin real təsir dairəsi və s. fərqlər qaçılmazdır. Bu faktlar ona gətirib çıxarır ki, bu və ya digər mərhələdə hər bir dövlətdə ya akkreditə edən, ya da yerləşdiyi dövlətin maraqları qalib gəlir.

Bununla bagıı öndə gedən dövlətlərin mövqeyi xüsusi maraq

doğurur. Bir tərfdən bu dövlətlər xaricdə inkişaf etmiş diplomatik nümayəndəliklər şəbəkəsinə malik olaraq, diplomatik imtiyaz və immunitetlərə, onların həmçinin genişləndirilməsinə ciddi riayət edilməsində maraqlıdır. 50-ci illərin axırlarında qərb dövlətlərinin çoxu diplomatik imtiyaz və immunitetlərin dairəsinin genişləndirilməsi tərəfdarları kimi çıxış etdiyi zaman bu maraqlılıq özünü Vyana Konvensiyasının layihəsinin hazırlanmasında tapdı.

Diplomatik nümayəndəliklərin normal fəaliyyət göstərməsini stabil, etibarlı təminatına can atmaq xarici diplomatik nümayəndəliklərin imtiyaz və immunitetlərinin açıq və kobud şəkildə pozulması ilə xarakterik olmayan qərb dövlətlərinin müasir diplomatik təcrübəsində də özünü göstərir.

1983-cü il 6 sentyabr tarixində Avropa Təhlükəsizlik və Əməkdaşlıq üzrə müşavirənin iştirakçı olan dövlətlərin nümayəndələrinin Madriddə keçirilən görüşünün Yekun sənədi qəbul edilmişdir. Bu Yekun sənədində deyilir ki, “İştirakçı dövlətlər konvensiyalarda nəzərdə tutulmuş müddəaları yerinə yetirməyi və bu missiyaların normal fəaliyyəti üçün mümkün qədər əlverişli şərait yaradacaqlarını öz öhdəliklərinə götürmüşlər.

Digər tərəfdən, son illərdə Böyük Britaniya, ABŞ, Fransa kimi qərb dövlətlərində inzibati hüquq normalarının tətbiqi yolu ilə diplomatik imtiyaz və immunitetlərin məhdudlaşdırılmasına yönəldilmiş daha acıq siyasət yürüdülür.

Diplomatik imtiyaz və immunitetlərin məhdudlaşdırılmasına yanaşmanın əsas səbəblərindən biri daxili siyasi yanaşma mövqeyidir. Digər bir səbəb isə xarici diplomatik nümayəndəliklər tərəfindən diplomatik imtiyaz və immunitetlərdən çoxsaylı sui- istifadə hallarına qarşı qərb dövlətlərinin ictimaiyyətinin narazılığına yerləşmə dövlətinin hökümətinin reaksiya verməsinə can atmasıdır. Son illərdə xarici diplomatlar tərəfindən yol hərəkəti qaydalarının daimi pozulmasına və bu yol hərəkəti qaydalarını pozan diplomatların cəzasız qalmasına cavab olaraq ABŞ, Böyük Britaniya, Kanada hökümətləri diplomatik münasibətlər haqqında 1961-Cİ il Vyana Konvensiyası ilə” bir araya sığmayan”

diplomatların inzibati məsuliyyətə cəlb edilməsinə icazə verən qaydalar qəbul etdilər. Bir sıra dövlətlərin diplomatik nümayəndəliklərinin personalı üçün xarakterik olan öz şəxsi mənafeləri məqsədilə diplomatik immunitetlərdən sui-istifadə hallan 1961-ci il Vyana Konvensiyasının müddəaları ilə zidd olan diplomatik münasibətlər haqqında 1978-ci il ABŞ Qanununun qəbul edilməsinin əsas səbəblərindən biri idi.

Bu qanuna görə xarici diplomatik nümayəndəliklərin əməkdaşları öz öhdələrinə götürürlər ki, diplomatik immunitetə malik olduqlarını onlar Amerika məhkəməsində sübut edəcəklər.

Diplomatik nümayəndəliklərin immunitetinin həcminin azaldılmasına yönəldilmiş meyl bəzən diplomatik nümayəndəli üklərin də aidiyyəti olduğu terror aktlarının artan sayına qarşı mübarizə tədbirləri ilə əlaqələndirirlər. Bununla bağlı İngiltərə “Ekonomist” jurnalının dərc etdiyi məqalə xüsusi maraq doğurur. Məqalədə deyilir: “Şəxslər, onların baqajı və bina yalnız onların Britaniya ərazisində zorakı aktların planlaşdırılması və ya törədilməsinə cəlb edilməsi ilə əlaqədar şübhələr olmadığı halda diplomatik statusa malik olmalıdır”.

Bu status şübhələr yarandıqda ləğv edilməlidir. Bəzi hallarda bu diplomatik münasibətlərin kəsilməsinə gətirib çıxarır. Dövlət onlarsız da keçinə bilər.

17 aprel 1984-cü il Londonda Liviya xalq bürosunun pəncərəsindən açılan atəş nəticəsində qadın - konstebl qətlə yetirilmişdir. Britaniya hökümətinin hazırladığı “Ağ kitab”da xarici diplomatik nümayəndəliklərin imtiyaz və immunitetlərinin həcminin azaldılmasına yönəldilmiş onlarla tövsiyyələr var idi. Böyük Britaniya Baş naziri M. Tetçer Qərbi-Avropa dövlətlərinin hökümətlərinə müraciət edərək diplomatik imtiyaz və immunitetlərin məhdudlaşdın İmasına yönəldilmiş atılan addımlarla əlaqədar onların hökümətini dəstəkləməyi təklif etmişdir. Böyük Britaniya höküməti 1987-ci ildə xarici diplomatik nümayəndəliklər tərəfindən istifadə olunan binaların sayını məhdudlaşdırmaq hüququnu Britaniya XİN- ə verən qanun qəbul etmişdir. Xarici diplomatik nümayəndəliklər

imtiyaz və immunitetlərə malik olduqlarına görə vergi və rüsumlardan azaddırlar. Böyük Britaniya hökuməti isə öz iqtisadi maraqlarını qorumaq naminə bu qanunu qəbul etmişdir. 70-ci illərin ortalarında bu doktrina əsasında həyata keçirilən məhkəmə praktikası diplomatik nümayəndəliklərə qarşı xüsusi şirkətlərin iddialarının məhkəmələr tərəfindən baxılması kimi presedentlər əmələ gətirdi. Bu iddialarda səfirliklərin bank hesablarına həbs qoyulması tələb olunurdu.

İndiki zamanda diplomatik imtiyaz və immunitetlərin məhdudlaşdırılması inkişaf etmiş Qərb dövlətlərinin maraqlarına xidmət etdiyini zənn etmək elə də çətin deyil. Belə ki, onlar yerləşdiyi dövlətinin rolunda çıxış etdiyi halda böyük azadlıqlarla təmin edilir. Akkreditə edilən dövlətlər keyfiyyətində bu qərb dövlətləri beynəlxalq aləmdə öz avtoritet və təsirindən istifadə etmək yolu ilə xaricdə öz maraqlarını müdafiə edə bilərlər. Adətən öndə gedən qərb dövlətləri tərəfindən tətbiq olunan diplomatik imtiyaz və immunitetlərin məhdudlaşdırılması digər qərb dövlətləri tərəfindən dəstəklənir. Diplomatik nümayəndəliklər şəbəkəsinin genişləndirilməsi üçün daha az imkanları olan dövlətlər öz iqtisadi maraqlarını rəhbər tutur və özlərinin hüquq mühavizə orqanları üçün daha geniş imkanlar yaratmağa can atırlar.'

Diplomatik imtiyaz və immunitetlərin məhdudlaşdırılması meyli əsasən azad olunan dövlətlər tərəfindən dəstəklənir. Bu əsasən onunla izah oluna bilər ki, müstəqillik əldə edən dövlətlər diplomatik münasibətlərdə daha çox akkreditə edən dövlət qismində deyil, yerləşmə dövləti rolunda iştirak etməyə məcburdur. Bu dövlətlərin qarşısında duran maliyyə və kadr problemləri inkişaf etmiş dövlətlərlə müqayisədə adekvat sayda diplomatik nümayəndəlik saxlamağa imkan vermir. Müstəqillik əldə edən bir sıra dövlətlərin belə bir mövqeyi hələ Vyana Konvensiyasının hazırlanması gedişində açıq-aydın ortaya çıxmışdı. Onların təsiri altında xarici diplomatik nümayəndəliklərin personalının sayını

**' Захарова Л. М., Коков:ша Л.Л. Основы Дипломатической и консульской службы, Минск. 2001. стр. 90-90.**

məhdudlaşdırmağa yerləşmə dövlətinə icazə verən personalının ayrı-ayrı kateqoriyalarının immunitetini məhdudlaşdıran və s. müddəalar daxil edilmişdir.

Müasir diplomatik təcrübədə müstəqillik əldə edən dövlətlərin diplomatik nümayəndəliklərinin statusuna məhdud yanaşma məsələlərinə aid bir çox misallar var. Bir sıra müstəqillik əldə edən dövlətlərdə birtərəfli qaydada xarici diplomatik nümayəndəliklərin personalının sayına məhdudiyyət kvotası müəyyən edilmiş (Boliviya, Livan, Sinqapur və s.), yerli vəzifəli şəxslərlə diplomatların kontaktlarına məhdudiyyətlər qoyulmuş (Banqladeş, Benin, İndoneziya, Mavritaniya, Tanzaniya), əcnəbi diplomatların hərəkət marşrutları barədə qabaqcadan xəbər vermə və ya icazə alma qaydası müəyyən edilmiş (Birma, Zimbabve, İndoneziya, Kamerun, Keniya, Nigeriya, Sierra-Leone, Sudan, Tanzaniya və s.), əcnəbi diplomatların poçtuna baxılması imkanı nəzərdə tutan qaydalar qəbul edilmişdir (Nepal). Bu cür yanaşmanın son həddi əcnəbi diplomatik nümayəndəliklərin binalarının toxunulmazlığının birbaşa pozulması halları oldu (1973-cü ildə Pakistanda İraq səfirliyinin axtarışa məruz qalması, 1978-ci ildə Misirdə Bolqarıstan səfirliyinin, 1979-cu ildə İranda ABŞ səfirliyinin, 1980-ci ildə Qvatemalada İspan səfirliyinin ələ keçirilməsi və s.).

Həqiqətən də qərb siyasətçiləri və hüquqşünaslarının istinad etdikləri əsas səbəblərdən biri diplomatik imtiyaz və immunitetlərdən müxtəlif sui-istifadə hallarıdır. Hətta əgər diplomatik imtiyaz və immunitetlərin məhdudlaşdırılması yolu ilə getmək mümkün olsa belə, diplomatik imtiyaz və immunitetlərdən sui- istifadə hallarının qarşısını almaq mümkün olmayacaq. Bundan başqa, diplomatik münasibətlərin tarix boyu bu cür sui-istifadə halları olmuşdur. Keçmişdə bəzən onlar diplomatik imtiyaz və immunitetlərdən istifadə həcminin azaldılmasına yönəlmiş meyli gücləndirirdilərsə də, hər dəfə müəyyən müddətdən sonra bu meylin olması mümkün idi. Diplomatik imtiyaz və immunitetlərin məhdudlaşdın İmasını son 20 ildə beynəlxalq terrorizmin kəskin artması və gücləndirilməsi ilə izah edirlər. Əlbəttə, bu dövlətlərin

üzləşdikləri yeni bir məfhumdur. Lakin ümumiyyətlə diplomatik nümayəndəliklərin terrorizm fəaliyyətində iştirakı diplomatik təcrübə üçün xarakterik deyil. Çətin ki, diplomatik imtiyaz və immunitetləri məhdudlaşdırmaq yolu ilə beynəlxalq terrorizmlə hər hansı bir nailiyyətə çatmaq olar.

Diplomatik imtiyaz və immunitetlərin məhdudlaşdırılması meyli ona işarə edir ki, beynəlxalq hüququn qərb doktrinası diplomatik imtiyaz və immunitetlərin məhdudlaşdın İmasını bütövlükdə dəstəkləmir. Onun tərəfdarlarını əsasən siyasi xadimlər arasında görmək olar.

Tarixi perspektivdə müstəqillik əldə edən dövlətlərin öz mövqeyini dəyişəcəklərini gözləmək olar. Gələcəkdə bu dövlətlərin maddi, maliyyə və digər imkanları genişləndikcə və bunun ardınca isə xaricdə diplomatik nümayəndəliklərinin sayı artdıqca beynəlxalq aləmdə yalnız yerləşmə dövləti keyfiyyətində deyil, həm də daha çox akkreditə edən dövlət keyfiyyətində çıxış edəcəklər. Beynəlxalq münasibətlərdə beynəlxalq hüququn rolunun artması və beynəlxalq hüquq qaydasının möhkəmləndirilməsində bütün dövlətlər obyektiv surətdə maraqlıdır. Bu isə çox güman ki, diplomatik imtiyaz və immunitetlərin həcminin saxlanmasına, bəlkə də onların həcminin çoxalmasına yönəldilmiş meylin yenidən gücləndirilməsinə gətirib çıxaracaq.

Diplomatik nümayəndəliklərin və onların personalının statusu beynəlxalq hüquq normaları ilə tənzimlənir. Təcrübədə beynəlxalq - hüquqi tənzimləmənin xaricində olan və hər bir yerləşmə dövlətinin adət-ənənələrinin xüsusiyyəti ilə bağlı bir çox problemlərin həll edilməsi ehtiyacı yaranır. Bu boşluqların doldurulması diplomatik nümayəndəliyklərin və onların personalının statusunun dövlət tərəfindən hüquqi tənzimlənməsi yolu ilə həyata keçirilir. Baxmayarq ki, bu statusun müəyyən edilməsində başlıca rol beynəlxalq hüquq normalarına məxsusdur, beynəlxalq-hüquqi tənzimləməni dövlət- hüquqi tənzimləmədən ayırmaq olmaz, onlar bir-birini tamamlayırlar. Bu da diplomatik protokolun tərkib hissəsidir.*

**Fikrol Saclixov. Diplomatiya va diplomatik xidmət. Bakı. 199.1. səh. 66 -67.**

Dövlət tərəfindən hüquqi-tənzimləmədə yerləşmə dövlətinin milli qanunvericiliyi əhəmiyyətli rol oynayır. Milli qanunvericiliyin normaları yalnız diplomatiya hüququnun normalarını yaratmır, həm də bir sıra xırda məsələlərə də aydınlıq gətirir. Milli qanunvericiliyin normaları eyni zamanda beynəlxalq hüquqda ümumiyyətlə öz həllini tapmayan məsələləri də tənzimləyir. 1961-ci ildə diplomatik münasibətlər haqqında Vyana Konvensiyasında nəzərdə tutulmuşdur ki, ayrı-ayrı məsələlər yerləşmə dövlətinin bu qanun və qaydaları onların müqavilə öhdəliklərinə zidd olmamalıdır. Bu dövlətin iştirak etdiyi müqavilə normaları və qanunvericilik normaları arasında kolliziya yarandığı halda müqavilə normaları tətbiq edilir.

Xarici diplomatik nümayəndəliklərin və onların personalının statusunun dövlət tərəfindən hüquqi tənzimlənməsində məhkəmə presedentləri müəyyən rol oynaya bilər. Burada söhbət məhkəmə presedenti doktrinasını qəbul edən, yəni milli məhkəmələrin qərarlarını dövlətdaxili hüququn mənbələri qismində tanıyan dövlətlərdən gedir. Məhkəmə presedentləri beynəlxalq və dövlətdaxili hüquqda yaranan boşluq lari aradan qaldıra bilər.

Xarici diplomatik nümayəndəliklərin və onların personalının statusunun dövlət tərəfindən hüquqi tənzimlənməsində yerləşmə dövlətində mövcud olan diplomatik təcrübə böyük əhəmiyyət kəsb edir. Bu diplomatik təcrübə rəsmi bəyanatlarda, nota mübadiləsində və s.-də öz ifadəsini tapır. Diplomatik təcrübəyə istinad bu və ya digər mövqeyin əsaslandırılması üçün nota mübadiləsində geniş istifadə olunur. ***Şəxsi nota, verbal nota, yaddaş məktubu, memorandum, şəxsi məktub*** hal-hazırda diplomatik yazışmanın əsas sənədləri sayılır. Müasir dövrün başqa diplomatik sənədləri də var. Dövlət və hökümət başçılarının bəyanatları, teleqramlar və s. də diplomatik sənəddir. Bir qayda olaraq, teleqramlara cavablar tələb olunur. Milli bayramlar, yubileylər, mühüm tarixi günlər və s. münasibəti ilə teleqram göndərilir. Teleqram göndərmək siyasi əhəmiyyətli diplomatik hərəkətdir. Parlamentlərə müraciətdə məsələn, Azərbaycan hökümətinin. Milli Məclisinin Qarabağ prob

lemi, Rusiyanın Ermənistana 1 milyard dollarlıq gizli silah alveri, Dağlıq Qarabağ ərazisinin atom tullantılarının basdırıldığı yer (rezervuar) olması və s. haqqındakı bəyanatları rəsmi diplomatik sənədlər sayılır. Hər hansı bir məsələ haqqında dövlət rəhbərlərinin, siyasi xadimlərin cavablan diplomatik sənəddir. Dövlət və hökümət rəhbərlərinin mətbuat üçün bəyanatları da mühüm diplomatik sənəd sayılır. Bütün bunlar isə əlbəttə ki, diplomatik təcrübənin tərkib hissəsidir.

Eyni zamanda beynəlxalq münasibətlərin normal inkişaf məqsədilə dövlətlər öz fəaliyyətlərini milli qanunvericilik, məhkəmə və digər dövlətlərin diplomatik təcrübəsi ilə uzlaşdırmalıdır. Ayrı-ayrı dövlətlərin qanunvericilik, məhkəmə və diplomatik təcrübəsinin unifıkasiyasında başlıca tənzimləyici qarşılıqlıhq prinsipdir. Qarşılıqlıq prinsipinin tətbiqi I961-ci il diplomatik münasibətlər haqqında Vyana Konvensiyasında nəzərdə tutulmuşdur. Bu prinsipə birbaşa istinad diplomatik nümayəndəliklərin və onların personalının statusunun ayrı-ayrı aspektlərini tənzimləyən bütün ikitərəfli müqavilələrdə öz əksini tapmışdır. Diplomatik münasibətlərdə qarşılıqlıhq prinsipinin tətbiqi dövlətlərin qanunvericiliyində də nəzərdə tutulmuşdur.

Diplomatik təcrübədə elə hallara rast gəlmək olur ki, yerləşmə dövləti xarici diplomatik nümayəndəliklərlə qarşılıqlı əsasda hər hansı hüquqlar verməkdən yayınmağa cəhd etdikdə ayrıseçkiliyə yol verməmək prinsipinə istinad edirlər. Həqiqətən də, qarşılıqlıhq prinsipi ayrıseçkiliyə yol verməmək prinsipinə zidd ola bilər. Ayrıseçkiliyə yol verməmək prinsipi qəbul edən dövlətin bütün dövlətlərin diplomatik nümayəndəlikləri üçün bərabər status təmin etmək öhdəliyi ilə bağlıdır.

Vyana Konvensiyası xüsusi olaraq qeyd edir ki, belə ziddiyət yarandığı halda qarşılıqlıhq prinsipinə üstünlük verilir. Diplomatik münasibətlərdə qarşılıqlıhq prinsipinin tətbiqi diplomatik nümayəndəliklərin və onların personalının statusunun dövlət tərəfindən hüquqi tənzimlənməsindəki fərqləri aradan qaldırmağa

kömək edir. Bu isə diplomatiya hüququnun adi və müqaviləvi normalarının yaranmasına gətirib çıxarır.

Milli qanunvericilik məhkəmə presedenti, diplomatik təcrübə beynəlxalq hüququn formal mənbələri deyil, lakin beynəlxalq hüquq normalarının yaranması prosesində əhəmiyyətli rol oynayır.

Dövlət tərəfindən hüquqi tənzimlənmənin əhəmiyyəti beynəlxalq hüquqi doktrinasında həmişə öz lazımi qiymətini tapmır. Diplomatiya hüququ, xüsusilə də diplomatik nümayəndəliklərin və onların personalının statusunun xarakteristikası üzrə işlərdə əsas diqqət, bir qayda olaraq diplomatiya hüququnun mənbələrinə yetirilir. Dövlət tərəfindən hüquqi tənzimlənmə məsələlərinə isə az yer verilir. Bu statusun aydınlaşdırılması zamanı dövlətlərin məhkəmə və diplomatik təcrübəsini, həm də milli qanunvericiliyinin normalarının hesaba almadan bu işin tədqiqi dəqiq və tam olmazdı.

Qəbul edən dövlət xarici diplomatik nümayəndəliklərin və onların personalının statusunun bu və ya digər xüsusiyyətlərini özü müstəqil müəyyən edir. Bilavasitə dövlət tərəfindən hüquqi tənzimlənmə yolu qəbul edən dövlətə bütün xüsusiyyətləri kompromis xarakteri daşıyan beynəlxalq hüquq normalarından daha dolğun əks etdirməyə, həmçinin dövlətin öz maraq və ehtiyaclarını nəzərə almağa imkan verir.

Azərbaycan Respublikasında baş verən dəyişikliklər xarici diplomatik nümayəndəliklərin və onların personalının statusunun dövlət tərəfindən hüquqi tənzimlənməsinə əsaslı surətdə təsir etmişdir. Azərbaycan Respublikasında daxilən sahə üzrə əsas qanunvericilik aktları, Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasında xarici dövlətlərin diplomatik nümayəndəliklərinin və konsulluq idarələrinin vəziyyəti haqqında Azərbaycan Respublikasının Qanunu və “Diplomatik xidmət haqqında"' Azərbaycan Respublikasının Qanunudur. Diplomatik nümayəndəliklərin və onların personalının statusunun dövlət tərafından hüquqi tənzimlənməsində Prezidentin Fərmanları, Milli Məclisin bu sahədə qəbul etdiyi digər qanunvericilik aktları. Nazirlər

Kabinetinin sərəncamları, dövlət və hökümət başçılarının bəyanatları da mühüm əhəmiyyət kəsb edir.

2002-ci ilin noyabr ayında Azərbaycan Prezidentinin Fərmanı ilə “Diplomatik dərəcələr haqqında” Azərbaycan Respublikasının Qanunu təsdiq olunmuşdur. Bu Qanun 4 fəsildən ibarətdir. Fəsillər müxtəlif maddələrə bölünür. Bu müddət ərzində həmin qanunda bəzi dəyişikliklər edilmişdir. O cümlədən diplomatların həmin qanunda 2-ci fəsilin 8-ci bölməsində “diplomatik rütbələr maddəsində 8.1 göstərilən diplomatik xidmət əməkdaşlarına tutduqları vəzifə və ixtisasları nəzərə alınmaqla” aşağıdakı diplomatik rütbələr verilmişdir:

Bildiyimiz 11 rütbə əvəzinə indi 9 rütbə müəyyən edilmişdir.

1. Fövqəladə və Səlahiyyətli səfir.
**2.** Beynəlxalq təşkilatlarla iş üzrə müşavir-səfirin müavini.
3. Səfir-elçi
4. Beynəlxalq təşkilatlarla iş üzrə müşavirin müavini
5. Yerləşmə ölkəsində yaşayan azərbaycanlılarla iş üzrə müşavir
**6.** 1- ci katib
7. 2- ci katib
**3.** 3- cü
9. katib
Attaşe

2003-cü il mart ayının vəziyyəti üçün Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlərinin vəzifə maaşları aşağıdakı kimi müəyyən edilmişdir:

Yaponiyada Fövqəladə və Səlahiyyətli səfir üçün aylıq əmək haqqı - 4000 dollar.

ABŞ, Almaniya, Av.striya, Böyük Britaniya, Fransa, Belçika, Rumıniya və Polşa ölkələrində - 3500 dollar.

BMT-də daimi nümayəndəmizin (səfir-nümayəndənin) maaşı Nyu-Yorkda və Cenevrədə - 3500 dollar.

NATO-da - 3500 dollar, “Sülh naminə tərəfdaşlıq” Proq-

Avropa Birliyində səfirlər - 3500 dollardır.

Türkiyə, Küveyt, Pakistan, Çin, Misir, Səudiyyə Ərəbistanı, BƏƏ və İranda Fövqəladə və Səlahiyyətli səfir üçün - 3000 dollar maaş və s. əlbətdə, bu müvəqqəti xarakter daşıyır. Respublikamızım maddi imkanları artdıqca bu maaşlar da müəyyən edilmişdir.

Diplomatik sənədlərin içərisində Milli Məclisin - qanunverici orqanın. Prezident aparatının - ölkə başçısının (icraedici orqanın), hökümət başçısının və xarici əlaqələrlə birbaşa məşğul olan Xarici İşlər Nazirliyinin sənədləri mühüm diplomatik sənədlər sayıla bilər. Müxtəlif instansiyalarda söhbətlər və görüşlərdən keçmiş hər bir gələcək səfir ən əvvəl, hətta, ölkə başçısının onun namizədliyini bəyənməsinə baxmayaraq, bu haqda fərmanı gözləyir. Milli Məclisin təsdiqindən sonra ölkə başçısı fərman verir.

Bunun üçün aşağıdakı diplomatik sənədlər zəruridir:

1. Səfirliyin hansı ölkədə açılması haqqında fərman
2. Kimin orada səfir təyin edilməsi haqqında fərman
3. Təyin olunan təzə sətirə verilən dərəcə haqqında fərman

Diplomatik nümayəndəliklərin və onların personalının statusunun dövlət tərəfindən hüquqi tənzimlənməsi son illər daha yüksək səviyyədə həyata keçirilir.

***Diplomatik nümayəndəlikhrin binalarmm toxunulmazliğt və onların daxili mühafizəsinin statusu.***

Bir ölkədə başqa ölkəyə işə yollanan şəxsin həmin ölkədə beynəlxalq normalara müvafiq olaraq müəyyən diplomatik güzəşt və səlahiyyətləri olmalıdır. Bu güzəşt və immunitetlər hələ orta əsrlərdə Venesiya tacirlərinin arxasınca Şərq ölkələrinə gedən konsullar hələ o vaxtlar (XII-XIII əsrlərdə) öz dövlətləri tərəfindən olduqları ölkədə müəyyən güzəştlərlə təmin olunmuşdular. Bu güzəştlər o zamanlar iki ölkə arasındakı razılığa əsaslanırdı. Sonralar, xüsusilə Napoleon müharibələri dövründə Avropa ölkələrində işləyən diplomatik nümayəndəliklər belə güzəştlərə ehtiyac duydular. O zaman 1815-ci ildə Vyana Konqresi, daha sonra 1818-ci il Aahen bəyannaməsi bir sıra diplomatik dərəcələr üçün

dozi güzəşllor müəyyənləşdirirdi. 150 ildən artıq bir müddət ərzində bu güzəştlər qüvvədə idi. Nəhayət, BMT-nin səlahiyyətlər və Güzəştlər Komissiyasının 196l-ci il 18 aprel tarixli Vyana Konvensiyasında diplomatik səlahiyyətlər və immunitetlər öz əksini tapdı. Burada əsas məsələ dövlətlərin böyük və kiçikliyindən asılı olmayaraq onların suveren hüquqlarına ehtiram əlaməti kimi bütün diplomatlara bu güzəşt və immunitetlər şamil edildi.

Diplomatik nümayəndəliklər öz funksiyalarını nornıal həyata keçirmək üçün qəbul edən dövlətin nəzarətindən kənarda olmalıdırlar. Bundan əlavə, bu üstünlüklərin hüquqi təbiəti ona əsaslanır ki, bir suveren dövlət digər suveren dövlətin hakimiyyətinə tabe ola bilməz, diplomatik nümayəndəlik və onun diplomatik heyəti isə məhz dövləti təcəssüm etdirir. Dövlətin malik olduğu immunitet təbii ki, onu rəsmi təmsil edən orqanlara və ya şəxslərə də şamil olunmalıdır. Bu baxımdan xarici diplomatik nümayəndəliklərə və onların əməkdaşlarına beynəlxalq hüquq normaları əsasında xüsusi güzəşt və üstünlüklər verilir ki, bunlara diplomatik imtiyaz və immunitetlər deyilir. Tərifdən göründüyü kimi, diplomatik imtiyaz və immunitetlər iki qrupa ayrılır:

1. diplomatik nümayəndəliklərin imtiyaz və immunitetləri;
2. şəxsi imtiyaz və immunitetlər.

Buna görə də, diplomatik nümayəndəliyin xaricdə nornıal fəaliyyəti üçün hamı tərəfindən qəbul edilmiş 1-ci şərt ***bu nümayəndəliyin ərazisi və binasının toxunulmazlığıdır.*** Burada diplomatik nümayəndəliyin binası dedikdə, diplomatik münasibətlər haqqında Vyana Konvensiyasına görə, nümayəndəliyin məqsədləri üçün istifadə olunan bina, binanın hissələri, mülkiyyət hüququ kimə məxcsLis olmasından asılı olmayaraq diplomatik nümayəndəlik başçısının rezidensiyası (yerləşdiyi yer) başa düşülür. Bura həmçinin bina və binanın digər hissələrinə xidmət edən torpaq sahələri də aid edilir. (Vyana Konvensiyası 22-ci maddə) BMT-nin Beynəlxalq Hüquq Komissiyasının açıqlamalarına görə burada "torpaq sahələri" anlayışına diplomatik nümayəndəliyə məxsus bağ və ya baxça və nəqliyyat vasitələri üçün dayanacaq daxilir.

Beləliklə, diplomatik nümayəndəliyin ərazisinin və binasının toxunulmazlığı diplomatik nümayəndəliyin ən əsas immunitetlərindən biridir. Diplomatik nümayəndəliyin bu hüquqi halı beynəlxalq hüquqda hamı tərəfindən qəbul edilmişdir,

1961-ci il diplomatik münasibətlər haqqında Vyana Konvensiyası diplomatik nümayəndəliyin ərazisinə və binasının ölçülərinə, diplomatik nümayəndəlik tərəfindən istifadə olunan binaların sayına münasibətdə məhdudiyyətlər müəyyən etmir. Lakin burada bir qeyd-şərt var ki, bu da diplomatik nümayəndəlik tərəfindən bu binalar yalnız “nümayəndəliyin məqsədləri üçün” istifadə edilməlidir. Yerləşmə dövləti nümayəndəliyin məqsədləri üçün istifadə edilməyən binalara diplomatik immunitet şamil etməkdən imtina edə bilər: Bu binalara misal olaraq, diplomatların uşaqları üçün məktəblər mədəniyyət mərkəzləri və s. göstərmək olar.

Əlbəttə belə olan hallarda akkreditə edən dövlət tərəfindən qarşılıqlılıq prinsipi əsasında eyni cavab tədbirlərinin tətbiq ediləcəyi istisna deyil. Lakin qarşılıqlılıq prinsipi əsasında bu dövlətlər belə cavab tədbirləri barədə qabaqcadan razılığa gələ bilərlər.

Bir ölkədə sətirlik açmaq üçün birinci növbədə həmin ölkəyə diplomatik nümayəndələr gedirlər, onlarla gedən diplomatik İnzibati işçilər səfirlik binasını tikdirir və ya satın alıb hazırlayırlar və səfirin gəlişinə qədər hətta açılışını da edirlər. Səfir gəlib etimadnaməni təqdim etdikdən sonra rəsmi fəaliyyətə başlayır. 1961-ci il diplomatik münasibətlər haqqında Vyana Konvensiyasının 20-ci maddəsinə görə, diplomatik nümayəndəliyin və onun başçısının diplomatik nümayəndəliyin binasının, nümayəndəlik başçısının rezidensiyasının, həm də onun nəqliyyat vasitələrinin üzərində akkreditə edən dövlətin bayraq və emblemindən istifadə etmək hüququ var.

1961-ci il diplomatik münasibətlər haqqında Vyana Konvensiyasının 21-ci maddəsinə görə, yerləşmə dövləti öz ərazisində öz qanunlarına uyğun olaraq, akkreditə edən dövlətin nümayəndəliyi üçün mühüm olan bina və torpaq sahələrinin əldə edilməsində akkreditə edən dövlətə lazımi kömək göstərməlidir və

ya hər hansı digər yolla bu bina və torpaq ərazilərinin əldə edilməsində akkreditə edən dövlətə yardım etməlidir. Yerləşmə dövləti həm də ehtiyac olduqda, diplomatik nümayəndəliyin əməkdaşlarının yerləşməsi, yaşayış yerlərinin əldə edilməsində onlara lazımi kömək göstərməlidir.

Təcrübədə həm xarici diplomatik nümayəndəliklərə bina və torpaq sahələrinin verilməsinin konkret qaydası, həm də bu binaların tikinti və təmir məsələləri Vyana Konvensiyasına uyğun olaraq yerləşmə dövlətinin qanunvericiliyi ilə tənzimlənir. Bu məsələlər həm də maraqlı tərəflər arasında ikitərəfli razılaşmalar bağlanması yolu ilə tənzimlənə bilər.

Xarici diplomatik nümayəndəliklərə onların öz funksiyalarını yerinə yetirmək üçün verilmiş bina və torpaq sahələrinin yerləşmə dövlətinin yerli hakimiyyət orqanları tərəfindən dövlət ehtiyacları üçün geri alınması imkanı haqqında məsələ kifayət qədər işlənməmişdir. Vyana Konvensiyasının hazırlanması prosesində ABvŞ və bəzi digər dövlətlərin nümayəndələri bildirdilər ki, diplomatik nümayəndəlik binalarının toxunulmazlığı onların yerləşmə dövləti tərəfindən ictimai maraqlar naminə geri alınması imkanını istisna etmir. Lakin nümayəndə heyətlərinin əksəriyyəti bu mövqe ilə razılaşmadılar. Belə olan halda yerləşmə dövləti də öz tərəfindən ədalətli kompensasiya təklif etməli və ya akkreditə edən dövlətin sərəncamına digər bina və torpaq sahələrini verməlidir. Təcrübədə yerləşmə dövlətləri bir çox halda xarici diplomatik nümayəndəliklərə verdikləri bina və torpaq sahələrini məcburi müsadirə etməkdən çəkinirlər. Konvensiyasının layihəsinin müzakirə edilməsi prosesində bununla bağlı bəzi misallar gətirilirdi. Məsələn, xarici diplomatik nümayəndəliklərin başqa binalara köçmək təklifinə etirazla bağlı inşaat işlərinin gedişi prosesində yerləşmə dövləti müəyyən rahatsızlığa dözmək məcburiyyətində idi. Diplomatik təcrübədə yerləşmə dövlətinin belə vəziyyətlərdə məcburiyyət tədbirlərinin tətbiq edilməsi kimi presedentlər var. Yerləşmə dövləti ehtiyac yarandıqda dövlət ərazisi üzərində öz suverenliyinin gücündən istifadə edərək və qüvvədə olan qanun

vericiliyə əsaslanaraq xarici diplomatik nümayəndəliyə verilmiş bina və torpaq sahələrinin azad olunmasını tələb edə bilər. Yerləşmə dövlətinin qanun və qaydalarına hörmət etməyi öhdəsinə götürmüş nümayəndəlik bu tələbi yerinə yetirməlidir. Təbii ki, yerləşmə dövləti belə olan halda diplomatik nümayəndəliyin öz funksiyalarının effektiv yerinə yetirilməsini təmin etməli, nümayəndəliyin rahatlığının pozulmasının və onun nüfuzuna zərər dəyməsinin qarşısını almalı, həmçinin nümayəndəliyin yeni bina əldə etməsində ona kömək etməlidir. Bütün bunları yerləşmə dövləti öz üzərinə öhdəlik kimi götürmüşdür. Məcburiyyət tədbirlərinin tətbiq edilməsi haqqında məsələ isə hər bir konkret halda konkret vəziyyət hesaba alınmaqla həll edilməlidir.

Diplomatik nümayəndəliklərə verilən torpaq sahəsinə müasir beynəlxalq hüquqda yerləşmə dövlətinin bir hissəsi və ya ərazisi kimi baxılır. Bu torpaq sahəsinə diplomatik nümayəndəliyin imtiyaz və immunitetləri hesaba alınmaqla yerləşmə dövlətinin qanun qaydaları şamil edilir. Yerli hakimiyyət orqanları xarici diplomatik nümayəndəliyin rahatlığını pozmamaq və nümayəndəliyin şərəf və nüfuzuna zərər verməmək şərti ilə bu nümayəndəliyin binalarının altında yeraltı işlər həyata keçirmək hüququna malikdir. Eyni zamanda diplomatik nümayəndəlik də yerləşmə dövlətinin qanun və qaydalarını hesaba almaqla öz ərazisində torpaq işləri həyata keçirə bilər. Bir qayda olaraq, bu işlərin həyata keçirilməsi haqqında məsələ müxtəlif kommunal xidmətlərlə razılaşdırıldıqdan sonra diplomatik nümayəndəlik tərəfindən həyata keçirilə bilər.

Diplomatik nümayəndəliyin toxunulmazlığının və diplomatik immunitetinin pozulması beynəlxalq hüququn və dövlətin hüquqlarının çox ciddi pozulması deməkdir. Ona görə də, dövlətlər adətən belə pozuntulara çox kəskin münasibət göstərirlər. Ərazisində belə pozuntular baş vermiş dövlətlərin hökümətləri bu cür faktların yolverilməzliyini başa düşür və dərhal ziyan çəkmiş dövlətin hökümətinə öz təəssüflərini bildirir. İstintaq aparılacağını və təqsirkar şəxslərin cəzalandırılacağını elan edir.

Lakin burada bir neçə məqama diqqət yetirmək lazımdır.

Birincisi, diplomatik nümayəndəlik daxilində həyata keçirilən istintaq və digər məcburiyyət tədbirləri yalnız diplomatik nümayəndəlik başçısının xüsusi icazəsi ilə yol verilə bilər. İkincisi, diplomatik nümayəndəlik öz daxili qaydalarını özü müəyyən edir. Bu isə o deməkdir ki, yerli hakimiyyət orqanları Öz yurisdiksiyasını həyata keçirərkən diplomatik nümayəndəliyin daxili səlahiyyətinə aid olan işlərə qarışmamalıdır. Çünki bütün bunlar edilməzsə, həmin nümayəndəliyin ölkədən getməsi və diplomatik münasibətlərin kəsilməsi məsələsi ortaya çıxa bilər. Yerləşdiyi ərazinin toxunulmazlığının qorunması mövcud olmadan və diplomatik immunité * t təmin olunmadan heç bir nümayəndəlik normal fəaliyyət göstərə bilməz. Bunlar diplomatik münasibətlər haqqında 18 aprel 1961-ci il Vyana Konvensiyasının 22-ci maddəsində müəyyənləşdirilmişdir. Konvensiya deyilir:

1. “Diplomatik nümayəndəliyin binaları toxunulmazdır. Yerləşmə dövlətinin hakimiyyət orqanları nümayəndəlik başçısının razılığı olmadan bu binalara daxil ola bilməzlər.

2. Diplomatik nümayəndəliyin binaları hər cür hücumlardan və ya zərər yetirilməsindən qorumaq, nümayəndəliyin rahatlığının hər cür pozulması hallarının və ya onun şərəfinin təhqir olunmasının qarşısını almaq üçün lazımi tədbirlər görmək yerləşmə dövlətinin xüsusi vəzifəsidir.

Nümayəndəliyin binaları, avadanlıq və bu binalardakı digər əmlak, həmçinin nümayəndəliyin nəqliyyat vasitələri axtarış, götürmə, həbs, icra hərəkətlərinə qarşı immunitetdən istifadə edir”.

Nümayəndəlik başçısının icazəsi olmadan nümayəndəlik binasına daxil olmağın qadağan olunması məcburi xarakter daşıyır və bu qaydadan heç bir istisna yoxdur. Hətta, diplomatik nümayəndəlikdə yanğın baş verdikdə və ya diplomatik nümayəndəlik terroristlər tərəfindən ələ keçirildiyi halda belə bu qaydaya riayət edilməlidir.

Təcrübədə fövqəladə hallar zamanı diplomatik nümayəndəlik başçılarının yerli hakimiyyət orqanları tərəfindən diplomatik

**Kitabın sonundakı əlavobr bölməsində verilmiş həmin Konvensiyaya bax.**

nümayəndəlik binasına daxil olmağa icazə verdiyi bir çox hallar vardır. Elə vəziyyətlərə də rast gəlmək olur ki, diplomatik nümayəndəlik başçısı hər hansı səbəbdən (nümayəndəlik binasında olmamaq, ölüm) fiziki olaraq nümayəndəlik binasına daxil olmağa razılıq verə bilmir. Bu halda diplomatik personalın üzvlərindən biri razılıq verir. Diplomatik personalın üzvlərinin bu cür hərəkəti hüquqi qüvvəyə malik deyildir. Çünki Vyana Konvensiyasına görə, razılığı yalnız nümayəndəlik başçısı verə bilər. Diplomatik nümayəndəliyin başçısı deyil, nümayəndəliyin digər personalının xahişi ilə yerli hakimiyyət orqanlarının diplomatik nümayəndəlik binasına daxil olması bir çox hallarda narazılıq və konfliktlərə səbəb ola bilər. Diplomatik nümayəndəlik başçısı nümayəndəlik binasında olmadıqda və ya yerli hakimiyyət orqanlarının diplomatik nümayəndəlik binasına daxil olması haqqında məsələni hər hansı səbəbdən fiziki olaraq həll edə bilmədiyi halda yerləşmə dövləti diplomatik nümayəndəliyə daxil olmağa razılıq almaq üçün akkreditə edən dövlətin hökümətinə sorğu göndərməlidir. Bu vəziyyətdə diplomatik nümayəndəlik başçısı razılıq verməzsə, bu diplomatik nümayəndəlik binasına daxil olmaq üçün yerli hakimiyyət orqanlarını hər hansı hüquqi imkandan məhrum edir. Bütün ümumi beynəlxalq hüquqda yalnız biristisna mövcuddur. Bu da fors-major hallarıdır. Bu fors-major (dəfedilməz qüvvə) hallan məsuliyyətdən azad edən hallardır, yəni nəzarətdən yayınan, gözlənilməz və qaçılmaz fövqəladə xarakterli xarici hadisələrdir: təbii fəlakətlər, epidemiyalar, epizootik xəstəliklər, silahlı münaqişələr, mülki ixtişaşlar və s. Ümumiyyətlə, məsuliyyətdən azadetmə subyektin törətdiyi və məsuliyyəti doğurmuş deliktin' nəticələrini aradan qaldırmaq vəzifəsinin onun üstündən götürülməsidir.

Məsuliyyətdən azad edən hallara ilk növbədə zərərçəkmiş tərəfin öz təqsiri aid edilə bilər. Məsələn, dövlət onun səfirliyinin barəsində hazırlanan provakasiya aksiyası barədə məlumat alır.

**Delikt • dəymiş zərərə dair müqavilədən kənar öhdəlik.**

lakin səfirliyin yerləşdiyi ölkənin hakimiyyətinə xəbər vermir. Bu cür aksiya həyata keçirildikdə məskun olunan dövlətin məsuliyyəti xarici dövlətin səfirliyinin toxunulmazlığını təmin etmək vəzifəsinin yerinə yetirilmədiyindən irəli gəlir.

Lakin əgər sübuta yetirilsə ki, səfirliyin hazırlanan aksiya haqqında məlumatı varmış, ancaq bu barədə məskun ölkənin hakimiyyətinə xəbər verməmişdir, o zaman səfirliyin bu cur davranışı məskun olunan dövləti məsuliyyətdən azad edən hal kimi qiymətləndirilə bilər.

Yerləşmə dövlətinin siyasi məsuliyyəti digər subyektin mənafelərini qoruyan beynəlxalq hüquqi normasının pozulması faktında (məsələn, diplomatik nümayəndəliyin toxunulmazlığının pozulması) hasil olur. Bu cür məsuliyyət hüquq pozuntusunun maddi ziyana, yaxud digər neqativ nəticələrə səbəb olmadıqda da yarana bilər və satisfaksiyalar (mənəvi məsuliyyət) formasında: zərərçəkmiş tərəfi hüquqpozmanın təkrarına yol verilməyəcəyinə inandırma, üzr istəmə, təəssüf bildirmə, hüquqpozmanın cəzalandırılması, zərərçəkən tərəfə mənəvi təminatının digər formaları şəklində ifadə olunur. Siyasi məsuliyyət zərər çəkmiş subyekt tərəfindən həyata keçirilən zorakı cavab hərəkətləri kimi forması da qeyd edilməlidir. Bu cür tədbirlərdən biri də ***retorsiya***^ adlanır. Rctorsiya hüquqpozma sayılmayan qeyri-dostluq hərəkətləri ilə əlaqədar cavab aksiyalarıdır (məsələn, səfirin təmsil etdiyi ölkə barəsində qərəzli bəyanatla əlaqədar səfirin geri çağrılması).

Məsələn, partlayışlar, yanğınlar törədilməsi, vandalizm aktlarının həyata keçirilməsi və s. nəticəsində diplomatik nümayəndəliyə dəymiş maddi zərərə görə bu diplomatik nümayəndəlik yerləşmə dövlətindən maddi kompensasiya tələb etmək hüququna malikdir. Bu halda yerləşmə dövləti də maddi məsuliyyət daşıyır. Maddi məsuliyyət amillər məcmusunun mövcudluğu nəticəsində yaranır: Beynəlxalq hüquq normasının pozulması, hüquqpozma

**' Rctor.siya - beynəlxalq hüquqda bir dövlətin digər dövlətin eyni tələblərinə qarşı gördüyü məhdudlaşdırıcı tədbirlər.**

nəticəsində maddi ziyan yaranması və hüquqpozma ilə bu ziyan arasında birbaşa səbəbi i əlaqənin olması.

Maddi məsuliyyət dəymiş maddi ziyam ödəmək vəzifəsi ilə ifadə olunur. Bu, ***restitusiya*** (hüquqpozmaya digər mövcud olan maddi vəziyyətin bərpası) və ya ***reparasiya*** (dəymiş ziyanın pulla ödənilməsi) formalarında həyata keçirilir.

Siyasi və maddi məsuliyyət eyni bir zamana görə yarana bilər.

Qəbul edən dövlətin hakimiyyət orqanları diplomatik nümayəndəliyin başçısının icazəsi olmadan nümayəndəliyin ərazisinə və onun binalarına daxil ola bilmədikləri kimi, bu diplomatik nümayəndəlik binalarının özü, onların içində olan əmlak, habelə nəqliyyat vasitələri bu dövlət orqanları tərəfindən axtarışa, rekvizisiyaya, həbsə və icra hərəkətlərinə məruz qala bilməz. Lakin bu 0 demək deyildir ki, bütün hallarda onlar mülki və inzibati yurisdiksiyadan immunitetə malikdir. Vyana Konvensiyasında nəzərdə tutulmuşdur ki, nümayəndəlik məqsədləri üçün akkreditə edən dövlətin adından diplomatların malik olduqları daşınmaz əmlak haqqında işlər üzrə bu diplomatlar mülki və inzibati yurisdiksiyadan azaddırlar.

Lakin nümayəndəliyin yerləşdiyi binanın və torpaq sahəsinin mülki-hüquqi statusu nümayəndəliyin imtiyaz və immunitetlərinə təsir göstərmir.

Qeyd etdiyimiz kimi, nümayəndəliyin nəqliyyatı həbsə, müsadirəyə, axtarışa və s. qarşı immunitetə malikdir. Lakin orada cinayətkar olarsa, o, tutulub saxlanıla bilər. Bu halda məcburiyyət tədbirləri nəqliyyat vasitələrinə qarşı deyil, müvafiq şəxsə yönəldilmiş olacaqdır.

Diplomatik nümayəndəliyin binalarının toxunulmazlığını təmin edərək, yerləşmə dövləti diplomatik nümayəndəliyin rahatlığını pozan və ya onun ləyaqətini təhqir edən və ona zərər yetirən yerli hakimiyyət orqanlarının belə hərəkətləri barədə diplomatik nümayəndəliyi qabaqcadan xəbərdarlıq etməyə borcludur. Burada söhbət ondan gedir ki, onların fəaliyyəti bu və ya digər dərəcədə diplomatik nümayəndəliyin maraqlarına toxunur, lakin bu fəaliyyət

diplomatik nümayəndəliyin maraqlarına qəsdən yönəlməmişdir və sadə funksional fəaliyyətin nəticəsi olaraq meydana gəlmişdir. Bunlar diplomatik nümayəndəliyin binalarının yaxınlığında ictimai işlər həyata keçirilməsi, texniki səbəblərdən elektrik enerjisinin kəsilməsi, diplomatik nümayəndəliyin yerləşdiyi rayonda telefon- rabitə əlaqəsinin kəsilməsi ilə əlaqədar yarana bilər.

Onların bu fəaliyyətini diplomatik nümayəndəliyin binalarının toxunulmazlığını pozması kimi qiymətləndirmək olmaz.

Diplomatik nümayəndəliyin binalarının mühafizəsi xüsusi polis qüvvələri və hərbi birləşmələrdən istifadə edilməsi yolu ilə yerləşmə dövləti tərəfindən həyata keçirilir.

Diplomatik nümayəndəliklərin binalarının (mənzillərinin) toxunulmazlığını təmin etmək üçün onların yerləşdiyi dövlət bu binaların (otaqların və torpaq sahəsinin) lazımi (səmərəli) xarici mühafizəsini təmin etməyə və nümayəndəlik başçısının icazəsi olmadan yerli hakimiyyətin bu mənzillərə daxil olmasına yol verməməyə borcludur. Hakimiyyət dedikdə məskun olunan dövlətin qanunvericiliyi ilə məcburiyyət hərəkətlərini icra etmək icazəsi verilmiş şəxslər (müstəntiqlər, nəzarətçilər, yanğından mühafizə, məhkəmə icraçıları və s.) başa düşülür.

Diplomatik nümayəndəliyin mühafizəsi qaydası və bu məqsədlər üçün lazımolan vasitələrin həcmi, qüvvələrin sayı beynəlxalq hüquq normaları ilə tənzimlənmir. Vyana Konvensiyası yalnız elan edir ki, diplomatik nümayəndəliyin binalarının mühafizəsini təmin etmək yerləşmə dövlətinin "xüsusi vəzifəsidir". Bu yolla mühafizəsinin təşkil edilməsinin konkret qaydasını və həcmini müəyyən etmək yerləşmə dövlətinin birbaşa səlahiyyətinə aiddir. Bu halda, əlbəttə kİ, diplomatik nümayəndəlik mühafizəsinin gücləndirilməsi haqqında xahiş edə bilər. Diplomatik nümayəndəlin təhlükəsizliyinə qarşı hədə olub-olmadığını yerləşmə dövləti özü müəyyən edə bilər. Yerləşmə dövləti eyni zamanda bununla bağlı bu, ya digər vasitələrin (stasionar postlarının, patrullaşdırma, mühafizə siqnalizasiyasının və s.) və qüvvələrin istifadə olunmasının məqsədə uyğunluğu haqqında məsələni həll edə bilər.

Həqiqətən də, Vyana Konvensiyasının 25-ci maddəsinə görə, yerləşmə dövləti diplomatik nümayəndəliyin öz funksiyalarını normal yerinə yetirməsi üçün bütün imkanlardan istifadə etməyə borcludur. Məsələn, fövqəladə hallar zamanı (müharibə, kütləvi ixtişaşlar, təbii fəlakətlər) yerləşmə dövləti diplomatik nümayəndəliyin mühafizəsinin təşkil edilməsi üzrə fövqəladə tədbirlərə əl ata bilər. Bu tədbirlər diplomatik nümayəndəliyin normal fəaliyyət göstərməsini faktiki poza bilər. Lakin bu yerləşmə dövləti tərəfindən onun təhlükəsizliyinin təmin olunması üzrə vəzifələrin yerinə yetirilməsi gedişində baş verdiyi üçün bu hal heç bir qeyri-hüquqi xarakter daşımır.

Səfirlik və ya diplomatik nümayəndəlik öz fəaliyyətini ***aşağıdakı hallarda dayandıra bilər:***

Müharibə, ictimai-siyasi vəziyyətin dəyişməsi, ölkə başçısının vəfatı, hərbi çevriliş və s. baş verdiyi hallarda.

Diplomatik nümayəndəlik geri çağrılarkən əlaqələr ya tamam kəsilir, ya da müvəqqəti dayandırılır. Belə olan halda həmin ölkənin diplomatik maraqlarını 3-cü ölkə bu dövlətdə yerinə yetirə bilər. Ölkədən gedən diplomatik nümayəndəliyin (hətta, müharibə şəraitində belə) öz ölkəsinə təhlükəsiz yollanmasını yerləşdiyi ölkə təmin etməlidir.

Məsələn, Almanlar Fransaya hücum edib onu işğal etdikləri zaman alman xüsusi hərbi dəstəsi Berlindəki fransız diplomatlarını təhlükəsiz şəraitdə ötürmüşlər. Hətta, ölkəni tərk edən səfirliyin ərazisi münasibətlər barpa olunana qədər toxunulmazdır, onun binası, daşınan və daşınmaz əmlakı qorunmalıdır.

Cinayət məsuliyyətinə səbəb olan nümayəndəliyin toxunulmazlığının pozulması adı altında hər cür hücum, müdaxilə, diplomatik nümayəndəliyin ləyaqətinin təhqir edilməsi və s. faktlar düşmənçilik kimi düşülür.

Nümayəndəliyin dövləti böyük sayda postların olmasına baxmayaraq, nümayəndəliyin binasına ziyan vurulduqda, həmin nümayəndəlik mühafizəsinin səmərəsizliyi barəsində protest vermək və zərərin ödənilməsi haqqında iddia irəli sürməkdə haqlıdır.

Diplomatik nümayəndəliyə ziyan vurulmasında təqsirkar şəxslər məlum olduqda zərərin ödənilməsi məsələsi çətinlik yaratmır. Maddi zərər isə məhkəmə qaydasında onlardan tutularaq ödənilə bilər. Təcrübədə o hallar çətinlik yaradır ki, təqsirkar şəxslər məlum deyil və diplomatik nümayəndəlik isə yerləşmə dövlətinə pretenziyalar ünvanlayır.

Maddi ziyan dəyməsinə görə yerləşmə dövləti tərəfindən kompensassiyanın ödənilməsi məsələsi qüvvədə olan beynəlxalq müqavilələrddə nəzərdə tutulmamışdır. Dövlətlərin təcrübəsi isə bu məsələdə müxtəlifdir. Fiziki şəxslər tərəfindən yetirilən maddi ziyanın ödəmək öhdəliyinin qəbul edilməsi Qərbi Avropa dövlətlərinin əksəriyyəti üçün xarakterikdir, lakin bu öhdəliyi yalnız qarşılıqlılıq prinsipi əsasında qəbul edirlər. Bütövlükdə isə kompensasiya haqqında məsələnin həll edilməsində dövlətlər arasında mövcüd olan qarşılıqlı siyasi münasibətlərin xarakteri böyük rol oynayır. Bundan başqa, bu yerləşmə dövlətinin öz məsuliyyətini qəbul etməsinin və yaxud beynəlxalq nəzakət qaydasının həyata keçirilməsinin nəticəsi olmasını çox hallarda müəyyən etmək çətindir.

Bəzi yerləşmə dövlətləri xarici diplomatik nümayəndəliklərə vurulmuş maddi ziyanın ödənilməsinə formal olaraq razılıq versələr də, əslində isə bu öhdəliyin yerinə yetirilməsini uzatmağa, nəticədə isə onu yerinə yetirməkdən bütövlükdə yayınmağa cəhd edirlər.

Diplomatik təcrübə göstərir ki, baxılan öhdəliyin yerinə yetirilməməsinə görə yerləşmə dövlətinin məsuliyyəti məsələsi o hallarda yaranır ki;

a) diplomatik nümayəndəliyin binalarının toxunulmazlığının fiziki şəxslər tərəfindən pozulmasını özü təşkil etmiş və ya bu pozuntunun törədilməsinə yerləşmə dövləti özü təhrik etmişdir;

b) yerləşmə dövləti pozuntunun qarşısını almaq üçün lazımi tədbirlər görməmişdir;

c) yerləşmə dövləti bu pozuntunun törədilməsində təqsirli olan şəxsləri cəzalandırmışdır.

Diplomatik nümayəndəliklərin binalarının toxunulmazlığı

həm nümayəndəliyin özü, həm də onun personalının ayr-ayrı üzvləri tərəfindən sui-istifadə üçün imkanlar yaradır. Vyana Konvensiyasında nəzərdə tutulmuşdur ki, diplomatik nümayəndəliklərin binaları nümayəndəliyin funksiyaları ilə bir araya sığmayan məqsədlər üçün istifadə edilməməlidir.

Bu beynəlxalq hüquq normasına görə, nümayəndəliyin rəsmi məqsədləri ilə bir araya sığmayan xarakterli predmetlərin diplomatik nümayəndəliklərin binalarında saxlanılması və diplomatik nümayəndəliyin binalarının kommersiya məqsədləri üçün istifadə edilməsi yolverilməzdir. Diplomatik nümayəndəliyin binalarının nümayəndəliyin funksiyaları ilə bir araya sığmayan məqsədlər üçün istifadə edilməsi dedikdə, həmçinin bu binalarda hətta təmsil etdiyi vətəndaşı olsa belə, kimisə məcburi saxlamaq nəzərdə tutulur. Bundan başqa, diplomatik nümayəndəliyin binalarında kimisə məcburi saxlamaq yerləşmə dövlətinin ərazisində xarici dövlətin orqanları tərəfindən hakimiyyət səlahiyyətlərinin həyata keçirilməsi demək olardı. Bu isə yerləşmə dövlətinin suverenliyini pozur. Diplomatik nümayəndəlik hakimiyyət orqanı deyil və Vyana Konvensiyasında nəzərdə tutulan onun funksiyalarına isə tutma, saxlama və həbs hərəkətləri daxil deyil. Diplomatik nümayəndəliyin binalarında kimisə məcburi saxlamağın qadağan olunması bəzən yerləşmə dövlətinin qanunvericiliyində nəzərdə tutulur.'

Dövlətlərin əksəriyyətinin təcrübəsində diplomatik nümayəndəliyin binalarının nümayəndəliyin funksiyaları ilə bir araya sığmayan məqsədlər üçün istifadə edilməsi diplomatik sığınacaq vermək kimi qiymətləndirilir.

Diplomatik nümayəndəliklərin binalarının nümayəndəliyin funksiyaları ilə bir araya sığmayan məqsədlər üçün istifadə edilməsi bu binaların toxunulmazlığının hədləri haqqında maraqlı sual doğurur. Diplomatik nümayəndəliklərin binalarının nümayəndəliyin funksiyaları ilə bir araya sığmayan məqsədlər üçün istifadə edildiyi

**' Никифоров Д.С; Борупков Л.Ф. Дипломатический протокол в СССР. Припцы- пы. Нормы. Практика. М., 1985. стр. 152-153.**

hallarda onların toxunulmazlığıımn məhdudlaşdınlmasının mümkün olub olmaması haqqında məsələ ortaya çıxır.

Müasir diplomatik təcrübə diplomatik nümayəndəliklərin binalarının toxunulmazlığının hədləri haqqında suala birmənalı cavab vermir. Beynəlxalq hüquqda bəzi hüquqşünaslar diplomatik nümayəndəliklərin binalarının tamamilə toxunulmazlığının tərəfdarıdır. Digərləri isə özünü müdafiə və ya repressaliya institutuna istinad edərək bu binaların toxunulmazlığının məhdudlaşdırılması mümkünlüyünün tərəfdarıdırlar.

Özünü müdafiəyə istinad edərək diplomatik nümayəndəliklərin binalarının toxunulmazlığının məhdudlaşdırılınası BMT- nin Nizamnaməsinin 51-ci maddəsində öz ə.sasını tapmışdır:

“Dövlətin ona qarşı həyata keçirilən təcavüzüdən və ya təcavüz təhlükəsindən fərdi və ya kollektiv surətdə özünü müdafiə hüququ vardır”. Burada özünü müdafiə institutunun hüquqa uyğunluğunu yalnız o halda qəbul etmək olar ki, təmsil olunan dövlət öz diplomatik nümayəndəliyindən zorakılıq aktları üçün istifadə etmiş olsun.

Bundan başqa, zərərçəkmiş subyekt tərəfindən həyata keçirilən zorakı cavab hərəkətləri kimi tədbirləri də qeyd etmək lazımdır. Belə tədbirlər ***repressaliya*** adlanır. Repressaliya onu doğuran hərəkətlərə uyğun olmalıdır. Yerləşmə dövləti diplomatik nümayəndələrin binalarının mühafizəsini təmin etməkdən imtina etməsi kimi bu binaların toxunulmazlığının məhdudlaşdınlmasının bu cür forması qanunsuz diplomatik sığınacaq verilməsinə, nümayəndəliyin binalarında kiminsə məcburi saxlanmaq hallarına cavab olaraq tətbiq edə bilər. Diplomatik nümayəndəliyin binalarından müxalifəti silahla təmin etmək, silahlı qiyam hazırlamaq məqsədilə bu binalardan silah toplamaq üçün istifadə edilməsi hallarında nümayəndəliyin binalarına məcburi daxil olmaq mümkündür. Yalnız bu halda yerləşmə dövlətinin diplomatik nümayəndəliyin binasına məcburi daxil olmasına bəraət qazandırmaq olar. Təcrübədə repressaliya institutu əsasında bu binaların toxunulmazlığını məhdudlaşdırmaq üçün bu və ya digər formanın

seçilməsi diplomatik nümayəndəlik tərəfindən sui-istifadə nəticəsində dəymiş zərərin həcminə görə yerləşmə dövlətinin bu məsələni subyektiv qiymətləndirilməsindən daha çox asılı olacaqdır.

Diplomatik nümayəndəliklərin ***daxili mühafizi sistemi*** beynəlxalq hüquqda yeni bir anlayışdır.

Diplomatik təcrübədə diplomatik nümayəndəliklər özlərinin daxili mühafizə sistemini son 20 ildə təşkil etməyə başlamışlar. Terrorizm fəaliyyətinin qərb dövlətlərində güclənməsi xüsusilə də son illərdə terroristlər tərəfindən səfirliklərin tutulması, diplomatların oğurlanması və öldürülməsi halları bir çox dövlətlər tərəfindən diplomatik nümayəndəliklərdə daxili mühafizə sisteminin yaradılmasına səbəb olmuşdur.

Daxili mühafizə sisteminin təsis edilməsi haqqında prinsipial qərar hələ 1932-ci ildə Amerika Konqresi tərəfindən qəbul edilmişdir. 1948-ci ildən bəri xaricdəki amerika nümayəndəliklərini ABŞ-ın dəniz piyadaları daimi mühafizə edirlər. London və Parisdə yerləşən ABŞ səfirliklərində dəniz piyadaları bölmələrinin əsgərlərinin sayı 35 nəfərə çatır.

İndiki zamanda bir çox dövlətlərin diplomatik nümayəndəliklərində daxili mühafizə yaradılmışdır. Son illərdə akkreditə edən dövlət tərəfindən diplomatik nümayəndəliklərdə təhlükəsizlik rejiminin kəskin gücləndirilməsi və daxili mühafizə əməkdaşlarının sayının artırılması meyli meydana gəlmişdir.

Daxili mühafizə əməkdaşlarına ümumi rəhbərliyi, bir qayda olaraq, diplomatik nümayəndəliklərin təhlükəsizlik xidmətinin zabitləri həyata keçirirlər. Daxili mühafizə əməkdaşları adətən odlu silahla silahlanmış olur. Bəzi dövlətlərin diplomatik nümayəndəliklərinin daxili mühafizəsi, hətta, ağır texnikaya da malikdir. Diplomatik nümayəndəliklərə hücum zamanı daxili mühafizə xidməti əməkdaşlarının silah tətbiq etdiyi bir çox məlum presedentlər var.

İlk olaraq terroristlərin hücumlarından diplomatik nümayəndəliklərin müdafiəsi üçün yaradılan mühafizə, təcrübədə həm də

yerli xüsusi xidmət orqanlarının fəaliyyətinin qarşısını almaq üçün aktiv istifadə olunur. 1987-ci il 23 aprel tarixində kəşfiyyat üzrə senat komitəsində dinləmələr zamanı bu fikir ABŞ dövlət katibi D. Şulç tərəllndən dəqiq ifadə edilmişdir. Orada o Amerika nümayəndəliklərinin təhlükəsizliyinin gücləndirilməsinin təmin edilməsi üzrə əsas iki tapşırığın nədən ibarət olmasını aşağıdakı şəkildə ifadə etdi:

- "bizim nümayəndəliklərin kütlənin zorakılığından, terroristlərin hücumundan və sanksiyalaşdırılmamış zorakı daxil olma hallarından fiziki təhlükəsizliyinin təmin edilməsi;
- bizim nümayəndəliklərin və bizim kommunikasiya, rabitə şəbəkəsinin texniki təhlükəsizliyinin təmin edilməsi".

Beynəlxalq hüquqda diplomatik nümayəndəliklərin daxili mühafizəsi ilə bağlı məsələlər mütəxəssislər tərəfindən lazımınca tədqiq edilməmişdir.

Diplomatik nümayəndəliklərdə daxili mühafizə sisteminin təşkil edilməsi və onun statusu haqqında məsələ hələ ki, mövcud müqavilə normaları ilə birbaşa tənzimlənmir.

Qüvvədə olan beynəlxalq adətlərə görə, diplomatik nümayəndəliklər öz dövlətinin adət-ənənələrinə uyğun olaraq özünün istədiyi kimi gündəlik daxili həyatını təşkil etmək imtiyazından istifadə edirlər. Diplomatik nümayəndəliyin daxili həyatının təşkil edilməsi çərçivəsindən kənara çıxan hər hansı mühafizə funksiyalarının həyata keçirilməsi yerləşmə dövlətinin daxili işlərinə qarışmaq hesab ediləcək.

Qeyd etmək lazımdır ki, diplomatik nümayəndəliklərdə daxili mühafizə sisteminin təşkil edilməsi indiki zamanda yerləşmə dövlətləri tərəfindən demək olar ki, etirazla qarşılaşmayan geniş təcrübəyə çevrilmişdir.

Akkreditə edilən dövlətlər viza sorğularında və nota mübadiləsində və ya yazışmasında bu şəxslərin vəzifəsini birbaşa göstərərək daxili mühafizə əməkdaşlarını açıq şəkildə yerləşmə dövlətinə göndərirlər. Bundan başqa, nota mübadiləsində bəzən, hətta, bu və ya digər daxili mühafizə əməkdaşlarının hansı

funksiyaları yerinə yetirilməsi də birbaşa göstərilir. Bir çox yerləşmə dövlətləri xarici diplomatik nümayəndəliklərin lazımi müdafiəsini təmin etmək iqtidarında olmadığı üçün özləri bu nümayəndəliklərdə daxili mühafizə sisteminin təşkil edilməsində maraqlı olduqlarını bildirirlər.

Diplomatik təcrübədə, nadir hallarda da olsa, diplomatik nümayəndəliklərdə daxili mühafizə sisteminin təşkil edilməsi və onun statusunun akkreditə edən və yerləşmə dövləti arasında tənzimləyən ikitərəfli razılaşmalara da rast gəlmək olar. Belə ki, Böyük Britaniyada ABŞ səfirliyini mühafizə edən dəniz piyadaları bölmələri yerli hakimiyyət orqanları tərəfindən diplomatik personal kimi qiymətləndirilmir, onların statusu isə xüsusi təhlükəsizlik qüvvələrinə dair ABŞ və Böyük Britaniya arasında bağlanmış müqavilə ilə müəyyən edilir.

Eyni zamanda yerləşmə dövlətinin səlahiyyətlərinə toxunan diplomatik nümayəndəliyin daxili mühafizə xidmətinin fəaliyyətinin bəzi aspektləri yerləşmə dövləti ilə akkreditə edən dövlət arasındakı münasibətlərdə tez-tez kəskin mübahisələrə səbəb olur.

Məsələn, daxili mühafizənin səlahiyyət hədləri, xü.susilə də onların əməkdaşları tərəfindən məcburetmə tədbirlərinə əl atdığı hallar haqqında məsələ tənzimlənməmiş qalır. Əlbəttə, ayrı-ayrı məcburiyyət tədbirlərinin hüquqa uyğunluğu (məsələn, diplomatik nümayəndəliyin binalarına daxil olmuş cinayətkarın cinayət törətdiyi anda onun yerli hakimiyyət orqanlarına təhvil verilməsi məqsədilə tutulması) zəruri müdafiə institutu çərçivəsində izah edilə bilər. Lakin, bütövlükdə mühafizə funksiyalarının həyata keçirilməsi məqsədilə bu və ya digər məcburiyyət tədbirlərinin tətbiq edilməsi (tutma, axtarışlar və s.) yerləşmə dövlətinin suverenliyinə toxuna bilər.

Akkkreditə edən dövlətin verdiyi səlahiyyətlər arasında məcburiyyət tədbirlərinə əl ataraq daxili mühafizə xidməti diplomatik nümayəndəliyin mühafizəsini təmin edir. Lakin yerləşmə dövləti tərəfindən təşkil edilən xarici mühafizə ona verilən səlahiyyət əsasında lazımi hallarda məcburiyyət tədbirləri tətbiq

edərək eyni tapşırığı yerinə yetirirlər. Diplomatik nümayəndəlikdə meydana gələn bu və ya digər insidentlərin həll edilməsi zərurəti yarana bilər. Bunun da nəticəsində xarici mühafizə ilə daxili mühafizə əməkdaşları arasında birbaşa toqquşma üçün potensial təhlükə yarana bilər.

Daxili mühafizə əməkdaşları tərəfindən silah gətirilməsi, saxlanması, daşınması və tətbiq edilməsi məsələləri hələ lazımınca tənzi m lənməm i şd ir.

Beynəlxalq hüququn qüvvədə olan normaları ilə bu məsələlər tənzimlənmir. Yerləşmə dövlətləri bu məsələləri ya qüvvədə olan qanunvericilik normalarının tətbiq edilməsi, ya da xarici diplomatik nümayəndəliklərin personalına münasibətdə xüsusi qanunların və təlimatların nəşr edilməsi yolu ilə həll edirlər.

Bir çox dövlətlərdə, məsələn, İtaliya, Ruanda, Sudan və Türkiyədə yerli səlahiyyətli orqanlardan icazə almaq şərti ilə xarici diplomatik nümayəndəliklərin personalı oldu silah saxlaya və daşıya bilər. Bəzi dövlətlərdə, məsələn, Kanada və Çində xarici diplomatik nümayəndəliklərin personalı yerli səlahiyyətli orqanlarda silahım qeydiyyatdan keçirməlidir. Lakin, diplomatik nümayəndəliklərin binalarının xaricində silah gəzdirmək və ya daşımaq qadağandır. Bir sıra dövlətlərdə diplomatik nümayəndəliyin nümayəndələri tərəfindən konkret silah növlərinin gətirilməsinə məhdudiyyətlər qoyulmuşdur. Belə ki, Kanada qanunlarına görə, xarici diplomatlar tərəfindən ölkəyə avtomat silahının gətirilməsi qadağan edilmişdir. Ayrı-ayrı dövlətlərin qanunvericiliyi ümumiyyətlə xarici diplomatik nümayəndəliklərin personalı tərəfindən silahın saxlanılması və daşınmasını qadağan edir. Məsələn, Böyük Britaniyanın qanunvericiliyi (yalnız ABŞ səfirliyinin dəniz piyadaları üçün istisna edilmişdir) belə qabağa qoymuşdur.

Azərbaycan Respublikasında və bizimlə yanaşı Rusiya Federasiyasında xarici diplomatik nümayəndəliklərin personalı tərəfindən silah gətirilməsi, aparılması, əldə edilməsi və tətbiq edilməsi, onun qeydiyyata alınması məsələlərini kompleks tənzimləyən vahid qanunvericilik aktı və ya hökümət qərarı yoxdur.

Mövcud olan təcrübəyə uyğun olaraq, qarşılıqlılıq əsasında yalnız səfirlik tərkibində olan hərbi, hərbi-dəniz, hərbi-hava attaşelərinə və onların köməkçilərinə, diplomatik kuryerlərə və ya diplomatik poçtu müşayət edən digər şəxslərə məxsus şəxsi odlu və soyuq silah və odlu silaha aid döyüş sursatı dövlət sərhəddindən keçirilə bilər. Göstərilən şəxslərə yalnız bir ədəd odlu və soyuq silah keçirməyə icazə verilir.

Mühafizəçilər keyfiyyətində yerli vətəndaşların işə götürülməsi təcrübəsi ABŞ üçün xarakterikdir. Amerikalılar hesab edir ki, belə yanaşma onların vətəndaşları üçün təhlükəni azaldır. Bundan başqa, yerli vətəndaşlardan olan mühafizəçilər yerləşmə dövlətində daha yaxşı adaptasiya olunduğundan terroristlərin hücumlarının qarşısını daha effektiv ala bilərlər. 1984-cü ildə amerikalı dəniz piyadalarının Livandan çıxarılmasından sonra burada ABŞ səfirliyinin mühafizəsi üçün livanlılar işə götürülmüşdür. Livandan olan bu mühafizəçilər ABŞ Dövlət Departamentinin "mobil təlim komandası" təfındən mühafizə texnikası və silah tətbiq edilməsinə dair iki həftə müddətində təlim keçmişdilər.

***Diplomatik nümayəndəlikhrin arxivlərinin və sənədlərinin toxunulmazlığı məsələləri***

Vyana Konvensiyasının 24-cü maddəsinə görə, diplomatik nümayəndəliyin bütün arxivləri və sənədləri onların olduğu yerdən asılı olmayaraq hər zaman toxunulmazdır.

Adi şəraitdə arxivlərin və sənədlərin toxunulmazlığı diplomatik nümayəndəliyin binalarının və diplomatik poçtun toxunulmazlığının gücünə təmin edilir. Burada diplomatik nümayəndəliyin arxivləri və sənədlərinin "olduğu yerdən asılı olmayaraq" dedikdə onlar hər hansı səbəbdən "diplomatik nümayəndəliyin sərəncamında olmadıqda belə toxunulmazdır" mənasında başa düşülür. Arxivlərin və sənədlərin "hər zaman" toxunulmazlığı dedikdə isə diplomatik münasibətlər kəsildikdən sonra da onlar toxunulmazdır mənasında başa düşülür. Diplomatik nümayəndəliyin arxivləri və sənədlərinin toxunulmazlığı anlayışı bir tərəfdən yerləşmə dövlətinin qanun

verici, icra və məhkəmə orqanları tərəfindən hər hansı müdaxilədən bu arxiv və sənədlərin azad olunması öhdəliyi ilə bağlıdır. Digər tərəfdən isə bu anlayış fiziki şəxslər tərəfindən ola biləcək təcavüzdən bu arxiv və sənədlərin mühafizə edilməsi öhdəliyi ilə bağlıdır.

Nümayəndəliyin arxivləri və sənədləri oğurlanma, itmə nəticəsində və ya hər hansı başqa yolla yerli hakimiyyət orqanlarının əlinə keçmişsə, dərhal diplomatik nümayəndəliyə qaytarılmalıdır. Yerli hakimiyyət orqanlarının bu arxivləri və sənədləri məhkəmə və inzibati mübahisələrdə və ya başqa rəsmi məqsədlər üçün istifadə etmək hüququ yoxdur.

Qərb dövlətlərinin məhkəmə təcrübəsində məhkəmələr xarici diplomatik nümayəndəliklərə qarşı mülki iddialara baxarkən diplomatik sənədlərin toxunulmazlığına istinad edərək cavabdehlər tərəfindən diplomatik sənədlərin təqdim olunması haqqında iddiaçıların tələbini qəbul etmir. Nümayəndəliyin sənədlərinin rəsmi məqsədlər üçün istifadə edilməsi haqqında məsələyə baxarkən beynəlxalq hüququn qərb doktrinasında Kanada vətəndaşının casusluqda ittiham edilməsinə dair 1947-ci il Kanadada keçirilmiş məhkəmə prosesindəki hala tez-tez istinad edilir. Bu prosesin gedişində sovet hərbi attaşeesində sovet vətəndaşı tərəfindən oğurlanmış sənədlər iş üzrə sübut qismində istifadə edilmişdir. Məhkəmə yerləşmə dövlətinin təhlükəsizliyinə istinad edərək nümayəndəliyin sənədlərinin toxunulmazlığını qəbul etməkdən imtina etdi. Məhkəmə eyni zamanda Kanada höküməti tərəfindən bu sənədlərin diplomatik xarakterinə dair onların formal təsdiqini tapmadağı faktına istinad etmişdir. Bu zaman Kanada höküməti oğurlanmış sənədlərin mülkiyətçisi qismində özünü təqdim edir. Bəzi hüquqşünaslar dövlət təhlükəsizliyinə istinad edərək diplomatik immunitetlərin məhdudlaşdırılması üçün məhkəmənin bu hərəkətinin əsaslı olduğunu demişlər. Burada "dövlətin təhlükəsizliyi" yerli hakimiyyət orqanları tərəfindən birmənalı qaydada başa düşülə bilər. Bu isə yerləşmə dövləti tərəfindən bu və ya digər diplomatik immunitetləri qəbul etməkdən imtina və digər

sui istifadə hallarına, nəticədə isə Vyana Konvensiyasının müddəalarının pozulmasına gətirib çıxara bilər. Bu proses üzrə Kanada hökümətinin özünü oğurlanmış sənədlərin mülkiyyətçisi qismində elan etməsinə dair fəaliyyəti də hüquqa ziddir.

Vyana Konvensiyasının 27-ci maddəsinə görə, nümayəndəliyin bütün rəsmi yazışmaları toxunulmazdır. Burada "rəsmi yazışmalar" adı altında nümayəndəliyə və onun funksiyalarına aid olan bütün rəsmi yazışmalar başa düşülür. Korres- pondensiya dedikdə, eyni zamanda diplomatik nümayəndəliyə daxil olan və oradan göndərilən bütün poçt-teleqraf göndərişləri anlaşılır. Yerli hakimiyyət orqanlarının nə bu rəsmi yazışmaları saxlamaq, onları açmaq və onlara baxış keçirmək, nə də onları hər hansı rəsmi məqsədlər üçün istifadə etmək hüququ yoxdur (məsələn, məhkəmə mübahisələrində, təbliğat kompaniyalarında və s.).

Vyana Konvensiyası hazırlanarkən rəsmi yazışmalara dair bəzi normalar kifayət qədər aydın işlənməmişdir. Rəsmi yazışmalara dair bəzi məsələlərin müəyyən edilməsi indi də çətinlik törədir. Bəzən yerli hakimiyyət orqanları bu rəsmi korrespondensiyanı açırlar. Belə olan halda isə bu məsələyə dair bəzi çətinliklər meydana gəlir. Bu da onunla bağlıdır ki, diplomatik poçtdan fərqli olaraq, onun xarakterinə işarə edən hər hansı "xarici işarə və ya əlamətin" olmamasıdır. Bunun da nəticəsində yerli hakimiyyət orqanlara nəzəri baxış keçirdikdə rəsmi korrespondensiyanı fərdi və ya xüsusi yazışmadan fərqləndirmək imkanları olmayacaq. Bu rəsmi yazışmanın nümayəndəliyə və onun funksiyalarına aid olması, toxunulmazlıqdan istifadə etməsi məsələsini araşdırmaq üçün onun məzmunu ilə tanış olmaq lazımdır. Bunun özü isə elə onun toxunulmazlığının pozulması demək olacaqdır.

Həmçinin, fiziki şəxslər tərəfindən diplomatik nümayəndəliyə göndərilmiş məktubların "rəsmi korrespondensiyaya" aid olub- olmaması məsələsi də aydın deyil. Bir tərəfdən, ehtimal etmək olar ki, əgər bu məktub diplomatik fəaliyyətlə və onun funksiyaları ilə bağlı deyildirsə, o zaman bu məktub "rəsmi korrespondensiyaya" aid deyil. Lakin digər tərəfdən baxdıqda bu məktub diplomatik

nümayəndəliyin dəftərxanasında qeydiyyata alındığı andan "rəsmi korrespondensiya" sayılır.

Bütün deyilənlərə yekun olaraq belə nəticəyə gəlmək olar ki, diplomatik nümayəndəliyə daxil olan və oradan göndərilən bütün rəsmi yazışmaların rəsmi məqsədlər üçün istifadə edilməsi hüquqi nöqteyi-nəzərdən yolverilməzdir.

Akkreditə edən dövlət orqanları ilə ***əlaqə saxlamaq*** azadlığı diplomatik nümayəndəliyin normal fəaliyyətini təmin etmək üçün həyati əhəmiyyət daşıyan şərtlərdən biridir. Beynəlxalq hüquqda xarici diplomatik nümayəndəliyin öz dövlətinin hökuməti ilə maneəsiz əlaqə saxlamaq üçün hər cür şəraitlə təmin etmək yerləşmə dövləti tərəfindən Öhdəlik kimi qəbul edilmişdir. Hər bir dövlətin diplomatik nümayəndəliyinin öz dövləti ilə xüsusi şifrəli, məxfi rabitə və diplomatik poçt ilə əlaqə saxlamaq hüququ vardır. Yerləşdiyi dövlətin orqanları bunu yoxlamır. Bütün rəsmi məqsədlər üçün nümayəndəliyin öz dövləti ilə maneəsiz əlaqə saxlamağa yerləşmə dövləti icazə verməli, hər cür şərait yaratmalı və bu hüququ qorumalıdır. Bu öhdəlik nümayəndəliyin rəsmi korrespondensiyasının tranzit olaraq ərazisindən keçdiyi üçüncü dövlətlərə də aiddir.

Diplomatik nümayəndəliyin öz mərkəzi və öz dövlətinin digər nümayəndəlikləri ilə ən yayılmış əlaqə növlərindən biri ***diplomatik poçtdur.*** Bu əlaqələri həyata keçirmək üçün nümayəndəlik bütün müvafiq vasitələrdən, o cümlədən diplomatik kuryerlərdən sərbəst və maneəsiz istifadə edə bilər. 1961-ci il Vyana Konvensiyasında diplomatik poçtun diplomatik kuryerlər vasitəsilə (ştatlı və ad hoc) və kuryersiz (diplomatik kuryer hüququna malik olmayan hava gəmisi komandirinin köməyi ilə) gətirilməsini (daşınmasını) nəzərdə tutur. 1961-ci il Vyana Konvensiyası, habelə diplomatik poçtu təyinatı üzrə çatdırdığı ana qədər immunitetə malik müvəqqəti (ad hoc) kuryerlərin təyin olunmasını mümkün sayır. Təcrübədə kuryersiz daşınma həmçinin dəniz gəmisi kapitalının köməyilə və marağı olan dövlətlər arasında sazişlərin əsasında adi rabitə kanalları (poçt idarələri) vasitəsilə həyata keçirilir. Axırıncı

istisna edilməklə, bütün hallarda diplomatik poçt mütləq toxunulmazlıq hüququna malikdir və o, çəki, yaxud say ilə məhdudlaşdırılmır. Bu sazişlərin şərtləri pozulduqda diplomatik poçt saxlanıla və hətta açıla bilər.

Diplomatik təcrübədə diplomatik nümayəndəliyin öz dövlətinin hökuməti ilə əlaqədə olmaq azadlığının məhdudlaşdırılması hallarına rast gəlmək olar. Onlar fövqəladə vəziyyətlərdə (məsələn, müharibə zamanı) və ya yerləşmə dövlətinin iqtisadi maraqlarını qorumaq üçün (məsələn, pul islahatının həyata keçirilməsi zamanı) tətbiq edilir. Bu məhdudlaşdırılmalar yalnız qabaqcadan müəyyən edilmiş müddət ərzində qüvvədə olur.

Diplomatik poçtun diplomatik kuryerlər vasitəsilə gətirilməsi (daşınması) daha etibarlıdır. Diplomatik kuryerlər akkreditə edən dövlətin xarici işlər idarəsində xidmət keçsələr də onlar diplomatik personala daxil deyillər və onların heç bir diplomatik dərəcəsi yoxdur. Diplomatik kutyerlərin elə də böyük həcmdə olmayan immunitetə malik olmaları da bununla izah olunur.

Təcrübədə bir tərəfdən diplomatik kuryerlərə diplomatlarla eyni həcmdə immunitet vermək meyli mövcuddur. Lakin digər tərəfdən diplomatik kuryerlərin statusunun kifayət qədər tənzimlənməmiş qalması tez-tez münaqişəli vəziyyətlərə gətirib çıxarır.

Konfliktlərin çoxu diplomatik kuryerlər gömrük nəzarətini keçərkən kuryerlərə və onların baqajına Vyana Konvensiyası ilə qadağan olunmayan şəxsi baxış keçirməklə bağlı yaranır. Bu cür şəxsi baxış keçirmək imkanı bir sıra dövlətlərin qanunvericiliyində nəzərdə tutulmuşdur.

Aeroportlarda diplomatik kuryerlərin texniki nəzarətdən keçmək imkanı haqqında təcrübədə yaranmış məsələ Vyana Konvensiyası ilə tənzimlənməmiş qalmışdır. Bu cür texniki nəzarətdən keçmək imkanı bir sıra dövlətlərin qanunvericiliyinə zidd deyildir.

Diplomatik təcrübədə həmçinin diplomatik kuryerlərin yerləşmə dövlətinin ərazisində sərbəst hərəkət etməsini məhdudlaşdıran hallara rast gəlinir. Bu hallar Vyana Konvensiyasına uyğundur. Yalnız bir şərtlə ki, bu məhdudlaşdırılma halları

diplomatik poçtun sərbəst çatdırılmasına maneə yaratmasın. Diplomatik kuryerlərin status məsələlərinə Konvensiyanın Əlavə Protokolunun maddələrində toxunulur. Bu Əlavə Protokolda ilk dəfə olaraq diplomatik kuıyerlərin təyin olunması, sənədləşdirmə, diplomatik kuryerlərin vətəndaşlığı, onların funksiyaları, funksiyalarının dayandırılması qaydası, diplomatik kuryerlərin persona non qrata elan edilməsi və sair məsələlər tənzimlənir. Protokol diplomatik kuryerin şəxsiyyətinin toxunulmazlığını, müvəqqəti yaşayış yerinin toxunulmazlığını, yerləşmə dövlətinin cinayət, inzibati və' mülki yurisdiksiyasına qarşı immunitet hüququnu, həmçinin gömrük və vergi immunitetləri nəzərədə tutur. Bu Protokolun 17-ci maddəsində nəzərdə tutulmuşdur ki, diplomatik kuryerlərin müvəqqəti yaşayış yeri toxunulmazdır, lakin gözlənilməz müdafiə tədbirləri tələb olunan təbii fəlakət və ya yanğın hallarında yerli hakimiyyət orqanlarının bu müvəqqəti yaşayış yerinə daxil olması üçün diplomatik kuryerlərin razılığı tələb oluna bilər.

Protokolun layihəsinin 3-cü maddəsində nəzərdə tutulmuşdur ki, diplomatik kuryerin müvəqqəti yaşayış yerində karantin qaydaları və ya idxal və ixrac üçün qanunla qadağan olunan predmetlərin olması haqqında kifayət qədər ciddi əsaslar olduqda ora yerli hakimiyyət orqanları tərəfindən baxışa və ya axtarışa məruz qala bilər: Belə axtarış və ya baxış yalnız diplomatik kuryerin iştirakı ilə həyata keçirilməlidir. Belə axtarış və ya baxış diplomatik kuryerin şəxsi toxunulmazlığını, diplomatik poçtun mühafizəsini pozmamaq şərti ilə həyata keçirilməlidir. Belə axtarış və baxış həyata keçirilərkən eyni zamanda diplomatik poçtun çatdırılmasında gecikmələrə və ya hər hansı maneələrin yaranmasına səbəb olmamalıdır. Diplomatik kuryer yalnız xidməti immunitetdən istifadə edə bilər, yəni o yalnız öz vəzifə və funksiyalarını yerinə yetirərkən bu xidməti immunitetə malikdir.

Beləliklə, diplomatik kuryerə yalnız xidməti immunitetin verilməsi diplomatik kuryerlərin xaricdə təhlükəsizliyinə təsir etməyəcək.

Burada bu Protokolun iştirakçısı olan dövlətlər xidməti immunitetin yalnız bəzi kateqoriyalı kuryerlərə və poçta aid olması haqqında razılığa gəlmiş və öz üzərinə bu barədə öhdəlik götürmüşlər. Beynəlxalq Hüquq komissiyasının mövqeyinə görə bu immunitetlər gələcəkdə bütün kateqoriyalı kuryerlərə və ona uyğun poçtlara şamil edilməlidir. Beynəlxalq hüquq komissiyasının bəzi üzvləri hesab edirlər ki, bu Protokolun bəzi müddəalarının tətbiq edilməsi dövlətlərin diplomatik təcrübəsində müxtəliflik əmələ gətirə bilər. Nəticədə isə diplomatik kuryerin və diplomatik poçtun statusunun konsul kuryerləri və konsul poçtunun statusu səviyyəsinə düşməsinə səbəb ola bilər.

Bütün deyilənlərdən başqa diplomatik nümayəndəlik fıskal (maliyyə) immunitetinə və gömrük imtiyazlarına malikdir.

Nümayəndəliyin binaları bütün dövlət və bələdiyyə vergi və rüsumlarından (konkret xidmətlərə görə ödəniş haqqından başqa) azaddır. Diplomatik nümayəndəlik öz rəsmi istifadəsi üçün ölkəyə gətirdiyi və ölkədən çıxardığı mallara görə gömrük rüsumları ödəməkdən azaddır.

***Diplomatik nümayəndəliyin personalının imtiyaz və immunitetləri.***

Diplomatik nümayəndəliklərin personalının əsas imtiyaz və immunitetləri bunlardır;

Şəxsiyyət, mənzil toxunulmazlığı, diplomatik toxunulmazlıq, yəni diplomatik nümayəndəliyin yerli cinayət və mülki mühakimə aidiyyatmdan kənar olması, habelə onun yerli inzibati hakimiyyətə təbe olmaması, fıskal (maliyyə) immuniteti, gömrük imtiyazları, diplomatik nümayəndənin şəxsi mükəlləfiyyətlərdən azad edilməsi aiddir.

Vyana Konvensiyasının 29-cu maddəsində deyilir ki, “diplomatik agentin şəxsiyyəti toxunulmazdır”. O, heç bir formada həbs edilə, tutulub saxlanıla bilməz. Yerləşmə dövləti ona lazımi hörmətlə yanaşmalı və onun şəxsiyyətinə, azadlıq və şərəfinə qarşı ola biləcək qəsdin qarşısını almaq üçün lazımi tədbirlər görməlidir. Hətta, ölkədən gedən səfir və ya diplomat haqqında Vyana

Bununla bağlı BMT sistemində dəfələrlə əməkdaşlıq məsələlərinə baxılmışdır. Ən maraqlı qərarlardan biri Baş Assambleyanın 35-ci sessiyasında qəbul edilmişdir. Bu qəttnamədə diplomatik və konsulluq missiyalarının və nümayəndəliklərinin təhlükəsizliyi, mühafizəsi və müdafiəsinin gücləndirilməsi üzrə effektiv tədbirlərə baxılması ilə əlaqədar nəzarət mexanizmi təklif edilmişdir. Bu qətnaməyə uyğun olaraq diplomatlara qarşı törədilən ciddi qəsdlər, bu qəsdləri törədənlərin məhkəməyə verilməsi üçün dövlətin həyata keçirdiyi tədbirlər və bu cür cinayətlərin təkrar olunmaması haqqında dövlətlər BMT-nin Baş Katibinə məlumat vermək üçün dəvət olunur. BMT-nin Baş Katibi isə bu hesabatları BMT-nin üzvü olan bütün dövlətlərə verir və bu barədə Baş Assambleyaya İllik hesabat təqdim edir.

***Diplomatların cinayət məsuliyyətinə cəlb edilməsi imkanından və yıırisdiksiyasından immunitet.***

Diplomatik nümayəndəliklərin personalı tərəfindən törədilən qanun pozuntularının sayı haqqında Böyük Britaniya üzrə statistik məlumatlar daha ətraflı təsəvvür yaradır. 1974-1984-cü illər ərzində diplomatik nümayəndəlik personalının ümumi sayı 11 min nəfər təşkil etdiyi halda hər il 4 ağır və 20-yə yaxın digər cinayət hadisəsi, 30-a yaxın isə ciddi inzibati hüquqpozma hadisəsi törədilirdi. Bundan əlavə, 100 minə yaxın ödənilməmiş cərimələr qeydə alınır. Vyana Konvensiyasının 31-ci maddəsində nəzərdə tutulmuşdur ki, diplomatlar yerləşmə dövlətinin cinayət yurisdiksiyasından immunitetə malikdir. Bu müddəa beynəlxalq hüquqşünaslar arasında heç bir şübhə doğurmur. Konvensiyada bu immunitetdən heç bir istisna nəzərdə tutulmamışdır. Vyana Konvensiyasının 31-ci maddəsində deyilir: “diplomatlar yerləşmə dövlətinin mülki yurisdik- siyasından immunitetə malik deyil”.

Diplomatların yerləşmə dövlətinin mülki yurisdiksiyasından azad olunması müasir diplomatik təcrübənin tələblərinə cavab vermir.

XVlll-XIX əsrlərdə diplomatlar tez-tez mülki məsuliyyətə

cəlb olunurdular. Çünki onların çoxunun yerləşmə dövlətinin ərazisində daşınmaz əmlakları var idi. Bundan əlavə, onlar ticarət və digər professional fəaliyyətlə məşğul olur və öz üzərinə borc öhdəlikləri götürürdülər.

İndiki zamanda isə dövlətlərin əksəriyyəti öz diplomatlarına yerləşmə dövlətinin ərazisində daşınmaz əmlaka malik olmağı qadağan edir. Bundan başqa şəxsi mənfəət məqsədilə peşə və ya kommersiya fəaliyyəti ilə məşğul olmağı akkreditə edən dövlət onlara qadağan edir.

Ümumiyyətlə, diplomatik təcrübədən diplomatların mülki mühakimə aidiyyatmdan kənar olması ilə bağlı 3 isti.snaya yol verilir: diplomatın və ya onun ailəsinin şəxsi mülkiyyətində olan daşınmaz əmlakla əlaqədar olaraq məhkəmə iddiası, bu şəxslərin varis qismində çıxış etdikləri işlər üzrə iddia, habelə onların şəxsi mənfəət məqsədilə məşğul olduqları peşə və ya kommersiya fəaliyyəti ilə əlaqədar iddia irəli sürülə bilər.

Diplomatların yerləşmə dövlətində cinayət, inzibati və mülki mühakimə aidiyyatmdan azad olunması o demək deyildir ki, onların tərəfindən müxtəlif hüquq pozuntularına görə bu diplomatlar həmişə cəzasız qalır. Diplomatların real olaraq cəzalandırılması üçün 2 variant mövcuddur. Onların biri Vyana Konvensiyasının 31- ci maddəsində nəzərdə tutulmuşdur:

"Diplomatik agentin yerləşmə dövlətinin yurisdiksiyasmdan immunitetə malik olması onu hələ akkreditə edən dövlətin yurisdiksiyasmdan azad etmir".

Beləliklə, hüquqpozma törətmiş diplomat ayrı-ayrı şəxslərin və ya yerləşmə dövlətinin təşəbbüsü ilə akkreditə edən dövlətdə məsuliyyətə cəlb oluna bilər. Xarici diplomatlara təsir etmənin bu cür vasitəsi həqiqətdə kifayət qədər effektiv deyil. Diplomatlar tərəfindən törədilmiş hüquqpozma əməlləri ilə bağlı onu akkreditə edən dövlətin məhkəmə orqanlarına müraciət yerləşmə dövləti ilə bu dövlət arasında mövcud olan siyasi münasibətlərin vəziyyəti ilə müəyyən edilir. Akkreditə edən dövlətin tapşırığı ilə diplomatlar tərəfindən törədilmiş hüquqpozma əməllərinə görə onlar çox

hallarda cəzasız qalır. Casusluq fəaliyyətinə görə yerləşmə dövlətində yaxalanmış diplomat, çətin ki, akkreditə edən dövlətdə məsuliyyətə cəlb olunsun.

Əgər akkreditə edən dövlətin məhkəməsi xaricdə törədilmiş hüquqpozma əməlinə baxılmasına münasibətdə özünü səlahiyyətli hesab etməzsə, problem yarana bilər. Digər bir problem isə o zaman yarana bilər ki, törədilmiş hərəkətə yalnız yerləşmə dövlətində hüquqpozma əməli kimi baxılır, akkreditə edən dövlətin qanunvericiliyinə görə isə bu hərəkət hüquqpozma əməli kimi qiymətləndirilmir.

Nəticədə isə xarici dövlətin məhkəməsinin yerləşmə dövlətinin məhkəməsindən fərqli olaraq iddiaçıya daha yumşaq münasibət göstərəcəyi istisna deyil.

Diplomatın real olaraq cəzalandırılmasını təmin etmək üçün digər daha effektiv imkan onu yerləşmə dövlətində məsuliyyətə cəlb etməkdir.

Vyana Konvensiyasının 32-ci maddəsində deyilir:

1. Akkreditə edən dövlət diplomatik agentin yerləşmə dövlətinin yurisdiksiyasından malik olduğu immunitetdən imtina edə bilər.

2. İmtina həmişə açıq şəkildə ifadə edilməlidir.

3. Bu halda diplomatik agentə qarşı qaldırılan iddialar üzrə işlərdə diplomatik agent yerləşmə dövlətinin yurisdiksiyasından immunitetə malik olmasına daha istinad edə bilməz.

4. Mülki və inzibati işlərdə yerləşmə dövlətinin yurisdiksiyasından diplomatik agentin malik olduğu immunitetdən imtina xüsusi imtina tələb olunan qərarların icrasına münasibətdə immunitetdən imtina deyildir. ^

Bəzi hallarda akkreditə edən dövlət onun diplomatı yalnız yerləşmə dövlətini tərk etdikdən sonra diplomatın malik olduğu immunitetlərdən imtina edir. Diplomatların törətdikləri cinayətlərə,

**' Захарова Jl. М.. Коновалова А.Л. Основы дипломатический и Консульской службы. Минск, 2001. стр. 101-102.**

**^ Никифоров Д.С: Борунков А.Ф. Göstərilən əsəri, səh. 185.**

inzibati və mülki hüquqpozmalara görə onların məsuliyyətə cəlb edilməsi haqqında məsələnin universal və effektiv həlli nə Vyana Konvensiyasında, nə də Beynəlxalq hüquq doktrinasında nəzərdə tutulmamışdır. Təcrübədə bu məsələnin həlli zamanı dövlətlər diplomatların öz vətənlərində məsuliyyətə cəlb edilməsindən daha çox akkreditə edən dövlət özünün təqsirkar diplomatlarının immunitetlərindən imtina etməsinə nail olmaq üçün cəhd göstərirlər.

***Diplomatik nümayənd^likhrin personalmtn gömrük imtiyazları.***

Gömrük immuniteti müqavilə əsasında ilk dəfə olaraq Vyana Konvensiyasında nəzərdə tutulmuşdur. Gömrük immuniteti 3 əsas komponentdən ibarətdir:

a) diplomatların şəxsi istifadəsi üçün nəzərdə tutulmuş əşyaların gətirilməsi və aparılması azadlığı;

b) göstərilən predmetlərin gömrük rüsumundan azad edilməsi;

c) ümumi əsaslar üzrə diplomatların şəxsi baqajının gömrük baxışından azad edilməsi.

Diplomatın şəxsi istifadəsi üçün nəzərdə tutulmuş əşyaların gətirilməsi və aparılması azadlığı Vyana Konvensiyasının 36-cı maddəsində öz əksini tapmışdır. Bu maddədə deyilir; “Yerləşmə dövləti onun özünün qəbul etdiyi qanun və qaydalara uyğun olaraq, diplomatik agentin və ya onun ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulmuş əşyaların gətirilməsinə icazə verir”.

Diplomatik yük barəsində gömrük imtiyazları o deməkdir ki, bu cür yükə vergi, rüsum qoyulmur. Lakin, diplomatik nümayəndəliyə, diplomata və ya onun ailə üzvlərinə ünvanlanmış yük ümumi əsaslar üzrə yoxlanılmaqla buraxılır.

Diplomatik işçinin və ya onun ailə üzvlərinin şəxsi yükü toxunulmazdır. Doğrudur, 1961-ci il Vyana Konvensiyasına əsasən, bu cür yükdə gətirilmə və ya aparılma üçün qadağan edilmiş əşyaların olduğunu güman etməyə ciddi əsaslar olduqda, yük marağı olan şəxsin və ya onun nümayəndəsinin iştirakı ilə yoxlanıla

bilər. Lakin təcrübə bu müddəaya öz düzəlişini etmişdir: "Əgər yoxlama haqqında qərar qəbul edilmişsə, lakin yükdə qadağan edilmiş əşya tapılmamışsa, bu halda diplomatın onun şəxsi yükünün toxunulmazlığının pozulması barədə protest verməsi üçün əsas yaranmış olur, belə ki, yoxlamanı aparmış orqanlar bunun üçün onlarda ciddi əsaslar olduğunu sübut edə bilməmişlər".

Qeyd etmək lazımdır ki, diplomatın ailə üzvü qaldığı dövlətin vətəndaşı olduqda diplomatik immunitet və imtiyazlardan istifadə etmir.

Gömrük immunitetinin məhdudlaşdırılması meyli əsasən diplomat adı altında fəaliyyət göstərən cinayətkarların mülki aviasiya fəaliyyətinə qeyri-qanuni qarışmaları ilə bağlı meydana gəlmişdir.

Qeyd etmək lazımdır ki, son dövrlərdə beynəlxalq təşkilatlarda narkotik vasitələtin qeyri-qanuni dövriyyəsi ilə mübarizənin gücləndirilməsi ehtiyacı ilə bağlı diplomatların gömrük immunitetinin məhdudlaşdırılması haqqında məsələ qaldırılır.

Bundan başqa, diplomatik heyət məskun olduğu dövlətin ərazisində sərbəst yer dəyişmək hüququna malikdir (bağlı zonalar olduğu təqdirdə bunlar haqqında qaydaları nəzərə almaqla). Diplomatların bir sıra ölkələrdə mövcud olan xəbərdarlıq qaydasında yer dəyişməsi yuxarıda göstərilmiş qaydaya zidd deyildir.

Diplomatik nümayəndəlik və səfirlik nəzdində ***inzibati" texniki personalİ*** da vardır. Bu qrupun tərkibinə mühasibat, dəftərxana işçisi, tərcüməçilər və onların ailə üzvləri daxildir.

Nümayəndəliyin ***xidmətçi personalmm*** tərkibinə isə sürücülər, aşbazlar, gözətçilər, çilingərlər, bağbanlar, dayələr və digər xidmət sahələrinə aid olan əməkdaşlar daxildir.

İnzibati-texniki və xidmətçi personalının imtiyaz və immunitetlərinin tədqiq edilməsi məsələsi ona görə mühüm əhəmiyyət kəsb edir ki, diplomatik nümayəndəliklərin personalının müəyyən hissəsi bu kateqoriyadan olan şəxslərdən ibarətdir.

Vyana Konvensiyası qəbul edilənədək inzibati-texniki personalın immunitetləri bəzi dövlətlər tərəfindən əhəmiyyətli dərəcədə

məhdudlaşdınlır (məsələn, Fransa), digər dövlətlər tərəfindən isə tam həcmdə verilirdi (məs. ABŞ, Böyük Britaniya, Belçika, Niderland).

Vyana Konvensiyasının hazırlanması gedişində dövlətlərin bu məsələyə iki cür yanaşması meydana gəldi. Bu zaman ABŞ və Avropa dövlətləri inzibati-texniki personalın üzvlərinə tam həcmdə immunitetlərin şamil edilməsinin tərəfdarı kimi çıxış etdilər. Bu xüsusilə, onunla izah olunur ki, inzibati-texniki personalın üzvləri öz funksiyalarını yerinə yetirilməsi ilə əlaqədar ayrı-ayrı diplomatlardan daha çox sirr xarakteri daşıyan məlumat və materiallarla tanış olur (məs. səfirin katibi, şifrəçi, iş icraçısı, kompyuter texniki və s.). İnzibati-texniki heyətin bu üzvləri barəsində həbs və ya digər məcburiyyət tədbirləri tətbiq etmək diplomatik nümayəndəliyin fəaliyyətini ciddi pozar və akkreditə edən dövlətə əhəmiyyətli zərər vura bilər.

Afrika və Asiya dövlətləri isə inzibati-texniki personalın immunitetlərinin məhdudlaşdırılınası tərəfdarı kimi çıxış etdilər. Bu isə onunla izah olunurdu ki, bu dövlətlərdə inzibati-texniki heyətə diplomatik immunitetlərin verilməsi xarici vətəndaşların böyük bir qrupunun yerli yurisdiksiyasından azad edilməsi demək olardı. Bu da yerləşmə dövlətinin maliyyə maraqlarına toxunur (məs. inzibati- texniki heyətin vergi və gömrük rüsumlarından azad edilməsi). Bu dövlətlər həmçinin inzibati-texniki heyətinin immunitetlərinin məhdudlaşdırılması məsələsini özlərinin dövlət təhlükəsizliyi və hüquq qaydasının təmin edilməsi maraqları ilə izah edirlər.

Güclü maliyyə imkanlarına malik olan inkişaf etmiş dövlətlərdən fərqli olaraq, xaricdə geniş diplomatik nümayəndəliklər şəbəkəsini saxlamağa imkan olmayan bu Asiya və Afrika dövlətləri bu səbəbdən onlardan fərqli olaraq inzibati-texniki heyətin immunitetlərinin məhdudlaşdırılmasına can atırdılar. Nəticədə isə bu dövlətlər arasında kompromiss əldə olunur.

İnzibati-texniki personalın üzvləri qaldıqları dövlətin vətəndaşı olmadıqları və ya orada daimi yaşamadıqları təqdirdə, öz ailə üzvləri ilə birgə şəxsi və mənzil toxunulmazlığı, fiskal

immunitet, cinayət yurisdiksiyasına qarşı immunitet hüququna maük olurlar, mülki və inzibati immunitetə gəldikdə isə bu hüquq onların yalnız öz vəzifə borcları ilə bağlı fəaliyyətlərinə şamil edilə bilər.

Bu məsələ diplomatiya hüququnda və diplomatik təcrübədə bir çox dövlətlər tərəfindən qəbul edilmişdir. Lakin bir sıra dövlətlər (Vcncsuella, Yunanıstan, Misir, İraq, Komboca, Ekvador) Vyana Konvensiyasını imzalayarkən bu müqaviləyə qeyd-şərt etmişlər. Bununla da bu dövlətlər Vyana Konvensiyasında nəzərdə tutulmuş inzibati-texniki heyətin immunitetlərini qəbul etmirlər. Vyana Konvensiyası qəbul edilənə kimi xidmətçi personalın immunitetləri haqqında mə.sələ do dövlətlərin təcrübəsində ziddiyətli idi. Bəzi dövlətlər (Böyük Britaniya, Danimarka, Hindistan, Kolumbiya, ABŞ, Yaponiya) xidmətçi personala bu və ya digər həcmdə immunitetlər verir, digərləri (Braziliya, İtaliya, Franca, Çili, İsveçrə) xidmətçi personala heç bir immunitet vermir.

Vyana Konvensiyası qəbul edildikdə bu məsələ barəsində də dövlətlər arasında kompromiss əldə edilmişdir.

Xidmətçi heyətinin üzvləri xidməti vəzifələrini icra etdikləri zaman törətdikləri hərəkətlərlə bağlı immunitetə malikdirlər və onlar aldıqları məvacibdən vergi və rüsum ödəməkdən azaddırlar.

m BOLMƏ

# DİPLOMATİK FƏALİYYƏT VƏ BEYNƏLXALQ MÜQAVİLƏLƏRİN HAZIRLANMASI

***Beynəlxalq müqavilə hüququnun anlayışı***
***Müqavilənin tərtibi prinsipləri Növləri^***

Beynəlxalq müqavilələr dövlətlər arasında mühüm etimad sənədidir. Beynəlxalq müqavilələr sahəsində ***iki*** əsas akt mövcuddur:

a) 1969-cu il Vyana Konvensiyası (Müqavilələr hüququ haqqında);

b) 1986-cı il Vyana Konvensiyası (Dövlətlər və beynəlxalq təşkilatlar arasında müqavilələr hüququ haqqında).

Bunlardan birincisi beynəlxalq müqavilələrin hüquqi mənbəyi sayıla bilər. Çünki 2-ci Konvensiya hələ qüvvəyə minməmişdir.

Beynəlxalq müqavilə nədir? Beynəlxalq müqavilə - dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yazılı formada bağlanılan və beynəlxalq hüquqla nizama salınan beynəlxalq razılaşmadır;

Beynəlxalq müqavilələr aşaqıdakı növlərə ayrılır:

I - ***İştirakçıların dairəsinə görə:***

a) iki tərəfli müqavilələr;

b) çoxtərəfli müqavilələr.

II - ***Dövlətlərin həmin beynəlxalq müqavilələrdə iştirak imkanına görə:***

a) açıq müqavilələr (başqa dövlətlər üçün imzalamaqa açıq, maneəsiz qəbul üçün açıq olan);

b) qapalı müqavilələr (ancaq müəyyən-məhdud dövlətlər

**' Bu bölmodr), И.И. Лукащук. Форма Международных договоров. М., 2002 kitabından vo müollifin МЛЛ-da oxuduğu mühazirəlordon istifadu olunmuşdur.**

arasında müqavilələr).

III - ***Məzmuna görə qruplaşan müqavilələr.*** Bunlar da aşağıdakı növlərə ayrılır:

1. Siyasi müqavilələr. Bunlar aşağıdakı kimi qruplaşır:

Müttəfiqlik haqqında müqavilələr;

Qarşılıqlı yardım haqqında müqavilələr;

Neytrallıq haqqında müqavilələr;

Sülh müqavilələri;

2. İqtisadi müqavilələr. Aşağıdakı növləri var:

Ticarət müqavilələri;

Əmtəə göndərilməsi və əmtəə mübadiləsi və dövriyyəsi haqqında sazişlər;

Texniki yardım haqqında və ya elmi-texniki həmkarlıq haqqında sazişlər;

Beynəlxalq hesablaşmalar haqqında sazişlər;

Gömrük məsələləri və s. üzrə sazişlər.

3. Xüsusi məsələlər üzrə müqavilələr (sazişlər). Bunlara aşağıdakı növ müqavilələr daxildir:

Nəqliyyat sahəsində;

Rabitə sahəsində;

Kənd təsərrüfatı sahəsində;

Elmi əməkdaşlıq üzrə;

Hüquqi məsələlər üzrə;

Ətraf mühitin mühafizəsi üzrə;

Mədəniyyət sahəsində və s.

*****Cenilemen***** müqavilələri adlanan şifahi müqavilələr də vardır. Beynəlxalq müqavilələrin tərtibi qaydaları və mətninin quruluşu müəyyən diplomatik yazışma tələblərinə müvafiq qurulur ki, bunlar da diplomatik yazışmada qəbul olunmuş ***formalarıdır.*** Bunlar əsasən aşağıdakı ***quruluşda*** olur:

1. Müqavilənin adı. Beynəlxalq müqavilələr təcrübəsində "müqavilə" ümumi anlayışı altında müxtəlif konkret adlardan istifadə olunur: müqavilə, konvensiya, saziş, pakt, nizamnamə, xartiya, bəyannamə, traktat, statut, konkordat, qərardad, bağlaşma.

protokol və s.

2. Preambula. Giriş hissəsidir. Əsas məqsəd burada izah olunur. Ayrı-ayrı bəndlərin şərhi zamanı sual ortaya çıxanda preambulaya istinad etmək.

3. Əsas hissə, l'ərəflərin hüquq və vəzifələri burada izah olunur. Əsas hissə bəzən bölmələrə, fəsillərə, maddələrə, hissələrə, bəndlərə, yarımbəndlərə bölünür.

4. Yekun hissə. Burada müqavilələrin qüvvəyə minməsi və xitam olunması vaxtı və şərtləri, müqaviləyə yenidən baxılması qaydası, müqavilənin tərtib dili (dilləri), onların audentikliyi- identikliyi və s. məsələlər qeyd olunur.

5. Səlahiyyətli şəxslərin imzaları, onların qaydaları. Son imzaya qədər müqaviləni ölkə başçıları üçün hazırlayan qrup rəhbərləri (məs. Xarici İşlər Nazirləri, səfirlər) sənədi paraflayırlar.

6. Müqavilələrin əlavələri. Bunlar bəzən müqaviləyə əlavə olunan protokollar, müstəqil əlavə protokollar, texniki şərtlər, standartlar, xəritələr və s. olur. Əgər müqavilədə bunlardan biri və ya bir neçəsinin əlavə olunduğu qeyd olunursa bu zaman bu əlavələr əsas mətnin - yəni müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunurlar.

Beynəlxalq müqavilənin bağlanması bir neçə ardıcıl hissədən - ***mərhələdən*** ibarət olan bir prosesdir.

1. Müqavilənin mətninin tərtibi və qəbulu;
2. Müqavilə mətninin audentikliyi - tərcümədə qeyri - uyğunsuzluğa yol verilməməsi;
3. Müqavilənin icrasının məcburiliyinə razılığın müqavilədə əks olunması.

Müqaviləni hazırlamaq üçün tərəflər qruplar ayırır, onlara məsul başçı təyin edir, müqavilə hazırlanan mərhələlərdə onlara iştirak etmək hüququ verilir. Bu xüsusi sənəd olur - buna ***vəkalət deyilir.*** Milli qanunvericiliyə uyğun olaraq dövlətin səlahiyyətli orqanları müqavilənin hazırlanması prosesində iştirak üçün həmin şəxslərə bəzi ixtiyarlar - səlahiyyətlər verirlər. Dövlətin rəsmi vəzifəli şəxslərinin belə proseslərdə iştirakı üçün xüsusi vəkalətlər

almasına ehtiyac yoxdur. 1969-cu il Vyana Konvensiyasına görə aşağıdakı şəxslər belə xüsusi vəkalətlərdən azaddırlar:

a) ölkə başçıları;

b) hökümət başçıları;

c) xarici işlər nazirləri;

d) diplomatik nümayəndəliklərin başçıları;

e) dövlətlərin beynəlxalq konfranslarda və beynəlxalq təşkilatlardakı nümayəndələri.

Diplomatik nümayəndəlik başçısı akkreditə olunduğu dövlətlə öz dövləti arasındakı müqaviləni, beynəlxalq təşkilatda, ya beynəlxalq konfransda olan nümayəndə isə bu təşkilat və ya konfransda qəbul olunan müqavilə və sənədləri imzalamaq hüququna malikdir, bu müqavilənin mətnini qəbul etmək səlahiyyəti vardır. 1986-cı il Vyana Konvensiyasının 7-ci maddəsi belə nümayəndələr üçün (beynəlxalq təşkilatdakı nümayəndə üçün) xüsusi vəkalətin olmasını tələb etmir.

Səlahiyyətsiz şəxsin (vəkalətsiz və s.) imzaladıqı müqavilə əyər onun təmsil etdiyi ölkə tərəfindən qəbul olunmursa həmin sənəd hüquqi mahiyyət daşımır.

Beynəlxalq müqavilənin mətninin tərtibi və qəbulu aşağıdakı 3 formadan biri vasitəsilə həyata keşirilir:

1. Danışıqlar;

2. Beynəlxalq konfranslar (Məs., Beynəlxalq Cinayət Məhkəməsinin Statutu 1998-ci il iyulun 17-ndə Roma Beynəlxalq diplomatik konfransında qəbul olunmuşdur);

3. Beynəlxalq təşkilatlar (əksər universal müqavilələr, məs., İnsan hüquqları haqqında, 1966 il Beynəlxalq Paktı, işgəncə əleyhinə 1984 il Konvensiyası BMT Baş Assambleyasının qətnamələri vasitəsilə üzv dövlətlərin nümayəndələri təmfindən səs verildikdən sonra qəbul olunub). Beynəlxalq konfranslarda son vaxtlar beynəlxalq müqavilələr konsensusla qəbul olunur.

Müqavilə mətninin audentikliyi (yaxud audentifıkasiyası) - (yunanca “həqiqilik”, “əslinə uyğunluq”) beynəlxalq müqavilənin son razılaşdırılmış variantı deməkdir. Mətnin son variantı üç

mərhələdən keçir.

a) paraflama (inisial qoyma) - vəkalətli şəxslər hər səhifədə öz imzasım qoyur. Bu hələ sənədin ***qəbulu deyil.***

b) ad referendum (şərti imza atma) - səlahiyyətli orqan

tərəfindən imza. Bu sənədin tam və ya ***qəti imzalanması esab olunur.***

c) imzalama - bu son imza - ölkə, hökümət və s. başçısının imzasından sonra sənəd ***ratifikasiya*** olunmalıdır.

Beynəlxalq müqavilələrin yuxarıda göstərilmiş növlərini - formalarını nəzərdən keçirək.

Bunlardan Bəyanat (Kommünike) xüsusi əhəmiyyət kəsb edir.

***Beynəlxalq müqavilə və Kommünike***

Kommünike mühüm siyasi və diplomatik əhəmiyyətli beynəlxalq sənəd formasıdır. Kommünike bəzən beynəlxalq müqavilə forması sayılmasa da mühüm ikitərəfli və ya çoxtərəfli hüquqi sənəddir. Diplomatik sənəd Kommunikeyə xüsusi əhəmiyyət verir. Onun məzmunu və formasına ciddi yanaşılır. Məs., 1990-cı ildə o zamanki SSRİ ilə ABŞ arasında imzalanacaq Kommunikenin mətni əvvəl xarici işlər nazirləri arasında hazırlanır, sonra onu daha təkmilləşdirmək üçün XIN-ləri onun mətnini lahiyə kimi iki ölkə başçısı - C.Buşa və M.Qorbaçova təqdim edirlər. Onlar lahiyəni müzakirə edib yenidən işləmək üçün öz köməkçilərinə verirlər. Beləliklə, şərhçilər güman edirdilər ki, dünyanın yeni idarəsi və qaydaları haqqında mühüm tarixi sənəd hazırlanır. Lakin nəticədə hər iki tərəf İraq haqqında mətbuat üçün bəyanatla çıxış etməklə kifayətləndilər.

Ümumiyyətlə belə hesab edirlər ki, Kommünike ilə mətbuat üçün ***bəyanat*** mahiyyətcə eyni funksiyanı yerinə yetirirlər.

Kommunikenin əsas məqamlarından biri budur ki, orada göstərilir: tərəflər öz qarşılıqlı münasibətlərini bu bəyanatda öz əksini tapmış prinsiplər əsasında quracaqlar.

Hər bir ölkə öz aralarında baqlanan Kommunikenin məzmuni və orada əks olunan məsələlərin əhəmiyyətinə görə həmin sənədə

münasibət göstərə bilər.

Məs., Çin hökümətinin Tayvan problemi haqqındakı Kommunikesi bu cəhətdən maraqlıdır. 1972-ci ildə ÇXR ilə ABŞ bu məsələyə dair bir sıra şərtlərin həllini əks etdirən Şanxay Kommunikesini imzaladılar. Bundan sonra tərəflər həmişə qeyd edirdilər ki, onlar bu Kommunikenin şərtlərinə əməl edəcəklər. Avqust 1977-də Çin tərəfi elan edir ki, ABŞ-la münasibətlərimiz daha da yaxşılaşa bilərdi, əyər ABŞ həmin Şanxay Kommu- nikesinin şərtlərini tamam yerinə yetirsəydi.

ABŞ prezidenti də öz tərəfindən elan edir ki, Amerika siyasəti əvvəlki kimi öz fəaliyyətində "Şanxay Kommunikesi prinsiplərinin təyin etdiyi" məsələlərə riayət etməkdə davam edəcəkdir.

Başqa misal. 1996-cı ildə Tayvanın vitse-prezidentinin Kiyevə səfəri ilə əlaqədar Çin höküməti Ukraynaya bəyan edir ki, bu fakt Ukrayna ilə Çin arasındakı birgə Kommunikenin şərtləri ilə ziddiyyət təşkil edir. Ukrayna tərəfi dərhal bəyanat verərək göstərir ki, Ukrayna tərəfi bir də əvvəl qəbul olunmuş Kommunikenin şərtlərini pozmayacaqdır.

Bu faktlar onu göstərir ki, dövlətlər öz aralarında mövcud olan Kommunikelərin şərtlərinə əməl edəcəklərini və onu pozmayacaq larini qətiyyətlə bildirirlər. Onu da qeyd etmək lazımdır ki, dövlətlərin öz aralarındakı Kommunike şərtlərini pozmaları hər hansı beynəlxalq hüquqi təəhhüdləri pozmaqdan asandır. İyun 1981-ci ildə Yaponiya elan edir ki, bir ay bundan əvvəl Yaponiyanın ABŞ ilə Yaponiyanın müdafiə məsələlərini gücləndirmək haqqında bağladığı Kommunike Yaponiya qarşısında heç bir diplomatik təəhhüd qoymur. Yaponiyanın XİN elan edir ki, bu Kommunikenin imzalanması "düşünülməmiş addım idi" və bu Kommunike "Çaşqınlıq və xaos yaratmışdır".

Bəzən Kommunike həmin məzmunda imzalana biləcək müqavilə ilə eyniyyət təşkil edir və eyni funksiyanı yerinə yetirir. Elə Kommunikelər olur ki, orada iki ölkə arasında mədəniyyət, təhsil, elm və texnika və s. sahəsində əməkdaşlığa dair bütün detallar sadalanır, bu da müqavilə təsiri bağışlayır. Buna misal

olaraq mart 1959-da SSRİ ilə İngiltərə arasındakı həmin məsələlərə dair Kommunikeni göstərmək olar.

Bəzən, hətta çox vaxt Kommunikelərdə müqavilələrə məxsus ifadələr də işlədilir: “tərəflər razılığa gələrək”, “belə razılaşırlar ki,”, “hər iki tərəf konkret vəzifələr kimi öhdələrinə götürürlər ki,” və s.

Hüquqşünaslara görə Kommunikenin mütləq gücü siyasi xarakterindədir. Tanınmış rus diplomatı və hüquqşünası B. M. Klimenko bu haqda yazır ki, elə mühüm əhəmiyyətli beynəlxalq sənədlər vardır ki, formal olaraq beynəlxalq müqavilə sayılmasa da böyük əməli əhəmiyyətə malikdirlər. Bunlara deklarasiyalar, müştərək Kommunikelər daxildir.

ABŞ-ın senatı Çin hökümətinin Tayvan haqqındakı (aprel 1982) müştərək Kommunikenin şərtlərinin pozulduğuna görə öz administrasiyası qarşısında 24 avqust 1982-ci ildə məsələ qaldırır və tələb edir ki, hökümət Çin tərəfindən bu Kommunikenin yerinə yetirilməsini tələb etməlidir. Əks təqdirdə ABŞ konqresi qarşı tərəfin Tayvan barəsində Kommunike şərtlərinin Çin tərəfindən pozulduğu haqqında ciddi münasibətini bəyan edəcəkdir. Buna cavab olaraq Dövlət departamenti yazır ki, “Bu müştərək Kommunike Çin və ABŞ hökümətləri arasında paralel və qarşılıqlı əlaqələrə dair bəyanatdır”.

Kommunike icra müqaviləsi deyildir, o, beynəlxalq hüquqi vəzifələr və öhdəliklər yaratmır.

ABŞ qanunları ilə onun statusu prezidentin siyasətini əks etdirir, onun yerinə yetirilməsi federal qanunlarla təyin olunur”,

Kommunike iştirakçıların beynəlxalq - hüquqi münasibətlərinə də təsir göstərir. Bir çox beynəlxalq müqavilələr formalarında preambulada göstərilir ki, bu müddəalar müştərək Kommunikeyə əsaslanır.

Tərəflərin mövqei izah olunarkən Kommunikelər nəinki məzmunun dəqiqləşdirilməsində mühüm rol oynayır, hətta rəsmi izahedici sənəd kimi müqavilələrdə dəyişikliklər də edir. Hətta ABŞ-da təkcə Kommunikeyə əsasən və senatın razılığı alınmadan siyasi müqavilələrdə dəyişikliklər edilir. Başqa ölkələrin də siyasi

müqavilələr prosesində bu müqavilədən əvvəlki Kommunikelərin rolunun mühüm olduğu məlumdur.

Kommunike hər hansı müqavilənin yerinə yetirilməsinə aid ola bilər. Bununla da müqaviləyə xitam verilir.

Kommunike razılaşma sənədi, daha dəqiq - siyasi təəhhüddür. Bu sənədə beynəlxalq - hüquqi məsələlər də daxil edilə bilər.

Hətta Beynəlxalq Məhkəmə Egey dənizi şelfinə dair qərarında göstərir ki, Beynəlxalq Məhkəməyə görə müstəqil Kommunikenin “beynəlxalq müqavilə hesab olunmamasına haqq verən dəlil - sübut yoxdur”. Deməli, Kommunike beynəlxalq müqavilə hüququ daşıya bilər. Hətta əyər o, “imzalanmadan, paraflanmadan rəsmi şəkildə tərəilərin səlahiyyətli nümayəndələri tərəfindən mətbuat konfransında təqdim olunubsa”. Bu da Kommunike haqqında Beynəlxalq Məhkəmənin fikridir. Beləliklə Kommunike ilə beynəlxalq müqavilə arasında bir paralellik yaranır. Bu da Kommunikenin beynəlxalq müqavilə formasından biri olduğunu sübut edir.

***Yekun aktı beynəlxalq müqavilə kimi***

Yekun aktı diplomatik sənəd kimi beynəlxalq müşavirənin nəticələrini əks etdirir. Çox nadir hallarda yekun aktı müqavilə hesab olunmur. Belə aktlarda adətən müşavirə iştirakçılarının adları çəkilir (sadalanır), qəbul olunmuş qətnamələrin adı qeyd olunur və göstərilir ki, bu qətnamələr yekun aktına əlavə olunur. Əgər qəbul olunmuş müqavilələrin hər birini ayrı-ayrılıqda imzalamaq lazım gəlirsə Yekun aktı bir yerdə - bütün əlavələri ilə imzalanır.

Misal kimi beynəlxalq müqavilələrin hüququ haqqında 1969 il Vyana Konvensiyasının Yekun aktını göstərmək olar. Tarixi sənəd kimi yekun aktlarına 1814-1815-ci illər Vyana Konqresində Napolion müharibələrindən sonra Avropa ölkələrinin sərhədlərini müəyyənləşdirən ***Yekun baş aktım*** qeyd etmək olar.

Xüsusilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin 1975-ci il Helsinki Yekun aktı buna klassik misaldır. Bu sənəd müqavilə deyildi. Lakin bu Yekun aktı beynəlxalq gərginliyin

azaldılması şəraitində Avropada beynəlxalq münasibətlər sisteminin formalaşmasında mühüm rol oynadı.

Yekun aktlarına funksiyaca yaxın olan proqramlar (çox vaxt buna "uzunmüddətli proqramlar" da deyilir) da vardır ki, bunlar adətən qeyri - hüquqi aktların adıdır. Bir qayda olaraq bunlar beynəlxalq müqavilələrin həyata keçirilməsinin vasitəçisi rolunu oynayırlar. Buna misal kimi 1975-də SSRİ ilə Böyük Britaniya arasında iqtisadi və sənaye əməkdaşlığı haqqında bağlanmış uzunmüddətli proqramı göstərmək olar. Bu proqramda göstərilirdi ki, "indiki proqram göstərilən Müqavilədəki prinsiplər və məqsədlərin həyata keçirilməsinə əməli xidmət göstərəcəkdir".

Bununla bərabər hüquqi aktlar da "proqram" adını daşıyırlar. Məsələn, Rusiya ilə Azərbaycan arasında uzunmüddətli proqram buna misal ola bilər. 2001-də belə bir ***Proqram*** iki ölkə arasında ticarət, iqtisadi, sənaye və elmi-texniki həmkarlığa aid imzalanmışdır. AR ilə İran, lurkiyə, Ukrayna, Qazaxıstan və s. arasında müxtəlif illərdə bağlanan Protokollar da elə müqavilə xarakteri daşıyırlar. Bu sənədlərin preambulasında adətən göstərilir ki, bunlar beynəlxalq müqavilələrin tələbləri əsasında tərtib olunmuşdur. Belə sənədlər sadə şəkildə tərtib olunur. Belə sənədlərdə beynəlxalq müqavilələrə xas olan aşağıdakı cümlə tərkibi ***işlədilmir:*** "aşağıdakılar haqqında razılığa gəldilər" və s. Bu sənədin hüquqi xarakterli olduğu yekun-son hissədə protokolun hansı tarixdən qüvvəyə minəcəyi və qüvvədə olması müddəti göstərilməsi ilə təyin olunur. Onu da bilmək lazımdır ki, qeyri- hüquqi müqavilələrdə də bu tələblərə rast gəlmək olur.

Göstərilən proqramların hüquqi mahiyyət daşıdığı bir də onunla müəyyənləşir ki, belə proqramlar "Beynəlxalq müqavilələr bülleteni"ndə çap olunur. Adətən belə bülletenlərdə qüvvəyə minmiş beynəlxalq müqavilələr nəşr olunur.

Beynəlxalq aktlarda çox vaxt proqramda göstərilən müqavilə və razılaşmalardan doğan fərqlər qeyd olunur. Məsələn, SSRİ ilə Avstraliya arasında kənd təsərrüfatı və xammal məhsullarının eksportu haqqında 1990-ci ildə imzalanmış müqavilədə gö.stərilir ki.

bu Müqavilə "göstərilən müqavilələr, razılaşmalar və adı çəkilən ***Proqram*** əsasında tərtib olunmuşdur".

Belə ***Proqramlar*** çox vaxt burada qeyd olunan məsələlərin həyata keçirilməsi məqsədi ilə onlara nəzarət üçün xüsusi qrupların yaradılmasını da nəzərdə tutur. Azərbaycan - İran, Azərbaycan - Türkiyə, Azərbaycan - Rusiya, Azərbaycan - Ukrayna, Azərbaycan - Gürcüstan və s. arasında müştərək iqtisadi, mədəni, texniki və s. dövlətlərarası komissiyaların işi buna misaldır.

Proqramlar bəzən müqavilələr üçün xarakterik olan ***yekun qərarı*** ilə də bitə bilər. Məsələn proqramda belə bir tələb ola bilər: "Hər Tərəfin qanunvericiliyinə müvafiq olaraq qüvvəyə minməyi haqqında notalarla mübadilələr edilir, imzalandığı andan tətbiqinə başlanacaqdır".

Xarakterinə görə Proqramlara uyğun olan ***^"fəaliyyət planr*** adlanan beynəlxalq sənəd növü də var. Bu nadir təsadüf olunan beynəlxalq müqavilə - sənəd növüdür. Məs., Rusiya prezidenti B.Yeltsin İtaliyaya səfəri ərəfəsində ondan soruşurlar ki, siz İtaliyada "fəaliyyət planı" adlanan sənəd imzalayacaqsınız, diplomatik fəaliyyət və təcrübədə çox nadir təsadüf olunan belə bir sənədin bu növünü seçməyiniz nə ilə izah oluna bilər? Rusiya prezidenti cavab verir ki, bu sənəd növü ona görə diqqəti cəlb edib ki, bu sənəd öz forması ilə hardasa ümumi xarakter daşıyan deklarasiya (qətnamə) ilə həddindən artıq dəqiq olan müqavilələr arasında yerləşir. "Fəaliyyət planı isə - bir sənəddə həm siyasi, həm iqtisadi, həm sosyal foaliyyətin böyük planıdır".

Unutmaq olmaz ki, "Fəaliyyət planı" bir qayda olaraq fonna və məzmununa görə müqavilə deyildir.

***Beynəlxalq Müqavilələrin variant müxtəlifliyi (Kompromis^ reqlament, kontrakt və konkordat).***

Müasir beynəlxalq müqavilələr öz formalarına görə rəngarəngliyi ilə fərqlənir. Lakin bu ad və forma fərqlərinə baxmayaraq bunların hamısı bir ada və onun məna daşıyıcılığına xidmət edir - dövlətlər arasında müxtəlif münasibətləri tənzimləyən müqavilələrə.

Bunlardan bir neçə geniş yayılmış formasını nəzərdən keçirək.

***Kompromis*** - fr. dilindəki ***kompromis dUırhitrage*** sözünün qısaldılmış şəklidir. Dövlətlərarası müqavilələrdən birinin adıdır. Bu adla hər hansı yaranmış mübahisə və ya mübahisələrin, yaxud yarana biləcək ixtilafların beynəlxalq arbitraja, ya məhkəməyə baxılmaq üçün verilmə prosesi nəzərdə tutulur. Əksər Kompromislərdə mübahisə mövzusu (obyekti) və onun baxılma şərtləri müəyyən olunur. Arbitraja baxılmaq üçün təqdim olunmuş mübahisəli ***ad hok-ux*** prosessual məsələləri də həll olunur. Çox vaxt bu növ müqavilə rəsmi şəkildə Kompromis adlanır.

***Reqlament*** - (fr.- réglement, ing. - requlation) - Çoxtərəfli konvensiyalara aid əlavə müqavilələrə, müxtəlif aktlara aid müxtəlif şərtlənmələrə deyilir. Reqlament müstəqil saziş, ya müqavilə də ola bilər. Reqlamentin şərtlərində ixtilaflar əmələ gəldikdə əsas müqavilənin şərtləri və müddəaları prioritet rol oynayır.

Reqlament tipli müqavilələrə BM'I'-nin müxtəlif ixtisaslaşmış qurumlanndakı təcrübədə daha çox təsadüf olunur: YUNESKO, MAQATE və s-də.

***Müstəqily əlavo maddəhr*** (fr.- provisions, ing. - dispositions) adlanan müqavilə növü əsas müqaviləni izah edən, müxtəlif beynəlxalq aktların bu və ya başqa maddəsini şərh edən və onlara əlavə olaraq qəbul olunan sənədlərin adıdır. Bu sənəd müstəqil sənəd kimi əsas beynəlxalq müqavilə və ya akta əlavə olaraq qəbul orunur ki, bununla da əsas müqavilədəki hər hansı mübahisəli mətləb yenidən dəqiqləşdirilir. Belə əlavələr hər iki tərəf, ya tərəflər üçün hüquqi mahiyyət daşıyır.

***Kontrakt*** (ing. Kontract), azərbaycanca buna qərardad da deyilir. Adətən aralarındakı münasibətlər hələ dəqiq tənzimlənməmiş dövlətlərin bir-biri ilə bağladığları müqavilənin adıdır. Kontrakt adətən əsasən iqtisadi məslələri əhatə edir. İki dövlət arasında rəsmi münasibətlər olmadıqda, onlar bir-birini hələ rəsmi şəkildə tanımadıqda onlar belə müqavilə formasına müraciət edirlər. Bu, onların daxili hüquqi normalarına əsaslanır və

beynəlxalq toloblorə uyğun qəlməyə bilər. Bununla belə müqavilələr dövlətlərarası müqavilə sayılır və müəyyən hüquqi gücə malikdir.

Məs., aralarında diplomatik münasibətlər olmayan Çin Uruqvaydan yun idxal etmək üçün 1956-cı ildə belə kontrakt bağlamışdı.

Pakistanın ÇXR ilə heç bir rəsmi - hüquqi əlaqələri olmadığı halda Çinin Pakistana düyü ixracı barəsində Kontrakt imzalanır (1956).

Lakin, məs., Çinlə Hindistan arasında normal diplomatik əlaqələr olduğu halda Çinin Hindi.stana düyü ixracı haqqında kontrakt yox, dövlətlərarası müstəqil müqavilə bağlanır.

Keçmiş SSRİ-nin, məs., İran və Əfqanıstanla normal diplomatik və siyasi əlaqələri olduğu halda SSRİ-nin bu ölkələrlə müxtəlif iqtisadi, texniki kontraktlarının bağlanmasında bu sətirlərin müəllifi dəfələrlə şəxsən iştirak etmişdir: İranla İsfahan metallurgiya zovodunun tikilməsi, (1968), Əfqanıstanla neft və qaz kəşfiyyatı işləri aparmaq üçün (1962) kontrakt, Xəzərin İran hissəsində nell və qaz kəşfiyyat işləri aparmaq üçün kontrakt (1966) və s. bağlanmışdı.

Qeyd etmək lazımdır ki, ABŞ ədəbiyyatında Kontrakt sözü (həm də İngilis hüquq ədəbiyyatında) ***həz3n Umumiyyəth bütün beynəlxalq müqavilələri*** ifadə etmək üçün işlədilir.

***Konkordat*** - katolik kilsəsi başçısı ilə başqa dövlət başçısı arasında bağlanan müqavilənin adıdır.

Belə müqavilə növü hər hansı ölkədə nisbətən çox katoliklər yaşayırsa onların hüquq və imtiyazlarının həmin dövlətdə təmin olunması məqsədilə imzalanır. Katolik kilsəsi keçmiş sosyalist dövlətləri ilə də belə Konkordatlar bağlamaqla bu ölkələrdə yaşayan katolik əhalinin təşkilatı məsələlərini, katolik kilsəsinin həmin ölkədə fəaliyyətinin tənzim olunmasını təmin edən diplomatik sənəd-beynəIxalq müqavilələr nümunəsi olmuşdur (Macarıstanla, Polşa ilə və s.).

Konkordat dövlətlərarası müqavilə statusuna malikdir və beynəlxalq müqavilələr hüququ ilə tənzim olunur. Dünyanın

yarıdan çox ölkələri, o cümlədən Azərbaycan Respublikası Vatikanla diplomatik - siyasi əlaqələr yaratmış, onun beynəlxalq hüququn tam hüquqlu subyekti olduğunu qəbul etmişlər. Bu kiçik dövlətin bu statusu beynəlxalq müqavilələrin kodifikasiyası ilə məşqul olan BMT-nin Beynəlxalq hüquq Komissiyası tərəfindən də qəbul olunmuşdur.

Vatikan hüquqi subyektivliyi spesifik xarakter daşıyır. Beynəlxalq hüquqa müvafiq olaraq Vatikan dövləti beynəlxalq hüququn subyektidir, onun katolik kilsəsi yox. Lakin əməldə məhz katolik kilsəsinin problemləri Konkordatlarla həll olunur. Beynəlxalq münasibətlərdə Vatikan "Müqəddəs taxt" adı ilə çıxış edir. Qeyri katolik dövlətlər (məs., provoslav dövlətlər) göstərirlər ki, söhbət katolik kilsəsinin hüquqi subyektliyindən getmir, Vatikan dövlətindən gedir. 1984-cü ildə Vatikanla diplomatik münasibətlər yaradan ABŞ elan edir ki, o, çoxdan Müqəddəs taxtın müstəqil hüquqi subyekt olduğunu qəbul etmişdir, bu hüquqi subyektlik katolik kilsəsinə aid deyildir. Lakin əməldə katolik kilsəsinin başçısının adətən bir qayda olaraq Vatikan dövlətinin başçısı olduğunu nəzərə alsaq ABŞ-ın katolik kilsəsi haqqındakı fikri (kilsənin qeyri-hüquqi subyekt olması) tamamilə şərtidir.

Konkordat bir ölkə ilə öz daxilində olan kilsə ilə də bağlana bilər.

2001-ci ilin aprelində Gürcüstan höküməti Gürcüstanın Avtokefal provoslav Apostol kilsəsi ilə Konkordat bağlayır. Bu Konkordatla kilsə ilə dövlətin münasibətlərinin tənzimlənməsi məsələləri şərh olunur. Belə müqavilə beynəlxalq müqavilə sayılmır. Bu ancaq olsa-olsa dövlətdaxili hüquqi akt .sayıla bilər.

Ayrı-ayrılıqda yuxarıda göstərilən bu müqavilə formalarını bir-birindən ayırmaq və onların hüquqi fərqlərini və oxşarlıqlarını ayırd etmək diplomatlardan başqa xüsusilə hüquqşünaslar, o cümlədən də beynəlxalq hüquq, iqtisadi məsələlər, gömrükçülər, menecerlər, beynəlxalq aləmə çıxan işgüzar adamlar və s. üçün vacib və zəruridir.

Əvvəldə dediyimiz kimi beynəlxalq müqavilələr Saziş,

Konvensiya, Xartiya, Nizamnamə, Deklarasiya, Memorandum, Modus-Vivendi, Nota mübadiləsi. Pakt, Traktat, Birgə rəsmi məlumat. Qəti akt. Proqram, İnzibati saziş və s. -də adlanır.

***Smhhşdirilmiş formatı miiqavUəhr***

Sadələşdirilmiş formalı müqavilələr ən çox ra.st gəlinən müqavilə formasıdır. Sadələşdirilmiş müqavilə forması elə müqavilələrə aid edilir ki, onlar sadə şəkildə başqa tərəflə bağlanır. Belə müqavilə parlamentlə razılaşdırılmadan icra hakimiyyəti tərəfindən bağlanır. Müqavilənin bu forması yuxarıda qeyd etdiyimiz ümum i xarakteri i dövlətlərarası müqaviləyə aid edilmir. Bu məsələ beynəlxalq müqavilələri kodifıkasiya edən BMT-nin beynəlxalq hüquq Komissiyası tərəfindən də qeyd olunmuşdur.

Sadələşdirilmiş müqavilə formaları istər siyasi, istərsə də konstitusiya - hüquqi cəhətdən bir sıra problemlər yaradır. Məsələn, bu forma əsasında aşağıdakı müqavilələrin bağlandığı məlumdur:

1938-ci ildə Münxen müqaviləsi;

1950-ci ildə ABŞ hərbi bazalarının Mərakeşdə yerləşdirilməsi müqaviləsi;

1955- ci ildə Mərakeşə müstəqillik verilməsi haqqında müqavilə;

1956- cı ildə Tunisin müstəqilliyini tanımaq haqqında müqavilə;

1954-cü ildə ABŞ, Fransa və İngiltərənin Hindçində birgə fəaliyyət müqaviləsi.

Bu müqavilələri nəzərdən keçjrən fransız hüquqşünası J.Şaye yazır: “Onların hamısı öz məzmununa görə ən təntənəli formada bağlanmış müqavilələrlə qəribə bir şəkildə yaxınlıq təşkil edir”.

Sadələşdirilmiş müqavilə formasının necə siyasi mahiyyət daşıya bilməsinə aşağıdakı misalı göstərmək olar: “Soyuq müharibə” illərində ABŞ 3 ölkə başçıları olan Ruzvelt, Çerçil və Stalinin (Yalta) və XİN-nin (Potsdam) (qanunverici orqanların təsdiq etmədiyi) imzaladıqları və sadələşdirilmiş müqavilə formasına aid edilən Yalta və Potsdam müqavilələrinin hüquqi

qüvvəsi olmadığı tələbi ilə çıxış edir.

Lakin bu barədə SSRİ-nin aşağıdakı bəyanatı mübahisəyə son qoyur: “Göstərilən müqavilələr tarixi mahiyyətinə görə siyasi və beynəlxalq - hüquqi aktlardırlar”.

Sadələşdirilmiş müqavilə formalarından daha çox zərər çəkmiş ölkələr bu barədə öz Konstitusiyalarına xüsusi maddələr daxil etmişlər. Məsələn, Mali Respublikasının Konstitusiyasının 38- ci maddəsində göstərilir ki, “Bu maddədə göstərilmiş sadələşdirilmiş formada imzalanmış müqavilələr bu və ya başqa məsələyə aid olduğundan asılı olmayaraq ancaq qanuna əsasən qəbul oluna bilər”.

Rusiya Federasiyası 1995-ci ildə öz ölkəsinin beynəlxalq müqavilələrinə dair Federal qanun qəbul etmişdir. Bu Qanunla Rusiya mütləq ratifikasiyadan keçməli müqavilələrin siyahısını təsdiq etmişdir ki, buraya Sadələşdirilmiş müqavilələr də daxil edilmişdir (həmin Qanunun 15-ci maddəsinə bax.). Lakin bu məsələnin tam həllinə kömək edə bilmir. Çox vaxt hansı müqavilənin hansı ardıcıllıqla qəbul olunmasını müəyyən etmək olmur. İcra hakimiyyətinin də öz Konstitusiya hüquqları olduğunu unutmaq olmaz.

Beləliklə müqavilələrin adlarında vahid formanın olmadığı göz qabağındadır. Hansı məzmunlu müqavilənin hansı adla adlanması haqqında bəzən mübahisəli məsələlər ortalığa çıxır. Yuxanda adlarını çəkdiyimiz və haqqında bəhs etdiyimiz müqavilə formaları ən çox yayılmış beynəlxalq müqavilə formasıdır.

Bununla bərabər bəzən qeyri-tipik müqavilə formalarına da təsadüf etmək olur. Buna az halda da olsa rast gəlinir. Məsələn, 1979-cu ildə ABŞ ilə Avstriya arasında bağlanmış və BMT tərəfindən qeydiyyatdan keçirilmiş müqavilə mövcuddur: “Avtomobillərə təyin olunan vergilərə dair müqavilələrin müzakirəsi üçün razılaşdırılmış qeydlər”. Elə bu müqavilənin adından göründüyü kimi tərəflər bir - birindən bu müqaviləni dəqiq yerinə yetirməyi tələb etməkdən acizdirlər. Bu, ölkənin dəyişən vergi qanunları ilə dəyişən müqavilədir.

Bununla bərabər belə “sürüşkən” müqavilələrin icrası zamanı tərəflərin hüquqi bərabərliyini qorumağa meyl edilməli, beynəlxalq normalar qorunmalıdır.

***İnzibati miüfavihlər*** - Beynəlxalq münasibətlərdə dövləti təmsil etməkdə hüququ olmayan vəzifəli şəxslər, idarələr, təşkilatlar arasında bağlanan beynəlxalq müqavilələrdir. Belə müqavilələr müxtəlif təşkilatların öz kompetensiyaları daxilində xüsusi məsələlərə dair qarşılıqlı tənzimləmə fəaliyyətini nəzərdə tutur. Hüquqi ədəbiyyatda, məsələn, Rusiyada, Azərbaycanda bu növ müqavilələr inzibati müqavilələr (rusca: administrativnıe soqlaşeniya) adlanır. ABŞ hüquqi ədəbiyyatında belə müqavilələr ***icraçı miiqavihhr*** (executive agreements) kateqoriyasına daxil edilirlər. Buraya icra hakimiyyəti olan federal orqanların senatın razılığı olmadan bağladığları müqavilələr daxildir.

Bu beynəlxalq müqavilələr anlayışında yeni hal deyil. Bu hal hələ XX əsrin əvvəllərində hüquqşünasların diqqətini cəlb etmişdi. Elə o zamandan bu növ inzibati müqavilələr beynəlxalq müqavilələrə aid edilmişdi. Səfirliklər, Konsulluqlar öz ölkələri ilə olduqları ölkə təşkilatları, şirkətləri və s. arasında belə müqavilələrin bağlanmasında fəal iştirak edirlər. Son illərdə bu barədə xeyli yazılmışdır. Bu onunla izah olunur ki, beynəlxalq münasibətlərin ən müxtəlif məsələlərinin tənzim olunması üçün bu növ müqavilələrdən istifadə olunması ehtiyacı artmışdır. Hətta indi bir sıra hüquqşünaslar belə fikir söyləyirlər ki, idarə və orqanlararası müqavilələr beynəlxalq hüquqda və beynəlxalq müqavilələr formalarında mərkəzi yer tutacaq lar.

Məsələn, Rusiya Federasiyası “Müqavilələr haqqında Qa- nun”da “idarələrarası müqavilə xarakterili” müqavilələri beynəlxalq müqavilələr sırasına daxil edir.

Lakin qeyd olunur ki, ancaq o idarələr ki, dövləti təmsil edir, onların müqavilələri beynəlxalq müqavilə sayıla bilər. Onların rolu belə müəyyənləşdirilib: Federal nazir, icra hakimiyyətinin baş federal orqan rəhbəri müzakirələr aparmaq və Rusiya Federa-

siyasinin idarədaxili xarakterli müqavilələr bağlamaq hUqııqıı vardır; bunun üçün əlavə səlahiyyət verilməsinə ehtiyac yoxdur (Maddə 3, bənd 12). Göstərilən vəzifəli şəxslər öz səlahiyyətləri daxilində belə xarakterli müqavilələri imzalayırlar (Maddə 3, bənd **20).**

Artıq bir sıra ölkələr belə inzibati müqavilələrə üstünlük verməklə öz ölkələrinin bir sıra siyasi, iqtisadi, mədəni, texniki, elmi və s. problemlərini daha operativ həll etmək imkanı qazanırlar.

AR qanunları da buna imkan verir, çünki bu daha demokratik beynəlxalq münasibətlərin tənzimlənmə formasıdır.

Bərmək - Azərenerji, Azərneft - Beynəlxalq neft əməliyyat şirkəti, Azərbaycan Hava Yolları Dövlət Konserni ilə bir sıra Şərq və Qərb ölkələri şirkətləri ilə, Səhiyyə, 'fəhsil nazirlikləri. Şəhər meriyası və s-nin müqavilələrlə əlaqələrinin əhəmiyyəti danılmazdır. Səfirliklər və diplomatik nümayəndəliklər işlədikləri ölkələrin idarə və təşkilatları ilə öz ölkələrinin müvafiq subyektləri arasında belə müqavilələrin bağlanmasına kömək etməlidirlər.

Hüquqşünaslar və beynəlxalq münasibətlər üzrə çalışanlar belə hesab edirlər ki, bu formalı müqavilələr zamanın ruhuna və tələbinə uyğundur.

***Müqavilənin strukturu***

Müasir hüquqşünaslar və beynəlxalq münasibət məsələləri alimləri, mütəxəssislərini müqavilələrin hüquqi strukturu çox cəlb edir. Bu müqavilələr üçün daha aktualdır. Struktura müqavilə elementlərinin ***qaydasını, onların yerləşməsini, qarşılıqlı əlaqələrinin xarakterini,*** bir sözlə müqavilənin daxili quruluşunu ehtiva edir.

Müqavilənin vahidliyi prinsipi xeyli vaxtdır beynəlxalq hüquqda öz əksini tapmışdır. Bu prinsipə müvafiq olaraq müqavilə vahid tamdır və vahid normalar sistemi kimi qəbul olunmuşdur, onların hamısı məcburidir və yerinə yetirilməlidir. Müqaviləyə ancaq belə münasibət ədalətli münasibətdir - vicdanlı yanaşmadır, elə buna görə bütün beynəlxalq müqavilələrin bütün şərtləri

vicdanla yerinə yetirilməlidir.

Müqavilələrin vahidliyi prinsipi beynəlxalq müqavilələr haqqında Vyana Konvensiyası ilə bərkidilmiş - əsaslandırılmışdır. Bu, xüsusilə müqavilənin məcburi hissəsinə və müqavilənin şərtlərini əsaslandıran hissələrə aiddir (17,44-cü maddələr). Dövlətin müqavilənin ona aid hissəsinin məcburiliyinə razılığı o zaman mümkün olur ki, bu müqavilə ilə şərtləndirilir və yaxud bununla müqavilədə iştirak edən başqa dövlətlər razıdırlar. ***Müqavilənin denonsasiyası, ondan çıxmaq və yaxud onun fəaliyyətini*** dayandırmaq ancaq bütün müqaviləyə aid ola bilər. Əlbətdə, bu onda olur ki, müqavilə başqa şərtlər nəzərə almır, yaxud onun iştirakçıları başqa təkliflə çıxış etmirlər.

Müqavilənin vahidliyi - bütöblüyünün mühüm praktik əhəmiyyəti vardır. Bu əsasən çox vaxt mətnin tərtibi, müqavilənin icrası zamanı ortaya çıxır. Bu cəhətdən dənizçiliyə dair Kon- venvensiyanı hazırlayan konfransın işini misal gətirirlər (1982 il).

Müqavilənin bütövlüyü - vahidliyi prinsipinin nəinki təkcə hüquqi, həm də siyasi əsası vardır.

Müqavi lələdə tərəflərə dair ***daha vacib və vacib olmayan*** məsələlər vardır. Bunlardan bəziləri tərəflərdən biri üçün çox vacib ola bilər, o biri tərəf üçün isə - az vacib. Müqavilə həmişə əməli olaraq kompomisin nəticəsidir. Ona görə də çox vacibdir ki, müqavilənin bütövlüyü - vahidliyi qorunub saxlansın. Cünki hansı məsələninsə birinə vacibliyi başqa qeyri-vacib məsələ ilə ***kompensasiya*** olunur.

Müqavilə vahid sistem, tənzimlənmiş məqsədləri ifadə edən müəyyən komponentlərdən ibarətdir. Bunlara - yəni həmin komponentlərə aşağıdakılar daxildir; ***müqavilənin adı, ya titulu; preambula; mərkəzi -əsas hissə; qərar hissəsi sonluğu; əlavələr.*** Bu komponentlərin ***hamısının*** olması vacib deyildir və onlardan birinin və ya digərinin olmaması müqavilənin hüquqi qüvvəsinə təsir etmir. Bütün müqavilələrin əlavəsinin olması vacib deyil. Bir çox müqavilələrin bəzi məsələlər haqqında preambulası olmur. Bununla belə əməli əhəmiyyətini nəzərə alaraq bu komponentlərin

hamısının olmasının da öz əhəmiyyəti var. Bu tərkib hissələrin hamısının müqavilədə olması müqavilənin başa düşülməsi, düzgün yozulması və qeyri-şərtsiz icra olunması üçün lazımdır.

Müqavilənin izahı, ya şərhi üçün Vyana Konvensiyası ***kontekst*** (cümlədən doğan məna) məfhumunu tətbiq etmişdir. Yuxarıdakı müqavilə komponentlərindən başqa, kontekst bütün müqaviləyə aiddir. Bu prinsip - kontekst aydınlıqı tərəflər arasında baqlanan bütün sənədlərə də aiddir. Göründüyü kimi kontekst məfliumu mətn məfhumundan daha genişdir.

Müqavilənin strukturu elə olmalıdır ki, onun məqsədlərinin düzgün yerinə yetirilməsinə, ümumi məsələlərin xırdalıqlarına qədər düzgün əməl olunmasına xidmət etsin. Məlum olduğu kimi belə bir qayda var: "Xüsusi qanunu ümumi qanun ləğv edir" (lex specialiis deroqai legi generali). F.F.Martens və başqa görkəmli hüquqşünaslar belə hesab edirdilər ki, "müqavilənin hər hansı xüsusi qərarı ümumi müqavilənin fəaliyyətini ya ləğv edir, ya da məhdudlaşdırır".

Müqavilədə əsas yeri onun ***nwqsod və prinsipləri*** tutur. Beynəlxalq müqavilələr qədim Roma hüququnun tələb etdiyi'Vuhu" və "hər hərfi" tələblərinə indi də riayət edir. Əlbətdə, bu mə.sələdə də ixtilaflar var. Bəzilərinə görə sözlərə xüsusi əhəmiyyət verilməlidir, və ancaq sözün daşıdığı semantik - məna yükünə rəayət olunmalıdır. Bəziləri isə müqavilənin "ruhu"ıu əsas götürməyi təklif edirlər. P.Foşil belə hesab edirdi ki, müqavilədə əsas "ruh"dur, sözlər yox. O, "/•«/)" deyəndə müqavilənin ümumi mənasım başa düşürdü. Beləliklə məna üçün "sözw" əsas götürənlər onun mənasını, "ruhu" əsas götürənlər isə onun məzmununu önə çəkirdilər.

Müasir təcrübədə müqavilədə hər iki tərəfi əsas götürənlər düzgün yoldadırlar. Çünki müqavilənin icrası üçün "söz" - mətn mühüm olduğu kimi "ruhu" - mənası da mühümdür və onlar bir-biri ilə sıx bağlıdırlar və bir-birini tamamlayırlar.

Bu məsələlər artıq nəzəriyyədən müqavilələrin əməli icrasına tətbiq olunan tələblərdir. Beynəlxalq müqavilələrin sürətli inkişafı

onun bəzən “sözü”nün “ruhu”ndan geri qaldığını göstərir. Müasir müqavilələr arenasında tərəflərin bir-birinə rəğbəti, məsələləri qarşılıqlı həll etmək üçün xoş niyyətləri artıq üstünlük təşkil etməyə başlamışdır. Mətn isə çox vaxt tərəflərin bir-birinə rəqbət və ehtiramının - “ruhun” dalınca getməyə məcbur olur. Bu isə müqavilələrin icrasının effektivliyinə xidmət edir.'

Müqavilələnin effektivliyi üçün onun düzgün şərhi mühümdür. Hüquqşünashqda çoxdan belə bir prinsip özünə yer eləyib: “şərh, ya izah elə olmalıdır ki, o, müqaviləni fəallaşdırsın, dayandırmasın”.

Müqavilənin strukturunda mühüm rol oynayan yuxarıdakı müddəalar və prinsiplər bir vəzifəyə xidmət edir ki, o da müqavilənin effektli yerinə yetirilməsidir.

***Müqavilə titulu***

Müqavilənin strukturunun birinci elementi onun rəsmi adı, yaxud tituludur. Yaxın keçmişə qədər müqavilənin adını onun xüsusi elementi hesab etmir, onu preambulaya aid edirdilər, daha doğrusu onu preambulanın bir hissəsi sayırdılar. Polşa professru A. Klafkovski yazır: “Birinci hissəyə titul və müqəddimə (giriş) daxildir”.

Müasir müqavilələrdə titulun əhəmiyyəti o qədər artıb ki, bu onu müqavilənin ayrı, müstəqil elementi hesab etməyə vadar edir. Titulun əsas əhəmiyyəti ondadır ki, onunla müqavilənin obyekti və məqsədləri təyin olunur: bu da onun məzmununun şərhi, izahı üçün hüquqi əsas olur.

Lakin unutmaq olmaz ki, bəzən müqavilənin adı onun əsl məqsədi və mahiyyətinin dezinformasiyasına da xidmət edə bilir, onun məzmunu və xarakterinin düzgün açılmasına nəinki kömək etmir, əksinə, onu daha da dolaşdırır. “Cənub-Şərqi Asiyanın müdafiəsi haqqında Müqavilə” buna misaldır. 1954-cü ildə bağlanmış bu Müqavilə Cənub-Şərq ölkələri olan Hindistan, Birma,

**Мамсдги1изале Ч. Основы дипломатической службы и дипломатического протокола. Баку, 2001. стр. 56-57.**

İndoneziya və s. ölkələrin iradəsinin əleyhinə olaraq imzalanmışdı. Əslində bu Müqavilə qeyri Asiya ölkələrinin siyasi təsir instrumenti kimi qəbul olunmuşdu. Eyni adlı müqavilələr müxtəlif tərəflər tərəfindən müxtəlif məqsədlərlə imzalandığından, müxtəlif siyasətlərə xidmət etdiyindən fərqli ola bilər, lakin bu eynilik səhvlərə, anlaşılmazlıqlara, dolaşıqlığa və məna müxtəlifliyinə haqq qazandırmamalıdır. Məsələn, müqavilə adı məzmunla tam əks istiqamətdə olanda nəticə də ən azı təəccüb doğurur. 1939-cu il 28 sentyabrda SSRİ ilə Almaniya arasında bağlanan müqavilənin adında "dostluq" sözünü yazmağın nə mənası vardı? Axı bu ölkələr onda da dost deyildilər və bir-biri ilə müharibəyə hazırlaşırdılar (Hər halda Almaniyanın belə bir məqsədi olduğunu SSRİ bilirdi. Bu barədə Bakılı Rixard Zorge və s. diplomatlar vasitəsilə məlumatlar çatmışdı). Bu Müqavilədən sonra isə hər iki ölkə müharibəyə cəlb olundular.

Müqavilənin adı ***tam va natamam*** ola bilər. Natamam adlı müqavilələr əsasən sadələşdirilmiş müqavilələr ola bilir. Onlarda ancaq aktın-mətləbin adı göstərilir. Məsələn; "qarşılıqlı anlaşma memorandumu". Bütün qalan mətləblər isə mətndə verilir və izah olunur. Müqavilələnin tam adını əhatə edir. Məs., Müqavilə, sonra onun məzmununun əsas özəyi, nə haqda olduqu: -dostluq, ticarət və gəmiçilik haqqında; sonra müqavilədə iştirak edən tərəflərin tam adı (Konstitusiyalarında göstərilən kimi) yazılır

Çox tərəfli müqavilələrin titulu aktın-məqsədin məzmunu və onun obyektini əks etdirir: Məs., "Xilasetmə haqqında beynəlxalq Konvensiya" (1989). İkitərəfli müqavilələnin tam titulu bundan başqa tərəflərin tam adını da göstərməlidir: Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq, mehriban qonşuluq və əməkdaşlıq haqqında Müqavilə və s. kimi İkitərəfli müqavilələrdə tərəflərin adı ***alternat*** (ardıcıllıq) qaydalarına müvafiq göstərilir. Müqavilənin mətni kimə veriləcəksə onun adı birinci yazılır. Diplomatik sənədlərdə də alternat tələblərini gözləmək vacib sayılır, lakin mətbuat üçün olan müsahibə və bəyanatlarda alternata riayət olunmaya da bilər.

Əgər müqavilələr çoxtərəflidirsə - yəni iştirakçılar bir neçə ölkədirsə, o zaman onların adları əlifba sırası ilə sadalanır. Bu zaman əlifba da tərəflərin özü tərəfindən təyin olunur: fransız, ingilis, rus (MDB ölkələri üçün).

Diplomatik təcrübədə çox vaxt müqavilə, qəbul olunduğu yerin adı və tarixi ilə adlanır. Nadir hallarda onu imzalayanın adı, ya da inisialiarmı qoymuş şəxsin adı ilə adlanır. Məs., "1990-cı il Moskva müqaviləsi", yer adı ilə : "Yalta müqaviləsi", şəxslərin adı ilə: "1933-cü il Litvinov-Ruzvelt müqaviləsi". Bəzən müqavilənin adı qısaldılmış da ola bilər. Bu zaman müqavilənin qısaldılmış adı müqavilənin mətnində göstərilir. Məsələn, 1926-cı ildə SSRİ ilə Yəmən arasında bağlanmış dostluq, əməkdaşlıq və ticarət müqaviləsinin mətndəki gələcək adı göstərilir (mətnin içində): Bu Müqavilə bundan sonra "Səna Müqaviləsi" adlanacaqdır (Səna Yəmənin paytaxtı idi).

Bəzi beynəlxalq təşkilatlar müqavilənin formasına xüsusi əhəmiyyət verirlər. Məsələn, Beynəlxalq Əmək təşkilatının bu sahədəki təcrübəsi buna misal ola bilər.

Bu beynəlxalq təşkilat belə təcrübəni yaymağa müvəffəq olub: müqavilənin qısaldılmış adını mətnin içində vermək. Məsələn, qadınların yeraltı obyektlərdə - şaxtalarda, yeraltı qurqularda işləməsinə dair 1935-ci il Konvensiyasının preambulasında göstərilir ki, bu Konvensiyaya istinad edilərkən və ya ondan sitat gətirilərkən onun adını qısaldılmış olaraq belə göstərmək olar: Qadınların yeraltı işləri haqqında Konvensiya.

Çox vaxt müqavilələrin qeyri-rəsmi adı geniş istifadə olunur. Buna nəinki təkcə kütləvi informasiya vasitələrində (KİV), həm də rəsmi diplomatik sənədlərdə, hətta dövlətlərin normativ aktlarında da təsadüf olunur.

***Müqavilə və preambula***

Preambula müqavilənin giriş hissəsinə deyilir. Preambula müqavilənin məcburi hissəsi deyildir. Preambulanın müqavilənin hüquqi qüvvəsinə heç bir təsiri yoxdur. Bəzi ikincidərəcəli

məsəlolorə aid olan çoxlu müqavilələr vardır ki, heç preambıılası yoxdur. Adələn əsas müqaviləyə əlavə olan razılaşmalarda preambula olmur. Çünki vacib, zəruri mətləblər artıq əsas müqavilənin preambulasmda verilmişdir.

Bununla bərabər vacib, xüsusilə siyasi müqavilələrdə preambulanm olması zəruri sayılır və müqavilədə mühüm rol oynayır. Onun əsas vəzifəsi müqavilədə vacib məqsədləri əks etdirmək, müqavilə məqsədlərini və onun bağlanması motivlərini açıqlamaqdır. Preambula həmçinin tərəllərin formal-hüquqi mətləbləri, onları təmsil edən orqanları, vəkillərini, səlahiyyətli şəxslərini də açıqlamaqa xidmət edir.

Diplomatik təcrübədə bəzən preambula müqavilənin əsas qayə və məqsədini gizlətməyə, örtbastır etməyə xidmət edir. Ona görə də çox vaxt deyirlər ki, preambulanm hüquqi qüvvəsi yoxdur. Lakin belə yanaşma beynəlxalq hüquqa müvafiq gəlmir. Beynəlxalq Məhkəmə dəfələrlə preambulanm hüquqi əhəmiyyətini qeyd etmiş, o cümlədən hər hansı aktın, müqavilənin əhəmiyyətində preambulanm hüquqi rolunu göstərmişdir. 1962 ildə Beynəlxalq Məhkəmə Cənub Qərbi Afrikaya dair işlə əlaqədar qərara almışdı: “Mandat həm əməli, həm də hüquqi cəhətdən beynəlxalq müqavilədir, əgər o, müqavilə və ya Konvensiya xarakteri daşıyırsa. Mandatın preambulasının özü onun belə bir xarakteri haqqında dəlalət edir”. Beynəlxalq Məhkəmə müqavilənin şərhi üçün preambulaya xüsusi əhəmiyyət vermişdir və bunu xüsusi qeyd etmişdir.'

Hüquq ədəbiyyatında preambulanm roluna dair də çoxlu mülahizələr vardır.

Preambulanm əhəmiyyətini inkar etmək beynəlxalq təcrübəyə də uyğun gəlmir. 1945-ci ildə San-Fransisko konfransında BM'f-nin Nizamnaməsi hazırlanarkən qəbul olunmuş qətnamədə göstərilirdi ki. Nizamnamənin preambulasının hüquqi gücü maddələrin hüquqi gücü ilə eyniyyət təşkil edir.

**Эвинтоп Л. Многосторонние договоры в современном международном праве. Киев. 1979. сгр.40**

Bəzən “razılaşan tərəflər” ifadəsi də işlənmir. Sadəcə olaraq “Tərəflər”göstərilir. Öləkələrin adı tam adı ilə hər maddədə çəkilir. Məsələn, RF ilə AFR arasında 1990 ildə bağlanmış mehriban qonşuluq, həmkarlıq və əməkdaşlıq haqqında Müqavilə buna misaldır. AR ilə AFA arasındakı müqavilədə mətnin bütün maddələrində tərəflərin tam adı hər dəfə yazılmışdır: Azərbaycan Respublikası, Almaniya Federativ Respublikası.

Titulda olduğu kimi preambulada da iştirak edən dövlətlərin və onların orqanlarının tam adlarının yazılması vacib sayılır. Yüksək səviyyəli danışıqlar nəticəsində əmələ gəlmiş Müqavilələrdə çox vaxt ancaq dövlətin adı göstərilir. Hər iki tərəf bərabər hüquqlu orqanlarla təmsil olunmalıdırlar. Bundan ancaq bəzi hallarda kənara çıxmaq olar. Bu o zaman olur ki, dövlət başçısı həm də hökümət başçısı vəzifəsini yerinə yetirir. Məsələn, 1944-cü ildə Sovet - Fransa müqaviləsində tərəflər belə təmsil olunub: Bir tərəfdən - SSRİ Ali Sovetinin Prezidiumu, o biri tərəfdən - Fransa Respublikasının Müvəqqəti hökuməti. Qeyd etdiyimiz 1-ci formula preambulanın vacib hissəsidir.

***Preamhulamn 2-ci formulu*** - tarixi ekskurs ***{narratio)*** adlanır. Bu hissədə bu müqavilənin vacibliyini əsaslandıran tarixi zərurət, keçmiş müqavilələrə bir nəzər, bundan əvvəlki ikitərəfli münasibətlərə baxış, bu müqavilənin özündən əvvəlki müqavilələrlə müqayisəsi və s. öz əksini tapır. Bu müqavilənin bu formulunda keçmiş müqavilələrin ləğv olunması, hansılarınsa fəaliyyətinin dayandırılması, yerinə yetirildiyi üçün artıq əhəmiyyətini itirdiyi qeyd olunur.

Bu cür müddəalar hüquqi əhəmiyyət kəsb edə bilər. Bəzən elə hallar da olur ki, müqavilə ləğv olunmayıb, sadəcə olaraq “unudulub”. Preambulada onun adının çəkilməsilə tərəflərin onu davam etdirmək niyyətində olduqlarını göstərir, bir növ onu yada salır, “dirildirlər”. Belə halda mövcud müqavilə ilə keçmiş müqavilələr arasında əlaqə yaranır.

***Preambulanın 3-cü formulu*** - müqavilənin bağlanması motivləri və onun məqsədlərinin izahıdır ***(arenga).*** Bu formula əsas

siyasi yükün daşıyıcısıdır: bu hissə müqavilənin nə məqsədlə bağlandığının şərhini verir.

Preambulada motivlər və məqsədlər bir-biri ilə əlaqəlidir. Görkəmli hüquqşünaslar belə hesab edirlər ki, müqavilənin motivləri məqsədə çatmaq arzusunu yaradır. Bütün müqavilələr onda əks olunan motivlər və məqsədləri izah etmək və onu icra etməklə bitir.

***Preambulamn 4“Cü formulu*** - müqavilə bağlamaq qərarı haqqında məlumat. Bu formula müqavilənin preambulada göstərilən məqsəd və vəzifələrini yerinə yetirməyə razılıq haqqında tərəflərin bir-birinə xəbər verməsini nəzərdə tutur. Adətən bu formulanın aşağıdakı şəkli var: “Bu məqsədlə mövcud Müqavilləni bağlamağı qərara aldılar”.

***Preambulamn 5-ci formulu*** - müvəkkillərin (məsul, ya səlahiyyətli nümayəndələrin) təyin olunması. Preambulada olan konstruksiyadakı məntiqi əlaqəni saxlayır və müəyyən hüquqi gücə malikdir. Bu formula ilə tərəflər öz nümayəndələrini təyin etmək arzusunu ifadə edir; bununla da tərəflər öz nümayəndələrinə müqaviləni imzalamaq hüququnu verirlər. Bir qayda olaraq bu formulanın aşağıdakı şəkli var: “öz səlahiyyətli nümayəndələri kimi ... təyin edirlər”. Yüksək səviyyəli müqavilələrdə belə formula olmur.’

***Preambulamn 6-a formulu*** - səlahiyyətli şəxslərin göstərilməsi. Formula səlahiyyətli nümayəndələrin ad və soyadlarını təyin edir, onların imza hüququnu müəyyən edir. İkitərəfli müqavilələrdə bu formula iki hissədən ibarətdir:

1. Bu hissədə müqabil tərəflərdən olan dövlətlərdən hər biri onu təmsil edəcək orqanı təqdim edir, səlahiyyətli şəxsin (ya şəxslərin) ad, soyadını göstərir;

2. İkinci hissə Müqavilədəki ikinci tərəfə aid olur, 1-ci hissədəki eyni faktlar qeyd olunur.

Bugünkü müasir çoxtərəfli, hətta ikitərəfli müqavilələrdə artıq

**‘ Талалаев А.Н. Право международных договоров: действие и применение договоров. М., 1985, стр. 142-143**

bu formuladan istifadə olunmur. Sadəcə olaraq “aşağıda imza edənlər” kimi formula göstərilir.

***Preambulanm 7-ci formuiu__*****-** səlahiyyətlərin yoxlanması. Səlahiyyətlin forma və məzmunca yoxlanması bu formula daxildir. Burada səlahiyyətli olanların dəyişdirilməsi də icra olunur. Adətən formula belə şəkildə olur: “öz səlahiyyətlərini qarşılıqlı mübadilə ilə tərəflərin qaydalara riayət olunduğunu və lazımi səviyyəsini qeyd edərək...”

Əyər tərəflər dövlət başçıları, hökümət başçıları və xarici işlər nazirləri ilə təmsil olunursa bu formula səlahiyyətlərin yoxlanılmasını nəzərdə tutmur. Çünki onlar öz vəzifələrinə görə ölkəni təmsil edirlər.

***Preambulanm 8-ci formulu*** - razılıq fonnulası yaradır. Preambula bu formula ilə bitir və bununla da müqavilənin əsl mətninə keçid rolunu oynayır. Formula müqavilənin əsas məzmununu imzalamaq üçün yol açır. Məsələn “aşağıdakılarla razılaşdılar”.

Preambulanm strukturu müxtəlifdir. Onu sadələşdirmək üçün hüquqşünasların cəhdləri davam edir, lakin müqavilənin hüquqi gücünə bu təsir etmir. Hər halda müqavilənin yerinə yetirilməsində preambulanm rolu az deyil. Ona görə də müqavilələrin pre- ambulalarmm tərtibinə və məna, məzmun aydınlığına xüsusi fikir vermək lazımdır. Müəllifin şəxsi təcrübəsi göstərir ki, bunları bilmək diplomatlar üçün olduqca vacibdir.

***Müqavilədə əsas (Mərkəzi) hissə***

Preambuladan dərhal sonra gələn hissə müqavilənin konkret normalarım özündə toplayan hissəsi adlana bilər. Ədəbiyyatda və təcrübədə onu müxtəlif cür adlandırırlar. Roma hüquq sistemində onu ***'"dispositid’"*** - “qərar” adlandırıblar. Bu, qərar qəbul olunan hissə mənasındadır. Çox vaxt bu hissəni əsas hissə, materialın mərkəzi hissəsi adlandırırlar və bununla da preambulanm, bir növ, əhəmiyyətinin azaldılmasını nəzərə çarpdırırlar.

Preambula ilə mərkəzi hissənin müddəaları bir vahid kimi, bütöv kimi çıxış etməlidirlər. Mərkəzi hissə preambulada

göstərilmiş məqsəd və vəzifələrin yerinə yetirilməsinə xidmət etməlidir. Hər ölkədə müqavilənin mərkəzi hissəsi bir cür adlanır. Məsələn, ruslar bu hissəyə “постановление», azərbaycanlılar “qərar hissəsi” və s. deyirlər. Mənasına və mahiyyətinə görə bu düzgün seçimdir.

Mərkəzi hissə öz həcmi, xarakteri və tərəflərin nəzərinə daha aydın çatdırmaq üçün müvafiq surətdə ***hissələrƏf maddələrdə bəndlərə, abzaslara*** bölünür. Bunların hamısının müqavilənin məzmunu və ayrı-ayrı qərarları üçün əhəmiyyəti vardır.

Hissələr və fəsillər, bəzən hətta ayrı-ayrı bəndlər və maddələrin hərəsinin öz başlığı, titulu olur. Bunlar müqavilənin ayrı-ayrı müddəalarını şərh etməyə kömək edir. Bəzən belə söyləyirlər ki, müqavilənin göstərilən ayrı-ayrı başlıqlarının, fəsillərin adlarının, bölmələrin, titulunun hüquqi əsası yoxdur. Bunu əsaslandırılmış fikir hesab etmək olmaz. Məlumdur ki, müqavilədə olan heç bir şey (fikir) onun əksi sübüt olunmayana qədər mənasız sayıla bilməz. Maddələrin şərhi və mənasının izahı zamanı onların başlığını, necə adlanmasını nəzərə almamaq mümkün deyildir. Maddənin başlığı o zaman nəzərə alınmaya bilər ki, bu, mətndə öz əksini tapmış olsun. Məsələn, peyk rabitəsi haqqındakı Müqavilədə xüsusi olaraq bu məsələ öz əksini tapmışdır: “Müqavilə” deyilərkən mövcud Müqavilə və onun Əlavəsi nəzərdə tutulur; buraya bütün maddələrin başlığı daxil deyildir. Bu müqavilədə maddələrin adları mötərizədə verilmişdi.

Müqavilələrin həcmi məsələnin əhəmiyyətini nəzərə almaqla böyük və ya kiçik ola bilər. Tərəflər güclü olanda müqavilə mətni qıssa və aydın olur. Zəif tərəf həmişə bütün detalların incəliklərinə qədər müqavilədə öz əksini tapmağa cəhd edir.

Müqavilənin, o cümlədən mərkəzi hissəsinin əsas prinsipini ***bütövlük prinsipi*** təşkil edir. Müqavilələrin hamısı bir-biri ilə əlaqəli olduğu üçün bir müqavilə başqa bir müqavilə əsasında izah olunur. Müqavilələrdən birinin icrasım vacib sayıb, başqa müqaviləni təcrid etmək olmaz.

Mətnin bütövlüyü prinsipinin əhəmiyyəti istər əməldə, istərsə

də nəzəri cəhətdən kifayət qədər əsaslandırılmışdır. Beynəlxalq hüququn doktrinasının baniləri olan Qrotsi, Volf və Vattel buna xüsusi əhəmiyyət veriblər. Həm diplomatik praktikada, həm də beynəlxalq məhkəmələrdə bu mətləbə xüsusi əhəmiyyət verilir.

Tərəflər müqavilənin müsbət və mənfi cəhətlərini nəzərə alaraq onu bütöv, vahid hesab edirlər.

Bunu da unutmaq olmaz ki, müqavilənin mətni həmişə ideal olmur. Oraya bəzən elə boş və təmtəraqlı müddəalar salınır ki, "yamaq" təsiri bağışlayır. Belə müddəaların əvvəlcədən yerinə yetiriImayəcəyi məlumdur.

Müqavilənin effektivliyi üçün ***q!>rarlar sistemi*** də mühümdür. Onlar nə qədər aydın və dəqiq başa düşülsə o qədər düzgün yerinə yetirilər. Qərarlar tənzim olunan münasibətlərdən çıxış edərək ***qruplaşdtnin*** sonra isə əhəmiyyət dərəcəsinə görə mətndə birləşdirilir. Birinci yerdə ümumi normalar, sonra isə konkret qərarlar qəlir. Blə maddələr (qərarlar) də olur ki, başqa maddələri (qərarları) izah etmək üçün əsas olur. Belə norma üstünlük təşkil edir. Bu məzmunlu maddə mərkəzi hissənin başında durur. Ona bəzən baş maddə (qərar) deyirlər.

Maddələrin mətndə yerləşdirilməsi - yəni yerinin təyin olunması mühüm məsələdir. Beynəlxalq Konfranslarda qəbul olunan qərarlarda, diplomatik sənədlərdə hansı maddənin yerinin mətndə harada olması bəzən ciddi mübahisələrə səbəb olur. Son nəticədə onun əhəmiyyətindən çıxış edərək qərar öz yerini tutur. Məs., 1964 il BMT-nin ticarət haqqındakı beynəlxalq konfransında ***ümumi prinsiplərin*** harada yerləşdirilməsi üstündə mübahisələr məşhurdur. Bir qisim nümayəndələr deyirdilər ki, ümumi prinsiplər preambuladan sonra verilsin, bir hissəsisə - sənədin sonunda verilməsini təklif edirdilər.

Bir-biri ilə əlaqəli olan qərarlarda da ***əsas və köməkçi*** qərarlar olur. Birincilər məna daşıyıcısı olur, ikincisi onu izah edir, təkmilləşdirir, istisnaları əks etdirir. Bu halda xüsusi qərarlar prioritet sayılır ***{lex specialis)*** - bu xüsusi qanunun ümumi hüquqi prinsipidir.

Bütün sözlər və məfhumlar ümumi qəbul olunmuş mənalarda işlənməlidir yəni, qədim yunanlar demişkən, ***meydan ~ dar ofmaİı, mənaya - geniş.*** Xüsusi terminlərdən ancaq onlar işlədilir ki, onlar xüsusi sahələr üçün yaradılmışdır.

Qərarların xüsusiyyətlərinin müxtəlifliklərindən biri də ***istinad formasıdır:*** yəni bir qərarın bu və ya başqa məsələdə mövcud başqa beynəlxalq müqavilənin müvafiq qərarına istinad etməsidir. Belə istinadlar beynəlxalq hüquqi normalara və prinsiplərə, BMT-nin Nizamnamısinə və s. daha çox olur. Belə istinadlar preambulada da olur, lakin əsas hissədə də bundan istifadə olunur. Preambulada istinad ümumi olduğu halda, əsas hissədə (maddə, bənd və s.) konkret olur. Bu daha çox xüsusi məsələlərə dair müqavilələrə xas olan cəhətdir.

İstinad qərarlarından başqa təkmilləşdirilən qərarlar da ola bilər: "bu məsələ haqqında tərəflər xüsusi Konvensiya qəbul etməyi nəzərdə tuturlar". AR-lə Gürcüstan Respublikası arasındakı Müqavilədə iki ölkənin Konsulluq Konvensiyası haqqında xüsusi Konvensiya qəbul olunmuşdu.

Müqavilənin qərarlarının formalaşdırılması, son tərtibi çox çətin işdir. Bu elmdir, böyük məharətdir. İndiyə qədər tərəfləri tam təmin edən, zərrəcə mübahisə doğurmayan qərarların qəbul olunduğu məlum deyil. Ona görə də deyirlər ki, hər bir müqavilə və onun qərarları birinci növbədə tərəflərin ***kompromisidir.***

Britaniya professoru F.Mann bu sahədə xüsusi tədqiqat apararaq yazır ki, hələ bir dənə də olsa, çoxtərəfli Konvensiya tapmadım ki, pis tərtib olunma nümunəsi olmasın. Bunların müddəaları çox vaxt təqribi başa düşülür, ciddi mübahisələr doğurur. Əlbəttə, bu şişirtmə də olsa müəyyən həqiqətə malikdir.

Müqavilələrin, xüsusi ayrı-ayrı sahələrə dair müqavilələr hazırlamaq üçün müxtəlif sahələrdə geniş biliyə malik olmaq lazımdır, BMT-nin kosmik hüquq şöbəsinin müdiri, müqavilələrdə böyük təcrübəsi olan N.Yasentalyan göstərir ki, müqavilədə "hüquqi təmizliyə çalışmaq lazımdır. Lakin siyasi reallığı əks etdirməyən ***hüquqi perfeksionizm*** (təmtaraq) ən yaxşı hazırlanmış

effeekt verməz. Yekun hissəsi həmişə müqavilənin əhəmiyyəti və mahiyyətindən yaranır. Müqavilənin xarakteri yekun hissədə də özünəməxsusluqlar yaradır.

Yekun hissəsi üçün tipik olan aşağıdakı suallar vardır: ***təraflarin müqaviləni qəbuİ etməsi prosedurası*** (imzalama, ratifikasiya, qəbul etmə, qoşulma); ***qüvvəyə minməsi, prolonqasiya,*** fəaliyyətinin dayandırılması; xüsusi qeydlər; izahlar; mübahisələrin həlli; yenidən baxma qaydaları; ***depoziioriya*\ ratifikasiya sənədləri mübadiləsi və onların arxivdə saxlanma qaydaları; qeydiyyatdan keçirmə; mətnlərin audentliyi; əlavələrin statusu (hüquqi, əməli, əsas, köməkçi olması).

Yekun hissəsi əminlik bildirən formula ilə bitir ***(corroboraiio).*** Bu, hər iki tərəfin bir-birinə əminlik bildirməsi ilə bitir. Bu, adətən aşağıdakı formula ilə ifadə olunur: ‘Təsdiq əlaməti olaraq səlahiyyətlilər bu Müqaviləni imzaladılar və öz möhürlərini ona vurdular”. Bu formulaya Müqavilənin imzalandığı yer, tarix, imza və möhür tarixi də daxildir. Bütün başqa atributlar kimi (ölk? və şəhər adlarının müxtəlif dillərdə müxtəlifliyi nəzərə aimmaqk məs., Macar-Venqriya; London-Ləndən və s.). Tarix də hər ölkəc qəbul olunmuş təqvim tarixi ilə göstərilməlidir (miladi - 200 müvafiqdir h.q.- 1416). Çoxtərəfli Konvensiyalar ya Konfran keçirilməsi tarixi ilə göstərilir, ya da imza üçün açıq olan tarix* yazılır.

***k***
***n***
***9li***
***8m***
***yeti***
***^üsı***
***^•Plo***

Nadir hallarda müqavilədə yekun qərarı olmur. Belə müqavilənin fəaliyyəti haqqında notalarla mübadilə olunanda ehtiyac olmur. Lakin belə halda da notada bu və ya başqa q? da öz əksini tapa bilər, məsələn, müqavilənin tətbiqinin baş tarixi və s.

***Jh***
***Mi***
***ck•y^yan*** .

Notalardan başqa müqavilə üçün vacib elementlərdən imzadır. Müqavilələrin yazılı, lakin imzasız qəbulu, ya ***memorandum, yaddaş_məktubu, verbal notalar*** vasitəsilə *
Bu hal istisna təşkil edir. Tərəflərin möhürlərinin vurulm deyil.
Möhürün olmaması müqavilənin məcburi tətbiqi tk ola bilməz.
Bu məsələ bu şəkildə BMT-də Mü'

Ili. Proqnostik üsullar;

IV. Qərarların qəbulu prosesinin analizi;

Bunları ayrı-ayrılıqda nəzərdən keçirmək zəruridir. Çünki bunları bilmədən diplomatlar beynəlxalq münasibətlər nəzəriyyəsinin mahiyyətini düzgün təhlil edə bilməzlər.

I. ***Vəziyyətin analizi üsulln.***

Bu üsul əsasən empirik materialların - faktların ilkin toplanması və sistemləşdirilməsini əhatə edir. Belə üsulu bəzən ‘‘tədqiqatın texnikası” da adlandırırlar. Hal-hazırda minə qədər belə üsul mövcuddur: adi yaradılmasından tutmuş məlumatın-faktın indeksləşdirilməsinə qədər üsulları bura daxil etmək olar.

Bu metodda ən çox yayılmış köməkçi metodlar isə müşahidə, sənədlərin öyrənilməsi, müqayisə, faktların tipoloji quruluşuna görə tədqiqi və s. daxildir.

II. ***EkspHkaiiv üsullardan ən çox yayılan metodlara kontekt-analiz, ivent-analiz, koqnit xəritələşdirmə və onun çoxlu sayda üsulları daxildir.***

A) Kontekt - analiz üçün mətndə - faktda ən çox işlənən .sözlər, tərkiblər qruplaşdırılır (məsələn, bəyanatda və s.), neytral ifadələri istisna üsulu ilə əsas ifadələr əsasında tədqiq olunan mətnin siyasi istiqaməti təyin olunur.

B) Ivent-analiz üsulunda (buna hadisələrin məlumatı üsulu da deyilir) məlum informasiya sistemləşdirlir, qruplaşdınlir, təhlil olunur. Bu prinsiplə: 1) kim danışır və ya hərəkət edir; kimə qarşı nə və (kimdir), 2) süjet (məzmun) “nədir”; 3) subyekt-hədəf (kimdir, kimə qarşıdır); 4) hadi.sənin tarixi (nə vaxtdır). Bunlar mətn əsasında təhlil olunur. Cədvəllər elektron-hesablama mərkəzində (EHM) təhlil olunur, nəticə çıxarılır.

C) Koqnit xəritələşdirmə üsulu hər hansı bir diplomatın, dövlət xadiminin hər hansı problemi necə qəbul etdiyini, başa düşdüyünü öyrənən üsuldur. Bu üsulla sübut olunur ki, dövlət xadimi hər hansı problemi reallıq əsasında, ya da özünün dərk etdiyi şəkildə həllini ön plana çəkir, ya yox. Hər hansı ölkə başçısının bütün çıxışları təhlil olunur, xəritələşdirilir, bütün problemlərə

əhatə edəndir. Nəzəriyyənin analitik və praktik tətbiqi hər sahədə olduğu kimi beynəlxalq münasibətlər nəzəriyyəsində də vacibdir. Ümumiyyətlə sosyal elmlərin əksəriyyətinin özünəməxsus - spesefik metodları yoxdur. Ona görə də bu elm sahələrində başqa elmlərin (həm sosyal, həm də təbii-elmi sahələrin) nəzəri tətbiqindən istifadəsiz keçinmək olmur.

Siyasi elmlərin, o cümlədən beynəlxalq münasibətlərin nəzəri əsaslan aşağıdakı üç aspekt üzərində qurulur:

1. Tədqiqatın mənəvi dəyərlər və ya şəxsi baxışlardan ayrılması;
2. Bütün sosyal elmlər üçün ümumi olan analitik üsullar və prosedurlardan istifadə olunması;
3. Nəzəriyyəyə yardımçı olaraq "qanunauyğunluqların" sistemləşdirilməsinə cəhd etmək.

Əllbətdə, bu o demək deyil ki, tədqiqatçı bütün dəyərləri kənara qoymalı, öz mülahizə və müşahidələrinə yol verməməlidir. Bunları inkar etmədən əsas tələbə riayət olunmalıdır: onun qarşısında daha geniş dayanan elmin və ideologiyanın tənasübü probleminə riayət etməlidir.

Burada söhbət ideoloji kontroldan-yəni ideologiyanın elm üzərində nəzarətindən getmir. Bu, yaxın keçmişə - sosyalist (sovet) ideologiyasının bütün elm sahələrinə nəzarəti dövrünə aid idi. Beynəlxalq münasibətlər nəzəriyyəsində söhbət indi elmi nəzarətə- elmin ideologiyaya təsiri nəzarətindən gedir. Burada da tarixi- təsviri usulun analitik -proqnostik metoda tabeliyi üstünlük təşkil etməlidir.

İctimai münasibətlərdə, o cümlədən, xüsusilə beynəlxalq münasibətlərdə sxolastik - gözlənilməz proseslərə tez-tez rast gəlmək olur. Bunları bəzən izah etmək də çətin olur. Burada diplomatın məharəti də vacibdir.

Beynəlxalq münasibətlərdə tətbiqi xarakterli bir neçə üsulu nəzərdən keçirək. Bunlar əsasən aşağıdakılardır:

I. Vəziyyətin (situasiyanın) təhlili (analizi) üsulları;
II. Eksplikativ üsullar;

Lakin qəbul olunan/ budur ki, politologiya əsasən daxili siyasət haqqında elmdir və bu elm mütəşəkkil dövlət cəmiyyəti ilə məhdudlaşır.

Məsələn, M.Qunell belə hasab edir ki, politologiyanın mövzusu milli (yəni daxili siyasi) problemlərlə məşğul olsa da bu onu beynəlxalq münasibətlərə daxil etməyə mane olmur. Lakin bununla belə coğrafi meydan müxtəlifdir: politologiya daxili, beynəlxalq münasibətlər isə ölkəarası problemlərlə məşğul olur. Son illərdə isə daxilli siyasət və beynəlxalq - siyasi proseslər arasında sərhəd daraldığından bu elmləri də ayırmaq çətinləşir.

Siyasi tədqiqlərlə məşğul olan elmi fransız və ABŞ jurnalları “International orqanuzation” (ABŞ) və “Le Trimestre du monde” (Fran.) eyni vaxtda xüsusi nömrələr buraxaraq onları beynəlxalq tədqiqlərə və beynəlxalq münasibətlərin mövzusuna həsr edir. Bir həqiqətdir ki, beynəlxalq münasibətlərin daxili siyasətlə bağlılığı mübahisəli olsa da özünə məxsus nəfəsi, obyekti vardır ki, bu da beynəlxalq əlaqələrdir. Politologiyada mərkəzi məfhumları təşkil edən “siyasi proses”, “siyasi rejim”, “vətəndaş cəmiyyəti” və s. kimi terminlər xarici siyasətə aid ediləndə özünəməxsus mövzu sahəsini təşkil edir. Beynəlxalq münasibətlərin “suverenitetlərin plyu- ralizmi”, “qüvvələr balansı” və s. kimi problemlər ancaq beynəlxalq münasibətlərə aid edildikdə xüsusi mahiyyət kəsb edir. Bütün bunlarla yanaşı qeyd olunmalıdır ki, yuxarıdakı mülahizələrdən çıxış edərək deməliyik: beynəlxalq münasibətlər elminin statusunun müstəqil nəzəri hissəsinin -probleminin dərindən işlənməyə ehtiyac duyulur. Diplomatlar işlədikləri ölkələrin siyasətində bu məsələlərin yerinə xüsusi əhəmiyyət verməlidirlər.

### *Beynəlxalq münasibətlərdə üsul problemi*

Beynəlxalq münasibətlər və xarici siyasətin yerinə yetirilməsində üsul, metodika və işin texnikası kimi məsələlərdən düzgün istifadə, onların səmərəli tətbiqi mühümdür.

Hər bir “üsul” özlüyündə indiyə qədər mövcud olmuş tədqiqatların, elmi axtarışların son nəticədə əməli tətbiqi yollarını

beynəlxalq sosyalist sisteminin məhv olmasına gətirib çıxarmış dəyişikliklər bir çox mütəxəssisləri yuxarıdakı kriteriyalardan əl çəkərək aşağıdakı kriteriyanı müasir beynəlxalq münasibətlərdəki təsnifatda əsas götünnəyə gətirib çıxardı: ***sinfi*** kriteriyadan tamamilə əl çəkməli və ümumisivilizasiya kriteriyasma keçməli. Bu kriteriyanı da 2 yerə bölənlər var: ***qüvvələr*** balansına əsalanan l-ci kriteriya, ***maraqlar*** balansına əsaslanan 2-ci kriteriya.

Buraya geosiyasi maraqlar (bu da qlobal-dünya, regional- Avropa, Asiya və s., Subregional-məsələn, Qərib dənizi, Xəzər dənizi ölkələri maraqlarına bölünür), yüksək, aşağı və orta səviyyəli münasibətlər, stabillik və qeyri-stabillik, etimad və düşmənçilik, həmkarlıq və konflikt, sülh və müharibə və s. kimi beynəlxalq münasibətlər göstəriciləri də daxildir.

Bütün bu məsələlərdə “dünya siyasəti” məfhumu da az rol oynamır. A.Y.Bovinc və V.P.Lukinə görə “dünya siyasəti”-bu dövlətlərin beynəlxalq səhnədə fəaliyyəti, qarşılıqlı hərəkətidir; Beynəlxalq münasibətləri isə, onların fikrincə, dövlət siyasəti yaradır: dövlət siyasəti belə münasibətlər üçün münbit zəmin kimidir. Xarici və beynəlxalq siyasət arasında da fərq vardır. Ölkənin xarici siyasətini XİN-yi yerinə yetirir: konkret, əməli siyasəti ilə - milli maraqlara cavab verən və müəyyən idarələrdə hazırlanan siyasəti həyata keçirməklə. Beynəlxalq münasibətlərin qeyri - dövlət iştirakçıları isə müxtəlif milli korporasiyalar, beynəlxalq mafioz qruplar, dini - konfessonal cəmiyyətlər - məsələn, katolik kilsə, islam və s.

Daxili siyasətlə xarici siyasətin qarşılıqlı əlaqəsi məsələsi də mühümdür; bu barədə müxtəlif beynəlxalq münasibətlər elmi sahəsindəki cərəyanlar: klassizm, siyasi idealizm, marksizm, onların yeni növləri olan neorealizm, neomarksizm, strukturizm və transmilli və s. arasında münasibətlər vardır.

Bəzən belə sual doğur: Beynəlxalq münasibətlər bir elm kimi müstəqildir, ya politologiyanın bir hissəsidir? Suala müsbət cavab verənlər var: siyasi qarşılıqlı əlaqələr beynəlxalq münasibətlərin ayrılmaz hissəsi olduğu üçün bu sahə ilə politologiya məşğul olur.

arasında olan iqtisadi, siyasi, ideoloji, hüquqi, diplomatik və başqa əlaqələr toplusudur. Başqa sözlə beynəlxalq fəaliyyətə cəlb olunmuş qüvvələr arasında yaranan münasibətlərdir. Daha geniş mənada isə xalqlar arasında yaranan münasibətlərdir. Beynəlxalq münasibətlər insan cəmiyyətini formalaşdıran inteqrasiya əlaqələrinin cəmi, toplusudur. R.Aron yazır ki, beynəlxalq münasibətləri idmanla, məsələn, futbolla müqayisə etmək olar. Kim nə vaxt istəsə qol vurur. Hakimə məhəl qoymur, oyunu pozur. Beynəlxalq münasibətlərdə də hansı ölkə bu münasibətlərin onun maraqlarına cavab vermədiyini gördükdə oyunun şərtlərini - beynəlxalq müqaviləni pozur, hətta bu "oyuna" nəzarət etməli olan hakimin - məsələn, BM'f-nin qərarlarına məhəl qoymur. Ermənistanın Dağlıq Qarabağ, Ermənistan - Azərbaycan münaqişəsinə dair məlum dörd qətnaməsinin heç birini yerinə yetirmədiyi kimi. Əgər R.Aron beynəlxalq münasibətləri dövlətlərarsı münasibətlər hesab edirsə, amerikan tədqiqatçısı D.Kaporazo beynəlxalq münasibətləi müasir dövrdə dövlətlər arasında deyil, siniflər, sosyal-iqtisadi qruplar və siaysi qüvvələr arasındakı münasibətlər hesab edir. Başqa amerika alimi S.Rozenau isə beynəlxalq münasibətləri dövlətlər, siyasi qruplar və təşkilatlararası münasibətlər deyil, ayrı-ayrı şəxslər arasındakı münasibətlər hesab edir. '

Hər halda beynəlxalq münasibətlərdə iki kriteriyadan birinə üstünlük vermək tendensiyası davam edir: biri - iştirakçıların spesifikası, o biri isə beynəlxalq münasibətlərin xüsusi təbiəti. Hər iki tərəf bir-birini qəbul etməsə də hər iki fikirdə öz müsbət cəhətləri və nöqsanları vardır. Bu iki fikirə əlavə olaraq məşhur fransız tədqiqatçısı M.Meri bura üçüncü bir kriteriya da əlavə edərək onu "lokalizasiya kriteriyası" adlandırıb. Bununla o, beynəlxalq münasibətləri təyin edən müqavilələrin kəsilməsində yaranan axınını məcmunu, ya da sərhədlərin kəsişməsindəki axının məcmusunu nəzərdə tutur. Belə münasibət suveren dövlətlərin bütün münasibət formalarım əhatə edir.

90-cı illərin əvvəllərində Şərqi Avropada baş vrmiş və

UbiraiiKOH IIA. **MoKAyHapoiUiı.ıe** OIHOIIICIIHH. **M..** 1996, cxp. 48-50.

magistral (dönməzlik tələb edən) və ikinci dərəcəli elmi tədqiqləri təyin etmək;

5. Kompleks kriteriyalara istinad etməklə beynəlxalq münasibətləri qurmaq. Məsələn, Kanada alimi Baqat Koraniyə görə “klassik” və “modernist” üsullardan çıxış edərək “liberal - plyuralist” və “materialis - strukturalist” münasibətlər sistemində siyasi realizm (Q, Morgentaiı, R. Aron), klassik marksizm (K. Marks, F. Engels, V. Lenin), neomarksizm (S Əmin, A. Frank, F. Kardozo) və s. nəzəriyyələrin əsas problemlərinin məğzini önə çəkib beynəlxalq münasibətlərə tətbiq etmək olar.

Beynəlxalq münasibətlər nəzəriyyəsinin nəzəri əsaslan haqqında ilkin olaraq ABŞ-da təşəbbüs göstərilərək elmi əsaslandırılmış çoxlu əməli işlər görülsə də beynəlxalq münasibətlər elm sahəsinin bu mühüm qol u-beynə 1 xalq münasibətlər nəzəriyyəsi haqqında faransız alimlərinin işləri daha təqbirə layiqdir.

80-ci illərin əvvəlində Avropada beynəlxalq münasibətlər nəzəriyyəsində Fransa alimləri köklü işlər görürlər. Sorbon universitetinin professoru M.Meri 1983-cü ildə yazır ki, Fransada beynəlxalq münasibətlər nəzəriyyəsi elmi cavan olsa da əsasən üç istiqamətdə irəliləmişdir:

1. “empirik-təsviri yanaşma” üsulu ilə (Şari Zorqbib, Serj Dreyfyus, Tilipp Moro-Defars və s. əsərləri).

2. Marksist nəzəriyyədən ruhlananlar (Pyer Fransa Qonidek, Şari Şomon, Nansi, Reyms).

3. Sosioloji yanaşma ilə (R.Aron).

***Beynəlxalq münasibətlərin obyekt və predmeti.***

Beynəlxalq münasibətlər ictimai həyatın müxtəlif sahələrini əhatə edir- iqtisadi münasibətlərdən tutmuş idman yarışlarına qədər sahələr bura daxildir. Bu sahələrdə dövlətlər, qeyri-dövlət subyektləri və şəxsi fərdlər fəaliyyət göstərir. Bəs bunları birləşdirən nədir? Bir mənalı demək olar-siyasi münasibətlər. Beynəlxalq münasibətlər dövlətlər və dövlətlər sistemi arasında əsas siniflər, ictimai, siyasi, sosyal qüvvələr, təşkilatlar və ictimai hərəkatlar

müstəviyə çıxır. Gah insan maraqı, gah da dövlət maraqı üstünlük təşkil edir.

O zamanlar bu və buna bənzər nəzəriyyələr ***idealist*** nəzəriyyələr adlanırdı.

XIX əsrin ortalarında ***marksizm*** adlanan nəzəriyyə yarandı: K. Marksa görə dünya tarixi kapitalizmlə başlayır, kapitalist istehsal üsulunun əsası vahid dünya bazarı yaradan böyük sənayedir, rabitə vasitələri və nəqliyyatın inkişafıdır. Burjuaziya dünya bazarından istifadə edərək nəinki bir kapitalist ölkəsində, həm də dünya miqyasında aparıcı sinfə çevrilir.

K. Marksa görə burada dövlət maraqları, xalq mənafei yox, kapital-burjuaziya sinfinin maraqları üstünlük təşkil edir.

Burada milli xüsusiyyətlər və xalq maraqlan arxa plana sıxışdırılır. Bu da sinfi mübarizəni-proletar ingilablarını aktuallaşdırır.

Beynəlxalq münasibətlər elmində əsas nəzəri paradiqmlər- yəni ***klassik^ idealistik*** və ***marksistik*** baxışlar indi də aktual nəzəri istiqamətlərdir.

Bunlar müasir beynəlxalq münasibətlər nəzəriyyəsinin təsnifatı problemlərini çətinləşdirir. Beynəlxalq münasibətlər nəzəriyyəsinin isə qolları müxtəlifdir:

1. Buraya coğrafi kriteriyalar, keçmiş Sovet və Çin beynəlxalq münasibətlər anlayışı, “üçüncü dünya” ölkələrinin münasibətləri anlayışı;
2. Bunların ümumi oxşarlığ və eyniyyətindən çıxış edənlər (siyasi realizmin qəbulu, tarixi fəlsəfənin oxşarlığları və s.), inteqrasiya nəzəriyyəsi, beynəlxalq təşkilat nəzəriyyəsi, beynəlxalq münasibətləri mövcud beynəlxalq sistemlər çərçivəsində qurmaq və s. nəzəriyyələri;
3. Beynəlxalq münasibətlərdə “ənənəvi” və elmi axtarışların birləşdirilməsi ilə bu və ya başqa nəzəriyyə üçün əsas olan problemləri üzə çıxarmaqla müasir beynəlxalq münasibətləri qurmaq nəzəriyyəsi tərəfdarlarının konsepsiyaları;
4. Mərkəzi problemləri aydınlaşdırmaqla onların içərisində

Beynəlxalq münasibətlər müstəqil elm sahəsidir. Buraya diplomatiya tarixi, beynəlxalq hüquq, iqtisadiyyat, hərbi strategiya və s. kimi sahələr daxildir. Burada beynəlxalq münasibətlər nəzəriyyəsi xüsusi yer tutur. "Beynəlxalq münasibətlərin nəzəriyyəsi həm çox qoca, həm də çox cavandır" (Stenli Xoffmann). Lap qədimdən müharibə və konfliktlərin səbəbini öyrənməyə cəhd göstərilib, xalqlar arasında əmin-amanlıq yaratmaq yolları axtarılıb. 1945-ci ildən sonra-xüsusilə 50-ci illərin sonu, 60-ci illərin əvvəllərindən beynəlxalq münasibətlərin nəzəriyyəsi elm sahəsi olaraq müstəqil sahə kimi fəaliyyət göstərən beynəlxalq münasibətlər elminin mühüm bir sahəsinə çevrilir.

Müstəqil suveren vahidlər-dövlətlər arasındakı münasibətlərin nəzəri əsasları haqqında ilk əsər e.ə. qədim yunan alimi Fukidid (e.ə. 471-401) tərəfindən "Səkkiz clddə Pelopones müharibəsi tarixi" traktatıdır. Afinalılarla lakedemonyanlar - iki güclü imperiya arasındakı uzun müharibələrdən bəhs edən əsərdir. İki suveren dövlətin hərbi çəkişmələri dövlət maraqlarından doğur, bu maraqlar da ayrı-ayrı şəxsiyyətlərin öz maraqlarının olmasından doğur. Sonralar Fukididin bu fikirlərini Nikollo Makiavelli (1469-1527), Tomas Qobbs (1588-1679), Emerika Vattel (1714-1767) və s. mütəfəkkirlər davam etdirmişlər. Sonralar bunu alman Kart fon Klauzevits daha da dərinləşdirir. T. Qobbsun nəzəriyyəsinin əsası budur ki, "insan öz təbiəti ilə eqoistdir, hakimiyyət və qüdrət hərisidir, insanlar bərabər olmadığı kimi onların istəkləri, varlanma ehtirasları da bərabər deyil. Ona görə də onlar "hakimi hamıya qarşı və hər kəsi hakimə qarşı qoymaqa çalışırlar". Bunu insanların bir- biri ilə də münasibətlərinin adı-təbii halı hesab edirlər. Bu nəzəriyəyə görə dövlətlər arasında da münasibətləri güc faktoru həll edir. Buna ***klassik*** nəzəriyyə deyilirdi.

Sonralar bu sahədə siyasi tarazlaşma ideyası yarandı. Məsələn, Qobbsdan fərqli olaraq isveç Vattel belə hesab edir ki, dünya dəyişilib, məsələn Avropa artıq siyasi sistem halını alıb. Artıq təkcə ayrı-ayrı Avropa dövlətlərinin deyil, Avropa birliyində yaşayan xalqların maraqları birləşir - dövlətlə xalqın mənafei bir

# IV BOLMƏ

# DİPLOMATİK FƏALİYƏT VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN NƏZƏRİ ƏSASLARI

***Beyfwlxalq miinasihəilər və onun nəzəri qaynaqlan və konseptual əsaslan ^ müasir diplomatlar üçün vacib məlumat mənbəidir. Bu sahədə nəzəri cəhətdən hazırlıqlı diplomat öz vəzifəsini daha ləyaqətlə yerinə yetirə bilər.***

Beynəlxalq münasibətlər ən qədim dövrlərdən hər bir insan, cəmiyyət və dövlətin həyatında mühüm yer tutmuşdur. Millətin, xalqın formalaşması, sərhədlərin yaranması, siyasi rejimlərin təkmilləşməsi, ictimai təbəqələrin yaranması, mədəniyyətlərin, elmin, incəsənətin irəliləyişi, iqtisadiyyatın inkişafı ticarət əlaqələrinə, maliyyə rabitələrinə, dövlətlərarası münasibətlərə, diplomatik əlaqələrə, sülh və müharibə kimi məsələlərə yenidən baxmağa -bir sözlə beynəlxalq münasibətlərə ehtiyac yaratdı. Bu məsələlərə əhəmiyyət gündən-günə daha çox artır: mal dövriyyəsi, resursların istifadəsi, qiymətlər, dəyərlərə yenidən baxışı-insanların ideallarının əhəmiyyəti artıqca beynəlxalq münasibətlərin də əhəmiyyəti artır.

“Soyuq müharibə”nin bitməsi və “dünya sosyalist sisteminin” dağılması ilə beynəlxalq aləmə yeni müstəqil dövlətlər çıxdı. Rusiyanın beynəlxalq aləmdə öz yerini təyin etmək cəhdləri dünya beynəlxalq münasibətlərinə yenidən baxmağı tələb etdi. Bunun son nəticəsi isə insanın taleinə təsir edən amillərdən ibarətdir.

Bütün bunlar beynəlxalq münasibətlərin nəzəri əsaslarım düzgün başa düşməyi və onun düzgün təhlil etməyi tələb edir.

**Beynəlxalq müna.sibətlər nəzəriyyəsinə aid bu və bundan sonrakı hissələr I tı.n** anKOB **n.A.“Mc>KiiyııapoAHi.ıe ornonıcıiHsı. M., 1996" əsəri və MAA-da oxudu^ıum nıüba/irələr əsasında yazılmışdır. Müəllir.**

8. Gömrük orqanlarının qarşılıqlı yardımı haqda Memorandum - 7 iyul 1997 və s.

***AR və NATO.***

1. Sülh naminə tərəfdaşlıq proqramı - 4 may 1994.

***AR və Bolqarıstan Respublikası arasında:.***

1. AR ilə Bolqarıstan Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında Müqavilə - 29 iyun 1995.
2. Ticarət - iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş - 29 iyun 1995.
3. Hava daşımaları haqqında Saziş - 29 iyun 1995.
4. Təslim etmə haqqında Müqavilə - 29 iyun 1995.
5. Cinayət işləri üzrə hüquqi yardım haqqında Müqavilə - 29 iyun 1995.
6. AR XİN-yi və Bolqarıstan Respublikası XİN-yi arasında Əməkdaşlıq haqqında Protokol - noyabr 1997. və s.

***AR ilə Rumıniya arasında.***

1. AR ilə Rumıniya arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında Bəyannamə - 2 iyul 1995.
2. Dostluq münasibətləri və Əməkdaşlıq haqqında Müqavilə - 27 mart 1996.
3. Niyyət Memorandumu - 27 aprel 1995.
4. Elm, təhsil, mədəniyyət və idman sahələrində əməkdaşlıq haqqında Saziş - 2 iyul 1995.
5. AR XİN-yi və Rumıniya XİN-yi arasında Əməkdaşlıq haqqında Protokol - 2 iyul 1995.
6. Ticarət - iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş - 2 iyul 1995.
7. Hava daşımaları haqqında Saziş - 27 mart 1996.
8. Beynəlxalq avtomobil daşımaları haqqında Saziş - 27 mart 1996 və s.

3. Hava əlaqələri haqqında Saziş Protokolu - 14 yanvar 1997.
4. Mədəni əlaqələr haqqında birgə Bəyannamə - 14 yanvar
997.
5. Azad yerdəyişmə haqqında Saziş - 14 yanvar 1997.
6. Ərzaq yardımı haqqında Saziş - 28 noyabr 1997.
7. Hava daşımaları haqqında Saziş - 1998 və s.

***Azərbaycan Respublikası - Norveç Krallıqı arasında.***

1. AR və Norveç Krallığı arasında Birgə Bəyanat - 24 aprel 1994.
2. Sərmayəni dəstəkləmə və qarşılıqlı müdafiə haqqında Razılaşdırılmış Protokol - 25 sentyabr 1996.
3. İkiqat vergiyə cəlb etməyə yol verilməməsi və gəlirlərə və kapitala görə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya - 24 aprel 1996.
4. Azərbaycan höküməti və Norveç Krallığı Sənaye və energetika nazirliyi arasında Memorandum - 21 noyabr 1994.
5. 21 noyabr 1994-cü il Memorandumunun həyata keçirilməsinə dair Protokol - 24 aprel 1996. və s.

***AR və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında.***

1. Dostluq və əməkdaşlıq haqqında Birgə Bəyannamə - 23 fevral 1994.
2. Təhsil, elm və mədəniyyət sahələrində Əməkdaşlıq haqqında Saziş - 23 aprel 1994.
3. Hava daşımaları haqqında Saziş - 23 fefral 1994.
4. Xarici siyasət idarələrinin əməkdaşlığı haqqında Memorandum - 23 fevral 1994.
5. Rabitə sahəsində Memorandum - 23 fevral 1994.
6. İnvenstisiyalann təşviqi və qorunması haqqında Saziş - 4 yanvar 1995.
7. Neft sənayesində iştirak haqqında Anlaşma Məramnaməsi- 23 may 1995.

əlaqələri üçün tarixi rolu böyükdür.

Beynəlxalq müqavilələrin bu gün də dövlətlər (ikitərəfli, çoxtərəfli müqavilələr) arasındakı münasibətlərdə əhəmiyyəti əvəzsizdir.

Azərbaycan Respublikasının bir sıra ikitərəfli (çoxtərəfli) müqavilələri ölkəmizin xarici əlaqələrində mühüm rol oynamışdır.

Beynəlxalq müqavilələrin hüquqi statusu 1969-cu il Vyana Konvensiyası ilə tənzimlənir. Bundan əlavə dövlətlər və beynəlxalq təşkilatlar arasında da müqavilələr hüququ haqqında 1986-cı ildə də Vyana Konvensiyası qəbul olunmuşdur. Hüquqi subyekt kimi əyər birinci Konvensiyada ***dövləthr*** çıxış edirlərsə, ikinci Konvensiyada ölkə ilə ***beynəlxalq dövlətlərarası təşkilatlar*** razılaşan tərəflər sayılırlar və ***qeyri-dövlət təşkilatlarından*** fərqli olaraq dövlət- lərarası beynəlxalq təşkilatlarla dövlətlərin bağladıqları müqavilələr tam hüquqlu beynəlxalq müqavilələr sayılırlar. Azərbaycan Respublikası da öz müvafiq qanununa uyğun olaraq beynəlxalq müqavilələr bağlayır, onları icra edir və onlara xitam verir. Bu qanun da elə belə adlanır: "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrin bağlanması, icrası və xitam edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu". Azərbaycan öz müstəqilliyinin bərpasından xüsusilə H.Əliyevin hakimiyyətə qayıdışından sonra Avropa dövlətləri, ABŞ, Beynəlxalq təşkilatlarla çox mühüm müqavilələr bağlamışdır ki, bunların Azərbaycanın Suverenliyi və müstəqil inkişafı üçün misilsiz əhəmiyyəti olmuşdur. Bu müqavilələrlə respublikamız öz müstəqilliyini əbədi və dönməz etmişdir. Bunlardan bəzilərini nəzərdən keçirək.

***Azərbaycan Respublikası ilə - Fransa Respublikası arasında:***

1. AR ilə FR arasında əməkdaşlıq haqqında protokol - 3 noyabr 1993.

2. AR ilə FR arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Müqavilə - 20 dekabr 1993.

**Ilacıycv M.L N.Norimımov vo Rusiya- Əfqanıstan diplomatik əlaqəlari (Diplomatın günd.aiiyindon) MAA -nm l-üıni Mocmııolori. Cildö, № I, 2004.**

saymaq olmaz. Onlar əsas müqaviləyə daxil olurlar və özləri də əsas müqaviləni təşkil edirlər. Avropada adi silahlı qüvvələrə dair 1990 il müqaviləsinə bir neçə silahlar və silahlı qüvvələr növlərinə aid olan protokollar, müqavilələr daxil edilmiş və qeyd olunmuşdu ki, "bu sənədlərin hər biri bu Müqavilənin ayrılmaz hissələridir" (maddə I.3.). Burada əlavələri bir neçə müstəqil müqavilə təşkil edir ki, onlar da mövcud müqavilənin eyni hüquqlu tərkib hissələri sayılırlar.

Əlavələrdə verilən sərhəd xətləri haqqındakı xəritələr həmişə mühüm əhəmiyyətli əlavələr hesab olunublar. Azərbaycan ilə Rusiya arasında sərhədlərin demorkasiya sxemi, Azərbaycan - Gürcüstan sərhədlərinə dair xəritələr və s. bu qəbilədəndir. Beynəlxalq Məhkəmənin 1999 il qərarına əsasən (bundan əvvəl 1986-cı il qərarı var) "əyər xəritələr Müqaviləyə əlavə olunursa onlar Müqavilənin ayrılmaz hissələridirlər".

Əlavələr bütün Müqaviləyə əlavə olunduğu kimi onun ayrı- ayrı fəsil, bölmə və maddələrinə də əlavə ola bilər. Əlavələr adətən əsas mətnlə bağlı olur və müqavilə ilə bərabər "öz ömrünü yaşayır".

Lakin elə maddələrə dair qərarlar vardır ki, həmin maddəyə öz əlavəsi olunur; məhz bu məsələyə aid qeydləri və s. buna misal ola bilər.

Müqaviləyə ***Əlavələrin imzalanması vacib deyil.*** Bununla belə imzaların olması arzuolunandır. Bu vacib deyil ki, müqaviləni imzalayanlar Əlavələri də imzalasınlar. Əlavələrdəki imzaları (əsas mətndən fərqli olaraq) möhürlə təsdiq etmək qəbul olunmamışdır. Onlar əsas mətnin ayrılmaz hissələri olduqları üçün buna ehtiyac yoxdur.

Müqavilələrin bağlanması üçün dövlətlər uzun və çətin proses keçməli olurlar. Bu cəhətdən Rusiya ilə Əfqanıstan arasında 1921TCİ ildə bağlanan dostluq, mehriban qonşuluq və qarşılıqlı yardım haqqında müqaviləsinə qədər keçilən çətin yola bir nəzər kifayətdir. N. Nərimanov 1919-cu ildən bu iki ölkə arasında belə vacib bir müqavilənin imzalanmasında böyük rol oynayır. İmzaya qədər çətin bir tarixi yol keçən bu prosesin Rusiya - Əfqanıstan diplomatik

(əlavənin) ratifikasiyasının vacibliyi qeyd olunubsa, onda belə düzgün fikir yaranır ki, tərəfiər üçün həmin bəyanat (əlavə) mövcud müqavilənin ayrılmaz hissəsi hesab olunur. Həmin Məhkəmənin fikrincə məzmunu və qəbul olunma zərurətinə görə birgə bəyanat (müqaviləyə əlavə olunmursa) interpretasiya (şərh etmə) xarakteri daşıyır. Elə bu vəziyyətdə də onu müqavilənin (hətta ayrıca bu göstərilməyibsə də) ayrılmaz hissəsi hesab olunmalıdır.

Əlavələr hətta müqavilənin ayrılmaz hissəsi hesab olunduqda da fərqli cəhətlərə malikdir. Əsas məsələlər əsas mətndə izah olunduğu üçün ikinci dərəcəli məsələlər əlavədə şərh olunur, ona diqqət yönəlir. Belə olduqda çox vaxt əsas mətni əsas götürür və onun ə.sasında əlavədəki məsələni şərh edirlər. Fikirlərdəki fərqlər ciddi olanda Müqavilənin əsas mətni birinci götürülür.

Müqavilələrdə qərarların siyasi avtoriteti də nəzərə alınmalıdır. Bəzən mühüm bir siyasi razılaşma haqqında əsas mətndə yox, əlavədə qərar qəbul olunur. Bu, o zaman edilir ki, bu mühüm siyasi məsələ haqqında tərəflərin fikri hər iki (ya çox) tərəfin ictimayyətindən gizli qalsın. 1927-ci ildə Polşa SSRİ ilə müqavilə bağlayarkən tələb edir ki, Millətlər Liqası sözünə istinad əsas mətndə göstərilsin. SSRİ bu beynəlxalq, təşkilatı tanımadığından buna etiraz edir. Lakin Kompromis nəticəsində tərəflər qərara gəlirlər ki, bu məsələ - yəni ad Əlavələrdə verilsin.

Əlavələrin növləri müxtəlifdir. Bunlar aşağıdakılar ola bilər: əlavə müqavilə, protokol, protokol imzalanması, əlavə maddələr, notalar mübadiləsi, coğrafi xəritələr, sərhədlərin təyini, cədvəllər və sxemlər, xüsusi təyinatlı qərar, siyahılar, məsul, ya vəzifəli şəxslərin şəxsi vəsiqələrinin surəti, və s. Əlavələrə həm də aşağıdakılar aid ola bilərlər: qeyri-hüquqi aktlar, qətnamələr, bəyanatlar. Bunların hamısının Müqavilənin şərhi üçün əhəmiyyəti vardır. Bəzən belə nümunəyə də rast gəlmək olur.: Beynəlxalq müqavilə Birgə Bəyanata əlavə şəklində qəbul olunur. Məsələn, 3 mart 1959 ildə Sovet - İngiltərə bəyannaməsinə mədəniyyət sahəsində Müqavilə əlavə olunmuşdu (adətən, göstərdiyimiz kimi, əksinə olur). Bəzən bir müqaviləyə bir neçə müqavilə əlavə olunur. Bunları heç əlavə də

hüquqi statusuna tamamilə uyğyndur. Məsələn, 1992-ci il Açıq Səma haqqında Müqavilədə deyilir: “Hər bir Əlavə və onunla bağlı olan Qoşmaca mövcud Müqavilənin ayrılmaz hissəsidir”. Əyər belə göstərilməsə Əlavələrin hüquqi gücü olmazdı.'

Bəzən müqavilələrin əsas mətnində göstərilir ki, “müqaviləyə əlavə” məfhumunun tam formal və hüquqi mənası vardır. Elə bir Müqavilə yoxdur ki, əyər onun əlavəsi varsa, bu barədə əsas mətndə qeyd olunmasın. Beynəlxalq müqavilələr təcrübəsində bunu təsdiq etməyən fakta, ya müqaviləyə az rast gəlinir.

Təcrübə göstərir ki, əlavənin mövcudluğu və onun hüquqi statusu bəzən əsas mətndə yox, əlavənin özündə verilə bilər. A.N.Talalayev göstərir ki, “Beynəlxalq Müqavilənin əlavəsi o zaman müqavilənin ayrılmaz hissəsi sayılır ki, bu haqda ya Müqavildə, ya da əlavə bu barədə xüsusi qeyd oluna”.

Müqavilədə əlavələr haqqında qərarın necə olması məsələsi müxtəliflik doğurur. Bəziləri hesab edirlər ki, əyər bu əlavənin hüquqi rolu əsas mətndə göstərilirsə, onda bu əlavə də hüquqi sənəddir.

Bəzilərinə görə isə əsas mətndə əlavənin adı çəkilibsə və ona istinad olubsa onda o, hüquqi məna kəsb edir. Əlavələr haqqında diplomatik təcrübə aşağıdakı qaydalara rəayət edir: Əyər müqavilənin ayrılmaz hissəsi sayılan əlavədə mühüm əhəmiyyətli qərarlar varsa onda əsas mətndə aşağıdakı formulirovka (cümlə, ifadə) verilməlidir: “Əlavə, mövcud Müqavilənin ayrılmaz hissəsidir”. Belə növlü əlavələr adətən tərəflər tərəfindən imzalanır. Əyər Əlavənin ratifikasiyası haqqında qeyd göstərilibsə onda bu əlavə Müqavilənin ayrılmaz hüquqi hissəsi adlanır və müqavilə ilə birlikdə hüquqi gücə malikdir.

Əyər əlavələr coğrafi xəritələr, cədvəllər, sənədlərin nümunələri və s-dən ibarətdirsə bu zaman müqavilə onlara yalnız istinad edir. Bunları müqavilənin bir hissəsi hesab etməyə kifayət edər. Adətən bu tipli əlavələri imzalamırlar. Beynəlxalq Məhkəmənin qərarlarının birində qeyd olunur ki, əyər Müqavilədə bəyanatın

**l.ukaşuk l.İ. Göstərilən əsəri səh.76**

kodifikasiyası ilə məşqul olan Beynəlxalq hüquq Komissiyasının protokolu ilə təsdiqlənmişdir. Müqavilələrdə tərəflərin təkcə imza atması kifayətdir və ona hüquqi status verir.

Beləliklə, yekun qərarlarının bütün mahiyətlərinə baxmayaraq, onlardan bəzilərinin qismən, ya da tam yoxluğu müqavilənin hüquqi qüvvəsinə mənfi təsir göstərmir. Onların olmaması bəzən əməldə müqavilənin işlənməsi, yerinə yetirilməsi üçün qismən çətinliklər, anlaşılmazlıqlar yarada bilir. Ona görə də yekun hissəsinin Müqavilənin yerinə yetirilməsi üçün lazım olan bütün elementlərin olmasının vacibliyini inkar etmək olmaz.

***Müqavih*** w ***əlavələr***

Beynəlxalq münasibətlərin inkişafı onların genişlənməsinə və intensifikasiyasına səbəb olur. Bu isə dünya ölkələrarası münasibətlərdə daha çox dəqiqlik tələb edir, onların düzgün tənzimlənməsini ön plana çəkir. Problemlərin həlli vasitələrindən biri də ***əlavələrdir.*** Bu gün əlavələrin rolunun yüksəldiyini onunla izah etmək olar ki, beynəlxalq müqavilələrin əlavələri və müxtəlifliyi də (həcmə və s. görə) artır.

Müqaviləyə əsas mətləblər daxil edilir; əlavə məsələlər, daha konkretləşdirən mövzular və məsələlər, dəqiq qərarlar isə əlavələrdə verilir. Bu imkan verir ki, müqavilənin əsas mətni çox yüklənməsin, əsas mətn ümumi məsələləri əhatə edir. Müəyyən, konkret qərarlarla əsas məsələlər əsas mətndə ifadə olunur. Əsas məzmun isə daha geniş şərhi ilə əlavələrdə verilir.

Bəzən müqavilə sadəcə protokol qərarlarından ibarət olur, əsas mətləb isə əlavələrdə şərh olunur. Məsələn, dənizdə axtarışlar və xilasetmələrə dair 1979 il Beynəlxalq Konvensiyanı buna misal göstərmək olar. Buna az təsadüf olunur.

Çox vaxt əlavələr müqavilənin mütləq qüvvəsi statusuna malik olur. Lakin bu məsələ avtomatik, mexaniki şəkildə deyil, tərəflərin açıq-aşkar meyli və arzusu ilə həyata keçirilir. Ya əlavədə, ya da əsas mətnin özündə göstərilir ki, əlavə (və ya əlavələr) müqavilənin ayrılmaz hissəsidir, buradakı müddəalar müqavilənin

Müahidələr öz müqəddəratını təyin etmək hüququnun və onunla bağlı xalqlarının öz təbii sərvətlərinə azad sahib olmaq hüququnun təsbit edilməsi - mütərəqqi qüvvələrin böyük nailiyyətidir.

Müahidələrə əsasən, dövlətlər özləri tərəfindən görülmüş tədbirlərin və müahidələrdə nəzərdə tutulmuş hüquqların həyata keçirilməsi sahəsində əldə edilmiş tərəqqiyə dair hesabatlar təqdim etməyi öhdələrinə götürürlər. Məruzələr BMT-nin İqtisadi və Sosial Şurasında nəzərdən keçirilir; bu məqsədlə bu Şura çərçivəsində xüsusi işçi qrupu fəaliyyət göstərir. (“DEL”).

**İNSAN HAQLARINA DAİR ÜMUMİ BƏYANNAMƏ** (1948). BMT Baş Məclisi tərəfindən qəbul edilmiş, BMT Nizamnaməsinin insan haqqlarına dair müddəaları nəzərə alınmaqla işlənib hazırlanmış və bütün xalqların və dövlətlərin həyatında zəruri olan sənəd kimi 10.XI1.1948-də elan edilmişdir.

Bəyannamə insan haqlarına dair ilk xüsusi beynəlxalq sənəddir; burada insanın əsas hüquq və azadlıqlarına hamılıqla hörmət olunmasının zəruriliyi qeyd edilir, onların mündəricəsi verilir: bütün insanların hər hansı şəkildə ayrı-seçkiliyə məruz qalmamaqla bərabərliyi, yaşamaq, sərbəstlik və şəxsi toxunulmazlıq hüququ, şərəf və ləyaqətinin, mənzilinin toxunulmazlığı hüququ, hər bir şəxsin hüquqlarının məhkəmədə qərəzsiz müdafiə olunması hüququ, mülki və siyasi hüququ, vətəndaşlıq və sığınma hüququ, şəxsi əmlaka malikolma hüququ, izdivac, fikri sərbəst bəyan etmək hüququ, vicdan, din və əqidə azadlığı, dinc yığıncaqlar keçirmək və assosiasiyalar yaratmaq hüququ, gizli səsvermə zamanı hamılıqla bərabər şəkildə seçkilərdə iştirak etmək hüququ, işləmək hüququ və bərabər əməyə görə bərabər zəhmət haqqı almaq hüququ, həmkarlar təşkilatları yaratmaq, istirahət etmək, sosial təminat, təhsil almaq və cəmiyyətin mədəni həyatında iştirak etmək hüququ.

Bəyannamə dövlətlər üçün tövsiyə xarakteri daşıyır. İştirakçı dövlətlər üçün hüquqi baxımdan icbari olan İnsan haqlarına dair 1966 il Müahidələri bu Bəyannamə əsasında işlənib hazırlanmışdır.

və onlara görə cəza verilməsinə dair 1973 il Konvensiyanın hazırlanmasında iştirak etmişdir. (“DEL”).

**İNSAN HAQLARI KOMİTƏSİ.** Mülki və siyasi hüquqlara dair 1966 il Beynəlxalq Müahidənin müddəalarına müvafiq olaraq yaradılmışdır. İnsan haqları komitəsi 18 nəfər üzvdən ibarətdir; üzvlər sözügedən müahidənin iştirakçısı olan ölkələr tərəfindən öz vətəndaşları arasından 7 il müddətinə seçilirlər.

İnsan haqları komitəsinin üzvləri öz vəzifələrini dövlətlərin təmsilçiləri kimi deyil, fərdi şəxs qismində yerinə yetirirlər. İnsan haqları komitəsinin özünəxas prosedura qaydaları vardır. Üzvlərin seçilməsində ədalətli coğrafi bölgüyə, habelə “müxtəlif formalı sivilizasiyaların və başlıca hüquqi sistemlərin” təmsilçiliyinə diqqət yetirilir.

İnsan haqları komitəsi müahidə tərəfindən tanınan hüquqlarının həyata keçirilməsi istiqamətində gördükləri tədbirlər haqqında məruzələrini öyrənib təhlil edir.

İnsan haqları komitəsi ildə 3 sessiya keçirir və BMT-nin İqtisadi və Sosial Şurası xəttilə BMT Baş Məclisinə öz işi barədə illik hesabat verir.

**İNSAN HAQLARINA DAİR 1966-cı İL MÜAHİDƏLƏRİ.** İqtisadi, sosial və mədəni hüquqlara dair beynəlxalq müahidəni və mülki-siyasi hüquqlara dair beynəlxalq müahidəni ehtiva edir. BMT Məclisi tərəfindən 16.XI.l996-da qəbul edilib. Beynəlxalq müqavilə gücündə olan bu müahidələr insan haqlarına dair 1948 il İnsan haqlarına dair Ümumİ Bəyannaməsi ilə müqayisədə irəliyə doğru çox mühüm addımdır., çünki Ümumi Bəyannamə dövlətlərin və xalqların yerinə yetirməyə cəhd göstərməli olduqları vəzifələri yalnız bəyan etməklə kifayətlənirdi.

Müahidələr insan haqları sahəsində digər sazişlər kimi bilavasitə fərdlərə hüquqlar vermək təəhüdlərini müəyyən edir, hər bir iştirakçı dövlət tərəfindən müvafiq milli qanunvericilik və digər tədbirlərin görülməsi ilə həyata keçirilir.

vəziyyət Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə tətbiq edilir. Həmin fərman Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilməlidir. 2005-ci ildən Azərbaycanda Fövqəladə Hallar Nazirliyi yaradılmışdır.

İNSAN HAQLARI KOMİSSİYASI. BMT-nin İqtisadi və Sosial Şurasının (EKOSOS) yardımçı orqanı; 15.11.1946 ildə təsis edilib.

İnsan haqları komissiyası 43 dövlətin nümayəndələrindən təşkil olunub. Nümayəndələr EKOSOS-un sessiyalarında 3 il müddətində seçilirlər. İnsan haqları komissiyası ildə 1 sessiya keçirir. Onun nəzdində ayrıseçkiliyin qarşısının alınması və azlıqların müdafiəsi üzrə yardımçı komissiya işləyir və onun tərkibi komissiyanın sessiyalarında seçilən və fərdi mövqedən çıxış edən ekspertlərdən təşkil olunur. İnsan haqları komissiyası BMT Nizamnaməsi prinsiplərinə ciddi əməl etmək əsasında insan haqlarına hörmətlə yanaşmanı təşviq və təbliğ etmək məqsədilə yaradılıb. Mühüm vəzifəsi hegemonluq, irqçilik və təcavüzkarlıq hallarına rəvac verilməsilə insan haqqları və azadlıqlarının kobudcasına və kütləvi şəkildə pozulmasına qarşı mübarizə aparmaqdır. İnsan haqlarının qorunması üzrə EKOSOS-a və BMT Baş Məclisinə tövsiyə və hesabatlar vermək, ilk növbədə, bu sahədə beynəlxalq konvensiya layihəlri hazırlamaq da İnsan haqları komissiyasının səlahiyyət dairəsinə daxildir.

İnsan haqları komissiyası BMT BM tərəfindən qəbul olunmuş 1948 il İnsan haqlarına dair Ümumi Bəyannaməsinin layihəsini işləyib hazırlamış. Vətəndaş və siyasi hüquqlar barədə Beynəlxalq Müahidənin, İqtisadi, sosial və mədəni hüquqlara dair Beynəlxalq Müahidənin, Uşaq hüquqlarına dair 1959 il Bəyannaməsinin, 1963 il İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair Bəyannaməsinin, 1966 il İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair Beynəlxalq Konvensiyanın, 1968 il Hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə müddətin tətbiq olunmaması haqqında Konvensiyanın, Aparteid cinayətlərinin qarşısını almağa

Dünya təcrübəsində bir neçə dövlət və hökümət başçılarının, xarici işlər nazirlərinin, digər rəsmi dövlət nümayəndələrinin birgə Bəyannamə ilə çıxış etmə halları mövcuddur. Dövlətlərin və hökümətlərin tanınması Bəyannamə formasında həyata keçirilə bilər. Təcrübədə beynəlxalq müqavilələrin Bəyannamə formasında bağlanması hallarına rast gəlinir.

FÖVQƏLADƏ VƏZİYYƏT. Fövqəladə vəziyyət inzibati hüquqi rejim növlərindən biri olmaqla qanunvericiliklə nəzərdə tutulmuş hallarda inzibati hüquqi tədbirlərinin tətbiqini nəzərdə tutur. Əhəmiyyəti nəzərə alınmaqla, Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsi xüsusi olaraq fövqəladə vəziyyət rejiminə həsr edilmişdir. Həmin maddəyə görə fövqəladə vəziyyət rejiminin tətbiq edilməsi hallarını iki növə bölmək olar: insan iradəsindən asılı olmayan fövqəladə hallar və insan idarəsi ilə bilavasitə əlaqəsi olan fövqəladə hallar.

İnsan iradəsindən asılı olmayan hallar aşağıdakılardır:

1) təbii fəlakətlər;
2) epidemiyalar;
3) epizootiyalar;
4) böyük ekoloji və başqa qəzalar;

İnsan iradəsi ilə bilavasitə əlaqəsi olan hallar aşağıdakılardır:

1) Azərbaycan Respublikasının ərazi bütövlüyü pozulduqda;
2) dövlətə qarşı qiyam baş verdikdə;
3) dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə;
4) zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda;
5) vətəndaşların həyatı və təhlükəsizliyi tələb etdikdə;
6) dövlət təsisatlarının nonnal fəaliyyəti üçün qorxu törədən münaqişələr meydana gəldikdə.

Hal-hazırda fövqəladə vəziyyət rejiminin tətbiqi ilə əlaqədar hüquqi münasibətlər Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 04.11.1992 ildə qəbul edilmiş “Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində Fövqəladə

BEYNƏLXALQ NƏZAKƏT. Xarici dövlətlər və onların vətəndaşlarına mehriban qonşuluq, səmimi dostluq, qonaqpərvərlik, ehtiram göstərək, habelə rəsmiyyətdən yan keçərək imtiyaz və üstünlüklər vermək aktıdır. Bu hərəkət beynəlxalq hüquq normalarının tələblərindən irəli gəlmir, sadəcə olaraq, dövlətin xoş niyyət və məramını ifadə edir.

Beynəlxalq nəzakət aktları analoji zəruriyyot doğurmur, lakin çox vaxt belə hərəkətlər qarşılıqlı olur və yerinə düşür.

Beynəlxalq nəzakət aktlarına riayət olunmaması qeyri-səmimi hərəkət kimi yozula bilər, lakin beynəlxalq öhdəliklərin pozulması hesab olunur və dövlətin üzərinə məsuliyyət qoymur (Beynəlxalq hüquqi məsuliyyət).

Beynəlxalq nəzakət dedikdə həm də hər bir suveren dövlətin ***bayrağı, himni*** və ***gerbinə*** olan ehtiram nəzərdə tutulur. Bu isə beynəlxalq hüquqa əsaslanan protokol tələbidir.

BƏYANAT, (lat.flfec/flfro-elan edirəm). Dövlətin daxili və xarici siyasət prinsiplərini elan etdiyi və yaxud konkret məsələlərə dair öz mövqeyini bildirdiyi birtərəfli, ikitərəfli və ya çoxtərəfli sənəddir. Əksər hallarda ikitərəfli və çoxtərəfli Bəyanat imzalanır, lakin iştirakçıların istəyi ilə imzalanmadan da qəbul edilə bilər. Bir neçə dövlət, hökümət başçılarının, xarici işlər nazirləri və digər rəsmi dövlət xadimlərinin, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində birgə bəyanat ilə çıxış etmək praktikası mövcuddur. Dövlət və hökümətlərin tanınması da bəyanat formasında həyata keçirilə bilər. Praktikada beynəlxalq müqavilələrin də Bəyanat formasıyla bağlanmasına rast gəlinir.

BƏYANNAMƏ. Birtərəfli, ikitərəfli və ya çoxtərəfli bəyanat olub, dövlətlər adından onların daxili və xarici siyasətinin əsas prinsiplərini ifadə edir, yaxud konkret məsələyə dair münasibətlərini əks etdirir. Bəyannamə əksər hallarda imzalanır, lakin iştirakçıların arzusundan asılı olaraq imzasız da qəbul edilə bilər.

orqanlarında öz hüquqlarını əsaslandırarkən həmin sənədə istinad etsinlər. Qeydiyyat BMT, Beynəlxalq Mülki Aviasiya Təşkilatı və digər beynəlxalq təşkilatların katibliklərində aparılır. BMT-də qeydiyata alınan müqavilələr xüsusi məcmuələrdə (United Nations Treaty Series - UNTS) nəşr edilir və bu yolla da bütün beynəlxalq birliyin nəzərinə çatdırılır.

BEYNƏLXALQ MÜLKİ AVİASİYA TƏŞKİLATI (İKAO). Beynəlxalq hökümətlərarası təşkilat, BMT-nin ixtisaslaşdırılmış idarəsidir. 1944 ildə Çikaqoda beynəlxalq konfransda təsis edilib. Konfransda beynəlxalq mülki aviasiya haqqında konvensiya işlənib hazırlanıb. Həmin konvensiya təşkilatın nizamnamə müddəalarını ehtiva edir. Dövlətin Çikaqo Konvensiyasında iştirakı onun eyni zamanda İKAO-ya üzvlüyünü təsdiq edir. Konvensiya qüvvəyə minənədək (4.IV.1947) beynəlxalq müvəqqəti mülki aviasiya təşkilatı (PİKAO) fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası 1993 ildən bu təşkilatın üzvüdür.

İKAO-nun vəzifəsi - hava nəqliyyatının təhlükəsiz, müntəzəm və qənaətli istismarını təmin etməklə, beynəlxalq mülki aviasiyanın inkişafına yardım göstərməkdir. İKAO mülki aviasiya sahəsindəki dünya təcrübəsini ümumiləşdirir; xüsusilə uçuş və onların idarə olunması qaydalarına, təyyarə və aerodromların təchizatına, radionaviqasiya, metereoloji və axtarış - xilasetmə xidmətlərinə, habelə uçuş heyətlərinə şəhadətnamələrin verilməsinə dair standartlar və tövsiyələr işləyib hazırlayır. Standartlar və tövsiyələr Çikaqo Konvensiyasına əlavələr kimi qəbul olunur.

İKAO-nun ali orqanı - üç ildən bir çağırılan Məclis, daimi orqanı isə 33 ölkənin nümayəndələrindən ibarət Şuradır. İKAO-nun Avropa (Paris), Yaxın və orta Şərq və Şimali Afrika(Qahirə), Uzaq Şərq və Sakit okean (Banqkok), Cənubi Amerika (Lima), Şimali Amerika və Karib dənizi hövzəsi (Mexiko), Qərbi Afrika (Dakar) və Şərqi Afrika (Nayrobi) üzrə 7 regional bölməsi vardır.

Qərargahı Monrealdadır.

yəndəlik, hətta onun ən yüksək forması olan səfilik açmağa hazır olduğunu bildirir. De-fakto tanınma da həmçinin rəsmi xarakter daşıyır, lakin de-yuredən siyasi və iqtisadi münasibətlərin məhdud səviyyəsi və həcmi ilə fərqlənir, yəni de-fakto tanınma, o hallarda tətbiq edilir ki, tanıyan dövlət tanınan tərəfin həyati qabiliyyətinə və səmərəliliyinə tam əmin olmur, natamam, yarımçıq əlaqələr qurur.

Bir ölkə hökümətinin onun tərəfindən rəsmən tanınmayan digər ölkənin höküməti ilə bu və ya digər şəkildə əlaqə yaratması qeyri-rəsmi tanınma deməkdir. ("DEL").

BEYNƏLXALQ MÜQAVİLƏLƏR HÜQUQUNA DAİR VYANA KONVENSİYASI (1969). 23.V. BMT tərəfindən qəbul olunub. 27.1.1980 ildə qüvvəyə minib. 50-dən çox dövlət Vyana Konvensiyasının iştirakçılarıdır.

Vyana Konvensiyası müqavilələrin hüququna dair beynəlxalq hüquq normalarını ümumiləşdirir, habelə hazırda beynəlxalq aləmdə mövcüd olan təcrübə və ənənələrdən irəli gələn bir sıra yeni normaları ehtiva edir.

Vyana Konvensiyasında müqavilə hüququnun ən müxtəlif məsələləri - müqavilənin bağlanma qaydaları, üçüncü ölkələr üçün beynəlxalq müqavilələrin əhəmiyyəti, ümumi beynəlxalq hüququn imperativ norması ilə ziddiyyət təşkil edən müqavilənin qeyri- qanuniliyi, müqavilə bağlanarkən mövcud olmuş şəraitin kökündən dəyişməsinin həmin müqavilənin qanuniliyinə təsiri, çoxtərəfli müqavilələrə düzəliş hüququ, müqavilənin qüvvədən düşdüyünü təsdiq edən şərtlər, iştirakçılardan biri tərəfindən müqavilənin pozulması ilə bağlı yaranan mübahisələr, çoxtərəfli müqavilənin depozitariya (müqavilənin əslinin mühafizə üçün verilməsi) funksiyaları öz əksini tapır.

BEYNƏLXALQ MÜQAVİLƏLƏRİN QEYDİYYATI. Beynəlxalq hökümətlərarası təşkilat tərəfindən tərtib edilən xüsusi beynəlxalq müqavilələr siyahısına salınma; qeydə alındıqdan sonra müqavilə bağlayan tərəflərin haqqı vardır ki, belə təşkilatın

BURAXILIŞNAMƏ. Bir sıra ölkələrdə diplomatik nümayəndə akkreditə olunduğu ölkədən gedəndən sonra, həmin nümayəndənin akkreditə olunduğu ölkənin başçısı (Dövlət başçısı, hökümət başçısı) diplomatik nümayəndəni akkreditə etmiş ölkə başçısına buraxılışnamə adlanan sənəd göndərir.

Adətən buraxılışnamənin preambulasında diplomatik nümayəndənin iki ölkə arasında diplomatik əlaqələrin möhkəmləndirilməsində və inkişafında rolu qeyd olunur; bəzən buraxıhşnamə dövlət başçısının diplomatik nümayəndəni "buraxdığı" haqqında cümlə ilə bitir, buraxıhşnaməyə cavab vermək qəbul olunmamışdır. Buraxıhşnamə də Ehtimadnamə və geri çağırılma sənədi kimi dövlət gerb nişanı olan xüsusi blankda çap olunur; buraxılışnaməyə möhür vurulmur. Dövlətlərin adı Konstitusiyaya müvafiq yazılır (İran İslam Respublikası, Rusiya Fedirasiyası və s.), ölkə başçısının adı, soyadı və atasının adı həmin ölkədə qəbul olunmuş ənənəvi qaydaya riayət olunmaqla yazılır. Dövlətlərin rəsmi orqanlarının adlarının yazılmasında da bu tələblərə riayət olunur. Bəzi dillərdə bu sənədin adı cəm halında olsa da (məs; rus dilində "otpusknıyc qramotı") əslində təkdir və ondan bir dənə yazılır.

BEYNƏLXALQ HÜQUQİ TANIMA. Rəsmi və ya qeyri- rəsmi, tam və ya natamam, daimi və ya müvəqqəti münasibətlər qurmaq məqsədilə yeni dövlətlərin və ya hökümətlərin, yaxud digər tanıma subyektlərinin dövlətlər tərəfindən tanınması formaları vardır. Belə tanımalar müxtəlif ünvanlara şamil edilirdi: dövlətə, hökümətə, üsyan edən, yaxud döyüşən tərəfə, milli-azadlıq orqanlarına, müqavimət hərəkatı orqanlarına və s.

Rəsmi tanınmanın ən geniş yayılmış üsulu - mövcud dövlətin yeni yaranan dövlətlə diplomatik münasibətlər qurması və ya qurmağa razılıq verməsidir. Beynəlxalq hüquqi tanımanın ənənəvi olaraq iki forması var: ***de-yure*** və ***de-fakto.*** De-yure-qəti şəkildə rəsmi tanınmadır, yəni tanıyan dövlət tanınan tərəflə tam həcmdə diplomatik əlaqələr qurmağa - həmin ölkədə diplomatik nüma-

5) Fəxri attaşe diplomatik karyera yolunu seçən, lakin hələ ştata keçirilməyən və məvacib almayan şəxs. Bəzi xarici dövlətlərin təcrübəsində Fəxri attaşelər diplomatik nümayəndəlikdə təcrübə keçmək hüququna malik olur, təcrübədən sonra ştata götürülə bilərlər.

Bütün qisimdən olan attaşelər diplomatik korpusun üzvləri tərkibinə daxil edilir, diplomatik imtiyazlardan bəhrələnirlər.

BAŞSAĞLIĞI. (diplomatik təcrübədə). Ölkəyə üz vermiş bədbəxt hadisə: dövlət başçısının, hökümət başçısının və digər görkəmli şəxsiyyətlərin ölümü, böyük dağıntılara və insan tələfatına gətirib çıxaran təbii fəlakət və qəza ilə əlaqədədar təəssüf hissinin rəsmi şəkildə ifadəsidir. Başsağlığı teleqramlar, məktublar, müraraciətlər formasında bildirilir.

Dövlət başçısının ölümü ilə bağlı başsağlığı göndərməklə bərabər, matəm mərasimlərində (o cümlədən dini ayinlərdə) xarici dövlətlərin xüsusi olaraq gəlmiş nümayəndələri iştirak edirlər. Onlar ölkə rəhbərliyinə şifahi şəkildə başsağlığı verirlər. Başsağlığını matəm elan edən ölkəyə diplomatik korpus bəyan edir. Bunu diplomatik nümayəndəliklərin başçıları hərə ayrı- ayrılıqda, yaxud diplomatik korpus adından - diplomatik korpusun duayeni yerinə yetirir. Xarici İşlər Nazirliyinə müvafiq notalar (şəxsi, verbal), yaxud aşağı sol küncündə “p.c” (pour condoléance -“başsağlığı verilir”) yazılmış vizit kartları göndərilir. Nümayəndə heyətləri və diplomatik korpus mərhumun tabutu üstünə əklil qoyurlar.

Səfirliklərin binasına sancılmış dövlət bayraqları matəm günləri yarıya qədər endirilir.

Matəm elan edən ölkənin akkreditə olunduğu diplomatik nümayəndəliyi nota ilə hökümətə, diplomatik korpusa baş vermiş hadisə barədə, başsağlığı kitabının açılması vaxtı və yeri barədə məlumat verir, öz səfirliyinin binasında sancılan bayrağı yarı endirir, nümayəndələrin və diplomatların başsağlığı vermək üçün qəbulunu təşkil edir. Başsağlığı mərasimində iştirak edənlər haqqında yerli televiiziya, radio və digər KİV-də məlumat verilir.

etmişdi. Küveyt ABŞ diplomatı B. Qrouva aqreman verməkdən imtina etmişdir (1983).

AD HOC. (lal. Hazırkı hal üçün, müəyyən məqsəd üçün, məxsusi). Diplomatiyada müvəqqəti hal daşıyan, qarşıya qoyulan məxsusi məsələləri yerinə yetirmək üçün nəzərdə tutulan diplomatik missiyaların, xüsusi nümayəndələrin fəaliyyətini tənzimləyən normalardır. Ad hoc arbitrajına, yaxud ad hoc münsiflər məhkəməsinə müraciət edərkən tərəflər hər bir konkret halda, onlar arasında baş verən mübahisəni həll etmək üçün arbitraj, ya da məhkəmə orqanı yaradırlar. Belə yolla yaradılan məhkəmə qərar çıxardıqdan sonra öz fəaliyyətini dayandırır.

ATTAŞE, (fr. ***Attache*** - təhkim olunmuş). Diplomatik işçinin vəzifəsi, yaxud rütbəsidir. Beynəlxalq təcrübədə aşağıdakı attaşe dərəcələri tanınır:

1) Hərbi, hərbi dəniz, hərbi hava attaşeləri - qəbul edən ölkədəki hərbi idarənin nəzdində göndərən ölkənin hərbi idarəsinin təmsilçiləri. Onlar, eyni zamanda diplomatik nümayəndənin hərbi məsələlər üzrə müşavirləridirlər. 2) Xüsusi attaşelər - öz ölkəsinin sənaye, kənd təsərrüfatı, əmək, maliyyə, ticarət, mədəniyyət, elm və s. üzrə müxtəlif idarələrinin təmsilçiləri. Belələri, adətən, peşəkar mütəxəssislər olub, qəbul edən ölkədə öz sahələri üzrə məsələləri öyrənmək, təmsil etdikləri idarələrlə əlaqələr saxlamaq və onları inkişaf etdirməklə məşquldurlar 3) Mətbuat məsələləri üzrə attaşe (press- attaşe) diplomatik nümayəndəlikdə mətbuat və informasiya məsələləri ilə məşğul olan məsul işçi. Mətbuat attaşi qəbul edən ölkənin dövri mətbuatının müvafiq xülasəsini hazırlayır, mərkəzə göndərir, ayrı-ayrı aktual və cari məsələlərə dair mətbuat konfransları keçirir, ikitərəfli əlaqələrə dair mövqe açıqlamaları ilə çıxış edir, diplomatik nümayəndəliyin xüsusi dövri bülletenini buraxır.

4) Diplomatik attaşe - Xarici İşlər İdarəsinin mərkəzi aparatının, yaxud diplomatik nümayəndəliyinin kiçik diplomatik işçisidir.

Aqremana cavab müddəti - sorğudan aqreman alınanadək - bir növ iki ölkə arasında münasibətlərin göstəricisidir. Aqreman cavabı gecikdirən dövlətə də eyni ilə cavab verilir. Aqreman alınan zaman namizəd persona grata - arzu olunan şəxs olur və onun təyin olunması haqda rəsmi məlumat dərc olunur. Mənfi cavab alınarsa, o persona non grata adlanır və təyinat baş vermir. Aqreman ancaq diplomatik nümayəndələr üçün (səfirlər, diplomatik nümayəndə, işlər müvəkkili) tələb olunur, digər diplomatik işçilərin təyin olunmasına aqreman tələb olunmur. Aqreman sorğusuna rəsmi imtina şəklində mənfi cavab vermək qəbul edilməmişdir. Cavabın gecikdirilməsi hökümətin həmin şəxsi səfir kimi qəbul etmək istəməməsinə dəlalət edir, bir qayda olaraq bu şəxsin namizədliyi geri götürülür. Belə halda hökümət retorsiya qaydasında səfir vəzifəsini uzun müddətə boş saxlayır və səfirliyə müvəqqəti işlər müvəkkili (vəkili) başçılıq edir ki, bu da dövlətlər arasında münasibətlərin zəifləməsi hesab olunur.

Aqreman verməli olan dövlət aqreman tələb edən dövlətə aqremandan imtina səbəbləri haqda məlumat veməlİ deyil. Müvafiq ölkənin diplomatik nümayəndəliyinə diplomatik işçinin təyin olunduğu ölkəyə getməsi üçün viza verilməsi xahişi ilə no'a göndərir. Onun alınması kifayətdir ki, diplomatik işçi təyinat yerirə gələ və təyin olunduğu ölkədə işləyə bilsin.

Ayrı-ayrı ölkələrin təcrübəsi hərbi, hərbi-dəniz və hərbi-hava attaşesinin təyin olunması ilə əlaqədar olaraq müvafiq diplomatik nümayəndəliyin təyinat haqda xəbərlə, təyin olunmuş şəxs haqqında bioqrafik məlumatlarla, hərbi ştatın təyin olunması haqda xəbərdarlıq xahişi və ölkəyə gəlmək üçün vizanın verilməsi xahişi ilə xarici işlər nazirliyinə nota göndərilməsini tələb edir.

Müvəqqəti işlər müvəkkilinin təyin olunması üçün diplomatik nümayəndənin xarici işlər nazirinin adına şəxsi məktub göndərilir. Müvəqqəti işlər müvəkkilinin təyin olunmasına aqreman tələb olunmur. Diplomatiya tarixində aqreman verilməməsi faktları olmuşdur. Məsələn, I Nikolay ingilis diplomatı ser Stretford - Kanniqi Peterburqda ingilis .səfiri olaraq qəbul elməkdən imtina

# V BOLMƏ

# BƏZİ DİPLOMATİK TERMİNLƏRİN İZAHI

Diplomatik terminlərin diplomatlar üçün vacibliyini nəzərə alaraq onlardan ən mühümlərinin şərhini əlifba sırası ilə qıssa şəkildə nəzərə çatdırmağı vacib saydıq. Bu terminlərin əksəriyyəti müəllif tərəfindən artıq oxuculara təqdim edilmişdir.'

AQREMAN. (fr. ***agrzer - təqdim etmək).*** Bir dövlətin başqa dövlət tərəfindən onun ölkəsinə müəyyən bir şəxsin diplomatik nümayəndə kimi təyin olunmasına verdiyi razılıqdır. Aqreman Xarici işlər nazirliyi vasitəsilə, adətən diplomatik nümayəndə təyin olunan ölkənin ***diplomatik nümayəndəliyi*** tərəfindən tələb olunur. Aqreman sorğusu zamanı vəzifəyə namizəd şəxs haqqında xaricİ işlər nazirliyi bəzi bioqrafıq məlumatlar (anadan olduğu il, ailə vəziyyəti, təhsili, vəzifəsi və ya rütbəsi, elmi dərəcəsi, xidməti fəaliyyətinin başlıca mərhələləri) verilir. Bu məlumatlar bir vərəq kağızda imza, tarix və möhür olmadan yazılır və nəzərdə tutulan ölkənin XİN-ə göndərilir

Bəzi hallarda aqreman sorğusu nazirlik tərəfindən verbal nota göndərilməklə yerinə yetirilir. Aqreman sorğusuna cavab da bu yolla verilir (şifahi və ya yazılı nota şəklində). Aqreman tələb olunan ***səfir*** diplomatik münasibətlər yaradılan ölkəyə ilk dəfə gedirsə, onda belə sorğu üçüncü ölkədəki səfirlik vasitəsilə edilir.

Beynəlxalq təcrübə həm aqreman sorğusu faktını, eləcə də aqremandan ehtimal olunan imtina faktını sirr olaraq saxlamağı tələb edir. Aqreman sorğusuna mümkün qədər tez cavab verilməlidir. Aqremannın hansı müddətə alındığına da diqqət verilir.

**' "Diplomatiya: Ensiklopedik lüqət". Bakı, "Diplomatiya" nəşr., 2005 (M.Hacıyevin şərikİi müəllifliyi ilə). Bu bölmədə həmin kitabdakı (Bundan sonra DEl .) başqa miiəllinərin bir sıra məqalələrindən də istifadə olunmuşdur. (Müəllif).**

beynəlxalq qaydalardakı rolunda da tənzimlənməlidir. Bu təşkilatlar öz mənafeləri naminə beynəlxalq qaydanı pozmağa daha çox cəhd edirlər. Məsələn, 1991-ci ildə BMT İraqa qarşı embarqo təyin etdiyi halda bir çox Qərb şirkətləri Küveytə qarşı İraqa silahla kömək edirlər (satırlar), Rusiya “Den” qəzeti ətrafında birləşmiş könüllü silahlıları Yuqoslaviyaya göndərir (Rusiya dövlətinin siya.sətinin əksinə olaraq); Ərəb ölkələri Çeçenistanın separatçılarına silahlı kömək edir; ABŞ-m siaysətinin əksinə olaraq ABŞ-dakı erməni diasporu (Amerikanın Erməni Diasporu Konqresi) Dağlıq Qarabağa insan və maliyyə köməyi yollayır və s. Elə buna görə də beynəlxalq qaydanın mexanizminin olmamasını qeyd edənlər haqlıdırlar. Bugünkü dünyanın beynəlxalq qaydaya ehtiyacı var. BM'f-nin Təhlükəsizlik Şurası ABŞ-ın 2003-cü il İraqa müdaxiləsini müdafiə etmədi; Çünki İraqda kütləvi qırqın silahlarının olması sübuta yetmədi. Lakin bu silahlı dəxalət baş verdi. ABŞ BMI’-nin TŞ üzvlərindən yeganə olaraq İngiltərə dəstəklədi. Yaxın keçmişdə beynəlxalq qaydada hökm sürən qorxu, hədə, zor işlətmək sindromları indi zəifləsə də hələ aradan qaldırılmamışdır (xüsusilə regional səviyyələrdə). Lakin, bu proseslərin hələ də qayıda biləcəyinə qorxu hissi bəşəriyyəti tərk etmir. Dünyanın keçid dövrü (SSRİ-niıvkeçmiş subyektlərinin və Şərqi Avropa sosyalizm sistemi ölkələrinin dünyaya inteqrasiyası dövrü) beynəlxalq qaydalarını da zərif edib, tez-tez formalaşma yoluna yönəldib. Beynəlxalq qayda öz qlobal həllini gözləyir. Bütün bu məsələlərdə diplomatların rolu əvəzsizdir. Ona görədə hər bir diplomat öz ölkəsinin maraqlarına xidmət etməklə eyni zamanda beynəlxalq qaydanın möhkəmlənməsinə də xidmət edir. Beynəlxalq münasibətlərin yuxarıda xülasə şəklində qeyd etdiyimiz nəzəri məsələlərini də elə buna görə diplomatlar daha yaxşı bilməli, onları daha düzgün şərh etməyi bacarmalıdırlar.

mərkəzə öz hüquqlarını və suverenliyini hətta qismən verməyə hazır olmayacaq larini sübut edəcəklər.

Bəziləri isə belə hesab edirlər ki, (məsələn, Dağ Hammarşeld Fondu) sosyal ***yanaşmada beynəlxalq qayda yaradılması*** çətinliklərlə üzləşir. Beynəlxalq problemlərin qlobal xarakteri onların tənzimlənməsi üçün yeni tipli rəhbərliyin yaradılmasını tələb edir. Onlar BMT-nin rolunu bu işdə əsas götürərək qeyd edirlər ki, bu gün onun rolu nəinki təkcə dövlətlərin, həm də xalqların artan istəklərinə cavab verməlidir. Məlumdur ki, BMT- bu gün təkcə siyasi deyil, daha başqa çoxlu funksiyalar da yerinə yetirir. Bu tipli vahid dünya təşkilatı dünyada daha ciddi dəyişikliklər həyata keçirməlidir. Bu dünyəvi dəyişikliklərə uyğun isə xalqların onu müdafiəsi ilə təmin olunmalı, başqa sözlə bu beynəlxalq təşkilatlar xalqların iradəsinin təmsilçisi olmalıdırlar.'

Dediyimiz kimi, bu iki yanaşmanın aralarındakı fərqlər şərtidir və onların aralarındakı fərqləri mütləqləşdirmək (ob- salyutlaşdırmaq) olmaz. Onların hər ikisi bir-birinə yaxındır. Politoloji yanaşma da beynəlxalq qayda yaratmaqda sosial faktorun rolunu qəbul edir, sosial yanaşma tərəfdarları da siyasi faktorları inkar etmirlər. Biri siyasi üstünlüyü sosial tələblərin də mövcudluğunda görür, o biri isə sosial üstünlüyü siyasi faktorları rədd etməməkdə görür. Bu, bir həqiqətdir ki, hər iki yanaşma tərəfdarları BMT-yə “suverenitetlərin diplomatiyası” beynəlxalq təşkilatı kimi baxırlar.

Beynəlxalq qaydaların həqiqi reallığı üçün belə elementlər öz həllini tapmalıdır: hakimiyyət uğrunda mübarizə ləğv olunmalı, beynəlxalq aktorlar arasında mübarizə ləğv olunmalı, qarşılıqlı anlaşma beynəlxalq həllini tapmalı, beynəlxalq qaydanı təmin edən işlək mexanizm yaranmalı, gərginliklər və krizislər tənzimlənməlidir.

Burada onu da nəzərə almaq lazımdır ki, bu tənzimlənmə təkcə dövlətlərarası münasibətlərdə deyil, beynəlxalq münasibətlərin başqa faktorlarının - regional və beynəlxalq təşkilatların

KoBajıeB AH. AaGyna AHrıaoMarHKM. M., 1988.

bunu gələcək dünya hökümətinin hüceyrəsi sayırlar.

***İkinci yanaşmaya*** əsaslananlar iqtisadi və siyasi təşkilatların dünya qaydalarının yaradılmasında uzaq gələcəkdə planetar hökümət yaratmaqda və dünya qanunları və qaydalarının formalaşmasında əhəmiyyətini görür, regional proseslərə katalizator kimi baxır - yəni bunlar beynəlxalq təşkilatların yaranmasına yardımçı olarlar. Məsələn, K.Leyton belə hesab edir ki, Avropa İqtisadi Birliyi kimi bir təşkilatı Afrikada, Amerikada, Asiyada, Latın Amerikasında da yaratmaq lazımdır.

Bu qitə-regional təşkilatlar vahid inteqrasiya vasitəsi olar və gələcəkdə BMT-nin egidası altında beynəlxalq federasiya yaratmağa müvəffəq olunar.

Bəzi regional yanaşma tərəfdarları BMl'-nin birləşdirici roluna inanmırlar və deyirlər ki, BMT belə bir dünyəvi prosesə rəhbərlik edə bilməz. Ona görə də tələb edirlər ki, müxtəlif ümumi prinsiplərin beynəlxalq səhnədə-səviyyədə təmsil olunması- inteqrasiyası üçün yeni tipli dövlətlər sistemi yaradılmalı və bu, BMT-ni əvəz etməlidir. Bu ideyanın tərəfdarları "yo/«/f ***yarısında yerhşən mehmanxanalar^"*** modelindən başlamaqı tələb edirlər: yeni beynəlxalq qayda yaratmaq üçün qlobal hökümət yaratmaqdan əvvəl (axı hələ xalqlar və dövlətlər buna hazır deyillər) mərkəzi dövlətlər qrumlarından ibarət ***polisentrik*** (yarımmərkəzi) idarə yaratmaq olar; yəni ABŞ, Yaponiya, Afrika İqtisadi Birliyi ölkələri, Rusiya (öz problemlərini həll edəndən sonra), Çinin (bu ölkədə siyasi dəyişikliklər aparmaq şərtilə) iştirakı ilə Beynəlxalq - Umumdünya Baş komitəsi yaratmaq lazımdır.

***Beynəlxalq qayda yaratmaq*** üçün sosyal yanaşma tərəfdarları da müxtəlifdir.

Bəziləri hesab edirlər ki, sosyal strukturlar arasında fərqlərin aradan qaldırılması, iki sistem arasındakı ictimai-siyasi fərqlərin "yuyulub" aradan götürülməsi və sinfi antoqonizmin sənqiməsi ilə beynəlxalq qayda yaratmaq olar, l^akin burada da belə hesab edənlər var ki, (məsələn, A.Y.Bovin) maraqların sabit balansının olmaması dünya birliyi üzvlərinin hamısının belə bir beynəlxalq

sibətlər, 0 cümlədən beynəlxalq qaydalar sahəsində ciddi dəyişikliklərə ehtiyac zamanın tələbi kimi xətər zəngi çalmaya bilməzdi. Hamı artıq başa düşürdü ki, dünya bütöv və bölünməz bir sistemdir.

Müharibə və sülh - yeni məna kəsb etməyə başladı. Hamı başa düşürdü ki, bu silahlar yarışında müharibə labüdləşərsə kütləvi qırqın silahlarından, xüsusilə nüvə silahlarından istifadə də reallaşa bilər. Bu müharibədə qalıb və məğlub tərəf olmayacaq; bu müharibəyə artıq siyasətin davamı kimi baxmaq olmaz; nüvə silahının tətbiqi bütün siyasətlərə son qoyacaq, - çünki nəticədə dünya mədəniyyətinin məhvi çox güman ki, reallaşacaq.

Belə bir şəraitdə yeni dünya beynəlxalq qaydası ideyası özünə təkidlə yol açır. Lakin bununla belə bu ideyanın həyata keçirilməsi yolunda bizim günlərimizin siyasi və sosioloji reallıqları durur. Bu da günlərimizin, ya müasir dövrün dərin ziddiyyətlərlə dolu xarakterizə olunan keçid dövrünün xüsusiyyətləri ilə izah edilir. Bunu isə beynəlxalq qaydanın müasir mərhələsinin xüsusiliklərinin izahı ilə başa düşmək olar.

***Müasir mərhdhdə Beynəlxalq qaydanın xüsusiyyətləri***

Yeni beynəlxalq qayda ideyası ən müxtəlif konseptual formalar alır. Bu müxtəlifliklər içərisində əsas iki yanaşma diqqəti cəlb edir:

a) politoloji (hüquqi əsaslara aksentlə) və
b) sosioloji.

Bu bölgü, əlbətdə, şərti xarakter daşıyır.

***Birinci yanaşma*** tərəfdarları dünyanın idarəsini ələ almaq ehtiyacının aktuallığını nəzərə almadan çıxış edirlər. Bu məqsədlə inteqrasiya proseslərindən daha çox istifadə etməyi tələb edirlər. Qanunlara söykənən beynəlxalq sistem yaratmağ zəruriliyini tələb etməklə onlar gündən-günə artan beynəlxalq hüququn rolunu və beynəlxalq təşkilatların əhəmiyyətinin yüksəldiyini də qeyd edirlər. Bu prinsipdən çıxış edən bəzi tədqiqatçılar beynəlxalq orqanların dünya qaydasının yaradılmasında əhəmiyyətini daha çox irəli çəkirlər. Buna misal olaraq BMT-nin artan rolunu qeyd edir və

israilin regionda ağalıq iddealan, İndoneziyanın SuLarno prezidentliyi dövründə Cənub Şərqi Asiyada hökmran olmaq iUəyi, Cənubi Afrika Respublikasının (CAR) Afrikada hakim rola cəhdləri və s.).

Müharibədən sonrakı beynəlxalq qayda ölkələrin bi inci növbədə iqtisadi əlaqələrini qurmaq üçün ikitərəfli və çoxtərəfli görüşləri zərurətə çevirdi. İnsanların öz iqtisadi vəziyyətlə.ini yaxşılaşdırmaq cəhdləri bunu zəruri edirdi. Dövlətlərin strateji diplomatik cəhdləri iqtiası problemlərə daha çox yönəlməyə meyl etdi. Bununla da dünyanın müxtəlif nöqtələrinin yaxınlaşma prosesi özünü daha aktiv zühura verdi.

Lakin soyuq müharibə dövrünün ideoloji ziddiyətləri beb yaxınlaşmalara az imkan verirdi. Dünya yenə də "sosyalist dəyərlən və idealları"nın "kapitalist" ideallarına, "azad dünya"nm "şər imperiyası"na qarşı ziddiyyətləri belə yaxınlaşmalara az imkan verirdi. Dünya yenə də "sosyalist dəyərləri və idealları"nın "kapitalist" ideallarına, "azad dünya"nın "şər imperiyası"na qarşı dururdu və heç biri o birinə güzəştə getməyə hazır deyildi. Bu isə XX əsrin 80-ci illərində iki sistem-SSRİ və ABŞ arasında psixoloji müharibənin güclənməsinə bais olurdu. Bu da beynəlxalq münasibətlər sahəsində beynəlxalq normaların yaranmasına maneçilik törədirdi.

Bütün bunlar 80-ci illərdə silahlanma xərclərini dəhşətli şəkildə artırırdı. Nəticədə Ümumdünya istehlal məhsulunun 6%-i silahlanmaya xərclənir. Bu illərdə (80-ci illərdə) alimlərin və texniki ziyalıların 50%-dan çoxu dağıcı silahların yaradılması üzərində işləyirlər, qurucu, yaradıcı vasitələrin üzərində yox. Bir ildə hərbi xərclər 1000 mlyard (on tirilyon) dollar təşkil edirdi. Bu isə ***1 dəqiqədə 2 min. doUann hərbi məqsədlərə xərclənməsi demək idL*** Bəzi ölkələr iqtisadi problemlərə çox az sərmayə ayırır, hərbi xərclərə isə illİk büdcəsinin 45%-ni verirdi. Bu xərclər SSRİ - nin iqtisadi geriliyə düşməsinə və iqtisadiyyatının dağılmasına səbəb oldu.

Dünya bu vəziyyətlə razılaşa bilməzdi. Bçynəlxalq müna-

dəniz krizisi), hər iki tərəf üçün maraqlar dairəsində olan “üçüncü dövlətlərin” arasında müharibə münaqişələri yaratmaq (1973-cü il Yaxın Şərq böhranı) ilə xarakterizə olunur.

4. Qüdrətli - əbər qüdrət dövlətlərin və onların siyasi - hərbi təşkilatlarının arasında müzakirələr və danışıqlar aparmaq meylinin əmələ gəlməsi. Strateji səviyyədə sabitlik və beynəlxalq ictimayyətin nüvə silahlarının kütləvi qırqını təhlükəsinin daha yaxşı dərki ilə güclənən hərəkatları belə müzakirələri vacib edirdi. Lakin bu müzakirələr beynəlxalq qaydanın məhdudluğu və natamamlığı ucundan istənilən nəticəni vermirdi.

5. Dünyada iki qüdrətli dövlətin qlobal tarazlıqda öz üstünlüyünü təmin etmək məqsədiylə periferiyalarda aparıcı rolu əldə saxlamaqla dünyanın “təsir dairəsinə”bölünməsi cəhdlərinin artması..

Beynəlxalq qaydanın ***şaquli (amudu)*** ölçüsü ilə qüdrətli dövlətlərin “üçüncü dövlətlərə” təsirinin müəyyən həddi vardı. ***Əvval ona görə*** ki, bir qüdrətli dövlət o birinin “müştərisinə” - tərəfdarına həmişə təzyiq göstərmək üçün yollar tapa bilirdi; ***ikincisi,*** koloniyal imperiya boyunduruğunu boyunundan atmış və müstəqilliyini elan etmiş yeni dövlətlərin suverenliyini və hüquqlarını BMT, həmçinin Ərəb Ölkələri Liqası (ƏÖL), Afrika Birliyi Təşkilatı (ABT) və başqa qurumlar onları fəal müdafiə etməyə başlamışdılar; ***üçüncüsü,*** beynəlxalq aləmdə milli - bəşəri dəyərləri qoruyub saxlamağa cəhd edən liberal - demokratik fikirli cəmiyyətlər və təşkilatların yaranması prosesi sürətlənir, onlar zor işlətməyə və xüsusilə zəif inkişaf etmiş ölkənin beynəlxalq konfliktlərə cəlb olunmasına qarşı çıxışları artırdı; ***dördüncüsü,*** qüdrətli. dövlətlərdən birinin başqa qüdrətli dövlətin “həm- bloklarına” təsiri onun özü üçün də əks təsir yaradırdı, bu isə iki blok arasında neqativ halların yaranmasına səbəb olurdu; və nəhayət, ***beşinçi,*** yuxarıda dediyimiz kimi beynəlxalq sistemin ***fraqmentləşməsi-parçalanması*** bir sıra region dövlətlərinin öz regionunda əbər - qüdrət dövlətə çevrilməsi cəhdinə imkan yaradırdı (İranın şah dövründə Yaxın şərqdə cəhdi, Suriya və

müharibə”, qarşılıqlı hədə-qorxu, “sürətli silahlanma ilə qarşı- qarşıya durmuş sosyal-siyasi sistemlərin” əmələ gəlməsi idi. Dünyanın parçalanmasına səbəb isə iki ən qüdrətli dövlət - SSRİ və ABŞ arasında ziddiyətlərin kəskinləşməsi ilə xarakterizə olunur. Bu ziddiyətlər iki hərbi - siyasi orqan - NATO və Varşava Müqaviləsi Təşkilatı (VMT) və siyasi-iqtisadi təşkilatlar olan Avropa İqtisadi Birliyi (AİB) və Qarşılıqlı İqtisadi Birliyi (QİB) ilə özünün bir- birinə zidd siyasətlərini yeridirdilər.

2-cisi - BMT-nin və onun ixtisaslaşdırılmış idarələrinin meydana gəlməsi. Bu təşkilat beynəlxalq hüquq normalarına müvafiq olaraq dünyada ümumi beynəlxalq münasibətlərin vahid qaydalarını yaratmaiq öz qarşısına məqsəd qoymuşdu. BMT-nin yaradılması idarə olunan beynəlxalq qaydaların yaradılması üçün vacib vasitə idi. Lakin səlahiyyətləri məhdud olduğu üçün BMT sülhü və təhlükəsizliyi, beynəlxalq sabitliyi və xalqlar arasında əməkdaşlığı təmin etməyə qadir deyildi. Nəticədə mövcud beynəlxalq qayda daha da ziddiyyəti məqamlarda özünü biruzə verməyə başladı.'

S.Xoffmanna əsaslanaraq müharibədən sonrakı beynəlxalq qaydanın əsas xüsusiyyətlərini nəzərdən keçirək. Müəllif bunları 5 qrupa bölür, aşağıdakı kimi:

1. Zorun mərkəzləşməsinin qabağını almaq (lakin onun azalmasına səbəb olmasa da). Güclü-fövqəl-əbər dövlətlər regional və lokal müharibələr yaradır, bu “üçüncü dövlətlərlə” konfliktlər və müharibələrə səbəb olur, “üçüncü dövlətlər” özləri də konfliktlər və müharibələr yaradırlar, bir-birinin acığına bu konfliktləri müdafiə edirdilər.

2. Beynəlxalq sistemin qloballıqdan fraqmentliyə meyli: yeni konfliktlərin yerli xarakter almasında böyük dövlətlər əsas rol oynayırdılar. Bu strateji nüvə tarazlığından asılı deyildi.

3. Əbər - dövlətlər - fövqəl qüdrətlər arasında birbaşa toqquşmanın mümkünsüzlüyü. Lakin bu krizislər yaratmaq və bununla da öz maraqlarını müdafiə etmək cəhdi (1962-il Qərib

**Hosonov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti “Azərbaycan” nəş., Bakı, 200.S, .səh.247**

Otuzillik müharibəyə son qoydu, Müqəddəs Roma inpcriyasınm daqıldmasını və bunun nəticəsində 355 müstəqil dövlətin yarandığını elan etdi. Bu tarixdən dövlətlərin müstəqilliyi - suverenliyi termini yaranır, azad, milli dövlətlər əmələ gəlir. Vestfal müqaviləsi müstəqil dövlətlərin sərhədlərinin mövcudluğunu qəbul etməklə, onların toxunulmazlığı qaydalarını da elan etdi. Bu dövrdən dövlətlər koalisiyası reallaşır. Koalisiya başqa dövləti, və ya dövlətlər qrupunu qorxutmaq üçün yaradılan birləşmiş dövlətlər dəstəsidir, müəyyən beynəlxalq qaydalara müvafiq yaranır. 1815-ci il Vyana Konqresi dövlətlər arasında ***legitimizm*** prinsipini bərkitdi. Bu, qalıb dövlətlərin feodal münasibətlər yaratmağına (məğlub dövlətlərə qarşı) haqq qazandırdı. Bu, silahlı intervensiyaya haqq qazandıran qayda çox yaşaya bilməzdi. Nəhayət Avropada, ümumiyyətlə dünyada parçalanma, xüsusilə Rusiyada Oktyabr ingilabı və SSRİ-nin (1922) yaranması tarixi qaydaya daha bir yeni - ideoloji ölçülü beynəlxalq qayda əlavə etdi. Dövlətlər arasında sürüşkən, titrək münasibətlər "soyuq müharibəyə" gətirib çıxardı. "Müharibə vəziyyətində" olmaq, "inamsız sülh", "qaydaların pozulması" kimi terminlər tarixi modellər kimi müharibədən - II dünya müharibəsindən sonrakı dövrün təzahürləri idi.Bu modellərin hər biri öz dövrünün həqiqətlərinin müəyyən vəziyyətlərini əks etdirirdi. Bunlar, məhdud mənada bu gün öz yaşarlığını qoruyub saxlaya bilmişdir. Bununla belə, son önilliklərin beynəlxalq qaydaya yeniliklərin gətirdiyi də məlumdur. Müharibədən sonrakı dövr üçün iki beynəlxalq quruluşun xarakterik olduğu şübhəsizdir: "soyuq müharibə" və müasir dövr olan "keçid dövrü". (Bu keçmiş SSRİ respublikaları, indiki suveren dövlətlər olan ölkələr, Şərqi Avropa ölkələri üçün xarakterikdir). Bunların ayrı-ayrılığda nəzərdən keçirilməsinə ehtiyac vardır.

***Müharibədən sonrakı beynəlxalq qayda (nəzm)***

II dünya Müharibəsindən sonra yaranmış beynəlxalq qayda (nəzm) iki mühüm xüsusiyyətilə fərqlənir.

1- cisi, dediyimiz kimi, dünyanın iki bir-biri ilə "Soyuq

müəyyən ictimai normalardır ki, (məsələn, dövlət-hüquqi normalar) cəmiyyəti idarə edir, ümumi, məsələn, milli, mədəni, moral-etik dəyərlərin qorunub saxlanmasına xidmət edir. Beynəlxalq qayda dedikdə qlobal sosyal birliklərin - beynəlxalq arena iştirakçılarının - aktorların birliyinin riayət etdikləri qaydalardır. “Beynəlxalq qaydalar” terminini “dövlətlərarası münasibətlər” termini ilə sıx əlaqələndirirlər. Fərq ancaq bundadır ki, “beynəlxalq münasibətlərdə” tarixi davamlılıq, çoxdan mövcudluq məfliumu varsa, “beynəlxalq qayda” - yeni mənalı məfhumdur, müasir yaranmış anlayışdır.

XX əsrin ən böyük alman filosoflarından K. Yaspers dünya qaydasını belə başa düşürdü: “hamının-iştirakçı dövlətlərin mütləq suverenitetdən əl çəkməli olduqu halda yaranan vasitə - alət”, ümumbəşəri dəyərlər və hüquqi normalar kimi dünya qaydaları da “siyasi formalar vasitəsilə hamını bağlayan dünyəvi hüquqi qaydalardır”. Beləliklə ***beynəlxalq qayda*** - dünyanın qaydasının mühüm tərkib hissəsi, onun özəyidir. Siyasi balans - bərabərlik beynəlxalq qaydanın ***üfüqi ölçülüyünü*** tələb edir. Beynəlxalq qaydanın ***əmudi (şaquli) ölçülüyü*** güclü və zəif aktorlar arasında olan qaydalar tənasübüdür. Beynəlxalq qaydada ***funksional ölçülük prinsipi*** dövlətlərin - aktorların müəyyən sahələrdə - beynəlxalq həyatın müxtəlif fəaliyyət növlərində stabiilik yaratmağa xidmət edən qaydalardır: ***məsələn^ diplomatiyada,*** aktorların davranış strategiyasında, ***aralarındakı iqtisadi təbadülədə, mənəvi dəyərlərdə^ liderlərin siyasi ambisiyalarında,*** həmçinin beynəlxalq münasibətlərin subyektlərinin (işgüzar adamların, transmilli cəmiyyətlərin, alimlər cəmiyyətlərinin, mütəxəssislər birliklərinin və s.) ***depolitizasiya*** olunmasında yaranan qaydalar. ‘

Tarixən ***beynəlxalq qaydanı güc*** - xüsusilə hərbi qüvvə təşkil edirdi. Son onillərdə vəziyyət qismən dəyişir.

Beynəlxalq münasibətlər tarixinin beynəlxalq qaydalarla bağlılığını dövlətlərarası münasibətlərin 1648-ci il Vestfal sülh müqaviləsindən götürürlər. Bu sülh müqaviləsi qərbi Avropada

’ Uuri'aiiKOB n.A. **Göstərilən əsəri, səh.** 271-272

konsepsiyasını da əlavə etmək lazımdır. K.Doyçun bu konsepsiyası federalizmdən fərqli olaraq tələb edir ki, beynəlxalq inteqrasiyanın reallıqlarını başa düşmək üçün hər iştirakçı dövlətin - inteqrasiyada iştirak edən aktorun kompleks üstünlüklərini təyin edib onlara ümumi inteqrasiyada üstünlük verilməlidir..

***Beynəlxalq qayda.***

Beynəlxalq qayda problemi ona görə diqqəti cəlb edir ki, ictimai birliklərin bir-biri ilə münasibətlərinin "beynəlxalq birgəyaşayış" qaydalarını özündə təcəssüm etdirir, bu qaydalar müəyyən sərhədlər daxilində olan dövlətlərin riayət etməli olduğları ümumi qaydalardır. Hər dövlət özünəməxsusluğu (suverenitet, ərazi ayrılığı, özünəməxsus hakimiyyət və s.) saxlamaqla müəyyən beynəlxalq qaydalara da riayət etməli olur. Müasir beynəlxalq münasibətlərdə əvvəliki dövrlərin "təbii vəziyyəti" artıq real deyil: güclü nə istəyirdi eləyirdi, zəyif nəyi bacarırdı eləyirdi. Yaxın gələcəkdə isə bu prinsipi ümumiyyətlə həyata keçirmək mümkün olmayacaq. Lakin bunuda inkar etmək mümkün deyil: bu gün xalqlar və dövlətlər iqtisadi, mədəni, siyasi cəhətdən bir-biri ilə çox sıx haqlıdırlar, dəyərləri birgə bölüşürlər, müxtəlif beynəlxalq təşkilat və strukturlarda dirgə təmsil olunublar. Belə demək olar ki, minimum şəkildə də olsa beynəlxalq cəmiyyətin mövcudluğu göz qabaqındadır: bunu minimum birlik və təşkilatlar həmrəyliyi sübut rdir. Bu o deməkdir ki, beynəlxalq qayda da reallıqdır. '

Bununla əlaqədar 1. "Beynəlxalq qayda" nədir? 2. İnsan cəmiyyəti tarixində hansı beynəlxalq qayda tipləri olub? 3. Müharibədən sonrakı beynəlxalq qaydada xarakter xüsusiyyətləri hansılardır? 4. Yeni dünya qaydasını necə qurmaq olar? - kimi suallara cavab vermək tələb olunur.

Beynəlxalq qaydanın şərhində sosyal və ya ictimai qaydanın xarakterinin izahından başlamaq lazımdır. İctimai qayda anarxiyanı, intizamsızlığı qəbul etmir, bir sosyal qüvvənin başqa sosyal qüvvə üzərində hökümranlığını rədd edir. Başqa sözlə ictimai qayda elə

**' MaMe;ıajiMiajıe H. Göstarilon osəri. soh. 19--21**

sionalizmə görə "vertikal" (şaquli) inteqrasiya (dövlətlərin müstəqilliklərini saxlamaqla) "qorizontal" (üfuqi) (dövlətlərin yaratdığı vahid idarə ilə) inteqrasiyaya üstünlük verilməlidir.

Bu nəzəriyəyə görə üfuqi inteqrasiya iqtisadi və sosyal konfliktləri yaradan səbələri aradan qaldırar, tədricən isə ağrısız şəkildə dövlətlərin suverenliyini aradan qaldıraraq elə bir vəziyyət əmələ gətirəcək ki, dövlətlərin belə birliyi, qarışması və qarşılıqlı əlaqələr yaratması onlar arasında nəinki təkcə hərbi konflikt mənasız olacaq, əksinə tam konfliktsizlik yaranacaqdır. Yaranmış vahid idarə dövlətlərin texniki idarələri ilə birbaşa kontaktda olacaq, suverenliklərin müdafiəsi isə - Konkret məsələlərin praqmatik həllini tapacaqdır. Beləliklə, praqmatizm də reallıqları nəzərə almaqla beynəlxalq inteqrasiyaya xidmət edir.

***Neofunksionalisthr*** isə bunu daha da dəqiqləşdirərək deyirlər ki, iqtisadi, sosyal, mədəni və s. sahələrdə əməkdaşlıq sıx olarsa başqa sahələr üçün də inteqrasiyaya institutları yaranacaq və tədricən konfliktlər aradan qaldırılaraq tam siyasi inteqrasiyaya gətirib çıxaracağdır.

Əyər neofunksionalizm siyasi institutlara müəyyən əhəmiyyət verərkən iqtisadi, sosyal, mədəni inteqrasiyanı önə çəkirsə *""**federaliznf**'* bu siyasi institutları inteqrasiya prosesinin əsası hesab edir və onları ortada - mərkəzdə yerləşdirir. Bu nəzəriyyə hər ölkənin daxili - federal qaydalarına müvafiq beynəlxalq inteqrasiyanı irəli çəkir. Məsələn, 1. Öz vətəndaşlığım qorumaqla ikili vətəndaşlığa malik olmaq; 2. Regional hökümətlərin rolunun müxtəlifliyi; 3. Regional hökümətlərin gücü və rolunun sikl dəyişikliklərini nəzərə almaq və s. Avropanın Vahidlik Aktı (1985), Avropa İttifaqının 1 noyabr 1993-də Maastrixt müqaviləsinə əsasən 2000-ci ildə 12 Avropa dövlətinin valyuta-iqtisad i və hərbi-siyasi ittifaqı (Avropa İttifaqı adı altında), 10 Avropa təşkilatının qərargahlarının (Valyuta institutu, Avropol, Avropa Ekologiya və s.) idarələrinin harada yerləşməsi və s. haqqında razılaşmalar buna misal ola bilər.

Burada daha bir nəzəriyyəni - K.Doyçun *""**plyuralizm**'''*

sürətləndirir. “Soyuq müharibənin” sona yetməsi və SSRİ-nin həmişə sülhə təhlükə olan “güc mövqeyindən” çıxışlarına son qoymuş sosyalizm sisteminin dağılması bu müzakirələri daha effektli etmişdir.

Dünyada beynəlxalq təşkilatların müharibəyə qarşı - sülh uğrunda kütləvi müqavimətləri artdıqca dünya monopoliyası uğrunda qüdrətli dövlətlərin cəhdləri də azalır ki, bu da ancaq sülh naminə olub, sülhün qorunmasına, dünya stabilliyinə və əmin- amanlığa səbəb olur.

Ona görə də müasir dövrdə beynəlxalq əməkdaşlığın məzmun və formaların dəyişdiyini də qeyd etmək zəruridir.

“Beynəlxalq əməkdaşlıq” iki və ya bir neçə aktorun qarşılıqlı proseslərinin elə təzahürüdür ki, burada silahlı güc göstərmə istisna olunur, ümumi maraqların axtarışlarına üstünlük verilir. Lakin adi anlayışdan fərqli olaraq beynəlxalq əməkdaşlıqla konflikt aradan götürülmür, ancaq onun şərt, qorxulu tərəfini aradan qaldırır. Bu gün dövlətlər arasında əməkdaşlığı inkişaf etdirmək üçün siyasi inteqrasiya məsələləri xüsusi əhəmiyyət kəsb edir. Coğrafi masştabdan tutmuş qlobal, regional, subregional səviyyədə inteqrasiyalar - birləşmə prosesləri baş verir.

Beynəlxalq inteqrasiyanın - bu mühüm fenomenin öyrənilməsinin başlanqıc nöqtəsi ***"funksionaliznf"*** sayılır. İngilis alimi D.Mitranı “Sülh və beynəlxalq təşkilatların funksional inkişafı” (1943) əsərində göstərir ki, 1 Dünya müharibəsi dövründə yaradılmış Millətlər liqası ona görə yaşamaq hüququ qazana bilmədi ki, dövlətlər bu təşkilatda öz suverenliklərinə təhlükə gördülər. Onun fikrincə heç bir beynəlxalq təşkilatın fəaliyyət və funksiyası dövlətlər arasında iqtisadi, sosyal, elmi-texniki və s. xarakterli konfliktləri həll etməyə qadir deyil. Siyasi inteqrasiya, o cümlədən yuxarıdakı problemlərin həlli inteqrasiyası üçün dövlətlərarası orqanlar yaratmaq lazımdır. Müxtəlif vacib məsələlərin həlli ilə məşqul olmaqı öz vəzifəsi hesab edən belə orqanlar siyasi inteqrasiya üçün də, daha doğrusu siyasi kooperasiyalardan ötrü də zəmin və şərait yaradacaqdır. Funk-

strategiya, Amerikan alimi C.M.Kollinzə görə, "hər hansı bir şəraitdə milli gücün elementlərindən istifadə elmi və məharətidir". "Böyük strategiya qələbə ilə nəticələnərsə birbaşa zor işlətməni inkar edir. Bu strategiya qarşı tərəfə hədə-qorxu, güc göstərmə, qeyri-müstəqim təzyiq, diplomatiya, hiylə və saizdən istifadə yolu ilə milli təhlükəsizliyin məqsəd və maraqlarını təmin edir". Burada məhəlli, region və dünya miqyaslı müharibələri öyrənmək təcrübəsi zəruridir. Bu gün aksent əsasən zor və müharibələrə deyil, siyasi aspektlər üzərinə edilir. Bəzi Qərb ölkələrinin neokonservativ qüvvələri hələ də nüvə silahının imkanlarından istifadənin zəruriliyini üstün tuturlar. Lakin SSRİ-nin dağılması ilə bu təhlükə qismən dəyişdiyi üçün bu sahədəki "böyük strategiya " da dəyişdi. Konfliktlərin tədqiqini strateji tədqiqlərlə möhkəmlətmək bugünkü tədqiqatçılar qarşısında duran mühüm vəzifələrdir. Bu, böyük və kiçik aqressiyaların qarşısını almağ üçün vacibdir.

Belə tədqiqlərin əhəmiyyəti beynəlxalq konfliktlərin 3-cü istiqaməti olan "sülh naminə tədqiqlərin" xeyrinə yol açır. Bu isə əslində beynəlxalq konfliktlərin kompleks həllidir. Bu tədqiqlərə müxtəlif münasibətlər var:

1. Anqlo-sakson məktəbi ənənələrinə müvafiq olaraq konfliktlərin tənzimlənməsi nəzəriyyəsi.
2. Avropa cərəyanı olan "sülh naminə" tədqiqlərdir.
3. Beynəlxalq müzakirələrə üstünlük verməklə.

Bu cərəyanlar arasındakı fərqlər çox vaxt şərtidir. Bununla bərabər xüsusilə XX əsrin 60-cı illərindən etibarən beynəlxalq müzakirələrə üstünlük vermək fikri ön plana çəkildi. 1. Müzakirələr dövlətlərin bir-birinə təsir vasitəsi kimi özünü doğruldur; 2. Bu müzakirələrin həcmi də artır: ekologiya, sosyal - siyasi proseslər, elmi - texniki əməkdaşlıq və s. 3. Beynəlxalq təşkilatların müzakirələrdə rolu artır; 4. Müzakirələr prosesinə diplomatlardan daha çox elmi-texniki və iqtisadi problemləri yaxşı bilən mütəxəssislər cəlb olunurlar; 5. Müzakirələrin prosesi kökündən dəyişir: ölkələrin rəhbərləri bu prosesə daha çox cəlb olunurlar. Bu isə konflikt, sülh kimi vacib beynəlxalq münasibətlər problemlərinin həllini

əks istiqamətlərində duraraq vaxtaşırı bir-birinin yerini dəyişirlər. Bu o deməkdirb ki, beynəlxalq münasibətlər prosesi konlliktli situasiyanı inkar etmir və əksinə - hər bir konfliktli situasiya prosesi iştirakçıların əməkdaşlığında beynəlxalq münasibətlərin sabitliyini göstərir-konfliktin əməkdaşlığa çevrilməsini. Beləliklə konflikt "inqilabi" olduğu kimi, həm də beynəlxalq sistemin sabit- ləşdiricisidir. Sabit sistemin xüsusiyyətləri: a) dəyərlərin iştirakçılar arasında - bərabər bölüşdürülməsi; b) iştirakçıların rəqabətində konsensusun olması; c) onlar arasındakı əlaqə və münasibətlərin yumşağhğının mövcudluğudur. Konfliktin "inqilabi'Mik xarakterində dəyərlər nəzərə alınmır, qaydalar daim mübahisə obyekti olur və yumşaq münasibətlər aradan götürülür; belə olduqda əməkdaşlığı həmişə eyniləşdirmək olmaz. Onların hər birinin öz dinamikası vardır. Bunun üçün beynəlxalq konfliktlərin tədqiqinin əsas yanaşma məsələlərini nəzərdən keçirək.

Beynəlxalq münasibətlərin öyrənilməsində beynəlxalq konfliktlərin mahiyyətini bilmək z.əruridir. Bu sahədə - yəni beynəlxalq konfliktlərin tədqiqi sahəsində üç istiqamət mövcuddur: a) .strateji tədqiqlər, b) konfliktin tədqiqi, c) sülh prosesinin tədqiqi. Burada mərkəzi yeri konflikt adlanan fenomenin bütün cəhətlərini açmaq, bununla da konfliktlərin həllindən beynəlxalq münasibətlərin xeyrinə bərhələnmək tələb olunur. Diplomat bu mühüm keyfiyyətə malik olmalıdır.

Məşhur amerikan alimi L.Kozer sosyal konflikt deyəndə "dəyərlər, status, hakimiyyət və nadir ehtiyatlara sahib olmaq üçün kollektiv aktorlar arasında toqquşma" kimi başa düşür. K.Bouldingə görə konflikt başqasının tuta biləcəyi məqama ondan tez çatmaq üçün yaratdığı rəqabət situasiyasıdır.

C.Bertona görə isə konflikt subyektiv xarakter daşıyır. Maraqlarda "obyektiv" ixtilafları əks etdirsə də, nəticəsi müsbət olan pozitiv konfliktə çevrilə bilər. Burada strateji tədqiqlər dediyimiz konflikt növünə xüsusi diqqət yetirilir. Strategiya həmişə məqsədə çatmaq üçün qüvvəyə əsaslanmışdır. Dövlətlərin silahlı konfliktlərlə nəticələnən strateji konfliktləri buna misaldır. Böyük

xalqının moral tələblərinə uyğun olduğu iddiasım yaratdı. Sentyabr I938-Cİ il Münxen konfransında Fransa və İngiltərənin Hitlerə güzəştə getməsi total müharibə üçün Hitleri həvəsləndirdi.

Beynəlxalq münasibətlərdə beynəlxalq moraldan danışarkən moralın əsas imperativlərindən danışmamaq mümkün deyil. ***Mora! imperativbri*** beynəlxalq münasibətlərin prinsipləri ilə təyin olunur. Bu o deməkdir ki, hər bir aktor beynəlxalq siyasi davranış imperativinə - mühüm moral qaydalara rəayət etməklə beynəlxalq münasibətlərin başqa iştirakçılarının legitimliyini də qorumalı, təmin etməlidir (məsələn, müharibə, sülh və s. məsələlədə onları təcrid elməməli, moral gözlənməlidir). İndiki müharibələrin (kütləvi qırqın silahlarının olması, ən yeni silahların kəsfi, ön və arxa müharibə məfluımlarının arasındakı sərhədin götürülməsi və s.) aparılmasında moral tələblərinə riayət beynəlxalq münasibətlərdə aparıcı yerə çıxır. Abxaziya konfliktinin yaratdığı didərginlər Gürcüstana, Dağlıq Qarabağ münaqişəsində separatçıların bir milyona qədər qaçqın - köçgün faciəsinin yaratması, minlərlə, yüzlərlə qoca, uşaq, qadın və s. mülki vətəndaşların qırqını, ermənilərin həyata keçirdikləri Xocalı soyqırımı və s. beynəlxalq münasibətlər aktoru olan Azərbaycan Respublikasına qarşı qeyrİ-moral hərəkət olduğu (başqa ölkənin silahlı qüvvələrinin yardımı ilə) gün kimi aydındır.

Beynəlxalq münasibətlər aktorunun məqsədləri yüksək mənəviyyata malik olmalıdır. Bunlar onun moral mövqeyini əks etdirməlidir.

Bir də qeyd edək ki, moral dəyərlər beynəlxalq münasibətlərdən ayrı deyil. Onları tənzimləmək, hamının qəbul edəcəyi yüksək moral normalara uyğunlaşdırmaq beynəlxalq münasibətlər iştirakçılarının hamısının vəzifəsidir.

***Beynəlxalq münasibətlərdə konfliktlər və əməkdaşlıq***

Konfliktlər və əməkdaşlıq beynəlxalq münasibətlərin vacib xarakterlərindəndir, beynəlxalq münasibətlər prosesinin iştirakçılarının mütəmadi əlaqələrinin ifadəçi sid irlər. Marks və Hegelin sözləri ilə desək onlar “dialektik cütüdürlər. Yəni onlar bir-birinin

qaydaları ilahi qanunlar əsasında qurmaq istəyi əsas götürülməlidir. Burada buddist modelindəki dünyaya baxışda olmayan bir cəhət meydana çıxır: o da siyasi fəaliyətə mühüm rol ayrılmasıdır.

Lakin bu dünya ilə o dünya inamı arasında nicat xristianlıqla islam arasında fərqlənir. ***Xristianlığa*** görə differensial inistitutlar - orqanların hakimiyyəti ikili mənadadır: Allahın yerdə nümayəndəsi olan çar, hakim, hökmdar, Allahın hökmlərini icra edir, onun hakimiyyəti dünyəvi qanunlarla olmamalıdır. Burada əməldə idarəetmə iki yerə bölünür: hökmdarın kilsəyə tabeçiliyi; və hökmdarın öz xalqının istəklərinə uyğun olaraq dünyəvi qaydalarla ölkəni idarə etməsi tələblərinin yerinə yetirilməsi. Burada siyasi sahə dindən ayrıdır, çünki siyasi mühit siyasi elitanın mübarizə və rəqabətləri üçün açıqdır. ***İslam*** mədəni kodunda, əksinə, Allahın tələbləri hər bir məqam üçün mütləq deyil, dəyişə bilər, ancaq Allaha xoş gedən dərəcədə dünyəvi dəyərlərdən istifadə oluna bilər. Burada Allah qanunlarının icrası üçün geniş meydan vardır. İslamda siyasi və dini meydan qarışır, lakin Allah və şəriət qanunlarına zidd olan ligitim bir hakimiyyət qurmağa imkan verilmir. Din dövlətdən ayrı olan ölkələrdə də dövlət dini müdafiə etməli, vətəndaşların Allah qarşısında borclarını vermək üçün onların hüquqlarını qorumalıdır. Məsələn, protestanr (xristian) tələblərində bu məsələyə qəti imkan verilmir: dövlətin dünyəvi qanunları qəbul edib onunla yaşamaq günah sayılır.

Əxlaqı-moral tələblərin bəraəti üçün müharibələrə əl atmaq, repressiyalar həyata keçirmək, işgəncələr və terrorizmin tətbiqi nümunələri çoxdur. Bunların xalqın ümumi rifahı xətrinə, ədalət, milli azadlıq və s. naminə olunduğunun beynəlxalq münasibətlərdə iddiasına az rast gəlinmir. “İnam etikası” və “məsuliyyət etikası” kimi iki etik normaya həmişə bəraət qazandırmaq mümkündür.

Dövlət xadiminin moral-mənəvi borcunun olmadığını deyənlər onun mənəvi borcunu xalqın mənəvi tələbi ilə eyniləşdirirlər. Buna siyasi ***idealizm də deyilir.*** Məsələn, Hitlerin yeni torpaqların işqalını Çexoslovakiyadakı Sudet almanlarının ərazisini - Sudetiyanı Almaniyaya birləşdirmək cəhdi Alman

atırlar: transmilli korporasiyalar deyirlər ki, onlar zəifinkişaf etmiş ölkələrin iqtisadi və mədəni inkişafına kömək edirlə:. 'feiToristlər əsaslandırırlar ki, özlərinə uyğun olmayan dəyərlərə qirşı mübarizə aparırlar, islam fundamentalistləri belə əqidədən çıxı; edirlər ki, dünyada sosyal ədalətli, siyasi, hərbi və əxlaqı cəhəidən bir din varsa o da ancaq islam və onun “üınmə” ideyasıdır; xristian terrorçular isə - biri katoliklərin, o biri isə provoslavlarm üstünlüyü və ümumiyyətlə xristianlığın daha qabaqcıl din kimi yaşamaq hüququn üstünlüyü və s. ilə izah edirlər.

Buradan göründüyü kimi moral normaların olduğunu beynəlxalq münasibətlərin bütün iştirakçıları görür, qəbul edir. Lakin ona müxtəlif etik yanaşmalarla yaxınlaşır, onunla razı’aşırlar.

Bununçün də beynəlxalq moral m traktovka - anlanma müxtəlifliyini nəzərdən keçirək istər əməli, istərsə də nəzəri cəhətdən beynəlxalq moralda fərqlərin mövcudluğu məlumdur. Çünki beynəlxalq münasibətlərin aktorlarının da müxtəlif nədəni və ideoloji uyğunluluqlarını qəbul etmək olmur. Bunları ayırd etmək üçün, P.de Senarklen demişkən, hər hansı siyasi sis:emin daxili prinsiplərinin etik normalarını nəzərə almadan mümkün deyil.

Belə prinsiplərin təhlili ilə onların ənənəvi normaları və ideoloji əsaslarının xüsusiliklərini bilməklə mümkündür. Dünya dinlərinin hamısının öz dəyərlərini qoruyub saxlaması üçün Ö2ünün kodu vardır.

Dünyəvi morala əsaslanan ***konfusiçUik*** moralın, hakimiyyətin və avtoritetin Göyün “mandatına” malik olan imperator əlində olduğunu iddia edir.

***Buddizm*** və ***hinduizmin*** mədəni kodu tələb edir ki, insan o dünyanın özəlliklərinə ***sahih olmaq*** üçün bu dünyada yüksək dini elita və istəyinə müvafiq olan ədalətli sosyal qayda yaratsın, (jöründüyü kimi bu dinlərdəki mədəni kod siyasi fəaliyyəti arxa plana çəkir, monarxın rolunu sakrallaşdır-ilahiləşdirir.

***Monoieist*** dinlərin mədəni kodu bunlardan fərqlənir: Bunlara görə nicat Yer aləmiilə Göy aləminin arasındakı daimi gərginliyi aradan qaldırmaq üçün insan cəhdləri sonsuz olmalı, yerdəki aləmi.

ınoralm (əxlaqın) qanşilıqlı fəaliyyəti-təsirini də unutmaq olmaz. Hüquqi və əxlaqi məsələlərdə də bir uyğunluğun olması vacibdir. Bunların arasında ciddi fərq qoymaq, onları uyğunlaşdırmamaq onlar arasında ixtilaflara, ziddiyətlərə səbəb ola bilər. Hər bir dövlətin özünəməxsusluqlarını unutmamaqla bunu da yadda saxlamaq lazımdır ki, beynəlxalq münasibətlər sistemində hüquq və moral regulyator tənzimçi rolunu oynamalıdırlar.

Beynəlxalq normalarda davranış hər dövlətin və xalqın moral, hüquq normalarına müvafiq olur. Onları təyin edən isə ***sosyal cəmiyyətdir.*** Məhz həmin cəmiyyət, yaxud xalq onların tətbiqi üçün özü də vəsait ayırır, vasitələr yaradır. Bu normalar beynəlxalq münasibətlərdə faydalı olmaq üçün onlar beynəlxalq hüquq və beynəlxalq moral içərisində adaptasiya - uyğunlaşma mərhələsini keçməlidir. Onda bunlar beynəlxalq hüquq və moral normalarına girə bilirlər.

Belə hüquqi və əxlaqı (moral) normalar içərisində mütləq ümumibəşəri normalara uyğun elementlər, faktorlar olur ki, məhz onlar həmin normaların beynəlxalq münasibətlər üçün faydalı hissəsini təşkil edir. Məhz bu elementlər onları beynəlxalq hüquqda möhkəmlədir, onlara yer verir və formalaşdırır. Buna hüquqi ədəbiyyatda etik ölçülər deyilir.

***Beynəlxalq münasibətlərin etik ölçüləri***

Beynəlxalq münasibətlərin iştirakçıları - aktorlarının lüğətində etik leksikonunun olması məlumdur. Bu və ya başqa ölkənin başqa ölkəyə təcavüzü bir qayda olaraq aşağıdakı amillərdə əsaslandırılır: qüvvələr tarazlığını təmin etməklə öz təhlükəsizliyini təmin etmək üçün, ya özündən olan etnik azlığın hüquqlarını müdafiə üçün, ya məlum ümumi dəyərləri qorumaq üçün, ya da tarixi, dini və başqa amillərə görə və s. Başqa sözlə heç bir dövlət istər beynəlxalq ictimayyətin, istərsə də öz xalqının gözündə işqalçı kimi görünmək istəmir. Bu halda hər bir işqalçı - təcavüzçü dövlət beynəlxalq miqyasda özünə bəraət qazandırmaq üçün mənəvi (moral) bəraət axtaiır. Belə mənəvi bəhanələrə başqa aktorlar da əl

həllinə yönəldilən prinsiplər.

Beynəlxalq hüququn ən əsas prinsiplərindən olan insan hüquqlarının və əsas azadlıqlarının qorunması (insan hüquqları haqqında ümumi Deklarasiya 1948-də qəbul olunmuşdur) prinsipləri müasir beynəlxalq münasibətlərin hüquqi təminatının özülünü təşkil edir.

Avropa Məhkəməsi l972-ci ildə insan hüquqlarına dair 63, 1982-ci ildə artıq 146 qərar qəbul edir.

Beynəlxalq hüquq prinsipləri bütün dəyərlər sisteminin mərkəzinə insan hüquq və azadlıqlarını qoyur.

İnsan hüquqlarının qorunması başqa bir hüquqi prinsipə də yol açır: fövqəladə vəziyyətlərdə insanların kütləvi məhvinin qarşısını almaq, onlara yardım üçün beynəlxalq hümanitar yardım etmək, bu vəziyyətə dəxalət etmək prinsipinə. Bu prinsip insanlann yaşamaq hüququndan, onların fundamental, təbii insani hüquqlarını təmin etmək ehtiyacından doğur.

Buraya Qırmızı xaç. Qaçqınlar üzrə Ali Komissarlıq, Beynəlxalq Uşaq Fondu, “Sərhədsiz həkimlər” və s. kimi təşkilatların (BMT nəzdində olan, dövlətlərarası təşkilatlar, qeyri- dövlətlərarası təşkilatlar) fəaliyyətini göstərmək olar. 5 aprel 1991- də BMT S,Hüseynin kürdləri kütləvi qırmasına qarşı 688-ci qətnaməsi, 16.12.1991-də BMT-nin Yuqoslaviya əhalisinə ərzaq yardımı haqqında 46M82 №-li qətnaməsi və s. buna misal ola bilər.

Belə bir sual da döğa bilər: Humanitar yardım, qaçqın - köçgünlərə və onlara aid qətnamələrin hamısı siyasi məzmundan kənardırlarmı? Cavabı - yox! da vermək olar. Azərbaycana Ermənistan işqalını pisləyən və qaçqın-köçgünün öz doğma yerlərinə qayıtmağını tələb edən BMT-nin 822,853,874,884-cü qətnamələrinin yerinə yetiriImməməsi buna sübutdur. ATƏT, AŞ qərarları da belə. Ona görə də Azərbaycanın mərhum Prezidenti H. Əliyev də, prezident İ. Əliyev də beynəlxalq hüquqi normalara uyğun gəlməyən belə neqativ münasibətləri beynəlxalq münasibətlərin ikili standartı adlandırırlar.

Burada və belə hallarda beynəlxalq münasibətlərdə hüquq və

fəlsəfəsilə. Burada qonşu ölkəyə hücum qanuni sayılırdı, tutduğu yer onun sərhədi elan olunurdu.

Beynəlxalq hüququn daha bir tarixi forması ***antropomorf forma olmuşdur.*** Burada absolyutizm prinsipi əsas idi-siyasi suverenitet süilalə üstünlüyü sayılırdı, onun apardığı müharibələr isə onun haqqıdır və başqa süilalə üzərində güclü siyasi suveren süilalə başçı olmalıdır, - fikri bu formada üstünlük təşkil edirdi.

Müasir beynəlxalq hüquqa görə hüquqşünaslar tərəfindən "beynəlxalq sistemdə işləyən xüsusi hüquqi sistemlərdir", "dövlətlərin iradəsinin təzahürü", "müəyyən ictimai münasibətləri tənzimləyən" hüquqi normalardır. "Beynəlxalq hüquq hər şeydən əvvəl hamının qəbul etdiyi normaların məcmuudur" - deyənlər ən doğru tərif vermiş olurlar.

XX əsrin 80-ci illərində ***liberal demokratiya*** beynəlxalq hüquqa müəyyən müsbət rol oynadı. Bir sıra hərbi rejimli dövlətlər (Argentina, Braziliya, Çili - Latın Amerikasında, Fillipin, Cənubi Koreya, Tayvanın Cənub-Şərqi Asiyada liberallaşması, ADR-in və AFR-in birləşməsi və s.) demokratiyaya meylli dövlətlər yarandı. Beynəlxalq hüquq beynəlxalq münasibətlərdə müəyyən qaydalar yaratmağ məqsədi güdür.

Bəs beynəlxalq hüququn əsas prinsipləri hansılardır?

Beynəlxalq hüququn əsas prinsipləri sözü ilə geniş və mühüm normalar başa düşülür. Onlar geniş mənalı olub yüksək hüquqi təsirə malik olan prinsiplərdir.

Beynəlxalq hüququn əsas prinsipləri ən tanınmış və mötəbər beynəlxalq təşkilatların sənədlərində öz əksini tapmışdır:

Məsələn, BMT-nin Nizamnaməsində, beynəlxalq hüququn prinsipləri haqqında ***1970-ci il Deklarasiyasında^*** Avropada Təhlükəsizlik və Əməkdaşlıq İclasının 1975-ci il yekun aktında və s.

Beynəlxalq hüququn ***əsas prinsipləri üç qrupa bölünür:***

a) beynəlxalq münasibətlərin subyektlərinin bərabərliyini təmin edən prinsiplər;

b) onların müstəqilliyini təkidlə təsdiq edən prinsiplər;

c) beynəlxalq konflikt və ya ziddiyətlərin sülh yolu ilə

qarşı bundan istifadə olundu. Beynəlxalq münasibətlərin bu forması indi daha geniş yayılmaq hüququ qazanır.

***Beynəlxaİq münasibətlərin hüquqi tənzimlənməsi problemləri*** Tarixi faktlar göstərir ki, dövlətlər, şəxslər, müxtəlif sosyal cəmiyyətlər bir-biri ilə beynəlxalq aləmlə müəyyən münasibətlərdə olarkən, bir-biri ilə iqtisadi, siaysi, sosyal proseslər üzrə əlaqələr yaradarkən, sərhədlərindən xaricə çıxan konflikt apararkən, hətta müharibələr edərkən müəyyən qaydalara riayət etmiş, bu sahədə imkan verilən sərhədi keçməmişlər. Bu gün beynəlxalq münasibətlərdə belə tələblər daha ciddi qoyulur. Bunu bəşəriyyətin ekoloji, demoqrafik, iqtisadi, siyasi zərurəti tələb edir. Onunçün də kütləvi qırqın silahları nəzarətə alınır, nüvə silahlarının yayılmasına imkan verilmir.

Tarix boyu insan cəmiyyəti özünün başqaları ilə münasibəti üçün müəyyən qaydalar, hüquqi normalar yaratmışdır. Burada dünyada hüquqi anlamın geniş yayılması, etik normaların artımını nəzərə alsaq onların izahının əhəmiyyətinin də artdığını qeyd etməliyik. Lakin bunların dövlətlər və insanların qarşılığlı münasibətləri üçün hələ də kifayət olmadığını da deməliyik. Deməli, beynəlxalq hüquq normalarının tənzimlənməsinə ehtiyac var.

Beynəlxalq hüquq tarixən də regulyator - tənzimçi rolunu oynamışdır.

İlk mərhələsində beynəlxalq hüquq teoloji şəkildə idi. Misirdə, Assiriyada, Peruda, Uzaq Şərq xalqlarında müharibə elan etmək hakimlərin vəzifəsi idi. Hökmdar müharibəni qurtara da bilməzdi. Bunu da kahinlərin fitvası həll edirdi.

Bunu indi də xaç müharibələrində, islam dini rəhbərlərinin müxtəlif çıxışlarında Salman Ruşdinin “Şeytan ayələri” kitabına görə onun qətli üçün Xomeyni fitvasında islam peyqəmbərinin karikaturalarına görə etirazlarda ruhani başçılarının rolunu görürük.

Orat əsrlərdə beynəlxalq hüququn ***konsepsiyasını hüququn metafizik forması*** yerinə yetirirdi - başqa torpaqları işqal hüququnun bir nəslə məxsus olduğu ilahinin hökmüdür, -

vəsaitlərdir. Məqsəd və vasitə - dialetik cəhətdən bir-birinə bağlı kateqoriyalardırlar. Heç bir, hətta ən ideal məqsəd vəsait və vasitəsiz yerinə yetirilə bilməz - reallaşmaz. Öz növbəsində vasitə də məqsədə uyğun olmalıdır. Məqsəd və vasitə müxtəlif hadisələr üçün deyil, onların bir-birinə ***nisbətdə olan müxtəlif vəziyyətlərinə*** müvafiq olur. "Məqsəd" və "Vasitə" arasındakı uyğunluq ***"strategiya^* adlanan kateqoriyada*** özünü biruzə verir. Günlərimizdə "strategiya" sözünün məna genişliyi diqqəti cəld edir. İqtisadi strategiya, neft strategiyası, siyasi strategiya, sahibkarlığın nkişafı strategiyası, bank işinin strategiyası və s., hətta "böyük şəhərlərdə qarpız satmaq strategiyası". Lakin bir mənası tamam aydındır: məqsədə çatmaq üçün vasitələrin uyğunluğu - bu klassik strategiyanın əsl mənasını ifadə edir. Keçmişdə ancaq hərbi əməliyyatların aparılmasına aid edilən strategiya sözü indi daha geniş mənada beynəlxalq münasibətlərə aid edilərək ölkələrarası münasibətlərin həyata keçirilməsi yollarını ifadə edir.

Beynəlxalq münasibətlər iştirakçılarının (aktorlarının) fəaliyyəti üçün qüvvələr xüsusiyyətinin əsas vasitə kimi öyrənilməsinin də əhəmiyyəti böyükdür.

***Güc və zorakılıq*** ən qədim dövrlərdən beynəlxalq münasibətlər aktorları (iştirakçıları) arasında geniş yayılmış vasitələır olublar. Güc və zorakılıq məfhumları altında hər hansı bir beynəlxalq münasibətlər aktorlarunun başqa bir iştirakçıya öz iradəsini zörla qəbul etdirmək cəhdi nəzərdə tutulur. Bununla da beynəlxalq münasibətlərə öz rəyini diktə etmək meyili yaranır.

Müasir alimlər "gwc" sözü qarşısında ***"təsir***** sözünü qoyurlar. Yəni əyər bir aktor güc işlətməklə beynəlxalq münasibətlərə təsir etmək yolunu tutursa beynəlxalq münasibətlərin başqa aktorları- iştirakçıları onu bu yoldan "inandırma" ilə çəkindərməyə cəhd edir, bununla da beynəlxalq münasibətlərin sabitliyini, beynəlxalq münasibətlərin iştirakçıları arasında etimad yaratmağa çalışır, beləliklə beynəlxalq münasibətlərin stabilliyinə xidmət edirlər. Məsələn, Yuqoslaviya, İraq müharibələrində ABŞ-in, İngiltərənin siyasətinə

Ubii-aiiKOB n.A. Me>KjıyHapo;iHi>ıe omouıeımn. M., 1996, s. 198

çəkisini unutmaq olmaz. Q.Morqentau belə hesab edir ki, milli maraq iki əsas elementə malikdir: mərkəzi (daimi) və ikinci dərəcəli (dəyişkən). Eyni zamanda mərkəzi maraq 3 faktordan ibarətdir:

a) marağın təbiəti - bu müdafiə olunan maraqdır;

b) siyasi əhatə - burada maraq yaranır və formalaşır;

c) rasional zərurət - maraqın seçilməsi və vəsaitlərini məhdudlaşdırır.

Liderlərin fəaliyyəti ambisiyaları (Səddam Hüseynin Küveytlə müharibəsi, Buşun İraqa hücumu və s.), temperamenti və s. bəzən məqsədi təyin edir. Ölkə başçısı müstəqildir, qərar qəbul etməkdə azaddır. Onlar öz hərəkətlərinə dərhal milli maraq donu geydirməyi bacarırlar. Beynəlxalq münasibətlər sahəsində məşhur mütəxəssis olan J.V.Dyurozel doğru olaraq göstərir ki, "əlbətdə, milli marağı düzgün təyin etmək yaxşı olardı. Bu zaman beynəlxalq münasibətlərdə milli marağın əslini tez təyin etmək olardı - hansı maraq liderin marağıdır, hansı - milli maraqdır. Bəla ondadır ki, hər hansı bir obyektiv milli maraq haqqında hər hansı mülahizə subyektiv mülahizə olcaqdır". Milli maraqa düzgün təyin verilə bilmədiyi üçün "milli uyğunluq" ifadəsi işlədilir. Burada milli birliyin əsasını təşkil edən dil, din birliyi, mədəni - tarixi dəyərlər, milli-tarixi yaddaş və s. nəzərdə tutulur.

Doğrudan da mədəni - tarixi ənənələr və milli dəyərləri nəzərə almadan, onları başa düçmədən hər hansı bir dövlətin xarici siyasətini və beynəlxalq münasibətləri anlamaq çətindir. Keçici və subyektiv milli maraqlar burada istisnadır. Bəzən subyektiv milli maraqlar elə mifləşdirilir ki, beynəlxalq münasibətlərdə əngələ çevirilir, fəlakət gətirir. 1991-ci ildə beynəlxalq normalara zidd gedərək İraq Küveytə qəflətən hücum etdi. Belə "milli maraqlar" Pridnestrovya məsələsi, Kosovo-Albaniya konflikti. Dağlıq Qarabağ və Erməni işqalı və s. beynəlxalq münasibətlərə əngəldir.

Xarici siyasət strategiyasında və vəsaitlərin təyin olunmasındakı məsələlər də beynəlxalq münasibətlərin əsas məsələlərindəndirlər.

Vasitələr - məqsədə çatmaq üçün yollar, üsullar, metodlar və

məqsədləri güdür və hansı maraqları rəhbər tuturlar? Onların öz məqsədlərinə çatmaları üçün ən əsas vəsaitlər (vasitələr) və strategiyalarının geniş yayılmışları hansılardır? Vasitələr tərkibində qüvvələrin rolu dəyişibmi? Beynəlxalq aktorlar öz maraqlarına çatmaq üçün daha hansı cəhdləri edirlər?

Bu suallara cavab verməzdən əvvəl bir də təkrar edək ki, beynəlxalq münasibətlərin əsas iştirakçıları dövlətlərdir. Hər hansı bir dövlətin hər hansı bir beynəlxalq əhəmiyyətli qərarı əyər başqa dövlətlər tərəfindən dəstəklənməsə və qəbul olunmasa göydən asılı qalardı. Başqa iştirakçılar, - QDT, müxtəlif cərəyan və təşkilatlar, şəxsi - xüsusi subyektlər dövlətlərarası hər hansı bir məsələyə əngəl ola bilsələr də dövlətlərin beynəlxalq əhəmiyyətli məsələlərindən çıxış etməsələr onların fəaliyyəti əhəmiyyətsiz olar. Bunlar öz məqsədlərinin mahiyyətini o zaman reallaşdıra bilərlər ki, dövlətlərin məqsəd, maraq və strategiyalarını başa düşsünlər. Ona görə bu məsələlərin analizi zamanı mütəxəssislər dövlətləri beynəlxalq münasibətlərin əsas iştirakçısı kimi önə çəkirlər. Bununla belə, yuxarıda qeyd etdiyimiz kimi, beynəlxalq münasibətləri təkcə dövlətlərarası münasibətlərlə eyniləşdirmək düzgün olmazdı. Beynəlxalq münasibətlərin məqsəd və maraqlarının izahı çox çətin məsələdir.

Hər hansı bir məsələdə subyektin - iştirakçı dövlətin məqsədini təyin etmək o zaman çətinləşir ki, o, bu məqsədini açıq elan etmir. Son nəticə olan əməlində bu məqsəd özünü göstərir. Marqaret Tetçer hökümətinin məqsədi xeyli müddət açıqlanmamışdı, bu özünü Malvin adaları krizisində göstərdi və onun hökümətinin avtoriteti dərhal yüksəldi. “Maraq” sözünə müxtəlif təriflər verilmişdir. K. Marksa görə “gələcək nəticə əvvəl insan başında ideal şəkildə mövcud odur - yəni əsas məqsəd və oyanış, daxili obraz kimi yaşayır. Bu məqsəd insanın vəzifəsi kimi insanın vəsait və hərəkət xarakterini təyin edir, və o, öz fəaliyyətini bu məqsədə həsr etməlidir”. Burada əsas iştirakçıların obyektiv və subyektiv amillərini məqsədlər strukturunda nəzərə almaq vacibdir. Burada milli maraqlar və güc kateqoriyalarının məqsəd anlayışında

dünya - xüsusilə Avropa, ABŞ, Yaponiya və s. texniki-sənaye inkişaf siçrayışı keçirərkən səriştəsiz, rüşvətxor SSRİ rəhbərləri ancaq neft gəliri ilə ölkəni dolandırır, başqa sahələrə fikir vermirdilər. Mikroelektron texnologiya dünyanı çulqaladığı halda SSRİ-də bunun adını eşitməmişdilər. Ölkə reformalar tələb edirdi. Lakin artıq gec idi. “Perestroyka”, “sürətli inkişaf” kimi boş şüarlar ölkəni xilas edə bilmədi. SSRİ dağıldı. Özündən sonra 15 geri qalmış, dağılmış ölkə miras qoydu. QDT-nin yoxluğu və ya öz içində qapalılığmın nəticəsi bu idi.

QDT öz hərəkətlərində avtonomdurlar, müstəqildirlər, beynəlxalq münasibətlərə birbaşa təsir edə bilərlər.

DAT və QDT-dan başqa bu gün Beynəlxalq münasibətlərin başqa iştirakçıları da vardır. Buraya daxildirlər: milli-azadlıq təşkilatlan, separatçı təşkilatlar, mafioz qruplaşmalar, terrorçu təşkilatlar, regional və yerli birləşmələr, ayrı-ayrı şəxslər. Bunlardan bəziləri, məsələn, milli-azadlıq təşkilatları (Fələstin azadlıq təşkilatı -FAT kimi) beynəlxalq subyektdir. FAT Ərəb ölkələri liqasına, İKT-na, Bloklara qoşulmayan ölkələr Hərəkatına daxildir, BMT-də müşahidəçi statusuna malikdir.

Gələcəkdə beynəlxalq münasibətlərin formalaşmasında yuxarıda qeyd etdiyimiz beynəlxalq münasibətlərin aktorlarının (iştirakçılarının) rolu və onların beynəlxalq hadisələrə və problemlərə təsiri getdikcə daha aktual xarkter alacaq və dünya sisteminin möhkəmlənməsində, xüsusilə stabillik, sülh, tərəqqi məsələlərində bu orqanların rolu daha effektli olacaqdır. Diplomatlar yerləşdikləri ölkədə bu təşkilatlatla sıx əlaqəni unutmamalıdırlar.

### *Beynəlxalq münasibətlər iştirakçılarının məqsəd və vasitələri*

Beynəlxalq münasibətlərin əsas iştirakçılarının xarakter xüsusiyyətlərinin analizi və onların bir-biri ilə qarşılıqlı əlaqələri bu münasibətlərin sosyal mahiyyətini və təbiətini daha yaxşı başa düşməyə kömək edir, bununla da belə anlamla bağlı yeni suallar yaradır. Doğrudan da beynəlxalq münasibətlərin iştirakçıları hansı

***ilk dövhthrarası təşkilat (DAT)*** 1815-ci ildə Napolion müharibələrinin bitdiyini elan edən Vyana Konqresində yaranır. Konqresin Yekun aktında ***Reyndə gəmiçiliyin*** inkişafına nəzarət ***üzrə Daimi Komissiya*** yarandığı göstərir. Bundan sonra Beynəlxalq sanitar komissiya (1853-cü il), Beynəlxalq Teleqraf ittifaqı (1865- ci il), Ölçü və Çəki Beynəlxalq Bürosu (1875-ci il), Beynəlxalq Poçt Rabitə ittifaqı (1878-ci il). Sənaye Şəxsi mülkiyyətinin qorunması (1883-cü il). Beynəlxalq Cinayyət Polisi 'fəşkilatı (İnterpol, 1923-cü il), BMT (1945-ci il) və s. yaranmışdır. l945-ci ildən DAT-ın sayı daha da artır. 1970-ci illərin əvvəlində əyər 220 DAT vardısa, 70-ci illərin ortalarında onların sayı artıq 260, 90-ci illərin ortalarında isə onların sayı 400-ə çatdı.

Bunların hamısı, eyni dərəcədə də olmasa, beynəlxalq münasibətlərin formalaşmasında iştirak edirlər.

Beynəlxalq qeyri-dövlət təşkilatları (QDT) da beynəlxalq münasibətlərin ***aktorlan - təşkilatlandırlar.*** DAT-dan fərqli olaraq QDT ərazi üzrə yaranmır, beləliklə onların üzvü də suveren dövlətlər deyillər. Beynəlxalq tərkibli ola bilir, xüsusi yaradılır, könüllülük prinsipi ilə təsis olunur. Bunlara “yeni aktorlar” deyirlər. Ş.Zorqbib yazır ki, QDT ''***ictimaiJikrf***' ifadə etdiyi üçün real təsirə malikdir.

Bu gün dünyada 7 ***mindən çox QDT*** mövcuddur. Onların bütün dünyada 26 min filialı fəaliyyət göstərir. Bu təşkilatlar eksport-import (ixrac-idxal) və investisiya fəaliyyətinə görə əsasən üç iqtisadi zonada hiss olunacaq təsirə malikdirlər: ABŞ, Avropa İqtisadi Birliyi və Yaponiyada. Bu iqtisadi zonalardan başqa QDT-i daha 10 inkişaf etmiş ölkənin müxtəlif sahələrində müəyyən təsirə malikdirlər. QDl’ rolu dünyada daha da artır.

Məsələn, ABŞ-in ticarətinin 80% QDT əlindədir. Onlar ən yeni texnologiyanı ABŞ-a gətirir, tətbiq edir, ölkənin inkişafına səbəb olur.

Bunun əksini biz keçmiş SSRİ təcrübəsində görürük. QDT-i SSRİ-də ya yox idi, ya da olanlarının da idxal-ixrac prosesində iştirakı sıfıra bərabər idi. Ona görə də keçən əsrdə 60-70-ci illərdə

siyasəti öz zamanının siyasi tələblərinə cavab verməlidir. Başqa hər hansı bir iştirakçı ~ aktor insanların həyat tərzi, talei və azadlıqma dövlət zəmanət verən insan cəmiyyətlərinin universal siaysi təşkilat formasıdır. Bütün bəşəriyyət dövlətlər halında birləşiblər. Yeni dövlətlər yaranması prosesi davamlıdır və indi də bu proses hələ bitməyib. Əyər XV əsrdə dünyada 5-6 dövlət vardısa, l900-cı ildə onların sayı artıq - 30, 1945-ci ildə BMl'-nin 60 dövlət üzvü idisə, 1960-cı ildə artıq BMT-yə 100 üzv ölkə, 1990-cı ildə - 160, 1992- də - 175, 1996-da - 185, 2006-ci ildə 192 ölkə üzv oldu. BMT-nin üzvü olmaq istəyən ölkə öz müstəqil ərazisinə, müstəqil dövlətinə malik olur və dövlətdən milli suverenliyə keçid başlanmış XVlll əsrdən monarxik dövlətdən milli suverenliyə keçid başlanır. Dövlətin müstəqilliyi prosesi onda reallaşır ki, milli müstəqillik əmələ gəlir. Dövlət özünü beynəlxalq aləmdə öz xarici siyasəti ilə təcəssüm etdirir. Bu özünü sabit etmə isə əsasən iki formada təhazür edir, ya həyata keçirilir; a) diplomatiya; b) strategiya vasitəsilə. Lakin xarici siyasət artıq dar məna alır, beynəlxalq münasibətlərin bütün elementlərini əhatə edə bilmir: məsələn, ***ekologiya problemlərini, elmi-texniki proqresi, iqtisadiyyat məsələlərini, KlV-ni, Kommunikasiyaları*** və ***mədəni dəyərləri.*** Xarici əlaqələrdən fərqli olaraq beynəlxalq münasibətlər bu faktorların və fəallaşan aktorlar olan beynəlxalq təşkilatların təsirinə daha çox məruz qalır və bu təsir altında tez-tez keyfiyyət dəyişikliklərinə uğrayır.

Bu cəhətdən dövlətdən başqa beynəlxalq münasibətlərdə qeyri-dövlət iştirakçıları - aktorlarını nəzərdən keçirək. Bunlara daxildirlər: dövlətlərarası təşkilatlar (DAT), qeyri-dövlət təşkilatları (QDT), transmilli korporasiyalar (TMK) və başqa hərəkat və təşkilatlar ki, beynəlxalq miqyasda iştirak edirlər.

Fransız mütaxəssisi Ş.Zorqbib beynəlxalq təşkilatları təyin edən üç xüsusiyyəti ayırır:

1. Əməkdaşlıq üçün siyasi iradəyə malik olması;
2. Təşkilatın fəaliyyətini davam etdirə biləcək daimi aparata - idarə və kadrlara malik olması;
3. Səlahiyyətlər və qərarlar avtonomluğu (müstəqillik).

***Beynəlxalq münasibətlərin iştirakçıları.***

Beynəlxalq münasibətlər elmində beynəlxalq səviyyədə qarşılıqlı münasibətlər yaratmaq işində iştirak edənləri ifadə etmək üçün “aktor” termini işlədilir. Məsələn, bu söz rusca “aktyor” (elə azərbaycanca da) kimi verilə bilər. Bəzi Qərb nəzəriyyəçiləri də bu sözün həmin mənasını qəbul edirlər. B.Rassel və X.Starr beləcə də yazırlar ki, Şckspir bütün dünyanı böyük bir səhnə, adamları isə aktyor hesab edirdi, lakin, “aktyor” sözü dar mənalıdır, verilən müəyyən bir rolu ifa edir. Beynəlxalq münasibətlərdə fəaliyyət göstərənləri ifadə etmək üçün isə “aktor” sözünü işlətmək qəbul olunmuşdur. Beynəlxalq münasibətlərdə bu söz hər hansı bir avtoriteti, təşkilatı,qrupa, hətta beynəlxalq hadisələrə təsir göstərə biləcək hər hansı bir individi - şəxsi ifadə etmək üçün işlədilir. Aktor sözü geniş mənalı söz olub geniş fəaliyyət dairəsinin iştirakçısım göstərir. Onlar, necə deyərlər, dünya səhnəsində bitmiş tamaşa ifaçıları sayılırlar.

Beynəlxalq münasibətlərdə bəs hansı ümumi birliklər, birləşmələr, ***qruplar aktor sayıl sa da*** əksər alimlər hesab edirlər ki, aktorlann tipik nümunəsi ***dövlətlər^ beynəlxalq təşkilatlar və sistemlərdir.*** Marton Kaplan beynəlxalq aktor bunları hesab edir ki, onların da sayı üçdür.

1. Milli (suveren) dövlətlər;
2. Transmilli qurumlar (regional, beynəlxalq təşkilatlar, məsələn, NATO);
3. Universal beynəlxalq aktorlar (beynəlxalq təşkilatlar, məsələn, BMT).

Bəziləri, buraya beynəlxalq təsirə malik şirkətləri, birlikləri də qoşurlar, milli-azadlıq hərəkatları, regional-lokal birliklər olan AŞ kommunasını. Yerli orqanların Avropa Konfransını və s. əlavə edirlər.

Bunların sayını artıranlar da var. Lakin bunların hamısında əsas aktor kimi dövlət göstərilir. Dövlət, beynəlxalq münasibətlərdə aktor üçün tələb olunan bütün şərtlərə cavab verir. Dövlətin xarici

var. Onları başqa mədəniyyətlərə qarışdırmaq olmur. Hər hansı bir Qərb universal sivilizasiya formaları: bazar iqtisadiyyatı, insan hüquqi, insan həyatının özəllikləri əgər bu və ya başqa xalqın mədəni dəyərləri içərisində adapta olunmasa (uyğunlaşmasa) beynəlxalq münasibətlərdə mənasını itirər. Lakin təcrübə də göstərir ki, müxtəlif mədəniyyətlər görüşəndə əvəzetmə olmur, biri o birini rədd etmir, sıxışdırıb aradan çıxarmır.

İran təcrübəsi buna misaldır. ABŞ-ın əli ilə Məhəmməd Rza şah Pəhləvi zamanında milli mədəniyyətin Qərb mədəniyyəti ilə əvəz olunması cəhdi, Ayətulla Xomeyni tərəfindən Qərb mədəniyyətindən tam azad olud milli mədəniyyəti onun elementlərindən təmizləmək istəyi də öz faydasını vermədi, baş tutmadı. Bu milli mədəniyyətə xidmət etmədiyi kimi, beynəlxalq sistemin də stabilliyinə kömək etmədi. Lakin Yaponiyada milli dəyərləri saxlamaqla Qərb mədəniyyətinə inteqrasiya beynəlxalq sistemin mədəni mühitinin yaxınlaşması xeyrinə oldu. Sosyal mühitin universallığı da məhz budur.

Qeyri-sosyal mühit də xüsusilə geopolitik mühitdiə müəyyənləşir. Geopolitikadan “irqi üstünlük” (Hitler dövründə), ərazi iddealan məqsədiylə coğrafi mühitin əsasında sərhəd genişləndirilməsi və s. məqsədlərlə istifadə olunduğu məlumdur.

Geopolitikanın ərazi-coğrafi, demoqrafik və iqtisadi faktorları beynəlxalq münasibətlərdə əhəmiyətli faktorlardırlar. Məsələn, AR- nın ABS üçün geopolitik əhəmiyyəti onun resursları çoxluğundan başqa həm də Yaxın Şərqdəki mövqeyi. Cənubi Qafqazda (Rusiyaya, Ermənistana, Gercüstana, Türkiyəyə, Orata Asiyaya çıxmaq üçün) üstün mövqedir.

Bugünkü qlobal beynəlxalq məsələlərin həllində, dünya münasibətlərinin tənzimlənməsində, iqtisadi, siyasi, hərbi, ekoloji, elmi-texniki maraqların həyata keçirilməsində beynəlxalq münasibətlər mühitini təşkil edən faktorların əhəmiyyətini unutmaq olmaz.

hədsizdir.

Qlobal beynəlxalq münasibətlərə təsir edən faktorların məcmuu - mühitdir. Mühit məhdudiyyətləri və geniş imkanları - inkişaf perspektivlərini yaradır. Bunların içərisində sivil - dünyəvi mühitin böyük rolu var. Bunlardan biri də sosyal mühitdir ki, bu da müasir dövrün dünya mədəniyyətinin xüsusiyyətləri ilə izah olunur.

"Sivilizasiya" sözü XVIII əsrdə yaranıb və insan cəmiyyətində mədəni inkişafın müəyyən mərhələsinə aid edilib. Bu .sözü ilk dəfə şotland filosofu A.Verqyusson (1723-1816) işlədərək geniş mənada istifadə edib: bir tərəfdən insan cəmiyyətini heyvanlar aləmindən ayırmaq üçün, o biri tərəfdən də insan cəmiyyətini hər hansı bir cəmiyyətdən ayırmaq üçün. Lakin XVIIl əsrin ikinci yarısından bu söz başqa mənada işləndi: mövcud dəyərlərin insan cəmiyyəti tərəfindən artırılması, çoxaldılması, üçün o zamanlar "sivilzasiya" deyəndə müharibələrin qarşısını almaq, quldarlıqı ləğv etmək, işqalları ***yox etmək,*** dilənçiliyin kökünü kəsmək, dünyaya "aqil imperiyası" adlanan bəşər xeyrinə işləri yaymağı başa düşür və bu humanist əməlləri dövlətlər arasında və beynəlxalq münasibətlərdə yaymağı təbliq etməyi nəzərdə tuturdular.'

XIX əsrin sonu XX əsrin əvvəllərində, məşhur fransız sosioloqları E.Dyurkqeym və M.Moss sivilizasiyaya böyük ideoloji, bədii - ədəbi, mədəni və siyasi dəyərləri, cərəyanları və hərəkatları daxil edir, onları bəşər sivilizasiyası hesab edirdilər. Onların fikrincə "sivilizasiya" məfhumuna ancaq insan cəmiyyətinin o elementləri daxil olmalıdır ki, nəsildən nəslə ötürülə bilər və yeni nəsillər tərəfindən qəbul oluna bilər: məsələn, qədim Elladanın dövlət idarəçiliyi forması, qədim Roma idarə üsulu. Dirçəliş dövrü dəyərləri. Afrika tayfalarının nağılları və s.

Zaman çərçivəsində sivilizasiyaların plyuralizmini marksizm nümayəndələri də qəbul edirlər.

Lakin müasir insanın sivil dəyərləri özündən əvvəlkilərlə müqayisəyə gəlməz.

Qərb mədəniyyətinin proqresiv formalarının da öz hüdudları

**Koım^ıCB A. AjöyKii M., 1988. crp. 278**

mühiti arasında münasibətdən əmələ gəlir. Mühit anlayışı sistemli analizin fundemental hissələrindən biridir. Onun mühüm metodoloji əhəmiyyəti var: beləki mühüt anlayışı ilə sistemin fəaliyyəti və evolyusiyasını izah etmək olur. Siyasi elmlərə sistemli analizin tədbiqinin yaradıcılarından biri Devid İston hələ 50-ci illərdə belə bir fikrə diqqət yönəldirdi ki, siyasi sistem cəmiyyətdən gələn müəyyən xarici impulslara məruz qalır. Bu impulslar cəmiyyətin tələbləri, onun müdafiəsi şəkilində təzahür edir. Bu isə sistemin fasiləsiz fəaliyyətini təmin edir.

Ümumi sözlərlə desək sistemin mühiti ilə onu əhatə edən hər şey burada nəzərdə tutulur. Bu ümumi anlayışdır. Lakin dəqiq deyilsə sistemə ~ istər siyasi, istər təbii sistem olsun, təkcə xarici mühitin deyil, sosyal-ictimai mühitin də təsir vardır. Burada sosyal mühit (insanla cəmiyyət münasibətlərinin məcmuu) və sosyal mühitdən kənar (qeyri-sosyal) (təbii ətraf mühitin rəngarəngliyi, coğrafi xüsusiyyətlər, təbii sərvətlərinin mövcudluğu və s.) mühiti də fərqləndirirlər.

Beynəlxalq münasibətlərin sistemini, strukturunu və mühitini aydın başa düşmək olur. Məsələn, dövlətlərin regional münasibətlərini götürək. Avropa ittifaqının strukturunu oraya daxil olan ölkələrin iqtisadi, diplomatik , hərbi-siyasi, mədəni və başqa sahələrdəki təşkilində görmək olar.

Bu təşkilatın mühiti başqa dövlətlərin Avropa ittifaqına münasibətlər, başqa beynəlxalq təşkilatların və başqa regional - coğrafi (Avropa), siyasi (BMT və onun orqanları, Amerika dövlətləri təşkilatı. Afrika ölkələri birliyi təşkilatı. Ərəb ölkələri liqası və s.), iqtisadi (OPEK, Qara dəniz iqtisadi birliyi və s.) və s. institutların Avropa Birliyinə münasibətləri onun mühitini təşkil edir. Bunların hər birinin bir-birinə bu və ya başqa təsiri Avropa Birliyinin mühitini təşkil edir, onda dəyişikliklər əmələ gətirir, Avropa Birliyi tərəfindən bu münasibətlərə "cavab" verilir. Beynəlxalq aktor üçün bu gün mühit imkanları daha genişdir. Makedoniyalı iskəndər İran şahı Dara ilə öz ixtilaflarını telefon vasitəsilə həll etmək imkanına malik deyildi. İndi isə belə vasitələr

ümumiplanetar, regional və subregional prinsiplərlə öz münasibətlərini qurmaq tələbində bu sistem qanunlar mənbəi kimi, aparıcı rol oynayır. Hər bir beynəlxalq sistem isə öz qanunauyğunluqları ilə dövlətlərarası məkan-zaman anlayışına müvafiq tələbləri olan qanunlar məcmuundan başqa bir şey deyildir. Bu qanunlar o qədər dəqiqdirlər ki, çox vaxt onların təhlilində səhv etmək qeyri-mümkün olur. Bu gün dünya etimadsızlıqlar və artan risklər mərhələsinə daxil olub. Kiçik dövlətlərin, regional dövlətlərin və böyük dövlətlərin beynəlxalq aləmdə özünü aparmasını proqnozlaşdırmaq getdikcə çətinləşir. (Rusiya, ABŞ, Hindistan, Pakistan, Şimali Koreya, İran, Suriya, Venesuella və s. ölkələrin başqa ölkələrə hədə-qorxusunu misal gətirmək olar) "Ögey" və "doğma" dövlətlər məfhumları daha təsirli olub (dini, ya inkişafına görə). Kütləvi qırqın silahlarının, kimyəvi, baktereoloji vasitələrin, başqa daha yeni silahların tətbiqi təhlükəsi dünyada artır. Qərb dəyərlərinin geniş yayılması (bazar iqtisadiyyatı, demokratiyanın açıqlığı, insan hüquqları, həyat tərzi, söz azadlığı və s.) və daha çox əhəmiyyət kəsb etməsi ilə keçmiş sosyalist ölkələrindən, xüsusilə keçmiş SSRİ respublikalarından insanların Qərbə miqrasiyası, postkolonial ölkələrdən insan kütləsinin inkişaf etmiş ölkələrə axını stabilliyin pozula bilməsi ehtimalını artırır. Bu özünü iki həyat tərzinin gündəlik konfliktində, mədəniyyətlərin uyğun- suzluğunda, ideralların toqquşmasında və itməsində, ənənələrin ölməsində, özünüdərkin yox olmasında, irticaçı millətçiliyin güclənməsində və s-də daha aydın göstərir.

Məhz yuxarıdakı bu müddəalar beynəlxalq sistemlərin fəaliyyəti və transformasiya qanunlarını düzgün başa düşüb səmərəli tətbiq edilməsini tələb edir. Xüsusilə diplomatlar akkreditə olunduqları ölkələrdə bu qanunauyğunluqlardan düzgün baş çıxamıağı bacarmalıdırlar.

***Beynəlxalq münasibətlər mühiti.***

Gördüyümüz kimi struktura sistemin öz elementlərinə təsirinin cəmidir. Lakin bu təsir və ya məcburiyyətlər təkcə sistemin öz-özlüyündə təsirindən əmələ gəlmir, onunla - yəni sistemlə onun

Ru prinsiplər əsasında, demək olar ki, hər bir beynəlxalq sistemin strukturlarını təyin etmək, onların mövcudluğu və dəyişiklikləri qanunlarım müəyyənləşdirmək mümkündür.

Beləliklə, məlum olur ki, beynəlxalq münasibətlərdə .strukturu keyfiyyətlərindən onun iştirakçılarının fəaliyyəti çox asılıdır.

Beynəlxalq sistemlər tarazlığı və ya balans gücü qanunu da beynəlxalq münasibətlərdə nisbi sabitliyi qorumağa imkan verən ümumi qanunlardandır.

Beynəlxalq münasibətlərdə sabitliyi qorumaq üçün altı qayda təklif olunur ***{M.Kaplana gör^).***

1. Öz imkanlarını artırmaq - lakin müharibə ilə yox, müzakirələr yolu ilə.

2. Öz imkanlarını artırmaq mümkün olmadığda müharibə yolunu .seçmək.

3. Böyük dövləti məhv etməkdənsə müharibəni dayandırmaq. Məsələn, Avropa ölkələrində belə fikir var ki, onların bir- birini məhv etməyin də sərhəddi var (ABŞ-ın Çini, Hindistanı məhv etməyi nəyə gətirib çıxarır?).

4. Sistemdə hegemonluq etmək istəyən hər hansı bir koalisiya və ya millətə qarşı müqavimət göstərmək.

5. Hər hansı bir milli dövlətin “beynəlxalq milli təşkilat prinsipi ilə yaradılmış beynəlxalq təşkilatlarla birləşməsinə” qarşı çıxmaq.

6. Böyük dövlətlərə qəbul oluna bilən partnyor-tərəf müqabil kimi baxaraq onlarla eyni sistemə girmək.

Beynəlxalq sistemlərin fəaliyyəti və transformasiyası qanunları probleminin nəzərdən keçirilən prosesi göstərir ki, dövlətlər beynəlxalq münasibətlərdə dünyada yaranmış beynəlxalq münasibətlərdən çox asılıdır. Beynəlxalq münasibətlərdə sistem qanunauyğunluqlar dövlətləri öz fəaliyyətini bu qanunlara uyğun qurmağa vadar edir, öz konfliktlərini bu qanunlarla tənzim etməyi qarşıya qoyur, diplomatiya sistemlərin qanunauyğunluqlarına əsasən hərəkət etməyi zəruri edir. Dövlətlərin beynəlxalq münasibətlərdə siyasi, iqtisadi və ideoloji qanunauyğunluqlar sisteminə əsasən

şirkət təyin etdiyi kimi beynəlxalq - siyasi struktur da qüvvələr tənasübündən asılı olaraq böyük dövlətlər ***tərəfindən tənzim*** olunur. Bu qüvvələr arasında güc imkanlarının dəyişməsi beynəlxalq sistemin strukturunu da dəyişə bilər. Lakin bu halda da maraqlan bir-birilə uyğun gəlməyin böyük dövlətlərin təsiri dəyişməz olaraq qalacaqdır. Beləliklə, mıhz beynəlxalq sistemin strukturu bu sistemin davamlılıqını, "inqilabiliyini", dəyişkənliyini, stabilliyini, əməkdaşlığa meyilliyini, konflikti iyini və s. göstərir. Bu da fəaliyyət sahəsində və transformasiya sistemində mövcud qanunlara əsaslanır. Burada qüvvələr tənasübünün - nisbətinin konfiqurasiyası (əsas dövlətlər), aktorların ierarxiyası dövlətlərin hərbi-siyasi, iqtisadi, resursları, sosyal mədəni, ideoloji və s. imkanlarının müxtəlifliyi, beynəlxalq sistemin homogen və ya geterogen xarakteri (məsələlərin bir-biri ilə razılaşdırılması; bazar iqtisadiyyatı, siyasi legitimlik, demokratik plyuralizm; belə razılaşdirilmalar nəgədər çox olarsa bir o gədər də sistem homogen sayilir) kimi məsələlər mühüm əhəmiyyət kəsb edir.

Beynalxalq sistemin bir struktur xüsusiyyəti də onun "rejimi" sayılır - yəni beynəlxalq mühasibətləri tənzimləyən formal və qeyri-formal prinsiplər, normalar, müqavilələr, qərarların qəbul olunması prosedurası və s. bura daxildir. Məsələn, beynəlxalq iqtisadi mübadilədə 1945-ci ildə əsası qoyulmuş liberal konsepsiya indi də Beynəlxalq Valyuta fondu (BVF), Beynəlxalq Bank və s. kimi inistitutların fəaliyyəti üçün əsas sayılır.

J.P.Derrienik beynəlxalq sistemin altı struktur xarakteristikanı - xüsusiyyətini verir:

1. Aktorların (iştirakçıların) sayı.
2. Onların arasında qüvvələr nisbəti.
3. Konfliktlə əməkdaşlıq arasında qarşılıqlı əlaqə.
4. Bu sistemin imkan verdiyi qədər bu və ya başqa vasitələrin istifadə olunması (güc, mübadilə - dəyişmə, ya inandırma).
5. Aktorların zahirən mərkəzləşməsi dərəcəsi - yəni mövcud beynəlxalq sistemin xarakterinin onların davranışına təsiri.
6. Aktorların özləri arasında status fərqləri.

4- cü tip - “sərt bipolyar sistem”. Buradan əvvəlki münasibət (3-cü tipdəki) bu tipə də məxsusdur. Fərqi bundadır ki, 3-cü tipdə neytral bloklara qoşulmayan “yumşaq” dövlətlər ola bildiyi halda, 4-cü tip sistemdə hər iki tərəf sərt, barışmaz mövqedə durub öz siyasətlərini qarşı tərəfə qəbul etdirməyə cəhd edirlər.

5- ci tip - “universal sistem”. Bu tip sistem federasiya yönümdür. Burada iştirakçılar universal aktor rolundadırlar. Bu tipdə ölkələrin razılığa gəlməsi prinsipi əsas rol oynayır. Məsələn, BMT- nin rolunun genişlənməsində. Burada bu beynəlxalq təşkilatın rolu böyük - universal dövlətlərin səyi ilə başqa müstəqil dövlətlərin - aktorlann mənafeinin əksinə olaraq genişləndirilir, BMT daha yeni mahiyyətli işlərə cəlb olunur.

6- ci tip - “ierarxik sistem”. Bu, əslində dünya dövləti rolunda çıxış etmək deməkdir. Milli olaraq müstəqil ərazilər dövlətlərə çevrilirlər və cəzb olunma dairəsindən hər birinin çıxmaq cəhdi ierarxik dünya dövləti tərəfindən susdurulur.

M.Kaplanın bu tiplərində mübahisəli məsələlər olsa da beynəlxalq münasibətlərin sistemi sahəsində ən düzgün təsnifatı verilən nəzəriyyədir.

***Beynəlxalq sistemlərin fəaliyyəti (işlənməsi) və transformasiyası qanunları***

Beynəlxalq sistemlər qanununa əsasən suveren dövlətlərin tənzim olunmayan fəaliyyəti öz maraqlarını rəhbər tutaraq beynəlxalq sistemi formalaşdırır. Burada əsasən aparıcı rolu güclü dövlətlər oLinayırlar və bu struktur bütün beynəlxalq ***aktorlann*** (dövlətlərin, təşkilatların və s. ***bütün iştirakçıların)*** fəaliyyətini tənzim edir. Amerika neorealisti K.Kolts yazır ki, bütün dövlətlər hərbi xərclər çəkirlər. Buna məcburdurlar, bir halda ki, resursları bu məqsədlə heç ağlabatan, ya aqıllı xərcləmə deyil. Beynəlxalq sistem strukturu bunu etməyə bütün dövlətləri vadar edir. Bu, iqtisadi, ya ekoloji maraqların zərərinə olan məcburiyyətdir və onların maraqlarına ziddir. Beynəlxalq siyasət toru bütün dövlətləri ***belə xərcləri çəkməyə*** məcbur edir. Bazarda iqtisadiyyatı bir neçə aparıcı

olaraq aşağıdakı beynəlxalq münasibətlər növləri göstərilir: iqtisadi, siyasi, hərbi-strateji sistemlər növləri.

Tədqiqat obyektindən asılı olaraq onların sabit və qeyri-sabit (S.Xofmana görə inqilabi), konfliktli və kooperativ, açıq və qapalı və s. kimi beynəlxalq sistemlər kimi tanındığı da məlumdur.

Sistemlərin bu müxtəlifliyi tədqiqatçını çaşbaş salmamalıdır. Onları birləşdirən mühüm və ümumi bir cəhət var: faktiki olaraq hər birində siyasi realizm nəzəriyyəsinin möhürü var. Hansı prizmadan asılı olmayaraq hər bir sistemdə əbərqüdrət dövlətlərin rolu, hakimiyyətin bölüşdürülməsi, təsir dairəsinin genişləndirilməsi, beynəlxalq konfliktlərin mövcudluğu və s. kimi faktorlar əsas rol oynayır.

Məhz siyasi realizm bu geniş məfhumların və sistemlərin əsasını təşkil edir: biopolyar, multipolyar, qüvvələr tarazlığı, imperiya idealı sistemləri. Biopolyar sistemi bu yaxınlara qədər iki böyük dövlət: SSRİ və ABŞ idarə edirdi. Silahlı qüvvələrin gücü, ərazilərin böyüklüyü, iqtisadi potensial, təbii sərvətlərin ehtiyatı və s. imperiya hərisliyi yaradır, başqa ölkələrə hökm etmək arzusu doğurur.

M.Kaplan beynəlxalq sistemlər tipologiyasım məhz yuxarıdakılardan ÇIXIŞ edərək ***altı tip sistemdən*** bəhs edir:

1 -ci tip - "fərqdi veto sistemi". Burada hər aktorun (iştirakçı) müxtəlif şantaj formalarından istifadə etməklə sistemi iflic etmək hüququ daxildir. Buraya hər hansı dövlətin özünü müdafiə hüququ da daxildir. Məsələn, kütləvi qırqın silahlarının yayılması məsələsində (İraq-ABŞ, İran-ABŞ).

2- ci tip - "qüvvələrin balansı sistemi". M.Kaplana görə burada ən azı beş böyük dövlət iştirak etməlidir.

3- cü tip - "çevik bipolyar sistem". Buraya müəllif - dövlətlər və yeni tip aktorlar - dövlətlərin ittifaqları və blokları, həmçinin universal aktorlar - beynəlxalq təşkilatlar daxildir. Burada güclü müəllif-dövlətlə qarşı tərəfə başçılıq edən (öz iradəsini qəbul etdirən) dövlət - aktor arasında müxtəlif sistemlilik bipolyarlığı əsas rol oynayır.

XVII əsr Avropa sistemi; bu I648-ci il Vestfal müqaviləsinə əsaslanırdı; XIX əsrdə Avropa dövlətlərinin siyasi bərabərlik ("Avropa millətlərinin konserti") sistemi; 1945-1990-cı illərdə (II dünya müharibəsindən sonra sosyalizm sisteminin dağılmasına qə- dərki dövr) dövlətlərarası qütbləşmə sistemi və s. Burada sistemin təhlilindən daha çox (onların qanunauyğunluqlarını üzə çıxarmadan) ***böyük dövhtlərin zora istinad*** etməsi prinsipi ön plana gəlir.

Beynəlxalq münasibətlərin tarixi - sosyal sistem kimi formalaşmasından bəhs edən ingilis alimi E.Luard yeddi tarixi beynəlxalq sistemin olduğunu qeyd etmişdir:

1. Qədim Çin sistemi (e.ə. 771-721); 2. Qədim Yunan dövlətləri sistemi (e.ə 510-338); 3. Avropa sülalələr sistemi (1300- 1559); 4. Dini hakimiyyət epoxası (1559-1648); 5. Dövlət müstəqilliyinin yaranması və tərəqqisi dövrü (1648-1789); 6. Nasionalizm (millətçilik) dövrü (1789-1914); və nəhayət 7. İdeologiyaların hökmranlığı dövrü (1914-1974).

E. Luard bu bölgüsü üçün tarixi sistemin əsas elementləri olan aşağıdakı dəyişkən və dövrü konseptual vasitələrdən çıxış edir: ideoligiya, elitalar, motivizasiya, dövlət (xüsusilə başçılarının) istifadə vasitələri, struktura, normalar, ayrı-ayrı institutlar və onların oynadığı rollar və s.

Beynəlxalq münasibətlərin öyrənilməsi və tədqiqi sisteminə ***empirik münasibət*** - yanaşma da diqqəti özünə cəlb edir. Bu sistem beynəlxalq münasibətlərin müəyyən coğrafi regionlarda qarşılıqlı real münasibətlərinə əsaslanır. Əsrlərlə bu regionlarda əmələ gəlmiş ümumi-region qüvvələrinin tənasübü, sosyal-mədəni sahələr, regional beynəlxalq təşkilatlar, dini-ənənəvi amillər və s. kimi faktorlardan çıxış edərək beynəlxalq münasibətlər qurulur və lazımi effekti də verir.

Bu sistem müxtəliflikləri bir-birini tamamlayır, təkmilləşdirir. Bununla belə müasir sistem yanaşması böyük dövlətlərin qarşılıqlı əlaqələrini də nəzərdən qaçırmır. Bu həqiqətdir ki, böyük, aparıcı dövlətlərin arasında formalaşmış münasibətləri nəzərdən qaçırmaq

olmaz. Ən nəhayət onu da unutmamalı ki, müxtəlif beynəlxalq sistemlərin mövcudluğu, onların arasındakı kriteriyalann klassifıkasiyası - təsnifatı da mövcuddur.

***Beynəlxalq sistemlərin növləri və strukturu.***

Qeyd etdiyimiz kimi sistemlər müxtəlifliyində fikirlərin və yanaşmaların müxtəlifliyi əmələ gəlir. Bu, beynəlxalq münasibətlər sistemlərinə də aiddir. Ümumi planetar beynəlxalq sistemlər regional və dini yarımsistemlər də yaradır. Buna ***suregiona/ yarımsistemlər deyirlər.***

F. Brayar və M.R.Cəlili belə hesab edirlər ki, bütün beynəlxalq həyata öz möhürünü vuran planetar beynəlxalq sistemlə ABŞ arasında yaranmış qlobal əksdurma həmin iki sistem nəticəsidir. Bu dövrdə kolonial təsirdən qurtarmış yeni müstəqil dövlətlərin yarandığını da bura əlavə etmək lazımdır. Bu, dünya Beynəlxalq ümumplanetar münasibətlərdəki gərginlik beynəlxalq münasibətlər sistemində 90-cı illərin əvvəllərinə ***iki əsas konflikt xəttinin*** əmələ gəlməsinə səbəb oldu; ideoloji, siyasi, hərbi-strateji qarşıdurma ilə ***Qərb və Şərq qarşıdurma*** xəttini və başqa tərəfdən ***Şimal və Cənub xəttini - iqtisadi cəhətdən geri qalmış və inkişaf*** etmiş ölkələr xəttini əmələ gətirdi. Burada bəzi bir-birinə uyuşmayan beynəlxalq münasibətləri də əlavə etmək lazımdır. Burada ~ yəni regional yarımsistemlərdə ümumi coğrafi mənsubiyyət də az rol oynamır. Bu cəhətdən mütəxəssislər beynəlxalq qarşılıqlı əlaqələrə təsir edən aşağıdakı regionları coğrafi ərazilər ölkələrinə ayırır və ***misal göstərirlər:*** Avropa, Panamerika, Afrika, Asiya (Cənubi-Asiya, Cənub-Şərqi Asiya, Yaxın Şərq regionları) yarımsistemləri. Qərb dənizi hövzəsi ölkələri. Qərbi Avropa subregional yarımsistemləri.

Bir neçə müəllifi olan "Müasir beynəlxalq münasibətlərin sistemi, strukturu və inkişaf prosesləri" kitabında (M., 1984) göstərilir ki, regional beynəlxalq münasibətlər yarımsistem olsa da qlobal beynəlxalq münasibətlərin ayrılmaz və təkmilləşdirən hissəsidir.

Mövcud ədəbiyyatda müstəqil-funksional sistemlərə misal

fəaliyyətindəki qaydaları axtarmaq, başqa sistemlərlə olan qanunauyğunluqları görmək, stabillik - sabitliyin qorunması şərtlərini zuhura çıxarmağa kömək edir.

Mütəxəssislər D.İston nəzəriyyəsi ilə razılaşsalar da bunu bütün siyasi sistemlərə, məsələn beynəlxalq sistemə də aid etməyi qəbul etmirlər. Çünki bəziləri beynəlxalq münasibətləri siyasi münasibətlər hesab etmirlər. Bir də D.İston nəzəriyyəsi ilə ona görə razılaşmırlar ki, onun ətraf mühitlə bağlılığından çıxış edərək qlobal beynəlxalq sistemə tətbiq oluna bilmir. Bununla çətin razılaşmaq olar. Çünki L.fon Bertalanfıyə görə "sistem" biri-biri İlə qarşılıqlı əlaqədə olan elementlər toplusudur. "Elementlər" isə sistemin ən sadə tərkib hissələridir. Mühüm olan isə elementin bütün hissələrinə-zərrələrinə təsir edə bilir.

"Sistemin funksiyası" isə elementlər sisteminə mühitin təsiri ilə yaranır. Bunu beynəlxalq münasibətlərə yanaşma sisteminin əsas yanaşma istiqamətində və onun xüsusiyyətlərində görmək olar. Bu xüsusiyyətlər təhlil olunan obyektin özünün xüsusiyyətlərindən doğur.

Beynəlxalq münasibətlərin ümumi xüsusiyyətlərindən bəhs edərkən qeyd olunmalıdır ki, öz xarakterinə görə onlar sosyal münasibətlərin xüsusiyyətlərdirlər. Ona görə də buradan belə nəticə çıxır: beynəlxalq münasibətlər sosyal sistemlər tipinə aiddir. Onları mexaniki sistemiylə müqayisə etmək olmaz və təhlilini eyni şəkildə aparmaq mümkün deyil. Bundan əlavə sosyal, o cümlədən beynəlxalq sistemlər xüsusi tip sistemlər olan açıq və zəif təşkil olunmuş sistemlərə aiddir. Ona görə də burada obyektlə onu əhatə edən mühit arasında aydın nəzərə çarpan sərhəd çəkmək olmur. Bu, aralarında aydın sərhəd xətti keçən sistemlərə aiddir. Məsələn, fiziki və ya bioloj tipli sistemlərdən fərqli olaraq beynəlxalq sistemlər arasında məsafə sərhədi çox vaxt çərti xarakter daşıyır.

Ənənəvi-tarixi yanaşmanın əsasında "beynəlxalq sistem" məfhumu hər hansı bir tarixi dövr kəsiyində dövlətlər arasında diplomatik münasibətlərin, regionlar üçün mövcud beynəlxalq münasibətlərin xarakterini açmaqdan ötrü istifadə olunur. Məsələn,

yol tapması bu sahəyə möhkəm elmi-nəzəri yanaşma prinsipini gətirdi. Sistemlər ideyası möhkəm konseptual səmərə-fayda verir. Bu imkan verir ki, beynəlxalq münasibətlər nəzəriyyəsi arasında aydın fərq özünü tam büruza versin. Bu isə həm o, həm də bu sahənin müvəffəqiyyətli inkişafına imkan yaradır.

Sistemli nəzəriyyənin banisi ABŞ-a mühacirət etmiş avstriya alimi Lyudviq fon Bertalanf hesab olunur. Onun əsərləri elmi dairələrdə geniş yayılıb. Bununla belə sistemlər nəzəriyyəsi ondan qabaq da mövcud idi. T.Qobbs, K.Marks, F.Engels, V.İ.Lenin və başqaları sistemli münasibət, ya sistemli yanaşma nəzəriyyəsindən və onun əhəmiyyətindən bəhs ediblər. Keçən əsrdə 20-ci illərdə rus alimi A.A.Boqdanovun "Ümumi təşkilat elmi" adlanan ikicildliyi buraxılmışdı. Burada sistemli yanaşmanın əsasını təşkil edən "i'/.v/em" ***"'elemenf\ ""rabitə'\ '"əlaqə", "struktur"*** (quruluş), ***"mühit", "davamlılıq"*** və s. kimi terminlər izah olunur. Fəaliyyət və formalaşma qanunları ideyasını, si.stem ziddiyyətlərini, çətin sistemlərin informasiyası kimi məsələlər xüsusilə XX əsrin ortalarında mühüm əhəmiyyət kəsb edir. Sosyal - siyasi elmlərə sistemli yanaşma bu illərdə amerika alimləri T.Parsons və D.İstonun əsərlərində xüsusi yer tuturdu. Bu cəhətdən D.İstonun "Siyasi həyatın sistemli təhlili" (1965) əsəri diqqəti cəlb edir. Bu əsərdə siyasi sistem müəyyən münasibətlər toplusu halında nəzərdən keçirilir. Xarici mühitlə daimi təmasda olan bu münasibətlərin öz "giriş" və "çıxış" mexanizmləri vardır, özü də kibernetikanın əsas ideyaları ilə tam uyğunluq təşkil edən münasibətlərlə izah olunur. Sistem "giriş'Mə ***xaricdən impulslar,*** siqnallar alır, çağırışlarla qarşılaşır. Bunlar onun bütövlüyü üçün təhlükə yaradan amillərdir. "Çıxış'Marda isə belə forma siyasi sistem şəklini alır (hökümət aktları, tədbirlər və s.). Bunlar da öz növbəsində ***"tələblət^'*** və ***"dayaqlar"*** kimi cəmiyyət dəyişikliklərinə səbəb olur.

Beləliklə, D.İstonun konsepsiyasının mühüm əhəmiyyəti ondadır ki, o siyasi si.stemə dinamiklikdə - ətraf mühitlə ***daimi qarşılıqlı təsirdə olan*** bütöv orqanizm kimi baxır. Bu üsulla - yəni ***bu sistemli təhlilə siyasi sistemin funksiallığını*** - yaşaması və

etmədən (xüsusilə 2,3,4-cü) bir çox beynəlxalq hadisələri və prosesləri başa düşmək olmaz. Bunu bilmək diplomatlar üçün zəruridir.

Beynəlxalq münasibətlərin universal qanunauyğunluqları da vardır ki, ümumilik-yəni əhatə dairəsinin genişliyi cəhətdən daha az əhatəli olan qanunauyğunluqlardan daha geniş əhatəlidir.

Müasir dövrün beynəlxalq münasibətləri nəzəriyyəsinin qanunauyğunluqları içərisində iqtisadi, sosyal və siyasi inteqrasiya və dezinteqrasiyanı xüsusi qeyd etmək lazımdır. Bu, bütün dünyanın regionları üçün xarakterikdir. Bunlar müasir dövrün qanunauyğunluqları prosesinin obyektiv təzahürləridir. Dünyanı bu gün düşündürən inteqrasiya, kütləvi immiqrasiya, "üçüncü dünya" ölkələri ilə inkişaf etmiş ölkələr arasında uçurumun daha da dərinləşməsi prosesi, terrorizm, radikal dinlərin və populist cəmiyyətlərin (ərəb ölkələrində - islam fundamentalistləri, Avropa ölkələrində - xristian fundamentalistləri, Hindistanda radikal hinduizm, tropik Afrikada animistik messianizm və s.) kimi problemlərdir. Bunlar bu gün beynəlxalq münasibətlərin əsasını təşkil edən faktorlardır.

Bu faktorlar içərisində inteqrasiya kimi vacib zaman tələbi ilə yanaşı xatalı dezinteqrasiya da genişlənir: Türkiyədə və İraqda kürdlərin ayrılmaq cəhdi, Dağlıq Qarabağın AR-dan ayrılması cəhdi, Fransada Korsika problemi, İngiltərədə Şimali İrlandiya, İspaniyada baskların separatizmi, Gürcüstanda Abxaziya, Acariya, Şimali Osetiya separatizmi, Yoqoslaviya dövlətinin parçalanması, Çexoslovakiyanın iki dövlətə bölünməsi və s. kimi separatçı cəhdləri nəzərdən keçirmək kifayyətdir.

Dövlətlərarası münasibətlərin - beynəlxalq əlaqələrin qanunauyğunluqları bu gün dünya beynəlxalq münasibətlər nəzəriyyəsi alimlərinin və diplomatlarının ən çox mübahisəsinə səbəb olan məsələlərdəndir. Bu məsələlərdə ikili münasibət beynəlxalq təşkilatlar, hətta ayrı-ayrı dövlət və hökümət rəhbərləri üçün xarakterikdir.

### *Beynəlxalq sistem*

50-ci illərin ortalarından etibarən beynəlxalq münasibətlər elminə sistemli münasibət başlanır. Beynəlxalq münasibətlər elminə elmi-texniki inqilabın, xüsusilə elektron-hesablama maşinlarının

münasibətlərə də aiddir.

Beynəlxalq münasibətlərin qanunauyğunluqları müxtəlifdir.

Beynəlxalq əlaqələrə dair qanunauyğunluqlardan bəhs edən J.B.Dyurozel onlardan 8-ndən bəhs edir:

1. Hər bir cəmiyyət, deməli hər bir siyasi vahid texniki effektliyə çatmağa cəhd edir;
2. Hər bir texniki təkmilləşmə onun yayılmasının daimi və ümumi yayımı qanunauyğunluqlarına tabedir;
3. Texniki yayılmanın əsas tormozu cəmiyyətdə dəyərlər sisteminin bütövlüyünün olmasıdır;
4. Konversiyanın-yəni sosyal cəmiyyətin bir dəyərlər sistemindən başqasına keçməsi qanunauyğunluqlarını ayırd elməyi bacarmaq;
5. Cəmiyyətdəki struktur stabilliyinin həmin cəmiyyətin bəzi üzvləri tərəfindən “dözümsüzlüyü”-yəni onda dəyişikliklər etmək üçün ayrı-ayrı fərdlərin öz həyatı bahasına risk etməyə hazır olması. Məsələn, İngiltərə 1830-1835-ci illərdə reformalar yolu ilə ingilabdan qurtardı. Fransa isə Bərpa illərində mövcud cəmiyyətin vəziyyətinin transformasiyasının səyi nəticəsində isə fransız burjua ingilabı baş verdi.
6. Effektivlik ilə insan mənliyi arasında həmişə konfliktin mövcudluğu.
7. Dəyərlər sisteminə nisbətən (dini və ideoloji) insanların birləşmək bacarığı daha az stabildir. Bununla belə insan cəmiyyəti dəyişikliklər üçün texnikaya nisbətən daha az açıqdır.
8. Müharibələrin səbəbi stabil dəyərlərin qapalılıq sistemidir, buna səbəb hərbi potensialların arasındakı fərqlərdir. Belə fərqlər daha güclü potensialda zəif potensiallara qarşı “dözümsüzlük” situasiyası yaradır, bu da müharibə ruhunu cəmiyyətdə artırır.'

Buradan göründüyü kimi təkcə müharibə qanunauğunluğuna aid olan 8-ci maddə beynəlxalq münasibətlərə aiddir. Qalan qanunauyğunluqlar isə cəmiyyətin, insan həyatının bütün sferalarını əhatə edir. Müəllif doğru olaraq qeyd edir ki, bunları düzgün dərk

**Hı.ıranKOB** l i.A. üöstoriloiı osori, səh.l 12-113

oprobasiyanı keçmiş metodlardırlar. Lakin bu metodların hər biri o zaman daha effektli olur ki, onlar birlikdə kompleks şəkildə faktlar, situasiyalar, hadisələr və sairdən çıxış edərək birlikdə tətbiq olunsunlar. Bunu beynəlxalq münasibətlərin inkişaf qanunauyğunluqları tələb edir.

Beynəlxalq münasibətlərdə proqnozlaşdırmadan danışarkən Delfiy üsulundan da bəhs olunmalıdır. Bu üsula görə müzakirə olunan problemin sistematik müzakirəsi və nəzarəti bir neçə ekspert tərəfindən həyata keçirilir. Bu ekspertlər mərkəzi orqana məlumat verirlər, bunlar ümumiləşdirilərək yenidən ekspertlərə göndərilir ki, bununla da son məqbul variant qəbul olunur.

***Beynəlxalq münasibətlərin qanunauyğunluqları.***

Hər bir elm onun fəaliyyətini inkişaf etdirən, onun yaşamasını təmin edən qanunauyğunluqlara malikdir. Ancaq belə olduqda o, özünün əsas vəzifəsini yerinə yetirə bilər. Dəqiq elmlər üçün belə qanunauyğunluqlar "əbədi həqiqətlər" üzərində qurulursa (suyun tərkibi - $H_2O$ , sulfat turşusu - $H_2SO_4$, suyun qaynama dərəcəsi Selsi üzrə 100" və s.), sosyal elmlər üçün bu belə deyildir.

Sosyal elmlərin isə spesifik sahə ilə əlaqəsi var: ictimai münasibətlər, onun da subyekti təkrarolunmaz xarakterə malik insanlardırlar: öz taleləri, ehtirasları, arzuları, inam və əqidələri, dəyərləri, ideologiyaları, şəxsi bağlılıqları və s. ilə. Ona görə də burada qanunlar probleminin özü də başqa cürdür. Burada qanunların müxtəlifliyi elə genişdir ki, həmişə mübahisə mənbəinə çevrilirlər. Beynəlxalq münasibətlər sahəsindəki qanunların xarakteri də müxtəlifdir.

Ənənəvi (ortodoksal) marksizm mövqeyi-nəzərdən qanunlar problemi tarixi materializmin ümumi metodologiyası əsasında izah olunur. Burada beynəlxalq münasibətlər dövlətlərin daxili siyasətinin beynəlxalq xarici siyasəti əsasında və başqa tərəfdən, ümumidünya miqyasında sosyalizm ilə kapitalizmin sinfi mübarizəsi ilə təyin olunur. Bununla belə marksizm determinizmi - cəmiyyət qanunauyğunluqlarını da inkar etmir. Bu, beynəlxalq

baxışı qruplaşdırılır, xəritəyə daxil edilir, bununla da onun qarşıdakı beynəlxalq münasibətlər üçün əhəmiyyəti olan problemə onun münasibətinin necə olacağı proqnozlaşdırılır. Buraya ölkə başçısının səfərləri, kimlərlə neçə dəfə görüşlərinin təhlili də əlavə olunanda proqnozlaşdırma daha da dəqiqləşir. Bu üsula eksperiment - təcrübə üsuslu da yardımçı olanda effekt yüksək olur.

III. ***Proqnostik metod heynolxalq münasibəthr nozpriyyəsində yaxşı nəiicəli üsuUardandır.***

Buraya analogiya əsasında nəticəyə gəlmək, sadə hesablama üzrə nəticəyə gəlmək, Delfı üsulu - yəni müzakirə olunan problem haqqında bir neçə ekspertin sistemli mülahizələrinin yekunu, xronoloji hesablamalar üzrə çıxarılan nəticələr, kompyuter sistemlərindəki hesablamalar əsasında proqnozlar və s. daxildir.

IV. ***Qərarların qəbulu prosesinin analizi beynəlxalq münasibətlər sahəsində beynəlxalq siyasətin dinamik inkişafının təhlili üçün çox vacib nəzəri əsas verən üsuUardandır,***

Bu üsulu beynəlxalq münasibətlər nəzəriyyəsində '"***filtir***'" metodu hesab edirlər. Bu üsulla beynəlxalq münasibətləri yaradan şəxslərin vasitəsilə əmələ gələn faktlar müəyyənləşir. Beynəlxalq münasibətlərin klassik forması olan “metodoloji individualizm” qərarların qəbulu prosesi analizinin əsasını təşkil edir. Buraya iki yanaşma üsulu daxildir.

***Birinci***^ beynəlxalq münasibətlərə dair qərarlar qəbul edən əsas şəxslər təyin-müəyyən olunur: dövlət başçısı, onun müşavirləri, nazirlər: XİN-i, müdafiə naziri, təhlükəsizlik naziri və s.

Onlardan hər birinin rolu təsvir olunur. Burada belə bir faktor da nəzərə alınmalıdır ki, bunların da hər birinin də müxtəlif idarələrdən, orqanlardan məlumat tələb etmək hüququna malik müşavirləri, şöbələri, idarələri vardır, onların rəhbərlərinin də fəaliyyəti bu təhlilə daxil edilir. ***İkincisi,*** qərarlar qəbul etmə prosesinin analizində siyasi baxışları, rəhbərlik üsulu və s. nəzərə alınır. Bu sahədə beynəlxalq münasibətlər nəzəriyyəçiləri R.Şnay- der, X.Bruk, B.Sapen, R.Cervis və b. tədqiqləri diqqətə layiqdir.

Beynəlxalq münasibətlərdə yuxarıdakı üsulların hər biri əməli

yetirməsi üçün mümkün qədər az məneçelik yaransın.

Digər konsulluq işçiləri xidmət etdikləri dövlətin vətəndaşları olarlarsa və ya burada daimi yaşayırlarsa, bu dövlət ona heç bir əlavə imtiyaz, səlahiyyət və immunitet təqdim etmir, yalnız yurisdiksiya immunitetlərindən və öz rəsmi vəzifələrini yerinə yetirərkən şəxsi toxunulmazlıq hüququndan istifadə edir. Bu şəxslər barəsində cinayət işi qaldırılarsa, bu şəxsin həbs edilməsi və ya tutulub saxlanılması istisna olunmaqla, məhkəmə araşdırması o səviyyədə həyata keçirilməlidir ki, konsul vəzifələrini yerinə yetirilməsi üçün mümkün qədər az maneçilik yaransın.

Digər konsulluq işçiləri xidmət etdikləri dövlətin vətəndaşları olarlarsa və ya burada daimi yaşayırlarsa, eləcə də onların ailə üzvləri, konsul vəzifəli şəxsin ailə üzvləri imtiyaz, immunitet və hüquqlardan dövlətin müəyyən etdiyi dərəcədə istifadə edə bilərlər. Bunlar eyni ilə konsulluq işçilərinin ailə üzvlərinə, ev xidmətçilərinə də aiddir. Dövlət bu şəxslər üzərində yurisdiksiyasmı elə həyata keçi- mıəlidir ki, konsul idarəsinin fəaliyyətinə əlavə maneçilik törətməsin.

**KONSULLUQ KORPUSU.** Xarici konsulluqların hər hansı ölkənin bu və ya digər məntəqəsində (şəhərində, limanında) məcmusu ***konsulluq korpusu*** adlanır.

Əgər bir konsulluq dairəsində (şəhərdə) çoxlu sayda konsul idarələri varsa, burada diplomatik korpus kimi konsulluq korpusu yaradılır. Konsulluq korpusu beynəlxalq münasibətlərdə diplomatik korpusun malik olduğu çəkiyə və nüfuza malik deyil və hər hansı beynəlxalq hüquqi status almağa iddia edə bilməz. Onun fəaliyyəti müəyyən dərəcədə qeyri-rəsmi xarakter daşıyır. Lakin konsulluq korpusu bu halda da konsul idarələri və konsul dairələrinin yerli hakimiyyət orqanları ilə normal, işgüzar və dostluq münasibətlərinin qaydaya salınmasına kömək edə bilər. Konsulluq korpusu adətən daimi xarakter daşımır. Onun təyinatı ancaq müəyyən mərasimlərlə bağlı olur: təbriklərin, başsağlıqların verilməsi, görüşlərin, banketlərin təşkili və s. Konsullar adından çıxış edən konsulluq korpusunun başçısı (duayen) dərəcəsinə görə böyük

konsulun baqajında ölkəyə onun qanunları ilə nəzərdə tutulmuş qaydada gətirilməsi qadağan olunan əşyaların olmasına ciddi əsas olarsa, konsulun özünün və vəzifəli şəxsin iştirakı ilə baqaja baxış keçirilə bilər.

Konsulluq İŞÇİSİ və ya onun ailə üzvü öldükdə dövlət ona malik daşınan əmlakın aparılmasına icazə verir və bu əmlakdan- mirasdan vergi tutulmur. Konsulluq işçiləri konsul, digər konsul vəzifəli şəxslər, onların ailə üzvləri olduqları dövlətin əmək və dövlət mükəlləfiyyətlərindən azaddırlar.

Hər bir konsul, konsulluq işçisi təyin edildiyi dövlətin ərazisinə daxil olduğu andan və ya konsul idarəsində öz vəzifələrinin icrasına başladığı andan konsul imtiyazları və immunitetlərindən istifadə edir. Konsul və konsul vəzifəli şəxs öz təyinat yerinə gedərsə və ya öz postuna qayıdarsa, ona viza verən üçüncü dövlətin ərazisindən keçir və bu üçüncü dövlət ona Konsuluq Konvensiysınada nəzərdə tutulmuş imtiyazlarla və rəsmi xəbərlərin, kodlaşdırılmış və ya şifrələnmiş depeşlərin göndərilməsini təmin etməlidir.

Bütün bu imtiyazlar və immunitetlərdən istifadə edən vəzifəli şəxslər olduqları ölkənin qaydalarına, qanunlarına öz immunitet və konsul imtiyazlarına zərbə vurmadan, hörmət etməlidirlər. Konsulluq üçün nəzərdə tutulmuş binalardan konsul xidməti ilə bir araya gəlməyən məqsədlər üçün istifadə edilə bilməz.

Konsulluğun ixtiyarı vardır ki, yerləşdiyi binaların üzərinə, xidməti fəaliyyəti ilə bağlı istifadə etdiyi nəqliyyat vasitələrinə milli Dövlət bayrağını taxsın və konsul binalarına yazılı lövhələr vurulsun.

Əgər konsul, ya konsulluğun vəzifəli şəxsi fəaliyyət göstərdiyi dövlətin vətəndaşı olarsa və ya burada daimi yaşayarsa, bu dövlət ona heç bir əlavə imtiyaz, səlahiyyət və immunitet təqdim etmir, yalnız yurisdiksiya immunitetindən və öz rəsmi vəzifələrini yerinə yetirərkən şəxsi toxunulmazlıq hüququndan istifadə edirlə. Bu şəxslər barəsində cinayət işi qaldırılarsa, bu şəxsin həbs edilməsi və ya tutulub saxlanılması istisna olunmaqla, məhkəmə araşdırması o səviyyədə həyata keçirilməlidir ki, konsulun vəzifələrinin yerinə

həbs edilən və tutulub saxlanılan vəzifəli şəxs konsul idarəsinin başçısıdırsa, bu barədə onun dövlətinə diplomatik kanallar vasitəsilə məlumat verilməlidir.

Beynəlxalq hüquqda qəbul edilmişdir ki, konsullar, konsul xidmətinin vəzifəli şəxsləri onların xidməti fəaliyyəti ilə bağlı gəldikləri dövlətin məhkəmə və inzibati orqanlarının yuris- diksiyasına tabe deyillər. Lakin digər hallarda konsul və konsul xidmətinin vəzifəli şəxsləri gəldikləri dövlətin yurisdiksiyasına tabedirlər. Konsulun şahid kimi ifadə vermək öhdəliyi vardır.

Konsul və konsulluq işçiləri məhkəmə və inzibati işlərlə bağlı şahid kimi çağırıla və dindirilə bilərlər. Konsul və konsulluq işçiləri öz vəzifələrinin yerinə yetirilməsi ilə bağlı ifadə sənədləri təqdim etməli deyillər. Onlar həmçinin təmsil etdikləri dövlətin qanunvericiliyini aydınlaşdıran ifadələr verməyə məcbur deyillər. Bu hallar istisna olunmaqla Konsul və konsulluq işçiləri ifadə verməkdən imtina edə bilməzlər (maddə 44). Əgər ifadə verməkdən imtina edərlərsə, onlara qarşı heç bir məcburi hərəkətlər və ya cəza tədbiq edilə bilməz. Konsul və konsul vəzifəli şəxslərdən ifadə tələb edən orqan bu şəxsin vəzifələrini yerinə yetirməyə mane olmamalıdır. O, nə vaxt mümkün olduqda bu şəxsin evində və ya konsulluq idarəsində ifadələrini dinləyə bilər və ya ondan yazılı ifadə ala bilər.

Konsul və digər konsulluq işçiləri, onlarla birlikdə yaşayan ailə üzvləri olduqları dövlətin xaricilərin qeydiyyatına və ya yaşayış yerinə icazə almağa dair qanun və qaydalarla nəzərdə tutulmuş bütün öhdəliklərindən azaddırlar. Konsul və digər konsulluq işçiləri, onlarla birlikdə yaşayan ailə üzvləri, dövlətin, rayonun və bələdiyyənin bütün vergi və rüsum Isrından, ödənişlərindən azaddırlar. Lakin göstərilən şəxslər olduqları dövlət ərazisində daşınmaz əmlaka sahib olarsa, konsul olaraq aldığı əmək haqqından əlavə şəxsi gəlir əldə edərsə, müvafiq vergi və rüsumlar ödənilir.

Konsulu qəbul edən dövlət konsulluq əmlakını, konsulun şəxsi baqajını bütün gömrük vergilərindən və rüsumlardan, saxlama, daşıma pulu və s. istisna olunmaqla azad edir. Əgər

istifadə eldiyi imtiyaz və immunitetlərə, həm də konsulların istifadə etdiyi imtiyaz və immunitetlərə bölünür. Konsulluqların yerləşdiyi binalar toxunulmazlıq hüququna malikdir. Konsulluqların yerləşdiyi dövlətin hakimiyyət orqanlarının konsul idarəsi başçısının razılığı olmadan bu binalara daxil olmaq hüququ yoxdur. Kon.sulluq binalarının, onların əmlakının, eləcə də hərəkət vasitələrinin ictimai ehtiyaclar və ya dövlətin müdafiəsi məqsədilə istənilən növ müsadirədən toxunulmazlıq hüququ vardır. Əgər bflıaların bu məqsədlə boşaldılması zərurəti meydana çıxarsa. Konsulluğa vəzifələrinin yerinə yetirməsini təmin etməyə imkan verən bütün mümkün tədbirlər görülür və təmsilçi dövlətə təxirə salınmadan müvafiq və təsirli kompensasiya ödənilir.

Konsul arxivləri və sənədləri istənilən vaxt və yerləşdiyi yerdən asılı olmayaraq toxunulmazdır.

Konsulluqların yerləşdiyi binalar və konsul idarəsi başçılarının iqamətgahlan müəyyən növ xidmət ödənişləri istisna olunmaqla (su, işıq, telefon və s.) bütün dövlət, rayon, bələdiyyə verqilərindən, rüsumlarından azad olunurlar.

Konsulluğun yerləşdiyi dövlət konsulluğun rəsmi məq- sədlərərlə sərbəst əlaqələr qurmasına icazə verməlidir. Konsul idarələrinin rəsmi yazışmaları toxunulmazdır.

Konsulluğun vəzifəli şəxsləri vəzifələrini yerinə yetirərkən konsul dairəsinin səlahiyyətli orqanlarına, qanunla müəyyən olunmuş səviyyədə və müvafiq müqavilələrə uyğun olaraq dövlət səlahiyyətli orqanlarına müraciət edə bilərlər.

Konsul idarəsi gəldiyi ölkə ərazisində təmsil etdiyi dövlətin qanun və qaydaları ilə nəzərdə tutulan vergi və rüsumları toplaya bilər.

Konsul və konsul vəzifəli şəxslərin şəxsi toxunulmazlıq hüququ vardır. Lakin ağır cinayətlər baş verdiyi halda səlahiyyətli məhkəmə orqanları tərəfindən verilmiş qərara əsasən həbs edilə, tutulub saxlanıla bilərlər. Hər hansı konsulluq işçisinin həbsi və tutulub saxlanılması baş verdikdə onların gəldiyi dövlətin konsul idarəsinin başçısına bu barədə gecikmədən məlumat verilir. Əgər

- vitse - konsulluqlar;
- konsull agentlikləri;
- fəxri konsul adlanan və vəzifəli şəxslər tərəfindən başçılıq edilən konsul idarələri.

Konsul idarələri strukturu dünyanın əksər ölkələrində əsasən bir - birinə bənzəyir. Konsul idarəsi konsul xidmətlərinin yerinə yetirilməsi ilə bağlı siyasi, iqtisadi informasiyanın toplanması və təqdim olunması ilə də məşğul olmalıdır.

**KONSUL İMTİYAZLARI VƏ İMMUNİTETLƏRİ.** Konsul idarələrinə, konsullara, konsul xidmətinin vəzifəli şəxslərinə və konsulluq əməkdaşlarına onların vəzifələrini (konsul vəzifələri) sərbəst və normal həyata keçirmələri məqsədi ilə verilən güzəşt və imtiyazlardır. Konsul imtiyazları və immunitetləri beynəlxalq hüquqa əsaslanır. Bütün dövlətlər üçün konkret konsul imtiyazları və immunitetlərinin nizamlanması BMT Baş Assambleyasının tapşırığı ilə BMT-nin Beynəlxalq Hüquq Komissiyası tərəfindən 1959-1961 illərdə konsul əlaqələri və immunitetlərinə dair layihə işləyib hazırlanmışdır. 1963 ildə konsul əlaqələrinə dair Vyana konvensiyası qəbul edildi ki, burada da bütün dövlətlər üçün ümumi, beynəlxalq hüquq normalarına uyğun konkret konsul imtiyazları və immunitetləri müəyyən olundu. Tarixən konsul imtiyazları və immunitetləri beynəlxalq hüququn ümumi yazılı normalarının yaradılması yolu ilə deyil, müxtəlif dövlətlərin millİ qanunvericilik aktlarındakı beynəlxalq adətlər şəklində, eləcə də konsul konvensiyalarına və konsul məsələlərinə dair digər sazişlərə müvafiq olaraq müəyyən olunurdu. 1963 İl Vyana Konvensiyasınadək 50-yə qədər ölkə konsul imtiyazları və immunitetləri nizanlanmasına dair qanunverici aktlar qəbul etmiş, konvensiyalar imzalamışlar. Konsul imtiyazları və immunitetləri - ilk dəfə 1769 ildə, tarixdə birinci konsul konvensiyasında (Fransa- İspaniya arasında) təsbit olunmuş, sonra geniş yayılmağa başlamış və XX əsrin ortalarından üstünlük təşkil etmişdi.

Konsul imtiyazları və immunitetləri konsul idarələrinin

**KONSUL İDARƏSİ.** Hər hansı konsul dairəsində konsul vəzifələrinin yerinə yetirilməsi üçün iki dövlət arasında müqavilə əsasında xarici dövlətdə təsis olunan daimi xarici əlaqələr orqanıdır. Konsul idarəsi yerləşdiyi diplomatik nümayəndəliklə müqaisədə məhdud hüquq, imtiyaz və immunitetlərdən (konsul imtiyaz və immunitetlərindən) istifadə edirlər. Konsul idarəsinin işçiləri onların xidməti fəaliyyəti zamanı olduqları ölkənin cinayət, mülki və inzibati yurisdiksiyasında (dövlətin yurisdiksiyası), toxunulmazlıq hüququndan istifadə edirlər. Konsul idarəsi, konsul nümayəndəliyinin başçısı da daxil olmaqla onun xidməti vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar məsələlərə dair ifadə vermək istisna olmaqla, şahid kimi ifadə verməkdən imtina edə bilməz.

Konsul idarəsi dövləti təkçə siyasi sahədə və diplomatik planda təmsil etmir. Normal diplomatik münasibətlərdə konsul idarəsi dövləti hüquqi-əmlak münasibətləri planında təmsil edir, bəzən isə çox mühüm rol oynayır. Diplomatik münasibətlərin qırılması konsul münasibətlərinin kəsilməsinə səbəb olmur. Diplomatik münasibətlər kəsilən hallarda konsul idarəsinin rolu yüksəlir və çox vaxt normal diplomatik münasibətlərin bərpa olunmasına kömək edir.

Konsul idarəsi aşağıdakı yerlərdə açılır:

- konsul idarəsi açan dövlətin konsulluğunun yerləşdiyi dövlətdə yaşayan, dilini, milli mədəniyyətini saxlayan, lakin konsulluğun yerləşdiyi ölkənin vətəndaşı olan çoxlu sayda həmvətənlərinin olduğu yerdə;
- Müvafiq ölkənin çoxlu sayda vətəndaşları olan yerlərdə (iri turist mərkəzləri, ziyarət yerləri və s.);
- Konkret ticarət və ya digər maraqların olduğu və bir sıra hüquqi əmlak məsələlərinin və s. tərtib olunması tələb olunan yerlərdə.

Konsul idarəsi aşağıdakı kateqoriyaya bölünürlər:

- baş konsulluqlar;
- konsulluqlar;

dövlətin həbs yerlərində saxlanan vətəndaşlarına baş çəkir, onların saxlanma şəraiti ilə maraqlanır, belə şəxslərin qiqiyena və sanitariya tələblərinə cavab verən şəraitdə saxlanmasına və onlarla sərt və insan ləyaqətini alçaldan formada davranılmamasına nəzarət edir;

- təmsil etdiyi dövlətin vətəndaşlarına pasport verir, vaxtını uzadır və pasportlarda dəyişikliklər edir;
- təmsil eldiyi dövlətə giriş, çıxış və tranzit keçid üçün vizalar verir, viza vaxtını uzadır, vizalarda dəyişikliklər edir;
- konsulluq dairəsində yaşan şəxslərdən təmsil etdiyi dövlətin vətəndaşlığına qəbul edilmək barədə ərizələr alır;
- təmsil eldiyi dövlətin qanunvericiliyinə müvafiq qaydada, həmin dövlətin vətəndaşlarının vətəndaşlıq vəziyyətləri aktlarını qeydə alır;
- notarius hərəkətlərini həyata keçirir;
- konsulluq dairəsindəki hakimiyyət nümayəndələrinin iştirakı ilə tərtib edilən, yaxud onlardan göndərilən sənədlərin və aktların ***konsul Icqllaşäınlmasmı*** həyata keçirir.

Konsulluğa dair konvensiyalarda həmçinin təmsil etdiyi dövlətin hərbi işləri, mülki dənizçilik vasitələri, hava qəmiləri, habelə sanitar və veterinar mühafizə barəsində də konsul funksiyaları müəyyən edilmişdir. Konsul həmçinin müvafiq konvensiyalarda nəzərdə tutulmayan, lakin təmsilçisi olduğu dövlətin və qəbul edən dövlətin qanunvericiliyi ilə ziddiyət təşkil etməyən funksiyaları da həyata keçirə bilər. Diplomatik nümayəndəlik olmayan dövlətlərdə, qəbul edən dövlətin razılığı ilə konsula təmsil etdiyi dövlətin diplomatik funksiyaları da həvalə edilə bilər. Konsul ona həvalə edilən funksiyaları şəxsən yerinə yetirir, yaxud onların icrasını konsulluğun digər vəzifəli şəxsinə tapşırır.

Konsulun üçüncü dövlətin adından konsul funksiyaları yerinə yetirməsi yalnız təmsil etdiyi dövlətin Xarici İşlər Nazirliyinin (Xarici İşlər İdarəsi) göstərişi və qəbul edən dövlətin razılığı ilə mümkündür.

KONSUL FUNKSİYALARI. Konsul funksiyaları beynəlxalq sazişlərlə (Konsulluq əlaqələrinə dair 1963 il Vyana konvensiyası, Konsulluq funksiyalarına dair Avropa konvensiyası), ikitərəfli konsul konvensiyaları, ticarət və dənizçiliyə dair müqavilələrdə, habelə dövlətdaxili qanunvericilikdə müəyyən edilir.

Konsul, əsasən, aşağıdakı ***funksiyalan*** yerinə yetirir:

- təmsil etdiyi dövlətin hüquqi şəxslərinin və vətəndaşlarının beynəlxalq münasibətlərə əsasən qəbul edən dövlətn qanunvericiliyi ilə onlara verilən bütün hüquqlardan tam həcmdə istifadə etmələri üçün tədbirlər görür;
- təmsuil etdiyi dövlətin hüquqi şəxslərininn və vətəndaşlarının pozulmuş hüquqlarının bərpası üçün tədbir görür;
- təmsil etdiyi dövlətin konsulluq dairəsində daimi yaşayan və müvəqqəti qalan vətəndaşlarının qeydiyatını aparır;
- konsulluq dairəsi hüdudlarında təmsil etdiyi dövlətin nazirliklərinin, idarə və təşkilatlarının nümayəndələrinin, habelə xarici ezamiyyətə gələn vətəndaşlarının xidməti vəzifələrini yerinə yetirməsinə kömək göstərir;
- konsulluq dairəsində təmsil etdiyi dövlətin müvəqqəti qalan vətəndaşlarını gəbul edən dövlətin qanunları, qərar və sərəncamları, habelə yerli adətləri barədə məlumatlandırır;
- konsulluq dairəsində təmsil etdiyi dövlətin vətəndaşları üçün mədəni kütləvi tədbirlərin keçirilməsinə köməklik göstərir;
- təmsil etdiyi dövlətin prosessual qanunvericiliyinə əməl etməklə həmin dövlətin istintaq və məhkəmə orqanlarının (əgər qəbul edən dövlətin qanunları yol verirsə) öz vətəndaşlarına dair tapşırıqlarını yerinə yetirir;
- təmsil etdiyi dövlətin həbsə alınmış, yaxud cinayət törətməkdə şübhəli bilib saxlanan, habelə azadlıqdan məhrum olunma şəklində cəzasını çəkən vətəndaşlarına münasibətdə qəbul edən dövlətin qanunrarının bu dövlətlə öz dövlətinin bağladıqları müqavilələrinin müvafiq müddəalarına riayət olunmasına göz göyür;
- maraqlı şəxslərin xahişi və öz təşəbbüsü ilə təmsil etdiyi

eləcə də konsulun gəldiyi ölkənin praktikasından asılıdır. Bir qayda olaraq, diplomatik nümayəndəliklərin konsul şöbələrinin rəhbərlərinə konsul ckzekvaturası verilmir. Konsul ekzekvaturasının verilməsi ya dövlət başçısı adından və onun imzası ilə, ya da ölkənin daxili qanunvericiliyindən asılı olaraq dövlətin adından xarici işlər nazirinin imzası ilə həyata keçirilir. Bəzi hallarda konsul ckzekvaturası ayrıca sənəd Fonnasmda, digər hallarda konsul patentinə bənzər Qətnamə formasında verilir. Qətnamə dövlət başçısı və ya xarici işlər naziri tərəfindən imzalanır və möhürlənir. Konsul ekzekvaturası verməkdən imtina edən dövlət imtina səbəblərini bildirməyə məcbur deyil.

Konsul ekzekvaturası konsul patentini və ya konsulun təyin olunması haqda digər bildirişlər (nota və s.) təqdim olunmaqla verilir. Konsul ekzekvaturası konsul üçün tələb olunur və onun patenti diplomatik yolla, səfirlik və ya diplomatik missiya vasitəsilə xarici işlər nazirliyinə təqdim edilir.

Bir qayda olaraq, konsul ekzekvaturasının verilməsi anından konsul rəsmi olaraq öz vəzifələrinin icrasına başlayır və konsul imtiyazları və immunitetlərindən istifadə edir. Konsul idarələrinin başçılarına konsul ekzekvaturası veriləsədək onlara müvəqqəti olaraq öz vəzifələrini icra etməyə icazə verilir və konsulluqda başçılıq qaydası müəyyən olunan zaman, başçılıq konsulun müvəqqəti olaraq işə başladığı vaxtdan müəyyən olunur.

Konsul təyin edən ölkənin və konsulun gəldiyi ölkənin qanunları tələb edərsə, konsul idarəsinin başçısı olmayan konsul vəzifəli şəxsə konsul ekzekvaturası verilir. Konsulun yerləçdiyi dövlət konsul təyin edən dövləti təmsil edən bu və ya digər şəxsi “persona non qrata” elan edərsə, konsul təyin edən dövlət həmin şəxsi geri çağırmalı və ya konsulluqda onun fəaliyyətini dayandırmalıdır. Əgər dövlət bu öhdəliyini müəyyən olunmuş vaxt əraində yerinə yetirməzsə, konsulu gəbul edən dövlət həmin şəxsə verilən ekzekvaturanı ləğv edə bilər. Konsul ekzekvaturası ləğv olunarsa, konsul işçisinin fəaliyyəti dayanır.

vitse - konsulluqların və konsul agentliklərinin işinə rəhbərlik edirlər. Beynəlxalq praktikada fəxri konsul-vəzifəli şəxslər tərəfindən başçılıq edilən konsul idarələri də nəzərdə tutulur. Lakin konsullar, vitse - konsullar müstəqil konsul idarəsinin başında da dura bilərlər, dərəcələrinə görə onlardan yüksək olan konsulluq başçılarının müavini və ya köməkçisi ola bilərlər. Dərəcəsinə görə böyük olan konsul adətən bu və ya digər ölkənin daha vacib məntəqəsinə təyin edilir. Bəzən bu konsula gəldiyi ölkədə öz ölkəsinin bütün konsulluqları və ya bir neçə konsulluğu üzərində rəhbərlik həvalə edilir. Konsul agentlikləri, vitse - konsulluqlar bir növ baş konsulluğun və ya konsulluğun filialıdırlar. Baş konsulluq ancaq yerləşdiyi dövlətin razılığı ilə vitse - konsulluq və ya konsul agentliyi aça bilər. Konsul agentləri olduqları yerdə, demək olar ki, bütün konsul xidmətlərini həyata keçirir, eləcə də onların dairəcinə baş çəkməyə gələn əsas konsul idarəsinin konsul vəzifəli şəxslərinə kömək edirlər. Bəzi ölkələr konsul agentlərini agentin gedəcəyi ölkənin vətəndaşlarından və ya orada daimi yaşayan şəxslərdən təyin edirlər.

Konsul dərəcələrinin verilməsi konsulun üzərinə qoyulan vəzifələrin əhəmiyyətini nəzərə almaqla, konsul təyin edən dövlətdən asılıdır, lakin konsulu qəbul edən dövlət onu ərazisində konsulluq təsis edilməsi ilə bağlı sazişdə nəzərdə tutulmuş dərəcədən yüksək dərəcə ilə qəbul edə bilməz. Dərəcəsindən asılı olmayaraq konsullar Xarici İşlər Nazirliyinə (Xarizi İşlər İdarəsi) və eyni zamanda onu təyin edən ölkənin səfirliyinə və diplomatik missiyalarına tabedirlər.

**KONSUL EKZEKVATURASI.** (lat. ***exsequor*** - yerinə yetirirəm). Konsulun onu qəbul edən ölkə tərəfindən tanınması və onun konsul dairəsində konsul vəzifələrinin icrasına buraxılmasına razılıq haqda sənəddir. Konsul ekzekvaturası baş konsullara və müstəqil konsul idarələrinə başçılıq edən konsul agentlərinə verilir. Konsul ekzekvaturası konsul patentləri kimi konsulluğa rəhbərlik etməyən konsullara həmişə verilmir. Bu konsul təyin edən ölkənin.

**KONSUL DAİRƏSİ.** Konsulun gəldiyi ölkədə xidməti fəaliyyətini həyata kcşirdiyi rayon (ərazi) ***konsul dairəsi*** adlandırılır. Konsul dairəsi, onun sərhədləri və ya ona daxil olan inzibati ərazi vahidlərinin adları adətən konsul ekzekvaturasında göstərilir. Konsul dairəsi həm geniş ərazidən, həm də təkcə konsulluq olduğu məntəqədən də (şəhər, liman) ibarət ola bilər. Konsul dairəsi hər bir ayrıca halda qarşılıqlı razılaşmaya əsasən müəyyən olunur. Müəyyən bir ölkədə konsul təyin edən dövlətin diplomatik nümayəndəliyi olmadıqda bu ölkənin ərazisi (dövlətin ərazisi) konsul dairəsinə daxil edilə bilər. Konsulların konsul dairəsinə daxil olmayan dövlət əraziləri ilə münasibətləri diplomatik nümayəndəliyin konsul məsələlərinə dair şöbəsi vasitəsilə qurulur.

Xidməti fəaliyyətini həyata keçirən zaman konsul Konsul Konvensiyasına və ya yerli praktika və adətlərə uyğun olaraq öz konsul dairəsində bilavasitə yerli hakimiyyət dairələri ilə əlaqələr yarada bilər. Konsul dairəsindən kanarda hakimiyyət dairələri və ya mərkəzi orqanları ilə ancaq bu ölkənin səlahiyyətli orqanları iştirak etdikdə və ya dövlətin etirazı olmadıqda münasibətlər qurmaq mümkündür. Əks halda, konsul, ölkəsinin diplomatik nümayəndəliyi vasitəsilə və ya müvafiq konsul dairəsinin konsulunun yardımı ilə hərəkət edir.

**KONSUL DƏRƏCƏLƏRİ.** Konsulların xidməti mövqe ilə əlaqədar tutduqları dərəcələr konsul dərəcələri adlanır. Konsul əlaqədarinə dair 1963 il Vyana Konvensiyasına görə (maddə 9) konsul idarələrinin başçıları dörd dərəcəyə bölünürlər; a) baş konsullar; b) konsullar; c) vitse - konsullar; d) konsul agentləri. Xarici ölkələrin konsul xidməti sistemində beşinci prokonsul dərəcəsi də vardır. Prokonsullar konsul idarələrinin başçısı ola bilməzlər, ancaq konsulluq başçısı olmadıqda onu müvəqqəti olaraq əvəz edə bilərlər. Adətən prokonsul konsulun məhdud məsələlərə dair köməkçisi olur. Baş konsullar, konsullar, vitse - konsullar və konsul agentləri müvafiq olaraq baş konsulluqların, konsulluqların.

payından əlavə yenidən yaradılmış dövlətlərdə, demək olar ki, hər bir şəhərdə kvartallar alır və bir sıra İtaliya koloniyaları təşkil edirdilər. İtaliya koloniyalarının başında tacirlərdən seçilmiş və milliyətcə italyan olan vəzifəli şəxs olurdu. Onlar əvvəlcə "vikontilər" (vicccomitcs) titulu daşıyırdılar. XII əsrdən koloniyanın hansı şəhərə aid olmasından asılı olaraq - Venetsiyaya, Genuyaya və s., onlar bayulo (baiulus) və ***konsul*** adlanmağa başladılar. Bir qayda olaraq bu nümayəndələr İtaliya şəhərlərindən göndərilirdi və İtaliya respublikasının digər vəzifəli şəxsləri kimi seçilirdilər. Hərdən belə olurdu ki, onları koloniyaların əhalisi seçirdi. Yerli hakimiyyət dairələri ilə İtaliya konsulları arasında hüquqi məsələlər müqavilələrlə müəyyən olunurdu. Həmvətənlərin işinə dair mülki və xüsusi işlər də ticarət yurisdiksiyası ilə konsulun əlində cəmlənirdi. Səlibçilər Suriya və Fələstindən qovulduqdan sonra da bu konsulların koloniyalardakı mövqeyi dəyişmədi. Məs., İsgəndəriyyədə konsulun hər il ***on dəfə*** sultanın qəbuluna getmək hüququ vardı. Türklər Konstantinopolu ələ keçirdikdən sonra da Venetsiya koloniyası öz idarəsini və bayulo ilə (konsulu) birlikdə inzibati və məhkəmə funksiyalarını qoruyub saxladı. O, eyni zamanda həm konsulu, həm də səfiri təmsil edirdi, yəni Venetsiyanın sultan sarayı yanında daimi diplomatik nümayəndəliyi idi.

Daha sonralar Avropada ticarətin inkişafı ilə əlaqədar olaraq şəhərlərə konsul göndərilməyə başlandı. XIX əsrdə kapitalizm inkişafı sürətləndikcə satış bazarına ehtiyac da artırdı. Belə şəraitdə konsulların sayı daha da artır və onların üzərinə daha ciddi vəzifələr qoyulurdu. Bir müddət konsul və ticarət xidmətləri arasında əlaqələr o qədər sıx idi ki, onları "ticarət - konsul idarələri" adlandırırdılar. Hal-hazırda konsul idarələrinin fəaliyyət dairəsi çox genişdir, ticarət məsələləri mühüm yer tutsa da, bu idarələrin işində başlıca yeri tutmur.

Konsul münasibətlərinin nizamlanmasına, onların vəzifələrinə, səlahiyyətlərinə və s. dair bütün başlıca məsələlər 24 aprel 1963 ildə qəbul olunmuş Vyana Konvensiyasında öz əksini tapmışdır.

diplomatik aktlar həyata keçirməyə vəkil edilə bilər. Konsul tərəfindən belə aktların həyata keçirilməsi ona diplomatik imtiyaz və immunitetlərin (diplomatik imtiyazlar və toxunulmazlıq hüquqları) verilməsini tələb etmək hüququ vermir. Konsul, gəldiyi dövlət xəbərdar edildikdən sonra təmsil etdiyi dövlətin nümayəndəsi kimi hər hansı beynəlxalq hökümətlərarası təşkilat yanında fəaliyyət göstərə bilər. Bu zaman o, beynəlxalq hüquq və müqavilələrə əsasən belə nümayəndə üçün nəzərdə tutulmuş bütün imtiyaz və immunitetlərdən istifadə edə bilər. Lakin hər hansı konsul vəzifəsinin yerinə yetirilməsinə baxmayaraq konsulun konsulluq konvensiyasında nəzərdə tutulmuş və malik olduğu yurisdiksiyasından artıq immunitet tələb etmək hüququ yoxdur. Bir konsul gəldiyi dövlətin razılığı ilə iki və ya bir neçə dövləti təmsil edə bilər. Konsul prinsipcə təmsil etdiyi dövlətin vətəndaşı olmalıdır. Gəldiyi dövlət konsula xüsusi hörmətlə yanaşmalı, onun şəxsiyyətini, azadlığını və ləyaqətini qorumaq üçün lazımi tədbirlər görməlidir.

Ağır cinayətlər törətdiyi halda məhkəmə qərarı olmadan konsul həbs edilə, tutulub saxlanıla bilməz. Məhkəmənin qərarı qüvvəyə minmədən onun şəxsi azadlıqlarına heş bir məhdudiyyət qoyulmur. Konsul konsulluq vəzifələrinin yerinə yetirilməsi ilə bağlı hərəkətlərinə dair gəldiyi ölkənin məhkəmə və inzibati orqanlarının yurisdiksiyasına tabe deyildir.

Konsul məhkəmə və inzibati işlərlə bağlı şahid kimi dindirilə bilər. Konsul ifadə verməkdən imtina edərsə, ona cəza və məcburi tədbirlər tətbiq edilmir. Konsul vəzifələrin yerinə yetirilməsi ilə baqlı ifadə verməli deyil. Konsul xidməti ilk dəfə olaraq orta əsrlərdə İtalyan şəhər dövlətlərində yaranmağa başlamışdı. Konsul xidməti yerli hökümət qarşısında konsulun həmvətənləri olan tacirlərin maraqlarını qorumaqdan, onlar arasında mübahisələrin həll edilməsindən ibarət idi. Nəticədə belə işlərlə məşğul olan orqanlar meydana gəlməyə başladı. Səlib yürüşləri zamanı səlibçilər İtalyan şəhər dövlətlərindən -Venetsiyadan, Genuyadan, Pizadan böyük yardım alırdılar. Bunun əvəzində bu şəhərlər qənimət

- qüvvədə olan beynəlxalq sazişlərə müvafiq olaraq və ya belə sazişlər olmadıqda, gəldiyi ölkənin qanun və qaydalarına zidd olmayan qaydada, təmsil etdiyi dövlətin məhkəmə və qeyri - məhkəmə sənədlərinin verilməsi və ya məhkəmə göndərişlərini, ya da ifadə verməyə dair göstərişləri icra etmək;

- təmsil etdiyi dövlətə məxsus gəmilərə, təyyarələrə, eləcə də onların heyətinə münasibətdə təmsil etdiyi dövlətin qayda və qanunları ilə nəzərdə tutulmuş təftiş və nəzarət hüquqlarını həyata keçirmək;

- yuxarıda adı çəkilən gəmilərə, təyyarələrə və onların heyətinə köməklik göstərmək, gəmi sənədlərinin nəzərdən keçirilməsi və tərtib olunması və gəldiyi ölkənin hakimiyyət dairələrinin qanuni tələblərini nəzərə almaqla yolda baş vermiş hər hansı hadisəni araşdırmaq və təmsil etdiyi dövlətin qanun və qaydaları ilə kapitanla komanda heyəti və motroslar arasında hər hansı mübahisələri həll etmək; - təmsil etdiyi dövlət tərəfindən konsul idarəsinin gəldiyi ölkənin qanun və qaydaları ilə qadağan olunmayan, ya da icrasına etiraz edilməyən və ya konsulu təyin edən ölkə ilə konsulu qəbul edən ölkə arasında qüvvədə olan beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Konsul gəldiyi ölkədə diplomatik nümayəndələrlə müqayisədə məhdud hüquq, imtiyazlar və toxunulmazlıq hüququndan (konsulluq imtiyazları və immunitetləri) istifadə edir. Səfirdən fərqli olaraq konsul öz dövlətini siyasi sahədə və diplomatik planda təmsil etmir. Konsul diplomatik münasibətlər zamanı öz dövlətini əsasən hüquqi-əmlak münasibətləri planında təmsil etməsinə baxmayaraq, bəzən daha mühüm rol oynaya bilər. Məs., diplomatik əlaqələr kəsildiyi halda bu münasibətlərin pozulması konsul münasibətlərinə toxunmaya bilər.

'fəmsil olunan dövlətin bir dövlətdə diplomatik nümayəndəliyi olmadıqda və ya o üçüncü dövlətin diplomatik nümayəndəliyi tərəfindən təmsil olunmursa, konsulun gəldiyi dövlətin icazəsi ilə və onun konsul statusu dəyişdirilmədən.

vətəndaşlarının iqtisadi və hüquqi maraqlarını qorumaq və müdafiə etməkdən, konsulu təyin edən ölkə ilə konsulun gəldiyi ölkə arasındakı müqavilə və sazişlərin icra olunmasına nəzarət etməkdən ibarətdir.

Konsulun ***vəzifələri*** başlıca olaraq aşağıdakılardan ibarətdir:

- gəldiyi ölkədə beynəlxalq hüquq çərçivəsində təmsil etdiyi dövlətin və onun vətəndaşlarının (fiziki və hüquqi şəxslərin) maraqlarını müdafiə etmək;
- təmsil etdiyi dövlətlə gəldiyi dövlət arasında ticarət, iqtisadi, mədəni və elmi əlaqələrin, eləcə də dostluq münasibətlərinin inkişaf etdirilməsinə yardım etmək;
- gəldiyi ölkənin ticarət, iqtisadi, mədəni və elmi həyatında şəraiti və hadisələri qanuni yollarla aydınlaşdırmaq, bunlar haqqında təmsil etdiyi ölkəyə məlumat vermək, məlumatları maraqlı şəxslərə təqdim etmək;
- təmsil etdiyi dövlətin vətəndaşlarına pasportların və yol sənədlərinin, təmsil etdiyi dövlətə getmək istiyən şəxslərə viza və ya müvafiq sənədlərin verilməsini təmin etmək;
- təmsil etdiyi dövlətin vətəndaşlarına kömək və yardım etmək;
- vətəndaş vəziyyəti aktını qeydiyyatdan keçirmək;
- təmsil etdiyi ölkə vətəndaşlarının (hüquqi və fiziki şəxslərin) gəldiyi ölkədə bu ölkənin qanun və qaydalarına uyğun olaraq varislik ***" "moriis cauzä*'*** məsələsində maraqlarını qorumaq;
- gəldiyi ölkənin qayda və qanunları çərçivəsində təmsil etdiyi dövlətin yetkinlik yaşına çatmamış və tam iş qabiliyyəti olmayan şəxslərin, bu şəxslər üzərində hər hansı qəyyumluq və himayəçilik təyin olunması tələb olunarsa, onların maraqlarını qorumaq;
- gəldiyi ölkədə qəbul olunmuş təcrübə və qaydalara əməl etməklə, təmsil etdiyi dövlətin vətəndaşlarının gəldiyi ölkənin məhkəmə və digər idarələrində bu ölkənin qayda və qanunlarına müvafiq olaraq, bu vətəndaşlar olmadıqda və ya digər səbəblərə görə vaxtı - vaxtında öz hüquq və maraqlarını qoruya bilmədikdə, onların hüquq və maraqlarını müdafiə edən ilkin tədbirlər həyata keçirmək məqsədilə lazımi təmsilçiliyi təmin etmək;

dövlətdə vəziyyətini və imtiyazlarım tənzimləyən xüsusi müqavilə, razılaşma.

Yepiskoplar tərəfindən ali və kilsə hakimiyyətinin funksiyalarına hədd qoyan konkordat ilk dəfə Roma papası II Kalikst ilə Almaniya imperatoru V Henrix arasında 1122 ildə bağlanmışdır (Vorms konkordatı).

KONSENSUS, (lat. cow.s’emı/.y-razılıq, yekdillik). Beynəlxalq təşkilatlarda, beynəlxalq konfranslarda və müşavirələrdə səsvermə aparılmadan və iştirakçılardan hər hansının rəsmi etirazı olmadıqda qərarların bütünlükdə qəbul olunması metodudur. Konsensus BM1'- nin bir sıra orqanlarında tətbiq edilir. O, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı AYƏT tərəfindən qərarların qəbul edilməsində mütləq şərt kimi tətbiq edilir. Bu şərt ATƏT-in Nizamnaməsində öz əksini tapmışdır.

KONSUL, (lat. ***consul*** - vəzifə). Bir dövlət tərəfindən digər dövlətdə konsul vəzifələrinin yerinə yetirilməsi üçün daimi nümayəndə olaraq təyin olunan və digər ölkənin müvafiq qaydalarına uyğun olaraq səlahiyyətli orqanlar tərəfindən bu vəzifənin ierasına buraxılan vəzifəli şəxs.

Konsul təyin etmək hüququ, onun təyinat qaydası və müəyyən dərəcəyə aid edilməsi konsul təyin edən dövlətin daxili qanunvericiliyi ilə nizamlanır. Konsulun təyin olunması haqda ona Öz ölkəsinin ***konsul patenti*** verilir. Konsul təyin olunmuş şəxs gəldiyi ölkənin ***ekzekvatura*** adlanan icazəsini aldıqdan sonra öz vəzifələrinin icrasına başlayır. Konsul müəyyən olunmuş ***konsul dairosindo*** fəaliyyət göstərir. Konsul ona həvalə olunmuş ərazidə gəzə bilər, görüşlər təşkil edə bilər. Konsul üzərinə qoyulan məsələ və vəzifələrin (konsul vəzifələri) konkret dairəsi və səlahiyyətlərinin həcmi beynəlxalq hüquqa görə konsulu təyin edən dövlətin maraqlarından irəli gəlir. Beynəlxalq hüquqa görə konsulun başlıca vəzifələri gəldiyi ölkədə təmsil etdiyi ölkənin iqtisadi və hüquqi maraqlarını, eləcə də bu ölkənin hüquqi şəxslərinin və

edə bilər ki, missiya üzvlərindən hər hansı biri persona non gratadır. Xüsusi missiyaların göndərilməsi, gəlməsi və getməsi haqda missiyam qəbuledən dövlət müvafiq şəkildə məlumatlandırılmalıdır. Xüsusi missiyaların tərkibinə daxil olan şəxslər gəldiyi dövlətin qaydalarına və qanunlarına hörmət etməlidirlər. Beynəlxalq hüquq komissiyası tərəfindən hazırlanmış layihəyəyə görə həm diplomatik nümayəndəliklər, həm də onların müxtəlif kateqoriyalı əməkdaşlarının imtiyaz və immunitetlərinə dair bütün beynəlxalq hüquq normaları xüsusi missiyaya da aid edilməlidir.

Xüsusi missiyalara dair 1969-cu il Vyana Konvensiyası xüsusi missiyaları bir dövlət tərəfindən müəyyən məsələlərin nəzərdən keçirilməsi və ya yerinə yetirilməsi məqsədi ilə digər dövlətə onun razılığı ilə göndərilən nümayəndəlik və müvəqqəti xarakter daşıyan missiya kimi müəyyən edir. Bu konvensiya 21.VI. 1985 ildə qüvvəyə minmişdir. Xüsusi missiyanın vəzifələri missiys göndərən və qəbul edən dövlətlərin qarşılıqlı razılığı əsasında müəyyən olunur.və daimi diplomatik orqanda müqayisədə daha məhdud xarakter daşıyır.

Xüsusi missiyanın hüquqi statusu daha çox dərəcədə diplomatik nümayəndəliyin statusuna uyğun gəlir. Lkin xüsusi missiya dövlətlər arasında diplomatik və konsulluq əlaqələrinin olmasından asılı olmayaraq göndərilə və qəbul edilə bilər. Dövlətlər arasında bu münasibətlərin kəsilməsi öz-özlüyündə xüsusi missiyanın fəaliyyətinin dayandınınmasma səbəb olmur. (“DEL”).

**KOMMÜNİKE.** (/r. ***Commmiquy, in. Communico* -** xəbər verirəm). Beynəlxalq danışıqların gedişi və ya nəticələri, bağlanmış beynəlxalq sazişlər, cari əməliyyatlar haqqında rəsmi məlumatdır. Kommünike qısa (hər hansı danışıqlar, görüşlər faktı haqda lakonik məlumatdan ibarət) və ya danışıqların gedişinin , onların iştirakçılarının imzaladığı sazişlərin geniş şərhi, qəbul olunmuş Bəyannamələrin mətnlərindən ibarət olur.

**KONKORDAT.** (lat. ***Concordatum* -** razılaşma). Roma papası ilə bu və ya digər dövlət arasında katolik kilsənin həmin

məsələn, xüsusi səfir tərəfindən də həyata keçirilə bilər.

Xüsusi missiyalar daimi diplomatik nümayəndəliklərdən ən çox onunla fərqlənir ki, onlar missiya göndərən dövləti ümumilikdə təmsil etmirlər. Xüsusi missiyaların funksiyaları daha məhdud xarakter daşıyır və hər hansı konkret məsələyə dair danışıqların aparılması, hər hansı bir ölkənin müstəqilliyinin elan olunması və ya bayram edilməsi ilə, ya da digər milli bayramlarla əlaqədar, dövlət başçısının vəzifəyə başlaması və ya vəfat etməsi ilə bağlı olaraq təşkil olunmuş tədbirlərdə iştirak etmək kimi xüsusi məqsədlər güdür. Xösusi missiyaların diplomatik nümayəndəliklərdən digər bir fərqi də ondadır ki, onlar öz funksiyalarını gəldikləri ölkədə səfirliklər və diplomatik missiyalar kimi daimi və fasiləsiz həyata keçirmirlər, onların fəaliyyəti müvəqqəti xarakter daşıyır və adətən qısa vaxt ərzində həyata keçirilir. Elə bu xüsusiyyətlərinə görə xüsusi missiyaları ***ad hoc*** adlandırırlar.

Xüsusi missiyaların başçıları siyasi xadim (nazir, deputat və b.) və diplomatik vəzifə tutmayan digər şəxslər ola bilər. Həe hansı bir dövlətdə akkreditə olunmuş diplomatik nümayəndə digər dövlətdə öz ölkəsinin adından xüsusi missiyaları həyata keçirən şəxs kimi çıxış edə bilər. 1928-ci il diplomatik məmurlara dair Havana Konvensiyasında diplomatik nümayəndələrlə, səfirlik və missiya əməkdaşları ilə yanaşı xüsusi "fövqəladə diplomatik məmurlar" kateqoriyasının da adı çəkilir. Bu kateqoriya "xüsusi missiya həvalə olunmuş rəsmi nümayəndələr"ə də aid edilir. Konvensiyada deyilir ki, fövqəladə diplomatik məmurlar digər adi məmurlar kimi eyni hüquq və imtiyazlardan istifadə edirlər.

Xüsusi missiyaların statusunu nizamlayan beynəlxalq hüquq mormalarının işlənib hazırlanması ilə BMT məşğul olur. 1960 ildə BMT-nin Beynəlxalq hüquq komissiyası xüsusi missiyalara dair maddələr layihəsi hazırladı. Bu layihədə nəzərdə tutulurdu ki, diplomatik nümayəndələrə dair bir sıra beynəlxalq hüquq normaları xüsusi missiyalara da aid olunmalıdır. O cümlədən nəzərdə tutulurdu ki, xüsusi missiyaları qəbul edən dövlət istənilən vaxt öz qərarının səbəbini əsaslandırmadan missiya göndərən dövlətə elan

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV,**
Azərbaycan Respublikasının
Prezidenti. Bakı şəhəri, 12 mart
2007-ci il

* * ♦

XATIRLATMA MƏKTUBU. Diplomatik sənəd növlə- rindəndir. Şifahi söhbət və müzakirələr zamanı toxunulmuş hər hansı bir məsələyə diqqəti yönəltmək və ya onun əhəmiyyətini xüsusi qeyd etmək üçün yazılır. Xatırlatma məktubu iki növdür: ***Şəxsən tffqdim olunan və diplomatik kuryerh göndərilən.*** Şəxsən təqdim olunan xatırlama məktubunda müraciət və kompliment olmur, şəxsiz formada ("nəzərə çatdırılır", "Xahiş olunur" və s.) yazılır. Bu cür xatırlatma məktubu sadə gerbsiz kağızda çap olunur. Ünvan və göndərilmə nömrəsi göstərilmir. Mətnin yuxarısında "Xatırlatma məktubu" sözləri olan başlıq yazılır. Əgər məsələ haqqında xatırlatma məktubu başqa tərəfin təşəbbüsü (xahişi, təklifi) ilə yazılarsa, səfirlik xatırlatma məktubunu şəxsi, ya verbal nota, yaxud vizit kartı ilə göndərir. Bu halda məktubun qarşı tərəfin xahişi ilə göndərildiyinə işarə olunur.

Xatırlatma məktubunun kuryerlə göndərilməsi hallarına indi az rast gəlinir. Əgər xatırlatma məktubu kuryerlə göndərilirsə, onda məktubun forması verbal notadan fərqlənmir: 3-cü şəxsdə yazılır (təklif edir, xahiş edir və s. şəklində müraciət olunur), nota blankında çap edilir, haradan göndərildiyi göstərilir, nömrə və tarix yazılır. Verbal notadan fərqli olaraq ona möhür vurulmur, ünvan göstərilmir

XÜSUSİ MİSSİYALAR. Bir dövlət tərəfindən hər hansı tapşırığı yerinə yetirmək üçün digər dövlətə göndərilən rəsmi nümayəndələrdirlər. Xüsusi missiyalar bir nəfər rəsmi nümayəndə,

## 2006-ci IL APRELİN 4-do BRAZİLİYA ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ BRAZİLİYA FEDERATİV RESPUBLİKASI XARİCİ ƏLAQƏLƏR NAZİRLİYİ ARASINDA İKİTƏRƏFLİ SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏRƏ DAİR PROTOKOL”un NƏZƏRƏ ALINMASI BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı İl aprelin 4-də Brazilia şəhərində imzalanmış “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Braziliya Federativ Respublikası Xarici Əlaqələr Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələrə dair Protokol” ***nəzərə alınsın.***

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV,**
Azərbaycan Respublikasının Prezidenti.
Bakı şəhəri, 12 mart 2007-ci il.

’I« its *

## 2007^i YANVARIN 21-də ƏL - KÜVEYT ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ KÜVEYT DÖVLƏTİ XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA İKİTƏRƏFLİ MƏSLƏHƏTLƏŞMƏLƏRƏ DAİR ANLAŞMA MEMORANDUMU”nun TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

**L** 2007-ci il yanvarın 21-də Əl-Küveyt şəhərində imzalanmış “Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Küveyt Dövləti Xarici İşlər Nazirliyi arasında ikitərəfli məsləhətləşmələrə dair Anlaşma Memorandumu” ***təsdiq edilsin.***

tədbirlərinin, fəaliyyətinin, aksiyaların perspetkiv şəkildə hazırlanması bura daxildir.

Dövlətin xarici siyasət sahəsində fəaliyyət planının yaradılması prosesi aşağıdakı əsas mərhələləri əhatə edir:

- bütövlükdə beynəlxalq münasibətlər sisteminin və dövlətin digər ölkələrlə münasibətlərinin inkişaf proqnozunun tərtib olunması;
- dövlətin sərəncamında olan və xarici siyasətindəki məqsədlər üçün istifadə oluna bilən vəsait və ehtiyatların həcminin müəyyənləşdirilməsi;
- dövlətin iqtisadi və siyasi maraqlarından irəli gələn müxtəlif istiqamətli xarici siyasət məsələlərinin müəyyənləşdirilməsi;
- bu məsələlərin reallaşdırılmasına yönəldilmiş xarici siyasət tədbirlərinin, kompromis planlarının hazırlanması;
- xarici siyasət sahəsində təsdiq edilmiş planların praktik şəkildə həyata keçirilməsi proqramının hazırlanması.

Ölkədəki hər bir səfirlik də öz fəaliyyətini əvvəlcədən hazırladığı iş planı əsasında qurulur.

XARİCİ SİYASƏTİN VASİTƏLƏRİ. Bunlar dövlətin beynəlxalq aləmdə öz məqsədlərinə çatmaq, beynəlxalq münasibətlər sisteminə təsir etmək üçün istifadə etdiyi vasitələrin məcmusudur. Xarici siyasətin vasitələri informasiya və maddi xarakterli ola bilər. Diplomatik kanallarla həyata keçirilən əlaqələr beynəlxalq aləmdə istifadə edilən təbliğat formaları informasiya xarakterli xarici siyasətin vasitələridir. Xarici siyasət əlaqələri, iqtisadi yardım, elmi- texniki əməkdaşlıq, kreditlər verilməsi, əvəzsiz yardım və s. iqtisadi vasitələr maddi xarakterli xarici siyasətin vasitələridir. Xarici siyasətin vasitələri kimi embarqo, baykot, iqtisadi blokada, güclə hədələmə və başqa siyasi təzyiq formalarından istifadə edilir. Xarici siyasətin vasitələrinin bütün kompleksi dövlətin xarici siyasəti sahəsindəki gücünü və imkanlarını, dünyadakı qüvvələr nisbətində onun yerini müəyyənləşdirən xarici siyasət potensiyalını təşkil edir.

mahiyyətini dəyişmir, hamısı ölkənin xarici əlaqələri ilə ınəşqul olurlar.

XARİCİ PASPORT. Bir ölkə vətəndaşının xarici ölkəyə gedə bilməsinə imkan verən rəsmi dövlət sənədidir. Xarici pasportlar diplomatlara və diplomat səlahiyyəti verilən (parlament üzvlərinə , nazirlərə və s.) şəxslər üçün nəzərdə tutulmuş:

a) ***diplomatik pasportlara*** və hər hansı bir tapşırığı yerinə yetirmək üçün başqa ölkəyə işgüzar ezamiyyətə gedən şəxslərə verilən

b) ***xidməti pasportlara*** bölünür. Xarici pasport müəyyən müddətə etibarlıdır. Diplomatik pasport diplomatın və onun ailə üzvlərinin toxunulmazlığını təmin etmək üçün verilir. Bəzi ölkələrdə (Qana, Zair, Zambiya, Hindistan, Kamerun və s.) pasportda diplomatın dərəcəsi göstərilmir, ümumi "diplomat" sözü yazılır; bəzən isə (Nigeriya, Sinqapur və s.) ölkə diplomatı "Xarici xidmət əməkdaşı" kimi qeyd olunur. ABŞ-da diplomatlara verilən pasportda isə göstərilir ki, bu pasport sahibi Dövlət departamentinin təyinatı ilə ***xaricə ezam olunmuşdur.*** Bəzi ölkələrdə diplomatın şəxsi baqajının gömrükdə yoxlanılmasının qarşısını almaq üçün diplomatın pasportunun içərisinə ayrıca olaraq ***"açıq vərəq"*** ("haisser passer") deyilən sənəd əlavə olunur ki, bu da dövlətin öz diplomatına verdiyi zəmanətdir. Məs., RF-da belə vərəqdən istifadə olunur.

XARİCİ SİYASƏT. Ayrı - ayrı dövlətlər, xalqlar, məhəlli və beynəlxalq təşkilatlarla münasibətlər qurma məqsədilə dövlətin müəyyən etdiyi prinsiplərə uyğun olaraq, müxtəlif vasitə və metodlarla həyata keçirdiyi ümumi siyasətdir. Xarici siyasət dövlətin müəyyənləşdirdiyi məqsədlərə çatmaq üçün daha əlverişli beynəlxalq şəraiti təmin etməyə yönəldilmişdir. Diplomatiya xarici siyasətin əsas vasitəsidir. Bunu isə diplomatlar yerinə yetirirlər.

XARİCİ SİYASƏTİN PLANLAŞDIRILMASI. Dövlətin beynəlxalq sahədə xarici siyasət məqsədlərinə nail olmağa yönəlmiş

yerləşdirilməsi, səfirliyin işinin təşkilində yardım edilməsi protokol şöbəsinin işinin ən mühüm hissəsidir. Səfir Btimadnaməsini təqdim edənə qədər onun xarici işlər idarəsi ilə və digər rəsmi idarələrlə münasibəti protokol şöbəsi vasitəsilə həyata keçirilir.

Xarici işlər idarəsi xarici siyasət kadrlarının hazırlanması ilə məşğul olur, xarici siyasət sahəsində arxiv materiallarının işlənib hazırlanmasına və xarici siyasət məsələlərinə dair rəsmi sənədlərin nəşrinə rəhbərlik edir, həmçinin xarici siyasətə dair bütün mühüm məsələləri hökümətə təqdim edir.

Beynəlxalq münasibətlərdə xarici siyasət məsələlərini həll etmək üçün ixtisaslaşdırılmış dövlət aparatı XVII - XIX əsrlərdə təşəkkül tapmağa başlamışdı. Beynəlxalq münasibətlər və diplomatiya tarixinin daha öncəki müxtəlif mərhələlərində bir sıra dövlətlərdə xarici siyasət məsələləri ilə məşğul olan ayrıca struktuiiar fəaliyyət göstərmişdilər. Məs., VI - X əsrlərdə Bizans imperiyasında birinci nazirin idarəsi altında xarici işlər idarəsi fəaliyyət göstərmişdi ki, onun da başlıca məqsədi beynəlxalq məsələlərlə məşğul olmaq idi. Bu idarənin böyük tərkibi və o dövrün bütün dillərində danışa bilən tərcüməçilər ştatı vardı. Ərəb xilafəti dövründə böyük vəzirin başçılığı ilə dövlət yazışma nazirliyi - “divani ər-rəsail” fəaliyyət göstərmişdir. Osmanlı imperiyasında xarici siyasət və diplomatiya işləri ilə “DivanI Humayun” adlanan idaro məşqul olmuşdur.

Xarici işlər idarəsi müxtəlif ölkələrdə müxtəlif cür adlandırılır: Azərbaycanda Xarici İşlər Nazirliyi, ABŞ-da Dövlət Departamenti, Argentinada Xarici İşlər, beynəlxalq Ticarət və Etiqad Nazirliyi, İngiltərədə Forin - ofis (idarənin yerləşdiyi yerə görə Dauning strit), Fransada Xarici Əlaqələr Nazirliyi (Ke'd ores), Belçikada Xarici işlər, xarici ticarət və inkişaf məqsədilə Əməkdaşlıq Nazirliyi, İsveçrədə Federal Xarici İşlər Departamenti, Liviyada - Xarici əlaqələr üzrə Xalq bürosu, Mərakeşdə Xarici İşlər, Əməkdaşlıq üzrə Dövlət Nazirliyi, Braziliyada Xarici Əlaqələr Nazirliyi, Küveyt dövlətində Xarici İşlər Nazirliyi, və s. Adların müxtəlifliyi bu idarələrin vəzifə və funksiyalarının

idarələrindən ibarətdir. O, gündəlik olaraq həm ölkə daxilində, liəm də xaricdə hökümətı və dövləti akkreditə olunan, yaxud da bu və ya digər səbəblərə görə gələn səfirlərlə, diplomatik korpusla, xarici dövlət nümayəndələri ilə münasibətlərdə dövlətini təmsil edir, protokol tədbirləri həyata keçirir, xarici müxbirlərlə iş aparır, xarici siyasət məsələlərinə dair rəsmi nəşrlər çap edir; xaricdə - xarici dövlətlərlə, beynəlxalq hökümətlərarası təşkilatlarla diplomatik və konsulluq əlaqələri yaradaraq diplomatik və konsul nümayəndəliklərinin, beynəlxalq təşkilatlar yanında öz ölkəsinin nümayəndəliklərinin işinə rəhbərlik edir.

Xarici işlər idarəsi öz ölkəsinin adından xarici dövlətlərlə danışıqlar aparır, beynəlxalq konfrans və müşavirələrdə iştirak edir, müqavilə və öhdəliklərin yerinə yetirilməsinə nəzarət edir. Dövlət və hökümət nümayəndələrinin rəsmi səfərlərini, vizitləri yüksək səviyyədə hazırlayır və həyata keçirir.

Xarici işlər idarəsinin mərkəzi aparatı və strukturu aşağıdakı kimidir:

- nazirliyə rəhbərlik - nazir, nazir müavinləri, kollegiya (şura) üzvləri, xüsusi tapşırıqlı səfirlər, nazirin müşavirləri, baş (icra) katiblik və ya dəftərxana; - operativ diplomatik şöbələr (idarələr, departamentlər, şöbələr), onlar öz fəaliyyət xarakterinə görə aşağıdakılara bölünürlər:

a) ***operativ*** - ərazi və ya regional idarələr (departamentlər, şöbələr). Onlar müəyyən qrup ölkələr üzrə xarici siyasət məsələləri ilə məşğul olurlar. Qruplar əsasən regional əlamətlərə görə təçkil olunurlar;

b) ***funksional*** idarələr. Bu idarələr xarici siyasət tədbirlərinin planlaşdırılması ilə, ümumi beynəlxalq təşkilatlarla, beynəlxalq iqtisadi təşkilatlarla, təhlükəsizlik, regional əməkdaşlıq, mədəni əlaqə məsələləri ilə məşqul olurlar. İnformasiya və mətbuat idarəsi, beynəlxalq hüquq. Konsul idarələri və Protokol şöbəsi də operativ funksional idarələrə aiddir. Diplomatik nümayəndəlik başçıları gəldikləri ölkə ilə ilk əlaqələrini sonuncu şöbə vasitəsilə yaradır, ölkənin siyasətinin əsasları ilə tanış olurlar. Səfirin qarşılanması və

**kasının Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyi arasında Anlaşma memorandumu"** ***təsdiq edilsin.***

**2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma memorandumunun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 12 mart 2007-ci il.**

J(!ıjc:{!

**2006--Cİ İL PEVRALIN 23-də BAKI ŞvTHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ İSVEÇRƏ FEDERAL ŞURASI ADINDAN ÇIXIŞ EDƏN FEDERAL XARİCİ İŞLƏR DEPARTAMENTİ ARASINDA MİQRASİYA ÜZRƏ BİRGƏ BƏYANAT'ın TƏSDİQ EDİLMƏSİ BARƏDƏ**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

***1.*** **2006-cı il fevralın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İsveçrə Federal Şurası adından çıxış edən Federal Xarici İşlər Departamenti arasında miqrasiya üzrə Birgə Bəyanat"** ***təsdiq edilsin.***

***2.*** **Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Birgə Bəyanatın həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 12 mart 2007-ci il.**

* *

XARİCİ İŞLƏR İDARƏSİ. Hökümətin rəhbərliyi altında dövlətin xarici siyasətinin həyata keçirilməsində operativ fəaliyyət göstərən xarici əlaqələr orqanıdır. Xarici işlər idarəsi mərkəzi aparatdan, xaricdəki diplomatik nümayəndəliklərdən və konsul

XARİCİ ƏLAQƏ ORQANLARI. Diplomatik xidmət - müəyyən dövlət orqanlarının və vəzifəli şəxslərin cəlb edildiyi çoxcəhətli bir fəaliyyətdir. Dövlətin xüsusi fəaliyyət forması sayılır.

***Xarici əlaqələr orqanları*** fəaliyyət növünə görə iki qrupa bölünür:

a) ***Xarici əlaqələrin mərkəzi (daxili) orqanları;***

b) ***Xarici əlaqələrin xarici orqanları.***

Xarici əlaqələrin mərkəzi (daxili) orqanları - konstitusiyalı siyasi orqanlara və vəzifəli şəxslərə aiddir: ali qanunverici orqanlar, dövlət başçısı, hökümət və birinci növbədə onun başçısı, xarici işlər naziri və xarici işlər nazirinin aparatı. Respublika idarə forması olan dövlətlərdə həm daxili, həm də xarici siyasət və xarici əlaqələr sahəsində ali dövlət idarəsi hakimiyyətin ali qanunvericilik orqanları hesab olunur. Xarici əlaqələrin xarici orqanlarına isə səfirliklər, diplomatik missiyalar və konsulluqlar (Konsul idarələri) daxildir. Bunlardan əlavə hər hansı bir ölkəni müxtəlif fəaliyyət və maraqlar sahəsində təmsil edən bir sıra orqanlar da xarici əlaqələrin xarici orqanlarına daxildirlər. Məs., xarici iqtisadi əlaqələrin nümayəndəliyi, beynəlxalq təşkilatlar və təsisatlar yanında daimi nümayəndəliklər, ikitərəfli və çoxtərəfli beynəlxalq təşkilatlarda, konfranslarda konqreslərdə və ya təntənəli mərasimlərdə iştirak edən nümayəndə heyətləri. Ümumi beynəlxalq hüquq normalarına görə, göndərən və qəbul edən dövlətlər arasında ikitərəfli razılaşmalar əsasında onlar müəyyən hüquqi immunitetlər və imtiyazlardan istifadə edirlər.

**2006-ci İL APRELIN 3- də BUENOS AYRES ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ ARGENTİNA RESPUBLİKASININ XARİCİ İŞLƏR, BEYNƏLXALQ TİCARƏT VƏ ETİQAD NAZİRLİYİ ARASINDA ANLAŞMA MEMORANDUMU"nun TƏSDİQ EDİLMƏSİ BARƏDƏ**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

**1. 2006-cı il aprelin 3-də Buenos Ayres şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Argentina Respubli-**

***Nümunə***

**Gerb. Səfirliyin adı.**

**Tarix, ay, il.**

**Hörmətli, cənab səfir!**
**Bakı şəhəri.**

**----------- —------------ tarixdə Azərbaycan Respublikasında ---------------------------**

**Fövqəladə və Səlahiyyətli səfiri təyin olunmağım barədə etimadnaməmi Prezident İlham Əliyev cənablarına təqdim etdiyimi Sizə çatdırmaqdan böyük məmnunluq duyuram.**
**Rəsmi və şəxsi əlaqələrimizin ölkələrimizin arasındakı dostluğ və əmkdaşhğın inkişafına xidmət edəcəyinə əmin olduğumdan razılıq hissi keçirirəm.**
**Cənab səfir, bir daha dərin hörmət və səmimiyyətimi qəbul etməyinizi rica edirəm.**

**----------- --- ----------- --- Şəxsi imza.**

**Azərbaycan Respublikasındakı**
**Fövqəladə və Səlahiyyətli səfiri**
**Cənab ------------ - --------- -----------**
Bakı səhəri.

FÖVQƏLADƏ SƏFİRLİK. Hər hansı dövlətə onun dəvəti ilə ölkə müstəqilliyinin elan edilməsi, milli bayram, ölkə başçısının vəzifə başına keçməsi münasibətilə (monarxiya quruluşlu ölkələrdə tacqoyma mərasimləri) keçirilən mərasim və şənliklərdə, dövlət başçısının və digər rəsmi şəxslərin matəm mərasimlərində iştirak etmək üçün göndərilən nümayəndəlikdir. Müasir beynəlxalq praktikada fövqəladə səfirlik çox vaxt hökümətin xüsusi nümayəndəliyi adlandırılır ***{Xüsusi missiya).*** Bəzən fövqəladə səfirlik funksiyaları həmin ölkədə daimi yerləşən diplomatik nümayəndəliyin başçısına həvalə olunur.

təsdiq edən və onun xarici dövlətdə akkreditə edən sənədidir. Etimadnamə diplomatik nümayəndə təyin edən dövlət başçısı tərəfindən imzalanır və diplomatik nümayəndəni qəbul edən dövlət başçısına ünvanlanır. Etimadnamə xarici işlər nazirinin imzası ilə təsdiq olunur. Etimadnamə səfir göndərilən dövlətin rəsmi, konstitusiyadakı adı ilə başlanır. Sonra səfiri qəbul edən dövlət başçısının tam titulu gəlir. Yeni səfirin təyin edilməsi ilə iki ölkə arasında münasibətlərin bundan sonrakı inkişafına və dəyişməsinə kömək etmək arzusu ifadə olunur. Daha sonra səfirin adı, atasının adı, soyadı, eləcə də hər iki tərəfin diplomatik nümayəndələrlə mübadilə dərəcəsinə uyğun olaraq diplomatik nümayəndə dərəcəsi göstərilir. Səfirin dövlətinin və hökümətinin adından bütün dediklərinə etimad etmək xahiş olur. Elə "etimad etmək" sözündən sənədin adı- "etimadnamə" meydana gəlmişdir.

Etimadnamə səfirlərə və diplomatik nümayəndələrə verilir. Bəzən bu və ya digər ölkəyə bu və ya digər səbəbdən göndərilmiş xüsusi nümayəndəliyə də etimadnamə verilir. Daimi işlər müvəkkilinə etimadnamə deyil, bu diplomatik nümayəndəni qəbul edən ölkənin xarici işlər nazirinə öz ölkəsinin xarici işlər nazirinin məktubu verilir. Diplomatik nümayəndəyə hər hansı konkret məsələ ilə bağlı danışıqlar aparmaq və ya hər hansı saziş və ya müqavilə imzalamaq tapşırıldıqda, ona xüsusi səlahiyyəylər verilir.

Etimadnamə təntənəli şəraitdə səfirin gəldiyi dövlət başçısına təqdim olunur.Diplomatik nümayəndə öz etimadnaməsini təqdim etdiyi andan və ya təyin olunduğu ölkəyə gəlmə anından etibarən öhdəliklərinin icrasına başlamış (yerli protokol praktikasından asılı olaraq) hesab olunur. Etimadnaməni təqdim etmə vaxtı və ya gəlmə tarixi diplomatik nümayəndənin eyni dərəcədə olan həmkarları arasında protokol ağsaqqallığını müəyyən edir.

Əgər səfir ilk diplomatik nümayəndə kimi deyil, əvəzə gedirsə, onda etimadnamə ilə yanaşı ona sələfinin ***geri çağırılma*** sənədi də verilir. Öz etimadnaməsini gəldiyi ölkə başçısına təqdim edəndən dərhal sonra yeni səfir başqa səfirliklərə aşağıdakı məzmunda şəxsi nota yazır:

məsələlərə dair olduğu ölkənin hökuməti qarşısında çıxış edə bilməsi hüququ haqda mülahizə hüquqi cəhətdən əsassızdır, çünki diplomatik korpus hüquqi şəxs və ya yuridik hüquqlara malik siyasi birlik deyildir.

Duayen istilahı konsul korpusuna münasibətdə də işlədilir. Belə halda duayen (dekan) rütbəcə həmkarları arasında böyük olan və ***ekzekvaturam*** tarix etibarilə birinci alan, yaxud birinci tanınan konsulluq başçısı hesab olunur. Əgər ekzekvaturam, yaxud tanınmanı iki və daha artıq konsul eyni vaxtda alıblarsa, onların arasında öncüllük konsul ***patentinin*** verilmə tarixi ilə müəyyən edilir.

**EKZEKVATURA.** (lat. excequare - aydınlaşdırmaq, müəyyən etmək). Qəbul edən dövlətin hökuməti tərəfindən xarici dövlətin konsulunun konsul qismində qəbul olunmasına verilən razılıq sənədidir.

Ekzekvaturamn forması qəbul edən dövlətin daxili qanunvericiliyi ilə müəyyən olunur. Adətən, ekzekvatura dövlət başçısı tərəfindən (hökumət başçısı, xarici işlər naziri) imzalanır və möhürlənir. Azərbaycanda xarici dövlətlərin konsullarını Azərbaycan dövləti adından Xarici İşlər Nazirliyi (Xarici İşlər İdarəsi) qəbul edir. Konsul XİN tərəfindən ona ekzekvatura veriləndən sonra rəsmən fəaliyyətə başlaya bilər.

Ekzekvatura verilənədək xarici ölkənin konsuluna öz vəzifəsini icra etməkdən ötrü lazım gəldikdə müvəqqəti icazə verilə bilər. Ekzekvaturadan imtina edildikdə ekzekvatura verməkdən imtina edən dövlət cavabının səbəbləri barədə izahat vermir.

Diplomatik nümayəndəliyin səfirliyin konsulluq şöbəsinin müdiri üçün ekzekvatura tələb olunmur; bu vəzifəyə diplomatik nümayəndəliyin və ya diplomatik missiyanın üzvlərindən biri təyin olunur. O, bu vəzifədə işləməyi üçün öz ölkəsinin XİN-dən ***konsul patenti*** də gətimıir.

**ETİMADNAMƏ,** (fr. ***lettres de cryance*** - etimadnamə). Dövlət başçısının nümayəndəsi kimi səfirin statusunu rəsmi şəkildə

mərasimlərdə iştirakı, diplomatik korpusun bu mərasimlərdə yeri və s. Ümumi müəyyən olunmuş qaydaya əsasən duayen diplomatik korpusun üzvü olan hər-hansı bir səfirin ölkədən birdəfəlik getməsi ilə əlaqədar olaraq qəbul təşkil edir və səfərə hazırlaşan səfirə diplomatik nümayəndəlik başçıları adından xatirə suveniri təqdim edir.

Duayenin təmsil etdiyi dövlətlə diplomatik əlaqələrdə olmayan ölkələrin diplomatik nümayəndələri duayenin səlahiyyətlərinə aid oian məsələlərə dair, dərəcəsinə görə duayendən sonrakı diplomatik nümayəndəlik başçısı ilə əlaqə saxlayırlar.

Duayen öz çıxışının mətnini həmkarları tərəfindən narazılıq doğurmayacağına əmin olarsa, həmin çıxışın mətni onlarla razılaşdırılmaya bilər. Ayrı-ayrı hallarda nəzərdə tutulmuş çıxışın mətni həmkarlarına göndərilə bilər, lakin bu arzuolunmazdır və uzun-uzadı mübahisələrə səbəb olduğundan çox az hallarda buna yol verilir. Duayenin akkreditə olduğu ölkə ondan diplomatlara aid olmayan məlumatların ötürücüsü kimi və ya müxtəlif növ ianə və xeyriyyə yardımı toplamaq məqsədilə istifadə edə bilməz. Yerli protokol ona nə etməsi barədə göstəriş verə bilməz.

İndiyədək bəzi katolik ölkələrdə ancaq Roma papası nümayəndəsinin - nunsilərin duayen kimi qəbul edilməsi ənənəsi qalmaqdadır. Bu dövlətlərdə nunsilər bu ölkəyə gəlmə vaxtından və ya etimadnamələrini təqdim etmə tarixindən asılı olmayaraq digər səfirlər qarşısında diplomatik korpusa başçılıq etmək hüququna malikdirlər. Nunsilər bu gün də Fransa, İtaliya, AFR, Polşa və b. ölkələrdə diplomatik korpuslarda az rol oynamırlar. Keçmiş Fransa müstəmləkələrində duayen həmişə Fransa səfiri olurdu.

Duayenin tutduğu mövqe çox məsuliyyətli və incədir. O müxtəlif baxışlara malik həmkarlarının fikirlərini ifadə etməlidir, eyni zamanda unutmamalıdır ki, o, öz hökümətini təmsil edir və buna görə də hərəkətlərində dövlətinin xarici siyasət prinsiplərini, bu və ya digər konkret hadisəyə dair münasibətini əks etdirməlidir. Duayenin protokol məsələlərindən əlavə diplomatik imtiyazlara- diplomatik imtiyazlar və toxunulmazlıq hüququna aid bütün

dövlətlərarası münasibətlərin gərginləşməsinə və hətta diplomatik münasibətlərin kəsilməsinə gətirib çıxara bilər.

DUAYEN. (fr.doyen - dekan, başçı, aqsaqqal, birinci). Diplomatik korpusda öz həmkarları arasında Etimadnaməsini birinci olaraq təqdim edən və diplomatik korpusa başçılıq edən birinci dərəcəli diplomatik nümayəndədir (səfir və ya nunsidir). Ona diplomatik korpusun duaeni də deyilir.

1815-ci il Vyana konqresi diplomatik nümayəndələr arasında birincilik məsələsini həll etmiş və “Birinci gələn birincidir” prinsipini müəyyən etmişdi. Bu prinsipə əsasən diplomatik nümayəndənin başçılığı onun təmsil etdiyi dövlətin böyüklüyündən və gücündən deyil, diplomatın bu ölkədə olma müddətindən asılı idi. Duayenin, eləcə də diplomatik korpusun vəzifələri rəsmi xarakter daşıyır. Bu vəzifələr Diplomatik əlaqələrə dair Vyana konvensiyasında nəzərdə tutulmuş məsələlər dairəsindən kənara çıxmamalıdırlar. Təcrübəli diplomat kimi duayenin məsləhətləri yeni gəlmiş diplomatlar üçün çox vacibdir. Duayen bir qayda olaraq yerli protokol məsələlərinə, adətlərə, hakimiyyət orqanlarına. Xarici İşlər İdarəsi ilə qarşılıqlı münasibətlərə dair hərtərəfli məlumatlara malik olur. Diplomatik korpusdakı həmkarları ilə razılaşdırılmış qaydada duayen olduqları ölkənin hökümətini diplomatik korpus adından təbrik edir, başsağlığı verir, lazım gəldikdə müxtəlif mərasimlərdə diplomatik korpusa rəhbərlik edir, yerli protokol praktikasına aid məsələlərə dair öz həmkarlarına məsləhətlər və tövsiyyələr verir, müxtəlif protokol tədbirlərinə, mərasimlərdə iştirak etməyə dair xarici işlər idarəsinin arzu və istəkləri barədə diplomatik korpusa məlumat verir. Duayen xarici işlər idarəsi və onun protokol şöbəsi ilə daimi əlaqə saxlayır, diplomatik korpusun iştirakı ilə müxtəlif mərasimlərin təfərrüatlarını dəqiqləşdirir. Bəzi diplomatik korpusun protokolla (mərasimlə) əlaqədar hüquq və imtiyazlarının qorunması ilə bağlı çıxışlar edir; məsələn, diplomatik korpus üzvlərinin yerli hakimiyyət orqanları nümayəndələrinə münasibətdə birinciliyi, diplomatik korpusun hər-hansı

hərəkətlərin vurduğu zərərə uyğun olmalıdır, yəni ***proporsionallıq*** prinsipinə əsaslanmalıdır.

Retorsiyalar ***repressalidən*** onunla fərqlənir ki, repressali beynəlxalq hüquq nöqteyi-nəzərdən qeyri-qanuni akta qeyri-qanuni aktla, məs., müqavilənin şərtlərini onun digər dövlət tərəfindən pozulmasına cavab olaraq yerinə yetirilməməsi, istisna qaydasında tətbiq olunan cavabdır.

**DÖVLƏT BAYRAĞI.** Dövlətin suverenlik simvoludur. Dövlət bayrağının etiketi tələb edir ki, onun ölçüsü və forması qanunda sərh edilmiş parametrlərə tam uyğun olsun. Dövlət bayrağı xarici ölkələrdəki diplomatik nümayəndəliklərin binaları üzərində və həmçinin nümayəndəliklərin başçılarının xidməti nəqliyyat vasitələrinə sancılır. Bayraq sutka ərzində qaldırılmış vəziyyətdə olarsa, gecələr mütləq işıqlandırılmalıdır. Dövlət bayrağından istifadə müəyyən protokol qaydaları çərçivəsində icra olunur ki, onlara ciddi riayət edilməlidir. Yüksək səviyyəli xarici qonaq rəsmi görüşə gələrkən onun şərəfinə dövlət bayrağları qaldırılır. Qonaqın təmsil etdiyi ölkənin dövlət bayrağı sağ tərəfdə, ev sahibinin dövlət bayrağı isə sol tərəfdə sancılır. Bir neçə dövlət bayrağı eyni vaxtda qaldırılarsa, dövlət bayraqlarının və bayraq ağaclarının ölçüsü bərabər olmalıdır. Dövlət bayrağları ölkələrin adlarına uyğun olaraq, sağdan sola əlifba üzrə cancılmalıdır. Dövlət bayrağları sıra ilə yerləşdirilir, onların üst-üstə sancılması məqbul deyil. Matəm günlərində dövlət bayrağı axıradək qaldırılıb, sonra yavaş-yavaş yarıyadək endirilir. Qaldırılmış halda dövlət bayrağı yerə, divara və evin damına toxunmamalıdır. Dövlət bayrağının zahiri görünüşü səliqəli olmalı, onun parçası saf, qırışsız və ləkəsiz olmalıdır, üzərinə kənar şey sancılmamalıdır. Dövlət bayrağına ehtiram göstərilir. Təntənəli mərasimlərdə dövlət bayrağı hərbçilərin yanından keçiriləndə, ona əsgəri salam verilir, mərasimdə iştirak edən mülki şəxslər isə papaqlarını çıxarırlar. Mərasim binanın daxilində keçiriləndə dövlət bayrağı gətirilərkən və çıxarılarkən ehtiram əlaməti olaraq hamı ayağa qalxır. Dövlət bayrağının təhqir olunması

xalq və f^ı/if/if-qərar, fərman sözlərindəndir. Bir məsələnin (ərazi, qanun və s.) taleini həll etmək üçün vətəndaşların sorqusunu keçirmək deməkdir.

REGİONAL SAZİŞLƏR. İştirakçıları hər hansı coğrafi rayonun dövlətləri olan çoxtərəfli beynəlxalq müqavilələrdir. Regional sazişlərin başlıca məqsədi bu coğrafi rayonda danışığa gələn tərəflərin bu və ya digər sahədə əməkdaşlığını təmin etməkdir.

BMT Nizamnaməsinə müvafiq olaraq Regional sazişlər BMT-nin məqsəd və prinsiplərinə uyğun olmalıdır. Regional səviyyədə sülhü və beynəlxalq təhlükəsizliyi təmin etmək məqsədilə yaradılmış regional sazişlər iştirakçıları regional sazişlərin və ya onun əsasında formalaşmış orqanlar vasitəsilə yerli mübahisələri dinc yolla həll etməyə nail olmaq üçün bütün səylərini göstərməlidirlər. Regional sazişlərin iştirakçıları mübahisələrin həll olunmasında BMT Təhlükəsizlik Şurasına müraciət edə bilərlər.

Zəruri hallarda BMT TŞ regional sazişlərdən və onun orqanlarından öz rəhbərliyi altında məcburi tədbirlərdə istifadə edə bilər.

TŞ-na regional sazişlər və regional orqanların həyata keçirdiyi və ya nəzərdə tutduğu hərəkətlər barədə həmişə tam məlumat verilməlidir.

RETORSİYALAR (lat. ***retorsio*** - cavab tədbiri). Bir dövlətin digər dövlətə qarşı həyata keçirdiyi, dövlətin iqtisadi maraqlarını pozan əsassız tədbirlərinə cavab olaraq gördüyü tədbirlərdir. Retorsiya öz ərazisinə xaricilərin buraxılmasına yol verməmək, gömrük vergilərini artırmaq və s. aid edilə bilər. Retorsiya beynəlxalq hüquqa zidd olmayan və beynəlxalq əməkdaşlığın inkişafı yolunda maneələri aradan qaldırmağa xidmət edən və qanunauyğun hərəkətdir.

Retorsiyalar öz xarakterinə görə digər dövlətin düşmən hərəkətləri ilə eyni olmaya da bilər, lakin ağırlığ dərəcəsinə görə bu

nırlar. Tam hüquqlu iştirakçılardan fərqli olaraq, müşahidəçilər qərarların qəbul edilməsində, işçi orqanların formalaşması və fəaliyyətində, digər məsələlərdə iştirak etmirlər. Lakin müzakirə olunan məsələlərlə əlaqədar çıxış etmək və təklif vermək hüququna malik olurlar.

Praktik ehtiyac (tələblər) üzündən təşkilat üzvü olmayan dövlətlər bir sıra beynəlxalq təşkilatların, həmçinin BMT-nin fəaliyyətini izləmək istəyirlər və buna görə də bir çox təşkilatlarda daimi müşahidəçilər institutu formalaşıb.

BMT praktikasına uyğun olaraq daimi Müşahidəçilər və onların missiyalarının əməkdaşları BMT Təhlükəsizlik Şurasının, BMT-nin Baş Məclisinin, onun əsas komitələrinin və BMT-nin digər orqanlarının iclaslarında iştirak edə, öz hökümətlərinin sənədlərini və materiallarını yaya, BMT orqanlarının sənədlərini ala və istifadə edə bilərlər. 1974 ildən Fələstin Azadlıq Təşkilatı (FAT) BMT BM-nin qərarına əsasən BMT BM-nin və BMT çərçivəsində keçirilən beynəlxalq konfransların işində Müşahidəçi kimi iştirak edir. 1981 ildən Cənub-Qərbi Afrika təşkilatına da (SVAPO) belə status verilib.

Universal xarakterli beynəlxalq təşkilatlarla münasibətlərdə dövlətlərin nümayəndəliyi haqqında 1975 il Vyana Konvensiyası beynəlxalq təşkilatlarda və konfranslarda daimi Müşahidəçinin hüquqi statusunu reqlamentləşdirir. Müşahidəçidən BMT-nin hərbi Müşahidəçisi fərqləndirilməlidir.

REFERENDUM (lat. ***referendum*** - xəbər verilməli olan). Demokratiyanın mühüm institutlarından biridir. Seçkilərdən fərqli olaraq referendum zamanı seçim obyekti müəyyən vəzifəyə namizəd və ya namizədlər siyahısı deyil, müəyyən məsələdir. Referendum qanun, qanun layihəsi, yeni konstitusiya, konstitusiyaya düzəliş və əlavələr, bu ölkənin beynəlxalq statusuna aid problem və digər vacib qərarların qəbul edilməsi və ya onlara dəyişikliklər edilməsi ilə əlaqədar keçirilən ümumxalq səsverməsidir. Özünəməxsus forması ***piebissiidir.*** Lat. ***plebissitum.*** P/^A^-sadə

məsələlər ətrafında müzakirələr aparmaq, yaxud sülh və dostluq müqavilələrinin bağlanmasım təmin etmək məqsədilə müvəqqəti olaraq göndərilirdilər. İlk olaraq, daimi Elçiləri XIV əsrdən etibarən, İtaliyanın şəhər dövlətləri olan Venetsiya və Genuya rəsmiləri göndərməyə başladılar. XVI əsrdə İspaniya, İngiltərə və Almaniya kimi iri Avropa dövlətləri də diplomatik münasibətləri daimi Elçilər vasitəsilə saxlamağa üstünlük verirdilər. Şərqdə ancaq Osmanlı imperiyası XVIII əsrin sonunda sultan Səlim dövründən başlayaraq daimi Elçilər göndərməyə başlamışdır.

**KONSUL KONVENSİYALARI.** Dövlətlər arasında konsul nümayəndəliklərinin təsis olunması, təyin olunma və geri çağırılma qaydasını, fəaliyyət dairəsini, konsul vəzifəli şəxslərin və konsulluq əməkdaşlarının hüquqlarını, imtiyazlarım və immunitetlərini müəyyən edən konsul hüququ normalarından ibarət beynəlxalq dövlətləarası sazişlərdir. Konsul konvensiyaları konsul hüququnun mənbələrindən biridir.

Tarixdə ilk konsul konvensiyası 1769 ildə Fransa ilə İspaniya arasında imzalanmışdır. Beynəlxalq münasibətlər tarixində konsulluq məsələlərinə dair dövlətlər öz aralarında bir çox konsul konvensiyaları imzalaşmışlar. Məs., 1928 il konsul məmurları haqqında Havana konvensiyası, 1947 il ABŞ və Filippin konsul konvensiyası, 1951 il ingilis-fransız konsul konvensiyası, 1956 il Avstriya-Yuqoslaviya konvensiyasını və s. göstərmək olar.

Konsul konvensiyaları adətən ikitərəfli xarakter daşımışlar. 1928 il Havana konsul konvensiyası isə çoxtərəfli olmuşdur.

Konsul məsələlərinə dair təkmilləşdirilmiş son sənəd BMT çərçivəsində işlənib hazırlanmış 24.IV. 1963 ildə imzalanmış Konsul Əlaqələrinə dair Vyana Konvensiyasıdır. 19.111.1967 ildə Konsul Əlaqələrinə dair Konvensiya qüvvəyə minmişdir.

**MÜŞAHİDƏÇİLƏR.** Beynəlxalq hökümət təşkilatlarının, beynəlxalq konfransların və digər forumların işində məhdud iştirak üçün dövlətlər, beynəlxalq təşkilatlar, milli-azadlıq hərəkatları tərəfindən göndərilən nümayəndələr (təmsilçilər) müşahidəçilər adla-

3) Diplomatiya müəyyən etməlidir ki, bu müxtəlif məqsədlər hansı səviyyədə bir-biri ilə uyğunlaşa bilərlər; 4)Diplomatiya bu məqsədlərin keçirilməsi üçün münasib vasitələrdən istifadə etməlidir. H. Morqentaunıın fikrincə diplomatiyanın sərəncamında üç vasitə vardır: inandırma, kompromis və hədə-qorxu. O, yazır: “Diplomatiya sənəti ondan ibarətdir ki, hər bir konkret şəraitdə sərəncamında olan bu üç vasitənin hər-hansı birindən istifadə edə bilsin”. '

Diplomatik fəaliyyət bir sıra elmlər: beynəlxalq münasibətlər tarixinə, ayrı-ayrı ölkələr tarixinə, dünya təsərrüfatı və ayrı - ayrı ölkələrin iqtisadiyyatının öyrənilməsi ilə bağlı olan iqtisadi elmlərə, beynəlxalq hüquqa və ayrı-ayrı ölkələrin dövlət hüququna və müxtəlif ölkələrin daxili həyatının ayrı-ayrı hadisələrini və beynəlxalq həyatın ümumi durumunu qiymətləndirmək üçün zəruri olan digər biliklərə əsaslanmalıdır. Çünki belə qiymətləndirmə olmadan diplomatiya dövlətin xarici siyasət məqsədlərini həyata keçirməyə nail ola bilməz.

Diplomatik fəaliyyət bir sənətdir, buna görə də o elmi dəlillərə əsaslanmalıdır. Diplomatın xarici əlaqələrdə tətbiq olunan forma və metodlardan istifadə etmək bacarığı diplomatik fəaliyyətinin müvəffəqiyyətinin mühüm şərtidir.

ELÇİ. 1) Diplomatik əlaqələrə dair 18 aprel 1961 il Vyana konvensiyasında təsbit olunmuş müasir beynəlxalq hüquqa müvafiq olaraq, ***elçi*** - diplomatik nümayəndəliyin ikinci dərəcəli başçısıdır. Gündəlik beynəlxalq təcrübədə onun Extraordinary and Minister pienirotentiary,) qısa şəkildə - Səlahiyyətli nazir, yaxud nazir. İşlər müvəkkilindən fərqli olaraq, Elçi səfir kimi dövlət başçısının yanında akkreditə edilir.

2) Elçi - xarici əlaqələr orqanlarının diplomatik heyətinə verilən diplomatik rütbədir Elçi I və II dərəcəli olur.

Elçilik dövlət təsisatı kimi orta əsrlərdə yaranıb. Diplomatik qaydaların hələ mövcud olmadığı dövrlərdə Elçilər bir sıra imtiyazlara malik olar, toxunulmaz şəxs sayılırdılar. Elçilər mühüm

**Morgcnthau Cı. Polities among Nations. № 4,1973.**

Müəyyən xarici siyasət məsələlərinə nail olmaq üçün diplomatiyanın istifadə etdiyi metodlar, yəni hökümətə, rəsmi nümayəndələrə, eləcə də nüfuzlu siyasi dairələr və xarici dövlətlərin ictimayyətinə təsir vasitələri o qədər müxtəlifdir ki, onlar hər-hansı qəti müəyyən olunmuş təsnifata sığmırlar. Diplomatik metodların konkret xarakteri zamandan, məkandan və şəraitdən asılıdır. Diplomatik fəaliyyət metodları mövcud vəziyyətin dəyişilməsi ilə bağlı müəyyən məqsədlərə nail olmağa yönəlib və daima dəyişkən şəraitdə tətbiq olunur. Onlar heç də standart qaydalar yaratmırlar, çünki bu metodların köməyi ilə diplomatiyanın qarşıya qoyduğu xarici siyasəti məqsədlərinə nail olması müəyyən dərəcədə metodları tətbiq edən şəxslərin konkret hərəkət təı*zlərindən də asılıdır. Uzun tarixi təcrübə nəticəsində istifadə olunan diplomatik metodlar şəraitin dəyişilməsi ilə bağlı olaraq zənginləşir və təkmilləşir.

Diplomatik dərsliklərdə və diplomatiya tarixinə daİr kitablarda diplomatiya çox vaxt gah "beynəlxalq münasibətlər haqqında elm", gah da "danışıqlar sənəti" kimi müəyyən olunur. Bəzən diplomatiyaya bir elm kimi də yanaşılır. Məs., alman siyasətçi - hüquşünası Q. Martens diplomatiyaya belə tərif vermişdir; "Diplomatiya xarici əlaqələr və ya dövlətlərin xarici işləri haqqında elmdir, daha dar mənada isə danışıqlar elmi və sənətidir".* Fransız diplomatı Q. Qarden isə demişdir: "Diplomatiya - bu terminin geniş mənasında dövlətlərin qarşılıqlı münasibətləri və maraqları haqqında elmdir və ya xalqların maraqlarını qarşılıqlı şəkildə razılaşdırmaq sənətidir, daha dəqiq mənada isə - danışıqlar elmi və ya sənətidir".^ "Siyasi realizm" məktəbinin banisi H. Morqentau hesab edir ki, diplomatiya elmi dörd elementdən ibarətdir: 1) Diplomatiya həqiqətən və potensial olaraq sərəncamında olan qüvvəni nəzərə almaqla öz məqsədlərini müəyyən etməlidir; 2) Diplomatiya digər ölkələrin məqsədlərini və bu məq- sədləri həyata keçirmək üçün həqiqətən və potensial olaraq malik olduğu qüvvəni nəzərə almalıdır;

**(!!:h.de Martens. Guide Diplomatigul. Brochaus. Lcypzig, 1866. p.36. ^**
**G. Garden. I'raite complet de diplomate. P. 1833, p. 27.**

də icra olunur və dövlət fəaliyyətinin xüsusi növüdür. Bu qüvvə dövlətin quruluşundan və onun xarici siyasətinin xarakterindən asılı olaraq həm təcavüzkar məqsədlərə, həm də təcavüzdən müdafiə məqsədlərinə xidmət edə bilər.

Diplomatiya dövlətin xarici siyasət vasitələri içərisində xüsusi yer tutur. Diplomatın yeganə vəzifəsi dövlətin xarici siyasət məqsədlərini həyata keçirməkdən və bunun üçün vacib olan üsul və yolların müəyyən olunmasından ibarətdir. Diplomatiyanın vəzifəsi təkçə hökümətlər arasında rəsmi əlaqə formalarından məharətlə istifadə etməkdən və bu fəaliyyət çərçivəsində xarici dövlətlərə lazımi siyasi təsir göstərməkdən ibarət deyil, həm də bu formaları dövlətin qarşıya qoyduğu xarici siyasət məqsədlərinə nail olmaq üçün xarici siyasət vasitələri ilə uyğunlaşdırmaqdır. Diplomatik fəaliyyətin başlıca formaları aşağıdakılardır: 1) konfranslar, konqreslər və müşavirələr, yəni dövlət, hökümət başçıları və ya xarici işlər nazirindən tutmuş müxtəlif dərəcəli diplomatik əməkdaşlar arasından seçilmiş xüsusi səlahiyyətli şəxslərədək, dövlət nümayəndələrinin mütəmadi görüşləri; 2) müraciət, məktub, nota, memorandum və s. vasitəsilə diplomatik yazışma; 3) döv- lətlərarası münasibətlərlərin ən müxtəlif məsələlərini nizamlayan ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilə və sazişlərin hazırlanması və imzalanması; 4) xaricdə dövlətin onun səfirlikləri və diplomatik missiyaları tərəfindən gündəlik təmsil olunması və onların gəldikləri ölkənin diplomatik idarəsi ilə siyasi və digər danışıqların aparılması; 5) dövlət nümayəndələrinin ümumi missiyası və xüsusi, regional beynəlxalq təşkilatların fəaliyyətində iştirakı; 6) bu və ya digər xarici siyasət məsələsinə dair hökümətinin mövqeyinin mətbuatda işıqlandırılması; 7) mühüm beynəlxalq hadisələr haqqında rəsmi məlumatın nəşr olunması, beynəlxalq akt və sənədlərin rəsmi şəkildə dərc edilməsi.

Diplomatik fəaliyyətə ümumi rəhbərlik hökümət tərəfindən, bilavasitə rəhbərlik isə hökümətin məsul üzvünün (xarici işlər naziri) rəhbərlik etdiyi xüsusi Xarici İşlər İdarisə tərəfindən həyata keçirilir.

*****Whi1e tie***** - “ağ qalstuk”, yəni “frak” - xüsusi tikilmiş kostyumdur, - faldlı pencək, ipək tesmalı şalvar (smokinqdə olduğu kimi). Frakda yaxası yuxan qatlanmış frak köynəyi geyilir, ağ kəpənək (qalstuk) taxılır; ağ cilet və qara lak ayaqqabı geyinilir.

Diplomatik qəbullarda ən çix “smokinq” formasından istifadə olunur. “Frak” formasına az rast gəlinir.

Diplomatın xarici görkəmi də etiketin vacib element- lərindəndir.

**DİPLOMATİYA.** Dövlət, hökümət və xarici əlaqə orqanları başçılarının (dövlət başçısı, hökümət başçısı, xarici işlər naziri və şairənin) danışıqlar aparmaq, yazışmalar etmək və başqa dinc vasitələrlə dövlətin xarici siyasət məqsədləri və məsələlərinin həyata keçirilməsində, eləcə də dövlətin xaricdə maraqlarının və hüquqlarının qorunmasında rəsmi fəaliyyətidir.

“Diplomatiya” sözü yunan sözü ***“diplomatıdan*** törəmişdir. Qədim Yunanıstanda elçilərə onların səlahiyyətlərini təsdiq edən Etimadnamə və sənəd kimi təqdim olunan yazılı ikiqat löhvələr ***diploma*** adlanırdılar. Bu ikiqat “diploma”ları sənədlərlə başqa ölkələrə aparanları “diplomat”, onların fəaliyyət növünü “diplomatiya” adlandırdılar. Xarici əlaqələr sahəsində dövlət fəaliyyəti mənasında “diplomatiya” XVIII əsrin sonunda Qərbi Avropada işlədilməyə başlanmışdı.

Diplomatiya dövlətin xarici siyasətinin mühüm vasitəsidir. Bəzən “Diplomatiya” və “xarici siyasət” sözləri eyni mənada işlədilir. Lakin bunlar eyni anlayışlar deyillər. Xarici siyasət anlayışı beynəlxalq sahədə dövlətin fəaliyyət istiqamətlərini müəyyən edən məqsəd və maraqlarını, eləcə də bu fəaliyyətin formalarını, metod və vasitələrini əhatə edir. Beynəlxalq münasibətlərdə dövlətin məqsədləri hər şeydən əvvəl hökümətlər arasında rəsmi əlaqələr vasitəsilə, eyni zamanda‘həm dövlət orqanları, həm də ictimai və xüsusi idarə və korporasiyalarla (banklar, ticarət firmaları, elmi təşkilatlar, dini cəmiyyətlər) həyata keçirilir. Nəhayət bu məqsəd və maraqlar silahlı qüvvədən istifadə etməklə

diplomatik sənədə cavab gecikdirilməməlidir, imkan daxilində ən qısa müddətdə cavab verilməlidir.

Diplomatik yazışma sənədləri yaxşı, əziyi olmayan, təmiz, gözəl zahiri görünüşü olan kağızda çap olunmalıdır, mətn yaxşı yerləşdirilməlidir. Diplomatik sənədlərdə düzəlişlər etmək, pozmaq yol verilməzdir. Sənədlərin göndərilməsi üçün keyfiyyətli və formalı, sənədin ölçüsünə uyğun gələn zərflər seçmək lazımdır.

Diplomatik yazışma sənədləri ya şəxsən təqdim olunmalıdır, ya da diplomatik kuryerlə göndərilir: onları poçtla göndərmək olmaz.

***Şəxsi məktub nümunəsi***

**Tutduğu vəzifə, ad, soyad.**

**M Ə T N**

**Şəxsi imza**

DİPLOMATİK FORMA. Diplomatların qəbullar zamanı qeyim formaları aşağıdakılardır: parad paltarı, smokinq, frak və adi kostyum. Qəbula hansı paltar formasında gəlmək dəvət edən tərəfindən təyin olunur. Belə halda, adətən, dəvətnamənin sağ tərəfinin aşağı küncündə xüsusi qeyd olunur:

***"Black tie"*** - "qara qalstuk", yəni "smokinq kostyum" - atlas yaxalaqlı faldsız pencək, yanlardan ipək tesma tikilmiş şalvar, qara cilet, kraxmallı ağ, yaxud yaxası yuxarıya qatlanmış xüsusi yumşaq köynək, qara kəpənək (qalstuk) və qara lak ayaqqabı.

işlər nazirliyi ilə, olduğu ölkənin digər idarə və ayrı - ayrı şəxsləri, eləcə də bu Ölkədəki diplomatik korpusla yazışmalarıdır.

Diplomatik yazışmanın ən geniş yayılmış növləri bunlardır: ***şəxsi nota, verhal nota, yaddaş məktubu, memorandum, şəxsi məktub*** (yarırəsmi xarakterli məktub). Bu yazışma növləri öz məzmununa, təyinat və formal (protokol) əlamətlərinə görə bir - birindən fərqlənirlər. Səfirliyin başçısı və ya diplomatik işçisi tərəfindən göndərildiyindən şəxsi məktubun "yarırəsmi" sənəd kimi xarakterizə olunması rəsmilik keyfiyyətini azaltmır. Hər bir konkret hadisəyə uyğun gələn sənəd növünü düzgün seçmək vacibdir, eləcə də nəzərə almaq lazımdır ki, şəxsi notaya şəxsi nota ilə cavab vermək lazımdır.

Rəsmi olaraq nazirlik və səfirlik diplomatik yazışmanı öz ölkəsinin dilində aparmaq hüququna malikdir. Ancaq bəzən bu sənəd onu alan tərəfdə tərcümə ilə bağlı çətinliklərə səbəb olur və nəticədə diplomatik yazışmada qoyulmuş məsələlərin nəzərdə keçerilməsini çətinləşdirir. Bunu aradan qadırmaq məqsədilə:

1) Xarici İşlər İdarəsi və ya səfirliklə razılaşmaya əsasən yazışmanı hansısa üçüncü bir dildə aparmaq;

2) yazışmanı hər bir sənədə onun qeyri-rəsmi tərcüməsi əlavə olunmaqla aparmaq olar.

Səfirlikdə diplomatik yazışmanın diplomatın gəldiyi ölkənin dilində aparılması səhv hesab olunmur. Ancaq səfirlik, əgər onun yerləşdiyi ölkənin bir yox, iki və ya bir neçə rəsmi dili olarsa, ehtiyatlılıq göstərməlidir. Yazışmanın ancaq bu dillərin birində aparılması qarşılıqlı münasibətləri mürəkkəbləşdirə bilər. Məsələn, Əfqanıstanın iki rəsmi dili vardır: puştu və dəri dilləri. Diplomatik yazışmada nəzakət və ədəb qaydalarına əməl etmək, kəskin ifadələrdən, diplomatik sənədin göndərildiyi ölkənin ləyaqətinə toxunan və onun rəsmi nümayəndələri üçün təhqiredici sözlərdən qaçmaq tələb olunur.

Belə bir protokol qaydası mövcuddur: "Chaque lettre demande ryponse" - "Hər bir məktub cavab tələb edir". Ona görə də əgər xüsusi, ayrıca səbəb olmadıqda məktuba, notaya və digər

ona cavab vizitləri edir. Protokol viziti bir qayda olaraq 15-20 dəqiqə çəkir. Vizitlərin aparılma qaydasına uyğun səfirlərin ölkədən getməsi ilə bağlı “Vida görüşlər”i də keçirilir.

***İşgüzar vizitlər*** həm səfirin, həm də ölkə nümayəndəsinin təşəbbüsü ilə edilə bilər. Diplomatik işgüzar vizitlər üçün vaxt məhdudiyyəti qoyulmur. Səfirliyin diplomatik əməkdaşları onların üzərinə düşən öhdəliklərə görə hökümətinin tapşırığını yerinə yetirmək və səfirliyə lazım olan informasiyanı almaq üçün idarə və nazirliklərə vizitlər edirlər. Bu halda diplomatik işçi öz dövlətinin xarici siyasət kursunu həyata keçirir. Rəsmi şəxslərə vizitlərlə eyni vaxtda və ya bu vizitlərdən sonra diplomatik nümayəndə görkəmli ictimai xadimlərlə, elm, mədəniyyət, mətbuat nümayəndələrinə vizitlər edir. Diplomatik nümayəndəliyin digər işçilərinə və onların həyat yoldaşlarına da vizitlər edirlər. Bəzən diplomatik nümayəndələrin həyat yoldaşları gündə bir dəfə, müəyyən olunmuş vaxtda adətən 17.00-dan 19.00-dək, ya da 16.00-dan 18.00-dək **jour** fixe-qəbullar təşkil edirlər. Bu **jour** fixe-ləro dəvətnamələr payızın əvvəlində göndərilir və onlar **jour** fixe-in dayandırılması haqda xüsüsi məlumat verilməyənədək qüvvədə qalırlar.

Diplomatik nümayəndənin tanışlıq məqsədi ilə və ya protokol qaydaları ilə müəyyən olunmayan vizitləri ***xüsusi vizitlər*** hesab olunur. Diplomatik nümayəndənin rəsmi mövqeyini nəzərə alsaq, onun rəsmi və xüsusi vizitləri arasında fərq qoymaq çox çətindir. Diplomatik vizitlər zamanı rəsmi və xüsusi olmalarına baxmayaraq vizitlərin vaxtına və ya geyimlərinə dair yerli protokol qaydalarına əməl olunur. Diplomatik vizitlər dəqiq müəyyən olunmuş vaxtda keçirilir. Gecikmək etiketin pozulması hesab olunur və diplomatik vizitlər edilən şəxsə hörmətsizlik kimi qiymətləndirilir. Diplomatik vizitlərin bitirilməsi təşəbbüsü qonağa məxsusdur., lakin dövlət başçısı birinci olaraq diplomatik vizitlərin bitdiyinə işarə edir.

**DİPLOMATİK YAZIŞMA.** Diplomatik fəaliyyətin bir növüdür. Xarici işlər nazirliyinin ölkədə akkreditə olunmuş diplomatik missiya və səfirlikləri ilə, missiya və səfirliklərin xarici

başlayır. Digər həmkarları ilə diplomatik vizitlərin növbəsini müəyyən edərkən səfir mütləq birinciliyi, yəni ya etimadnamənin verilməsi vaxtını, ya da diplomatik nümayəndənin ölkəyə gəldiyi vaxtı nəzərə almalıdır. Lakin nəzərə almaq lazımdır ki, bu məsələdə ciddi qayda yoxdur. Diplomatik korpusda səfirlər birinci olaraq öz siniflərinə bərabər diplomatik nümayəndəlik başçılarına yəni səfirlərə vizitlər edirlər. Bu ölkədə akkreditə olunmuş nümayəndələr, daimi və müvəqqəti işlər müvəkkilləri yeni gəlmiş xarici səfirin onlara etimadnaməsini təqdim etməsi haqda şəxsi notasını alan kimi birinci olaraq səfirə vizit edirlər. Səfir də onlara cavab vizitlər edir.

Ölkənin rəsmi şəxslərinə və diplomatik nümayəndəlik başçılarına protokol vizitləri edilərkən görüşlərdəki ardıcıllığa riayət etmək, yəni əvvəlcə rəsmi şəxslərə, bundan sonra diplomatik nümayəndəlik başçılarına vizitlər məcburi deyil. Diplomatik korpusda həmkarları ilə vizitləri zamanı səfir rəsmi şəxslərə də gündə bir-üç vizit etməklə növbələşdirir.

Bəzi ölkələrdə diplomatik korpus böyük olduğundan yeni gəlmiş səfir müəyyən müddətə bütün diplomatik nümayəndə başçılarına diplomatik vizitlər edə bilmir. Belə olan halda o, hər hansı bir region səfirləri ilə görüşməklə kifayətlənir (məs., Oıta Asiya ölkələri. Afrika ölkələri, müsəlman ölkələri, Avropa ölkələri. Latın Amerikası ölkələri və s. səfirləri ilə görüşlər). Protokol vizitlərinin təkcə səfirlər deyil, ekzekvaturaya görə öz öhdəliklərinin icrasına başlamış konsul idarələrinin başçıları da edirlər. Etimadnamələrini təqdim etmiş diplomatik nümayəndəlik başçıları və ölkəyə yeni gəlmiş diplomatik işçi diplomatik korpusda protokol vizitləri etdikdən sonra diplomatik nümayəndəlik başçılarına və diplomatik əməkdaşa diplomatik korpusdakı həmkarları cavab protokol vizitləri edirlər. Artıq akkreditə olunmuş yeni gəlmiş səfir, öz növbəsində ondan sonra gələn digər həmkarlarından onların etimadnamələrini təqdim etməsi haqda şəxsi notalar alır. Bu halda məlumatı alması haqda gecikdirilmədən cavab (şəxsi nota) göndərilir və ona protokol vizitləri etdikdən sonra onun həmkarı

ölkələr arasında dostluq münasibətlərini inkişaf etdirmək vəzifələrindən irəli gəlir. Diplomatın gəldiyi ölkənin səmərəli şəkildə öyrənilməsi, onun siyasi, iqtisadi və mədəni həyatını dərindən bilməsi müxtəlif yerli dairələrin nümayəndələri tərəfindən görüşlər və diplomatik vizitlər vasitəsilə həyata keşirilən gündəlik və daimi əlaqələr olmadan qeyrimümkündür. Digər tərəfdən öz hökümətinin daxili və xarici siyasət məsələlərinə aydınlıq gətirmək də diplomatik vizitlərinin məqsədinə aiddir. Səfirdən attaşeyədək səfirliyin bütün diplomatik işçilərinin vizitləri mühüm əhəmiyyət kəsb edir. Diplomatın hər bir viziti siyasi xarakter daşıyır. Müzakirə olunan məsələnin xarakterindən asılı olaraq hər bir diplomatik nümayəndə öz hökümətinə diplomatik vizitlər və onun nəticələri haqda müəyyən olunmuş qaydada məlumat verməlidir.

Diplomatik vizitlər ***protokol*** və ***işgüzar vizitlərə*** bölünürlər. Bəzi diplomatik vizitlər diplomatik işçi üçün məcburidirlər və rəsmi vizitlər hesab olunurlar. Onlar yerli protokol ilə müəyyən olunur.

***Protokol vizitləri*** səfirlərin etimadnamələrini təqdim etdikdən sonra və diplomatik nümayəndəliklərin diplomatik əməkdaşlarının təyin olunduqları ölkəyə gəlişindən sonrakı vizitləri hesab olunur. Etimadnamə təqdim etdikdən sonra səfir birinci olaraq ölkənin rəsmi şəxslərinə, eləcə də diplomatik korpusun onun dövləti ilə diplomatik münasibətlər saxladığı ölkələrin diplomatik nümayəndəlik başçılarına vizitlər edir. Dövlət başçısı və xarici işlər nazirinə vizitlərlə yanaşı səfir, bir qayda olaraq hökümət başçısına, parlamentə, nazirlərə, ictimai xadimlərə vizitlər edir. Bəzi ölkələrdə təzə gəlmiş səfirin görüşəcəyi rəsmi şəxslərin siyahısı və görüşlərin ardıcıllığı müəyyən olunmuşdur. Bu siyahı haqda yerli protokol tərəfindən səfirliyə məlumat verilir. Səfirin görüşmək istədiyi şəxslərin siyahısı onun göstərişi ilə səfirliyin protokol xidməti tərəfindən tərtib olunur və səfirliyin akkreditə olunduğu ölkənin xarici işlər nazirliyinin protokol şöbəsinə göndərilir. Nazirlik bu vizitlərin təşkil olunmasında səfirə lazımi köməklik göstərir.

Diplomatik korpusda diplomatik vizitləri səfir bir qayda olaraq duayenin (Diplomatik korpusun duayeni) görüşünə getməklə

etdikləri ölkənin qüdrətini və zənginliyini nümayiş etdirmək üçün bərbəzəkli libaslar geyər, hətta zinət əşyalarından da geniş istifadə edərdilər, feodalizm dövründə dəbdə olan belə diplomatik geyim formalarında, həm də milli kolorit büruzə verilərdi. Keçmiş SSRİ- də də diplomatlar xüsusi formadan istifadə edirdilər. Bu geyimdən əsasən etimadnamənin təqdim edilməsində, milli bayramların keçirilməsində, mühüm görüşlərdə istifadə edilirdi. Bir sıra Afrika və Asiya ölkələrində diplomatik uniforma kimi milli geyimlərdən indi də istifadə olunur. İranda İslam inqilabının qələbəsindən sonra bu ölkənin diplomatları yaxalıqlı köynək və qalstukdan imtina etmişlər. Hind diplomatları diplomatik uniforma kimi öz milli geyimlərindən (kişilər uzun ağ köynək, qadınlar saridən) istifadə edirlər. Özbək və tacik diplomatları rəsmi mərasimlərə milli təsəkdə və çəpəndə gəlirlər.

DİPLOMATİK VİZA. Xarici işlər nazirliyinin müvafiq idarəsi, diplomatik nümayəndəlik və konsul idarəsi tərəfindən diplomatik şəxs olduqları təsdiq olunan şəxslərin pasportlarında edilən xüsusi qeyddir. Hökümətin üzvləri və yüksək vəzifəli dövlət adamları, beynəlxalq konfranslara gedən nümayəndələr, fövqəladə diplomatik missiya ilə göndərilən şəxslər, xarici işlər idarəsinin rəsmi məqsədlər üçün ezam edilən diplomatları, diplomatik kuryerlər və s. diplomatik şəxslər hesab olunurlar. Diplomatik viza almaq hüququ olanlara şəxsi işləri ilə əlaqədar xaricə qetmək istədikdə, beynəlxalq nəzakət qaydalarına uyğun olaraq diplomatik viza verilir. Bəzən diplomatik pasportu olmayanlara da lütfkarlıq əlaməti kimi diplomatik viza verilir.

DİPLOMATİK VİZİTLƏR. Diplomatın gəldiyi ölkənin rəsmi, ictimai və işgüzar dairələri münasibətlərin, eləcə də diplomatik korpusla şəxsi əlaqələrin yaradılması vasitəsidir. Diplomatik vizitlər diplomatik işin fəal formasıdır və müvəffəqiyyətini təmin edir. Diplomatik vizitlərin mahiyyəti diplomatın gəldiyi ölkədə öz ölkəsinin maraqlarını təmsil etməkdən və qorumaqdan.

müşahidə olunub. Məs., İranda şahlıq rejimindən narazı və müxalifətdə olan qüvvələr təqib və repressiyadan qorunmaqdan ötrü İngiltərənin və Rusiyanın 'I'ehrandakı səfirliklərinə yığışırdılar (buna İranda "bəstə oturma" (deyilirdi). Sığınacaq hüququndan hətta İran şahı da bəhrələnib. 1905-11 il Məşrutə inqilabı zamanı inqilabçılardan qorunmaq üçün İran şahı Məhəmmədəli Rusiya konsulluğunda sığınacaq tapmışdı.

Latın Amerikası ölkələri istisna olmaqla, əksər dövlətlər diplomatik nümayəndəliklərinin binalarından sığınacaq kimi istifadə etməyi qəbul etmirlər.

Latın Amerikasında bu məsələ ilə bağlı normativ aktlar qəbul olunsa da, onlardan istifadədə ziddiyyətli situasiyalar üzə şıxır. Universal xarakterli beynəlxalq müqaviulə və sənədlərdə diplomatik sığınacaq məfhumu ümumiyyətlə tanınmır. 1961 il Vyana konvensiyasında qeyd edilir ki, diplomatik nümayəndəliyin binalarından diplomatik münasibətlərə aidiyyəti olmayan məqsədlər üçün istifadə olunması yolverilməzdir. Azərbaycan Respublikası diplomatik sığınacaqı qəbul etmir.

DİPLOMATİK TƏMASLAR. Dövlətlərin rəhbər xadimləri, yaxud xüsusi səlahiyyətlərə malik şəxsləri arasında fərdi əlaqələr diplomatik təmaslara aiddir.

Diplomatik təmaslar dövlət başçıları, xarici işlər nazirləri, diplomatik və digər rəsmi şəxslər arasında saxlanılır. Təcrübədə diplomatik təmaslar dövri görüşlər, diplomatik konfranslar, səfərlər, danışıqlar və diplomatik qəbullar yolu ilə həyata keçirilir.

DİPLOMATİK UNİFORMA. Diplomatların daha təntənəli mərasimlərdə (Etimadnamənin təqdim olunması, milli bayramlar münasibətilə qəbullar keçirilməsi, dövlət başçısının audensiyası və s. zamanı) istifadə etdikləri xüsusi geyim formasıdır.

Diplomatiyanın özü kimi diplomatik uniformamn də qədim tarixi vardır. Hər ölkənin özünəməxsus diplomatik geyim növü olmuşdur. Orta əsrlərdə xarici ölkələrə göndərilən səfirlər təmsil

Bu mənada o, xristian (katolik) ölkələrdə diplomatik korpusun daimi duayeni sayılır.

Diplomatik nümayəndələrlə qəbul edən ölkənin dövlət rəsmiləri arasında öncüllük məsələsində beynəlxalq təcrübəyə əsasən belə bir qayda gözlənilir ki, diplomatik nümayəndəliklərin başçıları protokol tədbirlərində öz dövlət başçılarının təmsilçiləri olduqlarından bilavasitə qəbul edən dövlətin başçısının ardınca gəlirlər. Beynəlxalq nəzakət ənənələrinə görə, xarici səfirlər öz yerlərini baş nazirə və xarrici işlər nazirinə könüllü güzəştə gedirlər.

Nəzərdə tutulan diplomatik nümayəndəliyin işçi heyəti üzvlərinin öncüllüyü müvafiq ölkənin qaydaları ilə müəyyən edilir. Diplomatik dərəcələr nəzərə alınmaqla, səfirlik işçilərinin öncüllüyü müvafiq olaraq səfir, müşavir - elçi, hərbi attaşe, birinci katib, ikinci katib, üçüncü katib, attaşe rütbələri ilə müəyyən olunub.

DİPLOMATİK POÇT. Dövlətlə (adətən, xarici işlər idarəsilə) onun xaricdəki diplomatik nümayəndəlikləri arasında ən mühüm və geniş yayılan rabirə növlərindən biri. Barəsində xüsusi rejim müəyyən edilən diplomatik poçt vasitəsilə rəsmi məktublaşmalar, sənədlər və xidməti istifadə üçün nəzərdə tutulan əşyalar çatdırılır. Onlar ağzı bağlı, sürğuc möhürlü, yaxud da müəyyən olunmuş qaydada plomblanan zahirən görünən təyinat əlamətlərinə malik tutarlarda (çanta, kisə, paket, konvert və s.) - diplomatik valizada (fr. valise - çemodan) qablaşdırılır. Hər valiza diplomatik poçtda ayrıca yer tutur və istər bu iş üçün xüsusi müvəkkil olunan şəxsin müşayiətilə, istərsə də müşayiətsiz, adi rabitə kanalları ilə çatdırıla bilər.

Diplomatik poçt açıla və saxlanıla bilməz, bütün növ rüsumlardan azaddır. Diplomatik poçt və diplomatik kuryer barədə bu və ya digər mühüm müddəalar diplomatik əlaqələrə dair 1961 il Vyana konvensiyasında təsbit edilib.

DİPLOMATİK SIĞINACAQ. Diplomatik nümayəndəliklərin və konsul idarələrinin binalarında sığınacaq (diplomatik sığınacaq) verilməsi XVI - XVII əsrlərdə dövlətlərin təcrübəsində

olaraq kəsilmədikdə, eləcə də diplomatik nümayəndə persona non qrata elan edilmədikdə, diplomatik nümayəndəlik başçısının geri çağırılması dövlət başçısına geri çağırılma sənədi təqdim etmək yolu ilə rəsmiləşdirilir. Daimi işlər müvəkkilinin geri çağırılması isə diplomatik nümayəndənin olduğu ölkənin Xarici İşlər nazirinə öz dövlətinin Xarici İşlər nazimin müvafiq məktubunu təqdim etməklə rəsmiləşdirilir.

Diplomatik nümayəndənin persona non qrata elan edilməsi qaydasına praktikada az hallarda rast gəlinir, bu müvafiq dövlətlər arasında ciddi çətinliklərə səbəb olur. Adətən diplomatik nümayəndənin persona non qrata elan edilməsi haqda diplomatik nümayəndəni təyin edən dövlətin Xarici İşlər Nazirliyinə şifahi şəkildə məlumat verilir.

DİPLOMATİK ÖNCÜLLÜK. Diplomatik protokolun ən mühüm qaydalarından biridir. Açıq keçirilən tədbirlərə dəvət alan diplomatik korpusun kollektiv öncüllüyünə, diplomatik nümayəndəliklərin başçıları arasında öncüllüyə, qəbul edən ölkənin diplomatik nümayəndələri və rəsmiləri arasında öncüllüyə, həmin diplomatik nümayəndəliyin diplomatlar arasında öncüllüyə münasibətdə bu qaydaya riayət mərasimə dəvət olunan diplomatik korpusa həmin tədbirdə, yaxud mərasimdə iştirak edən dövlət başçısının və ya hökümət başçısının bilavasitə yaxınlığında fəxri yer ayrılır. Diplomatik nümayəndəliklərin hər hansı dərəcədən olan başçıları arasında öncül təyin edilməsində yerli təcrübədən asılı olaraq diplomatik nümayəndəni qəbul edən ölkəyə gəlmə tarixi, yaxud Etimadnaməsini təqdim olunma tarixi əsas götürülür.

Diplomatik əlaqələrə dair 1961 il Vyana Konvensiyasının 14-cü maddəsinin 2-ci bəndində deyilir: “Nümayəndəlik başçıları arasında rütbə böyüklüyü və etiketdən başqa, bu və ya digər sinfə mənsub olduğuna görə heç bir fərq qoyulmamalıdır”. Bu mühüm qaydanın pozulması diplomatik nümayəndələrin ləyaqətinə toxuna bilər və ayrı - seçkilikdə ittiham üçün əsas olar. Bəzi ölkələrdə nunsi (papa səfiri) ənənəyə görə digər səfirlərdən əvvəl öncül olur.

notaya cavab olaraq göndərilir. Belə nota imza edən şəxsin adından birinci şəxsdə (məsələn, ...bildirirəm ki, ...nəzərinizə çatdırıram və s.) tərtib olunmuş məktub formasında olur, nota blankında çap edilir, üstündə ünvan göstərilir, möhür qoyulur. Diplomatik praktikada çox vaxt ***verbal nota*** istifadə olunur. Verbal nota o qədər də rəsmi xarakter daşımır və nisbətən ikinci dərəcəli məsələləri əhatə edir. Verbal nota üçüncü şəxsdə (...hesab edir ki, ...nəzərə çatdırır ki, və s.) yazılır.

***^dxsi nota nümunəsi***

**Gerb.**

**Göndərildiyi yer. Tarix, ay, il.**

**M Ə T N**

**(müraciət formulu)**

**Llnvan: ---------------------------------------------------------------------**
**Rəsmi tutduğu vəzifə, şəxsi imza (qara mürəkkəblə) l'itullar, ad və soyad.**

DİPLOMATİK NÜMAYƏNDƏNİN GERİ ÇAĞIRILMASI Diplomatik nümayəndə aşağıdakı hallarda geri çağırıla bilər:

a) diplomatik nümayəndənin digər vəzifəyə keçirilməsi ilə, xəstəliyi ilə, istefaya getməsi ilə əlaqədar olaraq öz hökümətinin təşəbbüsüdə;

b) diplomatik nümayəndəni qəbul edən ölkənin təşəbbüsü ilə diplomatik nümayəndə persona non qrata elan edildikdə;

c) diplomatik münasibətlər pozulduqda və ya müvəqqəti olaraq kəsildikdə.

Diplomatik münasibətlər pozulmadıqda və ya müvəqqəti

orqanların işinə, eləcə də beynəlxalq təşkilatların qərarlarının və müqavilələrinin yerinə yetirilməsinə nəzarət etmək üçün göndərilən şəxslərdir. Diplomatik müşahidəçilər səlahiyyətləri prosedur qaydaları ilə müəyyən olunur. Beynəlxalq münasibətlərdə ABŞ tərəfindən birinci dünya müharibəsindən sonra tətbiq edilməyə başlamışdır. Dövlətlər bu və ya digər prinsipial mövqe baxımından və ya hər hansı məsələdə cavabdehlik daşımaq istəmədikdə beynəlxalq konfrans və toplantılarda rəsmi şəkildə iştirak etmir və müşahidəçilər göndərirlər. Müşahidəçilərin olması göstərir ki, onu göndərən dövlət müzakirə olunan məsələ ilə maraqlanır, ona dair qərara təsir göstərmək və ya bilavasitə informasiya almaq istəyir. Diplomatik müşahidəçilər tamhüquqlu iştirakçılardan fərqli olaraq qərarlar qəbul olunmasında, işçi orqanların təşkili və fəaliyyətində, səsvermədə və s. iştirak edə bilmir. Lakin onlara bir qayda olaraq müzakirə olunan məsələlər üzrə çıxış etmək və təkliflər vermək imkanı verilir. Hər hansı bir təşkilatın üzvü olmadan bir sıra təşkilatlar və o cümlədən BMT yanında onun işinə nəzarət etmək arzusunda olan dövlətlərin praktik tələbatına görə daimi nəzarətçilər qurumu, yaxud müşahidəçilər qrupu yaradılmışdır.

**DİPLOMATİK NOTA.** (lat. nota - yazılı işarə). Diplomatik yazışma sənədinin bir növüdür. Diplomatik nümayəndəlik və ya Xarici İşlər İdarəsi başçılarının öz adından, hökümətləri adından, bəzən isə dövlət başçıları adından göndərdikləri və beynəlxalq sənəd hesab olunan rəsmi yazılı sənəddir. Hökümət başçıları və ya dövlət başçıları tərəfindən imzalanmış müraciət diplomatik nota deyil, namə və ya məktub adlanır. İki cür diplomatik nota vardır: ***ş!fxsi*** (imzalanmış) və ***verhal*** nota. ***Ş^xsi nota*** diplomatik nümayəndəlik başçısı tərəfindən xarici işlər idarəsindən ya da xarici işlər idarəsinin başçısı tərəfindən xarici səfirliyə göndərildikdə imzalanır. Şəxsi nota adətən mühüm və prinsipal əhəmiyyətli məsələlərə aid olur və ya hər hansı hadisə ilə bağlı rəsmi informasiya qaydasında, eləcə də diplomatik nümayəndəliyin yerləşdiyi ölkədə diplomatik protokolun müəyyən olunmuş tələblərinə uyğun şəkildə və ya şəxsi

yerləşdiyi dövlət diplomatik imtiyaz və toxunulmazlıq hüququndan istifadə edən və bu dövlətin vətəndaşı olmayan səfirlik və ya missiya əməkdaşlarını, eləcə də bu şəxslərin vətəndaşlığından asılı olmayaraq ailə üzvlərinin mümkün gədər tez ölkədən getməsi üçün zəruri olan köməyi göstərməlidir. 1961 il Vyana konvensiyasına görə diplomatik nümayəndəliyin yerləşdiyi ölkə lazım gəldikdə nümayəndəlik üzvlərinin sərəncamına onlar və onların əmlakı üçün tələb olunan daşıma vasitələri verməlidir.

Diplomatik münasibətlərin kəsilməsi öz aralarında diplomatik münasibətləri kəsmiş ölkələri beynəlxalq praktikada "himayəçi dövlət" adlanan hər hansı üçüncü ölkənin diplomatik nümayəndəliyi vasitəsilə bəzi, adətən cari məsələlərə dair əlaqə saxlamaq imkanlarından məhrum etmir. Dövlət öz maraqlarını və vətəndaşlarının maraqlarını belə halda üçüncü dövlətə etibar edə bilər. Diplomatik münasibətlərin kəsilməsi zamanı səfirlik və ya missiya, onların əmlakı və arxivləri ilə birlikdə üçüncü dövlətə etibar oluna bilər. Diplomatik nümayəndəliyin yerləşdiyi dövlət öz tərəfindən üçüncü - himayəçi dövlətin üzərinə götürdüyü vəzifələrdən asılı olmayaraq, diplomatik münasibətlərin kəsilməsi zamanı geri çağırılan nümayəndəliyin binası, onun əmlakı və arxivləri ilə birlikdə qorumağa və hörmət etməyə borcludur. Diplomatik münasibətlərin kəsilməsi özlüyündə maraqlı olan dövlətlər arasında müqavilələrin fəaliyyətinə toxunmur. Diplomatik münasibətlərin kəsilməsindən sonra diplomatik münasibətlərin bərpa olunmasımaraqlı olan dövlətlərin razılığı əsasında həyata keçirilir. Müasir beynəlxalq təcrübədə diplomatik münasibətlərin kəsilməsi qeyri-hərbi sanksiya növlərindən biri ola bilər. BMT Nizamnaməsinin 41-ci maddəsinə görə BMT Təhlükəsizlik Şurası öz hərəkətləri ilə sülhü pozan və sülhə təhlükə yaradan dövlətə qarşı bu metoddan istifadə etmək hüququna malikdir. Konsul əlaqələrinə dair 1963-cü il Vyana Konvensiyasına görə də diplomatik münasibətlərin kəsilməsi faktı müharibə vəziyyəti istisna olunmaqla konsul münasibətlərinin kəsilməsinə səbəb olmur.

**DİPLOMATİK MÜŞAHİDƏÇİLƏR.** Dövlət və ya beynəlxalq təşkilatlar tərəfindən beynəlxalq konfransların, təşkilatların və

formasıdır.

Diplomatik münasibətlər dövlətlər arasında dostluq əlaqələrinin inkişafına, sülhün və beynəlxalq təhlükəsizliyin saxlanmasına xidmət etməlidir. Diplomatik əlaqələrə dair 1961 il Vyana Konvensiyasına müvafiq olaraq, dövlətlər arasında diplomatik münasibətlər qarşılıqlı razılıq əsasında həyata keçirilir. Bu istiqamətdə ilk addım, bir qayda olaraq, bu və ya digər dövlətin və onun hökümətinin başqa dövlət tərəfindən tam, yaxud de-yure tanınmasıdır (beynəlxalq-hüquqi tanınma). Diplomatik münasibətlərin qurulması bu işdə maraqlı olan dövlətlərin arasında bilavasitə aparılan danışıqlar yolu ilə, yaxud üçüncü dövlətin diplomatik nümayəndələri vasitəsilə həyata keçirilir, dövlət başçıları və hökümət başçıları, xarici işlər nazirliyi, yaxud xüsusi salahiyyətli şəxslər arasında müraciətlər, teleqramlar, məktublar, notalar şəklində təsdiq edilir. Tərəflər diplomatik münasibətlərin qurulması, diplomatik nümayəndəliklərin .səviyyəsi (səfirlik və s.), sazişin qüvvəyə minmə tarixi, onun dərc olunma vaxtı və qaydası barədə razılığa gəlirlər.

**DİPLOMATİK MÜNASİBƏTLƏRİN KƏSİLMƏSİ. Hər** hansı dövlətin təşəbbüsü ilə həyata keçirilən və digər dövlətlə diplomatik kanallar vasitəsilə birbaşa əlaqələrin qarşılıqlı şəkildə səfirlik və ya diplomatik missiyaların geri çağırılması ilə müşayət olunan rəsmi aktdır.

Diplomatik münasibətlər müharibə vəziyyəti yarandıqda, bir dövlətin digər dövlətə qarşı düşmənçilik siyasəti, diplomatik nümayəndəliyin normal fəaliyyətinə mane olan hər hansı hərəkətlərin baş verməsi üzündən və ya başqa səbəblər olduqda kəsilə bilər. Diplomatik nümayəndəliyin geri çağırılması faktı öz - özlüyündə, əgər bu barədə geri çağıran dövlətin müraciətində birbaşa heç nə deyilmirsə, diplomatik münasibətlərin kəsilməsi demək deyil. Dövlətlər arasında müharibə vəziyyətinin yaranması nəticəsində diplomatik münasibətlər mütləq kəsilir. Diplomatik münasibətlərin kəsilməsi həmişə diplomatik nümayəndəliyin geri çağırılması ilə müşayət olunur. Diplomatik nümayəndəliyin

## İŞTİRAKÇILAR:

**XARİCİ QONAQLAR:**

1. **Xarici işlər naziri -**
2. **Xarici işlər nazirinin xanımı -**
3. **Səfir**
4. **Səfirin xanımı**
8. **Xarici işlər nazirinin müavini**
7. **Nazir müavininin xanımı**
9. **XİN-nin şöbə müdiri**
10. **Şöbə müdirinin xanımı**
14. **Nazirin köməkçisi**

**QƏBUİ. LDƏN TƏRƏF: Səfir**

**Səfirin xanımı 6. Müşavir - elçi**

**5. Müşavirin xanımı I L**

**Səfirliyin müşaviri**

**12. Müşavirin xanımı**

**13. Birinci katib 16.**

**İkinci katib 15.**

**Attaşe**

**Nümunə**

**Giriş** ____

15 14
11 107
6 3
2-

1 45
8 9 12
13
16

DİPLOMATİK MİSSİYA, (lat. missio - tapşırıq, göndəriş). Diplomatik nümayəndə və ya daimi işlər müvəkkili tərəfindən başçılıq edilən daimi diplomatik nümayəndəlikdir. Həmçinin hər hansı bir ölkəyə ayrıca bir şəxsin və ya nümayəndəliyin öz hökümətinin hər hansı xüsusi birdəfəlik tapşırığım yerinə yetirmək üçün göndərilməsi də diplomatik missiya adlanır.

Diplomatik missiyalar XIX əsrdə əsasən kiçik dövlətlərdə təsis olunmuşdu. 1961-ci il diplomatik əlaqələrə dair Vyana konvensiyası diplomatik missiyalarla səfirlik arasında diplomatik imtiyazlar və toxunulmazlıq hüquqlarına münasibətdə heç bir fərq qoymur,

DİPLOMATİK MÜNASİBƏTLƏR. Beynəlxalq hüququn normalarına və beynəlxalq ünsiyyət praktikasına müvafiq olaraq, dövlətlər arasında rəsmi münasibətlərin saxlanmasının əsas

DİPLOMATİK QƏBULLAR. Mühüm hadisələrin və yubiley günlərinin qeyd edilməsi, qəbul edən dövlətin rəhbər şəxslərinə, diplomatik nümayəndələrə, yaxud ölkəyə gələn xarici nümayəndə heyətlərinə ehtiram, yaxud qonaqpərvərlik əlaməti göstərmək, habelə diplomatik nümayəndəliyin funksiyalarını yerinə yetirməklə bağlı keçirilən rəsmi tədbirlərdir.

Diplomatik qəbulların keçirilmə forması və vaxtına görə ***ayaqüstü*** və ***oturaq, gündüz və axşam*** kimi növləri vardır.

Diplomatik qəbulların əsas növləri: ***""şampan bokair*** - saat 12.0 ilə 13.00 arasında, ayaq üstə keçirilir; səhər yeməyi (lanç) - miz arxasında oturmaqla saat 12.00 ilə 15.00 arasında; ***çay*** - saat 16.0 ilə 18.00 arasında, oturmaq məcburi deyil, sərbəstdir (bir qayda olaraq yalnız qadınlar üçün təşkil olunur); ***""kokteyF,*** yaxud “a lya furşet” - 17.00 ilə 18.00 arasında başlayıb təxminən 2 saat, miz arxasında keçirilir ayaq üstə davam edir; ***nahar*** - qəbulun ən ehtiramlı növüdür, adətən 20.00 ilə 21.00 arasında başlanır və əsas qonaq gedənədək 2-2,5 saat davam edir, miz arxasında oturmaqla keçir; ***nahar - bufet*** - naharın bir növüdür, ayrı-ayrı mizlər arxasında 4-5 nəfər oturması ilə keçirilir; ***şam*** yeməyi saat 21.00-da başlayır və əsas qonaq gedənədək oturaq vəziyyətdə keçir. Nahar qəbulundan ancaq başlanma vaxtı ilə fərqlənir.

Diplomatik qəbulun variantları onun hansı səbəbə görə keçirilməsindən asılı olaraq seçilir.

Bəzən diplomatik qəbullarda qarşılıqlı razılaşmaya əsasən müraciət və tost mübadiləsi nəzərdə tutulur.

Ayaqüstü keçən diplomatik ziyafətlərə gəlmək və getmək sərbəstdir, lakin oturaq qəbullara gecikmək nəzakətsizlikdir.

Məsələn, xarici işlər nazirinin şərəfinə nahar verilməsi zamanı qonaqların və səfirlik əməkdaşlarının stol arxasında yerləşdirilməsi aşağıdakı kimi ola bilər.

mərasim (protokol) məsələləri ilə bağlı: təbrik etdikdə, başsağlığı verdikdə və b, hallarda diplomatik korpusun kollektiv çıxışlarına yol verir. Diplomatik korpus adından adətən diplomatik korpusun ***dımyeni*** çıxış edir. Duaycn bir qayda olaraq öz çıxışlarını diplomatik nümayəndəliklərin başçıları ilə razılaşdırır. Bəzi hallarda diplomatik nümayəndə başçısı diplomatik korpusun bu və ya digər mərasim məsələlərinə dair kollektiv çıxışında iştiraka razılıq vermədən öncə hökümətinin göstərişini almalıdır.

Konsullar və tərcüməçilər diplomatik korpusun üzvü hesab olunmurlar.

DİPLOMATİK KURYER. Diplomatik poçtu çatdırmaq tapşırığı alan səxs. Diplomatik münasibətlərə dair 1961 il Vyana Konvensiyasına müvafiq olaraq, diplomatik kuryer şəxsi toxunulmazlıq hüququna malikdir. O, nə həbs edilə, nə də hər hansı şəkildə tutulub saxlanıla bilər. Şəxsin diplomatik kuryer ststusunun tanınmasından ötrü ona rəsmi sənəd verilir. Bu sənəd diplomatik kuryeri göndərən təşkilat tərəfindən lazımi qaydada tərtib edilir və zəruri hallarda mənsub olduğu dövlətin səlahiyyətli hakimiyyət orqanları tərəfindən imzalanır. Akkreditə edən dövlət, yaxud diplomatik nümayəndəlik hər diplomatik poçt üçün ayrıca müvəqqəti diplomatik kuryer təyin edə bilər; müvəqqəti diplomatik kuryerə verilən toxunulmazlıq hüququ diplomatik poçtun təyinatı üzrə çatdırıldığı anadək qüvvədə olur.

Diplomatik poçt təyyarə heyətinin komandirinə həvalə oluna bilər; belə halda heyətin komandirinə rəsmi sənəd verilməlidir. Həmin sənəddə poçtu təşkil edən yerlərin .sayı göstərilir, ancaq komandir diplomatik kuryer hesab olunmur.

Qəbul edən ölkənin müvafiq orqanları diplomatik kuryerə təyinat yerlərinə maneəsiz getməkdə və apardıqları diplomatik poçtu qorumaqda hərtərəfli kömət göstərirlər.

yəndəliklərə daxil olan bütün diplomatik işçilər, yəni müşavirlər, birinci, ikinci və üçüncü katiblər, səfirlik və missiya attaşeləri; ticarət nümayəndələri və onların müavinləri, hərbi, hərbi - dəniz və hərbi - hava attaşeləri və bu attaşelərin köməkçiləri; xüsusi müşavirlər və xüsusi attaşelər (sənaye, kənd təsərrüfatı, iqtisadi, ticarət, maliyyə, mətbuat, mədəniyyət, elm, əmək işləri üzrə) nəzərdə tutulur. Diplomatik korpusa diplomatik işçilərin ailə üzvləri - həyat yoldaşları, həddi-büluq yaşına çatmamış oğulları və ərdə olmayan qızları da aiddir. Yerləşdiyi ölkə hökuməti tərəfindən diplomat kimi tanınmasının təsdiqi olaraq həmin ölkənin xarici işlər idarəsi diplomatik işçilər və onların ailə üzvlərinə diplomat kartoçkası verilir. Təbiidir ki, diplomatı diplomatik işçi kimi hər şeydən əvvəl aid olduğu dövlətin hökuməti ona diplomatik pasport verməklə tanımalıdır. Əgər diplomatik işçinin vəzifəsi diplomatik işçilərin ümumi qəbul edilmiş nomenklaturasına və ya diplomatik korpusda ənənəyə görə mövcud olan işlər nomenklaturasına uyğun gəlməzsə, diplomatik nümayəndənin gəldiyi ölkənin Xarici İşlər İdarəsi bu şəxsləri diplomat kimi tanımaqdan imtina edə bilər. Xarici İşlər İdarəsi müntəzəm olaraq diplomatik korpusun məlumat kitabçasını nəşr edir. Burada müvafiq səfirlik və diplomatik missiyalarda qruplaşmış diplomatik işçilərin soyadları, ünvanları, xidməti və ev telefonları göstərilir.

Diplomatik korpus beynəlxalq hüququn hər hansı normasına əsaslanan qurum, eləcə də hüquqi şəxs statusuna malik siyasi birlik və təşkilat deyildir.

Diplomatik korpus dövlətlərin diplomatik nümayəndələrinin müvəffəqiyyətli fəaliyyətini, onlar arasında qarşılıqlı anlaşmanı təmin edən vasitədir. Diplomatik korpusun yerləşdiyi dövlətin daxili işlərinə qarışmaq hüququ yoxdur. Diplomatik praktika tarixində elə hallar olmuşdur ki, diplomatik korpus olduğu dövlətin hökuməti qarşısında özünə birlik kimi kollektiv çıxış etmək hüququ vermişdi. Hal-hazırda heç kim diplomatik korpusun onun yerləşdiyi ölkənin hökuməti qarşısında dövlətin səlahiyyətlərinə aid məsələlərə dair kollektiv çıxış etmək hüququna iddia etmir. Beynəlxalq praktika

fəaliyyəti ilə məşğul olmasına dair iddialar olduqda.

Diplomat şahid sifətində məhkəmədə ifadə verə bilməz. Diplomatın olduğu ölkənin yurisdiksiyasından toxunulmazlıq hüququ onu akkreditə edən (Akkreditə etmək) dövlətin yuris- diksiyasmdan azad etmir.

Diplomatın bütün şəxsi əmlakı dövlət, rayon, bələdiyyə vergilərindən və rüsumlarından azaddır. Lakin diplomat xidmətin və malların qiymətinə daxil olan dolayı vergiləri, olduğu dövlətdə əgər xüsusu gəliri olsa, bu gəlirə aid vergiləri ödəməlidir. Diplomat gömrük immunitetindən istifadə edir. Onun şəxsi istifadəsi üçün nəzərdə tutulmuş əşyalara və şəxsi baqajına baxış keçirilə bilməz. Əgər şəxsi baqajda ölkəyuə gətirilməsi və aparılması qadağan olan əşyaların olmasına ciddi əsas olarsa, diplomatın iştirakı ilə bağlı baqaj açıla bilər.

Diplomatik nümayəndəliyin ***ikinci dərəcəli əməkdaşları*** sırasına inzibati texniki heyət daxildir. Bu heyət mühasiblərdən, şif- rəçilərdən, dəftərxana işçilərindən, tərcüməçilərdən ibarətdir. Vyana konvensiyası inzibati - texniki heyət və onun ailə üzvlərini bəzi vacib istisnalar olmaqla, diplomatik heyətlə eyni səviyyədə tutur. Xidməti işlə bağlı olmayan hərəkətlərə mülki və inzibati yurisdiksiya- dan toxunulmazlıq hüququ aid edilmir. Bu heyət əşyaları gömrüksüz ölkəyə gətirə bilərlər, lakin gömrük nəzarətindən azad olunmurlar.

***Üçüncü kateqoriyanı*** xidməti heyət təşkil edir ki, bura aşbazlar, bağbanlar, mühafizəçilər, sürücülər və s. daxildirlər. Bu heyət üzvləri öz xidməti vəzifələrinin icrası zamanı immunitetlərdən istifadə edə bilərlər və əgər olduqları ölkənin vətəndaşları deyil- lərsə, əmək haqqına olan vergilərdən azad olunurlar.

DİPLOMATİK KORPUS. Məlum ölkədə akkreditə olunmuş xarici diplomatik nümayəndəliklər başçılarının məcmüsudur. Bunlar səfirlər, eçılər, daimi işlər müvəkkili, müvəqqəti işlər vəkilləri; eləcə də Vatikanın diplomatik nümayəndəliklərinin başçıları olan nunsilər və internunsilərdir. Diplomatik korpus anlayışı çox vaxt daha geniş mənada istifadə olunur. Diplomatik korpus dedikdə diplomatik nümayəndəlik başçılarından başqa diplomatik nüma-

avtomüfəttişliyin yol hərəkət qaydalarını pozma hallarım qeyd etmək və onlar haqda xarici işlər nazirliyinə məlumat vermək hüququnu istisna etmir. Nəqliyyat vasitələrinin ***toxunulmazlığı*** hüququ, sürücüyə, əgər o, diplomat olmazsa, aid olunmur.

Nümayəndəliyin arxivləri və sənədləri yerləşmə yerindən asılı olmayaraq, onların müvəqqəti saxlanılma yerləri də daxil olmaqla toxunulmazdır. Bu qayda diplomatik əlaqələr pozulduğu hallarda da qüvvəsini itirmir.

Diplomatik nümayəndəlik bina ilə bağlı bütün vergilərdən azad olunur (fiskal immunitet), lakin istismar xərclərində-elektrik enerjisi, su təhcizatı və s. azad olunmur. Nümayəndəlik rəsmi istifadə üçün nəzərdə tutulmuş əşyalara gömrük vergisindən azad olunur (Gömrük immuniteti).

Diplomatik nümayəndələrin dövlət qerbindən və bayrağından, telefon və teleqraf əlaqəsindən istifadə etmək hüququ vardır. Nümayəndəlik rəsmi məqsədlər üçün şifrələrdən istifadə də daxil olmaqla öz əlaqələrində azaddır. Diplomatik poçt açıla bilməz, onu müşayət edən diplomatik kuryerlər şəxsi toxunulmazlıq hüququna malikdirlər.

Nümayəndəlik personalına immunitetlərin verilməsi bu personalın hansı əməkdaşlıq kateqoriyasına aid olmasından asılıdır. Diplomat dərəcəsinə malik şəxslər tam diplomatik immunitetlərdən istifadə edirlər. Onlar şəxsi toxunulmazlıq hüququna malikdirlər və həbs oluna, tutulub saxlanıla bilməzlər. Diplomatın olduğu ölkə onun təhlükəsizliyini təmin edir. Diplomatın yerləşdiyi bina, hətta müvəqqəti olaraq yerləşdiyi yer, əmlakı toxunulmazdır.

Diplomat, olduğu dövlətin cinayət, inzibati və mülki yurisdiksiyadan immunitetə malikdir. Diplomat rəsmi şəxs kimi çıxış etmədikdə mülki yurisdiksiyasiyadan toxunulmazlıq hüququ məhdudlaşır. Bu aşağıdakı hallarda baş verir: diplomatın xüsusi daşınmaz əmlakına dair mülkiyyət iddiaları baş verdikdə; diplomatın vəsiyət icraçısı, miras əmlak, varis üzərində qəyyum kimi xüsusi şəxs olaraq çıxış etdiyi vərəsəliyə dair iddiaları olduqda; diplomatın şəxsi məqsədlər üçün peşə və kommersiya

Havanada 14 Latın Amerikası dövləti lokal xarakterli diplomatik məmurlara dair konvensiya qəbul etdi. 1958 ildə BMT-nin Beynəlxalq hüquq komissiyası beynəlxalq hüquq sahəsində kodifikasiya ilə məşğul olaraq diplomatik əlaqələr və immunitetlər haqda konvensiya layihəsini işləyib BMT-nin Baş Assambleyasının sərəncamına verdi. 18 aprel 1961 ildə diplomatik əlaqələrə dair Vyana konvensiyasında və 1975-ci ildə dövlətlərin universal xarakterli beynəlxalq təşkilatlarla münasibətlərində təmsil olunması haqda Vyana konvensiyasında qəti olaraq diplomatik imtiyazlar və immunitetlər müəyyən olundu. Beynəlxalq təşkilatların nizamnamələrində, bir sıra çoxtərəfli konvensiyalarda və ikitərəfli sazişlərdə beynəlxalq təşkilatların imtiyaz və immunitetləri, ikitərəfli konsul konvensiyalarında isə adətən konsul imtiyaz və immunitetləri müəyyən olunmuşdur. Müasir dövrdə diplomatik imtiyazlar və toxunulmazlıq bu sənədlər əsasında tənzimlənir.

Dövlətlər arasında münasibətləri nizamlayan bütün beynəlxalq hüquqi sənədlər aşağıdakı mühakimələrə əsaslanır.

Diplomatik imtiyazlar və toxunulmazlıq şəxsi mənafe üçün deyil, diplomat və diplomatik nümayəndəlikləm onların funksiyalarını səmərəli həyata keçirilməsini təmin etmək üçün verilir.

Diplomatik imtiyazlar və toxunulmazlıq hamıya eyni dərəcədə, qarşılıqlı prinsipi əsasında, ayrı-seçkilik edilmədən verilir.

Diplomatik imtiyazlar və toxunulmazlıq iki qrupa bölünür: diplomatik nümayəndəliklərin imtiyaz və immunitetləri və diplomatik nümayəndəlik başçılarının və heyətinin şəxsi toxunulmazlıq hüquqları və imtiyazları.

Diplomatik nümayəndəliyin binası toxunulmazdır. Nümayəndəlik yerləşən dövlətin hakimiyyət orqanları ancaq diplomatik nümayəndəlik başçısının razılığı olduqdan sonra binaya daxil ola bilərlər. Eyni zamanda onlar nümayəndəlik binasının müdaxilədən və ya zərərli hallardan qorunması üçün normal şəraiti təmin etməlidirlər. Toxunulmazlıq hüquqi nəqliyyat vasitələrinə - gəmilərə, avtomobillərə, təyyarələrə də aiddir. Onlar təftiş edilə, axtarışa, həbsə və məcburi hərəkətlərə məruz qala bilməz. Bu

görüşlərdən sonra diplomatik nümayəndə ictimaiyyətin, işgüzar dairələrin, mətbuatın, elm və mədəniyyətin tanınmış nümayəndələri ilə görüşlər təşkil edir.

Diplomatik ümayəndənin missiyası başa çatmazdan qabaq, adətən, Protokol idarəsinə görüşə gedir, vida görüşlərinin keçirilmə qaydalarını aydınlaşdırır, ölkədən getməsilə bağlı tədbirlərlə tanış olur, qəbul edən ölkənin rəsmiləri ilə rəsmi vida görüşləri keçirir.

DİPLOMATİK İMTİYAZLAR VƏ TOXUNULMAZLIQ HÜQUQLARI (İMMUNİTETLƏRİ). Xarici diplomatik nümayəndəliklərə, diplomatik missiyalara, bu nümayəndəliklərin başçılarına və əməkdaşlarına, beynəlxalq hökümətlərarası təşkilatlar yanında nümayəndəliklərinə verilən hüquqlar və intiyazlardır. Diplomatik imtiyazlar və toxunulmazlıq xarici dövlətlərin diplomatik nümayəndəliklərinin və ya beynəlxalq təşkilatlarının beynəlxalq hüquqla nəzərdə tutulmuş vəzifələrinin onların olduqları dövlətdə səmərəli həyata keşirilməsini təmin etmək üçün verilir.

Diplomatik imtiyazlar və toxunulmazlıq müxtəlif tarixi dövrlərdə müəyyən sənədlərdə təsbit olunmuşdur. 19 mart 1815 il Vyana konqresinin və 21 noyabr 1818 il Aahen konqresinin protokolları ilə müəyyən olunmuş qaydalar uzun müddət beynəlxalq hüququn adi ümumi qəbul olunmuş normaları olmuşlar. XIX əsrin II yarısından diplomatik imtiyazlar və toxunulmazlığa dair normaların ayrı-ayrı şəxslər və beynəlxalq təşkilatlar tərəfindən kod i fl kas i yas ma çoxlu cəhdlər olunmuşdur. Bunlara misal olaraq 1868 ildə Biyuntqli, 1890 ildə Fiore, 1926 ildə Ştruppun kodekslər layihələrini, 1895 ildə Beynəlxalq Hüquq institutu tərəfindən diplomatik imtiyazlar haqda Reqlamenti, 1929 ildə diplomatik immunitetlər haqda Qətnaməni, 1932 ildə Harvard universiteti tərəfindən hazırlanmış diplomatik imtiyazlar və immunitetlər haqda konvensiya layihəsini göstərmək olar.

Millətlər Cəmiyyəti çərçivəsində 1925-1927 illər dövründə səfirlik hüququnun rəsmi kodifıkasiyasına hazırlıq üzrə bəzi işlərə başlanılsa da, bu iş davam etdirilmədi. 20 fevral 1928 ildə

ifadələr işlədilməməlidir.

**DİPLOMATİK ƏLAQƏLƏR.** Dövlətlərin rəhbər işçiləri və xüsusi səlahiyyətli şəxslərinin əlaqələridir. Diplomatik əlaqələri dövlət başçıları, hökümət başçıları, xaricİ işlər nazirləri, diplomatik nümayəndəliklər qoruyub saxlayırlar. Praktikada diplomatik əlaqələr diplomatik konfransların (beynəlxalq konfranslar), vizitlərin (diplomatik vizitlər), diplomatik qəbulların və s. gedişatında vaxtaşırı görüşlər yolu ilə həyata keçirilir.

Ölkələrarası qarşılıqlı anlamın və əməkdaşlığın inkişafında əsas yeri yüksək səviyyədə görüşlər tutur. Bu cür görüşlərin nəticələri çox zaman ikitərəfli münasibət çərçivəsindən kənara çıxır və beynəlxalq şəraitə müsbət təsir göstərir.

**DİPLOMATİK GÖRÜŞLƏR.** Qəbul edən ölkənin rəsmi, ictimai, işgüzar dairələrinin bu ölkədəki diplomatik korpusla əlaqələr yaradıb saxlamağın və inkişaf etdirməyin mühüm vasitəsidir. Rəsmi xarakter daşıyan və icrası məcburi olan belə görüşlərə diplomatik nümayəndənin Etimadnaməni təqdim etməzdən qabaq və sonrakı görüşləri aid edilir. Qəbul edən ölkəyə yeni gələn diplomatik nümayəndə Xarici İşlər Nazirliyi Protokol idarəsinin rəisilə görüşündə akkreditə qaydasını və yerli protokol praktikasını özü üçün aydınlaşdırır. Xarici işlər nazirinin görüşündə olarkən diplomatik nümayəndə öz etimadnaməsini, özündən əvvəlki nümayəndənin geri çağırılma fərmanının surətlərini ona təqdim edir və etimadnaməni təqdim etməkdən ötrü dövlət başçısı tərəfindən qəbul olunmasını (diplomatik audensiya) xahiş edir, söyləyəcəyi nitqin mətnini təqdim edir. Diplomatik korpusun duayeni ilə mümkün ola bilən görüşdə diplomatik nümayəndə yerli protokol qaydalarını özü üçün aydınlaşdırmalıdır. Etimadnamənin təqdim olunmasından və bu fakt barədə diplomatik korpusla lazımi nota (diplomatik nota) yazışmasından sonra diplomatik nümayəndə, yerli protokola uyğun olaraq, qəbul edən ölkənin rəsmilərinin və diplomatik nümayəndəliklərin başçılarının görüşünə gedir. Rəsmi

ümumi qəbul olunmuş diplomatik lüğəti təşkil edən xüsusi terminlər və ifadələrin məcmusu başa düşülür. Belə terminlərə və ifadələrə aqreman, etimadnamə, atteşe, müvəqqəti işlər vəkilləri və başqalarını misal gətirmək olar.

Üçüncü mənada diplomatik dil kimi mürəkkəb situasiyalarda istifadə edilən ehtiyatlı, nəzakətli ifadələri göstərmək olar; məsələn, əgər siyasi xadim və ya diplomat digər hökümətə bildirsə ki, onun höküməti hər hansı beynəlxalq münaqişəyə "etinazsız yanaşa bilməz", onda bu o deməkdir ki, onun hökuməti mütləq bu münaqişəyə qoşulacaqdır. Əgər diplomat nitqində və ya notada (Diplomatik nota) "onun hökuməti narahatçılıqla baxır" və ya "çox böyük narahatçılıqla baxır" kimi sözlər işlədirsə, bu onu göstərir ki, olnun hökuməti hər hansı məsələyə münasibətdə qəti mövqe tutmaq niyyətindədir. Belə ehtiyatlı ifadələrin köməyi ilə siyasi xadimlər birbaşa hədə-qorxu gəlmədən ciddi xəbərdarlıq etmək imkanına malik olurlar. Əgər bu xəbərdarlıqlara diqqət yetirilməsə, diplomat nəzakətli və barışdırıcı tonu saxlayaraq digər ifadələrdən istifadə edir. Əgər o, desə "bu halda onun hökuməti öz mövqeyinə yenidən baxmağa məcburdur", bununla o, işarə edir ki, dostluq istənilən an düşmənçiliyə çevrilə bilər. Diplomat "mənim hökümətimin ixtiyarı çatır ki, ..." deyirsə o elan edir ki, onun hökuməti "imkan verməyəcək". Bu halda "mənim hökumətim öz xüsusi maraqlarını qorumaq məcburiyyətində qalacaq" və ya "hərəkət etməkdə sərbəstdir" ifadələri diplomatik əlaqələrin kəsilməsini nəzərdə tutur. Əgər diplomat xarici hökuməti xəbərdarlıq edirsə ki, onun tərəfindən müəyyən hərəkətlər "düşmən hərəkət" kimi nəzərdən keçiriləcək, bu ifadələr müharibə təhlükəsini bildirir. Əgər o, deyirsə "nəticələr üçün o cavabdeh deyil" bu o deməkdir ki, o müharibəyə səbəb olacaq hadisə törətməyə hazırdır. Əgər diplomat ən nəzakətli tonda belə "25-i tarixdə axşam saat 6-ya" cavab tələb edirsə, bu artıq ultimatumdur. Bu diplomatik dilin üstün cəhəti ondan ibarətdir ki, siyasi xadimlərə bir-birilərinə xəbərdarlıq etmək imkanı verir və sakitliyi qoruyub saxlayır. Diplomatik sənədlərin dili aydın olmalı, onlarda ikimənalı yozulan sözlər və ideomatik

başqa dövlətlərin güclü müqavimətinə rast gəlmişdilər. Lakin buna baxmayaraq 1748 il Eks-la Şapel müqaviləsi fransızca tərtib olunmuşdu, bu müqaviləyə xüsusi paraqraf əlavə edilmişdi. Burada deyilirdi ki, belə hallar presedent yaratmamalıdır (təkrar olunmamalıdır). Belə qeydlər 1763 il Paris müqaviləsinə, 1783 il Versal müqaviləsinə, eləcə də Vyana konqresinin Yekun aktına da digər imza atan dövlətlərin təkidi ilə əlavə olunmuşdu.

Bu qeydlərə baxmayaraq, XVIII əsrin ortalarına yaxın fransız dili rəsmi diplomatik dil kimi bərqərar oldu. 1815 il Vyana konqresinin, 1856 il Paris konqresinin (Paris sülhü, 1856) bütün işi ancaq fransız dilində aparıldı. Təkcə 1919 il Paris sülh konfransında ingilis dili fransız dili ilə yanaşı işlədildi. Versal sülh müqaviləsinin ratifikasiya haqda maddəsində deyilir: “Bu müqavilə - fransız və ingilis mətnlərdə etibarlıdır”. Məhz bu maddə ilə fransızların onların dilinin bütün diplomatik danışıqların rəsmi dili olması iddiasına son qoyuldu.

1946 il Paris sülh konfransında rus, fransız, ingilis dilləri rəsmi dil kimi təsdiq olundular. Beynəlxalq Məhkəmə istisna olunmaqla (onun rəsmi dili ingilis və fransız dilidir), BMT-nın bütün orqanlarında rəsmən beş dil: ingilis, fransız, çin, rus, ispan dilləri gəbul olunmuşdur. Son illərdə bu cərgəyə ərəb dili də əlavə edilmişdir. Tədricən beynəlxalq münasibətlərin praktikasında dillərin bərabər-hüquqluq prinsipi bərqərar olmuşdu. Diplomatiyanın bir, iki və daha çox rəsmi dil sistemi heç vaxt tam əhatəli olmamışdır. Dövlətlərin xarici əlaqə orqanları yazışmaları, xüsusilə də rəsmi aktlarla mübadilələri öz milli dillərində aparırlar. İkitərəfli beynəlxalq müqavilələr və sazişlər ümumi qaydaya əsasən kontragentlərin dillərində tərtib olunur. Beynəlxalq konfransların prosedur qaydaları adətən nəzərdə tutur ki, bütün diplomatik sənədlər, protokollar və yekun aktları konfransın rəsmi dillərində redaktə olunmalıdır. Bundan əlavə, müzakirələrin aparıldığı, məruzələrin, lahiyələrin və sənədlərin tərtib olunduğu işçi dillər də müəyən olunur.

Yuxarda deyildiyi kimi, diplomatik dil dedikdə həm də

**гльно работал при Посольстве СССР в демократической Республике Афганистан с 26 декабря 1979г. по 25 декабря 1983г., а также с 19 июня 1987г. по 22 мая 1988г. в должности второго секретаря (Приказы по Посольству № 241 от 26 декабря 1979 I ., № 363 от 13 декабря 1983 г., № 222 от 23 июня 1987г., № 105 от 11мая 1988г.).**

**Основание: АВП РФ, ф. 159, оп. 91, п. 156, д. 12, л. 271; оп. 95, п. 172, д. 12, л. 180; оп. 99, п. 189, д. 6, л. 23; оп. 100, п. 190, д. 6, л. 131;**

**Справка дана для подтверждения трудового стажа.**

**ЗАМЕСТИТЕЛЬ ДИРЕКТОРА**
**ИСТОРИКО-ДОКУМЕНТАЛЬНОГО**
**ДЕПАРТАМЕНТА (подпись) Н. БАРИНОВА Н.**

**ТРЕТИЙ СЕКРЕТАРЬ (подпись) ИСАИ ЕВА**

**(печать министерства**
**иностранных дел Российской Федерации)**

DİPLOMATİK DİL. Üç müxtəlif anlayışı bildirmək üçün istifadə olunur: birincisi-diplomatlar tərəfindən beynəlxalq müqavilələrin hazırlanmasında və imzalanmasında, rəsmi diplomatik danışıqlarda şifahi olaraq istifadə olunan dil (məs. latın, fransız, ingilis və s.); ikincisi, əsrlər boyu ümumi diplomatik lüğətin tərkibinə çevrilən texniki terminlər və ifadələr; üçüncüsü, diplomatlara, siyasi xadimlərə, nazirlərə bir-birilə ən kəskin sözləri yumşaq və mədəni şəkildə söyləməyə imkan verən ehtiyatlı ifadələr başa düşülür.

XVIII əsrə qədər ümumi diplomatik dil latın dili idi. Diplomatlar nəinki latın dilində yazırdılar, həm də latınca danışırdılar. 1648 il Vestfal sülhü, 1670 il ingilis - danimarka və 1674 il ingilis- hollandiya müqavilələri də latınca yazılmış və imzalanmışdır, çünki ümumi qayda belə idi. XVIII əsrdə fransızlar dəfələrlə öz dillərini rəsmi diplomatik dil kimi qəbul etdirməyə cəhd göstərsələr də.

vericiliyi aşağıdakı diplomatik dərəcələri müəyyən etmişdir: attaşe, birinci katib, ikinci katib, üçüncü katib, müşavir, diplomatik nümayəndə və səfir. Bu zaman diplomatların xidməti adları bir qayda olaraq onların eyni adlı vəzifələrinə uyğun gəlir. Bəzi Ölkələrdə attaşe kiçik diplomatik dərəcədir, digərlərində kiçik dərəcə - katib - arxivistdir. Bundan başqa göstərilən diplomatik heyətin qradasiyası (birinci və ya ikinci sinif müşavir və s.) mövcud ola bilər Fövqəladə və səlahiyyətli səfir və diplomatik nümayəndə adətən dövlətin konstitusiyasından, qanunlarından, siyasi quruluşundan asılı olaraq ya qanunverici orqan, ya da dövlət başçısı tərəfindən, yerdə qalanlar isə xarici işlər idarəsi (nazirlik, şöbə, komitə və s.) rəhbərinin göstərişi ilə verilir.

Azərbaycan Respublikası prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının xaricdəki səfirlikləri və missiyalarının (diplomatik missiya) diplomatik işçiləri üçün birinci və ikinci dərəcəli müşavirlər, 2 dərəcədən olan birinci katiblər, 2 dərəcədən olan ikinci katiblər, üçüncü katib və attaşe rütbələri müəyyən edilmişdir.

**<u>Rusiya Federasiyası XİN-nin müalHif haqında aravıs nümunəsi</u>**

**МИНИСГЕРСТВО**
**ИНОСТРАННЫХ ДЕЛ**
**РОССИЙСКОЙ ФЕДЕРАЦИИ**

**119200,г. Москва, Г-200,**
**Смоленская - Сенная площадь, дом 32\34**
телефон 244-16-06

**на № 509/УДД от 30.01.2006**

**М.И. ГАДЖИЕВУ**

**Архивная справка**

**Материалами Архива внешней политики Российской Федерации подтверждается, что Максуд Ибрагим оглы ГАДЖИЕВ действи-**

**DİPLOMATİK DANIŞIQLAR.** Dövlət nümayəndələri tərəfindən ikitərəfli və çoxtərəfli münasibətlərin siyasi, iqtisadi və digər məsələlərin xarici siyasət strategiyasını, taktikasını və ya müvafiq diplomatik aksiyalarım, fikir mübadilələrini, qarşılıqlı informasiya mübadilələrini, müqavilələrin hazırlanması və imzalanmasını razılaşdırmaq məqsədilə rəsmi müzakirələrdir.

Diplomatik danışıqlar dövlətlər arasında meydana çıxan mübahisə və münaqişələrin dinc yolla həll etməyin (Beynəlxalq münaqişələrin, münaqişələrin sülh yolu ilə həll edilməsi) başlıca vasitəsidir, beynəlxalq hüquqda dövlətlər arasında münasibətlərin inkişaf etdirilməsi və dərinləşdirilməsinin ən geniş yayılmış və təsdiq olunmuş metodlarından biridir.

Diplomatik danışıqlar iştirakçılarının səviyyəsi (dövlət başçıları, hökümət başçıları, xarici işlər nazirləri və b.) müzakirə olunan problemin əhəmiyyəti ilə müəyyən olunur. Ümumqəbul olunmuş qaydaya ə.sasən dövlət başçısı, hökümət başçısı, xarici işlər naziri diplomatik danışıqlar aparmaq və imzalamaq üçün lazımi qaydada tərtib olunmuş səlahiyyətlərə malik olmalıdır. Diplomatik danışıqlar onların iştirakçıları ilə şəxsi görüşlər yolu ilə və ya yazılı şəkildə piplomatik yazışma vasitəsilə həyata keçirilir. Çox vaxt danışıqların şifahi və yazılı formaları paralel olaraq istifadə edilir. Diplomatik danışıqlar bir qayda olaraq nümayəndələrin mövqeyinin öyrənilməsindən, layihələrin və yekun sənədlərinin hazırlanmasından ibarət böyük hazırlıq işindən sonra başlayır.

**DİPLOMATİK DƏRƏCƏLƏR.** Xarici işlər idarəsinin və xaricdəki diplomatik nümayəndəliyin diplomatik heyətinə verilən xüsusi xidməti dərəcələrdir. Diplomatik dərəcələr diplomatın diplomatik korpusda mövqeyini və gəldiyi ölkənin hakimiyyət orqanları ilə əlaqələrinin mümkünlüyünü müəyyən edir. Diplomatik dərəcələr bir növ diplomatik nümayəndənin fəaliyyətini müəyyənləşdirir.

Hər bir dövlətin öz diplomatik dərəcələr sistemi vardır və daxili qanunvericiliklə müəyyən olunur. Əksər dövlətlərin qanun-

əlavələr edildi. Diplomatik dərəcələr: səfirlər (leqat (Papa və Apostol leqatı) və nunsilər), diplomatik nümayəndələr, səlahiyyətli nazirlər, nazir-rezident, işlər müvəkkili müəyyən edildi. Öz sinfi daxilində diplomatik nümayəndəlik başçılarının diplomatik başçılığı yerli praktikadan və ya diplomatik nümayəndənin ölkəyə gəlmə tarixindən, ya da etimadnamə sənədini təqdim etməsi vaxtından asılı olaraq müəyyən olunur. Vyana konqresinin (1815) V və VI maddələrinə görə "hər bir dövlətdə hər bir sinfə aid diplomatik agentlərin qəbul olunmasının vahid qaydası müəyyən olunmalıdır və saraylar arasında qohumluq və ya ailə əlaqələrinin mövcudluğu onların diplomatik agentləri üçün dərəcədə heç bir üstünlük yaratmır". Bu o deməkdir ki, təcrübədə bu maddələrin həyata keçirilməsi zamanı diplomatik nümayəndələr arasında mövcud olan diplomatik başçılığa əməl etmək lazımdır və hər hansı təsəvvürlərə görə digər diplomatik nümayəndənin diplomatik başçılığına zidd olaraq bu və ya digər diplomatik nümayəndəyə diplomatik başçılıq verilməməlidir. Bu mühüm qaydanın pozulması diplomatik nümayəndənin ləyaqətinə zərər vurmaqla qanunların pozulmasına əsas verir və ölkənin hakimiyyət dairələri ilə diplomatik korpus arasında münasibətlərdə ciddi gərginlik yarada bilər. Bəzi katolik ölkələrində Vatikanın səfiri (nunsi) olduğu ölkəyə gəlməsindən və ya etimadnaməsini təqdim etmək vaxtından asılı olmayaraq digər səfirlər qarşısında diplomatik başçılığa malikdir. Elə buna görə də bu ölkələrdə nunsilər diplomatik korpusun duayeni olurlar. Əgər diplomatik nümayəndəlik başçısı suverenin dəyişməsi yolu ilə və ya ölməsi ilə bağlı, dövlətin siyasi quruluşunun dəyişməsi ilə əlaqədar olaraq təkrarən Etimadnamə təqdim edinsə, onun əvvəlki diplomatik başçılığı saxlanılır. Diplomatik nümayəndələr və onların gəldikləri ölkənin hakimiyyət dairələri arasında başçısılıq məsələsinə dair beynəlxalq təcrübədə müəyyən olunmuş qaydaya görə öz dövlətlərinin nümayəndəsi kimi xarici səfirlər bilavasitə dövlət başçısından sonra gəlirlər. Ancaq nəzakət xatirinə xarici səfirlər könüllü olaraq öz yerlərini baş nazirə və xarici işlər nazirinə güzəştə gedirlər.

yığılan sənədli materialların məcmusu. Beynəlxalq təcrübədə diplomatik arxiv anlayışı, başlıca olaraq, diplomatik nümayəndəliyin və konsul idarəsinin arxivlərinə aid edilir. Diplomatik münasibətlərə dair 1961 il Vyana konvensiyasına uyğun olaraq, diplomatik nümayəndəliklərin arxiv və sənədləri istənilən vaxt və saxlandığı yerdən asılı olmayaraq toxunulmazdır. Əksər ölkələrdə diplomatik arxiv xarici siyasət idarəsinin bir bölməsi sayılır.

DİPLOMATİK AUDİENSİYA. Dövlət başçısı, xarici işlər naziri və ya hökümətin digər üzvü tərəfindən diplomatik nümayəndənin qəbulu. Yerli protokol qaydalarından, diplomatik nümayəndənin dərəcəsindən və audiensiyanın xarakterindən asılı olaraq qəbul təntənəli şəraitdə və ya protokol mərasimləri olmadan keçirilə bilər.

Diplomatik audensiya öz Etimadnaməsini təqdim edən xarici diplomatik nümayəndəyə dövlət başçısı tərəfindən verilir (təyin olunur).

DİPLOMATİK BAŞÇILIQ. Kütləvi tədbirlərə dəvət olunan diplomatik korpusun kollektiv başçılığına, diplomatik nümayəndəlik başçıları arasında başçılığa, diplomatik nümayəndəliklərlə gəldiyi ölkənin hakimiyyət dairələri arasında başçılığa, diplomatik nümayəndəlik daxilində diplomatik başçılığa münasibətdə və s. əməl olunan mərasimin mühüm qaydalarından biridir. Rəsmi kütləvi tədbirlərə, mərasimlərə dəvət olunan diplomatik korpusa bu tədbir və ya mərasimlərdə iştirak edən dövlət və hökümət başçısının yanında birinci fəxri yer verilir. Diplomatik korpusun bütövlüyünə hörmət edilməlidir və buna görə də onu səfirlərə, diplomatik nümayəndələrə və işlər müvəkkilinə bölmək olmaz (müxtəlif yerlərdə yerləşdirmək olmaz).

Diplomatik başçılığı nizamlamağa hələ XIX əsrin əvvəllərində cəhdlər edilmişdir. 19 mart 1815 ildə Vyana konqresində Avropa dövlətlərinin nümayəndəlikləri xüsusi reqlament qəbul etdilər. Bu reqlamentə 21 noyabr 1818 ildə Aahen protokolu ilə

1815 il Vyana reqlamentində diplomatik agent ancaq diplomatik nümayəndə başçılarına aid edilirdi. Beynəlxalq hüquqda və praktikada belə nöqteyinəzər möhkəmlənmişdi ki, bir halda ki, səfirlik və missiyaların diplomatik heyətinin üzvləri səfir və ya elçinin müvəqqəti yox (necə ki, XIX əsrdə onları bu cür hesab edirdilər), dövlət müəssisələrinin əməkdaşlarıdırlar, göstərilən şəxslər dairəsi diplomatik agent kimi nəzərdən keçirilməyə başlandı. BMl'-nin 1958 ildə Beynəlxalq hüquq komissiyası tərəfindən hazırlanan diplomatik əlaqələr və diplomatik immunitetlər (Diplomatik imtiyazlar və toxunulmazlıq hüququ) haqda maddələri bu ümumi mövqedən çıxış edir. 1928 il diplomatik məmurlar haqda Havana konvensiyası (Beynəlxalq konvensiya) səfirlik və missiya başçılarını və diplomatik heyəti, eləcə də beynəlxalq konfranslarda dövlətin rəsmi nümayəndələrini, həmçinin bir dövlət tərəfindən xüsusi missiya ilə digərinə göndərilən nümayəndəlik başçıları və üzvlərini də diplomatik agentlərə aid etmişdir. 1961 il diplomatik əlaqələr haqda Vyana Konvensiyasına görə diplomatik agent nümayəndəliyin başçısı və ya diplomatik heyətin üzvüdür.

Diplomatik agentin şəxsiyyəti toxunulmazdır. O hər hansı formada həbs edilə və tutulub saxlanıla bilməz. Diplomatik agentin gəldiyi dövlət ona lazımi hörmətlə yanaşmalı, onun şəxsiyyətinə, azadlığına və ya ləyaqətinə hörmət etməli, ona qarşı edilən hər hansı qəsdin qarşısını almaq üçün bütün zəruri tədbirləri görməlidir. Diplomatik agentin şəxsi iqamətgahı nümayəndəliyin binası kimi toxunulmazdır və qorunur. Diplomatik agent ölkənin cinayət toxunulmazlıq hüququna malikdir. O həmçinin mülki və inzibati yıirisdiksiya immunitetlərindən də i.stifadə edir. Diplomatik agent şahid sifətilə ifadə verə bilməz. Diplomatik agentin olduğu ölkənin yurisdiksiyasından immuniteti onu akkreditə edən dövlətin yurisdiksiyasından azad etmir.

**DİPLOMATİK ARXİV.** Xarici işlər idarəsinin və onun xaricdəki nümayəndəliklərinin fəaliyyəti nəticəsində toplanıb

üçüncü sinif işlər müvəkkili-xarici işlər nazirləri yanında akkreditə olunurlar. Müasir beynəlxalq təcrübədə diplomatik nümayəndəlik başçılarının qəbul olunmuş tam rəsmi adları aşağıdakı kimidir: Səfir və nunsi - fövqəladə və səlahiyyətli səfir; sadəcə səfir və ya nunsiİər; Diplomatik nümayəndə və intemunsi - fövqəladə diplomatik nümayəndə və səlahiyyətli nazir; qısaldılmış şəkildə- səlahiyyətli nazir və nazir; fövqəladə və səlahiyyətli elçi;

Daimi işlər müvəkkili - işlər müvəkkili. Diplomatik nümayəndəlik başçısını müvəqqəti işlər müvəkkili sinfindən fərqləndirmək üçün daimi işlər müvəkkilinin ünvanına göndərilən sənədlərdə (ümumiyyətlə sənədlərdə) onun fransız adı - Chargy d'Affaires avec lettres istifadə olunur;

Müvəqqəti işlər vəkilləri. Onun fransızca ümumi qəbul olunmuş adı - Chargy d'Affaires ad interim və ya Chargy d'Affaires a.i.

Diplomatik nümayəndəlik başçıları üçün siniflərin müəyyən olunması onların səlahiyyətlərinin həcminə və məzmununa müvafiq olur.

1961-ci il Vyana Konvensiyası nəzərdə tutur ki, birincilik və etiketə münasibətdə diplomatik nümayəndəlik başçıları arasında onların bu və ya digər sinfə mənsubluğuna dair heç bir fərq qoyulmamalıdır. Konvensiyaya uyğun olaraq nümayəndəlik başçısının məxsus olduğu sinif dövlətlər arasında razılaşmaya əsasən müəyyən olunur; nümayəndəlik başçılarının qəbulu zamanı hər bir dövlətdə diplomatik nümayəndələrə aid riayət edilən qaydalar hər bir sinfə münasibətdə eyni olmalıdır. Bir qayda olaraq dövlətlər eyni sinifli diplomatik nümayəndələrlə mübadilə edirlər.

DİPLOMATİK AGENT. (lat. ***agem*** ~ hərəkət edən). Diplomatik nümayəndəliyin başçı və ya nümayəndəliyin diplomatik heyətinin üzvü. Beynəlxalq hüquqda və diplomatik praktikada bu termindən dövlətin diplomatik nümayəndələrinin (səfirləri, diplomatik nümayəndələri, işlər müvəkkilini), səfirlik və missiyaların diplomatik heyət üzvlərinin ümumi adı kimi istifadə olunur.

xarici işlər nazirinin müavinləri, nazirliyin baş katibi, idarə və şöbə başçıları və b. bu qaydada təyin edilir. Lakin bir çox dövlətlərdə bu vəzifələrdən bəziləri xüsusi hazırlığı olan və müntəzəm olaraq diplomatik xidmət mərhələlərini keçmiş şəxslər sırasından müsabiqə əsasında təyin olunur. Belə diplomatik işlər kateqoriyası "diplomate de carrere", yəni peşəkar diplomat adlandırılır.

Dünyanın inkişaf etmiş ölkələrində diplomatların hazırlanması məqsədi ilə xüsusi təhsil müəssisələri fəaliyyət göstərirlər. Məs., ABŞ-ın Harvard, Yel və Prinston universitetlərinin yanında Xarici Xidmət İnstitutlarını, Fransa Milli Administrativ Məktəb və Şərq dilləri məktəbini, İngiltərədə Harrou kolleclərini, Oksford və Kembric universitetlərini göstərmək olar. Diplomat seçilməyə namizəd olan şəxs hər şeydən əvvəl müsabiqə imtahanlarına buraxılmaq icazəsi almalıdır. Bu icazə xarici işlər nazirliyi və ya xüsusi dövlət komissiyası tərəfindən siyasi etibarlığın yoxlanılması əsasında verilir, Dövlət seçki və müsabiqə komissiyaları bu imtahanları diqqətlə izləyirlər.

Diplomatın həm xidməti işlərdə, həm də diplomatik dərəcələr haqda sənəd üzrə irəliləməsi xüsusi reqlamentlə nizamlanır. ("DEL").

Azərbaycan Prezidentinin sərəncamı ilə diplomatlar hazırlamaq üçün 2006-cı ildə Azərbaycan XİN-i nəzdində Diplomatiya Akademiyası yaradılmışdır.

**DİPLOMATİK ADLAR VƏ RÜTBƏLƏR.** Diplomatik nümayəndələrin başçılıq etdikləri diplomatik nümayəndəliklərin səviyyəsinə uyğun gələn və onların gəldikləri ölkədə diplomatik nümayəndələr arasında mövqeyini müəyyən edən, diplomatik təcrübədə meydana gəlmiş və beynəlxalq hüquqla təsdiq olunmuş adlarıdır. 196l-ci il Diplomatik Əlaqələrə dair Vyana Konvensiyasına (Beynəlxalq konvensiya) görə diplomatik nümayəndəlik başçıları üç sinfə bölünürlər; səfirlər və nunsilər (Vatikanın yüksək nümayəndəsi belə adlanır) sinfi, diplomatik nümayəndə və internunsilər sinifi; onlar dövlət başçısı yanında akkreditə olunurlar.

verir və bir tərəfli xarakter daşıyır. Ləğv etmənin qanunauyğunluğu tutarlı siyasi-hüquqi əsaslara söykənməli (məs. kontragent tərəfindən müqavilənin ciddi şəkildə pozulması; hüquqi cəhətdən etibarsız olması və s.) və beynəlxalq təcrübədə təşəkkül tapmış prosedurlara (digər iştirakçıların irəlicədən yazılı şəkildə xəbərdar edilməsi) uyğun gəlməlidir.

**DE-YURE TANIMA,** (lat. ***dejure*** - hüquqi) beynəlxalq hüquqda dövlətin və hökumətin tam, yekun olaraq və rəsmən tanınma formasıdır. De-yure tanıma dövlətin tanıdığı dövlətlə lazımi səviyyədə diplomatik münasibətlər yaratmağa hazır olduğunu ifadə edir.

**DİPLOMAT,** (fr. ***diplomate).*** Müəyyən dövlətin digər xarici dövlətlərdə rəsmi siyasi əlaqələrini həyata keçirən xarici işlər idarəsinin əməkdaşı olan vəzifəli şəxsdir. Hər bir dövlətdə gündəlik xarici əlaqələrin aparılması xarici işlər idarəsinə və xaricdəki xüsusi olaraq seçilmiş və təhsil almış diplomatik heyətdən təşkil olunmuş diplomatik nümayəndəliyə həvalə olunur. Diplomatik heyət dedikdə müəyyən dövlətin diplomatik xidmətində duran və beynəlxalq danışıqların aparılmasına, beynəlxalq müqavilələrin imzalanmasına dair işləri yerinə yetirən şəxslərin məcmusu nəzərdə tutulur. Diplomatik heyət diplomatik korpusun üzvlərinə verilmiş diplomatik imtiyazlar və toxunulmazlıq hüquqlarından istifadə edir.

Hər bir dövlət müstəqil olaraq daxili qanunvericiliyində diplomatik xidmətə qəbul olma qaydalarım müəyyən edir. Bu zaman namizədlərin diplomatik vəzifəyə təyin olunması üçün müəyyən rəsmi tələblərə cavab verməsi nəzərə alınır (yaşı, ali təhsili, xarici dil bilməsi, xüsusi müsabiqə imtahanlarının verilməsi və s.). Müxtəlif ölkələrdə bu tələblərin bir-birindən fərqlənməsinə baxmayaraq onların mahiiyəti eynidir: dövlətin nöqteyi-nəzərincə diplomatik kadrların düzgün seçilməsini təmin etmək. Lakin bu ümumi qaydalar xüsusi qaydalarda rəhbər diplomatik vəzifəyə təyin olunmuş qeyri-peşəkar diplomatlara aid edilmir. Xarici işlər naziri.

**ÇOXTƏRƏİFLİ DİPLOMATİYA.** Bir neçə dövlətin nümayəndələrinin beynəlxalq hökumətlərarası təşkilatların və konfransların (Beynəlxalq konfranslar) işləri ilə əlaqədar, danışıqların və məsləhətləşmələrin keçirilməsi və s. ilə bağlı diplomatik fəaliyyəti. İkinci dünya müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatının və BMT-nin ixtisaslaşdırılmış idarələrinin, bir sıra beynəlxalq təşkilatların hökumətlərarası qurumlarının yaradılması nəticəsində çoxtərəfli diplomatiyanın əhəmiyyəti daha çox artmışdır.

Çoxtərəfli diplomatiyanın genişlənməsi ilk növbədə dövlətlərarası ünsiyyətin intensivləşməsi ilə bağlıdır. Müharibədən sonrakı dövrdə siyasət, sosial və iqtisadiyyat sahələrindəki böyük irəliləyişlər əsas etibarı ilə, qlobal problemlərin həlli üçün bütün dövlətlərin səylərini birləşdirməyin obyektib zərurətini doğuran elmi-texniki inqilabın sürətlənməsi ilə şərtlənmişdir.

**DE-FAKTO TANINMA.** Beynəlxalq Hüquqi 1’anınmanın bir növü olub rəsmi xararakter daşıyır və de-yure tanınmadan siyasi və iqtisadi münasibətlərin məhdud səviyəsi və həcmi ilə fərqlənir; de-fakto tanınma çox zaman tanınan dövlətin həyat qabiliyyətinə, gələcəyinə tam inamın olmadığı şəraitdə tətbiq edilir.

**DENONSASİYA,** (fr. dénoncer - elan etmək, ləğv etmək). Bağlanmış beynəlxalq müqavilədən lazımi qaydada rəsmi imtina edilməsi beynəlxalq müqavilənin qanunauyğun şəkildə qüvvədən salınmasının ən çox yayılmış üsuludur. Beynəlxalq müqavilə öhdəliklərinin pozulmasının digər üsullarından fərqli olaraq, denonsasiya hüququ müqavilənin özündə nəzərdə tutulmalıdır. Dononsasiya müqavilənin ciddi şəkildə müəyyən etdiyi qaydada baş verir və bu qaydaya riayət edilməməsi dononsasiyanı mübahisəli hesab etməyə əsas verir.

İkitərəfli müqavilələrin qüvvədən salınmasının formalarından biri dövlətin bağlamış olduğu müqavilədən imtina etməsidir. Belə halda, müqavilənin pozulması onun şərtlərinə riayət olunmadan baş

Bu Bəyannamənin qəbul olunduğu tarix -10 dekabr - BMT BM tərəfindən İnsan haqları Günü elan edilmişdir.

Müahidələrə əsasən, dövlətlər özləri tərəfindən görülmüş tədbirlərin və müahidələrdə nəzərdə tutulmuş hüquqların həyata keçirilməsi sahəsində əldə edilmiş tərəqqiyə dair hesabatlar təqdim etməyi öhdələrinə götürürlər. Məruzələr BMT-nin İqtisadi və Sosial Şurasında nəzərdən keçirilib baxılır; bu məqsədlə bu Şura çərçivəsində xüsusi İŞÇİ qrupu fəaliyyət göstərir.

Müahidələr 1976 ildən qüvvədədir. (“DEL”).

**İNSAN HÜQUQLARI.** Bu istilah altında şəxsiyyətin dövlətdə hüquqi statusunu səciyyələndirən sosial-iqtisadi, mülki, siyasi, mədəni və digər hüquq və azadlıqlar kompleksi başa düşülür. İnsanın əsas hüquq və azadlıqları, onların xarakteri, həcmi və real məzmunu dövlətin sosial-iqtisadi, siyasi quruluşu, konkret həyat şəraiti və mövcud cəmiyyətin inkişaf xüsusiyyətləri ilə şərtləndirilir. İnsanın hüquq və azadlıqlarına hörmət prinsipi BMT Nizamnaməsində, 1948 il İnsan haqqlarına dair Ümumi Bəyannaməsində, Müstəmləkə ölkələri və xalqlarına müstəqillik verilməsinə dair 1960 il Bəyannaməsində, 1966 il İrqi ayrı-seçkiliyin bütün formalarda ləğvinə dair Beynəlxalq Konvensiyasında, İnsan haqqlarına dair 1966 il Müahidələrində, Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin Yekun aktında və digər beynəlxalq aktlarla təsbit edilmişdir.

İnsan haqqlarına hörmət prinsipi beynəlxalq hüququn əsas prinsiplərilə, ələlxüsus dövlətlərin suveren bərabərliyi və onların daxili işlərinə qarışmamaq prinsiplərilə ziddiyyət təşkil edə bilməz. (“DEL”).

**CENTELMEN SAZİŞİ,** (ing. ***gentlemens agreement).*** Beynəlxalq təcrübədə şifahi formada əldə olunmuş saziş. Centelmen sazaşinin şifahi formada bağlanması tərəflərin üzərinə götürdükləri öhdəlikdərin hüquqi əhəmiyyətini azaltmır.

yetirməsi üçün mümkün qədər az məneçelik yaransın.

Digər konsulluq işçiləri xidmət etdikləri dövlətin vətəndaşları olarlarsa və ya burada daimi yaşayırlarsa, bu dövlət ona heç bir əlavə imtiyaz, səlahiyyət və immunitet təqdim etmir, yalnız yurisdiksiya immunitetlərindən və öz rəsmi vəzifələrini yerinə yetirərkən şəxsi toxunulmazlıq hüququndan istifadə edir. Bu şəxslər barəsində cinayət işi qaldırılarsa, bu şəxsin həbs edilməsi və ya tutulub saxlanılması istisna olunmaqla, məhkəmə araşdırması o səviyyədə həyata keçirilməlidir ki, konsul vəzifələrini yerinə yetirilməsi üçün mümkün qədər az maneçilik yaransın.

Digər konsulluq işçiləri xidmət etdikləri dövlətin vətəndaşları olarlarsa və ya burada daimi yaşayırlarsa, eləcə də onların ailə üzvləri, konsul vəzifəli şəxsin ailə üzvləri imtiyaz, immunitet və hüquqlardan dövlətin müəyyən etdiyi dərəcədə istifadə edə bilərlər. Bunlar eyni ilə konsulluq işçilərinin ailə üzvlərinə, ev xidmətçilərinə də aiddir. Dövlət bu şəxslər üzərində yurisdiksiyasını elə həyata keçirməlidir ki, konsul idarəsinin fəaliyyətinə əlavə maneçilik törətməsin.

**KONSULLUQ KORPUSU.** Xarici konsulluqların hər hansı ölkənin bu və ya digər məntəqəsində (şəhərində, limanında) məcmusu ***konsulluq korpusu*** adlanır.

Əgər bir konsulluq dairəsində (şəhərdə) çoxlu sayda konsul idarələri varsa, burada diplomatik korpus kimi konsulluq korpusu yaradılır. Konsulluq korpusu beynəlxalq münasibətlərdə diplomatik korpusun malik olduğu çəkiyə və nüfuza malik deyil və hər hansı beynəlxalq hüquqi status almağa iddia edə bilməz. Onun fəaliyyəti müəyyən dərəcədə qeyri-rəsmi xarakter daşıyır. Lakin konsulluq korpusu bu halda da konsul idarələri və konsul dairələrinin yerli hakimiyyət orqanları ilə normal, işgüzar və dostluq münasibətlərinin qaydaya salınmasına kömək edə bilər. Konsulluq korpusu adətən daimi xarakter daşımır. Onun təyinatı ancaq müəyyən mərasimlərlə bağlı olur: təbriklərin, başsağlıqlarin verilməsi, görüşlərin, banketlərin təşkili və s. Konsullar adından çıxış edən konsulluq korpusunun başçısı (dıiayen) dərəcəsinə görə böyük

konsulun baqajında ölkəyə onun qanunları ilə nəzərdə tutulmuş qaydada gətirilməsi qadağan olunan əşyaların olmasına ciddi əsas olarsa, konsulun özünün və vəzifəli şəxsin iştirakı ilə baqaja baxış keçirilə bilər.

Konsulluq İŞÇİSİ və ya onun ailə üzvü öldükdə dövlət ona malik daşınan əmlakın aparılmasına icazə verir və bu əmlakdan- mirasdan vergi tutulmur. Konsulluq işçiləri konsul, digər konsul vəzifəli şəxslər, onların ailə üzvləri olduqları dövlətin əmək və dövlət mükəlləfiyyətlərindən azaddırlar.

Hər bir konsul, konsulluq işçisi təyin edildiyi dövlətin ərazisinə daxil olduğu andan və ya konsul idarəsində öz vəzifələrinin icrasına başladığı andan konsul imtiyazları və immunitetlərindən istifadə edir. Konsul və konsul vəzifəli şəxs öz təyinat yerinə gedərsə və ya öz postuna qayıdarsa, ona viza verən üçüncü dövlətin ərazisindən keçir və bu üçüncü dövlət ona Konsuluq Konvensiysınada nəzərdə tutulmuş imtiyazlarla və rəsmi xəbərlərin, kodlaşdırılmış və ya şifrələnmiş depeşlərin göndərilməsini təmin etməlidir.

Bütün bu imtiyazlar və immunitetlərdən istifadə edən vəzifəli şəxslər olduqları ölkənin qaydalarına, qanunlarına öz immunitet və konsul imtiyazlarına zərbə vurmadan, hörmət etməlidirlər. Konsulluq üçün nəzərdə tutulmuş binalardan konsul xidməti ilə bir araya gəlməyən məqsədlər üçün istifadə edilə bilməz.

Konsulluğun ixtiyarı vardır ki, yerləşdiyi binaların üzərinə, xidməti fəaliyyəti ilə bağlı istifadə etdiyi nəqliyyat vasitələrinə milli Dövlət bayrağını taxsın və konsul binalarına yazılı lövhələr vurulsun.

Əgər konsul, ya konsulluğun vəzifəli şəxsi fəaliyyət göstərdiyi dövlətin vətəndaşı olarsa və ya burada daimi yaşayarsa, bu dövlət ona heç bir əlavə imtiyaz, səlahiyyət və immunitet təqdim etmir, yalnız yurisdiksiya immunitetindən və öz rəsmi vəzifələrini yerinə yetirərkən şəxsi toxunulmazlıq hüququndan istifadə edirlə. Bu şəxslər barəsində cinayət işi qaldırılarsa, bu şəxsin həbs edilməsi və ya tutulub saxlanılması istisna olunmaqla, məhkəmə araşdırması o səviyyədə həyata keçirilməlidir ki, konsulun vəzifələrinin yerinə

həbs edilən və tutulub saxlanılan vəzifəli şəxs konsul idarəsinin başçısıdınsa, bu barədə onun dövlətinə diplomatik kanallar vasitəsilə məlumat verilməlidir.

Beynəlxalq hüquqda qəbul edilmişdir ki, konsullar, konsul xidmətinin vəzifəli şəxsləri onların xidməti fəaliyyəti ilə bağlı gəldikləri dövlətin məhkəmə və inzibati orqanlarının yuris- diksiyasına tabe deyillər. Lakin digər hallarda konsul və konsul xidmətinin vəzifəli şəxsləri gəldikləri dövlətin yurisdiksiyasına tabedirlər. Konsulun şahid kimi ifadə vermək öhdəliyi vardır.

Konsul və konsulluq işçiləri məhkəmə və inzibati işlərlə bağlı şahid kimi çağınla və dindirilə bilərlər. Konsul və konsulluq işçiləri öz vəzifələrinin yerinə yetirilməsi ilə bağlı ifadə sənədləri təqdim etməli deyillər. Onlar həmçinin təmsil etdikləri dövlətin qanunvericiliyini aydınlaşdıran ifadələr verməyə məcbur deyillər. Bu hallar istisna olunmaqla Konsul və konsulluq işçiləri ifadə verməkdən imtina edə bilməzlər (maddə 44). Əgər ifadə verməkdən imtina edərlərsə, onlara qarşı heç bir məcburi hərəkətlər və ya cəza tədbiq edilə bilməz. Konsul və konsul vəzifəli şəxslərdən ifadə tələb edən orqan bu şəxsin vəzifələrini yerinə yetirməyə mane olmamalıdır. O, nə vaxt mümkün olduqda bu şəxsin evində və ya konsulluq idarəsində ifadələrini dinləyə bilər və ya ondan yazılı ifadə ala bilər.

Konsul və digər konsulluq işçiləri, onlarla birlikdə yaşayan ailə üzvləri olduqları dövlətin xaricilərin qeydiyyatına və ya yaşayış yerinə icazə almağa dair qanun və qaydalarla nəzərdə tutulmuş bütün öhdəliklərindən azaddırlar. Konsul və digər konsulluq işçiləri, onlarla birlikdə yaşayan ailə üzvləri, dövlətin, rayonun və bələdiyyənin bütün vergi və rüsum İsrmdan, ödənişlərindən azaddırlar. Lakin göstərilən şəxslər olduqları dövlət ərazisində daşınmaz əmlaka sahib olarsa, konsul olaraq aldığı əmək haqqından əlavə şəxsi gəlir əldə edərsə, müvafiq vergi və rüsumlar ödənilir.

Konsulu qəbul edən dövlət konsulluq əmlakını, konsulun şəxsi baqajını bütün gömrük vergilərindən və rüsumlardan, saxlama, daşıma pulu və s. istisna olunmaqla azad edir. Əgər

istifadə etdiyi imtiyaz və immunitetlərə, həm də konsulların İstifadə etdiyi imtiyaz və immunitetlərə bölünür. Konsulluqların yerləşdiyi binalar toxunulmazlıq hüququna malikdir. Konsulluqların yerləşdiyi dövlətin hakimiyyət orqanlarının konsul idarəsi başçısının razılığı olmadan bu binalara daxil olmaq hüququ yoxdur. Konsulluq binalarının, onların əmlakının, eləcə də hərəkət vasitələrinin ictimai ehtiyaclar və ya dövlətin müdafiəsi məqsədilə istənilən növ müsadirədən toxunulmazlıq hüququ vardır. Əgər bfhaların bu məqsədlə boşaldılması zərurəti meydana çıxarsa. Konsulluğa vəzifələrinin yerinə yetirməsini təmin etməyə imkan verən bütün mümkün tədbirlər görülür və təmsilçi dövlətə təxirə salınmadan müvafiq və təsirli kompensasiya ödənilir.

Konsul arxivləri və sənədləri istənilən vaxt və yerləşdiyi yerdən asılı olmayaraq toxunulmazdır.

Konsulluqların yerləşdiyi binalar və konsul idarəsi başçılarının iqamətgahları müəyyən növ xidmət ödənişləri istisna olunmaqla (su, işıq, telefon və s.) bütün dövlət, rayon, bələdiyyə verqilərindən, rüsumlarından azad olunurlar.

Konsulluğun yerləşdiyi dövlət konsulluğun rəsmi məq- sədlərərlə sərbəst əlaqələr qurmasına icazə verməlidir. Konsul idarələrinin rəsmi yazışmaları toxunulmazdır.

Konsulluğun vəzifəli şəxsləri vəzifələrini yerinə yetirərkən konsul dairəsinin səlahiyyətli orqanlarına, qanunla müəyyən olunmuş səviyyədə və müvafiq müqavilələrə uyğun olaraq dövlət səlahiyyətli orqanlarına müraciət edə bilərlər.

Konsul idarəsi gəldiyi ölkə ərazisində təmsil etdiyi dövlətin qanun və qaydaları ilə nəzərdə tutulan vergi və rüsumları toplaya bilər.

Konsul və konsul vəzifəli şəxslərin şəxsi toxunulmazlıq hüququ vardır. Lakin ağır cinayətlər baş verdiyi halda səlahiyyətli məhkəmə orqanları tərəfindən verilmiş qərara əsasən həbs edilə, tutulub saxlanıla bilərlər. Hər hansı konsulluq işçisinin həbsi və tutulub saxlanılması baş verdikdə onların gəldiyi dövlətin konsul idarəsinin başçısına bu barədə gecikmədən məlumat verilir. Əgər

- vitsc - konsulluqlar;
- konsull agentlikləri;
- fəxri konsul adlanan və vəzifəli şəxslər tərəfindən başçılıq edilən konsul idarələri.

Konsul idarələri strukturu dünyanın əksər ölkələrində əsasən bir - birinə bənzəyir. Konsul idarəsi konsul xidmətlərinin yerinə yetirilməsi ilə bağlı siyasi, iqtisadi informasiyanın toplanması və təqdim olunması ilə də məşğul olmalıdır.

**KONSUL İMTİYAZLARI** VƏ **İMMUNİTETLƏRİ.** Konsul idarələrinə, konsullara, konsul xidmətinin vəzifəli şəxslərinə və konsulluq əməkdaşlarına onların vəzifələrini (konsul vəzifələri) sərbəst və normal həyata keçirmələri məqsədi ilə verilən güzəşt və imtiyazlardır. Konsul imtiyazları və immunitetləri beynəlxalq hüquqa əsaslanır. Bütün dövlətlər üçün konkret konsul imtiyazları və immunitetlərinin nizamlanması BMT Baş Assambleyasının tapşırığı ilə BMT-nin Beynəlxalq Hüquq Komissiyası tərəfindən 1959-1961 illərdə konsul əlaqələri və immunitetlərinə dair layihə işləyib hazırlanmışdır. 1963 ildə konsul əlaqələrinə dair Vyana konvensiyası qəbul edildi ki, burada da bütün dövlətlər üçün ümumi, beynəlxalq hüquq normalarına uyğun konkret konsul imtiyazları və immunitetləri müəyyən olundu. Tarixən konsul imtiyazları və immunitetləri beynəlxalq hüququn ümumi yazılı normalarının yaradılması yolu ilə deyil, müxtəlif dövlətlərin milli qanunvericilik aktlarındakı beynəlxalq adətlər şəklində, eləcə də konsul konvensiyalarına və konsul məsələlərinə dair digər sazişlərə müvafiq olaraq müəyyən olunurdu. 1963 il Vyana Konvensiyasınadək 50-yə qədər ölkə konsul imtiyazları və immunitetləri nizanlanmasına dair qanunverici aktlar qəbul etmiş, konvensiyalar imzalamışlar. Konsul imtiyazları və immunitetləri - ilk dəfə 1769 ildə, tarixdə birinci konsul konvensiyasında (Fransa- İspaniya arasında) təsbit olunmuş, sonra geniş yayılmağa başlamış və XX əsrin ortalarından üstünlük təşkil etmişdi.

Konsul imtiyazları və immunitetləri konsul idarələrinin

**KONSUL İDARƏSİ.** Hər hansı konsul dairəsində konsul vəzifələrinin yerinə yetirilməsi üçün iki dövlət arasında müqavilə əsasında xarici dövlətdə təsis olunan daimi xarici əlaqələr orqanıdır. Konsul idarəsi yerləşdiyi diplomatik nümayəndəliklə müqaisədə məhdud hüquq, imtiyaz və immunitetlərdən (konsul imtiyaz və immunitetlərindən) istifadə edirlər. Konsul idarəsinin işçiləri onların xidməti fəaliyyəti zamanı olduqları ölkənin cinayət, mülki və inzibati yurisdiksiyasında (dövlətin yurisdiksiyası), toxunulmazlıq hüququndan istifadə edirlər. Konsul idarəsi, konsul nümayəndəliyinin başçısı da daxil olmaqla onun xidməti vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar məsələlərə dair ifadə vermək istisna olmaqla, şahid kimi ifadə verməkdən imtina edə bilməz.

Konsul idarəsi dövləti təkçə siyasi sahədə və diplomatik planda təmsil etmir. Normal diplomatik münasibətlərdə konsul idarəsi dövləti hüquqi-əmlak münasibətləri planında təmsil edir, bəzən isə çox mühüm rol oynayır. Diplomatik münasibətlərin qırılması konsul münasibətlərinin kəsilməsinə səbəb olmur. Diplomatik münasibətlər kəsilən hallarda konsul idarəsinin rolu yüksəlir və çox vaxt normal diplomatik münasibətlərin bərpa olunmasına kömək edir.

Konsul idarəsi aşağıdakı yerlərdə açılır:

- konsul idarəsi açan dövlətin konsulluğunun yerləşdiyi dövlətdə yaşayan, dilini, milli mədəniyyətini saxlayan, lakin konsulluğun yerləşdiyi ölkənin vətəndaşı olan çoxlu sayda həmvətənlərinin olduğu yerdə;
- Müvafiq Ölkənin çoxlu sayda vətəndaşları olan yerlərdə (iri turist mərkəzləri, ziyarət yerləri və s.);
- Konkret ticarət və ya digər maraqların olduğu və bir sıra hüquqi əmlak məsələlərinin və s. tərtib olunması tələb olunan yerlərdə.

Konsul idarəsi aşağıdakı kateqoriyaya bölünürlər:

- baş konsulluqlar;
- konsulluqlar;

dövlətin həbs yerlərində saxlanan vətəndaşlarına baş çəkir, onların saxlanma şəraiti ilə maraqlanır, belə şəxslərin qiqiyena və sanitariya tələblərinə cavab verən şəraitdə saxlanmasına və onlarla sərt və insan ləyaqətini alçaldan formada davranılmamasına nəzarət edir;

> təmsil etdiyi dövlətin vətəndaşlarına pasport verir, vaxtını uzadır və pasportlarda dəyişikliklər edir;

- təmsil etdiyi dövlətə giriş, çıxış və tranzit keçid üçün vizalar verir, viza vaxtını uzadır, vizalarda dəyişikliklər edir;
- konsulluq dairəsində yaşan şəxslərdən təmsil etdiyi dövlətin vətəndaşlığına qəbul edilmək barədə ərizələr alır;
- təmsil etdiyi dövlətin qanunvericiliyinə müvafiq qaydada, həmin dövlətin vətəndaşlarının vətəndaşlıq vəziyyətləri aktlarım qeydə alır;
- notarius hərəkətlərini həyata keçirir;
- konsulluq dairəsindəki hakimiyyət nümayəndələrinin iştirakı ilə tərtib edilən, yaxud onlardan göndərilən sənədlərin və aktların ***konsul leqllaşdmimasmı*** həyata keçirir.

Konsulluğa dair konvensiyalarda həmçinin təmsil etdiyi dövlətin hərbi işləri, mülki dənizçilik vasitələri, hava qəmiləri, habelə sanitar və veterinar mühafizə barəsində də konsul funksiyaları müəyyən edilmişdir. Konsul həmçinin müvafiq konvensiyalarda nəzərdə tutulmayan, lakin təmsilçisi olduğu dövlətin və qəbul edən dövlətin qanunvericiliyi ilə ziddiyət təşkil etməyən funksiyaları da həyata keçirə bilər. Diplomatik nümayəndəlik olmayan dövlətlərdə, qəbul edən dövlətin razılığı ilə konsula təmsil etdiyi dövlətin diplomatik funksiyaları da həvalə edilə bilər. Konsul ona həvalə edilən funksiyaları şəxsən yerinə yetirir, yaxud onların icrasını konsulluğun digər vəzifəli şəxsinə tapşırır.

Konsulun üçüncü dövlətin adından konsul funksiyaları yerinə yetirməsi yalnız təmsil etdiyi dövlətin Xarici İşlər Nazirliyinin (Xarici İşlər İdarəsi) göstərişi və qəbul edən dövlətin razılığı ilə mümkündür.

KONSUL FUNKSİYALARI. Konsul funksiyaları beynəlxalq sazişlərlə (Konsulluq əlaqələrinə dair 1963 il Vyana konvensiyası, Konsulluq funksiyalarına dair Avropa konvensiyası), ikitərəfli konsul konvensiyaları, ticarət və dənizçiliyə dair müqavilələrdə, habelə dövlətdaxili qanunvericilikdə müəyyən edilir.

Konsul, əsasən, aşağıdakı ***funksiyaları*** yerinə yetirir:

- təmsil etdiyi dövlətin hüquqi şəxslərinin və vətəndaşlarının beynəlxalq münasibətlərə əsasən qəbul edən dövlətn qanunvericiliyi ilə onlara verilən bütün hüquqlardan tam həcmdə istifadə etmələri üçün tədbirlər görür;
- təmsuil etdiyi dövlətin hüquqi şəxslərininn və vətəndaşlarının pozulmuş hüquqlarının bərpası üçün tədbir görür;
- təmsil etdiyi dövlətin konsulluq dairəsində daimi yaşayan və müvəqqəti qalan vətəndaşlarının qeydiyatını aparır;
- konsulluq dairəsi hüdudlarında təmsil etdiyi dövlətin nazirliklərinin, idarə və təşkilatlarının nümayəndələrinin, habelə xarici ezamiyyətə gələn vətəndaşlarının xidməti vəzifələrini yerinə yetirməsinə kömək göstərir;
- konsulluq dairəsində təmsil etdiyi dövlətin müvəqqəti qalan vətəndaşlarını gəbul edən dövlətin qanunları, qərar və sərəncamları, habelə yerli adətləri barədə məlumatlandırır;
- konsulluq dairəsində təmsil etdiyi dövlətin vətəndaşları üçün mədəni kütləvi tədbirlərin keçirilməsinə köməklik göstərir;
- təmsil etdiyi dövlətin prosessual qanunvericiliyinə əməl etməklə həmİn dövlətin istintaq və məhkəmə orqanlarının (əgər qəbul edən dövlətin qanunları yol verirsə) öz vətəndaşlarına dair tapşırıqlarını yerinə yetirir;
- təmsil etdiyi dövlətin həbsə alınmış, yaxud cinayət törətməkdə şübhəli bilib saxlanan, habelə azadlıqdan məhrum olunma şəklində cəzasını çəkən vətəndaşlarına münasibətdə qəbul edən dövlətin qanunrarının bu dövlətlə öz dövlətinin bağladıqları müqavilələrinin müvafiq müddəalarına riayət olunmasına göz göyür;
- maraqlı şəxslərin xahişi və öz təşəbbüsü ilə təmsil etdiyi

eləcə də konsulun gəldiyi ölkənin praktikasından asılıdır. Bir qayda olaraq, diplomatik nümayəndəliklərin konsul şöbələrinin rəhbərlərinə konsul ekzekvaturası verilmir. Konsul ekzekvaturasının verilməsi ya dövlət başçısı adından və onun imzası ilə, ya da ölkənin daxili qanunvericiliyindən asılı olaraq dövlətin adından xarici işlər nazirinin imzası ilə həyata keçirilir. Bəzi hallarda konsul ekzekvaturası ayrıca sənəd formasında, digər hallarda konsul patentinə bənzər Qətnamə formasında verilir. Qətnamə dövlət başçısı və ya xarici işlər naziri tərəllndən imzalanır və möhürlənir. Konsul ekzekvaturası verməkdən imtina edən dövlət imtina səbəblərini bildirməyə məcbur deyil.

Konsul ekzekvaturası konsul patentini və ya konsulun təyin olunması haqda digər bildirişlər (nota və s.) təqdim olunmaqla verilir. Konsul ekzekvaturası konsul üçün tələb olunur və onun patenti diplomatik yolla, səfirlik və ya diplomatik missiya vasitəsilə xarici işlər nazirliyinə təqdim edilir.

Bir qayda olaraq, konsul ekzekvaturasının verilməsi anından konsul rəsmi olaraq öz vəzifələrinin icrasına başlayır və konsul imtiyazları və immunitetlərindən istifadə edir. Konsul idarələrinin başçılarına konsul ekzekvaturası verilənədək onlara müvəqqəti olaraq öz vəzifələrini icra etməyə icazə verilir və konsulluqda başçılıq qaydası müəyyən olunan zaman, başçılıq konsulun müvəqqəti olaraq işə başladığı vaxtdan müəyyən olunur.

Konsul təyin edən ölkənin və konsulun gəldiyi ölkənin qanunları tələb edərsə, konsul idarəsinin başçısı olmayan konsul vəzifəli şəxsə konsul ekzekvaturası verilir. Konsulun yerləçdiyi dövlət konsul təyin edən dövləti təmsil edən bu və ya digər şəxsi “persona non qrata” elan edərsə, konsul təyin edən dövlət həmin şəxsi geri çağırmalı və ya konsulluqda onun fəaliyyətini dayandırmalıdır. Əgər dövlət bu öhdəliyini müəyyən olunmuş vaxt ərzində yerinə yetirməzsə, konsulu gəbul edən dövlət həmin şəxsə verilən ekzekvaturanı ləğv edə bilər. Konsul ekzekvaturası ləğv olunarsa, konsul işçisinin fəaliyyəti dayanır.

vitse - konsulluqların və konsul agentliklərinin işinə rəhbərlik edirlər. Beynəlxalq praktikada fəxri konsul-vəzi fəl i şəxslər tərəfindən başçılıq edilən konsul idarələri də nəzərdə tutulur. Lakin konsullar, vitse - konsullar müstəqil konsul idarəsinin başında da dura bilərlər, dərəcələrinə görə onlardan yüksək olan konsulluq başçılarının müavini və ya köməkçisi ola bilərlər. Dərəcəsinə görə böyük olan konsul adətən bu və ya digər ölkənin daha vacib məntəqəsinə təyin edilir. Bəzən bu konsula gəldiyi ölkədə öz ölkəsinin bütün konsulluqları və ya bir neçə konsulluğu üzərində rəhbərlik həvalə edilir. Konsul agentlikləri, vitse - konsulluqlar bir növ baş konsulluğun və ya konsulluğun filialıdırlar. Baş konsulluq ancaq yerləşdiyi dövlətin razılığı ilə vitse - konsulluq və ya konsul agentliyi aça bilər. Konsul agentləri olduqları yerdə, demək olar ki, bütün konsul xidmətlərini həyata keçirir, eləcə də onların dairəcinə baş çəkməyə gələn əsas konsul idarəsinin konsul vəzifəli şəxslərinə kömək edirlər. Bəzi ölkələr konsul agentlərini agentin gedəcəyi ölkənin vətəndaşlarından və ya orada daimi yaşayan şəxslərdən təyin edirlər.

Konsul dərəcələrinin verilməsi konsulun üzərinə qoyulan vəzifələrin əhəmiyyətini nəzərə almaqla, konsul təyin edən dövlətdən asılıdır, lakin konsulu qəbul edən dövlət onu ərazisində konsulluq təsis edilməsi ilə bağlı sazişdə nəzərdə tutulmuş dərəcədən yüksək dərəcə ilə qəbul edə bilməz. Dərəcəsindən asılı olmayaraq konsullar Xarici İşlər Nazirliyinə (Xarizi İşlər İdarəsi) və eyni zamanda onu təyin edən ölkənin səfirliyinə və diplomatik missiyalarına tabedirlər.

**KONSUL EKZEKVATURASL** (lat. ***exsequor*** - yerinə yetirirəm). Konsulun onu qəbul edən ölkə tərəfindən tanınması və onun konsul dairəsində konsul vəzifələrinin icrasına buraxılmasına razılıq haqda sənəddir. Konsul ekzekvaturası baş konsullara və müstəqil konsul idarələrinə başçılıq edən konsul agentlərinə verilir. Konsul ekzekvaturası konsul patentləri kimi konsulluğa rəhbərlik etməyən konsullara həmişə verilmir. Bu konsul təyin edən ölkənin.

KONSUL DAİRƏSİ. Konsulun gəldiyi ölkədə xidməti fəaliyyətini həyata keşirdiyi rayon (ərazi) ***konsul dairosi*** adlandırılır. Konsul dairəsi, onun sərhədləri və ya ona daxil olan inzibati ərazi vahidlərinin adları adətən konsul ekzekvaturasında göstərilir. Konsul dairəsi həm geniş ərazidən, həm də təkcə konsulluq olduğu məntəqədən də (şəhər, liman) ibarət ola bilər. Konsul dairəsi hər bir ayrıca halda qarşılıqlı razılaşmaya əsasən müəyyən olunur. Müəyyən bir ölkədə konsul təyin edən dövlətin diplomatik nümayəndəliyi olmadıqda bu ölkənin ərazisi (dövlətin ərazisi) konsul dairəsinə daxil edilə bilər. Konsulların konsul dairəsinə daxil olmayan dövlət əraziləri ilə münasibətləri diplomatik nümayəndəliyin konsul məsələlərinə dair şöbəsi vasitəsilə qurulur.

Xidməti fəaliyyətini həyata keçirən zaman konsul Konsul Konvensiyasına və ya yerli praktika və adətlərə uyğun olaraq öz konsul dairəsində bilavasitə yerli hakimiyyət dairələri ilə əlaqələr yarada bilər. Konsul dairəsindən kanarda hakimiyyət dairələri və ya mərkəzi orqanları ilə ancaq bu ölkənin səlahiyyətli orqanları iştirak etdikdə və ya dövlətin etirazı olmadıqda münasibətlər qurmaq mümkündür. Əks halda, konsul, ölkəsinin diplomatik nümayəndəliyi vasitəsilə və ya müvafiq konsul dairəsinin konsulunun yardımı ilə hərəkət edir.

KONSUL DƏRƏCƏLƏRİ. Konsulların xidməti mövqe ilə əlaqədar tutduqları dərəcələr konsul dərəcələri adlanır. Konsul əlaqədarinə dair 1963 il Vyana Konvensiyasına görə (maddə 9) konsul idarələrinin başçıları dörd dərəcəyə bölünürlər: a) baş konsullar; b) konsullar; c) vitse - konsullar; d) konsul agentləri. Xarici ölkələrin konsul xidməti sistemində beşinci prokonsul dərəcəsi də vardır. Prokonsullar konsul idarələrinin başçısı ola bilməzlər, ancaq konsulluq başçısı olmadıqda onu müvəqqəti olaraq əvəz edə bilərlər. Adətən prokonsul konsulun məhdud məsələlərə dair köməkçisi olur. Baş konsullar, konsullar, vitse - konsullar və konsul agentləri müvafiq olaraq baş konsulluqların, konsulluqların.

payından əlavə yenidən yaradılmış dövlətlərdə, demək olar ki, hər bir şəhərdə kvartallar alır və bir sıra İtaliya koloniyaları təşkil edirdilər. İtaliya koloniyalarının başında tacirlərdən seçilmiş və milliyətcə italyan olan vəzifəli şəxs olurdu. Onlar əvvəlcə "vikontilər" (vicecomitcs) titulu daşıyırdılar. XII əsrdən koloniyanın hansı şəhərə aid olmasından asılı olaraq - Venetsiyaya, Genuyaya və s., onlar bayulo (baiulus) və ***konsul*** adlanmağa başladılar. Bir qayda olaraq bu nümayəndələr İtaliya şəhərlərindən göndərilirdi və İtaliya respublikasının digər vəzifəli şəxsləri kimi seçilirdilər. Hərdən belə olurdu ki, onları koloniyaların əhalisi seçirdi. Yerli hakimiyyət dairələri ilə İtaliya konsulları arasında hüquqi məsələlər müqavilələrlə müəyyən olunurdu. Həmvətənlərin işinə dair mülki və xüsusi işlər də ticarət yurisdiksiyası ilə konsulun əlində cəmlənirdi. Səlibçilər Suriya və Fələstindən qovulduqdan sonra da bu konsulların koloniyalardakı mövqeyi dəyişmədi. Məs., İsgəndəriyyədə konsulun hər il ***on dəfə*** sultanın qəbuluna getmək hüququ vardı. Türklər Konstantinopolu ələ keçirdikdən sonra da Venetsiya koloniyası öz idarəsini və bayulo ilə (konsulu) birlikdə inzibati və məhkəmə funksiyalarını qoruyub saxladı. O, eyni zamanda həm konsulu, həm də səfiri təmsil edirdi, yəni Venetsiyanın sultan sarayı yanında daimi diplomatik nümayəndəliyi idi.

Daha sonralar Avropada ticarətin inkişafı ilə əlaqədar olaraq şəhərlərə konsul göndərilməyə başlandı. XIX əsrdə kapitalizm inkişafı sürətləndikcə satış bazarına ehtiyac da artırdı. Belə şəraitdə konsulların sayı daha da artır və onların üzərinə daha ciddi vəzifələr qoyulurdu. Bir müddət konsul və ticarət xidmətləri arasında əlaqələr o qədər sıx idi ki, onları "ticarət - konsul idarələri" adlandırırdılar. Hal-hazırda konsul idarələrinin fəaliyyət dairəsi çox genişdir, ticarət məsələləri mühüm yer tutsa da, bu idarələrin işində başlıca yeri tutmur.

Konsul münasibətlərinin nizamlanmasına, onların vəzifələrinə, səlahiyyətlərinə və s. dair bütün başlıca məsələlər 24 aprel 1963 ildə qəbul olunmuş Vyana Konvensiyasında öz əksini tapmışdır.

diplomatik aktlar həyata keçirməyə vəkil edilə bilər. Konsul tərəfindən belə aktların həyata keçirilməsi ona diplomatik imtiyaz və immunitetlərin (diplomatik imtiyazlar və toxunulmazlıq hüquqları) verilməsini tələb etmək hüququ vermir. Konsul, gəldiyi dövlət xəbərdar edildikdən sonra təmsil etdiyi dövlətin nümayəndəsi kimi hər hansı beynəlxalq hökümətlərarası təşkilat yanında fəaliyyət göstərə bilər. Bu zaman o, beynəlxalq hüquq və müqavilələrə əsasən belə nümayəndə üçün nəzərdə tutulmuş bütün imtiyaz və immunitetlərdən istifadə edə bilər. Lakin hər hansı konsul vəzifəsinin yerinə yetirilməsinə baxmayaraq konsulun konsulluq konvensiyasında nəzərdə tutulmuş və malik olduğu yurisdiksiyasından artıq immunitet tələb etmək hüququ yoxdur. Bir konsul gəldiyi dövlətin razılığı ilə iki və ya bir neçə dövləti təmsil edə bilər. Konsul prinsipcə təmsil etdiyi dövlətin vətəndaşı olmalıdır. Gəldiyi dövlət konsula xüsusi hörmətlə yanaşmalı, onun şəxsiyyətini, azadlığını və ləyaqətini qorumaq üçün lazımi tədbirlər görməlidir.

Ağır cinayətlər törətdiyi halda məhkəmə qərarı olmadan konsul həbs edilə, tutulub saxlanıla bilməz. Məhkəmənin qərarı qüvvəyə minmədən onun şəxsi azadlıqlarına heş bir məhdudiyyət qoyulmur. Konsul konsulluq vəzifələrinin yerinə yetirilməsi ilə bağlı hərəkətlərinə dair gəldiyi ölkənin məhkəmə və inzibati orqanlarının yurisdiksiyasına tabe deyildir.

Konsul məhkəmə və inzibati işlərlə bağlı şahid kimi dindirilə bilər. Konsul itadə verməkdən imtina edərsə, ona cəza və məcburi tədbirlər tətbiq edilmir. Konsul vəzifələrin yerinə yetirilməsi ilə baqlı ifadə verməli deyil. Konsul xidməti ilk dəfə olaraq orta əsrlərdə İtalyan şəhər dövlətlərində yaranmağa başlamışdı. Konsul xidməti yerli hökümət qarşısında konsulun həmvətənləri olan tacirlərin maraqlarını qorumaqdan, onlar arasında mübahisələrin həli edilməsindən ibarət idi. Nəticədə belə işlərlə məşğul olan orqanlar meydana gəlməyə başladı. Səlib yürüşləri zamanı səlibçilər İtalyan şəhər dövlətlərindən -Venetsiyadan, Genuyadan, Rizadan böyük yardım alırdılar. Bunun əvəzində bu şəhərlər qənimət

- qüvvədə olan beynəlxalq sazişlərə müvafiq olaraq və ya belə sazişlər olmadıqda, gəldiyi ölkənin qanun və qaydalarına zidd olmayan qaydada, təmsil etdiyi dövlətin məhkəmə və qeyri - məhkəmə sənədlərinin verilməsi və ya məhkəmə göndərişlərini, ya da ifadə verməyə dair göstərişləri icra etmək;

- təmsil etdiyi dövlətə məxsus gəmilərə, təyyarələrə, eləcə də onların heyətinə münasibətdə təmsil etdiyi dövlətin qayda və qanunları ilə nəzərdə tutulmuş təftiş və nəzarət hüquqlarını həyala keçirmək;

- yuxanda adı çəkilən gəmilərə, təyyarələrə və onların heyətinə köməklik göstərmək, gəmi sənədlərinin nəzərdən keçirilməsi və tərtib olunması və gəldiyi ölkənin hakimiyyət dairələrinin qanuni tələblərini nəzərə almaqla yolda baş vermiş hər hansı hadisəni araşdırmaq və təmsil etdiyi dövlətin qanun və qaydaları ilə kapitanla komanda heyəti və motroslar arasında hər hansı mübahisələri həll etmək; - təmsil etdiyi dövlət tərəfindən konsul idarəsinin gəldiyi ölkənin qanun və qaydaları ilə qadağan olunmayan, ya da icrasına etiraz edilməyən və ya konsulu təyin edən ölkə ilə konsulu qəbul edən ölkə arasında qüvvədə olan beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Konsul gəldiyi ölkədə diplomatik nümayəndələrlə müqayisədə məhdud hüquq, imtiyazlar və toxunulmazlıq hüququndan (konsulluq imtiyazları və immunitetləri) istifadə edir. Səfirdən fərqli olaraq konsul öz dövlətini siyasi sahədə və diplomatik planda təmsil etmir. Konsul diplomatik münasibətlər zamanı öz dövlətini əsasən hüquqi-əmlak münasibətləri planında təmsil etməsinə baxmayaraq, bəzən daha mühüm rol oynaya bilər. Məs., diplomatik əlaqələr kəsildiyi halda bu münasibətlərin pozulması konsul münasibətlərinə toxunmaya bilər.

'fəmsil olunan dövlətin bir dövlətdə diplomatik nümayəndəliyi olmadıqda və ya o üçüncü dövlətin diplomatik nümayəndəliyi tərəfindən təmsil olunmursa, konsulun gəldiyi dövlətin icazəsi ilə və onun konsul statusu dəyişdirilmədən.

vətəndaşlarının iqtisadi və hüquqi maraqlarını qorumaq və müdafiə etməkdən, konsulu təyin edən ölkə ilə konsulun gəldiyi ölkə arasındakı müqavilə və sazişlərin icra olunmasına nəzarət etməkdən ibarətdir.

Konsulun ***vəzifBhri*** başlıca olaraq aşağıdakılardan ibarətdir:

- gəldiyi ölkədə beynəlxalq hüquq çərçivəsində təmsil etdiyi dövlətin və onun vətəndaşlarının (fiziki və hüquqi şəxslərin) maraqlarını müdafiə etmək;
- təmsil etdiyi dövlətlə gəldiyi dövlət arasında ticarət, iqtisadi, mədəni və elmi əlaqələrin, eləcə də dostluq münasibətlərinin inkişaf etdirilməsinə yardım etmək;
- gəldiyi ölkənin ticarət, iqtisadi, mədəni və elmi həyatında şəraiti və hadisələri qanuni yollarla aydınlaşdırmaq, bunlar haqqında təmsil etdiyi ölkəyə məlumat vermək, məlumatları maraqlı şəxslərə təqdim etmək;
- təmsil etdiyi dövlətin vətəndaşlarına pasportların və yol sənədlərinin, təmsil etdiyi dövlətə getmək istiyən şəxslərə viza və ya müvafiq sənədlərin verilməsini təmin etmək;
- təmsil etdiyi dövlətin vətəndaşlarına kömək və yardım etmək;
- vətəndaş vəziyyəti aktını qeydiyyatdan keçirmək;
- təmsil etdiyi ölkə vətəndaşlarının (hüquqi və fiziki şəxslərin) gəldiyi ölkədə bu ölkənin qanun və qaydalarına uyğun olaraq varislik ***"mortis cauzä""*** məsələsində maraqlarını qorumaq;
- gəldiyi ölkənin qayda və qanunları çərçivəsində təmsil etdiyi dövlətin yetkinlik yaşına çatmamış və tam iş qabiliyyəti olmayan şəxslərin, bu şəxslər üzərində hər hansı qəyyumluq və himayəçilik təyin olunması tələb olunarsa, onların maraqlarını qorumaq;
- gəldiyi ölkədə qəbul olunmuş təcrübə və qaydalara əməl etməklə, təmsil etdiyi dövlətin vətəndaşlarının gəldiyi ölkənin məhkəmə və digər idarələrində bu ölkənin qayda və qanunlarına müvafiq olaraq, bu vətəndaşlar olmadıqda və ya digər səbəblərə görə vaxtı - vaxtında öz hüquq və maraqlarını qoruya bilmədikdə, onların hüquq və maraqlarını müdafiə edən ilkin tədbirlər həyata keçirmək məqsədilə lazımi təmsilçiliyi təmin etmək;

dövlətdə vəziyyətini və imtiyazlarını tənzimləyən xüsusi müqavilə, razılaşma.

Yepiskoplar tərəfindən ali və kilsə hakimiyyətinin funksiyalarına hədd qoyan konkordat ilk dəfə Roma papası II Kalikst ilə Almaniya imperatoru V Henrix arasında 1122 ildə bağlanmışdır (Vorms konkordatı).

KONSENSUS, (lat. ***comemus-Yzz\\\ç\,*** yekdillik). Beynəlxalq təşkilatlarda, beynəlxalq konfranslarda və müşavirələrdə səsvermə aparılmadan və iştirakçılardan hər hansının rəsmi etirazı olmadıqda qərarların bütünlükdə qəbul olunması metodudur. Konsensus BM1'- nin bir sıra orqanlarında tətbiq edilir. O, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı AYƏT tərəfindən qərarların qəbul edilməsində mütləq şərt kimi tətbiq edilir. Bu şərt ATƏT-in Nizamnaməsində öz əksini tapmışdır.

KONSUL, (lat. ***consul*** - vəzifə). Bir dövlət tərəfindən digər dövlətdə konsul vəzifələrinin yerinə yetirilməsi üçün daimi nümayəndə olaraq təyin olunan və digər ölkənin müvafiq qaydalarına uyğun olaraq səlahiyyətli orqanlar tərəfindən bu vəzifənin icrasına buraxılan vəzifəli şəxs.

Konsul təyin etmək hüququ, onun təyinat qaydası və müəyyən dərəcəyə aid edilməsi konsul təyin edən dövlətin daxili qanunvericiliyi ilə nizamlanır. Konsulun təyin olunması haqda ona öz ölkəsinin ***konsul patenti*** verilir. Konsul təyin olunmuş şəxs gəldiyi ölkənin ***ekzekvatura*** adlanan icazəsini aldıqdan sonra öz vəzifələrinin icrasına başlayır. Konsul müəyyən olunmuş ***konsul dairəsində*** fəaliyyət göstərir. Konsul ona həvalə olunmuş ərazidə gəz.ə bilər, görüşlər təşkil edə bilər. Konsul üzərinə qoyulan məsələ və vəzifələrin (konsul vəzifələri) konkret dairəsi və səlahiyyətlərinin həcmi beynəlxalq hüquqa görə konsulu təyin edən dövlətin maraqlarından irəli gəlir. Beynəlxalq hüquqa görə konsulun başlıca vəzifələri gəldiyi ölkədə təmsil etdiyi ölkənin iqtisadi və hüquqi maraqlarını, eləcə də bu ölkənin hüquqi şəxslərinin və

edə bilər ki, missiya üzvlərindən hər hansı biri persona non gratadır. Xüsusi missiyaların göndərilməsi, gəlməsi və getməsi haqda missiyam qəbuledən dövlət müvafiq şəkildə məlumatlandırılmalıdır. Xüsusi missiyaların tərkibinə daxil olan şəxslər gəldiyi dövlətin qaydalarına və qanunlarına hörmət etməlidirlər. Beynəlxalq hüquq komissiyası tərəfindən hazırlanmış layihəyəyə görə həm diplomatik nümayəndəliklər, həm də onların müxtəlif kateqoriyalı əməkdaşlarının imtiyaz və immunitetlərinə dair bütün beynəlxalq hüquq normaları xüsusi missiyaya da aid edilməlidir.

Xüsusi missiyalara dair 1969-cu il Vyana Konvensiyası xüsusi missiyaları bir dövlət tərəfindən müəyyən məsələlərin nəzərdən keçirilməsi və ya yerinə yetirilməsi məqsədi ilə digər dövlətə onun razılığı ilə göndərilən nümayəndəlik və müvəqqəti xarakter daşıyan missiya kimi müəyyən edir. Bu konvensiya 21.VI. 1985 ildə qüvvəyə minmişdir. Xüsusi missiyanın vəzifələri missiys göndərən və qəbul edən dövlətlərin qarşılıqlı razılığı əsasında müəyyən olunur.və daimi diplomatik orqanda müqayisədə daha məhdud xarakter daşıyır.

Xüsusi missiyanın hüquqi statusu daha çox dərəcədə diplomatik nümayəndəliyin statusuna uyğun gəlir. Lkin xüsusi missiya dövlətlər arasında diplomatik və konsulluq əlaqələrinin olmasından asılı olmayaraq göndərilə və qəbul edilə bilər. Dövlətlər arasında bu münasibətlərin kəsilməsi öz-özlüyündə xüsusi missiyanın fəaliyyətinin dayandırıinmasına səbəb olmur. (“DEL”).

**KOMMÜNİKE.** (/r. ***Commmiquy, in. Communico*** - xəbər verirəm). Beynəlxalq danışıqların gedişi və ya nəticələri, bağlanmış beynəlxalq sazişlər, cari əməliyyatlar haqqında rəsmi məlumatdır. Kommünike qısa (hər hansı danışıqlar, görüşlər faktı haqda lakonik məlumatdan ibarət) və ya danışıqların gedişinin , onların iştirakçılarının imzaladığı sazişlərin geniş şərhi, qəbul olunmuş Bəyannamələrin mətnlərindən ibarət olur.

**KONKORDAT.** (lat. ***Concordatum*** - razılaşma). Roma papası ilə bu və ya digər dövlət arasında katolik kilsənin həmin

məsələn, xüsusi səllr tərəfindən də həyata keçirilə bilər.

Xüsusi missiyalar daimi diplomatik nümayəndəliklərdən on çox onunla fərqlənir ki, onlar missiya göndərən dövləti ümumilikdə təmsil etmirlər. Xüsusi missiyaların funksiyaları daha məhdud xarakter daşıyır və hər hansı konkret məsələyə dair danışıqların aparılması, hər hansı bir ölkənin müstəqilliyinin elan olunması və ya bayram edilməsi ilə, ya da digər milli bayramlarla əlaqədar, dövlət başçısının vəzifəyə başlaması və ya vəfat etməsi ilə bağlı olaraq təşkil olunmuş tədbirlərdə iştirak etmək kimi xüsusi məqsədlər güdür. Xösusi missiyaların diplomatik nümayəndəliklərdən digər bir fərqi də ondadır ki, onlar öz funksiyalarını gəldikləri ölkədə səfirliklər və diplomatik missiyalar kimi daimi və fasiləsiz həyata keçirmirlər, onların fəaliyyəti müvəqqəti xarakter daşıyır və adətən qısa vaxt ərzində həyata keçirilir. Elə bu xüsusiyyətlərinə görə xüsusi missiyaları ***adhoc*** adlandırırlar.

Xüsusi missiyaların başçıları siyasi xadim (nazir, deputat və b.) və diplomatik vəzifə tutmayan digər şəxslər ola bilər. Həe hansı bir dövlətdə akkreditə olunmuş diplomatik nümayəndə digər dövlətdə öz ölkəsinin adından xüsusi missiyaları həyata keçirən şəxs kimi çıxış edə bilər. 1928-ci il diplomatik məmurlara dair Havana Konvensiyasında diplomatik nümayəndələrlə, səfirlik və missiya əməkdaşları ilə yanaşı xüsusi "fövqəladə diplomatik məmurlar" kateqoriyasının da adı çəkilir. Bu kateqoriya "xüsusi missiya həvalə olunmuş rəsmi nümayəndələf"ə də aid edilir. Konvensiyada deyilir ki, fövqəladə diplomatik məmurlar digər adi məmurlar kimi eyni hüquq və imtiyazlardan istifadə edirlər.

Xüsusi missiyaların statusunu nizamlayan beynəlxalq hüquq mormalarının işlənib hazırlanması ilə BMT məşğul olur. 1960 ildə BMT-nin Beynəlxalq hüquq komissiyası xüsusi missiyalara dair maddələr layihəsi hazırladı. Bu layihədə nəzərdə tutulurdu ki, diplomatik nümayəndələrə dair bir sıra beynəlxalq hüquq normaları xüsusi missiyalara da aid olunmalıdır. O cümlədən nəzərdə tutulurdu ki, xüsusi missiyaları qəbul edən dövlət istənilən vaxt öz qərarının səbəbini əsaslandırmadan missiya göndərən dövlətə elan

**2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.**

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 12 mart 2007-ci il.**

♦ * *

XATIRLATMA MƏKTUBU. Diplomatik sənəd növlə- rindəndir. Şifahi söhbət və müzakirələr zamanı toxunulmuş hər hansı bir məsələyə diqqəti yönəltmək və ya onun əhəmiyyətini xüsusi qeyd etmək üçün yazılır. Xatırlatma məktubu iki növdür: ***Şəxsin təqdim olunan və diplomatik kuryerlə göndərilən.*** Şəxsən təqdim olunan xatırlama məktubunda müraciət və kompliment olmur, şəxsiz formada ("nəzərə çatdırılır", "Xahiş olunur" və s.) yazılır. Bu cür xatırlatma məktubu sadə gerbsiz kağızda çap olunur. Ünvan və göndərilmə nömrəsi göstərilmir. Mətnin yuxarısında "Xatırlatma məktubu" sözləri olan başlıq yazılır. Əgər məsələ haqqında xatırlatma məktubu başqa tərəfin təşəbbüsü (xahişi, təklifi) ilə yazılarsa, səfirlik xatırlatma məktubunu şəxsi, ya verbal nota, yaxud vizit kartı ilə göndərir. Bu halda məktubun qarşı tərəfin xahişi ilə göndərildiyinə işarə olunur.

Xatırlatma məktubunun kuryerlə göndərilməsi hallarına indi az rast gəlinir. Əgər xatırlatma məktubu kuryerlə göndərilirsə, onda məktubun forması verbal notadan fərqlənmir: 3-cü şəxsdə yazılır (təklif edir, xahiş edir və s. şəklində müraciət olunur), nota blankında çap edilir, haradan göndərildiyi göstərilir, nömrə və tarix yazılır. Verbal notadan fərqli olaraq ona möhür vurulmur, ünvan göstərilmir

XÜSUSİ MİSSİYALAR. Bir dövlət tərəfindən hər hansı tapşırığı yerinə yetirmək üçün digər dövlətə göndərilən rəsmi nümayəndələrdirlər. Xüsusi missiyalar bir nəfər rəsmi nümayəndə.

## 2006-ci İL APRELİN 4-do BRAZİLİYA ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ BRAZİLİYA FEDERATİV RESPUBLİKASI XARİCİ ƏLAQƏLƏR NAZİRLİYİ ARASINDA İKİTƏRƏFLİ SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏRƏ DAİR PROTOKOL"un NƏZƏRƏ ALINMASI BARƏDƏ

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

**1. 2006-cı il aprelin 4-də Brazilia şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Braziliya Federativ Respublikası Xarici Əlaqələr Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələrə dair Protokol"** ***nəzirə alınsın.***

**2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.**

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 mart 2007-ci il.**

♦♦♦♦

## 2007-ci YANVARIN 21-də ƏL - KÜVEYT ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ KÜVEYT DÖVLƏTİ XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA İKİTƏRƏFLİ MƏSLƏHƏTLƏŞMƏLƏRƏ DAİR ANLAŞMA MEMORANDUMU"nun TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

**1. 2007-ci il yanvarın 21-də Əl-Küveyt şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Küveyt Dövləti Xarici İşlər Nazirliyi arasında ikitərəfli məsləhətləşmələrə dair Anlaşma Memorandumu"** ***təsdiq edilsin.***

tədbirlərinin, fəaliyyətinin, aksiyaların perspetkiv şəkildə hazırlanması bura daxildir.

Dövlətin xarici siyasət sahəsində fəaliyyət planının yaradılması prosesi aşağıdakı əsas mərhələləri əhatə edir:

- bütövlükdə beynəlxalq münasibətlər sisteminin və dövlətin digər ölkələrlə münasibətlərinin inkişaf proqnozunun tərtib olunması;
- dövlətin sərəncamında olan və xarici siyasətindəki məqsədlər üçün istifadə oluna bilən vəsait və ehtiyatların həcminin müəyyənləşdirilməsi;
- dövlətin iqtisadi və siyasi maraqlarından irəli gələn müxtəlif istiqamətli xarici siyasət məsələlərinin müəyyənləşdirilməsi;
- bu məsələlərin reallaşdın İmasına yönəldilmiş xarici siyasət tədbirlərinin, kompromis planlarının hazırlanması;
- xarici siyasət sahəsində təsdiq edilmiş planların praktik şəkildə həyata keçirilməsi proqramının hazırlanması.

Ölkodoki hər bir səfirlik də öz fəaliyyətini əvvəlcədən hazırladığı iş planı əsasında qurulur.

**XAldCİ SİYASƏTİN VASİTƏLƏRİ.** Bunlar dövlətin beynəlxalq aləmdə öz məqsədlərinə çatmaq, beynəlxalq münasibətlər sisteminə təsir etmək üçün istifadə etdiyi vasitələrin məcmusudur. Xarici siyasətin vasitələri informasiya və maddi xarakterli ola bilər. Diplomatik kanallarla həyata keçirilən əlaqələr beynəlxalq aləmdə istifadə edilən təbliğat formaları infonnasiya xarakterli xarici siyasətin vasitələridir. Xarici siyasət əlaqələri, iqtisadi yardım, elmi- texniki əməkdaşlıq, kreditlər verilməsi, əvəzsiz yardım və s. iqtisadi vasitələr maddi xarakterli xarici siyasətin vasitələridir. Xarici siyasətin vasitələri kimi embarqo, baykot, iqtisadi blokada, güclə hədələmə və başqa siyasi təzyiq formalarından istifadə edilir. Xarici siyasətin vasitələrinin bütün kompleksi dövlətin xarici siyasəti sahəsindəki gücünü və imkanlarını, dünyadakı qüvvələr nisbətində onun yerini müəyyənləşdirən xarici siyasət potensiyalını təşkil edir.

mahiyyətini dəyişmir, hamısı ölkənin xarici əlaqələri ilə məşqul olurlar.

XARİCİ PASPORT. Bir ölkə vətəndaşının xarici ölkəyə gedə bilməsinə imkan verən rəsmi dövlət sənədidir. Xarici pasportlar diplomatlara və diplomat səlahiyyəti verilən (parlament üzvlərinə , nazirlərə və s.) şəxslər üçün nəzərdə tutulmuş:

a) ***diplomatik pasportlara*** və hər hansı bir tapşırığı yerinə yetirmək üçün başqa ölkəyə işgüzar ezamiyyətə gedən şəxslərə verilən

b) ***xidməti pasportlara*** bölünür. Xarici pasport müəyyən müddətə etibarlıdır. Diplomatik pasport diplomatın və onun ailə üzvlərinin toxunulmazlığını təmin etmək üçün verilir. Bəzi ölkələrdə (Qana, Zair, Zambiya, Hindistan, Kamerun və s.) pasportda diplomatın dərəcəsi göstərilmir, ümumi "diplomat" sözü yazılır; bəzən isə (Nigeriya, Sinqapur və s.) ölkə diplomatı "Xarici xidmət əməkdaşı" kimi qeyd olunur. ABŞ-da diplomatlara verilən pasportda isə göstərilir ki, bu pasport sahibi Dövlət departamentinin təyinatı ilə ***xaricə ezam olunmuşdur.*** Bəzi ölkələrdə diplomatın şəxsi baqajının gömrükdə yoxlanılmasının qarşısını almaq üçün diplomatın pasportunun içərisinə ayrıca olaraq ***"açıq vərəq"*** ("haisser passer") deyilən sənəd əlavə olunur ki, bu da dövlətin öz diplomatına verdiyi zəmanətdir. Məs., RF-da belə vərəqdən istifadə olunur.

XARİCİ SİYASƏT. Ayrı - ayrı dövlətlər, xalqlar, məhəlli və beynəlxalq təşkilatlarla münasibətlər qurma məqsədilə dövlətin müəyyən etdiyi prinsiplərə uyğun olaraq, müxtəlif vasİtə və metodlarla həyata keçirdiyi ümumi siyasətdir. Xarici siyasət dövlətin müəyyənləşdirdiyi məqsədlərə çatmaq üçün daha əlverişli beynəlxalq şəraiti təmin etməyə yönəldilmişdir. Diplomatiya xarici siyasətin əsas vasitəsidir. Bunu isə diplomatlar yerinə yetirirlər.

XARİCİ SİYASƏTİN PLANLAŞDIRILMASI. Dövlətin beynəlxalq sahədə xarici siyasət məqsədlərinə nail olmağa yönəlmiş

yerləşdirilməsi, səfirliyin işinin təşkilində yardım edilməsi protokol şöbəsinin işinin ən mühüm hissəsidir. Səfir Etimadnaməsini təqdim edənə qədər otum xarici işlər idarəsi ilə və digər rəsmi idarələrlə münasibəti protokol şöbəsi vasitəsilə həyata keçirilir.

Xarici işlər idarəsi xarici siyasət kadrlarının hazırlanması ilə məşğul olur, xarici siyasət sahəsində arxiv materiallarının işlənib hazırlanmasına və xarici siyasət məsələlərinə dair rəsmi sənədlərin nəşrinə rəhbərlik edir, həmçinin xarici siyasətə dair bütün mühüm məsələləri hökümətə təqdim edir.

Beynəlxalq münasibətlərdə xarici siyasət məsələlərini həll etmək üçün ixtisaslaşdırılmış dövlət aparatı XVII - XIX əsrlərdə təşəkkül tapmağa başlamışdı. Beynəlxalq münasibətlər və diplomatiya tarixinin daha öncəki müxtəlif mərhələlərində bir sıra dövlətlərdə xarici siyasət məsələləri ilə məşğul olan ayrıca strukturlar fəaliyyət göstərmişdilər. Məs., VI - X əsrlərdə Bizans imperiyasında birinci nazirin idarəsi altında xarici işlər idarəsi fəaliyyət göstərmişdi ki, onun da başlıca məqsədi beynəlxalq məsələlərlə məşğul olmaq idi. Bu idarənin böyük tərkibi və o dövrün bütün dillərində danışa bilən tərcüməçilər ştatı vardı. Ərəb xilafəti dövründə böyük vəzirin başçılığı ilə dövlət yazışma nazirliyi - “divani ər-rəsail” fəaliyyət göstərmişdir. Osmanlı imperiyasında xarici siyasət və diplomatiya işləri ilə “Divani Humayun” adlanan idarə məşqul olmuşdur.

Xarici işlər idarəsi müxtəlif ölkələrdə müxtəlif cür adlandırılır: Azərbaycanda Xarici İşlər Nazirliyi, ABŞ-da Dövlət Departamcnti, Argentinada Xarici İşlər, beynəlxalq Ticarət və Etiqad Nazirliyi, İngiltərədə Forin - ofis (idarənin yerləşdiyi yerə görə Dauning strit), Fransada Xarici Əlaqələr Nazirliyi (Ke'd ores), Belçikada Xarici işlər, xarici ticarət və inkişaf məqsədilə Əməkdaşlıq Nazirliyi, İsveçrədə Federal Xarici İşlər Departamcnti, Liviyada ~ Xarici əlaqələr üzrə Xalq bürosu, Mərakeşdə Xarici İşlər, Əməkdaşlıq üzrə Dövlət Nazirliyi, Braziliyada Xarici Əlaqələr Nazirliyi, Küveyt dövlətində Xarici İşlər Nazirliyi, və s. Adların müxtəlifliyi bu idarələrin vəzifə və funksiyalarının

idarələrindən ibarətdir. O, gündəlik olaraq həm ölkə daxilində, həm də xaricdə hökuməti və dövləti akkreditə olunan, yaxud da bu və ya digər səbəblərə görə gələn səfirlərlə, diplomatik korpusla, xarici dövlət nümayəndələri ilə münasibətlərdə dövlətini təmsil edir, protokol tədbirləri həyata keçirir, xarici müxbirlərlə iş aparır, xarici siyasət məsələlərinə dair rəsmi nəşrlər çap edir; xaricdə - xarici dövlətlərlə, beynəlxalq hökumətlərarası təşkilatlarla diplomatik və konsulluq əlaqələri yaradaraq diplomatik və konsul nümayəndəliklərinin, beynəlxalq təşkilatlar yanında öz ölkəsinin nümayəndəliklərinin işinə rəhbərlik edir.

Xarici işlər idarəsi öz ölkəsinin adından xarici dövlətlərlə danışıqlar aparır, beynəlxalq konfrans və müşavirələrdə iştirak edir, müqavilə və öhdəliklərin yerinə yetirilməsinə nəzarət edir. Dövlət və hökumət nümayəndələrinin rəsmi səfərlərini, vizitləri yüksək səviyyədə hazırlayır və həyata keçirir.

Xarici işlər idarəsinin mərkəzi aparatı və strukturu aşağıdakı kimidir:

- nazirliyə rəhbərlik - nazir, nazir müavinləri, kollegiya (şura) üzvləri, xüsusi tapşırıqlı səfirlər, nazirin müşavirləri, baş (icra) katiblik və ya dəftərxana; - operativ diplomatik şöbələr (idarələr, departamentlər, şöbələr), onlar öz fəaliyyət xarakterinə görə aşağıdakılara bölünürlər:

a) ***operativ*** - ərazi və ya regional idarələr (departamentlər, şöbələr). Onlar müəyyən qrup ölkələr üzrə xarici siyasət məsələləri ilə məşğul olurlar. Qruplar əsasən regional əlamətlərə görə təçkil olunurlar;

b) ***funksional*** idarələr. Bu idarələr xarici siyasət tədbirlərinin planlaşdırılması ilə, ümumi beynəlxalq təşkilatlarla, beynəlxalq iqtisadi təşkilatlarla, təhlükəsizlik, regional əməkdaşlıq, mədəni əlaqə məsələləri ilə məşqul olurlar. İnformasiya və mətbuat idarəsi, beynəlxalq hüquq. Konsul idarələri və Protokol şöbəsi də operativ funksional idarələrə aiddir. Diplomatik nümayəndəlik başçıları gəldikləri ölkə ilə ilk əlaqələrini sonuncu şöbə vasitəsilə yaradır, ölkənin siyasətinin əsasları ilə tanış olurlar. Səfirin qarşılanması və

**kasınm Xarici İşlər, Beynəlxalq 'f'icarət və Etiqad Nazirliyi arasında Anlaşma memorandumu"** ***təsdiq edilsin,***

**2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma memorandumunun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 12 mart 2007-ci il.**

* =l« *

### 2006-ci IL FEVRALIN 23~də BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ İSVEÇRƏ FEDERAL ŞURASI ADINDAN ÇIXIŞ EDƏN FEDERAL XARİCİ İŞLƏR DEPARTAMENTİ ARASINDA MİQRASİYA ÜZRƏ BİRGƏ BƏYANAT"ın TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

**1. 2006-cı İl fevralın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İsveçrə Federal Şurası adından çıxış edən Federal Xarici İşlər Departamenti arasında miqrasiya üzrə Birgə Bəyanat"** ***tdsdiq edilsin.***

**2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Birgə Bəyanatın həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 12 mart 2007-ci il.**

* * ♦

XARİCİ İŞLƏR İDARƏSİ. Hökümətin rəhbərliyi altında dövlətin xarici siyasətinin həyata keçirilməsində operativ fəaliyyət göstərən xarici əlaqələr orqanıdır. Xarici işlər idarəsi mərkəzi aparatdan, xaricdəki diplomatik nümayəndəliklərdən və konsul

XARİCİ ƏLAQƏ ORQANLARI. Diplomatik xidmət - müəyyən dövlət orqanlarının və vəzifəli şəxslərin cəlb edildiyi çoxcəhətli bir fəaliyyətdir. Dövlətin xüsusi fəaliyyət forması sayılır.

***Xarici əlaqshr orqanları*** fəaliyyət növünə görə iki qrupa bölünür:

a) ***Xarici əlaqələrin mərkəzi (daxili) orqanları;***

b) ***Xarici əlaqələrin xarici orqanları.***

Xarici əlaqələrin mərkəzi (daxili) orqanları - konstitusiyalı siyasi orqanlara və vəzifəli şəxslərə aiddir: ali qanunverici orqanlar, dövlət başçısı, hökümət və birinci növbədə onun başçısı, xarici İşlər naziri və xarici işlər nazirinin aparatı. Respublika idarə forması olan dövlətlərdə həm daxili, həm də xarici siyasət və xarici əlaqələr sahəsində ali dövlət idarəsi hakimiyyətin ali qanunvericilik orqanları hesab olunur. Xarici əlaqələrin xarici orqanlarına isə səfirliklər, diplomatik missiyalar və konsulluqlar (Konsul idarələri) daxildir. Bunlardan əlavə hər hansı bir ölkəni müxtəlif fəaliyyət və maraqlar sahəsində təmsil edən bir sıra orqanlar da xarici əlaqələrin xarici orqanlarına daxildirlər. Məs., xarici iqtisadi əlaqələrin nümayəndəliyi, beynəlxalq təşkilatlar və təsisatlar yanında daİmi nümayəndəliklər, ikitərəfli və çoxtərəfli beynəlxalq təşkilatlarda, konfranslarda konqreslərdə və ya təntənəli mərasimlərdə iştirak edən nümayəndə heyətləri. Ümumi beynəlxalq hüquq normalarına görə, göndərən və qəbul edən dövlətlər arasında ikitərəfli razılaşmalar əsasında onlar müəyyən hüquqi immunitetlər və imtiyazlardan istifadə edirlər.

**2006-ci IL APRELIN 3~də BUENOS AYRES ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ ARGENTİNA RESPUBLİKASININ XARİCİ İŞLƏR, BEYNƏLXALQ TİCARƏT VƏ ETİQAD NAZİRLİYİ ARASINDA ANLAŞMA MEMORANDUMU”nun TƏSDİQ EDİLMƏSİ BARƏDƏ**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

**1. 2006-cı il aprelin 3-də Buenos Ayres şəhərində imzalanmış “Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Argentina Respubli-**

***Nümunə***

**Gerb. Səfirliyin adı.**

**Tarix, ay, il.**

**Hörmətli, cənab səfir!**
**Bakı şəhəri.**

**tarixdə Azərbaycan Respublikasında**

**Fövqəladə və Səlahiyyətli səfiri təyin olunmağım barədə etimadnaməmi Prezident İlham Əliyev cənablarına təqdim etdiyimi Sizə çatdırmaqdan böyük məmnunluq duyuram.**
**Rəsmi və şəxsi əlaqələrimizin ölkələrimizin arasındakı dostluğ və əmkdaşhğm inkişafına xidmət edəcəyinə əmin olduğumdan razılıq hissi keçirirəm.**
**Cənab səfir, bir daha dərin hörmət və səmimiyyətimi qəbul etməyinizi rica edirəm.**

**--------Şəxsi imza.**

**Azərbaycan Respublikasındakı**
**Fövqəladə və Səlahiyyətli səfiri**
**Cənab —--------------------------------**
Bakı şəhəri.

FÖVQƏLADƏ SƏFİRLİK. Hər hansı dövlətə onun dəvəti ilə ölkə müstəqilliyinin elan edilməsi, milli bayram, ölkə başçısının vəzifə başına keçməsi münasibətilə (monarxiya quruluşlu ölkələrdə tacqoyma mərasimləri) keçirilən mərasim və şənliklərdə, dövlət başçısının və digər rəsmi şəxslərin matəm mərasimlərində iştirak etmək üçün göndərilən nümayəndəlikdir. Müasir beynəlxalq praktikada fövqəladə səfirlik çox vaxt hökümətin xüsusi nümayəndəliyi adlandırılır ***(Xüsusi missiya).*** Bəzən fövqəladə səfirlik funksiyaları həmin ölkədə daimi yerləşən diplomatik nümayəndəliyin başçısına həvalə olunur.

təsdiq edən və onun xarici dövlətdə akkreditə edən sənədidir. Etimadnamə diplomatik nümayəndə təyin edən dövlət başçısı tərəfindən imzalanır və diplomatik nümayəndəni qəbul edən dövlət başçısına ünvanlanır. Etimadnamə xarici işlər nazirinin imzası ilə təsdiq olunur. Etimadnamə səfir göndərilən dövlətin rəsmi, konstitusiyadakı adı ilə başlanır. Sonra səfiri qəbul edən dövlət başçısının tam titulu gəlir. Yeni səfirin təyin edilməsi ilə iki ölkə arasında münasibətlərin bundan sonrakı inkişafına və dəyişməsinə kömək etmək arzusu ifadə olunur. Daha sonra səfirin adı, atasının adı, soyadı, eləcə də hər iki tərəfin diplomatik nümayəndələrlə mübadilə dərəcəsinə uyğun olaraq diplomatik nümayəndə dərəcəsi göstərilir. Səfirin dövlətinin və hökümətinin adından bütün dediklərinə etimad etmək xahiş olur. Elə "etimad etmək" sözündən sənədin adı- "etimadnamə" meydana gəlmişdir.

Etimadnamə səfirlərə və diplomatik nümayəndələrə verilir. Bəzən bu və ya digər ölkəyə bu və ya digər səbəbdən göndərilmiş xüsusi nümayəndəliyə də etimadnamə verilir. Daimi işlər müvəkkilinə etimadnamə deyil, bu diplomatik nümayəndəni qəbul edən ölkənin xarici işlər nazirinə öz ölkəsinin xarici işlər nazirinin məktubu verilir. Diplomatik nümayəndəyə hər hansı konkret məsələ ilə bağlı danışıqlar aparmaq və ya hər hansı saziş və ya müqavilə imzalamaq tapşırıldıqda, ona xüsusi səlahiyyəylər verilir.

Etimadnamə təntənəli şəraitdə səfirin gəldiyi dövlət başçısına təqdim olunur.Diplomatik nümayəndə öz etimadnaməsini təqdim etdiyi andan və ya təyin olunduğu ölkəyə gəlmə anından etibarən öhdəliklərinin icrasına başlamış (yerli protokol praktikasından asılı olaraq) hesab olunur. Etimadnaməni təqdim etmə vaxtı və ya gəlmə tarixi diplomatik nümayəndənin eyni dərəcədə olan həmkarları arasında protokol ağsaqqallığını müəyyən edir.

Əgər səfir ilk diplomatik nümayəndə kimi deyil, əvəzə gedirsə, onda etimadnamə ilə yanaşı ona sələfinin ***geri çağtnlma*** sənədi də verilir. Öz etimadnaməsini gəldiyi ölkə başçısına təqdim edəndən dərhal sonra yeni səfir başqa səfirliklərə aşağıdakı məzmunda şəxsi nota yazır:

məsələlərə dair olduğu ölkənin hököməti qarşısında çıxış edə bilməsi hüququ haqda mülahizə hüquqi cəhətdən əsassızdır, çünki diplomatik korpus hüquqi şəxs və ya yuridik hüquqlara malik siyasi birlik deyildir.

Duayen istilahı konsul korpusuna münasibətdə də işlədilir. Belə halda duayen (dekan) rütbəcə həmkarları arasında böyük olan və ***ekzekvaturam*** tarix etibarilə birinci alan, yaxud birinci tanınan konsulluq başçısı hesab olunur. Əgər ekzekvaturam, yaxud tanınmanı iki və daha artıq konsul eyni vaxtda alıblarsa, onların arasında öncüllük konsul ***patentinin*** verilmə tarixi ilə müəyyən edilir.

EKZEKVATURA. (lat. excequare - aydınlaşdırmaq, müəyyən etmək). Qəbul edən dövlətin hökuməti tərəfindən xarici dövlətin konsulunun konsul qismində qəbul olunmasına verilən razılıq sənədidir.

Ekzekvaturanın forması qəbul edən dövlətin daxili qanunvericiliyi ilə müəyyən olunur. Adətən, ekzekvatura dövlət başçısı tərəfindən (hökumət başçısı, xarici işlər naziri) imzalanır və möhürlənir. Azərbaycanda xarici dövlətlərin konsullarını Azərbaycan dövləti adından Xarici İşlər Nazirliyi (Xarici İşlər İdarəsi) qəbul edir. Konsul XİN tərəfindən ona ekzekvatura veriləndən sonra rəsmən fəaliyyətə başlaya bilər.

Ekzekvatura verilənədək xarici ölkənin konsuluna öz vəzifəsini icra etməkdən ötrü lazım gəldikdə müvəqqəti icazə verilə bilər. Ekzekvaturadan imtina edildikdə ekzekvatura verməkdən imtina edən dövlət cavabının səbəbləri barədə izahat vermir.

Diplomatik nümayəndəliyin səfirliyin konsulluq şöbəsinin müdiri üçün ekzekvatura tələb olunmur; bu vəzifəyə diplomatik nümayəndəliyin və ya diplomatik missiyanın üzvlərindən biri təyin olunur. O, bu vəzifədə işləməyi üçün öz ölkəsinin XİN-dən ***konsul patenti*** də gətirmir.

ETİMADNAMƏ, (fr. ***lettres de cryance*** - etimadnamə). Dövlət başçısının nümayəndəsi kimi səfirin statusunu rəsmi şəkildə

mərasimlərdə iştirakı, diplomatik korpusun bu mərasimlərdə yeri və s. Ümumi müəyyən olunmuş qaydaya əsasən duayen diplomatik korpusun üzvü olan hər-hansı bir səfirin ölkədən birdəfəlik getməsi ilə əlaqədar olaraq qəbul təşkil edir və səfərə hazırlaşan səfirə diplomatik nümayəndəlik başçıları adından xatirə suveniri təqdim edir.

Duayenin təmsil etdiyi dövlətlə diplomatik əlaqələrdə olmayan ölkələrin diplomatik nümayəndələri duayenin səlahiyyətlərinə aid olan məsələlərə dair, dərəcəsinə görə duayendən sonrakı diplomatik nümayəndəlik başçısı ilə əlaqə saxlayırlar.

Duayen öz çıxışının mətnini həmkarları tərəfindən narazılıq doğurmayacağına əmin olarsa, həmin çıxışın mətni onlarla razılaşdırılmaya bilər. Ayrı-ayrı hallarda nəzərdə tutulmuş çıxışın mətni həmkarlarına göndərilə bilər, lakin bu arzuolunmazdır və uzun-uzadı mübahisələrə səbəb olduğundan çox az hallarda buna yol verilir. Duayenin akkreditə olduğu ölkə ondan diplomatlara aid olmayan məlumatların ötürücüsü kimi və ya müxtəlif növ ianə və xeyriyyə yardımı toplamaq məqsədilə istifadə edə bilməz. Yerli protokol ona nə etməsi barədə göstəriş verə bilməz.

İndiyədək bəzi katolik ölkələrdə ancaq Roma papası nümayəndəsinin - nunsilərin duayen kimi qəbul edilməsi ənənəsi qalmaqdadır. Bu dövlətlərdə nunsilər bu ölkəyə gəlmə vaxtından və ya etimadnamələrini təqdim etmə tarixindən asılı olmayaraq digər səfirlər qarşısında diplomatik korpusa başçılıq etmək hüququna malikdirlər. Nunsilər bu gün də Fransa, İtaliya, AFR, Polşa və b. ölkələrdə diplomatik korpuslarda az rol oynamırlar. Keçmiş Fransa müstəmləkələrində duayen həmişə Fransa səfiri olurdu.

Duayenin tutduğu mövqe çox məsuliyyətli və incədir. O müxtəlif baxışlara malik həmkarlarının fikirlərini ifadə etməlidir, eyni zamanda unutmamalıdır ki, o, öz hökümətini təmsil edir və buna görə də hərəkətlərində dövlətinin xarici siyasət prinsiplərini, bu və ya digər konkret hadisəyə dair münasibətini əks etdirməlidir. Duayenin protokol məsələlərindən əlavə diplomatik imtiyazlara- diplomatik imtiyazlar və toxunulmazlıq hüququna aid bütün

dövlətlərarası münasibətlərin gərginləşməsinə və hətta diplomatik münasibətlərin kəsilməsinə gətirib çıxara bilər.

DUAYEN. (fr.doyen - dekan, başçı, aqsaqqal, birinci). Diplomatik korpusda öz həmkarları arasında Etimadnaməsini birinci olaraq təqdim edən və diplomatik korpusa başçılıq edən birinci dərəcəli diplomatik nümayəndədir (səfir və ya nunsidir). Ona diplomatik korpusun duaeni də deyilir.

1815-ci il Vyana konqresi diplomatik nümayəndələr arasında birincilik məsələsini həll etmiş və "Birinci gələn birincidir" prinsipini müəyyən etmişdi. Bu prinsipə əsasən diplomatik nümayəndənin başçılığı onun təmsil etdiyi dövlətin böyüklüyündən və gücündən deyil, diplomatın bu ölkədə olma müddətindən asılı idi. Duayenin, eləcə də diplomatik korpusun vəzifələri rəsmi xarakter daşıyır. Bu vəzifələr Diplomatik əlaqələrə dair Vyana konvensiyasında nəzərdə tutulmuş məsələlər dairəsindən kənara çıxmamalıdırlar. Təcrübəli diplomat kimi duayenin məsləhətləri yeni gəlmiş diplomatlar üçün çox vacibdir. Duayen bir qayda olaraq yerli protokol məsələlərinə, adətlərə, hakimiyyət orqanlarına. Xarici İşlər İdarəsi ilə qarşılıqlı münasibətlərə dair hərtərəfli məlumatlara malik olur. Diplomatik korpusdakı həmkarları ilə razılaşdırılmış qaydada duayen olduqları ölkənin hökümətini diplomatik korpus adından təbrik edir, başsağlığı verir, lazım gəldikdə müxtəlif mərasimlərdə diplomatik korpusa rəhbərlik edir, yerli protokol praktikasına aid məsələlərə dair öz həmkarlarına məsləhətlər və tövsiyyələr verir, müxtəlif protokol tədbirlərinə, mərasimlərdə iştirak etməyə dair xarici işlər idarəsinin arzu və istəkləri barədə diplomatik korpusa məlumat verir. Duayen xarici işlər idarəsi və onun protokol şöbəsi ilə daimi əlaqə saxlayır, diplomatik korpusun iştirakı ilə müxtəlif mərasimlərin təfərrüatlarını dəqiqləşdirir. Bəzi diplomatik korpusun protokolla (mərasimlə) əlaqədar hüquq və imtiyazlarının qorunması ilə bağlı çıxışlar edir; məsələn, diplomatik korpus üzvlərinin yerli hakimiyyət orqanları nümayəndələrinə münasibətdə birinciliyi, diplomatik korpusun hər-hansı

hərəkətlərin vurduğu zərərə uyğun olmalıdır, yəni ***proporsionalUq*** prinsipinə əsaslanmalıdır.

Retorsiyalar ***repressalidən*** onunla fərqlənir ki, repressali beynəlxalq hüquq nöqteyi-nəzərdən qeyri-qanuni akta qeyri-qanuni aktla, məs., müqavilənin şərtlərini onun digər dövlət tərəfindən pozulmasına cavab olaraq yerinə yetiriİməməsi, istisna qaydasında tətbiq olunan cavabdır.

**DÖVLƏT BAYRAĞI.** Dövlətin suverenlik simvoludur. Dövlət bayrağının etiketi tələb edir ki, onun ölçüsü və forması qanunda sərh edilmiş parametrlərə tam uyğun olsun. Dövlət bayrağı xarici ölkələrdəki diplomatik nümayəndəliklərin binaları üzərində və həmçinin nümayəndəliklərin başçılarının xidməti nəqliyyat vasitələrinə sancılır. Bayraq sutka ərzində qaldırılmış vəziyyətdə olarsa, gecələr mütləq işıqlandırılmalıdır. Dövlət bayrağından istifadə müəyyən protokol qaydaları çərçivəsində icra olunur ki, onlara ciddi riayət edilməlidir. Yüksək səviyyəli xarici qonaq rəsmi görüşə gələrkən onun şərəfinə dövlət bayrağları qaldırılır. Qonaqın təmsil etdiyi ölkənin dövlət bayrağı sağ tərəfdə, ev sahibinin dövlət bayrağı isə sol tərəfdə sancılır. Bir neçə dövlət bayrağı eyni vaxtda qaldırılarsa, dövlət bayraqlarının və bayraq ağaclarının ölçüsü bərabər olmalıdır. Dövlət bayrağları ölkələrin adlarına uyğun olaraq, sağdan sola əlifba üzrə cancılmalıdır. Dövlət bayrağları sıra ilə yerləşdirilir, onların üst-üstə sancılması məqbul deyil. Matəm günlərində dövlət bayrağı axıradək qaldırılıb, sonra yavaş-yavaş yarıyadək endirilir. Qaldırılmış halda dövlət bayrağı yerə, divara və evin damma toxunmamalıdır. Dövlət bayrağının zahiri görünüşü səliqəli olmalı, onun parçası saf, qırışsız və ləkəsiz olmalıdır, üzərinə kənar şey sancılmamalıdır. Dövlət bayrağına ehtiram göstərilir. Təntənəli mərasimlərdə dövlət bayrağı hərbçilərin yanından keçiriləndə, ona əsgəri salam verilir, mərasimdə iştirak edən mülki şəxslər isə papaqlarım çıxarırlar. Mərasim binanın daxilində keçiriləndə dövlət bayrağı gətirilərkən və çıxarılarkən ehtiram əlaməti olaraq hamı ayağa qalxır. Dövlət bayrağının təhqir olunması

xalq və je/V«/«-qərar, fərman sözlərindəndir. Bir məsələnin (ərazi, qanun və s.) taleini həll etmək üçün vətəndaşların sorqusunu keçirmək deməkdir.

REGİONAL SAZİŞLƏR. İştirakçıları hər hansı coğrafi rayonun dövlətləri olan çoxtərəfli beynəlxalq müqavilələrdir. Regional sazişlərin başlıca məqsədi bu coğrafi rayonda danışığa gələn tərəflərin bu və ya digər sahədə əməkdaşlığını təmin etməkdir.

BMT Nizamnaməsinə müvafiq olaraq Regional sazişlər BMT-nin məqsəd və prinsiplərinə uyğun olmalıdır. Regional səviyyədə sülhü və beynəlxalq təhlükəsizliyi təmin etmək məqsədilə yaradılmış regional sazişlər iştirakçıları regional sazişlərin və ya onun əsasında formalaşmış orqanlar vasitəsilə yerli mübahisələri dinc yolla həll etməyə nail olmaq üçün bütün səylərini göstərməlidirlər. Regional sazişlərin iştirakçıları mübahisələrin həll olunmasında BMT Təhlükəsizlik Şurasına müraciət edə bilərlər.

Zəruri hallarda BMT TŞ regional sazişlərdən və onun orqanlarından öz rəhbərliyi altında məcburi tədbirlərdə istifadə edə bilər.

TŞ-na regional sazişlər və regional orqanların həyata keçirdiyi və ya nəzərdə tutduğu hərəkətlər barədə həmişə tam məlumat verilməlidir.

RETORSİYALAR (lat. ***retorsio*** - cavab tədbiri). Bir dövlətin digər dövlətə qarşı həyata keçirdiyi, dövlətin iqtisadi maraqlarını pozan əsassız tədbirlərinə cavab olaraq gördüyü tədbirlərdir. Retorsiya öz ərazisinə xaricilərin buraxılmasına yol verməmək, gömrük vergilərini artırmaq və s. aid edilə bilər. Retorsiya beynəlxalq hüquqa zidd olmayan və beynəlxalq əməkdaşlığın inkişafı yolunda maneələri aradan qaldırmağa xidmət edən və qanunauyğun hərəkətdir.

Retorsiyalar öz xarakterinə görə digər dövlətin düşmən hərəkətləri ilə eyni olmaya da bilər, lakin ağırlığ dərəcəsinə görə bu

rurlar. Tam hüquqlu iştirakçılardan fərqli olaraq, müşahidəçilər qərarların qəbul edilməsində, işçi orqanların formalaşması və fəaliyyətində, digər məsələlərdə iştirak etmirlər. Lakin müzakirə olunan məsələlərlə əlaqədar çıxış etmək və təklif vermək hüququna malik olurlar.

Praktik ehtiyac (tələblər) üzündən təşkilat üzvü olmayan dövlətlər bir sıra beynəlxalq təşkilatların, həmçinin BMT-nin fəaliyyətini izləmək istəyirlər və buna görə də bir çox təşkilatlarda daimi müşahidəçilər institutu formalaşıb.

BMT praktikasına uyğun olaraq daimi Müşahidəçilər və onların missiyalarının əməkdaşları BMT Təhlükəsizlik Şurasının, BMT-nin Baş Məclisinin, onun əsas komitələrinin və BMT-nin digər orqanlarının iclaslarında iştirak edə, öz hökümətlərinin sənədlərini və materiallarını yaya, BMT orqanlarının sənədlərini ala və istifadə edə bilərlər. 1974 ildən Fələstin Azadlıq Təşkilatı (FAT) BMT BM-nin qərarına əsasən BMT BM-nin və BMT çərçivəsində keçirilən beynəlxalq konfransların işində Müşahidəçi kimi iştirak edir. 1981 ildən Cənub-Qərbi Afrika təşkilatına da (SVAPO) belə status verilib.

Universal xarakterli beynəlxalq təşkilatlarla münasibətlərdə dövlətlərin nümayəndəliyi haqqında 1975 il Vyana Konvensiyası beynəlxalq təşkilatlarda və konfranslarda daimi Müşahidəçinin hüquqi statusunu reqlamentləşdirir. Müşahidəçidən BMT-nin hərbi Müşahidəçisi fərqləndirilməlidir.

**REFERENDUM** (lat. ***referendum*** - xəbər verilməli olan). Demokratiyanın mühüm institutlarından biridir. Seçkilərdən fərqli olaraq referendum zamanı seçim obyekti müəyyən vəzifəyə namizəd və ya namizədlər siyahısı deyil, müəyyən məsələdir. Referendum qanun, qanun layihəsi, yeni konstitusiya, konstitusiyaya düzəliş və əlavələr, bu ölkənin beynəlxalq statusuna aid problem və digər vacib qərarların qəbul edilməsi və ya onlara dəyişikliklər edilməsi ilə əlaqədar keçirilən ümumxalq səsverməsidir. Özünəməxsus forması ***plebissitdir.*** Lat. ***plebissUum,*** /VeÄs-sadə

məsələlər ətrafında müzakirələr apannaq, yaxud sülh və dostluq müqavilələrinin bağlanmasını təmin etmək məqsədilə müvəqqəti olaraq göndərilirdilər. İlk olaraq, daimi Elçiləri XIV əsrdən etibarən, İtaliyanın şəhər dövlətləri olan Venetsiya və Genuya rəsmiləri göndərməyə başladılar. XVI əsrdə İspaniya, İngiltərə və Almaniya kimi iri Avropa dövlətləri də diplomatik münasibətləri daimi Elçilər vasitəsilə saxlamağa üstünlük verirdilər. Şərqdə ancaq Osmanlı imperiyası XVIII əsrin sonunda sultan Səlim dövründən başlayaraq daimi Elçilər göndərməyə başlamışdır.

KONSUL KONVENSİYALARI. Dövlətlər arasında konsul nümayəndəliklərinin təsis olunması, təyin olunma və geri çağırılma qaydasını, fəaliyyət dairəsini, konsul vəzifəli şəxslərin və konsulluq əməkdaşlarının hüquqlarını, imtiyazlarını və immunitetlərini müəyyən edən konsul hüququ normalarından ibarət beynəlxalq dövlətləarası sazişlərdir. Konsul konvensiyaları konsul hüququnun mənbələrindən biridir.

Tarixdə ilk konsul konvensiyası 1769 ildə Fransa ilə İspaniya arasında imzalanmışdır. Beynəlxalq münasibətlər tarixində konsulluq məsələlərinə dair dövlətlər öz aralarında bir çox konsul konvensiyaları imzalaşmışlar. Məs., 1928 il konsul məmurları haqqında Havana konvensiyası, 1947 il ABŞ və Filippin konsul konvensiyası, 1951 il ingilis-fransız konsul konvensiyası, 1956 il Avstriya-Yuqoslaviya konvensiyasını və s. göstərmək olar.

Konsul konvensiyaları adətən ikitərəfli xarakter daşımışlar. 1928 il Havana konsul konvensiyası isə çoxtərəfli olmuşdur.

Konsul məsələlərinə dair təkmilləşdirilmiş son sənəd BMT çərçivəsində işlənib hazırlanmış 24.IV. 1963 ildə imzalanmış Konsul Əlaqələrinə dair Vyana Konvensiyasıdır. 19.111.1967 ildə Konsul Əlaqələrinə dair Konvensiya qüvvəyə minmişdir.

MÜŞAHİDƏÇİLƏR. Beynəlxalq hökümət təşkilatlarının, beynəlxalq konfransların və digər forumların işində məhdud iştirak üçün dövlətlər, beynəlxalq təşkilatlar, milli-azadlıq hərəkatları tərəfindən göndərilən nümayəndələr (təmsilçilər) müşahidəçilər adla-

3) Diplomatiya müəyyən etməlidir ki, bu müxtəlif məqsədlər hansı səviyyədə bir-biri ilə uyğunlaşa bilərlər; 4)Diplomatiya bu məqsədlərin keçirilməsi üçün münasib vasitələrdən istifadə etməlidir. H. Morqentaunun fikrincə diplomatiyanın sərəncamında üç vasitə vardır: inandırma, kompromis və hədə-qorxu. O, yazır: "Diplomatiya sənəti ondan ibarətdir ki, hər bir konkret şəraitdə sərəncamında olan bu üç vasitənin hər-hansı birindən istifadə edə bilsin". '

Diplomatik fəaliyyət bir sıra elmlər: beynəlxalq münasibətlər tarixinə, ayrı-ayrı ölkələr tarixinə, dünya təsərrüfatı və ayrı - ayrı ölkələrin iqtisadiyyatının öyrənilməsi ilə bağlı olan iqtisadi elmlərə, beynəlxalq hüquqa və ayrı-ayrı ölkələrin dövlət hüququna və müxtəlif ölkələrin daxili həyatının ayrı-ayrı hadisələrini və beynəlxalq həyatın ümumi durumunu qiymətləndirmək üçün zəruri olan digər biliklərə əsaslanmalıdır. Çünki belə qiymətləndirmə olmadan diplomatiya dövlətin xarici siyasət məqsədlərini həyata keçirməyə nail ola bilməz.

Diplomatik fəaliyyət bir sənətdir, buna görə də o elmi dəlillərə əsaslanmalıdır. Diplomatın xarici əlaqələrdə tətbiq olunan forma və metodlardan istifadə etmək bacarığı diplomatik fəaliyyətinin müvəffəqiyyətinin mühüm şərtidir.

ELÇİ. 1) Diplomatik əlaqələrə dair 18 aprel 1961 il Vyana konvensiyasında təsbit olunmuş müasir beynəlxalq hüquqa müvafiq olaraq, ***elçi*** - diplomatik nümayəndəliyin ikinci dərəcəli başçısıdır. Gündəlik beynəlxalq təcrübədə onun Extraordinary and Minister pienirotentiary,) qısa şəkildə - Səlahiyyətli nazir, yaxud nazir. İşlər müvəkkilindən fərqli olaraq. Elçi səfir kimi dövlət başçısının yanında akkreditə edilir.

2) Elçi - xarici əlaqələr orqanlarının diplomatik heyətinə verilən diplomatik rütbədir Elçi 1 və 11 dərəcəli olur.

Elçilik dövlət təsisatı kimi orta əsrlərdə yaranıb. Diplomatik qaydaların hələ mövcud olmadığı dövrlərdə Elçilər bir sıra imtiyazlara malik olar, toxunulmaz şəxs sayılırdılar. Elçilər mühüm

**Morgcnthau G. Polities among Nations, *Xs* 4,1973.**

Müəyyən xarici siyasət məsələlərinə nail olmaq üçün diplomatiyanın istifadə etdiyi metodlar, yəni hökümətə, rəsmi nümayəndələrə, eləcə də nüfuzlu siyasi dairələr və xarici dövlətlərin ictimayyətinə təsir vasitələri o qədər müxtəlifdir ki, onlar hər-hansı qəti müəyyən olunmuş təsnifata sığmırlar. Diplomatik metodların konkret xarakteri zamandan, məkandan və şəraitdən asılıdır. Diplomatik fəaliyyət metodları mövcud vəziyyətin dəyişilməsi ilə bağlı müəyyən məqsədlərə nail olmağa yönəlib və daima dəyişkən şəraitdə tətbiq olunur. Onlar heç də standart qaydalar yaratmırlar, çünki bu metodların köməyi ilə diplomatiyanın qarşıya qoyduğu xarici siyasəti məqsədlərinə nail olması müəyyən dərəcədə metodları tətbiq edən şəxslərin konkret hərəkət tərzlərindən də asılıdır. Uzun tarixi təcrübə nəticəsində istifadə olunan diplomatik metodlar şəraitin dəyişilməsi ilə bağlı olaraq zənginləşir və təkmilləşir.

Diplomatik dərsliklərdə və diplomatiya tarixinə dair kitablarda diplomatiya çox vaxt gah “beynəlxalq münasibətlər haqqında elm”, gah da “danışıqlar sənəti” kimi müəyyən olunur. Bəzən diplomatiyaya bir elm kimi də yanaşılır. Məs., alman siyasətçi - hüquşünası Q. Mailens diplomatiyaya belə tərif vermişdir: “Diplomatiya xarici əlaqələr və ya dövlətlərin xarici işləri haqqında elmdir, daha dar mənada isə danışıqlar elmi və sənətidir”.* Fransız diplomatı Q. Qarden isə demişdir: “Diplomatiya - bu terminin geniş mənasında dövlətlərin qarşılıqlı münasibətləri və maraqları haqqında elmdir və ya xalqların maraqlarını qarşılıqlı şəkildə razılaşdırmaq sənətidir, daha dəqiq mənada isə - danışıqlar elmi və ya sənətidir”.^ “Siyasi realizm” məktəbinin banisi H. Morqentau hesab edir ki, diplomatiya elmi dörd elementdən ibarətdir: 1) Diplomatiya həqiqətən və potensial olaraq sərəncamında olan qüvvəni nəzərə almaqla öz məqsədlərini müəyyən etməlidir; 2) Diplomatiya digər ölkələrin məqsədlərini və bu məq- sədləri həyata keçirmək üçün həqiqətən və potensial olaraq malik olduğu qüvvəni nəzərə almalıdır;

**Ch.dc Marten.s. Guide Diplomatigul. Brochaus. Lcyp/.ig, 1866. p.36.**
**G. Garden. I raite complet de diplomate. P. 1833, p. 27.**

də icra olunur və dövlət fəaliyyətinin xüsusi növüdür. Bu qüvvə dövlətin quruluşundan və onun xarici siyasətinin xarakterindən asılı olaraq həm təcavüzkar məqsədlərə, həm də təcavüzdən müdafiə məqsədlərinə xidmət edə bilər.

Diplomatiya dövlətin xarici siyasət vasitələri içərisində xüsusi yer tutur. Diplomatın yeganə vəzifəsi dövlətin xarici siyasət məqsədlərini həyata keçirməkdən və bunun üçün vacib olan üsul və yolların müəyyən olunmasından ibarətdir. Diplomatiyanın vəzifəsi təkçə hökümətlər arasında rəsmi əlaqə formalarından məharətlə istifadə etməkdən və bu fəaliyyət çərçivəsində xarici dövlətlərə lazımi siyasi təsir göstərməkdən ibarət deyil, həm də bu formaları dövlətin qarşıya qoyduğu xarici siyasət məqsədlərinə nail olmaq üçün xarici siyasət vasitələri ilə uyğunlaşdırmaqdır. Diplomatik fəaliyyətin başlıca formaları aşağıdakılardır: 1) konfranslar, konqreslər və müşavirələr, yəni dövlət, hökümət başçıları və ya xarici işlər nazirindən tutmuş müxtəlif dərəcəli diplomatik əməkdaşlar arasından seçilmiş xüsusi səlahiyyətli şəxslərədək, dövlət nümayəndələrinin mütəmadi görüşləri; 2) müraciət, məktub, nota, memorandum və s. vasitəsilə diplomatik yazışma; 3) döv- lətlərarası münasibətlərlərin ən müxtəlif məsələlərini nizamlayan ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilə və sazişlərin hazırlanması və imzalanması; 4) xaricdə dövlətin onun səfirlikləri və diplomatik missiyaları tərəfindən gündəlik təmsil olunması və onların gəldikləri ölkənin diplomatik idarəsi ilə siyasi və digər danışıqların aparılması; 5) dövlət nümayəndələrinin ümumi missiyası və xüsusi, regional beynəlxalq təşkilatların fəaliyyətində iştirakı; 6) bu və ya digər xarici siyasət məsələsinə dair hökümətinin mövqeyinin mətbuatda işıqlandırılması; 7) mühüm beynəlxalq hadisələr haqqında rəsmi məlumatın nəşr olunması, beynəlxalq akt və sənədlərin rəsmi şəkildə dərc edilməsi.

Diplomatik fəaliyyətə ümumi rəhbərlik hökümət tərəfindən, bilavasitə rəhbərlik isə hökümətin məsul üzvünün (xarici işlər naziri) rəhbərlik etdiyi xüsusi Xarici İşlər İdarisə tərəfindən həyata keçirilir.

***White tie*** - “ağ qalstuk”, yəni “frak” - xüsusi tikilmiş kostyumdur, - faldh pencək, ipək tesmalı şalvar (smokinqdə olduğu kimi). Frakda yaxası yuxarı qatlanmış frak köynəyi geyilir, ağ kəpənək (qalstuk) taxılır; ağ cilet və qara lak ayaqqabı geyinilir.

Diplomatik qəbullarda ən çix “smokinq” formasından istifadə olunur. “Frak” formasına az rast gəlinir.

Diplomatın xarici görkəmi də etiketin vacib element- lərindəndir.

DİPLOMATİYA. Dövlət, hökümət və xarici əlaqə orqanları başçılarının (dövlət başçısı, hökümət başçısı, xarici işlər naziri və şairənin) danışıqlar aparmaq, yazışmalar etmək və başqa dinc vasitələrlə dövlətin xarici siyasət məqsədləri və məsələlərinin həyata keçirilməsində, eləcə də dövlətin xaricdə maraqlarının və hüquqlarının qorunmasında rəsmi fəaliyyətidir.

“Diplomatiya” sözü yunan sözü ***'*diploma”dan*** törəmişdir. Qədim Yunanıstanda elçilərə onların səlahiyyətlərini təsdiq edən Etimadnamə və sənəd kimi təqdim olunan yazılı ikiqat löhvələr ***diploma*** adlanırdılar. Bu ikiqat “diploma”ları sənədlərlə başqa ölkələrə aparanları “diplomat”, onların fəaliyyət növünü “diplomatiya” adlandırdılar. Xarici əlaqələr sahəsində dövlət fəaliyyəti mənasında “diplomatiya” XVIII əsrin sonunda Qərbi Avropada işlədilməyə başlanmışdı.

Diplomatiya dövlətin xarici siyasətinin mühüm vasitəsidir. Bəzən “Diplomatiya” və “xarici siyasət” sözləri eyni mənada işlədilir. Lakin bunlar eyni anlayışlar deyillər. Xarici siyasət anlayışı beynəlxalq sahədə dövlətin fəaliyyət istiqamətlərini müəyyən edən məqsəd və maraqlarını, eləcə də bu fəaliyyətin formalarını, metod və vasitələrini əhatə edir. Beynəlxalq münasibətlərdə dövlətin məqsədləri hər şeydən əvvəl hökümətlər arasında rəsmi əlaqələr vasitəsilə, eyni zamanda ’ həm dövlət orqanları, həm də ictimai və xüsusi idarə və korporasiyalarla (banklar, ticarət firmaları, elmi təşkilatlar, dini cəmiyyətlər) həyata keçirilir. Nəhayət bu məqsəd və maraqlar silahlı qüvvədən istifadə etməklə

diplomatik sənədə cavab gecikdirilməməlidir, imkan daxilində ən qısa müddətdə cavab verilməlidir.

Diplomatik yazışma sənədləri yaxşı, əziyi olmayan, təmiz, gözəl zahiri görünüşü olan kağızda çap olunmalıdır, mətn yaxşı yerləşdirilməlidir. Diplomatik sənədlərdə düzəlişlər etmək, pozmaq yol verilməzdir. Sənədlərin göndərilməsi üçün keyfiyyətli və formalı, sənədin ölçüsünə uyğun gələn zərflər seçmək lazımdır.

Diplomatik yazışma sənədləri ya şəxsən təqdim olunmalıdır, ya da diplomatik kuryerlə göndərilir: onları poçtla göndərmək olmaz.

***Şəxsi məktub nümunəsi***

**Tutduğu vəzifə, ad, soyad.**

**M Ə T N**

**Şəxsi imza**

DİPLOMATİK FORMA. Diplomatların qəbullar zamanı qeyim formaları aşağıdakılardır: parad paltarı, smokinq, frak və adi kostyum. Qəbula hansı paltar formasında gəlmək dəvət edən tərəfindən təyin olunur. Belə halda, adətən, dəvətnamənin sağ tərəfinin aşağı küncündə xüsusi qeyd olunur:

***“Black tie”*** - “qara qalstuk”, yəni “smokinq kostyum” - atlas yaxalaqlı faldsız pencək, yanlardan ipək tesma tikilmiş şalvar, qara cilet, kraxmallı ağ, yaxud yaxası yuxarıya qatlanmış xüsusi yumşaq köynək, qara kəpənək (qalstuk) və qara lak ayaqqabı.

işlər nazirliyi ilə, olduğu ölkənin digər idarə və ayrı - ayrı şəxsləri, eləcə də bu ölkədəki diplomatik korpusla yazışmalarıdır.

Diplomatik yazışmanın ən geniş yayılmış növləri bunlardır: ***şpxsi nota, verhal nota, yaddaş məktubu, memorandum, şəxsi məktub*** (yarı rəsm i xarakterli məktub). Bu yazışma növləri öz məzmununa, təyinat və formal (protokol) əlamətlərinə görə bir - birindən fərqlənirlər. Səfirliyin başçısı və ya diplomatik işçisi tərəfindən göndərildiyindən şəxsi məktubun "yarırəsmi" sənəd kimi xarakterizə olunması rəsmilik keyfiyyətini azaltmır. Hər bir konkret hadisəyə uyğun gələn sənəd növünü düzgün seçmək vacibdir, eləcə do nəzərə almaq lazımdır ki, şəxsi notaya şəxsi nota ilə cavab vermək lazımdır.

Rəsmi olaraq nazirlik və səfirlik diplomatik yazışmanı öz ölkəsinin dilində aparmaq hüququna malikdir. Ancaq bəzən bu sənəd onu alan tərəfdə tərcümə ilə bağlı çətinliklərə səbəb olur və nəticədə diplomatik yazışmada qoyulmuş məsələlərin nəzərdə keçerilməsini çətinləşdirir. Bunu aradan qadırmaq məqsədilə:

1) Xarici [şlər İdarəsi və ya səfirliklə razılaşmaya əsasən yazışmanı hansısa üçüncü bir dildə aparmaq;

2) yazışmanı hər bir sənədə onun qeyri-rəsmi tərcüməsi əlavə olunmaqla aparmaq olar.

Səfirlikdə diplomatik yazışmanın diplomatın gəldiyi ölkənin dilində aparılması səhv hesab olunmur. Ancaq səfirlik, əgər onun yerləşdiyi ölkənin bir yox, iki və ya bir neçə rəsmi dili olarsa, ehtiyatlılıq göstərməlidir. Yazışmanın ancaq bu dillərin birində aparılması qarşılıqlı münasibətləri mürəkkəbləşdirə bilər. Məsələn, Əfqanıstanın iki rəsmi dili vardır: puştu və dəri dilləri. Diplomatik yazışmada nəzakət və ədəb qaydalarına əməl etmək, kəskin ifadələrdən, diplomatik sənədin göndərildiyi Ölkənin ləyaqətinə toxunan və onun rəsmi nümayəndələri üçün təhqiredici sözlərdən qaçmaq tələb olunur.

Belə bir protokol qaydası mövcuddur: ^^Chaque lettre demande ryponse" - "Hər bir məktub cavab tələb edir". Ona görə də əgər xüsusi, ayrıca səbəb olmadıqda məktuba, notaya və digər

ona cavab vizitləri edir. Protokol viziti bir qayda olaraq 15-20 dəqiqə çəkir. Vizitlərin aparılma qaydasına uyğun səfirlərin ölkədən getməsi ilə bağlı "Vida görüşlər"i də keçirilir.

***İşgüzar vizithr*** həm səfirin, həm də ölkə nümayəndəsinin təşəbbüsü ilə edilə bilər. Diplomatik işgüzar vizitlər üçün vaxt məhdudiyyəti qoyulmur. Səfirliyin diplomatik əməkdaşları onların üzərinə düşən öhdəliklərə görə hökümətinin tapşırığını yerinə yetirmək və səfirliyə lazım olan informasiyanı almaq üçün idarə və nazirliklərə vizitlər edirlər. Bu halda diplomatik işçi öz dövlətinin xarici siyasət kursunu həyata keçirir. Rəsmi şəxslərə vizitlərlə eyni vaxtda və ya bu vizitlərdən sonra diplomatik nümayəndə görkəmli ictimai xadimlərlə, elm, mədəniyyət, mətbuat nümayəndələrinə vizitlər edir. Diplomatik nümayəndəliyin digər işçilərinə və onların həyat yoldaşlarına da vizitlər edirlər. Bəzən diplomatik nümayəndələrin həyat yoldaşları gündə bir dəfə, müəyyən olunmuş vaxtda adətən 17.00-dan 19.00-dək, yada 16.00-dan 18.00-dək jour fixe-qəbullar təşkil edirlər. Bu jour fixe-lərə dəvətnamələr payızın əvvəlində göndərilir və onlar jour fixe-in dayandırılması haqda xüsusi məlumat verilməyənədək qüvvədə qalırlar.

Diplomatik nümayəndənin tanışlıq məqsədi ilə və ya protokol qaydaları ilə müəyyən olunmayan vizitləri ***xüsusi vizithr*** hesab olunur. Diplomatik nümayəndənin rəsmi mövqeyini nəzərə alsaq, onun rəsmi və xüsusi vizitləri arasında fərq qoymaq çox çətindir. Diplomatik vizitlər zamanı rəsmi və xüsusi olmalarına baxmayaraq vizitlərin vaxtına və ya geyimlərinə dair yerli protokol qaydalarına əməl olunur. Diplomatik vizitlər dəqiq müəyyən olunmuş vaxtda keçirilir. Gecikmək etiketin pozulması hesab olunur və diplomatik vizitlər edilən şəxsə hörmətsizlik kimi qiymətləndirilir. Diplomatik vizitlərin bitirilməsi təşəbbüsü qonağa məxsusdur., lakin dövlət başçısı birinci olaraq diplomatik vizitlərin bitdiyinə işarə edir.

DİPLOMATİK YAZIŞMA. Diplomatik fəaliyyətin bir növüdür. Xarici işlər nazirliyinin ölkədə akkreditə olunmuş diplomatik missiya və səfirlikləri ilə, missiya və səfirliklərin xarici

başlayır. Digər həmkarları ilə diplomatik vizitlərin növbəsini müəyyən edərkən səfir mütləq birinciliyi, yəni ya etimadnamənin verilməsi vaxtını, ya da diplomatik nümayəndənin ölkəyə gəldiyi vaxtı nəzərə almalıdır. Lakin nəzərə almaq lazımdır ki, bu məsələdə ciddi qayda yoxdur. Diplomatik korpusda səfirlər birinci olaraq öz siniflərinə bərabər diplomatik nümayəndəlik başçılarına yəni səfirlərə vizitlər edirlər. Bu ölkədə akkreditə olunmuş nümayəndələr, daimi və müvəqqəti işlər müvəkkilləri yeni gəlmiş xarici səfirin onlara etimadnaməsini təqdim etməsi haqda şəxsi notasını alan kimi birinci olaraq səfirə vizit edirlər. Səfir də onlara cavab vizitlər edir.

Ölkənin rəsmi şəxslərinə və diplomatik nümayəndəlik başçılarına protokol vizitləri edilərkən görüşlərdəki ardıcıllığa riayət etmək, yəni əvvəlcə rəsmi şəxslərə, bundan sonra diplomatik nümayəndəlik başçılarına vizitlər məcburi deyil. Diplomatik korpusda həmkarları ilə vizitləri zamanı səfir rəsmi şəxslərə də gündə bir-üç vizit etməklə növbələşdirir.

Bəzi ölkələrdə diplomatik korpus böyük olduğundan yeni gəlmiş səfir müəyyən müddətə bütün diplomatik nümayəndə başçılarına diplomatik vizitlər edə bilmir. Belə olan halda o, hər hansı bir region səfirləri ilə görüşməklə kifayətlənir (məs., Orta Asiya ölkələri, Afrika ölkələri, müsəlman ölkələri, Avropa ölkələri. Latın Amerikası ölkələri və s. səfirləri ilə görüşlər). Protokol vizitlərinin təkcə səfirlər deyil, ekzekvaturaya görə öz öhdəliklərinin icrasına başlamış konsul idarələrinin başçıları da edirlər. Etimadnamələrini təqdim etmiş diplomatik nümayəndəlik başçıları və ölkəyə yeni gəlmiş diplomatik işçi diplomatik korpusda protokol vizitləri etdikdən sonra diplomatik nümayəndəlik başçılarına və diplomatik əməkdaşa diplomatik korpusdakı həmkarları cavab protokol vizitləri edirlər. Artıq akkreditə olunmuş yeni gəlmiş səfir, öz növbəsində ondan sonra gələn digər həmkarlarından onların etimadnamələrini təqdim etməsi haqda şəxsi notalar alır. Bu halda məlumatı alması haqda gecikdirilmədən cavab (şəxsi nota) göndərilir və ona protokol vizitləri etdikdən sonra onun həmkarı

ölkələr arasında dostluq münasibətlərini inkişaf etdirmək vəzifələrindən irəli gəlir. Diplomatın gəldiyi ölkənin səmərəli şəkildə öyrənilməsi, onun siyasi, iqtisadi və mədəni həyatını dərindən bilməsi müxtəlif yerli dairələrin nümayəndələri tərəfindən görüşlər və diplomatik vizitlər vasitəsilə həyata keşirilən gündəlik və daimi əlaqələr olmadan qeyrimümkündür. Digər tərəfdən öz hökümətinin daxili və xarici siyasət məsələlərinə aydınlıq gətirmək də diplomatik vizitlərinin məqsədinə aiddir. Səfirdən attaşeyədək səfirliyin bütün diplomatik işçilərinin vizitləri mühüm əhəmiyyət kəsb edir. Diplomatın hər bir viziti siyasi xarakter daşıyır. Müzakirə olunan məsələnin xarakterindən asılı olaraq hər bir diplomatik nümayəndə öz hökümətinə diplomatik vizitlər və onun nəticələri haqda müəyyən olunmuş qaydada məlumat verməlidir.

Diplomatik vizitlər ***protokol*** və ***işgüzar vizithrə*** bölünürlər. Bəzi diplomatik vizitlər diplomatik işçi üçün məcburidirlər və rəsmi vizitlər hesab olunurlar. Onlar yerli protokol ilə müəyyən olunur.

***Protokol vizitləri*** səfirlərin etimadnamələrini təqdim etdikdən sonra və diplomatik nümayəndəliklərin diplomatik əməkdaşlarının təyin olunduqları ölkəyə gəlişindən sonrakı vizitləri hesab olunur. Etimadnamə təqdim etdikdən sonra səfir birinci olaraq ölkənin rəsmi şəxslərinə, eləcə də diplomatik korpusun onun dövləti ilə diplomatik münasibətlər saxladığı ölkələrin diplomatik nümayəndəlik başçılarına vizitlər edir. Dövlət başçısı və xarici işlər nazirinə vizitlərlə yanaşı səfir, bir qayda olaraq hökümət başçısına, parlamentə, nazirlərə, ictimai xadimlərə vizitlər edir. Bəzi ölkələrdə təzə gəlmiş səfirin görüşəcəyi rəsmi şəxslərin siyahısı və görüşlərin ardıcıllığı müəyyən olunmuşdur. Bu siyahı haqda yerli protokol tərəfindən səfirliyə məlumat verilir. Səfirin görüşmək istədiyi şəxslərin siyahısı onun göstərişi ilə səfirliyin protokol xidməti tərəfindən tərtib olunur və səfirliyin akkreditə olunduğu ölkənin xarici işlər nazirliyinin protokol şöbəsinə göndərilir. Nazirlik bu vizitlərin təşkil olunmasında səfirə lazımi köməklik göstərir.

Diplomatik korpusda diplomatik vizitləri səfir bir qayda olaraq duayenin (Diplomatik korpusun duayeni) görüşünə getməklə

etdikləri ölkənin qüdrətini və zənginliyini nümayiş etdirmək üçün bərbəzəkli libaslar geyər, hətta zinət əşyalarından da geniş istifadə edərdilər. Feodalizm dövründə dəbdə olan belə diplomatik geyim formalarında, həm də milli kolorit büruzə verilərdi. Keçmiş SSRİ- də də diplomatlar xüsusi formadan istifadə edirdilər. Bu gey'midən əsasən etimadnamənin təqdim edilməsində, milli bayramların keçirilməsində, mühüm görüşlərdə istifadə edilirdi. Bir sıra Afrika və Asiya ölkələrində diplomatik uniforma kimi milli geyimlərdən indi də istifadə olunur. İranda İslam inqilabının qələbəsindən sonra bu ölkənin diplomatları yaxalıqlı köynək və qalstukdan imtina etmişlər. Hind diplomatları diplomatik uniforma kimi öz milli geyimlərindən (kişilər uzun ağ köynək, qadınlar saridən) istifadə edirlər. Özbək və tacik diplomatları rəsmi mərasimlərə milli təsəkdə və çəpəndə gəlirlər.

DİPLOMATİK VİZA. Xarici işlər nazirliyinin müvafiq idarəsi, diplomatik nümayəndəlik və konsul idarəsi tərəfindən diplomatik şəxs olduqları təsdiq olunan şəxslərin pasportlarında edilən xüsusi qeyddir. Hökümətin üzvləri və yüksək vəzifəli dövlət adamları, beynəlxalq konfranslara gedən nümayəndələr, fövqəladə diplomatik missiya ilə göndərilən şəxslər, xarici işlər idarəsinin rəsmi məqsədlər üçün ezam edilən diplomatları, diplomatik kuryerlər və s. diplomatik şəxslər hesab olunurlar. Diplomatik viza almaq hüququ olanlara şəxsi işləri ilə əlaqədar xaricə qetmək istədikdə, beynəlxalq nəzakət qaydalarına uyğun olaraq diplomatik viza verilir. Bəzən diplomatik pasportu olmayanlara da lütfkarlıq əlaməti kimi diplomatik viza verilir,

DİPLOMATİK VİZİTLƏR. Diplomatın gəldiyi ölkənin rəsmi, ictimai və işgüzar dairələri münasibətlərin, eləcə də diplomatik korpusla şəxsi əlaqələrin yaradılması vasitəsidir. Diplomatik vizitlər diplomatik işin fəal formasıdır və müvəffəqiyyətini təmin edir. Diplomatik vizitlərin mahiyyəti diplomatın gəldiyi ölkədə öz ölkəsinin maraqlarını təmsil etməkdən və qorumaqdan.

müşahidə olunub. Məs., İranda şahlıq rejimindən narazı və müxalifətdə olan qüvvələr təqib və repressiyadan qorunmaqdan ötrü İngiltərənin və Rusiyanın Tehrandakı .səfirliklərinə yığışırdılar (buna İranda “bəstə oturma” (deyilirdi). Sığınacaq hüququndan hətta İran şahı da bəhrələnib. 1905-11 il Məşrutə inqilabı zamanı inqilabçılardan qorunmaq üçün İran şahı Məhəmmədəli Rusiya konsulluğunda sığınacaq tapmışdı.

Latın Amerikası ölkələri istisna olmaqla, əksər dövlətlər diplomatik nümayəndəliklərinin binalarından sığınacaq kimi istifadə etməyi qəbul etmirlər.

Latın Amerikasında bu məsələ ilə bağlı normativ aktlar qəbul olunsa da, onlardan istifadədə ziddiyyətli situasiyalar üzə şıxır. Universal xarakterli beynəlxalq müqaviulə və sənədlərdə diplomatik sığınacaq məfhumu ümumiyyətlə tanınmır. 1961 il Vyana konvensiyasında qeyd edilir ki, diplomatik nümayəndəliyin binalarından diplomatik münasibətlərə aidiyyəti olmayan məqsədlər üçün istifadə olunması yolverilməzdir. Azərbaycan Respublikası diplomatik sığınacaqı qəbul etmir.

**DİPLOMATİK TƏMASLAR.** Dövlətlərin rəhbər xadimləri, yaxud xüsusi səlahiyyətlərə malik şəxsləri arasında fərdi əlaqələr diplomatik təmaslara aiddir.

Diplomatik təmaslar dövlət başçıları, xarici işlər nazirləri, diplomatik və digər rəsmi şəxslər arasında saxlanılır. Təcrübədə diplomatik təmaslar dövri görüşlər, diplomatik konfranslar, səfərlər, danışıqlar və diplomatik qəbullar yolu ilə həyata keçirilir.

**DİPLOMATİK UNİFORMA.** Diplomatların daha təntənəli mərasimlərdə (Etimadnamənin təqdim olunması, milli bayramlar münasibətilə qəbullar keçirilməsi, dövlət başçısının audensiyası və s. zamanı) istifadə etdikləri xüsusi geyim formasıdır.

Diplomatiyanın özü kimi diplomatik uniformanm də qədim tarixi vardır. Hər ölkənin özünəməxsus diplomatik geyim növü olmuşdur. Orta əsrlərdə xarici ölkələrə göndərilən səfirlər təmsil

Bu mənada o, xristian (katolik) ölkələrdə diplomatik korpusun daimi duayeni sayılır.

Diplomatik nümayəndələrlə qəbul edən ölkənin dövlət rəsmiləri arasında öncüllük məsələsində beynəlxalq təcrübəyə əsasən belə bir qayda gözlənilir ki, diplomatik nümayəndəliklərin başçıları protokol tədbirlərində öz dövlət başçılarının təmsilçiləri olduqlarından bilavasitə qəbul edən dövlətin başçısının ardınca gəlirlər. Beynəlxalq nəzakət ənənələrinə görə, xarici səfirlər öz yerlərini baş nazirə və xarrici işlər nazirinə könüllü güzəştə gedirlər.

Nəzərdə tutulan diplomatik nümayəndəliyin işçi heyəti üzvlərinin öncüllüyü müvafiq ölkənin qaydaları ilə müəyyən edilir. Diplomatik dərəcələr nəzərə alınmaqla, səfirlik işçilərinin öncüllüyü müvafiq olaraq səfir, müşavir - elçi, hərbi attaşe, birinci katib, ikinci katib, üçüncü katib, attaşe rütbələri ilə müəyyən olunub.

**DİPLOMATİK POÇT.** Dövlətlə (adətən, xarici işlər idarəsilə) onun xaricdəki diplomatik nümayəndəlikləri arasında ən mühüm və geniş yayılan rabirə növlərindən biri. Barəsində xüsusi rejim müəyyən edilən diplomatik poçt vasitəsilə rəsmi məktublaşmalar, sənədlər və xidməti istifadə üçün nəzərdə tutulan əşyalar çatdırılır. Onlar ağzı bağlı, sürğuc möhürlü, yaxud da müəyyən olunmuş qaydada plomblanan zahirən görünən təyinat əlamətlərinə malik tutarlarda (çanta, kisə, paket, konvert və s.) - diplomatik valizada (fr. valise - çemodan) qablaşdırılır. Hər valiza diplomatik poçtda ayrıca yer tutur və istər bu iş üçün xüsusi müvəkkil olunan şəxsin müşayiətilə, istərsə də müşayiətsiz, adi rabitə kanalları ilə çatdırıla bilər.

Diplomatik poçt açıla və saxlanıla bilməz, bütün növ rüsumlardan azaddır. Diplomatik poçt və diplomatik kuryer barədə bu və ya digər mühüm müddəalar diplomatik əlaqələrə dair 1961 il Vyana konvensiyasında təsbit edilib.

**DİPLOMATİK SIĞINACAQ.** Diplomatik nümayəndəliklərin və konsul idarələrinin binalarında sığınacaq (diplomatik sığınacaq) verilməsi XVI - XVII əsrlərdə dövlətlərin təcrübəsində

olaraq kəsilmədikdə, eləcə də diplomatik nümayəndə persona non qrata elan edilmədikdə, diplomatik nümayəndəlik başçısının geri çağırılması dövlət başçısına geri çağırılma sənədi təqdim etmək yolu ilə rəsmiləşdirilir. Daimi işlər müvəkkilinin geri çağırılması isə diplomatik nümayəndənin olduğu ölkənin Xarici İşlər nazirinə öz dövlətinin Xarici İşlər nazimin müvafiq məktubunu təqdim etməklə rəsmiləşdirilir.

Diplomatik nümayəndənin persona non qrata elan edilməsi qaydasına praktikada az hallarda rast gəlinir, bu müvafiq dövlətlər arasında ciddi çətinliklərə səbəb olur. Adətən diplomatik nümayəndənin persona non qrata elan edilməsi haqda diplomatik nümayəndəni təyin edən dövlətin Xarici İşlər Nazirliyinə şifahi şəkildə məlumat verilir.

**DİPLOMATİK ÖNCÜLLÜK.** Diplomatik protokolun ən mühüm qaydalarından biridir. Açıq keçirilən tədbirlərə dəvət alan diplomatik korpusun kollektiv öncüllüyünə, diplomatik nümayəndəliklərin başçıları arasında öncüllüyə, qəbul edən ölkənin diplomatik nümayəndələri və rəsmiləri arasında öncüllüyə, həmin diplomatik nümayəndəliyin diplomatlar arasında öncüllüyə münasibətdə bu qaydaya riayət mərasimə dəvət olunan diplomatik korpusa həmin tədbirdə, yaxud mərasimdə iştirak edən dövlət başçısının və ya hökümət başçısının bilavasitə yaxınlığında fəxri yer ayrılır. Diplomatik nümayəndəliklərin hər hansı dərəcədən olan başçıları arasında öncül təyin edilməsində yerli təcrübədən asılı olaraq diplomatik nümayəndəni qəbul edən ölkəyə gəlmə tarixi, yaxud Etimadnaməsini təqdim olunma tarixi əsas götürülür.

Diplomatik əlaqələrə dair 1961 il Vyana Konvensiyasının 14-cü maddəsinin 2-ci bəndində deyilir: "Nümayəndəlik başçıları arasında rütbə böyüklüyü və etiketdən başqa, bu və ya digər sinfə mənsub olduğuna görə heç bir fərq qoyulmamalıdır". Bu mühüm qaydanın pozulması diplomatik nümayəndələrin ləyaqətinə toxuna bilər və ayrı - seçkilikdə ittiham üçün əsas olar. Bəzi ölkələrdə nunsi (papa səfiri) ənənəyə görə digər səfirlərdən əvvəl öncül olur.

notaya cavab olaraq göndərilir. Belə nota imza edən şəxsin adından birinci şəxsdə (məsələn, ...bildirirəm ki, ...nəzərinizə çatdırıram və s.) tərtib olunmuş məktub formasında olur, nota blankında çap edilir, üstündə ünvan göstərilir, möhür qoyulur. Diplomatik praktikada çox vaxt ***verbal nota*** istifadə olunur. Verbal nota o qədər də rəsmi xarakter daşımır və nisbətən ikinci dərəcəli məsələləri əhatə edir. Verbal nota üçüncü şəxsdə (...hesab edir ki, ...nəzərə çatdırır ki, və s.) yazılır.

***Şəxsi nota nümunəsi***

**Gerb.**

**Göndərildiyi yer. Tarix, ay, il.**

**M Ə T N**

**(müraciət formulu)**

tlnvan: ----------------------------------------------------
Rəsmi tutduğu vəzifə, şəxsi imza (qara mürəkkəblə) Titullar, ad və soyad.

## DİPLOMATİK NÜMAYƏNDƏNİN GERİ ÇAĞIRILMASI

Diplomatik nümayəndə aşağıdakı hallarda geri çağırıla bilər:

a) diplomatik nümayəndənin digər vəzifəyə keçirilməsi ilə, xəstəliyi ilə, istefaya getməsi ilə əlaqədar olaraq öz hökümətinin təşəbbüsüdə;

b) diplomatik nümayəndəni qəbul edən ölkənin təşəbbüsü ilə diplomatik nümayəndə persona non qrata elan edildikdə;

c) diplomatik münasibətlər pozulduqda və ya müvəqqəti olaraq kəsildikdə.

Diplomatik münasibətlər pozulmadıqda və ya müvəqqəti

orqanların işinə, eləcə də beynəlxalq təşkilatların qərarlarının və müqavilələrinin yerinə yetirilməsinə nəzarət etmək üçün göndərilən şəxslərdir. Diplomatik müşahidəçilər səlahiyyətləri prosedur qaydaları ilə müəyyən olunur. Beynəlxalq münasibətlərdə ABŞ tərəfindən birinci dünya müharibəsindən sonra tətbiq edilməyə başlamışdır. Dövlətlər bu və ya digər prinsipial mövqe baxımından və ya hər hansı məsələdə cavabdehlik daşımaq istəmədikdə beynəlxalq konfrans və toplantılarda rəsmi şəkildə iştirak etmir və müşahidəçilər göndərirlər. Müşahidəçilərin olması göstərir ki, önu göndərən dövlət müzakirə olunan məsələ ilə maraqlanır, ona dair qərara təsir göstərmək və ya bilavasitə informasiya almaq istəyir. Diplomatik müşahidəçilər tamhüquqlu iştirakçılardan fərqli olaraq qərarlar qəbul olunmasında, işçi orqanların təşkili və fəaliyyətində, səsvermədə və s. iştirak edə bilmir. Lakin onlara bir qayda olaraq müzakirə olunan məsələlər üzrə çıxış etmək və təkliflər vermək imkanı verilir. Hər hansı bir təşkilatın üzvü olmadan bir sıra təşkilatlar və o cümlədən BMT yanında onun işinə nəzarət etmək arzusunda olan dövlətlərin praktik tələbatına görə daimi nəzarətçilər qurumu, yaxud müşahidəçilər qrupu yaradılmışdır.

**DİPLOMATİK NOTA.** (lat. nota - yazılı işarə). Diplomatik yazışma sənədinin bir növüdür. Diplomatik nümayəndəlik və ya Xarici İşlər İdarəsi başçılarının öz adından, hökümətləri adından, bəzən isə dövlət başçıları adından göndərdikləri və beynəlxalq sənəd hesab olunan rəsmi yazılı sənəddir. Hökümət başçıları və ya dövlət başçıları tərəfindən imzalanmış müraciət diplomatik nota deyil, namə və ya məktub adlanır. İki cür diplomatik nota vardır;

(imzalanmış) və nota. ***Şəxsi nota*** diplomatik nümayəndəlik başçısı tərəfindən xarici işlər idarəsindən ya da xarici işlər idarəsinin başçısı tərəfindən xarici səfirliyə göndərildikdə imzalanır. Şəxsi nota adətən mühüm və prinsipal əhəmiyyətli məsələlərə aid olur və ya hər hansı hadisə ilə bağlı rəsmi informasiya qaydasında, eləcə də diplomatik nümayəndəliyin yerləşdiyi ölkədə diplomatik protokolun müəyyən olunmuş tələblərinə uyğun şəkildə və ya şəxsi

yerləşdiyi dövlət diplomatik imtiyaz və toxunulmazlıq hüququndan istifadə edən və bu dövlətin vətəndaşı olmayan səfirlik və ya missiya əməkdaşlarını, eləcə də bu şəxslərin vətəndaşlığından asılı olmayaraq ailə üzvlərinin mümkün gədər tez ölkədən getməsi üçün zəruri olan köməyi göstərməlidir. 1961 il Vyana konvensiyasına görə diplomatik nümayəndəliyin yerləşdiyi ölkə lazım gəldikdə nümayəndəlik üzvlərinin sərəncamına onlar və onların əmlakı üçün tələb olunan daşıma vasitələri verməlidir.

Diplomatik münasibətlərin kəsilməsi öz aralarında diplomatik münasibətləri kəsmiş ölkələri beynəlxalq praktikada "himayəçi dövlət" adlanan hər hansı üçüncü ölkənin diplomatik nümayəndəliyi vasitəsilə bəzi, adətən cari məsələlərə dair əlaqə saxlamaq imkanlarından məhrum etmir. Dövlət öz maraqlarını və vətəndaşlarının maraqlarını belə halda üçüncü dövlətə etibar edə bilər. Diplomatik münasibətlərin kəsilməsi zamanı səfirlik və ya missiya, onların əmlakı və arxivləri ilə birlikdə üçüncü dövlətə etibar oluna bilər. Diplomatik nümayəndəliyin yerləşdiyi dövlət öz tərəfindən üçüncü - himayəçi dövlətin üzərinə götürdüyü vəzifələrdən asılı olmayaraq, diplomatik münasibətlərin kəsilməsi zamanı geri çağırılan nümayəndəliyin binası, onun əmlakı və arxivləri ilə birlikdə qorumağa və hörmət etməyə borcludur. Diplomatik münasibətlərin kəsilməsi özlüyündə maraqlı olan dövlətlər arasında müqavilələrin fəaliyyətinə toxunmur. Diplomatik münasibətlərin kəsilməsindən sonra diplomatik münasibətlərin bərpa olunmasımaraqlı olan dövlətlərin razılığı əsasında həyata keçirilir. Müasir beynəlxalq təcrübədə diplomatik münasibətlərin kəsilməsi qeyri-hərbi sanksiya növlərindən biri ola bilər. BMT Nizamnaməsinin 41-ci maddəsinə görə BMT Təhlükəsizlik Şurası öz hərəkətləri ilə sülhü pozan və sülhə təhlükə yaradan dövlətə qarşı bu metoddan istifadə etmək hüququna malikdir. Konsul əlaqələrinə dair 1963-cü il Vyana Konvensiyasına görə də diplomatik münasibətlərin kəsilməsi faktı müharibə vəziyyəti istisna olunmaqla konsul münasibətlərinin kəsilməsinə səbəb olmur.

**DİPLOMATİK MÜŞAHİDƏÇİLƏR.** Dövlət və ya beynəlxalq təşkilatlar tərəfindən beynəlxalq konfransların, təşkilatların və

formasıdır.

Diplomatik münasibətlər dövlətlər arasında dostluq əlaqələrinin inkişafına, sülhün və beynəlxalq təhlükəsizliyin saxlanmasına xidmət etməlidir. Diplomatik əlaqələrə dair 1961 il Vyana Konvensiyasına müvafiq olaraq, dövlətlər arasında diplomatik münasibətlər qarşılıqlı razılıq əsasında həyata keçirilir. Bu istiqamətdə ilk addım, bir qayda olaraq, bu və ya digər dövlətin və onun hökümətinin başqa dövlət tərəfindən tam, yaxud de-yure tanınmasıdır (beynəlxalq-hüquqi tanınma). Diplomatik münasibətlərin qurulması bu işdə maraqlı olan dövlətlərin arasında bilavasitə aparılan danışıqlar yolu ilə, yaxud üçüncü dövlətin diplomatik nümayəndələri vasitəsilə həyata keçirilir, dövlət başçıları və hökümət başçıları, xarici işlər nazirliyi, yaxud xüsusi salahiyyətli şəxslər arasında müraciətlər, teleqramlar, məktublar, notalar şəklində təsdiq edilir. Tərəflər diplomatik münasibətlərin qurulması, diplomatik nümayəndəliklərin səviyyəsi (səfirlik və s.), sazişin qüvvəyə minmə tarixi, onun dərc olunma vaxtı və qaydası barədə razılığa gəlirlər.

**DİPLOMATİK MÜNASİBƏTLƏRİN KƏSİLMƏSİ. Hər** hansı dövlətin təşəbbüsü ilə həyata keçirilən və digər dövlətlə diplomatik kanallar vasitəsilə birbaşa əlaqələrin qarşılıqlı şəkildə səfirlik və ya diplomatik missiyaların geri çağırılması ilə müşayət olunan rəsmi aktdır.

Diplomatik münasibətlər müharibə vəziyyəti yarandıqda, bir dövlətin digər dövlətə qarşı düşmənçilik siyasəti, diplomatik nümayəndəliyin normal fəaliyyətinə mane olan hər hansı hərəkətlərin baş verməsi üzündən və ya başqa səbəblər olduqda kəsilə bilər. Diplomatik nümayəndəliyin geri çağırılması faktı öz - özlüyündə, əgər bu barədə geri çağıran dövlətin müraciətində birbaşa heç nə deyilmirsə, diplomatik münasibətlərin kəsilməsi demək deyil. Dövlətlər arasında müharibə vəziyyətinin yaranması nəticəsində diplomatik münasibətlər mütləq kəsilir. Diplomatik münasibətlərin kəsilməsi həmişə diplomatik nümayəndəliyin geri çağırılması ilə müşayət olunur. Diplomatik nümayəndəliyin

## İŞTİRAKÇILAR:

**XARICI QONAQLAR:**

**1. Xarici işlər naziri -**
**2. Xarici işlər nazirinin xanımı -**
**3. Səfir**
**4. Səfirin xanımı**
**8. Xarici işlər nazirinin müavini**
**7. Nazir müavininin xanımı**
**9. XİN-nin şöbə müdiri**
**10. Şöbə müdirinin xanımı**
**14. Nazirin köməkçisi**

**QƏBUL EDƏN TƏRƏF: Səfir**
**Səfirin xanımı 6. Müşavir - elçi**
**5. Müşavirin xanımı**
**11. Səfirliyin müşaviri**
**12. Müşavirin xanımı**
**13. Birinci katib 16.**
**İkinci katib 15.**
**Attaşe**

**Nümunə**

**Giriş**




DİPLOMATİK MİSSİYA, (lat. missio - tapşırıq, göndəriş). Diplomatik nümayəndə və ya daimi işlər müvəkkili tərəfindən başçılıq edilən daimi diplomatik nümayəndəlikdir. Həmçinin hər hansı bir ölkəyə ayrıca bir şəxsin və ya nümayəndəliyin öz hökümətinin hər hansı xüsusi birdəfəlik tapşırığını yerinə yetinnək üçün göndərilməsi də diplomatik missiya adlanır.

Diplomatik missiyalar XIX əsrdə əsasən kiçik dövlətlərdə təsis olunmuşdu. 1961-ci il diplomatik əlaqələrə dair Vyana konvensiyası diplomatik missiyalarla səfirlik arasında diplomatik imtiyazlar və toxunulmazlıq hüquqlarına münasibətdə heç bir fərq qoymur.

DİPLOMATİK MÜNASİBƏTLƏR. Beynəlxalq hüququn normalarına və beynəlxalq ünsiyyət praktikasına müvafiq olaraq, dövlətlər arasında rəsmi münasibətlərin saxlanmasının əsas

**DİPLOMATİK QƏBULLAR.** Mühüm hadisələrin və yubiley günlərinin qeyd edilməsi, qəbul edən dövlətin rəhbər şəxslərinə, diplomatik nümayəndələrə, yaxud ölkəyə gələn xarici nümayəndə heyətlərinə ehtiram, yaxud qonaqpərvərlik əlaməti göstərmək, habelə diplomatik nümayəndəliyin funksiyalarını yerinə yetirməklə bağlı keçirilən rəsmi tədbirlərdir.

Diplomatik qəbulların keçirilmə forması və vaxtına görə ***ayaqüstü*** və ***oturaq, gündüz və axşam*** kimi növləri vardır.

Diplomatik qəbulların əsas növləri: '^^***şampan bokair*** - saat 12.0 ilə 13.00 arasında, ayaq üstə keçirilir; səhər yeməyi (lanç) - miz arxasında oturmaqla saat 12.00 ilə 15.00 arasında; ***çay*** - saat 16.0 ilə 18.00 arasında, oturmaq məcburi deyil, sərbəstdir (bir qayda olaraq yalnız qadınlar üçün təşkil olunur); ***“kokteyP*** yaxud “a lya furşet” - 17.00 ilə 18.00 arasında başlayıb təxminən 2 saat, miz arxasında keçirilir ayaq üstə davam edir; ***nahar*** - qəbulun ən ehtiramlı növüdür, adətən 20.00 ilə 21.00 arasında başlanır və əsas qonaq gedənədək 2-2,5 saat davam edir, miz arxasında oturmaqla keçir; ***nahar - bufet*** - naharın bir növüdür, ayrı-ayrı mizlər arxasında 4-5 nəfər oturması ilə keçirilir; ***şam*** yeməyi saat 21.00-da başlayır və əsas qonaq gedənədək oturaq vəziyyətdə keçir. Nahar qəbulundan ancaq başlanma vaxtı ilə fərqlənir.

Diplomatik qəbulun variantları onun hansı səbəbə görə keçirilməsindən asılı olaraq seçilir.

Bəzən diplomatik qəbullarda qarşılıqlı razılaşmaya əsasən müraciət və tost mübadiləsi nəzərdə tutulur.

Ayaqüstü keçən diplomatik ziyafətlərə gəlmək və getmək sərbəstdir, lakin oturaq qəbullara gecikmək nəzakətsizlikdir.

Məsələn, xarici işlər nazirinin şərəfinə nahar verilməsi zamanı qonaqların və səfirlik əməkdaşlarının stol arxasında yerləşdirilməsi aşağıdakı kimi ola bilər.

mərasim (protokol) məsələləri ilə bağlı: təbrik etdikdə, başsağlığı verdikdə və b. hallarda diplomatik korpusun kollektiv çıxışlarına yol verir. Diplomatik korpus adından adətən diplomatik korpusun ***duayeni*** çıxış edir. Duayen bir qayda olaraq öz çıxışlarını diplomatik nümayəndəliklərin başçıları ilə razılaşdırır. Bəzi hallarda diplomatik nümayəndə başçısı diplomatik korpusun bu və ya digər mərasim məsələlərinə dair kollektiv çıxışında iştiraka razılıq vermədən öncə hökümətinin göstərişini almalıdır.

Konsullar və tərcüməçilər diplomatik korpusun üzvü hesab olunmurlar.

**DİPLOMATİK KURYER.** Diplomatik poçtu çatdırmaq tapşırığı alan səxs. Diplomatik münasibətlərə dair 1961 il Vyana Konvensiyasına müvafiq olaraq, diplomatik kuryer şəxsi toxunulmazlıq hüququna malikdir. O, nə həbs edilə, nə də hər hansı şəkildə tutulub saxlanıla bilər. Şəxsin diplomatik kuryer ststusunun tanınmasından ötrü ona rəsmi sənəd verilir. Bu sənəd diplomatik kuryeri göndərən təşkilat tərəfindən lazımi qaydada tərtib edilir və zəruri hallarda mənsub olduğu dövlətin səlahiyyətli hakimiyyət orqanları tərəfindən imzalanır. Akkreditə edən dövlət, yaxud diplomatik nümayəndəlik hər diplomatik poçt üçün ayrıca müvəqqəti diplomatik kuryer təyin edə bilər; müvəqqəti diplomatik kuryerə verilən toxunulmazlıq hüququ diplomatik poçtun təyinatı üzrə çatdırıldığı anadək qüvvədə olur.

Diplomatik poçt təyyarə heyətinin komandirinə həvalə oluna bilər; belə halda heyətin komandirinə rəsmi sənəd verilməlidir. Həmin sənəddə poçtu təşkil edən yerlərin .sayı göstərilir, ancaq komandir diplomatik kuryer hesab olunmur.

Qəbul edən ölkənin müvafiq orqanları diplomatik kuryerə təyinat yerlərinə maneəsiz getməkdə və apardıqları diplomatik poçtu qorumaqda hərtərəfli kömət göstərirlər.

yəndəliklərə daxil olan bütün diplomatik işçilər, yəni müşavirlər, birinci, ikinci və üçüncü katiblər, səfirlik və missiya attaşeləri; ticarət nümayəndələri və onların müavinləri, hərbi, hərbi - dəniz və hərbi - hava attaşeləri və bu attaşelərin köməkçiləri; xüsusi müşavirlər və xüsusi attaşelər (sənaye, kənd təsərrüfatı, iqtisadi, ticarət, maliyyə, mətbuat, mədəniyyət, elm, əmək İşləri üzrə) nəzərdə tutulur. Diplomatik korpusa diplomatik işçilərin ailə üzvləri - həyat yoldaşları, həddi-büluq yaşına çatmamış oğulları və ərdə olmayan qızları da aiddir. Yerləşdiyi ölkə hökuməti tərəfindən diplomat kimi tanınmasının təsdiqi olaraq həmin ölkənin xarici işlər idarəsi diplomatik işçilər və onların aİlə üzvlərinə diplomat kartoçkası verilir. Təbiidir ki, diplomatı diplomatik işçi kimi hər şeydən əvvəl aid olduğu dövlətin hökuməti ona diplomatik pasport verməklə tanımalıdır. Əgər diplomatik işçinin vəzifəsi diplomatik işçilərin ümumi qəbul edilmiş nomenklaturasına və ya diplomatik korpusda ənənəyə görə mövcud olan işlər nomenklaturasına uyğun gəlməzsə, diplomatik nümayəndənin gəldiyi ölkənin Xarici İşlər İdarəsi bu şəxsləri diplomat kimi tanımaqdan imtina edə bilər. Xarici İşlər İdarəsi müntəzəm olaraq diplomatik korpusun məlumat kitabçasını nəşr edir. Burada müvafiq səfirlik və diplomatik missiyalarda qruplaşmış diplomatik işçilərin soyadları, ünvanları, xidməti və ev telefonları göstərilir.

Diplomatik korpus beynəlxalq hüququn hər hansı normasına əsaslanan qurum, eləcə də hüquqi şəxs statusuna malik siyasi birlik və təşkilat deyildir.

Diplomatik korpus dövlətlərin diplomatik nümayəndələrinin müvəffəqiyyətli fəaliyyətini, onlar arasında qarşılıqlı anlaşmanı təmin edən vasitədir. Diplomatik korpusun yerləşdiyi dövlətin daxili işlərinə qarışmaq hüququ yoxdur. Diplomatik praktika tarixində elə hallar olmuşdur ki, diplomatik korpus olduğu dövlətin hökuməti qarşısında özünə birlik kimi kollektiv çıxış etmək hüququ vermişdi. Hal-hazırda heç kim diplomatik korpusun onun yerləşdiyi ölkənin hökuməti qarşısında dövlətin səlahiyyətlərinə aid məsələlərə dair kollektiv çıxış etmək hüququna iddia etmir. Beynəlxalq praktika

fəaliyyəti ilə məşğul olmasına dair iddialar olduqda.

Diplomat şahid sifətində məhkəmədə ifadə verə bilməz. Diplomatın olduğu ölkənin yurisdiksiyasından toxunulmazlıq hüququ onu akkreditə edən (Akkreditə etmək) dövlətin yuris- diksiyasından azad etmir.

Diplomatın bütün şəxsi əmlakı dövlət, rayon, bələdiyyə vergilərindən və rüsumlarından azaddır. Lakin diplomat xidmətin və malların qiymətinə daxil olan dolayı vergiləri, olduğu dövlətdə əgər xüsusu gəliri olsa, bu gəlirə aid vergiləri ödəməlidir. Diplomat gömrük immunitetindən istifadə edİr. Onun şəxsi istifadəsi üçün nəzərdə tutulmuş əşyalara və şəxsi baqajına baxış keçirilə bilməz. Əgər şəxsi baqajda ölkəyuə gətirilməsi və aparılması qadağan olan əşyaların olmasına ciddi əsas olarsa, diplomatın iştirakı ilə bağlı baqaj açıla bilər.

Diplomatik nümayəndəliyin ***ikinci (hrəcəli əməkdaşları*** sırasına inzibati texniki heyət daxildir. Bu heyət mühasiblərdən, şif- rəçİərdən, dəftərxana işçilərindən, tərcüməçilərdən ibarətdir. Vyana konvensiyası inzibati - texniki heyət və onun ailə üzvlərini bəzi vacib istisnalar olmaqla, diplomatik heyətlə eyni .səviyyədə tutur. Xidməti işlə bağlı olmayan hərəkətlərə mülki və inzibati yurisdlksiya- dan toxunulmazlıq hüququ aid edilmir. Bu heyət əşyaları gömrüksüz ölkəyə gətirə bilərlər, lakin gömıük nəzarətindən azad olunmurlar.

***Üçüncü kateqoriyam*** xidməti heyət təşkil edir ki, bura aşbazlar, bağbanlar, mühafizəçilər, sürücülər və s. daxildirlər. Bu heyət üzvləri öz xidməti vəzifələrinin icrası zamanı immunitetlərdən istifadə edə bilərlər və əgər olduqları ölkənin vətəndaşları deyil- lərsə, əmək haqqına olan vergilərdən azad olunurlar.

**DİPLOMATİK KORPUS.** Məlum ölkədə akkreditə olunmuş xarici diplomatik nümayəndəliklər başçılarının məcmüsudur. Bunlar .səfirlər, eçılər, daimi işlər müvəkkili, müvəqqəti işlər vəkilləri; eləcə də Vatikanın diplomatik nümayəndəliklərinin başçıları olan nunsilər və internunsilərdir. Diplomatik korpus anlayışı çox vaxt daha geniş mənada istifadə olunur. Diplomatik korpus dedikdə diplomatik nümayəndəlik başçılarından başqa diplomatik nüma-

avtomüfəttişliyin yol hərəkət qaydalarını pozma hallarım qeyd etmək və onlar haqda xarici işlər nazirliyinə məlumat vermək hüququnu istisna etmir. Nəqliyyat vasitələrinin toxunulmazlığı hüququ, sürücüyə, əgər o, diplomat olmazsa, aid olunmur.

Nümayəndəliyin arxivləri və sənədləri yerləşmə yerindən asılı olmayaraq, onların müvəqqəti saxlanılma yerləri də daxil olmaqla toxunulmazdır. Bu qayda diplomatik əlaqələr pozulduğu hallarda da qüvvəsini itirmir.

Diplomatik nümayəndəlik bina ilə bağlı bütün vergilərdən azad olunur (flskal immunitet), lakin istismar xərclərində-elektrik enerjisi, su təhcizatı və s. azad olunmur. Nümayəndəlik rəsmi istifadə üçün nəzərdə tutulmuş əşyalara gömrük vergisindən azad olunur (Gömrük immuniteti).

Diplomatik nümayəndələrin dövlət qerbindən və bayrağından, telefon və teleqraf əlaqəsindən istifadə etmək hüququ vardır. Nümayəndəlik rəsmi məqsədlər üçün şifrələrdən istifadə də daxil olmaqla öz əlaqələrində azaddır. Diplomatik poçt açıla bilməz, onu müşayət edən diplomatik kuryerlər şəxsi toxunulmazlıq hüququna malikdirlər.

Nümayəndəlik personalına immunitetlərin verilməsi bu personalın hansı əməkdaşlıq kateqoriyasına aid olmasından asılıdır. Diplomat dərəcəsinə malik şəxslər tam diplomatik immunitetlərdən istifadə edirlər. Onlar şəxsi toxunulmazlıq hüququna malikdirlər və həbs oluna, tutulub saxlanıla bilməzlər. Diplomatın olduğu ölkə onun təhlükəsizliyini təmin edir. Diplomatın yerləşdiyi bina, hətta müvəqqəti olaraq yerləşdiyi yer, əmlakı toxunulmazdır.

Diplomat, olduğu dövlətin cinayət, inzibati və mülki yıirisdiksiyadan immunitetə malikdir. Diplomat rəsmi şəxs kimi çıxış etmədikdə mülki yurisdiksiyasiyadan toxunulmazlıq hüququ məhdudlaşır. Bu aşağıdakı hallarda baş verir: diplomatın xüsusi daşınmaz əmlakına dair mülkiyyət iddiaları baş verdikdə; diplomatın vəsiyət icraçısı, miras əmlak, varis üzərində qəyyum kimi xüsusi şəxs olaraq çıxış etdiyi vərəsəliyə dair iddiaları olduqda; diplomatın şəxsi məqsədlər üçün peşə və kommersiya

Havanada 14 Latın Amerikası dövləti lokal xarakterli diplomatik məmurlara dair konvensiya qəbul etdi. 1958 ildə BMT-nin Beynəlxalq hüquq komissiyası beynəlxalq hüquq sahəsində kodifikasiya ilə məşğul olaraq diplomatik əlaqələr və immunitetlər haqda konvensiya layihəsini işləyib BMT-nin Baş Assambleyasının sərəncamına verdi. 18 aprel 1961 ildə diplomatik əlaqələrə dair Vyana konvensiyasında və 1975-ci ildə dövlətlərin universal xarakterli beynəlxalq təşkilatlarla münasibətlərində təmsil olunması haqda Vyana konvensiyasında qəti olaraq diplomatik imtiyazlar və immunitetlər müəyyən olundu. Beynəlxalq təşkilatların nizamnamələrində, bir sıra çoxtərəfli konvensiyalarda və ikitərəfli sazişlərdə beynəlxalq təşkilatların imtiyaz və immunitetləri, ikitərəfli konsul konvensiyalarında isə adətən konsul imtiyaz və immunitetləri müəyyən olunmuşdur. Müasir dövrdə diplomatik imtiyazlar və toxunulmazlıq bu sənədlər əsasında tənzimlənir.

Dövlətlər arasında münasibətləri nizamlayan bütün beynəlxalq hüquqi sənədlər aşağıdakı mühakimələrə əsaslanır.

Diplomatik imtiyazlar və toxunulmazlıq şəxsi mənafe üçün deyil, diplomat və diplomatik nümayəndəliklərə onların funksiyalarım səmərəli həyata keçirilməsini təmin etmək üçün verilir.

Diplomatik imtiyazlar və toxunulmazlıq hamıya eyni dərəcədə, qarşılıqlı prinsipi əsasında, ayrı-seçkilik edilmədən verilir.

Diplomatik imtiyazlar və toxunulmazlıq iki qrupa bölünür: diplomatik nümayəndəliklərin imtiyaz və immunitetləri və diplomatik nümayəndəlik başçılarının və heyətinin şəxsi toxunulmazlıq hüquqları və imtiyazları.

Diplomatik nümayəndəliyin binası toxunulmazdır. Nümayəndəlik yerləşən dövlətin hakimiyyət orqanları ancaq diplomatik nümayəndəlik başçısının razılığı olduqdan sonra binaya daxil ola bilərlər. Eyni zamanda onlar nümayəndəlik binasının müdaxilədən və ya zərərli hallardan qorunması üçün noımal şəraiti təmin etməlidirlər. Toxunulmazlıq hüquqi nəqliyyat vasitələrinə - gəmilərə, avtomobillərə, təyyarələrə də aiddir. Onlar təftiş edilə, axtarışa, həbsə və məcburi hərəkətlərə məruz qala bilməz. Bu

görüşlərdən sonra diplomatik nümayəndə ictimaiyyətin, işgüzar dairələrin, mətbuatın, elm və mədəniyyətin tanınmış nümayəndələri ilə görüşlər təşkil edir.

Diplomatik ümayəndənin missiyası başa çatmazdan qabaq, adətən. Protokol idarəsinə görüşə gedir, vida görüşlərinin keçirilmə qaydalarını aydınlaşdırır, ölkədən getməsilə bağlı tədbirlərlə tanış olur, qəbul edən ölkənin rəsmiləri ilə rəsmi vida görüşləri keçirir.

DİPLOMATİK İMTİYAZLAR VƏ TOXUNULMAZLIQ HÜQUQLARI (İMMUNİTETLƏRİ). Xarici diplomatik nümayəndəliklərə, diplomatik missiyalara, bu nümayəndəliklərin başçılarına və əməkdaşlarına, beynəlxalq hökümətlərarası təşkilatlar yanında nümayəndəliklərinə verilən hüquqlar və intiyazlardır. Diplomatik imtiyazlar və toxunulmazlıq xarici dövlətlərin diplomatik nümayəndəliklərinin və ya beynəlxalq təşkilatlarının beynəlxalq hüquqla nəzərdə tutulmuş vəzifələrinin onların olduqları dövlətdə səmərəli həyata keşirilməsini təmin etmək üçün verilir.

Diplomatik imtiyazlar və toxunulmazlıq müxtəlif tarixi dövrlərdə müəyyən sənədlərdə təsbit olunmuşdur. 19 mart 1815 il Vyana konqresinin və 21 noyabr 1818 il Aahen konqresinin protokolları ilə müəyyən olunmuş qaydalar uzun müddət beynəlxalq hüququn adi ümumi qəbul olunmuş normaları olmuşlar. XIX əsrin II yarısından diplomatik imtiyazlar və toxunulmazlığa dair normaların ayrı-ayrı şəxslər və beynəlxalq təşkilatlar tərəfindən kodifikasiyasına çoxlu cəhdlər olunmuşdur. Bunlara misal olaraq 1868 ildə Biyuntqli, 1890 ildə Fiore, 1926 ildə Ştruppun kodekslər layihələrini, 1895 ildə Beynəlxalq Hüquq institutu tərəfindən diplomatik imtiyazlar haqda Reqlamenti, 1929 ildə diplomatik immunitetlər haqda Qətnaməni, 1932 ildə Harvard universiteti tərəfindən hazırlanmış diplomatik imtiyazlar və immunitetlər haqda konvensiya layihəsini göstərmək olar.

Millətlər Cəmiyyəti çərçivəsində 1925-1927 illər dövründə səfirlik hüququnun rəsmi kodifikasiyasına hazırlıq üzrə bəzi işlərə başlanılsa da, bu iş davam etdirilmədi. 20 fevral 1928 ildə

ifadələr işlədilməməlidir.

DİPLOMATİK ƏLAQƏLƏR. Dövlətlərin rəhbər işçiləri və xüsusi səlahiyyətli şəxslərinin əlaqələridir. Diplomatik əlaqələri dövlət başçıları, hökümət başçıları, xarici işlər nazirləri, diplomatik nümayəndəliklər qoruyub saxlayırlar. Praktikada diplomatik əlaqələr diplomatik konfransların (beynəlxalq konfranslar), vizitlərin (diplomatik vizitlər), diplomatik qəbulların və s. gedişatında vaxtaşırı görüşlər yolu ilə həyata keçirilir.

Ölkələrarası qarşılıqlı anlamın və əməkdaşlığın inkişafında əsas yeri yüksək səviyyədə görüşlər tutur. Bu cür görüşlərin nəticələri çox zaman ikitərəfli münasibət çərçivəsindən kənara çıxır və beynəlxalq şəraitə müsbət təsir göstərir.

DİPLOMATİK GÖRÜŞLƏR. Qəbul edən ölkənin rəsmi. İctimai, işgüzar dairələrinin bu ölkədəki diplomatik korpusla əlaqələr yaradıb saxlamağın və inkişaf etdirməyin mühüm vasitəsidir. Rəsmi xarakter daşıyan və icrası məcburi olan belə görüşlərə diplomatik nümayəndənin Etimadnaməni təqdim etməzdən qabaq və sonrakı görüşləri aid edilir. Qəbul edən ölkəyə yeni gələn diplomatik nümayəndə Xarici İşlər Nazirliyi Protokol idarəsinin rəisilə görüşündə akkreditə qaydasım və yerli protokol praktikasını özü üçün aydınlaşdırır. Xarici işlər nazirinin görüşündə olarkən diplomatik nümayəndə öz etimadnaməsini, özündən əvvəlki nümayəndənin geri çağırılma fərmanının surətlərini ona təqdim edir və etimadnaməni təqdim etməkdən ötrü dövlət başçısı tərəfindən qəbul olunmasını (diplomatik audensiya) xahiş edir, söyləyəcəyi nitqin mətnini təqdim edir. Diplomatik korpusun duayeni ilə mümkün ola bilən görüşdə diplomatik nümayəndə yerli protokol qaydalarım özü üçün aydınlaşdırmalıdır. Etimadnamənin təqdim olunmasından və bu fakt barədə diplomatik korpusla lazımi nota (diplomatik nota) yazışmasından sonra diplomatik nümayəndə, yerli protokola uyğun olaraq, qəbul edən ölkənin rəsmilərinin və diplomatik nümayəndəliklərin başçılarının görüşünə gedir. Rəsmi

ümumi qəbul olunmuş diplomatik lüğəti təşkil edən xüsusi terminlər və ifadələrin məcmusu başa düşülür. Belə terminlərə və ifadələrə aqreman, etimadnamə, atteşe, müvəqqəti işlər vəkilləri və başqalarını misal gətirmək olar.

Üçüncü mənada diplomatik dil kimi mürəkkəb situasiyalarda istifadə edilən ehtiyatlı, nəzakətli ifadələri göstərmək olar; məsələn, əgər siyasi xadim və ya diplomat digər hökümətə bildirsə ki, onun höküməti hər hansı beynəlxalq münaqişəyə "etinazsr/ yanaşa bilməz", onda bu o deməkdir ki, onun höküməti mütləq bu münaqişəyə qoşulacaqdır. Əgər diplomat nitqində və ya notada (Diplomatik nota) "onun höküməti narahatçılıqla baxır" və ya "çox böyük narahatçılıqla baxır" kimi sözlər işlədirsə, bu onu göstərir ki, olnun höküməti hər hansı məsələyə münasibətdə qəti mövqe tutmaq niyyətindədir. Belə ehtiyatlı ifadələrin köməyi ilə siyasi xadimlər birbaşa hədə-qorxu gəlmədən ciddi xəbərdarlıq etmək imkanına malik olurlar. Əgər bu xəbərdarlıqlara diqqət yetirilməsə, diplomat nəzakətli və barışdırıcı tonu saxlayaraq digər ifadələrdən istifadə edir. Əgər o, desə "bu halda onun höküməti öz mövqeyinə yenidən baxmağa məcburdur", bununla o, işarə edir ki, dostluq istənilən an düşmənçiliyə çevrilə bilər. Diplomat "mənim hökümətimin ixtiyarı çatır ki, ..." deyirsə o elan edir ki, onun höküməti "imkan verməyəcək". Bu halda "mənim hökümətim öz xüsusi maraqlarını qorumaq məcburiyyətində qalacaq" və ya "hərəkət etməkdə sərbəstdir" ifadələri diplomatik əlaqələrin kəsilməsini nəzərdə tutur. Əgər diplomat xarici höküməti xəbərdarlıq edirsə ki, onun tərəfindən müəyyən hərəkətlər "düşmən hərəkət" kimi nəzərdən keçiriləcək, bu ifadələr müharibə təhlükəsini bildirir. Əgər o, deyirsə "nəticələr üçün o cavabdeh deyil" bu o deməkdir ki, o müharibəyə səbəb olacaq hadisə törətməyə hazırdır. Əgər diplomat ən nəzakətli tonda belə "25-i tarixdə axşam saat 6-ya" cavab tələb edirsə, bu artıq ultimatumdur. Bu diplomatik dilin ü.stün cəhəti ondan ibarətdir ki, siyasi xadimlərə bir-birilərinə xəbərdarlıq etmək imkanı verir və sakitliyi qoruyub saxlayır. Diplomatik sənədlərin dili aydın olmalı, onlarda ikimənalı yozulan sözlər və ideomatik

başqa dövlətlərin güclü müqavimətinə rast gəlmişdilər. Lakin buna baxmayaraq 1748 il Eks-la Şapel müqaviləsi fransızca tərtib olunmuşdu, bu müqaviləyə xüsusi paraqraf əlavə edilmişdi. Burada deyilirdi ki, belə hallar presedent yaratmamalıdır (təkrar olunmamalıdır). Belə qeydlər 1763 il Paris müqaviləsinə, 1783 il Versal müqaviləsinə, eləcə də Vyana konqresinin Yekun aktına da digər imza atan dövlətlərin təkidi ilə əlavə olunmuşdu.

Bu qeydlərə baxmayaraq, XVIII əsrin ortalarına yaxın fransız dili rəsmi diplomatik dil kimi bərqərar oldu. 1815 il Vyana konqresinin, 1856 il Paris konqresinin (Paris sülhü, 1856) bütün işi ancaq fransız dilində aparıldı. Təkcə 1919 il Paris sülh konfransında ingilis dili fransız dili ilə yanaşı işlədildi. Versal sülh müqaviləsinin ratifikasiya haqda maddəsində deyilir: “Bu müqavilə - fransız və ingilis mətnlərdə etibarlıdır”. Məhz bu maddə ilə fransızların onların dilinin bütün diplomatik danışıqların rəsmi dili olması iddiasına son qoyuldu.

1946 il Paris sülh konfransında rus, fransız, ingilis dilləri rəsmi dil kimi təsdiq olundular. Beynəlxalq Məhkəmə istisna olunmaqla (onun rəsmi dili ingilis və fransız dilidir), BMT-nın bütün orqanlarında rəsmən beş dil: ingilis, fransız, çin, rus, ispan dilləri gəbul olunmuşdur. Son illərdə bu cərgəyə ərəb dili də əlavə edilmişdir. Tədricən beynəlxalq münasibətlərin praktikasında dillərin bərabər-hüquqluq prinsipi bərqərar olmuşdu. Diplomatiyanın bir, iki və daha çox rəsmi dil sistemi heç vaxt tam əhatəli olmamışdır. Dövlətlərin xarici əlaqə orqanları yazışmaları, xüsusilə də rəsmi aktlarla mübadilələri öz milli dillərində aparırlar. İkitərəfli beynəlxalq müqavilələr və sazişlər ümumi qaydaya əsasən kontragentlərin dillərində tərtib olunur. Beynəlxalq konfransların prosedur qaydaları adətən nəzərdə tutur ki, bütün diplomatik sənədlər, protokollar və yekun aktları konfransın rəsmi dillərində redaktə olunmalıdır. Bundan əlavə, müzakirələrin aparıldığı, məruzələrin, lahiyələrin və sənədlərin tərtib olunduğu işçi dillər də müəyən olunur.

Yuxarda deyildiyi kimi, diplomatik dil dedikdə həm də

**тельно работал при Посольстве СССР в демократической Республике Афганистан с 26 декабря 1979г. по 25 декабря 1983г., а также с 19 июня 1987г. по 22 мая 1988г. в должности второго секретаря (Приказы по Посольству № 241 от 26 декабря 1979 г., № 363 от 13 декабря 1983 г., № 222 от 23 июня 1987г., № 105 от 11мая 1988г.).**

**Основание: АВПРФ, ф. 159, оп. 9 1 , п . 156, д. 12, л. 271;**
**оп. 95, п. 172, д. 12, л. 180; оп. 99,**
**п. 189, д. 6, л. 23; оп. 100, п. 190, д.**
**6, л. 1 3 1 ;**

**Справка дана для подтверждения трудового стажа.**

**ЗАМВСТИТЕЛЬ ДИРЕКТОРА**
**ИСТОРИКО-ДОКУМЕНТАЛЬНОГО**
**ДЕПАРТАМЕНТА (подпись) Н. БАРИНОВА Н.**

**ТРЕТИЙ СЕКРЕТАРЬ (подпись) ИСАИ ЕВА**
**(печать министерства**
**иностранных дел Российской Федерации)**

DİPLOMATİK DİL. Üç müxtəlif anlayışı bildirmək üçün istifadə olunur: birincisi-diplomatlar tərəfindən beynəlxalq müqavilələrin hazırlanmasında və imzalanmasında, rəsmi diplomatik danışıqlarda şifahi olaraq istifadə olunan dil (məs. latın, fransız, ingilis və s.); ikincisi, əsrlər boyu ümumi diplomatik lüğətin tərkibinə çevrilən texniki terminlər və ifadələr; üçüncüsü, diplomatlara, siyasi xadimlərə, nazirlərə bir-birilə ən kəskin sözləri yumşaq və mədəni şəkildə söyləməyə imkan verən ehtiyatlı ifadələr başa düşülür.

XVIII əsrə qədər ümumi diplomatik dil latın dili idi. Diplomatlar nəinki latın dilində yazırdılar, həm də latınca danışırdılar. 1648 il Vestfal sülhü, 1670 il ingilis - danimarka və 1674 il ingilis- hoilandiya müqavilələri də latınca yazılmış və imzalanmışdır, çünki ümumi qayda belə idi. XVIII əsrdə fransızlar dəfələrlə öz dillərini rəsmi diplomatik dil kimi qəbul etdirməyə cəhd göstərsələr də.

**vericiliyi aşağıdakı diplomatik dərəcələri müəyyən etmişdir; attaşe, birinci katib, ikinci katib, üçüncü katib, müşavir, diplomatik nümayəndə və səfir. Bu zaman diplomatların xidməti adları bir qayda olaraq onların eyni adlı vəzifələrinə uyğun gəlir. Bəzi ölkələrdə attaşe kiçik diplomatik dərəcədir, digərlərində kiçik dərəcə " katib - arxivistdir. Bundan başqa göstərilən diplomatik heyətin qradasiyası (birinci və ya ikinci sinif müşavir və s.) mövcud ola bilər Fövqəladə və səlahiyyətli səfir və diplomatik nümayəndə adətən dövlətin konstitusiyasından, qanunlarından, siyasi**
**quruluşundan asılı olaraq ya qanunverici orqan, ya da dövlət başçısı tərəfindən, yerdə qalanlar isə xarici işlər idarəsi (nazirlik, şöbə, komitə və s.) rəhbərinin göstərişi ilə verilir.**

**Azərbaycan Respublikası prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının xaricdəki səfirlikləri və missiyalarının (diplomatik missiya) diplomatik işçiləri üçün birinci və ikinci dərəcəli müşavirlər, 2 dərəcədən olan birinci katiblər, 2 dərəcədən olan ikinci katiblər, üçüncü katib və attaşe rütbələri müəyyən edilmişdir.**

## Rusiya Federasiyası XİN-nin müəlUif haqında aravıs nümunəsi

**МИНИСТЕРСТВО**
**ИНОСТРАННЫХ ДЕЛ**
**РОССИЙСКОЙ ФЕДЕРАЦИИ**

**119200,Г. Москва, Г-200,**
**Смоленская - Сенная площадь, дом 32\34**
телефон 244'16-06

**на № 509/УДД от 30.01.2006**

**М.И. ГАДЖИЕВУ**

**Архивная справка**

**Материалами Архива внешней политики Российской Федерации подтверждается, что Максуд Ибрагим оглы ГАДЖИЕВ действи-**

**DİPLOMATİK DANIŞIQLAR.** Dövlət nümayəndələri tərəfindən ikitərəfli və çoxtərəfli münasibətlərin siyasi, iqtisadi və digər məsələlərin xarici siyasət strategiyasını, taktikasını və ya müvafiq diplomatik aksiyalarını, fikir mübadilələrini, qarşılıqlı informasiya mübadilələrini, müqavilələrin hazırlanması və imzalanmasını razılaşdırmaq məqsədilə rəsmi müzakirələrdir.

Diplomatik danışıqlar dövlətlər arasında meydana çıxan mübahisə və münaqişələrin dinc yolla həll etməyin (Beynəlxalq münaqişələrin, münaqişələrin sülh yolu ilə həll edilməsi) başlıca vasitəsidir, beynəlxalq hüquqda dövlətlər arasında münasibətlərin inkişaf etdirilməsi və dərinləşdirilməsinin ən geniş yayılmış və təsdiq olunmuş metodlarından biridir.

Diplomatik danışıqlar iştirakçılarının səviyyəsi (dövlət başçıları, hökümət başçıları, xarici işlər nazirləri və b.) müzakirə olunan problemin əhəmiyyəti ilə müəyyən olunur. Ümumqəbul olunmuş qaydaya əsasən dövlət başçısı, hökümət başçısı, xarici işlər naziri diplomatik danışıqlar aparmaq və imzalamaq üçün lazımi qaydada tərtib olunmuş səlahiyyətlərə malİk olmalıdır. Diplomatik danışıqlar onların iştirakçıları ilə şəxsi görüşlər yolu ilə və ya yazılı şəkildə piplomatik yazışma vasitəsilə həyata keçirilir. Çox vaxt danışıqların şifahi və yazılı formaları paralel olaraq istifadə edilir. Diplomatik danışıqlar bir qayda olaraq nümayəndələrin mövqeyinin öyrənilməsindən, layihələrin və yekun sənədlərinin hazırlanmasından ibarət böyük hazırlıq işindən sonra başlayır.

**DİPLOMATİK DƏRƏCƏLƏR.** Xarici işlər idarəsinin və xaricdəki diplomatik nümayəndəliyin diplomatik heyətinə verilən xüsusi xidməti dərəcələrdir. Diplomatik dərəcələr diplomatın diplomatik korpusda mövqeyini və gəldiyi ölkənin hakimiyyət orqanları ilə əlaqələrinin mümkünlüyünü müəyyən edir. Diplomatik dərəcələr bir növ diplomatik nümayəndənin fəaliyyətini müəyyənləşdirir.

Hər bir dövlətin öz diplomatik dərəcələr sistemi vardır və daxili qanunvericiliklə müəyyən olunur. Əksər dövlətlərin qanun-

əlavələr edildi. Diplomatik dərəcələr: səfirlər (leqat (Papa və Apostol leqatı) və nunsilər), diplomatik nümayəndələr, səlahiyyətli nazirlər, nazir-rezident, işlər müvəkkili müəyyən edildi. Öz sinfi daxilində diplomatik nümayəndəlik başçılarının diplomatik başçılığı yerli praktikadan və ya diplomatik nümayəndənin ölkəyə gəlmə tarixindən, ya da etimadnamə sənədini təqdim etməsi vaxtından asılı olaraq müəyyən olunur. Vyana konqresinin (1815) V və VI maddələrinə görə "hər bir dövlətdə hər bir sinfə aid diplomatik agentlərin qəbul olunmasının vahid qaydası müəyyən olunmalıdır və saraylar arasında qohumluq və ya ailə əlaqələrinin mövcudluğu onların diplomatik agentləri üçün dərəcədə heç bir üstünlük yaratmır". Bu o deməkdir ki, təcrübədə bu maddələrin həyata keçirilməsi zamanı diplomatik nümayəndələr arasında mövcud olan diplomatik başçılığa əməl etmək lazımdır və hər hansı təsəvvürlərə görə digər diplomatik nümayəndənin diplomatik başçılığına zidd olaraq bu və ya digər diplomatik nümayəndəyə diplomatik başçılıq verilməməlidir. Bu mühüm qaydanın pozulması diplomatik nümayəndənin ləyaqətinə zərər vurmaqla qanunların pozulmasına əsas verir və ölkənin hakimiyyət dairələri ilə diplomatik korpus arasında münasibətlərdə ciddi gərginlik yarada bilər. Bəzi katolik ölkələrində Vatikanın səfiri (nunsi) olduğu ölkəyə gəlməsindən və ya etimadnaməsini təqdim etmək vaxtından asılı olmayaraq digər səfirlər qarşısında diplomatik başçılığa malikdir. Elə buna görə də bu ölkələrdə nunsilər diplomatik korpusun duayeni olurlar. Əgər diplomatik nümayəndəlik başçısı suverenin dəyişməsi yolu ilə və ya ölməsi ilə bağlı, dövlətin siyasi quruluşunun dəyişməsi ilə əlaqədar olaraq təkrarən Etimadnamə təqdim edirsə, onun əvvəlki diplomatik başçılığı saxlanılır. Diplomatik nümayəndələr və onların gəldikləri ölkənin hakimiyyət dairələri arasında başçısılıq məsələsinə dair beynəlxalq təcrübədə müəyyən olunmuş qaydaya görə öz dövlətlərinin nümayəndəsi kimi xarici səfirlər bilavasitə dövlət başçısından sonra gəlirlər. Ancaq nəzakət xatirinə xarici səfirlər könüllü olaraq öz yerlərini baş nazirə və xarici işlər nazirinə güzəştə gedirlər.

yığılan sənədli materialların məcmusu. Beynəlxalq təcrübədə diplomatik arxiv anlayışı, başlıca olaraq, diplomatik nümayəndəliyin və konsul idarəsinin arxivlərinə aid edilir. Diplomatik münasibətlərə dair 1961 il Vyana konvensiyasına uyğun olaraq, diplomatik nümayəndəliklərin arxiv və sənədləri istənilən vaxt və saxlandığı yerdən asılı olmayaraq toxunulmazdır. Əksər ölkələrdə diplomatik arxiv xarici siyasət idarəsinin bir bölməsi sayılır.

DİPLOMATİK AUDİENSİYA. Dövlət başçısı, xarici işlər naziri və ya hökümətin digər üzvü tərəfindən diplomatik nümayəndənin qəbulu. Yerli protokol qaydalarından, diplomatik nümayəndənin dərəcəsindən və audiensiyanın xarakterindən asılı olaraq qəbul təntənəli şəraitdə və ya protokol mərasimləri olmadan keçirilə bilər.

Diplomatik audensiya öz Etimadnaməsini təqdim edən xarici diplomatik nümayəndəyə dövlət başçısı tərəfindən verilir (təyin olunur).

DİPLOMATİK BAŞÇILIQ. Kütləvi tədbirlərə dəvət olunan diplomatik korpusun kollektiv başçılığına, diplomatik nümayəndəlik başçıları arasında başçılığa, diplomatik nümayəndəliklərlə gəldiyi ölkənin hakimiyyət dairələri arasında başçılığa, diplomatik nümayəndəlik daxilində diplomatik başçılığa münasibətdə və s. əməl olunan mərasimin mühüm qaydalarından biridir. Rəsmi kütləvi tədbirlərə, mərasimlərə dəvət olunan diplomatik korpusa bu tədbir və ya mərasimlərdə iştirak edən dövlət və hökümət başçısının yanında birinci fəxri yer verilir. Diplomatik korpusun bütövlüyünə hörmət edilməlidir və buna görə də onu səfirlərə, diplomatik nümayəndələrə və işlər müvəkkilinə bölmək olmaz (müxtəlif yerlərdə yerləşdirmək olmaz).

Diplomatik başçılığı nizamlamağa hələ XIX əsrin əvvəllərində cəhdlər edilmişdir. 19 mart 1815 ildə Vyana konqresində Avropa dövlətlərinin nümayəndəlikləri xüsusi reqlament qəbul etdilər. Bu reqlamentə 21 noyabr 1818 ildə Aahen protokolu ilə

1815 il Vyana reqlamenlində diplomatik agent ancaq diplomatik nümayəndə başçılarına aid edilirdi. Beynəlxalq hüquqda və praktikada belə nöqteyinəzər möhkəmlənmişdi ki, bir halda ki, səfirlik və missiyaların diplomatik heyətinin üzvləri səfir və ya elçinin müvəqqəti yox (necə ki, XIX əsrdə onları bu cür hesab edirdilər), dövlət müəssisələrinin əməkdaşlarıdırlar, göstərilən şəxslər dairəsi diplomatik agent kimi nəzərdən keçirilməyə başlandı. BMT-nin 1958 ildə Beynəlxalq hüquq komissiyası tərəfindən hazırlanan diplomatik əlaqələr və diplomatik immunitetlər (Diplomatik imtiyazlar və toxunulmazlıq hüququ) haqda maddələri bu ümumi mövqedən çıxış edir. 1928 il diplomatik məmurlar haqda Havana konvensiyası (Beynəlxalq konvensiya) səfirlik və missiya başçılarım və diplomatik heyəti, eləcə də beynəlxalq konfranslarda dövlətin rəsmi nümayəndələrini, həmçinin bir dövlət tərəfindən xüsusi missiya ilə digərinə göndərilən nümayəndəlik başçıları və üzvlərini də diplomatik agentlərə aid etmişdir. 1961 il diplomatik əlaqələr haqda Vyana Konvensiyasına görə diplomatik agent nümayəndəliyin başçısı və ya diplomatik heyətin üzvüdür.

Diplomatik agentin şəxsiyyəti toxunulmazdır. O hər hansı formada həbs edilə və tutulub saxlanıla bilməz. Diplomatik agentin gəldiyi dövlət ona lazımi hörmətlə yanaşmalı, onun şəxsiyyətinə, azadlığına və ya ləyaqətinə hörmət etməli, ona qarşı edilən hər hansı qəsdin qarşısını almaq üçün bütün zəruri tədbirləri görməlidir. Diplomatik agentin şəxsi iqamətgahı nümayəndəliyin binası kimi toxunulmazdır və qorunur. Diplomatik agent ölkənin cinayət toxunulmazlıq hüququna malikdir. O həmçinin mülki və inzibati yıırisdiksiya immunitetlərindən də istifadə edir. Diplomatik agent şahid sifətilə ifadə verə bilməz. Diplomatik agentin olduğu ölkənin yurisdiksiyasmdan immuniteti onu akkreditə edən dövlətin yıırisdiksiyasmdan azad etmir.

**DİPLOMATİK ARXİV.** Xarici işlər idarəsinin və onun xaricdəki nümayəndəliklərinin fəaliyyəti nəticəsində toplanıb

üçüncü sinif işlər müvəkkili-xarici işlər nazirləri yanında akkreditə olunurlar. Müasir beynəlxalq təcrübədə diplomatik nümayəndəlik başçılarının qəbul olunmuş tam rəsmi adları aşağıdakı kimidir: Səfir və nunsi - fövqəladə və səlahiyyətli səfir; sadəcə səfir və ya nunsilər; Diplomatik nümayəndə və intemunsi - fövqəladə diplomatik nümayəndə və səlahiyyətli nazir; qısaldılmış şəkildə- səlahiyyətli nazir və nazir; fövqəladə və səlahiyyətli elçi;

Daimi işlər müvəkkili - işlər müvəkkili. Diplomatik nümayəndəlik başçısını müvəqqəti işlər müvəkkili sinfindən fərqləndirmək üçün daimİ işlər müvəkkilinin ünvanına göndərilən sənədlərdə (ümumiyyətlə sənədlərdə) onun fransız adı - Chargy d'Affaires avec lettres istifadə olunur;

Müvəqqəti işlər vəkilləri. Onun fransızca ümumi qəbul olunmuş adı - Chargy d'Affaires ad interim və ya Chargy d'Affaires a.i.

Diplomatik nümayəndəlik başçıları üçün siniflərin müəyyən olunması onların səlahiyyətlərinin həcminə və məzmununa müvafiq olur.

1961-ci il Vyana Konvensiyası nəzərdə tutur ki, birincilik və etiketə münasibətdə diplomatik nümayəndəlik başçıları arasında onların bu və ya digər sinfə mənsubluğuna dair heç bir fərq qoyulmamalıdır. Konvensiyaya uyğun olaraq nümayəndəlik başçısının məxsus olduğu sinif dövlətlər arasında razılaşmaya əsasən müəyyən olunur; nümayəndəlik başçılarının qəbulu zamanı hər bir dövlətdə diplomatik nümayəndələrə aid riayət edilən qaydalar hər bir sinfə münasibətdə eyni olmalıdır. Bir qayda olaraq dövlətlər eyni sinifli diplomatik nümayəndələrlə mübadilə edirlər.

DİPLOMATİK AGENT. (lat. ***agens*** - hərəkət edən). Diplomatik nümayəndəliyin başçı və ya nümayəndəliyin diplomatik heyətinin üzvü. Beynəlxalq hüquqda və diplomatik praktikada bu teiTnindən dövlətin diplomatik nümayəndələrinin (səfirləri, diplomatik nümayəndələri, işlər müvəkkilini), səfirlik və missiyaların diplomatik heyət üzvlərinin ümumi adı kimi istifadə olunur.

xarici işlər nazirinin müavinləri, nazirliyin baş katibi, idarə və şöbə başçıları və b. bu qaydada təyin edilir. Lakin bir çox dövlətlərdə bu vəzifələrdən bəziləri xüsusi hazırlığı olan və müntəzəm olaraq diplomatik xidmət mərhələlərini keçmiş şəxslər sırasından müsabiqə əsasında təyin olunur. Belə diplomatik işlər kateqoriyası "diplomate de carrere", yəni peşəkar diplomat adlandırılır.

Dünyanın inkişaf etmiş ölkələrində diplomatların hazırlanması məqsədi ilə xüsusi təhsil müəssisələri fəaliyyət göstərirlər. Məs., ABŞ-m Harvard, Yel və Prinston universitetlərinin yanında Xarici Xidmət İnstitutlarını, Fransa Milli Administrativ Məktəb və Şərq dilləri məktəbini, İngiltərədə Harrou kolleclərini, Oksford və Kembric universitetlərini göstərmək olar. Diplomat seçilməyə namizəd olan şəxs hər şeydən əvvəl müsabiqə imtahanlarına buraxılmaq icazəsi almalıdır. Bu icazə xarici işlər nazirliyi və ya xüsusi dövlət komissiyası tərəfindən siyasi etibarlığın yoxlanılması əsasında verilir. Dövlət seçki və müsabiqə komissiyaları bu imtahanları diqqətlə izləyirlər.

Diplomatın həm xidməti işlərdə, həm də diplomatik dərəcələr haqda sənəd üzrə irəliləməsi xüsusi reqlamentlə nizamlanır. CDEL").

Azərbaycan Prezidentinin sərəncamı ilə diplomatlar hazırlamaq üçün 20Ü6-cı ildə Azərbaycan XİN-i nəzdində Diplomatiya Akademiyası yaradılmışdır.

**DİPLOMATİK ADLAR VƏ RÜTBƏLƏR.** Diplomatik nümayəndələrin başçılıq etdikləri diplomatik nümayəndəliklərin səviyyəsinə uyğun gələn və onların gəldikləri ölkədə diplomatik nümayəndələr arasında mövqeyini müəyyən edən, diplomatik təcrübədə meydana gəlmiş və beynəlxalq hüquqla təsdiq olunmuş adlarıdır. 1961-ci il Diplomatik Əlaqələrə dair Vyana Konvensiyasına (Beynəlxalq konvensiya) görə diplomatik nümayəndəlik başçıları üç sinfə bölünürlər: səfirlər və nunsilər (Vatikanın yüksək nümayəndəsi belə adlanır) sinfi, diplomatik nümayəndə və internunsilər sinifi; onlar dövlət başçısı yanında akkreditə olunurlar.

verir və bir tərəfli xarakter daşıyır. Ləğv etmənin qanunauyğunluğu tutarlı siyasi-hüquqi əsaslara söykənməli (məs. kontragent tərəfindən müqavilənin ciddi şəkildə pozulması; hüquqi cəhətdən etibarsız olması və s.) və beynəlxalq təcrübədə təşəkkül tapmış prosedurlara (digər iştirakçıların irəlicədən yazılı şəkildə xəbərdar edilməsi) uyğun gəlməlidir.

DE-YURE TANIMA, (lat. ***dejure*** - hüquqi) beynəlxalq hüquqda dövlətin və hökumətin tam, yekun olaraq və rəsmən tanınma formasıdır. De-yure tanıma dövlətin tanıdığı dövlətlə lazımi səviyyədə diplomatik münasibətlər yaratmağa hazır olduğunu ifadə edir.

DİPLOMAT, (fr. ***diplomate).*** Müəyyən dövlətin digər xarici dövlətlərdə rəsmi siyasi əlaqələrini həyata keçirən xarici işlər idarəsinin əməkdaşı olan vəzifəli şəxsdir. Hər bir dövlətdə gündəlik xarici əlaqələrin aparılması xarici işlər idarəsinə və xaricdəki xüsusi olaraq seçilmiş və təhsil almış diplomatik heyətdən təşkil olunmuş diplomatik nümayəndəliyə həvalə olunur. Diplomatik heyət dedikdə müəyyən dövlətin diplomatik xidmətində duran və beynəlxalq danışıqların aparılmasına, beynəlxalq müqavilələrin imzalanmasına dair işləri yerinə yetirən şəxslərin məcmusu nəzərdə tutulur. Diplomatik heyət diplomatik korpusun üzvlərinə verilmiş diplomatik imtiyazlar və toxunulmazlıq hüquqlarından istifadə edir.

Hər bir dövlət müstəqil olaraq daxili qanunvericiliyində diplomatik xidmətə qəbul olma qaydalarını müəyyən edir. Bu zaman namizədlərin diplomatik vəzifəyə təyin olunması üçün müəyyən rəsmi tələblərə cavab verməsi nəzərə alınır (yaşı, ali təhsili, xarici dil bilməsi, xüsusi müsabiqə imtahanlarının verilməsi və s.). Müxtəlif ölkələrdə bu tələblərin bir-birindən fərqlənməsinə baxmayaraq onların mahiiyəti eynidir: dövlətin nöqteyi-nəzərincə diplomatik kadrların düzgün seçilməsini təmin etmək. Lakin bu ümumi qaydalar xüsusi qaydalarda rəhbər diplomatik vəzifəyə təyin olunmuş qeyri-peşəkar diplomatlara aid edilmir. Xarici işlər naziri.

**ÇOXrƏRƏİFLİ DİPLOMATİYA.** Bir neçə dövlətin nümayəndələrinin beynəlxalq hökumətlərarası təşkilatların və konfransların (Beynəlxalq konfranslar) işləri ilə əlaqədar, danışıqların və məsləhətləşmələrin keçirilməsi və s. ilə bağlı diplomatik fəaliyyəti. İkinci dünya müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatının və BMT-nin ixtisaslaşdırılmış idarələrinin, bir sıra beynəlxalq təşkilatların hökumətlərarası qurumlarının yaradılması nəticəsində çoxtərəfli diplomatiyanın əhəmiyyəti daha çox artmışdır.

Çoxtərəfli diplomatiyanın genişlənməsi ilk növbədə dövlətlərarası ünsiyyətin intensivləşməsi ilə bağlıdır. Müharibədən sonrakı dövrdə siyasət, sosial və iqtisadiyyat sahələrindəki böyük irəliləyişlər əsas etibarı ilə, qlobal problemlərin həlli üçün bütün dövlətlərin səylərini birləşdirməyin obyektib zərurətini doğuran elmi-texniki inqilabın sürətlənməsi ilə şərtlənmişdir,

**DE-FAKTO TANINMA.** Beynəlxalq Hüquqi Tanınmanın bir növü olub rəsmi xararakter daşıyır və de-yure tanınmadan siyasi və iqtisadi münasibətlərin məhdud səviyəsi və həcmi ilə fərqlənir; de-fakto tanınma çox zaman tanınan dövlətin həyat qabiliyyətinə, gələcəyinə tam inamın olmadığı şəraitdə tətbiq edilir.

**DENONSASİYA.** (fr. dénoncer - elan etmək, ləğv etmək). Bağlanmış beynəlxalq müqavilədən lazımi qaydada rəsmi imtina edilməsi beynəlxalq müqavilənin qanunauyğun şəkildə qüvvədən salınmasının ən çox yayılmış üsuludur. Beynəlxalq müqavilə öhdəliklərinin pozulmasının digər üsullarından fərqli olaraq, denonsasiya hüququ müqavilənin özündə nəzərdə tutulmalıdır. Dononsasiya müqavilənin ciddi şəkildə müəyyən etdiyi qaydada baş verir və bu qaydaya riayət edilməməsi dononsasiyanı mübahisəli hesab etməyə əsas verir.

İkitərəfli müqavilələrin qüvvədən salınmasının formalarından biri dövlətin bağlamış olduğu müqavilədən imtina etməsidir. Belə halda, müqavilənin pozulması onun şərtlərinə riayət olunmadan baş

Bu Bəyannamənin qəbul olunduğu tarix -10 dekabr - BMT BM tərəfindən İnsan haqları Günü elan edilmişdir.

Müahidələrə əsasən, dövlətlər özləri tərəfindən görülmüş tədbirlərin və müahidələrdə nəzərdə tutulmuş hüquqların həyata keçirilməsi sahəsində əldə edilmiş tərəqqiyə dair hesabatlar təqdim etməyi öhdələrinə götürürlər. Məruzələr BMT-nin İqtisadi və Sosial Şurasında nəzərdən keçirilib baxılır; bu məqsədlə bu Şura çərçivəsində xüsusi işçi qrupu fəaliyyət göstərir.

MüahidəIər 1976 ildən qüvvədədir. (“DEL”).

İNSAN HÜQUQLARI. Bu istilah altında şəxsiyyətin dövlətdə hüquqi statusunu səciyyələndirən sosial-iqtisadi, mülki, siyasi, mədəni və digər hüquq və azadlıqlar kompleksi başa düşülür. İnsanın əsas hüquq və azadlıqları, onların xarakteri, həcmi və real məzmunu dövlətin sosial-iqtisadi, siyasi quruluşu, konkret həyat şəraiti və mövcud cəmiyyətin inkişaf xüsusiyyətləri ilə şərtləndirilir. İnsanın hüquq və azadlıqlarına hörmət prinsipi BMT Nizamnaməsində, 1948 il İnsan haqqlarına dair Ümumi Bəyannaməsində, Müstəmləkə ölkələri və xalqlarına müstəqillik verilməsinə dair 1960 il Bəyannaməsində, 1966 il İrqi ayrı-seçkiliyin bütün formalarda ləğvinə dair Beynəlxalq Konvensiyasında, İnsan haqqlarına dair 1966 il Müahidələrində, Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin Yekun aktında və digər beynəlxalq aktlarla təsbit edilmişdir.

İnsan haqqlarına hörmət prinsipi beynəlxalq hüququn əsas prinsiplərilə, ələlxüsus dövlətlərin suveren bərabərliyi və onların daxili işlərinə qarışmamaq prinsiplərilə ziddiyyət təşkil edə bilməz. (“DEL”).

**CENTELMEN** SAZİŞİ, (ing. ***gentlemens agreement).*** Beynəlxalq təcrübədə şifahi formada əldə olunmuş saziş. Centelmen sazaşinin şifahi formada bağlanması tərəflərin üzərinə götürdükləri öhdəlikdərin hüquqi əhəmiyyətini azaltmır.

Xəzər dənizinin sahilində dünyanın ən böyük neft terminallarından biri olan Sanqaçaldan başlayaraq Türkiyənin Aralıq dənizinin sahilindəki məşhur Ceyhan terminalınadək tikilmiş boru kəmərinin uzunluğu 1770 km-dır, o, cümlədən Azərbaycan ərazisində 445 km, Gürcüstanda 240 km və Türkiyədə 1085 km-dır. Boru xəttinin üzərində Azərbaycan ərazisində 2 nasos stansiyası, Gürcüstanda 2, Türkiyədə isə 4 nasos stansiyaları tikilibdir. Bu nəhəng boru kəməri Cənubi Qafqaz və Türkiyə ərazisində 3000 metr hündürlüyündə dağlardan, 1500 çay üzərindən keçibdir. Borunun doldurulmasına 10 milyon barel xam neftdən istifadə olunub.

Bu boru xətti, texnoloji və ətraf mühitin qorunması standartına uyğun çəkilmişdir. Kəmərin ümumi dəyəri 3 milyard dollardan artıqdır. Sanqaçal terminalının layihəsinin həyata keçirilməsi 14 milyard dollardan çox olubdur. Ömrü onilliklərlə ölçülən boru kəmərinin ən qabaqcıl texnika və texnologiya ilə təchiz edilən infrastruktur kompleksinin tikintisi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin Prezidenti Devid Vudvordun rəhbərliyi altında aparılmışdır. Tikintiyə minlərlə insan cəlb olunub, işlərin ən qızğın çağında bu boru xətti boyu 22 mindən artıq işçi çalışmışdır.

Aparılmış böyük işlərin üzərində 3 qardaş ölkənin, Azərbaycan, Türkiyə və Gürcüstan dövlət başçılarının - İlham Əliyevin, Əhməd Necdət Sezerin və Mixail Saakaşvilinin bilavasitə ciddi nəzarəti, dəstəyi və köməyi olubdur.

BP-dən verilən məlumata görə, BTC ötən 2006-cı ilin mayın sonunda neftlə doldurulduqdan sonra boru kəmərinin ötürücülüyü obyektlər və nasos stansiyaları işə salındıqca mUtəmadi olaraq artıb. Bu günədək BTC-nın ən yüksək ötürücülüyü fevral 2007-ci ildə
600.0 bareldən artıq olmuşdur.

BTC Türkiyədə Ceyhan terminalda 2007-ci il fevralda 100- cü gəminin neftlə yüklənməsini qeyd etmişdir. “Nok Şin” adlanan yüzüncü tankerə bir milyon bareldən çox neft yüklənmişdir və neftin yüklənməsi 26 saat çəkmişdir. Bu yaxınlarda Ceyhan terminalına iki milyon barel tutuma malik ilk tanker yan almışdır. BTC sisteminin ötürücülüyü artdıqca, terminala bu növ gəmilərin

Gürcüstan və Türkiyə qaz ilə təmin olunacaqlar. Gələcəkdə Azərbaycan qazı Avropaya da çatdırılacaqdır.

Xəzər dənizinin dərinliklərindən çıxarılan milyon tonlarla teftin nəqli Heydər Əliyev adına icra boru kəməri ilə dünya bazarlarına çatdırmaqla, ölkələr arasında nəqliyyat və enerji dəhlizini yaratmaqla Azərbaycan yeni neft erasına daxil olmuş, dünyanın neft mərkəzlərinin birinə çevrilməkdədir. Yüz illər bundan əvvəl dünya neft sənayesində oynadığı mühüm rolu Bakı yenidən bərpa edibdir.

**BAKI - TBİLİSİ - CEYHAN NEFT KƏMƏRİ (BTC).**

2006-cı ilin may ayının 28-də tarixi hadisə baş veribdir. Azərbaycan Türkiyə və Gürcüstanla Birlikdə Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə apardığı "Bakı - Tbilisi - Ceyhan" boru kəmərinin tikintisini qurtarıb, nəhəng enerji kompleksi işə başlayıb. Azərbaycan nefti Aralıq dənizinə Ceyhan terminalına çatıbdır.

Bu parlaq qələbə ümummili lider Heydər Əliyevin apardığı müdrik neft strategiyasının və "Əsrin müqaviləsi"niı misilsiz təntənəsidir. H. Əliyevin neft strategiyası ilə ölkəmizdə qüdrətli iqtisadiyyat və çiçəklənən cəmiyyətin qurulması üçün zəmin yaradılıbdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu mürəkkəb layihələrin yaradılmasında və həyata keçirilməsində böyük əməyi vardır. Azərbaycan əldə edilən milyon tonlarla neftini dünya bazarlarına çatdirmaq üçün böyük gücə malik olan infrastruktur layihəsini yaratmışdır. "Bakı - Tbilisi - Ceyhan" icra boru kəməri tikilib istismara verilmişdir. Bu kəmərlə Qazaxıstan nefti də nəql edəcəkdir.

Bakı - Tbilisi - Ceyhan kəmərinin sahibkarları Böyük Britaniyanın "Britiş Petrolium", Azərbaycan Dövlət Neft şirkəti, ABŞ-ın "Şevron", Norveçin "Statoyl", Türkiyənin "T.P.A.O.", İtaliyanın "Eni", Fransanın "Total", Yaponiyanın "İtoçu və İnpeks", ABŞ-ın "Konoko Philips" və Səudiyyə Ərəbistanın "Amirada Hess" şirkəlləridirlər.

istismarı haqda 1994-cü ilin sentyabr ayının 20-də Bakının Gülüstan Sarayında təntənəli imzalama mərasimi keçirildi.

Bu müqaviləni dünyanın 7 ölkəsinə mənsub olan 11 böyük neft şirkəti imzalamışdır. Müqavilə əsasında neft yataqlarının 30 il müddətində işlədilməsi nəzərdə tutulmuşdur.

Müqavilə Amerika Birləşmiş Ştatlarının “Amoko”, “Unikal”, “Penzoy”, “Ekson”, Böyük Britaniyanın “Britiş Petrolium”, “Rem- ko”, Rusiyanın “Lukoyl”, Norveçin “Statoyl”, Türkiyənin “Türk- Petrollan”, Səudiyyə Ərəbistanının “Telta”, Yaponiyanın “İtoçu” şirkətləri daxil olmuşlar.

Bağlanmış müqavilə çox tezliklə “Əsrin müqaviləsi” adlandırılmış, dünyada geniş səs yaymış və böyük əks səda doğurmuşdur.

İndi Xəzər dənizinin Azərbaycan bölməsində 12 ölkəyə o, cümlədən Çinə, İrana və Fransaya mənsub olan 20 neft şirkətləri çalışır.

“Azəri-Çıraq-Günəşli” yataqlarından gündəlik neft hasilatı 2008-ci ildə 1 milyon tona çatacaqdır. Gələn illərdə neft hasilatı 60 milyon tondan çox gözlənilir.

Bu tarixi hadisənin baş verməsi Azərbaycan xalqına, bizim qonşu dost ölkələrimizə çox böyük səmərə gyətirəcəkdir.

Region ölkələr ikeyfiyyətcə yeni bir inkişaf mərhələsinə qədəm qoyacaqlar.

Beynəlxalq aləmdə dövlətlər arasında dostluq və əməkdaşlıq güclənəcəkdir.

Ölməz H. Əliyev ideyalarının məhsulu olan “Əsrin müqaviləsP’ndə nəzərdə tutulmuş layihələr müvəfəqiyyətlə icra olunur. “Azəri-Çıraq-Günəşli” yataqlarından 2008-ci ildə neft istehsalının həcmi 50 milyon tondan çox olacaqdır. Bu da dünyanın neftə atran tələbatının 25 faizini təmin edəcəkdir.

Xəzər dənizinin sahilində müasir və texnologiya ilə təchiz olunmuş Sanqaçal terminalının tikintisi tamamlanmışdır.

“Şahdəniz” yatağının birinci mərhələsindən gündə 900 milyon kubmetr qaz alınacaqdır. 2006-cı ilin axırlarında “Bakı - Tbilisi - Ərzurum” boru qaz kəməri istismara veriləcək, ölkəmiz, həm də

fontan vurub gün ərzində 100 ton neft vermişdir. Bu yataqların istismarı bu gün də davam edir.

Ölkədə sənaye üsulu ilə 1 milyard ton neft çıxarılması hələ 1917-ci ildə təntənəli şəraitdə geniş qeyd olunmuşdur. Neft istehsalı ilə yanaşı Respublikada kimya, enerji, neft avadanlığı buraxan və digər sənaye müəssisələri inkişaf etmişdir.

SSRİ-nin iqtisadi-siyasi böhran nəticəsində dağılması və bu zaman müstəqillik qazanmış respublikaların arasında münasibətlərin, ələlxüsus plan əsasında qurulmuş iqtisadi və texnoloji əlaqələrin pozulması nəticəsində 1990-cı ilin əvvəllərində Azərbaycanda neft hasilatı iki dəfə azalmış, 11,5 milyon tona çatmışdır. Ölkə çətin vəziyyətlə üzləşmiş, sənaye və digər müəssisələrin əksəriyyəti fəaliyyətini dayandırmış, on minlərlə insan işsiz qalmışdır.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dərhal iqtisadiyyatda yaranmış problemləri aradan götürməklə yanaşı sənayenin inkişafında həlledici amil olan neft istehsalının sürətlə artması üçün çox ciddi tədbirlər həyata keçirmişdir.

Azərbaycan xalqının ən böyük sərvəti olan neft 100 milyon tonlarla Xəzər dənizinin dərinliklərində yatıb qalmaqda idi. Dənizin dibindən neft çıxarıb xalqın ixtiyarına vermək, ölkənin iqtisadi və sosial inkişafına qısa müddətdə nail olmaq dövlətin və cəmiyyətin qarşısında tarixi bir vəzifə kimi dururdu.

Lakin bu mühüm məqsədə çatmaq üçün neft-qaz yataqlarının istismarına külli miqdarda kapital qoyulması, yeni texnika və texnologiya, yüksək professional mütəxəssislər cəlb edilməli idi.

Bu istiqamətdə 1991-ci ildən tanınmış ən böyük neft şirkətləri iləbaşlanmış danışıqlar uğurla 1994-cü ildə başa şatdırıldı.

Azərbaycan inkişaf etmiş dövlətlərin, onların qabaqcıl neft şirkətlərinin, ölkəmizin neft yataqlarının istismarına investisiya qoyulması barədə razılığını əldə etdi. Respublika Prezidenti Heydər Əliyevin fərmanı ilə Azərbaycan Dövlət Neft Şirkətinə Beynəlxalq Şirkətlər Konsersiumu ilə müqavilə imzalamağa icazə verildi.

Xəzər dənizində yerləşən və neft ehtiyatları 500 milyon tondan çox olan “Çıraq”, “Azəri” və “Günəşli” yataqlarının birgə

kiçik neft verən torpaq sahəsi alaraq 1879~cu ildə kapitalı 3 milyon rubl olan neft şirkətinin əsasını qoymuşdular.

Fəaliyyətlərini genişləndirərək 1882-ci ildə Nobel qardaşlarının müəssisələrinin kapitalı 10 milyon rubla çatmış və dünyanın ən böyük neft şirkətlərindən biri olmuşdur. Neft sənayesinə külli miqdarda kapital qoymuş Fransa bankiri Rotşild 1890-cı ildə Bakıdan ixrac edilən neftin 42 faizini öz nəzarəti altına almışdır. Xarici kapitalın və yeni texnologiyanın neft sənayesinə gəlməsi bu sahənin hər tərəfli inkişafına əsas səbəb olmuşdur. 1871-ci ildən başlayaraq neft quyularının əllə qazılmasının texniki üsulla əvəz edilməsi neft istehsalının sürətlə artması ilə nəticələnmişdir. l880-ci ildən başlayaraq 30 il ərzində Avropanın neft tələbatının çox hissəsini Rotşild və Nobel kapitalistlərinin nəzarəti altında olan Bakı mədənləri vermişdir. 1911-ci ildən Standart Oil Kompaniyası Rotşild və Nobellərə məxsus olan Bakı neft müəssisələrinin hamısını satın almış və onların əsasında Avropanın neft bazarında ən böyük, həlledici gücü olan birlik yaratmışdır. Bu dövrdə dünyada hasil edilən neftin 50 faizdən çoxu Bakı regionunda çıxarılmışdır.

Azərbaycana sovet rejiminin gəlməsi ərəfəsində neft hasilatı kəskin azalıb, I921~ci ildə 2,4 milyon ton olmuşdur. Bakı neftinin dünya siyasətində və iqtisadiyyatında yerini nəzərə alaraq hakimiyyət 20-30-cu illərdə mədənlərdə bərpa işləri aparmış, neft hasilatının artması üçün yeni neft yataqlarını istismara vermiş, Bibiheybət buxtasının qurudulmasını tamamlamışdır. Nəticədə 1940-cı ildə 22,2 milyon ton neft hasil olmuşdur. Bu da ölkədə ümumi neft istehsalının 71,5 faizini təşkil etmişdir. '

Azərbaycan XX əsrdə neft sənayesinin inkişafında yüksək nailiyyətlər əldə etmiş, dünyada dəniz dərinliklərində neft - qaz yataqlarının kəşf olunmasında və orada neft hasil edən qabaqcıl bir olkə kimi tanınmışdır.

Xəzər dənizində “Neft daşlan” adlanan qayaların üzərində 1949-cu ilin noyabr ayında qazılmış quyu 1100 metr dərinliyindən

**H. Zeynalov. Azərbaycan qədim əbədi odlar diyarıdır. Buklet. 2006 il.**

maliyyə fondu bu günə qədər fəaliyyətdədir, elmin və mədəniyyətin inkişafına səbəb olmuş, yüksək səviyyədə bilik və bacarıq göstərmiş insanlara Nobel adına hər il pul mükafatı təqdim olunur,

XIX əsrin əvvəlində Abşeronda təxminən 100 qara və 15 ağ neft istismar olunan quyulardan əl gücü və at qoşqusunun köməyi ilə “qara qızıl” çıxarılırdı. Neftin hamısı arabalarla Bakıya daşınırdı, çənlərdə və anbarlarda saxlanılır, oradan isə alıcılara satılırdı.

O illərdə neftə tələbat artmaqda idi. Lakin neft hasilinin çoxalması üçün onun istehsalında yeni texnika və texnologiyadan istifadə tələb olunurdu.

Ölkədə kapital çatışmamazhğı üzündən belə tədbirlərin həyata keçirilməsi böyük çətinliklərlə üzləşirdi. Neft verən torpaqların və işçi qüvvəsinin ucuzluğu şəraitində yerli, işgüzar insanlar az sərmayə qoymaqla neft hasilatı ilə məşğul olan kiçik müəssisələr açmışlar.

O illərdə neft hasilatının artması üçün belə müəssisələrin təşkili əsas çıxış yolu olmuşdur. Qısa bir müddətdə onların sayı sürətlə çoxalmış və 1870-ci ildə kiçik sahibkarların əllərində neft buruq- larının 88 faizi cəmlənmişdir. Kiçik neftayırma zavodlarının sayı artmaqda idi. Birinci zavod 1859-cu ildə işə başladığı halda onların sayı 1867-ci ildə 15-ə çatmışdır. Bakıda 1880-ci illərdə fəaliyyət göstərən kiçik neftayırma zavodlarının 46-dan 24-nün sahibkarları azərbaycanlılar olmuşdur. Əsrin axırlarında neft sənayesinin 176 iri firma və müəssisələrinin 49-u onlara məxsus idi.

İlkin neft istehsalı 10 milyon puddan çox olan firmalar arasında ancaq 3 nəfər azərbaycanlı - H. Z. Tağıyev, M. Nağıyev və Ş. Əsədullayev olmuşdur. H.Z. Tağıyev Bakıda böyük neft təsərrüfatı yaratmışdır, 1896-cı ildə Londonda təşkil olunmuş “Bakı- Rus” neft cəmiyyətinin direktorlarından biri olmuşdur. Ş. Əsədullayevin firması ən iri, əsas kapitalı 10 milyon rubl olan neft: şirkətinə çevrilmişdir.

Xarici kapital sahibləri çalışırdılar ki, Bakının neft sənayesini öz əllərində cəmləşdirsinlər. 1875-ci ildə İsveçli Nobel qardaşları 8 min rubla Qara şəhərdə kiçik bir neftayırma zavodu, Sabunçuda isə

dilindəki həmin mənada olan “boq” sözü ilə) və məkan bildirən “u” yəni - “Allahlı yer deməkdir”.

Zərdüşt Peyğəmbər Azərbaycanın Urmiyyə şəhərində e.ə. altı əsr qabaq doğulmuşdur, öz təlimini on iki min inək dərisi üzərində yazılmış müqəddəs '‘‘Avesta” kitabında ifadə etmişdir.

Bu gün Azərbaycan haqqında məlumatlar bütün dünyaya yayılır. Bakı neft hasil edən bir mərkəz kimi dünyada tanılır və məşhurlaşır, Abşeron nefti VII əsrdən daha əvvəl dəvələrlə Şamaxıya, Naxçıvana, Həştərxana və digər şəhərlərə, habelə Gürcüstana, İrana və Hindistana daşınıbdır. Orta əsrlərdə əhali yaşayış yerlərinin işiqlaşdınimasında, istiləşdirilməsində, müalicə məqsədilə və yanacaq kimi neftdən geniş istifadə edibdir. Evlərin damlarına qır tökmək ilə onların davamlı olmasına nail olmuşlar.

Bu zaman Bakı əhalisinin əksəriyyəti neft çıxarmaqla gəmilərə, araba və çəlləklə yüklənmiş dəvələrlə başqa yerlərə neft göndərməklə məşğul olurmuş. Bakı Mərkəzi Asiya, İran, Orta Şərq bazarlarına və Avropanın bir hissəsinə neft ixrac edən mərkəzə çevrilmişdir.

Venesiyalı səyyah-tacir Marko Polo Bakının neft axarı quyuları barəsində məlumatı yazılarında 1291-ci ildə vermişdir. Qərbi Avropanın Bakı neftinə marağı artdığı vaxtda Londonda 1555-ci ildə yaranmış “Moskva şirkəti” öz ticarət agentlərini Rusiya vasitəsilə Azərbaycana və irana göndərməyə başlamışdır. İngilis şirkətlərinin Bakıya ilk səfəri 1568-ci ildən I574-cü ilədək davam etmişdir.

Azərbaycanın zəngin təbii neft sərvəti 100 illərlə yaxın və uzaq ölkələrə daşınıbdır. Oralar da bu neftdən öz maraq və istəkləri üçün istifadə edərək bəhrələnmişlər.

Tarixi sənədlərdən görünür ki, əsrlər boyu bir-birini 'əvəz edən dövlət formasiyalarının tərkibində olan neçə-neçə ölkələrin istilik və işıqla təmin olunmasında, enerji və sənaye potensialının artmasında, həmçinin kapital bazarlarının yaradılmasında Azərbaycan neftinin misilsiz rolu olmuşdur. Neftdən alınan gəlirlərin hesabına vaxtı ilə Nobel qardaşları tərəfindən yaradılmış

və iqtisadi islahatların həyata keçirilməsi üçün mühüm xeyir verəcəyini qeyd etdilər.

Hər iki ölkə enerji təhlükəsizliyi məsələlərinə xüsusi diqqət yetirdiklərini və Avropanın enerji təchizatında Xəzər bölgəsinin mühüm rol oynadığını qeyd etdi. Onlar Avropa Birliyi ilə bu regionun ölkələri arasında enerji sahəsində əməkdaşlığın möhkəmləndirilməsini ai'zu etdiklərini bildirdilər və bu münasibətlə 7 noyabr 2006-cı il tarixdə AB ilə Azərbaycan Respublikası arasında enerji sahəsində tərəfdaşlıq haqqında memorandumun imzalanmasını alqışladılar.

Azərbaycan və Fransa mədəniyyətlərarası dialoqun vacibliyi, həmçinin, o cümlədən din və etiqad azadlıqlarının inkişafına və sivilizasiyaların qovuşmasına özlərinin dəstəyini ifadə etdilər. Tərəflər sülh, azadlıq və ədalət üçün münbit şərait yaratmaq naminə mədəniyyətlərarası əlaqələrin və anlaşmanın genişləndirilməsinin vacibliyini vurğuladılar.

Hər iki ölkə yüksək səviyyədə qarşılıqlı səfərləri davam etdirmək barədə razılığa gəldi. Fransa Respublikasının prezidenti
2007- ci ilin birinci yarısında Azərbaycan Respublikasına səfər etməyi nəzərdə tutur.

Azərbaycan - Fransa əlaqələri Prezident İlham Əliyevin bu dövlətə səfəri ilə keyfiyyətcə daha yeni mərhələyə qədəm qoymuş oldu.

AZƏRBAYCANIN NEFT TARİXİ VƏ NEFT STRATEGİYASI. Azərbaycan qədim odlar yurdu kimi tanınmışdır. Qədim dövrlərdən Abşeron yarımadasının Xəzər dəniz sahilinin ərazisi neft fəvvarələri və quyuları ilə məşhur idi. Burada məskunlaşmış insanlar, eramızdan hələ 2500 il əvvəl neftdən məişətdə istifadə ediblər. Ulu babalarımız dərinliklərdən çıxan yanan neft qazlarına səcdə qılıb ilahiləşdiriblər. 600 il eramızdan əvvəl Zərdüşt dininə sitayiş etməyə başlamış əcdadlarımız Suraxanıda əbədi od yanan iqamətgahı özlərinin ziyarətgahına çevirmişlər. Bakı .sözünün etimoloji mənası da “Avesta”dakı Bak W Bağ - Allah (müq. et: rus

şirkətlərini Azərbaycanda bu sahənin inkişafındakı mühüm iştirakından razı qaldıqlarını qeyd etdilər. Onlar Azərbaycan ilə Fransa arasındakı ticarət mübadiləsinin müsbət şəkildə artmasını alqışladılar və iqtisadi əlaqələrin daha da dərinləşməsi və Azərbaycanda qoyulan fransız investisiyalarının müxtəlifləşdirilməsi üçün çalışmaq istəyində olduqlarını təsdiqlədilər.

Hər iki ölkə mədəniyyət, təhsil, səhiyyə və sosyal müdafiə sahəsində mövcud əməkdaşlığın dərinləşdirilməsinə, həmçinin qarışıqlı mədəniyyət günlərinin təşkilinə mühüm önəm verdiklərini qeyd etdi”.*

Bəyannamədə qlobal təhlükələrlə bağlı məsələlər də əksini tapmış, Ermənistan - Azərbaycan , Dağlıq Qarabağ münaqişəsinə mühüm yer verilmişdir. Bəyanatda deyilir ki, Azərbaycan və Fransa yeni qlobal təhlükələr olan beynəlxalq terrorizmə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların satışı ilə məşğul olanlara, kütləvi qırğın silahlarmnın yayılmasına, transmilli cinayətkarlığa, qanunsuz silah və insan alverinə qarşı daha yaxşı mübarizə aparmaq üçün ikitərəfli və çoxtərəfli əməkdaşlığa yeni təkan vermək istədiklərini təsdiqlədilər.

Hər iki ölkə ATƏT-in Minsk qrupunun Rusiya, ABŞ və Fransadan olan həmsədrlərinin vasitəçiliyi ilə Dağlıq Qarabağ münaqişəsinin həllinə dair baza prinsiplərinin razılaşdırılması üzrə tərəflərin mövqelərinin yaxınlaşması ilə əlaqədar danışıqlarda irəliləyişlərin olduğundan məmnun qaldığım ifadə etdi. Onlar münaqişənin sülh yolu ilə, ədalətli və tez həlli üçün səylərin daha da artırılmasının vacibliyini qeyd etdilər. Famsa Prezidenti Böyük səkkizliyin dövlət və hökümət başçılarının 2006-cı il iyul ayında Sankt-Peterburqda keçirilən sammiti zamanı Minsk qrupu həmsədrlərinin səylərini dəstəklədiklərindən məmnun qaldığını qeyd etdi.

Sənəddə daha sonra deyilir: “Azərbaycan və Fransa yeni qonşuluq siyasəti çərçivəsində AB və Azərbaycan arasında Fəaliyyət planının siyasətinin Cənubi Qafqazın sabitliyi və bu regionda siyasi

**' Yeııo orada**

Avropanın ən gədim, ən çox təcrübəsi olan və ən demokratik qanunvericilik orqanlarından birinin - Fransa Senatının sədri Azərbaycan Prezidenti İlham Əliyevə müraciət edərək dedi: "Sizin rəhbərliyiniz altında Azərbaycan çox böyk nailiyyətlər əldə etmişdir. Bu gün Azərbaycanda böyük inkişaf var, iqtisadiyyatı inkişaf edir. Bilirik ki, Azərbaycanın neft sənayesində böyük inkişaf var. Lakin eyni zamanda, qeyd etmək istəyirik ki, cənab Prezident, Sizin kimi böyük dövlət xadimi mədəniyyət, incəsənət sahəsinə də xüsusi diqqət yetirir. Bu, Azərbaycan mədəniyyətinin inkişafına öz töhfəsini verəcəkdir".

Azərbaycan-Fransa əlaqələri qarşısında açılacaq geniş yol hələ qabağdadır.

Əsası H. Əliyev tərəfindən qoyulmuş Azərbaycan-Fransa münasibətlər İlham Əliyevin prezidentliyi dövründə də səmərəli şəkildə davam etdirildi. Fransa Respublikasının Prezidenti Jak Şirakın dəvəti ilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Fransaya dövlət səfərinin (29-31 yanvar 2007-ci il) yekunları ilə əlaqədar bir neçə mühüm sənəd imzalanmışdır. Səfərin sonunda hər iki ölkə arasında Birgə Bəyannamə qəbul edilmişdir.

Bəyannamədə deyilir: "Azərbaycan və Fransa "Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq" sazişində sadalanmış prinsip və məqsədlərə sadiq qaldıqlarını xatırladırlar. Bu çərçivədə Fransa Azərbaycan müstəqilliyini, suverenliyini bir daha bəyan etdi. Hər iki ölkə ikitərəfli münasibətlərin bütün sahələrində müsbət inkişaf etdiyini və bütün səviyyələrdə fəal və dərİn siyasi dialoqun davam etdirilməsini vurğuladılar".'

Bildirlilir ki, hər iki öləkə öz münasibətlərini insan hüquqlarına və həmçinin demokratiya, hüquqi dövlət və bazar iqtisadiyyatı kimi dəyərlərə hörmət çərçivəsində inkişaf etdirməkdə maraqlı olduğunu qeyd etdi. Bəyannamədə qarışıqlı əməkdaşlıq məsələsinə geniş yer verilmişdir. Sənəddə deyilir: "Azərbaycan və Fransa enerji sahəsində əməkdaşlığın səviyyəsində və Fransa

**"A/.orbaycan" qoz., 1 fevral 2007 il.**

ləndirirlər, Avropanın ən aparıcı dövlətlərinin başçıları Ermənistanı işğalçı dövlət kimi tanıyır, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zərurətini açıq bəyan edir. Avrasiya məkanında rəsmi Bakının söz sahibi olduğunu etiraf edirlər. Çox müsbət haldır ki, bu fikirləri təkcə ayrı-ayrı siyasətçilər və ya hansı dövlətin başçısı deyil, ən mötəbər beynəlxalq təşkilatlar da söyləyirlər.

Siyasi müşahidəçilərin fikrincə, bütün bunlar Heydər Əliyev siyasi uzaqgörənliyi nəticəsində əsası qoyulmuş uğurlu xarici siyasətin və İlham Əliyevin göstərdiyi qətiyyət, prinsipiallıq və əzmkarlığm nəticəsində mümkün olmuşdur. Həm ümummilli liderimizin, həm də bugünkü Azərbaycan Prezidentinin Avropaya istənilən səfəri müstəqil Azərbaycanın problemlərinin həlli istiqamətində mühüm addımlar atılması ilə nəticələnib. Bu baxımdan Prezidenti İlham Əliyevin Avropanın ən aparıcı dövlətlərindən olan Fransaya 2004-cü il yanvarın üçüncü ongünlüyündə və həmin ilin sentyabrın 7-də reallaşdırdığı səfərlər xüsusilə mühüm əhəmiyyət kəsb edir.

Dövlət başçımızın Parisə sonuncu səfəri barədə söz açarkən bir məqamı xüsusilə vurğulamağa ehtiyac vardır. Belə ki. Prezident İlham Əliyev yanvarın 22-də Parisə rəsmi səfərə getmişdi. Ona görə də təntənəli qarşılanma və geniş tərkibli görüşlərin keçirilməsi tamamilə təbii idi. Sentyabrın 7-də başlanan səfər isə işgüzar səfər İdi. Ancaq buna baxmayaraq, rəsmi Paris İlham Əliyevi yenə də eynilə rəsmi dövlət səfərində olduğu kimi, böyük ehtiram və hörmətlə qarşıladı. Əlbəttə, bu amili Azərbaycan - Fransa əməkdaşlığının inkişaf etməsiylə bağlayanlar tamamilə haqlıdırlar. Ancaq bir çox Avropa ekspertləri bunu cənab İlham Əliyevin şəxsi nüfuzu ilə də əlaqələndirirlər. Həmin fikirdə olan ekspertlərin rəyini təsdiqləməyə ehtiyac olmasa da, səfər çərçivəsində səslənmiş anoloji ifadələrdən birini yada salmağa ehtiyac var. Belə ki, sentyabrın 8-də - səfərin ikinci günü Fransa Senatının muzeyində Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərginin rəsmi açılış mərasimində çıxış edən Fransa Senatının sədri Kristian Ponsöle Azərbaycan Prezidentinin böyük dövlət xadimi olduğunu söylədi.

bildirir və qeyd edirdi ki, “Fransa hökuməti erməni qüvvələrinin Kəlbəcərdən çıxması tələbi ilə müxtəlif səviyyələrdə çıxış etmişdir”. F. Mitteran öz məktubunda Azərbaycan rəhbərliyinin münaqişəni Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Minsk Qrupu çərçivəsində nizamlamaq yollarının axtarışını davam etdirməyə çağırırdı.

1993 ilin 2-ci yarısından başlayaraq Fransa-Azərbaycan münasibətlərində xeyli dəyişiklik baş verdi. 13.VIlI.l993-də Fransanın səfiri Azərbaycan prezidentinin səlahiyyətini yerinə yetirən H. Əliyev tərəfindən qəbul olundu. Səfir Fransa nümayəndəsinin Avropa Bankının sədri seçilməsində də xüsusi təşəbbüs göstərməsinə görə Fransanın baş nazirinin təşəkkür məktubunu təqdim etdi. 19-21.XII. 1993 ildə Azərbaycan prezidentinin Fransaya ilk rəsmi səfəri oldu. Yeliseyev sarayında 2 ölkə arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə imzalandı. Bu səfər gedişində “Paris xartiyası” adlı daha bir sənəd imzalandı. Bu sənədə qoşulmaqla Azərbaycan rəsmi şəkildə BMT Nizamnaməsinə, təhlükəsizlik və əməkdaşlıq haqqında beynəlxalq normalara və prinsiplərə dönmədən əməl edəcəyini təstiqləməklə bərabər, həm də öz təhlükəsizlik və ərazi toxunulmazlığı problemlərini dünyanın ümumi təhlükəsizliyilə sıx bağladı.

1995-1996 illərdə Azərbaycan prezidenti H. Əliyev üç dəfə Fransa Respublikasında səfərdə oldu: V.1995 ildə faşizm üzərində qələbənin 50 illiyi yubiley tədbirlərində, XII. 1995 ildə Parisdə Ümumdünya Bamkının təşkil etdiyi “Azərbaycan üçün investisiyalar” mövzusunda beynəlxalq konfransda və 1996 ildə Fransa prezidenti F.Mitteranın vəfatı ilə bağlı. Sonuncu səfər zamanı həmçinin Fransanın “Elf-Akinet” kompaniyasının Xəzər dənizində neft yataqlarının istismarında Azərbaycanla əməkdaşlıq etməsi barədə razılıq əldə edildi.

11.10.1996-C1 ildə Fransanın Xarici İşlər xaziri Bakıda oldu.

Müasir Avropa siyasətçiləri dünyada gedən ictimai-siyasi prosesləri, cəmiyyətin inkişaf meyllərini və xüsusən, inkişaf dinamikasında şəxsiyyətin rolunu dəqiqliklə, obyektivcəsinə qiymət-

Azərbaycan iri neft və qaz yataqlarına, Belarusun isə müasir, güclü neft-kimya kompleksinə malik olması enerji sahəsində qarşılıqlı fayda verəcək əməkdaşlığa bir əsasdır. Belarus öz ərazisindən nəql olunan neftin, o cümlədən Xəzər neftinin həcminin artırılmasında maraqlıdır. Biz Xəzər neftinin Baltikyanı ölkələrə və Polşaya nəqli üçün öz infrastrukturumuzu təqdim etməyə hazırıq. Heydər Əliyevlə danışıqlar zamanı Belarus mallarının qonşu ölkələrə aparılmasında Azərbaycanın tranzit imkanlarından istifadə barədə razılığa gəlmişdik. Belarus-Azərbaycan əlaqələrində qapalı mövzular yoxdur. Azərbaycan böyük maliyyə resurslarına malikdir və bu vəsait yol, aeroport tikintilərinə, kənd təsərrüfatına, yeni istehsal sahələrinin yaradılmasına istiqamətləndirilir. Azərbaycana yüksək məsuliyyət və mədəniyyətlə getmək lazımdı, bu biznesin əsasıdır".

Azərbaycan Prezidenti İlham Əliyevin Belarusiyaya səfəri çərçivəsində iki ölkə arasında bir neçə dövlətlərarası sazişlər imzalanıb. Tərəflər beynəlxalq kombinə olunmuş yük daşımaları haqqında hökümətlərarası sazişə, nəqliyyat sahəsində əməkdaşlığa dair memoranduma, bədən tərbiyəsi və idman, təhsil, kiçik sahibkarlıq və kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair sazişlərə imza atıblar. Bundan başqa iki ölkənin Fövqəladə Hallar nazirlikləri arasında əməkdaşlığa dair də sənəd imzalanıb. Minskdə imzalanan dövlətlərarası sazişlər arasında milli teleradioşirkətləri arasında da əməkdaşlıq barədə sənəd də var. Azərbaycan - Belarus münasibətləri səmərəli inkişaf etməkdədir.

**AZƏRBAYCAN - FRANSA MÜNASİBƏTLƏRİ.** 3.1.1992 ildə Fransa Azərbaycanın müstəqilliyini tanıdı, 21.11.1992-ci ildə isə Azərbaycanla diplomatik münasibətlər qurdu.

Fransa höküməti Qarabağ probleminin həllində Azərbaycanlım ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərini əsas götürürdü. May 1993-cü ildə Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişləndiyi bir dövrdə Fransa prezidenti F. Mitteran göndərdiyi məktubda "Dağlıq Qarabağ ətrafında hərbi əməliyyatların genişləndirilməsindən Fransanın çox narahat olduğunu"

energetika sahəsində birgə iri layihələrin həyata keçirilməsinə başlamalıdır. Belarus Prezidenti hesab edir ki, iki ölkə arasında əmtəə mübadiləsinin artırılması üçün bütün imkanlardan səmərəli istifadə olunmur. 2005-ci ildə əmtəə mübadiləsinin 30 milyon ABŞ dolları olduğunu deyən Belams prezidenti 2004-cü illə müqayisədə bu rəqəmin 85% artdığını bildirib: "Bu yaxşı dinamikadır, amma biz bu rəqəmi dəfələrlə artıra bilərik. Əminəm ki, İlham Əliyevin səfəri buna təkan verəcək". O, Belarusun Azərbaycana, əsasən, traktor, yük avtomobilləri, yol texnikası, faner, Azərbaycanın isə Belarusa mahlıc, tütün, ərzaq malları ixrac etdiyini söyləyib.

Azərbaycanın Belarusla əlaqələrinin daha da intensiv inkişafında maraqlı olduğunu deyən İ. Əliyev A. Lukaşenkonu Bakıya rəsmi səfərə dəvət edib. Səfərin çox dinamik inkişaf edən ikitərəfli əlaqələrin əsas elementi adlandıran İlham Əliyevin sözlərinə görə, Belarus böyük iqtisadi, sənaye və intelektual potensiala malikdir. Belarusda aparılan sosial siyasətin vacibliyini vurğulayan İlham Əliyev bunu düzgün siyasət adlandırıb. Prezident imzalanacaq sənədlərin Azərbaycanla Belarus arasında əməkdaşlığın inkişafı üçün ciddi hüquqi baza olacağını deyib: "Biz Belarusa dost, patriot ölkə kimi baxırıq, bu ölkə ilə münasibətləri də inkişaf etdirmək istəyirik. Əminəm ki, səfər çərçivəsində əməkdaşlığın yeni istiqamətləri müəyyənləşəcəkdir".

Danışıqlardan sonra Azərbaycan və Belarus arasında sosial-iqtisadi əməkdaşlıq haqqında dövlətlərarası müqavilə imzalanıb. Saziş on illik müddəti nəzərdə tutur. Bu müqavilə iki ölkə arasında sosial-iqtisadi, humanitar, mədəni və regionlararası əməkdaşlığın inkişafına xidmət edəcək. Hökümət heyətləri arasında keçirilən danışıqlar zamanı Azərbaycanda Belarus traktorlarının yığılması, aqrar-sənaye sektorunun keyfiyyətli və etibarlı kənd təsərrüfatı texnikası ilə təmin olunması üzrə layihələr müzakirə olunub. Belarus prezidenti A. Lukaşenko azərbaycanlı həmkarı İlham Əliyevlə danışıqlar zamanı Belarusun Azərbaycan ilə neft və qaz sahəsində əməkdaşlıq etməsinə dair prinsipial razılıq əldə olunduğunu deyib: "Azərbaycanla bu sahədə əməkdaşlıq çox perspektivlidir.

Cənab İlham Əliyevin Almaniyada fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin rəhbərləri ilə görüşü dünyada diasporumuzun formalaşması və möhkəmlənməsi baxımından böyük əhəmiyyət kəsb edib. Azərbaycanın mövqeyinin güclənməsi və bölgədə liderliyi ələ alması proses olaraq dünyada yaşayan azərbaycanlıların da mövqeyini möhkəmləndirib. Dövlətimizin başçısının vıırğuladığı kimi, bizim gücümüz hər bir azərbaycanlının gücüdür, Azərbaycan dövlətinin gücüdür. Bu güc, diaspor hərəkatımızın genişlənməsi, dünyadakı erməni lobbisinin Azərbaycan əleyhinə fəaliyyətinin qarşısının alınması, eləcə də ölkəmizdə cərəyan edən müsbət proseslər barədə həqiqətlərin dünyada geniş təbliği baxımından da çox mühümdür.

2007-ci ilin əvvəlində prezident İlham Əliyevin Almaniyaya səfəri ilə iki dost ölkə arasında qarşılıqlı faydalı əlaqələr münasibətlərimizin yüksələn xətlə inkişafı üçün yeni mərhələdir.

**AZƏRBAYCAN-BELORUSİYA MÜNASİBƏTLƏRİ. İki** ölkə arasında diplomatik əlaqələr 11. VI. 1993 ildə yaradılıb. Tərəflər arasında "İkili vergidən qaçılması, gəlirlərə və əmlaka görə vergiləri ödəməkdən yayınmanın qarşısının alınmasına dair Konvensiya" və "Malların (işlərin, xidmətlərin) idxalı və ixracı zamanı vasitəi vergilərin tutulması prinsiplərinə dair Saziş" layihələri razılaşdırılmış və bununla bağlı 1998 ildə Memorandum və protokol imzalanmışdır, V.1998 ildə Belorusun ədliyyə naziri Bakıda səfərdə olarkən iki ölkənin ədliyyə nazirlikləri arasında da əməkdaşlığa dair saziş imzalandı.

17-18 oktyabr 2006-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev dost Belarusiyaya rəsmi səfərdə olmuşdur. Belarusiya prezidenti Aleksandr Lukaşenko bu görüşdə deyib ki, ölkəsi Azərbaycanla istənilən sahədə əməkdaşlıq etməyə hazırdir: "Digər qardaş ölkələr kimi Azərbaycanla əməkdaşlıq üçün də qapalı mövzu yoxdur". A. Lukaşenko bu səfərin gələcək əməkdaşlıq üçün geniş perspektivlər açacağına ümid etdiyini söyləyib. Belarus prezidenti deyib ki, ölkəsi ilə Azərbaycan yaxın vaxtlarda sənaye və

və birgə müəssisələrin yaradılması barədəki sazişləri xüsusi qeyd etmək lazımdır.

Dövlətimizin başçısının Konrad Adenauer Fondu tərəfindən təşkil olunmuş tədbirdə iştirakı və çıxışı çox böyük maraqla qarşılanıb. Xatırladaq ki, dünyada çox böyük nüfuzu olan fondun geniş tərkibli tədbirində Almaniya cəmiyyətinin müxtəlif sahələrinin nümayəndələri iştirak edib. Həmin görüşdə Azərbaycanda gedən müsbət proseslər, eləcə də Ermənistanın ölkəmizə təcavüzü, torpaqlarımızın işğalı barədə geniş məlumat verilib. Dövlətimizin başçısına ünvanlanan çoxsaylı sualların daha çox Azərbaycanın regiondakı fəaliyyəti və roluna, həyata keçirilən qlobal layihələrə həsr olunması göstərir ki, Almaniya ölkəmizin siyasi və iqtisadi çəkisini, yürütdüyü müstəqil siyasətinin əhəmiyyətini düzgün qiymətləndirir.

Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən Bakı-Tblisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin reallaşması siyasi və iqtisadi çəkimizi artırmaqla yanaşı, həm də ölkəmizi regionda sülhün və əmin-amanlığın qarantına çevirib. Bu mənada Azərbaycan vasitəsilə Avropanı Asiya ilə birləşdirəcək Bakı- Tbilisi-Qars dəmir yolunun strateji əhəmiyyəti olduqca böyükdür. Müstəqil Azərbaycan dövlətinin strateji uğuru olan bu transmilli nəhəng layihələr ölkəmizin Qərbə inteqrasiyasının genişlənməsinə, Avropa İttifaqı ölkələri üçün çox önəmli olan qlobal enerji təhlükəsizliyi prosesinin sürətlənməsinə güclü təkan verib.

Prezident İlham Əliyevin Almaniyaya bu rəsmi səfəri ölkələrimiz arasında əməkdaşlığın keyfiyyətcə yeni mərhələsinin əsasını qoyub. Dövlətimizin başçısının federal kansler Angela Mcr- kel ilə görüşündə əlaqələrimizin uğurla inkişaf etdiyi xüsusi vurğulanıb. Almaniya tərəfi gələcəkdə də Azərbaycanın Avropa İttifaqına sıx inteqrasiyası istiqamətində hər cür dəstək verəcəyini bildirib. Əsası odur ki, ölkəmiz üçün taleyüklü məsələ olan Emıənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Almaniya dövləti öz qəti və prinsipial mövqeyini bir daha ortaya qoyub. Bəyan edilib ki, Almaniya bu münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdardır.

Həqiqətən də, son üç ildə (2003-2006) Azərbaycanda baş verən müsbət proseslər, əldə olunan möhtəşəm uğurlar, iqtisadiyyatın artım tempinə görə dünyada lider mövqeyə yüksəlməyimiz, bütün dünyada böyük rezonans, maraq doğurub. Bu mənada da Almaniyanın işgüzar dairələrinin, kütləvi informasiya vasitələrinin ölkəmizə daim artan marağını başa düşmək çətin deyil. Təsadüfi deyil ki, Almaniya şirkətlərinin rəhbərləri Berlinin “Adion Kem- pinski” mehmanxanasında keçirilən görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdəki mövcud potensial imkanlar barədə məlumatlarını çox diqqətlə izləyiblər. Azərbaycanın təkcə enerji sahəsində deyil, qeyri-neft sektorunda da inkişafını nəzərə çatdıran dövlətimizin başçısı son iki ildə ÜDM-in artım tempinin ümumilikdə 60 %-ə yüksəldiyini, beləliklə, biznesin tərəqqisi və daha böyük infrastruktur layihələrin həyata keçirilməsi üçün geniş imkanların yaradıldığını bildirdi: “Ümumiyyətlə, iqtisadiyyatımız neftin və qazın qiymətlərindən asılı olmayacaqdır. Bu, bizim məqsədimiz, gündəliyimizdir. Bu gün artıq biz gözəçarpan maliyyə resurslarına malikik və xarici sərmayələrin cəlbini də davam etdirmək istəyirik. Ancaq bunu iqtisadiyyatda yeganə yol kimi görmürük. Artıq bizim öz resurslarımız var və bundan istifadə elmək istəyirik”.

Prezident İlham Əliyevin Azərbaycan-Almaniya biznes forumundakı və Konrad Adenauer Fondunun “Azərbaycan XXI əsrdə - inkişaf və perspektivlər” mövzusunda keçirdiyi tədbirdəki nitqində də bu məsələlər ətraflı şərh olunub. Həqiqətən də, son 10 ildə iqtisadiyyatımıza 30 milyard dollar sərmayə qoyuluşu Azərbaycanın xarici investorlar üçün cəlbedici ölkəyə çevrildiyinin əyani təsdiqidir. Təsadüfi deyil ki, Almaniyanın iş adamları ölkəmizin qeyri neft sektoruna sərmayə qoymaq istədiklərini açıq şəkildə bildirdilər, Azərbaycan və Almaniyanın qurumları arasında biznes istiqamətində əməkdaşlığa dair 6 sənədin imzalanması da bunun nəticəsidir. İmzalanmış sənədlərin içərisində Azərbaycanda dəyəri 30 milyon avro olan elektrik stansiyasının inşasını, 3 milyon avro dəyərində nəqliyyat vasitələrinin alınmasını, eksklüziv təmsilçilik

humanitar yardım göstərilməsi məqsədilə konkret layihələrin və texniki yeniləşmələrin həyata keçirilməsi üçün daha 20 mln. alman markasi ayırıb.

1- 04.VII. 1996 ildə H. Əliyevin AFR-ə rəsmi səfəri zamanı aşağıdakı sənədlər: 'Tədqiqatlar və mütəxəssislər fondu yaradılması haqqında" saziş, "SSRİ ilə AFR arasında bağlanmış müqavilələrin qüvvədə qalması haqqında" protokol, "Təcili yardım - Bakı hava limanı" layihəsi üzrə maliyyə əməkdaşlığı haqqında saziş imzalandı. Bundan əlavə, Azərbaycan Respublikası Milli Bankı ilə AFR-in Doyçe Bankı arasında maliyyə əməkdaşlığına dair memorandum, Azərbaycan Beynəlxalq Bankı ilə AFR Bankları Konsorsiumu arasında kredit xətti açılmasına, Almaniyanın kənd təsərrüfatı sənayesi, avtomobil, dəmiryolu və hava nəqliyyatı sahəsində təcrübəsindən və qabaqcıl texnoloji imkanlarından Azərbaycanın bəhrələnməsi üçün hər cür imkan yaradılması nəzərdə tutulub.

Azərbaycan -Alman münasibətlərinin yüksələn xəttlə inkişafı bugün də davam edir. Bu cəhətdən Azərbaycan prezidenti İlham Əliyevin 22-23.09. 2006-cı ildə Almaniyaya səfəri iki ölkə münasibətlərində ciddi rol oynayacaqdır.

Prezident İlham Əliyevin 19-21 fevral 2007-ci ildə Almaniyaya rəsmi səfəri zamanı aparılan danışıqlar, bu ölkənin yüksək səviyyəli rəsmilərinin, xüsusən də federal kansler Angela Merkel, xarici işlər naziri Frank Valter Ştaynmayer, Bundesratın sədri Harald Rin- qştorffun bəyanat və açıqlamaları AFR-in də Azərbaycanla münasibətlərin inkişafına xüsusi önəm verdiyini təsdiqləyir. Səfər çər- şivəsində çoxsaylı görüşlər zamanı yalnız ikitərəfli əlaqələrin müzakirəsində deyil, həm də dövlətimizin başçısının regional və qlobal məsələlərə münasibətinin öyrənilməsinə böyük maraq göstərilməsi bu reallığın təzahürüdür. Azərbaycanın beynəlxalq aləmdə daim artan rolu, günbəgün möhkəmlənən mövqeyi Qərbdə, o cümlədən bizə dost ölkə olan Almaniyada razılıqla qarşılanır və yüksək dəyərləndirilir. Təbii ki, Azərbaycanın müstəqil xarici siyasət yürütməsi, regionda irimiqyaslı və dünya əhəmiyyətli layihələri reallaşdırması Avropaya inteqrasiya prosesinə güclü təkan verib.

publikasının prezidenti H. Əliyevlə AFR prezidenti Roman Hersoqun görüşü keçirildi. Hər iki tərəfi maraqlandıran məsələlər barəsində müzakirələr oldu. Mayın 7-də H. Əliyev AFR xarici işlər naziri K. Kinkel ilə Londonda görüşündə tərəfləri maraqlandıran məsələlər ətrafında söhbət getdi. AFR-in iqtisadi əməkdaşlıq və inkişaf üzrə federal naziri K. Sirangerin başçılıq etdiyi nümayəndə heyətinin may 1995 ildə Bakıya gəlişi iki ölkə arasında əməkdaşlığın geniş vüsət almasına təkan verdi.

AFR xarici işlər nazirinin Bakıya səfəri zamanı "Azərbaycan - Almaniya qarşılıqlı münasibətlərinin əsaslarına dair birgə bəyanat", "Azərbaycan və AFR hökümətləri arasında mədəni əməkdaşlıq haqqında saziş", "Azərbaycan və Almaniya hökümətləri arasında əsgər məzarlarının yaxşı vəziyyətdə saxlanılması haqqında saziş", "AR və AFR arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında müqavilə", "Azərbaycan və AFR arasında maliyyə əməkdaşlığı haqqında Memorandum" və s. sənədlər imzalandı.

Ermənistan-Azərbaycan münaqişəsi yüksək səviyyəli Almaniya - Azərbaycan görüşlərində həmişə müzakirə mövzusu olub. 21.VIII.1995 ildə H. Əliyev ATƏT-in Minsk Qrupundakı AFR nümayəndəsi səfir F.Lambaxla, 22.VlII.1995-də AFR Bundestaqının Qafqaz qrupunun rəhbəri, ATƏT-in Parlament məclisinin vitse- prezidenti V. Vimmerlə görüşündə sözügedən mövzu ətrafında geniş fikir mübadiləsi apardı.

Almaniya Azərbaycana ən fəal humanitar və texniki yardım göstərən ölkələrdən biridir: Bərdə, İmişli və Naftalan rayonlarının ərazisində məcburi köçkünlər üçün bir neçə şəhərcik tikilib isti- fafəyə verilib. Almaniya həmçinin Azərbaycanda beynəlxalq aeroportun tikintisinin başa çatdırılması və uçuşların təhlükəsizliyinin etibarlı sisteminin yaradılması üçün 40 il müddətinə 10 milyon alman markası məbləğində güzəştli kredit, müvafiq kadrların hazırlanması məqsədi ilə Azərbaycana əvəzsiz olaraq 11,4 mln. alman markası ayırdı. Bundan başqa, AFR hököməti Avropa İttifaqı, o cümlədən TASİS proqramı çərçivəsində də AR-ə

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə başlaması ilə Azərbaycan Respublikası və ABŞ arasında münasibətlər ən səmərəli mərhələyə daxil oldu.

ABŞ Prezidenti Azərbaycanın dövlət başçısı İlham Əliyevə 2006-cı il oktyabrında təbrik məktubu göndərib. Bu məktubda ABŞ Prezidenti Corc Buş 18 oktyabr - Dövlət müstəqilliyi günü münasibətilə ölkə başçısı İlham Əliyevi və Azərbaycan xalqını təbrik edib. İlham Əliyevə ünvanlandığı təbrik məktubunda C. Buş bibildirib ki, Birləşmiş Ştatlar güclü, firavan və demokratik dövlət quruculuğu sahəsində, eləcə də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Azərbaycan hökuməti və xalqının səylərini dəstəkləmək üçün əzmlə çalışır: "İraq, Əfqanıstan və Kosovo xalqlarına hökümətinizin göstərdiyi dəstəyə görə sizə təşəkkür edirəm. Biz ölkənizin terrorizmə qarşı qlobal mübarizəyə verdiyi töhfələri çox yüksək qiymətləndiririk. Mən islahatlar, enerji və təhlükəsizlik sahəsində hökümətlərimiz arasında yüksək səviyyəli əməkdaşlığın və dostluğun möhkəmləndirilməsinin tərəfdarıyam". Bu sözlərlə ABŞ prezidenti Azərbaycanla ABŞ əlaqələrinə yüksək qiymət verdiyini xüsusi vurqulamış, bugünkü Azərbaycan - ABŞ hərtərəfli əlaqələrinin sıxlığını məmnunuyyətlə qeyd etmişdir.

AZƏRBAYCAN-ALMANİYA MÜNASİBƏTLƏRİ. Azərbaycan-Almaniya münasibətləri Azərbaycan istiqlaliyyətini yenidən qazanandan sonra yeni mərhələyə daxil oldu. 20.H.1992 ildən hər iki dövlət arasında diplomatik əlaqələr, qarşılıqlı qaydada səfirlik səviyyəsində diplomatik nümayəndəliklər yaradılıb. XII. 1993 ildə AFR Bundestaqının Qafqaz üzrə komissiyasının sədri Villi Vimmer Bakıda Azərbaycan Respublikası rəhbərliyilə görüşüb. O, Almaniyanın mövqeyini açıqlayaraq, ölkəsinin sərhədlərin toxunulmazlığına dair Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin prinsipinin əsas götürdüyünü və münaqişənin həlli üçün qüvvələrini bu təşkilat çərçivəsində əsirgəməyəcəyini bildirib. 28.1.1995 ildə İsveçrənin Davos şəhərində Azərbaycan Res-

20.VI.1997 ildə ABŞ prezidenti B. Klinton, Fransa prezidenti J. Şirak və Rusiya prezidenti B. Yeltsin Dağlıq Qarabağ problemi ilə bağlı birgə bəyanat İmzaladılar. Sənəddə hər üç dövlətin prezidentləri Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə nizamlanmasına kömək etmək üçün sıx işləmək niyyətində olduqlarını bildirdilər.

Azərbaycan - ABŞ münasibətlərinin inkişafı istiqamətində növbəti addım prezident H. Əliyevin ABŞ-a ilk rəsmi səfəri zamanı atıldı. Səfər gedişində (27.VII-07.VI11.1997) beş mühüm hüquqi - normativ sənəd imzalandı:

1. Amerika - Azərbaycan münasibətlərinə dair birgə bəyanat;
2. Sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsinə dair Azərbaycan Respublikası hökuməti ilə Amerika Birləşmiş Ştatları hökuməti arasında müqavilə;
3. Birləşmiş Ştatlar ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlərə dair Birgə bəyanat;
4. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaratmaq niyyətləri haqqında bəyanat;
5. Layihələrin təşviqinə dair Baş saziş.

Azərbaycan Respublika Dövlət Neft Şirkəti (ARDNŞ) və ABŞ-ın "Şevron", "Ekson", "Mobil", "Amoko" şirkətləri arasında dəyəri 8 milyard ABŞ dolları dəyəri olan 4 neft müqaviləsi imzalandı.

Azərbaycan prezidenti iki dövlət arasında əməkdaşlıq əlaqələrinin hərtərəfli və səmərəli inkişafını təmin etmək məqsədilə 02.1X.1997 ildə "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında partnyorluq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında" sərəncam imzalandı.

İkitərəfli ticarət - iqtisadi əlaqələrin artım təmayülləri özünü göstərməkdir;

28.01.2002 ildən ABŞ prezidenti C. Buşun fərmanı ilə "907-ci əlavə" müvəqqəti olaraq aradan qaldırıldı.

2006 il may ayın 28-də "Əsrin müqaviləsinin" nəticəsi olaraq

verilirdi. Bu sənəd "907-ci əlavə"nin ləğvi istiqamətində ABŞ Konqresinin 1992 ildən bəri ilk uğurlu addım kimi qiymətlidir.

ABŞ Konqresinin nümayəndələr palatası 11.VI. 1996 ildə növbəti dəfə Azərbaycan əleyhinə qanunvericilik aktı - "Porter əlavəsi"ni qəbul etdi. Konqresmen Con Porterin əlavəsində ayrı - ayrılıqda həm Azərbaycanın, həm də Dağlıq Qarabağın qaçqın və köçkün düşmüş əhalisinə müvafiq olaraq 7:1 nisbətində humanitar yardım göstərilməsi nəzərdə tutulurdu. Sənəddə Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkib hissəsi kimi deyil, müstəqil subyekt kimi təqdim edilir və beləliklə də bərabərhüquqlu iki müxtəlif yardımlar təklif olunurdu.

Azərbaycan Respublikası hökümətinin və ABŞ Dövlət Departamentinin kəskin etirazları nəticəsində 26. Vll. 1996 ildə Senat xarici dövlətlərə yardım haqqında qanun layihəsini müzakirə edərkən onu "Porter əlavəsi" nəzərə alınmadan qəbul etdi. "Əlavə" nümayəndələr palatası və senatın əlaqələndirmə komissiyasının 17.IX.1996 ildə keçirilmiş iclasında qəti olaraq rədd edildi.

XII. 1996 ildə Dağlıq Qarabağ probleminin də geniş müzakirə olunduğu ATƏT-in Lissabon sammiti keçirildi. ATƏT-in sədri F. Kottinin bəyanatında əks olunmuş və Ermənistan - Azərbaycan münaqişəsini üç prinsip əsasında tənzimləməyi nəzərdə tutan təklif Ermənistandan savayı, bütün iştirakçı dövlətlər, o cümlədən ABŞ tərəfindən qəbul edildi.

1997 ildə təhlükəsizlik sahəsində Azərbaycan - ABŞ münasibətləri inkişaf etdirildi. 12-13. III. 1997 ildə Bakıda Azərbaycan və ABŞ arasında təhlükəsizlik və silahlara nəzarət məsələlərinə dair xarici işlər nazirləri səviyyəsində ikitərəfli məsləhətləşmələr aparıldı.

V. 1997 ildə Azərbaycan Respublikası Avropada Adi Silahlar haqqında Müqavilənin Cinah Sazişinə qoşuldu. 15.V.1997 ildə Azərbaycan və ABŞ hökümətləri "Cinah Sazişi" ilə bağlı birgə bəyanatla çıxış etdilər. Sənəddə hər iki tərəf "Müqavilə" çərçivəsində olan adi silahlar və hərbi texnikanın qeydiyyatı və nəzarəti ilə bağlı mövcud problemlərdən böyük narahatlıq keçirdiklərini bildirdilər.

ətrafında baş verən problemin həllində ATƏM-in sülhməramlı qüvvələrindən istifadə edilməsi qərara alındı.

V.1995 ildə ABŞ Konqresində Azərbaycana göstəriləcək yardımın istiqamətlərini əks etdirən "Xelms - Luqar layihəsi" müzakirə olundu. Senatorlar Xelms və Luqarın irəli sürdükləri yeni qanunvericilik sənədi "907-ci əlavə"nin bir sıra sahələr üzrə məhdudiyyətlərinin aradan götürülməsini nəzərdə tuturdu. Layihəyə görə məhdudiyyətlər qaçqın və köçkünlərə humanitar yaedım göstərilməsi və demokratik təsisatların inkişafı kimi sahələrə aid edilməməli idi. Konqresdə səs çoxluğu ilə bu layihə də rədd edildi.

Azərbaycan - ABŞ münasibətlərində hər iki dövlətin rəsmi şəxslərinin qarşılıqlı səfərləri mühüm rol oynadı.

İlk belə təmas ABŞ-ın dövlət katibi Ceyms Beykerin 11.1992 ildə Bakıya səfərilə yarandı. Bu və bundan əlavə təşkil olunmuş səfərlərdə əsas məqsəd hər iki tərəfin maraq dairəsində olan beynəlxalq məsələlərdə Azərbaycan hökümətinin mövqeyilə tanışlıq olsa da, bu görüşlər əsnasında keçirilmiş müzakirə və fikir mübadiləsi ikitərəfli əlaqələrin inkişafında təsirsiz qalmadı. Azərbaycan prezidenti H. Əliyevin BMT-nin 50 illik yubiley tədbirləri ilə əlaqədar Nyu-Yorka səfər etdi. ATƏT-in MQ-da ABŞ-ın xüsusi səlahiyyətli səfiri Cozef Pressel, ABŞ Milli Demokratiya institutunun direktoru Nelson Letski, ABŞ-ın energetika naziri xanım Oliri, konqresmen Qreq Laflİn, tanınmış siyasi xadimlər Zbiqnev Bjezinski və Henri Kissencer, ABŞ Dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri Ceyms Kollinz və b. Azərbaycana səfər etdilər.

26.1.1996 ildə Konqres Azərbaycana birbaşa humanitar yardım göstərilməsini nəzərdə tutan qanun layihəsini (konqresmen Çariz Vilsonun düzəlişi) təsdiq etdi. "Vilson düzəlişi"nədək Azərbaycana yalnız qeyri-hökümət təşkilatlarının xətti ilə yardım göstərilməsi mümkün idi. "Vilson düzəlişi"nə görə qeyri-hökümət təşkilatları tərəfindən Azərbaycana göndərilən humanitar yardım qaçqın və köçkünlərin ehtiyaclarını qənaətbəxş səviyyədə ödəmədiyi halda prezidentə əlavə yardım tədbirləri görmək hüququ

liyi açıldı.

4. V. 1994 ildə Azərbaycan Respublikasının nümayəndə heyəti Brüsseldə keçirilən NATO Şurasının iclasında ABŞ-ın xarici siyasət təşəbbüsü olan Sülh naminə tərəfdaşlıq proqramına qoşulduğunu bəyan etdi və müvafiq sənədi imzaladı.

1994 ildə ilk dəfə olaraq Konqres daxilində Azərbaycanın mövqeyini müdafiə baxımından müəyyən təşəbbüslər göstərildi:

01.1.1994 ildə nümayəndələr palatasının xarici məsələlər üzrə Komitə başçısı Li Hamilton "907-ci Əlavə"nin ləğvini nəzərdə tutan qanun layihəsi ilə çıxış etdi;

V.1994 ildə konqresmen T. Lenni nümayəndələr palatasında bəyanatla çıxış edərək "907-ci Əlavə"yə mənfi münasibət bildirdi.

5. V.1994 ildə senatorlar Q.Reyd və P. Saymon Konqresə 218 saylı qətnamə layihəsi təqdim etdilər. Qətnamədə ilk dəfə olaraq Ermənistan münaqişənin iştirakçısı kimi göstərilir və ABŞ-ın regionla bağlı siyasətində dəyişikliklərin zəruriliyi fİkri irəli sürülürdü.

16.VI.1994 ildə senator P. Lehi Dövlət Departamentinin təklifi və himayəsi ilə xarici ölkələrə 1995-ci maliyyə ili üçün yardım büdcəsini müəyyənləşdirən komitədə "əlavə"nin humanitar yardımlara aid edilməməsini nəzərdə tutan layihə verdi. Nəhayət, 20.V1.1994 ildə konqresmen T. Lenni 907 "Əlavə"nin ləğvi haqqında qanun layihəsini müzakirə üçün konqresə təqdim etdi.

Azərbaycan dövlətinin ilk beynəlxalq neft kontraktında - "Əsrin müqaviləsi"ndə ABŞ şirkətlərini ən çox payla (40%) təmin etməsi ikitərəfli siyasi münasibətlərin intensivləşməsinə səbəb oldu. Bu öz nəticəsini ATƏM -in Budapeşt zirvə görüşündə verdi. Bu görüşdə ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi bir məsələ kimi gündəliyə salındı və müzakirə olundu. ABŞ -ın yaxından köməyi nəticəsində Budapeşt sammitinin qəbul etdiyi qətnamədə Avropanın müxtəlif bölgələrində baş verən münaqişələrin, o cümlədən Ermənistan - Azərbaycan münaqişəsinin həll edilməsi ayrı-ayrı dövlətlərin inhisarından çıxarılıb, birbaşa ATƏM-in ixtiyarına verildi. Münaqişə zonalarında, o cümlədən Dağlıq Qarabağ

Azərbaycan - ABŞ münasibətləri tarixində ən anlaşılmaz və ziddiyyətli məsələ 24.X.1992 ildə Konqresin 102-cı çağırış 2-ci sessiyasının qəbul etdiyi və keçmiş SSRİ-nin Azərbaycandan savayı digər respublikalarına demokratiyanın inkişafı və bazar iqtisadiyyatına keçid məqsədilə 460 milyon ABŞ dolları həcmində yardımı nəzərdə tutan "Azadlığı Müdafiə Aktı" və ona "907-ci Əlavə"nin qəbul edilməsi oldu. "Əlavə" Azərbaycanı dövlət səviyyəsində hər cür ABŞ yardımından məhrum etdi. Bu sənəd bəzən "Əlavə"nin müəllifi, erməni seçicilərinin sayca cox olduğu Massaçusets ştatından olan senator Con Kerrinin adi ilə "Kerri düzəlişi" də adlandırılır.

Bu düzəlişin ABŞ - Azərbaycan münasibətlərində müəyyən problemlər yaratmasına baxmayaraq, Azərbaycanın xarici siyasət istiqamətlərinin təyinatında Qərbə, ABŞ-a prioritet verildi. ABŞ Konqresi isə əvvəlki mövqeyində qalırdı.

17.11.1993 ildə Konqresin nümayəndələr palatası "Dağlıq Qarabağ ətrafında mübahisələrə dair" adlı 86 saylı qətnamə qəbul etdi. Bu sənəddə Azərbaycan Ermənistanı və Dağlıq Qarabağı blokadada saxlamaqda günahlandırılır və "907-ci Əlavə"nin qüvvədə saxlanılmasının zəruriliyi "əsaslandırılırdı".

Azərbaycana qadağa tətbiq edildiyi halda Konqres təcavüzkar Ermənistan dövlətinə maddi, siyasi və mənəvi yardım göstərirdi.
1992- 1996 illərdə ABŞ-ın Qafqaz ölkələrinə yardım adı ilə ayırdığı 1,1 milyard ABŞ dollarından 600 min Ermənistanın payına düşmüşdü. Bundan əlavə qondarma "Dağlıq Qarabağ Respublikasına" Vaşinqton tərəfindən birbaşa maliyyə yardımı göstərilirdi.

Ermənistan - Azərbaycan münaqişənin başlandığı 1988 ildən ta 111. 1992 ilədək yeni problemin dinc vasitələrlə həlli məqsədilə ATƏT-in Minsk Qrupu /MQ/ yaradılanadək ABŞ böhranın nizamlanması ilə bağlı fərdi şəkildə fəaliyyət göstərirdisə, səlahiyyətli qurum yaradıldıqdan sonra onun tərkibində əməli addımlar atmağa başladı. Cozef Presscl ABŞ-ın Minsk Qrupunda ilk xüsusi səlahiyyətli səfiri oldu.

IV. 1993 ildə Vaşinqtonda Azərbaycan Respublikasının səfir-

# VI BÖLMƏ

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR

Diplomatın stolüstü kitabında aşağıdakı başqa vacib materialları da bəzi əlavələrlə verməyi lazım bildik. Materiallar əsasən müqəddimədə göstərilən və bu kitabın müəllifinin də həmmüəllifi olduğu "Diplomatiya: Ensiklopedik lüğət. Bakı, "Diplomat" nəşr., 2005" kitabından əxz olunmuşdur. Verilən materialların əksəriyyətinə müəllif ən yeni faktlar əlavə etmişdir. Xüsusilə diplomatlarımız və ümumiyyətlə xarici əlaqələr sahəsində çalışanlar üçün bu materiallar xüsusilə vacibdir. Bunlar, şəksiz, Azərbaycan haqqında həqiqətləri yaymağa, erməni diasporunu ifşa etməyə, Azərbaycan diplomatiyasının dünya meridianlarında yerini daha düzgün təyin etməyə komək edər və Azərbaycanın xarici siyasəti və beynəlxalq əlaqələrinə dir əlavə materiallar kimi faydalı ola bilər.

**AZƏRBAYCAN-ABŞ DİPLOMATİK MÜNASİBƏTLƏRİ.** İlk dəfə Azərbaycan - ABŞ diplomatik əlaqələri 28.V. 1919 ildə Parisdə yaranıb. Həmin gün ABŞ nümayəndə heyətinin başçısı prezident Vurdo Vilson və nümayəndə heyətinin üzvü diplomat Q. Morqentau Paris sülh konfransında Azərbaycan Demokratik Respublikasının nümayəndə heyətinin başçısı Ə. Topçubaşovu qəbul edib.

Azərbaycan SSR zamanı bu əlaqələr kəsilib. Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi ilə bu münasibətlər yenidən qurulub.

25.XII.1991 ildə ABŞ Azərbaycan Respublikasının müstəqilliyini rəsmən-De yure tanıdı. 17.111.1992 ildə Bakıda ABŞ səfirliyi açıldı.

olmazsa, yaddaş kağızı şəxsən və ya verbal nota ilə, ya da xahişə əsasən vizit kartı ilə göndərilir.

***Yaddaş kağızı nümunəsi***

**YADDAŞ KAĞIZI**
**M Ə T N**

**Tarix Təqdim edildiyi yer (şəhər).**

Əslində belə də olurdu. Artıq diplomatik dairələrdə vizit vərəqinin sol tərəfindən qatlanması birmənalı qəbul olunur: ehtiram əlaməti olaraq onun sahibi kartı özü qatlamışdır.

Diplomatların vizit vərəqinin ölçüləri də artıq standart xarakterlidir. Kişilər üçün vizit vərəqələri 9 sm. X 5 sm, qadınlar üçün isə 8 sm. X 4 sm. ölçülərində nəzərdə tutulur. Böyük Britaniyada qadınların vizit vərəqləri öz ölçülərinə görə kişilərin vizit vərəqlərindən böyükdür.

Belə qənaətə gəlmək lazımdır ki, vizit vərəqələri ilə bağlı problemlərin unifikasiyasında yerli tələblərdən yan ötmək mümkünsüzdür. Bu günümüzün ən böyük tələbi vizit vərəqinə 24 saat müddətində cavab verilməsidir. Yalnız vətənə yollanarkən xudahafizləşmək məqsədi ilə göndərilən vizit vərəqinə (bu zaman vizit vərəqində "P.P.C." - ***pour prendre conde*** - qeydi aparılır) cavab verilmir.'

**YADDAŞ KAĞIZI,** (fr. ***mymore).*** Diplomatik yazışma sənədlərinin növlərindən biridir. Diplomatik praktikada yaddaş kağızı söhbət zamanı edilmiş müraciəti təsdiq etmək üçün şəxsən təqdim olunur. Yaddaş kağızının təqdim olunmasında məqsəd edilmiş müraciətin və ya müzakirə olunan xahişin əhəmiyyətini artırmaqdan, şifahi deyilənlərin səhv ifadə olunması və ya səhv başa düşülməsinin qarşısını almaqdan ibarətdir.

Yaddaş kağızı müəyyən bir forma olmadan, xüsusi ifadələr işlədilmədən tərtib olunur. Yaddaş kağızında hər hansı müraciət və komplement olmur. Yaddaş kağızı gerb olmayan sadə kağızda çap olunur, nömrə və möhür qoyulmur, ünvan göstərilmir. Yer (şəhər) və təqdim olunma vaxtı çap olunur. Mətninin üstündə başlıq - Yaddaş kağızı - sözləri çap olunur.

Bəzən elə hallar baş verir ki, səfirlik bu və ya digər məsələyə dair yaddaş qeydi təqdim etməyi nəzərdə tutmur, ancaq həmsöhbəti öz təşəbbüsü ilə yaddaş kağızı verməyi xahiş edir. Əgər taktiki mülahizə üzündən səfirliyin yaddaş kağızı təqdim etməyə etirazı

**A. Abbasboyli V. Cəfərov. Diplomatik protokol. Bakı,2004. səh. 127-**

göndərməklə tanışlığı davam etdirmək niyyətini bildirir .

Bir qayda olaraq tanışlıq məqsədli vizit vərəqlərində ‘T.F.C.” (fransız dilində - ***pour féliciter coude*** - tanışlıqdan məmunluq duyuram) qeydi aparılmalıdır. Ola bilər ki, səfirliyin qəbul edən ölkəyə yeni gəlmiş əməkdaşını Xİ"N-də və digər səfirliklərdə eyni zamanda bir neçə şəxsə təqdim etmək zərurəti yaransın. Bu zaman həmin sayda vizit vərəqini bir zərfə qoyaraq və yuxarı sol küncündə qara qələmlə təqdim olunacaq şəxsin soyadını göstərmək lazımdır.

Yadda saxlamaq vacibdir ki, vizit vərəqində bütün qeydlər yalnız qələmlə aparılmalıdır. Hər hansı şəxs dəvət olunduğu yerdə vizit vərəqi qoyursa və bu zaman zərfdən istifadə olunursa qeyd zərfin üzərində eyni qaydada, yəni qələmlə aparılmalıdır. Yalnız poçt vasitəsi ilə göndərilən vizit vərəqinin yerləşdiyi zərfin üzərində qeyd mürəkkəblə vizit vərəqi göndərən şəxsin özü tərəfindən aparıla bilər.

Başlıca şərtlərdən biri də odur ki, poçtla göndərilən vizit vərəqi bükülməməlidir. Yerdə qalan bütün hallarda vizit vərəqi sol tərəfdən təqribən 1 santimetrlik xətt boyunca qatlanmalıdır. Bu bir daha vizit vərəqinin şəxsən onun sahibi tərəfindən qoyulduğunu təsdiqləyən fakt kimi qəbul olunur.

Vizit vərəqinin hər hansı küncünün qatlanması qəbahət olmasa da düşündürücüdür. Hər dəfə, təbii ki, yuxandan sağ və yaxud sol küncün, eləcə də aşağıdan sol və ya sağ küncün bükülməsi müəyyən sual və bəzən də şübhələrə səbəb ola bilər.

***Nümtmə***



' **Джон Вуд, Жан Сере. Дипломатический церемониал и дипломатический протокол. М., 1976, стр. 76.**

göndərilməsi məqsədə uyğundur.

Bu göstərilənlər əsasən beynəlxalq təcrübədə qəbul olunmuş simvollardır və diplomatik fəaliyyət sahəsində geniş istifadə olunur. Bu heç də vizit vərəqələrindən istifadə olunması imkanlarını məhdudlaşdırmır. Əksinə, yerli şəraitə uyğun olaraq vizit vərəqələrindən ən müxtəlif məqamlarda və ən müxtəlif məqsədlər üçün istifadə olunması gündəlik təcrübədə özünə geniş yol açır. Misal üçün islam dövlətlərində müqəddəs “Qurban bayramı” günündə, yaxud qədim milli bayram olan “Novruz bayramı” günündə vizit vərəqi göndərilməsi islam dəyərlərinə və milli adət-ənənələrə dərin hörmət rəmzi kimi qəbul olunur. Təbii ki, diplomatik dairələrdə bu münasibətlə təbriklər ən müxtəlif formalarda (nota, teleqram və s.) çatdırıla bilər. Vizit vərəqi daha əlverişli vasitə kimi bu məqamla bağlı istifadə olunarsa “P.F.” (fransız dilində - ***pour féliciter*** - bayramınızı təbrik edirəm) qeydi aparılması zəruridir. Vizit vərəqində qələmlə ***""Novruz bayramınızı təbrik*** edi>3w”sözlərini də yazmaq olar.

Göründüyü kimi vizit vərəqləri diplomatik dairələrdə çoxtə- yinath bir vasitədir. Tanışlığın qurulması isə vizit vərəqinin ana təyinatıdır. Kimin kim ilə tanışlığından asılı olaraq vizit vərəqinin təqdim olunmasında bir sıra incəliklər mövcüddur. Bununla bağlı C. Vud və J. Serre aşağıdakıları tövsiyyə edir:

1. Əgər kişi qadına təqdim olunursa bir həftədən gec olmayaraq qadına və onun ərinə ayrı - ayrılıqda vizit vərəqi göndərilir.

2. Qadınlar subay kişilərə vizit vərəqi göndərməməlidirlər.

3. Ailəvi tanışlıq zamanı ər-arvadın birgə vizit vərəqindən istifadə olunmalıdır.

4. Tanışlıqdan sonra daha kiçik rütbəli şəxs birinci vizit vərəqi göndərməlidir. Əgər tanış olanlar eyni rütbəyə malik şəxslər olarsa yaşca cavan olanın vizit vərəqini birinci göhdərməsi məsləhətdir.

5. Qadınların tanışlığı zamanı onların ərlərinin rütbələri əsas götürülməlidir. Aşağı rütbəli şəxsin arvadı birinci vizit vərəqi

və parlament başçıları, xarici işlər nazirliyinin rəsmi vəzifəli şəxsləri, səfirlər həmin kitabda mərasimin xarakterinə uyğun olaraq öz ürək sözlərini yazır və imza edirlər. Bir qayda olaraq vizit vərəqi də qoyulur. Əgər səfər matəm mərasimi ilə bağlı olarsa vizit vərəqində '"P.C." (fransız dilində ~ ***pour condalences*** -başsağlığı bildirirəm) qeyd olunmalıdır. Diplomatik nümayəndəliyin başçısı öz növbəsində yubadılmadan kitabda imza edən şəxsə cavab olaraq vizit vərəqi göndərməyi unutmamalıdır. Cavab vizit vərəqində "P.R." (fransız dilində - ***pour remercier*** - təşəkkür bildirirəm.) qeydi aparılmalıdır.

Təşəkkür bildirilməsi qəbullara, nahar və şam yeməklərinə dəvət olunarkən də çox zəruridir. Bunun üçün yuxarıdakı şəkildə qeyd aparılması kifayətdir.

Bayramlar arasında daha populyar sayılan yeni il bayramıdır. Bir çox ölkələrdə yeni ilin qeyd olunması müxtəlif aylara təsadüf etsə də 1 yanvar, demək olar ki, dünyanın hər yerində bayram kimi qeyd olunur. Bu münasibətlə bir-birini təbrik edərkən vizit vərəqələrində "P.f.N.a." (fransız dilində - ***pour féliciter Nouvel An*** - Yeni ilinizi təbrik edirəm) - qeydi aparılmalıdır.

Diplomatik dairələrdə ən geniş yayılan qaydalardan biri də hər hansı şəxsin qiyabi şəkildə təqdim olunmasıdır. Mütəmadi olaraq diplomatik nümayəndəliklərin personalında dəyişikliklər baş verir. Yeni gəlmiş diplomatların digər diplomatik nümayən- dəliklərdəki həmkarları ilə tanışlığı məhz bu yolla həyata keçirilir. Bu zaman diplomatik nümayəndəliyin başçısının və təqdim olunan şəxsin vizit vərəqələri qoşa göndərilir. Diplomatik nümayəndəlik başçısının vizit vərəqində bundan ötrü "P.P" (fransız dilində - ***pour présenter*** - edirəm) qeydinin aparılması zəruridir.

Xidmət müddətini başa vuran diplomatlara (nümayəndəlik başçılarına) vətənə yola düşməzdən əvvəl vizit vərəqi göndərilməsi qarşılıqlı hörmətin ifadəsidir. Uzun müddət yerləşmə dövlətində birgə işləyən, bir-biri ilə yaxınlığı olan diplomatlar şəxsən görüşə bilmədikdə "P.P.C." (fransız dilində - ***pour prendre conde*** - vətənə yollanarkən xudahafizləşmək) qeydi aparılmış vizit vərəqi

***Nümunə 2***

Ad və soyad

Tel: 00-00-00

***Üçüncü:*** Vizit vərəqində səfirin xanımı (arvadı) ilə birgə adı və soyadı, telefon nömrəsi yazılır. (Nümunə 3)

***Nümunə 3***

Səfirin adı və soyadı

Səfirin xanımının adı və soyadı

Tel: 00-00-00

***Dördüncüsü:*** Vizit vərəqində səfirin xanımının ayrıca adı və soyadı göstərilir. (Nümunə 4)

***Nümunə 4***

Səfirin xanımının
adı və soyadı

Qəbul edən ölkəyə gələn yeni təyin olunmuş səfir və diplomatik personal diplomatik korpusun başçısından vizit vərəqələrinin hazırlanmasında yerli praktikanı öyrənməli və istifadə olunması qaydaları ilə maraqlanmalıdır.

Səfirliklərdə bir qayda olaraq xüsusi məqamlarla bağlı (milli bayramlar, dövlət (hökümət) başçısının dünyasını dəyişməsi və s.) xüsusi kitab açılır. Səfirliyə gələn rəsmi dövlət adamları, hökümət

simvollar yazılır. Fransız dilinə məxsus bu simvollar (latın əlifbası ilə ) vizit kartının aşağı sol küncündə qələmlə yazılır:

P.f. - istənilən səbəbə görə təbriki ifadə edir (pour féliciter);

P.f.N.A. - Yeni il təbriki (pour féliciter Nouvel An);

P.r. - təşəkkür ifadə edir (pour remercier);

P.c. - başsağlığı ifadə edir (pour condoléances);

P.p. - yeni gəlmiş diplomatik işçisinin şəxsi viziti əvəzinə qiyabi təqdim edilməsi (pour présenter); P.p. hərfləri diplomatik nümayəndəlik başçısının vizit kartına yazılır və o yeni gəlmiş şəxsin heç bir şərti hərf yazılmayan vizit kartı ilə birlikdə müvafiq şəxsə göndərilir. Cavab vizit kartı ilə təqdim olunan şəxsin ünvanına yazı olmadan verilir;

P.p.c. - ölkədən tamamilə getdikdə vidalaşma ifadə edir. Gedən şəxsin protokol vizitinin əvəzinə göndərilir (pour prendre conqe).

Diplomatik korpusda vizit vərəqələrinin eyni cür hazırlanması da bir növ bərabərhüquqluluq prinsipinin təcəssümüdür. Səfirlər bir qayda olaraq öz həmkarları, yerləşmə dövlətinin vəzifəli şəxsləri, tanınmış adamlar ilə təmasda olur, mütəmadi olaraq görüşlər keşirir, qəbulların iştirakçıları olurlar. Bütün bu tədbirlərdə hər bir diplomatın ən yaxın köməkçisi kimi vizit vərəqi tanışlığın qurulmasına, hər hansı tədbirə (qəbula) dəvət olunmağa görə təşəkkür bildirilməsinə xidmət edir. Buna görədir ki, diplomatların ən azı 4 cür vizit vərəqi olmalıdır.

***Birinci:*** Vizit vərəqində sahibinin adı, soyadı və tutduğu vəzifə, telefon nömrəsi göstərilir. (Nümunə l)

***ikinci:*** Yalnız ad, soyad və telefon nömrələri göstərilir. (Nümunə 2)

***Nümund 1***

**Ad və soyad**

**Azərbaycan Respublikasının Fövqəladə**
**və Səlahiyyətli Səfiri Tel: 00-00-00**

VİZA. (lat. ***visus*** - görünmüş, gözdən keçirilmiş). Hər hansı şəxsin müəyyən bir dövlətin ərazisinə gəlməsinə və ya bu ərazini tərk etməsinə, ya da ərazidən keçib getməsinə icazə verilməsi haqda pasportdakı qeyddir. ***Gəlmə, getmə və tranzit*** viza növləri mövcuddur. Viza müəyyən müddətə verilir. Dövlətlərin əksəriyyəti xaricilərin gəlməsinin (getməsinin) icazə sistemini müəyyən etmişlər. Xaricilərin gəlməsinə (getməsinə) onların pasportlarında müvafiq viza olduqda icazə verilir. Bir sıra hallarda xaricilərin gəlməsinin (getməsinin) sadələşdirilmiş qaydası müəyyən edilir.

Bəzi dövlətlər arasında xüsusi sazişlərlə vizasız gəlməyə (getməyə) icazə verilir. Adətən vizasiz gəlmə haqda qayda gəldikləri ölkədə daimi yaşamaq hüququ almaq niyyətində olmayan xaricilərə verirlir. Avropada İngiltərə, Fransa, Hollandiya, İsveçrə və b.'dövlətlər arasında. Latın Amerikasının əksər ölkələri arasında vizaların ləğv olunması haqda sazişlər imzalanmışdır.

VİZİT KARTI. Buna vizit vərəqi də deyirlər. Vizit kartından protokol işində geniş istifadə olunur. Diplomatik nümayəndənin olduğu ölkənin hökümət, diplomatik , işgüzar və ictimai dairələri ilə əlaqələrin qurulmasında və saxlanılmasında ondan istifadə olunur. Bütün diplomatik işçilərin və onların həyat yoldaşlarının vizit kartı olur. Vizit kartı tanışlıq zamanı, söhbət gedişində həmsöhbəti tərəfindən təqdim oluna bilər, diplomat da öz növbəsində lazım olduqda öz vizit kartını verə bilər. Vizit kartı öz sahibini bir növ qiyabi olaraq “təmsil edə bilər”; əgər cavab viziti edilməzsə, edilmiş vizitə cavab olaraq vizit kartı göndərilə bilər.

Vizit kartı ilə bu və ya digər hadisə ilə bağlı - milli bayramlar, ad günü münasibətilə, yeni vəzifəyə təyin olunması və s. - təbrik etmək olar. Vizit kartı ilə başsağlığı vermək, təşəkkür etmək, tanışlıq qurmaq olar; vizit kartı ilə birlikdə hədiyyə, suvenir, gül dəstəsi, kitab və s. göndərmək münasibdir.

Beynəlxalq praktikada vizit kartı göndərilərkən konkret hallardan asılı olaraq vizit kartının ünvanlandığı şəxsə onun sahibi tərəfindən bu və ya digər münasibəti ifadə edən qısaldılmış

bilavasitə nəzərdə tutulmayan məsələlər əvvəlkitək beynəlxalq adi hüquq normaları ilə tənzimlənməlidir.

Vyana Konvensiyasına 2 fakültətiv protokol əlavə olunub:

a) Beynəlxalq Məhkəmənin icbari yurisdiksiyası;

b) qəbul edən ölkənin vətəndaşlığa dair qanunvericiliyinin diplomatik nümayəndəliklərin üzvlərinə tətbiq edilməməsi haqqında.

VERBAL NOTA. (lat. ***verbalis*** - şifahi). Verbal nota diplomatik yazışmanın ən geniş yayılmış növlərindən biridir. Verbal notada xarici işlər nazirliyinin və diplomatik nümayəndəliyin fəaliyyətində meydana çıxan ən müxtəlif məsələlərdən həbs olunur. Verbal nota komplement müraciətlə başlayır və onunla da tamamlanır. Verbal nota, nota blankında çap edilir, nömrəsi, göndərildiyi yer və tarix göstərilir. Verbal notaya Xarici İşlər İdarəsinin və ya diplomatik nümayəndəliyin möhürü vurulur. Verbal notanın mətni 3-cü şəxsdə tərtib olunur.

Verbal notanın aşağı sol küncündə səhifədə notanın göndərildiyi ünvan göstərilir. Verbal nota imzalanır. Ya şəxsən təqdim olunur, ya da diplomatik kuryerlə göndərilir.

***Verbal nota nümunəsi***

**Gerb**
**XİN (Səfirliyin adı)**

**Qeyd №-si**
**M Ə T N**

**(hörmət bildirilməsi)**

**(yekun komplimenti)**

**Ünvan: Möhür**

**Göndərildiyi yer, tarix**

məruz qalmışdır. İndi rəsmi səfərlər zamanı qarşılama mərasimi təyyarə limanında deyil, Prezident iqamətgahı qarşısında həyata keçirilir. İlk dəfə Rumıniya prezidenti İon İlicskonun Bakıya rəsmi səfəri zamanı (2002-ci il, noyabr) bu qayda tətbiq olunmuşdur. 15 oktyabr 2003-cü ildə keçirilən Azərbaycan Respublikası prezidenti seçkilərində ölkəmizin başçısı seçilən İlham Əliyev fəaliyyətə başladığı ilk ***3-A*** ay ərzində Fransa, Rusiya Federasiyası və Qazaxıstanda rəsmi səfərdə olmuş və səfərlərin nəticələrinə görə çox mühüm sənədlər imzalanmışdır. Belə uğurlu səfərlərin bir nümünəsi kimi cənab prezident İlham Əliyevin 2007-ci ilin əvvəlində AFR-ə etdiyi səfərini göstərmək olar.

**VYANA KONVENSİYASI (1961).** Diplomatik əlaqələrə dair 53 maddədən ibarət əsas beynəlxalq hüquqi sənəd; dövlət başçıları yanında diplomatik nümayəndəliklərin status və funksiyalarını müəyyən edir; **18** aprel **1961** ildə Vyanada BMT-nin diplomatik əlaqələrə və immunitetlərə dair konfransında qəbul edilib.

Vyana Konvensiyası, ələlxüsus, diplomatik münasibətlərin qurulması, diplomatik nümayəndəliyin başçısının akkreditə edilməsi və onun funksiyalarının dayandırılması, nümayəndəliyin əməkdaşlarının təyin olunması, onların və ailə üzvlərinin gəlib - getmələri barədə qəbul edən dövlətin XİN-ə bildirilməsi qaydalarını, habelə nümayəndəliklərin başçılarına verilən dərəcələri müəyyən edir.

Vyana Konvensiyasında nümayəndəliyin başçısının, yaxud diplomatik heyətin üzvlərindən kiminsə arzuedilməz şəxs (persona non qrata) elan olunması ilə bağlı normalar verilir.

Vyana Konvensiyası müvafiq dərəcədən olan nümayəndəliklərin başçılarının və diplomatik heyət üzvlərinin öncüllüyü məsələlərini tənzimləyir, habelə nümayəndəliyin başçısı vəzifəsini müvəqqəti yerinə yetirən şəxsin müvəqqəti işlər vəkillərinin təyin olunması qaydalarını nəzərdə tutur.

Vyana Konvensiyasının xeyli hissəsi diplomatik imtiyazlar və immunitetlərə (diplomatik imtiyazlar və toxunulmazlıq hüququna) həsr olunub. Preambulada göstərilir ki, Vyana Konvensiyası ilə

danışıqlar diplomatiyanın ən önəmli vasitəsi olaraq qalır. Səfərlərin və bu zaman aparılan danışıqların nə dərəcədə uğurlu olub olmadığı barədə birmənalı fikir yürütmək doğru deyildir, Folklend-Malvin münaqişəsinin həllinə qatılan ABŞ dövlət katibi A.Xeyk Vaşinqton-Buenos-Ayres-london üçbucağında 34000 mil qət etsə də konkret bir nəticə əldə olunmayıb. Ancaq sonradan münaqişə öz uğurlu həllini tapıb. Ümumiyyətlə, tarixin yaddaşında sonsuz münaqişə anlayışı yoxdur. Hər bir münaqişə ədalətli həllini tapmayınca səfərlər həmişə diqqət mərkəzində duracaq və beynəlxalq ictimaiyyətin marağına səbəb olacaq. Bu fikir bütövlükdə səfərlərə şamil olunmalıdır.'

Bu və digər səbəblər üzündən protokol qaydasında öncədən razılaşdırılan səfərlərin baş tutmadığı da xüsusi vurğulanmalıdır. Bunun səbəbləri bir çox amillərlə (daxili və xarici) bağlı ola bilər. Əksər hallarda isə səfərlərin təxirə salınması sırf texniki səbəblərlə bağlı olur. Gürcüstan Respublikasının keçmiş prezidentinin respublikamıza səfəri imzalanacaq sənədlərin tam hazır olmadığından təxirə salınsa da 29 sentyabr 2001-ci ildə Bakıya yüksək səfəri baş tutdu. Eyni sözü Azərbaycan Respublikası Prezidentinin İran İslam Respublikasına rəsmi səfərlərinin bir neçə dəfə təxirə salınması barədə də demək olar. Sonuncu dəfə səfər 17 - 19 sentyabr 2001-ci ildə keçirilməli idi. Səfərlərin təxirə salınması barədə diplomatik kanallarla məlumat bildirilir və hətta dövlət başçılarının şəxsi telefon danışıqları da olur. Təbii ki, hər iki tərəf bununla bağlı narahatlığım ifadə edir və tezliklə səfərin baş tutması üçün bütün imkanlardan istifadə olunacağını ön plana çəkirlər. ABŞ diplomatı C.Kennan haqlı olaraq yazır ki, yüksək səviyyəli görüşlərə qədər fikirayrılığı doğuran bütün siyasi və iqtisadi məsələlər normal diplomatik səviyyədə həll olunmalıdır. Çünki, təxirə salınan hər bir səfərə görə çox saylı mülahizələrə yol açılır.^ Azərbaycan Respublikasında protokol qaydaları beynəlxalq praktikada qəbul olunmuş müvafiq olaraq bir sıra dəyişikliklərə

**' A. Abbasboyli, V. Cəfərov. Diplomatik protokol. Bakı, 2004, səh. 96. ■ A. Abbasbəyli, V. Cəfərov. Göstərilən əsəri, səh. 97.**

***Qeyri - rəsmi şərəflər.*** Bu tipli səfərlərə dövlət və hökümət başçılarının digər ölkəyə müalicəyə, istirahətə yollanması daxildir. Bu zaman heç bir protokol tədbiri nəzərdə tutulmur. Lakin hökümət orqanları qonağın rahatlığının təmin olunması qayğısına qalır, mütəmadi telefon danışıqları aparır və görüşlər təşkil olunur.

***Yolüstü (tranzit) səfərlər.*** Hər hansı dövlətin ərazisində tranzit yolu ilə digər dövlətə gedən dövlət və hökümət başçısının, nümayəndə heyətinin qısamüddətli dayanacağı yolüstü səfər kimi səciyyələnir. Azərbaycan Respublikasının mərhum prezidenti H. Əliyevin ABŞ-a səfəri zamanı İngiltərədə yolüstü səfərdə olması buna misaldır. Göründüyü kimi, yolüstü səfərlər bir sıra texniki səbəblərlə do bağlı ola bilər. Göstərdiyimiz bu səfər zamanı təyyarənin yanacaq təchizatı ilə bağlılığı da istisna deyil. Bununla belə yadda saxlamaq lazımdır ki, dayanacaq yeri kimi başqa dövlətləri də seçmək olardı. Azərbaycan dövlət başçısının məhz İngiltərəni seçməsi təsadüf kimi deyil, daha çox xarici siyasət prizmasında dəyərləndirilməlidir. Yolüstü səfər zamanı qonaq dövlət və hökümət adamları ilə qısa söhbətlər aparmaq, öz xoş arzularını bildirmək şansı əldə edir.

Səfərlərin hamısı beynəlxalq əməkdaşlıq prinsiplərinə müvafiq olmasına yönəldiyindən həm ölkə daxilində, həm do xarici ölkələrdə diqqət mərkəzində durur. Səfərlərin müddəti və nəticələri barədə dövrü mətbuatda və digər kütləvi - iformasiya vasitələrində xəbərlər verilir.

Dövlət və hökümət başçıları üçün səfərlər həm də böyük fiziki ağırlıqdır. Marqaret Tetçer hələ 1984-cü ildə öz səfərlərini xatırlıyaraq 250000 mil qət etdiyini və 130 saat uçduğunu yazırdı. ABŞ-ın 1953-1959-cu illərdə dövlət katibi vəzifəsini tutan Con Foster Dalles altı il ərzində 56000 mil qət edib və 50 beynəlxalq konfransda iştirak edib.'

Müasir texniki imkanlar dövlət və hökümət başçılarının, digər rəsmi dövlət adamlarının beynəlxalq əhəmiyyətli problemlərə dair telefon danışıqları aparmasına şərait yaratsa da səfərlər və canlı

**Попов В.И. Современная диплома** ГИЯ. **М., 2000, стр. 494.**

cümlədən Azərbaycanda qaçqınlarla görüş keçirilməsinə də protokolda yer ayrılır.

Rəsmi görüşlərin nəticəsi olaraq ikitərəfli müqavilələr imzalanır. 15 oktyabr 2003-ci il seçkilərində Azərbaycan Respublikası Prezidenti seçildikdən sonra İlham Əliyev ilk rəsmi səfərinə 21 yanvar 2004-ci ildə müasir dünyamızın nüfuzlu dövlətlərindən olan Fransadan başladı. Çox uğurlu keçən ilk səfər zamanı Fransa prezidenti Jak Şirak mərhum eks-prezident H. Əliyevin təltif olunduğu yüksək dövlət mükafatını Azərbaycan dövlətinin başçısına təqdim etdi.

***İşgüzar səfərlər.*** Bu tipli səfərlər konkret hansısa bir məqsədin reallaşmasına xidmət edir. Zahirən protokol mərasimlərinin sadəliyi ilə seçilən işgüzar səfərlər dövlət və hökümət başçılarının, nümayəndə heyətlərinin beynəlxalq konfranslarda, yubiley şənliklərində və digər beynəlxalq əhəmiyyətli tədbirlərdə iştirakına təsadüf edir. Misal üçün MDB dövlət başçılarının mütəmadi görüşləri və yaxud Belorus prezidentini Lukoşenkonın məsləhətləşmələr aparmaq üçün vaxtaşırı Moskvaya səfəri bu qəbildəndir. İşgüzar səfərlər qısa müddətli olduğundan adətən protokolda qonaqın şərəfinə bir nahar verilməsi nəzərdə tutulur.

Müstəsna hallarda qonağın (qonaqların) qarşılanması və yola salınması zamanı fəxri qarovul düzülür. Türkdilli dövlət başçılarının Bakı zirvə toplantısına gələn dövlət başçıları belə qarşılanmışdı. Bu onu göstərir ki, işgüzar səfərlər zamanı tutulan protokol tədbirlərinin vahid prinsipi yoxdur. Azərbaycan Respublikasının exs - prezidenti Heydər Əliyevin Qarabağ münaqişəsinin həlli ilə bağlı Fransaya (mart, 2001) və ABŞ-a (aprel, 2001) səfərləri zamanı protokol tədbirlərinin çeşidli olması da məhz deyilənlərlə bağlıdır. Fransada qarşılama mərasimində fəxri qarovulun düzülüşü, dövlət himnlərinin səsləndirilməsi nəzərdə tutulmuşdusa. Florida ştatının Key-Uest şəhərinin təyyarə limanı adi iş günlərindən birini xatırladırdı. Həm Azərbaycan Respublikası, həm də Ermənistan Respublikası prezidentlərinin eyni tərzdə və çox sadə qarşılanması səfərlərin işgüzarlığı ilə izah olunmalıdır.

ərzində ancaq 21 ölkəyə 25 rəsmi səfər etmişdir. Təbii ki, sonrakı dövrlərdə də səfərlər davam etmişdi. Deməli səfərlərin heç də hamısı rəsmi olmadığını, yeni çeşidli olduğunu və bu zaman protokol tələbləri də müvafiq qaydada fərqli nəzərdə tutulmuşdur. Səfərlər ənənəvi qaydada aşağıdakı kimi qruplaşdırılır:




***Rəsmi səfərlər.*** Ən yüksək səfərlər rəsmi səfər olduğundan bu səfər zamanı diplomatik protokolla xüsusi qaydada qarşılama və yolasalma mərasimi keçirilir. Rəsmi səfərlər zamanı mütləq hər iki ölkənin dövlət himnləri çalınır, dövlət bayraqları qaldırılır, hərbi salam - fəxri qarovul təşkil olunur. Rəsmi səfərlərin iki ölkə arasında siyasi və iqdisadi əlaqələrin gələcək inkişafı baxımından müstəsna əhəmiyyətli olduğu danılmazdır. Səfərin zirvəsi danışıqlar sayılsa da mərasim tədbirləri də proqrama daxil olunur. Bu sıraya Azərbaycan Respublikasına gələn rəsmi qonaqların mərhum ulu öndərimiz Heydər Əliyevin məzarını, "Şəhidlər xiyabanı"nı ziyarət etməsi və əklil qoyulması, rəsmi ziyafət (nahar), ictimaiyyət nümayəndələri ilə görüşlər, teatr tamaşalarına baxış daxil edilir.

Son illərin müşahidələri göstərir ki, ayrı-ayrı dövlət başçılarının rəsmi səfərləri zamanı onlara nüfuzlu ali məktəblərin, xüsusilə də Bakı Dövlət Universitetinin fəxri doktoru adı verilməsi ənənəyə çevrilib. Rusiya Federasiyası prezidenti Vladimir Putinə isə Bakı Slavyan Universitetinin fəxri doktoru adı verilmişdir. O

dövlətinin fövqəladə hüququna malik olan səlahiyyətli nümayəndə başçılıq edir. Başqa sözlə, öz ölkəsinin yüksək diplomatik maraqlarını təmsil edən ali rütbəli diplomat səlahiyyətli nümayəndədir. Şəfırlik və ya missiyaya rəhbərlik edən səlahiyyətli nümayəndə yerləşdiyi ölkədə iki dövlət arasındakı bütün məsələlərdə (siyasi, iqtisadi, mədəni, hərbi və s.) həlledici hüquqa malik səlahiyyətli nümayəndədir. Səlahiyyətli nümayəndə, nümayəndəliyi göndərən hökümətlə yerləşdiyi ölkə höküməti arasında əsas vasitəçidir. Səlahiyyətli nümayəndənin öz ölkəsinin dövlət başçısı və ya hökümәti adından danışmaq, qərar qəbul etmək hüququ vardır.

SƏFƏRLƏR. Səfərlərin klassifikasiyası diplomatik protokol üçün olduqca mühüm əhəmiyyət kəsb edir. Aydındır ki, xarakterindən asılı olamyaraq hər bir səfər müəyyən dərəcədə hazırlıq tələb edir. Keçirilmə müddəti qabaqcadan razılaşdırırlan səfərlər böyük məsuliyyətlə hazırlanır. Bir çox dövlətlərdə qəbul olunmuş protokol haqqında əsasnamə xarakterindən asılı olaraq səfərlərin keçirilməsi və bu zaman nəzərdə tutulan tədbirlər qabaqcadan müəyyənləşdirilir və hər bir mərhələ üçün cavabdehlik daşıyan şəxslər heç bir əlavə göstəriş olmadan öz üzərlərinə düşən vəzifələri icra etməyə borcludurlar.

Bəzən elə təsəvvür yaranır ki, məhz təkcə ölkə başçısının səfərləri rəsmi səfərlərdir. Hökümət başçılarının, xarici işlər nazirlərinin və digər rəsmi vəzifəli şəxslərin başçılıq etdiyi nümayəndə heyətlərinin səfərləri də rəsmi səfərlər xarakteri daşıyır. Lakin qeyd etmək lazımdır ki, nümayəndə heyətinə başçılıq edən şəxsin hansı vəzifəni tutması səfər proqramına bu və digər dərərcədə təsir göstərir. Müasir mərhələdə səfərlərin çeşidlənməsində hansı kriteriyalarm rəhbər tutulduğunu açıqlayarkən hökmən səfər proqramına diqqət yetirilməsi vacibdir. Qəzetlər Azərbaycan Respublikasının mərhum Prezidenti H. Əliyevin prezidentliyinin beş illik fəaliyyəti dövrünə həsr olunan yazılarda göstərirdilər ki, o, 33 ölkəyə 73 səfər etmişdir. Bununla yanaşı xüsusi qeyd olunmalıdır ki, mərhum prezident göstərilən müddət

SƏLAHİYYƏTLƏR, (beynəlxalq hüquqda). İçərisində qeyd edilmiş şəxsin və ya şəxslərin danışıqlar aparmaq, beynəlxalq müqaviləyə imza atmaq, beynəlxalq konfransda iştirak etmək, dövləti beynəlxalq hökümətlərarası təşkilatda təmsil etmək və s. hüququna şahidlik edən sənəd. Səlahiyyətlərin mətnində həmin şəxsə bu səlahiyyətlər verən şəxs, səiahiyyətləndirilən şəxsin adı, .soyadı, atasının adı, rütbəsi və ya vəzifəsi, müqavilənin adı və ya danışıqların predmeti və məqsədi, beynəlxalq təşkilatın adı və s. göstərilir. İkitərəfli müqavilələri imzalayan zaman tərəflər adətən öz səlahiyyətlərini təqdim edirlər. Çoxtərəfli müqavilələr imzalanan zaman səlahiyyətlər depozitariyaya (Depozitar) verilir. Beynəlxalq çoxtərəfli konfranslarda səlahiyyətləri yoxlamaq üzrə xüsusi komitə yaradılır, dövlətlərin beynəlxalq təşkilatlardakı nümayəndələri səlahiyyət sənədin təşkilatın baş inzibati şəxsinə təqdim edir (BMT- nin Baş Katibinə, YUNESKO-nun Baş Direktoruna və s.).

Ümumi qəbul edilmiş təcrübəyə əsasən dövlət başçısı və hökümət başçısı, xarici işlər orqanlarının rəhbərləri, eləcə də - öz səlahiyyətləri daxilində - diplomatik təmsilçilərin rəhbərlərinin xüsusi səlahiyyətlər təqdim etmədən danışıqlar aparmaq və beynəlxalq müqavilələr imzalamaq hüququ vardır.

Azərbaycan Respublikasında səlahiyyətlərin verilməsi Azərbaycan Respublikasının 1995 il tarixli “Beynəlxalq müqavilələrin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında” Qanun və həmçinin Azərbaycan Respublikasının Prezidentinin 1996 ildə verdiyi “Azərbaycan Respublikasının təsisatlararası beynəlxalq müqavilələri bağlaması, icrası və ləgv edilməsi haqqında” Fərmanı ilə tənzimlənir. Beynəlxalq danışıqların aparılması və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin imzalanması üzrə səlahiyyətlər Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilir.

SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ. Səfirliklər və ya diplomatik missiyalar digər dövlətin razılığı ilə, həmin dövlətin başçısı yanında daimi nümayəndəlik kimi təsis olunur. Bunlara öz

razılığa gəlir.

Səfirin missiyasının başa çatması da bir sıra protokol mərasimləri tələb edir. Səfir ölkədən gedəcəyi vaxtı təyin edir (yeni təyin olunan səfir aqreman alandan sonra), bu barədə ölkənin XİN- nə və diplomatik korpusun duayeninə məlumat verir. Bəzi ölkələrdə ölkədən gedən səfirin dövlət başçısı, xarici işlər naziri və digər rəsmi nümayəndələrlə vidalaşma qaydası mövcuddur. Bəzən bu vidalaşma siyahısını səfir özü müəyələşdirir, bu barədə xarici işlər naziriyindən ona köməklik göstərilməsini xahiş edir. Ölkədən tamam gedən səfirin şərəfinə xarici işlər naziri və ya onun tapşırığı ilə nazir müavini səhər yeməyi verir. Xarici işlər naziri adından səfirə yadigar hədiyyə təqdim edilir.

Nazirin səfiri qəbul etməsi və onun şərəfinə səhər yeməyi təşkil olunması haqqda kütləvi informasiya vasitələrində müvafiq məlumat verilir.

Səfir ölkədən getməmişdən əvvəl, bir qayda olaraq, vida qəbulu təşkil edir və buraya yerləşdiyi ölkənin rəsmi nümayəndələrini, diplomatik korpusun üzvlərini dəvət edir. Yola düşdüyü gün Xarici İşlər Nazirliyinin ünvanına şəxsi nota göndərir; bu notada nə vaxt yola düşməyi və işlər müvəkkilinin təyin edilməsi haqqında məlumat verir. Öz ölkəsinə qayıdan səfiri tərk etdiyi ölkənin hava limanında (dəmiryolu, dəniz vağzalında) Xarici İşlər Nazirliyi protokol şöbəsinin əməkdaşları, dost ölkələrin burada akkreditə olunmuş diplomatik nümayəndələri, səfirin ölkədə işlədiyi müddətdə yaxın münasibətlərdə olduğu bəzi ictimai - siyasi xadimlər yola salırlar.

Səfir ölkədən avtimobillə gedirsə, xarici işlər nazirliyi protokol şöbəsinin müdiri onun iqamətgahına gəlib vidalaşa bilər. Lakin bu qayda heç də məcburi deyildir. Səfirin ölkədən tamamilə çıxıb getməsi haqqında qəzetlərdə qısa məlumat dərc edilir. Müxtəlif ölkələrin öz ənənələrindən asılı olaraq, yuxarıdakı qəbul olunmuş tədbirlərdən başqa, səfir mərasimində digər protokol tədbirləri də keçirilə bilər.

Beynəlxalq təşkilatlar (BMT, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və s.) nəzdində də səfirliklər yaradılır və ona başçılıq edən diplomat səfir adlanır.

SƏFİR DƏFTƏRXANASI. Səfirliyin dəftərxanasına “Texniki xidmət’" də deyilir. Adətən səfirlikdəki aşağıdakı xidmət növləri anlaşılır: dəftərxana (konselyariya) şöbəsinin katibi, makina bürosu, arxiv, kortoteka. Ümumiyyətlə, səfirliyin protokol xidmətinin fəaliyyəti bu şöbənin işindən çox asılıdır. Arxiv materialları əsasında vaxtında hazırlanmış arayış və ya keyfiyyətli çap olunmuş material- bunların hamısı səfirin və səfirliyin fəaliyyətinin müvəffəqiyyətinə kömək edir. Səfirliyin dəftərxanası protokol şöbəsinin operativ və qüsursuz işləməsinə səbəb olur. Səfirliyin səmərəli işində bütünlüklə səfirliyin dəftərxanasının və ayrı- ayrılıqda sadalanan sahələrinin fəaliyyətinin əhəmiyyəti mühümdür.

SƏFİR MƏRASİMİ. Ölkəyə xarici səfirin gəlməsi diqqətəlayiq hadisədir. Keçmişdə bu, mürəkkəb mərasim şəraitində keçirilirdi. Bu mərasim üçün müxtəlif ölkələrin xüsusiyyətləri nəzərə alınırdı. Təmsil etdiyi dövlət başçısının beynəlxalq işlərdəki rolu onun səfirinin qarşılanmasına xüsusi yanaşma tələb edirdi.

Müasir diplomatik protokolla ölkəyə gələn səfirin qarşılanması mərasimi xeyli sadələşdirilmişdir. Hava, dəmir yolu, dəniz vağzalında səfiri Xarici İşlər Nazirliyinin protokol şöbəsinin müqiri, müvəqqəti işlər müvəkkili başda olmaqla səfirlik əməkdaşları, bəzən də dost ölkələrin burada akkreditə olunmuş səfirləri qarşılayırlar. Təyyarənin pillələri yanında işlər müvəkkili səfiri protokol şöbəsinin müdirinə təqdim edir. O, isə səfiri alqışlayır, qarşılayanları ona təqdim edərək hava limanında hörmətli qonaqlar üçün ayrılmış ***VİP*** (“very important persons”; ing. ***""çox vacib personaF)*** salonuna müşayiət edir.

Səfir avtomobillə gəlirsə, rəsmi görüş mərasimi təşkil edilmir. Səfirlik səfirin gəlişi haqqında faktı yerləşdiyi ölkənin XİN-in protokol şöbəsində təsdiq etdirir və səfirin birinci viziti haqqında

haqqında 18 aprel 1961 -ci il Vyana Konvensiyasında diplomatik nümayəndəliklərin başçılarının dəqiq klassifikasiyası öz dəqiq əksini tapdı.

Bunlar aşağıdakılardır:

1. Səfirlər və nunsilər sinfi.

2. Elçilər və internunsilər sinfi (dövlət başçıları yanında akkreditə olunurlar)

3. Müvəqqəti işlər vəkili sinfi (Xarici İşlər Nazirləri yanında akkreditə olunurlar).

Diplomatik nümayəndəliklərin qəbul edən dövlətdə öz funksiyalarını yerinə yetirməsi diplomatik nümayəndəliyin personalının say tərkibinin müəyyənləşməsində əsas rol oynayır. Lakin personalın say tərkibinin süni şəkildə artırılması da tərəflər arasında müzakirə obyekti ola bilər. Bir çox hallarda qəbul edən dövlət buna birbaşa müdaxilə etməsə də, göndərən dövlət özü müəyyən həddi gözləməlidir. Təəsüf ki, bu günün özündə də bir çox hallarda bu incə məqam diqqətdən yayınır və nəticədə dövlətlərin bir-birinə qarşı iddiaları diplomatların taleyinə ağır zərbə vurur. 2001-ci ilin mart ayında Rusiya Federasiyasının ABŞ-dakı səfirliyində 190, ABŞ-ın Rusiya Federasiyasındakı səfirliyində isə 1090 əməkdaşın çalışdığı faktı rəsmi informasiya kanalları ilə elan olunmuşdu. İki dövlət arasında yaranmış diplomatik böhran vəziyyətinin aradan qaldırılması qarşılıqlı şəkildə artıq diplomatların ölkədən çıxıb getməsi tələbi ilə tamamlandı. Beləliklə də diplomatik kvotaya müəyyən dərəcədə yaxınlaşmaya nail olundu.

^-^SƏFİRLİK. Səfirin, yaxud birinci dərəcəli digər diplomatik nümayəndənin başçılıq etdiyi diplomatik orqandır. Beynəlxalq münasibətlər təcrübəsində bir ölkədən digərinə hər hansı mərasimdə (rnəs; milli bayram təntənəsində, dövlət başçısının dəfnində, yeni seçilmiş ölkə rəhbərinin andiçmə - inauqurasiya mərasimində və s.) iştirak etmək üçün göndərilən fövqəladə səfirdə olur.

Müasir beynəlxalq praktikada çox zaman xüsusi hökümət nümayəndə heyəti Fövqəladə səfirlik adlandırılır.

diplomatik nümayəndəliklərin təsisatı ilə bağlı texniki imkanların məhdudluğundan irəli gəlir. Səyyar səfir öz dövlətində oturur və zərurət yarandığda qəbul edən dövlətə yollanır. Eyni bir şəxs qarşılıqlı razılaşma əsasında bir neçə dövlətdə səfir təyin oluna bilər. Eləcə də bir neçə dövlət qarşılıqlı razılıqla, əgər qəbul edən dövlət etiraz etməzsə, bir səfir iiə təmsil oluna bilər.

***Nümunə***

**BöyUk Britaniya və Şimali İrlandiya Krallığında, İrlandiya Respublikasında, Norveç, İsveç Krallıqlarında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri Mahmud Əhməd oğlu Məmmədquliyevin eyni zamanda Danimarka Krallığında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında**
**Azərbaycan Respublikası Prezidentinin**
**FƏRMANI**

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndinə mUvafiq olaraq BöyUk Britaniya və Şimali İrlandiya Krallığında, İrlandiya Respublikasında, Norveç, İsveç Krallıqlarında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri Mahmud Əhməd oğlu Məmmədquliyev eyni zamanda Danimarka Krallığında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.**

**Heydər Əliyev**
**Azərbaycan Respublikası Prezidenti Bakı**
**şəhəri, 17 dekabr 1996-cı il**

Diplomatiya tarixində səfirlərin (elçilərin) dövlət başçıları tərəfindən qəbul olunması müxtəlif ənənəyə müvafiq olaraq həyata keçirib. Səfirlərin təmtəraqlı qarşılanması ənənəvi qaydaları əks etdirildi, ancaq səfirlərə hörmətsizlik də istisna deyildi. Rusiyada türk, tatar, monqol səfirlərini qarşılamağa yüksək mənsəb sahibi olan adamlar Moskva Knyazlığının paytaxtı Moskva şəhərindən bir "ox mənzili" məsafədə yola çıxardılar.

Müstəsna əhəmiyyətli sənəd kimi diplomatik əlaqələr

Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasında birmənalı şəkildə təsbit olunmuşdur ki, hər bir dövlət diplomatik nümayəndəliyə başçı təyin olunacaq şəxsə aqreman veriləcəyinə əmin olmalıdır (maddə 4. 1-ci bənd).' Sonrakı incikliyin qarşısının alınmasında məsuliyyət, beləliklə, göndərən dövlətin üzərinə düşür. Qeyd olunmalıdır ki, arzuolunmaz şəxs (persona non qrata) kimi tanınan diplomatın gələcəkdə bu sahədə fəaliyyətdə bulunmasını nəinki çətinləşdirir, hətta mümkünsüz edir.

Xatırlatmaq lazımdır ki, akkreditə edən dövlət eyni bir şəxsi, əgər yerləşmə dövləti etiraz etməzsə, iki və daha artıq dövlətdə nümayəndəlik başçısı kimi akkreditə edə bilər. Bu hal Vyana Konvensiyasının 6-cı maddəsi ilə nəzərdə tutulmuşdur. Misal üçün, Rusiya Federasiyasının Bakıdakı Fövqəladə və Səlahiyyətli səfirinin eyni zamanda Ermənistan Respublikasında səfir təyin olunmasına Azərbaycan dövləti heç cür razılıq verə bilməz. Çünki bu iki dövlət arasında diplomatik əlaqələr mövcud deyildir və Ermənistan - Azərbaycan - Dağlıq Qarabağ konflikti birmənalı ədalətli həllini tapmayınca belə təklifin qabaqcadan etirazla qarşılanacağına şübhə etməmək olar. Akkreditə edən dövlət səfirin fəaliyyət göstərəcəyi dövlətlər arasındakı münasibətləri hökmən nəzərə almalıdır.

Azərbaycan Respublikası eyni bir şəxsin bir neçə ölkədə səfirin akkreditə olunması təcrübəsindən bu gün geniş istifadə edir. Böyük Britaniya və Şimali İrlandiya Krallığında Azərbaycanın Fövqəladə və Səlahiyyətli səfiri eyni zamanda Avropanın daha bir neçə ölkəsində səfir təyin olunub. Bu isə Vyana Konvensiyasının 5- ci maddəsinə tam uyğundur. Bu zaman səfir vaxtaşırı səfir təyİn olunduğu dövlətlərdə olmalı, keçirilən mərasimlərdə iştirak etməlidir. Normal diplomatik əlaqələrin davam etdirilməsi üçün həmin dövlətlərdə müvəqqəti işlər vəkillərinin fəaliyyət göstərməsi də istisna deyildir. Diplomatik əlaqələr quran dövlətlər bir müddət səyyar səfirlərlə təmsil oluna bilər. Bir çox hallarda bu daimi

**' Diplomatik olaqəbr haqqında Vyana Konvensiyasının mətni "Əlavələr" hissəsində verilmişdir.**

*Nümunə*

**L. S. Qəndi lovun Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri təyin olunması haqqında Azərbaycan Respublikası Prezidentinin**

**FƏRMANI**

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin I5-ci bəndini rəhbər tutaraq qərara alıram:**

**Lətif Seyfəddin oğlu Qəndilov Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri təyin edilsin.**

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 yanvar 2004-cü il.

*Nümunə*

**Lətif Seyfəddin oğlu Qəndilova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin**

**FƏRMAN!**

**«Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərin başçıları üçün dərəcələrin və diplomatik rütbələrin müəyyən edilməsi haqqında» Azərbaycan Respublikası qanununu rəhbər tutaraq qərarə alıram:**

**Lətif Seyfəddin oğlu Qəndilova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri dərəcəsi verilsin.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti Bakı**
**şəhəri, 29 yanvar 2004-cü il**

*Nümunə*

**Suriya Ərəb Respublikasında Azərbaycan Respublikası səfirliyinin fəaliyyətinin təşkil edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı**

**1.Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində Azərbaycan Respublikasının Suriya Ərəb Respublikasında səfirliyinin təminatı ilə bağlı maliyə və maddi-texniki təchizat məsələlərini həll etsin.**

**2. Azərbaycan Respublikası Xarici işlər nazirliyinə tapşırılsın ki, bir ay müddətinə səfirliyin ştat cədvəlini təsdiq etsin, onu diplomatik və inzibati -texniki heyətlə təmin etsin.**

**Heydər Əliyev Azərbaycan Respublikasının**
**Prezidenti Bakı şəhəri, 30 aprel 1997-ci il**

Diplomatik nümayəndəlik başçısının təyin olunması çox önəmli məsələ kimi diqqəti cəlb edir. Bu məsələdə qəbul edən dövlətin razılığı həlledici rol oynayır. Slovakiyanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri İqor Furdik Azərbaycan Prezidentinə öz etimadnaməsini təqdim edərkən demişdir: “Zati aliləri! Bu gün mən öz etimadnaməmi Sizə təqdim etməkdən şərəf duyuram. Sizin razılığınızla Slovakiya Respublikasının prezidenti Rudolf Şuster bu Etimadnamə ilə məni Azərbaycana Fövqəladə və Səlahiyyətli səfir təyin edmişdir”.

Diplomatik nümayəndəliyə başçı təyin olunan şəxs hökmən göndərən dövlətin vətəndaşı olmalıdır.

Dövlət başçısı namizədliyi irəli sürülmüş şəxsin səfir təyin olunması barədə fərman verir. Səfir təyin olunan şəxs əvvəllər diplomatik fəaliyyətdə olmayıbsa təyin olunduğu vəzifəyə uyğun olaraq ona Fövqəladə və Səalhiyyətli səfir dərəcəsi verilməlidir. “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununa (maddə 9.1.) müvafiq olaraq Fövqəladə və Səlahiyyətli səfir, birinci və ikinci dərəcəli Fövqəladə və Səlahiyyətli elçi rütbələri Azərbaycan Respublikası prezidenti tərəfindən verilir.'

**' ‘'Azerbaycan” qoz., 6 sentyabr 2001-ci il. Bu Qanunun tam mətni kitabın “Əlavələr” bölməsində verilmişdir.**

can Respublikasının Ukraynada (Kiyev şəhərində) səfirliyi təsis edilsin". "1961-ci il Vyana konvensiyasının müddəalarına uyğun olaraq İran İslam Respublikasının paytaxtı Tehran şəhərində Azərbaycan Respublikasının səfirliyi təsis edilsin". "Azərbaycan Respublikasının Rumıniya Respublikasında (Buxarest şəhərində) səfirliyi təsis edilsin" və s.

***Nümund***

**Azərbaycan Respublikasının Ukraynada (Kiyev şəhərində) səfirliyi təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu**
**Azərbaycan Respublikasının Milli Məclisi qərara alır;**

1. **Azərbaycan Respublikasının Ukraynada (Kiyev şəhərində) səfirliyi təsis edilsin.**
2. **Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.**

Heydər Əliyev
Azərbaycan Respublikasının
Prezidenti Bakı şəhəri, 21 may 1996-cı il

Bir ölkədə dövlətin bir səfirliyi, özü də ölkənin paytaxtında, ola bilər. Konsulluqların təsisatı zamanı da Baş konsulluğun və konsulluq idarələrinin yerləşdiyi məntəqələrin göstərilməsi zəruridir. Çünki bir dövlətdə konsulluq dairələrinin sayına müvafiq olaraq bir və daha artıq konsulluq idarəsi təsis oluna bilər. Diplomatik nümayəndəliyin təsis olunması ilk növbədə bir sıra təşkilatı məsələləri ortaya atır:

1. Diplomatik nümayəndəliyin başçısının təyin olunması.
2. Qəbul edən dövlətdə nümayəndəliyin binasının (ərazisinin) müəyyənləşdirilməsi.
3. Diplomatik nümayəndəliyin personalı və s.

**RATİFİKASİYA,** (lat. ***ratus*** - həll olunmuş, təsdiq olunmuş və focere - etmək). Dövlətin ali hakimiyyət orqanları tərəfindən imzalanmış beynəlxalq müqavilənin təsdiq edilməsidir. Ratifikasiya fərmanı adlanan xüsusi akt fonnasında tərtib olunur və çoxtərəfli müqavilənin ratifikasiyası zamanı müqavilədə müəyyən olunmuş dövlətə - depozitariyə-saxlanılmağa (depozitar) verilir. İkitərəfli müqavilənin ratifikasiyası zamanı müqavilə iştirakçıları arasında ratifikasiya fərmanları mübadilə edilir. Əgər saziş və s. ikitərəfli müqavilə iştirakçılarının birinin paytaxtında imzalanarsa, ratifikasiya fərmanları ilə mübadilə digər iştirakçı dövlətin paytaxtında baş verir. Ratifikasiya fərmanında göstərilir ki, müqavilə onun ali qanunvericilik orqanı vasitəsilə təsdiq olunmuşdur, sonra bir qayda olaraq müqavilənin özünün mətni gəlir; göstərilir ki, bu dövlət tərəfindən müqaviləyə əməl olunacaqdır., bundan sonra imza və dövlət möhürü qoyulur. Çoxtərəfli müqavilələrə qoşulduqda və onları ratifikasiya edən zaman dövlət müqavilənin ayrı-ayrı müddəalarına dair xüsusi qeydlər edə bilər.

Dövlət onun nümayəndələri tərəfindən imzalanmış müqavilənin ratifikasiyasından imtina edə bilər, bu zaman onun bu hərəkəti qeyri-qanuni sayıla bilməz. Adətən müqavilələrdə ratifikasiyanın müddəti haqda maddələr olmur. Buna görə də çox vaxt müqavilələr gec ratifikasiya olunurlar.

**SƏFİRİN TƏYİN OLUNMASI.** Azərbaycan Respublikasının xarici dövlətlərdə diplomatik nümayəndəliklərinin (səfirliklərin) təsisatı Azərbaycan Respublikasının Qanunu ilə həyata keçirilir.

Diplomatik nümayəndəliyin (səfirliyin) fəaliyyətinin təşkil olunması Azərbaycan Respublikasının Prezidentinin sərəncamr ilə həyata keçirilir və bununla bağlı bütün təşkilatı məsələlər müvafiq orqanlara həvalə olunur (nümunələrə bax).

Səfirliklərin təsisatı ilə bağlı Milli Məclisin qanunlarında bəzən ölkənin paytaxtı da göstərilir. Misal üçün Azərbaycan Respublikasının Ukraynada, İran İslam Respublikasında, Rumıniya Respublikasında səfirlikləri təsis olunarkən xüsusi göstərilmişdir: “Azərbay-

getmək tələbi irəli sürülərsə, onlar ***persona non qrata*** hesab olunurlar. Dövlət diplomatik nümayəndəlik başçısı və ya diplomatik işçini persona non qrata elan etməsinin səbəblərini açıqlamaya da bilər.

Diplomatik nümayəndəlik başçıları və ya hər hansı diplomatik işçi olduqları ölkə hökümətinə açiq - aşkar mənfi münasibət göstərdikdə, onun işlərinə qarışdıqda, onun qanunlarına və adətlərinə hörmətsizlik etdikdə, diplomatik imtiyazlardan sui-istifadə etdikdə, ümumi qəbul olunmuş diplomatik davranış normalarını pozduqda persona non qrata hesab olunur.

**PREAMBULA.** (lat. ***preambulus*** - qabaqda gedən). Beynəlxalq müqavilənin, bəyannamənin, qanunverici və ya digər hüquqi aktın giriş hissəsi. Preambuİada bir qayda olaraq müqavilə bağlayan tərəflər sadalanır, müqavilənin bağlama səbəbləri, məqsəd və prinsipləri, onun beynəlxalq hüququn prinsip və normaları ilə, digər müqavilələrlə əlaqəsi şərh edilir. Beynəlxalq aktların pream- bulasında bir qayda olaraq bu beynəlxalq müqavilənin tərəfləri, saziş iştirakçıları olan dövlətlər sadalanır. Preambula müqavilənin ayrılmaz hissəsidir və digər hissələri ilə yanaşı onun izah edilməsində istifadə olunur. Məs., preambula BMT Nizamnaməsində (Nizamnamələrində) mühüm əhəmiyyət kəsb edir.

Preambula beynəlxalq hökümətlərarası təşkilat və beynəlxalq konfransların qərarlarında (qətnamələrində) da ola bilər.

**PROLONQASİYA.** (lat. ***prolongare*** - uzatmaq). Hər hansı dövlətlərarası rəsmi sənədin (müqavilə, saziş və s.) ***müddətinin uzadılması.*** Bir neçə ilə (5,10 və s.) nəzərdə tutulan sənəddə, adətən, onun prolonqasiya müddəti də qeyd olunur. Sənədin hüquqi vaxti qurtarandan sonra əgər tərəflərdən heç biri onun dayandırılmasını istəmirsə, bu zaman həmin sənəd heç bir müzakirəyə ehtiyac olmadan orada göstərilən yeni müddət üçün uzadılmış - prolonqasiya olunmuş hesab edilir.

yerli praktikadan asılı olaraq diplomatik korpusun duayeni olurlar.

**PARAFLAMA.** (fr. ***pararhe*** - qısaldılmış imza). Danışığa gələn hər bir tərəfin səlahiyyətli nümayəndələrinin ***inisiallan*** ilə beynəlxalq müqavilənin (və ya onun ayrı-ayrı maddələrinin), onun mətninin razılaşdırıldığını göstərən ilkin imzalanmasıdır.

Paraflama o hallarda baş verir ki, beynəlxalq müqavilə danışıqların iştirakçıları arasında tamamilə razılaşdırılmışdır, bu zaman həm də ya müqavilə imzalayan hökümətin razılığı tələb olunur, ya da müqavilənin tərtib olunmuş yekun mətninin imzalanması hansısa səbəblərə görə başqa vaxta saxlanılır.

Paraflama müqavilə imzalanmasının məcburi mərhələsi sayılmır: müqavilənin razılaşdırılmış mətni onun imzalanmasına qədər paraflanmaya da bilər. Bu xüsusilə o zaman olur ki, tərəflər arasında razılaşma iclas protokollarında qeyd olunur. Paraflama gələcəkdə müqavilə mətninə dair hər hansı mübahisə və anlaşılmazlıqların meydana gəlməsinin qarşısını almağa imkan verir, yəni onun səlahiyyətli şəxslər tərəfindən razılaşdırıldığını inkar olunmaz fakt kimi sübut edir. Paraflama imzalanmanı əvəz etmir. Sazişin rəsmi imzalanmasını ləngidən səbəblər aradan qaldırıldıqdan sonra paraflanmış mətnin imzalanması baş verir.

**PERSONA QRATA.** (lat. ***persona qrata*** - arzuolunan şəxs). Diplomatik nümayəndəlik başçısı kimi təyin olunduğu dövlətin hökümәti tərəfindən təyinatına razılıq verilən diplomatik nümayəndədir. Aqreman alan diplomatik nümayəndə ***persona qrata,*** yəni arzu olunan şəxs hesab olunur.

Təyin olunduğu ölkəyə gəlməyə razılıq (gəlmə vizası) alan hər hansı diplomatik işçi də persona qrata hesab olunur.

**PERSONA NON QRATA.** (lat. ***persona non qrata*** - arzuolunmayan şəxs). Diplomatik nümayəndəlik başçısı kimi təyinatına təyin olunması nəzərdə tutulan ölkə hökümətinin razılıq verməd iyi şəxsdir. 1961 il diplomatik əlaqələrə dair Vyana Konvensiyasına görə olduğu ölkə tərəfindən hər hansı bir diplomatik işçiyə ölkədən

çısı olmadıqda diplomatik nümayəndəliyə rəhbərlik edən şəxsdir.

Səfir müvəqqəti olaraq diplomatik nümayəndəliyi tərk etdikdə, lakin ölkədən getmədikdə onun müavini (müşavir - diplomatik nümayəndə) dublyor olaraq səfirin funksiyalarını öz üzərinə götürür. Əgər səfir ölkədən gedirsə (məzuniyyətə, ezamiyyətə, müalicəyə və s.), onun olmadığı vaxtda müavini müvəqqəti işlər vəkili kimi diplomatik nümayəndəliyə rəhbərlik edir. Müvəqqəti işlər vəkili adətən diplomatik nümayəndəliyin yüksək diplomatik əməkdaşından təyin olunur. Müvəqqəti işlər vəkili olduğu ölkədə öz dövlətinin nümayəndəsi hesab olunur və diplomatik nümayəndəyə göstərilən protokol ehtiramları istisna olmaqla, diplomatik nümayəndəyə aid bütün hüquq və imtiyazlardan (diplomatik imtiyazlar və toxunulmazlıq hüququ) istifadə edir. Müvəqqəti işlər vəkilinə aqreman tələb olunmur. Müvəqqəti işlər vəkilinin təyin olunması haqda diplomatik nümayəndənin ölkədən getməsi ərəfəsində, olduğu ölkənin xarici işlər nazirinə şəxsi məktubu ilə məlumat verilir.

Əgər diplomatik nümayəndənin olduğu ölkədən getməsindən sonra diplomatik nümayəndəlikdə bu və ya digər səbəblərə görə diplomat dərəcəli işçi olmadıqda diplomatik nümayəndəliyin idarə olunması xidməti heyət üzvləri arasında böyük işçiyə həvalə olunur. Belə halda bu diplomatik əməkdaş chargy des Affaires olur. O dövlətinin diplomatik nümayəndəsinin bütün vəzifələrini yerinə yetirə bilməz, olduğu ölkənin Xarici İşlər Nazirliyi (Xarici İşlər İdarəsi) ilə və digər dairələri ilə münasibətlər qura bilməz. Onun vəzifələri əsasən diplomatik nümayəndəliyin daxili işləri ilə, məktubların alınması ilə məhdudlaşır.

NUNSİ. (lat. ***mıntius*** - elçi, nümayəndə). Roma papasının Vatikanın diplomatik münasibətlər qurduğu dövlətlərdə diplomatik nümayəndəsidir. Diplomatik əlaqələrə dair 1961 il Vyana Konvensiyasına görə nunsi protokol münasibətlərində səfirlər kimi birinci dərəcəli diplomatik nümayəndə hesab olunur.

Bir sıra katolik ölkələrində nunsilər Etimadnamələrini təqdim etmə tarixlərindən asılı olmayaraq, qeyri - katolik ölkələrində isə

Çin 450 mln. lyan (1,5 mlrd, qızıl pul) məbləğində təzminat (reparasiya) ödəməyi öhdəyə götürürdü. Bu məbləğdən 20% Almaniyaya, 26% Fransaya, 34% birlikdə İngiltərə, İtaliya, Yaponiya, ABŞ və Belçikaya, 29% Rusiyaya və 1% qalan dövlətlərə çatması nəzərdə tutulurdu.

Çin adları çəkilən dövlətlərə xüsusi bonlar (pul alınması üçün kredit vərəqi) verməyi öhdəyə götürürdü və dövlətlərdən hər bir təminatçısı özü olmaq şərti ilə Çinə borc vermək yolu ilə həmin bonları realizə edə bilərdi. Çinə gətirilən mallar üçün maksimum gömrük haqqı 5% müəyyən edilirdi (sonralar 1902 il Şanxay müqaviləsi ilə, tacirlər öz mallarını bir şəhərdən digərinə daşıyarkən gömrük rüsumlarından tam azad edilir və bununla da yerli Çin tacirləri ilə müqayisədə daha çox imtiyazlara malik olurdular). Yekun aktının bəzi maddələri imperialist dövlətlərə ticarət və gəmiçiliyə dair bundan əvvəl bağlanmış müqavilələrə dəyişiklik və əlavə etmək hüququ verirdi. Xarici dövlətlər Pekində və strateji əhəmiyyətli digər 12 məntəqədə hərbi hissə saxlaya bilərdilər. Ölkəyə silah gətirilməsinə iki il müddətinə qadağa qoyur və bu müddət qurtardıqdan sonra yenidən uzadıla bilərdi.

Hər hansı sazişin iştirakçıları tərəfindən həmin sazişin bəzi maddələrinin mətnini aydınlaşdırmağa ehtiyac yaranarkən, ona bir sıra qeydlər, dəqiqləşdirmələr və s. düzəlişlər edilməsinə dair tərtib olunan xüsusi akt da yekun protokolu adlanır. Onun mətnində göstərildiyi kimi, (xüsusi akt) həmin sazişin tərkib hissəsi hesab edilir. Müqavilələr təcrübəsində çox vaxt yekun protokolu istər ikitərəfli, istərsə də çoxtəmfli sazişlərə qoşma edilir. Bu sənədin tərtibinə o zaman ehtiyac yaranır ki, razılaşan tərəflər əsas sazişin bütün detallarını ehtiva etməsinə üstünlük verir, yaxud sazişin əsas mətni tamamilə razılaşdırıldıqdan sonra müvafiq zəruri dəqiqləşdirilmələr və aydınlaşdırmalar ortaya çıxır və mətnin yenidən redaktəsi əlavə çətinliklər yaradır.

**MÜVƏQQƏTİ İŞLƏR VƏKİLİ. (MÜVƏKKİLİ)** ***ijr. chargy dAffaires ad interim).*** Diplomatik nümayəndəliyin baş-

Müasir beynəlxalq hüquq bütövlükdə vətəndaşsızlığa mənfi yanaşır və belə vəziyyətlərin azalmasına çalışır. Dövlətlər vətəndaşsızlığı xüsusi beynəlxalq sazişlərlə məhdudlaşdırmaq cəhdləri etmişlər (1954 il Apatridlərin statusu haqda konvensiya, 1961 il vətəndaşsızlıq hallarının ixtisar olunması haqda konvensiya). 1954-cü il Apatridlərin statusu haqda konvensiya bu statusu xaricilərin statusu ilə bərabərləşdirməyi nəzərdə tutur. Söhbət daxili dövlət hüququna dair statusdan gedir. Bu hələ o demək deyil ki, apatrid xaricilər kimi öz dövlətinin diplomatik müdafiə hüququndan, ölkə və onun ölkəsi ilə olan müqavilələrdə nəzərdə tutulmuş hüquqlardan istifadə edə bilər. 1961 il Konvensiyasına görə dövlət onun ərazisində doğulmuş istənilən şəxslərə apatrid olmamasına görə vətəndaşlıq verməlidir. Belə hallarda vətəndaşlıq ya doğularkən müvafiq qanunla, ya da müvafiq şəxsin və ya onun nümayəndəsinin xahiş ilə verilir. (“DEL”).

YEKUN AKTI (fr. ***Acte final).*** İştirakçılarının mövqeyini əks etdirməklə beynəlxalq toplantının (konfrans, konqres, müşavirə) işini yekunlaşdıran sənəddir. Yekun aktı özünün məzmun və hüquqi mahiyyəti baxımından müxtəlif olur və bu müxtəliflik konfransın işinin xarakteri, məqsəd və qayəsi, habelə gedişi ilə müəyyən edilir.

Yekun aktı istilahından çox vaxt beynəlxalq müqavilələri adlandırmaqda istifadə olunur, məs. Tancerdə beynəlxalq rejimin bərpasına dair 1945 ii Paris konfransının Yekun aktı; Radio verilişlərinə dair 1963 il beynəlxalq konfransın Yekun aktı və s. Beynəlxalq müşavirələrin yekun sənədinə nümunə kimi Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin Yekun aktını (Helsinki, 1975) göstərmək olar.

YEKUN PROTOKOLU (1901). Bir tərəfdən Çin, bir tərəfdən antiimperialist İxetuan (“boksçular”) üsyanının yatırılmasında iştirak etmiş Almaniya, Avstriya-Macarıstan, Belçika, ABŞ, Rusiya, Yaponiya, Niderland və İtaliya arasında bağlanmış razılaşmadır. 07.1X.1901-Cİ ildə Pekində imzalanıb. Ona əsasən.

məhdudlaşdırılması meyli müşahidə olunur. İsveçrədə vətəndaş prinsipcə öz vətəndaşlıqından məhrum oluna bilməz. İstisna yalnız isveçrəli ikili vətəndaşhqa malik olduqda, xaricdə yaşadıqda və İsveçrə maraqlarına və nüfuzuna ciddi ziyan vurduqda mümkündür. Danimarka, Çin, Yaponiya, Almaniya qanunlarında vətəndaşlıqdan məhrum olunma nəzərdə tutulmayıb. Böyük Britaniyada və Birlik dövlətlərində təbəəiiyə götürülmüş şəxslərə münasibətdə vətəndaşlıqdan məhrum etmənin mümkünlüyü nəzərdə tutulur.

Vətəndaşlığın itirilməsinə dair hüquq normaları vətəndaşsızlığm ixtisarı haqda 1961-ci il Konvensiyasında toplanıb. Konvensiya uzun müddət xaricdə yaşayan şəxsin vətəndaşlıqdan məhrum edilməsinə yol verir, lakin müəyyən edilir ki, bu müddət ardıcıl olaraq 4 ildən az olmamalıdır. Konvensiya belə bir ümumi qayda müəyyən etmişdir ki, şəxs əgər vətəndaşsızlıq vəziyyətinə düşə bilərsə dövlət onu vətəndaşlıqdan məhrum etməməlidir.

Etnik dini, irqi və ya siyasi əsaslara görə vətəndaşlıqdan məhrum etmə yol verilməzdir (maddə 9).

Əgər qanun, şəxsi statusda hər hansı dəyişikliklər baş verdikdə, nikaha girdikdə və nikah pozulduqda, övladlığa götürüldükdə və s. vətəndaşlığın itirilməsini nəzərdə tutursa, belə itirilmə digər vətəndaşlığın alınması şərti ilə baş verir. Bununla da vətəndaşlığın fasiləsizliyi təmin olunur. (“DEL”).

VƏTƏNDAŞSIZLIQ. Heç bir dövlətin vətəndaşlığına malik olmayan şəxsin hüquqi vəziyyətidir. Belə şəxslər ***apatridlər*** (apolidizm, apatridizm - yunan sözləri apatris və apolis - sözlərindəndir - vətəndən məhrum olmuş deməkdir) adlanır. Vətəndaşsızlıq ***mütləq*** (doğulma anından etibarən) və ***nisbi*** (vətəndaşlığım itirdikdə) olur. Şəxs doğulan zaman, əgər döğulduğu yerin qanunu və valideyinlərinin vətəndaşı olduğu ölkənin qanunları ərazi hüququ prinsipinə əsaslanarsa, belə halda vətəndaşsızlıq vəziyyətinə düşə bilər. Əgər şəxs bir dövlətin vətəndaşlığından çıxarsa və ya vətəndaşlığına qəbul olunmazsa, vətəndaşsızlıq vəziyyətinə düşür.

olaraq doğulan şəxs, harada yaşamasından asılı olmayaraq valideynlərinin vətəndaşlığını almalıdır. Valideynlər müxtəlif vətəndaşlığa malik olduqda məsələ onların razılığı ilə həll olunur. Əgər məsələ həll olunmazsa, nikahdan doğulmuş uşaq atanın, nikahdan kənar uşaq ananın vətəndaşlığını alır. Ərazi prinsipinə uyğun olaraq vətəndaşlıq müəyyən dövlətin ərazisində doğulmaya görə əldə olunur. Bu iki prinsipin birləşməsindən ibarət sistemlər geniş yaranıb. İlk dəfə olaraq bu sistemlər ABŞ və Böyük Britaniyada istifadə olunmuşdur. Bu ölkədə həm doğulduğu yerdən asılı olmayaraq öz vətəndaşlarının uşaqları, həm də onların ərazisində doğulan xaricilərin uşaqları vətəndaşlıq alırlar.

Vətəndaşlıq alınması çox vaxt xaricilərlə nikaha daxil olarkən meydana çıxır. Əvvəllər xaricilərlə nikaha girən qadının öz vətəndaşlığını itirməsi və ərinin vətəndaşlığını alması prinsipi qəbul olunmuşdur. Hazırda dövlətlərin böyük əksəriyyəti cinslərin bərabərhüquqluğu prinsipinə əsaslanaraq müəyyən etmişlər ki, qadının nikaha girməsi öz -özlüyündə onun vətəndaşlığına təsir etmir.

Dövlətin və ya şəhərin fəxri vətəndaşlığının verilməsi təbəəlik demək deyil.

Vətəndaşlığın itirilməsi məsələsi dövlətin daxili hüqıiqiu ilə həll olunur. Vətəndaşlıq şəxsin iradəsinə uyğun olaraq və ya dövlətin təşəbbüsü ilə vədaşlığın itirilməsi vəəndaşlıqdan məhrum etmək deməkdir. Digər ölkənin vətəndaşlığı alındıqda, uzun müddət xaricdə yaşadıqda, xarici ölkə silahlı qüvvələrinə xidmətə girdikdə qanunla nəzərdə tutulmuş qaydada itirilir. Vətəndaşlıqdan məhrum edilmənin daha bir növü dövlətin xüsusi aktı, ali orqanın dekreti və ya məhkəmə hökmü olduqda meydana çıxır. Məs., Rusiyada Oktyabr çevrilişindən sonra siyasi fəaliyyətinə görə iki milyona yaxın adam kütləvi olaraq vətəndaşlıqdan məhrum olunmuşdu. Buna bənzər hadisə 1941 ildə Almaniyada baş vermişdi. İmperiya vətəndaşlıqı haqda dekret xaricdə yaşayan alman yəhudilərinin vətəndaşlıqdan mərhum edilməsini nəzərdə tuturdu.

Son illərdə dövlətin vətəndaşlıqdan məhrum etmə hüququnun

2. Heç kim özbaşına olaraq öz vətəndaşlığından və ya öz vətəndaşlığını dəyişmək hüququndan məhrum edilə bilməz" (maddə 15).

Vətəndaşa münasibətdə dövlətin beynəlxalq planda başlıca vəzifəsi digər dövlətdə onların diplomatik qorunmasını təmin etməkdir. Əgər xarici vətəndaşın gəldiyi dövlət hərəkətləri ilə bu vətəndaşa zərər vurarsa, bu hərəkətlər beynəlxalq hüquqa zidd olarsa, adi hüquqi müdafiə vasitələrinin (məhkəmə və s.) istifadə olunması heç bir nəticə verməzsə, vətəndaş diplomatik vasitələrlə müdafiə olunur. Xarici vətəndaşlara münasibətdə daxili qanunlara əməl olunması da beynəlxalq hüquqa ziddir.

Diplomatik müdafiə əksər hallarda diplomatik nümayəndələr və konsul idarələri tərəfindən həyata keçirilir. Məhdud hallarda vətəndaşı Xarici İşlər İdarəsi, hökümət də diplomatik yolla müdafiə edə bilər. Son vaxtlarda nəinki vətəndaşlara, eləcə də dövlətin ərazisində daimi yaşayan digər şəxslərə də diplomatik kömək edilir.

İnsanın əsas hüquqlarından biri də öz vətəninə qayıtmaq və orada yaşamaq hüququdur. Dövlət vətəndaşın getməsinə və məskünlaşmasına icazə vermək öhdəliyinə malikdir. 1966 il vətəndaş və siyasi hüquqlar haqda Beynəlxalq Pakt göstərir ki, heç kim öz ölkəsinə getmək hüququndan özbaşına məhrum edilə bilməz.

Vətəndaş və ya tayfalararası müharibələr gedişində vətəndaşların kütləvi qovulması halları baş verir. Belə hallarda digər dövlətlər xarici vətəndaşları qaçqınlar kimi qəbul etməlidir. Bu, ciddi problemlər yaratdığından xarici dövlət bu şəxslərin geri qaytarılmasını tələb etmək hüququna malikdir, öz növbəsində digər dövlət öz vətəndaşlarını qəbul etməyə və onların hüquqlarını təmin etməyə borcludur.

Vətəndaşlıq əsasən iki yolla əldə olunur: ilkin, yəni doğularkən və törəmə, yəni doğulduqdan sonra; bu təbəəliyə götürmək də adlanır. Vətəndaşlıq almaq haqda qanunvericilikdə İki prinsip mövcuddur. Birincisi qan hüququ ***(jus sanguinis),*** digəri torpaq (ərazi) hüququ ***(jus so/i)*** prinsipidir. r3irinci prinsipə uyğun

etmək və dövlət tərəfindən qorunmaq hüququ vardır. Avropada "Vətəndaşlıq" termini "şəhər" və "şəhərli" sözlərindən törəmişdi. Məs., İngilis dilində "city"-"citizenship", alman dilində "burqer" - nəinki vətəndaş, həm də şəhər sakini deməkdir. Bu onunla izah olunur ki, ilk respublikalar özünüidarə edən şəhərlərin təcrübəsini əxz etmişdilər. Hal-hazırda sənədlərdə vətəndaşlıqı bildirmək üçün başqa termin "nationality" (in.), "nationality" (fr.), "nazionalita" (ital.) istifadə olunur. Bu termin dövlətə aidiyyət kimi başa düşülür. Vətəndaşlıqdan başqa "təbəəlik" termini də işlədilir (məsələn, İran İslam Respublikasında, Əfqanıstan Respublikası və s.). Əvvəllər o monarxiyaya məxsusluğu bildirmək üçün istifadə olunurdu. Hazırda "təbəəlik" termini az istifadə olunur və "vətəndaşlıq" termini ilə eyni mənanı daşıyır. Statusuna görə vətəndaş qanunla nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edir və müvafiq öhdəliklər daşıyır. Dövlət vətəndaşın hüquqlarını təmin edir və onun öhdəliklərinin yerinə yetirilməsinə nəzarət edir.

Bəzi ölkələrdə müxtəlif növ vətəndaşlar mövcuddur. ABŞ-da federal vətəndaşlıqla yanaşı subyektlərin vətəndaşlığı mövcuddur. İsveçrədə isə federal vətəndaşdan əlavə kanton və icma vətəndaşlığı da vardır. Bu ölkələrdə beynəlxalq planda ancağ federal vətəndaşlıq mövcuddur.

Vətəndaşlığın müəyyən olunmasında başlıca rol dövlətə məxsusdur. Dövlət vətəndaşın hüquqlarını, vətəndaşlıq alınması və itiriməsi qaydalarını müəyyən edir. Bu müddəa vətəndaşlıq məsələlərinə dair 1930 il Haaqa Konvensiyası ilə, eləcə də daimi Beynəlxalq hüquq palatası ilə və Beynəlxalq məhkəməsi ilə təsdiq olunub. 1930 il Haaqa Konvensiyasında deyilir ki, digər dövlətlər tərəfindən vətəndaşlıq haqda qanunlar, bu qanunlar beynəlxalq konvensiyalara, beynəlxalq adətlərə və vətəndaşlığa münasibətdə ümumi qəbul olunmuş prinsiplərə uyğun gəldikdə tanınır.

1948 il Ümumdünya İnsan hüquqları Bəyannaməsi aşağıdakı ümumi prinsipləri göstərmişdir:

I. "Hər bir insanın vətəndaşlıq hüququ vardır.

VASSAL DÖVLƏT (lat. ***vassalus*** - vassal, vassus - xidmətçi). Vassallıq orta əsrlərdə Qərbi Avropada feodal vassalların digər feodallardan - senyorlardan şəxsi asılılıq münasibətləri sistemi olmuşdu. İri feodallar senyorun vassalı olmaqla bərabər, eyni zamanda öz vassallarına da malik idi. Vassal dövlət suverenin onun qanunlarına, inzibati və məhkəmə fəaliyyətinə geniş müdaxiləsinə yol verməyə məcbur olur və nəinki daxili siyasətlə bağlı (məs., pul nişanlarının komissiyası hüququ), eləcə də xarici əlaqələr qurmaq üçün zəruri hüquqlardan məhrum edilir.Vassal dövlətin tabeçilyi suveren tərəfindən vassal dövlət başçısının təsdiq olunması və sədaqət andının içilməsi ilə müşayət olunurdu ki, bu da vassalın suverendən asılılığına şəxsi xarakter verir, vassallığı protektoratlıqdan (qəyyumluqdan) ayırırdı.

Hazırki dövrdə Avropada tarixi keçmişin qalığı kimi bir Vassal dövlət qalıb: o da Pireneyada yerləşən, Fransadan və Urxel (İspaniya) yepiskopundan vassal asılılığında olan kiçik icma - Andorra respublikasıdır. Keçmişdə (1856-1870-ci illərdə) Serbiya, Çernoqoriya Osmanlı İmperiyasından asılı vassal dövlətlər idi. Hindistan və Pakistan dövlətlərinin meydana gəlməsinədək çox saylı (500-dan çox) hind feodal knyazlıqları İngiltərə kralının "suvereniteti" altında olan Vassal dövlətlər idilər.

Daxili siyasətdə bəzi cüzi müstəqilliklərinin olmasına baxmayaraq vassal dövlət beynəlxalq münasibətlərdə iştirak etmirdilər və beynəlxalq hüququn subyekti olmurdular. Onlar beynəlxalq müqavilələr bağlamaq və diplomatik münasibətlər qurmaq hüququndan məhrum olurdular. Suveren dövlətin imzaladığı siyasi, ticarət, gömrük və s. müqavilələr avtomatik olaraq onun beynəlxalq münasibətlərdə rəsmi şəkildə təmsil etdiyi vassal dövlətə də aid edilir.

VƏTƏNDAŞLIQ. Fiziki şəxsin onun qarşılıqlı hüquq və öhdəliklərini müəyyən edən dövlətlə hüquqi bağlılığıdır. Demokratik dövlətdə vətəndaşın dövlətin idarə olunmasında iştirak

qarşıdurma. Bəzi dövrlərdə beynəlxalq gərginliyin zəifləməsi dövrləri də müşahidə olunurdu.

SPİKER (ing. ***speaker*** - natiq). İngilis dilli ölkələrdə parlamentin aşağı palatasının sədridir. Rəsmi olaraq palata tərəfindən, faktiki olaraq isə səs çoxluğuna malik tərəfdən seçilir. Böyük Britaniyada icmalar palatasının sədridir və partiyadan kənar hesab olunur. Palatanın özünü palata komitəsinə çevirməsi halları istisna olmaqla palata iclaslarına rəhbərlik edir. Spiker vasitəsilə palata dövlət başçısı ilə əlaqə saxlayır.

STATUS KVO (lat. ***status quo*** - əvvəlki vəziyyət). Müəyyən anda mövcud olmuş və ya mövcud olan faktiki və ya hüquqi vəziyyətdir. Status kvonu bərpa etmək baş vermiş dəyişikliklərə qədər mövcud olmuş vəziyyətə qayıtmaq deməkdir. ***Status quo ante hellum*** müharibəyə qədər, yəni onun meydana gətirdiyi dəyişikliklərə qədərki mövcud olmuş vəziyyət deməkdir.

STATUT (lat. ***statuo*** - qərar verirəm). Beynəlxalq hüquqda adətən təşkilatların və hər hansı beynəlxalq orqanın fəaliyyəti haqqında müddəadır. Beynəlxalq təşkilatın statutu onun məqsədlərini, strukturunu və vəzifələrini müəyyən edir. Statut beynəlxalq müqavilə şəklində qəbul edilir.

SÜLH NAMİNƏ TƏRƏFDAŞLIQ PROQRAMI. Yanvar 1994 ildə Brüseldə toplaşan dövlət başçıları yeni əməkdaşlıq strategiyasını qəbul etdilər. Onlar "bütün Avropa ərazisində uzunmüddətli sülhün, sabitliyin və əmin-amanlığın qorunmasına yönəlmiş təşəbbüsləri" Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində qəbul etdiklərini bəyan etdilər. Bu proqram qısa vaxtda beynəlxalq siyasətin tərkib hissəsinə çevrildi. Sülh naminə tərəfdaşlıq proqramı vahid təşkilat deyildir. O, NATO ilə Rusiyanın da daxil olduğu 25 ölkə arasında ayrı-ayrı razılaşmalar əsasında fəaliyyət göstərir.

Azərbaycan Respublikası Sülh naminə tərəfdaşlıq proqramına
4. V. 1994 ildə qoşulmuşdur.

Repatriasiya adətən, beynəlxalq müqavilələr və ya dövlətlərdə müvafiq qanunlar olduqda müqavilədənkənar əsasda da həyata keçirilə bilər. Repatriasiya bəzən vətəndaşlığın dəyişdirilməsi (əldə edilməsi) ilə bağlı olur. Hərbi əsirlərin repatriasiyasının məcburiliyi müharibə qurbanlarının müdafiəsi haqqında 1949 il Cenevrə konvensiyalarında nəzərdə tutulmuşdur.

SIĞINACAQ HÜQUQU. Dövlətin ona, müvafiq xahişlə müraciət edən şəxsə siyasi sığınacaq vermək hüququ (müasir beynəlxalq hüququn ümumən qəbul olunmuş normalarından irəli gələn məhdudiyyətlər çərçivəsində). Dövlət siyasi mühacirə sığınacaq verərkən ona öz ərazisində normal şərtlər əsasında təhlükəsiz şəkildə yaşamasını təmin edəcək hüquqlar verməlidir (siyasi mühacirin geri verilməməsi; onun təqib edildiyi və ya tərk etdiyi ölkəyə sürgün edilməməsi; siyasi mühacirə həmin ölkədə digər xarici vətəndaşların istifadə etdikləri hüquq və azadlıqlarla təmin edilməsi).

SİONİZM. Xovevey Sion hərəkatının ideyalarını təbliğ edən Natan Birnbraun ilk dəfə 1885 ildə “sionizm” terminini işlətmişdir. Sonradan hərəkata və onun ideologiyasına verilən Sionizm adı öz mənşəyini “Sion” sözündən götürmüşdür. “Sion” Tanaxda (Bibliyada) Yerusəlimə (Qüdsə), Yəhudi çarlığına, bütövlükdə Erets-İsrail ə, Siona qayıtma, yəni yəhudi xalqının və dilinin onun tarixi vətənində inkişaf etdirilməsi uğrunda hərəkatdır. Siyasi sionizmin atası hesab edilən Teodor Qertsl 1896 ildə yazdığı “Yəhudi dövləti” kitabında təsdiq edirdi ki, antisemitizm problemini ancaq yəhudi dövləti yaratmaq yolu ilə həll etmək olar. 1897 ildə birinci sionist konqresi çağırıldı və T. Qertsl başda olmaqla sionist təşkilatı yaradıldı.

SOYUQ MÜHARİBƏ. 1946 ildən 1990 illərin əvvəllərinə kimi bir tərəfdən SSRİ və onun müttəfiqləri, digər tərəfdən ABŞ və inkişaf etmiş Qərb dövlətləri arasında mövcud olan gərgin

“ölçülmüş” səsvermə metodu tətbiq edilir (hər bir iştirakçı onun bu təşkilata verdiyi maliyyə proporsional olaraq bir neçə səsə malikdir). Prosedur məsələlərinə dair qərarların qəbul olunmasında adətən səslərin sadə əksəriyyəti kifayət edir (50%+1). BMT Təhlükəsizlik Şurası prosedur məsələləri istisna olmaqla bütün məsələlərə dair qərarları Şuranın bütün daimi üzvlərinin üyğun gələn səsləri də daxil olmaqla doqquz səslə (yekdil) qəbul edir.

Prosedur qaydalarına əməl olunmasına konfransın (beynəlxalq təşkilat orqanının) sədri nəzarət edir. Prosedur qaydalarının bu və ya digər müddəalarının tətbiq edilməsi ilə əlaqədar fikir ayrılıqları meydana gəldikdə mübahisəli məsələ konfrans iştirakçıları (orqanın üzvləri) tərəfindən həll edilir.

PROTOKOL (fr. ***protokol*** - rəsmi sənəd). Protokol diplomatiya qədər qədimdir. Protokol (yunan sözü “protokollon”dandır; “protos” - birinci, ilkin, “kolla” yapışdırmaq, bərkitmək). Orta əsrlərdə rəsmi sənədlərin tərtibi qaydasına və arxiv işinin aparılmasına protokol deyilirdi. Diplomatik sözlüklərdə verilmiş açıqlamalarda diplomatik protokol beynəlxalq ünsiyyətdə olan dövlətlər, hökümətlər, xarici işlər nazirlikləri, diplomatik nümayəndəliklər və rəsmi şəxslər tərəfindən beynəlxalq təcrübədə qəbul olunmuş, icrası zəruri sayılan qaydaların, ənənələrin və şərtlərin toplusu kimi səciyyələndirilir. Protokol heç bir dövlətin özünəməxsus adətlərini,mərasimlərini, milli ənənələrini inkar etmir, əksinə, onların dinamik inkişafında və zənginləşməsində protokolun rolu inkaredilməzdir. Müasir beynəlxalq hüquq normaları baxımından protokol və mərasimlər birbaşa hər bir dövlətin suverenliyinin prinsiplərini əks etdirir. Protokolun gözlənməsi diplomatın yerləşdiyi ölkənin suverenliyinə ehtiram deməkdir.

REPATRİASİYA ***{ht.repatriatio*** - vətən). Müxtəlif səbəblərdən digər dövlətin ərazisində olan şəxsin vətəndaşı olduğu, daimi yaşadığı və ya mənsub olduğu dövlətə qayıtması (məs: Qaçqınlar, yerini dəyişmiş şəxslər) mənasındadır.

PROSEDUR QAYDALARI (lat. ***projedere*** - irəliləmək). Beynəlxalq konfransların və beynəlxalq hökümətlərarası təçkilatları orqanlarının sessiyalarının çağırılması və keçirilməsi qaydalarının, onların işinin təşkilini, başlıca orqanlarının seçilməsi prosedurasını, konfransların (təşkilatların) gündəliyində duran məsələlərin müzakirə metodları, eləcə də bunlara dair qərarların işlənib hazırlanma və bəyənilməsi qaydalarını tənzimləyən normaların və qaydaların məcmusudur. Prosedur qaydaları bəzən reqlament də adlandırılır.

Prosedur qaydalarının işlənib hazırlanması bir qayda olaraq konfransın hazırlıq orqanı (təşkilatın köməkçi orqanı) tərəfindən həyata keçirilir, konfransın plenar iclasında isə təsdiq olunur. Beynəlxalq təşkilatların daha mühüm prosedur məsələləri (səs vermə qaydası, yeni üzvlərin qəbul edilməsi və s.) onların nizamnamələrinə əsasən həll edilir. Prosedur qaydaları beynəlxalq konfranslar və təşkilatların müntəzəm, səmərəli, operativ fəaliyyətini təmin etməyin mühüm vasitəsidir.

Prosedur qaydaları konfransların seçirilməsi və yeri haqda, iştirakçı dövlətlərin nümayəndəliyi (o cümlədən onların nümayəndələrinin səlahiyyətləri), bu foruma çağırılmış beynəlxalq təşkilatların nümayəndələrinin, müşahidəçilərin hüquqları, vəzifəli şəxslərin seçilməsi və vəzifələri haqda katibliyin fəaliyyəti, köməkçi orqanların yaradılması və işçi dili (ya dilləri), Konfransın (orqanın) sənədləri, gündəliyin təsdiqi, iclasların keçirilməsi. Təkliflərin nəzərdən keçirilməsi, gündəliyə daxil edilməsi və eləcə də prosedur qaydalarına düzəlişlər edilməsi haqda müddəalardan ibarətdir.

Çoxlu sayda iştirakçıları olan konfranslarda başlıca məsələyə dair qərarların qəbul olunması üçün ixtisaslaşdırılmış əksəriyyət tələb olunur (məsələn, səsvermədə olan və iştirak edən nümayəndələrin 2\3 və ya 3\4). Bəzi konfranslar və orqanlar qərarları konsensus əsasında qəbul edirlər. Bəzən bir konfransın gedişində xarakterindən asılı olaraq qərarların qəbul edilməsində müxtəlif qaydalardan istifadə edilir. Bir sıra beynəlxalq təşkilatlarda

sahili ölkələri üçün qeyri normal şərait yaratdığından, SSRİ onu təsdiq etmədi. 1936-cı ildə bu sənəd Qara dəniz ölkələrinin mənafeyini nəzərə alan yeni konvensiya ilə əvəz olundu.

MARŞAL PLANI (1947). İkinci Dünya müharibəsindən sonra Avropanın bərpası və inkişafına dair Amerika planıdır.
5. VI.1947-də ABŞ Dövlət katibi C.K.Marşall tərəfindən irəli sürülmüş, IV. 1948 ildə qüvvəyə minmişdi. Plana görə 16 Avropa dövləti ABŞ hökümətindən 1948-1951 illərdə 17 mlrd, dollar yardım almalı idi. Yardımın təqribən 60%-i Böyük Britaniya, Fransa, İtaliya və Qərbi Berlinin payına düşürdü. Marşal planı 1951 ildə həm iqtisadi, həm də hərbi yardımın eyni zamanda göstərilməsini nəzərdə tutan "təhlükəsizliyin qarşılıqlı təminatı" müddəası ilə əvəz olundu.

MEMORANDUM (lat. ***memorandum*** - yadda saxlanılmalı olan). Bu və digər məsələnin faktiki tərəflərini ətraflı şərh edən, bu və ya digər müddəaların analizindən və ya digər tərəfin dəlilləri ilə mübahisədən ibarət diplomatik sənəd, diplomatik yazışma növüdür.

Memorandum ya nota mətninin ixtisar edilməsi məqsədilə şəxsi və ya verbal notaya əlavə şəklində, ya da ayrıca sənəd formasında olur. Praktikada bir hökümətin digər hökümətə beynəlxalq vəziyyətin və xarici siyasətin başlıca məsələlərinə dair memorandum göndərməsinə az hallarda rast gəlinir. Şəxsi və ya verbal notaya əlavə şəklində olan Memorandum gerb, nömrə, möhür, göndərilmə yeri (şəhər) və vaxtı qoyulmur, ünvan göstərilmir. Ayrıca sənəd formasında olan memorandum nota blankında çap olunur, nömrə və möhür qoyulmur, amma göndərilmə yeri (şəhər) və tarix göstərilir.

PAKT ***{latpactum*** - razılaşma, saziş). Qarşılıqlı kollektiv təhlükəsizliyin, qarşılıqlı yardımın, hücum etməməyin və s. təmin olunması kimi məsələləri nizamlayan və ya dövlətlərin konkret əməkdaşlıq sahələri üçün başlıca əhəmiyyətə malik prinsip və normaları müəyyən edən ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilədir.

habelə Bolqarıstan nümayəndə hüyətlərinin konfransda iştirakını yalnız boğazlar məsələsinin müzakirəsi ilə məhdudlaşdırılmışdılar. Bir sıra əlahiddə (əsasən, iqtisadi) məsələlərin müzakirəsində Albaniya, Belçika, İspaniya, Portuqaliya, Niderland, Norveç və İsveçin nümayəndələri də iştirak edirdi.

Sovet nümayəndə heyəti tərəfindən(birinci mərhələdə ona G. V.Çiçerin başçılıq edirdi) konfransda boğazlar məsələsi ilə əlaqədar Qara dəniz sahili ölkələrinin, birinci növbədə Türkiyənin milli mənafeyinə cavab verən layihə irəli sürülmüşdü. Türkiyə nümayəndə heyəti hazırlanmaqda olan sülh müqaviləsinin bir sıra mühüm məsələlərində İngiltərə tərəfindən müdafiə olunacağına ümüd bəsləyərək Boğazlar məsələsində Böyük Britaniya nümayəndə heyətinin layihəsini qəbul etməyə hazır olduğunu bildiridi (bu layihə istər dinc dövr, istərsə də Türkiyənin bitərəf qaldığı müharibə dövrləri üçün boğazları bütün ölkələrin hərbi gəmiləri üçün açıq elan edir, böğazların tərksilah olunmasını, onlar üzərində beynəlxalq nəzarət qoyulmasını nəzərdə tuturdu). Lakin başlıca milli mənafeləri nəzərə alınmadığından, Türkiyə Antanta dövlətlərinin hazırladığı müqaviləni imzalamaqdan imtina etdi və 04.11.1923 ildə danışıqlar kəsildi. 23.IV. 1923 ildə danışıqlar yenidən başlanadı. Lozanna konfransının ikinci mərhələsində də sülh müqaviləsi ilə əlaqədar məsələlərin müzakirəsi başlıca yer tuturdu. Antanta dövlətləri bu dəfə Türkiyənin bir sıra haqlı tələbləri ilə hesablaşmalı oldular. 24.Vll.l923-cü ildə imzalanmış sülh müqaviləsi (Böyük Britaniya, Fransa, İtaliya, Yunanıstan, Rumıniya, və Yaponiya ilə Türkiyə arasında bağlanmış və tarixə Lozanna sülh müqaviləsi kimi daxil olmuşdur) Kamalçılar inqilabı nəticəsində yaradılmış müstəqil Türkiyə dövlətinin varlığını təsdiq etdi. Onun yeni (indiki) sərhədlərini müəyyənləşdirdi; türk xalqının milli heysiyyətini alçaldan kapitulyasiya (qeyd-şəetsiz təslim olma) rejimi ləğv olundu. Bununla yanaşı Türkiyə Osmanlı imperiyasının borclarının bir hissəsini ödəmək barədə təəhhüd götürdü.

Lozanna konfransının digər mühüm sənədi olan boğazlara dair konvensiya (əsasını İngiltərə təklifi təşkil edirdi) Qara dəniz

qaldırmaq məqsədilə həyata keçirilir. Məs., Morenada Prussiya- Belçika sərhədində Kondominium ona görə yaranmışdı ki, Prussiya və Belçika (Belçika Hollandiyanın varisi kimi) bu rayonda sərhəd haqda 1815 il Vyana konqresinin aktı və 26.V11.18I6 il müqaviləsi əsasında öz aralarında razılığa gələ bilməmişdilər. Bu Kondominium Versal sülh müqaviləsinodək, yəni 100 ildən çox davam etmişdi.

1899 ildə Böyük Brtaniya və Misir Sudan üzərində Kondominium müəyyən etmişdilər (Misir 15.X.195I ildə bu Kon- dominiumu ləğv etdi). Hazırda Sakit okeanda Kantok və Enderberi adaları üzərində 1939 il ingilis-amerikan razılaşmasına əsasən Kondominium qalmaqdadır. 1906-1980 illərdə Böyük Britaniya və Fransa arasında Hcbrid adaları üzərində Kondominiumu mövcud olmuşdu (1980 ildə burada Yeni Vanuatu Respublikası yarandı).

Kondominium dəniz üzərində də müəyyən oluna bilər. Məs., Salvador və Hondurasın Fonscka körfəzi üzərindəki Kondominiumu buna misal göstərmək olar. (“DEL”).

KONSUL ƏLAQƏLƏRİNƏ DAİR VYANA KONVENSİYASI (1963). 24.VI.1963-də BMT-nin Vyanada keçirilmiş konfransında qəbul edilib. 19.111.1967 ildən qüvvədədir.

Konvensiyanın bir çox maddələrinin keşmiş SSRİ-nin daxili qanunvericiliyi ilə ziddiyət təşkil etməsi adı ilə sovetlər birliyi bu beynəlxalq müahidəyə qoşulmamışdır.

LOZANNA KONFRANSI (1922-1923). Türkiyədə imperialist müdaxiləsinin boşa çıxmasından və Kamalçılar ingilabmın qələbəsindən sonra Yaxın vŞərqdə vəziyyəti nizama salmaq məqsədilə çağırılmış beynəlxalq konfransdır. 20.X1.1922-24.VI1.1923 illərdə İsveçrənin Lozanna şəhərində keçirilmişdi. Əsas məqsədi Türkiyə ilə sülh müqaviləsi bağlamaqdan və Qara dəniz boğazlarının rejimini müəyyənləşdirməkdən ibarət idi. Lozanna konfransının işində Böyük Britaniya, Fransa, İtaliya, Yunanıstan, Rumıniya, Yuqoslaviya və Yaponiya iştirak edirdi. ABŞ müşahidəçi sifətilə təmsil olunmuşdu. Antanta dövlətləri Sovet,

dillərində konsulluq müəssisəsinin adı yazılan emblemdir.

Konsulluq lövhəsi konsulluq müəssisəsinin yerləşdiyi binaya, habelə onun başçısının iqamətgahına vurula bilər. Konsulluğun konsulluq lövhəsi vurmaq hüququ dövlətlərin daxili qanunvericiliyində və konsulluq konvensiyalarında, xüsusən də konsulluq əlaqələrinə dair 1963 il Vyana konvensiyasında təsbit edilmişdir.

KONSUL YIĞIMLARI. Konsulun konsulluq hərəkətləri üçün tutduğu ödənclər konsul yığımlarıdır; pasportlar verilməsi, yaxud onların etibarlılıq müddətinin artırılması, vizalar verilməsi, vətəndaşlıq məsələləri üzrə vəsaitlərin qəbulu və tərtibi, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyyatı, sənədlərin leqallaşdırılması, notarial və bəzi başqa hərəkətlər bu qəbildəndir.

Konsul yığımları konsulu təyin edən ölkənin qanunvericiliyi ilə müəyyən edilən tarif üzrə tutulur və həmin ölkənin dövlət büdcəsinə daxil olur; qeyri-ştatlı konsullar tərəfindən tutulan yığılmalar onların nəfinə dövriyyəyə buraxılır.

KURYER VƏRƏQİ. Diplomatik poçtu müşayiət etmək üçün diplomatik kuryerə verilən vərəqdir. Bu rəsmi sənəd diplomatik kuryerə toxunulmazlıq hüququ verir, onun müşayiət etdiyi diplomatik poçtu diplomatik immunitetlə təmin edir. Diplomatik kuryer diplomatik poçtu son ünvana təqdim edəndən sonra onun kuryer vərəqi öz əhəmiyyətini itirir və hüquqi mahiyyət daşımır.

KONDOMİNİUM (lat. ***con*** - birgə, dominium - malik olma). Beynəlxalq hüquqi ortaqlıq, eyni ərazi üzərində iki və ya bir neçə dövlətin birgə və bölünməz ali hakimiyyətidir. Kondominiuma beynəlxalq münasibətlər təcrübəsində az rast gəlinir.

Kondominium bir ərazi hüdudlarında ancaq bir suverün hökümətin fəaliyyət göstərməsi haqda ümumi qaydaya tabe deyil. Adətən Kondominium zamanı hakimiyyət faktiki olaraq ortaq dövlətlərdən ən güclüsü tərəfindən həyata kiçirilir.

Kondominium eyni əraziyə iddia edən iki və daha çox dövlət arasında başqa yolla həll olunmayan ziddiyyət və rəqabəti aradan

konsul hesab edilir, konsullar eyni dərəcədə olarsa, kimə daha tez ekzekvatura verilibsə, o duayen olur. Əgər ekzekvaturalar eyni tarixdə verilibsə, başçılıq-duayenlik konsulluq patentinin verilməsi, ya da konsulun ölkəyə gəlişinin vaxtı ilə müəyyən edilir. Konsulluğun başçısı olan konsul, konsul idarəsinin başçısı olmayan konsula münasibətdə üstünlüyə malikdir.

Dar mənada konsulluq korpusuna ancaq konsul idarələrinin başçıları daxildir. Geniş məhada konsulluq korpusuna konsulluqların rəsmi heyəti də (konsulluq başçılarının müavini və ya köməkçiləri olan konsullar) daxildir. Bəzən konsulluq korpusu dedikdə xaricdə yerləşən bu və ya digər ölkənin bütün konsullarının məcmusu başa düşülür.

KONSUL LEQALLAŞDIRILMASI, (lat. ***Leqalis-q*ɜ*imn).*** Konsulun sənədlərdəki imzaların doğruluğunu, habelə sənədləri qəbul edən ölkənin qanunlarına uyğun gəlməsini möhürü ilə müəyyənləşdirməsi və təsdiq etməsi ***konsulluq leqallaşdınlmasi*** adlanır. Konsulun təmsil etdiyi dövlətdə tərtib olunan və qəbul edən ölkəyə təqdim üçün nəzərdə tutulan sənədlərdə konsul leqalizasiyası praktikada özünü göstərir. Konsul leqallaşdırılması sənədlərin beynəlxalq əlaqələrdə hüquqi qüvvəsini təsdiq edir. Xarici dövlətlərin hakimiyyət orqanlarından çıxan sənədlərə qəbul edən dövlətdə bir qayda olaraq, konsul leqallaşdırılmasından sonra baxılır. Konsul leqallaşdırılması qaydası hər dövlətin Xarici İşlər Nazirliyi (Xarici İşlər idarəsi) tərəfindən müəyyən edilir. Azərbaycan Respublikası ərazisində konsul leqallaşdırılması Azərbaycan XİN-in konsulluq idarəsi, habelə xarici dövlətlərin konsulluq müəssisələri tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə ziddiyyət təşkil edən, öz məzmunu ilə dövlətin maraqlarına ziyan vura bilən, yaxud onun vətəndaşlarının şərəf və ləyaqətini alçaldan maraqlan özündə ehtiva edən sənədlər konsul leqallaşdırılmasından keçmir.

KONSULLUQ LÖVHƏSİ. Təqdim edən dövlətin gerbi təsvir olunan və təqdim edən dövlətin və yerləşmə dövlətinin

Vaşinqtonun münasibətlərində öz mənfi təsirini göstərdi. Türkiyə prezidenti Turqut Ozal 1993-cü ilin aprel ayında Azərbaycana səfər etdi. O zamankı Daxili işlər naziri İ. Həmidovun T. Ozala rəsmi qəbulda tənqidi müraciəti: "Türkiyənin erməni - azərbaycan konfliktinin həllində passiviikdə günahlandırılması", demək olar ki, Elçibəy hökuməti ilə Turqut Ozal hökuməti arasında bir soyuqluq yaratdı. H.Əliyevin hakimiyyətə qayıdışı ilə Türkiyə - Azərbaycan münasibətlərində yenidən bir canlanma əmələ gəldi. 9 fevral 1994- cu il tarixdə H. Əliyev Ankaraya səfər etdi. 'l urkiyə ilə Azərbaycan arasında ikitərəfli 15 müqavilə imzalandı. İki ölkə arasında qarşılığlı etimad möhkəmləndi. Bu etimad prezident H.Əliyevin Ankaraya 1994- cü ilin may və iyun aylarındakı daha iki səfəri ilə daha da bərkidi və münasibətlərin hüquqi bazası yarandı: 74 hökumətlərarası müqavilə və 130 müxtəlif sahələrə aid sazişlər imzalandı.

Azərbaycan - Türkiyə münasibətləri bu günə qədər genişlənir və inkişaf edir. Buna ən yaxşı sübut Azərbaycan prezidenti H. Əliyevin 23 may 1999-cu ildə Antaliyada müalicə olunarkən Türkiyə prezidenti S. Dəmirələ dediyi aşağıdakı sözlər ən yaxşı misaldır: "Mən öz həyatımı, öz sağlamlığımı Türkiyəyə etibar edirəm". Azərbaycan öz böyük dostu və qardaşı Türkiyəyə Dağlıq Garabağ probleminin həlli, Qərbi Avropa və ABŞ-a inteqrasiya, bazar iqtisadiyyatına keçid, NATO strukturlarına yaxınlaşmaq və s. məsələlərdə böyük ümid bəsləyir. Bir məsələdə - iqtisadi inkişafda Azərbaycan - Türkiyənin kapital qoyuluşundan daha çox bu məsələdə Türkiyə təcrübəsindən bəhrələnməyə çalışır. Türkiyə də ümid edir ki, Azərbaycan vasitəsilə Mərkəzi Asiyaya, Tatarıstan, Başqırdıstan kimi türkdilli Rusiya subyetklərinə yol tapar, onların mineral ehtiyatları və enerci resurslarından səmərəli istifadə edə bilər. Azərbaycan - Türkiyə iqtisadi - ticarət əlaqələri sürətlə inkişaf edir. Məsələn, 1997-ci ildə Azərbaycanla ticarətdə Rusiya 18% -lə, İran 5,6% -lə 1 və II yerlərdə olanda, Türkiyə İrandan sonra III-cü yeri tutduğu halda 1998-ci ildə Türkiyə Azərbaycanla ümumi mal dövriyyəsində 21% -lə I yeri tutdu (Rusiya 18%, İran 5.6%-lə).

hüquqi əsasını təşkil edir. 05-08.V.I997 ildə H. Əliyev Türkiyə Respublikasına növbəti dostluq səfəri etdi. 5.V.1997-də “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsinə dair Bəyannamə” və “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında sərhəd məsələlərinə dair” razılaşma imzalandı. 08.V.1997-də isə “Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Türkiyə Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq və siyasi dialoqlara dair saziş” imzalandı.

Azərbaycanla Türkiyə arasında siyasi münasibətlər sonrakı illərdə də uğurla inkişaf etmiş və hər iki ölkənin beynəlxalq regional problemlərə eyni mövqedən yanaşması ilə səciyyələnir.

Azərbaycan prezidenti İ. Əliyevin qardaş ölkəyə, Türkiyə prezidenti Ə. N. Sezərin Azərbaycana səfərləri, BTC kəmərinin açılışında iştirakları hər iki ölkə üçün faydalı olmuşdur.

Türkiyə Respublikası müstəqilliyimizin ilk günündən Azərbaycanın baş strateji partnyorudur. Həmdilimiz, həmmillətimiz olan Türkiyəyə belə münasibət təbii idi. Biz “bir millət - iki dövlətik” (H. Əliyev) şüarı ilə birləşmişik. Bunu Türkiyə də əməldə sübut etmişdi. SSRİ-nin dağılmasılə böyük bir ərazidə türkdilli dövlətlərin müstəqillik qazanması Türkiyədə “tarixi şans” kimi qəbul olunur: türkdilli dövlətlərin inteqrasiyası və Türkiyənin “böyük qardaş” missiyasını yerinə yetirmək vəzifəsi. Elçibəy özünü “Atatürk əskəri” adlandıraraq rəsmi şəkildə Azərbaycan dilini türk dili elan edir və iki dövləti bir dövlətdə birləşdirməyi təklif edir. Türkiyə prezidentləri Ozal və Dəmirəl 600 mln-luq türkdillilərin Türkiyə bayrağı altında “Adriatik dənizindən Böyük Çin səddinə gədər bir dövlətdə birləşəcəyini”, “XXI əsrin türklərin əsri olacağını” deyirdilər. 29-31 oktyabr 1992-də Ankarada keçmiş sovet türk respublikalarının: Azərbaycan, Qırqızıstan, Türkmənistan, Qazax- stanın dövlət başçılarının görüşü keçirildi. Lakin bir sıra çətinliklərə də Türkiyə dözməli oldu. 1992-dən Ermənistana (Qarabağ probleminə görə) iqtisadi blokada elan edən Türkiyə aprel 1993-də Türkiyə - Ermənistan sərhəddini tam bağladı. Bu isə Ankara ilə

yekun vurulur, regional və qlobal problemlər ətrafında fikir mübadiləsi aparılır, ikitərəfli əlaqələrin perspektiv inkişafı üçün yeni istiqamətlər müəyyən edilir və müxtəlif sahələrə aid sənədlər imzalanır.

Türkiyə Respublikasının ilk rəsmi hökümət nümayəndəsi kimi I. 1992 ildə xarici işlər naziri Hikmət Çətin Bakıya gəldi. 14.1.1992- də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin yenidən qurulmasına dair protokol" imzalandı. Azərbaycan Respublikasının prezidenti Türkiyədə dostluq səfərində oldu. 24.1.1992-də Ankarada "Azərbaycan Respublikası ilə 'fürkiyə Respublikası arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluğa dair saziş" imzalandı. Bu sənəd iki dövlət arasında əlaqələrin qurulması və inkişafı üçün əsaslı hüquqi zəmin yaratdı. 11.1992 ildə xarici işlər naziri Hikmət Çətin Bakiya növbəti səfər etdi. 28.11.1992-də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında vizaların ləğvinə dair saziş" imzalandı. Həmin sənəd iki ölkə arasında gediş-gəlişi asanlaşdırdı. 11.VIII.1992- də Ankarada "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında konsulluq sövdələşməsi" imzalandı ki, bu da iki ölkə arasında əlaqələrin genişləndirilməsinə əlverişli şərait yaratdı.

01-05.XI.1992 ildə Azərbaycan Respublikasının prezidenti Ə.BIçibəy Türkiyə Respublikasında rəsmi dostluq səfərində oldu. 2. XI. 1992-də"Birgə Bəyanat" və "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq və yekdilliyə dair saziş" imzalandı. 13-15.IV.1993 ildə Türkiyə Respublikasının prezidenti T. Ozal Bakıda oldu. T.Ozalın Bakıya gəlişi Azərbaycan - Türkiyə əlaqələrinin inkişafına müsbət təsir göstərdi.

Azərbaycan Respublikasının prezidenti H. Əliyev 08-II. 11.1994 ildə Türkiyə Respublikasla rəsmi səfər etdi. 09. II. 1994- də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair saziş" və "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında siyasi dialoqlara dair saziş" imzalandı. Hər iki sənəd Azərbaycan - Türkiyə əlaqələrinin inkişafında keyfiyyətcə yeni bir mərhələnin

obyektlərinin inşası davam etdirilir. Odur ki, Azərbaycan tezliklə özünü elektrik enerjisi ilə tamamilə təmin edən ölkəyə çevriləcəkdir. Bir sözlə, dövlətlərimiz arasında iqtisadi sahədə qarşılıqlı fəaliyyəti şaxələndirməyin və ən müxtəlif istiqamətlərdə konkret layihələri həyata keçirməyin vaxtı çatmışdır.

2003-cü ildən sonra Azərbaycan Prezidenti İ. Əliyevlə Rusiya Federasiyasının Prezidenti V. Putinin ardıcıl görüşləri iki ölkə arasında mehriban qonşuluq münasibətlərinin daha da yaxşılaşmasına xidmət etmişdir.

2007-ci il martın 27-də Moskvada, Dövlət Kreml Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Fedkrasiyasının Prezidenti Vladimir Putinin görüşü olmuşdur.

Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrində, o cümlədən siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulamışlar.

Prezidentlər qarşılıqlı münasibətlərin dərinləşməsində yüksək səviyyələrdə keçirilən görüşlərin xüsusi əhəmiyyəti olduğunu qeyd etmişlər.

Dövlət başçılın ölkələrimiz arasında etibarlı tərəfdaşlıq prinsiplərinə əsaslanan əməkdaşlığın genişlənməsindən məmnunluqlarını bildirmişlər. Söhbət zamanı prezidentlər Azərbaycan - Rusiya əməkdaşlığının bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarım vurğulamışlar.

Azərbaycan və Rusiya rəhbərlərinin görüşündə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.

**AZƏRBAYCAN - TÜRKİYƏ MÜNASİBƏTLƏRİ.** Türkiyə Respublikası 09.X1.1991 ildə Azərbaycan dövlət müstəqilliyini birinci tanımış və 14.1.1992 ildə diplomatik əlaqələr-yaratmıçdır. Hər iki dövlət arasında münasibətlər beynəlxalq hüquq normaları prinsipləri əsasında qurularaq inkişaf edir. Azərbaycan - Türkiyə münasibətlərinin inkişafına hər iki ölkənin dövlət başçılarının vaxtaşırı qarşılıqlı rəsmi və işgüzar səfərləri mühüm rol oynayır. Həmin səfərlər zamanı iki ölkə münasibətlərinin cari inkişafına

fəaliyyətin bu formatı dövlət başçılarına siyasi və ticarət-iqtisad i sahələrdə əməkdaşlığın genişləndirilməsindən, hərbi-texniki və humanitar istiqamətlərdə birgə fəaliyyətin perspektivlərinədək münasibətlərin geniş spektrini müzakirə etməyə imkan verir.

Azərbaycan - Rusiyanın ayrı-ayrı subyektləri üçün də ticarət tərəfdaşı kimi cəlbedici ölkədir. Məsələn, 2005-ci ildə Stavropol diyarı ilə Azərbaycan arasında əmtəə dövriyyəsi 80 milyon dollara çatmışdır. Stavropol Azərbaycan bazarına taxılla yanaşı, mineral su, gübrə, qida emalı sahəsi üçün məhsullar da göndərir. Əvəzində isə etil spirti, poliefırlər, meyvə-tərəvəz, şirə alır.

Rusiyada bir sıra sahələr mövcuddur ki, burada Azərbaycanın potensialı getdikcə artır və Rusiya şirkətləri həmin sahələrə maraq göstərirlər. Elektroenergetika, metallurgiya və maşınqayırma sahələrində ümumi layihələrin həyata keçirilməsi üçün imkanlar vardır. Kənd təsəiTÜfatı sahəsində əməkdaşlığın genişləndirilməsi, o cümlədən məhsul emalına dair birgə müəssisələrin açılması, xidmət, habelə maliyyə xidmətləri sahəsində, nəqliyyat dəhlizlərinin, eləcə də Şimal-Cənub dəhlizinin yaradılması üçün potensial mövcuddur.

Azərbaycanın sərmayə potensialı da Rusiya üçün cəlbedicidir. Tezliklə Rusiyada Azərbaycan banklarının filialları açılacaqdır. Bank sahəsində əməkdaşlıq kifayət qədər perspektivli sahədir. Belə ki, etnik banklar Rusiyadakı iki milyonluq Azərbaycan diasporunun tarixi vətəninə göndərdiyi pul köçürmələrinin bir hissəsinin leqallaşdırılmasına kömək edəcəkdir.

Rusiya şərhçilərinin fikrincə, ikitərəfli qarşılıqlı fəaliyyətin ənənəvi istiqamətlərindən biri energetika sahəsidir. Azərbaycan Rusiya qazının nəqlində maraqlıdır, “Qazprom” şirkəti isə nəqliyyat layihələrinin fəal iştirakçısı ola bilər. İldə 10 milyon ton neft daşımaq qabiliyyətinə malik Bakı-Novorossiysk neft kəməri də öz əhəmiyyətini itirməmişdir.

Moskva mətbuatı energetika sahəsində mütəxəssislərə istinadla yazır ki, hazırda Azərbaycanın cənubunda və qərbində, o cümlədən A.stara və Şəkidə modul tipli elektrik stansiyaları istifadəyə verilmişdir. Naxçıvan, Xaçmaz və Bakıda energetika

işlər üzrə komitənin sədri V.Lukin, MDB və həmvətənlərlə əlaqələr komitəsinin sədri Q. Tixonov, Rusiya xarici işlər nazirinin müavini Y. Proşin, xüsusi tapşırıqlar üzrə səfir, Rusiya prezidentinin Dağlıq- Qarabağ münaqişənin nizama salınması üzrə təmsilçisi Y. Yukalov, Rusiya Federasiyası hökuməti sədrinin müavini V. Bulqak, MDB işləri üzrə nazir B. Pastuxov arasında keçirilən görüşlərdə Rusiya- Azərbaycan münasibətləri, Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla həll edilməsi, Rusiyanın Ermənistana silah verməsi, Azərbaycan gəmilərinin Rusiyanın daxili sularında hərəkəti, Dağıstan respublikası və Azərbaycan arasında sərhədyanı əməkdaşlıq, Xəzər dənizinin statusu məsələləri müzakirə edilib.

1999 ildə Azərbaycan - Rusiya münasibətlərinin inkişafı yüksələn xətt üzrə davam edib.

03.IV. 1999 ildə MDB dövlətləri başçılarının növbəti sammitindən sonra H.Əliyev RF hökumətinin sədri Y.Primakovla görüşündə iqtisadi əməkdaşlıq məsələləri, Ermənistan-Azərbaycan münaqişəsinin həlli yollan müzakirə edilib.

İki ölkə arasında münasibətlərdə bəzi problemlər, məs., Rusiyanın Ermənistana qeyri-qanuni olaraq 1 milyard ABŞ dolları məbləğində silah verməsi və s. qalmaqdadır.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hərtərəfli münasibətlər hal-hazırda müsbət istiqamətdə inkişaf edir.

Azərbaycan Prezidenti İ. Əliyevin 2003-cü il oktyabr ayından sonra RF səfərləri, RF prezidenti V. Putin və hər iki tərəfdən bir sıra dövlət və hökumət nümayəndələrinin qarşılıqlı səfərləri tərəflər üçün faydalı olmuşdur. Rusiyada 2005-ci ilin Azərbaycan ili, Azərbaycanda 2006-cı ilin Rusiya Federasiyası ili elan edilməsi iki ölkə xalqlarının hərtərəfli yaxınlaşmasına kömək etdi.

Azərbaycan prezidenti İ.Əliyev 9 noyabr 2006-cı ildə Moskvaya növbəti rəsmi səfər etmişdir.

Rusiya ilə Azərbaycan arasında qarşılıqlı münasibətlər dinamik inkişaf edir, əmtəə dövriyyəsinin həcmi sürətlə artır. Rəsmi Bakı və Moskva ikitərəfli əlaqələri strateji tərəfdaşlıq və hərtərəfli əməkdaşlıq münasibətləri kimi səciyyələndirirlər. Qarşılıqlı

Azərbaycanın və Rusiya Federasiyasının subyektləri arasında imzalanan bir sıra müqavilə və protokollar qarşılıqlı münasibətlərin daha da genişlənməsinə və dərinləşməsinə gətirib çıxardı.

H. Əliyev Rusiya Federasiyası prezidentinin dəvəti ilə 02-04.VII.1997 ildə Moskvaya rəsmi səfər etmişdir.

Ermənistan - Azərbaycan münaqişəsinin həlli yolları barədə geniş müzakirə aparan prezidentlər ATƏ1'-in üzvü olan ölkələrin dövlət və hökümət başçılarının X11.I996 ildə Lissabonda keçirilən Zirvə görüşündə qəbul edilmiş əsas prinsiplərin bu münaqişənin sülh yolu ilə aradan qaldırılmasında mühüm rol oynadığını nəzərə çatdırdılar.

Səfər zamanı valyuta və ixrac nəzarəti sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş, Xəzər dənizindəki perspektiv D-222 Azərbaycan blokunun neft kəşfiyyatı, işlənməsi və hasilatın pay şəklində bölüşdürülməsi haqqında saziş, Rusiya Federasiyası və Azərbaycan Respublikası vətəndaşlarının vizasız gəliş-gedişi haqqında saziş, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalandı.

Bundan əlavə, səfər zamanı köçkünlərin miqrasiya prosesini tənzimləmək haqqında saziş, hərbi sahədə əməkdaşlıq haqqında Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında protokol, ticarət əlaqələrinini tənzimləyən əsas prinsipləri. Xəzər dənizinin Azərbaycana aid sektorunda neft- kəşfiyyat işlərinin aparılması, hasil edilmiş neftin pay şəklində bölüşdürülməsi barədə müddəaları əhatə edən müqavilə də imzalandı.

İki ölkənin xarici işlər nazirlərinin xətti ilə aparılan məsləhətləşmələr müntezəm xarakter almışdır.

X.1998 ildə RF xarici işlər naziri İ. İvanovun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan prezidentinin andiçmə mərasimində iştirak etdi. Səfər zamanı ikitərəfli münasibətlərin aktual məsələləri müzakirə edilmiş, onların inkişaf perspektivlərinə toxunulmuşdu.

22- 24.XII.l998 ildə Azərbaycan Respublikasının xarici işlər nazirinin Moskvaya səfəri zamanı RF Dövlət Duması beynəlxalq

təmin olunması məqsədilə qarşılıqlı fəaliyyət göstərməyi, tərəflərin mənafeyinə toxunan məhəlli münaqişələrin və digər böhranlı halların tənzimlənməsinə birgə səy göstərməyi qərara aldılar.

Hər iki tərəf öz suverenliyini, ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını və müdafiə qabiliyyətini qorumağa yönəldilən tədbirlər kompleksini müstəqil müəyyən etmək və həyata keçirmək hüququnu təsdiq edirdi.

24.IX.1993 ildə Moskvada MDB-yə daxil olan subyektlərin dövlət və hökümət başçıları Şurasının iclasında Azərbaycan prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri H. Əliyev Kremldə Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması haqqında sənədi imzaladı.

Azərbaycan tərəfi bu addımı atmaqla həlli uzanan Dağlıq Qarabağ probleminin tezliklə həll edilməsinə ümid bəsləyirdi.

Azərbaycan tərəfi iki dövlət arasında münasibətlərin yaxşılaşdırılması üçün növbəti addımlar atmaqda davam etmişdir.

1992- 1999 illərdə hər iki dövlətin rəsmi şəxslərinin qarşılıqlı səfərləri Azərbaycan - Rusiya münasibətlərinə müəyyən dinamizm gətirdi. Bu mənada Rusiya hökümətinin keçmiş sədri Yeqor Qay- darın 30.1X.1992 il, Rusiya Federasiyası Şurasının sədri Vladimir Şumeykonun 14-15.VII.1995 il, başda Rusiya hököməti sədrinin müavini Aleksey Bolşakov olmaqla, hökümət nümayəndəliyinin

7. X.1995 il Bakıya səfərləri əhəmiyyətli rol oynayıb.

17-20.1.1996 ildə Azərbaycan Respublikasının prezidenti H. Əliyevin Moskvaya səfəri zamanı iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında hökümətlərarası saziş imzalanıb.

V.1996 ildə RF xarici işlər naziri Y.Primakovun Bakıya işgüzar səfəri zamanı Rusiya - Azərbaycan münasibətləri, erməni- Azərbaycan münaqişəsinin həlli yolları müzakirə edilmiş, nəticədə hərbi əsirlərin və girovların dəyişdirilməsi baş tutmuşdu.

Y. Lujkovun VI. 1997 və III. 1999 illərdə başçılıq etdiyi Moskva şəhər nümayəndə heyətinin, VII. 1998 ildə D. Ayatskovun,
VIII. 1998 ildə F. Yakovlevin rəhbərlik etdikləri Saratov vilayəti və Sankt-Peterburq şəhər nümayəndə heyətlərinin səfəri zamanı

komissiyanın ikinci iclasının protokolu da Azərbaycan tərəfindən Baş nazirin birinci müavini və Moldova tərəfindən iqtisadiyyat və ticarət naziri imzaladılar.

Azərbaycanla Moldova arasında əməkdaşlıq əvvəlki illər kimi 2007-ci ildə də uğurla davam edir.

AZƏRBAYCAN - RUSİYA MÜNASİBƏTLƏRİ. Azərbaycan SSR Ali Sovetinin 30.VIII.1991 ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyanat qəbul etməsindən sonra Azərbaycan - Rusiya münasibətləri yenidən iki qonşu arasındakı münasibətlərə çevrildi. 04.IV. 1992 ildə Azərbaycan və Rusiya arasında diplomatik münasibətlərin yaradılması haqqında protokol imzalandı. Protoklda qeyd edilir ki, tərəflər bir-birinin ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmətlə yanaşacaq, daxili işlərinə qarışmayacaq, insan hüquqlarının qorunmasına riayət edəcəklər. Lakin Dağlıq Qarabağ problemi, münaqişənin getdikcə uzanması, Xəzərin statusu ilə bağlı tərəflərin fikir ayrılığı və ümumiyyətlə, Rusiyanın Qafqazla bağlı siyasəti iki dövlətin münasibətlərinə təsir göstərən amillər oldu.

12-13.X.1992 ildə Azərbaycan Respublikası prezidentinin Rusiyaya rəsmi səfəri zamanı "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyə dair" müqavilə imzalandı.

5 il müddətinə nəzərdə tutulan bu müqavilə ilə Azərbaycan Respublikası və Rusiya Federasiyası öz münasibətlərini mehriban qonşuluq prinsipləri əsasında qurub inkişaf etdirmək, bir-birinin suverenliyinə və müstəqilliyinə hörmət etmək, hüquq bərabərliyi və bir-birinin daxili işlərinə qarışmamaq, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığına rİayət etmək, zor və güc vasitəsilə hədələməmək, mübahisələri danışıqlar yolu ilə nizama salmaq, insan hüquqlarına və əsas azadlıqlarına hörmət etmək, öhdəlikləri vicdanla yerinə yetirmək, habelə hamılıqla qəbul edilmiş beynəlxalq normalara dönmədən əməl etmək barədə təəhhüd götürdülər.

Azərbaycan və Rusiya istər beynəlxalq, istərsə də regional miqyasda sülhün möhkəmləndirilməsi, sabitliyin və təhlükəsizliyin

milyon azərbaycanlı qaçqın-köçkünün ağır vəziyyəti ölkəmiz üçün başlıca problem olaraq qalır.

Hökümət başçısı Azərbaycan diasporuna diqqətcil münasibətə görə Moldovanın Baş nazirinə təşəkkür etdi.

Vasile Tarlev vurğuladı ki, iki ölkə arasında həlli edilməmiş problemlər yoxdu və Azərbaycan Moldova üçün dost dövlət olaraq qalır. Moldovanın da ərazisində həll edilməmiş qalan Dnestryanı bölgə münaqişəsi var. Moldova dövlətlərin ərazi bütövlüyü və suverenliyi uğrunda, münaqişələrin beynəlxalq hüquq əsasında dincliklə həlli uğrunda çıxış edir.

O, bildirdi ki, azərbaycanlı həmkarı ilə danışıqlar zamanı iki ölkənin Bakıda və Kişinyovda ticarət evlərinin, habelə aviasiya xətlərinin açılması haqqında razılaşma əldə olunmuşdur.

Tərəflər 2007-ci ildə Moldovada Azərbaycan mədəniyyəti günləri keçirilməsi barədə də razılığa gəldilər. Tərəflər qərara gəldilər ki. Komissiyanın növbəti iclası gələn il 2008-ci ildə Kişinyovda olacaqdır.

Sonra ikitərəfli hökümətlərarası sazişlər imzalandı.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Moldova Respublikasının Milli Statistika Bürosu arasında statistika sahəsində əməkdaşlıq, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Moldova Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində əməkdaşlıq, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Moldova Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında, Azərbaycan Respublikası höküməti ilə Moldova Respublikası höküməti arasında geodeziya, xəritəçəkmə, kadastr, yer quruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən zondlaşdırılması sahəsində əməkdaşlıq haqqında, Azərbaycan Respublikası höküməti ilə Moldova Respublikası höküməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında, Azərbaycan Respublikası höküməti ilə Moldova Respublikası Höküməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında, Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökümətlərarası

daşlığın daha da dərinləşməsinə xidmət edəcəkdir.

Komissiyanın Moldova tərəfindən sədrinin müavini, iqtisadiyyat və ticarət naziri İqor Dodon isə xatırlatdı ki, hazırda iki ölkə arasında müqavilə - hüquqi baza 43 sazişdən ibarətdir. Keçən il 6,6 milyon dollar səviyyəsində olmuş ikitərəfli ticarət dövriyyəsi Azərbaycan və Moldovanın potensialına cavab vermir.

İclasda ikitərəfli əməkdaşlığın fəallaşdırılmasına və səmərəliyinin yüksəldilməsinə yönəldilmiş təkliflər irəli sürüldü. Moldova Azərbaycanla kənd təsərrüfatı, energetika, turzm sahəsində əlaqələrin inkişafında maraqlıdır. Azərbaycanın Moldovada yerin təkinin kəşfiyyatı üzrə Kişinyovda keçiriləcək beynəlxalq müsabiqədə iştirakının arzu olunduğu bildirildi. Moldova Azərbaycandan qaz idxalına maraq gösrərir, ölkəmizə isə kənd təsərrüfatı texnikası, üzümlüklər üçün əkin materialı təklif edir.

Moldova tərəfi müştərək müəssisələr yaradılmasının vacibliyini vurğuladı. Belə bir faktı diqqətə çatdırdı ki, Avropa İttifaqı (Aİ) ilə sərhəddə yerləşən Moldovanın ticarət imtiyazlarına malik olması məhsulun 80%-i gömrük rüsumu tutulmadan Aİ bazarlarına göndərməyə imkan verir. Bu isə belə müəssisələrin yaradılması üçün yaxşı stimul olar. Bundan başqa, o, bildirir ki, Moldovada 7 azad iqtisadi zona yaradılmışdır.

Sonra iclas iki ölkənin baş nazirlərinin iştirakı ilə davam etdirildi.

Azərbaycan hökümətinin başçısı Artur Rasizadə dedi ki, Azərbaycan - Moldova münasibətləri bütün sahələrdə səmərəli inkişaf edir. Ölkələrimiz GUAM çərçivəsində dinamik əməkdaşlıq edir, beynəlxalq təşkilatlarda eyni mövqe tuturlar. O, belə geniş tərkibli nümayəndə heyyətinin ölkəmizə səfərini Azərbaycan - Moldova münasibətlərinin dərinləşməsi işində daha bir mühüm addım kimi qiymətləndirdi.

Artur Rasizadə Azərbaycan iqtisadiyyatının son nailiyyətlərindən, dövlətlərimizin təşəbbüsü ilə həyata keçirilən global energetika və nəqliyyat layihələtrindən danışdı. Eyni zamanda bildirdi ki. Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi, bir

hüquqa, dünya azərbaycanlılarının həmrəyliyinə arxalanmalıdır. Azərbaycan xalqı öz prezidentinin bu sahədəki böyük əzminə inanır.

**AZƏRBAYCAN-MOLDOVA MÜNASİBƏTLƏRİ.** İki ölkə arasında diplomatik əlaqələrin yaradıması barədə protokol **18.V.1992** ildə imzalanıb. İki ölkə münasibətlərinin səmərəli və məqsədyönlü mahiyyət kəsb etməsində **10.X.1997** ildə dörd ölkənin Azərbaycan, Gürcüstan, Ukrayna və Moldovanın iştirakı ilə GUAM təşkilatının yaradılması haqqında razılaşma mühüm əhəmiyyətə malik oldu. İki ölkə arasında siyasi münasibətlər **V.1997** ildə "Azərbaycan Respublikası və Moldova Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə" və Xarici İşlər Nazirliklərinin əməkdaşlığı barədə Protokolla tənzimlənir.

Müxtəlif səviyyələrdə keçirilən rəsmi səfər və görüşlər ikitərəfli əlaqələrin inkişafına səbəb olub. Moldova prezidenti P. Luçinskinin XI. 1997 ildə Bakıya rəsmi səfəri zamanı hər iki tərəfin maraq dairəsində olan regional və qlobal məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, bir sıra sənədlər imzalanıb. Xarici işlər nazirlərinin görüşləri zamanı ikitərəfli əməkdaşlıq məsələləri, Ermənistan - Azərbaycan və Dnestryam münaqişələrdən doğan problemlərin sülh yolu ilə həll edilməsi, iqtisadi əməkdaşlıq, GUAM-ın təşkilat kimi formalaşması və fəaliyyətini canlandırmaq, hər iki tərəfin maraq dairəsində olan regional və beynəlxalq məsələlər müzakirə edilib.

2007-ci il fevralın 22-də Bakıda Azərbaycan ilə Moldova arasında iqdisadi əməkdaşlıq üzrə birgə hökümətlərarası komissiyanın ikinci iclası keçirilmişdir.

İclasdan əvvəl iki ölkənin baş nazirləri Artur Rasizadənin və Vasile Tarlevin təkbətək görüşü olmuşdur.

Komissiyanın Azərbaycan tərəfindən sədri, Baş nazirin birinci müavini Yaqub Eyyubov iclası açaraq, ümidvar olduğunu bildirdi ki, Moldova Baş nazirinin başçılıq etdiyi hökümət nümayəndə heyətinin ölkəmizə səfəri qarşılıqlı surətdə faydalı ikitərəfli əmək-

xalqlara qarşı nifrət və terror ideologiasının dünya üçün təhlükəsi açılıb göstərilməlidir. Bu, qəhraman Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur.

Hazırda Azərbaycan dövləti və cəmiyyəti öz inkişafında quruculuq və yüksəliş dövrünü yaşamaqdadır. Respublikasımız iqtisadi inkişaf templərinə görə dünyada lider mövqelərə çıxmışdır. Ölkəmiz regiona və beynəlxalq enerji - kommunikasiya layihələrinin əsas iştirakçısı və təşəbbüsçüsüdür. Regionların sosial-iqdisadi inkişafı Dövlət Proqramı, digər sosial və İnfrastruktur layihələri uğurla reallaşdırılır. Dövlətimizin iqtisadi və hərbi qüdrəti, beynəlxalq nüfuzu günü-gündən artır, insanlarımızın vətənpərvərliyi, milli mənlik şüuru güclənir. Bir sıra beynəlxalq təşkilatlar, nüfuzlu dövlətlərin rəhbərləri, parlamentləri Ermənistanın işğalçı dövlət olduğunu qəbul edir, ondan işğal etdiyi Azərbaycan ərazilərini azad etməyi tələb edirlər. Təcavüzkar Ermənistan özünü bütün regionda layihələrdən kənarda qoymuş, hər tərəfli təcrid vəziyyətinə düşmüşdür. Bütün bunlar və mövcud vəziyyət qarşıda duran vəzifələrin yerinə yetirilməsində, o cümlədən Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həlli istiqamətində bizim başlıca arqumentlərimizdir, gücümüzün və uğurlarımızın əsasıdır.

Azərbaycan prezidenti öz müraciətində daha sonra göstərir ki, bu gün dövlətin rəsmi qurumları ilə yanaşı, bütün vətəndaşlarımız, soydaşlarımız, geniş ictimaiyyət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasəti haqqında həqiqətlərin və faktların dünya parlamentlərinə, beynəlxalq ictimaiyyətə çatdırılması üçün ardıcıl və davamlı fəaliyyət göstərməlidir. Bu istiqamətdə görülən işləri razılıqla qeyd etməklə yanaşı, onu da qeyd etmək lazımdır ki, tədbirlər daha əhatəli, planlı şəkildə aparılmalı və əlaqələndirilməlidir. Bu işdə Bakıda 9 mart 2007-ci ildəki 1 forumda Azərbaycan və Türk diaspor təşkilatlarının yeni yaradılan birliyinin fəaliyyətinin əlaqələndirilməsi böyük əhəmiyyətə malik ola bilər. Azərbaycan xalqı mübarizədə öz gücünə, potensialına, beynəlxalq

Azərbaycan Respublikası ərazisinin 20% erməni hərbi birləşmələri tərəfindən işğal edildi, on minlərlə insan həlak oldu və yaralandı, yüz minlərlə soydaşlarımız ev-eşiyindən didərqin salındı, qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.

Xocalı qırğınını törətməklə erməni millətçilər hiyləgər siyasi və taktiki məqsədlər güdürdülər. Onlar bununla xalqımızın mübarizə əzmini qırmaq, onu tarixi torpaqlarımızın işğalı faktı ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin düşmənin niyətləri baş tutmadı, xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğ- runda mübarizədə yüksək iradə və qəhrəmanlıq nümunəsi göstərdi.

Xocalı faciəsi həm də ölkədaxili hakimiyyət mübarizələrinin dövlətimiz üçün nə qədər təhlükəli və fəlakətli nəticələr verdiyini göstərdi. O zaman həm Azərbaycanın rəsmi rəhbərliyi, həm də ölkədə vəziyyətə təsir etmək imkanı olan siyasi qüvvələr xalqın taleyinə tam biganəlik nümayiş etdirdilər. Dövlət rəhbərliyi bu dəhşətli cinayət haqqında dünya ictimaiyyətinə tam və operativ məlumat vermək üçün heç bir addım atmadi, müxalifət isə qanlı faciədən xalqın narazılıq dalğası üzərində hakimiyyətə gəlmək məqsədi ilə i.stifadə etdi.

Yalnız ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi özünün əsl siyasi - hüquqi qiymətini aldı, soy qırımı haqqında həqiqətləri dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü.

Azərbaycan hökuməti erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Biz həm də, erməni millətçilərindən fərqli olaraq, bu məsələdən hər hansı siyasi, maliyyə, ərazi və başqa dividendlər qazanmaq məqsədi güdmürük. Məqsədimiz tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Ona görə də erməni şovenist millətçilərinin regionda həyata keçirdikləri etnik separatizmin, başqa

Xocalıda emıənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı faktlarını öz əsərində fəxrlə sıralayan Zori Balayan hər bir ermənin bu hərəkətdən fəxr duymalı olduğunu deyib. Qeyd edək ki, Xocalıda ermənilərin soyqırımı gerçəkləşdirdiyini, insanlığa qarşı cinayət işlətdiklərini təsdiqləyən bu fikirlər Zori Balayanın yuxarıda göstərilən “Ruhumuzun canlanması” adlı kitabının hər səhifəsində öz əksini tapıb.

Xalqımızın düşmənlərinin bizə qarşı törətdikləri cinayətləri unutmaqa haqqımız yoxdur. Azərbaycan Prezidenti İlham Əliyev Xocalı soyqırımının 15-ci ildönümü münasibətilə Azərbaycan xalqına 23 fevral 2007-ci il tarixli müraciətində demişdir: Sizə xalqımızın tarixində kədərli və faciəli bir səhifə, insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən biri olan Xocalı soyqırımının 15-ci ildönümü ilə əlaqədar müraciət edirəm. 1992-ci il fevralın 26-da qədim Azərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən vəhşicəsinə dağıdıldı, onun müdafiəçilərinə və sakinlərinə amansız divan tutuldu. Yüzlərlə dinc sakin görünməmiş işqəncələrlə öldürüldü, uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi, onların meyitləri təhqir olundu. XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi.

Bu gün artıq heç kimə sin* deyil ki, Xocalı faciəsi davakar erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi. Ayrı-ayrı dövrlərdə böyük dövlətlərin maraqları çərçivəsində cərəyan edən bu siyasət bütün məqbul və qeyri - məqbul vasitələrlə - siyasi, iqtisadi, hərbi, terror və ideoloji yolla davam etdirilmiş, soydaşlarımız yaşayış yerlərindən sıxışdırılmış, tarixi Azərbaycan əraziləri zaman-zaman ermənilər tərəfindən zəbt edilmiş və ələ keçirilmişdir. XX əsrin 80-ci illərinin sonlarında isə Ermənistanın Azərbaycana yeni ərazi iddiaları genişmiqyaslı hərbi münaqişəyə qətirib çıxardı. Bu məkrli siyasət nəticəsində

XOCALI SOYQIRIMI. 2007-ci ilin fevralında dəhşətli Xocalı faciəsinin 15 illiyi ilə əlaqədar Azərbaycan mətbuatının dərc etdiyi təkzibolunmaz faktlar hər bir insanı dəhşətə gətirir. Azərbaycan xalqı böyüklü-kiçikli xalqımızın bu faciəsini - azərbaycanlıların ermənilər tərəfindən törədilmiş qanlı soyqırımını unutmamalıdırlar. Bu faciələri xalqımıza qarşı törədən ermənilər başımıza gətirdikləri bəlalarla utanmadan fəxr edirlər. Buna aşağıdakı fakt yaxşı misaldır.

"Böyük ermənistan" ideyasının əsas ideoloqlarından biri olan Zori Balayanın Xocalı soyqırımında birbaşa iştirakını təsdiqləyən faktlar mövcuddur. APA-nın məlumatına görə, hazırda İnterpolun xətti ilə haqqında beynəlxalq axtarış elan olunan Zori Balayan "Ruhumuzun canlanması" adlı əsərində Xocalı soyqırımına haqq qazandırıb və bu şəhərdə azərbaycanlılara qarşı soyqırımı həyata keçirildiyini fəxrlə etiraf edib. "Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk (azərbaycanlı. M.H.) uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra mən bu 13 yaşındakı türkə onların atalarının bizim uşaqlara etdiklərini etdim. Başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı yeddi dəqiqədən sonra qan itirərək dünyasını dəyişdi. İlk sənətim həkimlik olduğuna görə humanist idim, buna görə də türk uşağına etdiyim bu əməllərə görə özümü xoşbəxt saymadım... Ruhum sevincdən qürurlanırdı. Xaçatur dana sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha üç türk uşağına etdik. Mən bir erməni vətənsevər kimi öz vəzifəmi yerinə yetirdim. Xaçatur da çox tərləmişdi, amma mən onun gözlərində və digər əsgərlərimizin gözlərində intiqam və güclü himanizmin mücadiləsini gördüm. Ertəsi gün bir kilsəyə gedərək 1915-ci ildə ölənlərimiz və ruhumuzun dünən gördüyümüz çirkabdan təmizlənməsi üçün dua etdik. Ancaq biz Xocalını- vətənimizin bir parçasını işğal edən 30 min nəfərlik çirkabdan təmizləməyi bacardıq".

Bu dəhşətli hadisələr bəşəriyyətə qarşı cinayət kimi hüquqi - siyasii qiymətini almalıdır. Dünya dövlətləri bu prinsipial məsələdə mövqelərini yenidən dəqiqləşdirməli, erməni təbliğatı nəticəsində formalaşmış yalan və böhtan stereotiplərindən imtina etməlidirlər. Bu bir tərəfdən həmin hadisələrin bir daha təkrarlanmasına yol verməmək üçün vacibdir, o biri tərəfdən isə soyqırımı qurbanlarının xatirəsi qarşısında bizim vətəndaşlıq borcumuzdur.

Biz tarixdə baş verən hadisələrin erməni millətçilərinin mütəmadi olaraq həyata keçirdiyi eybəcər formada bu günümüzə köçürülməsinin, insanlar və xalqlar arasındakı münasibətlərdə düşmənçilik yaratmaq üçün istifadə olunmasının əleyhinəyik. Müasir dünyada müharibə təbliğatı, insana nifrət ideologiyası başqa dövlətlərə qarşı ərazi iddiaları bizim üçün yolverilməzdir. Bütöv xalqlara nifrət hissi azərbaycanlılara yaddır. Biz müstəqilliyimizin verdiyi imkanlardan istifadə etməklə ölkəmizin daim tərəqqisinə nail olmaq, vətəndaşlarımız üçün firavan həyat qurmaq istəyirik.

Bir daha soyqırım qurbanlarının əziz xatirəsi qarşısında hörmətlə baş əyir, onların yaxınlarına başsağlığı verir, xalqımıza səadət, firavanlıq, ümummilli vəzifələrimizin həlli yolunda mətanət və dəyanət arzulayıram”.'

Dövlətimizin əbədi rəhbəri, ölməz öndəri Heydər Əliyevin torpaqlarımızın azad edilməsi istiqamətində gördüyü işləri və beynəlxalq miqyasda səylərini uğurla davam etdirən prezident İ. Əliyevin fəaliyyəti ümid etməyə əsas verir ki, nəhayət, dünya içtimayyəti həqiqətlərə göz yummayacaq, bizə hay verəcəklər. İnanırıq ki, Ermənistanın ölkəmizə qarşı dəfələrlə törətdiyi ağır cinayətlərə beynəlxalq hüquq normalarına uyğun olaraq ədalətli hüquqi qiymət veriləcək və işğalçı dövlət öz adı ilə çağrılaraq ifşa ediləcəkdir. 822, 853, 874, 884, nömrəli BMT 1'Ş qətnamələri. Azərbaycanlıların soyqırımı günü münasibətiylə Azərbaycan Respublikasının prezidenti Cənab İlham Əliyevin müraciətləri və ondan sonrakı illərdə xalqımızın soyqırımı ilə əlaqədar verdiyi bəyanatlar buna tam əminlik verir.

**'Azərba'** **27.03.2002.**

gündür. 1998-ci ildən başlayaraq, hər il Azərbaycan Respublikasında ***31 mart azərbaycanlıların soyqırımı*** günü kimi dövlət səviyyəsində qeyd olunur, soyqırımı qurbanlarını anma tədbirləri keçirilir, dünya ictimaiyyətinin diqqəti bu məsələyə cəlb olunur.

Azərbaycanlılara qarşı aparılan soyqırımı siyasətinin xronologiyasını xatırlayərkən, xalqımıza münasibətdə törədilən vəhşilik və cinayətlərin miqyası və metodologiyası heyrət və qəzəb doğurmaya bilmir. Keçmiş Rusiya imperiyası və İran arasında gedən müharibə nəticəsində Azərbaycanın bölüşdürülməsindən sonra tarixi torpaqlarımızda ermənilərin kütləvi şəkildə məskunlaşdırılması, l905-ci və 1918-ci illərdə Çar rusiyasının və bolşeviklərin köməyi ilə erməni daşnaklarının törətdiyi qırğınlar, 1920-ci illərdə ərazilərimizin hissə-hissə Ermənistana verilməsi, 1948-1953-cü illərdə Sovet hökümətinin qərarı ilə soydaşlarımızın Ermənistandan deportasiyası vahid bir planın tərkib hissəsi kimi xüsusi ssenari ilə aparılmışdır. Bunun ardınca, 1980-ci illərin sonunda Dağlıq Qarabağ millətçilərinin Ermənistan və SSRİ rəhbərliyinin təhriki ilə qızışdırılan separatçı çıxışları, bunların sonradan əsl irimiqyaslı müharibəyə çevrilməsi, bir milyona yaxın azərbaycanlının qaçqın və məcburi köşkün vəziyyətinə düşməsi, Azərbaycan Respublikası ***ərazisinin 20%-mn*** Ermənistan tərəfindən işğalı - bütün bunlar “böyük Ermənistan” xülyası ilə yaşayan davakar erməni şovinistlərinin və onların himayəçilərinin Azərbaycan xalqına vurduğu yaraların tam olmayan siyahısıdır.

Azərbaycanlılara qarşı yeridilən soyqırımı, deportasiya və işğal siyasətinin intensivliyi bu gün zəifləməmişdir, təbliğat və qarayaxma kompaniyası bir az da gücləndirilmişdir. Erməni şovinist millətçiləri xaricdəki erməni icmalarının və böyük dövlətlərdəki erməni lobbisinin imkanlarından məharətlə yararlanaraq, bu gün də “əzabkeş, məzlum erməni miləti” obrazı yaratmaqda davam edir, beynəlxalq hüquq normalarına meydan oxuyur, bütün yolverilməz vasitələrdən istifadə edərək, əsl soyqırımı haqqında həqiqətləri təhrif etməyə, dünya ictimayyətini Azərbaycan torpaqlarının işğalı faktı ilə barışdırmağa çalışır.

sonra huşunu itirib yero yıxılır. Daşnaklar kişinin öldüyünü güman edib başına, kürəyinə bir neçə daş salıb gedirlər. Hələ ölməmiş kişinin başını kəsirlər.

Ermənilər əsir götürdükləri qadın və qızların əvvəl saçlarını kəsdirib çatı toxutdururlar. Onlara ağılasığmaz işgəncələr verib, çılpaq-çılpaq ağaclardan asırlar.'

Quldur daşnak ordusunda xidmət edən bir erməni həkiminin göstərişi ilə sağlam görünən kişi və qadınların başlarını kəsib qanlarını ayrıca qablara yığırlarmış. Yaralı ermənilərə qanunvericilik vurmaq üçün. ***Yetmiş uşağın qarnına süngü soxub*** yol boyu işarə daşları kimi düzürlər. Patrona qənaət etmək məqsədi ilə adamların başlarını daşların üstünə qoyub gürzlərlə əzərək Zabıx çayına tökürlər. Onlar qədim yazılı ağır bir daşı Ermənistana aparmaq üçün 20 nəfər tat kişisini arabaya qoşurlar. Xumar adlı tat gözəlini Andranikin çadırına apararkən Sərt döngə deyilən yerdə qız qəflətən yerdən daşı cəld götürərək başına vurub özünü öldürür. Xumarın qardaşı İbrahimi qolu bağlı itlərin qabağına ataraq quduzlara parçalatdırır, sonra ağaca bağlayaraq sinəsinə növbə ilə bıçaq atırlar, məzələnirlər.

Daşnaklar törətdikləri vəhşilikləri Zəngəzur camaatı arasında yayıb vahimə yaratmaq üçün bir neçə qadın və kişinin budlarına, kürəklərinə möhürə bənzər dəmiri qızardıb basaraq Abdallar kəndinə tərəf buraxırlar. Xəbər Ağanus, Fətəlibəy, Şöyüdlü, Məğərdərə, Malxələf kəndlərinə çatanda camaat sel kimi axışıb köməyə gəlir. Lakin iş-işdən keçibmiş. Kəndlər tamam yandırılıbmış, əhali qırılıb məhv edilibmiş.^

Bunlar keçən əsrin əvvəllərində erməni vəhşilərinin törətdiyi dəhşətlərdən ancaq nümunələrdir. .

Heydər Əliyev 31 mart - Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciət etmişdir. Müraciətdə deyilir: “Tariximizin yeni dövründə 31 mart Azərbaycan xalqı, dünya azərbaycanlıları üçün kədər və hüzn ilə qeyd olunan bir

**Sabahəddin Eloğlu. Zongo/ur hadisoləri. Azornoşr, liakı, I992.s. 96. ^ Yeno orada.**

Axarlı-baxarlı kəndlər, yaraşıqlı evlərimiz, çox saylı mal - qara sürülərimiz, gözəl oylaqlarımız hamısı bu gün erməni əsarətindədir. Əsarətdə olan torpaqlarımızda azərbaycanlıların ulu əcdadları uyuyurlar. Ermənilərin xalqımıza qarşı törətdiyi qanlı faciələri saymaqla bitən deyil. Lakin bu barədə hər bir faktı dünya bilməlidir. Türk ordusunun sirlərini ingilis kəşfiyyatına satmaq üstündə qulağı kəsildikdən sonra qaçıb İrəvana gəlmiş Andranik Uzunyan davakar erməniləri başına toplayıb silahsız Azərbaycan kəndlərinə tez-tez basqınlar edirdi. Onun yaraqlı quldur dəstələrinin törətdiyi vəhşiliklər Zəngəzurda da hədsiz faciələr yaratmışdı.

Ermənilər Azərbaycanlı uşaqları tonqallarda yandırır, boylu qadınların qamma xəncər soxur, adamların başına mismar çalır, kürəyinə qaynar samovar bağlayır, qız və qadınların üzlərinə süngü və xəncərlə xaç şəkilləri çəkir, cavanların ayaqlarını nallayırdılar. Quldur daşnak birləşmələri bu minvalla yüzlərlə Azərbaycan kəndlərini viran qoyur, qarət etdikləri qənimətlərin hesabına nizami ordu yaradaraq Laçın rayonun Zabıx kəndinə hücum çəkirlər. Bir günün içində Zabıx kəndini dağıdıb xaraba qoyurlar. Elə sonrakı Xoçalı soyqırımı kimi qırqın törədirlər. Ermənilər azəri türkünə, kürdə, ləzgiyə, tata, talışa, xınalıqlıya... rəhm etmir, qəddarcasına qırırdı.

Daşnak ordusunun əsrin əvvəllərində Zəngəzurda törətdiyi vəhşiliklərdən ən dəhşətlisi Tat qırğınıdır. Andranikin quduzlaşmış ordusunun Tat kəndlərində törətdiyi vəhşiliklər heç bir müharibə tarixində görünməmişdir.

Ermənilərlə bu döyüşdə tatlar baltadan, yabadan, ağacdan, daşdan istifadə edib şücayət göstərsələr də, qüvvələr nisbəti çox olduğundan düşmənin qarşısını ala bilməmişlər. Tatlar çox böyük itkilərlə məğlub olmuşlar. Daşnaklar camaatın bir hissəsini böyük kahalara doldurub ağzında gərmədən ocaq qalayıblar. Onları tüstüdə boğub, odda yandırıblar. Bir dəstə əsiri Zabıx kəndinə kətirdikləri zaman yolda erməni dığalar bir gürzəni ağacla götürüb qolları bağlı kişilərin üstünə atırlar. İlan dərhal bir kişinin boynuna dolanıb üz- gözünü gəmirir. Sonra qulağını ağzına alır. Kişi bir gədər getdikdən

və borunun ağzı qaynaq edilmişdir. Zori Balayan bunu, Bakı metrosunu partladılmasında iştirakı haqqında fəxrlə yazır.

Burada kiçik bir ekskursa ehtiyac vardır.

1813-I828-Cİ ildə Azərbaycan ərazisi 410 min km^olub.

1813-1828-ci illərdə işğal olunub: Cənubi Azərbaycan ərazisi - 280 min km^- İran, 130 min km^ Rusiya əsarəti altına keçir.

I918-C-İ ildə Rusiya təzyiqi ilə ermənilərə İravan xanlığı verilir-9 min km^

Rusiya ərazisi nə birləşdirilən Dədbənd xanlığı - 7 min km^

ADR-nın ərazisi 1918-ci ildə - 114 min km^ təşkil edir.

1920-ci ildə rus qoşunu Azərbaycanı işğal edərək ərazisini bölüşdürür:

Ermənistana verilir: Zəngəzur, Göycə, Şərur, Dərələyaz, Dilican. Borçalı Gürcüstana verilir. Bunların birlikdə ərazisi 27,4 min km^-dir. 1920-1991-ci illərdə Azərbaycan ərazisi 86,6 min km^ qalır. Daha sonra Azərbaycan aşağıdakı torpaqları da itirir:

Dağlıq Qarabağ, Şuşa, Xankəndi, Xocalı, Əskəran, Xocavənd, Ağdərə və Hadrud işqal olunur. Bunlar 1988-1994-cü illərdə 4400 km^ təşkil edir. Daha sonra işqalçı ermənilər aşağıdakı yeddi rayonumuzu da zəbt edirlər:

| | | | | |
|---|---|---|---|---|
| ***Laçın*** | işğal tarixi | 18 may 1992 | Ərazisi | 1835 km^ |
| ***Kəlbəcər*** | işğal tarixi | 3-4 aprel 1993 | Ərazisi | 1936 km" |
| ***Ağdam*** | işğal tarixi | 23 iyul 1993 | Ərazisi | 1094 km^ |
| ***Cəbrayıl*** | işğal tarixi | 23 avqust 1993 | Ərazisi | 1050 km^ |
| ***Füzuli*** | İşğal tarixi | 23 avqust 1993 | Ərazisi | 1386 km" |
| ***Qubadlı*** | işğal tarixi | 31 avqust 1993 | Ərazisi | 802 km" |
| ***Zəngilan*** | İşğal tarixi | 30 oktyabr 1993 | Ərazisi | 707 km" |

Beləliklə, Azərbaycanın işğal olunmuş torpaqları son illərin 20 % işğalı ilə birlikdə 80 % təşkil edir.

1991- ci il avqustun 8-də azərbaycanlılar yaşayan axırıncı yaşayış məntəqəsi Mehri rayonunun Nüvədi kəndi də zorla boşaldıldı və beləliklə Ermənistanda bir nəfər də azərbaycanlı qalmadı.

imperiyası rəhbərliyinin himayəsi ilə dövlət səviyyəsində azərbaycanlıların Ermənistan ərazisindəki tarixi torpaqlarından kütləvi deportasiyasına nail olmuşlar. Belə ki, 23 dekabr 1947-ci ildə SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların ***Azerbaycan SSR-in Kür - Araz ovalığına*** köçürülməsi haqqında" xüsusi qərarı qəbul edilir. Bununla da 1948 -1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyası dövlət səviyyəsində həyata keçirilir. Bu deportasiya zamanı ***130 min azerbaycanlı*** öz əzəli tirpaqlarmdan zorla çıxarılaraq Azərbaycanın Kür - Araz ovalığına köçürülür. Köçürülmə zamanı olmazın məşəqqətlərlə üzləşən minlərlə azərbaycanlı məhv olmuşdu. 1948-1953-cü illərdə azərbaycanlıların başına gətirilən bu müsibətlər də uzun müddət xalqımızdan və beynəlxalq ictimaiyyətdən gizlədilmişdir.

İnsanlığa, xalqımıza qarşı yönəlmiş bu cinayətkar əməllərə Azorbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ***"1948-1953-cü ilhrde azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi*** - etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli fərmanı ilə hüquqi - siyasi qiymət verilmişdir. Bu fərmanla ermənilərin ayrı-ayrı tarixi mərhələlərdə ardıcıl olaraq müxtəlif üsul və vasitələrlə azərbaycanlılara qarşı soyqırım cinayətləri törətməsi, onların tarixi etnik torpaqlarından kütləvi surətdə qovulması faktları ilk dəfə rəsmi şəkildə açıqlanmışdır. 1988-ci ilədək Ermənistan ərazisindəki 22 rayonda 185 Azərbaycan kəndi vardı. Müxtəlif mənbələrdə göstərilir ki, təkcə 1988 - 1991-ci illərdə Qərbi Azərbaycandan 250 mindən çox azərbaycanlı qovulmuşdur. Azərbaycanlıların evləri dağıdılmış, əmlakları məhv edilmiş, ***300 dən çox adam qəddarlıqla öldürülmüşdür,*** SSRİ Baş Prokurorluğunun məlumatına görə Qərbi Azərbaycanda ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayət hadisələrinə görə ***530 cinayət işi başlanmış,*** heç biri də axıradək aparılmamışdır. XXI əsrin astanasında Spitak (Hamamlı), Quqark (Ya- qublu) rayonlarında ermənilərin törətdikləri vəhşilikləri təsvir etmək çətindir. Təkcə 1988-ci ilin noyabr və dekabr aylarında burada 70 nəfər azərbaycanlı öldürülmüş, uşaqlar diri-diri qaz borusuna doldurulmuş

genosidi"ni qəbul etdirməyə çalışırlar. Lakin tarixi ədalətlə vərəqləsək, ermənilərin yox, türklərin özlərinin və xüsusilə azərbaycanlıların ermənilər tərəfindən 20-ci əsrin əvvəlində və sonunda dəhşətli soyqırımına məruz qaldığının şahidi olarıq.

1918-ci ilin martında Bakıda başvermiş azərbaycanlı qırğını eyni zamanda Şamaxıda, Qubada, Lənkaranda, Qarabağda və Zəngəzurda davam etdirilmişdi. ***l992-ci il fevralın 26-da Xocalıda*** törədilmiş cinayətlər, onların tükürpədən əyani təsvirləri kifayət edər ki, bəşəriyyət bu soyqırımını insanlığa qarşı ən ağır cinayət hesab edərək beynəlxalq hüququn kobud şəkildə pozulduğunu təsdiqləsin. Biz həmişə gecikirik. Erməni Culfadakı "xakan" üçün fəryad edir.

Zaman - zaman təkrar olunan soyqırımı, repressiya və deportasiya şəklində xalqımıza qarşı tədbiq edilən etnik təmizləmə siyasəti ilk dəfə Azərbaycan Prezidenti Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda açıqlanıb. Həmin fərmana əsasən 1998-ci ildən başlayaraq hər il 31 mart ***Azərbaycanlıların Soyqırımı günü*** kimi dövlət səviyyəsində qeyd olunur. Həmin gün soyqırımı qurbanlarını anma mərasimləri keçirilir, dünya ictimaiyyətinin diqqəti xalqımıza qarşı yönəldilən bu cinayyətkar siyasətə cəlb olunur. Bunu biz cənab prezident İlham Əliyevin 28 mart xalqa müraciətində görürük.

Azərbaycan xalqı artıq ***iki əsrə yaxındır*** ki, erməni millətçiləri tərəfindən vaxtaşırı, beynəlxalq hüquq norma və prinsiplərinə zidd, insan və azadlıqlarının kütləvi şəkildə kobudcasına pozulması, işgəncələr və digər qeyri-insani rəftarla müşayiət olunan etnik təmizləmə siyasətinə və təcavüzə məruz qalmışdır. Ermənilərin törətdiyi qırğınlar nəticəsində yüz minlərlə azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilmiş, onların yaşadıqları bir çox şəhər və kəndlər yandırılaraq xarabalığa çevrilmişdir. Təkcə XX əsrdə azərbaycanlılara qarşı dörd dəfə irimiqyaslı soyqırım və deportasiya aksiyaları həyata keçirilmişdir. Bütün bunlar uzun müddət öıt - basdır edilmiş, siyasi - hüququqi qiymətini almamışdır. II Dünya müharibəsi başa çatdıqdan sonra ermənilər sovet

ADR-in süquta uğradılması ilə həmin məsələyə xitam verildi. Fövqəladə istintaq komissiyasının üzvü A.Y.KIyugenin təqdim etdiyi bir sənədə diqqət yetirmək yerinə düşərdi. O, yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərləri çoxlu miqdarda pulemyotların mühafizəsilə hucum edirdilər. Ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə ***deşik - deşik edir, uşaqları yanan evin*** alovlan içərisinə atır, üç - dörd günlük çağaları süngünün ucunda oynadır, baş götürüb qaçan valideynlərin atıb getdikləri südəmər körpələrin, demək olar hamısını öldürür, valideynlərin özlərini isə yaxaladıqları yerdə asıb kəsirdilər".

A.Y.KIyugenin məlumatına görə, mart hadisəsi zamanı Bakıda ***on minlərlə azərbaycanlı öldürülmüşdü.*** Onların çoxunun meyiti tapılmamışdı, çünki şahidlərin dediklərinə görə, meyitləri od - alov bürümüş evlərə, dənizə və quyulara atırdılar.

***Ümummilli liderimiz Heydər Əliyevin*** xalqa müraciətində deyilir: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımız tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə etmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır. Təhrif edilmiş hadisələr özünün əsil qiymətini alır". İndi həqiqətən də bütün dünya eiTnənilərin kim olduğunu yaxşı bilir. Beynəlxalq hüquqa görə, insanlıq əleyhinə, sülhə və bəşəriyyətin təhlükəsizliyinə qarşı yönələn hər cinayət ən agır cinayətlər qrupuna aid edilir. Soyqırım cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (lll) saylı qətnaməsi ilə qəbul edilmiş, soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur.

Bu növ cinayətlərin ictimai təhlükəsizliyini nəzərə alaraq Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsinə soyqırımı, soyqırıma təhriketmə və bu sahəyə aid başqa cinayətlərə qarşı mübarizəni nəzərdə tutan "Sülh və insanlıq əleyhinə" cinayətlərdən bəhs edən ayrıca bölmə daxil edilmişdir. Son illər dünyaya səpələnmiş ermənilər beynəlxalq ictimaiyyətə uydurma "erməni

yaradılması soyqırım siyasətini rəsmi dövlət siyasətinə çevirməyə şərait yaratdı. Daş- nakların hərtərəfli hazırladıqları plana görə, ***S. Şaumyan Xəzt>r sahilindən Türkiyə sahilinə qədər bütün Azərbaycan*** ərazisini boşaltmalı, ölkədə azərbaycanlılara qarşı amansız soyqırımı təşkil etməli idi, bununla da Ararat rəmzi altında yaradılacaq “böyük Ermənistan dövlətçiliyi” üçün zəmin yaradılmalı idi. Azərbaycanın böyük oğlu N. Nərimanov yazırdı: “Ermənilər müsəlmanları qrup halında əsir götürür, yolda onları vəhşicəsinə güllələyirdilər”. Daşnaklar deyirdilər: ***""Biz heç bolşeviki də nəzirə almırıq, əgər sən müsəlmansansa, bu kifayətdir^'.*** Daşnakların əsas məqsədi bütün Qafqazı Azərbaycanlılardan təmizləmək, ümumiyyətlə türk - müsəlman xalqlarını kütləvi şəkildə məhv etmək idi. Onlar çəkinmədən bəyan edirdilər: “Biz sizə istiqlal əvəzinə xarababazarlıq verəcəyik, torpağınızda daşı daş üstə qoymayacağıq”. Bəli, İrəvan, Eçmiədzin (üç kilsə) və Yeni Bayazid qəzalarında 200 minə qədər soydaşımız soyqırıma məruz qaldı. Zəngəzurda 30 kənd. Qafan və Naxçıvanda onlarca kənd, oba, Qubada 112 kənd, Şamaxıda 80 kənd. Dağlıq Qarabağda 150 kənd. Zəngəzurda 115 kənd, Göyçay və başqa yerlərdə də Azərbaycan kəndləri dağıdıldı, yandırıldı, əhalisi məhv edildi, var - dövlətləri qarət olundu. Təkcə Şamaxıda 1953 qadın, 965 uşaq öldürüldü. Yüzlərlə uşaq, kişi, qadın məsciddə yandırdılar. Əgər N. Nərimanov, Abbasqulu bəy Şadlinski, Soltan bəy, Xosrov bəy və başqa vətənpərvər soydaşlarımızın səyləri olmasaydı, xüsusən də, Türkiyənin qəhrəman oğlu Nuru Paşa Qafqaz İslam Ordusu ilə harayımıza çatmasaydı ermənilər Azərbaycanlıların kökünü kəsməkdə israrlı idilər.

ADR hökuməti ermənilərin 1918-l920-ci illərdə Azərbaycanda törətdikləri cinayətləri təhqiq etmək üçün fövqəladə Təhqiqat Komissiyası yaratmışdı. Bu komissiya 20 ay ətraflı təhqiqat və araşdırmalar aparmış, 3500 səhifədən idarət 36 cildlik geniş material toplamışdı. Həmin materiallar ingilis, fransız, alman, rus və Azərbaycan dillərində nəşr edilərək Qərb dövlətlərinə göndərilməli idi. Lakin 1920-ci il aprelin 28-də Rus Sovet ordusu tərəfindən

1918-20-Cİ illərdə baş vermiş mürəkkəb vəziyyətdən bəhrələnərək azərbaycanlılara qarşı növbəti soyqırım törətdilər. Bunu bolşevizm pərdəsi arxasında həyata keçirir, guya sovet hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə kimi qələmə verirdilər. Sovet dövlətinin rəhbəri V. İ. Leninlə şəxsən razılaşmaya görə, ***Bakı Rusiyanın tərkibinə qatılmalı,*** Azərbaycanın qalan ərazisi isə Ermənistan dövlətinə çatmalı idi. Bunu reallaşdırmaq üçün məhz Lenin daşnak S, Şaumyanı Bakı Sovetinin sədri təyin etmiş və ona geniş səlahiyyətlər vermişdi. Məhz sovet Rusiyasına arxalanan erməni daşnakları və onların liderləri, o cümlədən ***Avalyan, Arakelyan, Ter-Mikaelyan, Mikoyan, Saakyan, Korqanov, talayan, Əmiryan*** 88il bundan öncə 1918-ci il martın 30-31-də tarixə mart soyqırımı kimi daxil olan Azərbaycan xalqının qırğınını törətdilər. Mart qırğını günlərinin şahidi olan böyük mütəfəkkir və bastəkar Ü. Hacıbəyli yazmışdı ki, “bolşeviklər daşnaklarla birləşib mart qırğınını törətdilər və Bakını “xarabazara” döndərdilər”. Daşnaklar bir gecədə, yəni martın ***31-də təkcə Bakı və onun ətraf*** kəndlərində 15 min günahsız, dinc soydaşımızı ən amansız vəhşiliklə öldürdülər. Martın 17-dən Şirvandan başlayan bu soyqırımı Azərbaycanın başqa bölgələrini də əhatə etdi. S.Şaumyanın 20 mindən çox ordusunu əksərini ermənilər təşkil edirdi, eyni zamanda xaricdən də ermənilər Şaumyanın ordusuna qoşulurdu.

Bu “qvardiya” əsasən ruslar tərəfindən tüfəng, pulemyotla möhkəm silahlandırılmışdı. Mart qırğınları zamanı Bakı dənizdən havadan və qurudan bombardman edildi, şəhərin maarif və mədəniyyət ocaqları və teatr binaları topa tutulub məhv edildi, yandırıldı və qarət olundu, 2-3 gün ərzində 50 min dinc əhali, qoca, qadın və uşaq qətlə yetirildi. Mart qırğını Bakıdan kənarlara - ***Qarabağ, Şuşa, Zəngəzur, Cavanşir, Cəbrail, Şamaxı, Quba, Göyçay, Qars, Lənkaran, Naxçıvan*** və başqa bölgələrə də yayıldı. Bu sahədə S. Şaumyana qatı daşnak liderləri Andronik, Mikoyan, Hamazaps, Lalayan, Saakyan, Arakelyan, Əmiryan, həmçinin erməni təşkilatları, habelə xaricdəki ermənilər də fəal yardım göstərirdilər. 1918-ci ilin mayında Tiflisdə daşnak hökümətinin

üsulu təşkil edərək Qafqazda bir sıra qanlı terrorlar törətməsi. Bununla əlaqədar o yazırdı "Ä« ***sözhri insafı olan erməni və müsəlman inkar etməz^ zənnindəyəm. Mənə yetibmiş 245 məktub, Daşnaksüiyun partiyasının fəaliyyətinə dair dörd yüzdən artıq məlumatlar yazı stolumun üstündə dıırur"***

2) Rusiya yerli hakimiyyət orqanlarının bu işə etinasızlığı;

3) Azərbaycanlıların savadsızlığı və o dövrün siyasi hadisələrindən bixəbər olmaları;

4) Ermənilərin muxtariyyat üsul - idarəsi həvəsində olmaları.

Zaqafqaziyada maraqlı olan çar Rusiyası bu mənfur xislətli əhalidən bir alət kimi istifadə edirdi. Ermənilərin Qarabağa gətirilməsi məhz / ***Pyotrun*** hakimiyyətindən sonra başlanmışdı. Zaqafqaziyanı asandlıqla idarə etmək, Türkiyə dövlətini zəiflətmək üçün ennənilər çox gərəkli vasitə idi. Çünki onlar farsların, Vizantiyanın, ərəblərin, türklərin və digər ağalarının himayəsində yaşayanda da öz "erməni xəstəlikləri"ndən dönə bilməmiş, "yazıq millət" kimi maskalanaraq həmişə xəyanət və hiyləgərlik yolunu tutmuşdular. 1880-ci illərin ortalarından başlayaraq Türkiyədə erməni millətçi təşkilatlan yaranmağa başlandı. Fransa, İngiltərə və başqa ölkələrdə yığışan millətçi ünsürlər ilk komitələrini təşkil etdilər. 1887-ci ildə "Hinçaq", l890-cı ildə "Daşnaksutun" partiyaları fəaliyyətə başladı. Daha sonra Türkiyədə "Erməni icmalarının xilasi", "Krunk" kimi daşnak təşkilatlan peyda oldu. Hakim ennənilər Kiçik Asiyada türklərin ciddi müqavimətinə rast gələrək öz məqsədlərinə çata bilmədilər. XIX əsrin əvvəllərində Rusiya - İran, Rusiya - Türkiyə müharibələrindən sonra ermənilər kütləvi şəkildə Rusiya tərəfindən işqal olunmuş Azərbaycanın İrəvən, Naxçıvan, Qarabağ, Gəncə, Şamaxı bölgələrində yerləşdirildilər, Rusiyanın strateji dayaq məntəqələri rolunu oynayaraq yerli sakinləri öz yurd - yuvalarından sıxışdırmağa başladılar. Onlar 1905-1907-ci illərdə rusların himayəsi altında azərbaycanlılara qarşı soyqırım törətdilər. Bu daşnakları gələcək mübarizələrə daha da şirnikdi- rirdi.

Erməni daşnakları Rusiyanın himayəsindən, eyni zamanda

son qoymaq təşəbbüsündə olan Rus Çan öz nümayəndəsi Qafqaz camişini İ.l. Vorontsov - Daşkovu 1905-ci il sentyabrın 10-da Bakıya göndərir.

Bakıda barışıq və sülh həmin il sentyabrın 14-də İ.İvo-rontsov-Daşkovun rəhbərliyi altında bərpa olunur. Həmin gün saat 12-də min nəfərdən yuxarı azərbaycanlı və erməni özlərinin qabaqcıl ziyalı və din xadimləri ilə birlikdə sülh və barışıq üçün Duma meydanına gəlirlər. Burada qubemya qazısı Mir Məhəmməd Kərim ağa Mircəfərzadə, erməni keşişi və müvəqqəti general- qubernator S.A, Fadeev xalqa müraciətlə çıxış edərək onları sülhə çağırırlar.

Danışıqlar aparmaq üçün hər iki tərəfdən nüfuzlu şəxslərdən ibarət xüsusi komissiya yaradılır. Bu komissiyaya ermənilər tərəfindən - yepiskop Ananiya, B.M.Doluxanov, A.A.Paronyan, K.İ.Xatisov, S.S.Taqianosov, A.S.Unanov, Q.Q.Kyandjuntsev, Q.B.Ter-Mikaelyan, A.İ.Serebryakov, A.N.Dostakov və O.İ.Ka- çaznuni, azərbaycanlılar tərəfindən isə İsmayil bəy Səfərəliyev, İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Əsədulla Əhmədov, Əhməd bəy Ağayev, İsa bəy Hacınski, Hacı Aslan Aşurov, Hacı Baba Aşurov, Məmməd Həsən Hacınski, Həsənağa Həsənov, Mirzə Əsadullayev, Ağabala Quliyev vəkil edilirlər. Həmin il sentyabr ayının lO-da başlayaraq onların arasında danışıqlar və yazışmalar gedir. Nəhayt bu şəxslərin əksəriyyəti 1906-cı ilin fevral ayında Tiflisdə Qafqaz canişini və onun müavinlərinin iştirakı ilə keçən sülh danışıqlarında iştirak edirlər.

Bu məsələyə dair sənəd və materialları görkəmli yazıçı - jurnalist M.S. Ordubadinin toplayaraq gələmə aldığı və Murtuza Muxtarovun vəsaiti ilə 19II-ci ildə çap olunmuş “Qanlı sənələr”. Mir Möhsüm Nəvvabın “1905-1906-cı illərdə erməni - müsəlman davası” kitablarında, habelə o dövrün mətbuatında dərc olunmuş məqalə və məlumatlarda əks olunmuşdur.

Öz əsərinə müqəddimədə M.S. Ordubadi erməni - azərbaycanlı qırğını ilə əlaqədar aşağıdakı dörd amili qeyd edirdi;

1) Erməni Daşnaksütyun komitəsinin müstəbid bir idarə

Onlar özlərini yazıq, zəlil kimi göstərərək bu ölkələrdə sığınacaq və çörək tapdılar.

Ermənilər gəldikləri yerlərə quzu paltarında gəlir, yerləşəndən sonra canavar dişlərini göstəriblər. Bu gün gürcülər Axalkalakidə, Cavaxetiyada, rusların özləri Stavropol-Krasnodarda bunun şahididirlər. Bunun bazir nişanəsini Bakı şəhərinin tarixi misalında da görə bilərik. Belə ki, 1810-cu ildə avqustun 2-də rus generalı 1'ormosovun Bakı, Quba və Dərbənd xanlıqları üzrə müşaviri Quryevə verdiyi məlumatda Bakı əhalisindən bəhs edərək yazırdı ki, Bakı qalasında (içəri şəhər) və onun ətrafında (Bayır şəhərdə) 2235 nəfər əhali yaşayırdı. Onların 2154 nəfəri azərbaycanlı (müsəlman), 55 nəfəri erməni, 26 nəfəri yəhudidir. Bakı ətrafındakı 37 kənddə yaşayan 5387 nəfər əhalinin içərisində bir nəfər də erməni yox idi. Yenə həmin müəllifə görə I816-cı ildə Bakıda (Qala və Bayır şəhərdə) 5270 nəfər əhalidən 238 nəfəri, 1860-cı ildə 11.570 nəfər əhalidən 655 nəfəri erməni idi. Göründüyü kimi ermənilər Bakıda getdikcə artırdılar. 1905-ci il fevralda Bakı və onun ətrafında baş vermiş erməni- azərbaycanlı qətli-amı haqqında məlumat toplamış senator Kuzminski yazırdı: “Müsəlmanlar Bakı şəhərinin aborigen sakinləri, ermənilər isə buraya sonradan, xüsusilə neft sənayesinin intensiv inkişafından, yəni təxminən 70-ci illərin əvvəlindən sürətlə gəlməyə başlamışlar. Onların (Bakıya.M.H.) axını isə son 10-15 ildə xüsusilə artmışdır. Hazırda onlar şəhər əhalisinin 18% -ni təşkil edirlər”

Həmin Kuzminski yazır ki, ermənilər Bakı neft sənayesi hesabına varlanaraq ticarət və bank sistemində üstünlüyü ələ keçirirlər, qısa müddətdə Bakıda güclü erməni kapitalist təbəqəsi əmələ gəlir, bütün sahələr kimi sənayedə də hakim mövqe tuturlar. Erməniləri Bakıya köçürən rusların da əsas məqsədi elə bu idi.

Həmin bu Bakıya axınla köçüb gələn ermənilər sonralar - 1905-1907-ci illərdə birinci Bakı erməni-azərbaycanlı qırqınmı törətdilər, xalqımızın başına gətirilən böyük bəlanın başlanqıcını qoydular. Ermənilərin Bakı əhalisinin başına gətirdikləri bu bəla azərbaycanlıların kütləvi qırqınına səbəb oldu. Bu qırqına zahirən

liderimiz Heydər Əliyev dönə-dönə deyirdi: ^***"Biz tariximizin hər hir dövrünü suhyektivlikdm tamamilə kənar^ olduğu kimi təsvir^ əks etdirməliyik. Biz onu gələcək nəsillərə olduğu kimi çatdırmalıyıq'".*** Biz də böyük öndərimizin tövsiyəsini nəzərə alaraq erməni daşnaklarının xalqımıza qarşı törətdikləri soyqırımları obyektiv surətdə işıqlandırmağa borcluyuq. Eyni zamanda böyük minnətdarlıqla qeyd etməliyik ki, xalqımızın qeyrətli oğlu, ümummilli liderimiz Heydər Əliyev həmyerlilərimizin Ermənistandakı tarixi yerlərindən deportasiya olunmaları və soydaşlarımıza qarşı törədilmiş soyqırımları haqqında ayrı-ayrılıqda iki fərman imzalamışdı.

"Azərbaycanlıların soyqırımı haqqında" verilən fərmanın ildönümü münasibətilə möhtərəm Heydər Əliyevin xalqa müraciətində deyilirdi: "Qarşımızda duran əsas vəzifələrdən biri son əsrdə xalqımıza qarşı həyata keçirilən soyqirimi haqqında indiki və gələcək nəsillərdə möhkəm ***milli yaddaş formalaşdırmaq.,*** bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, onun ağır nəticələrinin aradan qaldırılmasına və bir daha belə halların təkrar olunmamasına çalışmaqdır". Son iki yüz ildə başımıza gətirilən bəlaların əsas baiskarı xəyanətkar və iblis xislətli ermənilər olmuşdur. Onlar zaman - zaman xalqımıza qarşı dəhşətli soyqırımlar törətmiş, on minlərlə günahsız adamı, hətta qocaları, qadınları və körpələri də qətlə yetirmişlər. Bu vəhşiliklər içərisində 1918-ci ilin mart soyqırımı xüsusilə fərqlənir. O vaxt bolşeviklərin köməyi ilə Bakıda, Şamaxıda, Qubada, Gəncədə, Salyanda və digər rayonlarda erməni daşnakları müsəlmanları ucdantutma qırır, öz çirkin niyyətlərini, "böyük Ermənistan" yaratmaq istəklərini bolşeviklərin yardımı ilə həyata keçirmək istəyirdilər.

Əslində isə ermənilərin tarixən daimi məskəni olmayıb. Vaxtilə Frakiyadan sıxışdırılaraq Balkanlara qovulmuş ermənilər sonradan Qafqazda, Yaxın və Orta Şərq ölkələrində yerləşməyə başladılar. Bunun bir səbəbi həmin bölgələrin yaşayış üçün çox səmərəli olması idisə, digər səbəbi həmin yerlərin daimi sakinləri olan türk xalqlarının humanistliyi və qonaqpərvərliyi ilə bağlıdır.

tanımış, onun xalqının milli-mənəvi dəyərlərini yüksək qiymətləndirmiş, xalqımız haqqında həqiqətləri dünyaya çatdırmaq üçün səylərini artırmışlar.

Əsrin və minilliklərin qovuşduğu 2000-ci ildə Azərbaycan Respublikası türkdilli dövlətlər başçılarını, dünya qorqud- şünaslarını, YUNESKO-nun iştirakı ilə möhtərəm “Kitabi Dədə Qorqud” dastanının 1300 illiyini qeyd etdi. Uzun müddət təqiblərə məruz qalmış bu epos nəhayət ki, dövlət başçısının təşəbbüsü ilə müstəqil Azərbaycan Respublikasında öz layiqli qiymətini aldı. Bu münasibətlə 2000-ci il aprelin 9-da “Respublika” sarayında keçirilmiş təntənəli yubiley mərasimində prezident H.Əliyev nitqində deyilmiş aşağıdakı sözlər hər bir azərbaycanlıda iftixar hissi doğurur: “Biz bu gün böyük iftixar hissi keçiririk. Çünki bizim “Kitabi Dədə Qorqud” kimi böyük tarixi abidəmiz vardır, çünki bu gün biz sərbəstlik, azadıq, müstəqillik və öz tarixi keçmişimiz, öz mənəvi dəyərlərimizi, öz mədəniyyətimizi olduğu kimi təhlil edib, xalqımıza, millətimizə və gələcək nəsillərə çatdırmağa qadirik”.

Milli-mənəvi dəyərlərimizin qorunması prezident H. Əliyevin -bu dahi insanın diqqət və qayğısı sahəsində yeni vüsət almışdır, bu böyük işlər görülmüşdür. Bu tarixi vəzifəni Azərbaycan prezidenti İlham Əliyev böyük müvəfəqiyyətlə davam etdirir, mütamadi olaraq şairlərimiz, rəssamlarımız, idmançılarımız və sair sənət adam- lanmızla görüşlər keçirir, onların iş və sosyal şəraitinin daha da yaxşılaşması üçün əməli tədbirlər görür. Prezident İlham Əliyevin Azərbaycan yazıçılan və rəssamlarının yaradıcılıq şəraitinin yaxşılaşdırılması tədbirləri haqqındakı 12 mart 2007-ci il tarixli Sərəncamları Azərbaycan yaradıcı adamlarına göstərdiyi qayqının bariz nümunəsidir, və H. Əliyevin milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişafına verdiyi böyük diqqətin layiqli davamıdır.

AZƏRBAYCANLILARIN SOYQIRIMI. Bədnam qonşularımız tərəfindən xalqımız həmişə dönə-dönə qətl-qarətə məruz qalıb, məhv olunmaq təhlükəsi ilə üz-üzə dayanıb. Ümummulli

məhdudlaşıb qalmır. Bura yuxanda qeyd etdiyimiz kimi tariximizdə, adət - ənənəmiz də daxildir. Azərbaycanda həmişə böyüyə xüsusi hörmət olmuşdur, ata-anaya hörmət müqəddəs sayılmışdır. Bir biri ilə düşmənçilik edən iki iş arasına tayfa, nəsi, ailə arasına ağsaqqal adam girərdisə düşmənçiliyə, ədavətə son qoyularmış. Bizdə qadına çox böyük ehtiram göstərilmişdir. Bir-biri üzərinə silah qaldıran iki dəliqanlının arasına qadın öz örpəyini atarsa, dərhal o savaşa son qoyulurdu.

Ənənəmizdə ən başlıcası böyüyün sözünə baxmaq və onu eşitmək olmuşdur. Cəmiyyət gənc nəslin bu ruhda tərbiyəsinə xüsusi diqqət verməlidir. Mənəviyyətsizlik bəlasından xilas yollarını haqlı olaraq hamımız valideyinlərdə və məktəblərdə görürük. Şübhəsiz bu iki amil şəxsiyyətin formalaşıd boya-başa çatmasında xüsusi rol oynayır. Xeyrin, şərin, yaxşının-pisin, əxlaqın və pozğunluğun nə olduğunu valideyin və müəllimlərlə yanaşı uşağın, yeniyetmənin böyüdüyü mühit də müəyyən edir.

Ədəbiyyat və incəsənət xadimləri ilə bir dəfə, növbəti görüşündə mərhum prezidentimiz çox ciddi olaraq demişdir ki, normal dövlət vətəndaşları qarşısında üç müqədəs borcunu yerinə yetirməlidir: dövlət öz sakinlərini qorumalı, oxutmalı və

sağlamlığının keşiyində dunnalıdır. Bu baxımdan prezident H. Əliyevin təhsil və ordu sahəsində ki uğurlu işləri göz qabağındadır. İndi də çox ciddi olaraq milli-mənəvi dəyərlərimizin qorunması ön plana çəkilir. Milli-mənəvi dəyərlərimizin öyrənilməsinə və tədbiq olunmasına böyük əhəmiyyət verilməklə yanaşı Azərbaycan mədəniyyətinin dünya sənt xəzinəsinə verdiyi töhvələrlə başqa xalqların nümayəndələrini tanış etmək məsələləri daimi diqqət mərkəzində olmuşdur. Məhz müstəqillik illərində dahi Azərbaycan şairi və mütəfəkkiri Fizulinin dövlət başçısının təşəbbüsü ilə 500 illik yubileyi bir tərəfdən əsl poeziya yubileyinə, bayramına, milli mədəniyyətimizin təntənəsinə, digər tərəfdən isə Azərbaycan dövlətçiliyimizin, varlığını Azərbaycan müstəqilliyini əsl xalq bayramına çevrildi. Müxtəlif ölkələrdən, YUNESKO-dan bu yubileyə gələn insanlar l'üzuli poeziyası vasitəsilə Azərbaycanı

təşkilatı idi, həmin dövrdə Azərbaycanda 31 xristian dini təşkilatı və təriqəti, 4 yəhudi dini təşkilatı qeydə alınaraq fəaliyyət göstərirdi.

Xalqımız dövlət müstəqilliyini əldə etdikdən sonra ölkəmizdə islam hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı beynəlxalq standartlara uyğun bərpa edilmişdir. Dini etiqad azadlığı Azərbaycan siyasətində demokratik hüquqi cəmiyyət quruculuğunun zəruri atributu kimi dərk edilir və bu sahədə Azərbaycan Respublikası Konstitusiyası, həmçinin "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası qanununa müvafiq olaraq ardıcıl mütərəqqi tərbiyələr həyata keçirilir-İslam dininin bəşəriyyətə bəxş etdiyi mənəvi dəyərlərin əhəmiyyətindən və onların öyrənilməsinin vacibliyindən bəhs edən Azərbaycan Respublikasının prezidenti II. Əliyev hələ 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikasısı gənclərinin birinci qurultayında söylədiyi fikirlər bu gün üçün də çox aktual səslənir - "bizim Konstitusiyamıza görə ölkəmizdə dünyəvi dövlət qurulur, din dövlətdən ayrıdır. Təbiidir, bütün dünyəvi ölkələrdə bu belədir. Bu, heç kəsdə təəccüb doğurmasın. Bu, bizim dinə münasibətdə başqa bir mövqe tutmağımızı göstərmir. Ancaq gənclərimizin islam dinini mənimsəməsi üçün hesab edirəm ki, lazımı tədbirlər görülməlidir. Çünki bu tədbirlərin olmaması nəticəsində mənfi hallar meydana çıxır, ayrı-ayrı qruplar gənclərə fanatizm əhval- ruhiyəsini pozmaq istəyirlər və bunlar da bizim gənclərin tərbiyyəsinə zərər vuı*ur. Ona görə də islam dininin məktəblərdə tədrs olunması, hesab edirəm ki, günün tələblərindən biridir və bu barədə təhsil Naziriliyi, müvafiq təşkilatlar düşünməlidirlər, lazımı tədbirlər görməlidirlər. Yəni bizim gənclərimiz dinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər".'

Azərbaycanda müxtəlif dini icmalar - müsəlman, xristian, yəhudi və s. dini qurumlar tam tolerantlıq şəraitində fəaliyyət göstərirlər. Bu da dövlətimizin xalqalnn mənəvi dəyərlərinin qorunmasına göstərdiyi qayğıdan irəli gəlir.

Milli - mənəvi dəyərlərimiz təkcə dil və din faktoru ilə

**''Arorbaycan''qoz., 3 fevral 1996.**

hüquqları özünə qajarıldı, eyni zamanda ondan əvvəl doğma dilimiz barədə yol erilmiş bəzi ciddi səhvlərə son qoyuldu. Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də ümumxalq rcferenduıu əsasında qəbul olunmuş ilk konstitusiyasında (maddə 21) qvd olundu ki, "Azərbaycan Respublikasının dövlət dili Azərbaycıı dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafın təmin edir".

Azərbaycan dilim dövlət dili statusunda təkcə azərbaycanlılarla deyil, Azərbaycan razisində yaşayan bütün xalqlara eyni dərəcədə sədaqətlə xidmət eliəsi milli mənəvi dəyərlərimizin qorunması və tərəqqisi baxımıədan yeni və mühüm bir mərhələni təşkil edir.

Müstəqil dövlətiniz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bi: çox qaranlıq səifələrini açmaqla kimliyimizi tam müəyyən etmsyi, milli kökləri ilə bağlı yenitəfəkkürlii yeni gənc nəslin yetişdirilnəsini zəruri edir. Müstəqilliyimizin on beş illiyi dövründə ökənin ağır problemlərinə baxmayaraq mərhum prezidentimizin milli dəyərbrimiz haqqındakı dəyərli tövsiyə və göstərişlərini həyata keçirərsk tarixi keçmişimizin çox qiymətli səifələrini açıb xalqa göstərməyə çatdırmaq yolunda böyük uğurlu addımlar atmışıq. Xılqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədən irsi daha dərindən öyrəndikcə böyük qürür hissi duymağa başayır və sözsüz ki, bununla fəxr edir. Novruzumuzu təntənsi qeydimiz buna misaldır.

Sovet hakimiy)oti illərində əlimizdən alınmış milli sərvətlərimizdən biri də ba müddət əi'zində dinimizdən məhrum edilməyimiz olmuşdur. Ancaq dini heç kəs unutmarraşdır, dini xalq öz qəlbində, ürəyində yaşatmışdır. Müstəqilliyimizin bərpası əldə edilən kimi mıiqəddss dinimiz - islam da sürəlJə inkişaf etməyə başlamışdır. Mslundur ki, yaxın keçmişin uzun sürən totalitar rejimi, ateizm idioləgiyası, dinkrin, xüsusən də islana dininin sərbəst fəaliyyəti üçür ciddi qadağalar qoymuşdu. Azərbaycan SSR-də əhalinin mütləc əksəriyyəti islam dininə mənsub olduğu halda rəsmən fəaliyyc göstərən 53 dini icmadan ancaq 18>i islam dini

bu sözlərindən məqsəd xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir. Prezident deyirdi: "Güman edirəm ki, cəmiyyət mənim bu fikirlərimin tərəfdarı olacaqdır və hərə öz yerində bu cür mənəviyyatsız hərəkətlərin qarşısını alacaqdır... biz öz milli - mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli bu mənəvi əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

Milli - mənəvi dəyərlərimizə yiyələnməkdə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi dövlət başçımız tərəfindən əsas vəzifələrdən biri kimi irəli sürülmüşdür. Dövlət başçımız H. Əliyev bu məsələdən bəhs edərkən belə demişdir: "Gənclərimiz milli- mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tarixi yaxşı bilməlidir, milli dəyərlərimizi, milli ənənələrimizi, mintalitetimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz". Maraqlıdır ki, H. Əliyev tarixinin bəhs edərkən onu mənəviyyatıməzla sıx əlaqədə görür və göstərir ki, xalqımızın tarixi əsasım təşkil edən bütün mərhələlərdə yüksək mənəviyyatımız olmuşdur və keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məhşurlaşdıran da, bizim üçün nümunə edən də onların yüksək mənəviyyatıdır, yüksək amalıdır.

Milli - mənəvi dəyərlərimizin mənimsənilməsində doğma dilimizin rolu olduqca böyükdür. Məlumdur ki, sovet hakimiyyəti illərində bunun milli dillər kimi Azərbaycan dilinə münasibətdə də böyük ədalətsizliyə yol verilmiş, ayrı-ayrı vaxtlarda isə Azərbaycan dilinin qanuni hüquqlarının özünə qaytarılması üçün göstərilən cəhdlər mərkəzin Moskvada mərkəzi apparatda işləyən bədnam ermənilərin səyi nəticəsində ciddi müqavimətlə qarşılaşmışdır. Azərbaycan rəhbəri H. Əliyevin təşəbbüsü ilə 1978-ci ildə Azərbaycan SSR konstitusiyası qəbul olunarkən orada Azərbaycan dilinin dövlət dili statusu təsbit olunmuşdu, lakin Sovet İttifaqının ümumi dili rus dili hakim dil olduğundan Azərbaycan dilinin respublika dövlət dilinə çevrilməsi yolunda çoxlu manelər yaranmışdı. Yalnız müstəqillik illərində bilavasitə dövlət başçısı H. Əliyev l' ♦ərəfli qayğısı sayəsində Azərbaycan dilinin bütün

həyatında nə ərəcədə fövqəladə rol oynamışdır. Əsr bizim yaddaşımızda hm sıırətli elmi-texniki tərəqqisi, imperiyaların süqutu ilə, yeni 5uveren dövlətlərin yaranması ilə demokratiyanın inkişafı, sülh, saıitlik və əmin-amanlıq naminə göstərilən səylərlə qalıb. Keçən ər ən mühüm hadisə kimi Azərbaycan Respublikasının müstəql bir dövlət kimi möhkəmlənməsi amili ilə yadda qalıb. Yarandığıilk illərdə dövlətçiliyimizin keşiyində Azərbaycan Respublikasının prezidenti, dünyanın seçib-seçilən siyasətçi və dövlət xadimləridən biri Heydər Əliyev durur. Mərhum prezidentimiz respublikam hər sahəsinə kömək və diqqət yetirməklə yanaşı milli-mənəvi dəərlərimiz və mentalitetimizi qoruyub saxlamaq haqqında da ço. səylər göstərmişdir. Azərbaycan Respublikası gənclərinin birim toplantısındakı nitkində söylədiyi “Hər bir gənc Azərbaycanın mi:təqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni seməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevmddir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimi! sevməlidir” sözlərində milli mənəvi dəyərlərə verilən yüksək qimət öz parlaq ifadəsini tapmışdır. Bu sözlərdə milli dəyərlərimiz aqqındakı fikir elə dəqiq deyilmişdir ki, onu nə dəyişmək, nə də baqası ilə əvəz etmək olar.

H. Əliyevin vaxt televiziya və radio vasitəsilə milli dəyərlərimiz haqqında ayımlanan növbəti bəyanatı cəmiyyətimizdə böyük əks-səda do:urdu. Millətin bütün təbəqələri sanki qəflətən yuxudan oyanıb hc gün rastlaşdığı hallara yenidən nəzər saldı. Bəyanatda söhbət ynə də mühüm bir sahədən, adət - ənənəmizə, milli-mənəvi dəyərhrimizə yaraşmayan neqativ hallardan kedirdi. Xalqımızın mir ilidə yaratdığı adət-ənənəsini, mənəviyyatım əxlaqsızlığa, ha*ınlıg qurban verən bəzi cavanlardan mədəni- əxlaqi irsimizə vunuğu zərbədən gedirdi. Gənclərimizin bir hissəsinin müasir mdəni prosesdə əxlaqının pozulmasını ölkə başçısı haqlı olsraq “əhşətli bir şey” adlandırır. Mənəviyyatımızı taptalayan adımlarn pozğunluğundan həyacanla danışan prezidentimiz leyd edirdi ki, bunların hamısı bizim yeni bəlalarımızdır, tu bəhlarla mübarizə aparmaq lazımdır. Rəhbərin

məsi» və s'.

Bu «Milli Proqram» üzrə yuxarıdkı hər bir mühüm tədbirin keçirilmə müddətləri də cənab prezident tərəfindən təstiqlənmiş və bu işlərin yerinə yetirilməsi üzrə müvafiq olaraq məsul idarələr də müəyyənləşdirilmişdir: Nazirliklər, Komitələr, İdarə və müəs- siəslər, yerli icra hakimiyyət orqanları. Respublika veteranlar Şurası, veteran təşkilatları, Milli Elmlər Akademiyası, Bilik cəmiyyəti, ictimai təşkilatlar, Bakı şəhər icra hakimiyyəti. Baş arxiv idarəsi, Respublikanın yaradıcı birlikləri, ali təhsil ocaqları və s.

Azərbaycan Prezidentinin təsdiq etdiyi «Milli proqram»dan göründüyü kimi bu böyük Qələbənin geniş qeyd olunmasını nəzərdə tutan tədbirlərin əhatə dairəsi çox genişdir və bütün xalqm müxtəlif təbəqələrinin bu bayramda yerini və iştirakını müəyyən edir. Bu təkcə yubiley proqramı deyil, hər il faşizm üzərində qələbənin təntənəli qeyd olunması proqramıdır. Bu da təbii və qanunidir. Bu cahanşumul Qələbədə öz payı olan Azərbaycan xalqının onu bayram etməyə də haqqı var. Bu haqqı ona bəşəriyyəti faşizmdən xilas etmək yolunda oğul və qızlarmın axıtdığı qanlar, bu Qələbəni yaxınlaşdırmaq üçün gecə-gündüz o illərdə çəkdiyi misilsiz zəhməti vermişdir. Bu bayramı şərəflə qeyd etmək alnıaçıq xalqımızın başıucalıq haqqı, iftixar payıdır. Diplomatlarımız olduqları ölkələrdə xalqımızın bu iftixarlı rolunu geniş təbliq etməlidirlər.

AZƏRBAYCANLILARIN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİ VƏ MENTALİTETİ. Xaricilərlə əlaqəsi olan hər bir azərbaycanlı, xüsusilə diplomatlarımız işlədikləri ölkədə xalqımızın milli-mənəvi dəyərlərlərini və milli mentalitetimizi, dini tolerantlığım ızı təbliq etməyi bacarmalıdır. Buna görə də bu haqda müəyyən məlumata malik olmalıdır.

Keçmiş əsrə nəzər salarkən bir daha əmin oluruq ki, həmin əsr istər nailiyyətləri, istərsə də məhrumiyyətləri ilə bəşəriyyətin

**' Azərbaycan Respublikası Prezidentinin "1941-1945-ci illər müharibəsində qələbənin 60 illik yubileyinə hazırlıq və yubileyin qeyd edilməsi Milli Proqramr'mn təsdiq edilməsi haqqında sərəncamı №303. 6 iyul 2004-cü il.**

illər müharibəsində Qələbənin 60 illik yubileyinin qeyd edilməsi üzrə Milli Proqram» m təsdiq edilməsi haqqında qərar qəbul etdi. Sənmcamda göstərilir ki, MDB iştirakçısı olan dövlətlərə 1941- 1945-ci illər müharibəsində Qələbənin 60 illik yubileyinin qeyd olunması tövsiyə edilmişdir. Bu qələbədə xalqımızın misilsiz xidmətlərinin bir çox keçmiş SSRİ respublikaları, indi isə MDB ölkələri içərisində daha çox olduğunu nəzərə alsaq faşizm üzərində qələbənin bu bayramını xalqımızın daha yüksək səviyyədə qeyd etməyə haqqı vardır. Prezident İlham Əliyevin bu böyük bayram haqqında təsdiq etdiyi «Milli Proqram»da aşağıdakı tədbirlərin keçirilməsinin vacibliyi göstərilir:

«1. Azərbaycan Respublikasının bütün şəhər və rayonlarında, idarə və müəssisələrində, ictimai təşkilatlarında 1941-1945-ci illər müharibəsində Qələbənin 60 illik yubileyinin təntənəli qeyd edilməsi;

2. Qələbənin 60 illiyi ilə əlaqədar olaraq onun əldə edilməsində Azərbaycan xalqının xidmətlərini gənc nəslə çatdınnaq məqsədi ilə yerlərdə elmi-praktiki konfransların, yığıncaqların keçirilməsi;

3. Qələbənin əldə edilməsində Bakı şəhərinin müstəsna roluna həsr edilmiş xüsusi elmi simpoziumun keçirilməsi;

4. Azərbaycan xalqının həm ön, həm də arxa cəbhədə Qələbənin təmin edilməsində xidmətləri barədə məşhur sərkərdələrin, dövlət xadimlərinin, digər görkəmli şəxslərin məktublarından, teleqramlarından və başqa təşəkkür sənədlərindən ibarət toplunun hazırlanıb dərc edilməsi;

5. Azərbaycanın elm, mədəniyyət xadimlərinin, yaradıcı ziyalıllarının Qələbənin təmin edilməsi yolunda müstəsna xidmətlərini əks etdirən məcmuənin hazırlanıb buraxılması;

6. Təhsil müəssisələrində Qələbənin əldə edilməsinə, xüsusən bu işdə Azərbaycan xalqının roluna həsr olunmuş inşa, hekayə, rəsm, plakat nominasiyaları üzrə müsabiqələrin keçirilməsi;

7. Qələbənin 60 illiyi ilə əlaqədar müharibə veteranlarmın, arxa cəbhə zəhmətkeşləri nümayəndələrinin iştirakı ilə respublikanın paytaxtında yubileyə həsr edilmiş təntənəli yığıncağın keçiri 1-

min azad olunmasında ilk iştirakçılarmdan olmuşdur. Qəhraman vətən oğlu kəşfiyatçı Baloğlan Rüstəmov təkbaşma 95 alman askər və zabitini əsir almış, 72 faşisti məhv etmişdir.

Azərbaycandan olan müxtəlif xalqlarm nümayəndələri bu ölüm-dirim müharibəsində Azərbaycan xalqmın adına şərəf gətirmişdir. 24 yaşından hərbi xidmətə gedən bakılı yəhudi Naum Rez- nik Kursk, Stalinqrad uğrunda olan qanlı döyüşlərdə fədakarlıqla vuruşur, komandiri olduğu artileriyanı cəbhədən-cəbhəyə döyüşlərə ruhlandırır. O, 27 yanvar 1945-ci il tarixində Polşanın Auşvits hərbi əsirlər lagerinin azad olunmasında işitirakmı xatu*layaraq deyir ki, həmin gün mən cəhənnəmi öz gözlərimlə gördüm, insanların yandırıldığı krematoriyalarm dəhşətini xatirəmdə əks etdirdim.

ABŞ-da, Los-Anjelesdə yaşayan bu 88 yaşlı bakılı müharibə dəhşətlərini indi də həyacansız xatırlaya bilmir. O, cümlədən ölüm lagerindən ən böyüyü olan və 1 milyon 200 min insan həyatına son qoymuş Auşvitsi dəhşətlə xatırlayır. Amerikada yaşayan bu qocaman bakılımız insanları bu dəhşətləri unutmamağa çağırır, heç vaxt bəşəriyyətə qarşı belə cinayətlərə yol verməməyə dəvət edir, deyir: «İnsanlar daim müharibə və Xolokost qurbanlarmı heç vaxt unutmamalıdırlar. Bunu bilməmək-einayətdir, bunları unutmaq bəşər nəsli üçün günahdır»*. Köhnə bakılı bu gün də insanları sülhə çağırır.

1941-1945-ci illər Böyük Vətən müharibəsinin qələbəsini təntənə ilə bayram edən Azərbayean xalqının qurur hissi keçirməyə haqqı vardır. Ata və babalarımızın bu müharibədə tökdüyü qanlar, göstərdikləri şücaət və qəhrəmanlıq hədər getməmişdir. Bu illər azadlıq uğrunda mübarizə illəri idi. Bu illər bu günkü azadlığımıza, müstəqilliyimizə gətirib çıxaran illərin başlanğıcı idi.

Məhz bu tarixi qələbənin əhəmiyyətini nəzərə alan Aəzərbaycan Prezidenti cənab İlham Əliyev bu ümumbəşəri əhəmiyyətli hadisədə Azərbaycan xalqmm da öz payı olduğunu nəzərə alaraq bu günə və sabaha iftixar yadigarı qoymaq üçün hələ 6 iyul 2004-cü il tarixində 303 nömrəli Sərəncamla «1941-l945-ci

**' Боков Ф.Е. Бессмертные подвиги сынов Азербайджана. Баку. 1971, стр.131,**

qoşunlarının müvəffəqiyyətlə çayı keçməsini təmin etmişdilər. Azərbaycanlı komandirin bu iyidliyi Sovet İttifaqı Qəhramanı adına layiq görülmüşdür (Ölümündən sonra)'.

Visla çayım birinci keçənlərin dəstəsində əlibayramlılı Şirin Şükürov da var idi. Onun bu şüçaəti Sovet İttifaqı Qəhramanı adına layiq görüldü. 17 yanvar 1945-ci ildə 416-cı Milli Azərbaycan diviziyası 1-ci Polyak ordusu ilə birgə Varşavanı alman işqalından azad etmişdir. Sonra həmin bu iftixarlı 416-cı Azərbaycan Milli diviziyası Visla çayından 130 km uzağa qedərək Oder çayının qərb sahilində yerləşir. Almanlar bütün hərbi texnikanı Oder çayı istiqamətinə yönəltmişdilər.

Artileriya batareyası komandiri azərbaycanlı Bahəddin Şah- vələd oğlu Mirzəyevin rəhbərliyi ilə əskərlərimiz rəşadətlə vuruşurlar. Xüsusilə Visla uğrunda döyüşdə igid azərbaycanlımızın komandiri olduğu bu batareya təkçə bir döyüşdə 7 alman tankını, düşmənin 70 əskər və zabitini məhv etmişdir. 1945-ci ilin martında iyid eloğlumuz Bahəddin Mirzəyev Qızıl Ulduz, Lenin ordenlərinə layiq görülür, Sovet İttifaqı Qəhramanı adını alır^. Təkçə indi böyük dostumuz olan Polşa uğrundakı döyüşlərdə 7 azərbaycanlı Sovet İttifaqı Qəhramanı adını alır, minlərlə azərbaycanlı əskər və zabit təltif olunurlar.

Polşanın Kostrin şəhərini faşistlərdən azad etməkdə azərbaycanlı Salat Mövlamovun batalyonu böyük şücaət göstərir. Bu döyüşə görə o. Qırmızı Bayraq ordeninə layiq görülür. Həmin Kostrin şəhəri uğrundakı vuruşlarda 416-cı Azərbaycan diviziyası 1000-dən çox alman əskəri və zabitini məhv etmiş, 7 arteleriya, 185 minomyot döyüş istehkamlarını dağıtmış, evlərdə yerləşən 150 döyüş nöqtəsini sıradan çıxarmış, 78 hərbi döyüş qüdrətli top, 4 hərbi ambar ələ keçirmiş, 265 almam əsir götünnüşdür^.

Azərbaycanlı Baloğlan Rüstəmov öz şöhrətli kəşfiyyat dəstəsilə Varşavaya birinci ginniş və dəhşətli ölüm düşərgəsi Osventsi-

**' yenə orada səh.8**

**^ Аббасов М. Баку в годы Великой Отечественной Войны. Баку, стр.167, 1967.**

**^ Bağjrzadə. Azərbaycan ziyalıları Böyük Vəlon müharibəsi illərində. Bakı, cəh. 146, 1970.**

C. Əhmədov, G. Əsədov, M. Məhərrəmov, X. Mustafayev və başqaları böyük qəhrəmanlıq göstərərək xalqımızm başını daha da ucaltmışdılar. Xalqımız bu illərdə öz qəhrəman sərkərdələrini də yetişdirmişdir: H. Aslanov, M. Əbilov, A. Abbasov, T. Əliyarbəy- ov, M. Mahmudov və başqalarmın adları Böyük Vətən Müharibəsi tarixini şərəfləndirir.

Azərbaycanın igid övladlarından olan 42 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əskər və zabitimiz yüksək dövlət orden və medalları ilə təltif olunmuş, ümum- miyyətlə 250 mindən çox Azərbaycan nümayəndəsi cəbhədə və arxadakı fədakarlığına görə orden və medallar almışlar. 12 -si «Şöhrət» ordeninin nər üç dərəcəsiylə təltif olunub^

Partiyanın dəstələrində vuruşmuş azərbaycanlıların adları Polşa, Almaniya, Fransa, İtaliya, Yuqoslaviya və sair Avropa ölkələrinin, Ukraina və Belorusiya xalqlarınm faşizmlə mübarizə tarixinə qızıl hərflərlə yazılmışdır. V.Axundov, X.Babanh, İ.Əliyev, Ə.Əliyev, M.Axundov, H.Namazov, qəhraman Azərbaycan qadınları A.Rüstəmbəyova, S.İbrahimova, iyid M.Hüseynzadə (Mixay- lo), Buxenvald qəhramanı Ə.Ağayev, Ə.Babayev, Ə.Cəbrayılov və başqaları vətəndən çox-çox uzaqlarda Azərbaycanımızın başmı ucaltmış, şöhrətimizi dünyaya yaymışlar. Onların böyük hissəsi vuruşduqları ölkələrin orden və medallarına layiq görülmüş, həmin ölkələrin, şəhərlərin fəxri vətəndaşı adını almışlar.

Müharibənin qızğın vaxtında Polşaya girən Sovet qoşunları tərkibində alman faşist ordusu ilə on minlərlə azərbaycanlı vuruşurdu, onlardan minlərlə dost Polşa torpağı uğrunda canlarmı verdilər. Varşavanın azad olunmsı yolunda vuruşan və azərbaycanlı qeneral-mayor Mahmud Əbilovun başçılıq etdiyi l250-ci diviziya keçirdiyi uğurlu vuruşlara görə Kutuzov, Suvorov və Polşa respublikasının döyüş ordeni olan beşinci dərəcəli Verturi Militarı ordenləri ilə tərtib olunmuşdur. 1944-cü ilin 25 iyulunda Polşa kəndi Ma- lidə birinci olaraq çayı keçən Cabrayıl rayonunun sakini Cəmil Əhmədov və onun rotası oldu. Onlar on saat suda dayanaraq Alman əskərlərinin əks-hücumunun qabağını almış, hucumda olan Sovet

**M. Hacıyev. Göstərilən məqaləsi, səh.7**

ruhlu əsərlər yaradır, döyüşçülərimizi qələbəyə ruhlandırdılar. Görkəmli şair Süleyman Rüstəmin «Ana və poçtalyon» əsəri dərhal bir neçə dilə tərcümə olundu.

Xeyli vaxtdır ananın gözləri yol çəkirdi,
Başqa dərdi yox idi, oğul dərdiydi dərdi

- misraları ilə başlayan həsrət dolu şer cəbhədən məktub gözləyən anaların ürəyinə ümid qıqılcımları çiləyirdi. İncəsənət xadimlərimizdən ibarət dəstələr səngərlərdə olan sovet əskərlərini düşmənə qarşı rühlandınnaqda böyük iş görürdülər. Böyük sənətkarlarımız olan Bülbülün, Şövkət Ələkbərovanın, Sara Qədimova- nın və başqalarının səsi gah bu cəbhədən, gah o cəbhədən gəlirdi.

Azərbaycan elmi böyük hünərini, kəşflərini cəbhədəki qələbəyə yönəldirdi. Görkəmli alim-kimyaçı akademik Y.Məmmə- dəliyevin rəhbərliyi ilə Bakmın Balaxanı neftindən aviasiya benzini istehsalmın yeni texnologiyası hazırlandı. Yeni alınmış yüngül tipli benzin o zamanın hərbi sovet təyyarələri «YAK»- ların, «MiQ»-lərin daha yüksəyə qalxmasına imkan yaratdı.

Hər qəhrəmanlıq nümunəsini ədəbi-yaradıcı qüvvələr dərhal aktiv təbliq edir, başqalarını da vətən naminə iyidliyə səsləyirdilər. Şerim qanadlanıb tez tapsın onu,

Qəhraman Məzahir Abbas oğlunu

- deyən S.Vurğun qəhrəmanın iyidliyi, şücaətinə söz deməyə tələsir, şair Məmməd Rahimin Leninqrad göylərində şuqaət göstərmiş həmyerlimiz Baloğlan Abbasov haqqında yazdığı poema isə yüksək qəhrəmanlıq əsəri kimi Stalin mükafatı ilə mükafatlandırılır. Yazıçı Ənvər Məmmədxanlının «Buz heykəl» hekayəsi neçə- neçə dilə tərcümə olunaraq cəbhə qəzetlərində çap olunur, əskər- lərimizdə düşmənə nifrət yaratmağa kömək edir.

Azərbaycainn qabaqçıl oğulları cəbhəyə ilkin getmək hüququ qazanmaq üçün partiya sıralarına daxil olmaq arzusu ilə partiya təş- kilatlarma 50 min ərizə vennişdilər. Müharibə illərində cəbhəyə 600 mindən çox azərbaycanlı oğul və qız getmişdi. Azərbaycan diviziyaları Qafqazdan Berlinə qədər şanlı döyüş yolu keçdilər. Müharibə cəbhələrində M. Abdullayev, S. Abdullayev, V. Abra- mov, M. Allahverdiyev, İ. Bayramov, V. Balandin, Z. Bünyadov,

ilin əvvəllərində Bakı zavodlarında 130 növ müxtəlif silah, hərbi sursat hazırlanırdı. Bakıda istehsal olunan əl qumbaraları, minaatanlar və bombaları, əfsanəvi «Katyuşa» mərmiləri, pulyemyotlar, toplar, tüfənglər alman faşistlərinin qəniminə çevrilmiş, düşmən başına tökülən «ölüm» mələkləri idilər. Bunlar «Bakı fəhləsi», leytinant Şmidt (indiki Bünyad Sərdarov) və s. zavodlarda hazırlanırdı.

Azərbaycan kolxozçuları müharibənin çətin şəraitində böyük şücaət göstərərək ölkəyə yüz min tonlarla taxıl, pambıq, on min tonlarla tütün, yağ, ət, yun, meyvə, tərəvəz (bostan məhsulları) və s. vermişlər. Minlərlə kolxozçumuz bu rəşadətlərinə görə ölkənin ən yüksək orden və medallarına layiq görülmüşdülər. Tarlalarda, bağlarda Bəsti Bağırovaların, Şamama Həsənovalarm göstərdikləri iyidliklərə şerlər, poemalar qoşulurdu, neftçi Ağa Neymətullalara, neftçi Qurbanlara həsr olunan mahnılar yazılırdı.

Azərbaycan xalqı cəbhə üçün heç nəyi əsirgəmirdi. Azərbaycanlı analarımız, gəlinlərimiz fəxr edə bilərlər ki, ər yadigarı, məhəbbət simvolları olan nişan üzüklərini barmaqlarından çıxarıb cəbhə üçün tank və top hazırlamaqdan ötrü göndərən ilk fədailər olmuşlar. Təkçə müharibənin ilk iki ilində Azərbaycan qadmları müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 311 mln. manat nəğd pul verdi, dövlətdən 1.5 mln. manatlıq istiqraz və lotoreya aldı, tank və təyyarə dəstələri fonduna 230 mln. manat pul ayndı. Azərbaycan qadının əli ilə hazırlanmış 1,6 mln ədəd yorqan, döşək, yastıq və s. cəbhədə əskərlərimizi isidirdi. Gözü ər, oğul həsrəti ilə cəbhə yollarma dikilmiş anaların, gəlinlərin cəbhə üçün hazırladıqları isti paltar 125 vaqon təşkil edirdi.

Azərbaycan xalqı öz vətənpərvərliyini alman faşizmindən azad olunmuş rayonların əhalisinə yardımda da ilkin əlini uzadanlar içərisində idi. Respublikamızda yaradılmış Yardım komitəsinə gələn insan axmı Leninqrad, Stalinqrad, Şimali Qafqaz zəhmətkeşlərinə kömək gətirir, bu köməyi çox vaxt qeydiyyatdan keçirmədən verib gedirdilər.

Şair və yazıçılarımız qələbəyə kömək üçün vətənpərvərlik

tchsal edən yeganə bazaya çevrildi*.

Müharibə illərində cəbhəyə Azərbaycan 75 mil. ton neft verdi. Qrozni-Şimali Qafqaz nefti alman ordusunun əlində idi. SSRİ- nin yeganə intensiv neft mənbəyi Bakı idi. Sovet rəhbərləri bu həqiqəti müharibədən xeyli sonra da dana bilmir, etiraf edirdilər: «Dənizdə, quruda, havada düşmən üzərində Sovet Ordusunun üstünlük qazanmasına, sovet zirehli avtomobil və tank qoşunlarının, aviasiya birləşmələrinin görkəmli strateji əməliyyatlarına Bakı neftçilərinin köməyi az olmamışdır. Ən çətin şəraitdə onlar ordunu və ölkənin xalq təsərrüfatım yanacaqla fasiləsiz təchiz edir, o zaman bütün sovet neftinin təqribən dörddə üç hissəsini verirdilər» (L.İ.Brejnev)2.

Azərbaycan xalqının Böyük Vətən müharibəsindəki fədakarlığı tariximizin şərəfli səhifələridir. Bəziləri deyirlər ki, biz Moskvanı qorumaq üçün qan tökmüşük, bizim Azərbaycan vətənimizi heç bir təhlükə hədələmirdi. Belə deyənlər yanılırlar. O zaman biz SSRİ-ni təşkil edən başqa respublikaların xalqları ilə birlikdə bir vətəndə, bir bayraq altında idik. Bunu unutmaq olmaz. Əbədi öndərimiz, xalqımızın böyük oğlu H. Əliyev dönə-dönə deyirdi ki, SSRİ tərkibində l^irgə yaşadığımız illərin üstündən xətt çəkmək olmaz. Bu bizim taleimizdir, bu bizim tariximizdir^.

SSRİ adlanan imperiyanın şərəfli səhifələri az olmayıb. Bunlar həm də bizim şərəfimizdir və iftixarlı tariximizin qürur kitabının səhifələridir. Böyük Vətən müharibəsindəki qələbə də o cümlədəndir. «Hər şey cəbhə üçün, hər şey qələbə üçün!» şuarı ilə işləyən Azərbaycan xalqının şərəfli neftçilərinə həmişə yüksək qiymət verilmişdir. Onlar 160 dəfə SSRİ Dövlət Müdafiə Komitəsinin, Ümumittifaq Həmkarlar İttifaqı Mərkəzi Şurasının, SSRİ Neft sənayəsi Komisarlığınm keçici Qrnnızı Bayraqlarını almışlar. Müharibə başlayandan az sonrakı qıssa müddətdə Bakı döyüşən ordunun mühüm cəbbəxanalarından birinə çevrildi. Aıtıq 1942-ci

**' Hacıyev M. Azərbaycanın Böyük Vətən müharibəsində iştirakı. Milli Aviasiya Akademiyası. Elmi Məcmuələri. Cild 7, № 1, səh.5, 2005.**

**^ Yenə orada.səh. 6.**

**’ Oliyev H. Müstəqilliyimiz əbədidir. 11 kitab. Bakı, 1997.**

komitulorinə yeni iş formasına keçməklə öz fəaliyyətlərini ancaq cəbhənin tələblərinə uyğun qurmaq sərəncamım verdi. Müharibənin başlamasının ilk 3 günü ərzində-22 iyundan 25 iyuna qədərki müddətdə Azərbaycandan 18 min kommunist könüllü olaraq dərhal cəbhəyə yollandılar.

Müharibənin ilk ongünlüyündə 40 mindən çox azərbaycanlı oğlan və qız cəbhəyə gönüllü olaraq getmək üçün hərbi koınisar- lıqlara ərizə verdilər. Ölməz Azərbaycan şairi Səməd Vurğunun: Bilsin ana torpaq, eşitsin vətən Müsəlləh əskərəm mən də bu gündən,

Qoy vətən torpağı ayağa qalxsın.
Hər iyid gözündən ildırım çaxsın!

- misraları bütün xalqın vətəni qorumaq şüarına çevrildi. Qıssa müddət ərzində 186 704 nəfər vətən övladımız xalq qoşunu dəstələrinə yazıldı. Müharibənin ilk 3 ayı ərzində Azərbaycanda 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi yaradıldı. Qıssa müddətdə respublikada, o cümlədən şəhərlərdə 15 min nəfərlik hava hücumundan müdafiə dəstələri təşkil olundu. 1942-ci ilin əvvələ- rinə qədər Respublikanın 1 milyondan artıq adamı, yaşlı əhalisi də daxil olmaqla hərbi təlim proqramını mənimsəmişdilər.

Böyük Vətən Müharibəsinin ilk qəhrəmanları içərisində əs- kəri şücaəti ilə adları dillər əzbəri olan Azərbaycan oğulları H.B.Əliyev, K.A.Qasımov və başqaları xalqımıza ilk başucalıqları gətiriblər. Sovet İttifaqı Qəhrəmanları içərisində bu ada ilk nail olanlardan sayılan İsrafil Məmmədov xalqımızın igidlik dastanının ilk səhifəsini yazdı. Cəbhələrdən gələn xəbərlərdə göstərilirdi ki, 416, 223, 77-ci Azərbaycan atıcı diviziyaları ilk vuruşlardan fərqlənməyə başlayıblar. Bunlar Azərbaycan xalqının böyük iftixarlarının ilk qaranquşları idilər.

Azərbaycan başdan-başa cəbhə üçün yüngül, toxuculuq və yeyinti məhsulları istehsal edən mühüm strateji regiona çevrildi. Neftçilərimiz böyük fədakarlıq göstərərək gecə-gündüz çalışır, cəbhəni və xalq təsərrüfatını yanacaqla təmin edirdi. Azərbaycan sovet hərbi təyyarələri üçün vacib olan yüksək oktanlı benzin is-

i, o cümlədən tank diviziyalarının 86%, motorlu diviziyalarının 100%, 5 hava donanmasmm 4-ü ancaq SSRİ-yə qarşı yeridilmişdi. Bütün bu dəhşətli hərbi maxina eyni vaxtda 3 istiqamətdə yeridilməli idi; 29 diviziya «Şimala»-Leninqrada, 50 diviziya və 2 briqada «Mərkəzə»-Moskvaya, 57 diviziya və 13 briqada «Cə- nuba»-Kiyev istiqamətinə. Ukraynanın Dnepr sahillərinə çıxan almanlar Şərqə hücumlarmı davam etdinnəli idilər. Bu zaman Rumıniya aviasiasının öhdəsinə Şərqə zərbələrdə iştirak etmək əmri verilmişdi. Norveç və Finlandiyada 21 diviziya və 3 briqada əmrə müntəzir dayanmışdılar.

Stalin 1939-cu il Molotov-Ribbintrop sülh müqaviləsinə arxayın idi. İnanırdı ki, Hitler Avropanı işqal edib SSRİ-yə hücum etməyəcəkdir. Ona görə də SSRİ Almaniyanın 22 iyun 1941 il qəfil hücumuna hazır deyildi. Məhz bu xəyanətkar hücumdan sonra həmin günə-iyun 1941-ə qədər orduda mövcud olan 5 mil. 373 min adamı yenidən qruplaşdımıaq lazım gəldi. Birinci növbədə vuruşan sovet əskərləri qabağında o zaman ordu və donanmada hərbi xidmətdə olan 563500 nəfər koımnunist durdu.

Faşizm ilə Sovet xalqının ölüm-dirim mübarizəsi başladı. 1941-ci ilin 22 iyununda bazar günü saat 00.30 dəqiqədə başlayan və 25 milyondan artıq təkçə sovet xalqlarının canmı qurban aparmış bu qanlı-qadalı müharibə 1945-ci il 9 mayda Berlində qələbə ilə bitdi. Bu, adi müharibə qələbəsi deyildi. Bu, Xeyrin Şər üzərində, Nurun, İşıqın Qaranlıq və Zülmət üzərində qələbəsi idi. Bəşəriyyətə bu misilsiz qələbəni öz qanı və canı ilə töhfə edən xalqlar içərisində Azərbaycan xalqı da öz vüqarlı yerini tutmuş, öz şəhid övladlarının misilsiz qəhramanhğı ilə qələbə sevincini hər evə, hər obaya gəlməsini sürətləndirmiş, bununla da bəşəriyyətin azadlığmı faşizm əsarətindən azad edənlər suasına əbədi olaraq öz adını yazmışdır.

Bu qanlı-qadalı müharibənin, vətənin azadlığı uğrunda aparılan bu böyük savaşın ilk günlərində Azərbaycan xalqı da ayağa qalxdı və faşizmə qarşı vuruşan başqa xalqlarla bir sırada dayandı. Azərbaycan rəhbərliyi-Azərbaycan kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi artıq 28 iyun 1941-ci ildə bütün partiya

zorla zəbt olunmuş Azərbaycan torpaqlarının azad oluıması tələb olunmuşdur.

İKT ölkələri 2003-2006-cı illərdə Bakıda bir neçə mühüm konfrans keçirmiş, Emıənistan-Azərbaycan, DağIq Qarabağ münaqişəsinə dair məlum Bakı Bəyannaməsini (2006) qəbul etmişdir.

AZƏRBAYCAN BÖYÜK VƏTƏN MÜHARİBƏSİ (BVM) İLLƏRİNDƏ. Bu gün də diplomatlarımız işlədikləri ölkələrdə Azərbaycanın Böyük Vətən müharibəsində (1941-1945) iştirakına vo faşizm üzərində qələbədə roluna dar olduqlan ölkənin ictimaiyyətinə qeniş məlumat verməlidirlər. Bu ağır illər bizim də şərəf tariximizdir, dünya ictimaiyyəti bu şərəfli işdə xalqımızın verdiyi töhfələri lazımınca qiymətləndirmə'id ir. Bunun diplomatlarımız etməlidirlər.

Hər il qeyd etdiyimiz 9 may - Böyük Vətən miharibəsinin Qələbə günü

sülhsevər xalqımızın bayramıdır. Sovet İttifaqnm BVM- sində Alman faşizmi üzərində qələbəsi həm də lS39-cu ildə başlanmış II dünya müharibəsində Almaniyanın müttefiqləri olan İtaliya, Macarıstan, Rumıniya, Finlandiya, 1945-ci ildən isə Yaponiya üzərində ədalətin, azadlığın qələbəsi idi. Hitler artıq 1938-1941-ci ildən bir çox Avropa Ölkələrini zəbt ederək onların hesabına öz potensial imkanlarını xeyli artınnışdı. Sovet İttifaqını dağıtmaq üçün Hitlcr öz məşhur «Barbarossa plan:»m həyata keçinnək üçün qəflətən hücumla ölkə içərisində sürətlə irəliləməyi və Arxangelsk-Həştərxan xəttinə çıxmağı nəzərdə tuturdu. Bu planı həyata keçinnək üçün Hitler müttəfiqlərin qüvvələri ilə birlikdə Almaniyanın ən yaxşı hərbi hissələrini səfərbər etdi. Bu məqsədi həyata keçirmək üçün 190 diviziya, o cümlədən 19 tank və 14 motorlu diviziya ayırmışdı. Alman-faşist hərbi birləşmələrinin ixtiyarında 5,5 milyon silahlı adam, 4500-ə qədər tank, 48 minə qədər top və minaatan, 5 minə qədər döyüş təyyarəsi, 200-ə qədər döyüş gəmisi vardı.

Vermaxtın-Alman hərbi qüvvələrinin qum qoşunlarının 83%-

XII. 1996 ildə Cakartada İKT xarici işlər nazirlərinin növbəti konfransında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə hüquqi qiymət verilib, qəbul olunan sənəddə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsinin zəruriliyi qeyd edilib, erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd- şərtsiz çıxarılması və Ermənistana hərbi sursat, silah satışının dayandırılması təkidlə tələb edilib.

III. 1997 ilin martında İslamabadda İKT-nin növbədənkanar sessiyasında qəbul edilən bəyannamədə də Ermənistanın qəsbkar siyasəti pislənilir, təcavüzkar ordunun Azərbaycan torpaqlarından tezliklə çıxması tələb edilirdi.

Bu problemə XII. 1997 ildə Tehranda keçirilmiş VIII Zirvə toplantısında bir daha toxunulmuşdur. 55 ölkənin dövlət və hökümət başçılarının və BMT Baş katibi Kofı Annanın iştirakı ilə çağırılan bu yığıncaqda Azərbaycan müdafiə edilib və qəbul edilən üç sənəddə Ermənistanın işğalçılıq siyasəti bir daha pislənilir, bu siyasətin beynəlxalq sülh və təhlükəsizliyə qorxu törətməsi vurğulanır, Azərbaycanın ərazi bütövlüyünün bərpası tələb edilir, beynəlxalq birlik tərəfindən qəbul edilən dövlət sərhədlərinin zorla dəyişdirilməsinin qeyri-mümkünlüyü bildirilir və münaqişənin ancaq danışıqlar yolu ilə həll olunmasında təkid edilirdi.

İKT xəttilə Azərbaycana humanitar yardım da göstərilir. Belə ki, 1992 ildə İslam inkişaf Bankı xəttilə 1,9 milyon ABŞ dolları məbləğində təmənnasız yardım, VI. 1994 ildə Mil-Muğan kanalının tikintisi üçün 9,8 milyon ABŞ dolları məbləğdə imtiyazlı kredit, 1995 ildə “Azərbalıq” Dövlət şirkəti üçün 5 balıqtutan gəminin alınması məqsədilə 5 milyon ABŞ dolları kredit, 1997 ildə isə Ələt- Hacıqabul avtomcbil yolunun tikintisi üçün 13,144 milyon ABŞ dolları məbləğdə rraliyyə yardımı ayrılıb.

İKT üzv dövlətlərinin Azərbaycana yardımı davam etməkdədir. 2006-c; ilin sentyabr ayında İKT üzv ölkələrinin turizm nazirlərinin Bakıda keçirilən konfransı Azərbaycanda turizmin inkişafı üçün xüsusi qərar qəbul etmiş, bu məqsədlə münasib infrastruktur yaratmaq üçün erməni işqalçı qoşunları tərəfindən

Fəhd ibn Əbdül Əzizlə, İslam Konfransı Təşkilatı rəhbərlərilə görüşüb, İslam dünyası ilə bağlı məsələləri müzakirə etmişdir. VIII. 1991 ildə İslam Konfransı Təşkilatı xarici işlər nazirinin İstanbulda keçirilmiş konfransında Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi Erməni-stanm işğal hərəkətini pislədi.

8. XII.1991 ildə Azərbaycan İslam Konfransı 1'əşkilatına qəbul edildi.

IX. 1992 ildə Nyu-Yorkda BMT Baş Məclisinin növbəti sessiyası zamanı İKT-ya üzv ölkələrin xarici işlər nazirlərinin əlaqələndirmə yığıncağı keçirildi və burada qəbul edilmiş yekun sənəddə beynəlxalq aləmdə tanınmış sərhədlərin toxunulmazlığı və ölkələrin ərazi bütövlüyü prinsipinin Ermənistan tərəfindən kobudcasına pozulduğu qeyd edildi.

IV. 1993 ildə İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin Kəraçidə çağırılmış növbəti XXI konfransında qəbul edilmiş qətnamədə Ermənistanın işğalçılıq siyasəti pislənilir, təcavüzkar qüvvələrin Azərbaycan torpaqlarından dərhal çıxarılması tələb edilir, azərbaycanlı qaçqınlara humanitar yardım göstərilməsinin vacibliyi bir daha qeyd edilirdi. IX. 1994 ildə İKT-nin Baş katibi Həmid əl-Qəbid Bakıya .səfəri zamanı bildirdi ki, problem Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi xəttilə nizama salınmazsa, İKT Ermənistana qarşı sanksiyalara əl atacaqdır. Təşkilatın XII. 1994 ildə Kasablankada keçirilmiş VII Zirvə toplantısında Ermənistan-Azərbaycan münaqişəsilə bağlı iki qətnamə qəbul edilib. Birinci .sənəddə Ermənistanın hərbi təcavüzü pislənilir, zor gücünə sərhədlərin dəyişdirməsi yolverilməz hesab edilir, təcavüzkar ordunun işğal olunmuş ərazilərdən çıxarılması tələb olunurdu. Beynəlxalq təşkilatlardan birinci olaraq İKT Ermənistanın Azərbaycana qarşı apardığı siyasəti təcavüzkarlıq kimi qiymətləndirib. İkinci qətnamə isə erməni təcavüzü nəticəsində doğma yerlərindən didərgin düşən insanlara humanitar yardım göstərməyin zəruriliyi vurğulandı. Toplantıda qəbul edilən yekun Bəyannaməsində Azərbaycan torpaqlarının Ermənistan işqalçı qüvvələri tərəfindən qeyd-şərtsiz dərhal azad olunması bir daha təsbit edilirdi.

mümkün idi. Təşkilatçılar vurğulamuşlar ki, bu il sərgiyə rekord sayda - 150 min tamaşaçı gəlmişdir.

Fəaliyyət göstərdiyi 26 il ərzində Milan yarmarkasının ən yaxşı təkliflər irəli sürən yerli və xarici firmalardan ibarət daimi tərkibi formalaşmışdır. Yarmarkada ilk dəfə iştirak edən Azərbaycan bu tərkibi daha da genişləndirmişdir.

90 m^ sahədə yerləşən xüsusi stenddə turizm imkanlarımızın dolğun və rəngarəng informasiya təqdimatı olmuşdur. Azərbaycanın tarixi, ənənələri, iqlim şəraiti, turizm obyektləri və istirahət zonaları, habelə ekspozisiyanın məzmunlu dizaynı və texniki təchizatı xarici mütəxəssisləri, peşəkarları, səyahət həvəskarlarını maraqlandırmışdır. Azərbaycan Milli üçlüyünün (trio) bir neçə gün ərzində pavilyonda təşkil etdiyi mini-konsertlər çılğın italyanları ekspozisiyamıza daha çox cəlb etmiş və gurultulu alqışlar qazanmışdır.

Stenddə Azərbaycan milli aviaşirkəti AZAL da təmsil olunmuşdur ki, bu da son illər dünya turizm bazarında getdikcə cəlbedici imic qazanan ölkəmiz haqqında təəssüratları daha da gücləndirmişdir.

AZƏRBAYCAN VƏ İSLAM KONFRANSI TƏŞKİLATI (İKT). Azərbaycanın İslam Konfransı Təşkilatı ilə ilk əlaqələri 1986 ilə təsadüf edir. 01.X.1986 ildə bu təşkilatın xəttilə Bakıda ‘"Müsəlmanlar sülh uğrunda mübarizədə" adı altında beynəlxalq konfrans keçirildi. Konfransda dünyanın 60 ölkəsindən gəlmiş 600- dən artıq nümayəndə iştirak edirdi. Toplantı bütün dünya xalqlarına müraciət edərək, onları beynəlxalq sülhün və əminamanlığın qorunmasında əzmlə iştirak etməyə çağırdı.

V. 1991 ildə İslam Konfransı Təşkilatı və Ümumdünya İslam Cəmiyyətinin birgə nümayəndə heyəti Bakıya səfər edərək, Qafqaz Müsəlmanları İdarəsində İslam dünyasının müqəddəs məkanlarına ziyarət etmək, Azərbaycanın İslam ölkələriylə əlaqələrini genişləndirmək, dini təhsil məsələlərini araşdırmaq barədə fikir mübadiləsi apardı. VI. 1991 ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri A. Paşazadə Səudiyyə Ərəbistanına Həcc ziyarəti zamanı kral

ölkə arasında bütün istiqamətlərdə əməkdaşlığın qurulması vacib sayılıb. Azərbaycanın ticarət dövriyyəsi digər ölkələrlə müqayisədə İtaliya ilə daha böyük saldoya malikdir. Azərbaycanın İtaliya ilə xarici ticarət əlaqələrinin dinamikasına əsasən, 2006-cı il yanvar- avqust aylarında idxal göstəricisi 85002,7 min dollar, ixrac 1756582,8 min dollar həcmində olub. Ölkələrarası ümumi ticarət dövriyyəsi isə 1841585,5 min dollar təşkil edib. Ölkəmizdə idxal edilən İtaliya məhsullarının keyfiyyətcə də yüksək olduğu nəzərə çatdırılıb.

İclas zamanı əməkdaşlıq münasibətləri geniş şəkildə müzakirə edilib. Burada iqtisadiyyat, enerji, səhiyyə, təhsil, sosial, mədəniyyət və turizm sahəsində mübadilə məsələləri öz əksini tapıb. Hökümətlərarası komissiyalar çərçivəsində əməkdaşlıq sahələri müəyyənləşdirilib. Bu görüşdə xüsusilə də qeyri-neft sektorunda əlaqələrin genişləndirilməsi nəzərdə tutulub. Səfər çərçivəsində İtaliyanın 8 aparıcı şirkətinin nümayəndələri iştirak edib ki, həmin şirkətlərin bəzilərinin artıq Azərbaycanda nümayəndəlikləri fəaliyyət göstərir.

2006-cı ilin oktyabr ayında Azərbaycan və İtaliya hökümətləri arasında iqtisadi əməkdaşlıq sahəsində memorandum, kənd təsərrüfatı sahəsində isə protokol imzalanıb.

İtaliyanın Milan şəhərində keçirilən dünyanın ən iri turizm yarmarkalarından birində Azərbaycanın bu sahədə nailiyyətləri böyük uğurla nümayiş etdirilmişdir. Ekspozisiyamızın yerləşdiyi pavilyon həmişə gediş - gəlişli olmuş, italyanlar və qonaqlar Azərbaycan sərgisini yüksək qiymətləndirmişlər.

Milanda hər il qış mövsümünün sonlarında təşkil olunan bu yarmarka turizm sənayesinin çoxsaylı nümayəndələrini, dünyanın aparıcı türizm operatorlarını bir araya gətirir. Tədbir bu dəfə də iştirakçıların və qonaqların ümidlərini doğrultmuşdur. İtaliyada ən böyük turizm tədbiri ekspozisiyalarının yerləşdiyi 9 pavilyonda (Fieramilano sərgi mərkəzinin ümumi sahəsi 65 min m^) turizm şirkətlərinin və aviaşirkətlərin, hotellərin, bir sözlə, çoxşaxəli turizm sənayesinin planetimizin bütün guşələrindəki təmsilçilərini görmək

təhsil» elmi tədqiqlər, idman» standartlaşdırma, veterinar xidməti, bitkilərin karantini, avtomobil yükdaşımaları, hava yükdaşımalan və gömrük xidməti haqqında sazişlər imzalanır. Bu sammitdə həmçinin İİR-nın prezidenti Məhəmməd Xatəminin ölkəmizə rəsmi səfəri haqqında da razılıq əldə olunur. Bu razılıqa əsasən elan olunduğu kimi 2004-cü ilin avqustun 5-də İran prezidenti M. Xatəmi Azərbaycana səfər edir. Azərbaycan - İran əlaqələrinin hərtərəfli yaxşılaşmasına ehtiyac vardır. Təbidir ki, sonrakı illərdə də bu əlaqələr yüksələn xəttlə inkişaf edirdi. Azərbaycan prezidenti İlham Əliyevin xarici siyasətində qonşu İran mühüm yer tutur.

AZƏRBAYCAN - İTALİYA MÜNASİBƏTLƏRİ YENİ MƏRHƏLƏDƏ. İtaliya Azərbaycanın əsas iqtisadi tərəfdaşlarından biridir. 2006-ci il oktyabr ayının 20-də Azərbaycan Prezidenti İlham Əliyev İtaliya arasında iqtisadi əməkdaşlığa dair məşvərət forumunun həmsədri Famiano Kruçanellinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Dövlət başçısı İtaliyanın ölkəmizin əsas iqtisadi tərəfdaşlarından biri olduğunu deyib. İki ölkə arasında iqtisadi əməkdaşlığın hazırda, əsasən, neff sənayesi sahəsində həyata keçirildiyini bildirən prezident qeyri-neft sektorunda da əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. Dövlət başçısı Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini nəzərə çatdıraraq, bunun qarşılıqlı iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsi üçün yeni imkanlar yaratdığını söyləyib.

F. Kruçanelli İtaliya-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olduğunu, Azərbaycanın enerji təhlükəsizliyi baxımından İtaliya üçün strateji mövqedə yerləşdiyi, iqtisadiyyatın müxtəlif sahələrində də əlaqələrin genişləndirilməsinin əhəmiyyətliliyini vurğulayıb. O, bir çox İtaliya şirkətinin Azərbaycana böyük maraq göstərdiyini bildirərək, bu səfərin iqtisadi sahədə əlaqələrin daha da inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Azərbaycan - İtaliya əməkdaşlığı yeni mərhələdədir. 20.10. 2006-cı ildə Bakıda Azərbaycan və İtaliya hökümətləri arasında iqtisadi əməkdaşlıq komissiyasının birinci iclası keçirilib. Hər iki

bsini ortaya atır. Bu vo bu kimi tələsik və əsassız çıxışlar İran - Azərbaycan münasibətlərinə gərginlik gətirir və İranı Ermənistana meyl etməyə şövq edir. 26-28 oktyabr 1993-cü ildə İran prezidenti Haşimi - Rəfsəncani hakimiyyətə xalqın tələbi ilə yenidən qayıtmış H. Əliyevin dəvəti ilə Bakıya gəlir. Hər iki ölkə başçısı ikitərəfli əlaqələrin möhkəmlənməsinin zəruriliyini qeyd edərək qonşuluq münasibətlərini dostluq münasibətlərinə çatdırmağın vacibliyini göstərirlər. Lakin İran tərəfi 1997-ci ildə Xatəminin hakimiyyətə gəlişi ilə də Azərbaycan münasibətlərində köklü dəyişiklik etmədi. Azərbaycanın İsraillə yaxşı əlaqələri, ABŞ və Türkiyə ilə hərbi əməkdaşIğı və s. kimi məsələlər İranı qıcıqlandıran məsələlərdir. Azərbaycan tərəfinin, məs. XİN V. Quliyevin "İranda Azərbaycanlıların hüquqları pozulur" kimideyimləri İran tərəfində narazılıq yaradır. İran keçmiş SSRİ ilə Xəzər dənizindəki sərhəddi - Astara - Həsənqulu xəttini qəbul etmək istəmir, 2000-ci ilin oktyabr ayında dənizdəki sərhəd buylarını ləğv etmək istəyən İranın bu hərəkəti rəsmi Bakı tərəfindən ciddi etirazla qarşılandı. Türkiyənin Rus sularından keçərək Bakıya hədiyyə göndərilmiş hərbi kateri də İranın etirazına səbəb olur. Oktyabr 2000-ci ildə İran Naxçıvana verilən elektrik enerjisini kəsir. İranla-Azərbaycan xarici ticarət balansı 2001-ci ildə 64 mln. 569 min dollar təşkil etmişdir ki, bu da Azərbaycanın planlaşdırdığından 46 mln. 280 min ABŞ dolları azdır. 2000-ci ilin iyunun əvvəlində Tehranda iqtisadi əməkdaşlıq təşkilatının sammitində (İƏT) iştirak edən prezident H. Əliyev bu səfəri rəsmi səfər hesab etməyi təklif etsə də İran tərəfi buna razı olmur (Özbəyistanın prezidenti üçün bunu edirlər), səfərin başqa vaxtı baş tutacağını elan edirlər. Lakin sonralar da İran tərəfi H. Əliyevin İrana rəsmi səfərini təxirə salır, səfər baş tutmur. Daha sonra Xəzərdə "Geofizik-3" gəmisi üzərində İran hərbi təyyarələrinin hədəqorxusu Azərbaycan prezidentinin səfərini təxirə salır, "sənədlərin hazır olmaması" bəhanəsi ilə İran tərəfi çıxış edir. Nəhayət 18-20 may 2002-ci ildə Tehrana H. Əliyevin səfəri baş tutur. İki prezident birgə bəyanat qəbul edir, iki ölkə arasında dostluq və əməkdaşlıq prinsipləri haqqında müqavilə, mədəniyyət,

isə birliyimizdədir. Bu gün səhərdən buradayam, baxıram və görürəm ki, Tbilisidə böyük yeniliklər var, mənim ürəyim sevinir. Cünki siz güclü olsanız, biz də güclü olarıq”.

Azərbaycan - Gürcüstan strateji tərəfdaşlığı 2007-ci ilin əvvəlindən daha uğurlu sürət almışdır.

AZƏRBAYCAN - İRAN MÜNASİBƏTLƏRİ. Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra beynəlxalq hüququn müstəqil subyekti kimi ilk növbədə öz qonşuları, xüsusilə müsəlman ölkələri ilə fəal əlaqələr yaratmaqa başladı. Bu əlaqələrdə iran, Türkiyə, həmçinin sonralar üzvü olduğu islam ölkələri təşkilatı (İÖT) ölkələri xüsusi yer tutmağa başladılar.

İran islam Respublikası ilə Azərbaycan əlaqələri ilk illərdən ağrılı xarakter aldı. Azərbaycan Respublikası ilə 753 km. dövlət sərhəddi olan, 30 mln-dan artiq azərbaycanlı yaşayan İranda Azərbaycan üçün həyati maraqlar həmişə ön plana çəkilmişdir. İran ilk dövlətlərdən idi ki, SSRİ-nin siyasi rejim kimi zəifliyini hiss etmişdi: 1989-cu ildən Naxçıvan - İran dəmir sərhəd məftilləri sökülmüşdü Xalq cəbhəsi Cənubi Azərbaycanın Şimali Azərbaycanla birləşməsini tələb edir, qohumlar bir -birinin yanına icazəsiz gedib gəlmək istəyirdi. 15 fevral I990-cı ildə SSRİ ilə İran arasında sadələşdirilmiş sərhəd rejimi haqqındakı memorandum imzalandı. Bu sərhəd rayonları sakinlərinə aid idi. 12 mart 1991 ildə İran Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdən idi. Qarabağ məsələsinin kəskinləşməsilə Meqri rayonu ermənilər tərəfindən bağlanır, Naxçıvanla ancaq havadan əlaqə saxlanılır. 24 avqust 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının (NMR) milli məclisinin sədri H. Əliyev İran prezidenti A. Haşimi - Rəfsəncaninin dəvəti ilə İrana səfər edir və NMR ilə İran arasında iqtisadi və mədəni əlaqələr haqqında müqavilə imzalanır.

1992- ci ilin iyun ayında türkiyəyönümlü Ə. Elçibəy hakimiyyətə gələn kimi “Cənubi Azərbaycanı fars ağalığı təsirindən qurtarmaq” haqqında tələsik və vaxtından əvvəl bəyanatlar verir və Cənubi Azərbaycanın Şimali Azərbaycana birləşdirilməsi məsə-

işlərin məntiqi nəticəsidir. Əgər bu böyük lahiyələrin adlarına fikir versəniz görərsiniz ki, bunlarda da oxşarlıq var: Bakı-Tbilisi- Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars. Yəni Bakı ilə Tbilisi və Türkiyənin üç şəhəri. Bu, onu göstərir ki, üç ölkə arasında olan əməkdaşlıq öz konkret nəticələrini verir. Onu göstərir ki, bizim strateji xəttimiz, siyasətimiz uğurludur. Bu, bir daha bizim siyasətimizin təntənəsinin əlamətidir. Xüsusilə, yəni müstəqil ölkələrin - Gürcüstanın, Azərbaycanın müstəqilliyinin bir daha təntənəsidir. Biz sübut etdik ki, müstəqil ölkələr kimi yaşaya və yaxşı yaşaya bilərik, qarşımızda duran bütün vəzifələri özümüz həll edə bilərək.

Biz 15 ildir ki, müstəqilik. Müstəqillik hər bir insan üşün, hər bir ölkə üçün ən böyük dəyərdir. Biz uzun illər, əsrlər boyu bu müstəqillikdən məhrum olmuşduq. İndi biz onu qazanmışıq. Amma biz elə etməliyik ki, bu, əbədi olsun, dönməz olsun. Bizim xalqlarımız bunun bəhrəsini görsünlər, insanlarımız daha da yaxşı yaşasınlar, iqtisadi artım olsun. Bunların hamısı var. Əgər, sadəcə olaraq, Türkiyə, Gürcüstan və Azərbaycanın iqtisadi inkişafına nəzər salsanız görərsiniz ki, hər üç ölkədə çox kəskin şəkildə iqtisadi artım var, insanların həyat səviyyəsi, sosial rifah yaxşılaşır, qlobal, transmilli layihələr öz həllini tapır və üç ölkə, üç qardaş xalq həm öz xalqları üçün, həm də regionun inkişafı üçün əlindən gələni edir.

Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələri kimi, Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin də həyata keçirilməsi regiona sabitlik, əməkdaşlıq gətirəcəkdir.

Bizim ölkələrimiz, yəni Gürcüstan və Azərbaycan qarşısında duran ən önəmli problem ərazi bütövlüyümüzün bərpasıdır. Biz separatizmdən əziyyət çəkirik, etnik təmizləmə siyasətindən əziyyət çəkirik, bizim ərazi bütövlüyümüz pozulubdur. Bu, ən böyük ədalətsizlik, bütün beynəlxalq hüquq normalarının pozulması deməkdir. Biz mübarizə aparırıq və aparacağıq da ki, bunu əbalətli, beynəlxalq hüquq əsasında, dünya praktikası əsasında həll edək. Ancaq bunu həll etmək üçün biz güclü olmalıyıq. Bizim gücümüz

Mərasimdə əvvəlcə Gürcüstan Prezidenti Mixail Saakaşvili, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış etmişlər.

Azərbaycan Prezidenti bəyanatda demişdir: "İlk növbədə, mən qardaş Gürcüstan torpağında yenidən olmağımdan böyük məmnunluq hissimi ifadə etmək istəyirəm. Bu gün çox gözəl bir gündür. Səhər tezdən mən Tbilisi şəhərindəyəm və dostum Mixail ilə bir neçə yerlərə baş çəkmişəm. Yeni tikilən xəstəxana, təmir olunmuş metro stansiyası, Tbilisinin yeni görkəmi ilə tanış oluram. Bu gün biz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan sahilyanı küçənin açılış mərasimində iştirak etmişik. Bu küçəyə Heydər Əliyevin adı verilibdir. Yəni çox zəngin proqramımız var idi. Təbii ki, bu gün imzalanacaq sənədlər tarixi baxımdan, bugünki vəziyyət və üç ölkənin gələcək işbirliyi, əməkdaşlığı baxımından çox böyük əhəmiyyət kəsb edir. Mən demək istəyirəm ki, imzalanacaq sənədlər bizim dostluğumuzu daha da möhkəmləndirəcəkdir. Bu gün artıq burada deyildi ki, bu əməkdaşlıq böyük və gözəl tarixə malikdir. Bizim tərəfimizdən həyata keçirilən nəhəg transmilli layihələr, enerji layihələri, Azərbaycan nefti və qazını dünya bazarlarına çıxaran layihələr çox böyük müdriklik, cəsarət tələd edirdi. Biz bunları çox ağır siyasi və geosiyasi durumda həyata keçirdik. Əgər xatırlayırsınızsa, Bakı- Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə dair müxtəlif fərziyyələr irəli sürülürdü, şayiələr yayılırdı. Çox güclü müqavimət var idi. Ancaq bütün bunlara baxmayaraq, bu nəhəng layihə artıq reallıqdır və Azərbaycan nefti bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Nəyin hesabına biz buna nail ola bildik? İlk növbədə, üç ölkə arasında olan dostluq, qardaşlıq hesabına.*'

Dövlətimizin başçısı sonra qeyd etdi ki, əlbəttə, bu layihələrin həyata keçirilməsində çoxlu vacib amillər olmuşdur - peşəkar insanlar, bizimlə bərabər çalışan xarici neft şirkətlərinin yatırımları, investisiyaları ilə fəaliyyəti. Ancaq ilk növbədə, bu, üç ölkənin iradəsi və qətiyyətidir. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinin başlanması ilə əlaqədar imzalanacaq sənədlər bu görülən

## AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ.

18.11.1992 ildə Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında diplomatik münasibətlər yarandı. 03.11.1993 ildə Gürcüstan Respublikası parlamentinin sədri, dövlət başçısı E. Şevardnadze Azərbaycana rəsmi səfər etdi. Səfər zamanı tərəflər arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalandı. Sənəd hər iki respublikada milli azlıqların hüquqlarının müdafiəsini də nəzərdə tuturdu. 1996 ildə Azərbaycan Prezidenti H. Əliyevin Gürcüstana rəsmi səfəri zamanı iki ölkə arasında dostluq və əməkdaşlığa dair sənəd imzalanmışdı. İstər bu səfər, istər də növbəti səfərlər zamanı H. Əliyevin Gürcüstan prezidenti E. Şevardnadze ilə apardığı danışıqlar ikitərəfli əlaqələrin genişlənməsinə xidmət etməklə yanaşı, Gürcüstanda yaşayan azərbaycanlılara qarşı münasibətin yaxşılaşmasına müsbət təsir göstərmişdi. Belə ki, 1990 illərin əvvəllərində Gürcüstanda K. Qamsaxurdiyanın prezidentliyi dövründə azərbaycanlıların sıxış-dırılması siyasəti aparılmışdı.

Azərbaycan-Gürcüstan münasibətlərində neft-qaz sahəsindəki əməkdaşlıq xüsusi yer tutur. Fəaliyyətdə olan Bakı- Supsa, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin reallaşması ikitərəfli əlaqələrin inkişafı üçün böyük iqtisadi-siyasi əhəmiyyətə malikdir.

Ərazi bütövlüyü pozulmuş hər iki dövlət separatizmə qarşı çıxdıqlarını dəfələrlə bəyan etmişlər.

Azərbaycan - Gürcüstan münasibətlərinin inkişafı İ. Əliyev və M. Saakaşvilinin prezidentlikləri dövründə də uğurla inkişaf etdirilir. 2006-cı il may ayında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsilə iki dost ölkə xalqları arasındakı münasibətlər daha da möhkəmləndi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci il fevralın 7-də Gürcüstanda işgüzar səfərdə olmuşdur. Həmin gün Gürcüstan parlamentinin binasında Azərbaycan - Gürcüstan - Türkiyə üçtərəfli regional əməkdaşlıq sammiti sənədlərinin imzalanması mərasimi keçirilmişdir.

dünya İctimaiyətinin ölkəmiz haqqında informasiya qıtlığını daha fəal yaracağını təmin edəcəkdir. Cənab Prezident bu məsələnin tarixi əhəmiyyətini daha qabarıq nəzərə çatdırmaq üçün demişdir;

“Azərbaycanın addımları bütün sahələrdə, o cümlədən xarici siyasətdə müsbət nəticələrini verməkdədir. Sizə bildirmək istəyirəm ki, son iki il ərzində Azərbaycanın 21 səfirliyinin açılması haqqında qərarlar verilibdir. İndi Azərbaycanın müxtəlif ölkələrdə 46 səfirliyi olacaq ki, onların da 21-nin açılması haqqında son iki ildə qərar verilibdir. Onların bəziləri açılıb fəaliyyət göstərir, bəziləri isə bu yaxınlarda açılacaqdır. Bu, nə deməkdir? O deməkdir ki, Azərbaycan öz xarici siyasətini daha da dolğun, hərtərəfli şəkildə aparacaqdır. ŞünkӀ, - yəqin siz də bunu hiss edirsiniz, biz də bunu bilirik, - əfsuslar olsun ki, Azərbaycan həqiqətləri dünya ictimaiyyəti tərəfindən o qədər də yaxşı dərk edilmir. Məlumat qıtlığı var, bəzi hallarda informasiya blokadası ilə də üzləşirik. Çünki bizim əleyhimizə dünyanın erməni lobbisi fəaliyyət göstərir və hər vəchlə çalışır ki, Azərbay- canı ləkələsin, Azərbaycanda gedən proseslərə mənfi don geyindirsin və beləliklə, Azərbaycanı təcrid edilmiş vəziyyətə salsın. Yəni bu da var. Ancaq eyni zamanda, ümumiyyətlə, məlumatsızlıq da var. Ona görə səfirliklərin açılması, Azərbay-canın çox fəal xarici siyasəti, diasporların möhkəmlənməsi və artan nüfuzu Azərbaycanı dünya birliyinə olduğu kimi təqdim edir. Bizə məhz bu, lazımdır.Bizə o lazımdır ki, Azərbaycanda gedən proseslər dünya üçün açıq olsun.”

Keçən əsrin əvvəllərində ilk demokratik dövlətimizin həyata keçməmiş arzularını reallaşdıran bugününki azad, demokratik və müstəqil Azərbaycanımızın tərəqqisi, inkişafı və dünyaya intiqrasiyası üçün bütün imkanlardan istifadə edən hörmətli prezidentimiz cənab İlham Əliyevin yuxarıdakı proqram xarakterli vəzifələri müasir diplomatiyamız və diplomatlarımız qarşısında yeni-yeni parlaq üfüqlər açmaqla vətənpərvərliklə dolu ürəklərimizi prezidentimiz, vətənimiz və gələcəyimiz üçün fərəhlə doldurur.

ölkələrdə fəaliyyət göstərən Azərbaycan diplomatik nümayəndəliklərinin başçıları ilə keçirdiyi görüşdə onlarla ölkədə olan səfirliklərimiz, diplomatik nümayəndəlik və missiyalarımız. Konsulluqlarımız qarşısında qoyduğu vəzifələr, mühüm diplomatik istiqamətlər Azərbaycan diplomatiyasının əsas üfüqlərini təyin edir.

Ölməz əbədi öndərimiz H. Əliyev tərəfindən binövrəsi qoyulmuş müasir Azərbaycan diplomatiyası bu gün cənab prezident İlham Əliyev tərəfindən özünü doğrultmuş ən düzgün siyasi kurs olan diplomatik tarazlıq prinsipinə uyğun həyata keçirilir. Müasir Azərbaycan diplomatiyasının əsas istiqamət və prinsiplərini yuxarıda göstərdiyimiz Azərbaycan diplomatları ilə görüşdə (27 iyul 2004 il) müəyyənləşdirən prezident İlham Əliyev aşağıdakı məsələləri ön plana çəkərək onları müasir Azərbaycan diplomatik fəaliyyətinin prioritetləri elan etmiş, bu prinsipləri Dünya Azərbaycanlılarının II Qurultayındakı (Bakı, 16 mart 2006 il) çıxışında da təkidlə qeyd etmişdir:

a) Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq;
b) beynəlxalq təşkilatlarla işi gücləndirmək;
c) diaspora ilə işi yeni səviyyəyə qaldırmaq;
d) Dünya kütləvi informasiya vasitələriilə fəal əlaqələr yaratmaq;
e) Azərbaycanın beynəlxalq aləmə mədəni, iqtisadi, siyasi inteqrasiyasını daha da yaxşı təmin etmək və s.

Bütün bunlar xüsusilə bu gün bütün sahələrdə ölkəmizdə demokratik inkişafın sürətləndiyi, qloballaşma prossesinin (həm də antiqloballaşmanın) gücləndiyi və Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizəyə daha fəal qoşulduğu bir vaxtda daha aktual və təxirəsalınmaz vəzifələr hesab olunmalıdır. Bunları yerinə yetirmək üçün imkanlarımız var və bu imkanlar daha da artır.

Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilmişdir.

Hörmətli prezidentimiz cənab İlham Əliyev Dünya Azərbaycanlıların II Qurultayındakı nitqində bu şərəfli vəzifələri yerinə yetinnəkdən ötrü Azərbaycanın xarici ölkələrdə səfirliklərinin sayının daha da artacağını, bununla da Azərbaycan diplomatiyasının

avqustunda Fövqəladə səlahiyyətli nazir kimi İstambul diplomatik missiyasına rəhbərlik etmişdir. Onun yüksək diplomatik və dövlət xadimi keyfiyyətlərinə verilən qiymətin nəticəsidir ki, 1918-ci ilin dekabr ayının 7-də açılan Azərbaycan parlamentində özünün iştirakı olmadan o, yeni parlamentin sədri seçilir. Məhz Ə. M. Topçubaşovun inadlı diplomatik fəaliyyətinin səmərəsidir ki, 1920-ci ilin yanvar ayında Azərbaycan müstəqilliyi Versal Ali Şurası tərəfindən tanınır. Azərbaycan diplomatiyasının ləyaqətli təmsilçisi olan Ə. M. Topçubaşov Azərbaycanın hüquqlarını San - Remo, London, Paris, Stremo, Spa beynəlxalq Konfranslarında qətiyyətlə müdafiə etmişdir. Ə. M. Topçubaşov cəsarətli diplomat olmaqla Azərbaycan maraqlarının bütün səviyyələrdə ardıcıl və prinsipal təmsilçisi olmuşdur. O, 1920-ci ilin noyabrında Cenevrədə Millətlər cəmiyyəti qarşısında Azərbaycanın Rusiya tərəfindən işqalını pisləmiş, 1922-ci ildə London və Genuya, 1923-cu ildə Lozanna Konfransında fəal iştirak etmiş, bolşevik rus rejiminin Azərbaycana gətirdiyi faciələrin mahiyyətini böyük məharətlə açaraq dünya ictimaiyyətinin diqqətini Azərbaycan problemlərinə cəlb edə bilmişdir. Bu böyük Azərbaycan oğlu mühacirətdə olduğu illərdə də Azərbaycan istiqlalı uğrunda mübarizəsini davam etdirmiş, Azərbaycan diplomatiyası və siyasi fikrində öz layiqli yerini qoruyub saxlaya bilmiş, haqlı olaraq bugünkü Azərbaycan diplomatiyamızın örnəyi olmaq şərəfinə nail olmaq hüququnu qazanmışdır.

İlk müstəqil dövlətimiz olan Azərbaycan Demokratik Respublikasının bu öncül diplomatlarının qoyduqları şərəfli siyasi yolu bu gün müasir Azərbaycan diplomatları beynəlxalq münasibətlər sahəsindəki yorulmaz fəaliyyətlrində uğurla davam etdirirlər.

Müasir Azərbaycan diplomatiyasının əsası isə ölməz öndərimiz, əbədi milli liderimiz Heydər Əliyev tərəfindən şöhrətə mindirilmiş, dünya xalqları siyasi məktəbləri sırasında öz uğurlu yerini tutmuşdur. Bu diplomatiyanı bütün sahələrdə olduğu kimi Azərbaycan dövlətinin əzmkar və yorulmaz rəhbəri cənab prezident möhtərəm İlham Əliyev müvəffəqiyyətlə davam etdirir. Hörmətli prezidentimiz İlham Əliyev cənabları 27 iyul 2004-cü ildə xarici

heyətimizin sülh konfransına hazırladığı Memoran- dumun mətni ABŞ prezidentinə təqdim olundu. Bu Memorandumda “Dünya müharibəsi başlanandan bütün Zaqafqaziyada azərbaycanlıların başına gətirilən faciələrin və onların əmlakının talan olunması” haqqında faktlar və Azərbaycana aid baçqa sənədlər də öz əksini tapmışdı.

Böyük Britaniyanın Xarici işlər naziri Lord Kerzonun təklifi ilə müttəfiq dövlətlərin Ali Şurası 11 yanvar 1920 ildə Azərbaycanı de-fakto tanımaq haqqında qərar qəbul edir. Bu, ADR diplomatiyasının və bütün ilk Azərbaycan diplomatlarının tarixi qələbəsi idi. Bundan sonra bir sıra aparıcı Avropa dövlətləri Azərbaycan Demokratik Respublikasım de-fakto tanımalı oldu. ADR -in o zamankı Xarici işlər naziri F. X. Xoyskinin bununla əlaqədər dünyanın bir sıra əsas dövlətlərinin ünvanına göndərdiyi memorandumda Avropa dövlətlərinin Azərbaycan Respublikasını de-fakto tanımasını “Azərbaycan xalqının müstəqilliyini tanıması və bununla da onu dünya birliyi üzvlüyünə qəbul olunması” kimi dəyərləndirdi.

İlk Azərbaycan Demokratik dövlətinin siyasi nüfuzunun beynəlxalq aləmə inteqrasiyasında, təbii ki, ilk Azərbaycan diplomatları əsas rol oynamışlar. Bu sahədə xalqımızın görkəmli dövlət xadimi Ə. M. Topçubaşev Azərbaycan diplomatiyasına misilsiz xidmət göstərmişdir. 4 may 1862-ci ildə anadan olmuş Əli Mərdan bəy Topçubaşev şərəfli bir diplomat və dövlət xadimi həyatı yaşamışdır. Hələ ADR hökümətindəki fəaliyyətindən əvvəl siyasi və ictimai xadim kimi tanınmış bu böyük diplomat Rusiyanın Birinci Dövlət Dumasında müsəlman fraksiyasının lideri idi. 1917- ci ildə Qafqaz və Rusiya müsəlmanlarının qurultaylarının sədri olan Ə. M. Topçubaşov istedadlı hüquqşünas idi. O, Peterburq universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra ona təklif olunan müəllimlik vəzifəsindən imtina edir; çünki Peterburq universitetində qalıb dərs demək üçün xristianlığı qəbul etmək lazım idi. Ə. M. Topçubaşov öz ilk milli demokratik hökumətində bir sıra tarixi əhəmiyyətli sənədlərin yüksək beynəlxalq hüquqi tələbərə uyğun hazırlanmasında fəal iştirak edir. İlk təşkil edilən hökumətin üzvu olan Ə. M. Topçubaşov 1918-ci ilin

Sovetinin sədri F. X. Xoyski müstəqillik elan olunandan (28may 1918) dərhal sonra - 30 may 1918-ci ildə İstambul, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Maaqa, Moskva, Stokolm, Kiyev və Tokioya ünvanlanan radio- teleqramlarında Azərbaycan Respublikasının yarandığını həmin ölkələrin Xarici işlər nazirlərinə bəyan edərək bunu öz ölkələrinin nəzərinə çatdırmağı xahiş edir. Bu fakt ölkəmizin milli istiqlaliyyətinin və azad mövcudiyyətinin ilk siyasi addımı, ilk siyasi elçisi idi. Dövlətimizin və xalqımızın milli maraqlarının qorunması kimi vacib məsələ də məhz buradan başlayır. Azərbaycan diplomatlarının birinci avanqard dəstəsi də bu yüksək zəruri və siyasi tələbə həmişə vicdanla xidmət etmişlər.

ADR diplomatiyası hələ formalaşmasının ilk dövrlərindən Ermənistan ərazisindəki azərbaycanlıların talei ilə ciddi maraqlanmış və ermənilərin Eçmiadzin, Sürməli, İrəvan və Yenibayazit rayonlarında 17-31 avqust 1919-cu ildə yerli Azərbaycan əhalisinə qarşı törətdikləri vəhşiliklərə etiraz olaraq xüsusi nota ilə dünyanın qabaqcıl ölkələrinə müraciət etmişdi. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu notada Ennənistanı baş verənlərdə günahlandırır və "Ümidvar olduğunu bildirir ki, Ermənistanda azərbaycanlıların (mətndə; müsəlmanların. M.H.) başına gətirilən faciələrin qarşısı qətiyətlə alınacaqdır'".

Azərbaycan diplomatları 2 may 1919-cu ildə ABŞ, Böyük Britaniya, Fransa və İtaliya dövlət başçılarının görüşündə ilk dəfə olaraq Azərbaycan məsələsinin müzakirəsi ərəfəsində ciddi sınaq imtahanı verməli oldular. Məlum olduğu kimi o zaman ABŞ prezidenti V. Vilson Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransı nın işində iştirakının əleyhinə idi. Azərbaycan nümayəndə heyəti 28 may 1919-cu ildə ABŞ prezidenti V. Vilsonla görüşməyə müvəffəq olur. Bu audiyensiya zamanı nümayəndə heyətinin başçısı ABŞ prezidentini inandıra bildi ki, ADR hökuməti "... Rusiyada hakimiyyətə gələ biləcək nə Kolçak, nə Denikin, nə də hər hansı bir başqa hakimiyyəti deyil, Azərbaycan üçün ancaq öz parlamenti və öz hökumətinin hakimiyyətini qəbul edəcəkdir". Nümayəndə

nümunəsi olduğunu deməyə əsas verir. Onların hamısı Bakıda yerləşir və öz ölkələrini ADR-də təmsil edirdilər.

Vitse - konsul Qevelke - İngiltərə dövlətini;
Konsul Ayvazov - Belçikani;
Konsul Kusis - Yunamstam;
Diplomatik nümayəndə N. S. Alşibəy - Gürcüstanı;
Konsul Y. F. Birsinq - Danimarkanı;
Missiya başçısı Enriko İnsom - İtaliyanı;
Konsul agenti V.İ. Miskeviç - Litvanı;
Baş konsul Səəd-ül Vəzirov- İranı;
Konsul agenti S. Rılski - Polşanı;
Vitse - konsul Randolf- Şimali Amerika Birləşmiş ştatlarını;
Vitse - konsul Qolovan - Ukraynanı;
Konsul agenti Veqelius - Finlandiyanı;
Konsul agenti Yemelyanov - Fransanı;
Konsul Klottyü - İsveçrəni;
Konsul R. K. Vander Pluq - İsveçi və s.

Xarici ölkələrin qıssa müddətdə də olsa, -28 aprel 1920-ci il XI rus ordusunun Azərbaycanı işqalına qədər, - ölkəmizdə, olmaları xalqımız və dövlətimiz haqqında əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırmağda az rol oynamamışlar.

Beynəlxalq münasibətlərdə xarici siyasətin məzmunu və istiqamətinin bir qayda olaraq ictimai-siyasi vəziyyətdən asılı olmağı mübahisə doğurmayan faktdır. Bu həm də daxili və xarici siyasətin bir-birilə sıx bağlılığından da asılıdır. Elə ona görə də xarici siyasətin bir qayda olaraq daxili siyasətin davamı olduğunu deyənlər tamamilə haqlıdırlar. Xarici siyasətlə məşqul olan hər kəs bilməlidir ki, onun qarşısında duran ilkin vəzifə ***öz*** fəaliyyətilə öz ölkəsinin milli maraqlarını müdafiə etməkdir. Bu milli maraqlar içərisində iqtisadi və mədəni maraqlar mühüm yer tutsa da burada preorilet diplomatın mənsub olduğu dövlətin və xalqın milli təhlükəsizliyinin təmin olunması, sülh və əminamanlıq şəraitində yaşamasının zəmanətliliyinin həyata keşirilməsidir. Elə buna görə də ADR hökümətinin başçısı Azərbaycan Respublikasının Nazirlər

1918- ci il dekabrın 26-da yaranan yeni ADR hökümətində Xarici İşlər naziri vəzifəsini F. X, Xoyski tutdu. O, həm də yeni yaranan hökümətin başçısı idi. Yeni Xarici işlər nazirinin məqsədyönümlü və düzgün xarici siyasəti ingilis geniralı Tomsonu belə bir bəyanat verməyə gətirib çıxardı: "Azərbaycan hüdudlarında yeganə yerli qanuni hakimiyyət kimi bu hökümətə kömək etməyə hazırıq". Həmin bu bəyanat isə Paris sülh konfransında Azərbaycanın talei üçün mühüm rol oynadı və İngiltərə nümayəndəliyi bu Konfransda Azərbaycanın beynəlxalq münasibətlərdə müstəqil subyekt olduğunu təsdiq etdi. Azərbaycan üçün son dərəcə böyük əhəmiyyəti olan bu Paris sülh Konfransında Azərbaycan nümayəndə heyətinə ADR-in görkəmli dövlət xadimlərindən Ə. M. Hacınski, A. Ağayev, C. Hacıbəyli və başqaları daxil idilər.

1919- ci il 14 aprel tarixindən etibarən Azərbaycan xarici işlər naziri M. Y. Cəfərov təyin olundu. O, xarici işlər naziri təyin olunandan bir qədər sonra - həmin ilin 25 aprelində Tiflisdə Qafqaz respublikalarının siyasi, iqdisadi, ərazi, maliyyə məsələlərinin tənzimlənməsinə həsr olunmuş Konfransda Azərbaycanın maraqlarını layiqincə müdafiə edərək ADR diplomatiyasının prinsipalhğını Konfrans iştirakçılarına çatdıra bildi.

Gənc Azərbaycan dövlətinin beynəlxalq hüquqi normalara uyğun yeritdiyi ardıcıl Xarici siyasət və az müddət ərzində ölkə daxilində yaratdığı nisbi sabitlik, həm də, indi olduğu kimi, Azərbaycanın malik olduğu yeraltı və yerüstü sərvətləri və onun ge- opolitik vəziyyəti nəinki təkcə qonşu ölkələri, həm çinin dünyanın bir sıra aparıcı dövlətlərini Azərbaycanda müəyyən əlverişli mövqe tutmağa tələsdirir və Asiya ilə Avropa arasında körpü rolunu oynayan Azərbaycanda tezliklə öz diplomatik nümayəndiklərini açmağa şÖvq edirdi. Azərbaycanın müstəqil xarici siyasətinin hüdudları genişləndikcə müxtəlif ölkələrin də Şərqin bu ilk demokratik dövlətində diplomatlarının təmsil olunması zərurətini sürətləndirirdi. O dövrdə Azərbaycanda fəaliyyət göstərən xarici missiyaların aşağıdakı siyahısını təkcə nəzərdən keçirmək həmin qıssa dövrdə müstəqil dövlətimizə yönələn aktiv marağın parlaq

buraya xarici ölkələrdə səfirliklərin yaradılması kimi xarici əlaqələr funksiyasının əsas işi də əlavə olundu. Xarici əlaqələrin sonraki dünya diplomatiya təcrübəsinin də təsdiq etdiyi kimi ADR öz XİN- nin strukturunu doğru olaraq aşağıdakı kimi qura bilmişdi: Xarici İşlər Naziri, nazir müavini, diplomatik əlaqələri yerinə yetirən şöbə, ümumi işlər şöbəsi, infonnasiya bürosu, tərcümə şöbəsi, təsərrüfat işləri şöbəsi, sənədlərin, qərarların, yazışmaların qeydiyyat şöbəsi, nazirliyin arxivi və dəftərxana. ADR-in 1918-ci ilin mayında Milli Şura tərəfindən təsdiq edilmiş ilk hökümətində ilk Xarici İşlər Naziri M. H. Hacınski təyin edildi. Məhz 1918-ci il iyun ayının 4-də ADR ilə Türkiyə Cümhuriyyəti arasında bağlanmış ilk sülh və dostluq haqqında müqaviləni imzalamaq şərəfi M. H. Hacınskiyə də nəsib olmuşdu.

ADR sənədlərində, həmçinin sonrakı tədqiqatlarda (Məsələn, Fikrət Sadixovun Azərbaycan diplomatiya tarixinə dair araşdırmalarında) belə bir məsələyə xüsusi diqqət verilir ki, gənc ADR diplomatiyası öz müstəqilliyini möhkəmlətmək və qarşıdakı xarici siyasət istiqamətləri ilə xüsusən qonşu dövlətləri daha tez tanış etmək üçün bu ölkələrdə diplomatik nümayəndəliklər açır, onlara ölkənin ən bacarıqlı nümayəndələrini diplomatik missiya rəhbəri təyin edir. Məhz ADR diplomatiyasını həyata keçirən də həmin ilk diplomatlarımız idilər;

Gürcüstan Respublikasında - Farist bəy Vəkilov; Ermənistan Respublikasında - görkəmli yazıçı Əbdürrəhman bəy Haqverdiyev; həmin nümayəndəliyin müşaviri Ağa Salah Musayev; İranda - A. Həyatxan, onun müavini Ələkbər bəy Sadixov; Konstantinopolda - yazıçı Yusif bəy Vəzirov, onun müavini Cahangir bəy Qayıbov; Batımı şəhərində - baş konsul Mahmud bəy Əfəndiyev; Ukraynada - Konsul Camal Sadixov; Krımda - Konsulluq agenti Şeyxəli Hüseynov və s.

Gənc Azərbaycan diplomatiyasını şərəflə qoruyan ilk diplomatlarımızdan biri Azərbaycanın qardaş Türkiyədə ilk səfiri İ. Əbilov oldu. Bu və başqa ilk diplomatlarımız Azərbaycan diplomatiya tarixinə öz adlarını qızıl hərilərlə yazmışlar.

lərini müəyyən edən bu prinsiplər ölkənin müstəqilliyinin və dövlətin suverenliyinin qorunub saxlanılmasını nəzərdə tuturdu. Beynəlxalq hüquq normaları əsasında və o dövr beynəlxalq münasibətlərin reallıqları nəzərdə tutulmaqla hazırlanan bu prinsiplər xarici dövlətlərlə münasibətləri qarşılıqlı hörmət, ərazi bütövlüyünə və suverenliyə təcavüz etməmək, daxili işlərə qarışmamaq, mövcud problemləri dinc vasitələrlə nizama salmaq, iqtisadi əlaqələri qarşılıqlı faydalanmaq prinsipi əsasında qurmaq, zor işlətməkdən imtina etməkdən ibarət idi. Azərbaycanın dövlət quruluşunun mahiyyətindən doğan bu siyasət, bütün dövlətlərlə, ələlxüsus həmsərhəd qonşu ölkələrlə əlaqələrin mehriban qonşuluq prinsipi əsasında qurulması və inkişafı üçün geniş imkanlar yaradırdı.

Xarici dövlətlərlə əlaqələrin normal icrası məqsədilə XİN strukturu yaradılmışdı. Nazirliyə Fətəli Xan Xoyski, Ə. M. Topçubaşov, M. Y. Cəfərov və M. H. Hacmski başçılıq etmişlər. Xarici siyasətin həyata keçirilməsində Ə. M. Topçubaşovun müstəsna xidmətləri olmuşdur. Xarici İşlər Nazirliyinin aşağıdakı strukturu olmuşdurmazir, siyasi şöbə, informasiya bürosu, tərcümə şöbəsi, departament, ümumi şöbə, arxiv, qeydiyyat şöbəsi. Qıssa müddətdə mövcud olmasına baxmayaraq ilk demokratik dövlətimizin XİN-i uğurlu xarici siyasət aparmağa və müstəqil xarici siyasət yürütməyə müvəffəq olmamışdır.

Yaxın və Orta şərqdə ilk demokratik və əsl azad dövlət kimi nümunə olan Azərbaycan Demokratik Respublikası (1918-1920) yarandığı gündən özünü dünya xarici siyasətində tanıtmaq və beynəlxalq münasibətlərə yol tapmaq üçün ilkin olaraq təxirə salınmaz vəzifə kimi öz müstəqil xarici siyasətini təyin etməyə başladı. ADR-in bu sahədə təcrübəsi olmasa da tez bir zamanda öz Xarici İşlər Nazirliyini (XİN) yaratdı və onun kadrlarını xalqın qabaqcıl, savadlı, Avropa təhsili görmüş ziyalıları hesabına təkmilləşdirməyə başladı. Dünya xarici siyasət orqanları təcrübəsindən yararlanan ilk demokratik hökümətimiz Xarici İşlər Nazirliyinin işini ilk vaxtlarda əsasən üç istiqamətdə qurmağı məqsədəüyğun hesab etdi: konsulluq, protokol və informasiya işinin təşkili sahəsində. Daha sonra

Respublikası və Böyük Britaniya arasında birgə Bəyannamə, elm və mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş, hava daşımaları haqqında saziş, energetika sahəsində Memorandum, ikili vergidən qaçılması, əmlak və kapitaldan əldə olunan gəlirlərdən vergilər ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya, xarici siyasət idarələrinin əməkdaşlığı haqqında Memorandum, rabitə sahəsində qarşılıqlı anlaşma haqqında Memorandum, vətəndaşların qeyri məhdud yerdəyişməsi haqqında Memorandum imzalanmışdı. 1995 ildə Azərbaycan - Britaniya ticarət-iqtisadi Şurası yaradıldı. 1997 ildə Londonda Azərbaycanın xaricdə ilk mədəniyyət mərkəzi açıldı. 19-24. VII. 1998 ildə H. Əliyevin Londona növbəti səfəri zamanı Azərbaycan - Böyük Britaniya arasında dostluq münasibətləri və tərəfdaşlığa dair birgə Bəyanat, Azərbaycanın neft-qaz ehdiyatlarının istismarında Britaniya şirkətlərinin iştirakına dair sazişlər, Bakıda Sahil parkında mehmanxana-ofis kompleksinin tikintisinə dair saziş imzalandı. Rəsmi London Qarabağ münaqişəsinə münasibətdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dəfələrlə bəyan etmişdir.

IX. 1998 ildə H. Əliyev "Böyük Britaniya ilə tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi tədbirləri haqqında" sərəncam imzaladı. 2001 ildə Azərbaycanda 1 mld. ABŞ dolları sərmayə qoyan 200 Britaniya kompaniyası fəaliyyət göstərirdi. Tərəflər arasında mal dövriyyəsi 89 mln 405 min ABŞ dolları təşkil edirdi.

Böyük Britaniyanın BP neft şirkətinin rəhbərlik etdiyi "Əsrin müqaviləsi" neft kontraktı öz səmərəsini verdi. 2006-cı il 28 mayda Bakı nefti BTC xətti ilə dünya bazarına çıxarıldı.

AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASININ XARİCİ SİYASƏTİ (1918-1920). Azərbaycan Demokratik Respublikasının qarşısında duran mühüm məsələlərdən biri, onun dünya birliyinə qəbul olunması və xarici dövlətlərlə diplomatik əlaqələrin yaradılması idi. "Milli müstəqil xarici siyasət xətti" adlandırılan konsepsiya əsasında respublikanın xarici siyasət prinsipləri müəyyən olundu. Beynəlxalq aləmdə Azərbaycanın taktiki gediş-

daha müntəzəm gəlməsi gözlənilir,

2006-cı ilin iyun ayında Ceyhandan neftlə yüklənmiş ilk tanker yola salmandan bəri 2007-ci ilin martına qədər BTC ilə 73 milyon barel xam neft ixrac olunmuşdur. Bu boru kəməri ilə hazırki neft ixracı nəzərdə tutulan göstəricini qabaqlayır və kəmər 2008-ci ilin sonunda gündə bir milyon barel (ildə təqribən 50 milyon ton) neft ötürmək planım qoruyub saxlayır. Hazırda nasos stansiyalarının qazla işləməsinə diqqət yetirilir ki, bu ilin-yəni 2007-ci ilin ikinci rübündə boru kəməri layihə ötürücülüyü gücünə çatıb sutkada bir milyon barel neft nəql edə bilsin. Maksimum ötürücülük gücü ilə Ceyhanın terminalından gündə 1-2 tanker yola salınacaqdır.

Boru kəməri ilə ilkİn olaraq yalnız Azəri - Çıraq - Günəşli nefti daşınsa da, Şahdəniz yatağından əldə olunmuş ilk kondensat 2007-ci ilin yanvar ayında bu boru xəttinə vurulmuşdur.

BTC regiona əhəmiyyətli faydalar gətirməklə müsbət dəyişikliklər edəcək səviyyəli bir boru kəməridir. Bosfor boğazından yan keçməklə kəmər neftlə bağlı nəqliyyatın labüd artımının qarşısını alacaq və tranzit ölkələri üçün sanballı gəlirlər yaradacaq. BTC neft ixrac kəməri Azərbaycan, Gürcüstan, Türkiyə ilə Qərb arasında iqtisadi və siyasi əlaqələrin möhkəmlənməsinə kömək edəcək.

AZƏRBAYCAN-BÖYÜK BRİTANİYA MÜNASİBƏTLƏRİ. 31.XII. 1991 ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyi Böyük Britaniya tərəfindən tanındı. 12.111.1992 ildə Böyük Britaniya Xarici işlər naziri D. Hoqqun və bu ölkənin Moskvadakı səfiri R. Breytveytin Bakıya rəsmi səfəri zamanı iki ölkə arasında diplomatik münasibətlərin yaradılması haqqında protokol imzalandı. 15.V1.1992 ildə Bakıda Böyük Britaniyanın səfirliyi fəaliyyətə başladı. X.1993 ildə D.Hoqqun Bakıya növbəti səfəri zamanı hər iki ölkə vətəndaşlarının sərbəst yerdəyişməsi haqqında Memorandum, ardıcıl siyasi məsləhətləşmələr aparılmasına dair Bəyanat paraflandı. 22-25. 11.1994 ildə Azərbaycan prezidenti H.Əliyevin Böyük Britaniyaya səfəri zamanı Azərbaycan

Hazırda Praqa prosesi çərçivəsində aparılan danışıqlar barədə NATO rəhbərliyinə məlumat verən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın mövqeyini bir daha açıqlayaraq demişdir ki, münaqişə sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü prinsipi əsasında həll oluna bilər. Görüşdə Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığı, enerji təhlükəsizliyi, regional məsələlər və qarşılıqlı maraq doğuran digər mövzular da müzakirə olunmuşdur.

TRASEKA. 07.V.1993 ildə Brüssel şəhərində Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Avropa Birlikləri Komissiyasının təklifi ilə regionun nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı məsələlər müzakirə edilmiş və qəbul edilmişdir. Brüssel bəyannaməsində Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizinin istiqamətləri, forma və mexanizmləri müəyyənləşdirilmişdi. O vaxtdan bəri TRASEKA-nın işçi qruplarının Alma- Atada, Vyanada, Venesiyada, Afinada, Tbilisidə və Bakıda bir neçə iclası keçirilmişdir. TRASEKA-nın həyata vəsiqə alması 8.IX.1998- ci il 5 maddədən ibarət Bakı Bəyannaməsi ilə reallaşmışdır. Azərbaycan, Belarusiya, Ermənistan, Gürcüstan, Qazaxstan, Qırqizıstan, Moldova, Rumıniya, Tacigistan, Türkiyə, Özbəkistan, Ukrayna, Avropa Birliyi və s. olmaqla 28 ölkə tərəfindən imzalanan bu Bəyannamədə Azərbaycan prezidenti H.Əliyevin bu sahədəki xidməti xüsusi qeyd edilir. Azərbaycan prezidenti H. Əliyevin təklifi ilə bu sənədə bizim üçün vacib olan xüsusi qeyd əlavə olunur. Bu qeyddə göstərilir ki,tarixi İpək Yolu vasitəsilə Ermənistandan kənara və kənardan Ermənistana heç bir mal buraxılmayacaqdır

VARŞAVA MÜQAVİLƏSİ TƏŞKİLATI (1955). Bıı təşkilat 1955-ci il 14 mayda ADR, Albaniya, Bolqarıstan, Çexoslovakiya, Macarıstan, Polşa, Rumıniya və SSRİ tərəfindən Varşavada NATO hərbi-siyasi blokuna qarşı yaradılmışdı. IX. 1968 ildə Albaniya bu təşkilatdan çıxdı. Varşava Müqaviləsi Təşkilatının hərbi qüvvələrindən Macarıstan və Çexoslavakiya (Macarıstan və

Müstəqil Dövlətlər Birliyi məkanında mövcud olan yeni müstəqil dövlətlərə NATO ilə əməkdaşlıq etmək barədə təklif irəli sürdü. Azərbaycan Respublikası "Sülh naminə tərəfdaşlıq proqramı" adlanan bu təşəbbüsə qoşuldu.

Azərbaycan hərbi kontinngeti NATO qoşunları tərkibində sülh məramlı hərbi hissələr kimi Kosovoda, Əfqanıstanda, İraqda fəaliyyət göstərmiş, indi də bu şərəfli missiyanı davam etdirirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006-cı il noyabrın 8-də NATO-nun qərargahında olmuş, NATO-nun baş katibi Yaap de Hoop Sxefferlə görüşmüşdür.

Dövlətimizin başçısı NATO ilə əməkdaşlığın uğurla inkişaf etdiyini, "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində görülən işləri bunun yaxşı nümunəsi kimi səciyyələndirmişdir, Azərbaycan rəhbəri NATO ilə əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə əminliyini söyləmişdir.

Prezident İlham Əliyev bir daha təsdiqlədi ki, NATO-ya, Avropa Birliyinə və digər Avratlantik strukturlara inteqrasiya Azərbaycanın siyasətinin əsas istiqamətlərindən biridir. Dövlətimizin başçısı iqtisadiyyat, enerji sahələrində əməkdaşlıq məsələlərinə də toxunaraq demişdi ki, NATO enerji təhlükəsizliyi ilə birbaşa məşğul olan təşkilat olmasa da, bu məsələyə də mühüm diqqət yetirir. Azərbaycan sülhməramlıları NATO hərbçiləri ilə birlikdə Əfqanıstanda, Kosovoda və İraqda sabitliyin qorunmasında, sülhyaratma əməliyyatlarında fəal iştirak edir. Azərbaycan Prezidenti özünün indiki səfərinin əməkdaşlığın genişlənməsi baxımından çox böyük əhəmiyyət kəsb etdiyini bildirdi.

NATO Baş katibi Yaap Hoop Sxeffer "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində Azərbaycanla əməkdaşlığı NATO adından yüksək qiymətləndirdi. O, əməkdaşlığın daha da genişlənəcəyinə əmin olduğunu bildirərək dedi ki, NATO-nun rəhbərliyi də bunda maraqlıdır. NATO-nun yüksək vəzifəli nümayəndələrinin Azərbaycana səfərləri bunu bir daha təsdiqləyir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də ətraflı söhbət olmuşdur.

istiqamotləndirərok vətənimizin ictimai, siyasi və mədəni inkişafına cəlb etmək bu gün milli maraqlarımızın özəyini təşkil etməli, burada vətənpərvərlik və ən müsbət mənada milliçiliklə bərabər vicdan və səmimilik də işlənməlidir. Bunu Azərbaycan prezidenti möhtərəm İlnam Əliyev də Azərbaycan diplomatları ilə avqust 2006-cı il müşavirəsində ki çıxışında diplomatlarımız qarşısında bir vəzifə kimi qoymuşdur.

ŞİMALİ ATLANTİKA MÜQAVİLƏSİ TƏŞKİLATI. (NATO) (1949). ABŞ-ın təşəbbüsü ilə 12 ölkənin - ABŞ, Belçika, Böyük Britaniya, Danimarka, İslandiya, İtaliya, Kanada, Lüksemburq, Hollandiya, Norveç, Portuqaliya, Fransanın - yaratdığı hərbi-siyasi blokdur. 1952 ildə Türkiyə ilə Yunanıstan, 1955 ildə Almaniya Federativ Respublikası, 1982 ildə İspaniya NATO-ya daxil oldu. 1966 ildə Şari de Qoll Fransanın NATO-dakı üzvlüyünü saxlamaqla onu təşkilatın hərbi strukturundan çıxardı. Jak Şirakın
1995- ci ildə Fransa prezidenti seçilməsilə Fransa yenidən bu təşkilata tam üzv oldu. NATO üzvü olan ölkələrin imzaladıqları müqaviləyə görə, onlardan birinə qarşı təcavüz, NATO-nun bütün üzvlərinə qarşı yönələn təcavüz kimi qiymətləndiriləcək və NATO təcavüzə məruz qalmış ölkəyə, hərbi qüvvə tətbiqi də daxil olmaqla, hər cürə yardım göstərəcəkdir. Üzv dövlətlər öz aralarında meydana gələ biləcək münaqişələri ancaq sülh yolu ilə nizama salmağı, iqtisadi xarakterli münaqişələrə yol verməməyi və iqtisadi əməkdaşlığı inkişaf etdinnəyi öhtələrinə götürdülər,

NATO-nun ali orqanı NATO Şurasının sessiyasıdır. Hərbi komandanlıq müttəfiq dövlətlərin Avropadakı Ali mənzil-qərargahında yerləşir (Brüsseldə). Bundan başqa NATO tərkibində Müdafiəni Planlaşdırma Komitəsi də fəaliyyət göstərir.

“Soyuq müharibə” illərində NATO SSRİ və Varşava Müqaviləsi Təşkilatına qarşı duran və Qərbin müdafiəsini öz üzərinə götürən bir təşkilat kimi fəaliyyət göstərmişdi. SSRİ-nin və Varşava Müqaviləsi Təşkilatının süqutundan sonra Polşa, Çexiya, Macarıstan N Al O-ya daxil oldular

V.I994 ildə ABŞ prezidenti B. Klinton Avropa dövlətlərinə,

Doğma dillərini qoruyub saxlaya bilmiş Əfqanıstan azəri türklərinin tədqiqi ilə məşğul olmuş görkəmli macar alimi L.Ligeti hələ 1936-1937-ci illərdə Əfqanıstanın monqol dilləri və ləhcələri ilə onların dilini müqayisədən sonra belə bir qəti nəticəyə gəlmişdir: "Əfqanıstanda yaşayan əfqan əfşarları azəri türkləridir və dilləri Azərbaycan dilinin müstəqil dialektlərindən biridir"'.

O, həmin ləhcədən qırx dörd sözü Bakı, Təbriz, Gəncə, Zən- can, Urmiyə, Eynallı, Qaşqay ləhcələri ilə müqayisə edir, bu sözlərin məhz Azərbaycan dilinin şimal ləhcələrinə yaxınlığını aşkar- layır.

Bu sətirlərin müəllifi Əfqanıstan əfşarları adlandırılan azəri türklərinin dili, ədəbiyyatı, atalar sözləri, zərb-məsəlləri, bayatı və qoşmalarından bəzi nümunələr toplamış, onların da bir neçəsini oxuculara təqdim etmişəm. Əfqanıstan azərilərinin şerləri, doğma- larımızm toy-düyün mahnıları, alqış, layla, tapmaca və bilməcələ- rinin dili göstərir ki, bu ədəbi nümunələri Azərbaycan xalqmın ədəbi-mənəvi irsinin üzvi hissələri saymaq olar. Bəzən işlətdikləri fars-dəri dili tərkibləri ("düzlük" əvəzinə "rastlıq", "atalıq" əvəzinə "pedərlik" və s.) istisna edilərsə, onlann dili eynilə müasir Azərbaycan dilidir.

Atalar sözləri də diqqəti cəlb edir: "Bu necə adamdır: nə alır, nə verir?", "Almanı atma - yerə düşər", "Başqasına quyu qazan özü düşər" və sair. Yaxud "acıxmaq" - "acımaq", "qurtulmaq" - "qurtarmaq", "üçillik" - "uşaq" kimi arxaizmlər də bir doğmalıq yarat- mınnı?

Əfqanıstandakı azərbaycanlılar nəslini - özlərini iftixarla Qarabağımızın Cavanşiri tayfasının törəmələri adlandıran, nəinki elmi dairələrimizin, həm də ictimaiyyətimizin az qala unutduğu bu azəri türklərini, xalqımızın bu mühüm qolunu tədqiqata cəlb etmək, onlarla hərtərəfli əlaqələri genişləndirməklə dost Əfqanıstanda mötəbər bir Azərbaycan diasporu yaratmaq bu gün həmişəkindən qat-qat vacibdir. Dünyanın azərbaycanlılar yaşayan hər nöqtəsində Azərbaycan diasporunu yaratmaq, onu düzgün

**Hacıyev M. Zamanın özü, zamanın sözü. 2-ci kitab. Bakı, Mütərcim, 2003. səh 203— 208**

köçürüldüyünü qeyd edirL Əfqanıstanda özlərinə Əfşar deyənlər özlərini Cavanşiri tayfasının qohumu hesab edirlər. Maraqlıdır ki, Nadir şah Qafqazdan (Dərbənddən) Əfqanıstana başqa tayfalardan da köçünnüşdür. Əfqan alimləri özləri yazırlar ki, Əfqanıstanın Fərəh vilayətində Nadir şahın Qafqazdan köçürdüyü ləzgi ailələrinə indi də rast gəlmək olar-. Əfqanıstandakı azərilərin bir hissəsinin hələ Nadir şahdan əvvəl Səfəvilər dövründə (1501- 1724) bu ölkəyə köçürüldüyünü söyləyənlər də vardır.

Əfqanlar ölkə əhalisinin milli tərkibini əks etdirən xəritələrdə, məs., Qulam Ceyhani (Arez) hələ 1919-cu ildə tərtib etdiyi xəritədə göstərdiyi kimi, Əfşarların yayılma məntəqələrini ayrıca qeyd etməyi lazım bilirlər.

Əfşarlar - azərilər yaşadıqları yer, yedikləri göyərti, bişirdikləri xörək adlarına... “əfşar" sözünü əlavə edərək milliləşdirirlər: Əfşar təpə, kuçe Əfşar, məhəllə Əfşar və sair.

Əfqan alimlərinin özləri Əfqanıstanda yaşayan Əfşarları azərbaycanlı sayaraq onları məhz azəri türkləri adlandırırlar. Onlar yazırlar: “Keçmiş Azərbaycan tayfalarından olan azəri türkləri Nadir şah dövründə Əfqanıstana köçürülmüşlər. Onlar əsasən Kabul yaxınlığındakı Əfşartəpə və Nənəkçi kəndlərində yaşayırlar və ana dillərini qoruyub saxlamışlar“^.

Əfqanıstanın rəsmi mənbələri bu ölkədəki azəri türklərinin sayını 300 min nəfər göstərirlər. Ən çox kompakt yaşadıqları yerlər Kabul yaxmıığında Qarğagölü məntəqəsindəki Aşağı Əfşar və Yuxarı Əfşar kəndləridir. Dəfələrlə əfqanlardan eşitdiyim bu sözlər indi də qulağımdadır: “Mirəvəm be Aşaği Əfşar, əz anca xahəm rəft be Yuxarı Əfşar" (yəni: Aşağı Əfşar kəndinə gedəcəyəm, oradan da Yuxarı Əfşara). Kabul dəri-fars ləhcəsinə bu adlar eynilə daxil olub. Əfqanıstanın Qəznə, Qarabağ, Herat, Dərəyusif, Məzari-Şərif, Ağça, Şiberqan, Bamian, Çahardehqorbənd, Taşqor- qan və s. şəhər və kəndlərində azərilərimiz çox vaxt kompakt halda yaşayırlar.

**' Bax: "Aəzrbaycan tarixi". Bakı, 1958, səh. 341.**

**^ Bax: "Əfqanıstan coğrafiyası", Lahur, 1306 (1928), səh. 43.**

**’ "Aryana-Dairotül-Maarif-c Əfqanıstan", Kabul, 1956, səh. 794. Fars-dəri dilində.**

iranda (Cənubi Azərbaycanda), Türkiyədə və Əfqanıstanda (Kabul şəhəri ətrafında, Qəndəharda, Məzari-Şərifdə, Vələsdə və s.) yaşayırlar.

Əfqanıstan əfşarları - türkləri özlərini mənşəcə azərbaycanlı sayırlar. Nadir şah dövründə 1736-1747-ci illər müharibələri zamanı Azərbaycanm Qarabağ mahalından köçürüldüklərini qətiyyətlə bildirirlər. Məlumdur ki, Nadir şah Azərbaycanın müxtəlif yerlərindən: Qarabağ, Qaradağ, Təbriz, Gəncə və sair yerlərdən Cavanşiri, Otuzikilər, Kəbirli kimi tayfaların zadəgan ailələrindən mühüm hərbi vəzifələrə təyin edir, onlardan xüsusi dəstələr düzəldərək tutduğu ərazilərdə yerləşdirir, bununla da arxasmı etibarlı qüvvələrlə bərkidirdi. Əfqanıstan əfşarları da Nadir şahın Hindistan səfəri zamanı Əfqanıstanda yerləşdirilmiş əsl azərbaycanlılar olub Qarabağın Cavanşirlər tayfası nəslindəndirlər və sonralar Nadir şahm mənsub olduğu Əfşar tayfası nəslinin adı ilə Əfşarlar adlandırılmışlar.

Azərbaycan, İran, Türkiyə və Əfqanıstanın siyasi həyatında mühüm rol oynamış Əfşarlar Qızılbaş tayfa birlikləri tərkibində Səfəvilər dövlətinin, sonralar Əfqanıstanın Herat, Qəndəhar, Kabul kimi qüdrətli əmirliklərinin yaranmasında, onların Nadir şahın tabeliyində saxlanmasında mühüm xidmət göstərmişlər.

Məlumdur ki, 1736-1747-ci illərdə Əfqanıstan və Hindistan Nadir şah Əfşarın hakimiyyəti altında idi. Nadir şah hələ hakimiyyətinin ilk illərində Əfqanıstana 80 minlik bir ordu göndərərək Qəndəhan işğal edir, ancaq bundan sonra "Hindistana qapı olan" Kabulu alır və Hindistana yol açır. İşğal olunmuş Əfqanıstanda saxlanılan - Hindistan səfərində iştirak etməyən qoşun hissələrinin əksəriyyətini azərbaycanlılar təşkil edirdilər. Nadir şah buraya İrandan da çoxlu azərbaycanlı köçürür, bununla da arxasmı möhkəmlədirdi. Kabul yaxınlığındakı Nənəkçi kəndi əhalisinin fikrincə, onların babaları məhz Qarabağdan və Təbrizdən bura köçürülüblər, sonralar hətta "bəzi ailələr Qarabağa və Təbrizə qayıdıblar". "Azərbaycan tarixi" də Nadir şahın Gəncə bəylərbəyinə tabe olan Qarabağ tayfaları, Cavanşirilərdən, Təbriz və Qarabağ tayfalarından olan Otuzikilər və Kəbirlilərdən Xorasana

etməyə səy edirəm ki, onlar Azərbaycana öz vətənləri kimi baxsınlar. Bütün dünyada yaşayan azərbaycanlılar birləşməli, mütəşəkkil olmalıdırlar... Qoy kimə harada rahatdır, hara ona əl verir orada yaşasın. Lakin hər kəs bilməlidir ki, onun vətəni Azərbaycandır».

Öz ata ocaqlarına gələn soydaşlarımızı mehriban qarşılamalı, onları özümüzdən ayırmamalı, onlara əsl vətən dadını dadızdırmalıyıq. İndi hər il rəsmi bayram kimi keçirdiyimiz 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik günü gərək dünyanın bircə nəfər azərbaycanlı belə yaşayan hər bir yerində onun bayramı olsun.

Xaricdə işləyən hər bir Azərbaycan diplomatı həmin ölkədə yaşayan həmvətənlərimizin həyat tərzi, adət-ənənələrimizi qoruyub saxlamasını tədqiq etməli, orada yaratdığı ədəbi nümunələri toplayıb vətəndə yaşayan soydaşlarımıza çatdınnaqa çalışmalıdır. Məsələn, mən qonşu İranda və dost Əfqanıstanda işləyərkən bu məsələlərlə maraqlanmış, həmyerlilərimiz haqqında vacib məlumatları oxuculara çatdınnışam *. Buna misal olaraq Əfqanıstanda işlədiyim (1962 1964, 1979-1984, 1987 1988ci illərdə) vaxtlar bu ölkədəki azəri türkləri - əfşarlar haqqındakı məlumatları göstərə bilərəm^.

Asiyanın ürəyi adlanan Əfqanıstanda da böyük bir qrup azərbaycanlılar yaşayırlar. Sovet ordusunun - qanlı 40-cı ordunun işğalına 1979-cu ilin dekabrından məruz qalmış bu qədim diyarda Sovet .səfirliyində ikinci katib vəzifəsini daşımaqla (1979-1988) Əfqanıstan İctimai Elmlər Akademiyasında dərs dediyim səksəninci illərin ortalarında orada yaşayan azəri türkləri haqqında bəzi məlumatlar toplamaqla da məşğul olmuş, onları bizim ictimaiyyətin malı etməyə çalışmışam.

Elmi ədəbiyyatda Əfşarlar, bəzən də Ovşarlar adlandırılan bu tayfa azərbaycanlı, türkdillidir.

Azərbaycanlıların etnogenezində iştirak etmiş Əfşarlar əsasən

**Hacıyev M. Beş il qonşu diyarmcia. (İran haqqında) “Azərbaycan”jurn., №10-11, 1975. “Литературный Азербайджан”. № 6, İ976.**

**^ “Azərbaycan” jurn.. № 1-2, 1985.**

gün Avropanın, Asiyanın, Yaxın Şərqin bir sıra ölkələrində Azərbaycan diasporlar təşkilatları fəaliyyət göstərir.

Ölkəmizin inkişaf və tərəqqisində onların da payı vardır. İndi xaricdə yaşayan soydaşlarımız arasında əvvəllər mövcud olan xoşagəlməz ziddiyyətlər, mənafe toqquşmaları, ideoloji-siyasi banşmazlıq halları bu tədbirlərdən sonra minimuma enibdir, Azərbaycan iqtidarının apardığı siyasi kurs ona yönəlib ki, ölkı hüdudlarından kənarda iqtidar-müxalifət söhbətlərinə son qoyulsun, hamı bir nəfər kimi ümummilli mənafelərimizin reallaşması istiqa- mitəndə əzmlə, qətuyyətlə fəaliyyət göstərsin.

Bu işə yardımçı olan başqa mühüm bir tədbiri də qeyd etmək lazımdır. Bu da 2002-ci ildə H. Əliyevin təklifi ilə Azərbaycan Milli Məclisinin "Xaricdə yaşayan soydaşlarımıza dövlət qayğısı haqqında" adlanan qanunu qəbul etməsidir. Bu qanun bu mühüm işin hüquqi prinsiplərini müəyyənləşdirir, xaricdə yaşayan soydaşlarımızın hüquqlarının Azərbaycan dövləti səviyyəsində qorunduğunu qanuniləşdirir. Bu faktlar H. Əliyev xarici siyasəti və onun böyük diplomatiya dənizinin kiçik zərrələri, nəhəng siyasətinin cüzi nümunələridir.

İndi isə bu böyük siyasi əhəmiyyətli iş bütün sahələrdə olduğu kimi, ölməz H. Əliyevin nurlu ideyalarının qətiyyətli davamçısı, əbədi rəhbərimizin ən layiqli siyasi varisi hörmətli prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan diasporu artıq türk diasporu ilə birləşmə və birgə çıxış etmə prosesini yaşayar və erməni lobbisinə qarşı daha fəali çıxış edirlər.

Dünyada yaşayan bütün azərbaycanlılar - can bir, qan bir qardaş larımızla əlaqələr yaratmaq, onların tarixi vətənləri olan Azərbaycan Respublikası ilə təmaslarını təşkil etmək Vətənimizin indiki siyasi vəziyyəti şəraitində daha vacibdir.

Azərbaycan Prezidenti H.Əliyev bu barədə haqlı olaraq demişdir: «Azərbaycan - bütün dünyada yaşayan azərbaycanlılann vətənidir. Hər bir azərbaycanlı Azərbaycana öz ata ocağı kimi baxmalıdır. Mən bütün dünyada - Avropada, Asiyada, Amerikada və s. ölkələrdə yaşayan azərbaycanlılara müraciətlərimlə onlarda məhz bu hissləri yaratmağa çalışır, onları Azərbaycana cəlb

imzaladı'. Qeyd etdiyimiz kimi həmin ilin 2001-ci il noyabr 9-10 da Bakıda Dünya Azərbaycanlılarının i qurultayı keçirildi və bu möhtəşəm tədbir ölkəmizin müasir tarixinə əlamətdar hadisə kimi düşdü. Dünyanın diaspora və lobbiçilik problemləri bu qurultayda bir çox nüfuzlu dünya azərbaycanlılarının müzakirə obyektinə çevrildi, konkret qərarlar və proqramlar təsdiqləndi^.

Ən mühüm qərarlar içərisində dünyada öz soydaşlarımız tərəfindən dilimizin, ədəbiyyatımızın, tariximizin təbliği, işğalçı Ermənistanın bizi zorla müharibəyə cəlbinin ifşası, mütəşəkkil erməni lobbisinə qarşı müntəzəm olaraq təşkilatlanmış Azərbaycan diasporunun ardıcıl hücumlarının təşkili kimi məsələlər öz yerini tutdu və bütün azərbaycanlıların fəaliyyəti proqramına daxil edildi.

Dünya azərbaycanlılarının milli lideri cənab H. Əliyev qurultaydakı tarixi nitqində demişdir: “Bu qurultay dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin yaranması və inkişaf etməsi sahəsində mühüm əhəmiyyətə malikdir və demək olar ki, müstəqil Azərbaycanın həyatında tarixi hadisədir. Bu gün keçirilən qurultay xaricdə yaşayan soydaşlarımızın daha da həmrəy olması, təşkilatlanması üçün yeni bir mərhələnin başlanğıcıdır”.

Bu qurultaydan sonra dünyada yaşayan azərbaycanlıların diaspor həyatı yeni bir mərhələyə qədəm qoydu. Ölkəmizin prezidenti bu sahədə dövlət səviyyəsində sistemli iş aparmaq üçün 2002-ci ildə xaricdə yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin yaradılmasına fərman verdi. Bu mühüm dövlət tədbiri xaricdəki Azərbaycan birlikləri və dərnəklərinin mədəni mərkəzlərinin işinə vahid rəhbərlik üçün imkan yaratdı, onları dövlət qayğısı. Vətən nəzarəti ilə təmin etdi.

Bu gün dünyada azərbaycanlılarımızın 200-dən artıq birlik, cəmiyyət və assosiasiyası fəaliyyət göstərir. YUNESKO-nun rəsmi məlumatına görə dünyada 40 milyondan artıq (bəzi hesablamalara görə isə-50mln.) azərbaycanlı yaşayır. Onun 30 mln-a yaxını İranda, 2,5 mln-u Türkiyədə, 2 mln-u Rusiyada və s. yaşayır. Bu

**' ‘ Azərbaycan” qaz... 24.05.2001. ^ ‘**
**Azərbaycan” qəz.. 11.11.2001.**

Yaxud 20% torpaqlarımızı işğal etmiş Ermənistanın xaricdə yaşayan lobbisinin öz vətəni xeyrinə dünya ictimai fikrini necə aldatdığının hər gün şahidi olmuriıqmu? Bunlar da bir örnəkdir.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlı- larırmın I qurultayı keçirildi. Özü də dünyada bizi birləşdirən bir ideya ətrafında - Heydər Əliyevin Azərbaycançılıq ideologiyası ətrafında birləşmək şüarı ilə.

Hakimiyyətə gəldiyi gündən müasir reallıqları düzgün qiymətləndirən müdrik prezidentimiz H. Əliyev Azərbaycan hüdudlarından kənarda yaşayan soydaşlarımızın vahid ideologiya və milli-mənəvi dəyərlər sistemi ətrafında birləşməsinə, onların malik olduqları potensialın ümummilli problemlərin həllinə yönəlməsinə xüsusi diqqət yetirdi. Bu isə az vaxtda Azərbaycanın xarici siyasəti doktrinasının başlıca istiqamətlərindən birinə çevrildi. Bu məqsədlə cənab H. Əliyevin noyabr 2002-ci il tarixində xüsusi fərmanında Azərbaycan Respublikasının səfirliklərinin diplomatik dərəcələrində (6.3.1. maddəsində) Azərbaycan diasporu ilə iş üzrə müşavir vəzifəsi-diplomatik dərəcəsi nəzərdə tutuldu. Beynəlxalq təşkilatlarla iş üzrə səfirliklərdə iki diplomatik dərəcə əlavə olundu: müşavir və müavini vəzifələri. Bu uzaqgörən və böyük siyasətçinin Azərbaycan diasporu ilə diplomatik kanallarla rəsmi məşğul olmaq üçün yaratdığı əməli imkandır. Cənab H. Əliyevin adı ilə bağlı olan Dünya Azərbaycanlılarının həmrəylik gününə aid elə bir sənəd və ya çıxış tapmaq çətindir ki, orada cənab prezident Azərbaycan diasporunun formalaşmasının konkret məqsəd və vəzifələrini, ən əsası isə Azərbaycançılıq ideologiyasının mahiyyətini açıqlamamış olsun. Məhz bu prinsip əsas dayaq kimi Azərbaycan diasporunun təşkilini sürətləndirdi. Xaricdə fəaliyyət göstərən müxtəlif ictimai birliklərin, cəmiyyətlərin, dərnəklərin ideoloji-siyasi cəhətdən konsolidasiyasına zəmin yaratdı.

Azərbaycan hökuməti bu istiqamətdə konkret işlər görməyə başladı. Cənab H. Əliyev diaspor hərəkatını genişləndirmək məqsədilə 23 may 2001-ci ildə Bakı şəhərində Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi barədə sərəncam

laşdırılsın, mövcud geopolifık reallıqlara əsaslanan tam düşünülmüş xüsusi proqram əsasında fəaliyyət göstərsin və onu həyata keçirsin. H.Əliyev diplomatiyası bu sahədə öz aydın perspektivlərini və obyektiv reallıqları müəyyən edə bilmişdi ' . Diplomatiyamızın uğurları da bunda idi.

H.Əliyev diplomatiyası Azərbaycan naminə bütün imkanlardan çevik və cəld istifadə etməyi bacarırdı. Onun üçün daxili siyasətdə olduğu kimi xarici siyasətdə də kiçik məsələ yox idi. Məsələn, elə götürək dünya azərbaycanlılarının həmrəyliyi və Azərbaycan diasporu məsələsini.

H. Əliyev ölkəyə rəhbərliyinin son on ilində xalqımızın əvəzsiz milli sərvəti olan müstəqilliyinin qorunub saxlanması, demokratik və hüquqi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi, yeni iqtisadi münasibətlər sisteminin formalaşdırılması, ən əsası, ölkədə ictimai-siyasi sabitliyin tam bərqərar edilməsi Azərbaycanı intensiv inkişaf yoluna çıxarıb. Bütün bunlar ölkəmizin dünya miqyasında layiqli tanınmasına səbəb oldu. Bu gün Azərbaycan müstəqil dövlət kimi dünya miqyasında tanınır və öz layiqli yerini tutur. Məhz bu böyük istək H. Əliyevin ən əzəmətli arzularından biri idi və Azərbaycanın dünya ölkələri birliyində layiqli yer tutması ilə fəxr edirdi. Buna H. Əliyev diplomatiyası nəticəsində müvəffəq olunmuşdur. H. Əliyev öz böyük zəkası ilə yaxşı bilirdi ki, hər bir müstəqil dövlət onda daha qüdrətli olur ki, o, ölkədən kənarda öz güclü diasporunu formalaşdıra bilsin. Xüsusilə indiki millətlər yarışında o dövlət daha çox qazanır ki, öz xalqını, öz vətəndaşlarını harada yaşamasından asılı olmayaraq öz Ana Vətəni ilə sıx bağlaya bilir. Belə olanda ölkə də öz problemlərinin həllinə daha yaxşı nail olur, öz mənafelərini beynəlxalq miqyasda daha layiqincə qoruya bilir.

Bunun ən yaxşı nümunəsi yəhudi lobbisidir. İzrail dövlətinin beynəlxalq aləmdə hüquq və nüfuznun qorunmasında dünya yəhudi diasporasının əvəzsiz xidməti var.

**' Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991- 1996). Bakı, 1998, səh.74.**

xarici siyasət aparmaq kimi mühüm məsələləri həyata keçirməkdir.

Əbədi liderimiz H.Əliyev öz misilsiz fəaliyyəti ilə ölkəmizin dünya iqtisadi inteqrasiyasını təmin edən siyasi-diplomatik çeviklik anlayışını nəzəriyyədən əməli olaraq həyata keçirdi. İstər beynəlxalq, istər regional, istərsə də dövlətlərarası münasibətlər sahəsində bu gün H.Əliyev xarici siyasəti öz böyük səmərəsini verir və Azərbaycan diplomatiyası hələ bundan çox faydalanacaqdır. Ölməz H.Əliyev diplomatiyasının, onun rəhbərlik etdiyi Azərbaycanın xarici siyasətinin əsas mahiyyət və xüsusiyyəti sülhsevər olmağında, dövlətin ərazi bütövlüyü və suverenliyinin qorun- masındadır. O, tələb edirdi ki, xarici siyasət bunları təmin etməyə xidmət etməli, respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa olsun reallaşdırmalı və təmin etməlidir. Azərbaycan tarixinin ən böyük diplomatı olan H.Əliyev diplomatiyası tələb edir ki, Azərbaycan dövlətinin xarici siyasətinin əsas mahiyyəti beynəlxalq hüquq normaları və prinsipləri ilə tənzimlənsin. Bunun üçün, onun fikrincə, sivilizasiyalı ölkələrarası münasibətlərə hörmət olunmalı, beynəlxalq, regional və dövlətlərarası münaqişəli məsələlər sülh və danışıqlar yolu ilə həll edilməli, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmalıdır'. Böyük H.Əliyev başçılığı ilı xarici siyasətdə bu prinsiplərə sadiq qalan Azərbaycan öz böyük problemi olan Qarabağ məsələsini də işğalçı Ermənistanla məhz bu səmərəli prinsiplərə riayət olunmaqla həll etməyə çalışmış və çalışır.

H.Əliyevin uzaqgörən diplomatiyası qısa, bir neçə il ərazində Azərbaycanın xarici siyasətinin aydın və ardcıl strateji kursunun müəyyənləşdirilməsi, dövlətlərarası münasibətlərdən Azərbaycanın maraqlan mənafeinə istifadə olunması, çevik və faydalı manevrlərin həyata keçirilməsi və s. sahələrdə gözəgəlimli uğurlar qazanmağa gətirib çıxarmışdır. Dövlət o zaman belə uğurlara müvəffəq olur ki, ölkənin xarici siyasəti mövcud geosiyasi məkan, şərait, qüvvələr nisbəti, dövlətlərin həmin anda bir-birinə təsir dairəsi aydın-

**' Hacıyev M.l. Heydor Əliyev diplomatiyası və dünya azərbaycanlılarının həmrəyliyi. Milli Aviasiya Akademiyası. Kimi Məcmıiələr.Cild 6, Ns2, Bakı, 2004, səh 75.**

XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLILARLA İŞİN ƏSAS CƏHƏTLƏRİ. Azərbaycan ulu öndər H.ƏIiyevin rəhbərliyinin son on ili (1993-2003) bütün sahələrdə olduğu kimi xarici siyasətdə Azərbaycan diplomatiyası sahəsində də böyük uğurlar dövrü olmuşdur. Azərbaycanın geostrateji əhəmiyyətli mövqeindən uğurla istifadə edən H.Əliyev ölkəmizi Şərqlə Qərb arasında körpüyə çevirdi, böyük və aparıcı dövlətlərlə balans- laşdırma siyasəti apararaq qüvvələr nisbətində tarazlaşma siyasətini ustalıq və məharətlə, əsl diplomata layiq manevrlərlə Azərbaycan maraqlarını həyata keçirməyə müvəffəq oldu. H.ƏIiyevin titanik səyləri nəticəsində dünyanın siyasi maraq nöqtələri olan Böyük İpək Yolunun - TRASECA bərpası, Avropa-Qafqaz-Asiya Nəqliyyat dəhlizinin yaranması, çoxlarının üç dənizin əfsanəsi saydıqları "Əsrin müqaviləsi"ndə Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarına nəqli, beynəlxalq terrorizmə qarşı müştərək koalisiyada birləşmək və s. kimi təkcə regional deyil, dünya əhəmiyyətli problemlərdə bir Sıra dövlətlərlə birgə çıxış etməli oldu.

Heydər Əliyevin qüdrətli diplomatiyası nəticəsində az müddətdə vaxtilə Azərbaycana qarşı yaradılmış beynəlxalq informasiya blokadası yarılmış, dünya Azərbaycan həqiqətlərini qəbul etməyə başlamışdır. H.Əliyev Azərbaycan mənafeini dünya miqyasdında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasət sistemi yaradır. Bununla da Azərbaycanın dövlət müstəqilliyi qorundu, möhkəmləndi və inkişaf etdirildi. Bunun üçün H.ƏIiyevin rəhbərliyi və uzaqgörənliyi ilə Azərbaycan diplomatiyası dünyanın böyük və kiçikliyindən asılı olmayaraq bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirmək siyasəti yolunu tutdu və bundan böyük müsbət nəticələr əldə etdi. Azərbaycan diplomatiyasının bugünkü əsas prinsipləri Azərbaycanın dövlətçilik və milli mənafeləri ilə uyğun gələn dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikamızın beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə etmək, azad bazar inkişafı, müstəqil daxili və

təhlükəni müəyyən edib araşdıracaq, beynəlxalq sülhün və təhlükəsizliyin saxlanması və bərpa olunması üçün tədbirlər görülməsi barədə tövsiyələr verən yeganə orqanıdır.

Yalnız Təhlükəsizlik Şurasının tövsiyələrini əsas götürməklə, BMT-nin Baş Məclisi yeni üzvlərin BMT-yə qəbulu, BMT üzvlüyündən xaric olunması, BMT üzvlərinin hüquq və imtiyazlarının dayandırılması barədə qərarlar çıxara bilər, özü üçün prosedura qaydaları müəyyən edir, müvafiq funksiyaları yerinə yetirmək üçün yardımçı orqanlar təsis edə bilir. Təhlükəsizlik Şurasının hər üzvü 1 səsə malikdir. Təhlükəsizlik Şurasının prosedura üzrə qərarları şuranın 9 üzvü ona səs verdikdə qəbul olunur. Bütün digər məsələlərə dair qərarlar o vaxt qəbul olunur ki, Təhlükəsizlik Şurasının 9 üzvü, onun bütün daimi üzvləri - Rusiya, ABŞ, Böyük Britaniya, Fransa və Çinin üst-üstə düşən səsləri də daxil olmaqla, onların lehinə səs vermiş olsun. 1966-cı ildən Təhlükəsizlik Şurası BMT-nin 15 üzvündən (buna qədər 11 olub), o cümlədən 5 daimi və 10 qeyri-daimi üzvündən təşkil olunur. 10 üzv BMT BM tərəfindən 2 il müddətində seçilir. Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri aşağıdakı kvota üzrə seçilirlər: Şərqi Avropa - 1, Asiya və Afrika - 5, Latın Amerikası - 2, Qərbi Avropa və s. dövlətlər -2.

DİASPORA (yunan, diaspora - dağılmaq, səpələnmək). Bu termin daha çox qədim yəhudilərə aid işlədilir. VIII əsrdə Assuriya çarı II Sarqon tərəfindən İzrail çarlığının paytaxtı Samariya işğal olduqdan sonra yaranmışdı. Qədim yəhudilərin xüsusilə böyük miqyasda diasporası e.ə. VI əsrdə, 586 ildə İuda çarlığının paytaxtının Yeni Babil padşahlığının padşahı II Navuxodonosor tərəfindən tutulub dağılmasından sonra baş vermişdi. Yəhudilər isə Babilə sürgün olunmuşdular. Yəhudi müharibəsindən (66-70 illər) və romalılar tərəfindən Yərusəlimin dağılmasından sonra Fələstinin əsas hissəsi bir çox ölkələrin ərazisinə səpələndi.

Sonralar bu termin öz ərazilərini məcburi şəkildə tərk edən digər dini və etnik qruplara da aid edilməyə başladı.

4) BMT-nin Latın Amerikası üçün İqtisadi Komissiyası (EKLA) - EKOSOS-un 106 (VI) saylı 25.11.1948 il tarixli qətnaməsinə müvafiq olaraq yaradılıb.

Latın Amerikasının 32 ölkəsindən əlavə İngiltərə, Hollandiya, İspaniya, Kanada, Portuqaliya, ABŞ və Fransa bu Komissiyanın üzvləridir. Onun fəaliyyətində AFR və İsveçrə məşvərətçi qismində iştirak edirlər.

Katibliyi Santiyaqodadır. ("DEL").

BMT-nin İQTİSADİ VƏ SOSİAL ŞURASI (EKOSOS). Birləşmiş Millətlər Təşkilatının 6 başlıca orqanından biridir; Şuranın tərkibi BMT Baş Məclisi tərəfindən 3 il müddətinə seçilir. Şura üzvlərinin üçdə birri hər il təzələnir. EKOSOS-a Afrikadan - 14, Asiya və Okianiyadan - 11, Latın Amerikasından - 10, Qərbi Avropadan - 13, Şərqi Avropadan - 6 dövlət daxildir.

BMT Nizamnaməsinin 61-72 maddələrinə uyğun olaraq, EKOSOS-un səlahiyyətinə iqtisadi, sosial, mədəniyyət, təhsil, səhiyyə və digər sahələr üzrə tədqiqatlar aparmaq və məruzələr hazırlamaq, onların hər birinə dair BMT Baş Məclisinə tövsiyələr vermək. Baş Məclisin razılığı ilə bu orqanlarla razılaşmalar əldə etmək və onlardan məruzələr almaq, BMT Təhlükəsizlik Şurasına müvafiq informasiya təqdim etmək daxildir.

EKOSOS müxtəlif sosial-iqtisadi məsələlərlə məşğul olan 6 funksional, 5 regional komissiyaya, həmçinin 8 daimi komitə və komissiyaya rəhbərlik edir.

BMT TƏHLÜKƏSİZLİK ŞURASI (TŞ). Birləşmiş Millətlər Təşkilatının 6 başlıca orqanından biridir. BMT Nizamnaməsinə uyğun olaraq (23-32 maddələr) BMT Təhlükəsizlik Şurası sülhü və beynəlxalq təhlükəsizliyi qoruyub saxlamaq üçün məsuliyyət daşıyır. Təhlükəsizlik Şurası BMT üzvləri adından çıxış edir, üzvlər də Təhlükəsizlik Şurası qərarlarına tabe olmağa və onları yerinə yetirməyə razılıq verirlər.

Təhlükəsizlik Şurası BMT-nin sülh üçün yaranan hər bir

BMT KATİBLİYİ. Birləşmiş Millətlər Təşkilatının altı başlıca orqanından biridir; BMT-nin inzibati-təşkilatı funksiyalarını yerinə yetirməkdən ötrü təsis edilib. BMT katibliyi beynəlxalq müqavilələrin qeydiyyatını aparır və onları nəşr etdirir. BMT katibliyi Baş katibdən və işçi heyətindən ibarətdir. İşçi heyəti BMT Nizamnaməsinin 97-101 maddələrinə uyğun olaraq Baş katib tərəfindən və BMT Baş Məclisinin müəyyən etdiyi qaydalar əsasında təyin edilir. BMT Nizamnaməsi içşi heyətin mümkün qədər daha geniş coğrafi əsasda seçilməsini tövsiyə edir.

BMT katibliyi Nyu-Yorkda yerləşir, departamentlərdən, mərkəzlərdən, bürolardan və şöbələrdən ibarətdir; Cenevrədə, Vyanada və BMT orqanlarının fəaliyyət göstərdiyi digər yerlərdə bölmələri vardır.

BMT-nin İQTİSADİ KOMİSSİYALARI. BMT-nin Asiya və Sakit okean (ESKATO), Afrika (EKA), Avropa (YEK), Qərbi Asiya (EKZA) və Latın Amerikası (EKLA) üçün iqtisadi Komissiyaları var. BMT-nin iqtisadi və Sosial Şurasının (EKOSOS) qərarı ilə bu regionların sosial-iqtisadi inkişafına kömək göstərmək, region ölkələrinin bir-birinə və digər dünya ölkələrinə əməkdaşlığını genişləndirməkdən ötürü yaradılıb.

1) BMT-nin Asiya və Sakit okean üçün iqtisadi və sosial komissiyası (ESKATO) - EKOSOS-37 saylı 28.111.1947 il qətnaməsinə müvafiq olaraq yaradılıb.

ESKATO Katibliyi Banqkokdadır (Tailand).

2) BMT-in Afrika üçün İqtisadi Komissiyası (EKA) - EKOSOS-un 671 saylı 29.IV. 1958 il qətnaməsinə müvafiq olaraq yaradılıb. 51 Afrika dövlətini birləşdirir.

Katibliyi Əddis - Əbəbədədir.

3) BMT-nin Qərbi Asiya üçün İqtisadi Komissiyası (EKZA)- EKOSOS-un 1818 (LV) saylı 9.VIII.1973 il qətnaməsinə müvafiq olaraq yaradılıb. 13 ərəb ölkəsi və Fələstin Azaladlıq Təşkilatı bu Komissiyanin üzvləridirlər.

Katibliyi Bağdaddadır.

hüququna malikdir. BMT Baş Məclisinə (BM) BMT-nin işi barədə illik hasabat və BM-i maraqlandıran digər məsələlərə dair əlavə məruzələr verir. Baş katib Təhlükəsizlik Şurasının tövsiyəsi ilə BMT BM tərəfindən 5 il müddətinə seçilir və eyni müddətdə ikinci dəfə seçilmək hüququna malikdir.

BMT-nin Baş katibi vəzifəsinə seçilmişlər; Li Tryüqve (Norveç)-Il.l946-IV.1953; Daq Hammarşeld (İsveç) - IV. 1953- IX.1961; U.Tan (Birma) - XI.1961-XI.1971; K. Valdhaym (Avstriya) - XII. 1971-XII. 1981; X. Peres de Kuelyar (Peru) XII.1981-X11.1991; Butros Qali (Misir) - X1I.1991-XII.1996; Kofı Anan (Nigeriya) - X11.1996-XII.2006; 2006-cı il dekabrından BMT- nin Baş Katibi Pan Gi Mundur (Koreya Respublikası).

**BMT BAŞ MƏCLİSİ.** Birləşmiş Millətlər Təşkilatının başlıca orqanlarından biridir; BMT-nin bütün üzvlərindən təşkil edilir. BMT Nizamnaməsinə görə, Baş Məclis beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq, əməkdaşlığın ümumi prinsiplərini, o cümlədən tərksilah və silahlanmanı müəyyən edən prinsipləri nəzərdən keçirmək və bu məsələlərə dair tövsiyələr vermək hüququna malikdir. Haqqında tədbir görülməsi lazım bilinən məsələ Baş Məclis tərəfindən BMT Təhlükəsizlik Şurasına verilir. BMT büdcəsinin təsdiqi də Baş Məclisin funksiyasına daxildir. BMT Baş Məclisi hər il özünün növbəti sessiyalarına toplaşır.

Növbəti sessiyalarda ümumi siyasi diskussiyalar aparılır. Gündəliyin ayrı-ayrı məsələləri, onlara dair qətnamə və qərarların müzakirəsi Baş Məclisin plenar iclaslarında və ya 7 başlıca komitəsində aparılır. Qərarlar Baş Məclisin plenar iclaslarında qəbul olunur.

Baş Məclisin hər üzvü bir səsə malikdir. Mühüm məsələlərə dair Baş Məclisin qərarları 2\3 səs çoxluğu, digər məsələlər üzrə isə BMT-nin sessiyada olan və səsvermədə iştirak edən üzvlərinin səs çoxluğu ilə qəbul olunur.

Baş Məclisin iclasları, əsasən, Nyu-Yorkda, nadir hallarda isə, qəbul olunan qərara əsasən, başqa yerlərdə keçerilir.

münasibətlərdə, istər hər hansı dövlətin ərazi toxunulmazlığına, ya da siyasi müstəqilliyinə qarşı yönələn, istərsə də BMT qayələri ilə bir araya sığmayan hər hansı bir tərzdə qüvvə ilə hədə-qorxu gəlməkdən, yaxud qüvvə tətbiq etməklə qorxutmaqdan çəkinmək; BMl'-yə onun Nizamnaməsinə uyğun qaydada gördüyü işlərdə hər cür kömək göstərmək və barəsində BMT-nin preventiv, yaxud icbari hərəkətlərə əl atdığı hər hansı dövlətə yardım göstərməkdən imtina etmək.

Azərbaycan Respublikası 02.111.1992 ildən BMT-nin üzvüdür.

BMT-nin başlıca orqanları - Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir. Zərurət yarandıqda Nizamnaməyə uyğun olaraq əlavə orqanlar da təsis edilir.

Qərargahı Nyu-Yorkdadır. Cenevrə və Vyanada BMT filialları fəaliyyət göstərir.

İqtisadi, sosial və digər sahələrdə dövlətlər arasında əməkdaşlığı inkişaf etdirmək məqsədilə BMT-in ixtisaslaşmış təsisatları fəaliyyət göstərir.

BMT fəaliyyətində əsas tarixi mərhələlər aşağıdakılardır:

24.X.1945 il. Nizamnamə üzv dövlətlər tərəfindən ratifikasiya edildiyindən Birləşmiş Millətlər Təşkilatının yaradılması rəsmən elan olunub. Bu tarix hər il BMT Günü kimi qeyd olunur.

10.1.1946 il. Üzv dövlətlərin nümayəndələrinin iştirakı ilə Londonda Vestminsternin Mərkəzi salonunda BMT Baş Məclisinin ilk iclası şağırılıb. ("DEL").

**BMT BAŞ KATİBİ.** Birləşmiş Millətlər Təşkilatının başlıca inzibati vəzifəli şəxsi onun Baş Katibidir. Baş katib BMT Nizamnaməsinə uyğun olaraq BMT Katibliyinin bütün bölmələrinə ümumi direktiv göstərişlər verir, təşkilatın fəaliyyətini əlaqələndirir, işçi heyətinə rəhbərlik edir, BMT-nin başlıca orqanları tərəfindən ona həvalə edilən digər vəzifələri yerinə yetirir. Baş katib "onun fikrincə, beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə ola bilən" bütün məsələləri BMT Təhlükəsizlik Şurasının nəzərinə çatdırmaq

Britaniya və Çin nümayəndələrinin Movskva görüşündə atıldı. Burada imzalanan bəyannamədə beynəlxalq sülhün və təhlükəsizliyin qorunması naminə universal beynəlxalq bir təşkilatın tezliklə yaradılmasının zəruriliyi qeyd edildi. Həmin qərar XII. 1943 ildə ABŞ, İngiltərə və SSRİ-nin hökümət başçılrının konfransında bir daha təsdiq edildi. BMT-nin ilk layihəsi Vaşinqtonda Dumbarton Oks konfransında hazırlandı. Burada IX-X.1944 ildə SSRİ, İngiltərə, ABŞ və Çin nümayəndələ-rinin iştirakı ilə keçirilən toplantıda BMT-nin məqsədləri, strukturu və vəzifələri müəyyən edildi. 11.11.1945 ildə Yalta Konfransında F.Ruzvelt, U.Çörçil və İ. Stalin "sülh və təhlükəsizliyin qorunması məqsədilə baş beynəlxalq təşkilatın" təsis olunduğunu bəyan etdilər. 25.IV. 1945 ildə 50 ölkə nümayəndələrinin iştirakı ilə Birləşmiş Millətlərin San-Fransisko konfransı çağırıldı. 26.VI.1945-də San-Fransisko şəhərinin veteranlara məxsus Memorial Holl salonunda BMT-nin Nizamnaməsi 50 dövlətin nümayəndələri tərəfindən imzalandı.

Beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq, sülh üçün yaranan təhlükənin qarşısını alıb, onu aradan qaldırmaq, təcavüz hərəkətlərini boğmaq, əmin-amanlığın pozulmasına gətirib çıxara biləcək beynəlxalq mübahisələri, yaxud halları dinc yollarla sahmana salmaq və ya həll etmək; xalqların hüquq bərabərliyi və müqəddəratını təyin etmək prinsipinə hörmət əsasında millətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək; iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllinə mötədil mövqedən yanaşmaq; insan hüquqlarına, irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq hamı üçün əsas azadlıqlara hörmətlə yanaşmaqla beynəlxalq əməkdaşlıq əlaqələri yaratmaq; dövlətlərin bu məqsədlərə çatmaq yolunda tədbirlərini əlaqələndirmək BMT Nizamnaməsində təsbit edilən ***vəzifahrdir.***

BMT üzvləri aşağıdakı ***prinsiplərə*** uyğun hərəkət etməyi öhdəyə götürürlər: dövlətlərin suveren bərabərliyi; Nizamnamə üzrə qəbul olunmuş öhdəliklərin vicdanla yerinə yetirilməsi; beynəlxalq mübahisələrin dinc vasitələrlə həlli - elə həlli ki, beynəlxalq sülh, təhlükəsizlik və ədalət təhlükə altına düşməsin; beynəlxalq

belə bir ümumi müddəa verilir ki, həmin təşkilat imtiyazlara və toxunulmazlıqlara malikdir. Həmin müddəaya əsaslanaraq üzv dövlətlər çoxtərəfli müqavilə bağlayırlar; müqavilədə təşkilatın imtiyazları və toxunulmazlıqları ətraflı müəyyən edilir. Belə ki, BMT Nizamnaməsinin 104 və 105-ci maddələrində göstərilir ki, BMT ona üzv olan hər bir ölkənin ərazisində “bu təşkilatın vəzifələrini yerinə yetirilməsi və məqsədlərinə çatılması üçün zəruri ola bilən” hüquqlara malikdir. 1946 ildə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və toxunulmazlığına dair Konvensiya qəbul edildi. Burada həm Təşkilatın özünün, üzv dövlətlərin nümayəndələrinin, BMT-nin vəzifəli şəxslərinin, həm də BMT-nin tapşırıqlarını yerinə yetirən ekspertlərin imtiyaz və toxunulmazlığı müəyyən olunub. 1947 ildə isə BMT-nin ixtisaslaşmış təsisatlarının imtiyaz və toxunulmazlığına dair Konvensiya qəbul olunub. (“DEL”).

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI (BMT). Sülhü və beynəlxalq təhlükəsizliyi qoruyub möhkəmlətmək və suveren dövlətlər arasında əməkdaşlığı inkişaf etdirmək məqsədilə bu dövlətlərin səylərini könüllü birləşdirmək əsasında antihitler koalisiyasının başlıca iştirakçılarının təşəbbüsü ilə yaradılmış beynəlxalq təşkilat; faşizm üzərində qazanılan böyük qələbə sayəsində meydana gəlmişdi.

BMT-nin yaradılması yolunda ilk addım 12.VI.1941 ildə atılıb. Həmin gün Londonda ABŞ və Böyük Britaniya “başqa azad xalqlarla həm müharibə, həm də sülh dövründə birgə çıxış etmək” adlı İttifaq Bəyannaməsi imzaladılar. 14.VI1I.1941 ildə ABŞ prezidenti Franklin Delano Ruzvelt və Böyük Britaniyanın baş naziri Çorçill Unston Leonard Spenser beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına dair Atlantik Xartiyası adlı sənəd imzaladılar. 01.1.1942 ildə faşizmə qarşı vuruşan 26 dövlətin nümayəndələri Atlantik Xartiyası sənədinə qoşularaq “Birləşmiş Millətlərin Bəyannaməsi” adlı sənəd qəbul etdilər və bu sənəddə Ruzveltin təkilifı ilə ilk dəfə olaraq “Birləşmiş Millətlər” ifadəsi işlədildi. Növbəti addım 30.X.1943 ildə SSRİ, ABŞ, Böyük

rasiyası, Parlamentlərarası İttifaq, Ümumdiinya Müharibə Veteranları Federasiyası və s. vardır.

**II** dərəcəli məşvərətçi status o təşkilatlara verilir ki, onlar İSŞ işinin yalnız bəzi sahələrində xüsusi səlahiyyətlərə malikdirlər. Onların arasında Ümumdiinya Demokratik Gənclər Federasiyası, Beynəlxalq Demokrat Hüquqşünaslar Assosiasiyası, Beynəlxalq Jurnalistlər Təşkilatı və s-i göstərmək olar

Məşvərətçi statuslu Beynəlxalq qeyri-hökümət təşkilatları bir sıra hüquq və vəzifələrə malikdir. Onlar BMT-nın İqtisadi və Sosial Şurasının fəaliyyətinə dair təkliflər irəli sürə bilər, onların nümayəndələri isə BMT-nin İqtisadi və Sosial Şurasının iclaslarında otura, yazılı ərizələr verə və BMT-nin İqtisadi və Sosial Şurası Məclisində şifahi bəyanat və s. İlə çıxış edə bilərlər.

BMT-nin 6 ixtisaslaşmış təsisatı da (YUNESKO, Beynəlxalq Əmək Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Beynəlxalq Dəniz Təşkilatı) beynəlxalq qeyri-hökümət təşkilatlarına məşvərətçi statusu verə bilər^ bu status da bir neçə kateqoriyaya bölünür. Ona malik olmağırt şərtləri BMT-nin İqtisadi və Sosial Şurasının müəyyən etdiyi şərtlərlə eynidir.

^Beynəlxalq qeyri-hökümət təşkilatları xalqların səmərəli əməkdaşlığının inkişafında, habelə dünya içtimayyətinin diqqətini sülhün qorunmasına, beynəlxalq gərginliyin zəiflədilməsi və tərksilah uğrunda, təcavüz, irqi və milli əsarətə qarşı mübarizəyə səfərbər etməkdə mühüm rol oynayırlar.

Dünyada 3 mindən artıq Beynəlxalq qeyri-hökümət təşkilatları mövcuddur. (“DEL”).

**BEYNƏLXALQ TƏŞKİLATLARIN İMTİYAZLARI VƏ TOXUNULMAZLIQLARI.** Beynəlxalq hökümətlərarası təşkilatlara, onların işçi heyətlərinə, habelə üzv dövlətlərin bu təşkilatların nəzdindəki nümayəndəliklərinə və onların əməkdaşlarına qəbul edən dövlətlərin ərazilərində verilən xüsusi hüquq və üstünlüklərdir.

Beynəlxalq təşkilatı təsis edən müqavilədə bir qayda olaraq,

olması; birdən artıq ölkədən pul vəsaiti almaması.

Beynəlxalq qeyri-hökümət təşkilatlarına milli ictimai təşkilatlar, ayrı-ayrı şəxslər və şəhərlər, həm də elmi müəssisələr üzv ola bilərlər.

Hər cür gizli təşkilatlara, qapalı klublara və başqa bu kimi "birliklər"ə beynəlxalq qeyri-hökümət təşkilatlar kimi baxmaq olmaz.

Beynəlxalq qeyri-hökümət təşkilatları yaradılarkən onun nizamnaməsi qəbul olunur; öz hüquqi mahiyyətinə görə nizamnamə beynəlxalq müqavilə deyildir. Beynəlxalq qeyri-hökümət təşkilatlan beynəlxalq hüququn subyekti hesab olunmurlar; onlar - milli hüququn subyektləridir. Bəzi dövlətlərdə (məsələn, Belçikada) beynəlxalq qeyri-hökümət təşkilatlarının hüquqi vəziyyətini müəyyənləşdirən xüsusi qanunlar mövcuddur.

Digər ölkələrdə bu məsələlər milli qeyri-hökümət təşkilatlarının hüquqi vəziyyətinə dair ümumi qanunlarla tənzimlənir. Beynəlxalq qeyri-hökümət təşkilatlar işçi qüvvəsi tutmaq barədə müqavilələr bağlaya, daşınan və daşınmaz əmlaka sahib ola, məhkəmə və arbitraj orqanlarında iddia ilə çıxış edə bilərləı;.

Beynəlxalq qeyri-hökümət təşkilatların böyük bir qismi beynəlxalq hökümətlərarası təşkilatlarla sıx əlaqə saxlayır. BMT- nin İqtisadi və Sosial Şurası (İSŞ) və bir sıra başqa təsisatları nəzdində Beynəlxalq qeyri-hökümət təşkilatlar məşvərətçi statusa malik ola bilərlər. BMT-nin İqtisadi və Sosial Şurası məşvərətçi münasibətlərin hüquqi reqlamentasiyasını verən "Qeyri-hökümət təşkilatları ilə məşvərət tədbirləri" sənədinə müvafiq olaraq, məşvərətçi statusun iki dərəcəsi müəyyən edilib: 1 dərəcə (ümumi məşvərətçi status) və II dərəcə (xüsusi məşvərətçi status).

I dərəcəli məşvərətçi status elə Beynəlxalq qeyri-hökümət təşkilatlarına verilir ki, onlar BMT-nin İqtisadi və Sosial Şurasının fəaliyyətinin əksər növləri ilə bağlıdırlar və BMT-nin işinə daimi və əhəmiyyətli dərəcədə fayda verə bilərlər; üstəlik bu təşkilatların üzvlük tərkibi əksər ölkələrin əhalisinin əsas təbəqələrini təmsil edir. Onlar arasında - Beynəlxalq Demokratik Qadınlar Fede-

Sənaye İnkişaf Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı.

Atom enerjisindən dinc məqsədlərlə istifadə məsələsi ilə əlaqədar beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsində Atom Enerjisi üzrə Beynəlxalq Agentlik mühüm (MAQATE) rol oynayır. BMinin daha başqa dövlətlərarası təşkilatları da vardır. (“DEL”).

**BEYNƏLXALQ KONFRANSLAR,** (lat. confero - bir yerə toplayıram). Dövlətlərin, beynəlxalq hökümətlərarası və beynəlxalq qeyri-hökümət təşkilatlarının nümayəndələrinin bu və ya digər məsələni müzakirə etmək və qərarlar (tövsiyələr) qəbul etmək üçün toplantısıdır. Beynəlxalq konfrans müxtəlif cür (confranslar, konqreslər, müşavirələr, kollekviumlar, forumlar və s.) adlanır.

Beynəlxalq konfranslar ***hökümətlərarası*** və ***qeyri-hökümət^ universal*** (ümumdünya) və ***regional*** konfranslara ayrılır; bir, bir neçə dövlət və ya beynəlxalq təşkilatlar tərəfindən çağrılır. Konfransı dövlətin və ya onu çağıran təşkilatın nümayəndəsi açır.

Təşkilati məsələlər (prosedur qaydaları, maliyyələşdirmə, işçi və rəsmi dillər, katibliyin işi və s.) beynəlxalq konfransların özü tərəfindən həll edilir. Beynəlxalq konfranslarda qərarlar ya səs çoxluğu, ya da konsensus, akklamasiya yolu ilə qəbul olunur. BMT sistemi çərçivəsində çağırılan beynəlxalq konfranslar adətən, BMT Baş Məclisinin pro.sedur qaydalarını rəhbər tutur.

**BEYNƏLXALQ QEYRİ-HÖKÜMƏT TƏŞKİLATLARI.** (BMT-nin İqtisadi və Sosial Şurasının 27.11.1950 il 288(X) saylı qətnaməsinə görə, “qeyri-hökümət sazişi əsasında təsis edilən hər hansı beynəlxalq təşkilat” Beynəlxalq qeyri-hökümət təşkilatı sayılır.

'^Beynəlxalq Assosiyasiyalar İttifaqı tərəfindən beynəlxalq qeyri-hökümət təşkilatlara dair hazırlanan müqavilə layihəsi beynəlxalq qeyri-hökümət təşkilatlar anlamını konkretləşdirərək, onun aşağıdakı əsas cəhətlərini şərtləndirir: gəlir götürmək niyyətində olmaması; ən azı bir dövlət tərəfindən tanınması və ya beynəlxalq hökümətlərarası təşkilatların nəzdində məşvərətçi statusa malik

qəbul edilir. Avropa Şurasının vəzifəli şəxslərinin, komitə və komissiyaların üzvlərinin təyin edilməsində və ya gündəliyinin təsdiqinə dair qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Məsləhət Məclisinin sessiyası açıq keçirilir. Nazirlər Komitəsi Məsləhət Məclisinin fövqəladə iclasını çağıra bilər. Şuranın rəsmi dili fransız və ingilis dilləridir. İqamətqahı Strasburqdadır. ("DEL").

BEYNƏLXALQ HÖKÜMƏTLƏRARASI TƏŞKİLATLAR. Dövlətlərin müəyyən məqsədləri həyata keçirmək üçün çoxtərəfli beynəlxalq müqavilələr və beynəlxalq hüquq əsasında müvafiq qaydada yaradılan birlikləridirlər.

Beynəlxalq hökümətlərarası təşkilatların üzvləri suveren dövlətlər olduğundan, bu təşkilatların səlahiyyət və fəaliyyəti bir qayda olaraq fÖvqəlmilli səciyyə daşıya bilməz. Müasir Beynəlxalq hökümətlərarası təşkilatların əksəriyyəti onların nizamnamələrində nəzərdə tutulan müəyyən beynəlxalq hüquqi - subyekt tutumuna malikdir. İstər Beynəlxalq hökümətlərarası təşkilatlar, istərsə də onların işçi heyətləri beynəlxalq təşkilatlara aid imtiyaz və toxunulmazlıqlardan bəhrələnirlər.

Beynəlxalq hökümətlərarası təşkilatlar öz fəaliyyət istiqamətlərinə (sülh və təhlükəsizlik, iqtisadiyyat, mədəniyyət, səhiyyə, nəqliyyat və s.), üzvlərinin tərkibinə (universal, regional, subregional), səlahiyyətlərinin tutumuna və s. görə fərqlənirlər.

İqtisadi, sosial, mədəni, təhsil, səhiyyə və s. sahələrdə beynəlxalq əməkdaşlığı inkişaf etdirmək məqsədilə yaradılan beynəlxalq hökümətlərarası təşkilatlar BMT-nin ixtisaslaşmış təsisatları adlanır. Məs., Ümumdünya Metereologiya Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, Ümumdünya İntelektual Mülkiyyət Təşkilatı, Ümumdünya Poçt Birliyi, Beynəlxalq İnkişaf Assosiyasiyası, Beynəlxalq Dəniz Təşkilatı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı; Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Elektrik Rabitə İttifaqı, Beynəlxalq Kənd Təsərrüfatı İnkişaf Fondu, Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilat,

göstərməlidir.

^Avropa Şurasının başlıca orqanları Nazirlər Komitəsi və Məsləhət Məclisidir. Nazirlər Komitəsi iştirakçı dövlətlərin xarici işlər nazirləri müavinlərindən, həmçinin onların digər nümayəndələrindən təşkil edilir^Nazirlər Şurası Məsləhət Məclisinin tövsiyəsi və ya öz təşəbbüsü ilə Avropa Şurasının məqsədləri üçün zəruri olan aksiyaların, Bəyannamə və müqavilələrin imzalanmasını, konkret məsələlərə dair hökümətlərlə razılaşdırılmış siyasət keçirməyi və s. məsələləri həll etmək səlahiyyətinə malikdir. Qərarlar iştirakşı dövlətlər üçün tövsiyə xarakteri daşıyır. Komitə Avropa Şurasının daxili təşkilatına aid olan çoxsaylı məsələləri həll edir. Bu məqsədlə o, hökümət nümayəndələrinin, mütəxəssislərin təmsil olunduğu bir neçə köməkçi orqan təsis etmişdir.

Nazirlər Komitəsi cari məsələlərlə bağlı qərarları yekdilliklə, prosedura və təşkilatı məsələlərlə bağlı məsələləri - sadə səs şoxluğu ilə qəbul edir. Nazirlər komitəsinin iclasları Avropa Şurasının əsas iqamətgahında və bağlı qapılar arxasında keçirilir. Komitə ildə iki dəfə toplaşır. Onun gündəliyini nazir müavinləri komitəsi hazırlayır. Məsləhət Məclisi özünəməxsus tərkibə malikdir: onun tərkibinə iyirmi üzv dövlətdən 143 nümayəndə daxildir. Lakin üzv dövlətlər Məclisdə bərabərsaylı nümayəndələrə malik deyillər. Fransa, AFR, İtaliya və Böyük Britaniya - 18 nümayəndə; Türkiyə və İspaniya - 12 nümayəndə; Belçika, Portuqaliya, Hollandiya - 7; İsveç, İsveçrə və Avstriya - 6; Danimarka və Norveç - 5; İrlandiya - 4; İslandiya, Lüksenburq, Kipr və Malta - 3; Lixtenşteyn - 2 nümayəndə ilə təmsil olunurlar.

^ 24-28. VI. 1996 ildə Avropa Şurasında Azərbaycan xüsusi dəvət olunmuş qonaq statusu aldı; 2001-ci ildə isə tam hüquqlu üzv oldu. Avropa Şurası Parlament Məclisində Azərbaycanın 6 yeri vardır.

Məsləhət Məclisi Avropa Şurasının orqanı olub, bu təşkilatın məqsədlərinə aid məsələləri müzakirə etmək, öz yekun sənədini tövsiyə formasında Nazirlər Komitəsinə təqdim etmək hüququna malikdir^ Məsləhət Məclisinin qərarları üçdə iki səs çoxluğu ilə

Avropa Parlamenti 5 il müddətində seçilir, fraksiyalar partiya prinsipi üzrə formalaşır.

Avropa Parlamenti məşvərətçi funksiyaya malikdir; ümum- siyasi məsələlərə dair Komissiyalarının illik hesabatlarını nəzərdən keçirir. Avropa Parlamenti qanunvericilik təşəbbüsü hüququna malik deyil, Avropa Birliklərinin ali orqanlarını təyin etmir, onlara nəzarət etmək huququ yoxdur.

Avropa Birliklərinin üzvü olan bir çox dövlətlər inteqrasiya prosesinin sürətlənməsi planlarını Avropa Parlamentinin fəaliyyəti ilə bağlayırlar. Bəzi hallarda Avropa Parlamentinin səlahiyyətlərinin genişləndirilməsinə, ona "fövqəlmilli xarakter" verilməsinə səy göstərilir.

Avropa Parlamentinin sessiyalarında siyasi əməkdaşlıq, hərbi-siyasi inteqrasiya və beynəlxalq aktual problemlərin müzakirəsinə böyük diqqət verilir.

Avropa Parlamenti müxtəlif dövlətlərlə parlamentlərarası əlaqələr qurur, əməkdaşlıq yaradır. Avropa Parlamentinin sessiyaları Strasburqda (Fransa) və Lüksemburqda keçirilir. Katibliyi Lüksemburqdadır.

AVROPA ŞURASI İLƏ ƏLAQƏLƏIt(l949 ilds Qərbi Avropanın 10 dövləti _ Belçika, Danimarka, Fransa, İrlandiya, İtaliya, Lüksemburq, Hollandiya, Norveç, İsveç və Böyük Britaniya arasında imzalanan müqavilə əsasında təsis edilmişdir. Az sonra Türkiyə, İslandiya, AFR, Avstriya, Kipr, İsveçrə, Malta, Lixten- şteyn, Portuqaliya və İspaniya bu şuranın üzvü oldular. Hazırda 44 ölkə Avropa Şurasının üzvüdür (2007-ci ildə).^

(A.vropa Şurasının başlıca məqsədləri Qərb sivilizasiyasına və demokratiyasına, habelə iqtisadi və sosial tərəqqiyə yönələn ümumi prinsiplər və ideallar əsasında üzv dövlətlərin birliyinə və onlar arasında yüksək səviyyəli razılaşmaya nail olmaqdırTpu məqsədlə iştirakçı dövlətlər Avropa Şurası orqanlarının köməyi ilə iqtisadi, sosial, mədəni, elmi, hüquqi, inzibati sahələrdə, həmçinin insan hüquqlarının və əsas azadlıqların inkişaf etdirilməsində birgə fəaliyyət

və insan Hüquqları Bürosunun ( DTİHB) seçki müşahidə missiyasının 2005-ci il parlament və 2006-cı ildə təkrar seçkilərdən sonra hazırladığı tövsiyələrin icrasında Azərbaycan hökümətinə yardım edəcəkdir. Ofis mətbuat sahəsinə də diqqət göstərəcək, hökümət strukturlarının mətbuatla əlaqələrə məsul olan şəxslərinin bilik və bacarıqlarının artırılması üçün bir sıra işlər görüləcəkdir.

Azərbaycanda bir neçə həftəlik fəaliyyəti dövründə təəssüratlarını bölüşən Xose Luis Herrero bildirmişdir ki, Azərbaycanda iqtisadi inkişaf baxımından çox böyük nəticələr əldə edilmişdir.

Müsbət dəyişiklərin davam edəcəyinə ümidvar olduğunu diqqətə çatdıran ATƏT təmsilçisi Azərbaycanın neft gəlirlərinin davamlı iqtisadi inkişafın təmin edilməsi baxımından böyük imkanlar yaradacağını xüsusi qeyd etmişdir.

<'ATƏT-in MİNSK QRUPU. ATƏT Nazirlər Şurasının 24.III.1992 ildə qəbul etdiyi qərara əsasən Ermənistan -Azərbaycan münaqişəsinin sülh yolu ilə nİ2^ama salınması (Beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi) üçün 11 dövlətdən ibarət yaradılmışdı. Qrupun tərkibinə Azərbaycan, Ermənistan, ABŞ, Rusiya, Fransa, Almaniya, İsveç, İtaliya, Belarus, Türkiyə, Çexiya daxildir. Minsk qrupunun əsas vəzifəsi münaqişəni nizama salmaq məqsədi ilə vasitəçilik etmək^müvafiq sənədlər hazırlamaq və münaqişənin sülh sazişi ilə başa çatdırılması üçün xüsusi Minsk konfransı çağırmaqdır./Minsk qrupunun üç həmsədri vardır. ABŞ, Rusiya və Fransa dövlətlərinin nümayəndələrindən ibarət həmsədrlər bu qrupa rəhbərlik edirlər,r^

AVROPA PARLAMENTİ İLƏ ƏLAQƏLƏR. Avropa Birliklərinin orqanlarından biri; 1957 il Roma sazişinə əsasən yaradılıb. Avropa Parlamenti 1979-cu illədək Avropa Birliklərinin üzvü olan dövlətlərin milli parlamentlərinin tərkibindən təyin edilən nümayəndələrdən təşkil edilmişdi. VI. 1979-cu ildə Avropa Birliklərinin üzvü olan dövlətlərdə ilk dəfə olaraq Avropa Parlamentinə ümumi və birbaşa seçkilər keçirilmişdir.

fəaliyyətini davam etdirəcəkdir. Ofis hökümət strukturları və ictimai təşkilatlarla dialoqu davam etdirəcək, Azərbaycanın ATƏT qarşısında öhdəliklərinin yerinə yetirilməsinə dəstək məqsədi ilə konfrans və seminarlar keçirəcək, birgə layihələr reallaşdıracaqdır.

Siyasi-hərbi əməkdaşlıq çərçivəsində polisə yardım proqramı bu il də davam erdirəcəkdir. Sıravi və kiçik rəis heyəti hazırlayan A.Heydərov adına məktəbin tədris metodlarının və planının həmin proqram əsasında təkminləşdirilməsi, o cümlədən bu təhsil ocağının təlimatçılarına, yol polisi əməkdaşlarına təlimlər keçirilməsi nəzərədə tutulmuşdur.

Ətraf mühitin təhlükəsizliyinə və melanj kimi zərərli maddələrin məhv edilməsinə, həmçinin silahlı qüvvələr və polis üzərində ictimai nəzarətin inkişafına diqqət yönəldiləcəkdir. Bu yaxınlarda keçirilmiş dəyirmi masada Azərbaycan hökuməti həmin sahədə ATƏT -in Bakı ofisi ilə birgə işləməyə maraqlı olduğunu mümayiş etdirmişdir.

Xose Luis Herrero məlumat vermişdir ki, ətraf mühitin qorunması istiqamətində fəaliyyətini davam etdirəcək ofis, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına, korrupsiyaya qarşı mübarizəyə, əlverişli biznes mühitinin möhkəmləndirilməsinə töhfə verməyə çalışacaqdır. Ofis korrupsiyanın qarşısının alınması işində Azərbaycan hökümətinin səylərini dəstəkləyir.

Ekoloji maarifləndirmənin genişləndirilməsi qurumun fəaliyyət istiqamətlərinə daxildir. 2007-ci ildə Bakıdakı Aarhus mərkəzinin fəaliyyətini genişləndirmək, habelə Gəncədə də bu cür mərkəzin açılması planlaşdırılır.

Qeyd olunmuşdur ki, bu il büdcəsi artırılmış ofis insan hüquqlarının təminatı sahəsində fəaliyyətini davam etdirəcək, məhkəmə işçiləri üçün xüsusi təlimlər keçiriləcəkdir. Bu məqsədlə ofisdə iki yeni ştat açılmışdır.

İnsan alverinə qarşı mübarizə istiqamətində yardımlar miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq sahələrində davam etdiriləcəkdir.

Diplomat demişdir ki, ofis ATƏT-in Demokratik Təsisatlar

münaqişənin dayandırılması haqqında razılaşma layihəsi hazırlandı, ikinci hissədə isə Azərbaycan, Ermənistan və Dağlıq Qarabağın erməni icmasının və azərbaycanlı əhalisinin nümayəndələrinin iştirakı ilə iclaslar keçirildi. Azərbaycan nüma- yəndə heyəti Rusiyanın MDB ölkələri üzrə əməkdaşlıq naziri A. Tuleyevə istinad edərək bu ölkədən Ermənistana gizli olaraq 1 mlrd. ABŞ dolları məbləğində silah ötürülməsini bəyan etdi.

23.IX.1997-də Minsk Qrupunun həmsərhədləri təkliflər planı ilə regiona səfər etdilər. Bu plana görə birinci mərhələdə Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayil, Qubadlı, Zəngilan rayonlan erməni silahlı qüvvələrindən azad edilməli, ikinci mərhələdə isə Şuşa və Laçının işğalçılardan azad olunması ilə yanaşı. Dağlıq Qarabağın statusu müəyyən edilməli idi. Azərbaycan tərəfi bu təklifə razı olduğunu bəyan etdi. Ermənistan təklifi rədd və taktiki gedişlə problemin həllinin Dağlıq Qarabağdan asılı olduğunu bildirdi.

Ümumiyyətlə, 1992-1999 ildən hal-hazıradək Ermənistan - Azərbaycan münaqişəsinin diplomatik vasitələrlə nizama salınması barədə Minsk Qrupu çərçivəsində göstərilən səylər real nəticə verməyib.

Problemin nizama salınması Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən qeyd - şərtsiz çıxarılması, Azərbaycan Respublikasının dövlət sərhədlərinin və ərazi bütövlüyünün bərpası. Dağlıq Qarabağda yaşayan əhalinin təhlükəsizliyinin təmini və Dağlıq Qarabağa mədəni status verilməsi, məcburi qaçqınların öz yerlərinə qaytarılması şərtilə mümkündür.

ATƏT- in Bakı ofisinin rəhbəri Xose Luis Herrero martın 15- də Beynəlxalq Mətbuat Mərkəzində qurumun 2007- ci il üçün fəaliyyətinə dair keçirdiyi mətbuat konfransında demişdi: “ATƏT-in Bakı ofisi Azərbaycan hökuməti ilə əməkdaşlığı davam etdirəcəkdir”.

Xose Luis Herrero demişdir ki, 2000-ci ildən fəaliyyət göstərən ofis Azərbaycan hökuməti, ictimai qurumlar ilə əməkdaşlıq etmiş, birgə layihələr icra olunmuşdur.

Qurum cari ildə mandatına uyğun olan istiqamətlərdə

vasitəçiliyi rədd etdi. Bu məsələ ilə əladar ATƏM-in üzvlərilə Rusiya arasında yaranan fikir ayrılığı, Minsk Qrupunun yeni sədri Andres Byurnerin münaqişədə iştirakçı ölkələrə səfər etməsinə səbəb oldu. Bu səfər əsnasında Azərbaycanın çoxtərəfli beynəlxalq vasitəşiliyi qəbul etməsinə baxmayaraq, erməni tərəfi sülhməramlı qoşun hissələrinin ancaq rus qoşunları olmasını istəyən rus variantını bəyəndi, beləliklə problemin tezliklə həll olunmasını qeyri - mümkün etdi. Bununla da Minsk Konfransının iki həmsədrinin təyin edilməsinin vacibliyi ortaya çıxdı. Rusiya Ermənistan - Azərbaycan münaqişəsində maraqlı tərəf olduğu üçün Minsk Konfransında və Minsk Qrupunda həmsədrlik Rusiya və Finlandiyaya həvalə edildi. Bu düzəliş elə bir dəyişiklik yaratmadı. Rusiyanın təklifilə 06-11.11.1995 ildə Moskvada Azərbaycan, Ermənistan nümayəndələri arasında növbəti danışıqlar başlandı. Moskva görüşləri əsnasında Rusiya Dağlıq Qarabağın erməni icması nümayəndələrinin də danışıqlar prosesində iştirak etməsini irəli sürdü. Bu təklif Dağlıq Qarabağ ermənilərinin tərəf kimi qəbul edilməsini nəzərdə tuturdu. Moskva danışıqlarında Şuşa və Laçının azad edilməsi və Dağlıq Qarabağın gələcək statusu məsələsi gündəliyə çıxarıldı. Ermənistan Şuşa və Laçının azad edilməsini Dağlıq Qarabağa status verildikdən sonra müzakirə etmək təklifini irəli sürdü və Laçın dəhlizini yalnız öz nəzarəti altında saxlayacağını iddia etdi. Azərbaycan tərəfi bu şərtlərlə razılaşmayaraq Laçın dəhlizinin beynəlxalq qüvvələrin nəzarəti altında olmasına. Dağlıq Qarabağın statusuna isə Şuşa və Laçının azad olmasından sonra baxılacağını bildirdi.

6-7.IV. Stohkolmda Minsk Qrupunun Dağlıq Qarabağla əlaqədar keçirilən yeni görüşündə münaqişə ilə bağlı növbəti bəyanat qəbul edilərək, təkcə atəşkəs rejiminin vacibliyi bildirildi. ATƏT-in bu mövqeyi əslində təcəvüzkar dövlətin işğal etdiyi Azərbaycan torpaqlarında vaxt qazanaraq möhkəmləməsinə şərait yaratdı.

01-05.IV. 1997 ildə Moskvada Minsk Qrupu çərçivəsində keçirilən danışıqların növbəti mərhələsinin birinci hissəsində silahlı

Yüksək Vəzifəli Şəxslər Komitəsinin fövqəladə iclası çağırılıb. Konfrans tərəfindən münaqişənin tezliklə həll olunmasını nəzərdə tutan əsaslı addım atilmadı, təcavüzün genişlənməsinin qarşısını alan qərar qəbul edilmədi.

ATƏM üzvü olan 9 ölkənin (ABŞ, Rusiya, Fransa, Türkiyə, İtaliya, Almaniya, Şexiya, İsveç və Belarus) nümayəndələrinin 3- 4,VI.1993-də Romanada keçirilən görüşündə problemin dinc vasitələrlə nizama salınmasını nəzərdə tutan növbəti sənəd Azərbaycan tərəfindən qəbul olunsa da, ermənilər onunla razı olmadiqlarını bəyan etdilər.

Beləliklə, Ermənistan və ATƏM-in Minsk Qrupunun üzvü olan 9 ölkənin Romanada irəli sürdükləri "Təxirəsalınmaz tədbirlər cədvəli"nin icrası Ermənistan tərəfindən pozulub.

X. 1993 ildə Ermənistan ordusu hərbi əməliyyatları genişləndirib Zəngilan rayonunu işğal edəndən sonra ATƏM-in sədri ərazi məsələlərinin həllində zordan istifadə etməyi pisləyən Bəyanatla kifayətləndi.

2- 8.XI.1993-də Vyanada keçirilən növbəti toplantı zamanı ATƏM-in Minsk Qrupunun üzvü olan 9 dövlət Dağlıq Qarabağ münaqişəsi ilə bağlı növbəti bəyanatla çıxış edərək, hərbi əməliyyatların dərhal dayandırılmasını tələb etdi, münaqişənin həllində gücdən istifadə olunmasını qətiyyətlə pislədi və erməni silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş 822, 853, 874 və 884 saylı qətnamələrin yerinə yetrilməsini tövsiyə etdi, işğal olunmuş Horadiz və Zəngilan rayonlarından erməni silahlı qüvvələrinin dərhal çıxarılması tələb olundu. Erməni tərəfi irəli sürülmüş tələbləri qəbul etmədi. Bəyanatda qeyd edilir ki, Dağlıq Qarabağın statusu atəş dayandırıldıqdan, işğal olunmuş ərazilərdən erməni silahlı qüvvələrinin qeyd - şərtsiz çıxarılmasından sonra çağırılacaq Minsk Konfransında müzakirə oluna bilər.

ATƏM münaqişənin nizama salınması məqsədilə bölgədə beynəlxalq sülhməramlı qüvvələrinin yerləşdirilməsi təklifini irəli sürdü. Rusiya ATƏM tərəfindən irəli sürülən çoxtərəfli beynəlxalq

Qarabağ nümayəndələrinin Azərbaycan nümayəndə heyətinin tərkibində təmsil olunmasım tələb etdi.

Şuşa və Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi Minsk sülh Konfransının keçirilməsinə imkan vermədi.

18-21.V.1992-də HelsinkidəYüksək Vəzifəli Şəxslər Komitəsinin 11-ci görüşündə Azərbaycan Ermənistanın təcavüzkar bir dövlət kimi pislənilməsini və ona qarşı sanksiyaların tətbiq olunmasını tələb etdi. Ermənistanın mövqeyi üzündən ATƏM çərçivəsində aparılan danışıqlar bu dəfə də müsbət nəticə vermədi. 15-20.VI. 1992-də Minsk Qrupunun Romada keçirilən konfransında Şuşa və Laçının ilə yanaşı, ermənilər Geranboy və Ağdərəni tələb etməklə, müxtəlif bəhanələr gətirməklə nizama salınmasına süni maneələr yaradırlar. 27.VIII. Qazaxıstan Respublikasının təşəbbüsü ilə Azərbaycan, Ermənistan və Qazaxıstan nümayəndələri problemi müzakirə edərək imzaladıqları birgə Memoranduma görə 0LIX.1992-dən etibarən münaqişədə iştirak edən tərəflər hərbi əməliyyatları dayandırmalı idilər. 03.IX. 1992-də memorandumun yerinə yetirilməsini nəzərdə tutan İcevan protokolu imzalandı. 14- 16.IX. Alma-Atada Azərbaycan və Ermənistan arasında keçirilən danışıqlara erməni tərəfi Azərbaycan və Qazaxıstan nümayəndə heyətlərinin qəbul etdikləri bəyannamə layihəsini rədd etdiyindən görüş nəticəsiz qaldı.

ATƏM çərçivəsində 11 dövlətin iştrakı ilə 11-111.1993 ildə Romada Minsk Qrupunun növbəti danışıqlarında müşahidəçilər qrupunun göndərilməsi barədə saziş imzalandı. Ermənistan bu dəfə də hərbi əməliyyatları genişləndimıəklə sazişin yerinə yetirilməsinə mane oldu.

3- 6.IV.1993-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Kəlbəcər rayonunu işğal etdiyinə görə, münaqişənin həlli yeni müstəviyə keçdi. Kəlbəcərin işğalı Ermənistanı təcavüzkar bir dövlət kimi dünya birliyinə tanıtdı. Hərbi təcavüzə məruz qalan Azərbaycan dövləti bir sıra xarici ölkələrin dövlət və hökümət başçılarına, o cümlədən ***BMT Baş Katibinə,*** ATƏM-in sədrinə müraciət etməli olub. 26-29.1V. Praqada Azərbaycanın xahişi ilə

təcavüzkar dövlətə qarşı BMT TŞ-nm sanksiyası işə düşməmişdir.

BMT-nin Azərbaycan Respublikasında nümayəndəliyi X.1992 ildən fəaliyyət göstərir. Azərbaycan Respublikası 2007-ci il yanvar ayının məlumatına əsasən BMT-nin 192 üzv-dövlətdən biri olaraq bu beynəlxalq təşkilatın tam hüquqlu üzvüdür.

Azərbaycan Respublikası beynəlxalq hüququn subyekti kimi BMT-nin mərkəzi orqanları və çoxlu sayda strukturları ilə öz əlaqələrini davam etdirir, BMT-nin işində fəal iştirak edir.

**AZƏRBAYCAN-ATƏT.(^0.I.I992** ildə Azərbaycan Respublikası Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin üzvlüyünə qəbul olundu və 08.VlI.1992-də ATƏM-in Helsinkidə keçirilən Zirvə toplantısında bu təçkilatın sənədlərini imzaladı!^

11.1992 Hdən başlayaraq Dağlıq Qarabağ problemi bu təşkilatın gündəliyinə daxil oldu və ATƏM-in xüsusi missiyası Azərbaycana səfər etdi. 27-28.11.1992-də ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) Praqada keçirilən 7-ci iclasında münaqişə bölgəsində olan missiya məruzə ilə çıxış etdi. Bu sənəddə sərhədlərin toxunulmazlığı və münaqişənin danışıqlar yolu ilə həll edilməsi tövsiyə edildi.

Yüksək Vəzifəli Şəxslər Komitəsinin 13-14.III.1992-də Helsinkidə keçirilən 8-ci iclasında Dağlıq Qarabağ problemi bir daha müzakirə olundu. Bu sahədə növbəti addım 19-23.III.1992-də Yüksək Vəzifəli Şəxslər Komitəsinin sədri Yan Kubiş başda olmaqla nümayəndə heyətinin münaqişə bölgəsinə yeni səfəri oldu.

23- 24.III.1992 ildə Helsinkidə Yüksək Vəzifəli Şəxslər Komitəsinin 9-cu iclasında atəşin dayandırılması və bu problemlə bağlı sülh konfransının keçirilməsi təklif olundu.

ATƏM Xarici işlər Nazirləri Şurasının 24.111.1992-də keçirilən yığıncağında münaqişənin həlli yollarını müəyyən etmək üçün sülh konfransı çağırılması qərara alındı. 07.V.1992-də ATƏM-in Dağlıq Qarabağa dair Minsk Konfransının sədri M. Rafaelli Bakıda olarkən sülh konfransının çağırılması məsələləri müzakirə olundu. Azərbaycan tərəfi konfransın çağırılmasına razı olmaqla, Dağlıq

tutulmasını pisləmiş, Ermənistan hökümətini DQ ermənilərinin 822, 853, 874 və 884 saylı Qətnamələrə əməl etmələri üçün öz nüfuzundan istifadə etməyə və silahlı qüvvələrin bütün işğal edilmiş ərazilərdən çıxarılmasına çağırmışdır.

Ermənistan V.1992 ildə Laçın rayonunu ələ keçirərək, humanitar dəhliz adlandırdığı bu yol ilə DQ-yə müntəzəm olaraq silah, hərbi sursat və canlı qüvvə keçirməyə başlamışdı. BMT TŞ- nın 30.VIU993 il 853 və 11.XI.1993 il 884 saylı Qətnaməsində, habelə BMT TŞ sədrinin 18.VIU.1993 il bəyanatında Azərbaycan Respublikası ərazisinin işğal olunmasını davam etdirə bilən hər cür silah və hərbi sursat göndərilməsindən çəkinmək barədə çağırışlar səslənib

BMT TŞ-nin bütün qətnamələrində və TŞ sədrinin bəyanatlarında Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı qeyd olunur, ərazi ələ keçirilməsi üçün güc tətbiq olunmasının yolverilməzliyi göstərilir. BMT TŞ-nin adı çəkilən qətnamələrdə və digər beynəlxalq sənədlərdəki faktlar Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı təcavüzün təşkil olunub həyata keçirilməsindən xəbər verir. Belə ki, Azərbaycan Respublikası ərazisində müharibə Ermənistan silahlı qüvvələri tərəfindən aparılır və bu işdə DQ bölgəsinin separatçı qüvvələrindən istifadə olunur. Ermənistan Azərbaycan Respublikası ərazisində ATƏT Müqaviləsilə qadağan edilən ağır silahlardan istifadə edir.

İnsan haqlarına dair BMT Komissiyasının Cenevrədə 23.11.1994 ildə qəbul etdiyi Qətnaməsində Azərbaycan və Ermənistan arasında gərginliyin davam etməsi və nəticədə kütləvi ölüm hallarının olması qeyd olunur.

BMT xəttilə qəbul edilən 4 qətnamə tövsiyə mahiyyəti daşıdığından icra mexanizminə və təsir gücünə malik deyil. BMT Nizamnaməsinin müddəaları Ermənistan tərəfindən kobudcasına pozulub və bu təşkilatın üzvü olan Azərbaycan Respublikasının 11 rayonu silahlı qüvvələrdən istifadə olunmaqla işğal edilib. Lakin bu təcavüzə əsasən hüquqi - siyasi qiymət verilməsi təmin edilməmiş.

Ermənistan-Azərbaycan münaqişəsinin gərginləşməsi və Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsilə əlaqədar BMT dörd qətnamə qəbul edib və yeddi bəyanat verib. 06.1V. 1993 ildə BMT-nin Təhlükəsizlik Şurası sədri bəyanatla çıxış edərək, "BMT TŞ Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsində ciddi təşviş keçirdiyini" bildirdi.

30.1V. 1993 ildə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Kəlbəcər rayonu işğal edildikdən sonra BMT TŞ 822 saylı ilk Qətnamə qəbul etdi.

29.VII.1993 ildə erməni silahlı qüvvələri tərəfindən Ağdam rayonu tutulduqdan sonra BMT TŞ 853 saylı Qətnamə qəbul etdi. Qətnamədə qəti surətdə tələb olunurdu ki, münaqişəsinin geniş miqyas almasına və ərazi işğalının davam etdirilməsinə gətirib çıxara bilən hər cür silah və hərbi sursat təchizatı dayandırılsın və işğalçı qüvvələr bu ərazilərdən çıxarılsın. TŞ həmçinin Ermənistan hökümətini DQ erməniləri tərəfindən 822 (1993) və 853 (1993) Qətnamələrinin müddəalarına riayət olunmasını təmin etməkdə öz nüfuzundan istifadə etməyə çağırdı.

18.VIII.1993 ildə BMT TŞ sədri Bəyanat yaydı. Burada işğal olunmuş bütün rayonlardan işğalçı qüvvələrin dərhal, tamamilə və sözsüz çıxarılması tələb edilirdi. Bu tələbin yerinə yetirilməsi üçün Ermənistan hökümətini bütün imkanlarını işə salmağa çağırılırdı.

14.X.1993 ildə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Qubadlı rayonu tutulduqdan sonra BMT TŞ 874 saylı Qətnamə qəbul etdi.

12. XI.1993 ildə Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycanın Zəngilan rayonu və Horadiz şəhəri tutulduqdan sonra BMT TŞ 884 saylı Qətnamə qəbul etdi. Qətnamədə belə bir ciddi narahatlıq ifadə olunurdu ki, Ermənistan-Azərbaycan arasında münasibətlərdə gərginliyin davam etməsi regionda sülh və təhlükəsizlik üçün təhlükə ola bilər. Hərbi əməliyyatların geniş miqyas almasını xüsusi vurğulayan TŞ Zəngilan və Horadizin işğal olunmasını, dinc əhaliyə həmlə edilməsini və Azərbaycan ərazisinin

bağlı ölkəmizin mövqeyini bir daha açıqlayaraq dedi ki, məsələ ancaq və ancaq Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və beynəlxalq hüquq normaları əsasında həll olunmalıdır.

2006-cı il noyabrın 7-də Azərbaycan prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycan Respublikası və Avropa Birliyi arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzaladılar.

İmzalanma mərasimindən sonra mətbuat nümayəndələri üçün brifinq keçirildi. Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycanın ən çətin dövrlərində, iqtisadiyyatın böhranlı vəziyyətində ölkəmizə 400 milyon avro dəyərində yardım göstərildiyini vurğuladı, Azərbaycanla siyasi, iqtisadi və demokratik sahədə əməkdaşlığın bundan sonra daha da genişləndiriləcəyini söylədi. O vurğuladı ki, hazırda Azərbaycanda olduqca sürətli iqtisadi inkişaf gedir.

Prezident İlham Əliyev Azərbaycan - Avropa Birliyi əlaqələrinin indiki mərhələsinin əməkdaşlığın genişlənməsinə yeni imkanlar açdığını bildirdi və dedi ki, bu əməkdaşlıq Azərbaycan üçün prioritet əhəmiyyət daşıyır. Azərbaycan enerji daşıyıcılarının nəqli ilə yanaşı, emalında, eləcə də, alternativ boru kəmərlərinin yaradılmasında da maraqlıdır.

Joze Manuel Barrozu bildirdi ki, Avropa Birliyi Azərbaycanla əməkdaşlığı təkcə enerji sahəsinə aid etmir, siyasi, iqtisadi, hüquqi və digər sahələrdə də əlaqələr uğurla inkişaf edir. Avropa Birliyinin həm Azərbaycan, həm də Ermənistanla yeni qonşuluq siyasətinə dair fəaliyyət planında ərazi bütövlüyü prinsipi öz əksini tapır və Avropa Birliyi Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəkləyir. O demişdir: Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində sülh yolu ilə həllinin tərəfdarıyıq. Sülh əldə olunduqdan sonra Avropa Birliyi bərpa işlərində yaxından iştirak edəcəkdir.

AZƏRBAYCAN BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATINDA. Azərbaycan Respublikası 02.III.1992 ildə BMT üzvlüyünə qəbul edilmişdir.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti barədə ətraflı bəhs edərək demişdir ki, bu məsələ yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipinə əməl olunmaqla həll edilə bilər.

Xavyer Solana Azərbaycanı regionda çox əhəmiyyətli rol oynayan dövlət kimi səciyyələndirdi və regionla əlaqələrində ölkəmizlə əməkdaşlığın çox mühüm yeri olduğunu vurğuladı.

Görüşdən sonra mətbuat nümayəndələri üçün brifinq keçirildi. Brifinqdə çıxış edən cənab Xavyer Solana dedi ki, Avropa Birliyinin böyük dostu olan Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə çox mühüm bİr anda səfər etmişdir. Azərbaycanla Avropa Birliyi arasında imzalanacaq sənədlərin müddəalarının həyata keçirilməsi imkanları, habelə hələ də həllini tapmayan regional problemlərin aradan qaldırılması yolları da müzakirə olunmuşdur. O cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Gürcüstanda, ümumiyyətlə. Cənubi Qafqazda vəziyyətlə bağlı fikir mübadiləsi aparılmışdır.

Bakıya səfərini xatırlayan Xavyer Solana Prezident İlham Əliyevə Brüsselə gəldiyinə görə təşəkkür etdi və bildirdi ki, zən- nimcə, bu səfərdən sonra Avropa Birliyi ilə Azərbaycan arasındakı əməkdaşlıq daha da inkişaf edəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev bildirdi ki, görüşdə regionla bağlı, habelə ikitərəfli məsələlər nəzərdən keçirildi. Biz indi Avropa Birliyi ilə əməkdaşlığın yeni bir mərhələsinə başlayırıq. Bu əməkdaşlıq Azərbaycanda siyasi və demokratik islahatların aparılması, ölkəmizin müasirləşməsi və iqtisadi inkişafı üçün yaxşı zəmin yaradacaqdır. Avropa Birliyinin yeni qonşuluq siyasəti ölkəmizdəki siyasi və iqtisadi meyarların Avropa Birliyinin meyarlarına uyğunlaşdırılmasına imkan verəcəkdir.

Sonra Prezident İlham Əliyev və Xavyer Solana jurnalistlərin suallarına cavab verdilər. Dövlətimizin başçısı suallara cavabında, ölkəmizdə həyata keçirilən iri neft-qaz layihələrinin heç kimə qarşı yönəlmədiyini, bunun Azərbaycanın müstəqil siyasəti olduğunu bildirdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə

işçi qüvvəsi, sərmayə və xidmətlərin azad yerdəyişməsi üçün şərait yaratmaq; kənd təsərrüfatı və nəqliyyat sahəsində vahid siyasət yürütmək; iqtisadi, sosial, valyuta və investisiya siyasətini əlaqələndirib uzlaşdırmaq yolu ilə "Ümumi bazar" yaratmaqdır.

Avropa İqtisadi Birliyinin başlıca orqanları: Avropa Şurası, Nazirlər Şurası, Avropa Birlikləri Komissiyası, Avropa Parlamenti - 1967 ildən etibarən Avropa Birliklərinin vahid rəhbər orqanlarıdır. Avropa İqtisadi Birliyi Birləşmiş Millətlər Təşkilatında, BMT-nin Ticarət və İnkişaf üzrə Konfransında (YUNKDAT), habelə BMT- nin bir sıra xüsusi təsisatlarında (Beynəlxalq hökümətlərarası təşkilatlarda) müşahidəçi statusuna malikdir; dünyanın 40 yaxın dövləti ilə assosiyasiyalar, gömrük ittifaqı və ticarətə dair razılaşmalar bağlayıb. Avropa İqtisadi Birliyi nəzdində 120-ə yaxın ölkənin nümayəndələri akkreditə olunmuşlar.

Hal-hazırda Avropa Birliyi (AB) adlanır. 1999 ildən Avropa Birliyinin vahid valyutası - avro - dövriyyəyə buraxılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006-cı il noyabrın 7-də Brüsseldə Avropa Birliyində olmuşdur.

Prezident İlham Əliyevi Avropa Birliyi Şurasının baş katibi, xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana qarşılamışdır.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Birliyi Şurasının baş katibi Xavyer Solana ilə təkbətək görüşü olmuşdur.

Avropa Birliyinin Azərbaycanla əlaqələrinə böyük əhəmiyyət verdiyini bildirən Xavyer Solana bunun müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığın inkişafına təkan verəcəyini vurğulamışdı. O, yeni qonşuluq siyasətindən danışaraq, bunu Azərbaycan - Avropa Birliyi əməkdaşlığının yeni mərhələsi adlandırdı. Xavyer Solana Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və regional məsələlərlə də maraqlanmışdı.

Prezident İlham Əliyev ölkəmizin Avropa Birliyi ilə münasibətlərə çox böyük önəm verdiyini vurğuladı, "Yeni qonşuluq siyasətinə dair fəaliyyət planı"nın əhəmiyyətindən danışdı və əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini söylədi.

işlətməklə hədələməyəcəkləri, sərhədlərin toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə ehtiramla yanaşacaqları, mübahisəli məsələləri sülh yolu ilə həll edəcəkləri, bir-birinindaxili işlərinə qarışmayacaqları, insan haqlarına hörmət edəcəkləri, hüquq bərabərliyi və xalqların öz müqəddəratını təyin etmək hüququna əməl edəcəkləri, dövlətlərarası əməkdaşlığı beynəlxalq hüquqa əsasən quracaqları barədə öhdəlik götürmüşlər.

Yekun Aktında təsbit olunan etimadı möhkəmləndirmək tədbirlərinə dair razılaşmalar Avropada sülhün və təhlükəsizliyin möhkəmləndirməsində mühüm rol oynayır. Bu razılaşmalar, ələlxüsus, irimiqyaslı hərbi təlimlər barədə qabaqcadan xəbər verilməsini, təlimlərə nəzarətçi qismində müşahidəçilər dəvət olunmasını və s. ehtiva edir. Siyasi gərginliyin azadılmasını hərbi gərginliyin aradan qaldırılması ilə tamamlayan bu tədbirlər dövlətlər arasında etimadın və qarşılıqlı anlaşmanın möhkəmlənməsi yolunda mühüm addım oldu. (“DEL”).

**AVROPA İQTİSADİ BİRLİYİ** (AİB), “Ümumi bazar” (Avropa Birliyi) (AB). Qərbi Avropanın **15** ölkəsinin təşkilatı; Avropa İqtisadi Birliyinin təsisinə dair müqavilə **25.III. 1957** ildə Romada imzalanıb; müqavilə qeyri - müəyyən müddətə bağlanıb, **01.1.1958** ildə qüvvəyə minib. Belçika, İtaliya, Lüksenburq, Niderland, Fransa, AFR (təsis olunan vaxtdan). Böyük Britaniya, Danimarka, İrlandiya, Portuqaliya **(1986),** Avstriya, Finlandiya, İsveç **(1995),** ABŞ üzv ölkələridir. **1982** ildə Qrenlandiya əhalisi (Qrenlandiyanın statusu) Avropa İqtisadi Birliyindən şıxmaq istədiyini bəyan etdi. **20.11.1984** ilbə Avropa İqtisadi Birliyi çərçivəsində **01.1.1985** ildən etibarən Qrenlandiyanın Avropa İqtisadi Birliyində tam üzvlüyünün dayandırılması barədə kompleks razılaşmalar təsdiq edildi.

Avropa İqtisadi Birliyinin əsas vəzifəsi - üzv ölkələr arasında malların idxal - ixracı üçün gömrük rüsumları və kəmiyyət məhdudiyyətlərini tədricən ləğv etmək; ümumi gömrük tarifi və üçüncü ölkələr barədə razılaşdırılmış ticarət siyasəti müəyyənləşdirmək;

etmək; Avropada təhlükəsizliyin bölünməzliyini, həmçinin üzv dövlətlər arasında əməkdaşlığın inkişafını qəbul etmək; Avropada və bütün dünyada sülh və təhlükəsizliyin qarşılıqlı asılığını etiraf etmək;^nsan hüquqlarına riayət olunmasına, iqtisadi və sosial tərəqqinin, bütün xalqların rifahının yüksəlməsinə töhfələr vermək."^

ATƏT-in Ali məclisi dövlət və hökümət başçılarının müşavirəsidir. Xarici İşlər Nazirləri Şurası mərkəzi icraedici və sə- rəncamverici orqandır. Yüksək Vəzifəli Şəxslər Komitəsi ATƏT-in fəaliyyətini müşahidə edir, idarə edir və əlaqələndirir; cari siyasi məsələlər üzrə məsləhətləşmələr keçirir; ümumi siyasi direktivlər hazırlayır; Şura iclaslararası dövrdə qərarlar qəbul edir. Daimi komitə gündəlik əməli məsələləri həll edir. Milli azlıqlar işi üzrə Ali Komissar bu sahəyə dair operativ tədbirlər keçirir.

Bundan başqa ATƏT-in təhlükəsizlik sahəsində əməkdaşlıq Forumu, Demokratik institutlar və İnsan hüquqları üzrə Büro və Parlament məclisi fəaliyyət göstərir.

ATƏT-in Katibliyi Vyanada (Avstriya) yerləşir. Onun işinə Baş katib rəhbərlik edir. Katibliyin 4 departamenti vardır. Baş katib Yüksək Vəzifəli Şəxslər Komitəsinin təklifi ilə ATƏT Şurası tərəfindən üç il müddətinə seçilir.

Azərbaycan Respublikası 20.1.1992 ildən ATƏT-in üzvüdür, VI1.1992-də isə Helsinki Yekun aktını imzalamışdır. (“DEL”).

AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIĞA DAİR MÜŞAVİRƏNİN YEKUN AKTI (HELSİNKİ AKTI) (1975). Helsinkidə 33 Avropa ölkəsinin, habelə ABŞ və Kanadanın dövlət başçıları tərəfindən 01.VIII. 1975 imzalanıb. Yekun Aktında dövlətlər arasında əməkdaşlığı inkişaf etdirmək və beynəlxalq gərginliyin zəiflədilməsi sahəsində mühüm rol oynamış Avropada təhlükəsizlik və əməkdaşlığa dair razılaşmalar təsbit edilmişdir.

Dövlətlər arasında qarşılıqlı münasibətlərin prinsiplərinə dair Bəyamnamə Yekun Aktının özəyini təşkil edir. Müşavirlərin iştirakçıları qarşılıqlı münasibətlərdə suveren bərabərlik prinsiplərini əldə rəhbər tutacaqları, bir-birinə qarşı güc işlətməyəcəkləri, zor

AVROPA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ MÜŞAVİRƏSİ (ATƏM, 1994 İLDƏN AVROPA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ TƏŞKİLATI - ATƏT). Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun aktı VIII. 1975 il-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 ölkəsi, ABŞ və Kanadanın dövlət və hökümət başçıları tərəfindən imzalanmışdırA Bu sənəd beynəlxalq gərginliyin zəifl ədilməsi, xalqların yaxınlaşması, Avropada əməkdaşlığın inkişafının uzunmüddətli proqramı kimi mühüm əhəmiyyətə malikdir.

1990 ildə Yeni Avropa üçün Paris Xartiyasının imzalanması və bir sıra yeni institutların yaradılması ilə ATƏM-in fəaliyyətində yeni dövr başlandı. Berlində (1991), Praqada (1992), Stokholmda (1992), Romada (1993), Budapeştdə (1994), Lissabonda (1996) və s. keçirilmiş görüşlər, qəbul olunmuş sənədlər ATƏM-in fəaliyyətində əsaslı dönüşə səbəb oldu.

^Budapeşt sammitində ATƏM ATƏT adlandırılmışdır./ ATƏT-in Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlığı BMT Katibliyi ilə çərçivə müqaviləsinin bağlanmasına və BMT Baş Məclisində müşahidəçi statusuna əsaslanır. 1992 il Helsinki Bəyannaməsində üzv dövlətlər ATƏM-i BMT Nizamnaməsinin VII fəslinə uyğun olan regional saziş elan etdilər.

1975 il Helsinki Yekun aktında (Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirəsinin Yekun Aktı) ATƏM üzvü olan dövlətlər qarşılıqlı münasibətlər üçün əsas kimi ***10 prinsip qəbil etmişdir:*** dövlətlərin suveren bərabərliyi; zor etməmə və zor tədbiq etməklə hədələməmə; sərhədlərin toxunulmazlığı; dövlətlərin ərazi bütövlüyü; mübahisələrin sülh yolu ilə həlli; daxili işlərə qarışmamaq; fikir, vicdan, dini və etiqad azadlığı daxil olmaqla insanın hüquqi və əsas azadlıqlarına hörmət; bərabərlik və xalqların öz müqəddəratını həll etmək hüququ; beynəlxalq hüquqi öhdəliklərin vicdanla yerinə yetirilməsi.

(ATƏT- in ***məqsədləri:*** qarşılıqlı münasibətlərin yaxşılaşdırılması və uzunmüddətli sülhün təmini üçün şəraitin yaradılmasına yardım etmək; ^ beynəlxalq gərginliyin zəiflədilməsinə yardım

# VfI BOLMƏ

# AZƏRBAYCAN VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR

Gələcək diplomatlar diplomatik xidmət və diplomatik protokola dair yuxarıdakı qısa ensiklopedik məlumatdan başqa həm də beynəlxalq həyatda böyük rol oynayan beynəlxalq təşkilatlar, onların növləri, mühüm siyasi, ictimai, iqtisadi və s. regional orqanların yaranması, əsas vəzifələri, bu təşkilatlarda çalışan şəxslərin immunitet və imtiyazları, onların hüquqlarının diplomatlarla eyniliyi və fərqləri, müstəqil Azərbaycan Respublikasının bu beynəlxalq və regional təşkilatlarda iştirakı və yeri və s. məsələlərlə də tanış olmalı, onları yadda saxlamalıdırlar. Öz təcrübəmdən bilirəm ki, Əfqanıstanda Sovet səfirliyində ikinci katib işlədiyim zaman (1979-1988) səfirin təcili tapşırığı ilə bir neçə dəfə müxtəlif beynəlxalq təşkilatlar, məs., BMT Günü, İTK, Əfqanıstanın KİV-i bu gün, Əfqanıstanda ordu quruculuğu və s. haqqında ən qıssa müddətdə qonşu otaqda oturub ona lazım olan məlumatı yazmalı olmuşam.

Diplomatların stolüstü məlumat kitabı üçün belə məlumatların vacibliyini nəzərə alaraq yuxarıdakı məsələlərə dair məlumatları da burada verməyi lazım bildim. Bu məlumatlar da əsasən müqəddimədə göstərilmiş “Diplomatiya: Ensikloprdik lüqəf’ kitabından əxzr olunmuşdur. Bu mənbədə məsələlərin şərhi öz yığcamlığı və lokonikliyi ilə diqqəti cəlb edir və bu növ məsələlər üçün ən mötəbər və tutarlı mənbədir. Təbiidir ki, məlumatların yeniləşməsi üçün onlara ən yeni (2007-ci ilə qədər) faktların əlavə olunmasına diqqət yetirilmişdir.

Biz ilkin olaraq ŞKTR sabiq prezidenti Rauf Denktaşın Şimali Kipr türklərinin mübarizəsinə həsr olunmuş kitabını rus dilinə çap edib MDB məkanında yaymağa müvəffəq olduq. Dedik, qoy hamı bu qəhrəman xalqın mərdlik səhifələrini oxusun, onu sevsin, onu tanısın, ermənilərin çirkin ürəyinə dağ olsun.

Bu gün Azərbaycan oxucusu, İsmail Bozkurtun «Yusufçuklar öldümü» əsərini, Alcvi-Bektaşi şeirlərini, Cemal Kumazın hazırladığı «Anadoluda Orta Asiyalı şairlər» kitabını, Altay türklərinin qəhrəmanlıq dastanı Ahp Manası, Erkine Ematin çap etdirdiyi çağdaş uyğur şeiri ontologiyasını, Kıbrıs türk xalqının müasir şairlərinin ən son sevilən kitablarından biri olan «Ulusal şerlər»ini oxuyur, teatrlarının repertuarlarını öyrənirlər. Bunlar mədəni-ədəbi əlaqələrimizin parlaq nümunələrindəndir.

Şimali Kipr Türk Respublikasının tanınmış şairi Mehmet Leventin tərtib edərək qısa və dolğun müqəddimə yazdığı «Ulusal şeirlər» kitabında müasir Kipr türk şairlərindən Oktay Öksüzoğlu, Orbay Deliccirmak, Venhar Keskin, Ayşc Başar, Eren Başaran, Soner Çuvalçıoğlu, Özer Gursəs, Yaşar Arıkfıdan, Vcyscl Özdoğan, Cevdet Çağdaş və başqalarının ən təzə şeirləri, türk qardaşlarımız demişkən, onların «bakımsızlıq» - yəni müstəqillik və azadlıq marşları, sülh və əmin-amanlıq nəğmələri toplanmışdır. Kitabın müqəddiməsində oxuyuruq: «Kıbrıs türk halkının, ulusal benligini korumak, insan hak və özgürlüklerinə sahip çıkarak bu vatan topraklarmda şereflc yaşamak amacıyla ortaya koyduğu mücadele yüz yıl kibi çox uzun bir zaman sonunda başarıya ulaşmıştır». Müqəddimədə daha sonra deyilir: «Bu başarıyı davamlı kılmak mücadelemiz ise sürmektedir..., halkımızın bu vatan topraklarmda başka halklara köle olmadan sonsuza dek yaşamak azmindadır». Biz azərbaycanlılar Şimali Kipr qardaşlarımızın bu əzmini alqışlayır, onlara bu müqəddəs əzm və iradələrində mərdlik, dözüm və mətanət diləyir, öz nəcib məqsədlərinə çatmaq üçün onlara əsl türk inadı, türk mübarizliyi arzulayırıq.

9 mart 2007-ci ildə Bakıda Keçirilmiş Dünya Azərbaycan - Türk diasporları rəhbərlərinin I forumunda iştirak edən Şimali Kiprin lideri Mehmet Əli Tələt çıxışında demişdir:

“Dünyada Kipr türklərinə qarşı müxtəlif təcridlər davam etdiyi bir vaxtda bu mühüm toplantıda Azərbaycan və türk diaspor təşkilatlan nümayəndələri ilə birgə Kipr türklərinin də təmsil edilməsi onların dünyada tək olmadıqlarını göstərir. Bundan böyük bir sevinc duyuruq. Ona görə ki, bu həmrəylik, bu dostluq, bu sevgi seli, bu dəstək Kipr türklərini həqiqətən də, təklikdən qurtaracaq və onları layiq olduqları yerə, barışa, bərabərliyə və qardaşlığa qovuşduracaqdır”.*

Bu mül^arizədə neçə illərdir ki, bizdən heç nəyi əsirgəmədən, heç bir şərt irəli sürmədən bizə dəstək olan Türkiyə ilə çox yaxın, qardaşlıqdan da artıq əlaqələrimiz olub və bu gün də davam edir. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra türkdilli dövlətlər içərisində bizə ən böyük dəstək verən, ən yaxın olan ikinci ölkədir. Səylərimizdə, mübarizimizdə dəstəyinə və töhfəsinə görə Azərbaycana, onun qədim və qonaqpərvər xalqına minnətdarıq.

Bu arzu və istək xaricdəki diplomatlarımızın da təbliğat mövzusu olmalıdır.

**‘Respublika” qoz., 10 mart 2007.**

nrakı dövrlorin şöhrətli söz sənəti biliciləri olan Yusif Ziya Ortac, Faruk Hafəz Çamlıbel, Xalid Fəxri Ozonsoy, Rəfiq Xalid Gəray, Hüseyn Rəhmi Gürpinar və başqalarının yaradıcılığı Azərbaycan oxucularına çoxdan tanışdır. Azərbaycanda neçə-neçə nəsillər Za- lidə Ədib, Rəşad Nuri Güntəkin, Yaqub Qədri (Qaraosmanoğlu), Aka Gündüzün romanları ilə tərbiyələnmiş, Səbahəddin Alinin «İçimizdəki iblis» əsərinin qəhrəmanları ilə yaşamış, Tencr Hal- dun, Fakir Baykurt, Erdal Öz, Bəkuir Yıldız, Tank Dursun, Kamal Bilbaşar, Rəşad Erduran, Ziya Osman Səba və bir çox başqa sənət- karlarmın əsərlərindəki demokratik ruh və azadlıq istəyindən bəhrələnmişlər.

Azərbaycan və türk ədəbiyyatları, eləcə də xalq şeiri bir-biri ilə sıx əlaqədə inkişaf edərək dünya ədəbiyyatı səhnəsinə daxil olmuşdur. Bir sıra Azərbaycan sənətkarları, məsələn. Mirzə Fətəli Axundov, M.Ə.Rəsulzadə, Əhməd Cavad, S.M.Qənizadə və neçə- neçə görkəmli Azərbaycan söz ustadları Türkiyədə yaşamış, onun bərəkətli torpağını. Qara dənizi, onun incisi Bosforu, Aralıq dənizi sahillərini seyr edib tərənnüm etmiş, oradan buraya öz azadlıq sədalarını xalqa çatdırmışlar. Məlumdur ki, böyük M.F.Axundov bütün Yaxın və Orta Şərqdə, o cümlədən Türkiyədə ədəbi, fəlsəfi və ictimai fikrin inkişafına qüvvətli təkan vermişdir. Bunu türklərin özləri də qeyd edir, M.F. Axundovu yüksək qiymətləndirirlər.

Türk ədəbiyyatının ən yaxşı nümunələri hələ Azərbaycan son müstəqillik yoluna qədəm qoymazdan əvvəl də Respublikamızda yayılmışdı. Klassik və müasir türk ədəbiyyatınm bir sıra nümunələri, məsələn, «Türk xalq şerindən seçmələr», «İki zirvə», «Yaşasın dəniz» və s. toplular, Tofik Fikrət, Nazim Hikmət, Rəşad Nuri Güntəkin, Səbahəddin Qədri və başqa türk yazıçılarının əsərləri Azərbaycan dilinə tərcümə olunmuş, Azərbaycan ədəbiyyatının bir sıra nümunələri, o cümlədən ən müasir sənətkarlarımız olan Bəxtiyar Vahabzadə, Anar, Nəbi Xəzri,Fikrət Qoca və başqalarınm əsərləri qardaş türk oxucularına çatdırılmışdır. Seyfəttin Altayimın hazırlayıb çap etdirdiyi Xəlil Rza Ulutürkün fundamental kitabı olan «Azadlıq» şeirlərini indi biz türkcə oxuyuruq. Hər iki ölkənin sənət adamlarının qarşılıqlı səfərləri tədricən ənənəyə dönmək

dədir. Türk yazıçıları Anday, K.Tahir, T.Haldun, F.H.Dağlarça və başqaları Azərbaycana səfərlər ediblər. Azərbaycan sənətkarlarının, o cümlədən şair və yazıçılarımızın, xanəndələrimizin, musiqi və rəqs kollektivlərinin, rəssamlarımızın, kinematoqrafiya işçilərimizin Türkiyəyə səfələri olanda, həmçinin Şimali Kipr Türk Respublikasına da getməli, kiprli türk sənətkarları Bakıya qastrol və yaradıcılıq görüşlərinə gəlməlidirlər. Belə qarşılıqlı səfərlər xalqımızın daha da qardaşlaşmasına, mədəniyyətlərimizin və ədəbiyyatlarımızın daha da zənginləşməsinə səbəb olar. Bu cür səfərlər əsl xalq diplomatiya nümunəsidir, böyük diplomatiyanın başlanğıcıdır. Təkcə onu göstərmək kifayətdir ki, Ü.Hacıbəyovun ölməz «Arşın mal alan»ı kiprlilərə 1927-ci ildən məlumdur və indi də sevlilir. Böyük Nazim Hikmətin eyni adlı pyesi əsasında Arif Məlikovun bəstələdiyi «Məhəbbət əfsanəsi» baleti isə türk və Azərbaycan mədəniyyətlərinin vəhdətinin bariz nümunəsidir. Bu ölməz əsər hər iki xalqı Leninqrad (indiki Sankt-Peterburq), Moskva, Paris və s. şəhərlərdə iftixarla təmsil edir. Q.Qarayevin «Yeddi gözəl» baletini, S.Hacıbəyovun «Karvan» simfoniyasını, C.Ca- hangirovun «Füzuli kantatası»nı türk qardaşlarımız da sevirlər. Şimali Kiprdə yaşayıb-yaratmış Kenzi, Sükuti İsmayıl ağa. Həsən Hilmi Əfəndi, Müfti Raci və b. sənətkarlar biz azərbaycanlılara məlumdur. Biz Nazif Süleyman Ebeoğlu, Özger Yaşin, Fikrət Də- mirdağ. Oğuz Kuçetoğlu, Fadıl Qorqud, Yüner Ulutuğ, Hikmət Əfıf Mapolar və b. sənətkarları tanıyırıq və onların ədəbi irsinə ehtiramla yanaşırıq.

Böyük türk yazıçısı Yaşar Kamalın «Ağrıdağ əfsanəsi» adlı romanı çap olunmuşdur. Əsəri Azərbaycan dilinə çevirmiş tanınmış türkoloq, türk ədəbiyyatmın Azərbaycanda ardıcıl təbliğatçısı tərcüməçi Qədir İsmayıl Səlimoğlu əsərə verdiyi müqəddimədə haqlı olaraq yazır: «Bu roman «Dədə Qorqud» boylarından. Koroğlu dastanlarından, Qaracaoğlan şeirlərindən, bu soylu qaynaqlardan yola çıxmışdır». Bəli, bu roman qəhrəmanları Azərbaycan oxucusu ilə qaçqınlı-köçkünlü zəmanəmizdə dərdləşməyə, Qarabağ niskilli ürəklərimizdə özlərinə yer eləməyə və bizə toxtaqlıq verməyə gəlmişlər. Bizə arabir qonaq gələn Şimali kiprli dostlarımız kimi.

16.VIH.1960 ildə Kipr müstəqil respublika elan olundu. 1964 ildə Londonda İngiltərə, Yunanıstan, Türkiyə və Kiprin iştirakı ilə keçirilən konfransda adaya NATO qoşunlarını göndərmək və orada idarəçiliyə kömək etmək üçün beynəlxalq komitə yaratmaq məsələsi müzakirə olundu. BMT Təhlükəsizlik Şurasının Qətnaməsi əsasında 04.111.1964 ildə Kiprdə BMT qoşunları yerləşdirildi. Lakin adada yaşayan türk və yunan icmaları arasında danışıqlar nəticə vermədi.

1974 ildə Kipdə dövlət çevrilişi oldu, türk icmasına qarşı soyqırım siyasəti həyata keçirilməyə başlandı. 20.VII.1974-də i.sə Türkiyə öz qoşunlarını türk icmasını müdafiə etmək məqsədilə Kiprə yeritdi və adanın 36,4%-nə nəzarət etməyə başladı.

13.11.1975 ildə türk icmasının rəhbərliyi Kipr Türk Federativ dövlətini yaratdı. 20.V1.1976 ildə R. Denktaş həmin dövlətin prezidenti seçildi. 15.X1.1983 ildə Şimali Kipr Türk Cümhuriyyəti elan olundu.

Kiprin yunan və türk icması arasında 1968 ildən BMT xətti ilə başlanan danışıqlar bu vaxta kimi müsbət nəticə verməmiş və problem öz həllini tapmamışdır. 2004-cü ildə adanın vahid dövlət kimi birləşməsinə dair BMT Baş Katibi K. Annanın təklifi ilə keçirilmiş referenduma Kiprin yunan əhalisi mənfi cavab vermişlər.

Müstəqil Azərbaycan Resupblikası ilə Quzey Kıbrıs (Şimali Kipr) Türk Respublikası arasında de-fakto iqtisadi-siyasi əlaqələr hələ təzədir.

İki qardaş xalqın Şimali Kipr türkləri ilə bizim ədəbi- mədəni əlaqələrimiz də təzə-təzə ayaq açıb yeriyir. Lakin bu əlaqələr artıq bütün respublikamızda öz bariz nəticəsini verməkdədir. Kiprli dostların Bakıda açılmış ədəbiyyat-kitablar sərgisi artıq ədəbi-mədəni əlaqələrimizin yaxşı səhifələrindən birini təşkil edir. Bu əlaqələrin fıındamcntinin qoyulmasında Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti cənab Rauf Denktaş, məclis sədri Təhsin Ertoğrul Hasiboğlu, Xarici İşlər və Müdafiə naziri Təhsin Ertoğruloğlu, Milli təhsil və mədəniyyət naziri Mehmel Altınay, Şərqi Aralıq Dənizi Universitetinin rektoru Özay Oral mühüm rol oynamışlar. Əlaqələrimizin getdikcə inkişaf edib vüsət

almasında Şimali Kipr Türk Cümhuriyyətinin Bakıda təmçilçisi Ayfer Səid Erkmenin rolunu da xüsusi qeyd etmək lazımdır.

Azərbaycan-Şimali Kipr Türk Respublikasının ədəbi-mədəni əlaqələr mövzusunu ümumtürk kontekstindən ayırmaq olmaz və bu heç mümkün də deyil. Bu əlaqələri ümumi Azərbaycan-Türk Respublikası xalqları arasındakı qədim ədəbi-mədəni əlaqələr fonunda görməli, bu əlaqələrin köklərini xalqlarımızın tarixi köklərində axtarmalıdır. Bir şeirimdə dediyim kimi:

Kiprli dostlara açılan ürək.<br>
İgid türk soyundan od alacaqdır.<br>
Bu sədaqət andı alova dönüb.<br>
Xəzərin qoynunda nurlanacaqdır.

***(M. Hacıyev)***

Azərbaycanlılar türk folklorunun ən qədim nümunələri olan «Oğuznamə»ni, ölməz əsər, 1300 illiyini təntənə ilə qeyd etdiyimiz «Kitabi-Dədə Qorqud»u, «Koroğlu» eposunu... özlərininki hesab etdikləri kimi həm də ümumtürk şifahi xalq ədəbiyyatı nümunələri hesab edirlər. Bunlar türk xalqlarının hamısının müştərək ədəbi abidələridir. Bizim atalar sözlərimiz, zərbül-məsəllərimiz, tapmacalarımız, mahnı və türkülərimiz eyni və ya oxşar olub eyni dilli, eyni təfəkkür tərzli türk övladının işıqlı fikirlərinin məhsuludur. Azərbaycan Molla Nəsrəddini ilə türkün, o cümlədən Şimali Kipr türkünün Nəsrəddin Xocası haqqında lətifələr sanki bir ağızdan çıxmışdır. Nağıllarımız da eynidir, aşıq dastanlarımız da, bayatılarımız, laylalarımız, xorvatlanmız da. Azərbaycan oxucusu Yunus İmrə şeirini heç də böyük Füzuli şeirindən az sevmir. Azərbaycanlılvar türk dilində ilk iri həcmli ədəbi əsər olan Aşiq Paşanın «Qəribnamə» poemasını dahi Nizami Gəncəvinin «Xəmsə» mövzularında yazan XIV-XV əsr türk sənətkarları Əhmədinin «İskəndəmamə», Şeyxinin «Xosrov və Şirin» və s. əsərləri ilə bərabər yüksək qiymətləndirir, iftixarla oxuyarlar. İstər orta əsrlərin şairləri olan Əhməd Paşa, Nicati, .Məsihi, Mahmud Taqi, şairə Mehri Xatun, istər tənzimat döviünün görkəmli simaları olan İbrahim Şinasi, Namiq Kamal, Şəmsəddin Sami, Əhməd Midhət, Rəcaizadə Əkrəm, Rza Tofiq, istərsə də daha so-

normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Hazırda beynəlxalq ictimaiyyətin və beynəlxalq təşkilatların bu məsələyə baxışlarında da müəyyən dəyişikliklər baş vermişdir.

Vurğulamaq lazımdır ki, tarixi vətənimiz olan Azərbaycan hüdudlarından kənarda, o cümlədən dost Ukraynada məskunlaşmış milyonlarla soydaşlarımızın vahid bir amal ətrafında birləşdirilməsi istiqamətində indiyədək əldə olunan bütün nailiyyətlər ümummilli liderimiz Heydər Əliyevin adı və məqsədyönlü fəaliyyəti ilə bağlıdır.

Xalqımızın mənəvi birliyi, azərbaycançılıq ideyaları dünya azərbaycanlılarının I qurultayında öz parlaq təcəssümünü tapmışdır. Xarici ölkələrdə yaşayan bir çox həmvətənlərimizin iştirak etdiyi bu qurultayda milli öndərimiz Heydər Əliyevin proqram xarakterli çıxışı Ukraynada milli diasporumuzun formalaşmasında, bütövlükdə tarixi proseslərin inkişafında keyfiyyətcə yeni bir mərhələ açdı.

Heydər Əliyevin 1997-ci ildə Ukraynaya rəsmi səfərində diaspor nümayəndələri ilə görüşü tarixi hadisəyə çevrildi. Onun tövsiyə və göstərişləri əsasında Ukrayna Azərbaycanlıları Konqresi, müxtəlif şəhər və vilayətlərdə regional təşkilatlar yaradıldı.

Ümummilli liderimiz Heydər Əliyevin 20 iyun 2002-ci ildə Yalta şəhərində diaspor fəalları ilə görüşü Azərbaycan - Ukrayna dostluq əlaqələrinin daha da möhkəmlənməsinə, diasporumuzun təşəkkül tapmasına təkan verdi.

Ümummilli liderimiz Heydər Əliyev müstəqil Ukrayna dövlətinin ən yüksək mükafatı olan "Yaroslav Mudrıy" ordeni ilə təltif edilmişdir. Bu ordenlə yalnız 2-3 dövlət başçısı təltif olunmuşdur.

Hazırda Kiyev şəhərində Heydər Əliyev adına Sosyal Elmlər İnstitutu fəaliyyət göstərir ki, bu ali məktəbdə söydaşlarımız müxtəlif ixtisaslar üzrə təhsil alırlar.

Kiyevin mərkəzi küçələrindən birinin qarşısında ümummilli liderimiz Heydər Əliyevin əzəmətli heykəli ucaldılmışdır. Bu

ölkədə yaşayan həmvətənlərimiz həmişə heykəlin önünə tər gül- çiçək dəstələri düzür, ulu öndərə özlərinin dərin məhəbbət və ehtiramlarım bildirirlər.

2006-ci ilin payızında Kiyev şəhərində dahi Azərbaycan şairi Səməd Vurğunun heykəlinin ucaldılması Azərbaycan-Ukrayna dostluğunun möhkəmlənməsinə daha bir bariz nümunədir.

Azərbaycan - Ukrayna dostluq əlaqələri bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın dövlət başçısı 4 iyun 2004-cü ildə Ukraynanın paytaxtı Kiyev şəhərində Heydər Əliyevin heykəlinin və İrpendə akademik Zərifə xanım Əliyevanın abidəsinin açıışındakı nitqində vurğulamışdır ki, bu ölkədə yaşayan azərbaycanlılar öz layiqqli yerlərini tutublar, onlar Ukraynanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında çox mühüm rol oynayırlar.

Azərbaycan-Ukrayna əlaqələri gündən-günə daha fərəhli nəticələr verməkdədir.

AZƏRBAYCAN-KİPR ƏLAQƏLƏRİ. İkinci dünya müharibəsindən sonra imperializm müstəmləkə sisteminin dağılması ərəfəsində ortaya çıxmış bir problemlərdən biri də Kipr (Kıbrıs) məsələsidir.

Antifaşist qüvvələrin qələbəsinin yaratdığı əlverişli şərait Kipr xalqının ingilis ağalığına qarşı milli azadlıq hərəkatını gücləndirdi. Ölkə əhalisinin 78%-ni təçkil edən yunan icması Yunanıstana birləşmə - “enozis” siyasətini, əhalinin 18%-ni təşkil edən türk icması isə adanın bölüşdürülməsi - “taksim” siyasətini irəli sürdü. Bunun nəticəsində Yunanıstan və Türkiyə arasında münasibətlər kəskinləşdi.

1954-1955 illərdə yunan hökuməti Kipr məsələsini həll etmək təklifi ilə BMT-yə rəsmi müraciət etdi.

11.11.1959 ildə Sürixdə Yunanıstan və Türkiyə arasında və l9.II.1959-da Londonda İngiltərə, Yunanıstan, Türkiyə və Kiprin türk və yunan icmaları arasında Kipr məsələsinin həlli yolunda sazişlər imzalandı.

AZƏRBAYCAN-UKRAYNA MÜNASİBƏTLƏRİ. İki dövlət arasında diplomatik münasibətlər 31.1.1992 ildə yaradılıb. Bu məsələ ilə bağlı imzalanan protokolda suverenliyə hörmət, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığı, bir-birinin daxili işlərinə qarışmamaq və insan hüquqlarının qorunması prinsipləri iki ölkə münasibətlərinin inkişafı üçün əsas götürülüb. Kiyevdə və Bakıda iki ölkənin səfirliklərinin açılması haqqında 28.VII.1995 ildə imzalanmış protokola uyğun olaraq, 1996 ildə Ukraynanın Azərbaycanda, 1997 ildə isə Azərbaycanın Ukraynada səfirliyi açılıb. Azərbaycan Respublikası və Ukrayna Xarici İşlər Nazirlikləri arasında 28.V1I.1995 ildə siyasi məsləhətləşmələr haqqında protokol imzalanıb. 24.III.1997 ildə iki ölkə arasında Konsul Konvensiyası bağlandı. Bu sənədlər ikitərəfli əməkdaşlığın müqavilə-hüquqi bazasını yaratdı. Regional təhlükəsizlik problemləri, MDB çərçivəsində qurulan münasibətlər, Avropa strukturlarına inteqrasiya və s. məsələlər üzrə iki dövlət arasında səmərəli əməkdaşlığın yaradılması Azərbaycan - Ukrayna münasibətlərini strateji səviyyəyə qaldırıb. İmzalanmış çoxsaylı sənədlər iki ölkənin strateji əməkdaşlığı üçün əsaslı hüquqi zəmin yaradıb. Bu baxımdan iki ölkənin müdafiə nazirləri arasında hərbi sahədə əməkdaşlıq haqqında saziş (24.111.1997), hərbi təhsil müəssisələrində hərbi kadrların hazırlanması barədə saziş (24.111.1997), Dövlət sərhədlərinin qorunmasında əməkdaşlıq haqqında saziş (30.VII.1997) və Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Ukrayna Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında saziş (28.VII.1995) və s. sənədləri göstərmək olar.

İki dövlət arasında əlaqələrin inkişafında qarşılıqlı rəsmi səfərlər mühüm rol oynayıb. Prezidentlər, baş nazirlər və nazirlər səviyyəsində təşkil edilən səfərlər səmərəli olub. Ukrayna prezidenti L. Kuçma 27-28.VII.1995 ildə Bakıda rəsmi səfərdə olarkən ikitərəfli əlaqələrin inkişafı və bir sıra beynəlxalq problemlər ətrafında geniş fikir mübadiləsi aparılıb, bir sıra sənədlər, o cümlədən hava nəqliyyatı əlaqəsi sahəsində əməkdaşlıq haqqında

müqavilə, siyasi məsləhətləşmələr barəsində protokol, vətəndaşların təqaüd təminatı, azad ticarət, səfirliklərin açılması, ticarət - iqtisadi əməkdaşlıq haqqında sazişlər bağlanıb. Bu səfər zamanı L. Kıiçma Ukraynanın ATƏT-in Qarabağdakı sülhməramlı missiyasında iştirak etməyə, münaqişə bölgəsinə hərbi müşahidəçiləri göndərməyə, münaqişə edən tərəflər arasında görüş və danışıqların keşirilınəsi üçün Ukrayna ərazisindən istifadə etməyə razılığını bildirdi.

24- 25.111.1997 ildə Azərbaycan Respublikasının prezidenti H. Əliyev Kiyevdə rəsmi səfərdə olub. Səfər zamanı iki ölkə arasında münasibətlərin dərinləşməsi barədə birgə Bəyannamə və bir sıra başqa sənədlər imzalanıb. IX. 1998 ildə Bakıda tarixi İpək yolunun bərpasına həsr olunan beynəlxalq konfransda L. Kuçma da iştirak edib. Rəsmi səfərlər zamanı iki dövlət arasında imzalanmış sənədlərin icrası nəzərdən keçirilib, əlaqələrin prespektiv inkişaf istiqamətləri müəyyən edilib.

2006-cı ildə Azərbaycan prezidenti İ. Əliyevin Ukraynaya və Ukrayna prezidenti V. Yuşenkonun Azərbaycana rəsmi səfərləri iki ölkə arasında münasibətlərin inkişafına xüsusi təkan verdi.

Avropanin böyük dövlətlərindən olan və 500 minə yaxın soydaşımız yaşayan Ukrayna və Azərbaycan strateji tərəfdaşdırlar. Ikiteretli münasibətlərdə, həm regionda gedən proseslərə baxışlarımız, həm də beynəlxalq siyasət məsələlərində mövqelərimiz eynidir. Vurğulamaq lazımdır ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlıq güclənir, mal dövriyyəsi artır. Bu, bir tərəfdən onu göstərir ki, ölkələrimizin iqtisadiyyatı hərtərəfli inkişaf edir. Digər tərəfdən Azərbaycan və Ukrayna arasında mövcud olan iqtisadi əlaqələr daha da güclənir. Əlbəttə, Ukraynada yaşayan və bizneslə məşğul olan həmvətənlərimizin bu işdə böyük rolu ola bilər və onlar bu sahədə öz töhfələrini verə bilərlər.

GUAM təşkilatına daxil olan ölkələr arasında Azərbaycan və Ukraynanın vahid mövqedən çıxış etməsi həmişə diqqəti cəlb edir. Ukrayna dövləti birmənalı şəkildə Firmənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanı dəstəkləyir, belə bir mövqedən çıxış edir ki, bu münaqişə yalnız beynəlxalq hüquq

publikasının hökuməti arasında mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Tacikistanın mədəniyyət naziri Mirzoşoxrux Asrorov imzaladılar.

1'acikistan Respublikasının hökuməti ilə Azərbaycan Respublikasının hökuməti arasında gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişi Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Tacikistan hökuməti yanında Gömrük Xidmətinin sədri Qurez Zaripov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Tacikistan hökuməti yanında Gənclərin İşi, İdman və Turizm Komitəsinin sədri Davlatali Saidov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında standartlaşdırma, metrologiya, sertitlkasiya və akkreditasiya sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin baş direktoru Ramiz Həsənov və Tacikistan hökuməti yanında Standartlaşdırma, Metrologiya, Sertifikasiya və Ticarət Müfəttişliyi Agentliyi direktoru Davlati Hotəmov imzalamışlar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında dəmir yol nəqliyyatı sahəsində əməkdaşlıq haqqında saziş Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov və “Roxu Oxanu Tacikistan” Dövlət unitar müəssisənin sədri Emoməli Xokimov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında hava əlaqəsi haqqında sazişi “Azərbaycan Hava Yolları” Dövlət Konserninin baş direktoru Cahangir Osgərov və “Tacikeyr” Dövlət unitar aviasiya müəssisəsinin baş direktoru Xakimşo Tulloyev imzaladılar.

Azərbaycan prezidenti İlham Əliyevin bu səfərinin hər iki ölkənin dostluq və əməkdaşlığı üçün olduqca faydalı olacağı qeyd olunmuşdur.

dostluq münasibətlərinin və əməkdaşlığın daha da möhkəmlənməsinə və inkişaf etməsinə yönəldiləcəkdir.

Sizə möhkəm cansağlığı, xöşbəxtlik və dost Tacikistan xalqının rifahı naminə dövləti fəaliyyətinizdə uğurlar arzulayıram”. Teleqramın məzmuni ölkələrimizin əlaqələrinin getdikcə yüksəldiyindən xəbər verir.

Azərbaycan prezidenti 15-16 mart 2007-ci ildə Tacikistanda rəsmi səfərdə olmuşdur.

Prezidentlər İlham Əliyev və Emoməli Rəhmonov Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalamışlar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında Azərbaycan Respublikası və Tacikistan Respublikası vətəndaşlarının qarşılıqlı vizasız gediş- gəlişi haqqında sazişi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Tacikistanın xarici işlər naziri Xamroxon Zarupov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişi Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev və Tacikistan Respublikası investisiyalar və Dövlət Əmlakının İdarəolunması üzrə dövlət Komitəsinin sədri Şərif Raximov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında ticarət-iqtisad i əməkdaşlıq haqqında sazişi Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev və Tacikistanın iqtisadi inkişafı və ticarət naziri Qulomjon Boboyev imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında beynəlxalq avtomobil əlaqələri sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov və Tacikistanın nəqliyyat və kommunikasiyalar naziri Abdulraxim Aşurov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Res-

Agentliyi arasında “Əməkdaşlıq haqqında memorandum”, Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında “Ticarət - İqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq haqqında 1995-ci il avqustun 2-də Buxarest şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə Əlavə protokol”, Azərbaycan Respublikası Hökuməti və Rumıniya arasında “İnvestisiyaların təşviqi və qorunması haqqında 2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə Əlavə protokol” və s. sənədlər İmzalanmışdır.

Rumıniya Prezidentinin Azərbaycana bu səfəri iki ölkə arasında münasibətlərdə yeni mərhələdir.

**AZƏRBAYCAN-^TACİKİSTAN MÜNASİBƏTLƏRİ.**

Azərbaycan və Tacikistan bir-birinin dövlət müstəqilliyini 21.XII. 1991 ildə Almatı Bəyannaməsilə tanıyıb. Hələ ilk vaxtlar diplomatik əlaqələrin yaradıİmamasma baxmayaraq, iki ölkənin rəsmi dairələri arasında beynəlxalq təşkilatlar xəttilə keçirilən toplantılarda görüş və söhbətlər keçirilirdi. MDB daxilində keçirilən toplantılar zamanı Azərbaycan - Tacikistan əlaqələrinin inkişafı və regional problemlər barədə fikir mübadiləsi aparılırdı. 30.IX.I999 ildə iki ölkənin milli təhlükəsizlik nazirlikləri arasında “Əməkdaşlıq haqqında saziş” imzalandı. Bu, iki ölkə arasında imzalanmış ilk sənəddir. Daha sonra yüksək səviyyədə görüşlər keçirildi. Ölkələr arasında səfirlik, iqtisadi-ticarət əlaqələri mövcuddur.

2000-cl illərdən sonra bu münasibətlər yüksələn xəttlə inkişaf etməkdədir. Tacikistan-Azərbaycan əlaqələri getdikcə genişlənir. Azərbaycan Respublikasının prezidentinin Tacikistanın yenidən prezidenti seçilmiş Emoməli Rəhmonova 8.11.2006 tarixli teleqramı buna ən yaxşı şübutdur.

'I’eleqramda deyilir:

“Hörmətli Emoməli Şərifoviç!

Tacikistan Respublikasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə təbrik edirəm. Əminəm ki, bundan sonra da birgə .səylərimiz Azərbaycan ilə Tacikistan arasında ənənəvi

rəsmən tanıyan ilk Avropa dövləti Rumıniya olub. İki ölkə başçıları arasında ilk rəsmi görüş XII. 1994 ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Budapeşt Zirvə toplantısında baş verib. Azərbaycan və Rumıniya prezidentlərinin ikinci görüşü I2.III.I995 ildə Kopenhagendə keçirilib. IV. 1995 ildə Rumıniyanın xarici işlər naziri Bakıya gəlib. Azərbaycan prezidenti H. Əliyevlə görüşündə o, Rumıniyanın Bakıda səfirliyinin açılmasını məqsədəmüvafiq sayıb. 30.VI.1995 ildə Azərbaycan prezidenti Buxarestə gəlib. Hər iki dövlət başçısının görüşündə iqtisadi, siyasi, mədəni sahələrdə əməkdaşlığın prespektivləri müzakirə olunub və bir sıra dövlətlərarası sazişlər imzalanıb: "Azərbaycan və Rumıniya arasında qostluq və əməkdaşlıq haqqında Bəyannamə", "Ticarət- iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında" hökümətlərarası saziş, "Elm, təhsil, mədəniyyət və idman sahəsində" saziş.

III. 1996 ildə Rumıniyanın prezidenti Bakıya gəlib. Səfər zamanı iki ölkə arasında iqtisadi əməkdaşlığı tənzimləyən sənədlər imzalanıb: "Beynəlxalq avtomobil nəqliyyatı haqqında", "Dəniz ticarət gəmiçiliyi haqqında", "Hava nəqliyyatı haqqında", "Turizm sahəsində əməkdaşlıq" və s.

22.09.2006-cı ildə Azərbaycan prezidenti İ. Əliyevin Berlində Rumıniya dövlətinin başçısı ilə görüşündə iki ölkə arasında münasibətlərin perspektivləri müzakirə olunmuşdur.

2006-cı il 11 oktyabrda Rumıniya Prezidenti Trayan Besesku Azərbaycana rəsmi səfər etmişdir. Dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Prezident Sarayında sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rumıniya Respublikasının Prezidenti Trayan Besesku birgə bəyannamə imzalamışlar.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Rumıniyanın Mədəniyyət və Dini İşlər Nazirliyi arasında "Mədəniyyət sahəsində əməkdaşlığa dair saziş" imzalanmışdır.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Rumıniyanın Kiçik və Orta Müəssisələr və Kooperativlər Milli

hazırda dünyanın bir çox bölgələrində, o cümlədən Avropa ölkələrində fəaliyyət göstərən Azərbaycan və Türk diaspor təşkilatları üçün tarixi bir fürsət yaranmışdır. Bundan sonra lobbiçilik işində əhəmiyyətli dönüş başlanacaq, ermənilərin azərbaycanlılara və türklərə qarşı apardıqları çirkin siyasətin qarşısının alınmasında yeni güc yaranacaqdır.

Qurultayda AAK-ın Avropadakı diaspor fəaliyyətinin genişləndirilməsi, buradakı soydaşlarımızın ideya-siyasi birliyinin daha da gücləndirilməsi, qitədəki Azərbaycan dərnəkləri, icmaları, federasiyaları və digər diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi imkanlarının artırılması məsələləri geniş müzakirə olunmuş, Ennənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin ədalətli mövqeyinin Avropanın aparıcı dövlətləri tərəfindən dəstəklənməsi və bu sahədə ciddi addımların atılması ilə bağlı təkliflər səslənmişdir. Azərbaycan icmalarının türk diasporu ilə əməkdaşlıq imkanları, Avropada Azərbaycan lobbisinin yaradılması istiqamətində görüləcək tədbirlər, AAK-ın digər regionlardakı federasiya və təşkilatlarla əlaqələrinin qurulması, qurumun operativ İdarə olunması məqsədi ilə daimi qərargahın yaradılması və digər məsələlər də diqqət mərkəzində olmuşdur.

Qurultayın sonunda təşkilati məsələyə baxılmış. Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti Natiq Ağamirov AAK-ın yeni prezidenti seçilmişdir. Avropa Azərbaycanlıları Konqresi Mərkəzi Şurasının 101 nəfərdən ibarət yeni tərkibi, AAK-ın regionlar üzrə birinci vitse-prezidentləri, vitse-prezidentləri, 27 nəfərdən ibarət icraiyyə Komitəsi seçilmiş, qətnamə qəbul olunmuşdur.

Qurultay iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq təşkilatlara müraciət qəbul edilmişdir.

AZƏRBAYCAN-RUMINİYA MÜNASİBƏTLƏRİ. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra 11.XII.1991 ildə onu

keçən dövr ərzində görülmüş işlər barədə hesabat vermişdir. O bildirmişdir ki, təşkilatı yaratmaqdan məqsəd Avropada pərakəndə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarını, icma və birliklərini bir araya gətirmək olmuşdur. Konqres Almaniyada rəsmi qeydiyyatdan keçərək, qanuni fəaliyyət göstərir. Ötən 3 il ərzində Konqresə daxil olan təşkilatların sayı 40-a çatmışdır. Bahəddin Kaya Azərbaycan və Türk diaspor təşkilatlan rəhbərlərinin I forumunun iştirakçılar tərəfindən yüksək dəyərləndirildiyini bildirmiş və bu tədbirin AAK-ın qarşısında böyük məsuliyyət qoyduğunu vurğulamışdır. O demişdir ki, forumun və qurultayın Bakıda keçirilməsi soydaşlarımızın doğma vətənləri ilə bağlılığını daha da artırır, qarşılaşdıqları problemlərin həlli üçün onlara yeni ruh, güc və qüvvət verir.

Qurultayın işində Avropanın 30-dan çox ölkəsində fəaliyyət göstərən 84 Azərbaycan diaspor təşkilatından 139 nümayəndə iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ictimai siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov çıxışında dünyanın müxtəlif ölkələrində yaşayan, fəaliyyət göstərən azərbaycanlıların bir araya gətirilməsinə ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətlərindən danışmış, məhz ulu öndərimizin şəxsi təşəbbüsü ilə hər il dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi günü elan olunduğunu, 2001-ci ildə Bakıda dünya azərbaycanlılarının ilk qurultayının keçirildiyini xatırlatmışdır. Eyini zamanda. Prezident İlham Əliyevin bu sahədə xüsusi diqqət yetirdiyini bildirmiş Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumunun buna əyani sübut olduğunu vurğulamışdır. O demişdir ki, Azərbaycan dövləti xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələrə böyük əhəmiyyət verir. Bu qurultaydan sonra qitələr üzrə mükəmməl diaspor təşkilatlarının formalaşması isə daha da sürətləndiriləcəkdir. Hazırda ABŞ-da belə bir konqresin yaradılması prosesi davam edir. Sonra Asiya qitəsində iş aparılacaqdır.

Qurultay nümayəndələrinin çıxışlarında bildirilmişdir ki.

Ceyhan neft boru xəttini istifadəyə verdik. Yaxın zamanda Bakı-Tbilisi-Ərzurum qaz kəməri, yəni “Şahdəniz” layihəsi tam şəkildə fəaliyyətə başlayacaqdır. Bu yazda Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin təməli qoyularaq, inşasına başlanacaqdır. Bütün bunlar ölkələrimizi yaxınlaşdıran, bir-birinə bağlayan sarsılmaz əlaqələri göstərir. Bu, eyni zamanda, Asiya ilə Avropanı, Şərqlə Qərbi bir- birinə yaxınlaşdıran əlaqələndirmə və inkişaf kanallarıdır. Bu kanalları təmin etmək Türkiyə və Azərbaycana dünya miqyasında önəm qazandırmaqdadır.

Türkiyənin baş naziri xalqlarımızın dünya miqyasında birliyinin əhəmiyyətindən bəhs edərək demişdir: “Bu baxımdan bir məqamı xüsusi vurğulamaq istəyirəm. Dünyanın hər yerində türk millətlərinin maraqlarının qorunması və etibarının yüksəldilməsi uğrunda aparılan mübarizədə qardaşların bir-birinə dəstək olmasından daha təbii bir iş ola bilməz. Biz davam edəcəyinə inandığımız bu həmrəyliyi sistemli bir hala gətirəcək, daha konkret və təsirli nəticələrə nail olmaq üçün göstərilən bütün səyləri təqdirlə qarşılayır və dəstəkləyirik. Avropada və Amerika Birləşmiş Ştatlarında, Rusiyada,Avstraliyada, Yaxın Şərqdə və dünyanın digər bölgələrində yaşayan Türkiyə və Azərbaycan insanlarının bir- birinin gücündən və təcrübələrindən yararlanmalarını gözləyirik. Çünki hədəflərimiz böyük, aradan qaldırmadığımız vacib olan əngəllər çoxdur. Bu yolda hamımızın üzərinə önəmli vəzifələr düşür. Siyasətçilərimizin, alimlərimizin, sənətçilərimizin, mətbuat nümayəndələrimizin, sərmayədarlarımızın, bütün iş adamlarımızın - hamımızın üzərinə iş düşür. Əl-ələ, çiyin-çiyinə verəcək, həmrəy olacaq və bütün türk dünyasını aydın gələcəyə aparacağıq.

Tarix boyunca bir çox sınaqdan uğurla çıxan Türkiyə və Azərbaycan xalqlarının qardaşlığının beynəlxalq miqyasda bu layihəni də həyata keçirməsi hamımız üçün bir qürur mənbəyidir. Bu layihənin, sadəcə, ölkələrimiz üçün deyil, bütün türk dünyası üçün xeyirli olmasını arzu edirik. Ayrıca bunu xüsusilə vurğulamaq istəyirəm. Əgər bu gün türk iş adamları Azərbaycanda birinci sıraya doğru gedirsə, yüksəlirsə, bunun ən öməmli səbəbi aramızdakı

möhkəm əlaqələrdir. İnşallah, inanıram ki, türk iş adamları Azərbaycana qoyacaqları sərmayələrlə Almaniyadakından da qabağa gedəcəklər. Bunu görürəm. Bu, bizim bir-birimizə olan bağlılığı artıran ən önəmli addımdır"'.

İlham Əliyev bu forumdakı çıxışının sonunda demişdir: "Bizim gücümüz ondadır ki, bir-birimizə arxalanırıq. Müstəqilliyimizin ilk illərində Azərbaycanın dəstəyə çox böyük ehtiyacı vardı və biz onu yalnız Türkiyədən aldıq. Bu gün isə Azərbaycanın artan imkanları, potensialı, siyasi çəkisi, bölgədə oynadığı rolu və iqtisadi imkanları, öz növbəsində, Türkiyənin mövqelərinə də dəstəkdir. Bu qarşılıqlı qardaşlıq münasibətləri, qarşılıqlı maraq əsasında, dərin tarixi köklər əsasında qurulmuş münasibətlər artıq beynəlxalq siyasətin amilinə çevrilmişdir. Biz nə qədər güclü olsaq, aramızda nə qədər möhkəm birlik olsa, maraqlarımızı da bir o qədər təmin edəcəyik. Maraqlarımız da üst-üstə düşür və biz istəyirik ki, xalqlarımız rifah içində yaşasınlar. İstəyirik ki, ölkələrimizdə və bölgədə sülh, əmin amanlıq bərqərar edilsin. Biz istəyirik ki, qonşularla mehribanlıq şəraitində yaşayaq və buna nail oluruq, qonşu dövlətlərlə münasibətlərimiz çox uğurlu şəkildə qurulur. Beləliklə, Azərbaycan-Türkiyə birliyinin güclənməsinin həm ölkələrimiz, xalqlarımız, bütün türk dünyası üçün və həm də bütövlükdə, dünyada gedən proseslər üçün çox böyük əhəmiyyəti vardır". ^

Azərbaycan prezidenti İlham Əliyevin bu forumdakı çıxışı təkcə Azərbaycan-Türk diasporları üçün deyil, bütün dünya türkdillik xalqlarının birliyi üçün proqram əhəmiyyətli və əməli əhəmiyyətli çıxış kimi dəyərləndirildi.

AVROPA AZƏRBAYCANLILARI KONQRESİNİN (AAK) II QURULTAYI. Martın 10-da 2007-ci ildə Bakıda Avropa Azərbaycanlıları Konqresinin II qurultayı keçirilmişdir.

Konqresin sədri Bahəddin Kaya tədbiri açaraq, I qurultaydan

**Yena həmin mənbə**
**Yenə orada**

dərin əlaqələrimiz günlər keçdikcə, ölkələrimizin beynəlxalq aləmdə daha güclü, regional inkişafda daha çox sahibi olmasına gətirməkdədir. Bir millətin iki dövləti olan Türiyə və Azərbaycan arasındakı əlaqələrin memarlarından olan böyük dövlət və siyasət adamı mərhum Heydər Əliyevi bir daha hörmət, ehtiram və rəhmətlə anıram.

Azərbaycanın müstəqilliyə qovuşması ilə 70 illik həsrətimiz sona çatmış, iki qardaş dövlət bir-biri ilə qucaqlaşmışdır. Bu gün iştirak etdiyimiz bu forumun sayəsində isə dünyanın müxtəlif ölkələrində yaşayan eyni millətin övladları həmrəylik ruhu ilə bir araya gəlmiş və fəaliyyətlərində bir-birilərinə dəstək olmaq yolunda böyük bir addım atmışlar. Zamanımız həmrəylik, əməkdaşlıq dövrüdür. Ortaq dəyərlərimizin tanıdılmasında, iqtisadi, siyasi potensiallarımızın aşkara çıxarılmasında, millətimizə qarşı yönəldilmiş haqsızlıqların və iftiraların aradan qaldırılması işində xalqlarımızın üzərinə böyük rollar düşür.

Türkiyə və Azərbaycan tarixlərinin ən çətin dövrlərində bir- birinə dəstək olmağın ən gözəl nümunələrini göstərmişlər. 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz islam ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi. Eynilə, Anadoluda qazi Mustafa Kamal Atatürkün öndərliyi ilə aparılan milli mücadilə həm də azərbaycanlı qardaşlarımızdan gələn maddi və mənəvi yardımlar nəticəsində müvəffəqiyyət qazanmışdır. Bunu xüsusi vurğulayıram. Həm də qarşılıqlı olaraq, bu yardım və dəstək, sadəcə, qardaşın qardaşa borc verməsi kimi yox, yalnız yardım etmək düşüncəsi ilə göstərilmişdir.

Qarabağ qan axan yaramızdır. Balkanda yaşayan soydaşlarımızın qarşılaşdırları sıxıntıları da yaxından izləyirik. O da bizə ayrıca bir ələmdir. Ancaq sıx işbirliyi və yaxın həmrəyliklə bütün bu çətinliklərin öhdəsindən gələ bilərik. Türkiyə ilə Azərbaycan arasında son illərdə həyata keçirilən və bir zamanlar əfsanə kimi görünən beynəlxalq layihələr bu işbirliyinin və həmrəyliyinin ən gözəl örnəkləridir, bizim gücümüzdür. Keçən il Bakı-Tbilisi-

məcraya düşdü. Türkiyəni Azərbaycanla birləşdirən tarixi əlaqələr çox güclüdür. Ancaq indiki zəmanədə siyasi proseslər, siyasi əlaqələr onu daha da gücləndirir. Həm siyasi, həm də iqtisadi, mədəni, hərbi - bütün sahələrdə bizim aramızda ən yüLsək işbirliyi, anlaşma var. Belə forumların keçirilməsi bizim birliyimizi daha da gücləndirir. Bütün türk dünyasının birliyini gücləndirir. Biz böyük qüvvəyik. Gərək elə edək ki, maraqlarımız tam şəkildə təmin olunsun, bizi narahat edən problemlər aradan qaldırılsın, ədalət zəfər çalsın və xalqlarımız rahat yaşasınlar. Biz buna layiqik və birgə səylərlə, birgə işlərlə buna nail olacağıq. Bu gün Azərbaycana bütün türk dünyasının nümayəndələrinin və qonaqlarının gəlməsi bu gözəl birliyin əyani sübutudur. Öz maraqlarımızı təmin etmək üçün biz güclü olmalıyıq.

Artıq Türkiyə və Azərbaycanın təşəbbüsü ilə ölkələrimiz və bütövlüklə bölgə üçün önəmli bir sıra layihələr həyata keçirilir. Onlardan biri də Bakı-Tbilisi-Qars dəmir yolunun tikilməsidir. Uzun illər ərzində bu məsələ bizim ölkələrimizdə, beynəlxalq maliyyə qurumlarında, sadəcə, müzakirə olunurdu. Bu önəmli layihə faktik olaraq, icra edilmişdir. Bizim birgə səylərimiz, Türkiyə, Gürcüstan və Azərbaycan rəhbərliklərinin iradəsi nəticəsində biz bu məsələnin həllinə də nail olmuşuq. Bu yaxınlarda imzalanan önəmli sənədlər imkan verəcək ki, yaxın zamanlarda tikinti başlansın və beləliklə, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi uğurla həyata keçirilsin. Bu bizi Türkiyə ilə dəmir yolu vasitəsilə birləş- dirəcəkdir.Türkiyəni Orta Asiya ilə, bizim dəhlizdən keçməklə Asiyanı Avropa ilə birləşdirəcəkdir. Şübhəsiz ki, bunun çox böyük, həm iqtisadi, həm də siyasi önəmi var.

Yuxarıda göstərilən forumda iştirak edən Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycan və Türkiyə xalqlarının dostluğu haqqında demişdir:

'Türkiyə ilə Azərbaycan arasındakı müstəsna əlaqələr siyasi, hərbi, iqtisadi, ticari, sosial və bütün digər sahələrdə özünü büruzə verməklə, bölgənin və dünyanın digər dövlətlərinə də örnək olmaqdadır. Mənbəyini ortaq keçmiş din və dil birliyindən alan

"I915-Cİ il hadisələri ilə əlaqədar erməni iddiaları haqqında Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunun bəyanatı" qəbul olundu. *

Azərbaycan Prezidenti İlham Əliyev 9 mart 2007-ci ildə Bakıda keçirilmiş Dünya Azərbaycan - türk diaspor təşkilatları rəhbərlərinin I forumununda iki qardaş ölkə arasında münasibətlərdən bəhz edərkən demişdir;

"Bu gün Türkiyə və Azərbaycan - iki qardaş ölkə bərabər addımlayır. Biz bütün tədbirlərdə bərabər iştirak edirik, aramızda ən yüksək fikir birliyi var. Bəlkə də, dünyada ikinci belə ölkələr yoxdur ki, bir-birinə bu gədər bağlı olsun. Həm xalqların etnik mənsubiyyəti baxımından, həm siyasi baxışlar, həm də ortaq maraqlar baxımından. Biz elə etməliyik ki, birliyimiz daha da güclənsin, hərtərəfli olsun. Təbii ki, bu işlərdə xaricdə yaşayan soydaşlarımızın da fəaliyyəti çox əhəmiyyətlidir.

Azərbaycan müstəqilliyinin 15 illiyini yaşamışdır. Artıq bu kiçik tarix göstərirdi ki, ölkəmiz müstəqil dövlət kimi yaşaya, inkişaf edə bilir. Əgər biz müstəqilliyimizin ilk illərinə nəzər salsaq görərik ki, o vaxt ölkəmizin durumu çox acınacaqlı idi. İqtisadi tənəzzül, siyasi böhran, Azərbaycanda gedən xoşagəlməz proseslər ölkəmizin bütövlükdə müqəddəratını sual altında qoymuşdu. İlk illərdə qardaş Türkiyənin dəstəyi bizim üçün həlledici oldu. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan birinci ölkə olmuşdur və ilk illərdən Azərbaycana öz qardaş əlini uzatdı. Buna görə mən Türkiyəyə, bütün türk xalqına Azərbaycan xalqı adından dərin minnətdarlığımı bildirirəm.

Müstəqilliyimizin ilk illərində Azərbaycan səfirlikləri Türkiyə səfirliklərinin binalarında yerləşmişdi. Bizim binalarımız yox idi, imkanlarımız yox idi. Ancaq bu gün Azərbaycanın müxtəlif ölkələrdə 51 səfirliyi vardır. Bu onu göstərir ki, ölkəmiz çox dinamik şəkildə inkişaf edir. Əgər 1991-ci ildə Sovetlər Birliyində, keçmiş respublikalar arasında Azərbaycan axırıncı yerdə idisə, bu gün ən qabaqcıl yerlərdədir. 15 il ərzində siyasi proseslər normal

**Müəllifdə bu forumun iştirakçılarından olmuşdur. Redaktor.**

yasının birliyinə nail olmaq üçün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət diaspor təşkilatlarımız tərəfindən dəstəklənir. Böyük əminliklə demək olar ki, bu siyasət türk icmalarını sıx birləşdirəcək, ümumi fəaliyyət üçün və milli dəyərlərin qorunub saxlanılmasında, yeni əməkdaşlıq körpülərinin yaradılmasında çox mühüm rol oynayacaqdır.

Litva parlamenti sədrinin müavini Gintaras Stepanaviçyıs, Litva prezidentinin müşaviri Halina Kobeskayte, Lüksemburq parlamentinin deputatı Jakiv Henkes, Türkiyə parlamentinin deputatı Dursun Akdəmir və başqaları çıxış edərək, Azərbaycanın dünyada artan nüfuzundan razılıqla danışdılar, forumun keçirilməsinin diaspor təşkilatlan, eləcə də dövlətlərimiz arasında əlaqələrin inkişafında mühüm rol oynayacağını vurğuladılar. Başqa çıxış edənlər də Azərbaycanın Avropa İttifaqına inteqrasiyasına dəstək verəcəklərini, digər həmkarlarını və dostlarını da Azərbaycana dəstək olmağa çağıracaqlarını bildirdilər.

Türk Dünyası Dostluq, Qardaşlıq və Əməkdaşlıq Fondunun prezidenti Əbdülxaliq Çay, Makedoniya türk icmasının başçısı Ərdoğan Sarac, Ukrayna Azərbaycanlıları Konqresinin sədri Akif Gülməmmədov və başqaları forumun işini yüksək qiymətləndirdilər, bunun iki qardaş ölkənin, eləcə də bütün türk dünyasının birliyində mühüm mərhələ açdığını söylədilər. Xüsusi vurğulandı ki, bu birlik dünyada ermənilərin qondarma “soyqırımı” təbliğatının, Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının qarşısının alınmasında, habelə Xocalı soyqırımının dünya parlamentlərində tanınmasında, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynayacaqdır.

Çıxışlar zamanı müxtəlif təkliflər səsləndi, gələcək fəaliyyət strategiyası müzakirə olundu.

Sonra “Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət stratrgiyası”, “Bakı bəyannaməsi”, “Türkdilli xalqlara müraciət”, “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimayyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökümət başçılarına müraciət”.

fəaliyyətlərində bir-birlərinə dəstək olmaq yolunda mühüm addım atdı.

Zəmanəmizin həmrəylik və əməkdaşlıq dövrü olduğunu vurğulayan Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ortaq dəyərlərimizin tanıdılmasında, iqtisadi, siyasi potensiyalımızın aşkara çıxarılmasında, millətimizə qarşı yönəldilmiş haqsızlıqların və iftiraların aradan qaldırılması işində xalqlarımızın üzərinə böyük rollar düşdüyünü bildirdi.

Məlumdur ki, Ermənistan Azərbaycan torpaqlarını hələ də işğal altında saxlayır. Bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Eyni zamanda erməni diasporu yalan və uydurma "erməni soyqırımı" kampaniyaları keçirir. Haqqın, ədalətin öz yerini alacağını bəyan edən cənab Tayyib Ərdoğan deyib ki, Türkiyə və türklər heç vaxt bunu qəbul etməz. O, demişdir: "Beynəlxalq hüququn ən təməl prinsipləri olan ölkələrin ərazi bütövlüyünün, sərhədlərin zorla dəyişdirilməsinin yolverilməzliyi prinsiplərini Ermənistanın açıqca pozmasına dünyanın diqqətsizlik göstərməsi daha üzüntülüdür. Biz bunu görürük. Türkiyə və Azərbaycan bu günə qədər yaxşı və pis günlərində daimi necə bir-birinin yanında olubsa, bundan sonra da bir-birinin yanında olacaqdır".'

Ermənistan dövləti ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı və başqa tarixi torpaqlarımızda qurulub, indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır. Bütün bunları bir daha diqqətə çəkən Prezident İlham Əliyev qətiyyətlə bildirmişdir ki, Ermənistan öz siyasətində dəyişiklik etməlidir: "Əks təqdirdə, Ermənistanın özünün müqəddəratı sual altına düşə bilər. Azərbaycan heç vaxt Dağlıq Qarabağın itirilməsinə razılıq verməyəcək, nəyin bahasına olursa-olsun, doğma torpaqlarını azad edəcək, ərazi bütövlüyünü bərpa edəcək". ^ Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunun əhəmiyyətini qeyd edən çıxışlar və rəylər göstərir ki, türk dün-

**'Azarbaycan" qəz., 10 mart 2007-ci il.**

**Yenə orada**

I forumunda Türkiyəni Azərbaycanla birləşdirən tarixi əlaqələrin şox güclü olduğunu bəyan edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bu gün Türkiyə və Azərbaycan - iki qardaş ölkə bərabər addımlayır. "Azərbaycan - Türkiyə birliyinin güclənməsinin həm ölkələrimiz, xalqlarımız, həm də bütün türk dünyası üçün çox böyük əhəmiyyəti var"' - deyərək o, fonun iştirakçılarına müraciət etmişdir.

Ölkəmiz və xalqlarımız tarixlərinin ən çətin dövrlərində bir-birinə dəstək olmağın ən gözəl nümunələrini göstəriblər. Hazırda bütün sahələrdə və səviyyələrdə - hökümət, parlamentlərarası və sadə insanlar arasındakı səmimi əlaqələr bir müddət üçün deyil, əbədidir, bütün gələcək nəsillər üçün də örnəkdir. Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu türkdilli xalqların diaspor təşkilatları arasında əməkdaşlığın inkişafı, ölkələrimizin milli maraqlarının müdafiəsi, mənəvi dəyərlərimizin, mədəni irsimizin təbliği baxımından çox mühüm vəzifələrin həyata keçirilməsini qarşıya məqsəd qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən bu ali forum türk dünyasının birliyi ideyasının böyük önəmini bir daha bütün dünyaya nümayiş etdirdi.

Forumda 48 ölkədən ümumilikdə 513 nəfər iştirak edirdi. Türkiyə, Almaniya, ABŞ, Rusiya, Ukrayna, Niderland, İsveç, Rumıniya, Norveç və Litvadan böyük nümayəndə heyətləri gəlmişdi. Forumun gedişi dünya azərbaycanlılarının II qurultayında qəbul olunmuş qərar və tövsiyələr əsasında aparıldı. Forumdakı nitqlər və çıxışlar göstərir ki, Azərbaycan və türk diaspor təşkilatları dövlətlərimiz arasındakı sarsılmaz dostluq və qardaşlıq əlaqələrindən bəhrələnməli və birgə fəaliyyət göstərməlidirlər.

Dövlətimizin başçısı İlham Əliyevin fikrincə, belə forumların keçirilməsi bütün türk dünyasının birliyini gücləndirir: "Bu gün Azərbaycana bütün türk dünyasının nümayəndələrinin və qonaqların gəlməsi bu gözəl birliyin əyani sübutudur". Belə ki, bu forum sayəsində dünyanın müxtəlif ölkələrində yaşayan eyni millətin övladları həmrəylik ruhu ilə bir araya gəldi və gələcək

**"Respublika" qozcii, 10 mart 2007-ci il.**

sanəd qəbul etməsi Azərbaycanın islam ölkələri içərisində nüfuzunun getdikcə artdığım göstərir. Bu işdə qardaş Türkiyənin rolu böyükdür.

Azərbaycanın xarici siyasəti Qərbə inteqrqsiyanı nəzərə almaqla Şərqdən üzünü döndərmir, dünya mədəniyyətinə yolu Şərq dəyərlərinə ehtiramla yanaşmaqda görür. Burada da Azərbaycan Türkiyənindünyəvilik yolunu tutur. Başqa cür seçim isə (məs., sonuncu Şah dövründə ancaq Qərbə meyl, Xomeyni dövründə isə ancaq Şərqə meylli olan İran siyasəti kimi) yanlış seçim olub Azərbaycanın xarici siyasətinə uyğun gəlməyən siyasətdir. AR-nın xarici siyasətində məhz belə yanaşma ölkənin xarici siyasətinin həm Qərb, həm də Şərqlə tarazlıq siyasətinin mahiyətini təşkil edir. Bu isə mərhum ulu öndərimiz H. Əliyevin xarici siyasətimiz üçün təyin etdiyi uğurlu yolun ayrılmaz tərkib hissələrindəndir və prezident cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Hər iki dövlətin-Azərbaycan və Türkiyə siyasətində neft və qaz strateji məsələlərinin uğurlu həlli (2006-cı il may ayında BTC-nin açılması, Şahdəniz qaz xəttinin Azərbaycandan Türkiyəyə nəğl olunması) buna ən parlaq misaldır.

DÜNYA AZƏRBAYCAN - TÜRK DİASPORLARI RƏHBƏRLƏRİNİN I FORUMU. Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin Bakıda 9 mart 2007-ci ildə I forum keçirilmişdir. Bu forumda birliyimizin güclənməsinin nəinki bütün türk dünyası, həm də bütövlüklə bəşəriyyət üçün böyük əhəmiyyət daşıdığı vurğulanıb.

Türk dünyasının birliyi ideyası yüz illərdən bəri mövcuddur. XX əsrdə bu fikrin reallaşması istiqamətində türk dünyasının iki böyük lideri - Mustafa Kamal Atatürk və Heydər Əliyevin böyük xidmətləri olub. “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir”(M.K.Atatürk) və “Biz bir millət, iki dövlətik” (H.Əliyev) kəlamları bu dahi şəxsiyyətlərin türk dünyasının birliyinə nə qədər böyük önəm verdiyini təsdiqləyir.

Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin

2001-ci ildə Türkiyə- Azərbaycan ümumi mal dövriyyəsi 215 mln. 549 min $ təşkil edib ki, bu da nəzərdə tutulandan 80 mln. 786 min $ az idi və Türkiyə bu mübadilədə III -cü yerdə idi.

Azərbaycanda 500 türk şirkəti və 400 birgə şirkət fəaliyyət göstərir. Türkiyə şirkətləri "Əsrin müqaviləsi" neft kontraktlarında bir neçə yataqda iştirak edirlər. Avropa - Qafqaz - Asiya - Traseka dəmir və avtomobil yolları maqistralında (Türkiyə - Gürcüstan - Azərbaycan ərazisindən keçməklə) Türkiyə fəal iştirak edir. Bu yol Böyük ipək yoluna birləşəcək: Atlantik okeanından Sakit okeana qədər bir məsafəni əhatə edəcəkdir.

Türkiyə Azərbaycan ordusunun NATO standartlarına keçməsinə, hərbi kadrlar hazırlığına kömək edir. Kosovoya göndərilən Türkiyə sülhməramlıları tərkibində 1 sentyabr 1999-cu ildə qardaş Türkiyənin hesabına 34 Azərbaycan hərbi qulluqçusu göndərildi (hər birinə Türkiyə 10 min $ xərcləmişdi). BMT Qarabağ probleminin həllinə qədər Ermənistan və Azərbaycana silah verməyi qədəğən etdiyindən Türkiyə Azərbaycana ancaq hərbi sursat - paltar, ayaqqabı, rabitə vasitələri ilə kömək edir (Molumdur ki, Rusiya buna riayət etmir və Ermənistana külli miqdarda silah verir, bu ölkədə çoxlu qoşun saxlayır).

Türkiyə - Azərbaycan münasibətləri 1 iyun 2000-ci ildə "Dəmirəl dövrü"ndən sonra da. Əhməd Sezərin prezidentliyi zamanında da müvəfəqiyyətlə davam edir. Prezident İlham Əliyev Türkiyə haqqında H. Əliyev kursunu müvəffəqiyyətlə davam etdirir. Bu da ölməz əbədi öndərimiz H.ƏIiyevin xarici əlaqələr kursunun misilsiz nailiyyətlərindəndir.

Azərbaycanın xarici siyasətinin ən yeni mərhələsində Yaxın və Orta Şərq, Mərkəzi Asiya, Afrika islam ölkələri ilə də əlaqələri təqdirə layiqdir. Bu əlaqələr xüsusilə 1991-ci ildə Azərbaycanın İÖT-na üzv olmasından sonra daha müntəzəm şəkil aldı. İÖT Azərbaycanın haqq işini Qarabağ problemində müdafiə edir. 9-11 dekabr 1997- ci il Tehranda İÖT-nın sammitində, həmin nüfuzlu təşkilatın 12-14 noyabr 2000- ci il, 2003- cü il, 2004-cü il və s. konfranslarında Azərbaycan xeyrinə bu ölkələrin bir neçə rəsmi

Çexoslavakiya hadisələri zamanı) böhranlarının aradan götürülməsində istifadə olunmuşdu. 1980 illərin sonlarında "dünya sosializm sisteminin" böhranı nəticəsində təşkilat öz fəaliyyət qabiliyyətini itirmiş və 01.VII. 1990 ildə özünü buraxdığını elan etmişdir.

VATİKAN (ital. ***Valicano, Stata clella citta del Vaticanö).*** İtaliyanın paytaxtı olan Romanın sərhədləri daxilində, 0,44 kv.km ərazisi və 1 min nəfərə yaxın əhalisi olan şəhər-dövlətdir. Katolik kilsənin mərkəzi, onun başçısı Roma papasının iqamətgahıdır. Vatikan dövləti İtaliya ilə Papa vilayəti arasında 11.11.1929 il Lateran sazişinə əsasən yaradılmışdı. Lateran sazişi 18.II. 1984 il Konkordat müqaviləsi ilə əvəz olunmuşdur. Saziş və müqaviləyə görə İtaliya Vatikanın suverenliyini tanıyır, onlar arasında diplomatik münasibətlər yaradılır, katolik dini İtaliyada yeganə dövlət dini elan edilir, kilsə dövlətdən ayrılır.

Vatikan beynəlxalq hüququn subyekti kimi, müəyyən hüquqlara malikdir. İri kapital sahibi olan Vatikan beynəlxalq maliyyə-bank sistemi və iri şirkətlərlə əlaqələr saxlayır.

Azərbaycanla Vatikan arasında normal əlaqələr yaranmışdır. Vatikanın başçısı Bakıda səfərdə olmuş, Bakıda Katolik kilsəsinin bünövrəsini qoymuş, Azərbaycanın dini tolerantlıqa görə dünyaya yaxşı nümunə olduğunu söyləmişdir.

VETO (lat. ***veto*** - qadağan edirəm). Səlahiyyətli orqanın və ya şəxsin hər hansı qərarın icrasına şifahi və yaxud yazılı şəkildə qadağa qoyması. Müasir dövrdə veto hüquqi dövlət başçılarına, ikipalatlı parlamentlərdə yuxarı palataya verilir. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən (ABŞ, Böyük Britaniya, Çin, Fransa və Rusiya) hər birinin, qeyri-prosedura məsələləri üzrə veto hüququ vardır.

VYANA BƏYANNAMƏSİ (1815). Helveti ittifaqının işlərinə dair bəyannamədir; 08.111.1815-ci ildə Vyana konqresində

imzalanıb. İsveçrənin daimi bitərəfliyini bəyan etmiş, onun ərazi tərkibini müəyyənləşdirmiş, bir sıra inzibati və maliyyə məsələlərini təmzimləmişdi. Bəyanat Helveti ittifaqının 19 ərazi vahidinin bütövlüyünü və toxunulmazlığını tanımış, Vallis, Cenevrə və Nevşateli bölgələrini hüquqlu ərazi vahidi kimi onlara birləşdirmişdi. Rusiya, İngiltərə, Fransa, Avstriya, Prussiya, İspaniya, Portuqaliya və İsveç İsveçrənin bitərəfliyi və onun ərazi bütövlüyünün toxunulmazlığına kollektiv təminat vermişlər. Vyana Bəyannaməsi ilə elan edilən İsveçrə bitərəfliyinə I Napoleonun Elba adasından qayıtmasından sonra ona qarşı aparılan müharibədə riayət olunmadı. Bitərəflik növbəti dəfə 1815 il Paris sülh müqaviləsində təsdiq edildi. (“DEL”).

VYANA KONQRESİ (1814-1815). Fransa imperatoru 1 Napoleonun məğlubiyyətindən sonra Avropanın yeni siyasi və ərazi quruluşu haqqında konqresidi. Yekun aktının qəbul olunması ilə başa çatdı. Vyana konqresinin qərarlarına görə Fransa 1792 il sərhədlərini bərpa etdi. Polşa çarlığı Rusiyaya birləşdirildi, Saksoniyanın bir hissəsi, Reyn vilayəti və Vestfaliyanın çox hissəsi Prusiyaya verildi. Müqəddəs Roma imperiyası ləğv olundu, alman dövlətlərindən ibarət Almaniya ittifaqı yaradıldı, Belçikadan imtina edən Avstriya Qalitsiyanı və Şimali İtaliyada ərazilər qazandı, Niderland və Belçika birləşəndən sonra Niderland krallığı yaradıldı. Hannover, Qeiqoland, Malta, Mavriki, Seylon və Ümid bumu İngiltərəyə keçdi, İtaliya 8 hissəyə parçalandı, 19 İsveçrə kantonu “əbədi neytrallıq” statusu olan İsveçrə konfederasiyasında birləşdi.

Yekun akta zəncilərlə ticarəti qadağan edən, beynəlxalq çaylarda və sərhəd çaylarında gəmiçilik və gömrükalma qaydalarını müəyyənləşdirən əlavələr edildi.

Vyana konqresi ilk dəfə diplomatik agentlərin dərəcələrə bölünməsini müəyyənləşdirdi (Buna Vyana reqlamenti də deyilir).

26.1X.1815 ildə Avstriya, Prusiya və Rusiya Müqəddəs ittifaqın yaradıldığını elan etdilər. (“DEL”).

VYANA KONVENSİYASI (1969). Beynəlxalq müqavilələr hüququna dair Konvensiyadır. 23.V.1969-cu ildə BMT konfransında qəbul edilib; 27.1.1980 ildə qüvvəyə minib. Vyana konvensiyası müqavilələr hüququna dair beynəlxalq - hüquq normalarını ümumiləşdirdi, habelə beynəlxalq mövcud olan praktika və ənənələrdən doğan bir sıra yeni normaları özündə ehtiva edir. Vyana konvensiyası müqavilə hüququnun ən müxtəlif məsələlərini: Müqavilələrin bağlanma qaydaları; beynəlxalq müqavilələrin 3-cü dövlətlər üçün əhəmiyyəti; ümumi beynəlxalq hüququn imperativ normasına zidd olan müqavilənin etibarsızlığı; müqavilə bağlanarkən mövcud olmuş şəraitin kökündən dəyişməsinin həmin müqavilənin etibarlılığına təsiri; çoxtərəfli müqavilələrə düzəliş etmə hüququ; müqavilələrin etibarsızlığını şərtləndirən şəraitlər; iştirakçılardan biri tərəfindən müqavilənin pozulması zamanı yaranan mübahisələrin həlli qaydaları; çoxtərəfli müqavilənin depozitar funksiyaları və s. kimi məsələləri əhatə edir.

VYANA REQLAMENTİ. 19.111.1815 ildə Avstriya, İngiltərə, Portuqaliya, Fransa, Rusiya, Prussiya və İsveç nümayəndələri tərəfindən imzalanmış Vyana konqresinin Yekun aktına 17 saylı əlavədir. Vyana reqlamenti diplomatik dərəcələrin vahid təsnifatını aparmışdır, bu da Vyana konqresindən əvvəlki dövrdə dövlətlər arasında çox vaxt ciddi fikir ayrılığına səbəb olan diplomatik nümayəndələrin üstünlüklərinə dair mübahisələrin kəsilməsinə kömək etmişdi. Vyana reqlamenti diplomatik nümayəndələrin aşağıdakı dərəcələrini müəyyən etmişdi:

1. səfirlər, leqatlar və nunsilər;
2. elçilər və ya monarx yanında akkreditə edilən şəxslər, unternunsilər;
3. işlər müvəkkili.

21.Xl.1818 il Aahen protokolu bu siyahıya nazir - rezident sinfini əlavə etmişdi. Nazir-rezident diplomatik nümayəndələrlə işlər müvəkkili arasında aralıq mövqe tuturdular. Vyana reqlamentinə görə birinci iki dərəcənin diplomatik nümayəndələri

dövlət başçısı yanında akkreditə olunmuş hesab olunurdular. İşlər müvəkkilləri xarici işlər naziri yanında akkreditə olunurdu. Nazir-rezidentlərin təyinatı XIX əsrin sonunda və XX əsrin əvvəllərində azalmağa başladı və 1938 ildə bir nəfər də olsun nazir-rezident qalmadı. Vyana reqlamentinə görə hər bir dövlətdə hər bir dərəcəyə aid diplomatik nümayəndənin eyni cür qəbul olunma qaydası müəyyən edilməli idi. Vyana reqlamentinin dördüncü paraqrafında müəyyən olunmuşdu ki, diplomatik nümayəndələr konfransda onların nota ilə məlumatlandırılmış qayda üzrə yer tutmalı idilər. O da qərara alındı ki, səlahiyyətli şəxslər konfransda müqavilələri əlifba qaydası ilə imzalamalıdırlar. Bütün bunlar diplomatik rütbəyə görə birinciliyə dair kəskin mübahisələrə son qoysa da, bəzi məsələlər həll edilməmiş qaldı.

Vyana reqlamentinə görə səfirlər diplomatik nümayəndələrlə müqayisədə müstəsna hüquqlardan istifadə edirdilər. Hesab edilirdi ki, ancaq böyük dövlətlər səfir təyin və qəbul edə bilər və səfir dövlət başçısının şəxsi nümayəndəsi kimi akkreditə olunduğu dövlətin başçısı ilə birbaşa danışıqlar aparmaq hüququna malikdir, halbuki elçi bu hüquqa iddia edə bilməzdi. Səfirlər və diplomatik nümayəndələr arasında bu və ya digər fərqlər dövlətlərə qeyri- bərabər münasibəti özündə əks etdirirdi.

Beynəlxalq hüquqda bütün böyük və kiçik dövlətlərin suveren bərabərliyi prinsipinin təsdiq olunması ilə səfirlər və diplomatik nümayəndələr arasındakı fərqlər aradan qalxırdı. Beynəlxalq hüquqda və diplomatik praktikada diplomatik nümayəndələr arasında heç bir fərq qoymamaq prinsipi geniş yayılmağa başladı.

Vyana reqlamenti 18.1V. 1961 il diplomatik münasibətlərə dair Vyana Konvensiyasınadək qüvvədə olmuşdur.

TEHRAN KONFRANSI (1943).28.XI-01.XII. ABŞ, Böyük Britaniya və SSRİ dövlət başçılarının iştirakı ilə keçirilmişdir. Konfransda Hitler Almaniyasına qarşı birgə əməliyyatlar həyata keçirmək və müharibədən sonrakı əməkdaşlıq haqqında üç dövlətin birgə Bəyannaməsi qəbul edildi. V.1944 amerikan-ingilis qo-

şunlannı Şimali Fransaya çıxarmaqla Avropada ikinci cəbhəni açmaq barədə razılıq əldə olundu. İranın müstəqilliyinin və ərazi toxunulmazlığının təmin olunması haqqında qərar qəbul edildi. Almaniyanın müharibədən sonrakı quruluşu ilə bağlı məsələyə Avropa Məsləhət Komissiyasında baxmaq qərara alındı. Polşanın müharibədən sonrakı sərhədləri Şərqdə “Kerzon xətti”, Qərbdə isə Oder çayı ilə müəyyənləşdirildi. Kaniqsberq və Memelr SSRİ-yə verilməli idi. SSRİ Almaniyanın təslim olunmasından sonra Yaponiyaya qarşı müharibəyə qoşulacağı haqda öhdəlik götürdü. (“DEL”).

# VIII BOLMƏ

# AZƏRBAYCAN DÖVLƏTİNİN MƏŞHUR DİPLOMATLARI

UZUN HƏSƏN (1423-1478). 1468-1478 illərdə Ağqoyunlu hökümdarı, görkəmli sərkərdə və diplomat. Ucaboylu olduğundan müasirləri ona "Uzun" ləqəbi vermişdilər. 1453 ildə Diyarbəkirdə Ağqoyunlu tayfa ittifaqına başçılıq etmişdi. 1467 ildə Muş vuruşmasında Cahan şahı məğlubiyyətə uğradan Uzun Həsən 1468 ildə Qaraqoyunlu dövlətinə son qoyaraq qıssa müddətdə Xorasandan Qaramana qədər uzanan geniş bir ərazini hakimiyyəti altında birləşdirdi. Uzun Həsən 1468 ildə Azərbaycana soxulan Teymuri Əbu Səidi məğlub etdi. Mərkəzi Təbriz olmaqla Ağqoyunlu dövlətinin əsasını qoyan Uzun Həsən mərkəzləşdirmə siyasəti yürüdürdü. O, ölkənin İqtisadi həyatam dirçəltmək və vergi toplanmasını nizama salmaq məqsədilə xüsusi "Qanunnamə" ("Həsən şah qanunları") verdi. Uzun Həsən iri köçəri-hərbi əyanlarının imtiyazlarını məhdudlaşdırdı, oturaq əhaliyə arxalanmağa başladı. Daimi nizami ordu yaratmaq üçün oturaq əhali muzdlu hərbi xidmətə cəlb olundu. Avropa ölkələrindən artilleriya mütəxəssisləri və toptökən ustalar dəvət olundu. Uzun Həsənin dini siyasəti də ölkənin möhkəmləndirilməsinə yönəldilmişdi. O, bacısını səfəvi Şeyx Cüneydə, qızı Aləmşah Bəyimi (I Şah İsmayılın anası) isə Şeyx Heydərə ərə vermişdi. Uzun Həsən Avropa ölkələri ilə əlaqələrini daha da möhkəmi indirmək məqsədilə Trabzon imperatoru IV İoanın qızı Dəspinə xatunla (Teodora) evlənmişdi. Avropa ölkələri ilə birbaşa ticarət əlaqələri yaratmaq məqsədilə Qara dəniz və Aralıq dənizi sahillərinə gedən ticarət yollarını tutmağa çalışan Uzun Həsən Osmanlı imperiyasına qarşı Venetsiya ilə saziş bağladı. Bu ittifaqa Macarıstan, Neapol Krallığı, Papalıq,

Rodos, Kipr, Burqundiya hersoqluğu, Qaraman əmirliyi və s. ölkələr də qoşuldu. Lakin müttəfiqlərin əlbir çıxış etməməsi Bursayadək Türkiyədə irəliləyən Ağqoyunlu qüvvələrinin 1473 ildə məğlubiyyəti ilə nəticələndi. 1478 ildə Ağqoyunlular Şərqi Gürcüstana, Urfa və Amidə hərbi səfərləri zamanı gürcü və Misir qoşunlarını məğlubiyyətə uğratdılar.

Uzun Həsənin dövündə Ağqoyunlu sarayı Avropa ölkələri. Böyük Moskva knyazlığı və s. dövlətlərlə daimi diplomatik münasibətlər saxlayırdı. Təbrizdə bir çox ölkənin daimi səfirliyi vardı. Geniş quruculuq tədbirləri həyata keçirən Uzun Həsən Təbrizdə Qeysəriyyə örtülü bazarı, Nəsriyyə mədrəsəsi-məscidi və s. ictimai binalar tikdirmişdi. Uzun Həsən sarayında elmi məclis fəaliyyət göstərirdi. Hökmdara məxsus kitabxanada 58 alim çalışırdı. Tarixçi Əbu Bəkr Tehrani, filosof Cəlal əd-din Dəvvani, italiyalı alim C.M.Anciolello Uzun Həsənə xüsusi əsərlər həsr etmişlər. ("DEL").

ŞAH İSMAYIL XƏTAİ. (1487-1524). Azərbaycan Səfəvilər dövlətinin banisi. Dövlət xadimi və sərkərdə. Ağqoyunlu Sultan Yaqub Şeyx Heydərin ölümündən sonra 1488 ildə kiçik yaşlı I Şah İsmayılı anası və qardaşları (Sultanəli və İbrahim) ilə birlikdə həbs etdirdi.

Sultan Yaqubun ölümündən sonra Rüstəm Mirzənin əmri ilə Şeyx Heydərin oğlanları 1492 ildə həbsdən azad olundu. Rüstəm Mirzə hakimiyyətdə möhkəmləndikdən sonra Səfəvi şahzadələrini aradan götürməyə çalışırdı. Böyük qardaşı şeyx Sultanəli 1 Şah İsmayılı özünə vərəsə təyin edərək Ərdəbilə göndərdi. Bir müddət Ərdəbildə və Rəştdə gizlədilən Şah İsmayıl sonralar Lahicanda Gilan hakimi Mirzə Əlinin sarayına aparıldı. V111.1499 ildə Şah İsmayıl özünün yaxın tərbiyəçisi və məsləhətçisi olan bir neçə qızılbaş tayfa başçısı ilə birlikdə qoşun toplamaq üçün Ərdəbilə yollandı. Lakin Ərdəbil hakimi qızılbaşlara mahaldan çıxmağı əmr etdi. Qışı Ərçivanda (indiki Astara rayonunda) keçirən Şah İsmayıl 1500-ci ildə şamlı və rumlu tayfalarından, habelə Qarabağ və Talış əhalisindən ona qoşulmuş 2 minə yaxın qızılbaşla Qarabağ,

Çuxursəd, Şuragıl, Kağızman, Tərcan yolu ilə Ərzincana gəldi. Burada qızdbaş tayfalarından, habelə Qarabağ sufilərindən təqribən 7 min tərəfdar toplayan Şah İsmayıl 1500 ildə Şirvana hücum etdi və Şirvanşah qoşunlarını məğlubiyyətə uğratdı. Döyüşdə Şirvanşah Fərrux Yasar öldürüldü. Qızılbaşlar 1501 ildə bir neçə günlük mühasirədən sonra Bakını tutdular. Gülüstan qalasında möhkəmlənmiş Şirvan qoşunlarının qalıqlarını mühasirəyə aldılar. Lakin Ağqoyunlıı Əlvənd Mii'zənin hücuma keçdiyini eşidən qızılbaşlar mühasirədən əl çəkərək Naxçıvan istiqamətində hərəkət etdilər. Şərur düzündə baş vermiş döyüşdə 7 minlik qızılbaş qoşunu 30 minlik Ağqoyunlu ordusunu məğlubiyyətə uğratdı.

1501 ildə Təbrizə daxil olan Şah İsmayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olan Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. Şah İsmayılın ona tabe olmaq təklifini rədd edən Ağqoyunlu hökmdarı Muradla 21. VI. 1503 ildə baş vermiş Həmədan yaxınlığındakı döyüş qızılbaşların qələbəsi ilə nəticələndi. Sonrakı illərdə Şah İsmayıl bütün İranı, Xorasanı, Ermənistanı, İraqi-Ərəbi Səfəvilər dövlətinə qatdı. Şah İsmayılın dövründə Səfəvilər dövləti Yaxın Şərqin qüdrətli dövlətlərindən birinə çevrildi. Şiəliyi (isna əşərə-on iki imam) rəsmi dövlət dini səviyyəsinə qaldıran Şah İsmayıl geniş ərazidə yaşayan müxtəlif xalqları vahid ideologiya ətrafında birləşdirib Səfəvilər dövlətini daxildən möhkəmləndirmək məqsədi güdürdü. O, şiəliyi - Əli ibn Əbutalib nəslindən olan imamlara ibadəti həm də sünnü olan və Məhəmməd peyqəmbər sünnələrinə (qaydalara) riayət edən ağqoyunlulara, şirvanşahlara, şcybanilərə və osmanlılara qarşı mübarizə bayrağına çevirmişdi. Qonşuluqda Səfəvilər kimi qüdrətli bir dövlətin yaranması Osmanlı dövlətini narahat edirdi. 1514 ildə sultan 1 Səlimin başçılıq etdiyi Osmanlı ordusu ilə Çaldıran düzündə baş vermiş döyüşdə qızılbaşlar məğlubiyyətə uğradı. Osmanlı imperiyasına qarşı mübarizə aparmaq məqsədi ilə hərbi ittifaq yaratmağa çalışan Şah İsmayıl Venetsiya, Macarıstan, Almaniya, Roma papalığı və s. Avropa ölkələri ilə diplomatik danışıqlar aparırdı. Lakin onun səyləri nəticəsiz qaldı. Sonrakı illərdə Şah

ismayıl Şirvanşahları, gürcü çarlarını Səfəvilərdən asılı vəziyyətə sala bildi. Şah İsmayıl Şəkiyə etdiyi növbəti səfərdən Ərdəbilə qayıdarkən vəfat etdi (1524-cü ildə 37 yaşında). Həm də böyük şair olan Şah İsmayıl ədəbi əsərlərini Xətai ləqəbi ilə yazırdı. İlk dəfə olaraq Azərbaycan dilini dövlət dili elan etmiş, özü də Azərbaycan dilində Xətai ləğəbi ilə yazıb-yaradmışdır.

Azərbaycan tarixi qarşısında misilsiz xidmətlərindən biri onun mərkəzləşdirilmiş Azərbaycan dövləti yaratmağıdır.

***MƏRKƏZLƏŞDİRİLMİŞ AZƏRBA YCAN SƏFƏVİ DÖVLƏTİ '* (XVIyüä!)***

***Ümumi məlumat***

***Ərazi:*** Azərbaycan, Şərqi Ermənistan, Şərqi Gürcüstan, İran, Cənubi Türkmənistan, Əfqanıstan (Bəlx vilayəti istisna olmaqla), bəzi dövrlərdə İraqi-Ərəb və b. torpaqlar.

***Paytaxt:*** Təbriz, Qəzvin

***Hökmdarları:*** SƏFƏVILƏR: Banisi Şeyx Səfioddin (1254-1334), I İsmayıl (1501-1524),
I Təhmasib (1524-1576), II İsmayıl (1576- 1577),
Məhəmməd Xudabəndə (1578-1587),
I Abbas (1587-1629), I Səfi (1629-1642),
II Abbas (1642-1666), Süleyman (1666- 1694),
Sultan Hüseyn (1694-1722),
II Təhmasib (1722-1732), III Abbas (1732-1736).
ƏFŞARLAR

Səfəvi dövlətinin özəyini Səfəvi Şeyxlərinin ***Ərdəbil hakimliyi*** təşkil etmişdir. Onlar XV yüzilin II yarısından öz dövlətlərini

*** K.ırim Şükürov. Azərbaycan tarixi. II hi.ssə. Bakı, 1998. səh. 184**

yaratmğa çalışırdılar. ***Cüneyd*** və ***Heydərin*** mübarizəsi uğursuz oldu. 1499-cu ilin yazında ***İsmayıl*** qızılbaş tayfalarını ətrafına toplamaq üçün ***Ərdəhildən Ərzincana*** gəldi. 1500-cü ilin yayında o, Şirvana yürüş etdi.

1500 ilin sonunda ***Fərrux Yaşarın,*** I50l-ci ildə isə Əlvənd Mirzənin qoşunlarını məğlub edən Səfəvilər Təbrizə daxil oldular. Azərbaycan Səfəvi dövlətinin əsasısı qoyuldu, ***ismayıl*** şah elan olundu. 1503-cü ildə Həmədan yaxınlığında Sultan Muradın 70 minlik qoşunu darmadağın edildi.

1505-1508-ci illərdə İran, İraqi-Ərəb və Kiçik Asiyanın bir sıra vilayətləri, 1510-cu ildə ***Şeyhanilərin*** ərazisi tutuldu. On iki imamlıq (İsna əşərə) - Şiəlik dövlət dini səviyyəsinə qaldırıldı.

Sultan ***II Bayazid*** 1504-cü ildə Səfəvi dövlətini rəsmən tanıdı. Sultan I Səlim dövründə vəziyyət dəyişdi. O, Şərqi Anadoluda yaşayan 40 minədək şiəni qırdırdı. I514-cü ildə ***Çaldıran döyüşündə*** Səfəvilər məğlub oldular və Şərqi Anadolunu həmişəlik itirdilər.

Şah Təhmasibin dövründə I Süleyman 1534-1535, 1548, 1554-cü illərdə Azərbaycana yürüş etdi. 1555-ci ildə ***Amasiya*** müqaviləsi bağlandı.

Səfəvilər 1538-ci ildə ***Şirvanı,*** 1551-ci ildə ***Şəkini*** birləşdirdilər. 1540-41, 1546-47, 1551 və 1554-cü ildəki hücumlar nəticəsində ***Kaxeti*** və ***Kartili*** asılı vəziyyətə salındı. ***Səfəvilərin Böyük Moğol*** dostluq əlaqəsi var idi. Venesiya, Almaniya,
Macarıstan, İspaniya, Portuqaliya və b. dövlətlərlə diplomatik əlaqələr yaratmışdı, l Təhmasibin ölümündən sonra hakimiyyət yğrunda mübarizə kəskinləşdir. Ustadı əyanlarının hakimiyyətə gətirmək istədikləri ***Heydər Mirzu*** öldürüldü (1576). ***II İsmayıl*** şah elan edildi. Lakin bununla da sabitlik yaranmadı. ***Məhəmməd Xudabəndə*** dövründə dövlətin tənəzzülü gücləndi. Osmanlılar 1578-ci ildə hücuma keçib (Krım xanı ilə birgə) ölkənin şimal- şərqini tutdular. Xorasan özbək xanları tərəfindən işğal olundu.

1585-ci ildə Təbriz üsyanı yatırıldı.

1590-ci ildə Azərbaycanın işğalı başa çatdı.

# I ŞAH İSMAYILIN NƏSİL ŞƏCƏRƏ CƏDVƏLİ

**Firuzşah Zərrinkülah (XII yüzilin ikinci yarısı)**

**Əvəz əl-Həvəşş**

**Məhəmməd əI-Hafis**

**Səlah əd-Din Rəşid**

**Qütb əd-Din Əhməd**

**Şeyx Saleh**

**Əmin ədDin Cəbrail**

---

**Məhəmməd Səlah əd-Din** | **İsmayıl** | **1) Səfi əd-Din (1252-1334)** | **Yaqub Fəxrəd-Din**

---

**Mühyi əd-Din** | **2) Sədr əd-Din (1305-1392)** | **Əbu Səid Əla əd-Din** | **Şəfər əd-Din**

---

**3) Hacı Əli(1427-də ölüb)** | **Səlah əd-Din** | **Camal əd-Din**

---

**4) İbrahim (Şeyxşah) (1447-də ölüb)** | **Cəfər** | **Əbd ər-Rəhman**

---

**Əbu Səid** | **Əhməd** | **Bəyazid** | **Hacıcan-mirzə** | **İbrahim** | **5) Cüneyd** | **Haceqi (4.III.I460-da ölüb)**




## İLK SƏFƏVİLƏRİN ŞƏCƏRƏ CƏDVƏLİ

(I Şah Abbasa kimi)



## Təhmasibin qızları

**Gövhər Pərixan Xədicə Zeynəb Məryəm Fatma Şəhrəbanu Xanış**

**Məhəmməd Xudabəndənin oğulları**

**Həsən Həmzə I Abbas Əbu Talib Təlımasib**
**(1587-1629)**

## ŞƏKI HAKİMLƏRİ
**(1405-1551)**

**<u>Sidi Səmsəddin Əli</u>**

**Sidi Ə ıməd**

**Əmir Əli Əynaq**

**Əbdül Qafar**

**Hüseyn boy (15-7-1523-24)**

**Dərviş Məhəmməd xan**
**(1523-24-1551-52)**

## SƏFƏVILƏR DÖVRÜNÜN ƏSAS HADİSƏLƏRİ

| | |
|---|---|
| *$eyx Heydəinr oğlu İsmayılın kiçik bir dəstə ilə Ərdəhildən Ərzincana gəlməsi -* | *1499-cu il* |
| *İsmayılın ipu'vana yürüşü. Şirvanşah Fərrux Yaşarın məğlub edilməsi ~* | *1500-cü ilin yayı-qışı* |
| *Naxçıvan yaxınlığında Əlvənd Mirzənin məğlub edilməsi, səfəvilərin Təbrizə daxil olması, İsmayılın şah elan edilməsi -* | *1501-ci il* |
| *Həmədan döyüşündə Ağqoyunlu Sultan Muradın məğlubiyyfəti -* | *1503-cü il* |
| *Sultan II Bayazidin Səfəvi dövlətini rəsmən tanıması -* | *1504-cü il* |
| *Venesiya ilə danışıqlar -* | *1505-ci il* |
| *İran, İraqi- Ərəb və Kiçik Asiyanın bir sıra vilayətlərinin tutulması -* | *1505-1508-ci illər* |
| *Mərv döyüşündə Şeybani Məhəmmədin məğlub edilməsi -* | *I510-cu il* |

**TOPÇUBAŞOV ƏLİMƏRDAN BƏY ƏLƏKBƏR oğlu** (1865-1934). Azərbaycanın görkəmli siyasi xadimi, diplomatı və hüquqşünasıdır. 1884 ildə Peterburq universitetinin hüquq fakültəsini bitirmiş, Tiflisdə və Bakıda vəkillik etmişdir. 1897-1917 illərdə “Kaspi” qəzetinin yaradıcılarından biri olmuş, birinci Dövlət Dumasına seçilmişdi. Azərbaycan Xalq Cümhuruyyəti yarandıqdan sonra Fətəli Xoyskinin V1.1918 ildə təşkil etdiyi II kabinədə poıtfelsiz nazir, həmin ilin oktyabrında isə xarici işlər naziri vəzifəsinə təyin edilmişdi. 20.VIII.I9I8 ildə Osmanlı imperiyası və onun vasitəsilə Avropa ölkələri ilə diplomatik münasibətlər yaratmaq məqsədilə fövqəladə səlahiyyətli nazir kimi İstanbula ezam edilir. 07.XII.19I8 ildə fəaliyyətə başlayan ilk Azərbaycan parlamentinin sədri, 28.XII.1918-də isə Paris sülh konfransına gedəcək nümayəndə heyətinin sədri seçilmişdi. 28.V.1919 ildə

Parisdə ABŞ prezidenti Vilson onun rəhbərliyi ilə Azərbaycan nümayəndələrini qəbul etdi. 11.1.1920 ildə Paris sülh konfransında iştirak edən müttəfiq dövlətlər və Ali Şura üzvləri tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanınmasında onun böyük rolu olmuşdur.

Milli-demokratik hərəkatın görkəmli xadimlərindən biri, məşhur publisist, Azərbaycan Respublikası hökümətinin üzvü olan Ə.M. Topçubaşovu Azərbaycan hökuməti 20 avqust 1918-ci ildə fövqəladə və səlahiyyətli nazir kimi Osmanlı dövlətinin paytaxtına - İstanbula göndərmiş və ona geniş səlahiyyətlər və hüquqlar verilmişdir. Ə.M Topçubaşovun bütün bacarığı, çoxçalarlı fəaliyyəti məhz bu dövrdən başlayır və onun Paris sülh konfransı ərəfəsində fəaliyyəti Azərbaycan diplomatiyası tarixində ən şərəfli, ən ləyaqətli, nəsillərə örnək olan bir fəaliyyət kimi qiymətləndirilməlidir.

Ə.M. Topçubaşov 1918-ci il sentyabrın axırlarında gəlib İstanbula çatır və oktyabrın əvvəllərindən başlayaraq Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, onun tanınması, suverenliyi və ərazi bütövlüyü uğrunda ardıcıl mübarizəyə başlayır.

1918-ci il oktyabrın 2-də Azərbaycanın İstanbuldakı fövqəladə və səlahiyyətli nümayəndəsi Ə.M. Topçubaşov Türkiyənin Sədr-Əzəmi Tələt Paşa tərəfindən qəbul edildi. Hələ Batumda olarkən Ə.M. Topçubaşov 27 avqust seperat danışıqlarının nəticələri ilə bağlı mərkəz dövlətlərinin paytaxtlarına getmək, orada danışıqlar aparmaq üçün Azərbaycan hökümətindən vəkalət (mandat) göndərilməsini xahiş etmiş və Sədr-Əzəm Tələt Paşanın Berlin səfərində onunla birlikdə olmağa çalışmışdı. Lakin İstanbula gec gəlib çatan Ə. M. Topçubaşov bu səfərdə iştirak edə bilməmişdi. Elə qəbulda da Sədr-Əzəm Azərbaycan üçün Berlində əlindən gələni etdiyini bildirmiş, bununla belə hələlik nə Avstriya - Macarıstan, nə Almaniya, nə də Rusiyanın Azərbaycanı tanımaq istəmədiyini elan etmişdi. Danışıqlarda Rusiya imperiyasının dağılmasının Qafqaz və Rusiya xalqları üçün yaxşı nəticə olduğu vurğulanmış, birlikdə olması üçün öz aralarında olan kiçik ziddiyyətləri və narazılıqları unutması tövsiyyə edilmişdi. Tələt

Paşa həmçinin müstəqil Azərbaycan dövlətinin yaradılmasının Türkiyənin çoxdankı arzusu olduğunu da bildirmişdir.

Elə həmin gün Ə. M. Topçubaşov Türkiyənin xarici işlər naziri Əhməd Həsim bəyin də qəbulunda olmuş, Azərbaycanın o dövrü üçün durumu və gələcəyi barədə bir çox məsələlər ətrafında fikir mübadiləsi etmişdir. Danışığın gedişində İstanbul konfransının baş tutmayacağını qeyd edən Əhməd Həsim bəy dünya hadisələrinin istiqamətinin və bununla əlaqədar olaraq Qafqazda sülhün, mehriban qonşuluq münasibətlərinin bərpa edilməsinin vacibliyini göstərmişdi. Onun fikrincə, "Buna mümkün qədər tez başlamaq lazımdır ki. Sülh konfransına hazırlaşmaq üçün mümkün imkan olsun. Azərbaycanlılar, gürcülər və ermənilər ora bir ümumi arzu ilə getməlidirlər".

Lakin ermənilərin bu ümumi arzunun xilafına apardıqları siyasəti, təxribatçılıq fəaliyyətlərini qeyd edən Ə.M. Topçubaşov çox düzgün olaraq Avropa paytaxtlarında Azərbaycanın mənafeyini müdafiə edən nümayəndələrimizin olmasının zəruriliyini söyləmişdi.

1918-ci il oktyabrın 3-də Ə.M. Topçubaşov Osmanlı imperiyasının hərbi naziri Ənvər Paşanın qəbulunda olmuş, Azərbaycanda ordu quruculuğu, təchizatı ilə bağlı xeyli məsələləri müzakirə etmişdi. Ənvər Paşa da Avropa ölkələrinə Azərbaycan nümayəndəliklərinin göndərilməsi barədə Ə.M. Topçubaşovun fikrinə şərik olmuş, bu təşəbbüsün gələcəkdə Azərbaycanın müstəqilliyinin tanınmasında çox böyük rolu olacağını qeyd etmişdi.

İstanbulda Antanta diplomatik nümayəndələrinə təqdim edilən memorandumda da Ə.M. Topçubaşov hər üç millətin mənafeyini ədalətli şəkildə nəzərə almaqla Transqafqaz xalqlarının bir konfederasiyada birləşməsi ideyasını irəli sürərək əsaslandırmışdı. Bütün noyabr ayı ərzində gərgin işləyən Ə.M. Topçubaşov 1918-ci il noyabrın 19-da ingilis nümayəndəsi polkovnik Tampl ilə, dekabrın 7-də Rusiyaya nümayəndəsi P.N. Milyukovla, dekabrın 23-də Amerika diplomatik nümayəndəsi Braunla, dekdrın 31-də isə İtaliya Krallığının Türkiyədə nümayəndəsi qraf Sfortsanın katibi ilə

görüşüb diplomatik danışıqlar aparmış, hazırladığı memorandumu onlara təqdim etmişdi.

Bundan sonra Ə.M. Topçubaşov bütün diplomatik bacarığını nümayəndə heyətinin tam tərkibdə Parisə gedib çıxması uğrunda mübarizəyə həsr etdi.

ADR-in ilk diplomatı Ə. M. Topçubaşovun Paris sülh konfransı ərəfəsində həyata keçirdiyi diplomatik missiya sonralar özünün müsbət nəticələrini verdi. Belə ki, məhz bu diplomatik nümayəndə başçısının böyük səyləri, yorulmaz mübarizəsi, ardıcıl və məqsədyönlü fəaliyyəti nəticəsində Müttəfiq Dövlətlərin Ali Şurası 1920-ci il yanvarın 11-də ADR-i "de-fakto" səviyyəsində rəsmən tanıdığını bildirdi.

Azərbaycanın beynəlxalq vəziyyəti 1918-ci ildə daha gərgin idi. İstər Antanta dövlətlərinin, istərsə də Almaniya blokunun və RSFSR-in Bakıya və ümumən Azərbaycana məlum səbəblərdən can atması onu beynəlxalq aləmin ən mübahisəli problemlərindən birinə çevirmişdi. Bununla yanaşı Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması əsas vəzifələrdən biri idi.

Ə.M. Topçubaşovun İstanbul fəaliyyətinin mühüm mərhələlərindən biri kimi Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransına getməsi ilə əlaqədar hazırlıq işi və bu mövzuda diplomatik mübarizə prosesi yüksək təqdirə layiqdir.

İstər ermənilərin yalançı dəlillərinə və istərsə də Qərbin bəzi dairələrinin maneçiliyinə baxmayaraq Ə. M. Topçubaşovun yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanın nümayəndə heyəti onun rəhbərliyi ilə 1919-cu il aprel ayının 22-də İstanbuldan Paris sülh konfransına yola düşdülər. Yuxarıda qeyd olunan nəticələriəldə edən "Topçubaşov dəstəsi"nin bu səfəri hələ asta addımlarla addımlayan Azərbaycan diplomatiyasının ən şərəfli uğurları qazana bilmişdir.

1920- 1934 illərdə Parisdə mühacir həyatı sürmüş, ictimai-siyasi fəaliyyətini davam etdirmiş, 08.XI.1934 ildə Parisdə vəfat etmişdir. Böyük vətənpərvər olan Ə. M. Topçubaşov Peterburq universitetində qalıb müəllim işləməkdən imtina edir. Çünki buna

razılıq versəydi xristianlığı qəbul etməli idi. Onun təşəbbüsü və rəhbərliyi ilə Rusiya Dumasında ilk dəfə olaraq Müsəlman nümayəndələri Fraksiyası yaradılmışdı. Vəfatına qədər Azərbaycanın Rusiya tərəfindən işqal olunduğu haqqında dünya ictimaiyyətinə car çəkmişdir.

Bütün bunlara görə Ə.M. Topçubaşovun - Azərbaycan Respublikasının ilk diplomatının adı Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmış, onun diplomatik fəaliyyəti müstəqil Azərbaycan Respublikasının bu günkü diplomatları üçün əsl örnəyə çevrilmişdir.

ƏLİYEV HEYDƏR ƏLİRZA oğlu (1923-2003). Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir. 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o. Leninqrad şəhərində (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969- cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə

təyin edilmiş və SSRl-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, I99l-l993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993- cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15- də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993- cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən

seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir.

Heydər Əliyev bir çox dövlət orden və medallara, beynəlxalq mükafatlara layiq görülmüş, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru seçilmişdir.

Heydər Əliyev dörd dəfə Lenin ordeni. Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, İki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.

27 mart 1997-ci il - Kiyevdə Azərbaycanın dövlət başçısına Ukraynanın ali mükafatı "Yaroslav Mudrı" ordeni təqdim edilmişdir.

13 aprel 1999-cu il - Prezident Heydər Əliyev Türkiyənin ən nüfuzlu mükafatı - "Atatürk Sülh Mükafatına" layiq görülmüşdür.

20 yanvar 2001-ci il - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Moskva Dövlət Universitetinin "Fəxri professoru" adı verilmişdir.

3 aprel 2003-cü il - Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının professoru və həqiqi üzvü seçilmiş, Y.V. Andropov adına mükafata layiq görülmüşdür.

10 may 2003-cü il - Rusiyanın yüksək mykafatı - Müqəddəs Apostol Andrey Pervozvannı ordeni ilə təltif olunması barədə Fərman imzalanmışdır.

Azərbaycannın görkəmli dövlət və siyasi xadimi H.Əliyev Müstəqil Azərbaycanın banisi və qurucusudur.

Əliyev Heydər Əlirza oğlu 30 ildən çox Azərbaycana rəhbərlik etmiş, təkcə bütün postsovet məkanının deyil, dünyanın ən məşhur siyasi liderlərindəndir. Onun misilsiz təşkilatçılıq bacarığı, heyrətamiz işgüzarlığı nəticəsində 1970-1980 illərdə respublika iqtisadiyyatının bütün sahələrində tez bir zamanda görünməmiş

nailiyyətlər əldə edilmişdir. Bu illərdə Azərbaycan Respublikasının şəhər və kəndlərində quruculuq işləri geniş vüsət almışdı. Hazırda milli sənayemizin fəxri olan bir çox müəssisələr - Məişət kon- disionerləri, Dərin özüllər, Bakı soyuducular, "Azərelektroterm", Gəncə əlvan metallar, Sumqayıt kompressorlar, Naxçıvan şüşəqab- ları zavodları, "Azon" elm-istehsal birliyi, "ELOU-AVT" qurğusu həmin illərdə tikilmiş, ayaqqabı, tikiş, zərgərlik fabrikləri, bir çox mədəniyyət və sosial-məişət obyektləri bu dövrdə işə salınmışdır.

Onun hakimiyyəti illərində aqrar bölmənin ənənəvi təsərrüfat sahələri-pambıqçılıq, üzümçülük, bağçılıq-bostançılıq, maldarlıq və quşçuluq görünməmiş surətlə inkişaf etməyə başladı. Geniş meliorasiya və irriqasiya işləri həyata keçirilmişdi. Bu illərdə Tərtərçay, Arpaçay, Ağstafaçay, Xambulançay dəryaçaları istifadəyə verilmişdir. Otuza qədər iri quşçuluq kompleksi, o cümlədən Siyəzən, Dəvəçi, Yeni Bakı broyler, Abşeron damazlıq-quşçuluq fabrikləri tikilmişdir. Həmin dövrdə Respublikada milli gəlir 2,5 dəfə artmış, sənaye istehsalı 2,7 dəfə artaraq əvvəlki 30 ildə istehsal edilən məhsulun həcmindən 2 dəfə çox olmuşdu. İqtisadiyyatın inkişafına əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çox əsaslı vəsait qoyulmuşdur. Geniş miqyaslı quruculuq, tikinti - abadlıq işləri aparılmışdı. Bakı şəhərində metropolitenin - "Gənclik", "Nərimanov", "Nizami", "Əzizbəyov", "Qara Qarayev" və başqa stansiyaları inşa edilmiş, bir sıra inzibati binalar, idman-mədəniyyət kompleksləri istifadəyə verilmişdir, dövlət, mədəniyyət xadimlərinin, tarixi şəxsiyyətlərin, milli qəhrəmanların xatirəsini əbədiləşdirən abidələr ucaldılmışdır. Təhsilə qayğının artırılması, xalq maarifinin yüksəlməsi dövlət siyasətinin üstün-prioritet prinsipi kimi qəbul edilmişdir. Keçmiş SSRİ respublikalarında Azərbaycan mədəniyyəti və incəsənəti günlərinin keçirilməsi. Respublikanın qədim və böyük mədəniyyətə malik olduğunu nümayiş etdirməsi -b u tədbirlər Əliyev Heydər Əlirza oğlunun Azərbaycan mədəniyyətinin inkişafı, təbliği, tanınması işinə verdiyi ən böyük töhfələrdəndir. Bu illərdə bir neçə Azərbaycan yazıçısı və mədəniyyət xadiminə Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilmişdir.

1982-1987 illərdə Moskvada işləyərkən Sovet dövlətinin başçılarından biri kimi beynəlxalq danışıqlarda SSRİ-ni təmsil etmiş, dünya birliyində qüvvələr nisbətinə təsir göstərən qərarların qəbul edilməsində mühüm rol oynamışdır. Onun sülhpərvər xarici siyasət kursu dünya ictimayyətİnin geniş rəğbətini qazanmışdı.

Əliyev Heydər Əlirza oğlu X.1993 ildə Azərbaycan Respublikasının prezidenti seçildikdən sonra tez bir zamanda ölkənin daxilində sabitliyə nail oldu, beynəlxalq aləmdə Azərbaycanın mövqelərini möhkəmlətmək üçün böyük səylər göstərdi. Onun Fransa, Türkiyə, Böyük Britaniya və digər ölkələrə rəsmi səfərləri bu ölkələrlə dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın əsasını qoymuşdur.

Qısa bir dövr ərzində beynəlxalq münasibətlər sisteminə qoşulan Azərbaycan Respublikası dünyanın 130-dan çox ölkəsi tərəfindən tanınmış, BMT-də, ATƏT-də, Avropa Şurasında, İslam Konfransı Təşkilatında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında, habelə dünyanın onlarca nüfuzlu beynəlxalq qeyri- hökümət təşkilatlarında təmsil edilmiş, NATO ilə tərəfdaşlıq əlaqələri yaradılmış, ümumdünya sülh və təhlükəsizlik uğrunda mübarizə proseslərinə qoşulmuş, bir sıra ölkələrdə Azərbaycan səfirlikləri açılmışdır.'

Əliyev Heydər Əlirza oğlu regionda sabitliyin yaranmasına, bütün mübahisəli məsələlərin ədalətli və sülh yolu ilə həll edilməsinə çalışmışdı. Onun çoxsaylı səfərləri, keçirdiyi görüşlər, yorulmaz bir enerji ilə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırması ölkəmizi informasiya və iqtisadi blokadadan çıxardı.

Dağlıq Qarabağ probleminin həlli məsələsində onun tutduğu prinsipial mövqe - ölkənin ərazisinin bütövlüyü, işğal olunmuş torpaqların qeyd-şərtsiz azad edilməsi, məcburi köçkünlərin doğma yurdlarına qayıtması və onların təhlükəsizliyinin təmin edilməsi, muxtar vilayətin hakimiyyət orqanlarının Aırarbaycanm icra.

**' Садыхов Ф. Дипломатическая служба Азербайджана: Политические приоритеты, этапы формирования. Баку, 2004, сзр. 174-176**

qanunverici və məhkəmə orqanlarına tabeçiliyi beynəlxalq hüquq normalarına tam uyğundur və dünyanın aparıcı dövlətləri tərəfindən dəıstəklənirdi. Bu xətt ATƏT-in Budapeşt və Lissabon sammitlərində özünü bariz şəkildə göstərmişdir.

V. 1994 ildə Ermənistan - Azərbaycan arasında müharibənin dayandırılmasında, atəşkəsin əldə edilməsində Əliyev Heydər Əlirza oğlunun müstəsna rolu olmuşdur.

Onun prezidentliyi dövründə Azərbaycanın təbii ehtiyatlarından və əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəlmiş siyasət uğurla həyata keçirilmişdir. 20.IX.1994 ildə “Əsrin müqaviləsi” adı almış iri miqyaslı neft sazişinin bağlanması Azərbaycanın beynəlxalq və regional siyasətdə mövqeyini gücləndirmişdir. Zəngin Azərbaycan neftini və qazını dünya bazarlarına nəql etmək üçün Bakı-Tbilisi-Ceyhan, Bakı-Tblisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilməsi Əliyev Heydər Əlirza oğlunun həyata keçirdiyi iqtisadi strategiyanın təntənəsi sayıla bilər. Əliyev Heydər Əlirza oğlunun təşəbbüsü və səyləri nəticəsində yaradılmış (o zaman Özbəkistanla) GUÖAM - Gürcüstanın, Ukraynanın, Özbəkistanın, Azərbaycanın və Moldovanın daxil olduğu regionun qüvvələrinin birləşməsi, razılaşdırılmış siyasi və iqtisadi strate- giyasınınn işlənib hazırlanmasında fəal rol oynamağa başlamışdır. İstər MDB çərçivəsində, istərsə də Qafqaz regionunda sülhün, əmin-amanlığın bərqərar olunmasında Əliyev Heydər Əlirza oğlunun fəaliyyəti olduqca önəmlidir. O, “Qafqaz evi” ideyasının reallaşması üçün çox əmək sərf etmişdir.

İnsan hüquq və azadlıqlarının qorunması, humanizm, sosial- ədalət prinsiplərinin bərqərar olunması Əliyev Heydər Əlirza oğlunun fəaliyyətinin mahiyyətini təşkil edirdi. Azərbaycan dövləti insan hüquq və azadlıqları sahəsində 125 beynəlxalq konvensiya və sazişə qoşulmuşdur. Onun təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edilib.

Azərbaycan Respublikasının prezidentinin “İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında” 22.11.1999 il tarixli fərmanı

Azərbaycanın dünya və Avropaya inteqrasiyası prosesini sürətləndirmiş, onu dövlət siyasəti səviyyəsinə qaldırmışdır.

Prezident Əliyev Heydər Əlirza oğlunun apardığı sülhsevər xarici siyasət kursu dünya ictimayyətinin geniş rəğbətini qazanmışdır. O, 1998 ildə Türkəyədə “Dünyanın adamı və siyasətçisi" kimi fəxri ada layıq görülmüş, 1999 ildə isə Türkiyənin beynəlxalq mükafatı-Atatürk sülh mükafatı ilə təltif edilmişdir.

Əliyev Heydər Əlirza oğlu 12 dekabr 2003-cü ildə vəfat etmişdir. Onun adı Azərbaycan Respublikasının bir sıra mühüm sənaye obyektlərində, idman-mədəniyyət komplekslərində, park- lardakı əzəmətli heykəllərində əbədiləşdirilmişdir.

Heydər Əliyev Azərbaycan Respublikasının bütün taleyüklü məsələlərində - sosyal - iqtisadi, mədəni - siyasi, təhsil - maarif, səhiyyə və s. sahələrdə özünəməxsus təkidliklə yorulmaz fəaliyyət göstərmiş, ölkəmizi durqunluq yolundan çıxardaraq yüksək inkişaf yoluna yönəltmişdir. Azərbaycanın bütövlüyü, onun ərazilərinin bərpa olunması üçün xüsusilə əhəmiyyətli olan ordu quruculuğuna dönmədən diqqət göstərmiş, ordumuzu beynəlxalq standartlara uyğun bir inkişaf səviyyəsinə çatdırmışdır.

Azərbaycan Respublikası on beş il əvvəl öz dövlət müstəqilliyini bərpa edərkən artıq Brmənistan Respublikası ilə müharibə vəziyyətində idi. Tarix boyu Azərbaycana qarşı ərazi iddiasında olan ermənilər onlara havadarlıq edən və ölkəmizi parçalamaq, onun müstəqilliyinə mane olmaq istəyən digər qüvvələrlə birlikdə torpaqlarımızın bir hissəsini işğal etmişdilər. O zaman Azərbaycana rəhbərlik edən şəxslər qətiyyətsizlik və iradəsizlik nümayiş etdirərək silahlı qüvvələri yarada bilmədilər.

Ordu quruculuğunda düzgün siyasətin yeridilməməsi nəticəsində xalqın orduya etdiyi yardımlara, ayrı-ayrı döyüşlərdə xalqımızın vətənpərvər və igid oğullarının düşmənə layiqli müqavimət göstərmələrinə baxmayaraq, silahlı qüvvələr bütövlükdə uğursuzluğa düçar oldu.

Bütün bunların nəticəsində erməni silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini zəbt etmiş, bir milyondan artıq

vətəndaşımızı öz yurdlarından didərgin salmış, on minlərlə insanı məhv etmişdir.

Yalnız Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəlməsi və Azərbaycan Respublikasının Prezidenti seçilməsi vəziyyəti kökündən dəyişdi, respublikamızda ordu quruculuğu sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi, cəbhədə vəziyyətin müsbət İstiqamətdə inkişafına şərait yaratdı.

Heydər Əliyevin hakimiyyətə qayıtması və cəbhədə atəşkəsə nail olması dövlət quruculuğunun bütün sahələrində olduğu kimi silahlı qüvvələrdə də əsaslı islahatların aparılmasına imkan yaratdı. Silahlı qüvvələrdə həyata keçirilən quruculuq işləri, struktur dəyişiklikləri, döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, hissələrin hərb elminin tələblərinə uyğun idarə edilməsi, kadrların saflaşdırılması, qoşun hissələrinin təxribatçı və siyasi ünsürlərdən təmizlənməsi Azərbaycan ordusunu keyfiyyətcə yeniləşdirdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin silahlı qüvvələrə göstərdiyi diqqət və qayğının nəticəsində ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi birləşmə və hissələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Silahlı Qüvvələrinə tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsal olunması üçün sifarişlərin Azərbaycan Respublikasının sənaye müəssisələrində yerləşdirilməsi ölkə iqtisadiyyatının inkişafına da təkan verdi. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

1994- cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri zamanı zabit və əsgələrin Vətən qarşısında öz borclarını şərəflə yerinə yetirməsi bir daha sübut etdi ki, şəxsi heyət arasında müstəqillik amalı və hərbi anda sədaqət hissi, yeni mənəvi-psixoloji iqlim

formalaşmış, ordu hissələri artıq müxtəlif siyasi və cinayətkar mafioz dəstələrinə xidmət edən təxribatçılardan, casuslardan xeyli təmizlənmişdir.

Bu sahədə əldə edilmiş uğurlara baxmayaraq, son illərdə hərbi hissələrdə nizam-intizamın möhkəmləndirilməsi, təlim və tərbiyənin düzgün qurulması istiqamətində iş səngiməmiş, onun müasir səviyyədə aparılması üçün müvafiq nizamnamələr, təlimatlar hazırlanmış və tətbiq edilmişdir. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edilmiş və artıq Azərbaycan ordusunun mükəmməl qanunvericilik bazası yaradılmışdır.

Ordu quruculuğunun indiki mərhələsində silahlı qüvvələrdə aparılan islahatların əsas məqsədlərindən biri qoşunların Vətənə, Azərbaycan xalqına və dövlətinə sadiq yüksək hərbi hazırlığa malik zabit, gizir və miçmanlarla tam komplektləşdirilməsinə nail olmaqdır. Silahlı qüvvələrin şəxsi heyətlə komplektləşdirilməsi Ali Baş Komandanın göstərişlərinə və Azərbaycan Respublikasının hərbi qanunvericilik aktlarının tələblərinə uyğun vahid plan əsasında aparılır və ardıcıl xarakter daşıyır.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sayəsində ölkəmizdə milli hərbi kadrların yetişdirilməsi üçün müasir tələblərə cavab verən hərbi təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzalamışdır.

Bu gün Azərbaycan silahlı qüvvələrinin zabitləri həmçinin Türkiyənin, Ukraynanın, Rusiyanın, Pakistanın, Çinin, Almaniyanın, Böyük Britaniyanın, İtaliyanın, Rumıniyanın, Macarıstanın hərbi akademiyalarında və dinləmə kurslarında da təhsil alırlar. Zabitlərimizin Amerika Birləşmiş Ştatlarında təhsil alması haqqında aıtıq razılıq H.Əliyev dövründə əldə edilmişdir.

Silahlı qüvvələrin şəxsi heyətinin sosial müdafiəsinin təmin

edilməsi məqsədilə 1993-cü ildən başlayaraq, hərbi qulluqçuların. Müdafiə Nazirliyi sistemində İşləyən fəhlə və qulluqçuların əmək haqqı artırılmış, şəxsi heyətin tibbi, ərzaq və əşya-əmlak təminatının yaxşılaşdırılması istiqamətində çox iş aparılmışdır. Hərbi hissələrin maddi-texniki bazaları, əsgər yataqxanaları müasir tələblərə uyğun təmir edilmiş, şəxsi heyətin asudə vaxtının maraqlı və səmərəli təşkili üçün texniki təbliğat vasitələrinin təminatına diqqət artırılmışdır.

Azərbaycan Silahlı Qüvvələrinin hərc-mərclik illərindəki siyasi oyunlardan və siyasi qüvvələrdən uzaqlaşdırılması, onların intizamlı, mənəvi cəhətdən saf, yüksək peşəkarlığı ilə seçilən kadrlarla təmin olunması, təchizatının yaxşılaşdırılması, quruculuq işlərinin elmi əsaslarla aparılması, ordunun güclənməsi, vətənimizin suverenliyinin və müstəqilliyinin möhkəm təminatçısına çevrilməsi respublika Prezidenti Heydər Əliyevin rəhbərliyi altında aparılan işlərin, onun tələbkarlığının məntiqi nəticəsidir.

Dünya siyasi xadimləri Heydər Əliyevin titanik zəhmətini, onun uzaqgörən ardıcıl siyasətini yüksək qiymətləndirmişlər. Aşağıda bir sıra dünya görkəmli simalarının Heydər Əliyev fəaliyyətinə, diplomatiyasına, dövlət quruculuğu siyasətinə, şəxsiyyətinə verdikləri böyük qiymətin bəzi nümunələrinə diqqət yetirməklə bu ölməz insanın böyüklüyünü dərindən təsəvvür etmək olar.

* * *

Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları

həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafım möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

***Corc BUŞf***
***Amerika Birhşmiş Ştatlarının prezidenti***

* ♦ *

Bütün dünyada layiqli hörmət və böyük nüllız qazanmış görkəmli dövlət xadimi həyatdan getmişdir. Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir.

Onun vəfalı Müstəqil Dövlətlər Birliyi, bütün beynəlxalq birlik üçün əvəzsiz itkidir.

***Vladimir PUTİN, Rusiya Federasiyasının prezidenti***

5|e**

Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim.

***JakŞİRAK, Fransa Respublikasının prezidenti***

* * ♦

Heydər Əliyev Azərbaycanın böyük lideri idi. 0, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər.

Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahında bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir.

***ToniBLEYER, Böyük***
***Britaniyanın Baş naziri.***

* * ♦

Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür.

***Nursultan NAZARBAYEV, Qazaxıstan***
***Respublikasının prezidenti.***

* * ♦

Beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, Çin xalqının qədim dostu olan cənab Heydər Əliyev Çin-Azərbaycan dostluq münasibətlərinin inkişafında böyük rol oynamışdır.

***XuSZINTAO, Çin Xalq***
***Respublikasının Sədri.***

Uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm.

Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı. Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır.

Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıraraq, ölkələrimiz arasındakı münasibətlərin sarsılmaz təməllər üzərində qurulduğunu bir daha sübut etmişdir.

***Əhməd Necdəi SEZƏR, Türkiyə Respublikasının prezidenti***

* * sH

Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və fıravanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur.

***Rəcəb Tayyib ƏRDOĞAN, Türkiyə Respublikasının Baş naziri***

♦ JN *

Heydər Əliyevin Azərbaycanın inkişafında və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində əvəzsiz xidmətləri olmuşdur. 1998-ci ilin iyul ayında Birləşmiş Krallığa səfəri zamanı onunla olan görüşümüzü çox yaxşı xatırlayıram.

***Kraliça IIELİZABET.***

^ ♦

Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olunması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir. Onun keçən il İran İslam Respublikasına çox səmərəli səfəri ölkələrimizin əlaqələrində dönüş nöqtəsi olmuşdur.

***Seyid Məhəmməd XA TƏMİ, iran İslam Respublikasının prezidenti.***

4: 4:

Hörmətli siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin adı və nüfuzu Azərbaycan Respublikasının beynəlxalq birlikdə qazandığı layiqli yerlə qırılmaz surətdə bağlı olacaqdır.

Biz müasir beynəlxalq gerçəklik şəraitində Bolqarıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Heydər Əliyevin böyük şəxsi töhfəsini yüksək qiymətləndiririk.

***Georgi PIRVANOV, Bolqarıstan Respublikasının prezidenti.***

* *

Azərbaycanın müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində Heydər Əliyevin tarixi rolu misilsizdir.

***İslam KƏRİMOV, Özbəkistan Respublikasının prezidenti.***

* * *

Moldova Respublikasında Heydər Əliyevi həmişə böyük vətənpərvər kimi, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi uğrunda, Avropada və bütün dünyada demokratiya idealları uğrunda, sabitliyin və təhlükəsizliyin qorunub saxlanması uğrunda mübariz kimi tanımış və qiymətləndirmişlər.

***Vladimir VORONİN, Moldova Respublikasının prezidenti.***

* ♦ *

Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır.

***Gerhard ŞRÖDER, Almaniya Federativ Respublikasının federal kansleri.***

i*! ♦ ♦

Onun adı doğma torpaqla qırılmaz surətdə bağlıdır. Müstəqil və suveren Azərbaycanın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi və regionda yorulmadan möhkəm sülh axtarışı Heydər Əlirza oğluna bütün dünyada yüksək nüfuz və səmimi hörmət qazandırmışdır. Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaqdır.

***Emoməli RƏHMONOV, Tacikistan Respublikasının Prezidenti.***

♦ * ♦

Qırğızıstanda Heydər Əlirza oğlunu müstəqil Azərbaycanın təşəkkülünə və inkişafına misilsiz töhfə vermiş görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi kimi yaxşı tanıyırdılar.

Onun rəhbərliyi ilə Azərbaycan Respublikası müstəqil inkişaf yolunda böyük uğurlar qazanmış, dünya birliyinin tanınmış və hörmətli üzvü olmuşdur. Heydər Əlirza oğlu özünün bütün istedad və müdrikliyini, Vətənə məhəbbətini, əməksevərliyini və fədakarlığını Azərbaycanın tərəqqisi işinə həsr etmişdir.

***Əsgər AKAYEV, Qırğızıstan Respublikasının Prezidenti,***

*k'kk

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm.

***II İohan Pavel, Roma papası.***

k k k

Mərhum Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycan bu gün xarici siyasətində etibar və sabitlik amili kimi çıxış edən, iqtisadi inkişaf və sosial rifah yolunda möhkəm addımlarla irəliləyən, beynəlxalq birliyin nüfuzlu bir üzvü kimi etibarlı mövqeyini gündən-günə təmin etməkdə olan ölkədir. Azərbaycanın bu gün yürütdüyü uğurlu və tarazlaşdırılmış xarici siyasətinin memarı olan Heydər Əliyevi itirməyimiz tarixi və mədəni tellərlə bir- birinə bağlanmış olan xalqlarımızı dərindən kədərləndirmişdir.

***Abdullah GÜL, Türkiyə Respublikasının xarici işlər naziri və Baş nazirin müavini.***

♦ * *

Rusiya üçün Heydər Əlirza oğlu Əliyev tarixə XXI əsrdə hərtərəfli Azərbaycan-Rusiya münasibətlərinin, iki dövlətin strateji tərəfdaşlığının möhkəmlənməsinin əqidəli və fəal tərəfdarı kimi daxil olmuşdur.

***Vyaçeslav TRUBNİKOK Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini.***

* ♦ ♦

Dağıstanlılar Heydər Əlirza oğlunu yaxşı tanıyırdılar və onun Dağıstana xoş münasibətini həmişə xatırlayacaqlar, çünki onun bu münasibəti sayəsində xalqlarımız arasında dostluq və mehriban qonşuluq ənənələri yaranmışdır və uzun illərdən bəri mövcuddur. Onun adı xatirimizdə həmişəlik qalacaqdır.

***Məhəmmədəli MƏHƏMMƏDOK Dağıstan Respublikası Dövlət Şurasının sədri.***

♦ * *

Müstəqil Dövlətlər Birliyi ölkələrinin siyasi həyatında Heydər Əlirza oğlunun oynadığı rolu lazımınca qiymətləndirmək çətindir. Müdrik siyasətçi olaraq o, ən mürəkkəb vəziyyətlərdə konstruktiv qərarlar tapmağı bacarırdı. Təkcə Azərbaycan deyil, həm də postsovet məkanının bütün ölkələri nüfuzlu dövlət liderini itirdilər.

***Mintimer ŞA YMİYEV, Tatarıstan Respublikasının Prezidenti***

* * *

Heydər Əlirza oğlu böyük siyasətçi, dahi dövlət rəhbəri və vətənpərvər, gözəl, istedadlı insan kimi məşhur idi. Sovet

dövlətinin, sonralar MDB-nin və Azərbaycan Respublikasının tarixinin bir çox parlaq və əhəmiyyətli səhifələri onun adı ilə bağlıdır.

***Murtaza RƏHİMOV, Başqırdıstan Respublikasının prezidenti.***

* * +

Bütün postsovet məkanında müasir siyasətçilərin bütöv bir nəslinin yetişdirilməsində Heydər Əlirza oğlunun xidməti misilsizdir. Dünya səviyyəli görkəmli dövlət xadimi kimi Heydər Əlirza oğlu ilə şəxsi görüşlərimlə bağlı xatirələri qəlbimdə həmişəlik saxlayacağam.

***Kirşan İLYUMJİNOV, Kalmıkiya Respublikasının Prezidenti, FİDE-nin prezidenti.***

% 4:

Azərbaycan ilə Türkiyə arasında dərin kökləri olan tarixi və mədəni bağlar vardır. Hörmətli Əliyev tarixdən gələn bu bağların yenidən canlandın İması və Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin inkişafı üçün fövqəladə səylər göstərmişdir.

***BühndECEVİT, Türkiyə Demokratik Sol Partiyasının sədri.***

* * ♦

Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır.

***Çingiz Aytmatov, Qırğızıstan xalq yazıçısı.***

♦ * ♦

Heydər Əliyev böyük şəxsiyyətdir. O, mənim dostum, qardaşımdır. Onun yeri həmişə ürəyimin başındadır.

***Butros-Butros Qali,***
***BMT~nin sabiq Baş katibi***

* i/i If.

Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində Azərbaycan keçmiş Sovetlər Birliyinin lider dövlətləri ilə müqayisədə həddindən çox nailiyyətlər əldə edibdir. O, həqiqətən yeni Azərbaycan dövlətinin qurucusudur.

***Tintm Eqqar, Böyük Britaniyanın***
***energetika naziri***

♦ * *

Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram.'

***Nikolay Baybakov, keçmiş SSRİ Dövlət Plan***
***Komitəsinin sədri***

**ƏLİYEV İLHAM HEYDƏR oğlu.**
***Qısa bioqrafik məlumat***

• İlham Heydər oğlu Əliyev 196l-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur.

• 1967-1977-ci illərdə Bakı şəhərində orta məktəbdə oxumuşdur.

• 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ) daxil olmuşdur.

**' "Azorbaycan Respublikası 1991-2001" kitabındakı materiallardan istifado edilmişdir.**

o MDBƏİ-ni bitirdikdən sonra 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun aspiranturasına daxil olmuşdur.

o 1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi dərəcəsi almışdır.

o 1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda müəllim işləmişdir.

o 1991-1994-cü illərdə özəl biznez sahəsində çalışmışdır. Bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.

o 1994-cu ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir.

Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.

o İlham Əliyev ABŞ-ın Linkoln universitetinin, Moskva Beynəlxalq Əlaqələr İnistitutunun (Universitet) fəxri doktorudur.

• İki dəfə, 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə seçilmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam vermişdir.

• 1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin Prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir.

• 1999-cü ildə hakim Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir.

• 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur.

• 2003-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir.

• 2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirak-

ina və Avropa ideallarına sədaqətinə görə AŞPA-nm fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir.

• 2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir.

» 2003-cü il oktyabrın 15-də Azərbaycan Republikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. 2003-cü il oktyabrın 31- də Prezident vəzifəsinin icrasına başlamışdır.

o Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.

'

® Evlidir. Üç övladı var.

İ.Əliyev fəaliyyəti dövründə özünü bacarıqlı təşkilatçı, peşəkar siyasətçi, mahir diplomat kimi göstərmişdir. O, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş neft strategiyasının həyata keçirilməsində fəal iştirak edir. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərlərindən biri kimi, \. Əliyev neft sənayesinə sərmayələr, yeni texnologiyalar cəlb etmək, xarici neft şirkətləri ilə Azərbaycan üçün əlverişli müqavilələr bağlamaq məqsədi ilə aparılmış müxtəlif səviyyəli danışıqlarda fəal iştirak etmişdir. Azərbaycanın neft strategiyasının əleyhinə çıxan xarici qüvvlər hər vasitə ilə bu işin uğurla həyata keçirilməsinə mane olurdular. Rusiya Federasiyası Xəzər dənizinin bütün Xəzəryanı ölkələr üçün ümumi olduğunu və onun milli sektorlara bölünməsinin mümkünsüzlüyünü bəyan edirdi. Bu İstiqamətdə verilən notalar, bəyanatlar nəticəsində xarici şirkətlər Xəzər dənizinin statusu müəyyənləşənə qədər öz işlərini təxirə salmağı planlaşdırırdılar. Məhz İ. Əliyevin ABŞ-da bu ölkənin Energetika Nazurliyi rəhbərliyi ilə apardığı danışıqlar nəticəsində ABŞ hökuməti Azərbaycanın mövqeyini müdafiə etdi

**Əiraflı məlumat üçün “Azərbaycan Respublikası 1991-2001” kitabına bax.**

və xarici şirkətlər Xəzər dənizində əməli fəaliyyətə başladılar. Ümumiyyətlə Heydər Əliyev neft strategiyasının həyata keçirilməsi nəticəsində 14 ölkənin 32 şirkəti ilə neft müqaviləsi imzalanmışdır. Bu müqavilələrin hazırlanıb imzalanmasında İ. Əliyev fəal iştirak etmişdir. '

Azərbaycan Respublikası üçün təkcə iqtisadi deyil, həm də siyasi əhəmiyyət daşıyan, istiqamətinin müəyyənləşdirilməsində və reallaşmasında Heydər Əliyevin böyük xidmətləri olduğu Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisində İ. Əliyev geniş fəaliyyət göstərmiş və hal-hazırda bu iş onun rəhbərliyi altında həyata keçirilmişdir. 2006-ci il may ayında tarixi BTC neft kəməri Azərbaycan neftini dünyaya çıxarmışdır.

Müstəqil Azərbaycan Respublikasının beynəlxalq maraqlarını müdafiə etmək, onun üzləşdiyi ən ciddi problemlərdən birini, Ermənistanın Dağlıq Qarabağı işğal etmək məqsədi ilə Azərbaycana hərbi müdaxiləsinin aradan qaldırılması istiqamətində İ. Əliyev geniş diplomatik fəaliyyət həyata keçirmişdir. Azərbaycanın xarici əlaqələrinin genişlənməsində Avropa Şurası ilə əməkdaşlıq xüsusi yer tutur. 25.1.2001 ildə Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv qəbul olundu. İ. Əliyevin rəhbərliyi altında Azərbaycan Parlamentinin nümayəndə heyəti Avropa Şurasında səmərəli fəaliyyət göstərirdi. Məhz bu fəaliyyətin nəticəsi olaraq İ. Əliyev 27.1.2003 ildə Avropa Şurası Parlament Assambleyasının sədr müavini və büro üzvü seçildi. İ. Əliyev Avropa Şurasının tribunasından Ermənistanın işğalçılıq siyasətini dəfələrlə ifşa etmiş, Ermənistan Respublikası tərəfindən işğal olunmuş Dağlıq Qarabağda narkotik maddələr yetişdirildiyini və ixrac edildiyini, bundan əldə olunan gəlirlə ordu və terrorçu qrupların saxlanılmasını, azərbaycanlılara qarşı ermənilər tərəfindən soyqırım siyasətinin həyata keçirildiyini, işğal olunmuş ərazilərdə azərbaycanlılara

**Садыхов Ф. Дипломатическая служба Азербайджана: Политические приоритеты, этапы формирования. Баку, 2004, стр. 190-191**

məxsus tarixi-mədəni abidələrin məhv edildiyini dünyaya bəyan etmişdir. Bu fəaliyyətin nəticəsi olaraq V.2001 ildə Avropa Şurasının Nazirlər Komitəsinin 108-ci sessiyası Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən kommünike qəbul etmişdir.

İ. Əliyev Azərbaycanın ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və s. ölkələrlə əlaqələrinin genişləndirilməsi istiqamətində də fəaliyyət göstərmiş və göstərir. ABŞ siyasətçisi V. Skoutroft İ. Əliyevin diplomatik fəaliyyətinə qiymət verərək qeyd etmişdir ki, "Mən Azərbaycanın gələcəyinə nikbin baxıram. İ. Əliyev bizə güclü siyasətçi təsiri bağışlayır".

15. X.2003 ildə Azərbaycan Respublikasının prezidenti seçildikdən sonra İ. Əliyev respublikanın sosial-iqtisadi inkişafını sürətləndirmək, demokratiyanı davamlı inkişaf etdirmək, Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirmək sahəsindəki fəaliyyətini daha da genişləndirmişdir. Onun Türkiyə Respublikasına, Rusiya Federasiyasına, Fransaya, Almaniya Federativ Respublikasına, İran İslam Respublikasına, Çin Xalq Respublikasına, İtaliyaya, Səudiyyə Ərəbistanına, Polşaya və s. etdiyi səfərlər, BMT və digər beynəlxalq təşkilatların tribunalarından etdiyi çıxışlar, çoxsahəli əməli fəaliyyəti Heydər Əliyev ideyalarının həyata keçirilməsi istiqamətində atılan mühüm addımlardır. Prezident İ. Əliyevin Azərbaycana uğurlu rəhbərliyi ölkəmizin qıssa müddətdə misilsiz nailiyyətlər əldə etməsinə, müstəqilliyimizin daha da möhkəmlənməsinə səbəb olmuşdur. İ. Əliyevin rəhbərliyi ilə Azərbaycanın son üç ildə (2003-2006) qazandığı sosyal-iqtisadi müvəffəqiyyətlər türkdilli dövlətlərinin Zirvə (Antaliya, 16-18 noyabr 2006) görüşündə də xüsusi qeyd edilmişdir. Azərbaycanın qıssa müddətdə beynəlxalq aləmdə uğurlarına görə Ukrayna prezident İ. Əliyevi "İlin adamı-2006" beynəlxalq medalı ilə təltif etmişdir.

İlham Əliyevin prezidentliyinin ilk ilində - 2004-cü ildə Azərbaycan iqtisadiyyatı iki həlledici xüsusiyyətlə xarakterizə olunan keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Birincisi - ümummilli liderimiz Heydər Əliyevin strateji

sosial-iqtisadi xəttinin uğurla davam etdirilməsi;

İkincisi - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdüyü yeni vəzifələrin tələblərinə uyğun iqtisadi və institusional islahatların dərinləşdirilməsidir.

Dövlət başçısı İlham Əliyevin rəhbərliyi və nəzarəti altında Nazirlər Kabinetinin fəaliyyətinin əsasını qeyd olunan istiqamətlər təşkil etmişdir.

Ölkənin iqtisadi qüdrətinin sürətlə artmasını, qeyri-neft sektorun, regionların, sosial sahənin və infrastrukturun inkişafını təmin edən kompleks tədbirlər ardıcıl olaraq, sistemli şəkildə həyata keçirilmişdir.

Enerji təhlükəsizliyi, müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, xalqın rifah halının yüksəldilməsi, işsizlik probleminin həlli və dünya iqtisadi sistemində Azərbaycan layiqli yerinin tutulması üçün əhəmiyyətli işlər görülmüşdür. İlham Əliyevin prezidentliyi dövründə qazanılmış nailiyyətlər hökümətin Milli məclisə 16 mart 2007-ci il hesabatında öz əksini tapmışdır. '

Ümumi daxili məhsulun həcmi müqayisəli qiymətlərlə 2003- cü ilə nisbətən 1,9 dəfə, onun adambaşına düşən hissəsi 2,7 dəfə, əhalinin pul gəlirləri 1,8 dəfə, orta aylıq əmək haqqı 2 dəfə, sosyal yönümlü xərclər 3 dəfə, investisiya xərcləri 7,8 dəfə, müdafiə xərcləri isə 2,4 dəfə artmışdır. Bu müddət ərzində ölkə iqtisadiyyatının inkişafına 14 milyard ABŞ dollarından artıq sərmayə yönəlmiş, büdcə gəlirləri və xərclərinin artımı 3 dəfədən çox olmuşdur.

Dövlət başçısı İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin hər rüb keçirilən geniş iclaslarında cari və strateji məsələlərin müzakirə olunması, müxtəlif problemlərin həlli ilə bağlı konkret tədbirlərin müəyyən edilib həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatının bütün istiqamətləri üzrə 2006-cı ildə də böyük nailiyyətlər əldə edilmişdir.

**‘Respublika” qəz.. 17 mart 2007.**

Ümıımiyyotlo, 2006-cı il ölkə üçün böyük tarixi və iqtisadi əhəmiyyətli hadisələrlə xarakterizə olunur. Eneıji təhlükəsizliyi sahəsində beynəlxalq əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin isə düşməsi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi ulu öndərimiz Heydər Əliyevin neft strategiyasının təntənəsini sübut edən irimiqyaslı layihələrdir.

Daha bir önəmli hadisə isə 2006-cı ildə Bakı-Tbilisi-Qars dəmiryolunun inşası ilə bağlı qərarın qəbul olunmasıdır.

Keçən il sosial-iqtisadi islahatların dərinləşdirilməsi istiqamətində aparılan işlər davam etdirilmişdir. Belə ki, ölkənin pensiya sistemində köklü islahatların aparılması məqsədi ilə zəruri qanunvericilik bazası yaradılmışdır.

Ünvanlı sosial yardım sistemi tətbiq edilərək, 59 minə yaxın ailəyə ünvanlı sosial yardım göstərilmiş, ilk dəfə olaraq, ipoteka kreditlərinin verilməsinə başlanılmışdır.

Böyük iqtisadi və hətta siyasi əhəmiyyət kəsb edən milli valyutanın deııominasiyası prosesi uğurla başa çatdırılmış, Naxçıvan Muxtar Respublikasının uzun illər davam edən qaz təchizatı problemi həll edilməsidir.

Azərbaycanın ümumi inkişaf konsepsiyasında ətraf mühitin mühafizəsi, ekoloji vəziyyətin yaxşılaşdırılmasını təmin etmək məqsədi ilə 2006-2010-cu illər üçün xüsusi Dövlət Proqramı təsdiq edilmişdir və artıq icra olunur.

2006-cı ildə ümumi daxili məhsulun real artımı 34, 5 faiz olmuş və 17,7 milyard manata çatmışdır. Bir çox beynəlxalq maliyyə və ya bank təşkilatlarının etirafına görə, hazırda Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələr sırasındadır. Adambaşına düşən əlavə dəyər 2005-ci ilə nisbətən 33 faiz artaraq 2400 dollara çatmışdır.

2006-cı ildə dövlət büdcəsinin mədaxil hissəsi 101,2 faiz icra olunmuş və 2005-ci ilə nisbətən 1,9 dəfə, o cümlədən qeyri-neft sektorunda 35 faiz artmışdır.

Dövlət büdcəsinin xərcləri 2005-ci ilə nisbətən 77 faiz artaraq

3,8 milyard manata çatmışdır.

Ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi yenə də diqqət mərkəzində olmuşdur. Bu məqsəd üçün 640 milyon manat vəsait ayrılmışdır ki, bu da 2005-ci ilə nisbətən 2,2 dəfə çoxdur. Bununla yanaşı, ordunun və dövlət sərhədlərinin möhkəmləndirilməsi, maddi-texniki təchizatın yaxşılaşdırılması məqsədi İlə zəruri olan bütün resurslar ayrılmışdır.

2006-cı ildə büdcə xərclərinin tərkibində dövlət kapital qoyuluşunun həcmini xeyli artırmaq mümkün olmuşdur. Belə ki, dövlət investisiya xərcləri 5,4 dəfə artaraq 720 milyon manata çatmışdır.

Maliyyə-kredit təşkilatları tərəfindən 2006-cı il ərzində 65 faiz çox kredit ayrılmış, o cümlədən uzunmuddətli kreditlərin həcmi 2,3 dəfə artmışdır.

Azərbaycanın ümumi valyuta ehtiyatları ötən ilin sonunda təqribən 4 milyard dollara çatmış və dövlətin xarici borcunu 86 faiz üstələmişdir. Bu bir daha ölkənin ödəmə qabiliyyətinin ildən ilə artdığını göstərir və onun iqtisadi təhlükəsizliyini təmin edir.

2006-CI ildə Sahibkarlığa Kömək Milli Fonduna dövlət büdcəsindən ayrılmış vəsaitin həcmi iki dəfə artırılaraq, 2 mindən çox sahibkarlıq subyektinə güzəştli kredit kimi verilmişdir.

İ.Əliyevin prezidentliyi dövründə institusional islahatlar davam etdirilmişdir. Dövlət Dəniz və Mülki Aviasiya Administrasiyaları, Bakı və Sumqayıt elektrik şəbəkələri səhmdar cəmiyyəti, ölkədə investisiyanın təşviqini və səmərəli istifadəsini təmin etmək məqsədi ilə “Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Fövqəladə Hallar, Müdafiə Sənayesi, Sənaye və Energetika, İqtisadi İnkişaf nazirliklərinin əsasnamələri və strukturları təsdiq edilmişdir.

Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı çərçivəsində 3 mindən artıq müəssisə və obyekt özəlləşdirilmiş, onların 12-si səhmdar cəmiyyətinə çevrilmişdir.

İqtisadiyyatın real sektorundakı bütün sahələrdə də

əhəmiyyətli artım müşahidə olunmuşdur.

Ümumilikdə, sənayedə 2005-ci ilə nisbətən 2006-cı ildə 36,6 faiz çox məhsul istehsal edilmişdir. O cümlədən kimya sənayesində 14,9 faiz, maşınqayırmada 18,7 faiz, metallurgiyada 9,1 faiz, elektroenergetikada 6,9 faiz, sənayenin digər sahələrində 22,5 faiz artım təmin edilmişdir.

Neft və qaz hasilatı müvafiq olaraq, 45,3 faiz çoxalmışdır.

Kənd təsərrüfatı üzrə istehsal 0,9 faiz artmışdır.

2006-cı ildə iqtisadiyyatın inkişafına bütün maliyyə mənbələri hesabına 6 milyard manat həcmində investisiya yönəlmişdir. Bu da 2005-ci ildəkindən 14,8 faiz çoxdur. Qeyd etmək lazımdır ki, daxili kapital qoyuluşunun payı 2003-cü ildəki 24,8 faizdən 46 faiza yüksəlmişdir.

Ölkənin müxtəlif bölgələrində 45 min şagird yerlik məktəblər, 295 çarpaylıq xəstəxana, 1,2 milyon m yeni mənzil sahəsi, 28İmin nömrəlik avtomat telefon stansiyaları, Bakıda iki yol ötürücüsü, Gəncədə beynəlxalq hava limanı, Imişlidə şəkər zavodu, Naxçıvanda, Astarada, Şəkidə və Xaçmazda modul tipli elektrik stansiyaları, Lənkaranda tikiş fabriki, Lerik və Yardımlı rayonlarında qaz kəməri və digər çoxsaylı obyektlər tikilib istifadəyə verilmişdir. Bununla yanaşı, respublikanın bütün şəhər və rayonlarında böyük həcmdə abadlıq işləri görülmüşdür.

Nəqliyyat sahəsində yük və sərnişin daşınması 2005-ci ilə nisbətən müvafiq surətdə 13 6,3 faiz çox olmuş, rabitə xidmətlərinin həcmi 24 faiz artmışdır.

2006-cı ildə daxili ticarət dövriyyəsinin və əhaliyə göstərilən pullu xidmətlərin ümumi həcmi 18,4 faiz artmışdır ki, bu da əhalinin alıcılıq qabiliyyətinin durmadan yüksəldiyini göstərir.

Ötən il xarici ticarət dövriyyəsi 37,4 faiz artaraq 11,6 milyard dollara çatmışdır. Xarici ticarətdə müsbət saldo 1,1 milyard dollar təşkil etmişdir.

Dövlət başçısı İlham Əliyevin antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı verdiyi Fərmanda qarşıya qoyulan

vəzifələrin həyata keçirilməsi nəticəsində, inflyasiyanın təzyiqinə baxmayaraq, ötən il, nəzərdə tutulduğu kimi, onu birrəqəmli həddə, yəni 8,3 faiz səviyyəsində saxlamaq mümkün olmuşdur.

Əhalinin nominal pul gəlirləri 2006-cı ildə 23,4 faiz artmış və adambaşına orta hesabla ayda 2005-ci ildəki 81 manatdan 99 manata çatmışdır. Nəticədə pul gəlirlərinin artım sürəti inflyasiyanın səviyyəsini 2,8 dəfə üstələmişdir.

2006-cı ilin dekabr ayında orta aylıq əmək haqqı 20 faiz artaraq 151 manat təşkil etmişdir.

Əhalinin banklardakı əmanətləri 66 faiz, o cümlədən milli valyuta ilə qoyulmuş əmanətlər 4,4 faiz artaraq 820 milyon manata çatmışdır. Yoxsulluğun azaldılması proqramı uğurla həyata keçirilir. 2006-cı ilin nəticələri göstərir ki, yoxsulluq həddinin 52 manatdan 58 manata qədər qaldırılmasına baxmayaraq, onun səviyyəsi ötən ilin sonuna 20,8 faizə düşmüşdür.

2006-ci ildə 174 min yeni, o cümlədən 102 min daimi iş yerləri açılmışdır. Bunların da 84 faizi regionların payına düşür.

Həmişə olduğu kimi, qaçqın və məcburi köçgünlərin problemlərinin həlli ilə onların yaşayış şəraitinin və maddi vəziyyətinin yaxşılaşdırılmasına ümumilikdə 192 milyon manat vəsait sərf edilmişdir ki, bu da 2005-ci ilə 40 faiz çoxdur. Dövlət Neft Fondundan ayrılan 110 milyon manat vəsait hesabına Ağdam və Ağcabədi rayonlarında 13 müasir tipli qəsəbə tikilib istifadəyə verilmişdir.

2006-ci ildə Azərbaycanda beynəlxalq, siyasi-iqtisadi və humanitar münasibətlərin genişləndirilməsi prosesi davam etdirilmişdir. Belə ki, Bakıda 30-dan çox beynəlxalq tədbir keçirilmişdir. Bunlardan İqtisadi Əməkdaşlıq Təşkilatının 9-cu Zirvə toplantısını və Nazirlər Şurasının 16-cı iclasını, İslam Konfransı Təşkilatına üzv olan ölkələrin xarici işlər nazirlərinin 33-cü, turizm nazirlərinin 5-ci Konfranslarını, BMT-nin Mərkəzi Asiya ölkələrinin iqtisadiyyatı üçün xüsusi proqramının idarəetmə Şurasının iclasını və biznes forumunu, İslam İnkişaf Bankının beynəlxalq investisiya konfransını və sair göstərmək olar.

Prezident İ. Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə 9 mart 2007-ci ildə Bakıda Dünya Azərbaycan və Türk diasporları rəhbərlərinin 1 forumu keçirilmişdir. Bu forumda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş Naziri Rəcəb Tayyib Ərdoğan "Bir millət, iki dövlət" (H. Əliyev) olan Azərbaycan və Türk diasporların dünya təşkilatlarını erməni yalan təbliğatına və iftira ilə dolu uydurmalarına qarşı birləşməyə çağırmışlar.

# SON SÖZ

Dünyada elə şəxsiyyətlər var ki, onların adı və şöhrəti doğma Vətəndən çox-çox uzaqlara yayılmışdır. Milyonlarla insanlar arasında hörmət və ehtiram kimi nüfuzları da sərhəd tanımır.

Şəxsi keyfiyyətləri nə qədər üstündürsə, xüsusi təqdimata da bir o qədər az ehtiyac duyulur, çünki, belə adamların təkcə adını çəkməklə söhbətin dərhal kimdən getdiyini anlamaq olar. Hər şey yaradanın iradəsindədir. Kim bilərdi ki, illər keçəcək, kiçik yaşlarında valideynlərini itirmiş, uşaq evində boya-başa çatmış Maqsud gələcəkdə təkcə respublikamızda deyil, o cümlədən onun sərhədlərindən kənarda da görkəmli şərqşünas alim, diplomat, jurnalist, şair, yazıçı-publisist, tərcüməçi-bir sözlə hərtərəfli bir şəxsiyyət kimi tanınacaqdır.

M.Hacıyev Azərbaycan, rus, fars, dəri (əfqan) və tat dillərində 40-dan artıq monoqrafiya, kitab və kitabçaların, 200-ə yaxın elmi, 250-dən artıq publisistik məqalələrin müəllifi, 20-yə qədər kitab və monoqrafiyanın redaktoru, rəyçisi, məsləhətçisi, 20-yə qədər proqram və dərs vəsaitinin müəllifidir. (Məlumat üçün kitabın biblioqrafiya və istifadə olunmuş ədəbiyyat hissəsinə bax).

Tərcümə əsərləri də kitab halında dərc olunmuşdur. O, Beynəlxalq Şərqşünaslar Assosiasiyanın, Azərbaycan Yazıçalar və Jurnalistlər Birliklərinin üzvüdür. Filalogiya elmləri namizədi, MAA-nın dosenti, Bakı Avrasiya Universitetinin professoru, Azərbaycan Ziyalılar Cəmiyyətinin fəxri doktorudur. Maqsud müəllim on ilə yaxındır ki, Azərbaycan Milli Aviasiya Akademiyasında ped- oqoji fəaliyyətlə məşğuldur. Bu gün Milli Aviasiya Akademiyasında yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında Maqsud müəllimin böyük əməyi vardır. O, elm və təhsilin aparıcılarından biri kimi təkcə bizim Akademiyamızda yox, o cümlədən respublikada da çox tanınır.

Maqsud Hacıyev bir pedaqoq alim kimi bu missiyanı şəxsiyyətində böyük alim xarakterinin olması, öz həmkarlarına həmişə arxa durması, onlara dostluq göstərən, düşünən ziyalı

insanın ləyaqəti ilə nadir ahəngdə birləşdirilməsi sayəsində uğurla həyata keçirir.

Qeyd etmək lazımdır ki, 50 ilə yaxın hərtərəfli və səmərəli elmi fəaliyyəti ərzində Maqsud İbrahim oğlu Hacıyev Azərbaycan elminin, ədəbiyyatının, müqayisəli dilçiliyin, xüsusilə memuar ədəbiyyat janrınm inkişafına şərəflə xidmət göstərmişdir.

Görkəmli alim Maqsud Hacıyev yüksək elmi - praktiki potensiala malik olmaqla yanaşı, eyni zamanda əsl vətəndaşdır, vətəndaşlıq hissələri ilə yaşayıb-yaradan şəxsiyyətdir. O, respublika əhəmiyyətli işlərdə, xüsusən respublikamızın idarə olunmasında, dövlətçiliyimizin qorunmasında, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edən, gənc nəslin təlim-tərbiyə işlərində onların yüksək vətənpərvərlik ruhunda tərbiyə olunmalarını xüsusi diqqətdə saxlayan qayğıkeş alim, səmimi insan və ətrafında olan həmkarlarına qarşı yaxın məsləhətçi və yaxın köməkçidir.

Bütün sahələrdə inkişaf yoluna qədəm qoyan müstəqil Respublikamızın parlaq gələcəyinin təminatı yalnız və yalnız respublika ictimayyətinin quruculuq işlərində fəallığı, ziyalılarımızın gərgin əməyi, zəhməti və hər kəskin öz sahəsində məqsədyönlü fəaliyyətindədir.

“Qazancımız-zəhmətimizdədir” tələbinin aparıcılarının ön cərgəsində olan görkəmli alim, diplomat, pedaqoq, xeyrxah insan Maqsud Hacıyev Respublikamızın həyatıvacib məsələlərinin həllinin ağır yükünü məğrur çiyinlərində aparanlardan biri olmaqla xalqımıza əvəzsiz xidmətlər göstərir.

Maqsud müəllim Aviasiya Akademiyasında bütün professor-müəllim heyyətinin, tələbələrin böyük hörmətini və rəğbətini qazanmışdır.

Ona Akademiyanın rektoru, tanınmış görkəmli şəxsiyyət, akademik Arif Mircəlal oğlu Paşayev böyük rəğbət və hörmət bəsləyir. Bu böyük alim tələbələrə müraciət edərək Maqsud Hacıyev haqqında demişdir: “Mən bir müddətdir ki, Maqsud müəllimi tanıyıram. Hər dəfə onunla təmasda olanda sözün əsl mənasında insanpərvərliyinin, alicanablığının və ələlxüsus ziyalılığının şahidi oluram. Mən onunla söhbətdən doymuram. Siz

fəxr edin ki, Maqsud müəllim kimi şöhrətli müəllimlər sizə dərs deyirlər".

Yuxarıda qeyd olunduğu kimi Maqsud müəllim yüksək peşəkar tərcüməçi, diplomat (kitabın 224-cü səhifəsində verilmiş Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin arayışına bax) kimi də fəaliyyət göstərmişdir. Q, uzun müddət Sovetlər Birliyini İran və Əfqanıstanda layiqincə təmsil etmiş və üzərinə düşən vəzifənin öhdəsindən şərəflə gəlmişdir. Maqsud müəllimin həyatı çox maraqlı olduğu kimi son dərəcə rəngarəng və zəngindir. O, hər bir insana örnək olan, insanların yaddaşında qalan böyük bir ömür yaşamış və ibrətamiz bir həyat yolu keçmişdir.

Maqsud müəllim akademiyadakı pedaqoji fəaliyyətilə hec də kifayətlənmir, elmi axtarışlarını və yaradıcılıq işlərini davam etdirir. Onun müasir aktual mövzularda yazdığı yeni məqalələrə respublikamızda çap olunan elmi yurnallarda, məcmuələrdə tez-tez rast gəlmək olar. Maqsud müəllim bir neçə fundamental elmi əsərlərin müəllifidir və onun yazdığı bu əsərlər respublikamızda ali təhsil ocaqlarında geniş oxucu kütləsi tərəfindən istifadə olunur. Bu da onun bir alim kimi böyük və fitri istedada malik olmasından xəbər verir. Onun bir neçə samballı monoqrafik tədqiqat əsərləri İran və Əfqanıstanda kitab şəklində çap olunmuşdur.

Maqsud müəllim həm də tanınmış şairdir, yazışı və publisistdir. Onun yazdığı çoxsaylı bədii əsərlər Azərbaycan oxucuları tərəfindən sevilə-sevilə oxunur.

Maqsud müəllimin bədii və elmi əsərlərindən bəziləri xarici ölkələrin oxucularına da məlumdur (əsərlərinin biblioqrafik hissəsinə bax). Berlinin məşhur Beynəlxalq Kitabxanasının internet saytında Maqsud Hacıyevin on səkkiz kitab və monoqrafiyasının tam mətni verilmişdir. (Bax: ıhttpr/havebl. Bibliotek.uni. halle.de: 8080/DB=l/LNG=DU/haciyevmaqsud.) Maqsud Hacıyevin tərcü- meyi halından göründüyü kimi o, həm də respublikamızda tanınmış ictimai xadimdir. Ölkəmizin ən ağır vaxtlarında öndə olmaqla bərabər öz vətəndaşlıq mövgeyini həmişə bir mənalı olaraq layiqincə nümayiş etdirmişdir. Onu milli birliyimizin keşiyində duran prinsipal mövqeli əsl fədai adlandırmaq olar. Maqsud

Hacıyevin geniş oxuculara, xüsusilə gələcək diplomatlara və beynəlxalq əlaqələr sahəsində çalışanlara təqdim etdiyi "Diplomatik protokol və xarici əlaqələr" əsəri də müəllifin müstəqil Azərbaycanımızın başqa sahələrdə olduğu kimi sürətlə uğurlar qazanan xarici siyasətini dünya miqyasında həyata keçirən diplomatlarımızın fəaliyyətinin daha da faydalı olmasına xidmət etmək məqsədi daşıyır.

Diplomatik protokol və xarici əlaqələr haqqında geniş ensiklopedik məlumat verən bu əsərdə Azərbaycanın müasir xarici siyasətinin konseptual məsələləri, xaricdəki diplomatik nümayəndəliklərin vəzifələri, fəaliyyəti və funksiyaları, Azərbaycanın xarici siyasəti beynəlxalq əlaqələrdə, diplomatik fəaliyyət və beynəlxalq müqavilələrin bağlanması, diplomatik xidmət zamanı beynəlxalq münasibətləri dərindən bilməyin nəzəri əsasları, diplomatların güzəşt və immunitetləri, Azərbaycanın beynəlxalq və regional təşkilatlarda iştirakı və s. kimi aktual problemlər öz əksini tapmışdır. Müəllifin öz şəxsi diplomatik fəaliyyətinə əsaslanan canlı misallar və nümunələr təqdim olunan materialların samballığını daha da artırır.

Maqsud Hacıyevin kitabda əlifba sırası İlə verdiyi diplomatik terminlər tamamilə özünü doğrüldür və stolüstü kitab kimi əsərin əhəmiyyətini artırır. Kitabın Azərbaycan Respublikasının və beynəlxalq təşkilatların diplomatik protokola aid sənədlərindən, xarici əlaqələlərə dair başqa mühüm məlumatlardan ibarət "Əlavələr" hissəsi kitabdan istifadənin əhəmiyyətini daha da artırır, əlavə materiallar kimi onu daha da əhəmiyyətli edir.

Şübhə yoxdur ki, Maqsud Hacıyevin diplomatik protokol və xarici əlaqələrə dair bu kitabı diplomatlar və bu sahə ilə maraqlananlar üçün olduqca faydalı olacaqdır.

/.a ***QULIYEV***
***hüquq elmləri doktoru, professor***

# ƏLAVƏLƏR

## AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT HİMNİ HAQQINDA ƏSASNAMƏ

1. Azərbaycan Respublikasının Dövlət himni Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin rəmzidir. Azərbaycan Respublikasının Dövlət himninə dərin ehtiram bəsləmək onun hər bir vətəndaşının müqəddəs borcudur.

2. Azərbaycan Respublikasının Dövlət himni aşağıdakı hallarda ifa olunur:

a) dövlət bayramlarına həsr olunmuş təntənəli yığınacaqların və iclasların açılışı və bağlanışı zamanı;
b) hər gün Azərbaycan Respublikası milli televiziya və radio verlişlərinin əvvəlində və axrında;
c) Azərbaycan xalqının və dövlətinin həyatında çox mühüm tarixi hadisələr münasibətilə, Azərbaycanın görkəmli siyasi, dövlət, hərbi xadimlərinin , milli qəhrəmanlarının, elm, ədəbiyyat və incəsənət xadimlərinin şərəfinə abidələrin və lövhələrin açılışı zamanı;
d) dövlət və ictimai orqanlar, müəssisələr, idarələr və təşkilatlar tərəfindən keçirilən mərasimlər və digər təntənəli tədbirlər zamanı Azərbaycan Respublikası dövlət bayrağı qaldırılarkən;
e) Azərbaycan Respublikasına rəsmi görüşə gələn xarici ölkələrin dövlət və hökümət başçıları qarşılanarkən və yola salınarkən - müvafiq ölkənin Dövlət himni ifa olunduqdan sonra.
f) Azərbaycan Respublikasının qanunvericiliyində Azərbaycan Respublikası DöVlət himni hokmən ifa olunduğu başqa hallarda nəzərdə tutula bilər.

3. Azərbaycan Respublikasının Dövlət himni orkestr, xor, orkestr-xor tərəfindən, yaxud başqa vokal üsulla və alətlər vasitəsilə ifa olunur. Bunun üçün səsyazma vasitələrindən də istifadə edilə bilər.

Bütün hallarda Azərbaycan Respublikasının Dövlət himni tam ifa olunur.

4. Azərbaycan Respublikasının Dövlət himni "Azərbaycan Respublikasının Dövlət himni" haqqında Azərbaycan Respublikasının 1992-ci il 27 may tarixli Qanunu ilə təsdiq edilmiş mətnə və musiqi redaksiyasına tam müvafiq surətdə ifa olunmalıdır.

5. Azərbaycan Respublikasının Dövlət himni camaat qarşısında ifa olunarkən oradakılar himni ayaq üstə dinləməli və ya oxumalıdır.

6. Hərbi hissələrdə, hərbi gəmilərdə, daxili işlər və milli təhlükəsizlik orqanlarında Azərbaycan Respublikası Dövlət himninin ifa olunması, habelə himn ifa edilərkən hərbi qulluqçuların, daxili işlər və milli təhlükəsizlik orqanlarının sıravi və rəis heyətinə aid şəxslərin əsgəri rəsm-təzim etməsi hərbi nizamnamələrlə və Azərbaycan Respublikası Müdafiə Naziri, Daxili İşlər Naziri və Milli Təhlükəsizlik Naziri tərəfindən müəyyən edilən qaydalarla tənzimlənir.

7. Azərbaycan Respublikası Dövlət himninin müsiqisi və mətni əlifba kitabının birinci səhifəsində dərc olunur.

Ümumtəsil məktəblərində, texniki peşə, ixtisas məktəblərində, ali məktəblərdə və başqa tədris müəssisələrində yeni dərs ilinin birinci dərsi Azərbaycan Respublikasının dövlət himninin öyrənilməsinə və ifasına həsr edilir.

8. Respublika və beynəlxalq idman yarışları keçirərkən Azərbaycan Respublikası Dövlət himninin ifa olunması qaydası respublika və beynəlxalq idman təşkilatlarının mövcud praktikası nəzərə alınmaqla müəyyən edilir/

9. Respublika idarələri və təşkilatlan xarici dövlətlərin ərazisində təntənəli tədbirlər keçirilərkən Azərbaycan Respublikasının Dövlət himni Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin

müəyyən etdiyi qaydalara müvafiq sürətdə onların olduqları ölkənin praktikası və yerli adətləri nəzərə alınmaqla ifa edilir.

10. Azərbaycan Respublikası Dövlət himninin daxili işlər və milli təhlükəsizlik orqanlarında tədris müəssisələrində idman yarışları zamanı, habelə Azərbaycan Respublikasının idarələri və təşkilatları tərəfindən xarici dövlətlərin ərazisində tədbirlər keçirilərkən ifa olunması qaydaları bu Əsasnamənin tələbləri əsas götürülməklə müəyyən edilir.

11. Bu Əsasnamənin dəqiq yerinə yetirilməsinə nəzarət etmək dövlət orqanlarının, müəssisələrin, idarələrin, təşkilatların, siyasi partiyaların, ictimai qurumların rəhbərlərinə həvalə olunur.

***Bakı şəhəri, 2 mart 1993-cü il.***

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HIMNI

***Musiqisi: Üzeyir Hacıbəyov Sözləri: Əhməd Cavad***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can tökməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa! Minlərlə
can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər Hərə bir
qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!

Sənə min bir məhəbbət,
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə.
Bayrağını yüksəltməyə.
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GERBİ HAQQINDA ƏSASNAMƏ

Azərbaycan Respublikasının 1993-cü il 23 fevral tarixli Qanunu ilə təsdiq edilmişdir.

1. Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqillik rəmzidir.

2. Azərbaycan Respublikasının Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikası Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. Azərbaycan Respublikası Dövlət gerbinin rəngli təsvirində ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı rəngdədir. Qalxanın və ulduzun sağanaqları, habelə qalxanın düymələri və palıd qozaları qızıldır.

3. Azərbaycan Respublikası Dövlət gerbinin qabarıq təsviri vurulur:

a) Azərbaycan Respublikası parlamentinin binasına, iclas salonuna və parlament xidməti kabinetinə;

b) Azərbaycan Respublikasının bütün məhkəmələrinin, hərbi tribunallarının binalarına, məhkəmə iclaslarının salonlarına, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi, Ali Məhkəməsi və Ali Arbitraj Məhkəməsi sədrlərinin xidməti kabinetlərinə;

c) yerli nümayəndəli dövlət orqanlarının binalarına və iclas salonlarına;

ç) Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallarda dövlət orqanlarının binalarına;

d) Azərbaycan Respublikasının diplomatik və ticamt nümayəndəliklərinin, konsulluq idarələrinin binalarına;

4. Azərbaycan Respublikası Dövlət gerbinin təsvirindən istifadə olunur.

a) Azərbaycan Respublikası Dövlət möhüründə, bütün dövlət orqanlarının möhürlərində;

b) Azərbaycan Respublikası qanunlarının, parlamentin qərarlarının, prezidentin fərman və sərəncamlarının blanklarında;

c) bu Əsasnamənin 3-cü maddəsində göstərilən dövlət orqanlarının sənədlərinin blanklarında (binaların lövhələrində);

ç) Azərbaycan Respublikası Milli Bankının biletlərində və metal pul vahidlərində, Azərbaycan Respublikasının qiymətli kağızlarında, dövlət istiqraz vərəqlərində və lotareya biletlərində;

d) Azərbaycan Respublikası vətəndaşının pasportunda; Azərbaycan Respublikası vətəndaşına verilən diplomatik və başqa xarici pasportda;

e) Azərbaycan Respublikası parlamentinin rəsmi nəşrlərində;

ə) Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş hallarda Dövlət sərhəd nişanlarında.

5. Bu Əsasnamədə göstərilən hallardan başqa Azərbaycan Respublikası Dövlət gerbinin təsvirindən istifadə etmək hüququ Azərbaycan Respublikasının parlamenti tərəfindən verilə bilər.

6. Azərbaycan Respublikası Dövlət gerbinin təsviri olan möhürlərin və sənəd blanklarının hazırlanması, istifadə olunması, saxlanılması və məhv edilməsi qaydası Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

7. Azərbaycan Respublikası Dövlət gerbinin verilən təsviri ölçüsündən asılı olmayaraq həmişə dəqiq surətdə bu Əsasnaməyə əlavə edilən rəngli və ya ağ-qara təsvirə uyğun gəlməlidir.

## AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT BAYRAĞI HAQQINDA ƏSASNAMƏ

1. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenlik rəmzidir.

2. Azərbaycan Respublikasının Dövlət bayrağı eni bərabər olan rəngli üç üfıqli zolaqdan ibarət dördbucaqlı parça şəklindədir; üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşil rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli üldüz vardır. Bayrağın eninin uzununa nisbəti l:2-dir.

Ayparanın və səkkizguşəli ulduzun təsvirləri tərəflərinin nisbəti 3:4 olan düzbucaqlımn içərisində yerləşir: düzbucaqlının dioqonalı bayrağın eninin '/2 -nə bərabərdir.

Ayparanın təsviri konsentrik (eyni mərkəzli) olmayan iki dairənin hissələri şəklindədir: böyük dairənin diametri xarici düzbucaqlının eninə, kiçik dairənin diametri isə bayrağın eninin !/^-ə bərabərdir, kiçik dairənin mərkəzi bayrağın həndəsi mərkəzindən sol tərəfdə, bayrağın eninin 1/60 nə bərabər olan məsafədə yerləşir.

Səkkizguşəli ulduzun təsviri ayparadan sağda yerləşir, ulduzun xarici dairəcinin diametri bayrağın eninin 1/6-ni, daxili dairəsinin diametri isə 1/12-ni təşkil edir.

3. Azərbaycan Respublikasının Dövlət bayrağı aşağıdakı yerlərdə qaldırılır:

a) Azərbaycan Respublikası Ali Sovetinin, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin, Azərbaycan Respublikası rayon, şəhər, şəhərdə rayon, qəsəbə və kənd xalq peputatları Sovetinin sessiyalarının keçirildiyi binaların üzərində - bütün sessiya dövründə;

b) Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Sovetinin, Azərbaycan Respublikası Nazirlər

Sovetinin, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin və Nazirlər Sovetinin, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin və Azərbaycan Respublikası yerli xalq deputatları Sovetləri icraiyyə komitələrinin binaları üzərində daim;

c) dövlət orqanlarının və ictimai orqanların, müəssisələrin, idarələrin və təşkilatların binaları, habelə yaşayış evləri üzərində - yanvarın 1-də, martın 8-də, martın 21-də, mayın 9-da, mayın 28-də, iyunun 26-da, oktyabrın 18-də, noyabrın 12-də, noyabrın 17-do və dekabrın 31 -də.

Yuxarda göstərilən binalar üzərində Azərbaycan Respublikasının Dövlət bayrağının başqa bayram və xatirə günlərində də qaldırmağa icazə verilir;

ç) rəsmi şəxs sifəti ilə Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Soveti sədrinin və ya digər rəsmi (vəkil edimliş) şəxslərin mindikləri hava gəmilərində (Dövlət bayrağının gəmidə təsvirləri), dəniz gəmilərində, daxili su yollarında üzən gəmilərdə və başqa nəqliyyat vasitələrində göstərilən şəxslərin razılığı ilə;

d) Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Soveti sədrinin və Azərbaycan Respublikası Nazirlər Soveti sədrinin təqdimatı ilə Azərbaycan Respublikasının Dövlət bayrağı dövlət orqanlarının, ictimai və dini orqanların, müəssisələrin, idarələrin və təşkilatların keçirdikləri mərasimlər zamanı.

4. Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Dövlət bayrağı ilə bir vaxtda qaldırılarkən Naxçıvan Muxtar Respublikasının bayrağının ölşüsü Azərbaycan Respublikasının bayrağından böyük ola bilməz.

5. Azərbaycan Respublikasının dövlət bayrağı və onun təsvir, ölçülərindən asılı olmayaraq bu Əsasnaməyə əlavə edilən rəngi və sxematik təsvirlərə həmişə dəqiq uyğun gəlməlidir.

6. Azərbaycan Respublikasının gerbi və himni kimi, Azərbaycan dövlətinin suverenliyi rəmzi olan Azərbaycan Respublikasının Dövlət bayrağı da müqəddəs rəmzdir və onun hər cür təhqir edilməsi qanuna əsasən cəzalandırılır.

7. Bu Əsasnamənin tətbiqi qaydalarım Azərbaycan Respublikasının Nazirlər Soveti qəbul edir.

***Azərbaycan Respublikası Milli Məclisin***
***1993- cü il 2 mart tarixli qərarı ilə təsdiq edilmişdir.***

## AZƏRBAYCAN RESPUBLİKASININ RƏSMİ BAYRAMLARI

| | |
|---|---|
| **1 yanvar** | ***Yeni il bayramı*** |
| **8 mart** | ***Beynəlxalq qadınlar günü*** |
| **20-21 mart** | ***Novruz bayramı*** |
| **9 may** | ***Faşizm üzərində qələbə bayramı*** |
| **28 may** | ***Respublika günü*** |
| **15 iyun** | ***Milli qurtuluş günü*** |
| **26 iyun** | ***Silahlı qüvvələr günü*** |
| **18 oktyabr** | ***Dövlət müstəqilliyi günü*** |
| **12 noyabr** | ***Konstitusiya günü*** |
| **17 noyabr** | ***Milli dirçəliş günü*** |
| **31 dekabr** | ***Dünya Azərbaycanlılarının həmrəyliyi günü*** |
| | ***Ramazan bayramı*** |
| | ***Qurban bayramı (İslam təqviminə müvafiq olaraq bu bayramların günü hər il xüsusi qeyd olunur).*** |

## “DİPLOMATİK ƏLAQƏLƏR HAQQINDA” VYANA KONVENSİYASİNA QOŞULMAQ BARƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN

## QƏRARI

“Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqinda” Konstitusiya Aktina əsaslanaraq, diplomatik əlaqələrin Azərbaycan dövlətinin BMT Nizamnaməsində nəzərdə tutulmuş suveren hüquqlarının həyata keçirilməsinə və qorunmasına xidmət edəcəyini nəzərə alaraq Konvensiyanın təsdiqlənməsinin Azərbaycan Respublikası ilə digər dövlətlər arasinda dostluq əlaqələrinin möhkəmlənməsinə imkan yaradacağına əmir olaraq Azərbaycan Respublikası Milli Məclisi qərara alır:

1. “Azərbaycan Respublikası “Diplomatik əlaqələr haqqında” 1961-ci il aprelin 18-də Vyanada Birləşmiş Millətlər Təşkilatının konfransında qəbul edilmiş Vyana Konvensiyasına qoşulsun.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə və Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasinin Konvensiyadan irəli gələn hüquqlarının həyata keçilməsi üçün müvafq tədbirlər görsünlər.

3. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının göstərilən Konvensiyaya qoşulması haqqında təsdiqnaməni Birləşmiş Millətlər Təşkilatının Baş katibinə göndərsin.

***Bakı şəhəri, 21 iyul 1992-ci il***

## DİPLOMATİK XİDMƏT HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu qanun Azərbaycan Respublikası dövlət qulluğunun bir növü olan diplomatik xidmətdəki dövlət qulluqçularının hüquqi vəziyyətini müəyyən edir.

### Fəsil 1. Ümumi müddəalar

Maddə 1. Diplomatik xidmət anlayışı.

1.1. Diplomatik xidmət - Azərbaycan Respublikasının xarici siyasətini həyata keçirən müvafiq dövlət orqanlarında vətəndaşların peşəkar fəaliyyətidir.

1.2. Konsul xidməti-Azərbaycan Respublikasının Konsul Nizamnaməsi əsasında həyata keçirilən diplomatik xidmətin bir növüdür.

Maddə 2. Diplomatik xidmət orqanlarının sistemi.

2.1. Diplomatik xidmət orqanlarının vahid sistemi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının fəaliyyətini təmin etmək üçün yaradılan yardımçı təşklatlar, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının təhsil müəssisələri təşkil edir.

2.2. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının vahid sisteminə rəhbərlik edir.

Maddə 3. Diplomatik xidmət orqanlarının vəzifələri

3.1. Diplomatik xidmət orqanlarının əsas vəzifələri aşağıdakılardır:

3.1.1. Azərbaycan Respublikasının xarici siyasət konsepsiyası və əsas istiqamətləri üzrə təkliflərin hazırlanması və Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanına təqdim edilməsi;

3.1.2. Azərbaycan Respublikasnını xarici siyasətinin həyata keçirilməsinin təmin edilməsi;

3.1.3. Azərbaycan Respublikası digər dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərində vahid siyasət xəttinin həyata keçirilməsinin təmin edilməsi məqsədilə digər müvafiq icra hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsi;

3.1.4. Azərbaycan Respublikasının suverenliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının, onun siyasi, iqtisadi və digər sosial maraqlarının diplomatik üsul və vasitələrlə təmin olunması;

3.1.5. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına diplomatik üsul və vasitələrlə kömək göstərilməsi;

3.1.6. Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin xaricdə hüquq və maraqlarının müdafiə olunması;

3.1.7. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla diplomatik və konsul əlaqələrinin həyata keçirilməsi;

3.1.8. Azərbaycan Respublikasının dövlət protokolunun təmin edilməsi;

3.1.9. Diplomatik xidmət orqanları Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğun olaraq digər vəzifələri də həyata keçirə bilər;

**Maddə 4. Diplomatik xidmət orqanlarının funksiyaları.**

4.1. Diplomatik xidmət orqanları aşağıdakı əsas funksiyaları həyata keçirir:

4.1.1. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərdə təmsil edilməsi;

4.1.2. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla iqtisadi, sosial, elmi - texniki, mədəni və başqa sahələrdə əməkdaşlığının inkişafına köməklik göstərilməsi;

4.1.3. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla danışıqlar aparılmasının və beynəlxalq müqavilələrin imzalanmasının təşkili;

4.1.4. Yüksək dövlət və hökümət səviyyələrində dövlətlər- arası mübadilələrin protokol təminatı;

4.1.5. Xaricdə yaşayan həmvətənlərlə əlaqələrin inkişafına köməklik göstərilməsi;

4.1.6. Diplomatik və konsul imtiyaz və immunitetlərinin yerinə yetirilməsi üzərində nəzarətin həyata keçirilməsi;

4.1.7. Azərbaycan Respublikası xarici və daxili siyasəti, ölkənin iqtisadi və mədəni həyatı haqqındakı informasiyanın Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri vasitəsilə xaricdə yayılmasının təmin edilməsi;

4.1.8. Azərbaycan Respublikasının dövlət orqanlarının və Azərbaycan Respublikasında mövcud olan kütləvi informasiya vasitələrinin Azərbaycan Respublikasının beynəlxalq vəziyyəti və xarici siyasəti haqqında məlumatlandırılması;

4.1.9. Azərbaycan Respublikasım ərazisindəki diplomatik nümayəndəliklərin konsulluqlarının fəaliyyətinə kömək göstərilməsi, öz səlahiyyətləri çərçivəsində onlara xidmət göstərən təşkilatların fəaliyyətinə nəzarət edilməsi;

4.1.10. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin qeydiyyatı, uçotu və saxlanması üzrə vahid dövlət sisteminin fəaliyyətinin təmin edilməsi;

4.1.11. Azərbaycan Respublikasının bağladığı beynəlxalq müqavilələrin funksiyalarının həyata keçirilməsi;

4.1.12. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrası üzərində ümumi müşahidənin həyata keçirilməsi;

4.1.13. Xarici siyasət və beynəlxalq münasibətlər sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinin təkmilləşdiril-

məsinə və bu qanunvericiliyin Azərbaycan Respublikasının beynəlxalq hüquqi öhdəliklərinə uyğunlaşdın İmasına dair təkliflərin hazırlanması;

4.1.14. Diplomatik xidmət orqanları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq digər funksiyalarıda həyata keçirə bilər.

**Maddə 5. Diplomatik xidmət orqanlarının rabitə, arxiv və təhlükəsizlik təminatı.**

5.1. Diplomatik xidmət orqanlarının sərəncamında müstəqil rabitə sistemi və arxiv vardır;

5.2. Diplomatik xidmət orqanlarının arxivində beynəlxalq müqavilələrin əsli və təsdiq edilmiş surətləri, habelə həmin orqanlarının fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan digər materiallar saxlanılır;

5.3. Diplomatik xidmət orqanları xüsusi kuryer xidmətindən istifadə edir;

5.4. Diplomatik xidmət orqanları qanunvericilikdə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının ərazisində və xaricidə öz təhlükəsizlik sistemini təşkil edir.

## Fəsil 2. Diplomatik xidmət əməkdaşları

**Maddə 6. Diplomatik vəzifələr.**

6.1. Diplomatik xidmət orqanlarında diplomatik vəzifə tutan şəxslər diplomatik xidmət əməkdaşlarıdırlar;

6.2. Diplomatik xidmət orqanlarının inzibati - texniki xidmətini həyata keçirən şəxslər diplomatik xidmət əməkdaşlarına aid deyildirlər. Həmin şəxslərin hüquqi statusu və ixtisas dərəcələri Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

6.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşları üçün aşağıdakı vəzifələr müəyyən edilir;

6.3.1. Fövqəladə və Səlahiyyətli səfir; Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarındakı daimi nümayəndəsi;

6.3.2. baş konsul;

6.3.3. müşavir - elçi: daimi nümayəndənin müavini;

6.3.4. müşavir;

6.3.5. konsul;

6.3.6. birinci katib;

6.3.7. vitse - konsul;

6.3.8. ikinci katib;

6.3.9. üçüncü katib;

6.3.10. attaşe.

6.4. Azərbaycan Respublikasının ərazəsindəki diplomatik xidmət orqanlarında işləyən diplomatik xidmət əməkdaşlarının vəzifələri Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

6.5. Diplomatik xidmət əməkdaşları diplomatik xidmət orqanlarından Azərbaycan Respublikasının digər dövlət orqanlarına vəzifəyə keçirildikdə onlar müvafiq icra hakimiyyəti orqanın ehtiyatına daxil edilirlər. Ehtiyata daxiletmə ilə əlaqədar qaydalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 7. Diplomatik vəzifələrə təyin edilmə.**

7.1. Diplomatik vəzifələrə ali təhsilli və xarici dil bilən Azərbaycan Respublikasının vətəndaşları təyin edilirlər;

7.2. Diplomatik xidmət orqanlarında vəzifələrə təyin edilmə və vəzifələrdən azadedilmə qaydaları, habelə vəzifə tutan şəxslərə dair tələblər Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ hüquqi aktları ilə, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir;

7.3. Xaricdə işlədikdən sonra Azərbaycan Respublikasına qayıdan diplomatik xidmət əməkdaşı, xaricdə tutduğu vəzifə nəzərə alınmaqla diplomatik xidmət orqanlarında müvafiq vəzifəyə təyin edilir.

**Maddə 8. Diplomatik rütbələr.**

8.1. Diplomatik xidmət əməkdaşlarına tutduqları vəzifə və ixtisasları nəzərə alınmaqla aşağıdakı diplomatik rütbələr verilir:

8.1.1. Fövqəladə və səlahiyyətli səfir;

8.1.2. Birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi;

8.1.3. İkinci dərəcəli fövqəladə və səlahiyyətli elçi;

8.1.4. Birinci dərəcəli müşavir;

8.1.5. İkinci dərəcəli müşavir;

8.1.6. Birinci dərəcəli birinci katib;

8.1.7. İkinci dərəcəli birinci katib;

8.1.8. Birinci dərəcəli ikinci katib;

8.1.9. İkinci dərəcəli ikinci katib;

8.1.10. Üçüncü katib;

8.1.11. Attaşe.

8.2. Diplomatik rütbəyə görə vəzifə maaşına əlavələrin verilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanı tərəfindən müəyyən üdilir.

**Maddə 9. Diplomatik rütbələrin verilməsi qaydaları.**

9.1. Fövqəladə və səlahiyyətli səfir, birinci və ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndinə müvafiq olaraq verilir.

9.2. Digər diplomatik rütbələrin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.

9.3. Diplomatik xidmət əməkdaşının diplomatik rütbəsi bir qayda olaraq, diplomatik xidmətdə tutduğu vəzifəyə uyğun olmalı, yaxud ondan bir pillə yuxarı və ya aşağı olmalıdır.

9.4. Diplomatik rütbələrin verilməsi barədə əmək kitabçasına (xidmət siyahısında) müvafiq qeyd aparılır. Diplomatik rütbələr ömürlük verilir.

**Maddə 10. Diplomatik rütbələrdə olmanın müddətləri.**

10.1. Diplomatik xidmət əməkdaşları üçün diplomatik rütbələrdə olmanın aşağıdakı müddətləri müəyyən edilir:

10.1.1. Attaşe, üçüncü katib, İkinci və birinci dərəcəli ikinci katib üçün - 2 il;

10.1.2. İkinci və birinci dərəcəli birinci katib, İkinci dərəcəli müşavir üçün - 3 il;

10.2. Birinci dərəcəli müşavirdən başlayaraq yuxarı diplomatik rütbələrdə olma müddəti müəyyən edilmir;

10.3. Diplomatik xidmət əməkdaşlarının diplomatik rütbələrdə olma müddətlərinə aşağıdakılar daxildir:

10.3.1. Müvafiq icra hakimiyyəti orqanında və onun yardımçı təşkilatlarında iş;

10.3.2. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında iş;

10.3.3. keçmiş SSRİ-nin və müttəfiq respublikaların xarici işlər orqanlarında iş;

10.3.4. Beynəlxalq təşkilatlarda iş;

10.3.5. müvafiq icra hakimiyyəti orqanının ali təhsil və elmi müəssisələrində elmi və pedaqoji fəaliyyət müddəti əsasında keçirilən ixtisasartırma müddəti;

10.3.6. Ali təhsil müəssisəllərinə, aspiranturaya (doktorantura) müvafiq icra hakimiyyəti orqanı tərəfindən göndərilənlərin təhsil müddəti.

**Maddə 11. Diplomatik rütbənin vaxtından əvvəl və növbədən kənar verilməsi, aşağı salınması, məhrum edilməsi və bərpa olunması.**

11.1. Diplomatik xidmət əməkdaşlarının rütbələri, işlərində mühüm nailiyyətlərin və ya xüsusi xidmətlərin olduğu hallarda, müəyyən edilmiş müddətin başa çatmasından əvvəl və ya növbədənkanar artırıla bilər;

11.2. Azərbaycan Respublikasının və olduqları dövlətin qanunvericiliyinə görə məsuliyyət doğuran əməllər törətməkdə təqsirli bilindikdə;

11.3. Diplomatik xidmət əməkdaşlarının rütbədən məhrum edilməsi və onun rütbəsinin aşağı salınması, rütbənin verilməsi üçün müəyyən edilmiş qaydada həyata keçirilir;

11.4. Diplomatik xidmət əməkdaşının əvvəlki rütbəsinin bərpa olunmasına yalnız həmin əməkdaş qanunvericiliklə müəyyən edilmiş, qaydada xidməti attestasiyadan keçdikdən sonra yol verilir.

## Fəsil 3. Diplomatik xidmətçəkmə

### Maddə 12. Diplomatik xidmət əməkdaşlarının vəzifə yerdəyişmələri və vəzifələrinin əvəz edilməsi.

12.1. Diplomatik xidmət əməkdaşlarının vəzifə yerdəyişmələri ixtisas, peşə hazırlığı və rotaşiya prinsipləri nəzərə alınmaqla xidməti zərurətlə əlaqədar həyata keçirilir;

12.2. Vakant vəzifələrin əvəz edilməsi Azərbaycan Re.spublikasının qanunvericiliyinə uyğun həyata keçirilir.

### Maddə 13. Diplomatik xidmət əməkdaşlarının rotasiyası.

13.1. Diplomatik xidmət orqanlarında əməkdaşların rotasiyası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

13.2. Rotasiya çərçivəsində diplomatik xidmət əməkdaşları, peşəkar hazırlıqları və ixtisasları nəzərə alınmaqla öz fəaliyyətlərini Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya fəaliyyətlərini müvafiq icra hakimiyyəti orqanında həyata keçirə bilərlər.

13.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda fəaliyyəti başa çatmış diplomatik xidmət əməkdaşı yenidən diplomatik nümayəndəliyə və ya konsulluğa işə təyin olunmazdan əvvəl müvafiq icra hakimiyyəti orqanında bir qayda olaraq azı bir il işləməlidir.

13.4. Azərbaycan Respublikasının nümayəndəliyinin başçısı təyin olunmuş şəxsin müvafiq dövlətdə və ya beynəlxalq təşkilatda fasiləsiz iş müddəti, bir qayda olaraq beş ildir. Bu müddət Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən uzadıla bilər.

13.5. Digər diplomatik xidmət əməkdaşlarının müvafiq diplomatik nümayəndəliklərdə və ya konsulluqlarda fasiləsiz iş müddəti üç ildən artıq olmamalıdır. Bu müddət xidməti zərurətlə əlaqədar və diplomatik xidmət əməkdaşının razılığı ilə icra hakimiyyəti orqanı tərəfindən bir ildən artıq olmayan müddətdə uzadıla bilər.

13.6. Diplomatik xidmət əməkdaşının Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna işə getməkdən üzürlü səbəblər olmadan imtina etməsi intizam pozuntusu hesab edilir və intizam tənbeh tədbirini tətbiq üçün əsasdır.

**Maddə 14. Xidməti attestasiya.**

14.1. Diplomatik xidmət əməkdaşları üçün qanunvericiliklə müəyyən edilmiş qaydada üç ildə bir dəfədən çox olmayaraq xidməti attestasiya keçirilir.

14.2. Diplomatik nümayəndəliyə və ya konsulluğa işə təyin olunmuş diplomatik xidmət əməkdaşları Azərbaycan Respublikasına qayıtdıqdan sonra xidmət attestasiyadan keçirlər.

14.3. Xidməti attestasiyanın keçirilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

**Maddə 15. Diplomatik xidmət əməkdaşlarının ali təhsil və elm müəssisələrinə göndərilməsi.**

15.1. Diplomatik xidmət əməkdaşları öz razılıqları ilə peşəkar hazırlıq və ixtisasartırma və yaxud elmi tədqiqat aparılması üçün Azərbaycan Respublikasında və ya digər ölkələrdə yerləşən ali təhsil və elmi müəssisələrə müvəqqəti olaraq göndərilə bilərlər.

15.2. İxtisasartırma və ya elmi ezamiyyət başa çatdıqdan sonra diplomatik xidmət əməkdaşı əvvəl tutduğu vəzifədən aşağı olmayan diplomatik vəzifəyə təyin edilir.

**Maddə 16. Diplomatik xidmət əməkdaşlarının imtiyaz və immunitetləri.**

Azərbaycan Respublikasının diplomatik xidmət əməkdaşları xaricdə işlədikləri dövrdə beynəlxalq hüquq normalarına uyğun olaraq diplomatik heyətin üzvləri üçün müəyyən olunmuş imtiyaz və immunitetlərdən istifadə edirlər.

**Maddə 17. Diplomatik xidmət əməkdaşlarının vəzifələri.**

Diplomatik xidmət əməkdaşlarının xaricdə işlədikləri dövrdə olduqları dövlətin qanun və qaydalarına hörmət bəsləməyə, üzərlərinə qoyulmuş vəzifələri yerinə yetimıəyə, Azərbaycan Respublikasını layiqincə təmsil etməyə borcludurlar.

**Maddə 18. Diplomatik xidmət əməkdaşlarının geri çağırılması.**

18.1. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşları Azərbaycan Respublikası və ya olduqları dövlətin qanunvericiliyinə görə məsuliyyət doğuran əməllər törətməkdə təqsirli bilindikdə, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda vaxtından əvvəl geri çağırıla bilərlər.

18.2. Diplomatik xidmət əməkdaşlarının vaxtından əvvəl geri çağırılmasına onlarla birlikdə yaşayan ailə üzvlərinin yuxarıda göstərilən əməllərin törədilməsində təqsisili bilinməsi də əsas ola bilər.

**Maddə 19. Diplomatik xidmət əməkdaşlarının məsuliyyəti.**

Diplomatik xidmət əməkdaşları Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş hallarda və qaydada məsuliyyətə cəlb oluna bilərlər.

## Fəsil 4. Diplomatik xidmətin təchizatı, təminatlar və ödəmələr, diplomatik xidmət əməkdaşlarının maddi və sosial təminatı

**Məddə 20. Diplomatik xidmət maliyyə təminatı və maddi-təsərrüfat təchizatı.**

20.1. Diplomatik xidmət orqanları sisteminin vahid maliyyə təminatı dövlət büdcəsinin vəsaitləri, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada digər mənbələr hesabına həyata keçirilir.

20.2. Diplomatik xidmət orqanlarının fəaliyyətini maddi-təsərrüfat təchizatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

20.3. Diplomatik xidmət orqanlarının Azərbaycan Respub likasının ərazisində və xaricdə dövlət mülkiyyətində olan əmlak üzərində sahib, istifadə və sərəncam hüququ Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyala keçirilir.

**Maddə 2t. Diplomatik nümayəndəliklərdə işlədikləri dövrdə diplomatik xidmət əməkdaşlarına verilən təminatlar və kompensasiyalar.**

21.1. Diplomatik xidmət əməkdaşlarına və onların ailələrinə təminatlar, xidmət şəraitinin mürəkkəbliyi, xidmət keçməklə bağlı risk, habelə müvafiq xarici dövlətin spesifik xüsusiyyətləri nəzərə alınmaqla verilir.

21.2. Diplomatik xidmət əməkdaşları və onların ailə üzvləri müvafiq tibbi xidmətlə təmin olunurlar.

21.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna işə təyin olunan, Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda fəaliyyətini başa çatdırıb Azərbaycan Respublikasına qayıdan diplomatik xidmət əməkdaşının və onun ailə üzvlərinin müvafiq nəqliyyat xərcləri dövlət hesabına ödənilir.

21.4. Ödənilən illik məzuniyyət və ya ailə üzvlərindən birinin ölümü ilə əlaqədar Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda işləyən diplomatik xidmət əməkdaşının Azərbaycan Respublikasına gəlməsi və işlədiyi ölkədən qayıtması üçün nəqliyyat xərcləri müvafiq qaydada ödənilir.

21.5. Diplomatik xidmət əməkdaşı və onunla birlikdə yaşayan ailə üzvləri onun tutduğu vəzifə və yerli çərait nəzərə alınmaqla,xaricdə yaşayış yeri ilə təmin olunmalıdırlar.

21.6. Diplomatik xidmət əməkdaşının ümumtəhsil məktəbində oxuyan ailə üzvlərinin təhsil haqqı dövlət tərəfindən ödənilir.

21.7. Hərbi və ya mülki münaqişələr və yaxud təbii fəlakətlər və digər fövqəladə hallar baş verdikdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və ya konsulluqların və onların heyətinin təhlükəsizliyi üçün qorxu yarandıqda, müvafiq icra hakimiyyəti orqanları diplomatik xidmət əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin təhlükəsizliyinin təmin olunması və qorunması üçün zəruri tədbirlər görür.

21.8. Xaricdə işlədiyi dövrdə Öz xidməti vəzifələrini yerinə yetirərkən diplomatik xidmət əməkdaşına və ya onun ailə üzvlərinə dəymiş zərər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödənilir.

21.9. Diplomatik xidmət əməkdaşlarının xaricdə işlədikləri dövrdə əldə etdikləri vəsaitin və əmlakın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada Azərbaycan Respublikasına gətirilməsinə görə gömrük rüsumu tutulmur.

21.10. Bu maddənin müddəaları diplomatik xidmət orqanlarının inzibati - texniki xidmətini həyata keçirən şəxslərə də şamil olunur.

21.11. Bu maddədə nəzərdə tutulmuş təminat və konpensasiyaların verilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan qaydalarla təmzlmlənir.

**Maddə 22. Diplomatik xidmət əməkdaşlarının əmək münasibətlərinin tənzimlənməsi.**

Diplomatik xidmət əməkdaşlarının əmək münasibətləri "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Əmək məcəlləsi, bu Qanun və Azərbaycan Respublikasının digər normativ-hüquqi aktları ilə tənzimlənir.

**Maddə 23. Diplomatik xidmət əməkdaşlarının əməyinin ödənilməsi.**

32.1. Diplomatik xidmət əməkdaşlarının əməyinin ödənilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

23.2. Xaricdə işləyərkən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini keçirən şəxslərin əməyinin ödənilməsi, habelə maddi və maliyə təminatı, olduqları dövlətin sosial - iqtisadi və maddi - məişət şəraiti nəzərə alınmaqla Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

23.3. Rotasiya qaydasında xaricə ez.amiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati - texniki xidmətini həyata keçirən şəxslərin Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında aldıqları əmək haqqının 50 % saxlanılır.

**Maddə 24. Diplomatik xidmət əməkdaşlarının mükafatlandırılması.**

Diplomatik xidmət əməkdaşlarının mükafatlandırılması Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları əsasında həyata keçirilir.

**Maddə 25. Diplomatik xidmət əməkdaşlarının məzuniyyəti.**

25.1. Diplomatik xidmət əməkdaşları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilməş məzuniyyətlərdən

istifadə etmək hüququna malikdirlər.

25.2. Xaricdə işləyən diplomatik xidmət əməkdaşlarına və diplomatik xidmət orqanlarının inzibati - texniki xidmətini həyata keçirən şəxslərə, əmək şəraiti və əmək funksiyalarının xüsusiyyətləri nəzərə alınmaqla əlavə məzuniyyət verilə bilər.

**Maddə 26. Diplomatik xidmət əməkdaşlarının pensiya təminatı və sosial müdafiəsi.**

26.1. Diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati - texniki xidmətini həyata keçirən şəxslərin pensiya təminatı və sosial müdafiəsi Azərbaycan Respublika- sının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

26.2. Azərbaycan Respublikasının diplomatik nümayəndə - üklərində və Konsulluqlarında, xidmət orqanlarının inzibati - texniki xidmətini həyata keçirən şəxslərin və onlarla birlikdə yaşayan ailə üzvlərinin icbari tibbi sığortası dövlət hesabına həyata keçerilir.

26.3. Bu müddəalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən ali təhsil müəssisələrinə, aspiranturaya (doktoranturaya) və elmi müəssisələrə göndərilənlərə də şamil edilir.

**Heydər Əliyev Azərbaycan**
**Respublikasının Prezidenti**

***Bakı şəhəri, 8 iyun 2001-ci il***

## BEYNƏLXALQ GÜNLƏR VƏ HƏFTƏLƏR

Bəşəriyyətin ən mühüm problemlərinə diqqəti cəlb etmək və bu problemlərin daha uğurla həlli üçün beynəlxalq əməkdaşlığı fəallaşdırmaq məqsədilə dünya birliyinin həyatında baş vermiş müəyyən hadisələrin tarixi hər il təntənəli surətdə qeyd edilir, bu günlər barəsində beynəlxalq hökumət və qeyri-hökümət forumlarında elan olunur. BMT və onun ixtisaslaşmış qurumları onların təşkilində fəal rol oynayır.

Demokratik və mütərəqqi təşkilatların qeyd etdikləri Beynəlxalq günlər və həftələr əsasən aşağıdakılardan ibarətdir:

8 mart - Beynəlxalq Qadınlar Günü;

17 mart - Ümumdünya Dəniz Nəqliyyatı Günü;

7 aprel - Ümumdünya Sağlamlıq Günü;

12 aprel - Ümumdünya Aviasiya və Kosmonaftika Günü;

24 aprel - Gənclərin Beynəlxalq Həmrəylik Günü;

Aprelin son bazar günü - Ümumdünya Qardaşlaşmış Şəhərlər Günü;

I may - Zəhmətkeşlərin Beynəlxalq Həmrəyliyi Günü;

18 may - Beynəlxalq Muzeylər Günü;

24 may - Afrikanın Qurtuluş Günü;

1 iyun - Uşaqları Beynəlxalq Müdafiə Günü;

5 iyun - Ətraf Mühitin Ümumdünya Mühafizəsi Günü;

İyulun 1-ci şənbə günü - Beynəlxalq Kooperasiya Günü;

8 sentyabr-Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü;

Sentyabrın 3-cü çərşənbə axşamı - Beynəlxalq Sülh Günü;

24 oktyabr - Beynəlxalq BMT Günü;

10 noyabr - Ümumdünya Gənclər Günü;

17 noyabr - Beynəlxalq l'ələbələr Günü;

10 dekabr - İnsan Haqları Günü;

## AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK ƏLAQƏLƏR QURDUĞU

| | |
|---|---|
| Avstraliya | 16.06.92 |
| Avstriya Respublikası | 20.02.92 |
| Albaniya Respublikası | 23.03.93 |
| Almaniya Federativ Respublikası | 20.02.92 |
| Amerika Birləşmiş Ştatları | 28.02.92 |
| Anqola Respublikası | 01.12.94 |
| Andorra Knyazlığı | 30.04.96 |
| Antiqua və Barbuda | 05.04.94 |
| Arqentina Respublikası | 08.11.93 |
| Banqladeş Xalq Respublikası | 26.02.92 |
| Belarus Respublikası | 10.06.93 |
| Belçika Krallığı | 17.06.92 |
| Benin Respublikası | 14.10.99 |
| Bəhreyn Dövləti | 06.11.96 |
| Birləşmiş Ərəb Əmirlikləri | 01.09.92 |
| Bolqarıstan Respublikası | 05.06.92 |
| Boliviya Respublikası | 08.07.96 |
| Bosniya və Hersoqovina | 09.02.95 |
| Böyük Britaniya və Şimali İrlandiya Krallığı | 11.03.92 |
| Braziliya Federativ Respublikası | 21.10.93 |
| Bruney Darüəssalam Dövləti | 24.11.95 |
| Burundi Respublikası | 02.03.95 |
| Vatikan | 09.01.94 |
| Venesuela Respublikası | 12.05.95 |
| Vyetnam Sosialist Respublikası | 23.09.92 |
| Qabon Respublikası | 11.10.96 |
| Qazaxıstan Respublikası | 30.08.92 |
| Qatar Dövləti | 14.04.94 |
| Qambiya Respublikası | 11.11.94 |

| | |
|---|---|
| Qana Respublikas[ | 11.09.92 |
| Qayana Kooperativ Respublikası | 09.01.95 |
| Qvatemala Respublikası | 01.1194 |
| Qvineya Respublikası | 11.03.92 |
| Qvineya Bisau Respublikası | 27.08.92 |
| Qırğızıstan Respublikası | 19.01.93 |
| Danimarka Krallığı | 02.04.92 |
| Estoniya Respublikası | 20.04.92 |
| Efiopiya Federativ Demokratik Respublikası | 02.11.92 |
| ƏlcazairXalq Demokratik Respublikası | 22.04.94 |
| Salvador Respublikası | 23.03.99 |
| Əmən Sultanlığı | 13.07.92 |
| Əfqanıstan İslam Dövləti | 16.11.94 |
| Zambiya Respublikası | 18.11.93 |
| İndoneziya Respublikası | 24.09.92 |
| İordaniya Haşimi Krallığı | 12.02.92 |
| İraq Respublikası | 30.03.92 |
| İran İslam Respublikası | 12.03.92 |
| İsveçrə Konfederasiyası | 21.02.92 |
| İsveç Krallığı | 08.05.92 |
| İrlandiya | 01.07.96 |
| İslandiya Respublikası | 27.02.98 |
| İspaniya Krallığı | 11.02.92 |
| İsrail | 07.04.92 |
| İtaliya Respublikası | 08.05.92 |
| Yamayka | 22.11.95 |
| Yaponiya | 07.09.92 |
| Yeni Zelandiya | 10.09.92 |
| Yəmən Respublikası | 25.02.92 |
| Yunanıstan Respublikası | 02.04.92 |
| Kampuçiya Krallığı | 28.12.94 |
| Kamerun Resgııblikası | 24.02.95 |
| Kanada | 10.08.92 |

| | |
|---|---|
| Kolumbiya Respublikası | 13.12.92 |
| Kamor adaları Federal İslam Respublikası Koreya Xalq Demokratik Respublikası | 06.09.94 '3Ö.0L92 |
| Koreya Respublikası | 23.03.92 |
| Kosta-Rika Respublikası | 15.01.97 |
| Kot-Divuar Respublikası | 19.11.96 |
| Kuba Respublikası | 27.03.92 |
| Küveyt Dövləti | 07.10.94 |
| Gürcüstan Respublikası | 18.11.92 |
| Laos Xalq Demokratik Respublikası | 22.05.95 |
| Latviya Respublikası | 11.01.94 |
| Liberiya Respublikası | 22.05.96 |
| Livan Respublikası | 18.09.92 |
| Liviya Ərəb Sosialist Xalq Camahiriyyəti | 16.03.92 |
| Litva Respublikası | 20.11.95 |
| Lixtenşteyn Knyazlığı | 20.01.92 |
| Lüksemburq Böyük Hersoqluğu | 01.06.92 |
| Mavrikiya Respublikası | 19.07.96 |
| Mavritaniya İslam Respublikası | 29.10.94 |
| Madaqaskar Respublikası | 26.05.93 |
| Makedoniya Respublikası | 28.06.95 |
| Malayziya | 05.04.94 |
| Mali Respublikası | 26.11.96 |
| Maldiv Respublikası | 20.12.94 |
| Malta | 09.01.95 |
| Macarıstan | 27.11.92 |
| Meksika Birləşmiş Ştatları | 10.02.92 |
| Mərakeş Krallığı Mozambik Respublikası | 25.08.92 20.06;95" ' |
| Moldova Respublikası | 18.05.92 |
| Monqolustan | 16.04.92 |
| Misir Ərəb Respublikası Myanma Birliyi | 27.03.92 03.08.92 |

| | |
|---|---|
| Nepal Krallığı | 28.02.95 |
| Niger Respublikası | 10.11.95 |
| Niderland Krallığı | 11.04.92 |
| Nikaraqua Respublikası | 23.11.94 |
| Norveç Krallığı | 05.06.92 |
| Özbəkistan Respublikası | 12.10.95 |
| Oman | 13.07.92 |
| Pakistan İslam Respublikası | 09.06.92 |
| Panama Respublikası | 06.04.92 |
| Peru Respublikası | 25.06.92 |
| Portuqaliya Respublikası | 04.08.92 |
| Rusiya Federasiyası | 04.04.92 |
| Rumıniya Respublikası | 21.06.92 |
| Polşa Respublikası | 21.02.92 |
| Səudiyyə Ərəbistanı Krallığı | 24.02.92 |
| Seyşel Adaları | 02.11.94 |
| Seneqal | 14.03.96 |
| Sent Kits və Nevis | 22.03.95 |
| Sinqapur | 15.08.94 |
| Suriya Ərəb Respublikası | 28.03.92 |
| Sudan Respublikası | 25.07.92 |
| Slovakiya Respublikası | 23.11.93 |
| Sloveniya Respublikası | 20.06.92 |
| Syera Leone Respublikası | 13.03.95 |
| Surinam Respublikası | 11.02.00 |
| Tailand Krallığı | 07.05.92 |
| Tacikistan Respublikası | 29.05.92 |
| Tunis Respublikası | 01.07.98 |
| Türkiyə Respublikası | 14.01.92 |
| Türkmənistan | 09.06.92 |
| Uqanda Respublikası | 19.08.95 |
| Ukrayna | 06.02.92 |
| Uruqvay Şərqi Respublikası | 12.01.95 |

| | |
|---|---|
| Fələstin Dövləti | 15.04.92-<br>09.06.92 |
| Filippin Respublikası | 27.03.92 |
| Finlandiya Respublikası | 24.03.92 |
| Fransa Respublikası | 21.02.92 |
| Xorvatiya Respublikası | 26.01.95 |
| Hindistan Respublikası | 28.02.92 |
| Honduras | 22.12.94 |
| Çexiya Respublikası | 29.01.93 |
| Çili Respublikası | 03.11.94 |
| Çin Xalq Respublikası | 02.04.92 |
| Cibuti | 22.10.96 |
| Cənubi Afrika Respublikası | 29.04.92 |
| vŞri-Lanka Demokratik Sosialist Respublikası | 04.08.94 |

## AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK ƏLAQƏLƏRDƏ OLDUĞU DÖVLƏTLƏRİN MİLLİ BAYRAMLARI

### Yanvar

| | |
|---|---|
| 01. Kuba Respublikası | İstiqlaliyyət günü - 1959 |
| 01. Sudan Respublikası | Müstəqillik günü - 1956 |
| 04. Myanma Birliyi | Müstəqillik günü -1948 |
| 26. Avstraliya | Avstraliya günü - 1788 |
| 26. Hindistan Respublikası | Respublika günü - 1950 |

### Fevral

| | |
|---|---|
| 04. Şri-Lanka Demokratik Sosialist Respublikası | Müstəqillik günü - 1948 |
| 06. Yeni Zellandiya | Vaytanqa günü - 1840 |
| 11. İran İslam Respublikası | İnqilab günü - 1979 |
| 14. Lixteynşteyn Knyazlığı | Hakimiyyətdə olan şahzadənin ad günü - 1945 |
| 16. Litva Respublikası | Litva dövlətinin qurulması günü-1918 |
| 18. Qambiya Respublikası | Müstəqillik günü - 1956 |
| 23. Bruney-Darüəssalam Dövləti | Milliyyət günü - 1984 |
| 23. Qayana Kooperativ Respublikası | Respublika günü - 1970 |
| 24. Estoniya Respublikası | Müstəqillikgünü-1918 |
| 25. Küveyt dövləti | Milli gün - 1961 |

Mart

03. Bolqarıstan Respublikası — Osmanlı əsarətindən qurtuluş günü 1878

| | |
|---|---|
| 06. Qana Respublikası | Müstəqillik günü - 1957 |
| 12. Mavrikiya Respublikası | Respublika günü - 1992 |
| 17. İrlandiya | Müstəqillik günü - 1968 |
| 20, Tunis Respublikası | Müstəqillik günü - 1956 |
| 23. Pakistan İslam Respublikası | Pakistan milli günü - 1940 |
| 25. Yunanıstan Respublikası | Müstəqillik günü - 1821 |
| 26. Banqladeş Xalq Respublikası | Müstəqillik günü - 1971 |

Aprel

| | |
|---|---|
| 04. Seneqal Respublikası | Müstəqillik günü - 1960 |
| 16. Danimarka Krallığı | Kraliçanın ad günü - 1940 |
| 17. Suriya Ərəb Respublikası | Evanuasiya günü - 1946 |
| 25. Portuqaliya Respublikası | Azadlıq günü - 1974 |
| 27. Syero-Leone Respublikası | Müstəqillik günü - 1961 |
| 27. Cənubi Afrika Respublikası | Azadlıq günü - 1994 |
| 30. Niderland Krallığı | Milli bayram. Kraliça günü - 1909 |

May

| | |
|---|---|
| 03. Polşa Respublikası | Milli bayram - 1990 |
| 15, İsrail dövləti | Müstəqillik günü -1948 |
| 17. Norveç Kralliği | Konstutsiya günü - 1814 |
| 20. Kamerun Respublikası | Respublika elan olunması günü - 1972 |
| 22. Yəmən Respublikası | Birlik günü - 1990 |
| 25. Argentina Respublikası | May inqilabının ildönümü - 1810 |

| | |
|---|---|
| 25. İordaniya Haşimi Krallığı | Müstəqillik günü -1946 |
| 26. Gürcüstan Respublikası | Dövlət müstəqillik günü - 1991 |
| 28. Həbəşistan Federativ Demokratik Respublikası | Sülh və demokratiyanın qurulması günü - 1991 |
| 30. Xorvatiya Respublikası | Dövlət elan olunması günü - 1990 |

**iyun**

| | |
|---|---|
| 02. İtaliya Respublikası | Respublika elan olunması günü - 1946 (iyun ayının 1-ci bazar günü qeyd olunur) |
| 06. İsveç Krallığı | İsveç bayramı günü İsveçin milli günü - 1983 |
| 07. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | Kraliçanın anadan olması günü - 1926 |
| 12. Filippin Respublikası | Müstəqillik günü -1898 |
| 17. İslandiya Respublikası | Respublika elan olunması günü - 1944 |
| 18. Seyşel adaları Respublikası | Konstutsiya günü - 1993 |
| 23. Lüksemburq Böyük Hersoqluğu | Böyük Hersoqun anadan olduğu gün - 1921 |
| 25. Mozambik Respublikası | Müstəqillik günü - 1975 |
| 25. Slovakiya Respublikası | Dövlət günü - 1991 |
| 26. Madaqaskar Respublikası | Müstəqillik elan olunması günü - 1960 |
| 27. Cibuti Respublikası | Müstəqillik günü - 1977 |

**iyul**

| | |
|---|---|
| 01. Brundi Respublikası | Müstəqillik günü -1975 |
| 04. Kanada | Kanada günü - 1867 |
| 05. Amerika Birləşmiş Ştatları | Müstəqillik günü - 1776 |
| 06. Venesuela Respublikası | Müstəqillik günü - 1811 |

| | |
|---|---|
| 11. Kamor adaları Federal İslam Respublikası | Müstəqillik günü - 1975 |
| 14. Fransa Respublikası | Bastiliyanın alınması günü-1789 |
| 17. İraq Respublikası | İnqilab günü - 1968 |
| 20. Kolumbiya Respublikası | Müstəqillik günü - 1810 |
| 21. Belçika Krallığı | Kralın ad günü - 1831 |
| 23. Misir Ərəb Respublikası | İnqilab günü - 1952 |
| 26. Liberiya Respublikası | Müstəqillik günü - 1847 |
| 26. Maldiv Respublikası | Müstəqillik günü - 1965 |
| 27. Belarus Respublikası | Müstəqillik günü - 1990 |
| 28. Peru Respublikası | Müstəqillik günü - 1821 |

Avqust

| | |
|---|---|
| 01. Benin Respublikası | Müstəqillik günü - 1960 |
| 01. İsveçrə Konfederasiyası | Konfederasiyanın yaranması günü - 1291 |
| 05. Yamayka | Hər il avqust ayının l-ci bazar günü milli bayram kimi qeyd olunur |
| 06. Boliviya Respublikası | Müstəqillik günü - 1825 |
| 07. Kot-Divuar Respublikası | Müstəqillik günü - 1960 |
| 10. Sinqapur | Milli gün -1965 |
| 15. Koreya Respublikası | Koreyanın azad olunması günü -1945 |
| 17, Qabon Respublikası | Müstəqillik günü - 1960 |
| 17. İndoneziya Respublikası | Müstəqillik günü - 1945 |
| 19. Əfqanıstan İslam Dövləti | Müstəqillik günü - 1919 |
| 20. Macarıstan Respublikası | Macarıstan dövlətinin qurucusu müqəddəs İştvan günü |
| 20. Ukrayna Respublikası | Müstəqillik günü - 1991 |
| 25. Şərqi Uruqvay Respublikası | Müstəqillik günü - 1825 |
| 27. Moldova Respublikası | Müstəqillik günü - 1991 |

| | |
|---|---|
| 31. Qırğızıstan Respublikası | Müstəqillik günü - 1991 |
| 31. Malayziya | Milli gün - 1957 |

Sentyabr

| | |
|---|---|
| 01. Liviya Xalq Sosialist Ərəb Camahiriyyəsi | Böyük İnqilab günü - 1969 |
| 01. Slovakiya Respublikası | Konstitusiya günü -1993 |
| 01. Özbəkistan Respublikası | Müstəqillik günü - 1991 |
| 01. Vyetnam Sosialist Respublikası | Müstəqillik günü - 1945 |
| 04. Qatar Respublikası | Müstəqillik günü - 1971 |
| 07. Braziliya Federativ Respublikası | Müstəqillik günü - 1982 |
| 09. Koreya Xaiq Demokratik Respublikası | KXDR yaranması günü - 1948 |
| 09. Tacikistan Respublikası | Müstəqillik günü - 1991 |
| 15. Qvatemala Respublikası | Müstəqillik günü -1821 |
| 15. Kosta-Rika Respublikası | Müstəqillik günü -1821 |
| 15. Nikaraqua Respublikası | Müstəqillik günü -1821 |
| 15. Honduras Respublikası | Müstəqillik günü -1821 |
| 15. Salvador Respublikası | Müstəqillik günü -1821 |
| 16. Meksika Birləşmiş Ştatları | Müstəqillik günü -1810 |
| 18. Çin Respublikası | Müstəqillik günü -1810 |
| 19. Sent-Kristofer və Nevis | Müstəqillik günü -1983 |
| 21. Malta | Müstəqillik günü -1964 |
| 22. Mali Respublikası | Müstəqillik günü -1960 |
| 23. Səudiyyə Ərəbistanı Krallığı | Müstəqillik günü -1927 |
| 24. Qvineya Bisau Respublikası | Müstəqillik günü -1973 |

Oktyabr

| | |
|---|---|
| 01. Çin Xalq Respublikası | Müstəqillik günü - 1949 |
| 02. Qvineya Respublikası | Müstəqillik elan edilən gün - 1956 |
| 03. Almaniya Federativ Respublikası | Vahid Almaniya günü - 1990 |
| 09. Uqanda Respublikası | Müstəqillik günü - 1962 |
| 12. İspaniya Krallığı | İspaniya Milləti günü - 1492 |
| 22. Vatikan | 11 İohan Pavelin Vatikana başçılığı günü-1978 |
| 24. Zambiya Respublikası | Müstəqillik günü -1964 |
| 25. Qazaxıstan Respublikası | Respublika günü - 1992 |
| 26. Avstriya Respublikası | Milli bayram - 1955 |
| 27. Türkmənistan Respublikası | Müstəqillik günü -1991 |
| 28. Çexoslovakiya Respublikası | Çexoslovakiya Müstəqillik günü - 1918 |
| 29. Türkiyə Respublikası | Respublika günü - 1923 |

**Noyabr**

| | |
|---|---|
| 01. Əlcəzair Xalq Demokratik Respublikası | Əlcazair İnqilabı günü - 1954 |
| 01. Antiqua və Barbuda | Müstəqillik günü - 1981 |
| 03. Panama Respublikası | Kolumbiyadan azad olunması günü - 1903 |
| 09. Kampuçiya Respublikası | Müstəqillikyin bərpa olunması günü - 1958 |
| 11. Anqola Respublikası | Müstəqillik günü - 1975 |
| 18. Latviya Respublikası | Latviya Respublikası elan olunduğu gün - 1918 |
| 22. Livan Respublikası | Milli bayram - 1943 |
| 25. Surunami Respublikası | Müstəqillik günü - 1975 |

| | |
|---|---|
| 28. Mavritaniya İslam Respublikası | Müstəqillik günü - 1960 |
| 29. Fələstin Dövləti | Beynəlxalq Fələstin həmrəyliyi günü |

**Dekabr**

| | |
|---|---|
| 01. Rumıniya | Milli gün - 1918 |
| 02. Laos Xalq Demokratik Respublikası | Respublikası elan olunması günü-1975 |
| 02..Birləşmiş Ərəb Əmirliyi | Birləşmiş Ərəb Əmirliyi dövlətinin elan olunduğu gün - 1971 |
| 06. Finlandiya Respublikası | Müstəqillik günü - 963 |
| 16. Bəhreyn dövləti | Milli gün - 1971 |
| 18. Niger Respublikası | Respublikası elan olunması günü - 1958 |
| 23. Yaponiya | İmperatorun ad günü - 1933 |
| 28. Nepal Krallığı | Kralın ad günü -1945 |

## BMT-nin BAŞ KATİBLƏRİ

| Baş katib | Dövlət | Tarix |
|---|---|---|
| Türqve Li | Norveç | 1946-1953 |
| Daq Xammarşeld | İsveç | 1953-1961 |
| U Tan | Birma | 1961-1971 |
| Kurt Valdhaym | Avstriya | 1971-1981 |
| Xavyer Peres de Kuelyar | Peru | 1981-1991 |
| Butros Butros Qali | Misir | 1991-1997 |
| Kofı Annan | Qana | 1997-2006 |
| Pan Gi Mun | Koreya Respublikası | 2006 |

ÖLKƏLƏRİN MƏNSUBİYYƏTİNİ XARAKTERİZƏ EDƏN TANINMA İŞARƏLƏRİ

| № | Ölkələrin adı | Tallinn |
|---|---|---|
| 1 | Avstriya | A |
| 2 | Avstraliya | AIJS |
| 3 | Almaniya | D |
| 4 | Amerika Birləşmiş Ştatlar | USA |
| 5 | Argentina | RA |
| 6 | Azərbaycan | AZ |
| 7 | Belçika | B |
| 8 | Birma | BA |
| 9 | Bolqarıstan | BG |
| 10 | Braziliya | BR |
| 11 | Venesuela | YV |
| 12 | Vyetnam | VN |
| 13 | Qvatemala | |
| 14 | Danimarka | DK |
| 15 | E^kvador | **BQ** |
| 16 | İndoneziya | Rİ |
| 17 | İngiltərə və İrlandiya krallığı | GB |
| 18 | İrak | İRQ |
| 19 | İran | İR |
| 20 | İrlandiya | FJR |
| 21 | İsveç | S |
| 22 | İsveçrə | **cıı** |
| 23 | İslandiya | **is** |
| 24 | İspaniya | E |
| 25 | İsrail | İL |
| 26 | Y amayka | YA |
| 27 | Yunanıstan | GR |
| 28 | Kanada | CDN |

| № | Ölkələrin adı | Tanınma işarəsi |
|---|---|---|
| 29 | Kolumbiya | CO |
| 30 | Kuba | C |
| 31 | Liviya | RL |
| 32 | Uxtenşteyn krallığı | FL |
| 33 | Lüksenburq | L |
| 34 | Malta | GBY |
| 35 | Macarıstan | H |
| 36 | Meksika | MEX |
| 37 | Misir | ET |
| 38 | Monako | MC |
| 39 | Nikaraqua | NIC |
| 40 | Norveç | N |
| 41 | Pakistan | PAK |
| 42 | Panama | PA |
| 43 | Paraqvay | PY |
| 44 | Peru | PE |
| 45 | Polşa | PL |
| 46 | Portuqaliya | P |
| 47 | Suriya | SYR |
| 48 | l'ailand | ***T*** |
| 49 | Türkiyə | TR |
| 50 | Uruqvay | U |
| 51 | Filippin | PL |
| 52 | Finlandiya | SF |
| 53 | Fransa | F |
| 54 | Haiti | RH |
| 55 | Hindistan | İND |
| 56 | Hollandiya | NL |
| 57 | Çili | RCH |
| 58 | Çin | RC |
| 59 | Cənubi Afrika ölkələri | ZA |

BİR SIRA ÖLKƏLƏRDƏ TƏTBİQ OLUNAN BƏZİ UZUNLUQ, SAHƏ, ÇƏKİ VƏ HƏCM VAHİDLƏRİ

| № | Ölçü vahidinin adı | Tətbiq olunan ölkə və obyektin adı | İfadə vasitəsi |
|---|---|---|---|
| 1<br>İ | AKR<br>Anker | ABŞ, Böyük Britaniya AFR | 0,404686 ha<br>3405 1. |
| | | Böyük Britaniya: | 45,44 I. |
| 3 | Barrel | Argentina | 76 1. |
| _ | _ | Böyük Britaniya: adi ölçmələr üzrə: | J81,7 1. ______ |
| | | - inək yağı | 101,6 kq |
| | | - un | 88,9 kq |
| | | -P'və | 163,6 1. |
| | | ABŞ: | |
| | | - mayeler | 158,98 I. |
| | | - səpələnə bilən | |
| | | toz, dənəvər və s. | |
| | | şəklində olan maddə. | 115,61. |
| | | - xam neft | 139,07- 151,41 kq |
| | | - benzin | 116,2 kq |
| | | - kerosin | 125,74 kq |
| | | - şərab | 117,9 kq |
| | | - qarğıdalı | 127 kq |
| | | - ət | 90,72 kq |
| 4 | Qalon | Argentina Kuba, ABŞ | 3,80 I. |
| | | -bal | 5,443 kq. |
| | | - zeytun yağı | 3,447 kq. |
| | - pruf qalon | Böyük Britaniya: | |
| | | - spirt | 2,594 1. |

| № | Öiçü vahidinin adı | Tətbiq olunan ölkə və obyektin adı | İfadə vasitəsi |
|---|---|---|---|
| 5 | Dirhəm | Misir, Sudan | 3,18q. |
| 6 | Kvadıl yard | ABŞ, Böyük Britaniya: | 0,836172 dm |
| 7 | Kvadrat dyüm | ABŞ, Böyük Britaniya | 6,4116 sm |
| 8 | Kvarta | Böyük Britaniya: | |
| | | - pivə | 0,946353 I. |
| | | AFR: | |
| | | - pivə | 2,198 I. |
| | | ABŞ: | |
| | | - şərab və neft | 0,946353 1. |
| 9 | KİP | Avstraliya: | |
| | | - yun | 149,7 kq. |
| | | Braziliya | |
| | | -pambıq | 180 kq. |
| | | ARF | |
| | | - kağız | 10000 vərəq |
| | | ABŞ | |
| | | - pambıq | 226,8 kq. |
| | | -kağız | 136 kq. |
| 10 | Lot | AFR: | 16,67q |
| 11 | Kisə | Braziliya: | |
| | | -kofe, kakao | 60 kq. |
| | | -qarğıdalı, düyü | 58 kq. |
| | | - şəkər | 50 kq. |
| | | -pambıq | 80 kq. |
| | | ABŞ: | |
| | | -sement | 42,6 kq. |
| 12 | Yard | ABŞ, Kanada | |
| | | Böyük Britaniya: | 91,44 sm. |
| 13 | Yeşik | Belçika, | |
| | | Böyük Britaniya: | |
| | | - kibrit | 1000 qutu |

| № | Ölçü vahidinin adı | Tətbiq olunan ölkə və obyektin adı | İfadə vasitəsi |
|---|---|---|---|
| | | -çay | 38,lkq. |
| | | - yumurta | 360 ədəd |

## “DİPLOMATİK PROTOKOL” ÜZRƏ *TESTLƏR* '

Diplomatik fəaliyyətlə məşqul olmaq istəyənlər, xüsusilə bu sahə ilə maraqlanan tələbələr üçün özlərini sınamaqdan ötrü aşağıdakı test suallarını cavabları ilə verməyə lazım bildik.

**1. Dövləti tanımağın neçə forması var?**

a) beş
b) iki
c) altı
d) uç
e) dörd

**2. Dövlətin faktiki tanıma forması hansıdı?**

a) müqavilə ilə
b) de-yure
c) bəyanatla
d) de-fakto
e) sazişlə

**3. Dövlətin hüquqi tanınma forması hansıdır?**

a) müqavilə ilə
b) de-yure
**c)** bəyanatla
d) de-fakto
**e)** sazişlə

**4. Bir ölkədə diplomatik nümayəndəlik hansı tanıma formasından sonra açılır?**

a) dövlətlərarası müqavilədən sonra
b) de-fakto
**c)** de-fakto və de-yure
d) de-yure
**e)** hərbi müqavilədən sonra

---

**' Təhsil Nazirliyi tərəfindən 07.08.2005-ci il tarixli (protokol № 08) qərarı ilə təsdiq edilmiş Milli Aviasiya Akademiyasının “M. Hacıyev. Diplomatik protokol” proqramı (Bakı, MAA nəşriyyatı, 2005) əsasında yazılmışdır.**

**5. Aşağıdakı orqanlardan hansı xarici diplomatik orqanlara daxildir?**

a) Daxili İşlər Nazirliyi
b) Təhlükəsizlik Nazirliyi
c) Xarici İşlər Nazirliyi
d) Ticarət Nazirliyi
e) Baş arxivlər idarəsi

**6. Aşağıdakılardan hansılar diplomatik dərəcələrə və rütbələrə daxildir?**

a) nazir müşaviri
b) komissiyanın baş məsləhətçisi
**c)** fövqəladə və səlahiyyətli səfir, müşavir, müvəqqəti işlər vəkili
d) partiyanın baş katibi
**e)** parlamentin spikeri

**7. Səfirliyin binasının üstündə bunlaradan hansı olmalıdır?**

a) ölkə rəhbərinin portreti
b) şuar
**c)** dövlət bayrağı
d) Konstitusiyanın şəkli
**e)** dövlət himninin mətni

**8. Ölkədən xaricdə yaşayan vətəndaşların mülkü hüquqlarının müdafiyəsi ilə orqan hansı məşğul olur?**

a) ticarət nümayəndəliyi
b) iqtisadi əlaqələr nazirliyi
**c)** konsulluq
d) beynəlxalq turizm idarəsi
**e)** hərbi attaşe

**9. Aşağıdakılardan hansılar diplomatlara tətbiq oluna bilər?**

a) əmlakının zəbt olunması
b) gömrük məntəqəsində yoxlanılması
**c)** əmlakının və özünün toxununimazlığı
d) cinayyət məsuliyyətinə cəlb olunması
**e)** qəti həbs cəzası

**10. Aşağıdakılardan hansı orqan rəsmi icraedici dövlət orqanıdır?**

a) Jurnalistlər İttifaqı
b) Jazıçılar Birliyi
c) Nazirlər Kabineti
d) Həmkarlar İttifaqı
e) Qadınlar Şurası

**11. Ölkədəki diplomatik nümayəndəliklərin diplomatlarının birliyi hansıdır?**

a) siyasi klub
b) siyasi partiya
c) diplomatik korpus
d) diplomatların məsləhət şurası
c) redaktorlar ittifaqı

**12. Aşağıdakılardan hansı beynəlxalq dövlətlərarası təşkilatı təmsil edir?**

a) Muzeylər İdarəsi
b) Arxitektorlar İttifaqı
c) BMT nümayəndəliyi
d) Əmək birjası
e) Təhsil və maarif işçiləri ittifaqı

**13. Birləşmiş Millətlər Təşkilatı:**

a) Beynəlxalq Təşkilatdır
b) Regional təşkilatdır
c) ABŞ təşkilatıdır
d) İçtimai təşkilatdır
e) XİN-i nəzdində təşkilatdır

**14. Avropada Təhlükəsizlik və Əməkdaşlığ Təşkilatı hansı ölkələrə aiddir?**

a) Asiya ölkələri
b) Avropa ölkələri
c) Afrika ölkələri
d) Amerika ölkələri
e) NATO ölkələri

**15. Müsəlman ölkələrini birləşdirən təşkilat hansıdır?**

a) ATƏT
b) İKT
**c)** NATO
d) YUNESKO
**e)** MDB

**16. Keçmiş Varşava müqaviləsinə qarşı yaradılmış hərbi birlik hansıdır?**

a) BMT
b) Avropa Şurası
**c)** MDB
d) NATO
**e)** YUNESKO

**17. Keçmiş Sovetlər İttifaqı dağılandan sonra onu əvəz edən hansı qurum yaradılmışdır?**

a) SSRİ
b) NATO
**c)** MDB
d) ATƏT
**e)** GUA
M

**18. Aşağıdakılardan hansılar diplomatik sənədlər sayılır?**

a) b) məruzə
**c)** verba! nota, memorandum
d) konflansların tezisləri
**e)** elmi konfransın bülleteni
çıxışların mətni

**19. Diplomatik yazışmanın dili necə olmalıdır?**

a) ətraflı izahatla
b) lokonik və aydın
c) müxtəlif cür izah olunan sözlər işlənməlidir
d) atalar sözlərindən və zərbul məsələlərdən çox istifadə olunmalıdır

**20. Diplomatiyada əhəmiyyətlidir:**

a) heç kəslə görüşməmək
b) qəbullara qetməmək
c) şəxsi əlaqələri genişləndirmək
d) şəxsi əlaqələri yaratmamaq
e) diplomatik mühitdən təcrid olunmaq

**21. Diplomatın əsas məlumat mənbəyinə aşağıdakılardan hansı aiddir?**

a) təzə kinofılimlər
b) dedektiv romanlar
c) kütləvi informasiya vasitələri
d) rəsm qalereyalarına baxmaq
e) qiraət zallarında çox oxumaq

**22. Konsul xidmətinin əsas funksiyalarına daxildir:**

a) hərbi münaqişələri dayandırmaq
b) öz Ölkəsinin vətəndaşlarının hüquqlarını müdafiə etmək
c) təşkilatarası müqavilələr bağlamaq
d) öz hökümıəti adından danışmaq
e) siyasi bəyanat verməkgetdiyi ölkədə

**23. Başqa ölkəyə göndərilən konsul işə başlaması üçün öz ölkəsindən nə alır?**

a) protokol
b) patent
c) ikitərəfli müqavilə
d) ekzekvatura
e) aqreman

**24. Konsul işə başlamaq üçün gəldiyi ölkədən nə alır?**

a) protokol
b) patent
c) ikitərəfli müqavilə
d) ekzekvatura
e) aqreman

**25. Diplomatın osas hərəkət və fəaliyyət normaları nə ilə tənzim olunur?**

a) təlimatla
b) diplomatik protokol normaları ilə
c) yaddaş məktubu ilə
d) diplomatik pasportla
e) aqremanla

**26. Aşağıdakı diplomatik qəbullardan hansılar saat 20 ”^-dan sonra təşkil olunur?**

a) “səhər naharı”, “çay”
b) “nahar” və “şam”
c) “bir qədər şampan”
d) “nahar-bufet” və “a lya-furşet”
e) “kokteyl”

**27. Diplomatik qəbullardan hansı ancaq qadınlara məxsusdur?**

a) “nahar”
b) “çay”
c) “şam”
d) “bir qədəh şampan”
e) “səhər naharı”

**28. Diplomatik qəbullar zamanı ən hörmətli qonaq ev sahibindən hansı tərəfdə oturmalıdır?**

a) ÇIXIŞ qapısına yaxın
b) sağ tərəfində
c) sol tərəfində
d) arxa tərəfində
c) məclisin yuxarı başında

**29. Vizit kartında “aşağıdakı simvollardan hansı” təbrik edirəm dcməkdi?**

a) p.p.
b) p.c.
c) p.r.
d) p.f
e) p.p.c.

**30. Sənədin müddətinin uzadılması nccə adlanır?**

a) nota
b) memorandum
c) prolonqasiya
d) bəyanat
e) denonsasiya

**31. Sənədin müddətinin dayandırılması nccə adlanır?**

a) müqavilənin pozulması
b) protokolun ləğvi
c) denonsasiya
b) bəyanatla çıxış
c) prolonqasiya

**32. Dövlət başçısının imzasına sənədi təqdim edənə qədər sənədi hazırlayan ad və soyadlarının baş hərfləri qoyulmuş sənəd necə adlanır?**

a) yoxlanılmış sənəd
b) paraflanmış sənəd
**c)** ratifikasiya olunmuş sənəd
d) imzalanmış sənəd
**e)** denonsasiya olunmuş sənəd

**33. Ölkənin ali qanunverici orqanı beynəlxalq sənədi təsdiq etmək üçün nə etməlidir?**

a) onu ratifikasiya etməlidir
b) onu prolonqasiya etməlidir
c) onu denonsasiya etməlidir
d) onu paraflamalıdır
e) onu protokollaşdırmalıdır

**34. Diplomatik nümayəndəliyin yeni təyin olunmuş başçısına onu qəbul edən ölkə hansı razılıq sənədi?**

a) arayış
b) göndəriş
c) aqreman
d) nota
e) patent

**35. Başqa ölkəyə təzə təyin olunmuş səfir öz ölkə başçısından getdiyi ölkənin başçısına təqdim etmək üçün hansı sənədi almalıdır?**

a) aqreman
b) patent
c) etimadnamə
d) ekzekvatura
**e)** yaddaş məktubu

**36. Səfir olmayanda səfirliyin başçısı kim sayılır?**

a) baş konsul
b) müvəqqəti işlər vəkili
**c)** birinci dərəcəli müşavir
d) protokol şöbəsinin müdiri
**e)** birinci katib

**37. Diplomatik korpusun adından kim danışa bilər?**

a) səfirlər
b) birinci dərəcəli müşavir
c) duayen
d) hərbi attaşe
**e)** baş konsul

**38. Xristian (katolik) ölkələrində diplomatik korpusa başçılıq edən**
**Vatikan dövlətinin nümayəndəsinin diplomatik rütbəsi nədir?**

b) a) baş keşiş
c) nunsi, unter nunsi
d) böyük apostol
**e)** böyük elçi
müqəddəs ata

**39. Qısa müddətli tapşırıqla diplomatik məsələlərin müzakirəsi**
**və həlli ilə məşqul olur:**

b)
c) a) Fövqəladə və Səlahiyyətli səfir
d) xüsusi missiya
**e)** komissiya

**40. Diplomatik fəaliyyətə dair əsas beynəlxalq sənəd:**

a) NATO-nun bəyanatı
b) BMT-nin nizamnaməsi
c) Vyana Konvensiyası
d) Helsinki insan hüquqları konvensiyası
**e)** NATO ilə “Sülh naminə tərəfdaşlıq” çərçivəsi

**41. “Diplomatiya” sözü hansı sözdən yaranmışdır?**

a) dialoq
b) diploma
c) dialiktika
d) xarici əlaqələr
**e)** “məharətlə danışıqlar aparmaq”dan

**42. Aşağıdakılardan hansı xarici işlər nazirliyinin regional fəaliyyət sahəsinə daxildir?**

a) protokol şöbəsi
b) Afrika ölkələri şöbəsi
c) maliyə şöbəsi
d) beynəlxalq müqavilələr şöbəsi
**e)** İslam Konfransı təşkilatı

**43. Aşağıdakılardan hansı xarici işlər nazirliyinin funksional fəaliyyət sahəsinə daxildir?**

a) konsulluq şöbəsi
b) ABŞ və Kanada idarəsi
c) Afrika ölkələri şöbəsi
d) Latın Amerika ölkələri şöbəsi
**e)** Müstəqqil Dövlətlər Birliyi idarəsi

**44. Keçmiş səfiri geri çağırmaq üçün onun akkreditə olduğu ölkənin başçısına hansı sənəd təqdim olunmalıdır?**

a) ikitərəfli müqavilə
b) geri çağırılma sənədi
c) verbal nota
d) memorandum
**e)** yaddaş məktubu

**45. Beynəlxalq konfranslarda ilk iclasıa kim sədrlik edir?**

a) böyük dövlətin nümayəndəsi
b) qəbul edən ölkənin nümayəndəsi
c) dost ölkənin nümayəndəsi
d) bitərəf ölkənin nümayəndəsi
e) birinci gələn ölkənin nümayəndəsi

**46. Konsulluğun təsdiq etdiyi sənəd necə adlandırılır?**

a) konsulluq vəsiqəsi
b) konsulluq markası
c) konsulluq dairəsi
d) konsulluq leqalizasiyası
e) konsulluq patenti

**47. Konsulun fəaliyyət göstərdiyi ərazi necə adlanır?**

a) konsulluq rayonu
b) konsulluq dairəsi
c) konsulluq mərkəzi
d) səfirlik dairəsi
e) konsulluqun qapalı zonası

**48. Dövlət və hökümət başçılarının iştirak etdikləri beynəlxalq konfrans necə adlanır?**

a) kompromiss
b) konsensus
c) sammit
d) Yüksək Konfrans
e) Ali müzakirələr konfransı

**49. İki ölkə arasındakı səfirlik ştatı hansı prinsiplə müəyyənləşdirilir?**

a) səfirlik arayışı ilə
b) səfirliklərin ərazisi ilə
c) səfirlik kvotası ilə
d) səfirlik ştatı ilə
e) səfirliklərin bəyanatı ilə

**50. Diplomatın diplomat olduğunu təsdiq edən sənəd hansıdır?**

a) vəsiqə
b) diplomatik dərəcə
c) arayış
d) doş nişanı
e) pasport

**51. Bəzi ölkələrdə gömrükdə diplomatı gömrük yoxlamasından azad edən sənəd nədir?**

a) diplomatik dərəcə
b) diplomatik yazışma
c) diplomatik nota
d) diplomatik kart
e) diplomatik nəzakət

**52. Diplomatik kuryerlə bunlardan hansını göndərmək olmaz?**

a) sirkulyar məktubu
b) şəxsi notanı
c) memorandumu
d) qatlanmış Mətbuat konfarnsının protokolunu
e) verbal notanı

**53. Bunlardan hansı beynəlxalq döviətlərarası təşkilatdır?**

a) Ümumdünya Həmkarlar Təşkilatı
b) Birləşmiş Millətlər Təşkilatı
c) Ümumdünya Sərhədsiz Həkimlər İttifaqı
d) Ümumdünya Tələbələr Cəmiyyəti
e) Dünya Gənclər İttifaqı

**54. Aşağıdakılardan hansı təşkilat Avropa təşkilatıdır?**

a) HKO
b) A'fƏT
c) N A f O
d) UKT
e) YUMESKO

**55. Aşağıdakılardan hansı təşkilat müsəlman ölkələrinə**

c) İKT
d) NATO
e) ATƏT

**56. Bir ölkədən başqa ölkəyə gedərkən yolüstü üçüncü bir ölkənin başçısı ilə görüş səfəri necə adlanır?**

a) rəsmi səfər
b) qeyri-rəsmi səfər
**c)** tranzit səfər
d) planlaşdırılmış səfər
**e)** diplomatik səfər

**57. Yüksək səviyyəli müzakirələrin son sənədi bunlardan hansıdır?**

**a) b)** müşayət məktubu
**c)** şəxsi məktub
d) birgə kommunike
**e)** memorandum
yaddaşnamə

**58. Diplomatik pasportlu hansı diplomat bir ölkənin xüsusi missiyalı diplomatı sayılır?**

a) b) yüksək dərəcəli diplomatı
**c)** akkreditə olunmuş diplomatı
d) rəsmi mərasimə göndərilmiş diplomatı
**e)** müqavilə ilə işləyən diplomatı
beynəlxalq konfransa gedən

**59. Diplomatik korpusda mübahisələri həll etməkdə arbitr rolunu kim oynayır?**

a) b) hakim
**c)** konsul
d) səfir
**e)** duayen

**60. ölkəyə yeni təyin olunmuş səfir gəldiyi ölkənin xarici işlər nazirinə hansı sənədi təqdim edir?**

a) səfiri təyin edən ölkənin XİN-nin məktubunu
b) səfiri təyin edən ölkə başçısının məktubunu
c) etimadnamənin əslini
d) etimadnamənin surətini
e) öz ölkəsinin notasını

**61. Aşağıdakılardan hansı yekdil səsvermə deməkdir?**

a) kompromis
b) konsensus
c) missiya
d) kvota
e) immunitet

**62. Aşağıdakılardan hansı dövlət atributlarına daxildir?**

a) xəritə
b) dövlət sərhədi
c) dövlət bayrağı
d) dövlət vizası
e) dövlət torpağı

**63. Ölkənin sülh, ya müharibə məsələlərinin həllində preroqativ (üstünlük) kimindir?**

a) hökümət başçısının
b) parlament başçısının
c) dövlət başçısının
d) xarici işlər nazirliyi başçısının
e) dövlət təhlükəsizlik nazirliyi başçısının

**64. Bunlardan hansı vəfat edəndə, ya da vəzifədən kənarlaşdırılanda ölkə həmin ölkədəki öz səfirliyini müvəqqəti geri çağıra bilər?**

a) baş nazir
b) xarici işlər naziri
c) dövlət başçısı
d) parlament başçısı
e) daxili işlər naziri

**65. Bir ölkənin başqa ölkədə işləyən aşağıdakılardan kimlər ekserritoriallıq hüququna malikdir?**

b) a) hərbi işçilər
c) ticarət işçiləri
d) həkimlər
e) diplomatlar
incəsənəd xadimləri

**66. Anti hitler müttəfiq dövlət başçıları Tehran konfransında neçənci ildə görüşmüşlər?**

b) a) 1939-cuildə
c) 1945- ci ildə
d) 1943-cü ildə
e) 1946- cı ildə
1949-cu ildə

**67. ABŞ-da xarici əlaqələr orqanı necə adlanır?**

b) a) xarici işlər nazirliyi
c) xarici əlaqələr komitəsi
d) dövlət departamenti
e) Forin ofis
xarici işlər idarəsi

**68. Aşağıdakılardan İngiltərənin Xarici əlaqələr orqanı hansıdır?**

b) a) xarici işlər nazirliyi
C) xarici əlaqələr komitəsi
d) dövlət departamenti
e) Forin ofis
xarici işlər idarəsi

**69. İngiltərədə Xarici işlər idarəsinin rəhbəri necə adlanır?**

a) nazir
b) komitə sədri
c) stats-sekretar
d) parlament nümayəndəsi

**70. ABŞ-da Xarici işlər idarəsinin rəhbəri necə adlanır?**

a) nazir
b) komitə sədri
c) stats- sekretar
d) parlament nümayəndəsi
**e)** dövlət katibi

**71. İngiltərənin xarici işlər idarəsində işləmək üçün müsabiqədə iştirak edənlərin aşağı və yuxarı yaş həddləri neçədir?**

a) 18-20
b) 21-25
**c)** 25-30
b) 30-35
**c)** 35-40

**72. Xarici əlaqələr haqqında ilk Vyana Konvensiyası neçənci ildə qəbul olunub?**

a) 1812-ci ildə
b) 1815-ci ildə
**c)** 1813-cü ildə
d) 1820-ci ildə
**e)** 1961-ci ildə

**73. Xarici əlaqələr haqqında Vyana Konvensiyasına əlavələr etmiş Aahcn protokolu neçənci ildə qəbul olunub?**

a) 1812-ci ildə
b) 1815-ci ildə
**c)** 1917-ci ildə
d) 1818-ci ildə
**e)** 1963-cü ildə

**74. Aşağıdakılardan hansı diplomatik ranqdır?**

a) Fövqəladə və Səlahiyyətli Nümayəndə

**75. Aşağıdakı diplomatik qəbullardan hansına diplomatlar dəvət olunanda dəvətnamədə xüsusi olaraq ^‘‘forma, ordenlər’’ sözləri yazılır?**

a) nahar dəvətnaməsində
b) şam dəvətnaməsində
c) təntənəli mərasim dəvətnaməsində
d) ölkə başçısı ilə vidalaşma mərasimində
**e)** xarici işlər nazirliyinə dəvət olunanda.

**76. BMT-nin indi rəsmi dilləri neçədir və hansılardır?**

a) üç
**b)** dörd
c) beş
d) altı
**e)** səkkiz

**77. ATƏT-in iclaslarının rəsmi dilləri neçədir və hansılardır?**

a) u
ç b)
c) dörd
d) beş
**e)** altı
yeddi

**78. Aşağıdakılardan hansı konsul ictimai əsaslarla işləyir, - dövlət xidmətində sayılmır?**

a) baş
b)
konsul c)
d) konsul
**e)** fəxri konsul
vitse konsul
konsul agenti

**79. Konsul aşağıdakı hansı hallarda öz fəaliyyətini dayandırmalıdır?**

b)
a) xəstələndikdə
c)
d) konsulluq ərazisində olmayanda
**e)** ekzekvaturası geri alınanda

**80. Beynəlxalq çoxtərəfli müzakirə və konfranslarda iştirakçı dövlətlərin növbə ilə sədrlik etməsi (rotasiya üsulu ilə) üçün püşk atmaqda hansı dillərin əlifbası qəbul olunmuşdur?**

a) rus, ingilis dilləri
b) ingilis, alman dilləri
**b)** alman, ispan dilləri
ä) fransız, ingilis dilləri
e) ingilis, çin dilləri

**81. Diplomat üçün diplomatik protokol mərhələsi nə vaxt başlayır?**

a) dövlətlərarası müqavilədən sonra
b) dövlətin de-fakto tanınmasından sonra
**c)** dövlətin de-yure tanınmasından sonra
d) diplomatik xidmətə başlayadan sonra
**e)** missiya səfərliyə çevriləndən sonra

**82. Azərbaycan Respublikası nə vaxt və hansı ayda BMT-yə tam hüquqlu üzv olub?**

a) 1990-cı ilin may ayında
b) 1991- ci ilin noyabr ayında
**c)** 1992- ci ilin mart ayında
d) 1993- cü ilin avqust ayında
**e)** 1992- ci ilin aprel ayında

**83. Azərbaycan Respublikası İslam Konfransı Təşkilatına (İKT) neçənci ildə üzv qəbul edilmişdir?**

a) 1992-ci ildə
b) 1993- cü ildə
**c)** 1994- cü ildə
d) 1995- ci ildə
e) 1996- cı ildə

**84. Azərbaycan Respublikası Beynəlxalq İnkişaf və Yenidənqurma Bankına (BİYB) və İslam inkişaf Bankına (İİB) neçənci ildə qəbul edilmişdir?**

a) 1991-ci ildə
b) 1992-ci ildə

c) 1993-cüildə
d) 1994-ci ildə
e) 1995-ci ildə

**85. Aşağıdakı sözlərdən hansılarını məşhur İngilis diplomatı Q. Nikolson "diplomatiya" sözünün sinonimləri kimi işlədir?**

a) "qonaqlıq", "cəsarət"
b) "məharət", "hiylə"
c) "gözəllik", "ucalıq"
d) "uzaqgörənlik", "çeviklik"
e) "ayıqlıq", "zirəklik"

**86. İngilis dilinin Oksford lüğətinə əsaslanaraq məşhur ingilis diplomatı və publisisti Q. Nikolson "diplomatiya" anlayışına aşağıdakılardan hansı tərifi vermişdir:**

a) diplomatiya - "bacarıq və kələk deməkdir"
b) diplomatiya - "qarşı tərəfə xoş gəlmək deməkdir"
c) diplomatiya - "ilk danışıqdan müvvəfəqiyyət gətirməlidir"
d) diplomatiya - "danışıqlar vasitəsi ilə beynəlxalq münasibətlərin aparılmasıdır"
e) diplomatiya - "tərəflərin münasibətinin güzgüsüdür"

**87. Tanınmış alman hüquqşünası və beynəlxalq hüquq mütəxəssisi Q. Martensə görə "diplomatiya" anlaylşma aşağıdakılardan hansını aid etmək olar?**

a) sənəddir
b) qəhrəmanlıqdır
c) elmdir
d) ustalıqdır
e) kələkbazlıqdır

**88. "Siyasi realizm" məktəbinin banisi Q. Morqentau özününn "Beynəlxalq siyasət" (1973) kitabında diplomatiyanın sərəncamında aşağıdakı üç vasitədən hansılarını aid etmişdir?**

a) yalan, kələk və hiylə
b) örtülü danışıq, gizlədilmiş hisslər və böyük vədlər
c) inandırma, kompromis və qüvvə ilə hədələmək

d) fikri gizlətmək, vədlərdə aldatmaq və səhvləri bağışlamaq fraksiya
e) ənənəni qorumaq, yaratmaq və mənafeləri unutmaq

**89. Qədim Şərq diplomatiyası və beynəlxalq hüququn əski qanunları aşağıdakılardan hansılardı?**

a) zərdüştizm qanunları
b) iudaizm qanunları
e) isəvilik qanunları
d) Hind-Manu qanunları
e) İslam qanunları

**90. Roma aristokratlarının orqanı olan Senat aşağıdakı .sahələrdən hansının daimi rəhbəri sayılırdı?**

a) ticarət və iqtisadiyyatın
b) mədəniyyət və incəsənətin
e) xarici siyasətin və diplomatiyanın
d) hüquq və ədliyyənin
e) insan azadlıqları və dini məsələlərinin

**91. Fransa burjua İnqilabı hansı sistemə güclü zərbə vurdu?**

a) quldarlıq sisteminə
b) feodalizm sisteminə
c) mütləq feodal monarxiya diplomatiyasına
d) kapitalizm sisteminə
e) .sosializm sisteminə

**92. Ağqoyunlu dövləti Avropa ölkələri ilə 15-ci əsrin hansı illərində daha geniş diplomatik əlaqələr yaratdı?**

a) 15-ci əsrin 20-30-cu illərində
b) 15-ci əsrin 30-40-cı illərində
c) 15-ci əsrin 40-50-ci illərində
d) 15-ci əsrin 60-70-ci illərində
e) 15-ci əsrin 70-80-ci illərində

**93. Hansı ölkənin Ağqoyunlu sarayında daimi səfirliyi var idi?**

a) Avstriya dövlətinin
b) Böyük Moskva knyazlığının
c) Almaniya dövlətinin

- d) Venesiya respublikasının
- e) Macarıstan krallığının

**94. Azərbaycanın ilk qadın diplomatlarından olan Dəspinə Xatun aşağıdakılardan kimin qadını idi?**

- a) Həsən Azanın
- b) Uzun Həsənin
- c) Qara Yusifin
- d) Şah İsmayılın
- e) Şah Təhmasibin

**95. Səfəvi dövlətinin Venesiyadakı ilk səfirliyi neçə nəfərdən ibarət idi?**

a) 7
b) 9
c) I
I d)
**e)** 1
3
1
b) 5

**96. Venesiyada ilk Səfəvi səfirliyi neçənci ildə açılmışdır?**

c)
d) a) 1601
**e)** 1604
1605
**1604**
**1603**

**97. Diplomata aid aşağıdakı sözlər kimə məxsusdur: ^^Diplomat hər şeydən əvvəl nəzakətli olmalıdır. Nəzakət formaya hörmət tələb edir... Ancaq pic kompaniyada qışqırmaq lazımdır ki, səni eşidən olsun’^**

- a) Bismarka
- b) Taleyrana

**98. Diplomatiya haqqındakı aşağıdakı sözlər kimə məxsusdur: Diplomatiya kimi ikinci elə bir sənət yoxdur ki, burada müvvəfəqiyyət qazanan üçün böyük inad, ciddi intizam lazım olsun, və adam möhkəm xarakterə və müstəqili düşüncəyə malik olsun"**

a) alman hüquqşünası Martensə
b) fransız diplomatı Kolyerə
c) fransız diplomatı Jul Kombona
d) italiyan diplomatı Makiavelliyə
e) alman kansleri Bismarka

**99. Aşağıdakı diplomatiyaya aid sözlər kimə məxsusdur: "Nəzərə almaq lazımdır ki, iki cür mübarizə vardır: birincisi-qanunlar, digəri-qüvvə vasitəsi ilə. Birincisi insanlara xasdır, ikincisi-heyvanlara, lakin bir çox hallarda birincisi kifayət etməyəndə, ikinciyə əl atmaq lazım gəlir"**

a) Makiavelliyə
b) Kolyerə
c) Bismarka
d) Martensə
e) Jul Kombona

**100. Aşağıdakılardan kim diplomatın yeddi xüsusi ketfiyyətə malik olduğunun vacibliyini göstərmişdir: "düzlük, dəqiqlik, arxayınlıq, yumşaq xasiyyət, dözüm, təvazökarlıq, loyallıq"?**

a) Taleyran
b) J. Kombon
c) Q. Nikolson
d) Makiavelli
e) Uzun Həsən

**101. Aşağıdakılardan kim "olduğundan daha artıq görkəmli görünməyə can atmamalı"- kimi prinsipi diplomatın qızıl qaydası adlandırmışdır?**

a) Taleyran
b) Uzun Həsən
c) Qara Uysif

d) Q. Nikolson
e) J. Kombon

**102. “Diplomatın ən zəif cəhəti—kifayət qədər məsuliyyət hissi ilə müdafiə edilməyən şöhrətpərəstlikdir’\ Bu sözlər kimə məxsusdur?**

a) Uzun Həsən
b) Bismark
c) Taleyran
d) J. Kombon
e) Q. Nikolson

**103. Komplimcnt diplomatik sənədin (verbal notanın) hansı hissəsində olur?**

a) sənədin adında
b) sənədin müraciət hissəsində və sonunda
c) sənədin ortasında
d) sənədin aşağısında solda
e) konvertin üstündə

**104. 1918-ci il dekabrın 26 da yaranmış ADR hökümətində xarici işlər naziri vəzifəsini kim tutdu?**

a) H. Yusifbəyli
b) M.Ə. Rəsulzadə
c) F.X. Xoyski
d) C. Hacıbəyli
e) M.Y. Cəfərov

**105. 1918-ci il mayında yaradılmış birinci ADR hökümətində ilk xarici işlər naziri kim olmuşdu?**

a) M.Rəfiyev
b) A.Ağayev
c) M.Ə. Rəsulzadə
d) Ə.M. Topçubaşov
e) M.H. Hacıncki

**106. 14 aprel 1919-cu ildə H. Yusifbəyli başçılığı ilə təsdiq edilmiş ADR yeni hökümətində xarici işlər naziri vəzifəsini kim tutdu?**

a) **A. Şeyxülislamov**
b) **M.H. Hacinski**
c) **M. Məhərrəmov**
d) **M.Y. Cəfərov**
e) **Ə.M. Topçubaşov**

**107. Paris Sülh Konfransında ADR-in sülh nümayəndə heyətinə kim başçılıq edirdi?**

a) **A. Şeyxülislamov**
b) **Ə.M. Topçubaşov**
c) **M.H. Hacinski**
d) **M. Məhərrəmov**
e) **M. Y. Cəfərov**

**108. ADR-in Türkiyədə ilk səfiri kim olmuşdur?**

a) **A. Musayev**
b) **Ə. Haqverdiyev**
c) **Ə. Sadığov**
d) **İ. Əbilov**
e) **Ə. Hüseynov**

**109. ADR-in Konstantinopolda ilk diplomatik nümayəndəsi aşağıdakı yazıçılardan kim olmuşdur?**

a) **M. Ordubadi**
b) **Ə. Haqverdiyev**
c) **C. Məmmədquluzadə**
d) **Y. Vəzirov (Çəmənzəminli)**
e) **N. Nərimanov**

**110. İsveçrədə xarici işlər funksiyasını yerinə yetirən idarə necə adlanır?**

a) **Xarici Əlaqələr və Mərasimlər nazirliyi**
b) **Forin Ofis**

**111. Diplomatik protokolda şəxsi toxunulmazlıq necə adlanır?**

a) sərbəstlik
b) növbəti məzuniyyət
c) azad həyat tərzi
d) immunitet
e) yuridik hüquq

**112. Hələ** SSIH **dövründə 70-ci illərin sonlarında qonşu ölkələrdən hansının Bakıda konsulluğu açılmışdır?**

a) Türkiyənin
b) İranın
c) Gürcüstanın
d) Türkmənistanın
e) Rusiyanın

**113. SSRİ dövründə 70-ci illərin sonlarında ərəb ölkələrindən hansının Bakıda konsulluğu açılmışdır?**

a) Misirin
b) Suriyanın
c) Səudiyyə Ərəbistanının
d) İraqın
e) Küveytin

**114. Yeni səfirlik açılarkən hansı beynəlxalq təşkilatın, ya ölkələrin himnləri səslənir?**

a) dost ölkələrin
b) səfirliyin mənsub olduğu və yerləşdiyi ölkənin himni
c) BMT-nin
d) böyük ölkələrin
e) Vatikanın

**115. Aşağıdakılardan hansı sənəd hökümətin öz nümayəndəsini geri çağırdığını elan etmə vasitəsidir?**

a) nota
b) etimadnamə
c) geri çağırma sənədi
d) memorandum
e) ekzekvatura

**116. Səfir təyin olunduğu ölkəyə avtomobillə gəlirsə XİN-nin protokol şöbəsi nə edir?**

a) **onu qarşılayır**
b) **təyyarə trapında onu salamlayır**
c) **qarşılamağa nümayəndə göndərir**
d) **himn çalınmasını təşkil edir**
e) **qarşılamır**

**117. İşlər müvəkkili aşağıdakılardan hansına rəhbərlik edə bilər?**

a) **ancaq səfirliyə**
b) **ancaq missiyaya**
c) **ancaq konsulluğa**
d) **səfirlik və missiyayanın hər ikisinə**
e) **ancaq baş konsulluğa**

**118. Rəsmi qəbula ilk gələnlər kimlər olmalıdırlar?**

a) **sə**
**fir** b)
c) **müşavir**
d) **rütbəcə kiçiklər**
e) **rütbəcə böyüklər**
**müvəqqəti işlər vəkilləri**

**119. Səfirliyin inzibatı-təsərrüfat şöbəsi nə ilə məşqul olur?**

a) b) **mədəniyyət işləri ilə**
c) **mətbuat işləri ilə**
d) **təmir-tikinti işləri ilə**
e) **ticarət işləri ilə**
**dövlət idarələri ilə işlə**

**120. "Fövqəladə və Səlahiyyətli səfir" dərəcəsinin qıssadılmış şəkli necədir?**

a) b) **böyük diplomat**
c) **baş diplomat**
d) **missiya başçısı**
e) **səfir**
**nümayəndəlik başçısı**

**121. Azərbaycan prezidentinin Fərmanı ilə beynəlxalq diplomatik münasibətlərdə qəbul olunmuş qaydalara müvafiq olaraq Azərbaycan Respublikasının səfirliklərinin əməkdaşları üçün neçə diplomatik ranq (rütbə) təyin olunmuşdur?**

a) 1

6 b)

c)

d) 9

**e)** 13

**122. Fövqəladə və Səlahiyyətli səfir kim tərəfindən təyin olunur?**

**a)** hökümət başçısı tərəfindən

b) xarici işlər naziri tərəfindən

**c)** dövlət başçısı tərəfindən

d) dövlət təhlükəsizlik naziri tərəfindən

**e)** prezidentin İcra Aparatı rəhbəri tərəfindən

**123. Azərbaycan diplomatik nümayəndəliklərində işləyən diplomatik işçilərin ranqları haqqında Azərbaycan Prezidentinin fərmanı hansı ildə verilmişdi?**

a) 1997-c

i ildə b)

**c)** 2000-ci ildə

d) 1998-ci ildə

**e)** I993-CÜ ildə

1992-ci ildə

**124. Səfirliyə Fövqəladə və Səlahiyyətli Nümayəndəni kim təyin edir? a)**

b) xarici işlər naziri

**c)** dövlət başçısı

d) hökümət başçısı

e) xarici ticarət naziri

təhlükəsizlik naziri

**125. Səfirliyə 1-ci dərəcəli müşaviri kim təyin edir?**

**a)** xarici işlər naziri

**c)** hökümət başçısı
**d)** xarici ticarət əlaqələri naziri
**e)** təhlükəsizlik naziri

**126. Vyana şəhərində,beynəlxalq təşkilatlar yanında Azərbaycan Respublikasının Daimi nümayəndəliyi nə vaxt təsis edilmişdir?**

a) 1991-ciildə
b) 1992- ci ildə
c) 1993- cü ildə
d) 1994- cü ildə
**e)** 1995- ciildə

**127. Azərbaycan Respublikasının Milli Məclicinin qərarı ilə neçənci ildə İran İslam Respublikasının Tehran şəhərində ölkəmizin səfirliyi təsis edilmişdir?**

a) 1991-ci ildə
b) 1992- ci ildə
**c)** 1993- cü ildə
d) 1994- cü ildə
**e)** 1995- ci ildə

**128. Neçənci ildə Azərbaycan Respublikasının Türkiyə cümhuriyyətində səfirliyi təsis edilmişdir?**

a) 1995-c iildə
b) 1994-cü ildə
**c)** 1993-cü ildə
d) 1992-ci ildə
**e)** 1991-ci ildə

**129. Çin xalq Respublikasının paytaxtı Pekin şəhərində Azərbaycan Respublikasının səfirliyi neçənci ildə yaradılmışdır?**

a) 1991-ci ildə
b) 1992-ci ildə
c) 1993-cü ildə
d) 1994-cü ildə
e) 1995-ci ildə

**130. Azərbaycan Respublikasının Konsulluq Nizamnaməsi neçənci ildə qəbul olunmuşdur?**

a) 1991-ci ildə
b) 1992-ciildə
e) 1993-cüildə
d) 1994-cü ildə
e) 1995-ciildə

**131. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında Konsulluq Konvensiyası nə vaxt ratifikasiya olunub?**

a) 1991-ci ildə
b) 1992- ci ildə
c) 1993-cüildə
d) 1994-cü ildə
e) 1995-ci ildə

**132. Ştatdan kənar konsulların vəzifələri dövlətin hansı orqanları tərəfindən müəyyənləşdirilir?**

a) nazirlər kabineti tərəfindən
b) prezident apparatı tərəfindən
c) ölkədəki səfirlik tərəfindən
d) təhlükəsizlik nazirliyi tərəfirdən
e) xarici işlər nazirliyi tərəfindən

**133. Aşağıdakılardan hansi Azərbaycan Respublikasının dövlət xidmətində sayılmır?**

a) Baş konsul
b) Ştatda olmayan konsul
c) Ştatda olan konsul
d) Konsul agenti
e) Vitse konsul

**134. Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında Konsulluq Konvensiyası Azərbaycan Milli Məclisində nə vaxt ratifikasiya olunub?**

a) 1992-ciildə
b) 1993-cüildə
c) 1994-cü ildə

d) 1995- ci ildə
e) 1996-cı ildə

**135. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında konsulluq Konvensiyası nə vaxt imzalanıb?**

a) 1992
b) 1993
c) 1994
d) 1995
e) 1996

**136. Böyük Britaniya və Şimali İrlandiya Krallığında, Norveç, İsveç və Danimarka Krallıqlarında Azərbaycanın ilk Fövqəladə və Səlahiyyətli səfiri kim olub?**

a) Elionora Hüseynova
b) Hafiz Paşayev
c) Mahmud Məmmədquliyev
d) Ramiz Abutalıbov
e) Elman Araslı

**137. Diplomatik missiya və ya səfirlik ölkənin hansı əlaqələr orqanlarına daxildir?**

a) Mərkəzi daxili xarici əlaqələr orqanlarına
b) Daxili əlaqələr orqanlarına
c) Xaricdəki xarici əlaqələr orqanlarına
d) Beynəlxalq Təşkilatlar orqanlarına
e) Beynəlxalq Ticarət orqanlarına

**138. Aşağıdakılardan hansi dövlətin Ali Xarici əlaqələr orqanıdır?**

a) Xarici işlər Nazirliyi
b) Dövlət başçısı
c) Səfirlik
d) Milli Məclis
e) Hökümət başçısı

**139. Aşağıdakılardan hansi dövlət aparatı xaricdəki diplomatik missiyalar və səfirliklərlə birbaşa əlaqələr yaradır?**

a) prezident aparatı
b) Xarici İşlər nazirliyi

c) nazirlər kabineti
d) Tənlükosizlik nazirliyi
e) Xarici Ticarət nazirliyi

**140. Bir ölkə başqa ölkənin sətir kimi təklif etdiyi şəxsə aqre- man vermədikdə, həmin ölkə uzun müddət səfir yerini boş saxlayır. Beynəlxalq hüquqda bu məhdudlaşdırıcı amilin diplomatik adı nədir?**

a) ckzekvatura
b) prolonqasiya
c) ratifikasiya
d) paraflaşdırma
e) retorsiya

**141. Ölkəni tərk edən səfir son tədbir kimi nə etməlidir?**

a) bütün səfirlərə təşəkkür etməlidir
b) xarici işlər nazirlii ilə xüdahafızləşməlidir
c) hökümət bahçısına təşəkkümamə təqdim eləməlidir,
d) ölkənin rəsmi şəxsləri və diplomatik korpus üzvləri üçün vidalaşma qəbulu təşkil etməlidir
e) kütləvi infomıasiya vasitələri qarşsında presskonfrans təşkil etməlidir

**142. Nepalda, Marakeşdə yeni təyin olunmuş səfir etimadnaməsini krala təqdim edərəkən neçə dəfə baş əyməlidir.**

a) 1
b) 2
c) 3
d) 4
e) 5

**143.1961-ci il Vyana konvensiyasının neçənci maddəsində diplomatik nümayəndənin şəxsi toxunulmamazlığı qeyd edilmişdir?**

a) 26-cı maddədə
b) 27-ci maddədə
c) 28-ci maddədə
d) 29-cu maddədə
e) 30-cu maddədə

**144. SoHrlikdə qəbul /amanı səfirliyin akkreditə olunduğu ölkənin başçısı həmin qəbulda iştirak edirsə, onun xanımı harda oturmalıdır?**

**a)** so (İrin xanımının sağında
**b)** sodrin xanınınm solunda
**c)** sollrin solunda
**d)** ölko başçısı ilə səfirin xanımı arasında
**e) səfirin sağında**

**145. Böyük səfirliklərdə səfirin akkreditə olunduğu ölkənin xarici siyasət məsələləri ilə aşağıdalo qruplardan (şöbələrdən) hansı məşqıl olur?**

a) daxili siyasət məsələləri üzrə qrupp (şöbə)
b) iqtisadi siyasət məsələləri üzrə qrupp (şöbə)
c) xarici siyasət məsələləri üzrə qrupp (şöbə)
d) kütləvi İnformasiya vasitələri üzrə qrup (şöbə)
c) Səfirliuin katibliyi

**146. Attaşelərdən aşağıdakılardan hansı mətbuat məsələləri ilə məşğul olur?**

a) hərbi attaşe
b) mədəniyyət məsələləri üzrə attaşe
c) elmi məsələləri üzrə attaşe
d) press-attaşe
e) təhsil üzrə attaşe

**147. Aşağıdakılardan hansi diplomatik korpusa aiddir?**

a) diplomatik korpus siyasi institutdur
b) diplomatik korpus siyasi birlikdir
c) diplomatik korpus hüquqi şəxsdir
d) diplomatik korpus ölkədə akkreditə olunmuş xarici diplomatik nümayəndəliklərin məcmuudur
e) diplomatik korpus kollektiv təşkilatdır

**148. «Hətta müharibə elan olunan /amanda da ədəb qaydalarına riayət etmək la/ımdır» cümləsi kimə məxsusdur?**

a) Napoleona
b) fransız diplomatı Jül Kombona
c) Birinci Pyotora

d) Atatürkə
e) Bismarka

**149. Səfirlikdə təşkil olunmuş diplomatik qəbulu birinci tərk etmək nüququ kimə məxsusdur?**

a) ev sahibinə
b) ev sahibinin xanımına
c) ölkə başçısına
d) yaşca on böyük olan səfirə
e) duayenə

**150. Səflrlikdəki qəbul /amanı əyər səfirin xanımı yoxdursa, onu kim əvəz edə bilər?**

a) səfirliyin diplomatik işçilərindən birinin xanımı
b) ölkənin xarici işlər nazirinin xanımı
c) ölkənin ən hörmətli qadın jurnalisti
d) duaycnin xanımı
c) hökümət başçısının xanımı

# CAVABLAR

| | | | | | |
|---|---|---|---|---|---|
| 1. | B. | 31. | C. | 61. | B |
| 2. | D. | 32. | B. | 62. | C |
| 3. | B. | 33. | A. | 63. | C |
| 4. | D. | 34. | C. | 64. | C |
| 5. | D. | 35. | C. | 65. | D |
| 6. | C | 36. | B. | 66. | C |
| 7. | C. | 37. | C. | 67. | C |
| 8. | C. | 38. | B. | 68. | D |
| 9. | C. | 39. | B. | 69. | C |
| 10. | C. | 40. | C. | 70. | E. |
| 11. | C. | 41. | B. | 71. | B |
| 12. | C. | 42. | B. | 72. | B |
| 13. | A. | 43. | A. | 73. | D |
| 14. | B. | 44. | B. | 74. | A |
| 15. | B. | 45. | B. | 75. | D |
| 16. | D | 46. | D. | 76. | D |
| 17. | C. | 47. | B. | 77. | D |
| 18. | B. | 48. | C. | 78. | C |
| 19. | B. | 49. | C. | 79. | C |
| 20. | C. | 50. | E. | 80. | D |
| 21. | C. | 51. | D. | 81. | D |
| ' 22. | B. | 52. | B. | 82. | E. |
| 23. | B. | 53. | B. | 83. | A |
| 24. | D. | 54. | B. | 84. | B |
| 25. | B. | 55. | C. | 85. | B |
| 26. | B | 56. | C. | 86. | D |
| 27. | B. | 57. | C. | 87. | C |
| 28. | B. | 58. | B. | 88. | C |
| 29. | A. | 59. | D. | 89. | D |
| 30. | C. | 60. | D. | 90. | C |

| | | | | | |
|---|---|---|---|---|---|
| 91. | C. | 111. | D. | 131. | D. |
| 92. | D. | 112. | B. | 132. | E. |
| 93. | D. | 113. | D. | 133. | B. |
| 94. | B. | 114. | B. | 134. | C. |
| 95. | C. | 115. | C. | 135. | D. |
| 96. | E. | 116. | E. | 136. | C. |
| 97. | E. | 117. | D. | 137. | C. |
| 98. | C. | 118. | C. | 138. | B. |
| 99. | A. | 119. | C. | 139. | B. |
| 100. | C. | 120. | D. | 140. | E. |
| 101. | D. | 121. | C. | 141. | D. |
| 102. | E. | 122. | C. | 142. | C. |
| 103. | B. | 123. | E. | 143. | D. |
| 104. | C. | 124. | B. | 144. | E. |
| 105. | E. | 125. | A. | 145. | C. |
| 106. | D. | 126. | D. | 146. | D. |
| 107. | B. | 127. | B. | 147. | D. |
| 108. | D. | 128. | D. | 148. | E. |
| 109. | D. | 129. | C. | 149. | C. |
| 110. | D. | 130. | D. | 150. | A. |

# MÜƏLLİF HAQQINDA BİOQRAFİK VƏ BİBLİOQRAFİK MƏLUMAT^

Flacıycv Maqsud İbrahim oğlu (10,X.I935) tənqidçi, ədəbiyyatşünas, diplomat, tərcüməçi, şərqşünas, publisist, şairdir. 1994-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1993), Azərbaycan Ziyalılar Cəmiyyətinin fəxri doktoru (1995), Milli Aviasiya Akademiyasının Hüquqşunaslıq kafedrasının dosenti, Bakı Avrasiya Universitetinin Beynəlxalq münasibətlər kafedrasının protessoru (1998), «Kamil Sənətkar» diplomçusu (1995), «Nailiyyət» (1995), «Qızıl qələm» (1995) jurnalist və «Araz» Ali Ədəbi (2005), akad. Y. Məmmədəliyev adına «Qızıl medal» (2006) mükafatları laureatıdır. Müharibə və əmək veteranıdır (1993).

1935-ci il sentyabrın 10-da Azərbaycanın Qonaqkənd rayonunun (indiki Quba rayonu) Gümür kəndində kolxozçu ailəsində anadan olmuşdur. Kiçik yaşlarında valideynlərini itirdiyindən Qonaqkənd rayonundakı Cimi kənd uşaq evində bö)mmüş, boya-başa çatmış, orta təhsil almışdır (1944-1954). ADU-nun Şərqşünaslıq fakültəsində təhsilini davam etdirmişdir (1954-1959). Müxtəlif illərdə Azərbaycan EA Şərqşünaslıq, Dilçilik, Milli Münasibətlər institutlarında elmi işçi, böyük elmi işçi vəzifələrində çalışmışdır. Əfqanıstan (1962-1964, 1979-1984, 1987-1988) və İran (1966- 1968, 1970-1974) ölkələrində tərcüməçi, tərcüməçilər şöbəsinin müdiri, İrandakı İsfahan metallurgiya zavodunda sovet mütəxəssiləri rəhbərinin Ümumi məsələlər üzrə müavini, Əfqanıstanda- Kabul şəhərindəki Sovet səfirliyinin ikinci katibi,, Ümuməfqanı- stan Siyasi Klubunun yaradıcısı və sədri (1980-1984), Əfqanıstan İctimai Elmlər Akademiyasının Əfqan ədəbiyyatı kafedrasının ustad-professoru (1987-1988) işləmişdir. 50-ei illərin ortalarından

**Materiallar Məfkurə Hacıycvanın toplayıb tərtib etdiyi «Maqsud Hacıyev. Biblioqrafiya (1954-2005). Bakı, Mütərcinı nəş., 2005» kitabından götürülmüş və tərtibçi tərəfindən təkmilləşdirilmişdir.**

publisistik (1954) və tərcüməçilik (1958) fəaliyyətinə başlamışdır. Azərbaycan ədəbiyyatının Yaxın Şərq xalqları ədəbi prosesi ilə əlaqələrinin tanınmış tədqiqatçısıdır. Bir sıra ali məktəblərdə Şərq xalqları ədəbiyyatını tədris etmiş, 20-dən artıq tədris proqramının və dərs vəsaitinin müəllifidir. Eyni zamanda, Cənubi Azərbaycan ədəbiyyatını ardıcıl tətqiq və təbliğlə məşğuldur Əfqanıstanın «Jvəndun», «Milliyyəthaye bəradər», «Dusti» «Həqiqəte inqilabe Saur», «Pamir», «Ənis», İranın «Ettelaat» «Mərdom», «Peyame nevin», «Fulad», «Həftegiye ketab» və s qəzet və jurnallarında elmi və publisistik məqalələri, elmi fəaliyyəti haqqında rəylər çap olunmuşdur. Azərbaycan dövri mətbuatında vaxtaşırı çıxış edir. «Qədim İran mədəniyyəti həftəsi» (Tehran, may, 1972), «Şərq xalqlarının keçmişi və gələcəyi», «Kabul - tarixlər qovşağında» (Kabul, 22-24.mart 1987), «Yazıçı və milli barışıq» (Kabul, aprel, 1988), «Beynəlxalq Tatşunaslar konfransı» (İran, 4-5 dekabr 1999), Dünya Azərbaycanlıların II Qurultayı (mart 2006), Azərbaycan - Türk diasporları rəhbərlərinin Beynəlxalq Forumu (2007) və s. beynəlxalq simpoziumlarda, qurultaylarda, seminarlarda, elmi konfranslarda məruzə və çıxışlarla fəal iştirak etmiş, dəvət olunanlar sırasında olmuşdur. Bir neçə fəxri fərman və tərifnamələrə layiq görülmüşdür. Azərbaycan MEA-nın Veteranı (1995), Beynəlxalq Şərqşünaslar Assosiasiyasmın həqiqi üzvü (1985), Azərbaycan Kitabsevərlər və Ziyalılar Cəmiyyətləri İdarə Heyətlərinin üzvü. Respublika “Azəri” Tat mədəniyyət Mərkəzinin, Azərbaycan EA nəzdində Daimi fars dili Komissiyasının sədri. Milli Məclisin Azsaylı xalqlar Komissiyası sədrinin müavini (1992-1994), AR Təhsil nazirliyinin Bakı Avrasiya Universitetində Magistraturaya qəbul üzrə Daimi Ekspertlər qmpunun eksperti. Beynəlxalq Məhəmməd Füzuli Fondunun Təftiş Komissiyasının üzvüdür. O, Respublika «Bilik» Maarifçilik, Mədəniyyət və İnfonnasiya Mərkəzinin Rəyasət heyətinin üzvü, fəal mühazirəçisidir. «Nicat yolu», «Babadağ», «Diyar», «Mütərcim» və s. qəzet və jurnallarının redaksiya heyətlərinin üzvüdür. Azərbaycan, ms, fars, dəri (əfqan) və tat dillərində yazır.

İranda vo Əfqanıstandakı Sovet səfirliklərinin, bu dövlətlərin Ali məqamlarının tərifnamə və təşəkkürlərini qazanmışdır.

M.Hacıyev Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Respublika Komitəsinin (MİHİRK, sədr mərhum Həmid Abbas, 1995), Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı (AKİVİHİ, sədr Oktay Salamzadə, 2000), Azərbaycan Hava Yollan Dövlət Konserninin, Milli Aviasiya Akademiyasmın kollektiv və rəhbərliyinin (Rektor akad. Arif Paşayev), Azərbaycan Aviasiya işçiləri Həmkarlar İttifaqının Respublika Komitəsinin (AİHİRK, sədr Bəkir Yusifov), «Azərpoçt» Dövlət Müəssisənin (Baş direktor Qəmbər Bəybalayev) və s. Fəxri fənnanları ilə təltif olunmuşdur. Bir neçə il (1993-2005) Lənkaran Dövlət Universitetində dərs demiş, LDU-nin ixtisaslandırılmış müdafiə Şurasının və Elmi Şuranın üzvü olmuşdur. Milli Aviasiya Akademiyasında və Bakı Avrasiya Universitetində «Diplomatik xidmətin əsaslan», «Diplomatik protokol», «Diplomatik yazışma», «Diplomatik etiket və nitq», «Diplomatik portret», «Beynəlxalq münasibətlər tarixi», «Beynəlxalq müqavilələr», «Qafqaz beynəlxalq münasibətlərdə», «Şərq ölkələrinin xarici siyasəti», «Azərbaycan Respublikasının xarici siyasəti» və s. fənnlərindən dərs deyir, bu fənlərə dair tədris proqramları yazmışdır.

Dörd övladı, yeddi nəvəsi, bir nəticəsi vardır.

***Əsərləri:***

1. Tat dilinin Qonaqkənd ləhcəsi. Bakı, «Elm», 1971, 160 səh., 500 nüsxə.

2. Rusca-farsca, farsca-nısca danışıq kitabı. Rusca-farsca, fasrca-rusca lüğət. İranın tarixi-etnoqrafık oçerki. İran, İsfahan, 1973, 154 səh., 2000 nüsxə (fars və ms dillərində, şərikli).

3. Rusca-farsca, farsca-rusca danışıq kitabı. Rusca-farsca, farsca-rusca lüğət. İran, İsfahan, 1974, 168 səh., 3000 nüsxə (fars və rus dillərində, şərikli).

4. Qonşu diüarda (İran xatirələri). Bakı, «Azərnəşr», 1979, 164 səh.

5. Tat dili (3-cü sinif üçün). Dərslik. Bakı, «Maarif», 1995, 98 səh., 5000 nüsxə (şərikli).
6. Əfqan poeziyasında Lenin və Oktyabr mövzusu. Kabul, 1987, 46 səh., 5000 nüsxə (Dəri dilində).
7. Əfqan ədəbiyatında milli barışıq siyasətinin inikası. Kabul, 1987, 40 səh., 5000 nüsxə (Dəri dilində).
8. Əfqan ədəbiyyatında milli barışıq mövzusu. Kabul, 1988, 85 səh., 300 nüsxə (Rus dilində).
9. Ədəbiyyat və sülh mövzusu. Kabul, 1988, 205 səh., 10000 nüsxə (Dəri dilində).
10. Əfqanıstan görüşləri. Bakı, Yazıçı, 1989, 184 səh. 10000 nüxsə.
11. Azərbaycan Sovet Ensiklopediyası. Ill-cild. Bakı, 1980 (əsas müəlliflərdən)
12. Azərbaycan Sovet Ensiklopediyası. Vll-cild. Bakı, 1983 (əsas müəlliflərdən)
13. Azərbaycan Sovet Ensiklopediyası. IX-cild. Bakı, 1986 (əsas müəlliflərdən)
14. Yuxuyozma, istixarə, bürclər, talelər (Tərtib, müqəddimə və şərhlər). Bakı, 1993, 140 səh., 10 000 nüsxə.
15. Tale duaları, bəxt ulduzları (ön söz, şərhlər, redaktə). Bakı, «Azərnəşr», 1994,144 səh., 10 000 nüsxə.
16. Bahar (şeirlər). Bakı, «Azəməşr», 1994, 94 səh., 1000 nüsxə (Tat dilində).
17. Toy-düyün xəzinəmizdən. Azərbaycan tatlarının tarixi-etnoqrafik oçerki. Bakı, “Bilik”, 1995, 160 səh., 1000 nüsxə.
18. Azərbaycan tatlarının dili (Fonetika, leksika, morfologiya, sintaksis). Bakı, “Təfəkkür”, 1995, 220 səh., 300 nüsxə.
19. Dünyam mənim. Şeirlər və poemalar. Bakı, “Azəməşr”, 1996, 108 səh., 500 nüsxə.
20. İncilər mücrüsü (Ön söz, ixtisar redaktoru, şərhlər). Bakı, «Azəməşr», 1997, 80 səh., 1000 nüsxə.
21. İnanclar, inamlar. Bakı, “Gənclik”, 1996, 98 səh., 2000 nüsxə.
22. İman çırağı, tale duaları, bürclər, fallar. Bakı, «Zaman»

nəşr., 2000, 264səh,, 500 nüsxə.

23. İblislər yığnağı. Povest və hekayələr. Bakı, “Gənclik”, 1997, 78 səh., 2000 nüsxə (Bir hekayə həm də tat dilində).

24. Günəşlə birgə (şeirlər), Bakı, “Azərnəşr”, 1997, 78 səh., 2000 nüsxə (Tat dilində).

25. Birlik nəğməsi. Şeirlər və poemalar . Bakı, “Azərnəşr”, 1997, 164 səh., 2000 nüsxə.

26. Gümür yaylağı. Şeirlər və poemalar. Bakı, «Zaman» nəşriyyatı, 1998,98 səh., 2000 nüsxə.

27. Cəngi çalın! Şeirlər, Bakı, “Mütərcim”, 2001, 176 səh., 500 nüsxə,

28. Azərbaycan abidələri İsfahanda. Azərbaycanlıların bəzi adətləri haqqında. Bakı, “Mütərcim”, 2002, 60 səh., şəkilli, 300 nüsxə (Rus dilində)

29. Zamanın özü, zamanın sözü. 1-ci kitab. Publisistik məqalələr. Bakı, “Mütərcim”, 2002, 320 səh., 300 nüsxə.

30. Zamanın özü, zamanın sözü. 2-ci kitab. Elmi məqalələr. Bakı, “Mütərcim”, 2003, 338 səh., 300 nüsxə.

31. Zamanın özü, zamanın sözü. 3-cü kitab. İran: Ədəbi etüd- lər. Əfqanıstan: Gündəlikdən səhifələr. Bakı, “Mütərcim”, 2003, 312 səh., 500 nüsxə.

32. Sevgi nəğmələri. Şerlər. 1-ci kitab. Bakı, “Mütərcim”, 2004, 316 səh., 500 nüsxə.

33. Sevgi nəğmələri. Şerlər və poemalar. 2-ci kitab. Bakı, “Mütərcim”, 2004, 352 səh., 500 nüsxə.

34. Yetmiş ilin yarpaqları. Bakı, “Mütərcim”, 2005, 312 səh., şəkilli, 500 nüsxə.

35. Biblioqrafiya. Bakı, “Mütərcim”, 2005, 160 səh., 500 nüsxə.

36. Diplomatiya: Ensiklopedik lüğət. Bakı, “Diplomat”, 2005, 605 səh. (həmmüəlliflərlə).

37. Ver əlini, qardaş!. Şerlər və poema. Bakı, “Mütərcim”, 2006, 106 səh., 500 nüsxə (Tat dilində; Azərbaycan və Tat dilində müqəddimə ilə).

38. Bu mənim həyatımdır. Hekayələr, povestlər, tamaşalar.

Bakı, "Mütərcim", 2006, 320 səh., 500 nüsxə.

39. Kəlamnainə. Bakı, "Mütərcim", 2006, 68 səh., 500 nüsxə.

40. Diplomatik protokol və xarici əlaqələr. Bakı, "Mütərcim", 2007, 640 səh., 500 nüsxə.

***Tərcümələri:***

1. Ç.Çaplin. Səhnə işıqlan (roman). Bakı, "Gənclik", 1973, 120 səh., 20 000 nüsxə (şərikli).

2. Məzəli əhvalatlar. Birinci çapı. Bakı, "Yazıçı", 1981, 168 səh., 50 000 nüsxə (şərikli).

3. Məzəli əhvalatlar. İkinci çapı. Bakı, "Yazıçı", 1983, 192 səh., 40 000 nüsxə (şərikli).

4. Çilan və şeytan. Əfqan nağılları. Bakı, "Gənclik", 48 səh., 50000 nüsxə.

5. Rabindranat Taqor. Əbədiyyət nəğmələri. Mənsur şerlər və hekayələr. Bakı, "Mütərcim", 2003, 92 səh., 300 nüsxə.

6. Avropa Milli Azlıqlar haqqında Çərçivə Konvensiyası. Bakı, 2005, 80 səh., 500 nüsxə (tat dilində).

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## *Azərbaycan dilində*


**1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı, 1997 və sonrakı cildlər.**

**2. Abdullazadə Fatma, Ələsgərov Fuad, Əlirzayev Əli, Əsədov Əli, Həsənov Əli, Xəlilov Səlahəddin, Qafarov Tahir, Mahmudov Yaqub, Rəhimov Mail. Azərbaycan Respublikası 1991-2001. Redaktor fəlsəfə elmləri dokturu, prof Ramiz Mehtiyev Bakı, 2002.**

**3. ATƏT-in 18 noyabr Sammitində Azərbaycan prezidenti Heydər Əliyevin nitqi. "Azərbaycan" qəz., 19 noyabr 1999.**

**4. Azərbaycan prezidenti Heydər Əliyevin Vaşinqton Universitetinin Xüsusi Tədqiqatlar inistitutunda nitqi. "Azərbaycan" qəz., 19 fevral 2000.**

**5. Azərbaycan prezidenti Heydər Əliyevin "Qafqaz və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu, yaxud böyük gediş" Davos iqtisadi forumu Sessiyasında çıxış. "Xalq" qəz., 2 mart 2000.**

**6. Azərbaycan Respublikası və Avropa Şurası arasında hüquqi əməkdaşlıq. "Azərbaycan" qəz., 21 dekabr 1999.**

**7. Azərbaycan prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri. "Respublika" qəz., 8 sentyabr 2000.**

**S.Azərbaycan prezidenti H. Əliyevin respublikanın Xarici İşlər Nazirliyi Kollektivi ilə görüşü. "Respublika" qəz., 11 mart, 1998.**

**9. Əliyev İ.H. Azərbaycan ölkəmizin milli maraqlarını qoruyan tam müstəqil xarici siyasət aparır. "Respublika" qəz., 15 avqust 2006.**

**10. Məmmədyarov E. Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsində çıxış. "Azərbaycan"qəz., 15 avqust 2006.**

**11. Quliyev İ.O. H. Əliyev Azərbaycan dövlətçiliyinin banisidir. MAA "Elmi məcmuələr", cild 6, № 2, 2006.**

**12. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. Bakı. 1996.**

**13. Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997.**

**14. İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı, 1958.**

**15. Həsənov Ə. Azərbaycanın xarici siyasətirAvropa dövlətləri və ABŞ (1991-1996). Bakı, 1998.**

**16. Həsənov Ə. Azərbaycan və ATƏT. Bakı, 1997.**

**17. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. "Azərbaycan" nəşiryyatı, Bakı, 2005.**

**18. Sadixov F. Diplomatiya və diplomatik xidmət. Bakı, 1993.**

19. Hacıyev M.İ.Əfqanıstan görüşləri. Bakı, 1989.

20. Hacıyev M. İ. N.Nərimanov və Rusiya-Əfqanıstan diplomatik əlaqələri (Diplomatın gündəliyindən). Akad. A.M. Paşayevin 70 illiyinə həsr olunmuş MAA "Elmi Məcmuələr", cild 6, № 1,2004.

21. Hacıyev M.İ. Heydər Əliyevin Azərbaycan diplomatiyasında rolu və yeri. "Dünyaya baxış" jur., ADK nəşri, № 1-2, 2004.

22. Hacıyev M.İ. Heydər Əliyev diplomatiyası və dünya azərbaycanlılarının həmrəyliyi. MAA "Elmi Məcmuələr", cild 6, № 2,2004.

23. Hacıyev M.İ. Yeni mərhələdə Azərbaycan diplomatiyasının əsas istiqamətləri və vəzifələri. MAA "Elmi Məcmuələr", cild 6, № 4, 2004.

24. Hacıyev M.İ. Heydət Əliyev siyasi kursunun layiqli davamçısı. Hacıyev Maqsud. "Yetmiş ilin yarpaqları " kitabında. Bakı, Mütərcim 2005. (Rus dilində).

25. Hacıyev M.İ. Azərbaycanın böyük vətən müharibəsində iştirakı. MAA "Elmi Məcmuələr", cild 7, № 1, 2005.

26. Hacıyev M.İ. Tədris prosesində yeni məşqələ forması ("Diplomatik protokol" fənnindən "Diplomatik qəbullar" mövzusunda "Diplomatik oyun" məşqələsinin təşkili). MAA "Elmi Məcmuələr", cild 7, № 2, 2005.

27. Hacıyev M.İ. Prezident İlham Əliyev və Azərbaycanın xarici siyasətinin konseptual məsələləri. MAA "Elmi Məcmuələr", cild 8, № 3,2006.

28. Hacıyev M.İ. Azərbaycan Demokratik Respublikasının (ADR) diplomatiyası və ilk diplomatları. MAA "Elmi Məcmuələr", cild 8, № 2,2006.

29. Hacıyev M.İ. Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə əlaqələri ən yeni mərhələdə. "Dünyaya baxış" jurn., № 3, 2006.

30. Hacıyev M.İ. Diplomatik protokol (proqram). Bakı, 2005.

31. Hacıyev M.İ. Beynəlxalq münasibətlər tarixi (proqram). Bakı, 2005.

32. Hacıyev M.İ. Azərbaycanın xarici siyasəti (proqram). Bakı, 2005.

33. Hacıyev M.İ. Diplomatik yazışma (proqram). Bakı, 2005.

34. Hacıyev M.İ. Beynəlxalq münasibətlər nəzəriyyəsi (proqram). Bakı, 2005.

35. Hacıyev M.İ. Diplomatik portret (proqram). Bakı, 2005.

36. Hacıyev M.İ. Beynəlxalq müqavilələr forması (proqram). Bakı, 2005.

37. Hacıyev M.İ. Diplomatik etiket və nitq (proqram). Bakı, 2005.

38. Hüseynov L.H. Beynəlxalq hüquq. Bakı, 2000.

39. Diplomatiya: Ensiklopedik lüqət. "Diplomatiya" nəşr., Bakı, 2005.

40. "Diplomatik əlaqələr haqqında" Vyana (1961-ci İl) Konvensiyası.

41. "Konsulluq əlaqələri haqqında" Vyana (1963-cü il) Konvensiyası.

42. Şükürov K. Azərbaycan tarixi. III hissə. Bakı, Şirvannəşr, 1998.

43. "Azərbaycan" qəz., 1993-2007-ci illərin müxtəlif nömrələrindəki rəsmi materiallar.

44. "Xalq qəzeti" - 1993 -2007-ci illərin müxtəlif nömrələrindəki rəsmi

**materiallar.**

**45. “Respublika’ qəz., 1993-2007-ci illərin müxtəlif nömrələrindəki rəsmi materiallar.**

### *Rus (iiUndB*

46. **Дж. Вуд и Ж. Серре, Дипломатический церемониал и дипломатический протокол, М., 1976.**

47. **Дипломатический словарь, т. I. М., 1983,**

48. **Дипломатический словарь, т. II, М., 1985.**

49. **Дипломатический словарь, т. III, М., 1986.**

50. **Зорин В.А. Основы дипломатической службы. МО, М., 1977.**

51. **Жюль Комбон. Дипломат. М., 1976,**

52. **Никифоров Д.С, Борунков А.Ф. Дипломатический протокол. Принципы, норма, практика. М., 1989.**

53. **Черняков Ю. Развитие дипломатических служб и современность. МЖ,№8, 1986.**

54. **Ведомства иностранных дел зарубежных государств. Справочник, М., 1982.**

55. **Ковалев А.Н. Азбука дипломатии. М., 1984.**

56. **Бережков В.М. Страницы дипломатической истории. МО, М., 1982.**

57. **Молочков Ф.Ф. Дипломатический протокол и дипломатическая практика. М., 1979.**

58. **Садыхов Ф. Дипломатическая практика и международный протокол. Баку, 1993.**

59. **Мамедализаде Ч. Основы дипломатической службы и дипломатического протокола. История-нормы-теория-практика. Баку, 2001.**

60. **Садыхов Ф. Дипломатическая служба Азербайджана: Политические приоритеты и этапы формирования. Баку, 2004.**

61. **Сатоу Э. Руководство по дипломатической практике. М., 1961.**

62. **Демин Ю.К. Статус дипломатических представительств и их персонала. Международные отношения. М., 1995.**

63. **Саидровский К.К. Право внешних сношений. Киев, 1986.**

64. **Алексеев С.С. Структура советского права. М.,1975.**

65. **Борунков А.Ф. Дипломатический протокол в России. М., 1999.**

66. **Цыганков П.А. Международные отношения. М., 1996.**

67. **Селянинов О.П. Тетрадь дипломатической службы государств. М., 1998.**

68. **Попов В.И. Современная дипломатия. М., 2000.**

69. **Джерард Ниренберг. Маэстро перегаворов. Минск. 1997.**

70. Махмудов Я. Взоимоотиошеиия государств Аккоюнлу и Сефеви- дов с западноевропейскими странами. Из-во БГУ., 1991.
71. Дебудур Л. Дипломатическая история Европы. Растов на-- Дону.!995.
72. Морозов Г.И. Международные организации. Некоторые теоретические вопросы. М. 1974.
73. Селянинов О.П. 11ра)сгика дипломатических сношений государств. М., 1999.
74. Сандровский К.К. Право внешних сношений. Киев. 1997.
75. Венская Конвенция о праве международных договоров. Комментарий. М., 1997.
76. Талалаев А.Н. Право международных договоров: действие и применение договоров. М., 1985.
77. Талалаев А.Н. Право международных договоров: общие вопросы. М., 1980.
78. Лукащук И.И. Форма международных договоров. М., 2002.
79. Евитов В.И. Многосторонние договора в современном международном праве. Киев. 1979.
80. Эфендиев О. Азербайджанское государство Сефевидов в XVI веке. Баку, 1996.
81. Шукюров И. Дипломатия мира. Баку, 1997.
82. История дипломатии Т.З, М.-Л., 1945.
83. Латинско-русский словарь к источникам римского права. М., 1997.

## QEYDLƏR ÜÇÜN

## MÜNDƏRİCAT

*MÜƏLLİFDƏN*............................................................................... 3

**I BÖLMƏ**
DİPLOMATİK PROTOKOL
VƏ AZƏRBAYCANIN MÜASİR XARİCİ SİYASƏTİ..................... 9

**II BÖLMƏ**
XARİCDƏKİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİN
VƏZİFƏLƏRİ, FƏALİYYƏTİ VƏ FUNKSİYALARI ..............37

**III BÖLMƏ**
DİPLOMATİK FƏALİYYƏT VƏ BEYNƏLXALQ
MÜQAVİLƏLƏRİN HAZIRLANMASI..........................................105

**IV BÖLMƏ**
DİPLOMATİK FƏALİYƏT VƏ BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN NƏZƏRİ ƏSASLARI ..................................146

**V BÖLMƏ**
BƏZİ DİPLOMATİK TERMİNLƏRİN İZAHI ................................199

**VI BÖLMƏ**
AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ
VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR..................................................329

**VII BÖLMƏ**
AZƏRBAYCAN VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR................449

**VIII BÖLMƏ**
AZƏRBAYCAN DÖVLƏTİNİN MƏŞHUR DİPLOMATLARI ....496

***SON SÖZ (prof. iQuhyev)*** .................................................................537

*ƏLAVƏLƏR*

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT HİMNİ HAQQINDA ƏSASNAMƏ** ........ **541**

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GERBİ HAQQINDA ƏSASNAMƏ** ........ **545**

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT BAYRAĞI HAQQINDA ƏSASNAMƏ** ........ **547**

**AZƏRBAYCAN RESPUBLİKASININ RƏSMİ BAYRAMLARI** ........ **550**

**"DİPLOMATİK ƏLAQƏLƏR HAQQINDA" VYANA KONVENSİYASİNA QOŞULMAQ BARƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI** ........ **551**

**DİPLOMATİK XİDMƏT HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU** ........ **552**

**BEYNƏLXALQ GÜNLƏR VƏ HƏFTƏLƏR** ........ **566**

**AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK ƏLAQƏLƏR QURDUĞU DÖVLƏTLƏRİN SİYAHISI** ........ **567**

**AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK ƏLAQƏLƏRDƏ OLDUĞU DÖVLƏTLƏRİN MİLLİ BAYRAMLARI** ........ **572**

**BMT-nin BAŞ KATİBLƏRİ** ........ **578**

**ÖLKƏLƏRİN MƏNSUBİYYƏTİNİ XARAKTERİZƏ EDƏN TANINMA İŞARƏLƏRİ** ........ **579**

**BİR SIRA ÖLKƏLƏRDƏ TƏTBİQ OLUNAN BƏZİ UZUNLUQ, SAHƏ, ÇƏKİ VƏ HƏCM VAHİDLƏRİ** ........ **581**

"DİPLOMATİK PROTOKOL" FƏNNİNDƏN TESTLƏR ........ 592

***MÜƏLLİF HAQQINDA BİOQRAFİK VƏ BİBLİOQRAFİK MƏLUMAT*** ........ **618**

***İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT*** ........ **624**

**Максуд Ибрагим оглу Гаджиев**

**ДИПЛОМАТИЧЕСКИЙ ПРОТОКОЛ
И МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ**

***(на азербайджанском языке)***

**Баку - Мутарджим - 2007**

**Maqsud Ibrahim oglu Qadjiyev**

**DIPLOMATIC PROTOCOL
And EXTERNAL RELATIONS**

***(on Azerbaijani language)***

**Baku - Mutarjim - 2007**

***Nəşriyyatın direktoru*** **-** Telman Cəfərov
***Redaktor*** **-** Əliş Ağamirzəyev
***Texniki redaktor*** **-** Mətanət Qaraxanlı

Çapa imzalanıb: 18.08.07.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 39,5 ç.v. Tiraj: 500. Sifariş № 79.
Qiyməti müqavilə ilə.

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: ***mutarjim@mail. ru***